İSSN 2224-0829

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ

# ELMİ ƏSƏRLƏR

İCTİMAİ ELMLƏR SERİYASI

# SCIENTIFIC WORKS

SERIES OF SOCIAL SCIENCES

# НАУЧНЫЕ ТРУДЫ

СЕРИЯ СОЦИАЛЬНЫХ НАУК

№ 6(87)

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2017, № 6 (87)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2017, № 6 (87)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2017, № 6 (87)**

# TARİX

**ZƏHMƏT ŞAHVERDİYEV**
**ZAMİN ƏLİYEV**
*Naxçıvan Dövlət Universiteti*
*zaminalisoy@gmail.com*

**UOT: 94(479.24)**

## "ŞƏRQİ ERMƏNİSTAN" MİFİ VƏ ERMƏNİLƏRİN UYDURMA ƏRAZİ İDDİALARI

**Açar sözlər:** *Adurbadaqan, Ərəb Xilafəti, Şərqi Ermənistan, Sasanilər dövləti*
**Key Words:** *Adurbadagan, Arabian Caliphate, East Armenia, Sasanian state*
**Ключевеы слова:** *Адурбадаган, Арабский халифат, Восточная Армения, Сасанидское государство*

Tarixinin bütün mərhələlərində ermənilər Azərbaycan torpaqlarına ərazi iddiaları irəli sürüblər. Tarixdə mövcud olmayan xəyali "Böyük Ermənistan" iddiaları ilə Qədim türk yurdlarını (Şərqi Anadolu, Qərbi Azərbaycan) öz sərsəm xülyalarına alət etmişlər.

Ermənilər öz ərazi iddialarını müxtəlif uydurma terminlərlə ört-basdır etmişlər Osmanlı Türkiyəsində Şərqi Anadoluya ərazi iddiaları üçün "Qərbi və Cənubi Ermənistan" anlayışından istifadə edən ermənilər burada iflasa uğrayandan, ağır məğlubiyyətə düçar olandan sonra "üzlərini Qafqaza, xüsusən Azərbaycan torpaqları hesabına "Şərqi Ermənistan" ("Rusiya və ya Qafqaz Ermənistanı") "yaratmağa" girişdilər. AMEA-nın İnsan Hüquqları İnstitutunun Erməni tədqiqatları və milli təhlükəsizlik şöbəsinin əməkdaşı Rizvan Qurbanov "Qondarma Şərqi Ermənistan" termini Azərbaycana qarşı erməni ərazi iddiallarının "əsaslandırılması" vasitəsi kimi" məqaləsində göstərir ki, ermənilər "Şərqi Ermənistan" terminindən Azərbaycan və Türkiyəyə qarşı ərazi iddiallarının ideoloji əsaslandırılması vasitəsi kimi istifadə edirlər. "250-300 il öncə uydurulan "Şərqi Ermənistan" termini Türkiyənin Anadoluda və Azərbaycanın Qafqazda olan ərazilərinin guya əsil qədim adı kimi təqdim edilir. Erməni millətçiləri mənbələri saxtalaşdıraraq "Şərqi Ermənistan" anlamını bir ideoloji silaha çevirib, türk-müsəlman əhalisinə qarşı törədilən etnik təmizləmələrə və cinayətlərə haqq qazandırmağa, həmçinin Ermənistanın Azərbaycan və Türkiyəyə qarşı irəli sürdüyü ərazi iddialarını əsaslandırmağa çalışırlar" [6]. Bizim fikrimizcə, ermənilərin uydurduqları "Şərqi Ermənistan" xəyalı "Böyük Ermənistan"ın tərkib hissəsi olub" heç vaxt mövcud olmayan daha çox "İran Ermənistanını əhatə edir". Onlar Türkiyədəki ərazi iddiallarını uyduran "Qərbi və Cənubi Ermənistan", "Kilikiya Ermənistanı" anlayışları ilə ifadə edirlər. "Erməni siyasətçilərinin kütləvi informasiya vasitələri səhifələrində əksini tapmış, bir çox erməni alimlərinin çıxışlarında tez-tez "Şərqi Ermənistan" terminini eşitmək olar. Bu termin hazırkı Ermənistan Respublikası (Qərbi Azərbaycan, İrəvan xanlığı ərazisində yaradılan-H.T) və əzəli, qədim Azərbaycan torpaqları Naxçıvan, Qarabağ və digər rayonların ərazilərini bildirmək üçün işlədilir. Belə təlqin edilir ki, guya 20 hissədən, o cümlədən "Şərqi Ermənistandan-yalnız Türkiyə ərazilərinin deyil, Azərbaycanın da böyük ərazilərinin daxil olduğu ərazilərdən ibarət "Böyük Ermənistan" mövcud olmuşdur. Lakin "Şərqi Ermənistan" Avropa və Rusiya imperiyaları tərəfindən ermənilərin Osmanlı Türkiyəsinə Qacar İran imperiyasına və Azərbaycan İrəvan xanlığına qarşı ərazi iddialarını əsaslandırmaq üçün tətbiq edilən şərti (uydurma) termindir. Buna görə də erməni və digər mənbələrin guya erkən orta əsrlərdə mövcud olması haqqında fikirlər tamamilə yalnış və əsassızdır" [6]. Tamamilə doğrudur, biz müəllifin fikirlərilə tam şərikik.

Ermənilərin saxtakarlıq və əsassız olaraq bütün dünyaya vikipedia vasitəsilə sırıdıqları "Şərqi Ermənistan" termini guya IV əsrin sonlarında mövcud olmayan Erməni çarlığı Roma imperiyası və Sasani İran imperiyası arasında mübarizə meydanına çevrildiyi zaman ilk dəfə

işlənmişdir. Guya Ermənistan bu zaman yəni 387-ci ildə Şərqi və Qərbi Ermənistana bölünmüşdür. 428-ci ildə bunlar ləğv olunaraq "Şərqi Ermənistan" "Fars Ermənistanı" adlanmış və fars mərzbanlığı olmuşdur" [7]. Halbuki Azərbaycan tarixçiləri qədim mənbələrə əsaslanaraq Ermənistanın heç vaxt Qafqazda mövcud olmadığını sübüt etmişlər. 1994-cü ildə Z.M.Bünyadov və Y.B.Yusifovun redaktorluğu ilə nəşr olunmuş "Azərbaycan tarixi (ən qədim zamanlardan XX əsrədək) əsərində ermənilərin Azərbaycana əsassız ərazi iddialarının tarixinin daha qədim olduğunu sübut edirlər "ilk dəfə Strabon Armeniyanın albanlara (və Azərbaycana) qarşı təcavüzünü yad edir. Strabonun məlumatına görə, Şərqi Anadoluda Van gölü yanında kiçik bir ərazi Armeniya adlanırdı" [2, s. 152]. Armeniya qonşu ölkələrin ərazilərini müvəqqəti işğal etmiş, bundan sonra isə həmin əraziləri öz əraziləri hesab etmişdir. "Lakin özgə torpaqlarına iddia ənənəsi və tarixi təxribatçılıq bu dövrdən başlayaraq öz mövqeyini möhkəmləndirmiş və Böyük Armeniya coğrafi anlayışını yaradaraq onu Xəzər dənizinə qədərki Azərbaycan torpaqlarına tətbiq etmişdir" [1, s. 153].

Azərbaycan tarixçiləri haqlı olaraq bu yalnış iddiaların antik tarixşünaslığına yol açdığını, hətta Strabonun ziddiyyətli məlumatlarında müəyyən yer tutduğunu da göstərirlər. "Bunun da müəyyən tarixi səbəbi olmamış deyildi. Strabon erməni zadəganlarının təxribatçı ənənəsinə və torpaq iddiasına əsaslanan məlumatlardan geniş istifadə etmişdi" [1, s. 154].

Armeniya Roma imperiyası tərəfindən işğal olunaraq tarix səhnəsindən çıxdı. "Buna baxmayaraq erməni zadəganlarının torpaq iddiası ənənə şəklini aldı və ... bir müddət sonra Strabonun əsərinə yol tapdı. Özgə torpaqlarına, o cümlədən Albaniya ərazisinə iddia tədrici Armeniyaya məxsus torpaqlar kimi qələmə verilməyə başladı və bu daha qabarıq şəkildə bəzi erkən orta əsr erməni qaynaqlarında (Favst Buzand, "Erməni coğrafiyası) və ona sövq edən müasir erməni tarixşünaslığında (S.T.Yeremyan, K.V.Trever) öz əksini tapdı... Tarix boyu müvafiq siyasi şərait yaranan zaman erməni əyanları və hakim sinif nümayəndələri qonşulara torpaq iddiasına əl ataraq xalqları qarşı-qarşıya qoymuş, nahaq qan tökülməsinə bais olmuşlar" [1, s 154].

Tarixi faktlar sübut edir ki, ümumiyyətlə emənilərin uydurduqları "Şərqi Ermənistan" adlı heç bir dövlət qurumu mövcud olmamışdır. Ermənilər hələ orta əsrlərdən indiyədək tarixi işğalçılığı "qanuniləşdirərək", öz ərazi iddialarını tarixi təhriflərlə pərdələyərək və Azərbaycan torpaqlarını "Ön Qafqazda möhkəm ərazi və iqtisadi-siyasi dayağı olmayan Armeniyanın payına çıxmaq məqsədini güdürdü və indi də güdür. Adı çəkilən vilayətlər Azərbaycan dövlətlərinə mənsub olmuş, "Şərqi Armeniya" adlanan (erməni uydurması) ərazinin əhalisi, həmçinin etnik mənsubiyyətinə görə bu dövlət qurumuna (Azərbaycan) daxil olmuşdur" [5, s. 17].

Bu gün ermənilər Herodot, Strabon, K.Ptolomey, Korneli Tatsit, İosif Flavi, Plutarx, Arrian Marseli və başqalarının, hətta erməni tarixçiləri hesab etdikləri Favs Buzand, M.Xornelinin belə yazılarına məhəl qoymadan uydurduqları "böyük Ermənistanın" dövründəki tarixi proseslərlə razılaşmır, yeni-yeni "tarix " uydururlar. [4, s, 77]

Göründüyü kimi, "qədim tarixi olan" ermənilərin Azərbaycana ərazi iddialarının və "Şərqi Ermənistan" terminin uydurma və əsassız olduğu göz qabağındadır.

Qədim dünya tarixinə dair ensiklopediyada ermənipərəst tarixçi P.Petrumebeki heç bir mənbəyə əsaslanmadan "Şərqi Ermənistan" terminini işlətmiş və onu Türkiyədə Van gölü sahillərilə məhdudlaşdırılmışdır. Erməni tarixçiləri isə onu Cənubi Qafqazın mərkəzinədək "genişləndirmişlər" [3, s 125]. Heç bir tarixi mənbəyə istinad edilməyən "Şərqi Ermənistan"ın bu cür şişirdilməsi şübhəsiz erməni tarixi təxribatçılığının və saxtakarlığının nəticəsi idi.

VII-VIII əsrlərdə ərəblərin işğalı və xilafətin yaranması ilə qondarma "Ərminiyə" inzibati bölgüsü meydana gəldi. "Ərəb işğalının ilk illərindən ərəblərin "Adurbadaqan" adlandırdıqları Azərbaycan və eləcə də Ermənistan, Şərqi Gürcüstan (Kartli) və Əlcəzirə ilə birlikdə xilafətin beş vilayətlərindən birinin tərkib hissəsi olan Albaniya məhz bu dövrdən başlayaraq xəlifə Əbdülməlik ibn Mərvanın keçirdiyi yeni inzibati islahata əsasən, onun siyasi müstəqilliyini əldən vermiş Ermənistan, Şərqi Gürcüstan və Dağıstan torpaqlarının bir hissəsi ilə birləşdirilərək qondarma "Ərminiyə" inzibati bölgüsünə aid edilir" [2, s. 126] . Əslində "Ərminiyə" ərəblərə Bizans inzibati bölgüsündən miras qalmışdı. Azərbaycan tarixçiləri bu adın meydana çıxmasını ərəblərin Bizansa qarşı ideoloji mübarizə aparan erməni din xadimlərinə xilafətin iltifat əlaməti hesab edirlər. Belə ki, ərəblər Albaniyaya qarşı qərəzli siyasət yürüdərək onu bir dövlət kimi məhv etdi, dini rəhbərliyi isə

erməni katolikosuna həvalə etdi. "Yeni ərəb inzibati-bölgü sisteminə görə Cənubi Qafqazda ərəb işğal dairəsinə daxil edilmiş bütün torpaqları özündə birləşdirən "Ərminiyə" ərazisi vaxtilə Bizans imperatoru Yustinianın (527-565) "Qərbi Ermənistan"da həyata keçirdiyi inzibati islahata uyğun olaraq ənənəvi şəkildə I-IV Ərminiyə adı ilə dörd hissəyə bölünmüşdü.

I və II Ərminiyə şimalda Tiflis və Dərbənddən cənubda Araz çayınadək, qərbdə Kiçik Qafqaz dağlarından şərqdə Xəzər dənizinədək olan sahəni əhatə edir və əsasən ərəblərin Aran adlandırdığı qədim Albaniya torpaqlarını özündə birləşdirirdi. Ərəb Arran vilayətinin tərkibinə Albaniyanın özündən başqa 644-cü ildən müsəlmanların tabeliyində olan Tiflis və onun çivarları, eləcə də dağlıların yaşadıqları ərazi də daxil edilmişdi. Ermənistan özü isə III-IV Ərminiyə bölgüsünə aid idi" [3, s. 126].

Göründüyü kimi, "Şərqi Ermənistan" əslində Qafqazda mövcud olmamışdır.

1983-cü ildə İrəvanda P.K.Poqosyanın tərtib və nəşr etdirdiyi "Ermənistan və həmsərhəd ölkələr 701-862-ci illərdə" xəritədə heç vaxt mövcud olmayan "Böyük Ermənistan" Ərminiyə kimi öz əksini tapıb. Bu xəritədə "Ermənistana-Albaniya (Arran), İberiya (Kartli), Ermənistan daxil edilmiş, "Ərminiyyə" Xəzər dənizindən Qara dənizədək (Pontuy) bütün Cənubi Qafqaz, Şərqi Anadolu ərazilərini əhatə edir və bunlar heç də tarixi reallığı əks etdirmir.

Ermənilər bəzən "Şərqi Ermənistan"ı "Fars (İran) Ermənistanı" ilə sinonim kimi işlədirlər. Bunun üçün ingilis dilində nəşr olunmuş "İranika" Ensiklopediyasına istinad edirlər. J.Markvart ensiklopediyada Sasani dövründə "Fars Ermənistanı (Persarmenia) haqqında yazır: "Siyasi nöqteyi-nəzərdən burada yerində olan odur ki, "Pers Armeniya" (Persarmenia) daha geniş məna kəsb edir: farsların idarəsi altında olan (Roma Ermənistanından fərqli olaraq) Ermənistan ərazisi nəzərdə tutulur. Onu sonrakı coğrafi termin Parsaxayk və Fars Ermənistanı ilə qarışdırmaq olmaz. O, Urmiya gölü şimal və qərbdə duran və Adiaben və Atropatenlə həmsərhəd olan əyalətdir" [6, s. 252-314].

Müəllif "Fars Ermənistanı" anlayışının sonradan yarandığını və avropalıların onu İrandakı erməni arealının yaşadığı yeri bildirmək üçün şərti işləndiyini göstərir, lakin burada "Şərqi Ermənistan"dan söhbət getmir.

Guya VII əsrdə Ərəb Xilafətinin hökmranlığı altına düşən "Şərqi Ermənistan" uydurma "Qərbi Ermənistana" birləşdiyindən XVI əsrə qədər "Şərqi Ermənistan" termini işlənməlidir [8].

Ermənilər Azərbaycanın ən qədim diyarlarından biri olan Naxçıvana da ərazi iddiaları irəli sürürlər ki, bu iddia da çürük və əsassızdır. Bu haqda Akademik İsmayıl Hacıyev daha dolğun fikir irəli sürür. "Naxçıvan bölgəsində yaşayan tayfalar Urmiya gölünün ətrafında yaşayan tayfalarla sıx əlaqədə olmuşdular. Kuti, lullubi, subi, turukki və b. Tayfalar bu ərazilərin ən qədim sakinləri olmuşlar. Naxçıvan bölgəsi tarixən Cənubi Azərbaycan ərazisində mövcud olmuş dövlətlərin tərkibində olmuşdur. Həmin dövlətlərin türkmənşəli etnosların siyasi qurumları olması artıq şübhə doğurmur".

Bütün bu uydurmalar, oğurluq yolu ilə formalaşmış mövcud Erməni konsepsiyası yalnız bir məqsəd ətrafında cəmlənmişdir. O gələcəkdə özgə torpaqları hesabına uydurma bir dövlətin təməlini qoymağı planlayırdı. Bu acı bir həqiqət olsa da etiraf etməliyik ki, Çar Rusiyası və Sovetlər dönəminin köməyi ilə ermənilər istədiklərinə yetərincə nail ola bilmiş və qədim Azərbaycan torpağı İrəvan xanlığı artıq bu "dövlətin"mərkəzinə çevrilmişdir.[4. s, 94]. Ancaq buna da əminik ki, tarix təkərrürdən ibarətdir və işğal altında olan torpaqlar əvvəl axır öz gerçək sahiblərinə qayıdacaq.

## ƏDƏBİYYAT


1. Azərbaycan tarixi, Bakı; Azərbaycan Dövlət Nəşriyyatı, 1994, (688s).
2. Azərbaycan tarixi, Bakı; Elm, 1993
3. Azərbaycan tarixi, Ən qədim dövrlərdən XX əsrin əvvəllərinə qədər, Bakı; Elm, 1993,s.(284s).
4. İ. Hacıyev. Ermənilərin Azərbaycana Qarşı Ərazi İddiaları və Qanlı Cinayətləri, Naxçıvan, Əcəmi, 2012, (191s).
5. Всемирная история, Энциклопедия. Том 3. Часть II, Глава VIII. Возникновение и развитее феодализма в Средней Азии и в странах Закавказье (V – первая половина IX в). Москва; Государетвенное Изд.во Политической литературы. 1957 г.с.17.

6. Markwart Y. La province de Parsrahayk Revue dey etudes aremeniennes, 1966.pp.252-314.
7. ГусейновР.Придуманныйтермин«ВосточнаяАрмения»//http:/www.rizzanhujeynov/com//2015/02/blog/ post_5.html.
8. Восточная Армения // http:// ru.wikipedia.org.

## ABSTRACT

**Zahmat Shahverdiyev**
**Zamin Aliyev**

## EASTERN ARMENIA MYTH AND FICTITIONS TERRITORIL CLAIMS OF ARMENIANS

At all stages of history,including in the early Middle Ages armenians claimed territorial to Azerbaijani.During the Caliphate time,the armenia church which was ideological in war with Albania,was trying to penetrate the Albanian church.From this useful chance,the Caliphate skillfully used to fight aganist both the Byzantine Empire an the Christin World.Armenians and the armeniasn church were the best means of the way.The armenians resorted to this Caliphate policy to make every effort to collapse Albania.The Albanian state couldn’t endure this pressure because they pused a policy of Mutal Benefit with the Caliphate.

## РЕЗЮМЕ

**Захмат Шахвердьев**
**Замин Алиев**

## ВОСТОЧНАЯ АРМЕНИЯ МИФ И ВЫДАЕТ ТЕРРИТОРИАЛЬНЫЕ ПРЕТЕНЗИИ АРМЯН

На всех этапах истории, в том числе и в раннем средневековье, армяне претендовали на территориальное образование для Азербайджанцев. Во времена халифата армейская церковь, которая была идеологической в войне с Албанией, пыталась проникнуть в албанскую церковь. Из этого полезного шанса халифат умело использовались для борьбы с аганистом как Византийской Империей, так и Кристинским миром. Армянцы и арменианская церковь были лучшими средствами пути. Армяне прибегли к этой политике халифата, чтобы приложить все усилия, чтобы разрушить Албанию. Албанское государство не выдержало этого давления потому что они с помощью халифата разработали политику «Мутальной выгоды».

NDU-nun Elmi Şurasının 19 oktyabr 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 02).

**ŞAMXAL MƏMMƏDOV**
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 94(479.24)**

# XX ƏSRİN ORTALARINDA SOVETLƏR BİRLİYİNİN CƏNUBİ QAFQAZ SİYASƏTİNDƏ ERMƏNİ AMİLİ

***Açar sözlər:*** *Cənubi Qafqaz, Sovet rəhbərliyi, Erməni millətçiləri, deportasiya*
***Key words:*** *South Caucasus, Soviet leadership, Armenian nationalists, deportation*
***Ключевые слова:*** *Южный Кавказ, советское правительство, армянские нацисты, депортация*

Məlum olduğu kimi, XX əsrin ilk onilliklərində Rusiya imperiyasında, eləcə də qonşu regionlarda baş verən siyasi kataklizmlər (müharibələr, inqilablar, milli münaqişələr və s.), habelə xarici ölkələrə kütləvi köçlər nəticəsində ermənilərin yaşadıqları ərazilərdə bu topluma məxsus insanların sayı nəzərə çarpacaq dərəcədə azalmışdı. Bu isə SSRİ-dəki erməni ideoloqlarının və xaricdəki diaspor liderlərinin strateji planlarına uyğun gəlmirdi. Belə ki, bu dairələrin “Dənizdən-dənizə uzanan “Böyük Ermənistan”“ xülyalarının gündəmə gətirilməsi, imkan olarsa bu yolda müəyyən addımların atılması üçün bəlli bir miqdarda erməni əhalisi və qonşu dövlətlərin hesabına yeni ərazilər lazım idi. Bu planlarda habelə, bütün vasitələrlə sıxışdırılan, lakin hələ də Ermənistan SSR-in əhalisinin böyük bir qismini təşkil edən azərbaycanlıların hamılıqla deportasiyası nəzərdə tutulurdu. Həmin planların həyata keçirilməsinin yolları və vasitələri “Daşnaksütyun” partiyasının xarici ölkələrdəki liderləri və diaspor xadimləri tərəfindən müəyyən edilirdi. 1947-ci ilin iyun ayında keçirilən “Daşnaksütyun” partiyasının XIV konqresinin bu sahədə qarşıya qoyduğu vəzifələr SSRİ-dəki erməni rəhbərləri və kilsə xadimləri üçün bir növ direktivlər oldu.

II Dünya müharibəsi və ondan sonrakı ilk illərə təsadüf edən həmin tarixi zamanlarda göstərilən dairələr Sovet rəhbərliyinin Cənubi Qafqazdakı yanlış, ikili standartlara söykənən milli siyasətindən yaxşı xəbərdar idilər. Belə ki, həmin rəhbərlikdə xaricdəki erməni daspor təşkilatları ilə gizli əlaqələri olan çoxsaylı etnik ermənilər təmsil olunmuşdular. Bir tərəfdən bu şəxslərin səyləri, digər tərəfdən Stalinçi rəhbərliyin özünün antiazərbaycan və erməniпərəst siyasət yeritməsi, Sovet dövlətinin və Kommunist Partiyasının milli siyasət sahəsində bəyan edilən prinsiplərinin təhrif edilməsinə, həmin prinsiplərin kobud surətdə pozulmasına səbəb olurdu. Nəticədə mühüm və milli məsələ baxımından olduqca həssas olan bu regionda digər xalqların və milli azlıqların hüquqları tapdalanır, bir sıra xalqların nümayəndələri kütləvi olaraq repressiyalara məruz qalır, etnik ermənilər ən mühüm dövlət və partiya vəzifələrini ələ keçirirdilər. Xaricdəki erməni liderləri, daxildəki erməni rəhbərləri ilə əlaqəli olduğundan prosesləri nəinki nəzarətdə saxlayır, habelə həmin proseslərə təsir də edə bilirdilər. Bu səbəbdən erməni ideoloqları Cənubi Qafqazda qarşıya qoyduqları ermənilərin sayının çoxaldılması, digər xalqların və milli azlıqların isə didərgin salınmasını Stalinçi rəhbərliyin əli ilə həyata keçirməyə qərar verdilər.

“Daşnaksütyun” partiyasının və xaricdəki digər erməni təşkilatlarının göstərişlərini əldə rəhbər tutan, habelə ali sovet rəhbərliyində təmsil olunan A. Mikoyan və başqa erməni liderləri ilə sıx əlaqələri olan Erməni Kilsəsi xüsusilə canfəşanlıq göstərirdi. Bir tərəfdən cəbhəyə maddi yardımları ilə Stalinin, digər tərəfdən xarici diasporlardan olan etnik ermənilərin müharibədə iştirak etmələri ilə Qərb liderlərinin, habelə onminlərlə erməni legionerlərinin alman faşizminə xidmət etmələri ilə Hitlerin diqqətini çəkən erməni ruhaniləri özlərini siyasi tərəf kimi göstərməyə çalışırdılar.

Böyük Vətən Müharibəsinin çətin günlərində A.Mikoyan və digər ermənilər İ.Stalini azərbaycanlıların guya xəyanət edə biləcəklərinə inandıra bilmiş və 1942-ci ilin dekabrın 7-də Azərbaycan əhalisinin hamılıqla Orta Asiya və Qazaxıstana sürgün edilməsi haqqında məxfi qərar

verilməsinə nail olmuşdular. Lakin respublika rəhbərliyinin tutduğu mövqe İ.Stalini fikrindən daşındırmış, ermənilərin planı boşa çıxmışdı. Bundan sonra erməni liderləri öz emissarları vasitəsilə Hitlerə qələbə çalacağı halda Zaqafqaziyada iki dövlətin-erməni və gürcü dövlətlərinin qurulmasını təklif etmişdilər. Əlbəttə hər iki halda azərbaycanlıların tarixi torpaqlarında ermənilərin yerləşdirilməsi nəzərdə tutulurdu.

Doğrudur, erməni liderləri azərbaycan türklərinin Cənubi Qafqazdan sürgün edilməsinə nail ola bilmədilər. Lakin onlar əvəzində Stalinçi rejimin əli ilə Şimali Qafqazdan digər müsəlman-türk xalqlarının sürgün edilməsinə nail olmağı bacardılar. Əvvəllər Sovet Ermənistanında məsul vəzifələr tutmuş, sonralar isə terrorçu təşkilatlarla əlaqələri aşkar olunduğu zaman, 1926-cı ildə xaricə qaçan Simon Vratsyan "uzun illər ərzində sovet lideri A.Mikoyanla birbaşa, digər bolşevik liderləri ilə dolayısı yolla əməkdaşlıq edir və onlara Mesxeti türklərinin, çeçenlərin, inquşların, Krım tatarlarının deportasiyası məsələlərində məsləhətlər verirdi" (3, s.136).

Erməni ideoloqlarının bütün bu baş tutan və tutmayan cəhdləri bir məqsədə xidmət edirdi ki, bu da türk-müsəlman xalqlarının tarixən onlara məxsus torpaqlardan yox edilməsi, boşaldılan ərazilərə ermənilərin yerləşdirilməsi, Ermənistan Respublikasının sərhədlərinin genişləndirilməsi idi. Stalinçi totalitar rejimin ona çarizmdən miras qalmış milli-ayrı seçkilik siyasəti, "xalqlar dostluğu", "proletar beynəlmiləlçiliyi" pərdəsi altında regionun türk-müsəlman əhalisinin hüquqlarını tapdalanması, onların kütləvi olaraq siyasi və mənəvi repressiyalara uğradılması erməniləri daha da cəsarətləndirirdi. Erməni millətçilərinin məqsədləri bolşevik rejiminin siyasətinə uyğun gəlirdi.

Belə münbit tarixi şəraitdə -1943-cü ildə ABŞ, SSRİ və İngiltərə dövlət başçılarının Tehran konfransı zamanı, erməni diasporu, Sovet-İran münasibətlərinin müzakirəsi zamanı SSRİ Xarici işlər naziri V. Molotova xarici ölkələrdəki ermənilərin Sovet ölkəsinə köçürülmələrinə icazə verilməsini xahiş etdi. İ. Stalinlə məsləhətləşdikdən sonra V. Molotov buna razılıq verdi.

1945-ci ilin aprelində gələcək erməni katolikosu, arxiyepiskop VI Gevork Çörekçiyan sovet lideri İ. Stalinlə görüşüb, ondan siyasi xarakterli bir sıra məsələləri həll etməyi xahiş etmişdi (3, s.141). Bir qədər sonra artıq Eçmiədzin katalikosluğu vəzifəsini tutan VI Gevork SSRİ XKS-nin sədri İ. Stalinə, ABŞ prezidenti H. Trumenə, Böyük Britaniyanın baş naziri K. Ettliyə müraciət edərək onların diqqətini "erməni məsələsinə" cəlb etmək istəmiş, Türkiyəyə qarşı ərazi iddiaları ilə çıxış etmişdi. Katalikos habelə, dünya ermənilərinin müqəddəs dini mərkəzi olan Eçmiədzin monastırının fəaliyyətinin tam həcmdə bərpasına icazə verilməsi və bununla bağlı tədbirlərin həyata keçirilməsi üçün razılıq istəmişdi. Onun məktubu üzərində İ.Stalin öz dəst-xətti ilə aprelin 19-da belə bir dərkənar qoymuşdu: "Razıyam. SSRİ Xalq Komissarları Sovetinin sədri İ. Stalin".

Həmin vaxtlarda erməni millətçilərininin planlarının həyata keçirilməsi üçün İ.Stalinə müraciət edənlər tək bunlar deyildilər. II dünya müharibəsi illərində hitlerçilər tərəfindən yəhudilərin kütləvi qırğınlarında fəal iştirak etmiş, bundan əvvəl isə Azərbaycanda miqyasına görə görünməmiş soyqırımları törətmiş bədnam terrorçu Dro, Stalinlə görüşmüş, onu özünün ən yaxın dostu və əməldaşı adlandırmışdı.

Müharibədən sonra Sovet İttifaqının artan nüfuzu mühacirətdən qayıtmaq ("reemiqrasiya") proseslərinə təkan verdi. SSRİ-nin, habelə keçmiş Rusiya imperiyasının on minlərlə keçmiş vətəndaşı vətənə qayıtmaq istədiklərini bildirmişdilər. Onların arasında diasporlar üzrə səpələnmiş ermənilər də vardı.

1944-cü ilin əvvəllərində yaradılmış "Ermənistan ermənilərinin ümummilli liqası", erməni liderləri, habelə özünün Cənubi Qafqaz siyasətində ermənilərə arxalanan Stalinçi rəhbərlik bu fürsəti dəyərləndirdi. 1945-ci ilin aprelində İ.V.Stalin həmin liqanın başçısı arxiyepiskop VI Gevorka xaricdən 100 min erməninin qayıdışını təşkil etməyi tapşırmışdı. Az sonra Eçmiədzin kilsəsinin təşkilatçılığı ilə 130 min erməninin ölkəyə qayıdışı ilə bağlı ərizələr Sovet hökümətinə təqdim edildi (8, s.292).

SSRİ XKS 1945-ci ilin noyabrın 21-də xaricdə yaşayan ermənilərin Sovet Ermənistanına köçürülməsi işinin təşkili haqqında qərar verdi.

Ermənistan hökuməti yanında repatriantların qəbulu və yerləşdirilməsi üzrə yaradılan xüsusi komitə ermənilərin köçürülməsi nəzərdə tutulan ölkələrə öz nümayəndələrini göndərir, onları SSRİ-

yə gəlməyə həvəsləndirirdi. Sovet Ermənistanının bu illərdə qazanmış olduğu sosial-iqtisadi və mədəni nailiyyətlər bu komitənin xətti ilə təbliğ edilirdi (9, s.132).

Lakin, köçürülməsi nəzərdə tutulan bu qədər ermənini qəbul edib yerləşdirmək həmin tarixi şəraitdə və iqtisadi şərtlər altında olduqca çətin bir məsələ idi. Belə ki, göstərilən vaxtlarda müharibədən sonrakı bərpa dövrünün ciddi çətinliklərini yaşayan Ermənistanda bu qədər köçürülən ermənininin yerləşdirilməsi və lazımi yaşayış vasitələri ilə təmin edilməsi imkanları məhdud idi.

Buna görə də, 1945-ci ilin iyununda Sovet rəhbərliyi "Birinci Dünya Müharibəsi dövründə Türkiyədən 1.500.000 civarında ermənin sürgün edildiyi və onların təkrar Ana Vətənlərinə qayıtmaları üçün əvvəllər ermənilərə aid olduğu iddia edilən Qars və Ərdahanın Sovet Ermənistanına qaytarılması" tələbi ilə çıxış etdi. Doğrudur Qərbin fəal dəstək verdiyi Türkiyənin qəti müqaviməti nəticəsində bu siyasət iflasa uğradı. Lakin müharibədən siyasi-hərbi və diplomatik cəhətdən xeyli güclənmiş çıxan Sovet İttifaqının öz ekspansiyasını Yaxın və Orta Şərqə yaymaq məqsədilə erməni amilindən istifadə etməsi göz qabağında idi.

Türkiyəyə qarşı ərazi iddialarının baş tutmadığını görən erməni liderləri "Ana Vətənə dönüş" layihəsinin tarixi Azərbaycan torpaqlarında həyata keçirməyə qərar verdilər. Ali dövlət rəhbərinin yuxarıda göstərilən addımlarından cəsarətlənən erməni liderləri az sonra, noyabrın 28-də DQMV-nin Ermənistana birləşdirilməsi məsələsini qaldırdılar (7, s.203). Ermənistan K(b)P MK nın birinci katibi Q.Harutyunov 1945-ci ilin noyabrında heç bir əsaslı səbəb göstərmədən İ.Stalinə məktubla müraciət edərək, Dağlıq Qarabağı Ermənistan SSR-ə birləşdirməyi xahiş etdi. Həmin məktub cavab üçün Azərbaycan rəhbərliyinə göndərildi. Lakin Azərbaycan rəhbərliyinin ciddi və əsaslı arqumentlərinin nəticəsində məsələyə son qoyuldu və ermənilərin xahişi nəticəsiz qaldı.

Bununla belə, ermənilər ələ düşmüş fürsətdən istifadə etməyə çalışır, Azərbaycana qarşı ərazi iddialarını sürdürürdülər. Q.Hartyunov xaricdən ermənilərin ölkəyə qayıtması ilə əlaqədar DQ və Naxçıvanın Ermənistana birləşdirilməsini ÜİK(b)P MK katibi E.Malenkovla dəfələrlə müzakirə etmişdi (5).

Həmin vaxtlarda erməni liderləri mərkəzdən gözlədikləri dəstəyi ala bilməsələr də belə köçün başlanmasına və yeni təxribatlara hazırlaşırdılar. Artıq 1946-cı ilin əvvəlində 130 min erməni Ermənistana köçmək arzusunda olduğunu bildirmişdi. "Hnçak" və "Ramkavar" partiyaları, Ümumerməni Xeyriyyə İttifaqı köçürülmənin təşkili üçün 1 milyon dollar xərcləmişdi (6, s.364). Prosesi sürətləndirmək məqsədilə SSRİ Ali Soveti özünün 19 oktyabr 1946-cı il tarixli fərmanı ilə erməni repatriasiyasını artıq qanuniləşdirdi. Köç başladıqda isə Sovet Xüsusi Xidmət orqanları mühacirətdən qayıdanları ən ciddi bir surətdə və davamlı yoxlamalardan keçirdikləri halda, erməni mühacirlərinin kimliyinə çox vaxt göz yumurdular. Nəticədə çoxsaylı daşnaklar məqsədli surətdə ölkəyə ayaq açdılar. Maraqlıdır ki, digər millətlərdən olan mühacirlərə rəsmi sənədlərdə "reemiqrant" ("Mühacirətdən qayıdan adam") deyildiyi halda, yalnız ermənilər "repatriant" ("vətənə qaytarılan") adlanırdı. Bu isə onlara əlahiddə yanaşmanı ifadə edirdi.

Ölkə daxilində və xaricindəki erməni ideoloqlarının birləşmiş səyləri nəticəsində "1946-cı il ərzində Suriya, Yunanıstan, Livan, İran, Bolqarıstan və Rumıniyadan 50,9 min erməni Sovet Ermənistanına qaytarıldı. 1947-ci ildə repartasiya olunanların yeni karvanları ilə Fələstin, Suriya, Fransa, ABŞ, Yunanıstan, Misir, İraq, Livandan cəmi - 35,4 min erməni gəldi. 1948-ci ildə Suriya, Livan, Fransa, ABŞ, Misir, Bolqarıstan və Rumıniyadan daha 10.000 nəfər qayıtdı. Beləliklə, 1946-1948-ci illərdə 100.000 nəfərə yaxın erməni müxtəlif ölkələrdən vətənə qayıtdılar" (6, s.366).

Erməni liderlərinin səylərinə və xaricdəki erməni diaspor qurumlarının çox-saylı yardımlarına baxmayaraq, bu 100 minlik kütlənin qəbul edilib yerləşdirilməsi olduqca çətin idi. Digər tərəfdən xarici ölkələrdə rahat şəraitə alışmış ermənilər, yeni köçdükləri yerlərdə çətinliklərə dözmür, narazılıqlarını bildirirdilər. Türkiyə və Azərbaycana qarşı ərazi iddialarının boşa çıxması vəziyyəti daha da çətinləşdirirdi. Nəticədə layihənin davamı meydana çıxdı. İçində erməni kilsə xadimlərinin də yer aldığı Ermənistan Respublikası rəhbərliyi, habelə həmin dövrlərdə ali partiya və sovet orqanlarında yüksək vəzifələr tutan, A.Mikoyan və digərlərinin təşəbbüsü və təşkilatçılığı ilə azərbaycanlıların Qərbi Azərbaycan ərazilərindəki tarixi torpaqlarından deportasiyası gündəmə gəldi.

1947-ci il dekabrın 23-də SSRİ Nazirlər Soveti “Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında” 4083 nömrəli Qərar qəbul etdi” (3, s.144).

İ. Stalin tərəfindən imzalanan qərarın layihəsi A. Mikoyan tərəfindən hazırlanmışdı. Onun əməli olaraq icrası işlərinə Ermənistan tərəfindən, bir vaxtlar Azərbaycan SSR-in XDİK sistemində işləmiş general-mayor Qriqoryan, Azərbaycan tərəfindən isə etnik ermənilər olan N. Brutens və R.Sevumyan başçılıq edirdilər. Vaxtından xeyli əvvəl və artıqlaması ilə yerinə yetirilən deportasiya əməliyyatlarının gedişində 150 min nəfərdən artıq azərbaycanlı öz doğma yurdlarından didərgin salındı ki, onların da təxminən 10.000 nəfəri deportasiya prosesində həlak oldu. Deportasiya olunanların yerinə məhz həmin xaricdən gətirilən ermənilər yerləşdirildilər.

Göründüyü kimi, ağır şərtlər altında, həm də müharibədən sonra onsuz da acınacaqlı həyat sürən əhalinin zorla köçürülməsi, öz doğma torpaqlarından didərgin salınması əslində ən ağır antihumanist akt-repressiya idi. Bu, rəsmi Moskva tərəfindən, əsası çarizm dövründə qoyulan siyasətin-Ermənistan SSR-ni azərbaycanlılardan təmizləmək, xaricdəki erməniləri Qafqaza yerləşdirmək planının yeni formada davamı idi. Erməni terrorçularının on illər ərzində edə bilmədiklərini Stalinçi rəhbərlik çox qısa müddətdə həyata keçirdi.

Azərbaycanlılara qarşı Ermənistanda məqsədyönlü şəkildə həyata keçirilən deportasiya siyasəti nəticəsində onminlərlə günahsız insan ağır məhrumiyyətlərə, faciə və məşəqqətlərə məruz qaldılar. Onlar heç bir hazırlıqsız, elementar yaşayış şərtləri olmadan köçürüldükləri yerli şəraitə uyğunlaşa bilmədiklərindən Azərbaycanın müxtəlif rayonlarına səpələnməli oldular.

1989-cu ildə SSRİ hökuməti 40-cı illərdə deportasiyaya məruz qalmış xalqların hüquqlarının bərpası haqqında qərar qəbul etsə də, 1948-1953-cü illərdə Ermənistandan deportasiya edilmiş azərbaycanlılar həmin xalqların siyahısına daxil edilmədi. “SSRİ rəhbərliyi əvvəlki onilliklərdə olduğu kimi, indi də Cənubi Qafqazda erməni amilinə üstünlük verir, azərbaycanlıların hüquqları tapdalanırdı. Həm də artıq Sovetlər Birliyinin dağılması ərəfəsində rəsmi Moskvanın yeritdiyi açıq anti-azərbaycan siyasəti konteksində mərkəzdəki erməni lobbisi buna imkan vermədi.

Respublika Prezidenti Heydər Əliyev Azərbaycan Demokratik Respublikasının 80 illiyinə həsr olunmuş 1998-ci il mayın 26-da təntənəli iclasdakı nitqində haqlı olaraq o dövrü xatırladaraq demişdi: “Hamımız yaxşı bilirik ki, o vaxt bizim soydaşlarımız azərbaycanlılar o yerlərdən, o doğma vətənlərindən, yurdlarından zorla çıxarılarkən, deportasiya edilərkən nə qədər itkilər verdilər, çətinliklərə məruz qaldılar, nə qədər insanlar tələf oldular... Hətta məlumdur ki, bəziləri burada yaşaya bilmədilər, gizli olaraq qayıdıb öz yerlərinə, evlərinə getdilər. Nə qədər əzab, əziyyət, çətinliklər çəkdilər. Hesab edirəm ki, bu da bizim xalqımıza qarşı edilən ən böyük ədalətsizlikdir” (2).

“1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında” 18 dekabr 1997-ci il tarixli prezident fərmanında isə ermənilərin təhriki və sifarişi ilə həyata keçirilən deportasiya aktının ədalətsiz olduğu qədər də repressiya xarakterində olması göstərilmişdi: “1948-1953-cü illərdə 150 mindən çox azərbaycanlı Qərbi Azərbaycan ərazisindəki dədə-baba yurdlarından könüllülük adı altında, əslində kütləvi surətdə və zorakılıqla sürgün olunmuşdur. Adi normalara zidd olan bu qərarların icrası zamanı avtoritar-totalitar rejimin mövcud repressiya qaydaları geniş tətbiq edilmiş, minlərlə insan, o cümlədən qocalar və körpələr ağır köçürülmə şəraitinə, kəskin iqlim dəyişikliyinə, fiziki sarsıntılara, mənəvi təzyiqlərə və təhqirlərə dözməyərək həlak olmuşlar (1, s.397).

Lakin Sovet rəhbərliyinin antiazərbaycan siyasətindən yaralanan, bir çox hallarda isə özlərinin təsir və təhrik imkarlarından istifadə edən erməni liderləri və diaspor təşkilatları əldə edilənlərlə kifayətlənmirdilər. Hətta bu kütləvi deportasiyalardan sonra belə, Ermənistan SSR-də yaşamaqda davam edən 200.000 nəfərdən çox azərbaycanlı əhali hər cür sıxışdırmalara, təqib və təzyiqlərə məruz qalırdı. Konstitusiya və qanunçuluq ciddi surətdə tapdalanır, mərkəzin

ermənipərəst siyasəti, erməni amilinə açıq-aşkar üstünlük verməsi sayəsində azərbaycanlılar kütləvi surətdə rəhbər vəzifələrdən uzaqlaşdırılır, onların yerinə hətta azərbaycanlıların kompakt şəkildə yaşadıqları kənd və qəsəbələrdə ermənilər təyin edilirdilər.

Keçən əsrin ortalarında SSRİ məkanında baş verənlərin təhlili göstərir ki, sovet rəhbərliyi Azərbaycan SSR-də beynəlmiləlçilik və xalqlar dostluğunun təbliğinə hər vasitə ilə rəvac verdiyi halda, Ermənistan SSR-də kütləvi surətdə toponimlərin dəyişdirilməsinə, azərbaycanlılara məxsus təhsil və mədəniyyət ocaqlarının, qəzetlərin bağlanmasına, rayonlar birləşdirilməsinə göz yumurdu. Təkcə 1951-ci il ərzində Dilican rayonu İcevanla, Əzizbəyov rayonu Mikoyan rayonu ilə, Ələyəz rayonu Abaranla, Qarabaqlar rayonu Vedi ilə, Qukasyan rayonu Amasiya ilə birləşdirilmişdi. Azərbaycanlı əhalinin zorakılıqla deportasiyasından sonra "türkdilli əhalinin azalmasını əsas götürərək rayon və respublika səviyyəli türkdilli kadrları ermənilərlə əvəz edilməyə başlamışdılar (4, s.121).

Qarabağlar, Vedi, Zəngibasar, Krasnoselo rayonlarının partiya komitələrinin birinci katibləri, digər 10 rayonda isə ikinci və üçüncü katiblər dəyişdirilərək yerinə ermənilər təyin edildilər. Oxşar kadr dəyişiklikləri bütün səviyyələrdə sovet, təsərrüfat və inzibati orqanlarda da həyata keçirildi.

XIX əsrin ortalarında Sovet rəhbərliyi tərəfindən Cənubi Qafqazın erməniləşdirilməsi, burada erməni amilinin gücləndirilməsi prosesləri təkcə Azərbaycanda getmirdi. İ.Stalinin ölümündən sonra Gürcüstan torpaqlarında da xeyli sayda erməni yerləşdirildi. Gürcü tədqiqatçıları Şota və Otar Tetvadzelər özlərinin "Gürcüstanda ermənilər" kitabında yazırdılar: "50-ci illərdə Batumi limanına içərisi erməni repatriasiya olunmuş ermənilərlə dolu olan gəmi gəldi. Ermənilərin vətənə qayıtmasının təşəbbüskarları A.Mikoyan və marşal Baqramyan idilər. Sovet Ermənista-nı hökuməti nədənsə, Ermənistanda yaşamaq üçün repartasiya olunmuş ermənilərin içərisindən azsaylı ziyalı hissəni seçdilər. Əksəriyyəti isə N.Xruşov və A.Mikoyanın siyasi mülahizələri əsasında Abxaziyada yerləşdirdilər. Və məhz sonralar, 50-ci illərdə Abxaziyada yerləşdirilmiş ermənilər abxaz separatçıları ilə çiyin-çiyinə dayandılar" (10, s.158).

Təqribən 40 il sonra SSRİ-nin dağılması ilə Cənubi Qafqazda erməni amili yenidən gündəmə gəldi. Xarici güclər milli müstəqillik yolu tutan Azərbaycan və Gürcüstana erməni separatçılarının və terrorçularının əli ilə divan tutuldu. Onların dəstək verdiyi erməni quldur birləşmələrinin əli ilə Abxaziya və Cənubi Osetiya Gürcüstandan, Dağlıq Qarabağ isə Azərbaycandan qoparıldı. Azərbaycanda 1 milyondan artıq insan öz ölkəsində qaçqına və məcburi köçgünə çevrildi. Gürcüstanda "300 mindən artıq insan etnik mənsubiyyətinə görə ölüm təhlükəsi ilə üz-üzə qalıb öz evlərindən qovuldular" (10, s.152).

Bir vaxtlar A.Mikoyanın Gürcüstana köçürdüyü etnik ermənilərin yaratdıqları Baqramyan adına batalyon Kodor dərəsində Amtkeli, Çampali (Çini), Kvemo Lata, Zemo Lata və b. gürcü kəndlərini yerlə yeksan etdilər. Batalyonu gücləndirən etnik ermənilər və bu etnosa məxsus yaraqlılar abxaz separatçılarının zərbə qüvvəsinə çevrildilər. Gürcülərin yaşadıqları bütöv rayonlar dağıdılıb talan edildi. On minlərlə gürcü erməni terrorunun qurbanı oldu.

Araşdırmalar bunu da göstərir ki, Sovet təbliğatına və ilk növbədə ənənəvi erməni yalanlarına inanıb, Sovet İttifaqına qayıdan ermənilər burada vəd edilən həyat səviyyəsini görmədilər. Köçüb gəldikləri ölkələrdə yaxşı həyat yaşayan erməni repatriantları gördükləri səfalətdən qaçaraq, paytaxt Yerevana, Rusiyanın mərkəzi şəhərlərinə, habelə o zamanlar SSRİ-nin əsas turist zonaları sayılan və xidmət sahələrinin yüksək qazanc verdiyi Stavropol və Krasnadar vilayətlərinə yayıldılar. Lakin bütün bunlar erməni ideoloqlarını az maraqlandırırdı. Onlar hələlik qonşu dövlətlərin hesabına ərazilər əldə etməsələr də, əsas məqsədlərindən birinə nail ola bilmişdilər:

-Ermənistanı monoetnik respublikaya çevirmək prosesinin I mərhələsi keçilmişdi.

-150.000 nəfərdən artıq azərbaycanlı öz tarixi torpaqlarından qovularaq Stalinçi rejimin əli ilə didərgin salınmışdılar. Qonşu Rusiya ərazilərində erməni miqrantlarının sayı əsaslı dərəcə armışdı.

-Köçürülüb gətirilən, sonra məqsədyönlü şəkildə qonşu Gürcüstanın Abxazi-ya, Cavaxetiya və s. bölgələrində yerləşdirilən ermənilər bu yerlərdə mühüm siyasi və ictimai-iqtisadi mövqələri ələ keçirərək, respublikanın suverenliyi və ərazi bütövlüyü üçün əsl təhlükəyə çevrildilər. Bütün bunların əsası isə SSRİ-nin bolşevik liderlərinin erməni millətçiləri ilə sövdələşməsi ilə məhz keçən əsrin 50-ci illərində qoyulmuşdu.

## ƏDƏBİYYAT


1. Əliyev H. “1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında” 18 dekabr 1997-ci il tarixli fərman. Müstəqilliyimiz əbədidir. 13-cü cild, Bakı; Azərnəşr, 2004, 520 s.
2. Əliyev H. Azərbaycan Demokratik Respublikasının 80 illiyinə həsr olunmuş 1998-ci il mayın 26-da təntənəli iclasda nitq. “Azərbaycan” qəz.,1998, 27 may.
3. Erməni terror və quldur birləşmələrinin bəşəriyyətə qarşı cinayətləri. XIX-XXI əsrlər. Bakı, Vətən, 2003, 367 s.
4. Arzumanlı V., Mustafa N. Tarixin qara səhifələri. Deportasiya. Soyqırım. Qaçqınlıq. Bakı; Qartal, 1998. 280 s.
5. Mustafa N. Stalinlə bir görüşün tarixçəsi. “Xalq” qəz., № 127, 2001
6. История армянского народа: С древнейших времен до наших дней. Г.Х.Саркисян, Т.Х.Акопян, А.Г.Абрамян и др. Ереван, Изд-во Ереванского ун-та, 1980, 460 с
7. Пыжиков А. Хрушевская “Оттопел” (1953-1964), Новосибирски, “Олма-Пресс”, 2002
8. Советская Армения за 50-лет. Ереван, “АН АРМССР”, 1975
9. Худавердиян К. Культурные связи Советской Армении. Е., “АН АРМ. ССР” 1977, с.132
10. Шота Тетвадзе, Отар Тетвадзе. Армяне в Грузии (с древних времён до сегодняшнего дня). Тбилиси , 2008, 211 с.


## ABSTRACT


**Shamkhal Mammadov**


### ARMENIAN FACTOR IN THE SOUTH CAUCASIAN POLICY OF THE SOVIET UNION IN THE MIDDLE OF THE XIX CENTURY


Towards the middle of XX century, leaders of Armenian diaspora organizations and terrorist parties abroad, as well as, Armenian figures represented in the Soviet leadership made the next attempt to create “Great Armenia”. But their attempts to snatch the territory of Turkey and to consolidate the Nagorno-Karabakh Autonomous Province of Azerbaijan SSR to the Armenian SSR failed. In this case, more than 150,000 Azerbaijanis were deported from the their own historical lands in the Armenian SSR by the support of the Stalin administration, on the pretense of settling the Armenians who were repatriated from foreign countries. Many Armenians moved from abroad were also settled in Georgian SSR territories.

This meant that the Soviet leadership preferred the Armenian national factor in the South Caucasus, which was inherited from Tsaristicism.That pro-Armenian policy led to the tragedy of many nations, endless ethnic conflicts, genocide and deportations in the region after the collapse of the USSR.

## РЕЗЮМЕ

**Шамхал Мамедов**

## АРМЯНСКИЙ ФАКТОР В ЮЖНО-КАВКАЗСКОЙ ПОЛИТИКЕ СОВЕТСКОГО СОЮЗА В СЕРЕДИНЕ XIX ВЕКА

К середине XX века лидеры армянских диаспорных организаций и террористических партий, а также армянские деятели, представляемые в Советском правительстве, проявили очередные усилия в области создании "Великой Армении". Однако их старания по захвату турецких земель и прикреплению к Армянской ССР Нагорно-Карабахской Автономной Области Азербайджанской ССР не обвенчались успехом. В результате армянские лидеры под предлогом размещения репортированных из зарубежных стран армян, рукой сталинского правительства, подвергли депортации свыше 150-ти азербайджанцев из исторически азербайджанских земель в Армянской ССР. Большая часть армян также была размещена на территории Грузинской ССР. А это в свою очередь было доказательством предпочтения Советским правительством армян на Южном Кавказе. Именно эта политика послужила причиной трагедий многочисленных народов, нескончаемых этнических конфликтов, геноцидов и депортаций на территории указанного региона после распада СССР.

NDU-nun Elmi Şurasının 19 oktyabr 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 02).

**ELMAN CƏFƏRLİ**
*Naxçıvan Dövlət Universiteti*
*ecaferli@mail.ru*

**UOT: 94**

# İSPANİYA KRALLIĞI: "MUXTARİYYƏTLƏR DÖVLƏTİ"

**Açar sözlər:** *İspaniya Krallığı, konstitusiya, unitar dövlət, regionlaist dövlət, statut, muxtar region, Kastiliya, Kataloniya, Basklar ölkəsi, Qalisiya, Araqon, Andalusiya*

**Keywords:** *Kingdom of Spain, constitution, unitary state, regionalist state, statute, autonomous region, Castilla, Catalonia, Basque Country, Galicia, Aragon, Andalusia*

**Ключевые слова:** *Королевство Испании, конституция, унитарное государство, регионалистское государство, статут, автономный регион, Кастилия, Каталония, Страна Басков, Галиция, Арагон, Андалусия*

İspaniya Krallığının özünəməxsus tarixi inkişaf xüsusiyyətlərindən biri onun dövlət quruluşunun aydın tarixi-regional bölgüyə əsaslanmasıdır. Hər bir region müəyyən tarixi mərhələdə müstəqil və ya yarımmüstəqil dövlət olmuş, sonradan biri digərinin ardınca İspaniya monarxiyasının tərkibinə daxil edilmişdir. Bu tarixi prosesdə Kastiliya açar rolunu oynamışdır, belə ki, kastiliyalılar özlərini "əsl ispanlar", dillərini isə "əsl ispan dili" hesab edirlər. Lakin İspaniyada dövlət tərəfindən rəsmən tanınan və regional səviyyədə qorunan "ispan dilləri" anlayışı mövcuddur. Kastiliya dili hesab olunmayan dillər isə katalanların (ölkə əhalisinin 16 %-indən çoxu danışır), qalisiyalılar (6 %-ə yaxın) və baskların (5 %-ə yaxın) danışdığı dillərdir. 1492-ci ildə Rekonkista hərəkatı qəti qələbə çaldıqdan sonra konfessial baxımdan tamamilə monotərkibli ölkə (katolisizmə sitayiş edən) təşəkkül tapmışdır. Yeri gəlmişkən, İspaniya dövləti işğalçı müharibələr nəticəsində deyil, sülalələr arasındakı əlaqələr və nikahlar nəticəsində təşəkkül tapmışdır. Belə ki, Kastiliya kraliçası İzabella və Araqon kralı II Ferinandın nikahı 1479-cu ildə İspaniya Krallığının təşəkkül tapmasına səbəb oldu.

XIX əsrin əvvəllərində mərkəzləşdirilmiş unitar dövlət olan İspaniya mərkəzdən təyin olunan hərbi və mülki hakimlərin idarə etdiyi 52 əyalətə bölünürdü. Sosial-iqtisadi yüksəliş nəticəsində əsrin sonunda ölkənin şimalında muxtariyyətə nail olmaq cəhdləri başlamışdı. Bu arzuya ayrı-ayrı regionlarda müxtəlif cür əhəmiyyət verilir, "xalqlar və regionlar" tərəfindən müxtəlif dərəcələrdə dəstəklənirdi. Muxtariyyət statusunda Kastiliyanın imperiya ambisiyalarından və vətəndaş müharibələrindən ən çox tarixi, mədəniyyəti və dili daha çox zərər görən regionlar təkid edirdi. Digər regionlar isə öz potensialını inkişaf etdirməyə ümid edərək özünüidarəetmə tərəfdarı kimi çıxış edirdi [10, s. 281].

1917-ci ildən sonra ardıcıl böhranlar İspaniyada mərkəzi hakimiyyəti zəiflətdi. Nəticədə İspaniyanın baş naziri M.P. de Rivera istefa verdi, nüfuzdan düşmüş kral XIII Alfonso Burbon (1931, 14 aprel) ölkədən qaçdı və İspaniyada ikinci respublika quruldu (1931-1939). 1931-ci il Konstitusiyası ölkəni tərkibində şəhər və regional muxtariyyətlərin olduğu vahid dövlət (maddə 1-3), kastiliya dilini ölkənin rəsmi dili elan etdi (maddə 4). Muxtar regionlardan ibarət federasiya dövlətinin yaradılması qəti qadağan edildi (maddə 13) [9]. Lakin ölkənin qarşısında duran ciddi və təxirəsalınmaz sosial-iqtisadi problemlər II Respublika hökumətini milli-regional problemlərə ikinci dərəcəli problemlər kimi baxmağa vadar edirdi. Buna görə də 1930-cu illərdə Kataloniyanın muxtariyyəti azaldıldı, Basklar ölkəsinin muxtariyyəti isə təxirə salındı [10, s. 228].

1936-1939-cu illərdə İspaniyada vətəndaş müharibəsi nəticəsində sağ qüvvələr qalib gələrək ikinci respublikaya son qoydular, general Frankonun başçılığı ilə millətçilərin diktaturası (1939-1975) quruldu. Bu dövr İspaniya tarixində əyalətlərin azadlıqlarının, imtiyaz və səlahiyyətlərinin tamamilə ləğv edildiyi yeganə mərhələ oldu. Milli azlıqların dili və mədəniyyəti də təzyiqə və

xüsusi qadağalara məruz qaldı. Franko regional və yerli özünüidarəetmə institutlarını ləğv, milli və regional partiya və təşkilatları qadağan etdi. Lakin bu siyasət əks-təsir doğurdu, Kataloniya və Basklar ölkəsində regional hökumətlərin bərpa edilməsinə dair çıxışlar gücləndi, sonuncuda siyasi məqsədlərə çatmaq üçün terrorizmi vasitə seçən hərəkat yarandı.

Diktatorun ölümündən (1975, noyabr) sonra ictimai-siyasi həyatın demokratikləşdirilməsinə başlanıldı. İspaniya konstitusiyalı monarxiya oldu. Demokratikləşmə prosesinin başlanması dövlətin milli-ərazi prinsip üzrə təşkili problemlərini aktuallaşdırdı. İspaniyada milli və regional hərəkatların başlanması müxtəlif səbəblərlə bağlı idi: 1) Onları XX əsrdə Kataloniya, Basklar ölkəsi və Qalisiya kimi regionların ənənəvi milli problemləri stimullaşdırmışdı. Frankizmin milli dil və mədəniyyətlərə münasibətdə diskriminasiya siyasəti bu regionlarda müqavimət hərəkatına güclü impuls vermişdi; 2) Regionların əhalisi üçün aydın idi ki, demokratikləşmə əks-mərkəzləşdirmə, səlahiyyətlərin bölüşdürülməsi olmadan mümkün deyil: çünki mərkəz deyil, yerli orqanlar həlli ilə məşğul olduqda, regional problemlərin daha uğurlu və effektiv həlli mümkündür; 3) Sosial-iqtisadi inkişafdakı çoxdan mövcud olan disproporsiya milli və regional hərəkatların yüksəlişinə təsir göstərirdi. Varlı regionlar düşünürdü ki, muxtariyyət onlara öz yüksək statusunu qorumamağa və vəsaitlərin kasıb regionlarla bölüşdürülməməsinə imkan verəcək. Öz növbəsində kasıb regionların əhalisi fikirləşirdi ki, muxtariyyət onlara geriliyi aradan qaldırmağa, iqtisadi yüksəlişə nail olmağa şərait yaradacaq [1, s. 165; 3, s. 71].

Lakin qarşıda hələ qanuni baxımdan hakimiyyətin bölüşdürülməsi üçün uzun bir yol dururdu. "Muxtar cəmiyyətlər sisteminin əsl əhəmiyyəti yalnız İspaniyanın sənayeləşmə cəhətdən inkişafı kontekstində dəyərləndirilə bilər"di. Belə ki, regional muxtariyyətlərin inkişafı keçid dövrünün ən vacib, mahiyyətinə və həcminə görə inqilabi komponentlərindən biri idi [12, s. 148]. İspaniyada muxtariyyətləşmə prosesi iki: muxtariyyətləşməyə qədərki (1976-1978) və muxtar qurumların institusionallaşdırılması (1978-1983) mərhələlərinə ayrılır. Bu dövrdə tarixi vilayətlərə muxtariyyət statusunun verilməsi demokratiyanın güclənməsinə gətirib çıxarmışdır [16, s. 444-464]. Belə ki, faktlar ən "problemli" regionlarda belə vətəndaşların muxtariyyət sistemindən yüksək və ya nəzərəçarpacaq dərəcədə razılığını göstərir. Narazılıq muxtariyyətləşmə prosesi ilə deyil, siyasi partiyaların və elitanın mövqeləri ilə bağlıdır. Bu əsas amilə iki böyük ispan partiyasının – Xalq və Sosialist Fəhlə partiyalarının ölkənin ərazi quruluşu modelindən kifayət dərəcədə razı qalmadığı da əlavə edilməlidir [21, s. 255-276].

Mərkəzləşdirilmiş unitar dövlətin əks-mərkəzləşdirmə idarəçiliyi sistemi ilə əvəz edilməsinin vacibliyini başa düşən A.Suaresin ilk islahatçı və demokratik hökuməti milli azlıqların muxtariyyət hüquqlarını dərhal tanıdı. 1977-ci ildə Kataloniyada mərkəzə məxsus olan funksiyaların bir qisminin verildiyi İcraiyyə komitəsi yaradıldı. 1978-ci ildə isə Basklar ölkəsində müvəqqəti muxtar hökumət (Baş şura) yaradıldı, Qalisiyaya, Araqona, Kanar adalarına, Valensiyaya, Andalusiyaya, Balear adalarına, Estramaduraya, Kastiliyaya, Leona, Mursiyaya, Asturiyaya, Kastiliya-La Mança muxtariyyət öncəsi səlahiyyətlər verildi. "Muxtariyyət öncəsi səlahiyyətlər" anlayışı – yeni Konstitusiyanın qəbulunadək muxtariyyətin müvəqqəti xarakter daşıdığını bildirir, yalnız icra hakimiyyəti sahəsində muxtariyyətə yol verir, yerli parlamentlərin yaradılması nəzərdə tutulmurdu. İspaniya hökuməti "muxtariyyət öncəsi" orqanların qərarlarını dayandırmaq hüququnu özündə saxlayırdı" [3, s. 73].

1978-ci il dekabrın 6-da keçirilən referendumda yeni İspaniya Konstitusiyası qəbul edildi. Konstitusiyaya "millətlər" anlayışı daxil olundu və beləliklə, Krallığın çoxmillətli dövlət olduğu təsdiq edildi. Konstitusiya dövlətlə muxtar icmalar arasında səlahiyyətlərin bölünməsi sistemini müəyyən etdi və iki növ – milli-ərazi (regional) və yerli (inzibati) muxtariyyətin mövcudluğunu konkretləşdirdi. Kastiliya dili ölkənin rəsmi dili elan edildi. Hazırda bütün "milli" regionlarda ispan dilini bilmək məcburidir və buna görə ispan dili yalnız de-yure deyil, həm də de-fakto dövlət dilidir. Muxtar region öz statutuna uyğun olaraq öz dilini ərazisində rəsmi dil elan edir. Konstitusiya ölkənin dil müxtəlifliyini xüsusi hörmətə layiq və müdafiə altında olan mədəni irs elan edir. Milli regionlara öz bayraqlarına və gerb nişanlarına malik olmaq hüququ tanınır. Muxtariyyətin rəmzləri dövlət təşkilatlarında və rəsmi tədbirlərdə İspaniyanın dövlət bayrağı ilə yanaşı istifadə olunur (maddə 4) [13, s. 4].

“Ərazi muxtariyyəti” anlayışı altında “milli və regional muxtariyyətlər” başa düşülür. Onlara muxtariyyət əsasnamə ilə muxtar icmalar formasında verilir. Bu status dövlətin vahidliyi prinsipinə maksimum uyğun olan muxtar qərarların qəbul edilməsi dərəcəsini müəyyən edir. Muxtar icmalar öz qanunvericiliyinə, nümayəndəli və icra hakimiyyəti orqanlarına malikdir. “Yerli muxtariyyət” anlayışı altında yerli korporasiyaların siyasi qərarlar qəbul etmək funksiyası tələb etməyən maraqlarının tanınması başa düşülür. Belə muxtariyyət öz qanunvericiliyinə malik deyil [6, s. 123-125; 15, s. 199-200]. Konstitusiya muxtariyyət statusu əldə etməyin iki yolunu göstərir: “sürətli” (maddə 151) və “tədricən” (maddə 143). Bu iki yol reallıqda da öz əksini tapdı – ənənəvi muxtar qurumlar (Kataloniya, Basklar ölkəsi, Qalisiya) və inzibati qaydada yaradılan və hətta hərdən eyni əyalət daxilində mövcud olan muxtariyyətlər (Madrid, La-Rioxa, Mursiya) yarandı [1, s. 167]. Adi rejimli və ya “tədricən” yaranan muxtar icmalar muxtariyyətin bütün hüquq və səlahiyyətlərini yalnız 5 illik müddət başa çatdıqda əldə edirdi.

Konstitusiya xüsusi regional muxtar birliklərə geniş muxtariyyət hüquqları verilməsini nəzərdə tutur. Belə birliklər bir-biri ilə həmsərhəd, ümumi tarixi, mədəni və iqtisadi inkişaf xüsusiyyətlərinə malik olan əyalətlər, həmçinin vahid tarixi vilayəti təşkil edən ada əraziləri və əyalətləri tərəfindən yaradıla bilər (maddə 141). İspaniyada muxtariyyətin iki növü vardır: inzibati və milli-ərazi. Buna görə də İspaniya ölkənin tərkib hissələrinə əhəmiyyətli muxtariyyət statusu verən, lakin federasiya subyektləri kimi müstəqilliyə malik olmayan, bununla da onu sərt mərkəzləşdirilmiş unitar dövlətlərdən fərqləndirən regionalist dövlətdir.

Hər iki halda muxtariyyət haqqında məsələnin qoyuluşu təşəbbüsü siyasi elitadan – deputatlardan, siyasi partiya və alt parlamentlərin nümayəndələrindən gəlməli, əsasnamə layihəsi isə yerlərdə partiya və hərəkatların, aralıq hökumət orqanlarının təmsilçilərindən təşkil edilən xüsusi assambleyalar tərəfindən hazırlanmalı idi. İnzibati muxtariyyətə malik regionlar birləşmiş əyalətlərin əyalət şuralarının və bələdiyyə şuralarının 2/3-sinin təşəbbüsü ilə yaradılırdı. Daha sonra əyalət şuraları, həmin əyalətlərdən korteslərə seçilmiş deputat və senatorlardan ibarət təsis assambleyası muxtariyyətin statututunun layihəsini hazırlayır və onu qanunvericilik təşəbbüsü qaydasında Baş korteslərə təqdim edirdi. Milli-ərazi muxtariyyəti ilə bağlı təşəbbüsü isə əyalətlətlərin şuraları və bələdiyyə şuralarının 3/4-ü dəstəkləməli, əsasnamə layihəsi isə ümumregion referendumunda qəbul olunmalı idi. Daha sonra həmin əyalətlərdən Baş korteslərə seçilmiş deputatlar və senatorlar muxtariyyətin statutunu hazırlamaq və təsdiqləmək üçün müəssislər assambleyası təşkil edirdi. Bunun ardınca Deputatlar konqresinin xüsusi komissiyasında layihəyə baxılır və yekun şəkildə hazırlanırdı. Növbəti mərhələdə statutun layihəsi gələcək muxtariyyəti təşkil edəcək regionda keçirilən referendumda sadə səs çoxluğu ilə bəyənildikdən sonra statutun layihəsi baxılmaq və təsdiqlənmək üçün Baş korteslərin palatalarına təqdim edilir və hər iki palata tərəfindən bəyənildikdən sonra hüquqi qüvvə alırdı.

Statut layihəsi parlamentin hər iki palatası tərəfindən muxtariyyət haqqında orqanik qanun şəklində təsdiq edilir və statut ümumispan qanunvericiliyinin tərkib hissəsi və muxtar vilayətin əsas hüquqi aktı olur (maddə 147). Muxtariyyətlərin statutları birliyin daha çox tarixi görünüşünə uyğun adını, ərazisinin sərhədlərini, rəsmi adını, strukturunu və muxtar təsisatların yerləşdiyi yeri, Konstitusiya çərçivəsində səlahiyyətləri və ona müvafiq xidmətləri göstərməyə verən əsasları ehtiva edir. İnzibati muxtariyyətin əsasnaməsində onun qəbul edilməsindən 5 il ötdükdən sonra dəyişiklik edilə bilər. Milli-ərazi muxtariyyətində isə regionlar istənilən vaxt öz əsasnamələrinə dəyişiklik edir [4, s. 78-79, 86; 8, s. 603-604; 13, s. 39-40, 45].

İspaniya Konstitusiyası regional muxtar birliklərin öz idarəetmə orqanlarının yaradılması; regiona daxil olan bələdiyyələrin sərhədlərinin dəyişdirilməsi; bələdiyyələrin ərazisinin təkmilləşdirilməsi; ictimai işlər; yaşayış məntəqələrində yerləşən yollar və şose yolları; kənd təsərrüfatı; heyvandarlıq; dağ və meşə ehtiyatlarından istifadə; ətraf mühitin mühafizəsi; muxtariyyətin iqtisadi inkişafı; mədəni tərəqqi; sosial təminat; səhiyyə və gigiyena və s. məsələlərin daxil olduğu kifayət qədər geniş səlahiyyət dairəsini möhkəmləndirir (maddə 148). Həmçinin muxtar icmalar və yerli korporasiyalara Konstitusiyaya və qanunlara uyğun olaraq vergilər müəyyənləşdirmək və yığmaq hüququ verilir (maddə 133-2). Konstitusiya həmçinin müstəsna olaraq dövlətin səlahiyyətində olan məsələləri müəyyənləşdirir (maddə 149) [13, s. 36, 40-44].

Yarandıqdan 5 il sonra muxtariyyət müstəsna olaraq dövlətin səlahiyyətinə daxil olan məsələlər hesabına öz səlahiyyətlərini genişləndirə bilər. Bu, muxtariyyətin statutuna dəyişikliklər etməklə ola bilər. Digər tərəfdən Baş korteslər qanunvericiliyə uyğun olaraq, ümumdövlət qanunu ilə müəyyənləşdirilmiş prinsiplərə əməl edilməsi şərti ilə dövlətin səlahiyyətlərinə aid sahələrə üzrə səlahiyyətləri muxtariyyətlərə verə bilər. Belə səlahiyyətlər ölkə parlamenti tərəfindən hər bir belə halda bu cür qanunvericiliyə görə müvafiq maliyyə vasitələrinin və nəzarət formasının transfer edilməsini nəzərdə tutan orqanik qanunun qəbul edilməsi yolu ilə ötürülə bilər [8, s. 604].

Muxtar vilayətlər öz hakimiyyət və idarəetmə orqanlarına malikdir. Hakimiyyət sistemində aparıcı yeri vilayət əhalisinin nümayəndəli təmsilçilik orqanı olan parlament tutur. Parlament – birpalatalı təsisat olub, proporsional təmsilçilik prinsipi üzrə keçirilən ümumi seçkilərdə formalaşır və öz səlahiyyətləri çərçivəsində qanunverici hakimiyyət orqanıdır. Parlament 4 il müddətinə seçilir və səlahiyyət müddəti başa çatmamış buraxıla bilməz. Onun səlahiyyətləri seçki müddəti bitdikdə qurtarır. Parlamentin əsas funksiyaları muxtariyyətin sosial, iqtisadi və mədəni həyatının əsas istiqamətləri üzrə qanun layihələrinin müzakirəsi və muxtariyyətin qanunlarının qəbul edilməsidir.

Parlamentin maliyyə sahəsində də əhəmiyyətli səlahiyyətləri vardır. Bu, ilk növbədə özünü muxtariyyət hökumətinin təqdim etdiyi vilayətin büdcəsinin müzakirə edilməsində göstərir. Parlament vilayət büdcəsinin icrasına nəzarəti həyata keçirir. Həmçinin vilayətdə vergilər, yığımlar, tariflər və digər ödəniş növləri müəyyən etmək hüququna malik olub, qiymətli kağızların emissiyasını həyata keçirir. Parlament vilayəti Baş korteslərin Senatında təmsil edən senatorları təyin edir. Senatorlar parlament fraksiyalarının təmsilçilik proporsiyası nəzərə alınmaqla təyin edilir. Parlamentin funksiyalarına muxtariyyət hökumətinin başçısının təyin edilməsi və ya seçilməsi də daxildir. Bir neçə vilayətdə parlament bir sıra xarici parlamentlərdə ombudsmanın funksiyalarını yerinə yetirən şəxsi (xalq müdafiəçisini) təyin etmək səlahiyyətinə malikdir.

Muxtar vilayətin idarə olunmasında icraedici və inzibati funksiyaları həyata keçirən orqan çox mühüm rol oynayır. Bir çox hallarda bu orqan hökumət və ya hökumət şurası adlanır (Kataloniyada – İcraedici Şura, Andalusiyada – Xunta (Şura) və s.). Muxtariyyət hökumətinin strukturu, onun səlahiyyətləri və fəaliyyət formaları muxtariyyət parlamentinin qəbul etdiyi cari qanunvericiliklə müəyyənləşir. Muxtariyyətin hökuməti üzvlərinin sayı 10-15 arasında dəyişən müşavirlərdən ibarətdir. Hökumətin hər bir üzvü onun rəhbərliyinə verilmiş fəaliyyət sahəsində (iqtisadiyyat, kənd təsərrüfatı, ticarət, maliyyə, daxili işlər, ədliyyə və s.) onun ünvanına verilən parlament interpellyasiyası (sorğusu) üzrə fərdi məsuliyyət daşıyır.

Hökumət şurasının sədri muxtariyyətin icra hakimiyyəti orqanları sistemində əlaqələndirici vəzifəli şəxsdir. O, parlament tərəfindən öz deputatları sırasından parlamentin səlahiyyət müddətinə seçilir. Seçilmiş şəxs Kral fərmanı ilə muxtariyyətin hökumət sədri vəzifəsinə təyin olunur ki, bu da regionun icra hakimiyyəti orqanı başçısının vacib vəzifə olduğunu sübut edir. Hökumətin sədri öz funksiyalarının həyata keçirilməsinə görə parlament qarşısında fərdi məsuliyyət daşıyır. Parlament ona etimadsızlıq votumu göstərə bilər, bu halda sədr və bütün hökumətin tərkibi istefa verir. Hökumətin sədri parlamentin razılığını almadan öz sərəncamı ilə hökumət üzvlərini vəzifəyə təyin və vəzifədən azad edir. O, muxtariyyət parlamentində hökumət adından qanunvericilik təşəbbüsü qaldırır, iki həftə ərzində parlamentin qəbul etdiyi qanunları elan edir [8, s. 605].

Bir qayda olaraq, muxtar hökumət mərkəzi hakimiyyət və idarəetmə orqanlarının preroqativi olan xarici siyasət sahəsində hər hansı funksiyalardan məhrum edilmişdir. Lakin statutlarda muxtariyyətin mənafeyinə toxunan xarici siyasət məsələlərinə dair muxtariyyət hökumətinin məlumat alması hüququ təsbit olunmuşdur. Bunlar sərhəd, gömrük, miqrasiya, ispan fəhlələrinin digər ölkələrdəki hüquqi vəziyyətinə dair və s. məsələlər ola bilər. Hökumət təhlükəsizlik məqsədi ilə birbaşa özünə tabe olan xüsusi polis hissələri yarada bilər. Muxtariyyətin təhlükəsizliyinin qorunması istiqamətində hökumət öz fəaliyyətini mərkəzi hökumətin fəaliyyəti ilə əlaqələndirir.

Konstitusiyanın 87-ci maddəsinə görə muxtar regionun Baş korteslərdə birbaşa qanunvericilik təşəbbüsü hüququ olmasa da (bu hüquq yalnız hökumətə və parlamentin palatalarına verilmişdir – E.C.), muxtar icmanın assambleyası qanun layihəsinin qəbulu ilə bağlı hökumətə və ya Konqresin rəyasət heyətinə qanunvericilik təklifi haqqında xahişlə müraciət edə və bu təklifi müdafiə üçün həmin palataya üç üzvünü göndərə bilər. Muxtariyyətin parlamenti hansısa

ümummilli qanunun Konstitusiyaya uyğun olmadığı barədə iddia ilə İspaniya Konstitusiya məhkəməsinə müraciət etmək hüququna malikdir. Bundan başqa, muxtar icmalar İspaniyanın Avropa İttifaqı (Aİ) çərçivəsində qərarlar qəbul etməsi prosesində iştirak edir.

Beləliklə, İspaniya Konstitusiyası ölkənin 17 tarixi regionuna kifayət qədər geniş daxili muxtariyyət səlahiyyətləri vermişdir. Basklar ölkəsi və Kataloniya hətta xarici ölkələrə iqtisadi əlaqələr qurmaq hüququ əldə etmişdir. Lakin bu fakt onların milli fərqliliyi ilə bağlı deyil. Sadəcə bu regionlar ən sənayeləşmiş və ölkənin sərhədlərində yerləşdikləri üçün xarici bazara birbaşa çıxışa malikdir. Ümumiyyətlə, regionların 2-si (Basklar ölkəsi, Kataloniya) 1979-cu ilin dekabrında, 4-ü (Andalusiya, Asturiya, Qalisiya, Kantabriya) 1981-ci ildə, 7-si (La Rioxa, Mursiya, Valensiya, Araqon, Kastiliya-La Mança, Kanar adaları, Navarra) 1982-ci ildə seçkilərədək muxtariyyət əldə etmişdi. Qalan 4 region (Kastiliya və Leon, Madrid, Balear adaları, Ekstremadura) 1983-cü ildə muxtariyyət statusu qazandı. 1995-ci ilin martında Afrika qitəsində yerləşən Seuta və Melilya şəhərlərinin muxtariyyət əsasnamələri qəbul edildi. Lakin muxtar icmalardan fərqli olaraq muxtar şəhərlər öz qanunverici orqanlarını yaratmaq hüququna amlik deyillər.

1980-ci illər "muxtariyyətlər dövləti"nin inkişafında dönüş dövrü oldu. Muxtariyyət üzrə komissiya ekspertlərinin hesabatı və 1981-ci il iyulun 31-də ispan hökuməti və İSFP tərəfindən imzalanan "Muxtariyyət müqaviləsi" hakimiyyətin ötürülməsi prosesini müəyyən qədər qaydaya salmaq, muxtariyyətləşmə prosesinin dərinləşməsini təmin edən operativ əsasların yaradılması cəhdlərini özündə əks etdirirdi. 1982-ci ilin iyununda Deputatlar konqresi tərəfindən "Muxtariyyətləşmə prosesinin əlaqələndirilməsi haqqında" Orqanik Qanun qəbul edildi. Qanundakı müvəqqəti qeydə görə onun qüvvəyə minməsi 5 ay müddətinə təxirə salınırdı. Çoxluğun milli siyasi partiyaları olan Demokratik Mərkəz İttifaqı (DMİ) ilə İSFP azlığı təmsil edən partiyalarının və regional milli partiyaların ilkin iştirakı olmadan "Muxtariyyət müqaviləsi"ni işləyib hazırladı. Bu, mərkəzlə əyalətlər arasında birləşmədən geri addım atmaq demək idi. Məhz bu amil Kataloniya və Baskoniyanın regional hökumətlərinin "Muxtariyyətləşmə prosesinin əlaqələndirilməsi haqqında" qanunu rədd etməsinə səbəb oldu [1, s. 168, 170; 13, s. 39].

Ölkədə baş verənləri mərkəzi hakimiyyətin zəifləməsi kimi qiymətləndirən bir qrup hərbiçinin 1981-ci il fevralın 23-də baş verən və kral tərəfindən dəstəklənmədiyi üçün uğursuzluğa düçar olan dövlət çevrilişi cəhdindən sonra hakimiyyət müxalifətlə "muxtariyyətləşmə" prosesini zəiflətmək, ordunu və sağçı qüvvələri sakitləşdirmək barədə razılığa gəldi. Kataloniya, Basklar ölkəsi, Qalisiya və Andalusiya ilə yanaşı, muxtariyyətə can atan digər regionlar da Konstitusiyanın regionların və əyalətlərin statusunu müəyyən edən 143-cü maddəsi ilə qane olmalı idilər. Korteslərə 1981-ci il sentyabrın 29-da təqdim edilən ziddiyyətli "Harmonik muxtariyyət haqqında" Qanun 1980-ci ilin martında keçirilən regional seçkilərdə muxtariyyətin ilk meyvəsini dadan baskların və katalonların kəskin müqaviməti ilə qarşılaşdı: qanun layihəsi Konstitusiya məhkəməsinə verildi, o isə öz növbəsində qanunu muxtariyyətləşmə prosesində geriyə addım kimi qiymətləndirdi. İspaniyanın NATO-ya üzv qəbul olunması (1982, 30 may) hərbi dairələrin sakitləşdirilməsində mühüm rol oynadı, əvəzində muxtariyyətləşmə prosesi daha rəvan davam etdirildi [10, s. 282, 284]. Bir çox regionlarda muxtariyyət institutlarının hələ yaradılmaqda olmasına baxmayaraq, regional-milli problemin həlli xalqın böyük dəstəyini qazandı. 1982-ci ildə keçirilən sorğunun nəticələrinə görə, ispanların 47%-i öz muxtariyyətini müdafiə edəcəyini bildirmiş, 28%-i mərkəzçiliyin tərəfdarı olmuş, 11%-i federalizmi bəyənmiş, 4%-i isə öz icmasının müstəqilliyini istəmişdi [20, s. 391].

1983-cü ilin avqustunda Konstitusiya məhkəməsinin qərarı ilə "Muxtariyyətləşmə prosesinin əlaqələndirilməsi haqqında" qanunun 38 maddəsindən 14-ü etibarsız elan edildi. Bu o demək idi ki, heç bir qanun Konstitusiya ilə muxtariyyət əsasnamələri arasında vasitəçi qanun kimi çıxış edə bilməz, çünki əsasnamələrin özü konstitusion xarakter daşıyırdı [11, s. 176-219; 17]. Konstitusiya məhkəməsinin qərarının ardından 1983-cü il oktyabrın 14-də "Muxtariyyətləşmə prosesi haqqında" qanun qəbul edildi. Qanun hər bir muxtar regiona özünün paytaxtı olması hüququnu verərək yeni siyasi-inzibati bölgünü təsdiqlədi. 15 keçmiş tarixi vilayətin əvəzində yaradılan 17 muxtar regiondan 11-i (Kataloniya, Basklar ölkəsi, Qalisiya, Andalusiya, Araqon, Valensiya, Ekstremadura, Asturiya, Navarra, Balear adaları və Kanar adaları) tamamilə əvvəlki tarixi vilayətlərin yerində və onların sərhədlərinə uyğun idi. Eyni zamanda qədim Kastiliyanın və

Leonun böyük hissəsinin birləşdirilməsi yolu ilə yeni Kastiliya və Leon muxtar icması, Yeni Kastiliyanın böyük hissəsinin Mursiya tarixi vilayətinin ərazisindən ayırılmış Albasete əyalətinə birləşdirilməsi yolu ilə Kastiliya-La Manç muxtar icması təşkil edildi. Həmçinin hər biri eyniadlı regionun ərazisində yerləşən üç (Madrid, Kantabriya, La-Rioxa) yeni muxtar icma yaradıldı [5, s. 63]. Muxtariyyətlər iki müxtəlif səlahiyyətlər səviyyəsinə uyğun yaradıldı: onlardan 7-si (Kataloniya, Basklar ölkəsi, Qalisiya, Andalusiya, Navarra, Valensiya və Kanar adaları) yüksək (milli) muxtariyyət səviyyəsi əldə etdi, qalanları müəyyən müddət aşağı səlahiyyətlərə malik oldu.

Bundan sonra səlahiyyətlərin ötürülməsi mərhələsi dövlətlə muxtariyyətlər arasında münaqişələrlə müşayiət olundu. Ən münaqişəli il 1985-ci il oldu: Konstitusiya məhkəməsi həmin il 131 səlahiyyət münaqişəsinə baxdı ki, bunlardan 22%-i Kataloniya və Basklar ölkəsidən qaynaqlanmışdı. 1981-1991-ci illər arasında muxtariyyətlər tərəfindən təqdim edilən 460 tələbdən 209-unu Kataloniya, 164-ünü Basklar ölkəsi, 60-ını Qalisiya irəli sürmüşdü. 1980-ci illər ərzində bu üç icma mövcud mübahisələrdən 88%-inə cavabdehlik daşıyırdı. 1983-1986-cı illərdə mərkəzi hökumət muxtariyyətlərin qəbul etdiyi 45 qanundan şikayət vermişdi ki, bunlardan 21-i millətçi partiyaların idarə etdiyi muxtariyyətlərə (Kataloniya və Basklar ölkəsi) aid idi. Mərkəzi hökumət diplomatik nümayəndəliklərə malik olmaq hüququnun konstitusion baxımdan muxtariyyətlərə şamil edilmədiyini əsas göstərərək, Konstitusiya məhkəməsi qarşısında baskların Brüsseldə nümayəndəliyinin qanuniliyi barədə məsələ qaldırmışdı. 1984-1987-ci illərdə Konstitusiya məhkəməsi 429 münaqişəyə baxmış və 100 hökm çıxarmışdı [1, s. 168-169; 10, s. 287].

1985-ci ilin iyununda muxtariyyətlərdə seçkilərin bir sıra cəhətləri haqqında müddəaların yer aldığı "Ümumi seçki rejimi haqqında" qanun qəbul edildi. Aprel ayında qəbul edilən "Yerli rejim haqqında" qanunla bələdiyyə; əyalət; ada (Balear və Kanar adaları) ərazi qurumu kimi müəyyən edildi. İyul ayında isə yuxarı məhkəmə orqanlarının muxtar icmalarda ədalət mühakiməsini həyata keçirməsini tənzimləyən "Məhkəmə hakimiyyəti haqqında" qanun təsdiq edildi. Muxtariyyətlər yuxarı məhkəmələrin ərazi orqanları qismində müəyyən edildi. 1986-cı ilin mart ayında təsdiq edilən "Təhlükəsizlik qüvvələri və xidmətləri haqqında" qanun muxtar icmalara öz əsasnaməsində göstərilən qaydalara uyğun olaraq, muxtariyyət polisini yaratmaq icazəsi verdi. Bunlardan başqa, təhsil, səhiyyə, sosial təminat və s. sahələrdə səlahiyyətlərin yenidən bölünməsinə dair bir sıra qanunvericilik aktları qəbul edildi.

Muxtariyyətlər dövlətinin inkişafında mühüm hadisələrdən biri, şübhəsiz ki, 1986-cı ildə İspaniyanın Aİ-na daxil olması idi. Beləliklə, İspaniyada iki bir-birinə zidd proses – əks-mərkəzləşdirmə və birləşmə yanaşı inkişaf etməyə başladı [20, s. 482]. 1988-ci ilin sonunda ümumavropa işlərinə məsul olan mərkəzi administrasiya nümayəndələri ilə muxtar icmalardan olan müşavirləri birləşdirən "Avropa İttifaqı ilə əlaqələrə dair konfrans" təsis edildi. Kataloniya və Basklar ölkəsi mərkəzi hökumətlə ikitərəfli münasibətlərin tərəfdarı kimi çıxış edərək, "Konfrans"da iştirak etməyə razı olmadı. "Konfrans" 1994-cü ildə "Sektor konfransları vasitəsi ilə muxtariyyətlərin ümumavropa işlərində daxili iştirakı haqqında" müqaviləni qəbul etdi. Bu müqavilə ilə muxtariyyətlər onların səlahiyyətlərinə daxil olan məsələlər üzrə dövlətin Aİ ilə münasibətlərində mövqeyinin formalaşdırılmasında iştirak etmək hüququ qazandı.

1992-ci ilin fevralında İSFP hökuməti ilə Xalq partiyası arasında "Muxtariyyət müqavilələri" imzalandı. Bu müqavilələrin imzalanmasında əsas məqsəd Konstitusiyanın "Dövlətin ərazi quruluşu haqqında" VIII fəslinin həyata keçirilməsi ilə bağlı olan muxtariyyətləşmə prosesini başa çatdırmaq, muxtariyyət dövlətinin sabit fəaliyyət göstərməsini təmin etmək, bərabərlik prinsipi əsasında muxtariyyətlərin öz səlahiyyətlərini genişləndirmək cəhdlərini razı salmaq idi [1, s. 170]. Muxtariyyət müqavilələri ümumi rejimli 10 icmaya (Asturiya, Kantabriya, La-Rioxa, Mursiya, Araqon, Kastiliya-La Manç, Ekstremadura, Balear adaları, Madrid, Kastiliya və Leon) 1992-ci ilin dekabrında qəbul edilən "Konstitusiyanın 143-cü maddəsinə uyğun muxtariyyətlə razılaşmış muxtar icmalara səlahiyyətlərin ötürülməsi haqqında" Orqanik Qanunla səlahiyyətlərini genişləndirməyə imkan verdi. Müqavilələrə və həmin qanuna əsasən muxtariyyətlər daha 32 yeni səlahiyyət aldılar və öz əsasnamələrini əsaslı şəkildə dəyişdirdilər [18, s. 43863-43867].

1992-ci ilin muxtariyyət müqavilələri və digər islahatlar muxtariyyət sisteminin möhkəmlənməsinə gətirib çıxardı. Ən müsbət nəticələrdən biri mərkəzi hökumətlə muxtariyyətlər

arasında Konstitusiya məhkəməsi vasitəsi ilə həll edilən münaqişələrin azalması oldu. Belə ki, əgər 1985-ci ildə 131 qanun mübahisə obyekti olmuşdusa, 1989-cu ildə 60, 1993-cü ildə cəmi 16 qanun mübahisə doğurmuşdu [20, s. 485].

Unitar dövlətdən muxtariyyətlər dövlətinə keçidin İspaniya modeli bir sıra üstünlüklərə malikdir. Muxtariyyətləşmə prosesində ərazi bütövlüyü, vahid iqtisadi və vahid hüquq məkanları qorunub saxlanıldı. Bunlarsız konsolidasiya, demokratiya, əhəmiyyətli iqtisadi artım, ölkənin beynəlxalq nüfuzunun möhkəmləndirilməsi mümkün olmazdı. İspaniya hakimiyyətinin böyük xidmətlərindən biri muxtariyyətləşmə prosesini, bütün problemlərə rəğmən, demokratikləşmə prosesi ilə paralel idarə edə bilməsi idi. Belə ki, regionlara muxtar statusun verilməsi həmin dövrdə dövlətin xaotik şəkildə parçalanması prosesinə çevrilmədi. Konstitusiyanın ölkənin muxtar icmaların federasiyasına çevrilməsini qəti qadağan etməsi (maddə 145-I) İspaniyanın unitar "muxtariyyətlər dövləti" statusunu təmin edir. "Muxtariyyətlər dövləti" – unitar dövlətlə federasiya arasında aralıq, kompromis dövlət forması kimi çıxış edir. Tədqiqatçıların bir çoxu həmrəydir ki, İspaniyada demokratikləşmə prosesində milli-regional problem nisbətən uğurla və effektiv həll olunmuşdur [1, s. 165-172; 2, s. 121-129; 5; 7; 14, s. 40-45; 19, s. 219-243; 20; 22, s. 365-389].

Regionalist dövlətə xas olan ərazilər arasındakı asimmetriya ölkənin milli ərazi quruluşuna dair problemlər kimi başa düşülə bilər. Belə ki, Konstitusiyanın 2-ci maddəsi millətlər və regionlar arasında fərq qoyur, 143-cü və 151-ci maddələrlə muxtar icmalar fərqləndirilir [13, s. 3, 25, 39, 45]. Lakin İspaniyanın regionalist dövlətə çevrilməsi ölkədə regional münasibətlərin digər mədəni və hətta dil müxtəlifliyindən daha üstün olmasının dövlət quruluşunda əks olunan ifadəsinə çevrilmişdir. Son onilliklərdə ölkədə baş verən proseslər əhalinin həyatında etnik faktorun gücləndiyini söyləməyə imkan verir. Lakin burada etnik qrupa mənsubluq "qan üzrə" deyil, bu və ya digər muxtar regionun ərazisində yaşamaq amili ilə müəyyən edilir. Buna görə də kastiliya dilində danışan regionlardan çıxan əhali zaman ötdükcə öz "kiçik vətən"i ilə əlaqəni itirərək, hazırda yaşadığı region əhalisi ilə özünü eyniləşdirmə prosesinə daxil olur və müvafiq olaraq Basklar ölkəsində özlərini basklar, Kataloniyada – katalan, Qalisiyada – qalisiyalı, Navarrada isə – navarralı hesab edir. Bu baxımdan İspaniyada milli-ərazi muxtariyyəti əldə etmiş etnik qruplar yaşadıqları regionların avtoxton əhalisidir. Ölkənin hüquqi-siyasi müstəvidə muxtar tarixi regionlara bölgüsündə etnik-dil amilindən çox tarixi-coğrafi və mədəni amil həlledici olmuşdur. Çünki etnik qruplar hazırda yaşadıqları ərazilərdə orta əsrlərdə öz dövlətçiliyinə malik olmuşlar.

Beləliklə, İspaniyada tarixən münaqişəli olan milli-regional problemin səmərəli həlli nümunəsinə cəhd göstərilmişdir. Milli-regional ziddiyyətlərin bu formada həlli heç də əsas milli azlıqları razı salmamışdır. Buna görə də, fikrimizcə, bəzi tədqiqatçıların iddia etdiyinin əksinə olaraq, bu forma həyat qabiliyyətli olduğunu sübut etsə də, millətçi və separatçı tendensiyaları nəinki birdəfəlik aradan qaldırmamış, hətta buna müəyyən yeni təkan da vermiş, çoxmillətli dövləti gələcəkdə parçalanma təhlükəsi qarşısında qoymuşdur. Xüsusən Basklar ölkəsində və Kataloniyada İspaniyadan ayrılmaq çağırışlarının səngiməməsi bunun sübutudur. Basklar ölkəsində 2011-ci ilədək ETA-nın (1959-cu ildə yaradılıb – E.C.) terrorçu fəaliyyəti, Kataloniyada 2014-cü il noyabrın 9-da baş tutan qeyri-rəsmi səsvermənin və 2017-ci il oktyabrın 1-də keçirilən referendumun nəticələri (müvafiq olaraq 80,76 % və 90,18% seçici regionun müstəqilliyinə tərəfdar çıxıb) separatizmin hələ güclü şəkildə İspaniya dövlətinin vahidliyini təhdid etdiyinin göstəricisidir.

## ƏDƏBİYYAT


1. Годлевская В.Ю. Формирование государства автономий в Испании в условиях установления и консолидации демократии (1975-1996 гг.) // Вестник Томского государственного университета. История. 2013, № 5 (25), с. 165-172
2. Данилевич И.В. Автономизация Испании // Полис, 1995, № 5, с. 121-129
3. Испания в начале XXI века: учеб. Пособие. Отв. ред. С.М. Хенкин. Москва: МГИМО (У) МИД России, 2006, 168 с.
4. Испания. Конституция и законодательные акты. Москва: Прогресс, 1982, 351 с.
5. Испания: траектория модернизации на исходе двадцатого века. Москва; ИЛА РАН, 2006, 499 с.

6. Калинин В.В. Испанская конституция 1978 г. // Из истории европейского парламентаризма: Испания и Португалия. С.П.Пожарская (отв. ред.). Москва; РАН, Институт всеобщей истории, 1996, с. 123-125
7. Кожановский А.Н. Народы Испании во второй половине XX в.: (опыт автономизации и национального развития). Москва; Наука, 1993, 189 с.
8. Конституционное право зарубежных стран. Под общ. ред. чл.-корр. РАН, проф. М.В.Баглая, д.ю.н., проф. Ю.И.Лейбо и д.ю.н., проф. Л.М.Энтина. Москва: Норма, 2004, 832 с.
9. Конституция Испанской Руспублики от 9 декабря 1931 года / http://worldconstitutions.ru/?p=770, Daxil olma tarixi: 7.10.2017
10. Лалагуна Х. Испания: История страны. Пер.с англ. Е.Габитбаевой, М.Башкатова. Москва: Эксмо; Санкт-Петербург; Мидгард, 2009, 352 с.
11. Линц Х. Испанская демократия и государство автономий // Казанский федералист, 2010, № 1-2 (23-24), с. 176-219
12. Spain in the 1980[1]s: The Democratic transicion a new international role / Ed. By Clark R.P., Haltzel M.H. Cambridge (Mass.): Ballinger, 1987, pp. 204
13. Spanish Constitution, pp. 55, http://www.parliament.am/library/sahmanadrutyunner/ispania.pdf Daxil olma tarixi: 6.10.2017
14. Blas Querrero A. de. Estado de las autonomías y transición política // Transicion politica y consolidacion democratica. Espana (1975-1986). Madrid: Centro de Investigaciones Sociologicas, 1992, p. 105-121
15. Cotarelo R. Valores y prinsipios de la Constitucion de 1978 // Transicion politica y consolidacion democratica. Espana (1975-1986). Madrid; Centro de investigaciones sociologicas, 1992, p. 199-200
16. Fusi J. El desarrollo autonomico. El desarrollo autonómico // Tusell J., Soto A. Historia de transicion 1975-1986. Madrid; 1996, p. 444-464
17. La resaca de la LOAPA / El Pais. 16 de agosto de 1983.
18. Ley Orgánica 9/1992, de 23 de diciembre, de transferencia de competencias a Comunidades Autónomas que accedieron a la autonomía por la vía del artículo 143 de la Constitución // Boletín Oficial del Estado, núm. 308 de 24 de diciembre de 1992, p. 43863-43867
19. Nogueira j. Vilas. La organizacion territorial del Estado // Transicion politica y consolidacion democratica. Espana (1975-1986) Madrid; Centro de investigaciones sociologicas, 1992, p. 219-243
20. Powell Ch. Espana en democracia. 1975-2000. Barcelona: Plaza Janez, 2001, p. 688
21. Uriarte E. Ciudadanos y partidos en el consenso y disenso sobre el estado de las autonomías // REIS, 2002, № 100, p. 255-276
22. Valles Josep M. La politica autonomica como politica de reforma institucional // Transicion politica y consolidacion democratica. Espana (1975-1986). Madrid: Centro de investigaciones sociologicas, 1992, p. 365-389
23. http://ourspain.ru
24. http://valhalla-club.com
25. http://www.spain.info.

## ABSTRACT

**Elman Jafarli**

## KINGDOM OF SPAIN: "THE STATE OF AUTONOMİES"

The Kingdom of Spain is a unitary state for its structure and a constitutional monarchy for its form of governance. The country's 1978 Constitution recognizes the right of autonomy “nations and regions”. This provision is the basis of the Spanish territorial organization. So that, all 17 regions included in the administrative territory of the country have an autonomous status. Spain has given this status to its regions on two principles: national-regional and administrative autonomy. Seven regions (Andalusia, Basque Country, Canary Islands, Catalonia, Galicia, Navarra, Valencia)

are national-regional and the rest of the ten regions (Aragon, Asturias, Balearic Islands, Extremadura, Cantabria, Castilla-La Mancha, Castilla and Leon, La Rioha, Madrid, Morsia) have administrative autonomy statuse of the regions. Historical-administrative division of the country were taken into consideration while these autonomies were being created, 17 autonomy was arranged in 15 historical areas. Spain is called the “state of autonomies” because of all administrative district units have autonomous status. Although this administrative structure seems to have shaped the country from uniformity to the federation, but the constitution prohibits Spain from becoming a federation. Therefore, this form of a unitary state is often called a “regionalist state”. Autonomy carried out the process of democratization in the 1970′s is an important stage in solving national-ethnic problems in the country. However, separatism is not decrease in some national regions especially referendum on secession in Catalonia in October 2017 proves that the threat to the territorial integrity of Spain is not fully resolved.

## РЕЗЮМЕ

**Эльман Джафарли**

## КОРОЛЕВСТВО ИСПАНИИ: “ГОСУДАРСТВО АВТОНОМИЙ”

Королевство Испании по своему устройству является унитарным государством, а по форме правления конституционной монархией. Конституция страны 1978 года признает право автономии “нациям и регионам”. Это положение является основой территориальной организации Испании. Так все 17 регионов, входящих в административную территорию страны, имеют автономный статус. Испания предоставила этот статус своим регионам по двум принципам: национально-территориальная автономия и административная автономия. Семь из регионов страны (Андалусия, Страна Басков, Канарские острова, Каталония, Галисия, Наварра, Валенсия) имеют статуса национально-территориальной, а десять (Арагон, Астурия, Балеарские острова, Экстремадура, Кантабрия, Кастилия-Ла-Манча, Кастилия и Леон, Ла Риоха, Мадрид и Мурсия) административной автономии. При создании этих автономий учитывалось историко-административное деление страны, и эти 17 автономий были организованы в территории 15 исторических регионах. Испания называется “автономным государством” из-за предоставлении ею своим всем административно-территориальным единицам статуса автономнии. Хотя эта административная структура по виду наклонила страну из унитарства в федерацию, но Конституция запрещает Испании становиться федерацией. Поэтому эту форму унитарного государства более называют “регионалистским государством”. Автономизация, последовавшая за процессом демократизации в 1970-х годах, является важной вехой в решении национально-этнической проблемы в стране. Однако не снижение сепаратизма в некоторых национальных регионах (Страна Басков, Каталония, Галисия), особенно референдум по сецессии в Каталонии проведенный в октябре 2017 года, доказывает, что угроза территориальной целостности Испании не полностью решена.

NDU-nun Elmi Şurasının 19 oktyabr 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 02).

**ŞÜKÜR MƏMMƏDOV**
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 1(091)**

# FEODALİZMİN SON MƏRHƏLƏSİNDƏ SƏFƏVİLƏR İMPERİYASINDA MÜXALİFƏTÇİ SİYASİ-HÜQUQİ TƏLİMLƏR

**Açar sözlər:** *dini ideologiya, nöqtəvilik, müxalifətçi təlimlər, panteist baxışlar*
**Key words:** *Religious ideology, neutraids, oppositional studies, pansteistic views*
**Ключевые слова:** *религиозная идеология, ноктавия, оппозиционные ученые, пантеистические взгляды*

Orta əsrlərin son mərhələsi hesab elilən XVII əsrin ilk onilliklərində Səfəvilər imperiyasında feodal zülmü, ağır vergi və mükəlləfiyyətlər son dərəcədə artdı. I Şah Abbasın apardığı köçürmələrin, fasiləsiz müharibələrin, hərbi yürüşlərin bütün ağırlığı xalq kütlələrinin üzərinə düşür, onların sosial hüquqsuzluğunu artırır, iqtisadi vəziyyətini daha da ağırlaşdırırdı. Bu səbəbdən də geniş kəndli kütlələrinin və şəhər yoxsullarının artan narazılıqları, antifeodal hərəkatları özlərinin ideya-nəzəri əsası olan müxtəlif təriqətçi təlimlərdə, siyasi-hüquqi baxışlarda əks olunurdu.

Bəhs edilən dövrdə Qərb dünyasında olduğu kimi, İslam Şərqində də hakim dini ideologiyadan kənarda heç bir düşüncə tərzi, müstəqil təlim və baxışlar sistemi mümkün deildi. Rəsmi islam ideologiyası həm hakim feodal sinfinin, həm də onların zülmü və istismarı altında olan məzlum kütlələrin varlığına hakim kəsilmişdi. Başqa sözlə deyilərsə üsyan edən məzlum təbəqələr də, onların hər cür narazılığını qan içində boğan feodal hakimlər də öz hərəkətlərini dini ehkamlarla əsaslandırmağa çalışırdılar. Lakin fərq burasındadır ki, hakim ortadoks dini təlim həmişə feodal sinfinə xidmət etdiyi halda, müxtəlif təriqətçi dini təlimlər, nəzəriyyələr məzlum kütlələrin arzu və istəklərini ifadə edirdi. Beləliklə mövcud feodal dövlət quruluşuna qarşı çevrilmiş təriqətçi təlimlər eyni zamanda həm də rəsmi dini ideologiyaya qarşı yönəlmiş olurdu. Buna görə də təriqətçi hərəkatlar hər yerdə hakim dini ideologiya tərəfindən küfr hesab edilir, onların boğulmasında dövlətlə rəsmi ortadoks qurumlar birgə hərəkət edirdilər.

Geniş kütlə mövcud quruluşdan və ağır sosial-iqtisadi vəziyyətlərindən nə qədər narazı olsalar da belə dinsiz kimi tanıdıqları müxalifət liderinin arxasınca getməzdilər. Ona görə də bütün antifeodal hərəkatlar dini bayraq və şüarlar altında gedir, onların rəhbərləri dini örtüyə bürünmüş olurdular. Hətta Səfəvi xanədanının nümayəndələri kimi, bəzi müxalifətçi təlimlərin nümayəndələri də (məs: Fəzlullah Nəimi) özlərinin peyğəmbər nəslindən olduqlarını iddia edirdilər.

XIV-XV əsrlərdə Cənubi Azərbaycan, Xorasan Kaşan, və bir çox digər ərazilər həmin dövrlərin Hülakilər, Teymurilər, Qaraqoyunlular, Ağqoyunlular dövlətlərinin tərkibinə daxil olub, dini-siyasi hərəkatlar üçün olduqca həssas bölgələr idi. Bu yerlərdə öz zamanlarında olduqca geniş yayılmış Sərbədolər, Hürufilər, digər müxtəlif təriqətçi təlimlərin ideyaları kütlələr içərisində hələ də yaşayırdı.

XVI əsrdə teokratik Səfəvilər imperiyasının meydana gəlməsi ilə mövcud siyasi-dini təriqətlərin, cərəyanların yeni ayrılmaları baş verdi. Həmin təriqət və cərəyanların müəyyən bir qismi hakim qızılbaş məfkurəsi ilə tədricən çulğalaşdı. Digər qisminə daxil olanlar isə həmin məfkurəyə qarşı çıxır və bidətçi kimi qiymətləndirilirdi. Səfəvi dövlətində qızılbaş ruhaniləri hər cür azad-fikirliliyi fanatikcəsinə təqib edirdilərsə, onun hüdudlarından kənarda qızıl-başlıq bəktaşiliklə birlikdə müxalifət hesab edilirdi.

Bütün təbliğata, cəza və edamlara baxmayaraq, Səfəvi imperiyasında hakim qızılbaş ideologiyası yeganə siyasi baxışlar sistemi deyildi. Gizli və aşkar şəkildə müxtəlif müxalifətçi təlimlər: qələndərilik, nöqtəvilik, hürufilik, rövşənilik, əliallahılıq və s. təbliğ olunurdu. İfrat şiə təriqətçiliyi qalmaqda davam edirdi. XVI yüzilliyin əvvəllərində Səfəvilərin arxalandığı şəhər

əhalisi, XVII əsrin əvvəllərində «heydəriyyə» adlanan və asketizmi təbliğ edən sufi təşkilatlarına, panteist meyilli «nemətullahiyyə» təliminə meyl edirdilər.

XVII əsrin məşhur Azərbaycan tarixçisi İsgəndər bəy Türkmanın (Münşinin) «Tarixi-aləmarayı-Abbasi» salnaməsindən göründüyü kimi, 1455-ci ildə qələndərlərin və cəmiyyətin tör-töküntülərinin bir dəstəsi» yeni dini təlimlərlə çıxış edərək Şah Təhmasibi İmam Mehdinin təcəssümü kimi qələmə verməyə cəhd edirdi. Başlanmış hərəkat elə geniş miqyas almışdı ki, Səfəvi hökmdarı onu yalnız üsyan rəhbərlərini edam etdirdikdən sonra yatıra bilmişdi»(1, s.340)

XVI-XVII yüzilliklərdə Səfəvilər dövlətində rəsmi qızılbaş təliminə qarşı müxalifətdə dayanan, elə bu səbəbdən də amansızcasına təqib olunan, geniş yayılmış bidətçi cərəyanlardan biri də nöqtəvillik idi. Nöqtəviliyin ilkin təşəkkülü hələ XIV əsrə-hürufiliyin böyük ideoloqu Fəzlullah Nəimi dövrünə gedib çıxır. Nöqtəviliyin əsas prinsipləri Nəiminin şagirdi Mahmud Pəsihani tərəfindən irəli sürülmüşdü. Zaman-zaman genişlənən bu təlimin tərəfdarları XVI əsrin sonlarında daha da artmışdı. Çoxsaylı ziyalılar və sənətkarlar bu hərəkata qoşulmuşdular. XVII əsrin ilk onilliklərində dərviş Xosrov Qəzvini, Yusif Tərkeşduz, dərviş Kiçik Qələndər təlimin görkəmli rəhbər xadimləri idilər. XVI əsrdəH etibarən Azərbaycanda da nöqtəvilik təriqəti yayılmışdı. Budaq bəy Din oğlu Ustaclı, həkim Süleyman Səvaci və başqaları tanınmış nöqtəvi liderləri idi.

Materialist meylli panteist baxışlar, rasionalizm və islamın bir çox ehkamlarına qarşı çıxılması nötəvilliyin xarakter cəhətləri idi. Yuxarıda deyildiyi kimi, «Təlimin banisi-bir vaxtlar Fəzlullah Nəiminin ardıcıllarından olan, lakin sonralar ondan uzaqlaşan Mahmud Pəsixani olmuşdur»(9). Onun yaratdığı təriqət hürufilikdən xeyli dərəcədə fərqlənirdi. «Hürüfilərdən ayrılan nöqtəvilərə görə varlıq hərflərdən deyil, nöqtədən başlayır. Bütün sirlər nöqtədədir. Nöqtə öz içində sonsuzluğu daşımaqdadır. Nöqtənin açılıb yumulması, zamanı meydana gətirir. An, bir nöqtədir. Bu nöqtə uzadıldığında sonsuza uzanan bir xətt meydana gəlir. Hərflər də bu xəttin üstündə yazılır. Nöqtəvilərə görə hürufilik nöqtənin sirlərini görə bilməmişdir. Nöqtə hərfdən əvvəldir. Bu xətt üzərində bir nöqtə əsas alınır. O nöqtə mərkəz olmaq üzrə bir dairə cızacaq olsaq, bu dairənin diametrinə zaman adı verilir. An, 18 min aləmi özündə toplayan nöqtədir. Mütləq zaman anlayışı da nöqtədə birləşər. Həyat mütləq zaman içində sona çatdığı üçün nöqtənin içində var olub və nöqtənin içində ölürük. Allaha bağlanışımız da bir nöqtədir. Bu nöqtənin içi və dışı Tanrı ilə çevrələnmişdir»(10).

Nöqtəvilər dünyanı (aləmi) əzəli olaraq mövcud sayır, dünyada olan bütün varlıqları sonda nöqtəyə çevrilən birlikdə (vəhdətdə) görürdü. Bu nöqtə də öz növbəsində yerlə eyniləşdirilirdi. Beləliklə nöqtəvilərə görə hər şey torpaqdan yarandığı üçün, torpağı bir nöqtə saymaq lazım gəlir.

İctimai-siyasi baxışları etibarilə nöqtəvilər feodal rejimini pisləyir, islam ehkamlarını qeyd-şərtsiz hökmfərma sayan idarəçilik sistemini tənqid edir, azadfikirliliyə meydan verilməsini, insanların mənəvi-əxlaqi təkamülünü, hüquqi bərabərliyini, sosial ədaləti, cəmiyyətin yenidən qurulmasını vacib sayırdılar. Mənbələrə görə, nöqtəvilər Quranı fərqli tərzdə şərh edir, O dünyaya, cənnət və cəhənnəmə inanmırdılar. Canlıların bir-birinə dönüşməsinə, yəni tənasüxə inanırdılar. Nöqtə vilik təlimində Mehdinin-insanları dünyanın şərindən və zorakılıqından qurtaracaq xilaskarın-gələcəyinə inam böyük yer tuturdu; insan ilahiləşdirilir, ona öz taleyini və dünyanın taleyini həll etmək qabiliyyəti aid edilirdi.

Nöqtəvi dərvişləri insanları inandırmağa çalışırdılar ki, pis də, yaxşı da məhz bu dünyadadır. Əsl səadətə, azad, xoşbəxt həyata çatmaq üçün mübarizə aparmaq gərəkdir. Feodal idarəetmə üsulunu tənqid edən nöqtəvilər insanları öz azadlıqları, hüquqları uğrunda mübarizəyə səsləyirdilər.

Bir yandan ağlı, o biri yandan da real həyatı, təbiəti, varlığın canı hesab edən nöqtəvilik öz inqilabi ruhunun və rəsmi din təsəvvürlərə qarşı barışmazlığının dərəcəsinə görə hətta hürufiliyin bir çox başqa qollarına nisbətən daha ardıcıl, daha radikal idi. Hürufiliyin əsasında təşəkkül tapan, ancaq daha bidətçi və inqilabi təlim olan nöqtəviyyənin ictimai-siyasi mahiyyəti barədə İ.Münşi yazırdı: «Nöqtəvilər hükəmaya əsaslanıb, dünyanı qədim dünya sayırlar və qətiyyən məşhər gününə və qiyamətdə ölülərin diriləcəklərinə inanmırlar, yaxşı və pis əməllərinin mükafatını dünyanın rifahında və pis günündə görür, behişt və cəhənnəmi də öz dünyaları ilə əlaqələndirirlər» (8, s.806).

XVI əsrin II yarısına doğru nöqtəvi hərəkəti xeyli genişləndi, Kaşan, Şiraz, Qəzvin və başqa əraziləri bürüdü. Nöqtəvilər bir çox sənət adamlarını özlərinə cəlb etmiş, hətta Şah Təhmasibin

sarayına yol tapa bilmişdilər. Təhmasibin səltənətinin sonlarına doğru Xosrov Qəzvini adın da bir dərviş Qəzvin nöqtəvilərinin rəhbəri idi. Dərviş Xosrov II İsmayıl və Sultan Məhəmməd Xudabəndə zamanında da fəaliyyətini sürdürdü. Rəsmi dövlət xidmətində olan və nöqtəvilərə heç də yaxşı münasibət bəsləməyən İskəndər bəy Münşi yazırdı: «Dərviş Xosrov atalarının sənətini tərk edərək qələndərlik və dərvişlik libası geyindi. Uzunmüddət səyahətlərdə oldu, nöqtəvilərlə qaynayıb-qarışdı. Öz yoluna can-başla davam etdi və içkiyə aludə oldu. Qəzvinə dönüb bir məscidin kənarında özünə yer tutdu. Yanına bir dəstə dərviş gəlib-gedirdi. Dərviş Xosrov mərifəf dükanı açaraq, orada qızğın «alver» etməyə başladı. Üləma və möhtəsiblər onun hərəkətlərini inkara başlayıb, məscidə girməsini qadağan etdilər»(8, s .801)

Şiəlik ehkamlarının bütün sahələrdə ardıcıl müdafiəçisi olan, öz hakimiyyəti üçün təhlükə törədən müxalif qüvvələri, əks düşüncəyə malik hərəkat nümayəndələrini də din düşməni damğası ilə təqib etdirib amansız tərzdə cəzalandıran I Şah Abbasın dövründə (1587-1629-cu illər) vəziyyət kəskinləşdi, nöqtəvilik dini və hüquqi cəhətdən zərərli təlim və hərəkat sayılaraq, amansız təqiblərə məruz qaldı. Dini-siyasi çağırışı çox vaxt üstüörtülü, simvolik vasitələrlə nəzərə çatdıran, bu yolla həm «öz təlimlərinə daha sirli, anlaşılmaz bir don geyindirən» (7, s.98), həm də rəsmi və dini dairələrin təqiblərindən qorunmağa çalışan nöqtəviləri hakimiyyət özünə təhlükə sayırdı.

Nöqtəvilər hesab edirdilər ki, dünyada hər şey daimidir. Əgər bir şey məhv olursa, o, başqa şəkildə yenidən meydana çıxır. Buna görə də onlar nə Səfəvi hakimlərinin cəza tədbirlərindən, nə də ölümdən qorxmurdular və belə düşünürdülər ki, öldükdən sonra yenə diriləcəklər. Yusif Tərkeşduzun edamından sonra Dərviş Kiçik Qələndərin dediyi bu sözlər isə məhz həmin inamın və nöqtəviliyin mübarizə yolunun davam edəcəyi fikrinin ifadəsi idi: «Getdik ki, başqa bir vaxt gələk» (8, s.805). Bu isə nöqtəvilərdə mənəvi hökmranlıqdan real hökmranlığa çatmaq arzusunu qüvvətləndirdiyindən, onlar hökumət əleyhinə qiyam edirdilər.

Şah Abbas hakimiyyətinin yeddinci ilində baş verən hadisələrdən bəhs edən İ. Münşi əvvəlcə nöqtə vilik təliminin ən məşhur rəhbərlərindən olan Dərviş Xosrov Qəzvininin və onun bir sıra əsas müridlərinin hakim dairələr tərəfindən öldürülməsini diqqət mərkəzinə çəkmişdir. Qeyd olunurdu ki, güclənən təhlükələri hiss edən Dərviş Xosrov özünün nöqtəvi əqidəsini büruzə verməyib qorunmaq üçün üləmalarla əlaqə qurmuş, zahirdə fiqhi, yəni dini hüquq elmini öyrənməyə başlamışdır. Şah Abbas onunla görüşüb əqidəsini yerli-yataqlı öyrənmək istəsə də, Dərviş məharətlə öz düşüncələrini gizlədə bilmiş, lakin şagirdləri Ustad Yusifi Tərkeşduz və Dərviş Kiçik Qələndər siyasi-ideoloji iddialarını, insanların mənəvi azadlıqları barədəki təlimlərini açıq ortaya qoymuşdular. Az sonra Şah Abbas Dərviş Xosrovun həbsinə fərman vermişdi. İ.Münşi bu barədə yazırdı: «Vaxtının çoxunu küçə və məhəllələri seyr edib müxtəlif təbəqələrdən olan əhali ilə tanışlıq edən əlahəzrət hərdən bir dərvişin də yanına gedib onunla söhbət edirdi. O bəzən dərvişin əqidəsini öyrənmək üçün onunla bir söz sahibi kimi məntiqi danışıqlar edir, dərvişanə tərzdə allahşünaslığı onun nəzərində cilvələndirməyə çalışırdı. Dərviş isə şah ilə olduqca ehtiyatla davranır, şəriətin xilafına danışmırdı. Amma, onun təkyəsində bir dəstə dərviş, xüsusiylə Ustad Yusifi Tərkeşdüz və Dərviş Kiçik Qələndər böyük iddia və yüksək çıxışla Dərviş Xosrovun boş əqidəsini çəkinmədən o həzrətə söyləyirdilər. Onların dinsiz olmaları ali məqamlı şahın xoşuna gəlmirdi. Buna görə də, həmin adamların dəf olmaları və parlaq şəriət rəsmlərinin icrası şəriətpərvər padşah tərəfindən vacib bilindi. Şah Luristan səfərində olan vaxt Xosrov Dərvişin və yoldaşlarının tutulmaları haqda əmr etdi. (8, s.803)

Nöqtəviləri ciddi siyasi qüvvə sayan Şah Abbas mübarizəni axıradək davam etdirir və son nəticədə onları tam zərərsizləşdirir. Dərviş Xosrovun nöqtəvi olması Şah Abbas tərəfindən sübuta yetirilir və o da Qəzvində edam olunur.

İ.Münşi hadisəni belə təsvir etmişdir:«Dərviş Xosrovu hüzuruna çağırdı, üləmaları topladı, onun haqqında məlumat toplamağa başladılar. Dərvişin təkyəsində şərab küpləri tapıldı. Məlum oldu ki, o, çox şərab içdiyi üçün şəriət qaydalarına etiqad etmir. Onun nöqtəvi olması şahın mübarək batini məhkəməsində sübuta yetdi, o, işıqlı şəriətin rəvacı üçün dərvişin qətl olunması üçün hökm verdi: Onu dəvənin boynundan asıb Qəzvin şəhərinin bütün yerlərində dolandırdılar» (8, s.805).

İ.Münşi Yusifi Tərkeşduzun da aqibətini qələmə almışdır. Münəccimlərin göydə ulduzların toqquşması nəticəsində Şahı gözləyən təhlükədən xəbər verməsi və bunun qarşısını almaq üçün bir

ziyanlı adamı müvəqqəti taxta çıxarmağın vacibliyi barədəki təklifləri öz təsirini göstərir. Yusifi taxta çıxarırlar, üç gün sonra isə bir bəhanə ilə edam edirlər. Beləcə, hakimiyyət üçün təhlükə törədən nöqtəvilik təliminin əsas simalarından biri aradan götürülür. İ.Münşinin bir qeydi göstərir ki, əslində Yusifi Tərkeşduz bütün bunların hakim dairələr tərəfindən qurulmuş oyun olduğunu, nöqtəvilərin aradan götürülməsinə yönəldiyini anlamışdır. Əsərdə oxuyuruq: «Mövlana Yusif at sürərkən Mövlana Cəlaləddin münəccimi görüb demişdi: «Ey həzrət molla, nə üçün mənim qanımın tökülməsini istəyirsən?» (8, s.803).

O da maraq doğurur ki, İ. Münşi bir təlim və hərəkat səviyyəsində nöqtəviliyin güclü bir qüvvə olması, Yusifin edamı ilə sarsılmaması, əksinə, insanların kamilləşməsi, xoşbəxt bir cəmiyyətdə yaşamalarını arzulayan nöqtəvilərin siyasi-hüquqi mübarizə əzminin daha da qüvvətlənməsi barədə də qısa işarələr vermişdir: Məna aləminin tərki-dünya adamlarının və batini aləmlərdən xəbərdar olanların nəzərində elə bir parıltı göründü ki, belə bəlanın aradan götürülməsi şəhriyarın iqbal köməyi olmadan mümkün ola bilməzdi» (8, s.804).

İ.Münşinin əsərindən məlum olur ki, tanınmış nöqtəvi dərvişləri xalq içərisində o qədər nüfuza malik ililər ki, hakim dairələr onları birbaşa edam etməkdən çəkinirdilər. Məsələn, tanınmış nöqtəvi alimi Mövlana Süleyman Təbib Savecinin qətlinə birbaşa fərman verməkdən ehtiyat edən hakimiyyət əvvəlcə onu həbs etmiş, ara sakitləşdikdən sonra öldürmüşdülər. İ.Münşi bu barədə yazırdı: «Onlardan biri də o təbəqənin alimlərdən olan Mövlana Süleyman Təbib Savəcidir ki, məşhur adam idi. Onu da tutub gətirdilər. Nəvvab şah onun işinə baxılmasını üləmalara tapşırdı. Üləmalar şəriətə əməl edərək məhəllədəki cahil adamları həyacanlandırmamaqdan ötrü həbs qərarı çıxardılar. Bir neçə gün həbsdə qaldı. Əlahəzrət etiqadı və şəriətpərvərliyi möhkəmləndirməkdən ötrü onun qətlini məsləhət bildi və oda gedərək öz yar-yoldaşına qoşuldu»(8, s.805). Münşi habelə Seyid Əhməd Kaşi, Dərviş Kamal Əqlidi, Dərviş Bünyani, Budaq bəy Ustaclı və başqa məşhur nöqtəvilərin də edam olunduğunu təsvir etmişdir.

Özünün məğlubiyyətinə və bir sıra görkəmli xadimlərinin məhv edilməsinə baxmayaraq nöqtəvilərin «despotik hakimiyyətə qarşı mübarizə aparmalam mərdlik və qəhrəmanlıq nümunəsi idi. Göründüyü kimi nöqtəvilik sırf nəzəri cərəyan deyildi. Şəhər və kəndin yoxsul təbəqələrini, habelə dövün tanınmış ziyalılarını ətrafına toplayan nöqtəvi liderləri feodal zülmünə və hakim qızılbaş təriqətinə qarşı kütlələrin mübarizəsinə başçılıq edirdilər. Nöqtəvilərin siyasi-hüquqi baxışları sonrakı zamanlarda bir çox azadlıq hərəkatlarına, o cümlədən XIX əsrdə məşhur «Babilər» hərəkatına təsir göstərmişdi. Görkəmli Azərbaycan mütəfəkkiri Mirzə Fətəli Axundzadə İ.Münşinin əsərində nöqtəviliyin tanınmış simalarından biri olan Yusif Tərkeşduz barədəki yazılanları əsas götürərək 1857-ci ildə məşhur «Aldanmış kəvakib povestini yazmışdır.

## ƏDƏBİYYAT


1. Azərbaycan tarixi. 7 cilddə. III cild. Bakı. Elm, 2007, 592 s.
2. Z. Bünyadov. Dinlər, Təriqətlər, Məzhəblər. Bakı, 1997
3. Əfəndiyev M. Siyasi və hüquqi təlimlər tarixi. Bakı, 2002.
4. Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı, 1993.
5. Fəlsəfə. Ensiklopedik lüğət, Bakı, 1997
6. Məlikova M., Bayramov E. Azərbaycanın siyasi-hüquqi nəzəriyyələr tarixi. Bakı.1984.
7. Tağıyev Ə., İsayev N., Nuriyev S., Cəfərov A. C. Orta əsrlərin fəlsəfi və sosial-siyasi fikri. Bakı, Çaşıoğlu, 1999, 288 s.
8. Türkman İ. M.. Dünyanı bəzəyən Abbasın tarixi. Bakı, Şərq-Qərb, 2011, 1144 s.
9. https://az.wikipedia.org/wiki/Nöqtəvilik
10. http://ebooks.azlibnet.az/book/DQGpUifo.pdf.

**ABSTRACT**

**Shukur Mammadov**

**OPPOSITIONIST POLITICAL-LEGAL JURISDICTIONS AT THE FINAL STAGE OF FEUDALISM IN THE SAFAVID EMPIRE**

In Safavi empires a number of oppositionist political-legal jurisdictions spread in the XVI-XVII century. These turned against the official Islamic ideology as heavy feudal abuse. One of those jurisdictions was the jurisdictions of movement called “Nogtavis”. Nogtavis were selected their gualities as free pantheist, free-thinking.

The ruler Shah Abbas I distributed the official Qizilbash ideology knowing danger. The work of “Tarixi alamaraye Abbas” of Isgandar Munsi, famous Azerbaijanian historian gives necessaru information about Nogtavi movement.

**РЕЗЮМЕ**

**Шукюр Мамедов**

**ОППОЗИЦИОННЫЕ ПОЛИТИКО-ПРАВОВЫЕ УЧЕНИЯ В СЕФЕВИДСКОЙ ИМПЕРИИ НА ПОСЛЕДНОМ ЭТАПЕ ФЕОДАЛИЗМА**

В XVI-XVII веках в империи Сефевидов распрастранился ряд оппозиционные политико-правовые учения, котарые были направлены против как тяжелой феодальные експлуататация, так и официальной исламской идеологии. Одним из учений было так называемое движение «ноктавия», сторонники которого отличались своими пантеистическими, свободомыслями и решительностью. Правитель Сефевидов Шах Аббас, оценивая опасность оппозиционные учение «ноктавия» в отношение идеологии «кызылбашов», тяжело расправился с ними. О движении «ноктавия» содержит ценное сведение труд известного азербайджанского историка И.Мунши «Тарихи-аламарайи-Аббаси».

NDU-nun Elmi Şurasının 19 oktyabr 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 02).

**İSMAYIL HACIYEV**
*AMEA Naxçıvan Bölməsi*
*ismayil_haciyev@yahoo.com*

**UOT: 94(479.24)**

# NAXÇIVAN MƏRKƏZLƏŞDİRİLMİŞ AZƏRBAYCAN SƏFƏVİ DÖVLƏTİ DÖVRÜNDƏ (1501-1736-Cİ İLLƏR)

**Açar sözlər:** *Azərbaycan, Naxçıvan, Səfəvilər dövləti, kəngərli qəbiləsi, dövlətçilik*
**Key words**: *Azerbaijan, Nakhcivan, Safavids state, kangarli tribes, statehood.*
**Ключевые слова:** *Азербайджан, Нахчыван, государство Сефевидов, племя кенгерлинских, государственность*

Səfəvilər dövləti Azərbaycanın dövlətçilik tarixində yeni səhifə açmışdır. Bu hər şeydən əvvəl Səfəvilər dövləti tərəfindən Azərbaycan torpaqlarının vahid dövlət tərkibində birləşdirilməsi ilə bağlı olmuşdur [1, s.3]. Azərbaycanın tanınmış səfəvişünas alimi O.Əfəndiyev yazırdı ki, ölkənin şimal və cənub vilayətlərinin Azərbaycan Səfəvilər dövləti daxilində siyasi baxımdan birləşməsi feodal Azərbaycanının tarixində yeni mühüm mərhələ hesab edilməlidir. Dövlət, xüsusilə də şəxsi feodal torpaq mülkiyyətinin inkişafı, bununla birbaşa əlaqəsi olan mərkəzləşdirilmənin güclənməsi də yeni cəhətlər idi [6, s.254].

Səfəvilər dövləti quruluşuna, inzibati-ərazi bölgüsünə, idarə sisteminə görə dövrünün ən güclü imperiyalarından biri olmuşdur. Dövrün tədqiqatçısının yazdığı kimi, "XV yüzilliyin sonu, XVI yüzilliyin əvvəllərində Səfəvi dövləti Azərbaycan cəmiyyətinin mükəmməl bir siyasi təşkilatı kimi meydana çıxmış, mərkəzi hakimiyyət orqanları təşkil edilmiş və onların arasında səlahiyyət bölgüsü həyata keçirilmişdir. İnzibati-ərazi bölgüsü prinsipləri əsasında yerli idarə orqanları yaradılmış və nəticədə ali hakimiyyətin bütün ölkə ərazisində həyata keçirilməsi təmin olunmuşdur" [3, s.3]. Dövləti mövcud olduğu dövr ərzində onun banisi olan Şah I İsmayıl (1501-1524) və onun varisləri I Təhmasib (1524-1576), II İsmayıl (1576-1577), Məhəmməd Xudabəndə (1577-1587), I Abbas (1587-1629), I Səfi (1629-1642), II Abbas (1642-1666), Süleyman (1666-1694), Sultan Hüseyn (1694-1722), II Təhmasib (1722-1732) və III Abbas (1732-1736) idarə etmişdilər.

Naxçıvan Səfəvilər dövlətinin qurulmasında və onun sonrakı tarixində mühüm rol oynayaraq, Azərbaycan dövlətçiliyinin varisliyinə vacib töhfə vermişdir. Əvvəlcə Qaraqoyunlu, sonra Ağqoyunlu dövlətlərinin tərkibində olan Naxçıvan Səfəvilər dövlətinin yaradılmasına köməklik göstərmişdir. Naxçıvanın əhəmiyyətini bilən Ağqoyunlu Əlvənd Mirzə də qüvvələrini ora yönəltmişdi. Əsas hadisələr isə Naxçıvanın şimal-qərbində, Şərurda cərəyan etmişdi. İsmayıl ilə Əlvənd Mirzə arasında həlledici döyüş burada 1501-ci ilin ortalarında baş vermişdi. Əlvəndin 30 minlik ordusuna qarşı İsmayılın 7 min nəfərlik qoşunu dayanmışdı. Ona görə də döyüşün taleyi üçün sərkərdələrin hərbi bacarığı və yerli əhalinin tərəflərə münasibəti vacib rola malik idi. Hər iki üstünlük İsmayıl tərəfində olduğundan o, qələbə qazanmağa nail oldu. "Əlvənd döyüş meydanından Ərzincana qaçmaqla güclə canını qurtardı. Qızılbaşlar zəngin qənimətlər (atlar, dəvələr, qatırlar, qiymətli mallar, qızıl və gümüş ləvazimat və s.) ələ keçirdilər. Elə həmin-1501-ci ilin payızında, Şərur qələbəsindən dərhal sonra İsmayıl təntənə ilə Təbrizə daxil oldu və şahlıq taxt-tacına yiyələndi" [3, s.44-45]. Naxçıvanın şah İsmayılın tərəfində olması Murad Mirzə üzərində 1503-cü ildə qələbə əldə edilməsinə də təsir etdi.

Naxçıvan XVI əsrdən etibarən ustaclu qızılbaş qəbilələrinin bir qolu olan kəngərli qəbiləsinin irsi ölkəsi hesab olunurdu. Bu Naxçıvanın həm Səfəvi, həm xanlıq, həm də Rusiya imperiyası dövrünün ilk mərhələsində dərin izlər buraxmışdı. Kəngərlilərin bir hissəsi Şah İsmayılın vaxtında diyarı türkmənlərin hücumundan qorumaq üçün Xorasanın Nisa dairəsinə köçürülmüşdü. Şah Abbasın dövründə qəbilənin başçısı və Naxçıvan hakimi Maqsud Sultan Kəngərli-Ustaclı idi.

İsgəndər Münşinin 1628-ci ilə aid əmirlərin siyahısına görə Maqsud Sultan nəinki Naxçıvan, eyni zamanda, Xorasan kəngərlilərinin də hakimi idi [21, s.132]. Sonrakı dövrdə Naxçıvanda Nadir bəy Rzaəddin xan (1647), Əliqulu xan (1668), Murad xan (1668-1669), Şərəf xan (1669-1678), Məhəmməd Rza xan (1678-1691) hakimlik etmişdilər[12, s.138]. Kəngərlilərin Naxçıvan ölkəsinin siyasi idarəsi sahəsində əldə etdiyi təcrübə sonralar Naxçıvan xanlığının yaradılmasında vacib rol oynamışdır.

Naxçıvanın Səfəvi dövləti tərkibində tarixinin sonrakı mərhələsi də dövlətçilik ilə sıx bağlı olmuşdur. Naxçıvan uzunmüddətli Səfəvi-Osmanlı müharibələrinin əsas hərbi-strateji məntəqələrindən biri olmuş, müharibənin bütün ağrı-acıları və itkiləri ilə üzləşmişdir. Naxçıvanın bu dövr tarixi Səfəvi dövlətinin həyatının ən mühüm hadisələri ilə bilavasitə əlaqədardır.

Naxçıvan ilk əvvəl Səfəvilər ilə Osmanlılar arasında baş verən 1514-1555-ci illər müharibəsinin çətinliklərinə məruz qaldı. Səfəvilərin 1514-cü ilin avqustunda baş verən Çaldıran döyüşündə məğlub olması dövlətin paytaxtı Təbriz kimi Naxçıvanın da osmanlıların əlinə keçməsinə səbəb oldu. Osmanlılar burada 1514-cü il 20-26 sentyabra kimi qala bildilər, sonra isə qoşunlar İrəvana çəkildi [17, s.226-227]. Sultan Süleymanın (1520-1566) bu müharibə dövründə baş verən 1534, 1535 və 1548-ci illərdəki üç yürüşü də Naxçıvana ağır zərbə vurdu. Buna baxmayaraq, Naxçıvan Səfəvi dövlətinin mühüm hərbi-strateji bölgəsi olaraq qalırdı. Sultan Süleymanın 1554-cü ilin ortalarında başlayan dördüncü yürüşü isə “12-ci səfər” və ya “Naxçıvan səfəri” kimi tarixə daxil olmuşdur. Osmanlı qüvvələri iyulun 28-də Naxçıvana daxil olmuş, 30-da isə oranı tərk etmişdilər [16, s.546]. Görünür “Naxçıvan səfəri”ndən çıxarılan əsas dərslərdən biri müharibənin davam etdirlməsindənsə, sülhün vacibliyinin müəyyənləşdirilməsi olmuşdu. Bununla əlaqədar olaraq, dövlətlər arasında sülh danışıqları başlamış və 1555-ci il mayın 29-da Amasiyada müqavilə imzalanmışdı. Müqavilənin şərtlərinə görə İmeretiya, Minqreliya, Quriya və Şərqi Anadolu Osmanlı imperiyasına keçmiş, Mesxiya, Kartli, Kaxet və İrəvan Səfəvilər dövlətində qalmışdı [6, s.83]. Naxçıvan da Səfəvilər dövləti tərkibində qalmışdır.

Səfəvilər və Osmanlılar arasında yeni müharibənin başlandığı 1578-ci ilədək Naxçıvanda da sülh şəraiti iqtisadi inkişafa müsbət təsir göstərdi. II İsmayılın dövründə Səfəvilərin hakimiyyəti altında olan Naxçıvana “Şərəfnamə” adlı tarixi əsərin müəllifi Şərəfxan Bidlisi hakim təyin edilmiş, lakin onun hakimiyyəti uzun sürməmişdir. Osmanlılar və Səfəvilər arasında yeni müharibə başladığı zaman, 1578-ci ilin dekabrında Naxçıvanı tərk edərək 400 nəfərə yaxın məiyyəti ilə Bidlisə getmişdi [12, s.127].

1578-1590-cı illər müharibəsi zamanı da Naxçıvan hərbi əməliyyatların əsas mərkəzlərindən biri olmuşdur. Müharibənin elə ilk ilində Naxçıvan Osmanlı qoşununun hücumuna məruz qalmış və onların əlinə keçmiş, lakin tezliklə Naxçıvan tərk edilmişdir. Növbəti 1579-cu ildə osmanlılar Naxçıvan şəhəri və ətraf yerlərdən 40 mindən çox əsir aparmışdılar. 1588-ci ildə yeni Osmanlı hücumu zamanı Naxçıvan ələ keçirilmişdi. Səfəvilərin məğlub olduğu bu müharibə nəticəsində bağlanılan 1590-cı il İstanbul sülhünə görə Naxçıvanın da Osmanlı dövlətinə keçməsi təsbit edilmişdi [7, s.39-40].

Naxçıvan osmanlılar tərəfindən ələ keçirildiyi 1588-ci ildən etibarən 15 il müddətinə Osmanlı dövlətinin tərkibində qalmışdır. Osmanlı dövləti Naxçıvanın hərbi-strateji əhəmiyyətini nəzərə alaraq, onun dirçəldilməsi və möhkəmləndirilməsi sahəsində tədbirlər həyata keçirmişdir. Bu dövrdə Naxçıvanın idarəsi Xızır Paşaya həvalə edilmişdir [7, s.43-45].

Naxçıvan rəsmən Osmanlı dövlətinin tərkibinə daxil edildikdən sonra, o sancağa çevrilmiş və İrəvan əyalətinə daxil edilmişdir. Osmanlı ənənəsinə uyğun olaraq, bütövlükdə İrəvan əyalətində, o cümlədən Naxçıvan sancağında fiskal məqsədlə 1590-cı ilin noyabrında müfəssəl dəftər tərtib edilmişdir. Bu siyasətin və onun nəticəsində meydana gəlmiş dəftərlərin (müfəssəl və icmal) dövlətçilik baxımından əhəmiyyətini nəzərə alaraq onun üzərində xüsusi dayanmağa ehtiyac vardır. Bu məsələyə İrəvan əyalətinin icmal dəftərinin tədqiqatçıları da xüsusi diqqət yetirərək yazmışdır ki, ələ keçirdikləri bölgələri mərkəzləşmiş qaydada idarə etmək məqsədi ilə osmanlılar buraları ölkənin ictimai-siyasi və sosial-iqtisadi sisteminə inteqrasiyası ilə ciddi məşğul olmağa başlayırlar. Siyasi sabitliyi və asayişi təmin etmək, hücumlardan qorunmaq üçün osmanlılar ilk növbədə qalalarda silahlı qüvvələri yerləşdirir, onlara maaş kimi veriləcək vəsaitin mənbələrini müəyyən

edirdilər. Bu tədbirdən sonra ələ keçirilən bölgələr əyalətlərə bölünür, onların ərazi-inzibati bölgüsü aparılır, yerli idarə aparatı formalaşdırılır, rəhbərləri (bəylərbəyi, sancaqbəyi, qazi, naib, kətxuda, dəftərdar) təyin edilirdi...Beləliklə də, əyalətin idarə olunması üçün lazım olan qanunnamə və vergilərin nizamlı şəkildə toplanmasını müəyyən edən müfəssəl dəftər tərtib edilirdi. Növbəti sonuncu mərhələdə isə, əkilən torpaq sahələri və formaları ilə bərabər torpaq sahibləri müəyyən edilərək, toplanan məlumatlara əsasən müfəssəl dəftərdə istifadə olunmaqla icmal dəftər hazırlanırdı [10, s.5-6]. İrəvan əyalətinin icmal dəftərinə görə Naxçıvan bölgəsi Naxçıvan, Məvazi-Xatun, Arslanlı mülkü, Qarabağ, Dərəşam, Dərəşahbuz, Bazarçayı nahiyələri; Şərur bölgəsi isə Şərur, Zar, Zəbil, Əlincə, Sisyan nahiyələri; Ordubad bölgəsi isə Ordubad, Culfa, Azad-Ciran, Şorlut, Norküt nahiyələrindən ibarət idi. Müfəssəl dəftərin məlumatına görə Naxçıvan sancağının 393 yaşayış məntəqəsindən 269-nun əhalisi oranı tərk etmiş, Bazarçayı, Zar və Zəbil isə tamamilə boşalmışdır [14, s.13]. Bu 1579-cu il hücumu ilə əlaqədar olmuşdur [10, s.12-13]. Beləliklə, Naxçıvanın Osmanlı idarəçiliyində olduğu dövrdə (1588-1603 ) Osmanlı dövlətinin həyata keçirdiyi tədbirlər nəticəsində burada idarə sistemi və sosial-iqtisadi həyat stabilləşməyə başlamışdır.

1590-cı il müqaviləsi ilə Azərbaycanın böyük bir hissəsini, o cümlədən hərbi-strateji baxımdan xüsusi rolu olan Naxçıvanı itirən Şah Abbas belə bir vəziyyətlə barışmaq istəməmiş, Osmanlı dövləti ilə yeni müharibəyə hazırlaşmaq məqsədi ilə bir sıra islahatlar (hərbi, vergi və s.) aparmışdır. 1602-ci ildə Osmanlı dövləti ilə müharibə başlamışdır. 1612-ci ilədək davam edən bu müharibədə də Naxçıvan uğrunda mübarizə əsas məsələlərdən biri olmuşdur. Şah Abbas 1603-cü ilin oktyabrında Təbrizi azad etdikdən sonra, Culfanı və Əlincə qalasını aldı və həmin ilin sonunda Naxçıvana doğru irəlilədi. Bu zaman Osmanlı qoşunu Naxçıvanda 150 nəfərlik kiçik bir qarnizon saxlayaraq, oranı tərk etmişdi. Osmanlı qüvvələrinin Naxçıvanı tərk etməsi hərbi-strateji səbəblərlə eyni zamanda, yerli əhalinin Səfəvilər dövlətini müdafiə etməsi və Osmanlı hakimiyyətindən xilas olmaq arzusu ilə də izah edilir. Bunu Naxçıvanın azad edilməsindən sonra Şah Abbasla birlikdə Naxçıvan şəhərinə gələn Alman imperatoru II Rudolfun səfiri Tektander də qeyd etmişdir. Naxçıvanda Səfəvi hakimiyyəti bərpa edildikdən sonra şəhərin və bütün vilayətin idarəsi Maqsud Sultan Kəngərliyə həvalə edilmişdir [12, s.130-131].

Osmanlı sultanı I Əhməd (1603-1617) müharibənin gedişində dönüş yaratmaq məqsədi ilə 1605-ci ildə Cığal oğlunun başçılığı altında yeni qüvvə göndərdi. Şah Abbas bu qüvvələrə qarşı əvvəllər də tətbiq edilən "boşaldılmış (bəzən yandırılmış və ya viran edilmiş kimi ifadələr də tətbiq edilir) torpaq" taktikasını tətbiq etməyə başladı. Osmanlı qoşunlarının əlinə keçməməsi üçün yaşayış məskənləri dağıdıldı, əhalisi köçürülməyə başladı. Bu siyasət Naxçıvanda da tətbiq edilməyə başladı [12, s.132-136]. Bu siyasətin mahiyyəti bəzən ciddi şəkildə təhrif edilir. Onun etnik və ya dini səciyyə daşıması, qırğın şəkli alması, "böyük sürgün" adlandırılması və s. bu kimi yanaşmalar həqiqətə uyğun görünmür. Bu tamamilə hərbi-strateji məqsəddən irəli gəlirdi. (Yeri gəlmişkən qeyd edək ki, hərb tarixində bu taktikadan istifadə edilmişdir. Napoleonun Rusiyaya 1812-ci il yürüşü zamanı bu taktika tətbiq edilmiş, o Rusiyaya güclü Napoleon üzərində qələbə çalmağa imkan vermişdir və s.). Bununla eyni zamanda, boşaldılmış Naxçıvanı da Osmanlı hücumundan müdafiə etmək lazım gəlirdi. Cığal oğlu Sinan Paşanın Ömər Ağanın başçılığı ilə Naxçıvan üzərinə göndərdiyi hərbi dəstələr Şah Abbasın sərkərdəsi Əmirgunə xan tərəfindən dəf edilmişdi. Müharibə isə 1612-ci il noyabrın 20-də İstanbulda bağlanmış sülh müqaviləsi ilə başa çatmış, 1555-ci il Amasiya müqaviləsi bərpa edilmişdi [20]. Naxçıvan da yenidən rəsmən Səfəvi dövlətinin tərkibində qalmışdır.

XVI əsrin sonları – XVII əsrin əvvəllərində Azərbaycanda da genişlənən cəlalilər hərəkatının Osmanlı dövlətinə qarşı mübarizə aparması, şah hökuməti üçün də onu cəlbedici edirdi. Ona görə də bu hərəkat Şah Abbas tərəfindən dəstəklənmişdir. Bu hərəkatın Naxçıvan ərazisində də yayılması Osmanlılara qarşı mübarizədə müəyyən rol oynadığını söyləməyə əsas verə bilər [21, s.327].

1612-ci il sülhündən az sonra, 1616-cı ildə Osmanlı-Səfəvi müharibəsi yenidən başlandı və 1618-ci il 29 sentyabr Mərənd sülhü ilə başa çatdı. Lakin bu sülh də stabilliyi bərpa edə bilmədi. 1623-cü ildə hərbi əməliyyatlar yenidən başlandı. 1639-cu ilədək davam edən bu müharibə zamanı Naxçıvan yenidən dağıntılara məruz qaldı. Sultan IV Murad (1623-1640) tərəfindən göndərilən

ordu 1635-ci il hərbi əməliyyatları zamanı Təbriz və İrəvan şəhərləri ilə birgə, Naxçıvanı da tutmağa nail oldu. Naxçıvan osmanlıların əlinə keçdi. Müharibə 1639-cu il mayın 17-də bağlanan Qəsri-Şirin müqaviləsi ilə başa çatdı. Müqaviləyə görə İraqi Ərəb osmanlılarda, Zəncir qalasından şərqdəki torpaqlar isə səfəvilərdə qalırdı. Cənubi Qafqazda isə sərhədlər dəyişmirdi [11, s.47]. 1639-cu il müqaviləsi Naxçıvanın Səfəvi dövləti tərkində qalmasını təsdiq edirdi.

Beləliklə, Səfəvilər və Osmanlılar arasında 1514-cü ildən bəri fasilələrlə davam edən müharibəyə 1639-cu il müqaviləsi ilə son qoyuldu. Naxçıvan Azərbaycan Səfəvilər dövlətinin tərkib hissəsi kimi müharibələrin gedişində əsas hərbi-strateji ərazilərdən biri olmuş, osmanlılar tərəfindən ələ keçirilməsinə və bir müddət (1588-1603) Osmanlı dövlətinin tərkibinə daxil edilməsinə baxmayaraq, burada Azərbaycan dövlətçiliyinin bərpasına çalışmış və buna nail olaraq, sonda Səfəvilər dövlətinin tərkib hissəsi kimi qalmışdır.

1639-cu il müqaviləsindən Səfəvilər dövlətinin 1722-ci ildə əfqanların hücumu ilə yeni təhlükə qarşısında qaldığı dövrə qədər ölkədə sülh mövcud olmuşdur. Lakin buna baxmayaraq, dövlətin digər müharibə gedən bölgələrində olduğu kim Naxçıvanda da müharibənin ağır nəticələrinin aradan qaldırılması mümkün olmadı, əksinə sosial-iqtisadi vəziyyətdəki problemlər və yeni daxili çəkişmələr vəziyyəti daha da mürəkkəbləşdirdi. 1667-ci ildə Naxçıvan, Culfa və İrəvanda iki il müddətində maaş ala bilməyən qacar və bayat tayfasından olan əsgərlərin üsyanı baş verdi. XVII əsrin 70-ci illərində isə aclıq baş verdi. Sultan Hüseynin vergiləri artırmaq məqsədi ilə 1699-1702-ci illərdə əhalinin siyahıya alınmasının həyata keçirilməsi və onun ağır nəticələri əhalinin vəziyyətini daha da çətinləşdirdi [15, s.292-293].

1722-ci ildə əfqanların hücumu və şahın hakimiyyətdən salınması, rus çarı I Pyotrun eyni Xəzərsahili torpaqlara yürüşü, Şirvanda anti-Səfəvi üsyanları siyasi vəziyyəti kəskinləşdirdi. 1723-1727-ci illərdə Səfəvilərlə Osmanlılar arasında başlayan yeni müharibə də ağır təsirini göstərdi [19, s.85-90]. Osmanlılar müharibənin gedişində Azərbaycan torpaqlarının xeyli hissəsini ələ keçirməyə nail oldular. 1724-cü il 12 iyunda Osmanlı dövləti ilə Rusiya arasında İstanbul müqaviləsi Azərbaycan torpaqlarının bölüşdürülməsini təsdiq etdi [11, s.121-136]. Naxçıvan Osmanlı dövlətinin nüfuz dairəsinə daxil edildi. Osmanlılar tərəfindən 1724-cü il sentyabrın əvvəllərində Naxçıvan şəhəri, 10-da isə Ordubad şəhəri tutuldu [13, s.99].

Naxçıvanın Osmanlı imperiyası tərkibinə daxil olduğu ərəfədə onun ərazisi və inzibati bölgüsü haqqında farsdilli "Təzkirət əl-mülük" əsəri məlumat verir. Naxçıvan ölkəsi bu dövrdə Çuxur-Səəd bəylərbəyliyinə daxil idi." Bununla yanaşı, osmanlıların əvvəllər tərtib etdikləri dəftərindən fərqli olaraq inzibati baxımdan Naxçıvan sancağı kimi deyil, Səfəvilər dövlətinin inzibati quruluşuna uyğun olaraq tümən kimi qeydə alınıb; həmin əsərdə (əlyazmasında) osmanlılar dövründə Zar və Zəbil kimi qələmə alınan nahiyələr birləşdirilib Zar-zəbil adlandırılmışdır...və nəhayət, bu dövrdə Sədərək adlı yeni inzibati vahidi yaradıldığı haqqında da məlumat əldə edilir. "Təzkirət əl-mülük"ə görə osmanlılar dövründən fərqli olaraq Naxçıvan diyarı Çuxur-Səəd bəylərbəyliyinə tabe olan sancaqbəyi və yaxud da naiblər tərəfindən deyil, ayrı-ayrı hakimlər tərəfindən idarə olunurdu.

Naxçıvan Osmanlı imperiyası tərkibinə daxil edildikdən sonra burada müvafiq inzibati-ərazi bölgüsü həyata keçirildi. Naxçıvan sancağı yaradıldı və 1590-cı ildə olduğu kimi, 1727-ci ildə yeni müfəssəl dəftər tərtib edildi. Bu müfəssəl dəftər Naxçıvanın inzibati-ərazi bölgüsü, əhalisi və iqtisadi imkanları haqqında məlumat verməklə, onun Osmanlıyaqədərki Səfəvi dövləti tərkibində və Osmanlı dövründə vəziyyəti haqqında təsəvvür yaratmağa imkan verir.

Səfəvilərin hakimiyyətinin son dövründə dövlətin siyasi həyatında ciddi dəyişikliklər baş verirdi. 1722-ci ildə hakimiyyətə gələn II Təhmasib siyasi arenaya cəsarətlə qədəm qoyan Nadir tərəfindən taxt-tacdan uzaqlaşdırıldı, yerinə körpə uşaq olan III Abbası gətirməklə faktiki hakimiyyəti ələ aldı və Səfəvi dövlətinin torpaqlarını Osmanlılardan geri almaq uğrunda mübarizəyə başladı. Bu mübarizənin gedişində, 1735-ci ildə Naxçıvan geri alındı [13, s.100]. Nadir mövcud vəziyyətdə siyasi statusu ilə razılaşmayaraq, Səfəviləri devirməyi və hakimiyyəti öz əlinə keçirməyi qərara aldı. O, 1736-cı ildə Muğan qurultayında özünü şah elan etdi. Beləliklə, Azərbaycan dövlətçiliyinin Səfəvi dövrü başa çatdı.

Naxçıvan nəinki, siyasi hadisələr, o cümlədən sosial-iqtisadi və mədəni həyatda rolu ilə də Səfəvilər dövlətində mühüm rol oynamışdır. Naxçıvan bölgəsinin mərkəzi kimi Naxçıvan şəhəri Səfəvi-Osmanlı müharibələri dövründə amansız dağıntılara baxmayaraq, digər tarixi Azərbaycan şəhərləri kimi (Şəmkir, Mahmudabad və s.) məhv olub sıradan çaxmadı, çətinliklə olsa da, şəhər həyatı bərpa edildi və davam etdirildi [12, s.99-139]. Bunun nəticəsi idi ki, Naxçıvan imperiyanın pul dövriyyəsi və zərbxana sistemində və ticarətində rolunu saxlaya bilmişdir. Təsadüfi deyil ki, orta əsr şəhərləri ərazisində aparılan arxeoloji tədqiqat işləri və təsadüfi tapıntılar nəticəsində XVI-XVII əsrlərə aid bir çox Naxçıvan sikkəsi əldə edilmişdir. I Təhmasibin Naxçıvanda zərb edilmiş sonuncu sikkəsi 1568-ci ilə aiddir. Osmanlı hakimiyyəti zamanı III Sultan Murad və III Sultan Məhəmməd dövründə də Naxçıvanda sikkələr kəsilmişdir. I Şah Abbas Naxçıvanı 1603-cü ildə azad edərkən burada sikkə zərbini yenidən bərpa etmişdir [12, s.108-109].

Beləliklə, tarixi faktlar sübut edir ki, Naxçıvan bölgəsi Azərbaycan Səfəvilər dövlətinin meydana gəlməsi və tarixində əhəmiyyətli rol oynamış, hərbi-strateji, siyasi, sosial-iqtisadi və mədəni həyatında dərin iz buraxmışdır.

## ƏDƏBİYYAT


1. Azərbaycan dövlətçilik tarixində Səfəvilər dövlətinin yeri. Elmi-nəzəri konfransın materiallar. Bakı; Ağrıdağ, 2001, 196 s.
2. Baxşəliyev A. Səfəvi dövlətinin sosial-iqtisadi həyatı və beynəlxalq əlaqələri. Bakı, 2009, 274 s.
3. Bayramlı Z. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə sistemi. Bakı, 2006, 162 s.
4. Budaqova S. Naxçıvan diyarının tarixi-coğrafiyası (XVIII əsrin ikinci yarısı – XIX əsrin birinci qərinəsi). Bakı: Elm, 1995, 96 s.
5. Budaqova S. Naxçıvan diyarının siyasi tarixi. Bakı; Elm və təhsil, 2014, 112 s.
6. Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı,1993, 300 s.
7. Əliyev İ. Naxçıvan bölgəsi Səfəvilər dövründə. Bakı; “Elm və təhsil”, 2014, 224 s.
8. Fərzəliyev Ş. Naxçıvan XV əsrdə// Naxçıvan; tarixi gerçəklik, müasir durum, inkişaf perspektivləri. Naxçıvan; Əcəmi NPB, 2006, s. 87-97.
9. İbrahimov C. Azərbaycanın XV əsr tarixinə dair oçerklər. Bakı, 1958, 210 s.
10. İrəvan əyalətinin icmal dəftəri. Araşdırma, tərcümə, qeyd və əlavələrin müəllifləri akad. Ziya Bünyadov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı). Bakı, 1996, 180 s.
11. Mahmudov Y., Şükürov K. Azərbaycan: Beynəlxalq münasibətlər və diplomatiya tarixi. 1639-1828. Dövlətlərarası müqavilələr və digər xarici siyasət aktları. I cild, Bakı; 2009, 512 s.
12. Məmmədov R. Naxçıvan şəhərinin tarixi oçerki. Bakı; Elm, 1997, 158 s.
13. Mustafazadə T. Naxçıvan diyarı XVIII-XIX yüzilliyin əvvəllərində // Naxçıvan: tarixi gerçəklik, müasir durum, inkişaf perspektivləri. Naxçıvan; Əcəmi NPB, 2006, s. 98-112.
14. Naxçıvan sancağının müfəssəl dəftəri. Araşdırma, qeyd və şərhlərin müəllifi H.Məmmədov. Tərcümə edənlər Z.Bünyadov və H.Məmmədov. Bakı; Elm, 2001, 376 s.
15. Naxçıvan tarixi. Üç cilddə, c.I, Naxçıvan; Əcəmi NPB, 2013, 452 s.
16. Gökbilgin T. Sultan I Süleymanın Naxçıvan səfəri (1553-1555)// “Türklər” kitabı. IX cild, Ankara, 2002, s.545-546
17. Kırzıoğlu F. Osmanlıların Qafqaz ellərini fəthi (1491-1590). Ankara, 1976
18. Джафарли Н. Азербайджанское государства Сефевидов (государственный строй). СПб, 2009, 251 с.
19. Левиатов В.Н. Очерки по истории Азербайджана в XVIII. Баку, 1948
20. Рахмани А.А. Азербайджана в конце XVI и в XVII веке (1590-1700). Баку, Элм, 1981, 238 с.
21. Петрушевский П.П. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI- начале XIX вв. Л., 1949, 382 с.

**ABSTRACT**

**Ismayıl Hajıyev**

**NAKHCHIVAN IN THE PERIOD OF CENTRALIZED AZERBAIJAN SAFAVIDS STATE (IN THE YEARS OF 1501-1736 )**

The article deals with the creation of Safavids state, his role and position of the statehood history of Azerbaijan, to unite the Azerbaijan lands in an unique state, establishment of the government and to implement this in all the territories of the country.

The rolu of Nakhchivan in the establishment of Safavids state and its history is investigated. It is cleared up that Nakhchivan is the heritage country of Kangarli tribe and they were considered one of the branch of ustajli gizilbash tribe. Kangarli has historical services in the defending of the borders Safavids state and to strengthen the statehood. That is why Nakhchivan is one of the most important military -strategical territories of Safavids state. The author also pay attention to these facts that during the Safavids-Ottoman battles Nakhchivan pass through hand to hand and showed the harm of the population. When Nakhchivan was under the rule of Ottomans in the years of 1588-1603 and 1727-1736 the implementing ceremonies in that period is investigated by the author. According to policy of “Emptied (burned) land” blow striked to Nakhchivan and the moving of the population is investigated with new facts by the author. Though Nakhchivan was occupied by Ottomans and govern by them for a few period it was tried to built the Azerbaijan statehood and achieved to this aim. Nakhchivan stayed as one of the composition of Safavids state.

The author`s main result in the article is that Nakhchivan territory was played an important role in the history of Safavids state.

**РЕЗЮМЕ**

**Исмаил Гаджиев**

**НАХЧЫВАН В ПЕРИОД ЦЕНТРАЛИЗОВАННОГО АЗЕРБАЙДЖАНСКОГО ГОСУДАРСТВА СЕФЕВИДОВ (1501-1736 годы)**

В статье говорится о возникновении государства Сефевидов, о его роли и позиции в истории и государственности Азербайджана, об объединения Азербайджанских земель в едином государстве, об организации на территории всей страны правительственных органов.

Исследована роль Нахчывана в создании и истории государства Сефевидов. Выявлено, что власть в Нахчыване по наследству принадлежала племени Кенгерлинских, которое было ветвью племени кызылбашей –устаджлы. Кенгерлинские имеют исторические заслуги в охране границ, укреплении государственности государства Сефевидов. Поэтому Нахчыван являлся важным военно-стратегическим регионом государства Сефевидов. В статье также уделено внимание переходу Нахчывана из рук в руки в результате Османо-Сефевидских войн, потери, которые несло население в результате этих войн. Рассказано о периодах с 1588 по 1603 и с 1727 по 1736 годы, когда Нахчыван находился во владении Османской империи. На основе фактов говорится о том, как на Нахчыван повлияла политика “опустошённой (сожжённой) земли”, о переселениях населения. Несмотря на то, что Нахчыван был захвачен Османской империей и некоторое время был в её составе, здесь все время были успешные попытки возобновления Азербайджанской государственности. Нахчыван возвращался в состав государства Сефевидов. Цель этой статьи в том, что Нахчыванский край сыграл важную роль в истории государства Сефевидов.

NDU-nun Elmi Şurasının 19 oktyabr 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 02).

**FƏXRƏDDİN CƏFƏROV**
*Naxçıvan Dövlət Universiteti*
*ceferovf@gmail.com*

**UOT: 930.25**

# MİLLİ ARXİVİN İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN ROLU

**Açar sözlər**: *Türkmənçay müqaviləsi, Nəriman Nərimanov, Daxili İşlər Komissarlığı, Heydər Əliyev, Milli Arxiv fondu, Türkiyə, Moskva*

**Key words**: *Turkmenchay Treaty, Nariman Narimanov, Internal Affairs Commission, Heydar Aliyev, National Archives Foundation, Turkey, Moscow*

**Ключевые слова**: *Туркменчайский договор, Гейдар Алиев, Центральное Архивное Управление, Нахчыван, О фонде Национального Архивы"*

Hər bir millətin arxivi onun tarixinin, həyatının ayrılmaz hissəsidir. Əgər bir xalqın arxivi olmayıbsa, yoxdursa demək o xalqın gələcəyindən də danışmaq əbəsdir. Yəni, keçmişini unudan gələcəksiz yaşayır. Bu bir həyat aksiomasıdır. Azərbaycanda, eləcə də Naxçıvanda arxiv quruculuğu çox çətin bir yol keçmişdir. Tarixin müxtəlif dövrlərində Naxçıvan müxtəlif dövlətlərin vuruş meydanına çevrilmiş, nəticədə işğala məruz qalmış bu ərazidə qiymətli arxiv sənədləri ya məhv edilmiş, yaxud da işğalçılar tərəfindən talan edilərək başqa yerlərə daşınmışdır. Çox uzağa getməyək: xanlıqlar dövründə istər İran, istərsə də Osmanlı dövlətinin Naxçıvan xanlığını ələ keçirmək üçün apardıqları döyüşlər, həmçinin Türkmənçay müqaviləsindən sonra rus müstəmləkəçiliyi, sonra Naxçıvan qəzasının Gürcüstan İmereti və İrəvan quberniyasına verilməsi buna əyani sübutdur. Bu isə öz növbəsində arxiv quruculuğuna böyük ziyan vurmuşdur. Bu gün İran İslam Respublikasının Təbriz, Tehran, Türkiyə Cumhuriyyətinin Ankara, İstanbul, Rusiyanın Moskva, Sak-peterburq, eləcə də Ermənistan, Gürcüstanın dövlət arxivlərində Naxçıvanın XVIII-XIX əsrlər tarixinə dair saxlanılan çoxsaylı qiymətli sənəd, nadir əlyazma vardır. Bunlar bizim milli sərvətlərimizdir ki, əldən çıxıb (1, v. 1).

XX əsrin 20-ci illərinə qədər istər Azərbaycan, istərsə də Naxçıvanda dövlət idarəçiliyinin əsas atributlarından biri sayılan arxivlər olmamışdır. Ölkəmizdə arxiv işinin dövlət səviyyəsində təşkilinə 1920-ci ilin dekabrından başlanmışdır. Azərbaycan İnqilab Komitəsinin sədri Nəriman Nərimanov "Vahid dövlət arxiv fondunun yaradılması və xalq maarif komissarlığı yanında mərkəzi dövlət arxivinin təşkili haqqında" dekret imzalamışdır. Həmin dekreti əldə rəhbər tutan Naxçıvan MSSR Mərkəzi İcraiyyə Komitəsi 1925-ci il dekabr ayının 13-də Naxçıvan MSSR-də Mərkəzi Dövlət Arxivinin yaradılması haqqında qərar qəbul etmişdir (2, v. 38).

Azərbaycanda arxiv orqanlarının yenidən təşkili ilə əlaqədar olaraq 1930-cu ildə Naxçıvan MSSR Mərkəzi Dövlət Arxivi yenidən təşkil edilmişdir. Naxçıvan şəhərindəki dövlət arxivi onun tərkibində idi. Lakin 1960-cı ilə qədər, arxiv idarəsi və Mərkəzi Dövlət Arxivi Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarlığının tabeliyində olan dövrdə demək olar ki, arxivlər qapalı təşkilatlar idi. Bu da onlarla elmi-tədqiqat işlərinin aparılmasına və arxiv sənədlərindən istifadəyə əngəl törədirdi.

1930-cu illərdə Naxçıvanda Mərkəzi Arxiv İdarəsi yaranmış, onun tərkib hissəsi kimi Naxçıvan şəhərində Respublika Dövlət Arxivi olmuşdur. 1941-ci ildə Naxçıvan MR Mərkəzi Dövlət Arxivi adlanmışdır. Ötən əsrin 60-cı illərində ittifaqın başqa yerlərində olduğu kimi Naxçıvanda da arxiv təşkilatı Daxili İşlər Nazirliyinin tabeliyindən çıxarılıb Naxçıvan MSSR

Nazirlər Sovetinin tabeliyinə verildi. Bundan sonra arxiv işinə və arxiv sənədlərindən istifadəyə diqqət artırıldı.

1928-1930-cu illər arasında muxtar respublikanın rayonlarında da dövlət arxivlərinin yaradılmasına başlandı. İlk dəfə Şərur, Ordubad, Culfa və Şahbuz rayonlarında, 1979-cu ildə Babək rayonunun yaranması ilə Babək rayonunda, 1990-cı ildə Sədərək rayonunda, 2004-cü ildə Kəngərli rayonunun yaranması ilə Kəngərli rayonunda dövlət arxivi təşkil olunmuş və xalqımıza xidmət etməyə başlamışdır. Hazırda Naxçıvan Muxtar Respublikası Arxiv İdarəsi tabeliyində bir muxtar respublika dövlət, bir şəhər və 7 rayon dövlət arxivi fəaliyyət göstərir. Bu arxivlərdə elmin, mədəniyyətin və ictimai həyatın müxtəlif sahələrini özündə əks etdirən 430 mindən çox kağız əsaslı idarəçilik işi, elm, mədəniyyət, ədəbiyyat və incəsənət xadimlərinin 2000-ə qədər işdən ibarət elmi və texniki sənədləri, 80 mindən çox foto və 4 mindən çox kino sənədi mühafizə olunur.

Xalqımız öz mənəvi sərvəti olan arxivlərinə yalnız 1991-ci ildə sovet rejimi dağılandan sonra sahib oldu. Müstəqil respublikamızın ərazisində olan bütün arxivlər Azərbaycan xalqının həqiqi mənəvi sərvətinə çevrildi. İllərlə “bağlı qapı” arxasında qalan bu sənədlərdən tariximizin tədqiqində geniş istifadə olunmağa başlandı.

Ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında unudulmaz xidmətlərindən biri də onun xalqımızın tarixinə, mədəniyyətinə böyük övladlıq məhəbbəti idi. O, yaxşı başa düşürdü ki, bir xalqın həqiqi tarixi yalnız ilkin mənbələr olan arxiv sənədləri əsasında yazıldıqda daha dəyərli, dəqiq və inandırıcı olur. Böyük zəka sahibi olan Ümummilli liderimiz hansı sahəyə müraciət etmişsə orada böyük müvəffəqiyyət qazanmışdır. Onun qarşısında fəth edə bilməyəcəyi bir zirvə, öhdəsindən gələ bilməyəcəyi iş yox idi. Çoxları bunun səbəbini bu dahi şəxsiyyətin nadir fitri istedadında görürlər. Bu həqiqətən də belədir və təkzibolunmaz faktdır. Lakin Heydər Əliyevin iş üslubuna yaxından bələd olanlar bu dahi şəxsiyyətin həyatda qazandığı müvəffəqiyyətlərin səbəbini onun ilahi tərəfindən verilmiş fitri istedadı ilə yanaşı əməksevərliyində, özünə qarşı hədsiz tələbkarlığında və daima özü üzərində gərgin işləməsində görürlər. Hər hansı bir ümumdövlət əhəmiyyətli məsələ hazırlanarkən o, həmin məsələyə aid müxtəlif mənbələrdən mümkün qədər çoxlu sənəd və materiallar toplatdırırdı. Əldə olunan materialları komputer dəqiqliyi ilə işləyir, fikir süzgəcindən keçirir və irəli sürdüyü fikirin məntiqi müqabilində alternativ söz deməyə yer qoymurdu.

Müstəqillik əldə etmiş respublikamızda başqa sahələrdə olduğu kimi, arxiv işi sahəsində də suveren dövlətə məxsus yeni qanunvericilik və normativ aktlar yaranmalı idi. Bütün bunların memarı ümimmilli lider Heydər Əliyev olmuşdur. “Milli arxiv fondu haqqında” Azərbaycab Respublikası Qanunu bu işin səmərəli həyata keçirilməsi üçün demək olar ki, təməl daşı rolunu oynadı. Qeyd edək ki, SSRİ məkanında arxiv işi sahəsində qanun qəbul edilməmiş, bu sahədə normativ aktlar yalnız SSRİ Nazirlər Sovetinin təsdiq etdiyi “SSRİ Dövlət Arxivi fondu haqqında Əsasnamə” ilə tənzimlənirdi.

“Milli arxiv fondu” qanunu üzərində uzun müddət iş aparılmış, 1998-ci ildə Milli Məclisə təqdim edilmiş, 199-cu ilin iyun ayında “Milli Arxiv fondu haqqında” Azərbaycan Respublikasının Qanunu qəbul edilmiş və Ümummilli liderimiz Heydər Əliyev tərəfindən 1999-cu il iyul ayının 22-də təsdiqlənmişdir. Qanun arxiv işinin təkmilləşməsi və inkişafı yolunda çox gözəl perspektivlər açmışdır (6). Fərmanda qanundan irəli gələn vəzifələrin yerinə yetirilməsi üçün Respublika Nazirlər Kabineti və digər icra hakimiyyəti strukturları qarşısında konkret vəzifələr qoyulmuşdur. 5 fəsil, 23 maddədən ibarət olan qanun Azərbaycan Respublikasında milli arxiv fondunun formalaşması, mühafizə və arxivlərin fəaliyyəti ilə bağlı münasibətləri tənzimləyir. İlk fəsil ümumi müddəalar, ikinci fəsil Milli Arxiv Fondunun tərkibi və təşkili, üçüncü fəsil Milli Arxiv Fondu sənədlərinin uçotu və mühafizəsi, dördüncü fəsil Arxiv işinin idarə olunması və sonuncu fəsil Yekun müddəalardan ibarətdir.

Bu qanunun 2-ci maddəsində Milli arxiv fondunun qanunvericilik bazası göstərilmişdir. Milli arxiv fondunun qanunvericilik bazası əsasən bu qanundan, Azərbaycan Respublikasının müvafiq qanunvericilik aktlarından və Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələrdən ibarətdir. Azərbaycan Respublikasının digər müvafiq qanunvericilik aktları dedikdə ölkə ərazisində arxiv işi sahəsində qəbul olunan normativ-hüquqi aktlar nəzərdə tutulur. Əgər bu qanunla ölkəmizin tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyət yaranarsa həmin dövlətlərarası müqavilə tətbiq olunur. Qanunun 3-cü maddəsində əsas arxiv işi sahəsində dövlətin əsas vəzifələri göstərilmişdir.

"Milli arxiv fondu haqqında" Qanuna görə Azərbaycan Respublikasının bütün hüquqi və fiziki şəxsləri dövlət arxivində saxlanılan sənədlərdən istifadə etmək hüququna malikdir. Mühafizə müddətindən asılı olmayaraq, dövlət arxiv fondu sənədlərindən istifadə qaydaları Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən olunur. Qeyri-dövlət arxiv fondlarının sənədlərindən isə onların mülkiyyətçilərinin razılığı ilə istifadə oluna bilər.

Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin rəisi, tarix üzrə elmlər doktoru, professor Ataxan Paşayev xatirələrində yazır ki, "Ümummilli liderimizin sənədlərə münasibəti, onlara böyük əhəmiyyət verməsinə fakt ilə bir daha 1999-cu ilin iyulunda Heydər Əliyevin siyasi hakimiyyətə gəlməsinin 30 illiyi münasibətilə idman-konsert kompleksində təşkil olunmuş sərgidə rast gəldim. Bu illərdə əldə edilmiş müvəffəqiyyətləri əks etdirmək üçün hər respublika təşkilatına iki stend ayrılmışdı. O cümlədən Arxiv İdarəsinə də. Kompleksdə stendlər həddindən çox idi. Bizi əvvəlcədən xəbərdar etmişdilər ki, öz stendlər barədə prezidentə yarım, ən çoxu bir dəqiqə müddətində qısa məlumat verərsiniz. Əksər stendlər qarşısından ötəri keçən cənan prezident Arxiv İdarəsinin stendi qarşısında 6-7 dəqiqə dayandı. Burada göstərilən sənədlərlə maraqlandı. Stenddəki materiallar arasında başqa sənədlərlə yanaşı 1983-cü ildə Moskvada siyasi büronun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi yüksək vəzifələrdə işləyərkən SSRİ Nazirlər Soveti yanında Baş Arxiv İdarəsinin yeni rəisinin təyini zamanı onu kollektivə təqdim edərkən H.Əliyevin çıxışının mətnini də qoymuşduq. Bu onun diqqətindən yayınmadı. Həmin çıxışı görən kimi orada baş verənləri yada saldı. SSRİ-nin arxiv orqanları üçün qısa bir vaxtda xeyli köməklik etdiyini qeyd etdi. Bu məsələ ilə bağlı onu da deyim ki, həmin təqdimatdan sonra Azərbaycandan Moskvaya Baş Arxiv İdarəsinə yolu düşən hər bir şəxsdən oranın əməkdaşları ilk olaraq Heydər Əliyevin arxiv işçisi olub olmamasını soruşurdular..."(3, v. 3).

Qeyd edək ki, Ümummilli liderimiz Heydər Əliyev hələ Naxçıvan Pedaqoji Texnikumunu 1939-cu ildə bitirdikdən sonra bir neçə ay Şahbuz rayonunda müəllim işləmiş, 1939-1941-ci illərdə Naxçıvan MSSR Mərkəzi Dövlət Arxivində baş elmi işçi, məxfi şöbənin müdiri işləmiş və arxivdən Milli Təhlükəsizlik orqanlarına aparılmışdır (4).

Mənəvi sərvətimizin böyük hamisi olan Heydər Əliyev tərəfindən imzalanmış bu qanun və fərman ölkəmizdə arxiv işi və onun inkişafı ilə bağlı bütün məsələləri əhatə edir, onun strategiyasını, gələcək işlərin başlıca istiqamətlərini müəyyənləşdirir.

Nəhayət qeyd edək ki, "Azərbaycan Respublikasında arxiv işinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 2 dekabr tarixli fərmanı arxiv işinə verilən ən böyük dəyərdir. Həmin fərmanda Arxiv İdarəsinin statusunun genişləndirilməsi ilə yanaşı, bu xidmət təşkilatının maddi-texniki bazasının təkmilləşdirilməsi və təchizatının yaxşılaşdırılması, arxivlərin lazımi binalarla təmin olunması, mövcud binalarda təmir və bərpa işlərinin aparılması arxiv işçilərinin sosial vəziyyətinin yaxşılaşdırılması və sair qarşıya çox mühüm vəzifələr kimi qoyulmuşdur və müvəffəqiyyətlə həyata keçirilmişdir.

Fərmanda arxiv sənədlərinin qorunub saxlanması və onların istifadəsinin zəruriliyi qeyd edilməklə yanaşı, bu sahəyə hərtərəfli qayğının artırılması da xüsusi vurğulanır. Bu tədbirlərdən sonra ölkəmizin, Naxçıvan Muxtar Respublikasının tarixinin, mədəniyyətinin, ədəbiyyatının

öyrənilməsi sahəsində çox mühüm işlər görülmüşdür ki, bu da dahi rəhbərin arxivlərə, arxiv işinə göstərdiyi yüksək dövlət qayğısının nəticələridir.

Heydər Əliyevin “Arxiv işinin təkmilləşdirilməsi haqqında” fərmanından sonra Naxçıvan Muxtar Respublika Ali Məclisinin Sədrinin 6 dekabr 2002-ci il tarixli fərmanı ilə Naxçıvan Muxtar Respublikası Arxiv İdarəsi Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti yanında Arxiv İdarəsinin bazısında yenidən qurulmuşdur.

Dövlət arxivində elmin, mədəniyyətin və ictimai həyatın müxtəlif sahələrini özündə əks etdirən 1023 fondda 480 mindən çox kağız əsaslı idrəçilik işi, elm, mədəniyyət, ədəbiyyat və incəsənət, dövlət xadimlərinin 2 minə qədər işdən ibarət elmi və texniki sənədləri, 84 minə yaxın foto və 4 mindən çox kino sənədi mühafizə olunur.

Ulu öndər Heydər Əliyevin Azərbaycan xalqının mənəvi, çox qiymətli, əvəzolunmaz tarixi sənədlərin qorunub gələcək nəsillərə çatdırılması üçün arxiv sənədləri təşkilatı haqqında söylədiyi fikirlər bütün dövrlər üçün aktualdır: “Azərbaycan Respublikasının arxiv xidməti təşkilatları xalqımızın çoxəsrlik tarixini öyrənmək üçün qiymətli sənədlərin toplandığı və mühafizə olunduğu elmi-tədqiqat mərkəzidir”. Ulu öndər Heydər Əliyevin dediyi bu sözlər isə daim yaddaşımızdadır: “Arxiv işinə gərək çox ciddi fikir verək. Bir tərəfdən ona görə ki, xalqımızın tarixini əks etdirən yeganə mənbədir. İkincisi də ona görə ki, tariximizi təhrif edənlərin qarşısını alamq üçün çox mühüm amildir”.

## ƏDƏBİYYAT


1. Nax. MRDA. f. 299. s 4, iş 22. v.1-4
2. Nax. MRDA. f. 40. s. 1, iş 28. v. 38
3. Naxçıvan MRDA. 1. 314, s 2, iş 8, v 14
4. “Milli arxiv fondu haqqında” Azərbaycan Respublikasının qanunu. 22 iyun 1999
5. “Şərq qapısı” qəzeti
6. “Xalq qəzeti”, 3 dekabr 2002.


## ABSTRACT


**Fakhraddin Jafarov**


## THE ROLE OF HEYDAR ALIYEV IN THE DEVELOPMENT OF NATIONAL ARCHIVE


Archive building in Azerbaijan, including Nakhchivan, has been a very difficult way. The territory of Nakhchivan has become a stroke of various states, resulting in valuable archival documents either destroyed or occupied by occupiers and moved to other places in the occupied territory.

Until the 20th century, archives were one of the main attributes of the state administration in Azerbaijan, as well as in Nakhchivan. The state-level archive business in our country has started in December 1920.

The Central Executive Committee of the Nakhchivan Autonomous Republic has made a decision in 1925 to establish the Central State Archives. In 1930, the Central Archive Office was established in Nakhchivan in connection with the organization of archives in Azerbaijan, which was part of the Republican State Archives in Nakhchivan.

As in other areas of our republic, which has gained independence, new legislative and normative acts belonging to a sovereign state must have been established in the archives business. Their master was Heydar Aliyev, the national leader. The Law of the Republic of Azerbaijan "On National Archive Fund" was adopted and approved by Heydar Aliyev, our national leader on June 22, 1994.

## РЕЗЮМЕ

**Фахраддин Джафаров**

## РОЛЬ ГЕЙДАРА АЛИЕВА В РАЗВИТИИ НАЦИОНАЛНОГО АРХИВА

В Азербайджане, в том числе в Нахчыване архивное строительства прошел очень трудный путь. Территория Нахчывана преврашилась вполе разных государств, в итаге на этой захваченной территории архивные документы или были уничтожены, или были унесены в другие места.

До 20-х годов XX века в Азербайджане, в том числе в Нахчыване одним из государственных атриьутов являлиь архивы. В нашей стране на государственном уравне организация архивной работы началось с декабря 1920 года.

Центраольный Исполнительный Комитет Нахчыванской АССР принял решение в 1925 году, о создании Централного Государственного Архива. 1930 году в связы созданем архивных органов в Азербайджане, в Нахчыване создано Центральное Архивное Управление, частью которой являлся Государственный Архив Автономной Республики, находящегося в городе Нахчыван.

Внашей республики завоевавшей независимость, как в других отраслях так в отрасле архивной раблты должно было создано заканадательные и нормативные акты свойственные суверенногу государству. Зодчим всего этого является общенациональный лидер Гейдар Алиев. 22 июня 1994 года Г.Алиев утвердил своей ардписаю Закон Азербайджанской Респуьлики “О фонде Национального Архивы”.

---

NDU-nun Elmi Şurasının 19 oktyabr 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 02).
Məqaləni çapa təqdim etdi: AMEA-nın müxbir üzvü Z.Şahverdiyev

**ZENFİRA SEYİDOVA**
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 069**

# CƏLİL MƏMMƏDQULUZADƏ ADINA NAXÇIVAN MR ƏDƏBİYYAT MUZEYİ VƏ GÖRKƏMLİ ƏDİBLƏRİMİZİN XATİRƏ MUZEYLƏRİ

**Açar sözlər:** *mədəniyyət, xatirə, memorial, ədib, şair, ekspozisiya,incəsənət, muzey, portret*
**Key words:** *culture, memorial, memorial, writer, poet, exposition, art, museum, portrait*
**Ключевые слова:** *культура, мемориал, мемориал, писатель, поэт, экспозиция, искусство, музей, портрет*

Azərbaycan dövləti mədəniyyətin ayrı-ayrı sahələrinə hərtərəfli dəstək göstərir və bu sahənin inkişafına böyük təkan verir. Muzeylər xalqın, dövlətin, tarixi şəxsiyyətlərin, elm-mədəniyyət adamlarının irsinin qorunduğu etibarlı bir ocaqdır. Muzeylərdə mədəniyyətimizin bütün qollarının nümunələri yaşayır. Bəlli olduğu kimi, arxeoloji qazıntılar zamanı üzə çıxarılan, alimlərin aşkarladığı maddi sərvətlərlə yanaşı, evlərdə, tayfalarda saxlanan bir sıra nümunələr də muzeylərə təhvil verilib.

Muzeylər Azərbaycan torpağının havasını, ruhunu özündə qoruyur və təbliğ edir.

Azərbaycanda muzey işinə dövlət tərəfindən xüsusi diqqət yetirilir. Onu da qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 6 mart 2007-ci il tarixində "Azərbaycanda muzey işinin yaxşılaşdırılması haqqında" sərəncam imzalayıb.

Sənəddə qeyd edilir ki, xalqımızın ən qədim zamanlarından müasir dövrədək tarixini və mədəniyyətinin inkişaf yolunu əks etdirən Azərbaycan muzeyləri ölkəmizdə zəngin mədəni irsin qorunması və təbliğ olunması işində mühüm rol oynayır: "Bugün muzeylərimiz nadir sənət incilərinin və milli sərvətlərin nümayiş etdirildiyi geniş bir şəbəkəyə malik olaraq respublikamızın bütün bölgələrini əhatə edir" (2 səh.22).

Ədəbiyyat profilli muzeylərin yarandığı gündən materialların toplanması, şair və yazıçılarımızın həyat və yaradıcılığının ekspozisiyada eksponatlar vasitəsilə təbliği mühüm yer tutur.

Muzeylərin fəaliyyətə başladığı illərdə Azərbaycan ədəbiyyatını əks etdirən ekspozisiyaların qurulması, ədəbiyyatımızın öyrənilməsi və təbliği sahəsində müvafiq addımlarını atmışdır. Ədəbiyyat profilli muzeylərdə muzey eksponatlarının nümayiş etdirilməsi, ekskursiyaların təşkili, mühazirələr, kütləvi tədbirlər, səyyar sərgilər vasitəsilə, muzey elmi biliklər yolu ilə təbliğ etməklə həyata keçirir.

Muxtar respublikada ədəbiyyat profilli muzeylərin yaranması, yenidən qurulması, təkmilləşdirilməsi işində muxtar respublika rəhbərliyinin yaxından köməyi olmuş, mövzu ekspozisiya planlarına əsasən ekspozisiyalar yenidən qurulmuşdur.

C.Məmmədquluzadə adına Naxçıvan MR Ədəbiyyat muzeyi mürəkkəb və məzmunlu yol keçmişdir.

Azərbaycan ədəbiyyatı Azərbaycan xalqınım tarixi yaddaşı olmuş və olaraq qalır. Azərbaycan ədəbiyyatı Azərbaycan xalqının həyat tərzini, bəşər mədəniyyəti tarixindəki rolunu əks etdirən salnamə olmuş və olmaqdadır. Muzey həmişə özünün yüksək humanizmi, nikbinliyi, ictimai fəallığı, beynəlmiləlçilik pafosu, ümuminsani meylləri ilə fərqlənən Azərbaycan xalqının qürurunun və vicdanının, ləyaqətinin və namusunun ifadəsidir.

Böyük demokrat yazıçı C.Məmmədquluzadənin adını daşıyan muzeyimiz də belə ədəbiyyat muzeylərindəndir.

Muzeyin vəzifəsi Azərbaycan ədəbiyyatı tarixini təqdim etmək, yazıçı və alimlərin xatirə əşyalarının yığılması və qorunması, milli ədəbiyyatın təbliği, müasir dövrdə nailiyyətləri ilə geniş kütlələri tanış etməkdir.

Muzeyin daimi ekspozisiyası iki mərtəbədə yerləşən, 3 zalda nümayiş etdirilir. Bu, əslində Azərbaycan ədəbiyyatı tarixinin əyani təqdimidir. Ekspozisiyada şifahi xalq yaradıcılığı, dünya

miqyaslı şedevrlər “Kitabi-Dədə Qorqud” və “Koroğlu” kimi eposlar, XII-XVI əsrlər Azərbaycan ədəbiyyatı və onun parlaq zirvələri olan N.Gəncəvi, Nəsimi, Füzuli, zəngin aşıq poeziyası, son orta əsrlərin ədəbi həyatı, yeni milli ədəbiyyatın inkişafında görkəmli rol oynayan M.F.Axundov, A.Bakıxanov, M.Ş.Vazeh, X.Natəvan, N.Nərimanov, H.Cavid, C.Məmmədquluzadə və başqa yazıçılarımızın həyat və yaradıcılığı öz əksini tapmışdır.

Azərbaycan yeni dövr ədəbiyyatının Ə.Əbülhəsən, S.Rəhimov, R.Rza, M.Müşfiq, Naxçıvanlı şair və yazıçıları, dramaturqları, tənqidçiləri müasir ədəbi prosesdə fəal iştirak edən bir çox yazıçılarımız muzeyin ekspozisiyasına daxil olmuşdur.

Muxtar respublikamızdakı hər bir muzeyin öz tarixi, özünün səciyyəvi xüsusiyyətləri, öz siması vardır. Bütün bunlar muzeyin yerləşdiyi binanın, həm də şəxsiyyətin dövrünün təsviri ilə bağlıdır. Xatirə muzeyləri mümkün olduqca görkəmli şəxsiyyətin yaşadığı ərazidə həmin şəxsin evində təşkil edilməli, xüsusən ekspozisiyanın təşkilində sənətkarın yaradıcılığının hər hansı bir cəhətini açdığı üçün mənzilin quruluşu, interyeri saxlanmalıdır. (4 səh.80).

Xalqımızın ümummilli lideri, müasir Azərbaycan Respublikamızın və dövlətimizim qurucusu və memarı Heydər Əlirza oğlu Əliyev Azərbaycanımızın ayrılmaz tərkib hissəsi qədim Naxçıvan diyarının yetişdirdiyi görkəmli şəxsiyyətlər haqqında demişdir:

“Naxçıvan böyük şəxsiyyətlər yetirmiş bir torpaqdır. Naxçıvan həmişə böyük şəxsiyyətlərlə fərqlənmiş və bu şəxsiyyətlər, alimlər, münəccimlər, şairlər, memarlar, dövlət xadimləri olmuşlar. Naxçıvan həmişə Azərbaycanın yüksək ziyalı yetişdirən bir diyarı olmuşdur.” Xalqımızın ümummilli lideri Heydər Əliyevin bilavasitə rəhbərliyi, qayğı və göstərişləri sayəsində Naxçıvanda görkəmli şəxsiyyətlərin adlarının əbədiləşdirilməsi məqsədilə xatirə muzeyləri, ev-mənzil muzeyləri, xatirə ansamblları və kompleksləri yaradılmışdır (1. səh.9).

Böyük Mirzə Cəlil irsinin toplanması, öyrənilməsi, təbliği məqsədilə Naxçıvan şəhərində C.Məmmədquluzadənin ev muzeyi, Cəlilkənddə və Nehrəm kəndində C.Məmmədquluzadənin xatirə muzeyi yaradılmışdır.

Naxçıvanda C.Məmmədquluzadənin ev muzeyi də ekspozisiya rəngarəngliyi ilə seçilir. Muzeyin ekspozisiyasında böyük ədibin həyat və yaradıcılığının əsas dövrləri, Naxçıvan teatrında onun iştirakı ilə tamaşaya qoyulan tamaşalar haqqında sənədlər, materiallar, Azərbaycan demokratik maarifçiliyindən bəhs edən bir çox foto-sənədlər, “Molla Nəsrəddin” jurnalının nüsxələri və digər eksponatlar vitrinlərdə, guşələrdə nümayiş olunur.

Cəlilkənddə C.Məmmədquluzadə xatirə muzeyində ədibə aid çox qiymətli əşya və eksponatlar toplanmışdır. Bu muzeylər Mirzə Cəlilə həsr olunsa da ekspozisiyanın quruluşu baxımından çox yüksək şəkildə qurulmuşdur.Yəni tamaşaçı bu muzeylərdə çox maraqlı, fərqli ekspozisiya quruluşları ilə rastlaşır ki, bu da muzey işçilərinin yüksək peşəkarlığını təsdiq edir.

C.Məmmədquluzadənin həyatı və yaradıcılığı, nəsil şəcərəsi, pedaqoji fəaliyyəti və s. zəngin materiallar əsasında bədii tərtibatla əks olunur.

C.Məmmədquluzadənin tədqiqatçıları Əli Nazim, Mirzə İbrahimov, Əziz Şərif, Abbas Zamanov, Əziz Mirəhmədov, İsa Həbibbəyli və başqalarının da fotoları ekspozisiyada öz əksini tapmışdır.

Nehrəm kəndində C.Məmmədquluzadə xatirə muzeyinin ekspozisiyası ədibin pedaqoji fəaliyyəti, həyat və yaradıcılığının əsas dövrləri, kənddə maarifçilik və təhsil illərinə, ailə həyatına aid zəngin materiallarla tərtib edilmişdir. Muzeydə 1000-dək eksponat mühafizə olunaraq ekspozisiyalar vasitəsilə nümayiş etdirilir.

“Memorial” sözünün əsasını təşkil edən “memoria” latın sözüdür. Azərbaycan dilində “xatirə” sözünə uyğun gəlir. Xatirə muzeyinin əşyaları da, təbii ki, həmin şəxsiyyətin həyatı və fəaliyyəti ilə bağlı olur. Buraya ilk növbədə muzeyin yaradıldığı yer (ev, mənzil, malikanə, iş otağı və s.) daxildir. Təcrübə göstərir ki, yaşadığı müddətdən asılı olmayaraq həmin yerdə xatirə muzeyi yaradılır və tamaşaçılar tərəfindən rəğbətlə qarşılanır. Ona görə ki, mənsub olduğu xalqa başucalığı gətirən, öz xalqının tarixində və taleyində önəmli rol oynayan, elminin və mədəniyyətinin inkişafına dəyərli töhfələr verən şəxsiyyətlərin adı ilə bağlı hər bir məkan müqəddəs tutulur. Buraya gələn hər bir tamaşaçıda xoş hisslər, duyğular yaranır, şəxsiyyətin xatirəsi böyük ehtiramla yad edilir.

Belə ədəbiyyat profilli muzeylərdən biri də dahi Azərbaycan şairi, görkəmli dramaturq, ədəbiyyat və mədəniyyət xadimi Hüseyn Cavidin ev muzeyidir. Şairin anadan olmasının 100 illiyi

haqqında 1981-ci ildə xüsusi qərar imzalanmışdır. Həmin qərarda Bakı və Naxçıvan şəhərlərində Hüseyn Cavidə heykəl-abidələr ucadılması, xatirə-ev muzeylərinin yaradılması və digər tədbirlərin həyata keçirilməsi öz əksini tapmışdır. (1. səh.17)

1984-cü ildə Naxçıvanda Hüseyn Cavidin ev muzeyinin təntənəli açılışı oldu. Muzey açıldığı gündən müvəffəqiyyətlə fəaliyyət göstərir və ekspozisiyası zənginləşdirilir.

Ekspozisiyanın tərtib prinsiplərindən danışarkən qeyd etmək lazımdır ki, şairin fəaliyyəti xronoloji ardıcıllığı, müəyyən mövzular üzrə ayrı-ayrı bölmələrdə əyanilәşdirilmişdir.

Həmin bölmələrin əyaniləşdirilməsində orijinal fotolardan, Hüseyn Cavidin şəxsiyyəti və yaradıcılığı haqqında görkəmli alim və sənətşünasların mülahizələrindən, əsərlərindən götürülmüş bədii parçalardan, təsviri və tətbiqi sənət nümunələrindən yerli-yerində istifadə olunduğundan, şairin həyat və yaradıcılığı dolğunluqla göz önündə canlanır.

Hüseyn Cavidin dərin mənalı, hikmətli əsərələri ilə ətraflı tanış olan tamaşaçı, həm də onun sələfləri, müəllimləri, qələm yoldaşları, sənət dostları, həmçinin dövrünün mühüm hadisələri haqqında ətraflı məlumat alır.

İstedadlı, qüdrətli qələmi və ardıcıl ictimai fəaliyyəti ilə yarım əsrdən artıq bir dövrdə xalqımızın azadlığı, səadəti, tərəqqisi yolunda çalışan Ordubadinin adı yaddaşlarda əbədi həkk olunmuşdur.

M.S.Ordubadinin yaradıcılığı son dərəcə zəngin, müxtəlif və rəngarəngdir. Ordubadi şairdir, publisistdir, tərçüməçidir, libretto və ədəbi-tənqidi məqalələr müəllifidir. O, Azərbaycan ədəbiyyatı tarixinə ilk növbədə tarixi roman janrının banisi, cəmiyyətimizin keçdiyi bütöv bir ictimai inkişaf dövrünü epik lövhələrlə canlandıran monumental romanların müəllifi kimi daxil olmuşdur.

M.S.Ordubadinin xatirə muzeyi 1972-ci ildə Ordubadda yaradılmışdır. Muzey M.S.Ordubadinin yaradıcılıq irsini mühafizə edir.

Muzey M.S.Ordubadinin həyat və yaradıcılığını dərindən öyrənir, tematik və səyyar sərgilər təşkil edir, elmi-kütləvi iş aparır.

Tarixi dövrlərdə baş verən hadisələri əks etdirən nümunə və məlumatlar, faktlar, incəsənətin müxtəlif növləri, ədəbiyyat, musiqi, təsviri incəsnət, dekorativ-tətbiqi sənət nümunələrinin əyani illüstrativ vasitələrlə təbliği çox güclü hisslərin yaranmasına, biliklərin təsdiqinə, bacarıqların inkişafına, formalaşmasına səbəb olur. (3 səh.284).

Xatirə muzeyləri bir tərəfdən görkəmli şəxsiyyətlərin xatirəsini əbədiləşdirir, digər tərəfdən ideoloji-siyasi müəssisə kimi gənc nəslin vətənpərvərlik və beynəlmiləlçilik ruhunda tərbiyə edilməsində xüsusi rol oynayır. Belə mədəniyyət ocaqlarından biri Ordubadda M.T.Sidqinin və Şahbuz rayonunun Nursu kəndində yeni yaradılmış xalq şairi M.Arazın ev muzeyləridir.

Muzey Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin "Məhəmməd Tağı Sidqinin ev muzeyinin yaradılması haqqında" 2014-cü il 17 sentyabr tarixli sərəncamına əsasən yaradılmışdır. Bu muzeyin yaradılması görkəmli pedaqoqun xatirəsinin əbədiləşdirilməsinə, yaradıcılığının daha dərindən öyrənilməsinə və təbliğinə xidmət edir.

Muzey girişdən, 3 ekspozisiya və 3 iş otağından ibarətdir. Ümummilli lider Heydər Əliyev Məhəmməd Tağı Sidqinin təhsil və mədəniyyətin inkişafındakı xidmətlərini yüksək qiymətləndirmişdir. Muzeyin ekspozisiyası ümummilli liderin bu fikirləri ilə başlayır: "Naxçıvanda təhsilin, ümumiyyətlə, mədəniyyətin inkişafında mütəfəkkir Məhəmməd Tağı Sidqinin böyük rolu olmuşdur.

Ekspozisiyada M.T.Sidqinin yaratdığı "Əxtər" və "Tərbiyə" məktəblərinin fotoşəkilləri, bu böyük maarifçinin məktəb haqqında fikirləri nümayiş olunur.

M.T.Sidqinin məktəb və şagirdlər haqqında yazdığı hekayə və şerlərdən nümunələrdən də məlumat verilir. Onu da qeyd edək ki, M.T.Sidqinin açdığı məktəblər böyük ziyalı nəsli yetişdirmişdir. Burada M.T.Sidqinin yetirmələri H.Cavid, Ə.Şərif. Ə.Qəmküsar, R.Təhmasib, M.S.Ordubadi, İ.Əbilov kimi görkəmli şəxsiyyətlərin fotoşəkilləri nümayiş olunur. Bəli bütün eksponatlar M.T.Sidqi yaradıcılığını göz önündə canlandırır.

Beləliklə, xatirə muzeylərinin yaranması bir daha göstərir ki, Azərbaycan xalqı özünün mədəni keçmişinə böyük qayğı ilə yanaşır, ən yaxşı, ən qabaqcıl ənənələrini qoruyub saxlayır.

Xatirə muzeyləri doğrudan da mədəniyyətimizi, görkəmli şəxsiyyətlərimizin həyat və yaradıcılığını nümayiş etdirən mühüm təbliğat vasitəsi, təbliğat ocağıdır.

## ƏDƏBİYYAT


1. S.Kəngərli. Heydər Əliyev muzeylərimizin yaradıcısı və memarıdır. Naxçıvan, 2003,
2. A.Bayramov. Heydər Əliyev və muzeylərimiz. Bakı, 1999
3. Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı muzeyinin əsərləri VI cild. Bakı, Elm, 1992
4. C.Məmməquluzadə adına Naxçıvan MR Ədəbiyyat muzeyinin, C.Məmmədquluzadənin ev muzeyinin, Nehrəm və Cəlilkənddəki C.Məmmədquluzadənin xatirə muzeylərinin, H.Cavid, M.S.Ordubadinin ev muzeylərinin, M.T.Sidqinin ekspozisiya materiallarından.



## ABSTRACT

**Zenfira Seyidova**

**"NAKHCHİVAN AR LİTERATURE MUSEUM NAMED AFTER JALİL MAMMADGULUZADE AND MEMORİAL MUSEUMS OF OUTSTANDİNG POETS AND WRİTERS"**

The government of Azerbaijan provides comprehensive support to different spheres of culture and gives a great impetus to the development of this sphere. Museums are a safe place for the protection of the heritage of the people, state, historical personalities, scientists and cultures. Museums have examples of all the branches of our culture. As is well known, some examples of archaeological excavations discovered by scholars, along with the material wealth discovered by scientists and those preserved at homes and tribes have been handed over to museums. Each museum in the Autonomous Republic has its own history, its own characteristics, its own image. All this is related to the description of the building where the museum is located, as well as the period of identity. Memorial museums should be organized in the area where the most prominent personalities live, in the house of that person, especially in the organization of the exposition, because of the creation of the artist's creativity, the structure of the apartment should be preserved.



## РЕЗЮМЕ

**Зенфира Сейидова**

**“МУЗЕЙ ЛИТЕРАТУРЫ НАХЧЫВАНСКОЙ АР ИМЕНИ ДЖАЛИЛЯ МАМЕДГУЛУЗАДЕ И МЕМОРИАЛЬНЫЕ МУЗЕИ ВЫДАЮЩИХСЯ ПОЭТОВ И ПИСАТЕЛЕЙ”**

Азербайджанское государство оказывает всестороннюю поддержку различным сферам культуры и придает большой импульс развитию этой сферы. Музеи - это безопасное место для защиты наследия народа, государства, исторических личностей, ученых и культур. В музеях хранятся экспозиции всех отраслей нашей культуры.

Как известно, некоторые экспозиции археологических раскопок, обнаруженных учеными, наряду с материальным богатством, обнаруженным в домах, были переданы в музеи. Каждый музей в Автономной Республике имеет свою историю, свои особенности, свой имидж. Все это связано с расположением здания, в котором находится музей, а также с описанием периода, в котором жил та или иная личность. Мемориальные музеи должны быть организованы в районе, где жили наиболее известные личности, в доме этого человека, особенно в организации экспозиции, для раскрытия какой либо детали творчества этой личности, структура и интерьер здания должны быть сохранены.



NDU-nun Elmi Şurasının 19 oktyabr 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 02).
Məqaləni çapa təqdim etdi: AMEA-nın müxbir üzvü Z.Şahverdiyev

**ZEYNƏB QULİYEVA**
*AMEA Naxçıvan Bölməsi*
*zeyneb_guliyeva@yahoo.com*

**UOT: 94(479.242)**

# NAXÇIVANIN SON ENEOLİT ABİDƏLƏRİ

**Açar sözlər:** *Naxçıvan, Son Eneolit, Zirincli, Yeni yol, Şorsu, Ovçulartəpəsi*
**Keywords**: *Nakhçhivan, Late Chalcholit, Zirinchli, Yeni yol, Shorsu, Ovchulartepesi*
**Ключевые слова:** *Нахчыван, Поздний Энеолит, Зиринджли, Йени йол, Шорсу, Овчулартепеси*

Cənubi Qafqazda Eneolit mədəniyyətinin son mərhələsi ilə bağlı fərqli mülahizələr mövcud olmuşdur. Tədqiqatçıların bir qismi bu mərhələnin Mesopotamiyadan gəlmə təsir altında formalaşdığını irəli sürürlər [13,130; 12]. Bu xüsusiyyət əsasən “Leylatəpə mədəniyyəti” adı altında qruplaşdırılan I və II Poylu, I və II Böyük Kəsik, Ağılı dərə, Soyuqbulaq kurqanları kimi şimal-qərb abidələrində izlənilir. Lakin eyni fikir Mil-Qarabağ və Naxçıvan bölgələrində yerləşən abidələrə şamil edilmir. Bu ərazilərdə son dövrlərdə aparılan tədqiqatlar Son Eneolit mədəniyyətinin yerli zəmində formalaşdığını göstərmişdir [2]. Bu baxımdan Naxçıvan ərazisində aşkar edilən Son Eneolit dövrü abidələri xüsusi əhəmiyyət kəsb edir. Əsasən çay vadilərində salınan belə yaşayış yerlərindən Ovçulartəpəsi, Xələc, Ərəbyengicə, Şortəpə və Sədərək Arpaçay vadisində [17], Yeni yol, Şorsu, Zirincli, Güney Ağıl, Nüvars, Sürümçək isə Naxçıvançay vadisində qeydə alınmışdır [1]. Onlardan 4-ü arxeoloji tədqiqatlarla öyrənilmişdir *(Cədvəl 1).*

| | Abidənin adı | Xronoloji çərçivəsi | Mədəni təbəqə | Keramikanın xüsusiyyətləri | Digər xüsusiyyətlər |
|---|---|---|---|---|---|
| | Ovçulartəpəsi (çoxtəbəqəli) | e.ə. 4350-4000 (350 il) | 1-1,5 m | Samanlı, daraqlanmış, relyef və basqı naxışlı, dəyirmi və mis oturacaqlı qablar, | Yarımqazma təkotaqlı evlər, çoxotaqlı kərpic evlər, daş özül, mis filizi |
| | Zirincli | e.ə. 4240-3800 (440 il) | 15-25 sm | Samanlı,dairəvi deşiklərlə və oval batıqlarla bəzəmə | gil qəlib, mis filizi |
| | Yeni yol | e.ə. 4038-3960 (78 il) | 1 metr | Samanlı, sarı, boz, qırmızı gilli, bəzən cilalı, sürmə boyalı | yarımqazma tipli dördkünc və dairəvi binalar |
| | Şorsu | e.ə. 3910-3870 (40 il) | 15-20 sm | Samanlı, qırmızı, qəhvəyi keramika, dairəvi deşiklərlə bəzəmə motivi | Düzbucaqlı, yüngül konstruksiyalı evlər |

*Cədvəl 1. Naxçıvanın Son Eneolit abidələrinin xronoloji çərçivəsi.*

Ovçulartəpəsi yaşayış yeri Arpaçayın sol sahilindəki Dizə kəndi ərazisində 10 ha sahəni əhatə edir. 1980-ci ildə AMEA-nın müxbir üzvü V.Əliyev və A.Seyidov tərəfindən qeydə alınan abidədə 2002-2005-ci illərdə yerli çərçivədə aparılan arxeoloji qazıntılar 2006-cı ildən Azərbaycan-Amerika birgə arxeoloji ekspedisiyası tərəfindən genişləndirilmişdir. AMEA-nın müxbir üzvü V.Baxşəliyev, S.Aşurov və K.Morronun rəhbərliyi ilə 2014-cü ilədək davam etdirilən tədqiqatlar prosesində götürülən karbon analizlər yaşayış yerinin təqribən 350 illik bir zaman kontekstində

məskunlaşdırıldığını göstərmişdir. Bu tarix Eneolitin orta və son mərhələsinin öyrənilməsində abidənin xüsusi əhəmiyyətini göstərir. Bu səbəbdəndir ki, yaşayış yerinin tapıntıları arxitekturada izlənən dövrlərə uyğun olaraq tədqiqatçılar tərəfindən iki qrupa ayrılmışdır: yarımqazma təkotaqlı evlərdən aşkar edilənlər və çoxotaqlı kərpic evlərdən aşkar edilənlər [17, 25]. Birinci qrupa aid olanlar sarı, boz, saman üzlü, saman qarışıqlı olmaqla xaricdən daraqlanan kasa və müxtəlif ölçülü küpələrdən ibarətdir. Onların ornamentasiyasında dairəvi qabartmalardan, relyef qurşaqlardan, zoomorf təsvirlərdən, daraq basqısı formasında olan maili xətlərdən, bəzən də damğalardan istifadə olunmuşdur .

Eneolitin son mərhələsinə aid olduğu ehtimal edilən ikinci mərhələnin memarlığı üçün yarımqazma tikililər xarakterik olmuşdur. Aşkar edilən keramika məmulatı tərkibinə görə əvvəlkilərlə eyni olan kasa, çölmək və küpələrdən ibarət olsa da birinci mərhələ üçün xarakterik olan darboğazlı, 3 qulplu küpələr artıq yarımqazma tikintilər dövründə sıradan çıxmışdır [16, 27]. Bu dövrün çəhrayı rəngli saman qarışıqlı gildən hazırlanmış qalın divarlı qabları xaricdən açıq qəhvəyi rəngli gillə suvandıqdan sonra daraqvari alətin köməyi ilə hamarlanmışdır. Yuvarlaq, yaxud miz oturacaqlı, həmçinin şarşəkilli gövdəyə malik olan küpə tipli qablar Ovçulartəpəsinin özünəməxsus bir mədəniyyəti ehtiva etdiyini göstərir (Şəkil 1.).



*Şəkil 1. Ovçulartəpəsindən aşkar edilmiş Son Eneolit dövrünə aid küpə (AMEA NB. Arxeologiya və Etnoqrafiya Muzeyi, inv. №2; №5).*

Naxçıvanın Son Eneolit dövrünə aid zəngin arxeoloji material verən digər 3 abidə XXI əsrin ikinci onilliyində Naxçıvançay vadisində qeydə alınmışdır. Onlardan biri olan Zirincli yaşayış yeri Sirab kəndinin şimal-şərqindəki dağlıq ərazidə yerləşir [1,7]. Mədəni təbəqənin qalınlığı 15-25 sm-dir. 2014-cü ildə V.Baxşəliyev və K.Morronun rəhbərlik etdiyi Azərbaycan-Fransa beynəlxalq ekspedisiyası tərəfindən 300 $m^2$ sahədə aparılan tədqiqatlar zamanı abidədən götürülmüş kömür nümunələrinin analizi e.ə. 4240-3800-cü illərlə sərhədlənən Son Eneolit dövrünü göstərmişdir. Tədqiqatlar zamanı gil qəlib, mis filizinin qalıqları,obsidian alətlər və yerə basdırılmış küplər üzə çıxarılmışdır.Təqribən 440 illik bir zaman çərçivəsini əhatə edən bu dövrün keramika məmulatı saman qarışıqlı, sarı, qırmızı rənglərin müxtəlif çalarlarında hazırlanmış qabarıq və konusvari gövdəli kasalar və küpələrlə təmsil olunur [1,7]. Qabların ornamentasiyasında ağız kənarlarının aşağısında açılan dairəvi deşiklər və oval batıqlar əsas yer tutmuşdur.

Yeni yol Babək rayonu ərazisində olan Məmmədrza kəndinin cənubunda, Sirabçayla Naxçıvançayın qovşağında yerləşir. Mədəni təbəqə 1 metr qalınlıqdadır. 2013-cü ildə V.Baxşəliyevin rəhbərliyi ilə burada aparılan kəşfiyyat araşdırmaları zamanı Eneolit dövrünə aid az miqdarda keramika məmulatı toplanmış, 2014-cü ildə isəgeniş arxeoloji tədqiqata cəlb edilmişdir. Arxeoloji qazıntılar nəticəsində çiy kərpiclə inşa edilən iki tikinti qatı üzə çıxarılmışdır. Kül layları ilə bir-birindən ayrılan tikinti qatlarının tapıntıları keramika, heyvan sümükləri, obsidian parçaları və ağac kömürünün qalıqları ilə təmsil olunmuşdur. Keramika məmulatı sarı, boz və qırmızı rəngdə bişirilmişvə başlıca olaraq əldə hazırlanan qablardan ibarətdir. Bir qismi xaricdən cilalı olan saxsıların bəzisi qalın his qatı ilə örtülmüş, həmçinin 1 boyalı nümunə aşkar edilmişdir [4,46]. Diqqət çəkən xüsusiyyətlərdən biri burada əmək alətlərinə az rastlanılmasıdır. Onlar bazaltdan hazırlanmış 2 dən daşı, 1 asma, 2 biz, çaxmaqdaşından hazırlanmış bir neçə oraq dişi və az

miqdarda emal olunmamış obsidian qalıqlarından ibarətdir ki, bu da yaşayış yerinin mövsümi xarakter daşıdığını göstərir.

Şorsu yaşayış yeri Naxçıvançayın sol sahilində, Sirab kəndinin cənub-qərbindəki təpə üzərində qeydə alınmışdır. Mədəni təbəqənin qalınlığı 15-20 sm-dir. 2014-cü ildə V.Baxşəliyevin rəhbərliyi ilə 10x10 metrlik sahədə arxeoloji qazıntı aparılarkən düzbucaqlı tikili qalıqları, saxsı nümunələri və az miqdarda obsidian və çaxmaqdaşından hazırlanmış alətlər aşkar edilmişdir [5, 137]. Əsasən saman qarışıqlı gildən hazırlanan keramika məmulatı qırmızı, bəzən də qəhvəyi rəngdə bişirilmişdir. Onlar silindirik [1,. Şəkil 5, 1,5] və qıfşəkilli boğaza malik olan küpələr, konusvari və silindirik-konusvari kasalarla təmsil olunur. Qabların bəzisinin ağzının altı cərgəli şəkildə dairələrlə deşilmişdir.

Tədqiq edilən yaşayış yerlərində mədəni təbəqənin nazik olmasına baxmayaraq (15 sm-1,5 m), aşkar edilən tikili qalıqları Son Eneolit dövrünün arxitektura quruluşunda dairəvi, düzbucaqlı formalı və yarımqazma evlərin üstünlük təşkil etdiyini göstərir. Arxitektura qalıqları göstərir ki, bu dövrdə yüngül konstruksiyalı tikililərdən istifadə edilmişdir. Şorsu yaşayış yerindən [3, 81] və Ovçulartəpəsindən aşkar edilən dirək yerləri bu dövrün evlərinin yerə basdırılmış ağac svaylar vasitəsi ilə saxlanılan çadırlardan ibarət olduğunu göstərir ki [2, 7], bu da Son Eneolit dövrü tayfalarının yarımköçəri həyat tərzi keçirməsinin təzahürlərindən sayıla bilər. Bu əlamət özünü əmək alətlərinin, xüsusilə iri həcmli daş alətlərinin azlıq təşkil etməsində də özünü biruzə verir. Onlarla müqayisədə keramika məmulatı üstünlük nümayiş etdirir.

Naxçıvanın Son Eneolit keramikası əsasən Ovçulartəpəsi, Zirincli, Yeni yol, Şorsu abidələrində qeydə alınsa da onlarla yanaşı Ərəbyengicə, Şortəpə [17, 19], Xələc [16, 62], Sədərək, və digər abidələrin də materialları arasında bu dövrə aid xeyli miqdarda tapıntılara rast gəlinmişdir (Şəkil 2).




*Şəkil 2. Ərəbyengicənin Son Eneolit keramikası (AMEA NB. Arxeologiya və Etnoqrafiya Muzeyi, inv. №36, №48, №49).*

Bu dövrə aid keramika məmulatı saman qarışıqlı gildən hazırlanaraq yaxşı bişirilmişdir. Gilinin rəngi əsasən çəhrayı və sarının müxtəlif çalarlarında olub, xarici səthi ayrıca gil təbəqəsi ilə suvanmışdır. Bir qisminin səthində incə daraqlanmaya rast gəlinir. Ərəbyengicənin alt təbəqələrindən aşkar edilən nümunələrdən biri saman və az miqdarda qum qarışıqlı boz rəngli gildən hazırlanaraq açıq qəhvəyi rəngli təbəqə ilə suvanmışdır. Hər iki səthi hamarlanmış qabın ağız diametri 20, divar qalınlığı 1 santimetrdir (Şəkil 2,2). Onlar əsasən kasa, küpə və çölmək tipli qablarla təmsil olunmuşdur.Son Eneolit dövründə üstünlük təşkil edən kasaları konusvari və qabarıq gövdəli olmaqla iki qrupa ayrılır. Birinci qrupa aid kasalardan bir qrupu silindirik-konusvari gövdəyə malikdir. Onları ağız quruluşuna görə 3 tipə ayırmaq olar: düz formalı, xaricə qatlanmış və

daxilə qatlanmış olanlar. Yeni yoldan aşkar edilən nümunələrdən biri düz ağız quruluşuna malik olmaqla, saman və qum qarışıqlı gildən hazırlanmışdır (Şəkil 3,1).



*Şəkil 3.Yeni yol (1-2) və Şorsudan (3) aşkar edilmiş Son Eneolit keramikası [4, Şəkil 3, 1-2 ;1, Şəkil 5,1].*

Digər nümunə xarici səthinə qırmızı və qara rənglə çəkilmiş boya naxışı ilə diqqət çəkir. Bu tipə aid olan kasalar bir qayda olaraq yaxşı bişirilmişdir. Zirinclidən üzə çıxarılan nümunələr qırmızı rəngli və saman tərkibli gildən hazırlanmışdır. Onların bəzilərinin ağız kənarları içəriyə, bəzilərininki isə xaricə doğru meyillidir [1, Şəkil 3,2; 1,2]. Konusvari kasalar Ovçulartəpəsi [2,Tablo XXIX, 2; XXX, 2,3], Şorsu [5, Рис. 5, 7,10,12] yaşayış yerlərinin qazıntı materialları ilə bərabər, həmçinin Yumru Sürümçək, Çay ağzı, Güney ağıl [1, Şəkil 6, 2,4; 9,7] abidələrinin yerüstü materialları arasında xeyli miqdarda qeydə alınmışdır hansı ki, paralelləri Azərbaycanın şimal-qərbindəki Leylatəpə mədəniyyətinə məxsus abidələrdən [11, tabl. III, 4,6,7], Yaxın Şərqin [6, 138] və Şərqi Anadolunun Eneolit abidələrindən məlumdur [10, pl.II, 2-3].

Kasaların bir qismi ağız kənarının 1 sm aşağısında dairəvi deşilmə yolu ilə tətbiq edilən ornamentasiya ilə fərqlənir. Onlar Neolit dövründəki sələflərindən fərqli olaraq qabların bişirilməsindən əvvəl açılmışdır. Bu tip ornamentli keramika nümunələri Yeni yol, Zirincli, Şorsu [1, Şəkil 2, 3,5,6; 5, 2-3,6], Xələc [15, Şəkil 14, 4] yaşayış yerlərində də qeydə alınmışdır.

İkinci qrupa aid kasalar qabarıq gövdəli olub ağız formasına görə bir neçə tipə ayrılır. Ağız kənarı xaricə qatlanan kasalar saman qarışıqlı gildən hazırlanaraq xaricdən hamarlanmış çəhrayı rəngdə bişirilmişdir. Yeni yol yaşayış yerinə aid olan bu tip qablardan biri sarı rəngli gildən hazırlanaraq yaxşı bişirilmişdir. Nümunələrdən biri səthindəki sarı ləkələr və kəsiyindəki boz təbəqə ilə fərqlənir. Ərəbyengicədən aşkar edilən bu tip qablardan biri bikonik gövdəyə malik olub ağız kənarı xaricə qatlanmışdır. Ağız diametri 20, divar qalınlığı 0,5 santimetr olan qabın kəsiyində boz təbəqə izlənilir (Şəkil 2, 1). Ağzı içəriyə doğru yığılan kasalara Ovçulartəpəsi, Zirincli, Xələc materiallarında xeyli miqdarda rast gəlinir. Onların bənzərlərinə Cənubi AzərbaycanınYanıqtəpə [6,57], həmçinin Şərqi Anadolu abidələrində -Norşuntəpədə [8, Tabl. 61, 6,13] və Oylum Höyük [14, pl.17,3] rast gəlinir.

Küpələr sarı, az miqdarda boz rənglərlə təmsil olunmaqla boğazları müxtəlif dərəcələrdə içəriyə doğru batıqdır. Onlar 2 tiplə təmsil olunmuşdur. Birinci tipə boğazı qıfşəkilli formada içəriyə doğru batıq olanları, ikinci tipə isə silindirik boğazı xəfif şəkildə içəriyə tərəf batıq olanlar aid etmək olar. Oturacaqları düz formada divarlarına birləşən bu tipli qablar qalın divarlı olması ilə fərqlənirlər. Ərəbyengicədən aşkar edilərək AMEA Naxçıvan Bölməsinin Arxeologiya və Etnoqrafiya Muzeyində saxlanılan nümunələrdən biri qalın divarlı olub (d/q=1,7 sm) oturacaqdan gövdəyə doğru konusşəkilli formada genişlənir (Şəkil 2,3). Silindirik boğazlı küpələrdən birinin

ağzının 2 sm aşağısında kiçik dairəvi deşik açılmış, boz rəngli olan digər nümunənin isə ağzının kənarı xaricə doğru meyilləndirilmiş və oval batıqlar cərgəsi ilə naxışlanmışdır.

Naxçıvanın Son Eneolit keramikasının ornamentasiyasını iki qrupa ayırmaq olar. Birinci qrupa aid olanlar boyasız qabların üzərində batıq, cızma və əsasən qabların ağız kənarlarının dairəvi deşilməsi metodu ilə tətbiq edilmişdir. Dairəvi deşiklərlə bəzəmə motivi geniş yayılmışdır (Şəkil 3,3).Bu tipornamentlər həm də praktik məzmun daşımışdır. Qabların ağzının 2-3 sm aşağı hissəsində bəzən qoşa, bəzən də cərgəli şəkildə düzülən bu deşiklər müxtəlif vaxtlarda ip salınaraq mütəhərrik qulp funksiyasını yerinə yetirmişdir. Zirinclidən aşkar edilən nümunələri qabın 1-2 sm ağız kənarını cərgəli şəkildə çevrələmişdir (Şəkil 3,3). Şorsu keramikasında bəzən tək bəzən də cərgəli şəkildə tətbiq edilmişdir [1, Şəkil 5, 2-3; foto 6]. Qaratəpə [1, Şəkil 10,1] və digər abidələrin eneolit keramikasında onların tək-tək nümunələrinə rast gəlinir.

Basqı motivi ornamentlər müxtəlif nümunələrlə təmsil olunmuşdur. Onlar bəzən dairəvi, bəzən novşəkilli formalarla, bəzən də daraq dişinə bənzər kiçik nöqtəşəkilli batıqlar cərgəsinin maili düzülüşü formasında ortaya çıxmışdır. Zirincli keramikasının ağız qurtaracağında kənarlarda yuvarlaqlaşdırılan trapes yaxud novşəkilli qısa paralel basqılar formasında tətbiq edilmişdir [1, Şəkil 2, 1]. Güney ağıl yaşayış yerinin konusvari formalı Eneolit kasasının ağız kənarının xaricində buğda şəkilli basma naxışlar sola meyilli paralel cərgələrlə çevrələmişdir [1, Şəkil 9,7].

Daraqlama naxış motivi özünəməxsus xüsusiyyətləri ilə fərqlənir. Bu motivdən qabların xarici, daxili səthində, bəzən də hər iki üzündə tətbiq edilmişdir. Bəzi hallarda sadəcə qabların səthinin hamarlanmasında istifadə edilmiş hər hansı bir alətin, yaxud saman dəstəsinin izini xatırladan xəfif cizgilər şəklində ortaya çıxır. Bəzi qabların səthində isə daha dərin və aydın paralel xətlər kompleksi şəklində izlənilir. Bu tip ornamentlər əsasən Ovçulartəpəsi keramikasında qeydə alınmışdır. Bununla yanaşı Çay ağzı, Güney ağıl, Şorsu, Sürümçək yaşayış yerlərinin yerüstü materialları içərisində də belə ornamentlərə rast gəlinir [1,Şəkil 9,6-7; 5,2; 11, 3-4; 14,1]. Ovçulartəpəsində qabların hər 2 üzündə rast gəlinən bu xüsusiyyət digər abidələrin həmdövr qablarının interyer hissəsində rast gəlinmişdir.

Cızma naxışlar digərləri ilə müqayisədə azlıq təşkil edir. Sürümçəkdən tapılan kasa üzərində 2 cərgə paralel ziqzaq şəklində tətbiq edilmişdir [1, Şəkil 13,3].

Ornamentlərin ikinci qrupunu boya naxışlar təşkil edir. Əsasən həndəsi xətlərlə təmsil olunan boya naxışlı qablardaha çox Sürümçək yaşayış yerində qeydə alınmışdır [1, Şəkil 12, 4-5]. Buradan tapılan kasalardan birinin ağız kənarının xaricində sola doğru meyilli kiçik ölçülü oval yarımdairələr cərgəsi, silindirik boğazlı küpənin ağız xaricində isə eyni qaydada qısa enli xətlər sağa doğru meyilləndirilmişdir [1, Şəkil 14, 4,5]. Bununla yanaşı qabların boğazında, gövdəsində müxtəlif fomalı həndəsi xətlərə də rast gəlinir [1, Foto 10,13].

Diqqət çəkən xüsusiyyətlərdən biri Eneolitin Erkən mərhələsinin sevilən naxışlarından olan yuvarlaq qabartma ornamentlərin və relyef qurşaqların bu dövrdə tədricən üstünlüyünü itirməsidir. Bu ornamentlər yalnız Ovçulartəpəsindən aşkar edilmiş qablarda rast gəlinir. Məlum olduğu kimi, bu abidədən Eneolitin orta və son mərhələsinə aid təbəqələr aşkar edilmişdir. Ehtimal ki, bu ornamentlərin tətbiq edildiyi qablar orta mərhələyə aid olmuşdur. Ovçulartəpəsi yaşayış yerində Şərqi Anadolu ilə bağlı elementlər ağırlıq təşkil edir. Bu özünü Eneolit qabları üzərində izlənilən relyef qurşaqların, basma, həmçinin küncdə yuvarlaqlaşdırılmış kvadrat şəkilli, yaxud dalğavari relyef bəzəklərin öz yaxın paralellərini Norsuntəpə [8, Abb. 38; 43], Tülintəpə [7, p. 128], Böyük Güllücek [9, Resim 47] kimi Anadolu abidələrində tapmasında da göstərir. Lakin tikinti xüsusiyyətləri, qabların forması, hazırlanma texnologiyasına görə bu abidə özünəməxsus xüsusiyyətləri özündə ehtiva edir. Naxçıvançay vadisində yerləşən abidələrin tikinti xüsusiyyətləri, həmçinin saxsı məmulatında da yerli elementlərin üstünlüyü nümayiş olunmaqdadır.

Beləliklə, Naxçıvanın Son Eneolit abidələrində qonşu regionlarla bəzi ortaq elementlərə rast gəlinsə də, özünəməxsus xüsusiyyətlər daha çoxdur. Tikili qalıqları, saxsı məmulatı, həmçinin onların ornamental xüsusiyyətləri Naxçıvanda Son Eneolit mədəniyyətinin yerli zəmində formalaşdığını göstərir.

## ƏDƏBİYYAT

1. Baxşəliyev V., Novruzov Z. Sirabda arxeoloji araşdırmalar. Bakı, Oskar, 2010, 160 s.
2. Baxşəliyev V.B., C. Marro, Aşurov S.H. Ovçulartəpəsi (2006-2008-ci il tədqiqatlarının ilk nəticələri) // First Preliminary Report: the 2006-2008 seasons.-Bakı, Elm, 2010, 156 s.
3. Baxşəliyev V., Morro C., Berthon R., Quliyeva Z., Sarıaltun S. Kültəpədə arxeoloji tədqiqatlar (2013-2016). Bakı, Nurlan, 2017, 164 s.
4. Baxşəliyev V., Quliyeva Z., Rzayeva R., Yeni Yol yaşayış yerində arxeoloji araşdırmalar \\ Azərbaycan MEA-nın Xəbərləri. İctimai elmlər seriyası, 2017, №1, s. 49-57.
5. Бахшалиев В.Б. Новые материалы неолита и энеолита из Нахчывана // Росийская археология, 2015, № 2, с. 136-145,
6. Burney C.A. The Excavations at Yanic Tepe Azerbaijan 1961. Second preliminary Report // İraq, 1962, vol. XXIV, p. 2, p. 134-152,
7. Esin, U. and Arsebük G. Tülintepe Excavations, 1974 // In Keban Project 1974-1975 Activities, METU, Keban Project Publications, Ankara, 1982 p.127-133.
8. Gülçur S. Norşuntepe: die chalkolitischen Keramik (Elazig/Ost Anatolien. İn C. Marro and H. Hauptmann, Chronologie des Pays du Caucase et de L΄Eurhrate aux IVéme-IIIéme Millénaires. Actes du Colloque d΄ Istanbul, 16-19 décembre 1998. Varia Anatolica XI, 2000, Paris, p. 375-418,
9. Koşay, H. Z., Akok, M. (1948). Büyük Güllücek Araştırmaları Üzerine İlk Rapor, Belleten XII/46, Ankara, 471-485,
10. Marro C. and A.Özfirat. Pre-cclassical Survey in Eastern Turkey. Third preliminary Report: the Doğubeyazit region. İn Anatolia Antiqua, 2005, XIII, İFEA, Paris, p. 319-356,
11. Müseyibli N. Azərbaycanın qərb bölgəsində leylatəpə mədəniyyətinin yaşayış məskənləri // Azərbaycan arxeologiyası, Cild: 14, №1, Bakı, 2011, s. 22-35,
12. МусейблиН.Этнокультурные связи Передней Азии и Кавказа в IV тыс. до н.э.// Azerbaijan - Land between East and West. Transfer of knowledge and technology during the „First Globalization“ of the VIIth - IVth millennium BC. International Symposium Baku, April 1-3 2009,
13. Нариманов И.Г. Культура древнейшего земледельческо-скотоводческого населения Азербайджана (эпоха энеолита VI-IV тыс. до н.э.).- Баку, Элм, 1987.-260 с., ил,
14. Özgen E., Engin A., Uysal B., Ensert K., Şafak F. Oylum Höyük, 2010 // 33. Kazı Sonuçları Toplantısı, 1. Cilt, 23-28 Mayıs, Malatya. Ankara , 2012, s 497-519.
15. Seyidov A.Q., Baxşəliyev V.B., Mahmudova V.Ə. Xələc. Bakı, Elm, 2010, 220 s.
16. Seyidov A., Baxşəliyev V., Məmmədov S., Aşurov S. Qədim Şərur. Bakı, 2012, 466 s.
17. Seyidov A.Baxşəliyev V. Şortəpə (İbadulla). Bakı, 2013, 200 s.

## ABSTRACT

**Zeyneb Guliyeva**

**LATE CALCOLİTHİC SETTLEMENTS OF NAKHCHİVAN**

Research on the Chalcolithic Age sites of Nakhchivan will be of great value not only for of archeology in Azerbaijan, but the South Caucasus. The most part of these monuments is the Late Chalcolithic settlement. They have significance in the definition of genesis and development of the Chalcolithic culture of the South Caucasus. As you know, some researchers consider that this culture came from Mesopathomy. But you can not refer this idea to the monuments of the decomposing south-eastern regions of Azerbaijan. They reflect the local character of the Chalcolithic culture. From this point of view, to attract special attention to the monuments of Nakhchivan.

Later Chalcolithic monuments of Nakhchivan were discovered in the valleys of Arpachay and Nakhchivanchay. As a result of archaeological excavations of recent times, their number reached twenty. Among these monuments, 4 were studied by extensive archaeological excavations.

They were represented by such settlements as Ovchulartepesi (4350-4000 BC), Zirinchli (4240-3800 BC), Yeni Yol (4038-3960 BC), Shorsu (3910-3870 BC) ).

Among the artifacts of these monuments, make up the majority of ceramic materials. A study of these materials shows that for the settlement of Nakhchivan, pottery with a plant admixture was characteristic, and the surface was covered with a light engobe. They were made in a ribbon way. Ornamentation with a relief circle and belt, give way to its place to the depressed marks, scratches, and frescoes. Ceramics are decorated with ornaments in the form of dents, round holes and pressing. The surface of the ceramic is treated with a comb tool. Despite some common elements with the monuments of the Near East, but the composition, methods of manufacture and decoration show the local features of the Chalcolithic pottery of Nakhchivan.

Thus, the study of archaeological materials shows that the Late Chalcolithic Culture of Nakhchivan was formed on the basis of local conditions.


## РЕЗЮМЕ

**Зейнеб Гулиева**

**ПОЗДНЕ ЭНЕОЛИТИЧЕСКИЕ ПАМЯТНИКИ НАХЧЫВАНА**

Исследование энеолитических памятников Нахчывана имеют значение не только для изучения археологии Азербайджана, в том числе и всего Южного Кавказа. Большую часть этих памятников составляють Поздне Энеолитические поселение. Они имеють значение в определение генезись и развития Энеолитической культуру Южного Кавказа. Как известно, некоторые исследователи счтиають, этой культуры пришедшим из Месопатомии. Но нельзя относить этот мысль к памятникам распалагающих юго-восточных регионах Азербайджана. Они отражають локальный характер Энеолитической культуры. С этой точки зрения привлекають особуюу вниманию памятники Нахчывана.

Поздне Энеолитические памятники Нахчывана были обнаружены в долинах Арпачай и Нахчыванчай. В результате археологических раскопок последних времен, число их достигли до двадцати. Среди этих памятников 4-х были изучены широкими археологическими раскопками. Они были представлены такими поселениями, как Овчулартепеси (4350-4000 до н.э), Зиринджли (4240-3800 до н.э), Йени йол (4038-3960 до н.э), Шорсу (3910-3870 до н.э).

Среди артефактов этих памятников, составляють большинство керамические материалы. Исследование этих материалов показываюь, что для поселении Нахчывана, была характерна керамика с растительной примесью, который поверхность была покрыта светлым ангобом. Они были изготовлены ленточным способом. Орнаментация рельефным кружком и поясом постапенно уступають свою месту к вдавленным насечкам, царапинам, росписам. Керамика украшена орнаментом в виде вдавленных ямок, круглых отверстий и прессованией. Поверхность керамики обработана гребенчатым инструментом. Несмотря на некоторых общих элементов с памятниками Ближного Востока, но состав, методы изготовления и украшения показывають локальную особенности Энеолитической керамики Нахчывана. Таким образом, исследование археологических материалов показывають, что Поздние Энеолитическое Культура Нахчывана формировалось на основе местных условиях.



Bu iş Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun maliyyə yardımı ilə yerinə yetirilmişdir. **Qrant №EİF-KETPL-2-2015-1(25)-56/47/5**

NDU-nun Elmi Şurasının 19 oktyabr 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 02).
Məqaləni çapa təqdim etdi: AMEA-nın müxbir üzvü Z.Şahverdiyev

**SEVİNC BABAYEVA**
*AMEA Naxçıvan Bölməsi*
*s.quliyeva@yahoo.com*

**UOT: 94(479.242)**

# NAXÇIVAN MƏDƏNİYYƏTİ ORTA ƏSR SƏYYAHLARININ QEYDLƏRİNDƏ

**Açar sözlər:** *Naxçıvan, səyyah, memarlıq abidələri, mədəniyyət*
**Key words:** *Nakhchivan, traveler, architectural monuments, culture*
**Ключевые слова:** *Нахчыван, путешественник, архитектурные памятники, культура*

Naxçıvanın orta əsrlər dövrünün mədəni həyatını öyrənmək üçün səyyahların əsərləri dəyərli mənbələrdəndir. Ayrı-ayrı səyyahların əsərlərində Naxçıvanın mədəni həyatının müxtəlif sahələri - tarixi və memarlıq abidələri, əhalinin təhsil səviyyəsi, adət-ənənəsi, bayramları, dini baxışı və dini mərasimləri barədə zəngin faktlar var. Lakin təəssüf ki, biz bu mənbələrdən diyarın elm və mədəniyyət xadimləri haqqında geniş məlumata rast gəlmirik. Səyyahlar, xüsusilə şahidi olduqları bayram və dini mərasimləri təsvir etmişlər. Bununla yanaşı sözü gedən mənbələr bölgənin mədəni həyatı barədə ümumi bir təsəvvür yaratmağa imkan verir.

Naxçıvan şəhərindəki təhsil müəssisələri XIV-XV yüzilliklərdə də öz fəaliyyətini davam etdirmişdir. Həm də bu mədrəsələr şəhərin sosial-siyasi və ideoloji həyatında mühüm rol oynamışdır. Elə bu səbəbdən də həmin mədrəsələr orta əsr müəlliflərinin diqqətini cəlb etmiş, onlar öz əsərlərində Naxçıvan şəhəri haqqında verdikləri qeydlərində oradakı mədrəsələr haqqında məlumat verməyi vacib saymışlar. Ədəbiyyat materiallarının verdikləri məlumatlara və Ordubad şəhərində zəmanəmizədək qalan orta əsr mədrəsəsinə əsasən deyə bilərik ki, mədrəsələr adətən xüsusi şəkildə inşa olunmuş bir və ya iki mərtəbəli binalarda yerləşmişlər (6, s. 267). Qaynaqlar təsdiq edir ki, Naxçıvan şəhəri Azərbaycanda məktəb və mədrəsələrin yarandığı ilk mərkəzlərdən biri olmuşdur.

Bu dövrdə Azərbaycan ərazisində mədrəsələr əsasən Marağa, Naxçıvan və Gəncə şəhərlərində mərkəzləşmişdir. Naxçıvan memarlıq məktəbinin banisi Əcəmi Əbubəkr oğlu Naxçıvani tərəfindən Naxçıvan şəhərində yaradılmış Atabəylər memarlıq kompleksində də mədrəsə var imiş. Naxçıvan mədrəsələri xüsusilə Atabəy Şəmsəddin mədrəsəsi daha çox tanınmışdır (10, s. 62).

Naxçıvan mədrəsələrinin bir qismi Atabəylər dövründə inşa olunmuş, Möminə - Xatın və Yusif Küseyr oğlu türbəsinin vəqfləri hesabına fəaliyyət göstərmişlər. Həmin mədrəsələrin XIII-XIV əsrlərdə fəaliyyət göstərdiyi onların barəsində verilmiş elxani fərmanından da açıq aydın görünür (9, s. 61).

Ordubad şəhər mədrəsəsi orta əsrlərdə Naxçıvanda fəaliyyət göstərən ən məşhur mədrəsələrdən biri olmuşdur. Bu mədrəsə digər müsəlman ölkələrində olduğu kimi Ordubad şəhərinin mərkəzində yerləşən böyük Came məscidinin yanında təsis olunmuş və fəaliyyət göstərmişdir. Əhalinin təhsil səviyyəsində mühüm rol oynamış orta əsr təhsil mərkəzlərindən biri də Zaviyə mədrəsə kompleksidir. Ərəbcə “guşə”, “künc”, “bucaq” mənasını verən zaviyə orta əsrlər zamanı müsəlman şərqində fəaliyyət göstərən sufi təriqətlərinə mənsub məskənlərin adlarından biridir (10, s. 66). XIII- XV əsrlərdə Naxçıvan nəinki Azərbaycanın , bütövlükdə Şərqin elm və mədəniyyət mərkəzlərindən biri olaraq qalmışdı. Bunun əsas səbəblərindən biri Naxçıvanın da daxil olduğu Hülakülər dövlətində təhsilə, elmə diqqət verilməsi xüsusilə dövlətin baş vəziri Şəmsəddin Cüveyninin həyata keçirdiyi tədbirlərin elmin inkişafı üçün münbit şərait yaratması idi. Ona görə də bu dövrdə Naxçıvandan bir sıra görkəmli alimlər yetişmiş və onlar Azərbaycanın daxil olduğu Hülakülər və Cəlairilər dövlətlərinin əhatə etdiyi ərazilərdə, həmçinin dünyanın bir sıra ölkələrində tanınmış və məşhurlaşmışdılar (8, s. 267).

XIV əsrin II yarısı və XV əsrin əvvəllərində yaşamış orta əsrlər Şərqinin görkəmli səyyahı, coğrafiyaşünası və astronomu Əbdürrəşid əl- Bakuvi özünün 1403-1404-cü illərdə ərəb dilində yazdığı “Abidələrin xülasəsi və qüdrətli hökmdarın möcüzələri” adlı coğrafi əsərində Naxçıvan haqqında yazır: “ Divarları və içqalası olan, Azərbaycanda gözəl şəhərdir. Şəhər düzənliyin ortasında yüksək bir yerdə bina olunub. Bu yerdən Araz çayı görünür. Bağlı, bostanlı, meşəli, meyvəli və çörəkli yerdir. Havası təmiz, suyu şirindir. Orada məşhur binalar, mədrəsələr və xanəgahlar var. Əhalisi nəqqaşlıqda və xələnc ağacından qab-qacaq və müxtəlif əşya düzəltməkdə mahirdir. Bütün bunlar müxtəlif ölkələrə aparılır” (3, s. 204).

Səfəvilərin hakimiyyəti illərində isə Naxçıvan məktəblərində və mədrəsələrində dərslər yenə də əvvəlki vaxtlarda olduğu kimi aparılır, ilk olaraq şagirdlər əlifbanı öyrənir, sonra isə islamın müqəddəs kitabı Qurani-Kərimi şifahi üsulla əzbərləyirdilər. Naxçıvan mədrəsələrində ilahiyyat dərsləri ilə yanaşı dünyəvi fənlər də tədris olunurdu (6, s. 318).

Səfəvi hökmdarı Şah Abbasın Təbrizdən Naxçıvana yürüşü zamanı onunla birlikdə hərəkət edən alman səyyahı Tektander gördükləri bölgələrdəki təhsil səviyyəsi haqqında məlumat verir: “Bu yerlərin əhalisi maarif sahəsində çox illər bundan əvvəl olduqları səviyyədədirlər, onların mətbəələri yoxdur, bütün kitabları əlyazması halındadır. Lakin tarix sahəsində çox məlumatlıdırlar və onlara öz babaları haqqında elə bir şey danışmaq olmaz ki, bunu onlar bilməmiş olsunlar” (5, s. 60). Səyyah əhalinin həyat tərzi ilə, məişəti ilə dərindən tanış ola bilmişdi. Məsələn, o göstərir ki, hamı yeməkdən qabaq əllərini yuyur, yemək zamanı bardaş qurub oturur. Səyyah nahar zamanı yerə döşənmiş “çox gözəl xalçalardan” da söhbət açmağı unutmur. O, Səfəvilərin nahar məclislərindən bəhs edərkən yeməyin əksər hallarda, üstündə ədviyyatlı aşqarası olan “qatı bişirilən düyüdən”, yəni plovdan ibarət olduğunu göstərir, düyü ilə birlikdə qızardılmış quş əti, o cümlədən kəklik, qırqovul, habelə qoyun və mal əti də verildiyini qeyd edir. Yeməkdən sonra həmişə şərbət paylanır, şərab içmək isə ölüm cəzası ilə qadağan edilib ( 5, s. 60-61).

Məhşur alman səyyahı, görkəmli alim, coğrafiyaşünas Adam Oleari (1599-1671) Leypsiq universitetini bitirmiş həmçinin rus, türk (o cümlədən Azərbaycan), ərəb və fars dillərini bilirdi. Qottopr hersoqu III Fridrix Olearini Moskvaya (1633-1634-cü illər) və Səfəvilər dövlətinə (1635-1639-cu illər) göndərilən Qolşteyn səfirliyi ilə əvvəlcə Moskvaya sonra isə 1636-1638-ci illərdə İsfahana-Səfəvilərin paytaxtına yola düşmüşdülər. Qayıdarkən alman elçilərinin yolu yenə də Azərbaycandan düşmüşdür. Adam Olearinin səyahətnaməsi ilk dəfə 1647-ci ildə yol xatirələri kimi nəşr olunmuşdur. Səyyah öz əsərində Azərbaycan şəhərləri, o cümlədən Naxçıvan barədə məlumatlar verir. Adam Oleari əhalinin nardan necə istifadə etdiyi barədə maraqlı məlumatlar verir. O, qeyd edir: “yeməkdə turşməzə şirələrə geniş yer verilir və onlar bunu yüksək qiymətləndirirlər. Narı dənələyib qurudur, bundan isə xörəklərin bir qədər tutqun rəngə salmaq və turşməzə etmək üçün istifadə edirlər. Bunun üçün nar dənələrini suda isladır və parçanın arasında sıxıb şirəsini çıxarırlar. Onlar nardan təzə şirə də çəkib saxlayırlar. Bu şirə ilə, adətən ziyafətlərdə “öz saraçın darılarını” (plov) rəngləyirlər ki, bu da ona tutqun rəng, yaxşı turşməzə tam verir.” Səyyah həmçinin şirniyyatlar barədə də məlumatlar verir : “ Bəkməzi bəzən o qədər qatı bişirirlər ki, onu ancaq kəsmək olar. Səfərə çıxanlar onu qurudur və özləri ilə yola götürürlər. Lazım gəldikdə suda həll edib içirlər. Bəkməzdən xüsusi şirniyyat hazırlayırlar. Bu onlarda “halva” adlanır. Bunun üçün doşaba ovulmuş badam ləpəsi, buğda unu və təmizlənmiş qoz ləpəsi qatır, sonra uzunsov torbalara tıxıyırlar. Bu şirniyyat elə bərk olur ki, qış vaxtı onu ancaq qiymə keşlə və ya balta ilə doğramaq olar. Elə bu cür “xəmirdən” kolbasaya bənzər uzunsov formalı konfetlər hazırlayırlar ki, bunu “sucuq” adlandırırlar.

Səyyahların bir çoxunun əsərində Naxçıvanda olmuş tarixi abidələr haqqında da məlumat verilir. Bu abidələrdən daha çox Atabəy, yəni Möminə Xatın türbəsi haqqında məlumatlara rast gəlinir. Bəzi mənbələrdə Yusif Küseyr oğlu türbəsi də Atabəy türbəsi adlandırılmışdı.

Fransız səyyah-arxeoloqu Jan Dyölafua Möminə Xatın abidəsi barədə məlumat verərək yazır: “Baş meydanda XIV əsr memarlığının ən gözəl nümunələrindən biri ucalır. Bu səkkiztərəfli günbəzin 21m hündürlüyü vardır. O dağılmış Cümə məscidinin vaxtı ilə bir hissəsini təşkil etmişdir. Günbəzin hər tərəfi valehedici kərpic mozaikası və mavi – göy emalla zinətləndirilmişdir. Bu bəzəklər qeyri- adi zərifliyə fövqəladə müxtəliflik vermək məqsədi ilə bir- birinin üzərində yerləşdirilmişdir” ( 7, s.15). O, Yusif Küseyr oğlu türbəsi haqqında da məlumat verərək qeyd edir: “ Bir qədər kənarda

sadə, kiçik tikinti olan Atabəy günbəzi vardır ki, burada mühüm müsəlman nümayəndəsi əbədi olaraq yatır. Bina tağlı türbənin üzərində ucalır, piramida şəkilli örtüyü kərpicdən düzəldilmişdir. Bu abidənin friz və fasadı Cümə məscidində olduğu kimi kufi kitabələri ilə bəzədilmişdir, mozaik kərpiclərdən çox bəsit şəkildə düzəldilmişdir" ( 7, s. 15).

Səyyahlar Naxçıvanda olan başqa abidələrdən də bəhs etmişlər. Onlar vaxtı ilə Mömінə Xatın türbəsinin yanında portal vasitəsilə bir-birinə ilhaq edilmiş qoşa minarələrin və qədim məscid qalıqlarının mövcud olduğunu xəbər verirlər. Dübua burada ən gözəl bir tarixi abidə hesab olunan bir məscid haqqında məlumat verərək göstərir ki, onun geniş xərabəlikləri hələ də "Atabəy günbəzilə" "Nuhun məzarı" arasında görünməkdədir. O kərpicdən hörülmüş kitabə və zərif relyeflərlə bəzədilmişdir (7, s.17).

Azərbaycanın memarlıq abidələri içərisində Naxçıvan şəhərindən 40 km şimal-qərb tərəfdə yerləşən, Şərurun ən qədim yaşayış məskənlərindən olan Qarabağlar kəndində zəmanəmizədək qismən dağılmış şəkildə gəlib çatmış memarlıq kompleksi özünəməxsus yer tutur."Qarabağlar türbəsi" orta əsrlər Azərbaycanının məşhur tarixi abidələrindəndir. Burada qoşa minarə və onların arasında yerləşən dini bina movcud olmuşdur. Qoşa minarələrin XII-XIII əsrin əvvəllərində tikildiyi ehtimal olunur. Minarələri bir-birinə bağlayan baştaq isə XIV əsrdə tikilmişdir. Baştağın üzərində elxani hökmdarı Hülakü xanın arvadı Quti Xatının adının həkk olunması bunu söyləməyə əsas verir (9 s. 67). Ərazisində aşkar edilən maddi-mədəniyyət nümunələri və orta əsr yazılı mənbələrinin məlumatları göstərir ki, Qarabağlar Azərbaycanın qədim şəhərlərindən olmuş, orta əsrlər zamanı çiçəklənmə dövrü keçirmiş, yüksək inkişaf səviyyəsində olmuşdur. Görkəmli türk səyyahı Evliya Çələbi "Səyahətnamə" sində bu şəhər və abidələr haqqında maraqlı məlumatlar təqdim edir: "Çox abad və sonu görünməyən münbit torpağı olan bir düzənliyə malikdir. Neçə dəfə Süleyman xan (I Sultan Süleyman Qanuni (1520-1566)) və sair sərkərdələr də burda qışlamışdır. İndilər yerli-yerində yenə abad olmaqdadır. Xidmətçilərimiz orada təqribən 40-a qədər minarə saydılar. Allaha şükür ki, bu şəhərin ab- havasının gözəlliyindən təbiətimiz xoşlandı. Süvari yoldaşlarımızla şəhərə tamaşa etdik. Mehmandarımızın dediyinə görə şəhərin 10 minə qədər bağlı-bağçalı evi, 70 mehrabı var ki, onun 40-ı minarəli məsciddir. Orada karvansara, hamam, çarşu- bazar çoxdur" ( 4, s. 120). Naxçıvanda Əhməd Paşa, Fərhad paşa, Gözələli paşa, Cığaloğlu, Xadim Cəfər paşa camеləri kimi gözəl sənət nümunələri tikilmişdir. Osmanlı paşalarının nəfinə tikdirilmiş bu binaların əksəriyyəti azərbaycanlı ustalar tərəfindən inşa edilmişdir. Evliya Çələbi bu abidələrin böyük memarlıq dəyərinə malik olduğunu qeyd edir: "Bəzi camelər siqfi zərgərlik məmulatlarından, çini, mina və kaşıdan hörülmüşdür" (2, s. 236-237). XVII əsrdə şəhərdə İstanbul minarələrinə bənzər 33 minarə var idi. Mənbələrdə XVII əsrdə Naxçıvanda divarları Çin kaşısı ilə bəzədilmiş çoxlu hamam olduğu qeyd olunur (2, s. 237). Gözəl memarlıq xüsusiyyətlərinə malik olan bu bəzəkli hamamlar haqqında Evliya Çələbi yazır: " Hamam olduqca lətif və işıqlıdır. Onun qapı və divarları Çin kaşısındandır. Bütün poşthaləri şətrəncə (şahmata) oxşar naxışlanmışdır. Mehmanxanamıza yaxın Zal Paşa hamamı vardır. Onun bütün qapı və divarları Çin kaşısındandır. Döşəməsi başdan başa parlaq və səqfi mərmərdəndir. Elə münəvvər bir hamamdır ki, bütün şüşələri billurdur. Qübbəsinin ortasında böyük bir hovuz vardır" (1, s. 19). Səyyah yazır ki, Osmanlı Zal Paşazadə Əhməd Naxçıvanda hakim olduğu zaman İstanbul memarlıq üslubunda Sədərəkdə gözəl bir məscid tikdirmişdir. Bu məscidə əcəmlər "Zaviyeyi Əhməd Paşa" deyirlər. Məscidin ətrafındakı 500 evdən ibarət olan kənd onun vəqfidir (1, s. 20).

Evliya Çələbi XVII əsrdə Naxçıvanda "gözəl alim və şairlər" yaşadığını qeyd edirsə də, lakin təəssüflər olsun ki, onların haqqında ətraflı məlumat vermir. Məlum olduğu kimi orta əsrlər dövründə yüzlərlə naxçıvanlı sənətkar – alim, şair, memar, nəqqaş, rəssam, sazəndə doğma Azərbaycan torpağından sürgün edilmişdir. Bəzən elə hallar olurdu ki, azadlıq və sərbəstlik arzusu ilə yaşayan bir sıra sənət ustaları ağır feodal zülmünə dözməyib, özləri vətəni tərk etməyə məcbur olurdular. Nəticədə Naxçıvanda yetişmiş bir sıra alim və sənətkarlar başqa ölkələrə köçür, onların adları isə yanlış olaraq həmin ölkələrə aid edilirdi. Türkiyə sultanları və İran şahları Naxçıvanı istila etdikləri zaman bəzi adlı-sanlı sənətkarları zorla öz saraylarına aparmışdılar. Evliya Çələbinin "Səyahətnamə" əsərində belə sənətkarlardan Naxçıvanlı Əcəm Murad Ağanın adı qeyd olunur. "Əvəzsiz bir sazəndə" olan Əcəm Murad ağa Osmanlı sultanı IV Muradın saray musiqiçilərindən hesab olunurdu (2, s. 238).

Naxçıvan memarlıq məktəbi memarlıq tarixində çox mühüm bir yer tutur. Orta əsrlərdə həmin memarlıq məktəbi öz inkişafını əvvəlki kimi olmasa da müəyyən dərəcədə davam etdirirdi. XVII əsrin birinci yarısında Naxçıvanda olmuş səyyahlar şəhərdə çoxlu bina olduğunu qeyd edir. Lakin XVI-XVII əsrlərdə Naxçıvan memarlarının öz doğma şəhərlərinin hüdudlarından kənarda hər hansı bir bina inşa etmələri haqqında əlimizdə məlumat yoxdur. Buna görə də belə hesab etmək olar ki, Naxçıvan XV əsrdən etibarən əsas memarlıq mərkəzi kimi öz yerini Təbrizə versə də hər halda bu dövrdə də Naxçıvan memarlıq məktəbi öz təsirini saxlamışdı.

## ƏDƏBİYYAT


1. Baxşəliyev A. Azərbaycanın sosial-iqtisadi durumu və mədəni həyatı Evliya Çələbinin "Səyahətnamə"sində (XVII əsrin 40-cı illəri). Bakı: ADPU nəşriyyatı, 2000, 157 s.
2. Evliya Çələbi Səyahətnaməsində Azərbaycan. Nəşrə hazırlayan Mehmet Rıhtım. Bakı, Qafqaz Universiteti nəşriyyatı, 2012, 296 s.
3. Əbdürrəşid Əl Bakuvi. "Abidələrin xülasəsi və qüdrətli hökmdarın möcüzələri". Bakı: Şur, 1992, 132 s.
4. Əliyev İ.N. Naxçıvan bölgəsi Səfəvilər dövründə. Bakı, Elm və təhsil, 2014, 224 s.
5. Mahmudov Y. M. Odlar yurduna səyahət. Bakı, Gənclik, 1985, 184 s.
6. Məmmədov R.A. Naxçıvan şəhərinin tarixi oçerki (orta əsrlər dövrü). Bakı, Elm, 1977, 158 s.
7. Məmmədov R.A. Yaxın Şərq və Qərbi Avropa səyyahları Naxçıvan şəhərinin orta əsrlər tarixi haqqında// Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri. İctimai elmlər seriyası. 1962, № 4, s.11-22.
8. Naxçıvan tarixi. Üç cilddə, I cild. Naxçıvan, Əcəmi, 2013, 452 s.
9. Piriyev V.Z. Naxçıvan tarixindən səhifələr. Bakı, Müəllim, 2004, 126 s.
10. Səfərli F.Y. Naxçıvanın türk islam mədəniyyəti abidələri. Naxçıvan, Əcəmi, 2017, 216 s.



## ABSTRACT

**Sevinj Babayeva**

**THE CULTURE OF NAKHCHIVAN AT THE TRAVELERS NOTES OF THE MIDDLE AGES**

In the article it is dealt with the cultural life of Nakhchivan in the Middle Ages. Travelers, who had been in our country including Nakhchivan in the Middle Ages at different times, gave valuable information about cultural life of the city, the mode of population and other areas. These sources, which are providing information about the lifestyle and culture of population, also medieval architectural monuments, castles and tombs have been involved in the research. The analysis of the data suggests that the cultural life of Nakhchivan developed along with other areas attracted the attention of the travelers.



## РЕЗЮМЕ

**Севиндж Бабаева**

**КУЛЬТУРА НАХЧЫВАН В ЗАМЕТКАХ СРЕДНЕВЕКОВЫХ ПУТЕШЕСТВЕННИКОВ**

В статье обсуждаются культурной жизнь Нахчывана в средних веках. Разных временах прибывшие в нашей стране, в том числе в Нахчыван путешественники давали ценные сведение о культурной жизни, быта население города и др. Исследовалось источники которые подаются информации о образ жизни население, культуры, о мавзолеях, крепостях, о архитектурных памятников средние века. По анализом сведений можно сказать, что культурная жизни Нахчывана развивалась вместе других сферах города и это привлекал внимание путешественников.



NDU-nun Elmi Şurasının 19 oktyabr 2017-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 02).
Məqaləni çapa təqdim etdi: AMEA-nın müxbir üzvü Z.Şahverdiyev

**YAŞAR RƏHİMOV**
**ASƏF ORUCOV**
*AMEA Naxçıvan Bölməsi*

**UOT: 94 (479.242)**

# XIX-XX ƏSR NAXÇIVANIN ƏKİNÇİLİK TƏSƏRRÜFATI HAQQINDA BƏZİ QEYDLƏR

**Açar sözlər:** *əkinçilik təsərrüfatı, XIX- XX əsrlər, etnoqrafik materiallar, Naxçıvan, Ordubad, mənbələr*

**Key words:** *Agricultural farm, the 19th-20th centuries, the ethnographical materials, Nakhchivan, Ordubad, the sources*

**Ключевые слова:** *хозяйства земледиле, XIX-XX вв, этнографические материалы, Нахчыван, Ордубад, источники*

Naxçıvanın təsərrüfat həyatı XIX-XX əsrə aid olan mənbələrdən və topladığımız etnoqrafik çöl materialların tədqiqindən aydın olur ki, bu dövrdə bölgədə təsərrüfat çoxsahəli və rəngarəng olmuşdur. Demək olar ki, əkinçilik təsərrüfatının bütün sahələri Naxçıvan və Ordubad şəhərlərində mövcud olubdur. Regionun torpaqları ayrı-ayrı sahələr üçün yararlı olmaqla yanaşı, həm də çox bərəkətli idi. Ərazi ovalıq olduğuna görə taxıl, pambıq, çəltik, üzüm və bostan bitkiləri yetişdirilirdi. Tarixi mənbədə Naxçıvan şəhərin ətrafı ilə birlikdə şumlanan torpaq sahəsinin 600 xalvar və ya xəlvər (xalvar-torpaq sahəsi ölçüsü olub, onda birin yarısına bərabərdir. Bir xəlvər 1,5 ha-dır. Xalvar həm də çəki vahididir) olduğu, onun yarısında isə pambıq, çəltik, bostan bitkiləri əkildiyi göstərilir: taxıl məhsulları (arpa, buğda) əkilən ərazi 250 xalvar, pambıq əkilən sahə 20 xalvar, çəltik əkilən sahə 10 xalvar, bostan məhsulları əkilən ərazi-20 xalvar- cəmi 300 xalvar. Bundan başqa, şəhərdə 21 meyvə və üzüm bağı yerləşir ki, onların 11-i daha geniş sahəni əhatə edir. Bağların əhatə etdiyi ərazi 30 xalvara qədərdir (9, s. 70).

Əkinçiliklə bağlı adətlərin, inamların və mərasimlərin başlanğıcı Novruz bayramından hesab olunurdu. Toplanmış etnoqrafik çöl materiallarından aydın olur ki, xalqımız əkinə (yazlıq) çıxmaq üçün hazırlıq işlərinə kiçik çillədən başlayırdı. Əkin üçün lazım olan alətlər itilənib hazırlanır, qoşquya qoşulacaq heyvanlar xüsusi bəslənirdi. Əkiləcək məhsulların toxumları çeşidlənib seçilirdi. Ömrünü torpağa bağlayan əkinçilər səpin üçün ayrılmış toxumu yeməzdilər, onu müqəddəs hesab edərdilər. Səpiləcək toxum haram olmamalı idi, çünki torpaq haram götürmür. Naxçıvan şəhərində Arazboyu ərazilərdəki (dövlətin adı ilə İran dağları-A.O.,Y.R) dağlarda qar getməyincə əkinə çıxmazdılar. Ordubad şəhərində isə məlumatçılar qeyd edirlər ki, Kəmki dağının başında qar varsa, əkinə çıxsan taxıl dən bağlayar, yox əgər qar əriyibsə, dən olmaz, ot olar. Burdan aydın olur ki, əkinə çıxmağın vaxtı aparılan feneoloji müşahidələr nəticəsində müəyyən edilmiş, Ordubad və Naxçıvan şəhərləri arasında əkinə çıxmaq üçün fərqli vaxtlar olmuşdur. Başqa bir müşahidəyə görə isə xalq arasında qara ot kimi tanınan ot çiçək açandan sonra o yerdə torpağa toxum səpməzlər, demək, artıq əkinin vaxtı keçib. Taxılçılıqda payızlıq və yazlıq əkini mövcud idi. Daha çox payızlıq əkinə üstünlük verilirdi. Yazlıq əkinin də daha çox buğdanın "yazlıq", "lümə", arpanın isə "qılıcı", "güzlək", payızlıq əkinində isə buğdanın "qaraqılçıq", "dəvədişi", arpanın isə "şeşəli" növlərini əkərdilər. İl quraqlıq olduqda torpaqlar şumlanıb yaza hazır saxlanılırdı və erkən yazda yazlıq buğda və arpa əkilirdi. Əgər yazlıq əkin yubadılsa o taxıl verməz, ot olardı.

Tədqiqatda maraqlı məsələlərdən biri biçim və döyüm adətləridir. Xalq arasında deyirlər ki, qara arının (buna "biçinçi" də deyirlər) görünməsi taxılın yetişməsinə işarədir. O vızıldaya-vızıldaya evləri, həyətləri dolaşıb insanlara bildirir ki, biçinə hazırlaşın, oraqları, kərənti və mərəndiləri itiləyin. Taxıl biçini çox çətin olduğundan bu işə bütün ailə üzvləri qatılırdı. Bəzən

cənubdan, Arazın o tayından biçinçilər gələrdi. Biçin başlandıqdan sonra həftələrlə, bəzən daha çox bu işlə məşğul olurdular.

Naxçıvan diyarı əhalisinin məşğuliyyət sahələrindən biri də pambıqçılıq idi. Naxçıvan əyalətində pambıqçılıq geniş inkişaf etmişdir. Hələ XVII əsrin ortalarında Naxçıvanda olmuş E.Çələbi qeyd edir ki, pambıq əkinçiliyi əsasən iri və orta şəhərlərin ətrafında cəmləşdirilmişdir. Belə şəhərlərdən biri də Naxçıvan şəhəri idi ki, burada xüsusi pambıq növləri yetişdirilirdi. 1928-ci ildə Naxçıvan dairəsində 300 xalvar və ya 96 ton pambıq istehsal olunmuşdur ki, bu da orta hesabla 30000 rubul gümüş pul edirdi. (9, s. 93) M.Vəlili yazır ki, XX əsrin əvvəllərində Naxçıvanda pambıq əsasən Araz çayının çəmənlərində becərilirdi. Azərbaycanda əkilən 94, 5 min desyatin pambığın 13,5 min desyatini Naxçıvanın payına düşürdü (8, s. 96). Ş.Həsənov mənbələrə əsaslanaraq yazır ki, 1914-cü ildə Naxçıvan şəhəri ətrafında 6 min desyatin pambıq əkilsə də 1920-ci ildə pambıq əkini sahəsi 9 min 300 desyatindən 300-400 desyatinə enmişdi. Bunun başlıca səbəbi I Dünya müharibəsi və ermənilərin Naxçıvana basqınları olmuşdur (4, s.71). Sonrakı dövrdə pambıq əkini genişlənmişdir. XX əsrin 70-ci illərinə qədər Naxçıvan şəhərində indiki Xıncov məhəlləsi adı ilə bilinən məhəllə pambıq sahəsi olmuşdur. Onu da qeyd edək ki, Naxçıvanda bəzzazçılıq sənəti ilə məşğul olanlar olmuşdurlar ki, onlar da pambıq parça toxuyarmışlar.

XIX əsrdə Naxçıvan bölgəsində faydalı və gəlirli təsərrüfat sahələrindən biri bostançılıq idi. XIX əsrin 20-ci illərində diyarın əkilən torpaqlarının 50 xalvarında bostan əkilmişdi. Naxçıvan şəhərində, Əlincəçay, Naxçıvan və Dəstə mahallarında bostan sahələri daha çox idi. Təkcə Naxçıvan şəhərində əhaliyə məxsus 20 xalvarlıq bostan sahələri var idi. Əldə olan məlumata görə, buradan yarım milyon pud bostan məhsulları yığılırdı. Bostançılıqla Naxçıvan və Əlincə mahalının müxtəlif yerlərilə yanaşı Naxçıvan şəhərində də məşğul olurdular. İndiki Naxçıvan şəhərində Xətai məhəlləsi adı ilə bilinən ərazidən aşağıdakı torpaqlar bostan sahələri olmuşdur. Bölgədə bostan dedikdə əsasən qovun, qarpız nəzərdə tutlur. Bununla yanaşı xiyar, pomidor, kələm və.s. bitkilər də bostan bitkilərinə aiddir.

Qovunun “Şineyvaz” və “Ağcanabad”, “Tutmaqovun” növlərini, qarpızın isə “Xunu”, “Çillə”, “Pürcuvar” növləri mövcud olmuşdur. Bu növ bostan məhsullarını qış üçün də tədarük görərdilər. Bunun üçün qovunu və qarpızı tağlı qırmaq məqsədə uyğun hesab edilirdi. Bundan əlavə milağ üsulu və qax halına salınmış vəziyyətdə də qovunu qışa saxlamaq mümkün olmuşdur.

Bəhs olunan dövdə bostançılıqla yanaşı bağçılıqda geniş yayılmışdır. Bağçılıqda xüsusən üzümçülük önəmli yerlərdən birini tuturdu. Təkcə Naxçıvan şəhərində 45 ha qədər üzüm bağı olmuşdur. Üzüm bağının hər xalvarından orta hesabla 20 tümən və ya 80 rubl gümüş pul əldə edilmişdir (orta hesabla 30-40 qoyun dəyərində). Təbii ki, meyvə və üzüm bağları baxımından Ordubad dairəsi daha inkişaflı idi. Rusiyaya birləşdirilənə qədər burada bağçılıq natural xarakter daşıyırdı. Təsərrüfatın digər sahələri ilə müqayisədə bağçılıq daha gəlirli sahə olduğu üçün Ordubadda əhalinin əksər hissəsinin məşğuliyyətinə çevrilmişdi. Toplanmış meyvələrin böyük bir hissəsi qurudulurdu. XIX əsrin sonlarında Ordubadda bağçılıq çox yüksək inkişaf səviyyəsinə çatmışdı (11, s. 12-13). Ordubad ərazisinin meyvələri öz dadına, keyfiyyətinə görə bütövlükdə Cənubi Qafqazda məşhur olmuşdur. Ordubadda tut ağaclarının əkininə xüsusi diqqət verilmişdir. Bu bir tərəfdən ipəkçiliklə bağlıdırsa, digər tərəfdən tutun meyvəsindən döşab, bəhməz hazırlanması, onun qurusunun çərəz kimi istifadə edilməsi ilə əlaqəlidir. Naxçıvan və Ordubad şəhərlərində bağçılıqda əsasən alma, ərik, şaftalı, armud xüsusi yer tutardı. Almanın “şafran”, “qəndilsinab”, “yay alma”, “qırmızıyanaq”, “söyüdü”, “darağı”, “gülabı”, əriyin “ abutalıbı”, “limon”, “noxudu”, “şalağ”, “ağ növrəstə”, təbərzə”, “may əriyi”, bal yarım”, “badamı”, “ağ ərik”, şaftalının “güşlü və ya güşdü”, “nazlı”, “tərəli”, “şəkəri”, “zəfəfarai”, “məxməri”, armudun “şəkəri”, “abbasbəyi”, “hivili”, “daş armud”, “ordubadi” “qış armud” növləri geniş yayılmış, dadına, tamına görə bölgədə deyil, Naxçıvanın hüdudlarından çox-çox uzaqlarda da özünə məxsus yer tutmuşlar.

Naxçıvan diyarının tarixinə dair yazılı mənbələrdən biri olan “Naxçıvan şəhəri və Naxçıvan qəzası” (1882) adlı məqalədə bölgənin təsərrüfat sahələrinə aid sanballı faktlar vardır. Qəzada əkinəyararlı torpaqların 53.000 desyatin olduğunu göstərən rus müəllifi Konstantin Nikitin yazır: “Kənd təsərrüfatında əsas sahə bağçılıqdır. Qəzada aşağıdakı meyvə bağları vardır: ərik, alça, üzüm

bağları. Naxçıvan qəzasında üzüm bağları daha geniş sahələri əhatə edir. Qafqazda çox az yer olar ki, Naxçıvanda olduğu qədər çoxlu və bol üzüm olsun. Burada özünün rənginə, böyüklüyünə, forma və keyfiyyətinə görə 60 növdə üzüm vardır" (10, s.134). Şirinliyinə və tamlığına görə Naxçıvan üzümü xüsusilə seçilirdi. Mənbələrdə yazılır ki, Ordubad şəhərinin Mingis və Üçtürləngə məhəllələrində yaşayanlar əsasən üzümçülüklə məşğul olurdular. Qeyd edilir ki, Ordubad şəhərinin yalnız bir həyatyanı ərazisində təqribən 92 hektar üzümlük var idi (1, s, 164).

Həmin mənbənin təhlilindən aydın olur ki, müxtəlifliyinə görə bu növ üzümlər yerli adlarla adlandırılırdı. Məsələn: zeyni, xəlili, kişmişi, haça-baş, əsgəri, səbzi, xərci, misqalı, şir-şiri, təbərzə, kərim-kəndi, qulama və s. Ağ, qara, qırmızı, çəhrayı, yaşıl, göy, açıq sarı, sarı rəngli üzümlər bu qəbildəndir. Rus müəllifi yazır ki, bunların içərisində şirniyyat və ya çərəz üçün ən yaxşısı əsgəri üzümüdür, haça-baş adlı üzüm növünü isə qışadək saxlamaq mümkündür. Bundan əlavə topladığımız etnoqrafik materialları əsasında onuda qeyd edə bilərik ki, qışa qalan üzüm sortlarından biri də hənəqırnadır. Bu üzün növünü milağ üsulu ilə uzun müddət qışa saxlamaq mümkün olmuşdur. Rus mənbələrinin müqayisəli təhlili XIX əsrin axırlarında Naxçıvan şəhərində üzümlük və üzüm sahələrinin yerləşdiyi ərazilərin artdığını söyləməyə əsas verir. Qafqazşünas R.N. İvanov 1840-cı ildə Naxçıvan şəhərində 50 desyatin, 1850-ci ildə 84 desyatin, 1866-cı ildə isə artıq 400 desyatin ərazidə üzüm bağlarının salındığının xəbər verir.

Rus hakimiyyəti zamanında kəndlilər bağ və bostanlardan yığılan məhsulun hər puduna və mülkədarın xeyrinə 40 qəpik ödəyirdilər (12, s. 65). Ən çox ehtiyac duyulan məhsul meyvə qurusu olmuşdu. Ordubadın quru meyvəsi yerli bazarda aşağıdakı qiymətə satılırdı: 1-ci növ əriyin bir batmanı 1 gümüş manata, 2-ci növ ərik 50 gümüş qəpiyə, bir batman albuxara 1 manat 60 qəpiyə idi (9, s. 197). Akademik T.Bünyadov yazır ki, Ordubadlılar XX əsrin əvvəllərində hər il 15 min pud ərik qurusu satardılar (2, s. 93).

XIX əsrin sonlarında Ordubadda bağçılıq yüksək inkişaf səviyyəsinə çatmışdı. Bu arxiv naterialları və mənbələrdəki rəqəmlərni müqayisəsi zamanı özünü göstərir. 1869-cu ildə burada bağların salındığı sahə-4000 desyatin (4360 ha) ərazini əhatə edirdi. Halbuki 30-cu illərdə bu ərazilər üzümlükər və tut bağları ilə birlikdə cəmi 300 desyatin (327 ha) idi. Göründüyü limi 30-40 il ərzində, 1830-1860-cı illərdə Ordubadda bağların əkildiyi ərazi 13 dəfə genişləndirilmişdir.

Bundan başqa öyrənilən dövrdə bağların sayı da artmışdı. Əgər XIX əsrin 40-50-ci illərində Ordubadda 335 bağ var idisə, artıq 60-cı illərdə onların sayı 470-i ötüb keçirdi. Göstərilən yüzillikdə bağçılığın bu cür sürətli inkişafı Ordubad şəhərini nəinki Azərbaycanda, habelə Qafqazda və Şərqdə də məşhurlaşdırmışdı.

Əkinçilik mədəniyyətindən bəhs edərkən suvarma sistemini də qeyd etmək məqsədə uyğun olardı. Suni suvarmaya əsaslanan Naxçıvan diyarında mühüm mənbə çay suvarma sistemi hesab olunurdu. Çaylardan əkin sahələrinə suyu arxlar vasitəsilə aparılardı. Bunun üçün çaylardan ana arxlara suyun verilməsi üçün dəhnələr tikilmiş, bəndlər çəkilmişdir. Ş.Quliyev yazır ki, bu işlər, yəni bənd çəkmək, dəhnə tikmək ağır və çətin olduğu üçün bu işlər həmişə birgə görülərmiş. Çünki coşqun və sürətli axan çayların əkinçilər tərəfindən ram edilməsi böyük qüvvə, ustalıq və bacarıq tələb edirdi. Ona görə də bənd çəkmək və dəhnə tikmək prosesi birgə əməyin, əkinçilərin kollektiv əməyinin nəticəsi olmuşdur (6, s. 25).

Naxçıvan şəhərində Naxçıvançayından suvarma məqsədi ilə geniş istifadə edilmişdir. Bəhs olunan şəhərlərdə suvarma zamanı kəhrizlərdən, çeşmələrdən, bulaqlardan və arxlardan istifadə edirdilər. Naxçıvan mahalında istər şəhərlərdə, istərsə də kənd yerlərində suyun bölüşdürməsi ilə məşğul olan adama mirab deyərdilər. Mirablar maaş əvəzinə hər xış üçün ya 15 batman buğda , ya da yarım batman pambıq alırdı. Bundan əlavə, Naxçıvan çayının suyundan istifadə edən kənd əhalisi şəhər mirabına natura şəkilində "hədiyyələr" verirdi (7, s. 86). V.Qriqoryev bu hədiyyələrin əsasən qoyun, taxıl və digər ərzaq növlərindən ibarət olduğunu göstərir (9, s. 55). Digər rus müəllifi şəhərdə suyu bölüşdürmək üçün səlahiyyətləri olan mirab və cuvarlardan bəhs edərək su çatışmazlığı barədə yazırdı: "Şəhər boyu mövcud suyu paylaşdırmaq üçün onlara bütün səlahiyyətlər verilmişdir. Çox vaxt mirablar üsyan edir. Müştərilərlə onlar arasında dava düşür və haray-həşir qopur. Bu cür xoşagəlməz hallar suyu öz bağlarına, bostanlarına və təsərrüfatlarına aparmaq istəyən şəxslərlə adi işçilər arasında da olur" (10, s. 119). XIX əsrin əvvəllərində baş verən

müxtəlif hadisələr (məs: Rusiya-İran müharibələri və s.) bölgə təsərrüfatının bütün sahələrinə, o cümlədən əkinçilik təsərrüfatına da ciddi ziyan vurmuşdu.

Topladığımız etnoqrafik çöl materiallarına görə əkinə (taxılçılıqda) üç su verərdilər. Birinci "torpaq" suyu, ikinci "xəkov" suyu, üçüncü "dənov" və ya "dən" suyudur. Bağçılıqda da digər təsərrüfat sahələrində olduğu kimi əsas işlərdən biri də suvarmadır. Naxçıvnda bağların suvarılması şübhəsiz ki, hər yerdə eyni qaydada olmamışdır, həmişə yerli şərait nəzərə alınmışdır. Qeyd edək ki, burada meyvə bağları il ərzində 3-4 dəfə suvarılır. Birinci su "xəkov" suyu adlanır ki, bu da əsasən Novruzdan sonra verilir. İkinci su tumurcuq vaxtı verilir ki, bu da "çiçək" suyu adlanır. Bağçılıqda çiçək vaxı su verilməz, əgər su verilərsə, bu çiçəyin tökülməsinə səbəb ola bilər. Üçüncü su "çaqqala" suyu adlanır ki, əsasən mayın axırı, iyunun əvvələri çaqqala dövründə verilir. Ağaclardan meyvələr yığıldıqdan sonra dördüncü su verilir ki, xalq arasında bu "can" suyu adlanır. Son su "don" suyudur ki, bu suvarma işini də noyabrın axırları dekabırın əvvəlləri aparılır. Üzümçülükdə isə bağlara 3, bəzən 4 cür su verərlər. 1-ci "buşqu" və ya "qayçı" suyu, 2-ci "gül" suyu, buna, həm də "qora" suyu deyilir ki, bu sudan sonra üzüm başlayır qora qoymağa. 3-cü su isə "şirə" və ya "xal" suyu, 4-cü su isə "don" suyu adlanır. Bəhs etdiyimiz təsərrüfat sahəsində də suvarma işlərində günün müəyyən vaxtları rol oynayır.

Bütün bu qeyd etdiklərimizdən belə nəticəyə gəlmək olar ki, bəhs olunan dövrdə Naxçıvan və Ordubad şəhərlərində əkinçilik təsərrüfatının demək olar ki, bütün sahələri geniş şəkildə yayılmışdır. Bu təsərrüfat sahələri süni suvarma vasitələri ilə suvarılmışdır.

## ƏDƏBİYYAT


1. Babayev T. Ənənəvi əkinçilik və müasirlik / Naxçıvan bu gün: islahatlar perspektivlər. Bakı: Nurlan, 2008 s. 163-173
2. Bünyadov T. Mərd qalalar sərt qayalar. Bakı, Azərnəşr, 1986, 137 s.
3. Çələbi E. Səyahətnamə (Azərbaycan tarixinə aid seçmələr), türk dilindən işləyən və şərhlərin müəllifi Seyidağa Onullahi. Bakı, Azərnəşr, 1997, 92 s.
4. Həsənov Ş. Naxçıvan tarixi-etnoqrafik fenomendir. Bakı, Xəzər Universiteti, 2009, 224 s.
5. İvanov R. Basqın. Bolşeviklərin sovet torpağı qədim Naxçıvanda azğınlıqları haqda acı həqiqətlər. Naxçıvan: Əcəmi Nəşriyyat Poliqrafiya Birliyi, 2009, 463 s.
6. Quliyev Ş. Naxçıvanda ənənəvi suvarma əkinçiliyi // AEM, V buraxılış. Bakı, Elm, 1985, s. 18-47.
7. Rəhimov Y. Naxçıvan XIX əsr rus mənbələrində. Bakı, Elm və təhsil, 2014, 180 s.
8. Vəliyev M (Baharlı). Azərbaycan Bakı, Azərnəşr, 1993, 192 s.
9. Григоръев V. Статистическое описание Нахичеванской провинции. СПб: 1833, 263 с.
10. Никитин К. Город Нахичевань и Нахичеванский уезд / Сборник материалов для описание местностей и племен Кавказа, вып.2, Тифлис, 1882, с.109-142.
11. Пашаев А. Город Ордубад в XIX- начале XX вв. (историко-этнографические исследование). Баку: Элм,1998, 200 с.
12. Смирнов К. Материалы по истории и этнографии Нахичеванского края. Баку, Озан, 1999, 156 с.


## ABSTRACT


**Yashar Rakhımov**
**Asaf Orucov**


**SOME NOTES ABOUT THE AGRICULTURAL ECONOMY OF NAKHCHIVAN IN THE 19TH-20TH CENTURIES**


In the article it was studied the agricultural farm of Nakhchivan in the 19th-20th centuries based on the sources and ethnographical materials. The agricultural economy of the region has been investigated by using the works of Russian authors – V.Grigoryev, K.Nikitin, K.Smirnov, R.Ivanov. It was determined that in the region the economy had been multifaceted and colorful during this period. In the article it has been also touched upon the various incidents in the early of 19th-20th

centuries, especially on all areas of the region's economy, including the agricultural sector had been suffered damages by the Russian-Iranian wars.


## РЕЗЮМЕ

**Яшар Рахимов**
**Asaf Orucov**

**НЕКОТОРЫЕ ЗАМЕТКИ О ХОЗЯЙСТВА ЗЕМЛЕДЕЛИЕ НАХИЧЕВАН XIX- XX ВВ**

В статье по источником и этнографическом материалом была раскрыта хозяйства земледиле Нахичевана в XIX-XX вв. Из русских авторов в произведениях В.Григорьева, К.А.Никитина, К.Смирнова, Р.Иванова были исследованы материалы, относящиеся хозяйства земледиле края. Было определено, что в названный период хозійственной жизнь Нахичевани было многосторонней. Здесь говорится о вреде, нанесённому хозяйства земледиле из-за войн, ведущихся между Россией и Ираном в начале XIX века.



NDU-nun Elmi Şurasının 19 oktyabr 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 02).
Məqaləni çapa təqdim etdi: AMEA-nın müxbir üzvü Z.Şahverdiyev

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2017, № 6 (87)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2017, № 6 (87)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2017, № 6 (87)**

**EMİN MƏMMƏDOV**
*Naxçıvan Muxtar Respublikası Ali*
*Məclisinin Naxçıvanşünaslıq Mərkəzi*
*emammadov87@hotmail.com*

**UOT: 94 (479.242)**

# ŞƏRUR ARXEOLOJİ ABİDƏLƏRİNİN TƏDQİQİ ENEOLİT DÖVRÜ MƏDƏNİYYƏTİNİN ÖYRƏNİLMƏSİNƏ MÜHÜM TÖHVƏDİR

**Açar sözlər:** *Naxçıvan, Şərur, Eneolit dövrü, arxeoloji tədqiqat, keramika*
**Key words:** *Nakhchivan, Sharur, Calcolitic Age, archaeological investigations, ceramics.*
**Ключевые слова:** *Нахичевань, Шарур, Энеолитического период, археологичесское исследование, керамика*

Naxçıvan bölgəsi şimaldan Kiçik Qafqazın Zəngəzur-Dərələyəz dağ silsiləsi, cənubdan isə Araz çayı ilə sərhədlənir. Araz çayının və onun qollarının vadilərindəki münbit torpaqlar, o cümlədən dağlıq ərazilərindəki otlaq sahələri burada əkinçilik və maldarlığın inkişaf etməsinə öz müsbət təsirini göstərmişdir. Aşkar olunan zəngin maddi mədəniyyət nümunələri burada qədim daş dövründən başlayaraq ardıcıl yaşayışın və tarixi dövrlər, mədəniyyətlər arasında qırılmaz varislik əlaqələrinin olduğunu göstərir. Naxçıvan Muxtar Respublikasının ərazisinə diqqət yetirdikdə aydın olur ki, muxtar respublikanın hər bir rayonu özünün möhtəşəm tarixi-arxeoloji abidələri ilə zəngindir.

Qədim tariximizin öyrənilməsində Eneolit dövrü abidələrinin tədqiqi olduqca mühüm əhəmiyyətə malikdir. Son illərədək Naxçıvanda Eneolit dövrü abidələrinin məhdud sayda olması ilə bağlı fikirlər mövcud idi [15, s. 25]. Lakin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 06 dekabr 2005-ci il tarixli sərəncamı ilə Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkilinə başlanıldıqdan sonra muxtar respublika ərazisində 1200-dən çox tarix və mədəniyyət abidəsi qeydə alındı. Eyni zamanda Naxçıvan ərazisində, xüsusilə də Şərur bölgəsində 2006-cı ildə Azərbaycan–Amerika birgə arxeoloji ekspedisiyasının tədqiqatlara başlaması ilə yeni Eneolit dövrü abidələri tədqiq edildi. Bu yeni tədqiq olunmuş Eneolit dövrü arxeoloji abidələri sırasında Şərur rayonu ərazisində yerləşən Aşağı Daşarx və Şortəpə kimi abidələri qeyd etmək olar.

Naxçıvan Muxtar Respublikası ərazisində aparılmış arxeoloji tədqiqat işlərinin bir hissəsi də Şərur rayonu ərazisində həyata keçirilmişdir. Şərur bölgəsi təkcə Azərbaycan miqyasında deyil, həmçinin Cənubi Qafqazda və dünyada ən qədim insan məskənlərindən biridir. Əlverişli təbii-coğrafi mövqeyi qədim dövrlərdən insanların bu ərazidə məskunlaşmasına şərait yaratmışdır. Sistemli tədqiqatların nəticəsində məlum olmuşdur ki, burada min illər boyu böyük mədəniyyətlər formalaşmış və həmin mədəniyyətlərin qalıqları günümüzədək öz möhtəşəmliyini saxlamışdır.

Arxeoloji ekspedisiyalar nəticəsində Şərur rayonu ərazisində Eneolit dövrünə aid Ovçulartəpəsi, Xələc, Ərəbyengicə, Aşağı Daşarx, Şortəpə abidələri tədqiqata cəlb edilmiş və qədim tariximizin bu dövrünə dair zəngin maddi mədəniyyət nümunələri aşkar edilmişdir. Şərur bölgəsinin qədim dövr tarixinin öyrənilməsində V.Əliyev, V.Baxşəliyev, A.Seyidov, S.Aşurov, L.Ristvet, H.Gopnik, K.Marro və digər tanınmış yerli və xarici arxeoloqların böyük əməyi olmuşdur. Müxtəlif illərdə bu tədqiqatçıların apardıqları arxeoloji qazıntıların nəticələri, qədim və zəngin tariximiz Azərbaycan və dünya ictimaiyyətinə çatdırılmışdır. Son 10 ildə həm Azərbaycan alimlərinin, həm də xarici ölkə alimlərinin Avropada, Amerikada və başqa yerlərdə təşkil olunmuş beynəlxalq simpozyum və konfranslarda qədim Şərur bölgəsinin, Arpaçay vadisinin qədim və zəngin mədəniyyətləri ilə bağlı çıxışları Azərbaycanın, o cümlədən onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan diyarının qədim dövr tarixinin dünya arxeologiya elmi üçün nə dərəcədə mühüm

əhəmiyyəti olduğunu bir daha sübut etmişdir. Bütün bunların nəticəsidir ki, ölkəmizin qədim dövr tarixinin tədqiqinə maraq artmış və yeni-yeni tədqiqatlara yol açılmışdır.

Qafqaz arxeologiyasının önəmli problemlərindən biri olan Eneolit mədəniyyətinin öyrənilməsi baxımından olduqca əhəmiyyətli olan abidələrdən biri Ovçulartəpəsi yaşayış yeridir. Həmçinin Naxçıvanda Son Eneolit dövrünün tədqiq edildiyi əsas abidələrdən biri də məhz Ovçulartəpəsi yaşayış yeridir. Şərur rayonunun Dizə kəndi ərazisində, Arpaçayın sol sahilində yerləşən Ovçulartəpəsi çoxtəbəqəli yaşayış yeri olub Eneolit və Erkən Tunc dövrü abidəsidir. Çay vadisindən 50 m yüksəklikdə yerləşən təpə Arpaçay dərəsinin girəcəyində, strateji cəhətdən əlverişli mövqeyə malikdir. Ovçulartəpəsi geniş vadi ilə yanaşı dağlıq ərazinin mərkəzində, İran yaylasını Anadolu, Qafqaz və Mesopotomiya ilə birləşdirən əsas marşrutların kəsişmə nöqtəsində yerləşir.

Yaşayış yerinin ümumi sahəsi 10 hektardır. Abidənin üzərində xeyli maddi mədəniyyət qalıqlarına, xüsusilə gil qab parçalarına rast gəlinir. Yerüstü materiallar içərisində Eneolit dövrü üçün xarakterik olan keramika parçaları əldə edilmişdir. 1980-ci ildə yaşayış yerinin şimal-şərq hissəsində V.H.Əliyev və A.Q.Seyidov tərəfindən 6.25 kvadrat metr sahədə kəşfiyyat xarakterli qazıntı işləri aparılmışdır. Daha sonra 2001-ci ildə abidə S.H.Aşurov tərəfindən tədqiq edilmişdir [7, s. 3]. Burada 25 kv.m sahədə kəşfiyyat şurfu qoyulmuşdur. Qazıntı işləri 1 m dərinliyə qədər davam etdirilmiş, Eneolit və Kür-Araz mədəniyyətinə aid tikinti qalıqları, keramika nümunələri, daş alətlər və osteoloji qalıqlar aşkar edilmişdir.

2006-2013-cü illərdə Azərbaycan-Fransa birgə arxeoloji ekspedisiyası tərəfindən Ovçulartəpəsi yaşayış yerində arxeoloji tədqiqat işləri aparılmışdır. Ovçulartəpəsi yaşayış yerində V.B.Baxşəliyev, K.Marro və S.H.Aşurovun rəhbərliyi ilə tədqiqat aparılmış və burada Eneolit və Erkən Tunc dövrünə aid dairəvi və dördkünc formalı tikinti qalıqları, keramika məmulatları, tunc və sümükdən hazırlanmış əmək alətləri tapılmışdır. Tədqiqat zamanı Eneolit dövrünə aid tapıntıların əksəriyyəti gil məmulatından ibarət olmuşdur ki, bunlara da çəhrayı rəngdə, sarı, qırmızı, çəhrayı çalarlarda bişirilmiş gil məmulatları daxildir. Eneolit dövrünə aid gil məmulatı əsasən saman, bəzən isə qum qarışığı olan gildən hazırlanmışdır. Onlar küpə, kasa, badya, xeyrə tipli qabların sınıqlarından ibarətdir. Küpə tipli qabların bir qismi xaricdən anqoblanmış, yapma, basma ornamentlə naxışlanmışdır [7, s. 11].

Ovçulartəpəsi yaşayış yeri tədqiq edilərkən Eneolit dövrünə aid dördkünc və yuvarlaq formalı yarımqazma tipli evlər aşkar edilmişdir. Məlum olmuşdur ki, yaşayış yerində dördkünc tipli evlərdən daha çox istifadə edilmişdir. Evlərin içərisində divarları çiy kərpiclə möhkəmləndirilmiş təsərrüfat quyularına, torpağa basdırılmış böyük küplərə rastlanmışdır. Evlər dairəvi və dördkünc ocaqlar vasitəsilə qızdırılmışdır. Eneolit dövrünün son mərhələsində çoxotaqlı evlərdən də istifadə edilmişdir. Bu otaqlara birləşik olan evin içərisindən yerə basdırılmış böyük küplərin aşkar olunması onun ərzaq anbarı kimi istifadə edildiyini göstərir. 2009-cu ildə Ovçulartəpəsində aparılan araşdırmalar zamanı üzərində qabartma keçi təsvirləri olan keramika nümunələrinin tapılması Şərurun Eneolit mədəniyyətinin Xalaf-Ubeyd ənənələrini özündə birləşdirərək buranın Yaxın Şərq ölkələri ilə müəyyən əlaqələr saxladığını göstərir.

Ovçulartəpəsi yaşayış yerində Eneolit dövrünə aid qəbirlər iki qrupa səciyyələndirilir. Birinci qrupa torpaqda basdırılmış qəbirlər aiddir. İkinci tip qəbirlər isə küp qəbirlərdir. Bu qəbirlərdə avadanlığa olduqca az rast gəlinir [12, s. 32]. Lakin 2010-cu ildə Ovçulartəpəsində aparılan arxeoloji qazıntılar zamanı tərəfimizdən aşkar edilmiş küp qəbirdən üç ədəd tunc balta aşkar edilmişdir. Onların ikisi yastı, biri isə deşikli balta olmuşdur. Tapıntının maraqlı tərəfi ondan ibarətdir ki, bu baltalar uşaq skeleti ilə yanaşı qoyulmuşdur. Həmin qazıntı mövsümünün sonunda AMEA Naxçıvan Bölməsində keçirilən hesabat yığıncağında da bu maraqlı tapıntı haqqında məlumat verilmişdir. Hesabatda ekspedisiyanın rəhbəri V.Baxşəliyev və Fransa Elmi Araşdırmalar Mərkəzinin nümayəndələri, xüsusilədə arxeoloq K.Marro bu cür tapıntıya Naxçıvan və Şərqi Anadolu ərazisində ilk dəfə olaraq təsadüf edildiyini bildirmişlər.

Şərur bölgəsinin Eneolit mədəniyyətinin öyrənilməsində ən vacib məsələlərdən biri bu ərazinin qədim sakinlərinin təsərrüfat həyatının öyrənilməsi olmuşdur. Bu problem də Ovçulartəpəsi yaşayış yerində aparılan arxeoloji tədqiqatlar nəticəsində dərindən öyrənilmişdir. Yerli və xarici mütəxəssislər tərəfindən fauna və flora qalıqlarının araşdırılması Şərurun qədim

sakinlərinin bu dövrdə əkinçilik və maldarlıqla məşğul olduğunu göstərmişdir. Qazıntı zamanı taxıl dənləri, arpa və az miqdarda buğda qalıqları əldə edilmişdir [7, s. 19]. Aparılan araşdırmalar yaşayış yerinin qədim tarixinin dərindən tədqiqinə və hərtərəfli öyrənilməsinə böyük şərait yaratmışdır. Ovçulartəpəsi yaşayış yerindən aşkar olunan maddi mədəniyyət nümunələrinin tədqiqi və radiokarbon analizlərinin nəticəsi bu yaşayış yerinin nəinki Naxçıvan, eləcə də Cənubi Qafqazın ən qədim yaşayış yerlərindən biri olduğunu göstərmişdir.

Qədim Şərur torpağında Eneolit dövrünə aid digər bir arxeoloji abidə Xələc kəndinin cənubunda yerləşən Xələc yaşayış yeridir. Bu yaşayış yeri Naxçıvanın Son Eneolit mədəniyyətinə aid abidələrdən biri olub, Arpaçayın sağ sahilində, Araz ovalığında yerləşir. Xələc yaşayış yeri Eneolit və Tunc dövrü abidəsidir. Yaşayış yerinin sahəsi 0,5 hektardır. Burada mərmər karxanası açılarkən yaşayış yerinin böyük bir hissəsi dağıdılmış və nəticədə xeyli maddi mədəniyyət nümunələri aşkar olunmuşdur. Aparılmış tədqiqatların nəticələri göstərir ki, Xələc yaşayış yeri çoxtəbəqəli arxeoloji abidədir. Burada sistemli tədqiqat işləri aparılmadığından müxtəlif dövrlərə aid mədəni təbəqələrin saxlanma dərəcəsi haqqında söz demək çətin idi. Lakin 2010-cu ildə V.Baxşəliyev və A.Seyidov tərəfindən Xələc yaşayış yerində aparılan arxeoloji tədqiqatlar nəticəsində bu yaşayış yerini çox əhatəli izah edən “Xələc” adlı bir monoqrafiya yazılmışdır. Tədqiqatçıların Xələc yaşayış yerində tədqiqata başlamalarının əsas məqsədi burada Eneolit təbəqəsinin varlığını öyrənməkdən ibarət olmuşdur. Tədqiqatlar nəticəsində aydın olmuşdur ki, Xələc yaşayış yeri xeyli dağıntıya məruz qalsada bəzi yerlərdə Eneolit təbəqəsi öz varlığını qoruyub saxlaya bilmişdir [15, s. 24].

Xələc yaşayış yerində aparılan arxeoloji tədqiqatlar nəticəsində məlum olmuşdur ki, burada Son Eneolit dövründən başlayaraq Dəmir dövrünədək böyük bir tarixi dövr ərzində qədim insanlar bu ərazidə məskunlaşmışlar. Burada arxeoloji qazıntı zamanı əldə edilən keramika məmulatı Eneolit dövrünə aid olmaqla yanaşı, Arpaçay vadisində yerləşən və eyni mədəniyyətə aid olan Ovçulartəpəsi, Aşağı Daşarx, Şortəpə və Sədərək rayonu ərasisindən aşkar olunan materiallarla eyniyyət təşkil edir. Xələc yaşayış yerinin Eneolit dövrü keramikasının bənzərlərinə eyni zamanda Azərbaycan, Urmiya və Şərqi Anadoluda müəyyən olunmuş Eneolit dövrü abidələrində də rast gəlinir [15, s. 76]. Bu da onu göstərir ki, qədim Naxçıvan diyarı tarixən Yaxın Şərq ölkələri ilə qarşılıqlı iqtisadi-mədəni əlaqələrdə olmuş və inkişaf etmişdir.

Şərur rayonu ərazisində Eneolit mədəniyyətinin yaxşı öyrənildiyi abidələrdən biri də Ərəbyengicə yaşayış yeridir. Bu yaşayış yeri Şərur rayonunun eyni adlı kəndindən cənubda yerləşir. Qədim yaşayış yeri xalq arasında “Köhnə qəbristanlıq” adlanır [14, s. 16]. Ərəbyengicə yaşayış yerində arxeolji tədqiqat işləri 2008-ci ildə başlanıb. Yaşayış yeri V.Baxşəliyev və A.Seyidovun birgə tədqiqatı nəticəsində öyrənilmişdir. Arxeoloqlar öz yazılarında qeyd etmişlər ki, qədim yaşayış sahəsi yer səthindən 1-1,5 m yüksəklikdə olan oval təpədən ibarətdir. Hazırda yaşayış yerinin qərbindən və şimal-şərqindən torpaq yol keçir. Şimal-şərq tərəfdə əkin sahələrini suvarmaq üçün kiçik kanal qazılmışdır. Bu kanal qazılarkən mədəni təbəqə dağıdılmış, maddi-mədəniyyət qalıqları ətrafa səpələnmişdir. Abidə hər tərəfdən əkin sahələrinin əhatəsindədir. Hazırda onun olduqca az salamat qalan hissəsinin sahəsi 0,8 hektardır. Ərəbyengicə yaşayış yeri Arpaçayın Araz çayına töküldüyü yerdən bir qədər aralıda yerləşir. Aparılan araşdırmalar göstərir ki, Araz çayı və Arpaçay daşan zaman yaşayış yerinin lap yaxınlığından keçmişdir. Şübhəsiz ki, çayların daşması zamanı məhsuldar torpaq layının yaranması əkinçilik üçün əlverişli olmuşdur [14, s. 17]. Ərəbyengicə yaşayış yerində aparılmış arxeoloji araşdırmalar da göstərir ki, Naxçıvanın qədim şərq ölkələri ilə əlaqələrində Şərur ərazisinin özünəməxsus yeri olmuşdur. Həmçinin Ərəbyengicə abidəsinin iki çay arasında, əlverişli mövqedə yerləşməsi isə əkinçilik və maldarlığın inkişafına xüsusilə şərait yaratmışdır. Qazıntı işləri zamanı müşahidə olunan torpaqların qum qatı ilə örtülməsi daşqın zamanı yaşayış yerində subasmaların olduğunu deməyə əsas vermişdir. Lakin buna baxmayaraq arxeoloji abidədə əldə edilən maddi mədəniyyət nümunələri göstərir ki, yaşayış yerində həyat min illərlə davam etmişdir.

Ümumiyyətlə Ərəbyengicə yaşayış yerində mədəni təbəqə 2.5 m dərinliyədək öyrənilmiş və tədqiqat zamanı burada düzbucaqlı tikili qalıqları aşkar edilmişdir. Eyni zamanda burada aparılan qazıntı işləri nəticəsində Eneolit dövrünə aid keramika məmulatı əldə edilmişdir. Bu keramikaların

əsasən Eneolit dövrünün son mərhələsinə aid olması bildirilir. Həmin keramika nümunələri sarı-boz rəngli kasa tipli qab və forma verməyən sarı rəngli keramika parçalrından ibarət olmuşdur. Ərəbyengicə yaşayış yerindən aşkar edilən maddi mədəniyyət nümunələri Eneolit mədəniyyəti ilə Kür-Araz mədəniyyəti arasındakı əlaqələri də aydınlaşdırmağa şərait yaratmışdır. Son Eneolit və İlk Tunc dövrü abidələrinin araşdırılması bir daha sübut etdi ki, bu ərazi adıçəkilən mədəniyyətlərin yarandığı ilk ocaqlardan biri olmuşdur [14, s. 62].

Müstəqillik əldə etdikdən sonra Azərbaycan tarixçiləri həqiqətə, faktlara və obyektivliyə əsaslanan tədqiqatlara başladılar. Yerli və xarici tədqiqatçılar tərəfindən öyrənilən Şərur abidələri, xüsusilədə Eneolit dövrü abidələri son illər arxeologiya elminə böyük töhvələr vermişdir. Tədqiqatlar nəticəsində çox sayda yeni abidələr, yaşayış yerləri, qəbir abidələri, keramika məmulatları, əmək alətləri, metal əşyalar və s. əldə edilmişdir. Şərur rayonu ərazisində Eneolit abidələrinin tədqiqi nəticəsində Eneolit dövrü mədəniyyəti, həmin dövr insanlarının məşğuliyyəti, təsərrüfat həyatı, həmçinin etnik-mədəni proseslər və Yaxın Şərq ölkələri ilə qarşılıqlı əlaqələri daha dərindən öyrənilmiş və yeni tədqiqat sahələri meydana gəlmişdir.

## ƏDƏBİYYAT


1. Azərbaycan arxeologiyası, Bakı, Xəzər Universiteti, 2010, 197 s.
2. Azərbaycan tarixi, Bakı, Azərnəşr, 1994. 687 s.
3. Baxşəliyev.V.B. Naxçıvanın qədim tayfalarının mənəvi mədəniyyəti, Baкı, Elm, 2004, 320 s.
4. Baxşəliyev V.B. Azərbaycan arxeologiyası, Bakı, Elm, 2007, 238 s.
5. Baxşəliyev V.B. Naxçıvanın arxeoloji abidələri, Bakı, Elm, 2008, 301 s.
6. Bakhchaliyev V., Marro C., The Archaeology of Nakhichevan, Ten years of new discoveries, Istanbul: Ege, 2009
7. Bakhchaliyev V., Marro C. Ashurov S. Ovçulartəpəsi, Bakı, Elm, 2010, 156 s.
8. Baxşəliyev.V.B., Ristvet .L., Gopnik. H., Aşurov. S.H. Naxçıvan Arxeoloji Tədqiqatlar (II Kültəpə, I Maxta Kültəpəsi, Oğlanqala və digər abidələrdə aparılan tədqiqatların ilkin nəticələri), Naxçıvan, 2010, 119 s.
9. 16. Marro C., Bakhchaliyev V. Ashurov S. Excavations at Ovçular Tepesi, Bakı, Elm, 2010, 156 s.
10. Seyidov A.Q., Baxşəliyev V.B., Məmmədov S.M., Aşurov S.H. Qədim şərur, Bakı, Elm, 2012, 466 s.
11. Seyidov A.Q., Baxşəliyev V.B. Ərəbyengicə, Bakı, Nurlan, 2009, 160 s.
12. Seyidov A., Baxşəliyev V. Xələc, Bakı, Elm, 2010, 220 s.
13. Seyidov A.Q., Baxşəliyev V.B. Sədərək, Bakı, Elm, 2011, 184 s.


## ABSTRACT


**Emin Mammadov**


## THE INVESTIGATIONS OF SHARUR ARCHAEOLOGICAL MONUMENTS IS AN IMPORTANT PRESENT IN THE STUDY OF CALCOLITICAL CULTURE


In the article is noted that the explatoration of the Calcolitic Age always been one of the important issues in archaeology. One of the region where the monuments of this age are widely spread is Nakhchivan region, namely Sharur district. As the result of the sistematic explorations done in the territory the Calcolitic culture, the activity of the people of that time, agriculture life, ethnic -cultural processes and the interrelations with the Near East countries have been learnt deeper and deeper. The archaeological investigations prove this region to be one of the ancient settlementboth in South Caucasus and in the world.

## РЕЗЮМЕ

**Эмин Мамедов**

## ИССЛЕДОВАНИЕ АРХЕОЛОГИЧЕСКИХ ПАМЯТНИКОВ ШАРУРАЯВЛЯЕТСЯ ЗНАЧИТЕЛЬНЫМ ВКЛАДОМ В ИЗУЧЕНИИКУЛЬТУРЫ ЭНЕОЛИТИЧЕСКОГО ПЕРИОДА

В статье было отмечено, что исследование энеолитического периода всегда являлось одной из задач, имеющих огромное значение в науке археологии.Одной из территорий, где были широко распространены памятникиэнеолитического периода, является Нахичевань и, в частности, территория Шарурского района. В результате проведённых системных археологических исследований были изучены культура энеолитического периода, занятия людей того времени, хозяйственная жизнь, а также этнические и культурные процессы и взаимодействие со странами Ближнего Востока. Археологические исследования в лишний раз показали, что этот регион является самым древним местом обитания человека на Южном Кавказе и во всём мире.



Bu iş Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişaf Fondunun maliyyə yardımı ilə yerinə yetiriolmişdir – Qrant № EİF-KETPL-2-2015-1(25)-56/47/5

NDU-nun Elmi Şurasının 19 oktyabr 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 02).
Məqaləni çapa təqdim etdi: AMEA-nın müxbir üzvü Z.Şahverdiyev

**ZÜLFİYƏ İSMAYILOVA**
*Naxçıvan MR Dövlət Arxivi*
*arxiv@nakhchivan.az*

**UOT: 94(479.242)**

## NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN İNKİŞAF TARİXİ - 1967-2017

**Açar sözlər:** *Filial, İkiillik Müəllimlər İnstitutu, İbrahim Mollayev, Əli Əliyev, İsa Həbibov, "Gənc Müəllim" qəzeti*

**Key words:** *Filial, Two years Pedagogical University, Ibrahim Mollayev, Ali Aliyev, Isa Habibov, newspaper "Gandj Muallim"*

**Ключевые слова:** *Филиал, Двухлетний Педогогический Институт, Ибрагим Моллаев, Али Алиев, Иса Габибов, газета "Гяндж Муаллим"*

Naxçıvan Muxtar Respublikası ümumtəhsil məktəblərinin şəbəkəsinin genişlənməsi nəticəsində ali təhsilli müəllim kadrlarına böyük ehtiyac yaranırdı. 1964-1965-ci tədris ilində Naxçıvan MR məktəblərində 2498 müəllimdən 582 nəfəri ali təhsilli müəllim idi. Ali təhsilli kadrlar ən çox V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutun tələbələri idi[1, vərəqə 52].

Naxçıvan ziyalıları, alimləri mütəmadi olaraq mətbuat səhifələrində səlahiyyətli orqanlar qarşısında regionda ali-pedaqoji təhsil ocağının açılması məsələsini qaldırırdılar.

Sov.İKP və SSRİ Nazirlər Sovetinin 3 sentyabr 1966-cı il tarixli 729 №-li qərarı ilə əlaqədar olaraq Azərbaycan KP MK və Nazirlər Sovetinin 11 oktyabr 1966-cı il tarixli 564 №-li qərarı ilə Azərbaycan SSR ali və orta ixtisas təhsil Nazirliyinin 5 noyabr 1966-cı il tarixli 323 №-li əmrinin yerinə yetirmək məqsədilə V.Lenin adına Azərbaycan Pedaqoji İnstitutunun 1967-1968-ci tədris ilində Naxçıvan şəhərində filialının açılması göstərildi. Həmçinin məktubda V.Lenin adına APİ-nin rektorluğu bu mühüm dövlət əhəmiyyətli işi vaxtında həyata keçirməkdən ötrü filialın maddi-texniki bazasını yaratmaq və kadrlarla təmin etmək imkanlarını dəqiqləşdirmək üçün institutun baş müəllimi Ə.Əhmədovu ezamiyyətə göndərdi[2, siyahı 1, iş.982, vərəqə 10].

V.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutu fəaliyyətinin ilk illərindən Azərbaycan Respublikasında pedaqoji təhsilin, pedaqoji elmlərin inkişafında və Azərbaycan SSR-nin ümumtəhsil məktəblərinin pedaqoji ixtisaslı müəllim kadrları ilə təmin edilməsində müstəsna xidmət göstərmişdir.

Azərbaycan Respubliaksında və eləcə onun ayrılmaz bir hissəsi olan Naxçıvanda savadsızlığın ləğv edilməsi, qısa müddətli kursların açılması, ümumtəhsil məktəbləri və məktəbəqədər tərbiyə ocaqlarınınn ixtisaslı kadrlar ilə təmin edilməsində Azərbaycan Dövlət Pedaqoji İnstitutun yetirmələrinin mühüm xidmətləri olmuşdur.

Naxçıvanda açılacaq filial Azərbaycan Dövlət Pedaqoji İnstitutunun bir parçası və yetirməsi idi. 1967-ci ilin yayında filiala tələbə qəbulu elan olundu. Naxçıvan Muxtar Respublikasının məktəblərinin ən savadlı məzunları Azərbaycan Dövlət Pedaqoji İnstitutun Naxçıvan filialına sənəd verdilər.

75 nəfər tələbə: İsmayılova Elmira, Həbibov İsa, Məsiyev Zakir, İsmayılova Məlahət, Abdullayeva Həqiqət, İmanov Akif, Qasımova Ləzifə, Məmmədova Raziyə, Məmmədova Zöhrə, Hüseynova Zemfira, İsmayılova Sveta, Nuriyev Rza, Nəbiyeva Nəcibə, Mirzəyeva Tərlan, Əhmədova Həqiqət, Lazımov Hüseyn, Abbasov Xeyrulla və s. dil-ədəbiyyat fakültəsinə, Həsənov R., Rüstəmov İ., Eminov M., Dadaşov Ə., Səmədov S., Abdinov K., Əliyev Ə., Mahmudov A., Axundov Z., Məmmədov V., Həsənəliyev Ə., Hüseynov K., Seyidov M., Əliyeva R., Ağayev Q., Həbibzadə Ç., Kərimov S. və s. fizika-riyaziyyat fakültəsinə, Axundov Ə., Axundov F., Cəfərov H., Kərimov Q., Qasımov Ə., Rzayev F., Ələsgərova T., Məmmədova S., Həsənov R., Musayev Ə., Quliyev N., Əliyev H., Cəfərov M., Hacıyev İ., Qəhrəmanov M., Seyidov A., Babayev V.,

Hüseynova S., Qurbanov T., Əliyev M., Seyidov Q., Novruzov Z., Səfərov R., Bayramova E., İmanov T., Nəsirov F. Və s. tarix fakültəsinə qəbul olundular.

Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Naxçıvan filialı keçmiş 1 №-li məktəbinin bazasında üç ştat vahidi olmaqla (direktor, tədris işləri üzrə direktor müavini və metodist) açıldı. Bu vəzifəyə müvafiq olaraq Əli Əliyev, Yavuz Axundov, Mahmud Mahmudov təyin olundular. Filialın ilk müəllimləri İbrahim Mollayev (pedaqogika və psixologiya), İzzət Maqsudov (ədəbiyyat), Firuz Rəhimov (tarix), İbrahim Hüseynov (Sov. İKP tarixi), Allahverdi Hüseynov (tarix), Eli Həşimov (riyaziyyat) oldular. Sonralar Müzəffər Nəsirli, Qasım Qasımov, İbrahim Bağırov, İsmayıl Zeynalov, Zemfira Əhmədova, Nəriman Orucəliyev filialın müəllim personalına daxil oldular. Filial Azərbaycan Dövlət Pedaqoji İnstitutun rəhbərliyi altında, onun göstəriş və göndərdiyi tədris planları ilə işləməyə başladı[3, siyahı.3, iş.47, vərəqə 6].

İlk illərdən hər fakültədə 25 nəfər tələbə olmaqla tarix-ədəbiyyat və riyaziyyat ixtisasları üzrə müəllim hazırlığına başlayan filial APİ-nin professor-müəllim heyətinin köməyi ilə get-gedə genişlənib inkişaf etmiş, tələbə kontingenti isə ildən ilə çoxalaraq tarix-ədəbiyyat, riyaziyyat ixtisasları ilə yanaşı coğrafiya, coğrafiya-biologiya, kimya ixtisasları üzrə müəllim nəzərdə tutulmuş və davam etdirilmişdir.

1969-cu tədris ilində Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Naxçıvan filialının coğrafiya ixtisası üzrə: Allahverdiyev İ., İsmayılova E., Eminov M., Səfərov N., Məhərrəmov A., Mustafayev S., Quliyev H., Əhmədov V., Vəzirova T., Mahmudova S., Məmmədov M., Əliyev D., Həsənov Ə., Zeynalov M., Muxtarov M., Seyidova Ş., Əhmədova A., Əzizova S. və başqalarından ibarət 50 nəfər tələbə instituta qəbul olunmuşdur. Coğrafiya və fizika fakültələrinin açılması ilə əlaqədar Mehdiyev Abbas, Məmmədov Əli və başqaları filialın müəllim heyətinə daxil oldular[4, siyahı.3, iş.47, vərəqə 11].

1970-ci ildə Naxçıvan filialı Naxçıvan MSSR-də ali təhsilli kadrlar yetişdirən ilk və yeganə ali təhsil müəssisəsi olub, 5 fakültə: tarix, ədəbiyyat, riyaziyyat, coğrafiya, fizika fakültələri fəaliyyət göstərmiş, əyani şöbəsində 506 nəfər, qiyabi şöbədə isə 434 nəfər tələbə təhsil almışdır.

1970-ci ildə filialda 25 nəfər ştat üzrə, 18 nəfər isə saathesabı müəllim işləyir. Bunlardan 11 nəfəri elmlər namizədi, 7 nəfəri isə ayrı-ayrı institutların aspirant və dissertantları idi.

Səfərəli Babayev institutun direktoru vəzifəsində çalışırdı.

İnstitutun rektorluğunun və partiya komitəsinin qayğısı sayəsində xüsusilə filialın ən qabaqcıl tələbəsinə vermək üçün bir Lenin təqaüdünün ayrılması və iki məqsədli aspirantura yerinin verilməsi tələbələr arasında ruh yüksəkliyinə səbəb olmuş, təlim və tərbiyəni yaxşılaşdırmaq üçün mübarizəni gücləndirmişdir.

Filialın müəllimləri tələbələrin dünya görüşünün formalaşmasında ictimai elmlərin xüsusi rolunu qiymətləndirmiş, seminar və məşğələlərini yüksək ideya-siyasi səviyyədə qurur keçdikləri mühazirə və seminarları kommunizm quruculuğu ilə əlaqələndirirdilər. Filialın müəllimlərindən İbrahim Mollayev, Qasım Qasımov, Firuz Rəhimov dərs prosesində tələbələrin ideya-siyasi tərbiyəsində kommunist dünya görüşünün formalaşması məsələlərinə xüsusi fikir verir, bu müəllimlərin dərs dediyi fənnlərdən tələbələrin əksəriyyəti əla və yaxşı qiymət alır. Həmçinin tələbələr arasında ideya-siyasi işin yüksək səviyyədə qurulmasında filologiya elmlər namizədi Yavuz Axundovun, Damət Seyidovun xüsusi rolu olmuşdur.

Azərbaycan Dövlət Pedaqoji İnstitutun professor-müəllim heyəti tez-tez filiala gəlir, burada ayrı-ayrı fənnlərdə mühazirələr deyirdilər. Filologiya elmlər doktoru Məmməd Hüseyn Təhmasibin filialda şifahi xalq ədəbiyyatından dediyi mühazirələr bu gün də tələbələrin yaddaşından silinməmişdir.

Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Naxçıvan filialında şair və yazıçılarla vaxtaşırı görüşlər keçirilir. 1970-ci ildə şair İslam Səfərli, Tofiq Bayram, Nəbi Xəzri ilə keçirilən görüşlər tələbələrə xoş təsir göstərmiş, həmçinin Böyük Vətən Müharibəsi iştirakçıları qocaman kommunist və Qırmızı taborçularla görüşlər tələbələrin dünya görüşünün formalaşmasında xüsusi rol oynamışdır[8].

Naxçıvan MR Dövlət Arxivində mühafizə olunan bir nüxsə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun orqanı olan “Gənc müəllim” qəzeti “İnstitutumuzun bir parçası” – Naxçıvan filialına həsr olunmuşdur[5, fond.3, iş.48, vərəqə 11].

Filialın sonuncu kurs tələbəsi İsa Həbibovun "Yollar cığırlardan başlayır" məktubu filialın tələbə elmi cəmiyyətinin fəaliyyətinə həsr olunmuşdur. Məktubda yazılır: Tələbə elmi cəmiyyəti 30 nəfər üzvü özündə birləşdirir. 1969-cu ildə tələbə elmi cəmiyyətinin xətti ilə 3 nəfər tələbə müsabiqə zamanı mükafatlara layiq görülmüş, dil-ədəbiyyat fakültəsinin tələbəsi Akif İmanov, tarix fakültəsinin tələbəsi Məmməd Rzayev, Yusif Hüseynov, Əli Səfərov və başqalarının elmi yazıları müxtəlif qəzetlərdə dərc olunmuş, görkəmli elm xadimlərindən Azərbaycan SSR Elmlər Akademiyasının müxbir üzvü M.C.Cəfərov, akademik F.Köçərli, tarix elmlər doktoru T.Əliyev ilə görüşlər tələbələrin dünya görüşünün formalaşmasında əsas rol oynanmışdır. İsa Həbibov məktubun sonunda yazır: "Görəcəyimiz işlər çoxdur. Tələbə elmi Cəmiyyətinə üzv yazılanların sayı isə gündən günə artır. Kim bilir, bu gün elm yolunda ilk addım atan tələbələr bəlkə də gələcəyin adlı-şanlı alimləri olacaqlar"[6, siyahı.3, iş.48, vərəqə 17].

Dil-ədəbiyyat fakültəsinin sonuncu kurs tələbəsi Akif İmanov "Gənc müəllim" qəzetinə göndərdiyi məktubunda tələbə yoldaşlarından Mələhət İsmayılova, Ləzifə Qasımova, Həqiqət Abdullayevanın üçüncü kursu əla qiymətlə başa vurmasından danışır.

Pedaqogika elmlər namizədi İbrahim Mollayev tezliklə pərvazlanan 90 nəfər filialın ilk qaranquşlarına uğurlu yol arzulayır. Onların tezliklə muxtar respublikanın məktəblərində əməkçi balalarına dərs deməsindən bəhs edir. Sabahın müəllimlərinin pedaqoji təcrübə zamanı əldə etdikləri nailiyyətlərdən təlim tərbiyənin müasir tələblər əsasında həyata keçirməsində, həmçinin təcrübəçi tələbələrin dedikləri sınaq dərsləri metodist müəllimlər tərəfindən yüksək qiymətləndirilir[7, siyahı.3, iş.48, vərəqə 18].

Dil-ədəbiyyat fakültəsinin tələbəsi Raziyə Məmmədova, İsa Həbibov, Həqiqət Abdullayeva, Akif İmanov, Mələhət İsmayılova və başqaları, tarix fakültəsinin tələbəsi Qabil Kərimov, riyaziyyat fakültəsinin tələbəsi M.Eminov, R.Həsənov və başqa qabaqcıl tələbələr təcrübə dərsləri zamanı texniki-əyani vəsaitlərdən, filmlərdən, foto-şəkil və lent yazılarından geniş istifadə edirdilər. Filialın ilk qaranquşları gələcəkdə inamla çalışmaq, səylə işləmək üçün qanadlarını bərkitməlidirlər, çünki onlar ədəbiyyat müəllimi Firudin Köçərlinin təbirincə desək məktəbin canı və içində olduğu camaatın çırağı məqamındadır[8, siyahı.3, iş.48, səh. 19].

Filialda Xalid Hüseynovun rəhbəliyi altında gimnastika, voleybol, yüngül atletika və basketbol bölmələri fəaliyyət göstərir, bu bölmələrdə 300-ə yaxın idmançı məşğul olur. Sərbəst güləş üzrə respublika çempionu olmuş, Bakıda keçirilən respublika birinciliyində yüksək yerlər tutmuş Mürsəl İsayev, İsmayıl Hacıyev kimi idmançılarla kollektiv fəxr edir.

V.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun professor-müəllim heyəti Qırmızı Əmək Bayrağı ordenli Moskva və Yaroslav Pedaqoji İnstitutların kollektivləri ölkənin bütün pedaqoji institutlarını Sov. İKP-nin XIV qurultayı şərəfinə yarışa qoşulmaq çağırışını qəbul edir, üzərinə öhdəliklər götürür. Bu öhdəliklər içərisində Naxçıvan filialını müəllim kadrları ilə, ilk növbədə riyaziyyat və fizika fənnləri üzrə yüksək ixtisaslı kadrlar ilə təmin olunması işinə xüsusi diqqət yetirmək də ön planda idi.

1970-1971-ci tədris ilində Səfəralı Babayev, İbrahim Mollayev, Yavuz Axundov, Səməd Quliyev, İbrahim Salayev, Museyib Zeynalov, Heydər Səfərov, Tofiq Bektaşı, Eli Həşimov, Damət Seyidov, Hüseyn Kazımov, Akif Əliyev, Məmməd Bektaşı, Əli Əliyev, İbrahim Hüseynov, Qasım Qasımov, Firuz Rəhimov, Allahverdi Hüseynov, İsmayıl Zeynalov, İbrahim Bağırov filialda dərs deyirdi[9, siyahı.3, iş.48, səh.20].

12 iyun 1972-ci il tarixli Azərbaycan SSR Nazirlər Sovetinin 214 №-li qərarı əsasında Naxçıvan MSSR Nazirlər Sovetinin 206 №-li qərarı ilə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun bazası əsasında Naxçıvan şəhərində Naxçıvan Pedaqoji İnstitutunun təşkil edilməsi haqqında qərar qəbul edildi. Az sonra Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin 9 yanvar 1973-cü il tarixli protokolunda Naxçıvan Dövlət Pedaqoji İnstitutuna akademik Yusif Məmmədəliyevin adının verilməsi haqqında qərar qəbul edildi[10, siyahı.13, iş.88, vərəqə 40].

1972-ci ildən başlayaraq Naxçıvan Dövlət Pedaqoji İnstitutunda ibtidai təhsil pedaqogikası və metodikası, fizika, ümumi texniki fənnlər, əmək, kimya, biologiya ixtisasları üzrə müəllim hazırlanması üçün ayrıca yeni fakültələr açılmışdır. Bunların hamısı Azərbaycan Pedaqoji

İnstitutunun fəaliyyəti, onun tədris planları, proqramları və göstərişləri ilə get-gedə inkişaf edib və təkmilləşmişdir.

1981-ci ildə Naxçıvan Dövlət Pedaqoji İnstitutunda 14 kafedra fəaliyyət göstərir, əyani şöbədə 1338 nəfər, qiyabi şöbədə idə 616 nəfər tələbə təhsil alırdı. Onların təlim tərbiyəsi ilə 130 nəfər professor-müəllim heyəti məşğul olurdu. Onların içərisində elmlər doktorları, elmlər namizədləri və aspirant-müəllimlər fəaliyyət göstərir.

29 dekabr 1990-cı il tarixli Azərbayacn SSR Nazirlər Sovetinin qərarına əsasən Yusif Məmmədəliyev adına Naxçıvan Dövlət Pedaqoji İnstitutu Naxçıvan Dövlət Universitetinə çevrildi. Az sonra 9 yanvar 1991-ci il Muxtar Respublika Nazirlər Sovetinin 07 №-li qərarı ilə Naxçıvan Muxtar Respublika Nazirlər Kabinetinin 360 saylı sərəncamı ilə Naxçıvan Dövlət Universitetində təsərrüfat hesablı ixtisas artırma və yenidən hazırlanma fakültəsinin açılması haqqında qərar qəbul edildi.

Xalqımızın Ümummilli lideri Heydər Əliyev 1974, 1992, 1999-cu illərdə dörd dəfə Naxçıvan Dövlət Universitetində olması, burada etdiyi tarixi nitqlər, verdiyi tövsiyyələr və tapşırıqlar, göstərdiyi qayğı, ölkədə və regionda ali təhsilin və elmin, o cümlədən Naxçıvan Dövlət Universitetinin inkiişafında mühüm rol oynamışdır. Görkəmli dövlət xadimi Heydər Əliyevin 12 noyabr 1992-ci ildə Naxçıvan MR Ali Məclisinin sədri kimi Naxçıvan Dövlət Universitetinin 25 illik yubileyində iştirakı və nitqi, müstəqillik dövrü Azərbaycan ali məktəbinin proqramı idi. 20 il bundan əvvəl deyilmiş aşağıdakı fikirlər bu gün üçün də aktual və müasir səslənir:

"İndi Azərbaycan müstəqil bir dövlət kimi dünyanın hər bir ölkəsi ilə müstəqil əlaqə yaratmağa və bu əlaqələrdən öz ölkəsinin gələcək inkişafı üçün istifadə etməyə malik olan bir dövlətdir. Bu baxımdan Naxçıvan Dövlət Universiteti indi sərbəst bir ali məktəbdir. Onun Azərbaycanın bütün ali məktəbləri ilə əlaqələri inkişaf etdirməyə daha da əlverişlişərait var və eyni zamanda dünyanın bütün ölkələri ilə, orada olan bütün ali məktəblər ilə, elm mərkəzləri ilə, elm ocaqları ilə əlaqə saxlamağa imkanlarlı vardır. Çox yaxşı haldır ki, bu sahədə müəyyən addımlar atılıb. Bu gün Naxçıvan Dövlət Universitetinin bu yubiley mərasimində İran İslam Respublikasının və Türkiyə Cümhuriyyətinin ali məktəblərinin və dövlət adamlarının iştirakı buna sübutdur. Sizə əmin edə bilərəm ki, Naxçıvan MR Ali Məclisi bu sahədə Naxçıvan Dövlət Universitetinin fəaliyyətinə lazımi köməklik edəcək və lazım olan şərait yaradacaqdır. Artıq bundan sonra sizin hazırlayacağınız ali təhsilli kadrlar gərək daha yüksək kriteriyalara, yüksək tələblərə uyğun olsunlar, indi artıq siz keçmiş sovetlər ittifaqının çərçivəsində olan yox, bütün təcrübəsini gərək mənimsəyəsiniz, ondan səmərəli istifadə edəsiniz və ali təhsil işinin təşkilini daha müasir səviyyədə qura biləsiniz"[11, səh.2].

Naxçıvan MR Ali Məclisinin sədri Vasif Talıbovun universitet quruculuğuna xüsusi diqqət yetirməsi Naxçıvan Dövlət Universitetinin böyük sürətlə inkişaf etdirilməsinin mühüm hərəkətverici qüvvəsini təşkil edir. Muxtar Respublika Ali Məclis sədrinin Naxçıvan Dövlət Universitetinin 30 illik yubileyini keçirməsi haqqında 26 may 1997-ci il tarixli 47 №-li sərəncamı, həmçinin Azərbaycan Respublikası Prezidentinin Naxçıvan Dövlət Universitetinin 40 illik yubileyinin keçirilməsi haqqında 31 mart 2007-ci il tarixli sərəncamı, Naxçıvan Dövlət Universitetinin əməkdaşlarına təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 16 oktyabr 2007-ci il tarixli sərəncamı Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin və Naxçıvan MR Ali Məclisinin sədri Vasif Talıbovun universitetə göstərdiyi qayğının parlaq təzahülüdür

Naxçıvan Dövlət Universiteti 50 ildir ki elm və təhsil mərkəzi kimi şöhrət qazanmış, dövlətçilikdə, iqtisadiyyatda, elm, maarif və mədəniyyətin inkişafında Naxçıvan Dövlət Universitetinin məzunlarının mühüm xidməti vardır. Naxçıvan Dövlət Universiteti Azərbaycanın əsas elm mərkəzlərindən biridir. Naxçıvan Dövlət Universitetinin 40000-dən çox məzunu olmuş, onlar yüksək vəzifəli dövlət adamları, deputatlar, görkəmli elm xadimləridir. Universitetin 25, 30 və 40 illik yubileyləri dövlət səviyyəsində qeyd olunmuş, 50 illik yubileyinə hazırlıq işləri gedir.

## ƏDƏBİYYAT


1. Həmzə Cəfərov. "Naxçıvanda təhsil- İnkişaf yolu və imkanları". Bakı. Elm və təhsil. 2011.
2. Naxçıvan MRDA, fond.1, siyahı.1, iş.982.

3. Naxçıvan MRDA, fond.713, siyahı.3, iş.45.
4. Naxçıvan MRDA, fond.713, siyahı.3, iş.47.
5. Naxçıvan MRDA, fond.713, siyahı.3, iş.48.
6. Naxçıvan MRDA, fond. 713, siyahı.3, iş.48.
7. Naxçıvan MRDA, Azərbaycan KP Naxçıvan Vilayət Partiya Komitəsi (fond.1), siyahı.13, iş.88.
8. Naxçıvan MRDA, fond.713, siyahı.3, iş.50.
9. Naxçıvan MRDA, fond.2, siyahı.7, iş.1082.
10. İsa Həbibbəyli "Azərbaycanda Naxçıvan Dövlət Universiteti".12 sentyabr 2012-ci il.
11. Naxçıvan MR Ali Məclisi sədrinin sərəncamları. "Şərq qapısı" qəzeti.

**ABSTRACT**

**Zulfiya Ismayılova**

**DEVELOPMENT HISTORY OF NAKHCHIVAN STATE UNIVERSITY– 1967-1971**

This article is about that development history of Nakhchivan State University. Nakhchivan State University created as a branch of Azerbaijan Pedagogical Institute. University has passed honorable way during 50 years of its activity/ Nakhchivan State University was founded as a branch of Azerbaijan Pedagogical Institute which that created base of school №1 in 1967. University has two faculties: history-philology and math. University was continued its activity as a of Azerbaijan Pedagogical Institute until 1972. Nakhchivan State Pedagogical Institute created from branch of Azerbaijan Pedagogical Institute in 1972. Nakhchivan State Institute turn to Nakhchivan State University in 28 December in 1990 by the Cabinet of Minister's judgement of SSR of Azerbaijan.

The article about that mainly branch period of Nakhchivan State University (1967-1971). Membership of director and first teachers of University and students' success are shown in this article.

**РЕЗЮМЕ**

**Зюльфия Исмаилова**

**ИСТОРИЯ РАЗВИТИЯ НАХИЧЕВАНСКОГО ГОСУДАРСТВЕННОГО УНИВЕРСИТЕТА – 1967-1971**

В статье освещена история развития Нахичеванского Государственного Университета. Впервые действующий как филиал Азербайджанского Государственного Педагогического Института Нахичеванский Государственный Университет за 50 лет прошел почетную дорогу; образовавшийся 1967 году в базе школы №1 города Нахичевань с двумя – история-литература и математика – факультетами как филиал Азербайджанского Государственного Педагогического Института действовал до 1972 года; 1972 году в базе филиала Азербайджанского Государственного Педагогического Института создан Нахичеванский Государственный Педагогический Институт; приказом Азербайджанской ССР Кабинета Министров от 29 декабря 1990 года Нахичеванский Государственный Институт превратился в Нахичеванский Государственный Университет.

В статье в основном говорится о Нахичеванском Государственном Университете в период филиала (1967-1971 г.г.). Также в статье говорится о первом директоре и учительском персонале, об успехах студентов.

NDU-nun Elmi Şurasının 19 oktyabr 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 02).
Məqaləni çapa təqdim etdi: AMEA-nın müxbir üzvü Z.Şahverdiyev

**İLHAMİ ƏLİYEV**
AMEA Naxçıvan Bölməsi
ilhamialiyev@yahoo.com.tr

**UOT: 94 (479.242)**

# XVIII ƏSRDƏ RUSİYANIN CƏNUBİ QAFQAZ SİYASƏTİNDƏ NAXÇIVANIN YERİ

**Açar sözlər:** *Naxçıvan, Rusiya, xanlıq, işğal, siyasət, müharibə, əhali, qarşıdurma*

**Key words:** *Nakhchivan, Russia, khanate, occupation, politics, war, population, confrontation*

**Ключевые слова:** *Нахчыван, Россия, ханства, агрессия, политика, война, население, противостояние*

Tarixdən bəllidir ki, hələ IX əsrin iknci yarısından Slavyanların Azərbaycana hücumları başlamış, hər dəfə qarət və qırğınlarla müşaiyət olunan bu hücumlar XI əsrin ortalarınadək davam etmişdir. XVII əsrdə rusların hücumları Rusiya–Azərbaycan ticarət əlaqələrinə əngəl törədirdi. 1650-ci ildə Xəzərdə kazaklara qarşı qəti tədbir görmək üçün Səfəvi şahı II Abbasın Moskvaya xüsusi səfir – Məmmədqulu bəyi göndərməsi bu hücumlarla əlaqəli idi (1, s. 493). 1668-ci ildə Stepan Razinin Xəzərsahili vilayətlərə, o cümlədən Bakıya qarətçi yürüşü bu hücumların sonrakı illərdə də davam etdiyini göstərir. Üsyançı kazak dəstələrinin Volqa-Xəzər ticarət marşrutuna hücumlarından başqa XVII əsrin ortalarında rusların Şimali Qafqazda Rusiya dövlətinin strateji məqsədlərinə xidmət edəcək qalalar tikməsi 1653-cü ildə Səfəvi hərbi hissələri ilə rus qoşunları arasında toqquşmanın baş verməsinə gətirib çıxardı ki, həmin münaqişə 1662-ci ilədək davam etdi.

XVIII əsrdə Rusiyanın Azərbaycan da daxil olmaqla Qafqazla bağlı siyasətində yenə də bütövlükdə regionu işğal etmək bu dövlətin əsas hədəfi idi. Həm iqtisadi, həm də hərbi-strateji baxımdan əhəmiyyətli mövqedə yerləşməsi rus çarını bu torpaqları əldə etmək üçün şirnikləndirirdi. XVIII əsrin əvvəllərində Səfəvilər dövləti getdikcə zəiflədiyi dönəmdə çar Rusiyası bu ölkəyə diplomatik nümayəndələr göndərməklə buradakı vəziyyəti nəzarətə götürmək üçün öz planlarını həyata keçirirdi. Elə həmin dövrdə I Pyotr Xəzərin cənub-qərb sahilini və bu regionda hərbi-siyasi şəraiti öyrənmək üçün sərəncam vermişdi. A.P.Volınskinin 1716-1718-ci illərdə Səfəvilər dövlətində səfirliyi məhz bu məqsədi güdürdü. Rəsmən A.P.Volınskiyə Səfəvi hökuməti ilə ticarət müqaviləsi bağlamaq səlahiyyəti verilmiş, Səfəvilər dövləti ərazisində, o cümlədən onun inkişaf etmiş iqtisadi zonalarından biri olan Azərbaycanın ən mühüm ticarət məntəqələrində rus konsulluq və vitse-konsulluqları açılmasına razılıq almaq tapşırılmışdı. Lakin ona keçdiyi yerləri diqqətlə öyrənmək, Xəzər dənizinə hansı çayların axdığını, hansı yerlərə qədər onlarda gəmi ilə üzməyin mümkünlüyünü, öz başlanğıcını Hindistandan götürüb Xəzər dənizinə tökülən çayların olub-olmadığını dəqiqləşdirmək barədə gizli tapşırıqlar da verilmişdi (5, s. 14). Xəzərsahili vilayətlərin işğalı ilə bağlı Rusiya öz böyük maraqlarını həyata keçirmək üçün Səfəfilər dövlətinin dağlması ərəfəsində hücumunu reallaşdırdı.

Qeyd edək ki, XVIII əsrin əvvəllərində Rusiyanın Qafqazda işğalçılıq siyasətini həyata keçirmək istəyi o zaman hakimiyyətdə olmuş Rusiya çarı I Pyotrun (1682-1725) böyük siyasətinin bir hissəsi idi. Yəni o, öz vəsiyyətində Hindistanı əldə etmək üçün Qafqazın işğalını vacib saymaqla (8, s. 30) bu addımın əhəmiyyətini və çoxdan nəzərdə tutulduğunu göstərmişdir. Bu zaman Rusiyanın Səfəvi torpaqlarını, xüsusilə də Azərbaycanı tutmasında ermənilər daha çox canfəşanlıq edirdilər. Bu onların əsas planlarının bir hissəsi idi. Hətta işğal planını da tərtib edib I Pyotra təqdim etmişdilər. Azərbaycan torpaqlarını əldə etmək üçün I Pyotra təqdim edilən 18 bənddən ibarət xüsusi hərbi planda digər Azərbaycan bölgələri kimi Naxçıvana da geniş yer verilmişdi. Bu işğalçılıq layihəsinin III bəndində göstərilirdi ki, Şamaxıya daxil olan 10 min nəfərlik çar qoşunu 4 alaya bölünərək, 1-ci alay Gəncəyə, 2-ci Loriyə, 3-cü Qafana, 4-cü isə Naxçıvan üzərinə getməlidir.

Bu planın 6-cı bəndi isə tamamilə Naxçıvanın işğalına aid idi (13, s. 87; 7, s. 107). Ermənilərin yeni torpaqlarda məskunlaşmaq üçün əvvəldən nəzərdə tutduğu bu planlar Rusiya çarının maraqlarını təmin edirdi. Yəni bu siyasətdə Rusiya üçün lazım olan alətlərdən biri də ermənilər idi.

Rusiya 1722-ci il avqustun 23-də heç bir müqavimət görmədən Dərbənd şəhərini tutmaqla Xəzərsahili vilayətlərin işğalına başladı. 1723-cü il iyulun 21-də rus donanması Bakı limanına daxil oldu. Ciddi müqavimət göstərməsinə baxmayaraq, Bakı qarnizonu çoxsaylı orduya və hərbi texnikaya malik olan düşmən hücumuna tab gətirmədi və bombardman nəticəsində şəhərdə baş verəcək yanğının, tələfatın qarşısını almaq məqsədilə qalanı yadelli işğalçılara təslim etməyə məcbur oldu. Beləliklə, 1722-1723-cü illərdə Azərbaycanın Xəzərboyu əyalətləri Rusiya tərəfindən işğal edildi. Lakin osmanlılarla müharibəyə girişmək istəməyən Rusiya tərəfi bir qədər götür-qoy etdikdən sonra Osmanlı imperiyasına bu bölgəni bölüşdürmək barədə müqavilə bağlamağı təklif etdi. Uzun danışıqlar və mübahisələrdən sonra tərəflər Səfəvi irsini bölüşdürmək barədə razılığa gəldilər. 1724-cü il iyulun 12-də İstanbulda Rusiya ilə müqavilə imzalandı. Həmin müqaviləyə əsasən Osmanlı tərəfı Rusiyanın işğal etdiyi Xəzərboyu əyalətləri "Səfəvilər dövləti tərəfindən Rusiyaya güzəşt edilmiş kimi" təsdiq etdi. Rusiya tərəfı isə öz növbəsində Osmanlı tərəfindən Qərbi Qafqazın və Cənubi Azərbaycanın işğalına etiraz etməyəcəyini bildirdi (15, s. 330, 333). Müqavilədən sonra Səfəvilər dövlətinin ərazisi Rusiya və Osmanlı dövlətləri tərəfindən bölündü. Göründüyü kimi, XVIII əsrin 20-ci illərinin əvvəllərində az bir qism Səfəvi torpaqları (Astarabad, Mazandaran və Gilanın bir hissəsi) istisna olmaqla, Azərbaycanın Xəzərsahili vilayətləri Rusiya, digər əraziləri Osmanlı dövləti tərəfindən işğal edildi. Bu zaman Naxçıvan Osmanlı imperiyasının tutduğu əraziyə daxil idi. Qeyd edək ki, hər iki dövlətin Səfəvi torpaqlarını bölüşdürməsində əsas məqsədlərindən biri bu torpaqlara sahib olmaq idisə, digəri daha gəlirli sahə olan ticarət yollarına nəzarəti əldə etmək idi. Bu zaman Naxçıvan ticarət əlaqələrinin və yollarının əhəmiyyəti baxımından hər iki dövlətin diqqətini çəkməyə bilməzdi. Yalnız Xəzərsahili vilayətləri tutması o demək deyildi ki, Rusiyanın Naxçıvan bölgəsini də işğal etmək istəyi olmamışdır. Bu zaman ermənilərin I Pyotra təqdim etdiyi işğal planından da aydın görünür ki, Rusiya tərəfindən tutulması planlaşdırılan yerlərdən biri də Naxçıvan olmuşdur. Lakin onsuz da uzun sürməyən bu işğal müddətində Rusiya bu planın həllinə tam nail ola bilməmişdi. Amma osmanlılar tərəfindən tutulan Azərbaycan bölgələrində Osmanlı dövləti əleyhinə çıxışların baş verməsində qeyri-müsəlmanların, xüsusilə ermənilərin əsas yer tutması özü də Rusiyanın işğal siyasətinin bir hissəsi idi. Bu haqda İ.P.Petruşevski göstərir ki, İstanbul sülhündən sonra Osmanlı hakimiyyəti altına düşmüş Cənubi Qafqazın xristian rayonlarında (əsərdə gürcülər yaşadığı ərazilər də nəzərdə tutulmuşdur) işğalçılara qarşı üsyanlar baş verdmişdi. Müəllif yazır ki, Davud bəyin rəhbərliyi ilə üsyankar ermənilər uzun müddət türk qoşunlarına qarşı Qafqazın, o cümlədən də sonradan məskunlaşdıqları Zəngəzur və Naxçıvan vilayətinin (burada ancaq Əylisin adı çəkilmişdir) çətin keçilən dağ dərələrində mübarizə aparmışlar. Hətta onlar 1730-cu ildə Ordubadda Osmanlı paşasını öldürmüş və buradakı türk qoşunları dağılmışdır (14, s. 333-334). Xristianların Osmanlı idarəçiliyinə qarşı üsyanları onların Rusiyanın işğal siyasətini açıq şəkildə dəstəklədiyini göstəririd.

XVIII əsrin birinci yarısında Rusiyanın Xəzəryanı vilayətlərdə hakimiyyəti 1735-ci ilədək, yəni Nadir xanın Gəncədə bağladığı müqavilə ilə sona çatdı. Bu zaman Naxçıvan Rusiya tərəfindən işğal edilməsə də, digər Azərbaycan bölgələri kimi buranın da ələ keçirilməsi nəzərdə tutulurdu.

Rəşt muqaviləsi (1732) və Gəncə traktatını imzaladıqdan (1735) sonra Rusiya Xəzərsahili vilayətləri Səfəvilər dövlətinə, yəni Nadir xana qaytardı. Bundan sonra Rusiya Qafqazda istehkam xətlərini tikməyə başladı (4, s. 16).

1747-ci ildə Nadir şahın süi-qəsd nəticəsində öldürülməsindən sonra Azərbaycanda yaranan xanlıqlardan biri də Naxçıvan xanlığı idi. Nadir şahın hakimiyyəti illərində yerli əhali o qədər çətinliklərə məruz qalmışdı ki, yeni yaranan xanlıqlar əhali arasında inamla qarşılanırdı. Lakin bu torpaqları işğal etmək istəyən qonşu Rusiya, İran və Osmanlı dövlətləri onların bir-birilə qarşıdurmasından istifadə edib öz planlarını həyata keçirməyə çalışırdılar. XVIII əsrin ikinci yarısında, xanlıqların hakimiyyəti dövründə yenə də Rusiyanın Qafqaz siyasəti davam etməkdə idi.

Bildiyimiz kimi, Nadirin ölümündən sönra Kəngərli tayfasının başçısı Heydərqulu xan Ağa Həsəni hakimiyyətdən salıb özünü Naxçıvan xanlığının müstəqil hakimi elan etdi. Naxçıvan xanlığı

iqtisadi və hərbi imkanlarına görə, digər xanlıqlardan o qədər də fərqlənmirdi. Öz hakimiyyətini gücləndirmək və işğalçılardan müdafiə olunmaq üçün Heydərqulu xan daha qüdrətli sayılan xanlıqlara arxalanmaq qərarına gəldi. Bu məqsədlə XVIII əsrin 50-ci illərində o, Qarabağ xanlığının banisi Pənahəli xanla görüşdü. 1752-ci ildə Qarabağ xanının ən güclü rəqiblərindən sayılan Şəki xanına qarşı yürüşdə gəncəli Şahverdi xan, qaradağlı Qasım xan, irəvanlı Hüseyn xan, xoylu Əhməd xan ilə birlikdə Heydərqulu xan da iştirak edirdi. Bu hücum məğlubiyyətlə bitdikdən sonra Heydərqulu xan Naxçıvana qayıdaraq xanlığı möhkəmləndirmək üçün bir sıra tədbirlər həyata keçirdi. Onun ölümündən sonra (1763/64) Naxçıvan xanlığı nisbətən zəiflədi. 1764-cü ildən, 1768-ci il istisna olmaqla, 1769-cu ilədək Heydərqulu xanın oğlanları Hacı Məhəmməd xan və Rəhim xan Naxcıvan xanı olmuşlar. 1768-ci ildə Heydərqulu xanın oğlu Şukrullah xan Naxcıvan xanlığını idarə etmiş və 1770-ci ildə yenidən hakimiyyəti ələ almışdır. Şukrullah xan 1768, 1771, 1777, 1779-cu illərədə də Naxcıvan xanlığının xanı olmuşdur. 1772-ci ildə Heydərqulu xanın qardaşı Əliqulu xan hakimiyyətə gəldi. 1773-cu ildə isə onun qardaşı Vəliqulu xan hakimiyyəti devirib Naxcıvanın xanı oldu. O, 1773-1776 və 1778-ci illərdə Naxcıvan xanlığını idarə etdi. 1777 və 1779-cu illərdə Şukrulla xan yenidən xanlıq taxtında oturdu. 1780-ci ildə Rəhim xanın oğlu Abbasqulu xanın hakimiyyətə gəlmişdir. 1783-cu ildə Cəfərqulu xan (I Kalbalı xanın böyuk qardaşı) hakimiyyətə sahib oldu və 1784-cü ilin sonunadək Naxcıvana xanlıq etdi. 1785-ci ildə Naxcıvan feodallarından biri olan Şukurəli xan hakimiyyəti oz əlinə kecirdi (4, s. 76). 1787-ci ildə hakimiyyəti Cəfərqulu xan yenidən idarə etdi. 1787-ci ilin mayın əvvəlində Abbasqulu xan ikinci dəfə xanlıq taxtına sahib olsa da, I Kalbalı xan elə həmin ayda əldən-ələ duşub dağılmağa uz qoymuş Naxcıvan xanlığında xanlıq taxtına sahib cıxdı. 1797-ci ilədək mustəqil Naxcıvan xanlığını məharətlə idarə etdi və xanlıq oz intibah dövrunu yaşadı. 1797-ci ildən 1801-ci ilədək Abbasqulu xan üçüncü dəfə yarım mustəqil xanlığını idarə etməyə muvəffəq oldu (4, s. 81). Tarix üzrə fəlsəfə doktoru M.Quliyev ən son araşdırmaları ilə Naxçıvan xanlarının hakimiyyət illərini dəqiq müəyyən etmişdir. Göründüyü kimi, bu illərdə xanlıqda tez-tez hakimiyyət dəyişiklikləri baş vermişdir. Bu isə xanlığın siyasi və iqtisadi baxımdan zəifləməsinə, qonşu xanlıqlardan Qarabağ, Xoy, İrəvan və s. xanlıqlar, Rusiya dövlətinin bu zaman yerlərdə siyasətini həyata keçirən Kartli-Kaxetiya çarlığının müdaxiləsinə məruz qalmışdır. Yəni Rusiya XVIII əsrin ikinci yarısında da ermənilərdən və gürcü çarlığından bölgəyə təsir vasitəsi kimi istifadə etmişdir.

Adları çəkilən xanlardan Abbasqulu və I Kalbalı xanların hakimiyyəti zamanı Rusiya dövlətinin təsirləri, bu dövlətə yardım üçün müraciətlər daha aydın şəkildə nəzərə çarpmaqdadır. Belə ki, XVIII əsrin 80-ci illərinin əvvəllərində İrəvan xanı Hüseynəli xanın, Qarabağ xanı İbrahimxəlil xanın, Kartli-Kaxeti çarı II İraklinin vasitəçiliyi ilə Kəngərli tayfasının nümayəndəsi Abbasqulu xan Naxçıvan xanlığının hakimi oldu. Lakin Naxçıvanda Abbasqulu xanın əmisi oğlu Cəfərqulu xanı hakimiyyətə gətirmək istəyən xoylu Əhməd xan öz qoşunlarını Naxçıvan xanlığının sərhədlərinə yeritdi. Müqavimət göstərə bilməyəcəyini başa düşən və yerli əyanlar tərəfindən müdafiə edilməyən Abbasqulu xan Naxçıvanı tərk etməyə məcbur oldu. Özünə müvəqqəti olaraq Sisyanda sığınacaq tapdı. Lakin irəvanlı Hüseynəli xan hədələyici məktub göndərdiyinə görə Əhməd xan Naxçıvanı tuta bilmədi. İrəvan xanı Naxçıvan xanlığına özü sahib olmaq istəsə də bu da baş tutmadı. Xalqa ağır zülmlər edən Abbasqulu xan yenidən xanlıqda hakimiyyətin bərpa etdi. Lakin bu dəfə bu məsələni tam şəkildə həll etmək üçün xoylu Əhməd xan kömək üçün özünü İran şahı elan etsə də, rəsmən tanınmayan, ancaq bu vəzifəni icra edən Əlimurad xana müraciət etdi.

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, Əlimurad xan hakimiyyət başına gəlməyə can atarkən və İranın rəsmi şahı olmadığı halda Azərbaycanın bir sıra xanlıqlarına tabe olmaq rəmzi kimi, onlardan girov və ya qiymətli daş-qaş tələb edirdi. Məsələ o yerə çatmışdı ki, Əlimurad xan hətta 1784-cü ildə Osmanlı dövlətinə qarşı kömək almaq və öz hakimiyyətini möhkəmləndirmək məqsədilə Moskvaya nümayəndə göndərmişdi. Öz nümayəndəsi Məhəmməd xana tapşırmışdı ki, göstəriləcək kömək əvəzində vaxtilə Rusiyanın tərkibində olmuş torpaqlardan savayı (yəni Xəzəryanı vilayətlərdən), "Qarabağ, Naxçıvan və İrəvan viləyətlərini" də Rusiya imperiyasına "güzəşt" etməyə hazırdır. Əhməd xanın kömək üçün müraciəti Əlimurad xanın ürəyindən olduğu üçün tezliklə o Naxçıvana hərbi qüvvə göndərdi. Beləliklə, Əlimurad xan və Əhməd xanın

qoşunlarının qarşısını ala bilməyən Abbasqulu xan, yenidən Naxçıvanı tərk etməyə və Tiflisə qaçaraq II İraklidən kömək istəməyə məcbur oldu. Cəfərqulu xan isə Naxçıvanda hakimiyyətə gəldi.

Abbasqulu xanın II İrakliyə sığınması onun bu sahədə Rusiyanın siyasətini həyata keçirmək baxımından çox əlverişli idi. Həqiqətən bəzi hallarda Kartli-Kaxeti çarı II İrakli Georgiyevsk traktının şərtlərindən istifadə edərək öz əməllərini Rusiya hakimiyyətinin adı ilə pərdələyirdi. II İrakli Əhməd xana məsləhət görür ki, o, Abbasqulu xanla Cəfərqulu xan arasındakı münasibətlərə toxunmasın və Naxçıvanda baş verən hadisələrlə işi olmasın. Əks tədqirdə o, digər xanlar arasında öz nüfuzunu itirə bilər. Əslində isə II İrakli "uzaqgörənlik edib, ilk növbədə, xudpəsəndliklə öz torpaqlarını genişləndirmək barədə fikirləşirdi. O, Rusiya hakim dairələrinə göndərdiyi məktublarının birində yazırdı: "...Belə hesab edirəm ki, Azərbaycana sahib olmaq Rusiya üçün əlverişlidir. Sonra isə həmin torpaqların bir hissəsini mənə güzəştə gedərsiniz". II İrakli başqa bir məktubunda rus komandanlığından xahiş edirdi ki, "...Gürcüstanı ləzgilərin təhlükəsindən qurtarsın, Gəncədə, İrəvanda onun hakimiyyətini təsdiq etsin və Naxçıvanı da ona tabe etdirsin". Onun Azərbaycan torpaqlarını mənimsəmək üçün dəridən-qabıqdan çıxmasına baxmayaraq, nə Abbasqulu xan, nə də Azərbaycanın digər xanları onun xudpəsənd fikirlərini başa düşə bilmirdilər. Əksinə, onlar II İraklini qüdrətli dövlət saydıqları Rusiyaya arxalanmış sədaqətli müttəfiq hesab edirdilər. Abbasqulu xan yenidən Naxçıvan xanlığında hakim olmaq üçün II İraklinin köməyinə sadəlövhcəsinə inanırdı. Kartli-Kaxeti çarlığının Rusiya qəyyumluğunu qəbul etdiyini bilən Abbasqulu xan da Rusiyanın himayəsində olmağı arzulayırdı. Bu haqda Abbasqulu xan Rusiyanın Gürcüstandakı qoşunlarının başçısı S.Burnaşevə yazmışdı: "Çar İrakli ilə yaxınlıq edərək, imperator həzrətlərinin hakimiyyəti altında olmağı arzulayır və başqa xanları da belə addım atmağa çağırıram". Abbasqulu xanın Rysiyanın qəyyumluğunu qəbul etmək arzusunu II İrakli general-poruçik Q.A.Potyomkinə xəbər verdi. "Dəhşətli qaçqın vəziyyətində olan naxçıvanlı Abbasqulu xan bizdən xahiş edir ki, biz ona öz mülkiyyətinə qayıtmağa kömək edək və o, imperatriçəyə tabe olacağını bildirir" (3, s. 63). Abbasqulu xanın Rusiya və Gürcüstana müraciət etməsini, yalnız və yalnız Naxçıvan xanlığında öz hakimiyyətini bərpa etmək arzusu ilə izah etmək lazımdır.

II İrakli Abbasqulu xanın hakimiyyətini bərpa etmək üçün hərbi qüvvə ilə kömək etmək istədikdə, Rusiya ilə imzalanmış Georgiyevski traktatının məhdudlaşdırıcı şərtlərinə görə edə bilmədi. Lakin tezliklə bu Rusiyanın Gürcüstandakı nümayəndəsi Q.A.Potyomkinə çatdırıldı və o bu işə razı olduğunu bildirdi. Deməli bu da Rusiyanın açıq-aşkar II İraklini onun siyasətini həyata keçirməkdə bir vasitəçi olduğunu göstərirdi. Kartli-Kaxetiya çarı Qrabağ xanı ilə birlikdə Naxçıvan xanlığı üzərinə hücum etmək istəsə də, bu işə isə Osmanlı dövləti mane oldu. Çünki Georgiyevsk traktatı bağlanmasından və Gürcüstana rus ordusunun gəlməsindən narahat olan Osmanlı sultanı yenidən Cənubi Qafqazın işlərinə qarışmağa başladı. Belə ki, Osmanlı dövləti müsəlmanların həmrəyliyinə arxalanaraq, Azərbaycan və Dağıstan hakimlərini ələ almağa, həmçinin qarabağlıların gürcülərlə ittifaqını pozmağa cəhd göstərirdi.

Bu zaman erməni patriarxı İoni Qarabağ məlikləri ilə birlikdə Q.A.Potyomkinə yazırdılar ki, Osmanlı nümayəndələri Kür çayı yanında azərbaycanlılardan ibarət ordu yaratmağa və rus ordusunun qarşısını kəsməyə cəhd edirlər ( 3, s. 65).

Azərbaycan xanlıqları arasındakı ziddiyyətlərdən Osmanlı dövləti istifadə edə bilərdi. Bu isə öz növbəsində Rusiyanın həmin bölgədə yeritdiyi siyasəti müvəffəqiyyətsizliyə uğradırdı. Bununla əlaqədar Rusiya dövlətinin hakim dairələri Qafqaz xəttində olan ordunun komandanlığına tapşırmışdı ki, "...yaxın olduqları yerlərdə Azərbaycan hakimlərinə, irəvanlı Hüseynəli xana, təbrizli Nəzərqulu xana, xoylu Əhməd xana, Urmiyalı Qulu xana sakitlik yaratmaq, öz aralarında razılığa gəlmək, sülhü qoruyub saxlamaq və öz imkanları ilə razılaşmaq üçün onlara təsir etsinlər. Onlara bildirmək lazımdır ki, dinclik və sakitliyi Rusiya verə bilər. Rusiya ilə etibarlı qonşuluq əsasında güclü himayəçi tapa bilərlər... Mən inanıram ki, Azərbaycanın hakimləri özləri bu həqiqəti dərk edəcək, qanlı ara müharibələrinə son qoyacaq və bu da həm özlərinin, həm də insanlığın xeyrinə olacaqdır" ( 3, s. 67).

Kəlbəli xan hakimiyyətə gəldiyi vaxt, 1787-ci ildə Azərbaycanda və bütövlükdə Cənubi Qafqazda daxili və xarici vəziyyət xeyli mürəkkəbləşmişdi. Azərbaycanın və Gürcüstanın İran və Osmanlı imperiyası tərəfindən təcavüzkarlığa məruz qalmaları təhlükəsi yaranmışdı. Belə bir tarixi

şəraitdə Cənubi Qafqaz xalqları öz daxili imkanları hesabına xarici təhlükəyə qarşı istiqlaliyyətlərini müdafiə edə bilməzdilər. Naxçıvan xanlığında hakimiyyətə gəldiyi gündən Kəlbəli xan Rusiya dövləti ilə həm siyasi, həm də iqtisadi münasibətlər yaratmağa səy göstərmişdi. Bu da səbəbsiz deyildi. Həmin dövrdə İran təcavüzü qarşısında qalan Azərbaycan xanlarına rus dövləti özünü riyakarlıqla Şərq xalqlarının "dostu" kimi qələmə verir, Azərbaycan xanlıqlarına hər vasitə ilə kömək göstərəcəyini vəd edirdi. Məhz buna görə də Kəlbəli xan sadəlövhlüklə rus diplomatlarının fitnəkarlığına uymuşdu. O da bəzi Azərbaycan xanları kimi Georgiyevsk müqaviləsinin (1783) səmimiyyət naminə bağlanıldığına inanırdı. Elə onun Rusiyaya bu inamı Ağa Məhəmməd şahın 1797-ci ildə qəzəbinə tuş gətirdi ki, bu yolda o, öz gözlərini itirdi. Lakin mövcud vəziyyətdə Kalbalı xan Rusiyanın Cənubi Qafqaz siyasətindən yaralanaraq xanlığı yaşatmaq və sabit siyasi vəziyyət əldə etmək üçün bu addımı atmış oldu.

XVIII əsrin ikinci yarısında 1783-cü ildə Georgiyevski traktatının imzalanmasından sonra Rusiyanın Azərbaycan torpaqlarını işğal etmək istəyi daha da gücləndi. Artıq o Kartli-Kaxetiya çarlığını özünə bir dayaq nöqtəsi kimi götürmüşdü. Osmanlı və İran dövlətlərinin müdaxiləsi və daxili qarşıdurmalar Naxçıvan xanlarını Rusiya ilə yaxınlaşmağa vadar edirdi. Bu isə Rusiya dövlətinin həmin əsrin əvvəllərindən başladığı siyasəti həyata keçirməyə əlverişli şərait yaradırdı. Aparılan tədqiqatlardan belə aydın olur ki, Rusiyanın Cənubi Qafqaz siyasətini həyata keçirməsində burada yaşayan xristian əhalinin böyük rolu olmuşdur.

## ƏDƏBİYYAT


1. Azərbaycan tarixi (Ən qədim zamanlardan XX əsrədək): Ali məktəblər üçün dərslik / Z.M. Bünyadov və Y.B.Yusifovun redaktəsilə. Bakı: Azərnəşr, 1994, 680 s.
2. Azərbaycan tarixi: 7 cilddə, III c., Bakı: Elm, 2007, 592 s.
3. Əliyev F., Əliyev M. Naxçıvan xanlığı. Bakı: Şərq-Qərb, 2007, 120 s.
4. Quliyev M.R. Naxçıvan xanlığının Qafqazda hərbi-siyasi mövqeyi və əlaqələri. Naxçıvan: Əcəmi, 2013, 184 s.
5. Mustafazadə T.T. XVIII yüzillik – XIX yüzilliyin əvvəllərində Osmanlı-Azərbaycan münasibətləri. Bakı: Elm, 2002¸ 372 s.
6. Nəcəfli G.C. XVIII əsrdə Azərbaycan ərazisində erməni dövləti yaradılması cəhdləri. Bakı: Nur-lan, 2007, 284 s.
7. Nəcəfli G.C. Ermənilərin Azərbaycanın Naxçıvan bölgəsini ələ keçirmək üçün tərtib etdiyi layihələr (XVIII əsr) / Naxçıvan bu gün: islahatlar, perspektivlər (5-6 oktyabr 2007-ci ildə keçirilmiş beynəlxalq simpoziumun materialları). Bakı: Nurlan, 2008, 105-112 s.
8. Sadıq İ. Ermənilərin Birinci Pyotrla görüşü. Bakı: Azərnəşr, 1993, 32 s.
9. Uras E. Tarihde ermeniler ve ermeni meselesi. İstambul: Belge Yayınları, 1987, 798 s.
10. Абдурахманов А. Азербайджан во взаимоотношениях России, Турции и Ирана в первой половине XVIII в. Баку: Нагыл Еви, 2011, 136 с.
11. Бутков П.Г. Материалы для новой истории Кавказа с 1722 по 1803 годь. Санкт-Петербургь: 1968, 587 с.
12. Мамедов С.А. Исторические связи Азербайджанского и Армянского народов во второй половине XVII – первой трети XVIII в. Баку: Элм, 1977, 263 с.
13. Памятники дипломатических и торговых сношений Московской Руси с Персией (состави-тель Н.И.Веселовски). Т. I, Санкт-Петербургъ: 1890, 553 с.
14. Петрушевский И.П. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI- начале XIX вв. Ленинград: Изд-во ЛГУ, 1949, 384 с.
15. Эзов Г.А. Сношения Петра Великого с армянским народом. Санкт-Петербург: Типография императорской АН, 1898, 512 с.

**ABSTRACT**

**Ilhami Aliyev**

**THE PLACE OF NAKHCHIVAN AT THE SOUTH CAUCASUS POLICY OF RUSSIA IN THE 18$^{TH}$ CENTURY**

The pape deals with the aggression policy of Russia in the South Caucasus in the 18$^{th}$ century and the influence of this policy on the Azerbaijani regions, especially Nakhchivan. It was noted that if at the beginning of 18$^{th}$ century Russia wanted to get the Caspian region, in the end of this century at this plan it was already intended to occupy all the South Caucasus, including Azerbaijani lands. Since the middle of the 18$^{th}$ century, being divided into khanates of Azerbaijan created favorable conditions for Russia to pursue this policy. Not only the conflicts between the separate Azerbaijani khanates, but also happened confrontation the inside of the khanates, made it easier for the becoming true of this occupation. In the last quarter of the 18$^{th}$ century, such confrontations opened up opportunities for Russia to implement its occupation policy in Nakhchivan as in the other Azerbaijani khanates. After the signing of the treaties of Georgiyevski in 1783, Russia's desire became stronger to occupy Azerbaijani lands. He had already taken Kartli-Caketia as a foothold for himself. The intervention of the Ottomans and the Gacars, the internal conflicts inveigled the Nakhchivan khanate to approach Russia. This created favorable conditions for the implementation of the Russian state policy, that had begun in the beginning of the century. It is clear from the conducted researches that the Christian population living here had played an important role in the realization of the South Caucasus policy of Russia. However, at the end of 18$^{th}$ century Aga Mohammed Shah Gajar's capture of the Nakhchivan khanate was postponed this desire of Russia for some time.



**РЕЗЮМЕ**

**Ильхами Алиев**

**МЕСТО НАХЧЫВАНА В ПОЛИТИКЕ ЮЖНОГО КАВКАЗА РОССИИ В XVIII ВЕКЕ**

В статье рассматривается политика агрессии России на Южном Кавказе в XVIII веке и влияние этой политики на регионы Азербайджана, особенно Нахчыван. Было отмечено, что если в начале XVIII века Россия хотела получить Каспийский район, то в конце этого столетия предполагалось, что весь Южный Кавказ, в том числе и Азербайджан. С середины XVIII века разделение Азербайджана на ханства создало благоприятные условия для реализации Россией этой политики. Конфликты между отдельными азербайджанскими ханствами, а также столкновения в ханствах облегчили оккупацию. В последней четверти XVIII века такие столкновения открыли для России возможности для осуществления своей оккупационной в Нахчыван, а также в других азербайджанских ханствах. После подписание Георгиевского договора в 1783 году желание России оккупировать азербайджанские земли усилилось. Он уже взял промежность Картли-Кахетии в качестве базы для себя. Вмешательство Османской империи и Гаджаров внутренние конфликты побудили Нахчыванского хана приблизиться к России. Эта была хорошая возможность для реализации политики российского государства, начавшейся в начале века. Из исследований видно, что живущее здесь христианского население сыграло важную роль в реализации политики Южного Кавказа России. Однако захват Ага Мухаммедом Шах Гаджаром Нахчыванского ханства в течение некоторого времени был отложен Россией в конце XVIII века.



NDU-nun Elmi Şurasının 19 oktyabr 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 02).

Məqaləni çapa təqdim etdi: AMEA-nın müxbir üzvü Z.Şahverdiyev

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2017, № 6 (87)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2017, № 6 (87)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2017, № 6 (87)**

**AYTƏN MEHDİYEVA**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*ayten-69@mail.ru*

**UOT:94**

# AZƏRBAYCAN VƏ ANADOLUNU BİRLƏŞDİRƏN QALALAR (EVLİYA ÇƏLƏBİNİN MƏLUMATLARI ƏSASINDA)

**Açar sözlər:** *Evliya Çələbi, Azərbaycan, Anadolu, Naxçıvan, qalalar, yollar*
**Keywords:** *Evliya Chalabi, Azerbaijan, Anatolia, Nakhchivan, towers, ways*
**Ключевые слова**: *Евлия Чалаби, Азербайджан, Анатолия, Нахчыван, замки, дороги*

Səyahətnamə janrının ilkin nümunəsinin yaranması uzun illər ərzində Homer yaradıcılığı ilə bağlanmışdır. Bu fikir alternativsiz qəbul olunmuş və Homerin “Odisseya” əsərinin səyahətnamələrin ən qədim nümunəsi olduğu göstərilmişdir [12, 304]. Əslində bu fikir nisbi xarakter daşıyır. Belə ki, altı min il bundan əvvəl şumerlərin yaratdığı “Bilqamış” dastanı birinci olmağa daha çox layiqdir [4, 20]. Sonrakı dövrlərdə müxtəlif xalqların tarixində bu ideyalar yenidən gündəmə gəlmiş və səyahətləri əks etdirən əsərlər və kitablar yazılmışdır.

XVII əsr məşhur türk səyyahı Evliya Çələbinin on cildlik “Səyahətnamə”si artıq XIX əsrdən mütəxəssislərin böyük marağına səbəb olmuşdur. Yusif paşa ilə Hanya səfərinə qatılan səyyahdaha sonra Dəftərdarzadə Mehmed paşanın müəzzin və müsahibi kimi Ərzuruma getmişdir. O, vəzifəsini yerinə yetirdiyi dövrdə Anadolunun böyük bir hissəsini gəzmiş, Azərbaycan və Gürcüstanda olmuşdur. Anadoludakı paşalarla bağlaşmalara çalışan Dəftərdarzadə Mehmed paşa Evliya Çələbiyə məktubların ünvana çatdırılması işini də həvalə etmişdir. Məlik Əhməd paşa sədrəzəm vəzifəsini tutduqdan sonra o, daha çox səyahət etmək imkanı qazanmışdır. Çələbi Azərbaycana Osmanlı sultanının tapşırığı ilə də gəlmiş, Van yolu ilə hərəkət edərək Təbriz, Marağa, Qəzvin və s. şəhərlərdə olmuş, Qum-Kaşan-Rey yolu ilə Bağdad və oradan Anadoluya qayıtmışdır. Səyyah gəzdiyi yerlərdə rast gəldiyi qalalar haqqında ətraflı məlumat vermişdir.

Evliya Çələbinin yaradıcılığı ilə məşğul olan müxtəlif tədqiqatçılar onun müasirlərinin verdikləri məlumatlara əsaslanaraq, məşhur səyyahın hökmdar və yüksək vəzifəli dövlət məmurları ilə bilavasitə çalışdığı və yaxşı münasibətlər qurduğunu bildirmişlər. Evliya Çələbi müxtəlif insanlarla düzgün rəftar etmək bacarığı, mülayim təbiəti, iti zəkası, hazırcavablığı və əxlaqı ilə hər yerdə tanınmışdır. Onun səmimiliyi ilə yanaşı, səyyahın hadisələrə obyektiv baxımdan yanaşması və əsərinin hər cəhətdən bitkin olmasına çalışması da diqqətə çarpır.Səyyahın geniş dünyagörüşü, humanizmi və öz millətinə böyük hörmətlə yanaşması, onun Osmanlı imperiyası sərhədlərində yaranmış ixtilaf və ziddiyyətlərin danışıqlar vasitəsilə həll edilməsinə üstünlük verməsi məsələsində də öz əksini tapmışdır.Evliya Çələbi “Səyahətnamə”sinin eyni janrda yazılan əsərlərdən əsas fərqi müəllifin Azərbaycan-türk mədəniyyətinə dərindən bələd olması və verilən məlumatların regionu yaxından tanıyan sivil insana məxsus olması ilə izah etmək olar.

Evliya Çələbi müxtəlif sərhəd məntəqələrindən keçməklə və hər dəfə fərqli bölgələrdə olmaqla dörd dəfə Azərbaycana səyahət etmişdir. İlk və son səfərində Qara dəniz və Şimali Qafqaz ölkələrindən keçməklə (1646-1648; 1665) Bakıya şimal tərəfdən daxil olsa da, sonrakı səfərləri zamanı (1648-1650; 1654-1656) onun səyahət marşrutu cənub-qərb tərəfdən başlanmışdır [7, 8 ].

Evliya Çələbinin Azərbaycana birinci səyahəti (1646-1647) Dəftərdarzadə Mehmed paşanın Ərzurum bəylərbəyi təyin edilməsi, Çələbinin müəzzin və müsahib kimi onunla Ərzuruma gəlməsi, Osmanlı imperiyasının təbəəsi Mustafa bəyin sərhədi pozaraq Səfəvi torpaqlarını talan etməsi nəticəsində Rəvan hakiminin şikayəti, buna cavab olaraq yetmiş altı minlik bir qoşunun Şoşik qalasına göndərilməsi və Mustafa bəyin Maku qalasında gizlənməsinə baxmayaraq, Mehmed paşaya təslim edilməsi ilə əlamətdardır. Bu hadisələri ətraflı təsvir edən E.Çələbi rast gəldiyi qalalar

və onları birləşdirən yollar üzərində yerləşən qəsəbə, kənd, şəhər, mənzil, qərya, körpü və s. barədə məlumat vermişdir. Birinci səyahət zamanı diqqəti cəlb edən hadisələrdən biri də səyyahın Təbriz xanı Kəlbalı və digər xanlara karvanların yenidən Ərzuruma gəlməsi ilə bağlı namə aparması olmuşdur. Müxtəlif qalalar barədə ətraflı məlumat verən E.Çələbi Azərbaycana ilk səyahəti zamanı Həsənqala, Xınıs, Ziyaəddin, Şoşik, Maku, Qarabağlar, Naxçıvan, Mərənd, Təbriz, Marağa, Ərdəbil, Xoy, Rəvan, Gəncə, Şəki, Niyazabad, Şamaxı, Bakı, Şaburan, Dəmirqapı xətti üzrə hərəkət etmiş[7, 20-21], sonra Gürcüstandan Rəvana, oradan isə Ərzuruma qayıtmışdır.

1646-cı ilin əvvəllərində Dəftərdarzadə Mehmed paşa Ərzurum bəylərbəyi təyin edildikdən sonra Evliya Çələbi də müəzzin və müsahib kimi onun məiyyəti arasında Ərzuruma gəlmiş və oradan Səfəvi valilərinin yanına elçi göndərilmişdir. Bu səfərin səbəbi sərhəddə baş verən hadisələrlə bağlı olmuşdur. Səfəvi-Osmanlı arasında uzun illər davam edən hərbi əməliyyatlardan sonra 3 gün davam edən danışıqlar nəticəsində Qəsri-Şirində sülh sazişi (1639) imzalanmış və Osmanlı-Səfəvi müharibəsinə son qoyulmuşdur. Bu iki dövlət arasında sərhəd ərazilərini müəyyən edən müqaviləyə əsasən, Səfəvilər Van və Qars qalaları, Axalsıka hücum etməyəcəklərinə dair təminat versələr də, Azərbaycanın qərbindəki Maku, Qotur və Mağazburd qalalarının dağıdılması nəzərdə tutulurdu [ 1, 263]. Lakinbununla yanaşı,müqavilə şərtlərinin pozulması halları baş vermiş və bu vəziyyət sərhəd valiləri tərəfindən nizamlanmışdır. Evliya Çələbinin elçi təyin edilməsi də belə bir hadisə ilə bağlı olmuşdur. Belə ki, Ərzurum bəylərbəyliyi daxilində olub sərhəd məntəqəsində yerləşən Şoşik (Bəyazid) qalasının hakimi, Osmanlı təbəəsi Mustafa sərhədi pozaraq Rəvan ərazisində qəsəbə və kəndləri talan etmişdir. Bu səbəbdən Araz çayının qarşısında, dağlar arasında yerləşən Şoşik qalası bəyinin üsyan qaldırması və Rəvan qalası nahiyəsində bəzi yerləri talaması nəticəsində Rəvan xanı Əli xanın oğlu Gəncəli xan tərəfindən namə və elçilər göndərilərək divanda Şoşik bəyindən şikayət ərizələri oxunmuş, divan əhli müşavirə etmiş və səfərə qərar verilmişdir. Bütün Ərzurum sancaqlarında olan mirlivaları, zəamət və timar sahibləri və hər qalanın əsgərlərinin yarısı əmrlə səfərə dəvət olunmuşdur.Yaranmış gərginliyin aradan qaldırılması məqsədi ilə Ərzurum bəylərbəyi Dəftərdarzadə Mehmed paşa Şoşik hakiminin cəzalandırılması üçün yetmiş altı minlik əsgər toplamış və Tortum paşası Seydi Əhməd paşanın başçılığı altında Şoşik qalasına göndərmişdir.Bu qərar Mustafanın Maku qalasında gizlənməsinə səbəb olmuşdur. E.Çələbi bildirirdi ki, "Əcəm elçiləri bu dərya misalı əsgəri görüb Şoşik bəyindən şikayət etdiklərinə peşman oldular və ... qorxuya düşdülər" [7, 32].

Rumun qəhqəhəsi – Həsənabad qalasını vəsf edən E.Çələbi bu qalanı "... tarixində Azərbaycan hakimi (Ağqoyunlu hökmdarı) Uzun Həsən Əbülfəthin (Osmanlı sultanı Fateh Sultan Mehmed) xofundan yenidən bina etmişdir"və"Ərzurum əyalətində Pasin sancağı bəyinin taxtıdır" [7, 32, 33]kimi xarakterizə etmişdir. Altı zəamət, 325 timar sahibi, alaybəyi, çəribaşı və yüzbaşısı vardır. Pasin çölünün şimal hissəsində yerləşən bu qalada düzdar, imam və müəzzindən başqa kimsə olmamışdır. Qalanın ətraf çevrəsinin uzunluğunun 6 min addım olduğunu bildirən E.Çələbi onu bəyaz ququ quşuna bənzətmişdir. Onun Ərzurum qapısı qərb, şərq qapısı isə Qars yoluna açılmış, İlıca qapısı, Uğrun qapısı bağlanmışdır. Qala doqquz məhəllə və doqquz mehrabdan ibarətdir. Yığcam bazarları, altı məktəbi, çox şücaətli və adlı-sanlı xalqı vardır. Qışı şiddətli soyuq keçsə də, taxıl məhsulları bol və bərəkətlidir [7, 33, 34].Qaladan təxminən altı saatlıq məsafədə "Əzəmətli Çoban körpüsü" yerləşmişdir.

Buradan təxminən bir günlük məsafədə yerləşən Xınıs qalası "... Azərbaycan hökmdarlarından Uzun Həsənin əmisi Şah Şahpurun binasıdır", yüksək təpə üzərində yalçın qayada dördgüşəli, mətin bir Şəddadi qalasıdır [7, 35]. Xınıs qalasından təxminən yarım günlük məsafədəZiyaəddin qalası yerləşmişdir. Ağqoyunlu hökmdarı Uzun Həsənin oğlu Ziyaəddin tərəfindən inşa edildiyi güman edilən bu qalanın adı dəyişikliyə məruz qalaraq, Diyadin qalası kimi də adlandırılmışdır. Müasir dövrdə Türkiyədə Ağrı vilayətinə bağlı bir rayondur [7, 133].O, Azərbaycan torpağında yalçın qaya üzərində uzunsov, dördguşəli möhkəm qala və səddir [7, 36].Qala 1534-cü ildə Sultan Qanuni Süleymanın Vanı fəthi zamanı tutulsa da, sonradan Səfəvilər onu qaytarmışlar. 1548-ci ildə isə o, yenidən Osmanlı idarəçiliyinə keçmişdir [7, 133]. Ərzurum torpağında ... sancağının hüdudunda yerləşmişdir. Daşlıq yer olduğundan Evliya Çələbi qalanın çox da abad yer olmadığını bildirmişdir.

Evliya Çələbi üç qala – Ziyaəddin, Avnik və Şoşik qalalarının inşasının Ağqoyunlu hökmdarı Uzun Həsənin oğlu Ziyaəddinin adı ilə bağlı olduğunu bildirmişdir. Hər üç qala öz möhtəşəmliyi ilə fərqlənmişdir. Müəllif qalaların abad olmaması barədə məlumat vermişdir. E.Çələbi Araz çayı ilə Van dəryasının kənarı və Ziyaəddin qalasının yaxınlığında yerləşən Ərciş qalası və bu qaladan təxminən 9 saatlıq məsafədə Ziyaəddin tərəfindən inşa olunmuş, lakin sonradan Sultan Süleymanın hakimiyyətini tanımış yüksək qaya üzərində ucalan dördguşəli Avnik qalasını vəsf etmişdir [7, 36]. O, Ərcişin daşlıq bir yer və o qədər də abad olmadığını qeyd edərək, buradan 9 saatlıq məsafədə yerləşdiyini Avnik qalasına çatmağın mümkün olduğunu göstərmişdir.

Başı göylərə yüksələn yalçın qayanın zirvəsində yerləşən dördguşəli Şoşik (Bəyazid) qalasını E.Çələbi "yaramaz" qala adlandırmışdır. Osmanlı ordusu Şoşik qalasına yaxınlaşaraq onu mühasirəyə almış, lakin qaladan açılan top atəşi nəticəsində yetmiş insanın həlak olduğu, nəticədə Seydi Əhməd paşanın şəxsən ordunu səfərbərliyə alması və şahi toplardan qalanın atəşə tutulması, bir günlük döyüşdən sonra qala əhalisinin bayraqları qaldırması döyüşün gedişini həll etmiş oldu. Qaladan çıxan yeddi kürd bəyinin verdiyi məlumata əsasən, hadisələrin bu səviyyəyə çatmasına səbəb olan "Mustafa bəy qaladan hiylə kəməndi ilə enərək Əcəmə fərar etmişdir". Sərdar Əhməd paşa bu məlumata inanmamış, Şoşik bəyinin ələ keçirilməsi məqsədilə adamlar göndərmiş və bir göydolaq tülüngü casus tapılmış və o "Şoşik bəyi ... Maku qalasına gəlib Əcəm xanına qonşu düşmüş, həmin qalada məhbusdur" demişdir. Baqi paşa, Kətağaç paşa, Dəli-Dilavər paşa Malazgird bəyi Məhəmməd bəy və üç min əsgərlə birlikdə Maku qalasında Şoşik bəyi axtarmaq məqsədilə 8 saat dağ-daşı aşaraq Təhmuraz günbəzi adlanan ərazi, oradan 7 saatlıq bir məsafədə Şah gədiyi, buradan isə 2 saatlıq məsafədə Maku qalasına çatmışlar [7, 36, 37].

Evliya Çələbi Makunun Ənuşiravan binası kimi tanındığını göstərmişdir. 1534-cü ildə qalanın Mahmudi bəyinə hədiyyə olunması, Qızılbaşların buranı hiylə ilə ələ keçirməsi və 1639-cu ildə Bağdadın fatehi Murad xanın baş vəziri-əzəmi Kamankeş Qara Mustafa paşa tərəfindən fəth olunması haqqında məlumat verən E.Çələbi baş vəziri-əzəmi hələ Diyarbəkir valisi olan Mələk Əhməd paşa ilə Dərn və Dərtənkə getmələri, Ali-Osman vilayətlərinin hüdudlarının müəyyən edilməsi məqsədi ilə sülh bağlanması, sülhün şərtlərindən biri kimi Zalım Əhməd qalasının dağıdılması, Van sərhəddində yerləşən Qotur qalasının xaraba qoyulması, Rəvan yaxınlığındakı Maku qalasının da Osmanlı tərəfindən dağıdılması və əhalisinin Malazgirddə yerləşdirilməsini bildirmişdir [7, 38]. Maku qalasını xarakterizə edən Çələbi onu "qüdrətli əl ilə inşa olunmuş bir Qəhqəhə qalası" kimi dəyərləndirmiş, Ali-Osmandakı Van, Mardin, Şəbin Qarahisar, Afyon Qarahisar, Adilcəvaz, Tokat və Amasiya qalaları ilə müqayisə etmişdir.

E.Çələbi Makunu "zəncəf ütüsünün mərməri" kimi incə belli, başı asimana dayanan, çay kənarında yerləşən alınmaz bir qala kimi təsvir etmişdir. Tikildikdən sonra Qəhqəhə qalası kimi möhtəşəm bir qala olacağı güman edilən Maku qalası Rəvan xanlığının hökmü altında olmuşdur. Buradan Mustafa bəyi Seydi Əhməd paşaya, o isə bəyi 7 gündən sonra Xınıslı qalasında Ərzurum vəziri Məhəmməd paşaya təslim etmişdir. Bəy qətlə yetirilməsə də, əmlakı əlindən alınmış, qalası isə Malazgird bəyi Məhəmməd bəyə verilmişdir. Bu zaman Evliya Çələbi Təbriz xanı Kəlbalı xan və daha bir neçə xana çatdırılacaq namələr alması və Səfəvi elçisi ilə birlikdə Təbrizə yola düşməsini bildirmişdir. Məktubda Məhəmməd paşa Kəlbalı xandan karvanların Ərzuruma təkrar dönməsini xahiş etmişdir. Bu, sərhədboyu ərazilərdə yaranan gərginliyin karvanların fəaliyyətinə mane olması və ticarətə əngəl yaratması ilə əlaqədar idi. Çələbinin apardığı məktub əslində, qarşı tərəfə Osmanlının sülhə riayət etməsi ilə yanaşı, onun xoş məramla gəlməsi, sülhü pozaçaq hərəkətlərə yol verilməyəcəyi ilə bərabər, Səfəvi sərhəd valilərinə də bir xəbərdarlıq xarakteri daşımışdır.

Təbriz xanının elçisi Seyf Əli xana tapşırılan E.Çələbi buradan Naxçıvan və Rəvan tərəfə rəvan olmuşdur. Avnik və Şoşik qalalarının tabeliyində olan Yaylaçıq qəryəsi, Barutxana mənzili, Düşqaya qəsəbəsi və Çağla Qurna mənzilini keçən Çələbi Şahrux ibn Timur xanın bina etdiyi və Azərbaycan hökmdarı Uzun Həsənin hökmü altına keçən Qarış (Qərşi) qalasına çatmışdır. Dördkünc şəklində daş özül üzərində inşa olunan və Fərahabad qalasına bənzəyən Qarış (Qərşi) qalasını müəllif şahin və çalağan yuvasına oxşar bir can Azərbaycan qalası adlandırmışdır [7, 39]. Əvvəllər qədim şəhər və qalanın yerləşdiyi bu ərazinin indi bir o qədər də abad olmaması diqqətə

çatdırılmışdır. Bunun səbəbi isə 1635-ci ildə Sultan IV Muradın Rəvan səfəri zamanı Ərzurum, Ahısqa, Qars və Van ordularını bir araya gətirərək, Qarış şəhərini dağıtması ilə əlaqələndirilmişdir[7, 7]. Buna baxmayaraq, Evliya Çələbi Qarışda xoş qarşılandığı, qonaqpərvərlik göstərildiyi, 11 cürə plov yeyib can söhbətləri etdiyi, Gülüstani-İrəm bağına bənzəyən Kələntər bağına vardıqları və s. haqqında məlumat vermişdir [7, 40].Buradan 12 saatlıq məsafədə Rəvan torpağında Masır qəsəbəsi (kəndi) və 14 saatlıq məsafədə Naxçıvan xanına məxsus xass torpağında rast gəlinən Zucxan qəsəbəsinin olduqca abad və çiçəkləndiyi, 7 saat ibrətnüma [ibrətlik] ağacları seyrü-tamaşa edərək, Üçkilsəyə çatmağın mümkünlüyü vəburada qeyri-adi kimi təqdim olunan hadisələrin təbii izahının mövcudluğunu diqqətə çatdırmışdır.

Buradan Sükun qəsəbəsi, Məhəmməd Şami-Qazan ziyarətgahı, Sidirgi (Sədərək) qəsəbəsi, Əhməd bəy zaviyəsi və Böyük Qarabağlar şəhərini (indi kənddir) keçən E.Çələbi "cahanın nəqşi olan rəngarəng .. naxışlı bir şəhər" Naxçıvana çatmış və şəhərdə gördüklərini ətraflı təsvir etmişdir. O, Naxçıvanın çölü və ətrafında mətin və möhkəm qalaların olduğu və onların bir neçəsini gördüyü, lakin ov zamanının yetişməsi ilə bağlı olaraq, bu qalalara tamaşa edə bilmədiklərini yazmışdır. Müəllif həmin qalalar arasında Alıncaqvan (Əlincə), Səran, Sus Mərvan və b.-nınn adlarını çəkmiş, onları Əcəm diyarı, Tataristan, Leh (Polşa), Almaniya və b. qalalar ilə müqayisə etmiş, Kafiristan qalalarının təmtəraqlı ad daşımadığını bildirmişdir [7, 47,48]. Bunun əksinə olaraq, Ali-Osman ilə Əcəm diyarının şəhər və qala adlarının lətif olması müəllifin diqqətindən də qaçmamışdır.

Azərbaycan xalqının uzun illər ərzində apardığı mübarizə onun maddi-mədəniyyət abidələri, yazılı mənbələr və möhtəşəm qalalarında öz təsdiqini tapmışdır. Əlverişli coğrafi şəraitdə yerləşməsi, bərəkətli torpaqları, Qərblə-Şərq arasında ticarət yollarının Naxçıvandan keçməsi bu torpaqların müdafiəsini mühüm bir tələbata çevirmişdir. Yerli əhalinin özünü müdafiə etmək zərurəti çoxsaylı qalaların inşasına səbəb olmuşdur. Naxçıvanda belə qalalar çoxdur və onlardan biri də Evliya Çələbinin qeyd etdiyi Əlincə qalasıdır. Türk səyyahı həmin qaladan bəhs edərkən onun Qütbəddin tərəfindən tikildini göstərmişdir. Güman ki, müəllif burada səlcuq hökmdarlarından olan Qütbəddin II Məlikşahı (1188-1192) nəzərdə tutmuşdur. Qalanın inşası VII əsrdən əvvələ aid edilir[8, 13,14]. Qalada 600 döyüşçünün sığınması üçün şərait olmuşdur. Eyni zamanda qala divarları və yaşayış binaları birbaşa qayanın üzərində inşa olunduğundan olduqca davamlı və təhlükəsizdir [3, 9]

Valayan dağı və burada salınmış eyniadlı ərazidən təxminən beş saatlıq bir məsafəni qət edən E.Çələbi Qumla (Kamle) adlı bir qalanın yerləşdiyi məkana çatmışdır. Bu qalanı 998 (1590)-ci ildə Sultan III Muradın böyük sərdarı Qoca Fərhad paşa tikdirmişdir [6, 37 ]. Valayan dağının ətəklərində yerləşən qala dördbucaqlı forma, yeddi qüllə, şərq və qərbə açılan iki darvazaya malik olmuşdur. Şərq tərəfə açılan darvaza Təbriz darvazası adlanmışdır. Xadım Cəfər paşanın Təbrizdə hərbi komandanlığı zamanı o, Əcəm əsgərlərindən qaçaraq, bu qalada möhkəmlənmişdir. O, Təbriz tərəfdən divarı yıxaraq onu mühasirəyə almış qoşunun bir hissəsini məhv etmiş, qalanlarını isə Təbrizə qədər qovmuşdur. Təbriz qalasına doğru qaçan əsgərlər kəndxuda Cəfər paşanın bu qalada gizləndiyi və onları balyeməz toplarla qıracağını görmüş və bu iki düşmən arasında tələf olmuşlar. Müstəqil sərdara çevrildikdən sonra Xadım Cəfər paşa Qumla qalasının divarının dağıdıldığı yerdə güclü qala darvazaları tikdirmiş və onu Təbriz ( Gedik) qapısı adlandırmışdır [13, 138]. Xarabalıqları qalmış və ya dağıdılmış qalalar da müəllifin diqqətindən kənarda qalmamışdır. Belə ki, səyyah Saravrud çayı sahili ilə irəliləyərkən, əlverişli mövqeyə malik olan və inkişaf edən Duşt kəndi, Səfi şahının həyat yoldaşına məxsus xass(Lakderx) haqqında məlumat verməklə yanaşı, Saravrud dağının zirvəsində dağıdılmış vəziyyətdə olan qalanın olmasını bildirmişdir [ 13, 138-139].

Diqqəti cəlb edən qalalardan biri də Azərbaycanın Kəhrəvan qalasıdır. Bu qala Şah Təhmasibin hakimiyyəti dövründə Afşar xanlarından Seyfiqulu xan tərəfindən Süleyman xana qarşı inşa edilmiş, Osmanlı və Əcəmi hökmdarlarına tabe olmamışdır. 1586-cı ildə Qoca Fərhad paşa Təbrizdən Bağdada gedərkən, Kəhrəvan sultanı Meyməndi xan Afşar onun ordusunu talamış, paşa onun bu hərəkətlərinə göz yummuşdur. Geri qayıdarkən on yeddi gün qalanı mühasirəyə almış, lakin uğur əldə edə bilməmişdir. Cəzasız qalmış Meyməndi xan Təbrizdən Bağdada və əksinə hərəkət edən tacir və səyyahları daha amansızla qarət etməyə başlamışdır. Bununla

kifayətlənməyərək, hətta 40-50 minlik qoşunla Təbrizin dörd bir tərəfini qarət etmiş, buna cavab olaraq Cəfər paşa on iki minlik qüvvə ilə Təbrizdən çıxaraq yezidi kürdlər və türkmənləri məğlub etmiş, Meyməndi xan isə qaçaraq Kəhrəvan qalasında gizlənmiş, sonradan tutulmuş, sərt cəzalandırılmış, əmlakı alınmış və öldürülmüşdür [ 13, 141]. Qala on bir il Ali-Osmanın əlində olmuşdur[7, 77]. Bağdad yolunda bir təpə üzərində yerləşən bu qalanın ətraf çevrəsi altı min addımdan ibarətdir. Şimal tərəfə açılan qapısı Təbriz, cənuba açılan qapısı isə Ərdəbil qapısı adlanır. E.Çələbinin burada olduğu dövrdə min əsgərə malik sultanlıq olmuşdur [ 13, 142].

Evliya Çələbinin "Səyahətnamə"sində diqqəti cəlb edən məqamlardan biri də Azərbaycan şəhərlərinin qala kimi təqdim olunması ilə bağlıdır. Azərbaycana birinci səyahəti zamanı müəllif Naxçıvan torpağında əsası Mənuçöhr tərəfindən qoyulan Böyük Qarabağları şəhər kimi təqdim etsə də, Nəqşi-cahan artıq qaladır və bu qalanın çölü və ətrafı da möhkəm qalalarla qorunur [7, 43-47]. Azərbaycan şəhərlərindən olan, banisinin kimliyi göstərilməsə də, 1583-1586-cı illərdə Əgrənin fatehi Sultan Məhəmmədin vəzirlərindən biri olan sərdar Qoca Fərhad paşa, daha sonra IV Muradın uçurduğu Kiçik Qarabağ şəhərinin tikintisi Evliya Çələbinin dövründə hələ də davam etmişdir. Təbriz hüdudunda ayrıca bir sultanlıq kimi qiymətləndirilir, min əsgər, kələntər, daruğa, münşi,minbaşıvə dizçökən ağası olduğu bildirilmişdir [7, 49], lakin qala kimi dəyərləndirilməmişdir. Təsuy şəhərinin təsviri verilərkən onun Təbriz torpağında Mərənd sultanlığı ilə sərhəddə, Araz çayının kənarında, damı torpaqla örtülü 3 min evli, 7 cameli, 6 xanlı və müxtəsər bazarlı qəsəbə olduğu bildirilmişdir. Şəhərin hakimi isə sultan adlandırılmışdır. Bu şəhərin Murad xan tərəfindən xarabalığa çevrildiyi, indi isə bərpa olunduğu göstərilmişdir. Təbriz isə qədim qala, Təbrizi-Dilaviz qalası kimi xarakterizə olunmuş, Təbriz nahiyələrinin qəsəbə, qala və ziyarətgahları bəyan edilmişdir [7, 50, 65].

810-cu ildə Timuri-binur xanın sövdəgərlərindən biri Xoca Cani-Lahicani adlı bir ənqa bəzirgan tərəfindən əsası qəsəbə kimi qoyulan Rəvan Azərbaycanın Rəvan qalası və ya Xoca can şəhəri şəklində təqdim edilmiş (s.86) və Zəngi çayı sahilində hündür daş divarlı bir qala olduğu bildirilmişdir. Gəncə "Gəncineyi-Raz qalası və əzəmətli dilnüvaz şəhər", Şəki, Şamaxı, Bakı (Can Bakı)"qala", Dərbənd (Babül-Əbvab) İsgəndər Zülqərneynin səddi və Dəmirqapı qalası adlandırılmışdır [7, 92, 94, 100-111].

Səyyah müharibələr zamanı Azərbaycanın bir çox şəhərinə dəyən zərərin miqdarını olduğu kimi yazmışdır. Belə ki, onun verdiyi məlumata görə, Sultan IV Murad Rəvanı fəth edib qayıdarkən Azərbaycanın kiçik şəhəri olan Qarabağı yenidən dağıtmışdır. Bütün bunlara baxmayaraq, Çələbinin burada olduğu dövrdə şəhər yenidən abadlaşdırılmışdır [ 13, 117]. "Səyahətnamə" əsərində Naxçıvan şəhəri haqqında eyni xarakterli məlumata rast gəlmək mümkündür. E.Çələbinin məlumatına görə, IV Murad xandan sonra Naxçıvan şəhəri yenidən abadlaşdırılmışdır [ 13, 236]. Qeyd olunan dövrdə XVII əsrin 30-40-cı illərində dağıntılara məruz qalmış Azərbaycan şəhərlərinin bərpa və abadlaşdırılması məqsədi ilə dövlət tərəfindən müəyyən tədbirlər görülmüşdür. Bu şəhərlərin bərpa və abadlaşdırılması ilə yanaşı, həm də yerli əhalinin başqa yerlərə köçməsinin də qarşısı alınmışdır. Şəhərlərin abadlaşması sənətkarlığın da inkişafına səbəb olmuşdur. Bu dövrün tədqiqatçısı M.X.Heydərov XVII əsrdə Azərbaycanda 40-dan artıq sənətkarlıq sahəsinin fəaliyyət göstərdiyini bildirmişdir [11, 7 ].

Kəhrəvan qalası haqqında məlumat verən E.Çələbi qalada sənətkarlığın bütün növlərinin inkişaf etdiyini bildirmişdir. Bu karxanaların məhsullarından "qələmkarı, yorğanlıq çiti, çarşab bezləri" xüsusilə tərifə layiq idi [ 13, 142]."Səyahətnamə"nin Ərdəbil şəhəri ilə bağlı hissəsində isə müxtəlif xarakterli məlumatlar burada yer alsa da, şəhər sənətkarlığı ilə bağlı məlumat verilməmişdir. Bunun əksinə olaraq, E.Çələbi Təbriz şəhəri haqqında ətraflı məlumat vermişdir.

Azərbaycan ipəyi Türkiyədəki toxuculuq mərkəzlərinin xammalla təmin olunmasında mühüm və həlledici rol oynamışdır. Yalnız Təbrizdən Türkiyəyə iki mühüm karvan yolu gedirdi. Onlardan birincisi Təbriz-Diyarbəkir-Mardin-Qeysəriyyə-Ankara-Eskişəhir-Bursa, digəri Təbrizdən Ərzuruma və buradan Ərzincan-Toqqat-Amasya-Ankara-Bursa istiqamətində uzanmışdır [5, 128]. Şirvan, Gəncə, Naxçıvan, Rəvan və Gürcüstandan gedən karvanlar bu karvan yolu ilə birləşirdilər. XV əsrdən Türkiyə bazarlarında xam ipəyə tələbatın artması bir tərəfdən, Şimali İtaliya şəhərlərində kapitalist münasibətlərinin formalaşması, digər tərəfdən, Türkiyə şəhərlərində toxuculuğun sürətli

inkişafı və Osmanlı hökmdarlarının ölkədə toxuculuq sahəsinin genişləndirilməsinə xüsusi diqqət yetirməsi ilə bağlı olmuşdur. Sultan II Mehmed Türkiyənin Avropaya hazır məhsul ixrac edən ölkəyə çevrilməsi siyasətini yürütmüşdür [9, 58, 61].

Şoşik qalası ilə bağlı hadisələri təsvir edərkən, Evliya Çələbi Həsənqala haqqında məlumat vermişdir. Onun sözlərinə görə, bu qalanı Azərbaycan hökmdarı Uzun Həsən yenidən tikdirmişdir. Ona görə də o, Həsənabad (Həsənqala) adlanmışdır. Sonralar dəfələrlə mühasirə edilmiş və osmanlılar tərəfindən Qara Yusifin varislərindən alınmışdır [13, 100]. Səyyah tarixi - memarlıq abidələrindən danışarkən, Ağqoyunlu hökmdarlarından biri tərəfindən tikdirilən Ulu Came və onun minarələri, Anadolunun şərqində yerləşən Xınıs qalası, Bardız qalası, Bayburt şəhəri, Tortum qalası və b.-nın adını çəkmişdir [10, 172]. Bu qalalar haqqında danışarkən o, ağqoyunlular ilə bağlı müxtəlif faktlara toxunmuş, vaxtilə ağqoyunluların hakimiyyəti altında olan Ərzincanda Uzun Həsənin adından pul kəsildiyi və həmin zərbxananın Mövləvi karvansarası yaxınlığında yerləşdiyini göstərmişdir[13, 243].

Evliya Çələbinin vaxtilə keçdiyi yollar müasir dövrdə də öz aktuallığını itirməmişdir. Hal-hazırda bu yollar daha planlı şəkildə mənimsənilir və istifadə olunur. Azərbaycanı Anadolu ilə birləşdirən mühüm layihələrdən biri Bakı-Tbilisi-Qars (BTQ) planlaşdırılmış dəmiryolu layihəsidir. "Bakı-Tbilisi-Qars dəmir yolu bağlantısı" layihəsi barədə danışıqlara hələ 1993-cü ilin iyulunda Ankara şəhərində Türkiyə-Gürcüstan arasında Qarışıq Nəqliyyat Komissiyasının islasında başlanılmışdır. 2005-ci ilin mayında H.Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin Azərbaycan hissəsinin açılışında hər üç ölkənin prezidenti tərəfindən Bakı-Tbilisi-Qars birləşdirici dəmir yolu xətti layihəsi haqqında Bəyannamə imzalanmışdı [14].Dəmiryolu xəttinin 2017-ci ildə təhvil verilməsi nəzərdə tutulmuşdu. Dünyanın 100 möhtəşəm layihəsi siyahısına daxil edilmiş BTQ layihəsinin 2017-ci ildə başa çatdırılması nəzərdə tutulubdur. Bakı-Tbilisi-Qars dəmiryolu layihəsinin başa çatması ilə tarixi Böyük İpək yolu aktual olacaq.

Evliya Çələbinin əsərində eyni zamanda müasir dövrdə İran dövlətinin tərkibində olan Cənubi Azərbaycan şəhərləri haqqında da ətraflı məlumat verilmişdir. Səyyahın təsvir etdiyi şəhərlərin əksəriyyəti indi də öz tarixi rolunu qoruyub saxlamışdır. Buna görə də onların yenidən beynəlxalq layihələrə cəlb olunması böyük maraq doğurur. Bakı-Tbilisi-Qars dəmiryolu ilə Naxçıvan-Culfa-Təbriz dəmiryolu xəttinin birləşdirilməsi planlaşdırılır [15]. 2016-cı ilin martında Azərbaycan və İran dövlətləri nümayəndələri arasında aparılan danışıqlara əsasən, Naxçıvan-Təbriz-Tehran-Məşhəd beynəlxalq sərnişin qatarının fəaliyyətə başlaması üçün texniki məsələlərlə bağlı müzakirələr keçirilmişdir[16].

E.Çələbinin "Səyahətnamə"sində Azərbaycanın şəhər və qalaları, təsərrüfat həyatı, sənətkarlığı, ticarəti, əhalisinin adət-ənənəsi və s. barədə ətraflı məlumat toplanmışdır. Onun Azərbaycan haqqında qeydləri Petro della Valle (1617), F.A.Kotov (1623), Adam Oleari (1636-1638), diplomat E.F.Mışetcri (1640-1643), Jan Batist Tavernye (1631-1643), Rafael dyu Man (1660) və Jan Şardenin (1672) Azərbaycan haqqında verdikləri məlumatları tamamlamışdır [2, 8-9]. E.Çələbi bu əsərində Azərbaycan şəhərlərindən danışarkən, əvvəlki dövrün müxtəlif məsələlərinə də toxunduğuna görə, onun kitabı Həmdullah Qəzvini, İsgəndər Münşi və b. əsərlərində verilən məlumatların dəqiqləşdirilməsi üçün böyük əhəmiyyətə malikdir. Bu baxımdan göstərilən əsərin Azərbaycan tarixinin XVII əsr dövrünün öyrənilməsində rolu əvəzsizdir. Müəllif istər Azərbaycan, istərsə də digər regionlarda olduğu şəhər, qəsəbə, kənd, qala və s. tarixi keçmişi, burada məskunlaşan xalqlar, onların adət-ənənələri və etnik mənsubiyyəti, dini inamları, qədim dünyagörüşləri, hər bir regionun xarakterik xüsusiyyətləri və s. haqqında ətraflı məlumat vermişdir. Məhz buna görə "Səyahətnamə"nin tarixi əhəmiyyətinin yalnız Azərbaycan və ya Qafqazla məhdudlaşdırılması doğru olmazdı. E.Çələbi olduğu hər bir Asiya, Avropa və Afrika ölkəsinin tarixinə eyni maraqla yanaşmış və verdiyi material böyük bir regionun öyrənilməsində mühüm tarixi mənbə rolunu oynamışdır.

## ƏDƏBİYYAT

1. Azərbaycan tarixi. III cild (XIII-XVIII əsrlər). Bakı; Elm, 1999 – 584 s.
2. Baxşəliyev A. Azərbaycanın sosial-iqtisadi durumu və mədəni həyatı Evliya Çələbinin "Səyahətnamə"sində (XVII yüzilin 40-cı illəri). Bakı; ADPU, 2000. – 157 s.

3. Baxşəliyev V., Bağırov R. Əlincəqalada təmir-bərpa işləri // Əlincəqala. Naxçıvan: "Əcəmi" NPB, 2016, s.7 - 10
4. Cəfərov İ.Z. Azərbaycan ədəbiyyatında səyahətnamə. Bakı; Elm, 2001. – 180 s.
5. Dalsar Fahri. Turk sanayi ve ticaret tarihinde Bursa`da ipekçilik. – Istanbul; 1960
6. Evliya Çələbi. Səyahətnamə (Azərbaycan tarixinə dair seçmələr). Bakı; Azərbaycan Dövlət Nəşriyyatı, 1997, – 92 s.
7. Evliya Çələbi Səyahətnaməsində Azərbaycan.Bakı: Qafqaz Araşdırmalar İnstitutu Nəşri, 2012.– 296 s.
8. Hacıyev İ. Əlincəqala tarixi mənbələrdə // Əlincəqala. Naxçıvan; Əcəmi NPB, 2016, s.11 - 16
9. Mahmudov Y.M. Azərbaycan diplomatiyası. Ağqoyunlu və Səfəvi dövlətlərinin Avropa ölkələri ilə əlaqələri (XV-XVII yüzilliklər). Bakı; "Azərbaycan diplomatiyası" jurnalının nəşri, 1996, – 289 s.
10. Mahmudov Y.M. Səyyahlar, kəşflər, Azərbaycan. Bakı; Gənclik, 1985, – 188 s.
11. Гейдаров М.Х.Ремесленное производство в городах Азербайджана в XVII в.Баку: Изд.-во АН АзССР, 1967.– 200 с.
12. Тимофеев Л.И., Тураев С.В. Словарь литературоведческих терминов. Москва; Просвещение, 1974, – 509 с.
13. Эвлия Челеби. Книга путешествия (Извлечения из сочинения турецкого путешественника XVII века). Перевод и комментарии. Вып.3. Земли Закавказья и сопредельных областей Малой Азии и Ирана. Москва; Наука, 1983, – 376 с.
14. http: ady.az/read/index/1/43
15. http: metbuat.az/news/261200/baki-tbilisi-qars-demiryolu-naxcivan-culfa-tebriz... html
16. http: metbuat.az/news/392168/naxcivan-tebriz-tehran-meshed-sernisin-qatarinin....html

## ABSTRACT

**Ayten Mehdiyeva**

**TOWERS CONNECTİNG AZERBAİJAN AND ANATOLİA**
**( ON THE BASE OF İNFORMATİON OF EVLİYA CHALABİ)**

During the investigation of different periods of history the research of sources combined the valuable characteristic features is very important. From this point of view, the role of research of "Book of Travel" ("Seyahatname") of Evliya Chalabi who is the author of whole written information andobservations connecting with Azerbaijan and Ottoman histories of XVII$^{th}$century is especially valuable. Though the research known as "Seyahatname"had been written during the period of aggravation of Azerbaijan-Ottoman relations, it was choosed for correct reflection of historical events. The author had given the large information of indicated locations, it`s cultural situation, traditions, cities, architectural monuments and towers too.Evliya Chalabi who had spent approximately 50 years of his life in travels for about four times went through the territory of Azerbaijan.

The main difference and characteristic feature of Evliya Chalabi`s "Seyahatname" from the researchs of other authorsof his period are this investigation had been written from the author who closely knew and understood the language, traditions and culture of Azerbaijan. The traveller wasn`t content with giving information of his impressions and observations, at the same time gave his correct attention to important events of his period, from time to time contributed to the cause of correct decision of difficult problems. Therefore during the investigation of problems of the ways between Azerbaijan and Anatolia and the towers situated on indicated ways the choosing of the research of Evliya Chalabi`s "Seyahatname" isn`t considered as accidental one.

NDU-nun Elmi Şurasının 19 oktyabr 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 02).
Məqaləni çapa təqdim etdi: AMEA-nın müxbir üzvü Z.Şahverdiyev

**ERDAL SEZGİ**
*Naxçıvan Dövlət Universiteti*
*erdalsezgi76@gmail.com*

# RUS HAKİMİYYƏTİNƏ QƏDƏR İRƏVAN (1828)

**Açar sözlər:** *İrəvan, türklər, Azərbaycan, Səfəvi, osmanlı, rus istilası, Türkmənçay müqaviləsi, ermənilər*

**Key Words**: *Yerevan, Turks, Azerbaijan, Safavid, Ottoman, Russian Invasion, Turkmencay Treaty, Armenians*

**Ключевые слова:** *Ереван, Турки, Азербайджан, Сефевид, Османская империя, русское вторжение, Туркменский договор, армяне*

İrəvan-Rəvan Alagöz dağının cənub-şərqində dəniz səviyyəsindən 1000 m yüksəklikdə yerləşən bir yerdir. Araz çayından suyunu alan Zəngi çayı kənarında yerləşir. Anadolu, İran və Qafqaz arasında olması bu bölgəni həmişə əhəmiyyətli etmişdir (1,s. 26-27). XV əsrdə qala-şəhər kimi planlanıb yaradılan İrəvan hərbi və strateji baxımdan Anadolu, İran və Qafqaz üçünə əhəmiyyətli bir qapı rolunu oynayırdı. İrəvan bölgəsi əhəmiyyətli mövqeyə sahib olduğundan daim ələ keçirilmək istənilən və paylaşılamayan yer olmuşdur. (2,s.43) İrəvan şəhəri tarixən nə vaxt, kimlər tərəfindən yaradıldığı və İrəvan adının keçmişi ilə əlaqədar fikirlər müxtəlifdir .Erməni mənbələri qədimdən bəri Ruan və ya Rüya əyalətinin mərkəzi olduğunu, müsəlman ərəbləri bölgəni ələ keçirdikdən sonra buranın Ruan adını İrəvan olaraq dəyişdirdiklərini söyləyirlər (3,s.675). İrəvan Teymur dövründə ilk əvvəl bir kənd kimi yaradılmış, XVI əsrdə Şah İsmayıl zamanında bir şəhər dəyəri qazanaraq indiki adıyla tanınmağa başlanmıştır. İrəvan Şah İsmayılın həmişə əhəmiyyət verdiyi bir yer olmuşdur (4,s.2). 1647- ci ildə İrəvana gələn Övliya Çələbi bu bölgədən bəhs edərkən XV əsrin əvvəllərində Teymurun tacirlərindən hoca Xan Ləhicanı tərəfindən Rəvanı ilk zamanlarda bir kənd kimi yaradıldığını, daha sonra keçən müddət ərzində XV əsrin əvvəllərində Şah İsmayılın vəzirlərindən olan Rəvan Qulu Xan tərəfindən şəhər halına çevrilərək ətrafının güclü qoruyucu divarlar olduğu məlumatı verilir (3,s.676).˙Səfəvi hökmdarı Şah İsmayınl vəziri Rəvan Qulu xandan bu torpaqlarda bir qala yaratmasını əmr edir.İstənilən bu qala yeddi il davam edən bir işdən sonra Zəngi çayının kənarında inşa edilir, Şah İsmayılın vəzirinin şərəfinə, onun adını alaraq Rəvan olaraq adlandırılmışdır. Yaradılan bu qala daha sonra inkişaf edərək şəhərə çevrilmişdir (5,s. 15-16). Fərqli bucaqdan baxıldığında Qafqaz torpaqlarının tarixi mirasında türklərin böyük bir yeri olduğu görünməkdədir. Azərbaycan torpaqlarının indiki Ermənistan ərazisinin İrəvanın (indiki Yerevan) Azərbaycana aid olduğunu ifadə edən məlumatlar erməni tarixinin atası sayılan Moisey (Musa) Horenskiynin "Coğrafiya" adlı əsərində göstərilmişdir. Azərbaycan şəhərlərinin tərifinə orta əsr erməni səyyahı Zakariy Akulisskiyin gündəliyində də rast gəlmək olar. XIII əsrdə Etienne Orpelianın yazılarına görə (Atəşlər ölkəsinin torpaqlarında yaşayan) Qafqazda Anadoluda erməni regionu da daxil olmaqla, geniş ərazilərdə Azərbaycanda hökmranlığı təsis edən Eldəgizlər (Eldənizoğulları) haqqında məlumatlar verdi. Yenə də bu məlumatlar Avropanın fransız şərqşünası və Qafqaz coğrafiyası üzrə mütəxəssisi A.J.Sent-Martinin “Ermənistanla bağlı tarixi və coğrafi qeydləri”də verilmişdir. Yenə Saint-Martinin, V əsrdə yaşamış olan erməni yazıçısı M.Horenskiyin yazılarında, Azərbaycan hökmdarları tərəfindən XVI əsrdə yaradılan Rovan (Rəvan-İrəvan) şəhərindən bəhs edildiyi anlaşılmıştır.Qafqazı araşdıran tanınmış fransız alimi şərhində bunlar çox təəccüblə Molisey Horenskiy'in "Coğrafiya" adlı əsərində Rovan adına da rast gəldiyini ifadə edir. “Azərbaycanın bir bölgəsinə verilən bu ad şübhəsiz İrəvandır, bu adı ona müsəlmanlar vermişdir” ifadəsini işlətmişdir. (6,s.19-22)

Tarixi Proseslərdə İrəvan və Türklər

Anadolu, Qafqaz və İran arasındakı geçit nöqtəsində yerləşən İrəvan Səfəvi Türk dövlətinin Qafqazdakı ən mühüm və böyük bir hərbi mərkəzi idi. Region çox qiymətli bir yerdə olduğundan, bölgə uzun müddət iki türk dövləti arasında bir mübarizə meydanına çevrilmişdir (8.s.84). Bölgə strateji mövqedə yerləşdiyindən tarixi proseslər nəticəsində bir çox siyasi qüvvələrin hakimiyyəti altına keçmək məcburiyyətində qalır. Müsəlman ərəblərin, səlcuqların, ilhanlilərin, timurluların, qaraqoyunluların, ağqoyunluların hakimiyyəti altına, sonra Səfəvi hakimiyyəti altında keçmiş, daha sonra bu bölgəyə Osmanlı səfərləri başlamışdır. XVI əsrdən- XVIII əsrədək (1514-1736) bu bölgəni ələ keçirmək üçün aparılan müharibələrdə ara -bir bu ərazi Osmanlı hökmranlığına keçdi. (2,s.1)

Azərbaycan türkləri üçün Bakı, Gəncə, Şəki, Dərbənd, Naxçıvan, Təbriz və Ərdəbil nə qədər vətən torpağı kimi əhəmiyyətlidirsə, İrəvan da o dəyərdə vətən torpağıdır.Yuxarıda qeyd edilən bölgədəki hakim güc ilə yanaşı, İrəvan Urartu, sasanilər, Ərəb Xəlifəsi, şəddadilər, səlçuklular, eldənizlilər, ilhanlılar, teymurlular, qaraqoyunlular, ağqoyunlular, səfəvilər, əvşarlar, qaçarlar və Çar Rusiyası tərəfindən idarə olundu (9.s11). Cənubi Qafqaz regionunda ermənilərin sayı türk və müsəlmanlardan çox olmamışdır.Rusların bu bölgəni ələ keçirmədən əvvəl bu bölgədə ermənilərin sayı çox azdır. Ermənilərin zorla özlərini paytaxt etdikləri Yerevan şəhəri bunun ən yaxşı nümunəsidir.Dəfələrlə Avropadan və digər bölgədən buraya gələn səyyahlar bunu müşahidə etmişlər. Region Azərbaycanın ən böyük siyasi və mədəni dəyərlərini özündə əks etdərən yerlərdən biri idi. XI-XII əsrlərdə Oğuz türkləri bölgəyə gəldi və bura qədim vətənlərindən birinə çevrildi. Kitabi- Dədə Qorquddakı yer və rayonların adlarına İrəvan bölgəsində (Saad Çukurunda) rastlanması təsadüf deyil (10.s131). Oğuz türkləri bu torpaqlarda əsrlər boyu XIX əsrin əvvəllərində rus dövləti tərəfindən süni şəkildə qurulmuş Ermənistan coğrafiyasında yaşamışlar. Türklər bu bölgədə Türk mədəniyyətinin və sivilizasiyanın əhəmiyyətli dərəcədə yüksəltdilər. Bu gün Ermənistan ərazisi adlandırılan bu coğrafiyada erməni torpaqları deyilən dağ, dərə, düz, şəhər, kənd, çay və gölün adları bölgənin keçmiş və mədəniyyət quruluşunun türk mənşəli olduğunu göstərir. İrəvan şəhəri XIX əsrin əvvəllərindən tarix, incəsənət, mədəniyyət, sivilizasiya və etnik mənsubiyyəti olan bir türk torpağı idi (4.s1/14). İrəvan coğrafiyası 1579-cu ildə Osmanlı türklərinin 1590-cı ildə Osmanlı dövlətinin əlində keçdikdən sonra (İvan) – sənədləşmə kitabı yaradıldı, qeydlərə baxdığımızda türkmənlərin məskunlaşma yerlərinin əksəriyyətinin adları türkcədə olduğu görünür. Bunlardan bəziləri- Ozanlar, İsalu, Pornak, Takçılı, Cəbəcili, Gökçəmircilü, Kozanlu, Alpavud, Lalabəyi, Tarcanlu, Dibəklu, Samagar, Talışlı, Xoçkeri (Koçkiri), Qacar, Yasaklu, Körpəlü, Hacıqaralu, İmanşalu, Koylahisarlu. Ağaçəri.Yahyalu, Musahacılı, Navruzlu, Gəncəlü, Dəvəlü, Zəncirlü, Saçlü, Avşar, Təkərlü, Kösələr, Qarabörk, Ağzıqanlı, Cibinli, Abaranoğlu böyük ehtimalla oğuz türkcəsində Aparanoğlu-Götürənoğlu, Quşoğlu, Nəzəroğlu, Axı-Veys –Haqveys və İmarət Amarat-Kadıqışlaq adlarını daşıyırlar. Adı çəkilən məskunlaşma yerlərinin adları türkmən boy və bəylərin adlarından ibarətdir, kəndlərdə yaşayan bütün insanlar türklərdən ibarətdir və bunun ən mühüm isbatı regionun ən böyük yaşayış yerlərinin adlarının türk və türk boylarının adının daşımasıdır (3.s.2)˙ İrəvan əraziləri- indi Ermənistan torpaqları bilinən ərazilər Azərbaycan türklərinin tarixi torpaqları hesab olunur. Bu gözəl torpaqda müxtəlif türk boyları yaşamışdır. Bu oğuz boyları öz xüsusiyyətlərini, qalıqlarını bu torpaqların mədəni milli dəyərlərində qoruyub saxlamışlar. Deməli, İrəvan (Revan) coğrafiyasının etnik strukturu Oğuz türkləri tərəfindən yaradılmışdır, buna baxmayaraq, erməni millətçiləri tarixi keçmişi inkar etməklə bu mirasın aradan qaldırılması yolunu seçmişlər. Oğuz türkləri min ildir at çapıb qaçdıqları, özlərinə yurd seçdikləri bu bölgədəki yerlərin adlarını dəyidirərək mədəni bir qırğın apardılar. Bu mədəni vandalizm tarixi faktları dəyişdirə bilməz, bu coğrafiyanın tarixi oguz olduğunu dəyişdirə bilməz. Qeyd etmək lazımdır ki, Azərbaycan türkləri ermənilərin vətəninə gəlməyib, tam əksinə ermənilər azərbaycanlıların vətəninə gəldilər. Bölgədəki rusların planları sona çatdı və bugünkü erməni dövləti Türkiyə torpaqlarında zorla yaranmış və ya yaradılmışdır. İrəvan tarixi türk torpağıdır. XIX əsrdə ermənilər bu torpağa yerləşdirilmişdir. Erməni tədqiqatçılar bu vəziyyəti qəbul etdilər. Erməni mənşəli ingilis tarixçisi C. Bornatyan yazırdı ki, ümumiyyətlə erməni tarixçiləri Qafqazda erməni dövlətinin mövcudluğundan bəhs etsələr də, bu düpədüz yalandır. Bornatyan deyir ki, XIX əsrə qədər heç bir erməni əhalisi Cənubi Qafqazda deyildir. O qeyd edir ki, ruslar bu torpaqları ələ keçirdikdən sonra ermənilər bu torpağa yerləşdirilib və bu torpaqlarda erməni əhalisinin artması rusların bu yeri ələ keçirdikdən sonra baş

vermişdir (7.s.215-216). Bölgədəki yaşayış yerlərinin adlarının türkcə olduğunu təsdiqləyən erməni tarixçilərindən olan Z.Qorqodyan 1932-ci ildə Yerevanda nəşr edilən, “1832-1931-ci illərdə "Sovet Ermənistanının əhalisi (ermənicə)" kitabında yazır ki, Ermənistanda qeydə alınmış 2310 yaşayış yerindən 2.000-nin adı türk mənşəli adlardan ibarətdir (15.s.1-2). Yenə rusların İrəvan yaxınlığında İrəvan türkləri ilə apardıqları hərbi döyüşə şahidlik edərkən, rus müəllifləri uzaqdan gördükləri Irəvanda bir çox məscid minarəsini qeydə almışlar. İrəvan qalası rusların əlinə keçdikdən sonra İrəvana girən rus yazıçıları bölgənin əhalisinin əksəriyyəti türk olduğunu görmüşlər və bu həqiqəti qeyd etmişlər. (3.s.3).1650-ci ildə İrəvan şəhərində İrəvanda olan Labule la Quza və 1655-ci il mayın 20-də İrəvan şəhərində Lalenin buradan Lyudovikinin ofisinə göndərdiyi məktubda burada az erməni olduğunun qeyd etmişdir. 1655-ci ildə İrəvana gəlmiş səyyah Jan Batistia Tavernryerin qeydinə görə şəhərin qalasında yalnız azərbaycanlı türklər vardır. 1670-ci ildə İrəvanda olan hollandiyalı tacir Yan Streysin sözlərinə görə, burada az sayda yoxsul ermənilər yaşayır.1673-cü ildə İrəvan bölgəsinə gələn fransız səyyahı Jan Şarden Irəvan qalasında 800 ev olduğunu və burada təmiz, istiqanlı insanlar olan azərbaycanlılar yaşadığını ifadə etmişdir (12.s.91-99). İrəvan torpaqlarında aparılan arxeoloji qazıntılarda tapılan tarixi maddi mədəniyyət nümunələri arasında ermənilərə aid bir əsər ortaya çıxarılamaması tarixi gerçəklərə uyğun bir nəticə değildir? Bundan başqa bu ərazinin həqiqətən kimin olduğuna dair bir gerçək sənəd değilmidir? Aparılan bu arxeoloji qazıntılar zamanı tapılan abidələr kimə aiddirsə, bu torpaqların tarixi keçmişində onlar olmuşlar. Bu qazıntılarda erməniyə məxsus bir əsərin görünməməsi onu əsaslandırır (9.s12). Qafqaz bölgəsində Anadolunun coğrafi sərhədlərinə baxdığımızda Osmanlı mənbələrində diqqəti çəkən bir cəhəti görürük. Bu da tərtib edilən xəritələrdə Anadolu coğrafiyasında İrəvan və Echmiadzinin qəbul edilməsidir. Bunun səbəbi də Anadolu rəhbərliyinin bu torpaqları özündən ayrı görməməsidir.Bizansın regionda hökmranlığı dövründə Anadolunun- Şərqin qapısının açarı kimi qəbul edilən bölgə, daha sonra türklər tərəfindən köçürmələr və istilalar yolu ilə Ermənistanın ələ keçirilməsi ilə bu ərazilər Türk hökmranlığı altına keçdi. Bundan sonra bu ərazi Anadoluya gedən səfərlər üçün bir yol marşrutu oldu (4.s.1/14). Səlcuqlu oğuzlarının təkidlə bölgələrə axınlar etmələrinin əsas məqsədi bu bölgələri Bizans dövlətindən qopararaq buraları Türk yurdu halına gətirmək və Anadolunu ələ keçirmək idi. (1-14). Xüsusilə, bunu qeyd etmək çox mühümdür. Qafqaz bölgəsinin coğrafi xüsusiyyətləri etnolojik təşəkkülündə və inkişafında olduqca təsirli olmuşdur. Qafqaz bölgəsinin keçmişi millət və mədəniyyətlərlə çox yaxından bağlı olmuşdur.Qafqaz bölgəsinə şimal tərəfindən köç edən kimmer və iskit kimi Prototürk tayfaları ilə hun, bulqar, alan, xəzər, qıpçaq kimi türk tayfaları və onlardan başqa buraya başqa yerlərdən köçən bir çox tayfa bu tarixi prosesin meydana gəlməsində mühüm rol oynamışlar.Bölgə şərtlərinin əlverişli olması, insanların rahat bir şəkildə yaşaya biləcəklərə sahib bir yer olması buraya gəlişləri hər zaman sürətləndirmişdir. Buraya gəlişlərin səbəblərindən biri də Orta Asiyaya bənzər xüsusiyyətlərə sahib olan bir yer olması idi, xüsusilə səlcuqlu oğuzları, qaraqoyunlular, Qızıl-Orda, elxanilər, ağqoyunlular və Səfəvilər dövləti dövründə coğrafiyanın hər bir qarış torpağına türk möhürünün vurulduğu bilinməkdədir. Bizim tədqiqatımızda məqsəd Irəvan (Revan) Qafqazın bu coğrafi bölgəsində yerləşməsini və çox mühüm geosiyasi mövqeyə malik olmasını, bu baxımdan tarixi keçmişi Qafqazın tarixi taleyi ilə bağlı olduğunu araşdırmaqdır. İrəvanın tarixi mənzərəsinə göz atsaq, görərik ki, İrəvan türk millətinin hökmranlığı altından çıxıb başqa bir xarici millətin hökmranlığı altına girməmişdir. (5.s.6).

XV əsrdən- XIX əsrə qədər İrəvan bolgəsini idarə edən rəhbərlər

İrəvan (Rəvanı) XV yüzyıldan XIX yüzyıla qədər kimlər tərəfindən idarə olunduğunu Hovhannes Şahhatunyan adlı bir erməni yazıçı tərəfindən erməni dilində yazdığı "Eçmiədzin vilayətinin və Ararat Baş qəzasının tarixi" adlı əsərində belə sıralayır: Əmir Səid (XIII əsrdən), Pir Yaqub Pir Hüseyn oğlu (1420-ci ildən), Əbdül Pir Hüseyn (1430-ci ildən), Yaqub bəy (1440-ci ildən), Həsən Əli Qaraqoyunlu (1460-ci ildən), Uzun Həsən (1471-ci ildən), Həsən Bəy Bayundur (1475-ci ildən), Div sultan Qumlu (1515-ci ildən), Hüseyn xan Sultan (1550-ci ilə qədər), Şahqulu Sultan Ustadı (1550-1575), Lala Paşa "Qara Mustafa" adlı Sultan Murat dövründə (1577) Mahnut xan Toxmaq-Xudavənd Şah dövrü - (1578 - 1583), Fərhad Paşa Sultan Murat dövrü (1583), Məmməd Şərif Paşa dövrü (1604-ci ilə qədər), Əmirqulu Xan Qacar şah Abbas dövrü- (1605-1625), Təhməzqulu Əmirguna oğlu (1635), Mürtəza Paşa -Sultan Murad dövrü (1635) Kəlbəli Xan (1636-1639), Məhmət Xan "Çağata Kütük" (1639-1648), Xosrov xan (1648-1652) Mahmudqulu Xan (1652-1656), Nəcəfqulu Xan (1656-1663), Abbasqulu xan

(1663-1666), Səfərqulu Xan (1666-1674), Saruhan Bəy (1674-1675), Səfiqulu xan-Təbrizli Rüstəm xanın oğlu - (1675-1679), Zal xan (1679-1688), Murtazaqulu xan (1688-1691), Məhmətqulu xan (1691-1694), Zöhrab xan (1691), Fərzəli xan-Sultanahmət dövrü (1694-1700), Zöhrab xan (1700-1705), Əbdül Məhəmməd Xan (1705-1709), Mehrəli xan (1709-1719), Allahgqulu xan (1719-1725), Rəcəb Hüseyn Paşa (1725-1728), İbrahim və Mustafa Paşalar (1728-1734), Əli paşa (1734), Hacı Hüseyn Paşa (1734), Məhəmmədqulu xan (1735-1736), Pir Məhəmməd Xan (1736), Xəlil Xan (1755-1755), Həsən Əli xan Qacar (1755-1762), Hüseyn Əli xan (1762-1783), Qulam Əli xan (1783-1784), Məhəmməd xan (1784-1805), Mehdiqulu xan (1805-1806), Məhəmməd Xan Şora Qali (1806-1807), Hüseyn xan Qacar qardaşı Həsən xan ilə (1807-1827) (5.s.6-7). Azərbaycan mənbələrinə əsasən tarixən İrəvan ərazisində Azərbaycan Çukursed (İrəvan) torpaqlarını idarə edən əmrlər və bəylərbəyləri isə aşağıdakı kimidir: Əmir Səid (XIV əsrin sonlarında 1410-ci ilə qədər) Pir Hüseyn (1410-1413), Pir Yaqub (Pir Hüseyn oğlu) (1420. illər), Əbdül (Pir Hüseyn oğlu) (1440-cı illər) Yaqub bəy (1440-cı illər) Həsənəli Qaraqoyunlu (1460 cı illər) Div Sultan Rumlu (1515), Hüseyn xan Sultan Rumlu (1550) Şahqulu Sultan Ustaclu (1550-1575), Məhəmməd xan Toxmaq Ustaclu (1576-1583), Xıdır Paşa (1583), Lala Paşa (1577), Məhəmməd Şərif paşa (1604-ci ilə qədər), Əmirquna xan Qacar (1604.5.1625), Təhməsqulu xan (Qacar) (1625-1635), Fərhad Paşa (1635), Kalbalı xan (1636-1639), Çağata Kötük Məhəmməd xan (1639 / 1640-1648), Xosrov Xan (1648-1652 / 1653), Məhəmmədqulu xan Lala bəy (1652 / 1653-1659 / 1660), Nəcəfqulu Xan (1659 / 1660-1663), Abbasqulu xan Qacar (Əmirgünə xan Qacarın oğlu) (1663-1666) Səfi xan (Alhaz Mirzə) (1666 / 1667-1674), Sarıhan bəy (1674-167 5), Səfərqulu xan (1675-1679), Zal xan (1679-1688), Murtazaqulu xan (1688-1691), Məhəmmədqulu xan (1691-1694), Zöhrap xan (1694-1699), Fərzalı xan (Fətəli xan) Qacar (1699-1705), Əbdül Məhəmməd xan (1705-1709), Məhrəalı xan (1709-1719), Allahqulu xan (1719-1725), Rəcəb Paşa (1725-1728), İbrahim Paşa və Mustafa Paşa (1728-1734), Əli Paşa (1734), Hacı Hüseyn Paşa (1734), Məhəmmədqulu xan (1735), Pir Məhəmməd Xan (1736), Mehdi xan Qasımlı (Əfşar, 1747-1748), Məhəmməd Hüseyn xan (1748-1751), Xəlil xan Özbək (1751-1755), Həsanalı xan Qacar (1759 / 1760-1783), Qulamali xan Qacar (Hüseyn xan Qacar oğlu) (1783-1784), Məhəmməd Hüseyn xan Qacar oğlu) (1784-1805), Mehdiqulu xan Qacar (1805- 1806), Əhməd xan Mağaralı (1806), Hüseyinqulu xan Qacar (1806-1827). (13s.58-60).

1410-1828-ci illərdə bu ərazini idarə edənlər türk mənşəli xan və bəylər olmuşdur. Hüseynəli xan isə İrəvanını sonuncu xanı olmuşdur. İrəvandakı qalalar region ruslar tərəfindən işğal olunduqdan sonra ləğv edilmişdir. Türk mənşəli yer adları dəyişdirilmişdir. Bu mədəni hücumlar bu bölgədən türklərin izlərinin silmə cəhdləri həqiqəti dəyişdirə bilməzdi. Tarixi sənədlərdəki faktlar Qərbi Azərbaycanın türk torpağı olduğunu və türklərin bu torpaqları 100 illərlə idarə etdiyi və burada yaşadıqlarını bizə sübut edir. (14.s.113). Müxtəlif tarixi mənbələrdən əldə etdiyimiz nəticə budur ki, İrəvanı təqribən 400 il, başqa deyimlə desək, 4 əsr türklər idarə etmişlər və bu dövr ərzində bu rəhbərlərin arasında milliyətcə erməni olan olmamışdır. Bu təsadüfi bir şey deyildir. Əvvəlcədən qeyd etdiyimiz kimi, Səlcuqlu türklər XI əsrdən bəri bu coğrafi əraziyə hakim olublar, buranı türk yurdu ediblər, türk vətəni olubdur. İrəvan ərazisi XVI əsrdən sonra Araz Osmanlı türklərinin, Səfəvi türk dövlətinin idarəsi altında qalmışdır. Həqiqət bu idi ki, bu ərazi üçün mübarizə edən iki dövlət də oğuz türkləri tərəfindən yaradılan türk dövlətləri idi. (5.s.7). İrəvanın ermənilərin olduğunu iddia edən erməni tarixçiləri İrəvan xanlığının inzibati və idarə şəklindən danışdıqları zaman erməni terminləri yerinə Azərbaycan türkcəsində terminləri işlədiblər.Bu cəhət diqqəti cəlb edir. Məsələn, ermənilər şəhəri idarə edənə daruk, onların köməkçilərinə isə yüzbaşı və çavuş, bazarı idarə edən şəxslərə bazarbaşı deyirdilər. Ermənilərin günlük həyatda istifadə etdikləri bu sözlər türkcədir, ermənicə deyildir. Deməli, bu ərazidə, bu coğrafiyada hakim mədəniyyət Azərbaycan türklərinə aiddir (15.s126-127).İrəvan ərazisində XI əsrdən etibarən türk millətinin izlərinə rast gəlmək olar. Səlcuqlu Sultan Alp Arslanın rəhbərliyi altında hərbi hissələr XI əsrin sonlarında bu ərazini türklərin hakimiyyəti altına aldılar.Səlcuqlu türklərin (oğuzların)Anadoluda ilk ələ keçirdikləri bölgə Sürməli Çukurdakı Qaraqala idi.Bura alındıqdan sonar Ani və və Qars səlcuqlu oğuzlarının hakimiyyətinə keçmişdir.

Bu sənəd XIII əsrdən Türkmənistan adı ilə tanınmışdır.Bu məsələlər Fransadakı "Historiya Üniversiteti" tərəfindəm yazılaraq, Fransa krallığına təqdim edilən "Osmanlı tarixi" əsərində İrəvan və ətrafı "Türmənistan " adı ilə təqdim olunmuşdur.Beləliklə, bu bölgənin türkləşdiyi türklərə aid yurd olduğu müəyyənləşmişdir. (3.s.677-678). Yuxarıda deyilənlərə əlavə olaraq qeyd edə bilərik ki, erməni

keşişi Hovannes 1410 –cu ildən 1827- ci ilədək İrəvan xanlığını 49 azərbaycanlı xanlar tərəfindən idarə olunduğunu göstərmişdir. Bu məlumata "Erməni Sovet Ensiklopediyası"nda da rast gəlmək olar.O zaman belə bir sual verək :" Kim kimin torpağına zorla sahib olmuşdur? İrəvan kimin torpağı ikən kimin ərazisinə çevrilmişdir? Yuxarıda qeyd etdiyimizlər sualımızın cavabıdır. (15.s.127)

Rusların Ermənistanda hakimiyyət qurmaları

XVIII əsrdə İ.Pyotrdan başlayan isti dənizlərə enmə siyasətində Qafqaz torpaqları mühüm bir hədəf idi. Rusların Qafqaz siyasətinin həyata keçirilməsində və inkişaf etdirilməsində ermənilərin onlara daha çox kömək və dəstəkləri bu məqsədlərin hər zaman gündəmdə qalmalarına və irəliləməsinə səbəb olurdu.Rus dövlətinin cənuba gəlmə siyasəti ilə başlayan Qafqaz və Azərbaycan ərazilərini ələ keçirmək fikirləri vaxt keçdikcə dövlət siyasətinə çevrildi. 1725-ci ildə I Pyotrun ölümündən sonra da Rusiya dövləti I Pyotrun vəsiyyətnaməsinə sadiq qalaraq, "isti dənizlərə getmə"və Qafqazda güclənməsini davam etdirdi. II.Yekaterina 1793-cü illərdə Genaral Qudoviçə iki dəfə əmr verdi və Azərbaycan xanlıqları üzərində siyası hakimiyyət qurmaq üçün fəaliyyətə başladı.İran şahı ruslara qarşı hərəkətə başlamışdır. Yekaterina Qafqaz və Azərbaycan regionuna üstünlük verirdi. İran Şahı ruslara qarşı mübarizəyə başladı. II Yekaterina Qafqaza və Azərbaycan torpaqlarına hakim olmaq üçün fəaliyyətə başladı, bu bölgələrin təbii ehtiyatları Rusiyanın marağını daha çox bu istiqamətə döndəriridi, Rusiyanın bu siyəsəti nəticəsində Quba və Şamaxı bölgələrini ələ keçirdilər, digər Azərbaycan xanlıqlara xəbər göndərib silahlarının atmalarının və onlara tabe olmaqlarını tələb etdilər.Çətin vəziyyətdə qalan Azərbaycan xanlıqlarından Talış, Şamaxı, Gəncə, İrəvan, Naxçıvan, Hoy və Qarabağ xanlıqları Rusiyanın himayəsini qəbul etdilər, Ruslar Qafqazda irəliləyirdılər, Ruslar 1803-cü ildə Azərbaycan ərazisi olan Car-Balakəni, daha sonra isə ruslar 1804-cü ildə Gəncə xanlığını ələ keçirdilər (16.s.1-7). Gəncə xanlığının ruslar tərəfindən ələ keçirilməsi İran və Rusiya arasında münasibətləri gərginləşdirdi.Azərbaycan xanlıqlarından olan Dərbənd, Bakı, Lənkəran, Naxçıvan və İrəvan (Revan) kimi bəzi xanlıqlar rusların bu işğalına qarşı qəhrəmanlıqla etiraz səslərii ucaltdılar, azərbaycanlı qadınlar da Rusiyaya qarşı qəhrəmanlıqla mübarizə apardılar. Bunlardan biri də Dərbənd xanı Şeyx Əli xanın bacısı Pəricə xatundur. 1796-cı ildə Dərbənd xanlığına hücum edən Rusiya qüvvələrinin komandiri general Zubov idi, xanlıqda hörmətli şəxslərdən olan Pəricə Xatun əlinə silah alıb xalqı ilə bərabər ruslara qarşı olan küçə müharibələrinə başladı. Rusların hücum dövründə xanlıqlar arasında şansızlıq ruslara qarşı apardıqları bu mübarizədə tək qalmaları idi. O dövrdə Osmanlı dövləti və İran şahı kifayət qədər güclü deyildi, eyni zamanda, öz aralarında problemlər yarandı, bu vəziyyət Rusiyanın Qafqaz regionunu ələ keçirmək işini asanlaşdırdı. (17.s.72-73). İran Rusiya ilə apardığı mübarizədə məğlubiyyətə uğradı. Gülistanda 1813-ci ilin Oktyrab (oktyabr) ayında müqavilə bağlamaq məcburiyyətində qaldı .Müqavilə Azərbaycan torpaqlarını böldüyü kimi Azərbaycan millətini də iki dövlət (İran- Rusiya) arasında böldü.Rusya ilə İran arasında Azərbaycan torpaqlarına sahib olmaqla bağlı yaranan münaqişədə erməni könüllü birlikləri hər zaman Rusiyanın yanında oldular. Gülistan müqaviləsinə görə İrəvan və Naxçıvan xanlıqlarının idarə olunması İrana verilmişdir (18.s.131-132). Azərbaycan xanlıqlarının dövlətlərə bağlılığı Rusiya ilə İran arasında bağlanan Gülüstan və Türkmənçay müqaviləsinə görə müəyyənləşdi. Oktyabr 1813-cü il Gülüstan müqaviləsinə görə Dərbənd, Quba, Bakı, Lənkəran, Şirvan, Şəki, Gəncə, Qarabağ xanlıqları Rusiyanın əlinə geçti.Bu müqavilədən istər Rusiya istər İran razı qalmadı.Hər iki tərəf, xüsusilə İran müharıbəyə Qərb dövlətlərin dəstəyi ilə, xüsusilə İngiltərənin dəstəyi ilə hazırlaşırdı.1826-cı ildə İrəvan xanlığına Rusiyanın hücumu müharibənin başlamasına təkan verdi.Bu müharibədə İran məğlub oldu, Rusiya qazandı. 1828-ci ildə İran və Rusiya arasında Türkmənçay müqaviləsi imzalandı.Bu müqaviləyə əsasən Aras çayı və Talış dağları sərhəd zonaları kimi qəbul edildi.Naxçıvan xanlıqları Rusiyanın əlinə keçdi.Bu müqaviləyə görə Xəzər dənizi Rusiyanın əlinə keçdi.1828-ci ildən sonra Şimal Azərbaycan ərazisində yaşanan hər şey Rusiyanın istəyinə uyğun formalaşmağa başladı. (8.s.73-74). Türkmənçay müqaviləsinə görə Azərbaycan torpaqları ikinci dəfə Rusiya ilə İran arasında bölündü, təəssüf ki, Azərbaycan xalqına öz fikirlərini soruşmadlar, bir müddət sonra, 1828-ci il martın 21-də Novruz günləri qeyd edilərkən.İ. Nikolay dövründə, onun fərmanına əsasən Azərbaycanda Naxçıvan və Ermənistanda bir "Erməni vilayəti" idarəsi yaradıldı. Bu, gələcəkdə Azərbaycan ərazisində erməni dövlətinin yaradılması üçün bir addım idi. Bölgəyə çoxlu erməni əhalisi köçürülürdü. Rusların məqsədi bu torpaqlarda erməni əhalisini

çoxaltmaq və türklərin bu torpaqlarda azlıq statusuna samaq idi. 1828-ci ildə bölgəni ələ keçirdikdən sonra planlı fəaliyyət nəticəsində istədikləri məqsədə gec də olsa, çatdılar. (13.s.351-352).

XIV əsrdə İrəvan yaradıldı, İstehsal müxtəlifliyinə və strateji mövqeyinə görə sürətlə inkişaf etmişdir. İrəvana Səfəvi dövlətinin qurucusu Şah İsmayıl üçün xüsusi əhəmiyyət kəsb edirdi. XI əsrdə türkmən axınları yerləşmək məqsədilə bölgəyə gəlmiş, bu region XIII əsrdən etibarən Avropada da Türkmənistan kimi tanınmışdır.XI əsrdən XIX əsrə qədər oğuz türklərinin nəzarəti altında idi.XI əsrdən XIX əsrin 30 cu illərinə qədər qədər İrəvan türklər tərəfindən idarə olundu. Coğrafi mövqeyi, mühüm yolların kəsişdiyi bir yerdə olması, İrəvanı tarixi boyunca əhəmiyyətli bir yerə çevrilməsini təmin edirdi. İpək yolu yaxınlığında bu regionun yerləşməsi onu diqqət mərkəzinə çevirmişdir. İrəvan ərazilərinin əhəmiyyətli mövqedə bir yer olmasına görə, buranı zaman- zaman böyük dövlətlərin mübarizə meydanına çevirmişdir. Böyük dövlətlər hər fürsətdə bu torpaqları ələ keçirmişlər. İrəvanda türklərin çoxlu milli- mədəni abidələri var. Region müxtəlif türk dövlətləri tərəfindən idarə olunmuşdur. İrəvan torpaqlarının altı da, üstü də oğuz türklərinə aittir. XIX əsrdə bölgədəki iki böyük türk və müsəlman dövlətin keçmiş güclərini itirmiş olması və Rusiyaya qarşı birlik qura bilməmələri rusların işini asanlaşdırmışdır. XIX əsrdən sonra Rus dövlətinin Qafqazda işğalçılıq bir siyasət yeritməsi və Azərbaycan torpaqlarını ələ keçirmək istəməsi onu İran ilə qarşı-qarşıya gətirmişdir. Rus və İran dövlətləri arasındakı müharibədə İrandakı türk dövləti məğlub olunca, region 1828 Türkmənçay müqaviləsindən sonra rus hakimiyyəti altına girmiştir.Ruslar bu regiona sürətlə erməni əhalisini köçürməyə başlamışdılar Bu bölgədə yüz illərlə yaşayan oğuz türkləri öz torpaqlarında azlıq statusuna düşmüşdür, türklər öz vətənlərindən Anadoluya və İrana köçmək məcburiyyətində qalmışdılar. Avropa ölkələri erməniləri dəstəklədilər, lakin onların əsas dəstəyi Rusiyadan gəlirdi. Rusiyanın siyasətinə görə Ermənistan Azərbaycan və Orta Asiya türkçülüyünün arasını kəsmək üçün yaradıldı. XIX əsrdə bölgəyə intensiv olaraq gətirilmiş ermənilər XX əsrin əvvəllərində ruslar tərəfindən bir tampon dövlət olaraq tarixi Qərbi Azərbaycan ərazisini özlərinə vətən etdilər...

## ƏDƏBİYYAT


1. MustafaAydın. İslam Ensiklopediyası, Rəvan maddəsi. www. Islamensiklopediyasi. c/35/Infa/dia/maddei.Rəvan, 2008, c.35.s.26-29
2. Selçuk Ilgaz, Osmanlı hakimiyyəində Rəvan (Çukur Saad) (XVI-XVIII əsrlər arası sosial-iqtisadi tarix) T.C. Atatürk Universiteti Sosial Elmlər İnstitutu İbidai təhsilt Bölümü (doktorluq disseri) Erzurum 2010, s.43
3. Oqtay Kızılkaya, XIX əsrdə Rəvan və ətrafı, I. Beynəlxalq İğdır Simpoziumu Sosial elmlər İnstitutu, (19-21 aprel 2012-Iğdır), Iğdır-2013, s.675
4. Erol Kürkçüoğlu, Rəvandana İrəvana.Bir şəhərin kimliyi, Yeni Türkiyə 60 / 2014.s.2.
5. Toksoy Nurcan, Rəvanda son günler Türk rəhbəliyindən ermeni rəhbərliyinə. Orion nəşr., 2007, s.15-16.

6-Rizvan Hüseynov. Orta əsr erməni mənbələrində Qafqazdakı Azərbaycan., www.Irs-az.com.s.19-22.

7. Almaz Bayramova, Yerevan xanlığının bəzi etnotoponimlərində leksik-semantik xüsusiyyətləri (Tərcüməçi Məhəmməd Kamaloğlu, TRT-nin Ümumi İdarəsi) Hikme Yurdu, Fikir-şərh. Sosial Elmlər Araşdırma dərgisi, İl: 8, Sayı: 16 iyul-dekabr, 2015/2, 216.
8. Özer Küpəli. Övliya Çələbinin ilk İran səfəri.səyahət və qalalar haqqında, Türk Dünyası Araşdırma dərgisi XI / 2 (Kış 2011), s.84.
9. Nazim Mustafa, İrəvan-Türk-İslam varlığı necə məhv edildi, Ankara 2015-ci il.
10. Tənzilə rüstəmxanlı. Erməni zülmü.Türk Müsəlman Soyqırımı (Çeviren Gaffar Çakmaklı) Karakutu mətbəəsi 254, 1 nəşr, Oktyabr 2009, s.131.
11. Oktay Kızılkaya, Erməni coğrafiyasında türk əhalisinin hazırkı vəziyyəti, Yeni Türkiyə, 60/2014, s.2.
12. İbrahim Bayramov, İrəvan şəhəri və onun tarixi haqqında, filologiya elmləri doktoru, "Dirçəliş-XXI əsr" -2008, -No-128-129.-ss.91-99.
13. Yaqub Mahmudov və başqaları.İrəvan xanlığı Rusiya işğalı və ermənilərin şimal Azərbaycan torpaqlarına köçürülməsi, Azərbaycan Milli Elmlər Akademiyası, A.Ə. Bakıxanov adına Tarix İnstitutu, Bakı 2010, s.58-60.

14. Sevil Abbasoğlu İrəvanlı. Qafqazlardakıı, Qırğın və sürgün, Qərb Azərbaycanda rus və ermənilərin apardıqları soyqırım. Türk Dünyası Araşdırmalar Vəqfi İstanbul-2015, s.113.
15. Hatəm Cabbarlı. Keçmişimizdən günümüzə Ermənistanda Azərbaycan türkləri, Ermənistanın Strateji Araşdırmalar Mərkəzi (Asam) Ermənı araşdırmaları 4 (3aylıq Tarix, Siyasət və Beynəlxalq Əlaqələr dərgisi) Ankara 2001, yanvar-fevral 2002 Sayı 4, s.126 -127.
16. Nəsrin Sarıahmədoğlu. Azəri-Ermeni münasibətləri (1905-1920), Türk Tarix Kurumu, Atatürk Kültürü, Dil ve Tarih Yüksek Kurumu Türk Tarih Kurumu nəşrləri, XVI. Sayı 92, Ankara-2006, s.1-7.
17. Kərim Odər. Azərbaycan, Boğaziçinəşrləri.55, İstanbul-1982, s.72-73.
18. Fuad Əliyev, Urfan Həsənov.İrəvan xanlığı, Bakı "Şərq-Qərb", 2007, s.131-132.

**ABSTRACT**

**Эрдал Сезги**

**(1828) YEREVAN UNTIL THE RUSSIAN RULE**

Yeravan is located in the southeast of Mount Aragats. The Castle of Yerevan was built on the bank of Hrazdan River. Yerevan was a very important region from military and strategical aspects for Anatolia, Iran and Nakhchivan. Therefore Yeravan came under too many attacks. The region became a warfare arena especially among Ottoman and Safavid Turkish states for a long time. Seljuk Turks had been ruling over Azerbaijan territory since XI century. Turks had political and cultural dominance over this territory from XI to XIX century. They obtained this territory as a homeland. The balance of powers started to change after XIX century. The conflict between Ottoman and Safavid didn't come to an end in one way or another. Besides, Russia also gained strength as a result of the reforms carried out. Russians started to occupy the Caucasian territory from the beginning of XIX century. As a result of the struggle to expand the boundaries, Russia and Iran confronted. After Iran lost the battle against Russia, Yerevan district was taken over by Russia with the 1828 Turkmencay Treaty. Thereafter, Russians made the Armenian population migrate to Yerevan region expeditiously.

**РЕЗЮМЕ**

**Эрдал Сезги**

**(1828) ЕРЕВАН ДО РОССИЙСКОГО ПРАВИЛА**

Ереван расположен на юго-востоке от горы Арагац. Замок Еревана был построен на берегу реки Раздан. Ереван был очень важным регионом из военных и стратегических аспектов для Анатолии, Ирана и Нахчывана. Поэтому Ераван попал под слишком много атак. В течение долгого времени регион стал ареной ведения войны, особенно среди турецких государств Османской империи и Сефевидов. Сельджукские турки управляли территорией Азербайджана с XI века. Турки имели политическое и культурное господство над этой территорией с XI по XIX век. Они получили эту территорию как родину. После XIX века баланс сил начал меняться. Конфликт между Оттоманкой и Сефевидом так или иначе не заканчивался. Кроме того, Россия также получила силу в результате проведенных реформ. Русские начали занимать кавказскую территорию с начала XIX века. В результате борьбы за расширение границ Россия и Иран столкнулись. После того, как Иран проиграл битву с Россией, Ереванский район был захвачен Россией с Туркменским договором 1828 года. После этого россияне заставили армянское население быстро перейти в Ереванский регион.

NDU-nun Elmi Şurasının 19 oktyabr 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 02).
Məqaləni çapa təqdim etdi: AMEA-nın müxbir üzvü Z.Şahverdiyev

# SOSİAL ELMLƏR VƏ HÜQUQ

**SEYMUR TALIBOV**
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 341**

## AZƏRBAYCAN RESPUBLİKASININ REGİONAL ENERGETİKA ƏMƏKDAŞLIĞINDA NAXÇIVAN MUXTAR RESPUBLİKASININ YERİ

**Açar sözlər**: *energetika, regional əməkdaşlıq, enerji resursları, müqavilə, konstitusiya, geosiyasi vəziyyət*
**Key words:** *energy, regional cooperation, energy resources, contract, constitution, geopolitical situation*
**Ключевые слова:** *энергетика, региональное сотрудничество, энергетические ресурсы, договор, конституция, геополитическое положение.*

Region dövlətlərinin energetika sahəsində beynəlxalq əməkdaşlığı müxtəlif formalarda həyata keçirilməkdədir. Region dövlətləri özlərinin energetika strategiyalarını reallaşdırmaq üçün həm çoxtərəfli, həm də ikitərəfli beynəlxalq müqavilələrlə qarşılıqlı münasibətlərini tənzim edirlər. Bağlanmış beynəlxalq müqavilələrə özünün tənzimetmə predmetinə görə müxtəlif istiqamətlər üzrə ola bilər. Energetika sferasında beynəlxalq müqavilələri aşağıdakı əsaslarla ayırmaq olar:

- Enerji Xartiyası üzrə müqavilə (1994)
- Nüvə enerjisindən dinc məqsədlər üçün istifadə üzrə universal beynəlxalq müqavilələr;
- Enerji resurslarının nəqli üzrə beynəlxalq sazişlər;
- MDB çərçivəsində qəbul edilmiş beynəlxalq müqavilələr;
- Enerji resurslarından istifadə zamanı ətraf mühitin mühafizəsi üzrə universal və regional müqavilələr;
- Energetika sferasında xarici investisiyaların təşviqi, qorunması və mübahisələrin həlli üzrə beynəlxalq müqavilələr;
- Region dövlətləri üçün yumşaq hüquqi öhdəlik yaradan universal razılaşmalar və s.

Tanınmış Fransız müəlliflərindən D. Karro, P. Jüar müqavilənin müxtəlif xarakterli normalarına əsaslanaraq, həmin normaların "yumşaq" xüsusiyyətini bildirirlər. (1, 363,365)

P.Jüar qeyd edir ki, əgər EXM-in bütün tərəfləri GATT-ın üzvü olarsa o halda EXM ticarət məsələlərində bir çox əhəmiyyətini itirəcəkdir. Lakin onun enerji məsələləri üzrə çoxsaylı spesifik müddəaları, prossesual qaydaları öz əhəmiyyətini saxlayacaqdır. (2) Alman müəllifi H.Şrot qeyd edir ki, təəssüf etmək olar ki, EXM-in əsas müddəaları üzv dövlətlərdə birbaşa tətbiq xüsusiyyətinə malik deyil və milli hüquq üzərində prioritet kəsb etmir. (3, 245)

EXM qloballaşma prosesində "daimi" suverenlik və mütləq liberalizm, xarici birbaşa investisiyalara münasibətdə "açıq" siyasət və "tənzimedilən" rejimlər arasında yeni praqmatik kompromisin sistemləşdirilmiş analitik hüquq modelidir. Müqavilə Avropa Enerji Xartiyasının bəyan etdiyi enerji sahəsində əmkdaşlıq üçün prinsipləri formalaşdırmaq istiqamətinə malikdir. Müqavilə investisiyalar üçün bərabər rejimin, ticarətin, enerji sistemlərinə nümunəvi tranzit qaydalarının tətbiqini, mübahisələrin həllini nəzərdə tutur. (4, 55-90)

Azərbaycan Respublikası EXM-ə və Enerji effektivliyi və müvafiq ekoloji məsələlər üzrə Protokola 23 dekabr 1997-ci ildə, EXM-in "Ticarət məsələləri ilə bağlı Əlavələr"inə isə 24 aprel 1998-cui ildə qoşulmuş və Çoxtərəfli Tranzit Qaydalarının hazırlanmasında iştirak edir. Azərbaycan Respublikasının Enerji Xartiyasına müqaviləni ratifikasiya etməsi onun tranzit ölkəsinə çevrilməsinə, enerji sferasına yeni investisiya qoyuluşu ilə az enerji tutumlu texnologiyanın

tətbiqinə, həmçinin ətraf mühitin mühafizəsi sferasında yüksək standartların yaradılmasına təminat formalaşdırır.

Azərbaycan Respublikası EXM-ə qoşularkən, xarici investorların daxili milli məhkəmə vasitələrinə müraciətindən sonra eyni mövzu ilə əlaqədar mübahisəli məsələnin beynəlxalq arbitraja verilməsini qadağan edən qeyd-şərt də etmişdir. Azərbaycan Respublikasının Hökumətinin 2002-ci il qərarı ilə Avropa Enerji Xartiyası ilə münasibətləri xüsusi yaradılmış qurumlararası Ekspert qrupu həyata keçirir.

Ticarət məsələləri üzrə işçi qrupunda Azərbaycan Respublikası DTT-yə üzv olmaqdan qabaq özünü xarici ticarət rejimi haqqında digər üzv-dövlətlərə məlumat verir, əvəzində onların xarici ticarət rejimi haqqında məlumat alır. Neft, təbii qaz, energetika mallarının alqı-satqısı sahəsindəki qanunvericilik, kontraktlar əsasında bu sahədəki ticarətin liberallaşdırılması kimi məslələrdə təcrübə mübadiləsi edir.

Naxçıvan Muxtar Respublikasının energetika sistemi, onun enerji təhlükəsizliyi geosiyasi və iqtisadi vəziyyət baxımından dəyərləndirilməlidir. 1990-cı ildən sonra blokada vəziyyətinə düşmüş muxtar respublikada ən ciddi problemlər energetika sahəsində yaşanmışdı. Lakin Azərbaycan Respublikasının siyasi-iqtisadi uğurları nəticəsində bu sahədə mühüm nailiyyət əldə olunmuşdur. Xüsusən də muxtar respublikanın bütün yaşayış məntəqələruinin qazlaşdırılması və elektrikləşdirilməsi üzrə tədbirlər qeyd edilməlidir.

Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin 1990-cı ilin iyun ayında Moskvadan Bakıya, oradan da Naxçıvana qayıdışı geniş mənada bütövlükdə Azərbaycan, xüsusəndə ölkəmizin ayrılmaz tərkib hissəsi olan Naxçıvan üçün də taleyükle məsələ idi. Çox çətin hərbi və siyasi durumda olan Azərbaycan üçün zəngin təcrübəyə, müstəsna dövlətçilik səriştəsinə və xilaskarlıq bacarığına malik olan Heydər Əliyev hava su qədər lazım idi.

2006-cı ildə Bakıda çap olunmuş “Qayıdış” kitabında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun çox doğru olaraq ifadə etdiyi kimi, “Moskvadan Naxçıvana qayıdış ... əyalət mərkəzinə yox, Vətənə qayıdış idi; böyük siyasətə yenidən və fəal şəkildə, birmənalı, ardıcıl, qətiyyətli Qayıdış idi ... Əsl yolu zaman özü seçdi. Xalqın iradəsi hər şeyə qalib gəldi və müstəqil Azərbaycan öz nicatını Heydər Əliyevin hakimiyyətə ikinci dəfə qayıdışında tapdı” (5, 8-12).

Görkəmli dövlət xadimi Heydər Əliyev Naxçıvanda mənalı və keşməkeşli həyatının çətin və şərəfli mərhələsini yaşadı. Ermənistan tərəfinin ərazi iddeaları zəminində Naxçıvana edilən hərbi həmlələr, baş verən döyüşlərdə verilən şəhidlər çətinliklərin miqyasını genişləndirirdi. Buna baxmayaraq, təcrübəli dövlət xadimi bütün çətinliklərin real çıxış yollarını müəyyən edib, yaranmış böhranı aradan qaldırmaq üçün qəti qərarlar qəbul etməyi bacardı (6, 225). Türkiyə Cumhuriyyətinin və İran İslam Respublikasının dövlət başçıları ilə əhalinin artan iqtisadi-siyasi çətinliyi aradan qaldırıldı, sıxıntıya salınmış camaatın elektrik təminatını yaxşılaşdırdı. Ermənistan tərəfindən elektrik enerjisinin kəsilməsi ilə əlaqədar yaranmış böyük çətinliklər qısa vaxtda Türkiyənin İğdır bölgəsindən çəkilmiş və Sədərək üzərindən Naxçıvan şəbəkəsinə birləşdirilmiş elektrik cərəyanının muxtar respublikanın bölgələrinə çatdırılması ilə aradan qaldırıldı.

Naxçıvanın Türkiyə və İranla iqtisadi, ticarət, mədəni əməkdaşlığının genişlənməsi Azərbaycanda və Naxşıvanda bəzi qüvvələrin “narahatlığına” səbəb olmuşdu. Belə ki, onlar bu addımları Naxçıvanda separatizm meyillərinin güclənməsi kimi təqdim etməyə çalışırdılar.

Azərbaycan dövlət hakimiyyəti orqanlarının nümayəndələri Naxçıvan Muxtar Respublikasının Konstitusiya quruluşunda dəyişiklik etmək, onun kanstitusiya hüquqlarını məhdudlaşdırmağa çalışırdılar. Bununla əlaqədar Muxtar Respublika Ali Məclisi Rəyasət Heyyətinin 7 dekabr 1992-ci il tarixli qərarında göstərilirdi: “Ali Məclisin Rəyasət heyəti bəyan etməyi zəruri hesab edir ki, Bakıda və Naxçıvanda ayrı-ayrı dairələr tərəfindən Naxçıvan Muxtar Respublikası rəhbərliyinin fəaliyyətindəki separatizm haqqında yayılan şayələr uydurmadır, böhtan xarakteri daşıyır və heç bir əsası yoxdur. Türkiyə və İranla əlaqələrin inkişaf etdirilməsi Azərbaycan Respublikasının ümumi siyasətinin tərkib hissəsidir, uzun müddət blokada şəraitində olan muxtar respublikanın sosial-iqtisadi problemlərinin həll edilməsinin zəruriliyindən irəli gəlir”. (7, 44)

Muxtar respublikanın tamamilə qazlaşdırılması 3 mərhələdə nəzərdə tutulmuş və həyata keçirilmişdir. Birinci mərhələdə Naxçıvan şəhəri və rayon mərkəzləri, ikinci mərhələdə əvvəllər qaz xətti mövcud olmuş bütün yaşayış məntəqələri, sonuncu mərhələdə isə ümumiyyətlə indiyədək qaz xətləri çəkilməmiş kəndlər qazlaşdırılmışdır.

2008-ci ildə qaz çəkilişi ilə bağlı aparılan işlər yekunlaşmış, muxtar respublikanın bütün yaşayış məntəqələri təbii qazla təmin olunmuşdur. Bu qazlaşdırma tədbirləri 2005-ci ilin sonlarından etibarən İran İslam Respublikasından mübadilə olunmaqla muxtar respublikaya 13 illik fasilədən sonra təbii qazın nəqli nəticəsində mümkün oluşdur.

Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası arasında əlaqələrin əsası 1992-ci ilə İran İslam Respublikasının dəvəti ilə o dövrdə Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədri işləyən ümummilli lider Heydər Əliyevin İran İslam Respublikasına səfəri zamanı 24 avqust 1992-ci il tarixində imzalanmış "Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası və İran İslam Respublikası arasında əməkdaşlıq protokolu" ilə qoyulmuşdur. Naxçıvan Muxtar Respublikasının qaza olan tələbatının ödənilməsinə dair 2004-cü ilin avqust ayında Azərbaycan Respublikası ilə İran İslam Respublikasının hökümətləri arasında imzalanmış "Təbii qaz mübadiləsi üzrə müqavilə"nin icrası olaraq 2005-ci ilin noyabr ayından muxtar respublikaya təbii qazın verilməsinə başlanmışdır.

2007-ci il avqustun 21-də isə Azərbaycan Respublikası hökuməti ilə İran İslam Respublikası hökuməti arasında "Ordubad" su elektrik stansiyasının tikintisi barədə protokol imzalanmış və SES-in tikintisinə başlanmışdır.

Naxçıvan Muxtar Respublikasının energetika sisteminin formalaşmasında və onun (beynəlxalq) regional xarakter kəsb etməsində Türkiyə də mühüm rol oynamışdır.

Ordubad rayonunda "Tivi" Su Elektrik Stansiyasının tikintisi üçün Türkiyə şirkətləri ilə də müqavilələr bağlanmışdır. 2007-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Ordubad rayonundakı Gilançay üzərində Biləv və Tivi kanal tipli Su Elektrik tipli stansiyaların tikintisini həyata keçirmək məqsədi ilə Türkiyə Cumhuriyyətinin AYDİŞ İnşaat və Ticarət LTDF Şirkəti və Çelikler İnşaat Anonim Şirkəti ortaq təşəbbüs qrupunun rəhbərlərini qəbul etmiş, öz tövsiyyələrini vermiş və müvafiq müqaviləni imzalamışdır.

8 avqust 2009-cu il tarixdə Türkiyə Cumhuriyyətinin Enerji və Təbii Ehtiyatlar Nazirliyinin nümayəndə heyyəti Naxçıvanda olmuşdur. Nümayəndə heyətinin tərkibində Türkiyə Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri və Türkiyənin BOTAŞ şirkətinin baş direktoru da yer almışdır. Səfər çərçivəsində nümayəndə heyəti Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri ilə görüşmüşdür. Həmçinin, Türkiyəyə satılan Azərbaycan qazının həcmi və qiyməti ilə bağlı Azaərbaycan Respublikasının Dövlət Neft Şirkəti və BOTAŞ arasında aparılan danışıqların növbəti mərhələsi çərçivəsində Naxçıvanda enerji mübadiləsi ilə əlaqədar niyyət protokolu imzalanmışdır.

Ümumilikdə, muxtar respublikaya təbii qazın verilməsi yeni elektrik stansiyalarının işə salınmasına səbəb olmuş, Naxçıvan Qaz Turbin Elektrik stansiyasında turbinlərin qazla işləmə rejiminə keçirilməsi nəticəsində burada enerji istehsalı imkanları artırılmışdır.

Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramında qeyd edilir ki, Naxçıvan Muxtar Respublikası enerji sisteminin ölkənin əsas enerji sistemi ilə əlaqəsinin olmadığını nəzərə alaraq, ilk növbədə Naxçıvan Muxtar Respublikasında orta, kiçik və mikro su elektrik stansiyalarının tikilməsi daha məqsədəuyğundur. Bu işin təşviqi olaraq bərpa olunan enerji mənblərinin hasilatı üçün texnoloji avadanlığın istehsalı Naxçıvan Muxtar Respublikasında qurulmalıdır.

Muxtar respublikada 87 meqavat elektrik enerjisi istehsal etmək gücünə malik 10 moduldan ibarət elektrik stansiyası çox qısa müddətdə tikilərək istifadəyə verilmişdir. Həmçinin muxtar respublika ərazisində mövcud alternativ enerji mənbələrindən istifadə istiqamətində də tədbirlər davam etdirilmişdir. Belə tədbirlərdən biri Ordubad Su Elektrik stansiyasının inşası ilə bağlıdır. Bu məqsədlə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 11 yanvar 2017-ci ildə Ordubad Su Elektrik Stansiyasının təməlqoyma mərasimində iştirak edib. Bu elektrik stansiyası 36 meqavat gücündə olacaq. Stansiya derivasiya tiplidir və Araz çayı üzərində yerləşdiriləcək. Stansiya üçün

tutumu 1,5 milyon kubmetr olan su anbarı inşa ediləcək. Hidroqovşağın əsas qurğularının tərkibinə elektrik stansiyası, tənzimləyici bənd, suqəbuledici qurğu, çökəltmə hovuzu, derivasiya kanalı, yükləmə hövuzu daxildir. Stansiyada hər birinin gücü 12 meqavat olan 3 aqreqat quraşdırılacaq. Belə stansiyaların istifadəyə verilməsi Azərbaycanda, o cümlədən Naxçıvanda həyata keçirilən sosial-iqtisadi siyasətin uğurla davam etdiyini bir daha əyani sübut edir. Bu cür layihələrin icrası həm də Azərbaycanda alternativ və bərpaolunan enerjidən istifadənin geniş tətbiqi üçün hərtərəfli imkanlar yaradır. (8)

2004-cü ildə Türkiyə Respublikasında fəaliyyət göstərən "Cengiz-Aksoy" ortaq şirkətinin rəhbərliyi Naxçıvana səfər etmişdir. Səfər zamanı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri ilə keçirilmiş görüşdə, Heydər Əliyev Su Anbarı üzərində ümumi gücü 4,5 MVt olan Su Elektrik Stansiyasının tikintisinə dair Naxçıvan Muxtar Respublikası hökuməti ilə müqavilə bağlanmışdır. Heydər Əliyev Su Anbarı üzərində 4,5 meqavat gücündə Su Elektrik Stansiyası tikilərək istifadəyə verilmişdir.

2010-cu ilin oktyabr ayında Biləv su elektrik stansiyasının tikintisi başa çatdırılmışdır.

2012-ci il ərzində muxtar respublikanın elektrik şəbəkələrinə 789558824 kvt.saat elektrik enerjisi daxil olmuşdur. Bunun 12875860 kvt.saatı Türkiyə Respublikasından, 60307000 kvt.saatı İran İslam Respublikasından alınmış, 77229600 kvt.saatı Araz Su Elektrik Stansiyasında, 560521000kvt.saatı Naxçıvan Modul Elektrik Stansiyasında, 18333263 kvt.saatı Naxçıvan Qaz Turbin Elektrik Satnsiyasında, 11752701 kvt.saatı Heydər Əliyev Su Anbarı üzərindəki Su Elektrik Stansiyasında, 48539400 kvt.saatı Biləv Su Elekterik Stansiyasında istehsal edilmişdir. Türkiyə Respublikasına 277434930 kvt saat, İran İslam Respublikasına 61768000 kvt.saat elektrik enerjisi ötürülmüşdür. 2012-ci il ərzində muxtar respublikanın elektrik stansiyalarında cəmi 716375964 kvt.saat elektrik enerjisi istehsal edilib, elektrik şəbəkələrinə ötürülmüşdür, bunun 1375214701 kvt.saatı və ya 19,2%-i su elektrik stansiyalarında istehsal olunmuşdur. Hazırda İran İslam Respublikası ilə enerji mübadiləsi aparılır, Türkiyə Respublikasına 20-30 meqavat elektrik enerjisi ixrac edilir.

Muxtar respublikada yeni elektrik stansiyalarının tikintisi də davam etdirilir. Tikintisinə 2011-ci ildə başlanmış Şərur rayonu ərazisində 150 milyon $m^3$ su tutumlu Arpaçay Su Anbarının suyundan istifadə etməklə 20,5 meqavat güclü derivasiya tipli Arpaçay Su Elektrik Stansiyasının açılışı olmuşdur.

Stansiyada il ərzində 60 milyon kvt.saat elektrik enerjisi istehsal edilməsi nəzərdə tutulmuşdur. Araz çayı üzərində derivasiya tipli 36 meqavat gücündə Ordubad SES-də tikinti işləri davam etdirilir.

Ali Məclisin Sədri muxtar respublikada su elektrik stansiyalarının tikintisi ilə bağlı demişdir ki, "Muxtar respublikada SES-lər istismara verildikdən sonra muxtar respublikanın enerjiyə olan tələbatının əsas hissəsi su elektrik stansiyaları hesabına ödəniləcəkdir. Bu da muxtar respublikanın energetika sisteminin imkanlarının genişlənməsinə, ucuz elektrik enerjisi istehsalının artırılmasına və vəsaitə qənaət olunmasına imkan verəcəkdir. Əldə olunan vəsait energetika sahəsinin maddi-texniki bazasının gücləndirilməsinə, bu sahədə çalışanların rifah halının yaxşılaşdırılmasına sərf ediləcəkdir".

Ali Məclisin Sədri milli təhlükəsizliyin əsas elementi olan enerji təhlükəsizliyini xarakterizə edərkən daha sonra qeyd etmişdir ki, "Hər bir ölkə üçün elektrik enerjisi strateji sahə hesab edilir. Bu gün dünya ölkələrində ərzaq və enerji təhlükəsizliyi üzrə proqramlar qəbul olunaraq icra edilir. Enerji, ərzaq təhlükəsizliyi təmin olunan ölkələrin iqtisadiyyatı isə sabit və davamlı inkişaf edir. Azərbaycan Respublikasında da ərzaq və enerji təhlükəsizliyinin təmin olunması istiqamətində ardıcıl tədbirlər görülür. Ölkəmizin ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da bu sahələrin inkişafı diqqət mərkəzində saxlanılır. Muxtar respublikada yeni elektrik stansiyaları tikilir, əhalinin və iqtisadiyyatın enerjiyə olan tələbatı etibarlı şəkildə ödənilir. Artıq Naxçıvan elektrik enerjisi idxal edən muxtar respublikadan elektrik enerjisi ixrac edən muxtar respublikaya çevrilmişdir. Enerji təminatının yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlər bundan sonra da davam etdiriləcəkdir".

Muxtar respublikanın təbii imkanları külək və günəş elektrik stansiyalarının tikilib-quraşdırılması üçün əlverişlidir. Babək rayonu ərazisində Xal-Xal meşəsi ilə üzbəüz təpəlik sahədə günəş elektrik stansiyasının, Culfa rayonu ərazisində dəmir yolu ilə Araz çayı arasındakı sahədə külək elektrik stansiyasının tikilməsi məqsədəuyğun hesab edilmişdir. Azərbaycan Respublikasında bu işlərlə Bərpa olunan və Alternativ Enerji Mənbələri Dövlət Şirkəti məşğul olur. Şirkət tərəfindən müvafiq ölçü avadanlıqları Naxçıvana göndərilmişdir.

Elektrik enerjisi sektorunda həyata keçirilən bu tədbirlər Azərbaycanın, o cümlədən Naxçıvan Muxtar Respublikasının enerji təhlükəsizliyinə, istehsalat və xidmət sahələrinin sabit enerji ilə təminatının yaxşılaşdırılmasına mühüm töhfədir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev muxtar respublikanın enerji təhlükəsizliyinin təmin olunması sahəsində görülən işləri yüksək qiymətləndirərək demişdir: "Enerji təhlükəsizliyi əsas məsələdir və bu gün də bu, Naxçıvanda öz həllini tapır. Əminəm ki, gələcəkdə bu sahədə əlavə tədbirlərin görülməsi nəticəsində Naxçıvandan qonşu ölkələrə daha da böyük həcmdə elektrik enerjisinin ixracı mümkün olacaqdır".

Muxtar Respublikanın energetika sisteminin idarəçiliyi Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Xidmətinə həvalə edilmişdir. Xidmət Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 10 aprel tarixli Fərmanı ilə təsdiq edilmiş Əsasnaməsinə uyğun olaraq fəaliyyət göstərir. Xidmət elektrik enerjisi istehsalı, ötürülməsi, elektrik enerjisi təchizatı və realizə edilməsi sahəsində dövlət siyasətini və tənzimlənməsini həyata keçirən mərkəzi icra hakimiyyət orqanıdır.

Xidmət öz fəaliyyətində Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının konstitusiyalarını, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri və öz Əsasnaməsini rəhbər tutur.

Xidmət müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri yerinə yetirir:

- müvafiq sahədə qanunvericiliklə müəyyən edilmiş hallarda normativ tənzimləməni həyata keçirmək;
- elektrik enerjisinin istehsalı və elektrik təchizatı sahəsində müəyyən olunmuş dövlət siyasətini həyata keçirmək;
- muxtar respublikada elektrik enerjisini bölüşdürmək və elektrik enerjisindən qənaətlə istifadə olunmasına nəzarət etmək;
- elektroenergetika sahəsində investisiyaların, o cümlədən xarici investisiyaların cəlb olunmasına iştirak etmək və bu sahədə müvafiq tədbirlər görmək;
- hüquqi və fiziki şəxslər tərəfindən elektrik enerjisindən səmərəli və qənaətlə istifadə olunmasına nəzarət etmək;
- Azərbaycan respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin Naxçıvan Muxtar Respublikasında həyata keçirilməsini öz səlahiyyətləri daxilində təmin etmək Naxçıvan Muxtar Respublikasının enerji təhlükəsizliyi bütün istiqamətlərdə möhkəmləndirilməkdədir. Belə ki, institusional islahatlarla yanaşı, yüksək texnoloji avadanlığı ehtiva edən xarici sərmayələrin cəlb edilməsi, yerli kadr potensialının gücləndirilməsi, yüksək ekostandartların enerjiyə qənaət prinsipinin tətbiqi və s. istiqamətlərdə həyata keçirilən tədbirlər onu göstərir ki, qeyd olunan sahələrdə rəhbərlik Azərbaycan Respublikasının istiqamətləndirdiyi qabaqcıl Avropa ölkələrinin təcrübəsinə uyğun qurulmaqdadır. Arpaçay Su Elektrik Stansiyasının işə salınması zamanı Ali Məclisin Sədri muxtar respublika energetiklərinin öz üzərlərində işləyərək bilik və bacarıqlarını artıracaqlarına, energetika sisteminin qorunmasına və bu sahənin səmərəli işlədilməsinə töhfələrini verəcəklərinə əminliyini bildirmiş, daha sonra qeyd etmişdir ki, energetika sahəsində ixtisaslı kadrların hazırlanması vacib məsələdir. Hazırda Naxçıvan Dövlət Universitetində bu sahə üzrə müvafiq ixtisas açılmışdır. Energetiklər yaradılan şəraitdən səmərəli istifadə etməli, ixtisaslı mütəxəssis kimi yetişməli, qurulanlar qorunmalı və onlardan səmərəli istifadə edilməlidir.

**ƏDƏBİYYAT**

1. Корра Д., Жюйар П. Международное право. Уцебник, перевод с франц. В.П.Серебренникова, В.М.Шумилова, М.: Международные отношения, 2001,с. 363, 365
2. Juillard P. Chronigue de droit international economigue? Annuaire Erangais de Droit International (1994)
3. Schroth H.J. Energy Charter Treaty (ECT) in the Context of the Treaties of the European Union / H-J Schroth // Walde T, The Energy Charter Treaty: East-West Gateway of Inwestment and Trade / T.walde (ed.)- London: Kluwer, 1996, p. 245
4. Бамбергер С. Обзор Договор к Энергетической Хартии / к Энергетической Хартии: путь к тнвестициям и торговли для Востока и Занада. М., 2002,с. 55-90
5. Qayıdış: 1990-1993/ tərt. Ə.Həsənov; bur. məsul V. Talıbov.- Təkmilləşdirilmiş və yenidən işlənmiş II nəşri. – Bakı, Azərbaycan, 2008, 8-12
6. Həbibbəyli İ. Heydər Əliyev dövlətçilik təlimi və müasir dövr. Naxçıvan, Əcəmi, 2013, s 225
7. Azərbaycan respublikası Milli Məclisinin arxivi. Naxçıvan Muxtar Respublikası Alı Məclisi Rəyasət Heyətinin qərarları. f. 2241, siy.la, işl, s. 44
8. Prezident İlham Əliyev Ordubad Su Elektrik Stansiyasının təməlqoyma mərasimində iştirak edib// "Respublika" qəzeti, 12 yanvar 2017-ci il.

**ABSTRACT**

**Seymur Talıbov**

**CHAIR OF INTERNATIONAL RELATIONS**
**THE PLACE OF THE NAKHCHIVAN AUTONOMOUS REPUBLIC IN THE REGIONAL ENERGY COOPERATION OF THE REPUBLIC OF AZERBAIJAN**

The article explores the role and place of the Nakhchivan Autonomous Republic in the regional energy cooperation of the Republic of Azerbaijan. The cooperation of the Autonomous Republic with the regional states in the energy sector is scientifically justified and the legal basics of the signed agreements are interpreted. Future prospects of international cooperation of the Nakhchivan Autonomous Republic in the field of energy are also presented.

**РЕЗЮМЕ**

**Сеймур Талыбов**

**МЕСТО НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ В РЕГИОНАЛЬНОМ ЭНЕРГЕТИЧЕСКОМ СОТРУДНИЧЕСТВЕ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

В статье исследуется место и роль Нахчыванской Автономной Республики в Региональном сотрудничестве Азербайджанской Республики в области энергетики. Научно обосновывается сотрудничество автономной республики с регионными государствами в области энергетики и откомментируются правовые основы заключенных договоров. Указываются возможности будущих перспективов международного сотрудничества Нахчыванской Автономной Республики в области энергетики.

NDU-nun Elmi Şurasının 19 oktyabr 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 02).

**QƏRİB ALLAHVERDİYEV**
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 1.091**

# AZADLIĞIN FƏLSƏFİ TƏRİFİ HAQQINDA

**Açar sözlər:** *azadlıq, milli müstəqillik, həyat tərzi, ümumbəşəri dəyər, sosial zərurət, azad fəaliyyət, demokratiya, sosial subyekt*

**Keywords:** *freedom, national independence, way of life, universal value, social necessity, free activity, democracy, social subject*

**Ключевые слова:** *свобода, национальная независимость, образ жизни, всеобщая ценность, социальная необходимость, свободная деятельность, демократия, социальный субъект*

Məlumdur ki, azadlıq təkcə ümumbəşəri dəyər və cəlbedici ideya olmaqla məhdudlaşmır, həm də insanların gündəlik həyatı ilə bilavasitə bağlı olan fəaliyyət prinsipi kimi çıxış edir. Buna görə də fəlsəfi fikir tarixində heç elə bir mütəfəkkir olmamışdır ki, o azadlığa öz münasibətini bildirməsin. Nəticədə əsrlər bir-birini əvəz etdikcə azadlığın izahına dair çoxlu müxtəlif, bəzən də bir-birinə zidd baxışlar və mövqelər qərarlaşmışdır. Bununla belə cəmiyyətin inkişafı gedişində, onun idrakı potensialı artdıqca və sosial praktikası zənginləşdikcə, azadlıq haqqında təsəvvürlər təkmilləşir, tədricən onun adekvat elmi anlamı formalaşır. Bu münasibətdə müasir cəmiyyətin yaşadığı açıq, demokratik ictimai quruluşa keçid dövrü xüsusilə səciyyəvidir. Milli müstəqillik əldə etdikdən sonra ölkəmiz totalitar rejimin qalıqlarını qətiyyətlə aradan qaldırmaq, cəmiyyət həyatının bütün sferalarında əsaslı dəyişikliklər etməklə, hüquqi dövlət və vətəndaş cəmiyyəti qurmaq strateji məqsədini həyata keçirməyə başladı. Xalqımızın ümummilli lideri Heydər Əliyev bu dövrdə qazanılmış mühüm nailiyyətləri ümumiləşdirməklə, qarşıda aşağıdakı mühüm vəzifələrin durduğunu irəli sürmüşdür: "daxili siyasət Azərbaycanda demokratik, hüquqi dövlət qurmaq, bazar iqtisadiyyatı yaratmaq və iqtisadi islahatlar aparmaqdan, Azərbaycanın hər bir vətəndaşına azad, sərbəst yaşamaq hüquqlarının qorunmasını təmin etmək və öz rifah halını yaxşılaşdırmaq imkanları yaratmaqdan ibarətdir" (1, s. 90-91).

Gələcəyə inamla addımlayan Azərbaycanın indiki prezidenti İham Əliyev, əsası Ulu Öndər tərəfindən qoyulmuş siyasi xətti uğurla yerinə yetirir. Son dövrlərdə iqtisadiyyatın bütün sahələrində həyata keçirilən dərin islahatlar və onların nəticəsində əldə olunan mühüm nailiyyətlər, regionların sosial-iqtisadi tərəqqisini təmin etməyə yönələn proqramlar, işsizliyin və yoxsulluğun azaldılması, əhalinin sosial rifahnın yüksəldilməsi, vətəndaş sübhünün bərqərar olması sivil demokratik dəyərlərin durmadan genişlənməsi dövlətçilik ənənələrinin inkişafı, Azərbaycanın irimiqyaslı trans milli enerji layihələrinin fəal iştirakçısına çevrilməsi, uğurlu xarici siyasət xəttinin yeridilməsi və ölkəmizin beynəlxalq nüfuzunun möhkəmlənməsi və dünya birliyi ölkələrinə güclənməkdə olan inteqrasiyası buna aydın sübutdur. Qazanılmış uğurları daha da inkişaf etdirmək əzmini nümayiş etdirən prezident İlham Əliyev andiçmə mərasimində demişdir:

"Heydər Əliyevin əsəri olan müasir Azərbaycan dövləti bundan sonra daha da güclənəcək, zənginləşəcək və hərtərəfli inkişaf edəcəkdir" (2, s.628)

Ölkəmizdə həyata keçirilməkdə olan mürəkkəb və geniş miqyaslı vəzifələrin uğurlu həlli, sosial-fəlsəfi tədqiqatlar sahəsində də vaxtı çatmış problemlərin araşdırılmasını təkidlə tələb edir. Söhbət hər şeydən əvvəl, cəmiyyət həyatının bütün tərəflərində gedən real proseslərin bütün dolğunluğu və hərtərəfliliyi ilə obyektiv elmi təhlilini verməkdən, onların səmərəliliyinin artırılmasını və sürətlənməsini stimullaşdıran şərtləri və amilləri aşkara çıxarmaqdan gedir. Belə problemlər sırasında azadlığın elmi fəlsəfi konsepsiyasının yaradılması xüsusi önəm kəsb edir. Bu onunla şərtlənir ki, cəmiyyətdə baş verən sosial, iqtisadi, siyasi, mənəvi və sair dəyişiklikləri adekvat

anlamaq üçün, onların yaradıcısı olan insanın mahiyyətini hərtərəfli dərk etmək tələb olunur ki, bu azadlığın dərindən və hərtərəfli araşdırılmasından kənarda qeyri-mümkündür. Məhz azadlıq sosial subyektin başlıca səciyyəsi olmaqla, ictimai fəaliyyətin özülünü və mənbəyini təşkil edir. Nəzərdə tutulmalıdır ki, demokratikləşmə, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu dövründə azadlıq öz inkişafında yeni keyfiyyət mərhələsinə daxil olur, onun mahiyyəti dərinləşir, məzmunu və miqyasları sürətlə genişlənir. Buna müvafiq olaraq, ictimai fəaliyyətin bütün sahələrində azadlığın rolu və təsir dairəsi artır. Azad seçim, qərar qəbul etmə və onu müstəqil həyata keçirmək, sosial subyektlərin yüksək yaradıcı fəallığının və güclü mənəvi potensialının dolğun reallaşmasının zəruri şərtinə çevrilir.

Buradan aydın olur ki, azadlıq problemini obyektiv və hərtərəfli elmi təhlil etmək, onun araşdırılmasında mühüm töhfələr vermiş klassik fəlsəfi irsə arxalanmaqla, müasir sosial reallığın yaratdığı yeni cəhətləri və meyilləri dərindən öyrənib, ümumiləşdirmək sosial fəlsəfənin qarşısında duran ən aktual vəzifələrdəndir.

Hər şeydən əvvəl qeyd olunmalıdır ki, ümumbəşəri universal dəyərlər sistemində xüsusi yer tutan azadlıq, ümumi və mücərrəd məzmuna malik olmayıb, konkret-tarixi səciyyə daşıyır, onun mahiyyəti və məzmunu, reallaşması miqyası, mövcud ictimai quruluşun xarakteri və inkişaf səviyyəsi ilə şərtlənir. Bu mənada yanaşdıqda, müasir dövr azadlığın məzmunu və həyata keçirilməsində keyfiyyətcə yeni, daha yüksək pilləni ifadə edir. Yaşadığımız açıq, demokratik cəmiyyət şəraitində bütöv bir tam kimi götürülən ictimai həyatın bütün tərəflərində baş verən əsaslı transormasiya prosesləri, totalitarizmin qətiyyətlə aradan qaldırılması, köhnə ictimai strukturların ləğv edilməsi və sosial həyatın təşkilinin yeni formalarının tətbiqi miqyasının genişlənməsi, insanların müxtəlif sahələrdə real azadlıqlarının inkişafında yeni-yeni üfüqlər açır. Müstəqil vətənimizin daxili siyasətinin əsas strateji məqsədlərinin – demokratik cəmiyyət, hüquqi dövlət və vətəndaş cəmiyyəti qurmaq yolunda qazanılan uğurlar azadlığın məzmununun genişləndirilməsi və həyata keçirilməsi üsullarının təkmilləşməsi ilə müşayiət olunur. Müasir Azərbaycan dövlətinin yeritdiyi uzunmüddətli düşünülmüş səmərəli xarici siyasəti, dünya birliyi ölkələrinə getdikcə daha möhkəm inteqrasiya olunma xətti, buna əlverişli beynəlxalq təminat yaratmaqla yanaşı, azadlığın reallaşmasında dünya təcrübəsindən səmərəli bəhrələnmək, onu xalqımızın və regionun tarixi, milli özünəməxsusluqları və xüsusiyyətləri ilə düzgün əlaqələndirməyi tələb edir. Bu vəzifənin uğurlu həlli, müvafiq elmi axtarışların intensivləşməsinə zərurət yaradır.

Azadlıq, insanların gündəlik həyatı və fəaliyyəti ilə bilavasitə bağlıdır. O eləcə də hər bir insanın maraqlarından və ümumilikdə cəmiyyətin mənafelərindən ayrılmazdır. Buna görə də cəmiyyətin bütün üzvləri azadlığa dərin maraq göstərirlər. Lakin cəzbedici ideya və ümumbəşəri dəyər olan azadlığın real həyatı tərəfini dəqiq və hərtərəfli təsəvvür etmək üçün, ilk növbədə onun elmi-nəzəri anlamına malik olmaq tələb olunur. Fəlsəfi və ictimai fikir tarixində azadlıq ideyasına münasibət bildirməyən mütəfəkkir demək olar ki, yoxdur. Bununla yanaşı qeyd edilməlidir ki, o, son dərəcə geniş məzmuna və mürəkkəb mahiyyətə malik olduğundan, tarixi prosesdə dəyişkən və çevik xarakter daşıdığından, çox müxtəlif mənalarda (hətta bəzən bir-birinə zidd) izah olunmuşdur. Azadlığın bu keyfiyyətini vurğulayaraq Hegel yazırdı:

"Heç bir ideya haqqında azadlıq barəsində olduğu qədər tam hüquqla demirlər ki, bu ideya qeyri-müəyyəndir, çoxmənalıdır, ən böyük anlaşılmazlıqlar doğura bilir və buna görə həqiqətən də doğurur" (3, s. 291).

Azadlıq, sosial-fəlsəfi anlayılar və kateqoriyalar sistemində xüsusi yer tutur. Bu, hər şeydən əvvəl onunla şərtlənir ki, həmin anlayış insanın mahiyyətinin özülünü təşkil edən həyati tələbatı ifadə edir. Söhbət, sosial yaradıcı və fəal subyekt olan insanın obyektiv zərurəti öz azad iradəsi vasitəsilə dərk etməyə, qarşısına qoyduğu məqsədi reallaşdırmağa olan tələbatından gedir. Sözügedən mənada azadlıq, insanın mahiyyət qüvvələri sırasında son dərəcə yüksək əhəmiyyətə malikdir. Əslində, ondan kənarda insanın öz sosial fəal mahiyyətini reallaşdırması, irəli sürdüyü məqsədi yerinə yetirməsi və şəxsiyyət kimi inkişafı praktiki olaraq qeyri-mümkündür. Ümumilikdə götürdükdə azadlıq ictimai münasibətlər sistemində müstəsna dərəcədə böyük rol oynamaqla, insanın nəsli mahiyyətini və sosial keyfiyyətini təmərküzləşmiş formada səciyyələndirir.

Fəlsəfə, azadlıq anlayışının qnoseoloji və sosioloji təhlilini verərkən, onları nisbi müstəqil,

eyni zamanda bir-birilə ayrılmaz vəhdətdə götürür. Birinci səpgi, həmin anlayışa, insanlar arasında real münasibətlərin və obyektiv asılılığın əks olunması səviyyəsi kimi yanaşır, bu inikasın mahiyyətini və adekvatlıq dərəcəsini müəyyən edir. Azadlığın sosioloji planda təhlili isə, onun ictimai hadisələr və münasibətlər sistemində, sosial subyektlərin inkişafında yerini, rolunu və əhəmiyyətini açır.

Azadlığın obyektiv elmi təhlilinin başlıca metodoloji prinsipini, onu ifadə edən qnoseoloji inikasın spesifikliyinin, təbiəti və mexanizminin, sosial həyatda rolunun mövcud ictimai münasibətlər sistemi və cəmiyyətin inkişafı səviyyəsi ilə ayrılmaz əlaqədə götürülməsi təşkil edir.

Ümumilikdə fəlsəfədə azadlığa dərk olunmuş zərurət kimi yanaşılması ənənəsi geniş yayılmışdır. Onun kökləri B. Spınozanın elmi yaradıcılığına gedib çıxır (4, s. 132). Sonralar bu fikir F.Engels tərəfindən "Anti-Dürinq" əsərində yenidən vurğulanmışdır. O, azadlığın mahiyyətini aşağıdakı kimi ifadə edirdi: "Azadlıq özümüzü xəyalən təbiət qanunlarından asılı olmamaqda deyil, bütün qanunları dərk etməklə və bu biliyə əsaslanmaqla, təbiət qanunlarını planlı surətdə müəyyən məqsədlərə yönəltmək imkanları əldə etməkdədir. Bu, həm xarici təbiət qanunlarına, həm də insanın cismani və mənəvi varlığını idarə edən qanunlara aiddir" (5, s. 116).

F.Engels qeyd edirdi ki, azadlıq zərurət haqqında biliklərə əsaslanır. Təbiətin və cəmiyyətin inkişaf qanununauyğunluqlarının dərk olunması azadlığın özülündə durur.

Müasir sosial-fəlsəfi ədəbiyyatda azadlığın ümumi tərifi demək olar ki, yoxdur. Müəlliflərin böyük əksəriyyəti onu dərk olunmuş zərurət kimi göstərməklə məhdudlaşırlar. Fikrimizcə, belə yanaşma müəyyən elmi maraq kəsb etsə də, onunla kifayətlənmək olmaz. Əvvəla, bu halda zərurətin nə olduğu və onun necə dərk edildiyi məsələsi açıq qalır (qeyd edək ki, onun özü də birmənalı və eyni səviyyəli proses olmayıb, müxtəlif daxili pillələrdən keçir). Digər tərəfdən, azadlığın zərurət ilə münasibətləri ön plana çəkilir, həmin anlayışın daxili məzmunu, mühüm və fərqləndirici əlamətləri lazımi dərəcədə üzə çıxarılmır.

Ümumilikdə fəlsəfi ədəbiyyatda azadlıq anlayışının izahında iki baxış (həddən artıq məhdud və həddən ziyadə geniş) mövcuddur. Birinci öz ifadəsini "Fəlsəfə ensiklopediyası"nda verilən aşağıdakı tərifdə tapmışdır: "Azadlıq dərk olunmuş zərurət və insanın hərəkətlərinin öz biliklərinə müvafiq olması, hərəkətlərində seçim imkanları və seçmə qabiliyyəti deməkdir" (6, s. 559).

Göründüyü kimi, burada azadlıq anlayışı yalnız dərk olunmuş zərurət və insanın malik olduğu biliklər əsasında seçim etmə qabiliyyəti kimi səciyyələndirilmişdir. Başqa sözlə deyilsə, azadlığı şərtləndirən obyektiv və subyektiv amillər açılmamış, eləcə də onun sosial-psixoloji sövqediciləri kənarda qalmışdır.

Digər ifrad hədd azadlığın həddən geniş mənalandırılması mövqeyi, ona L.Stoloviçin verdiyi tərifdə əks olunur:

"İstənilən fəaliyyət növü – dünyanın dəyişdirilməsi, onun dərk olunması, dəyərlərin mənimsənilməsi, hətta insanlar arasında ünsiyyət də azadlıq kimi göstərilə bilər. Azad fəaliyyət zərurətin dərk olunmasını, nəyinsə məharətlə və incə şəkildə yaradılmasını, əmək materiallarının və vasitələrinin xassələrinin, habelə fəaliyyətin yönəldiyi istiqamətin düzgün müəyyənləşdirilməsini nəzərdə tutur" (7, s. 67).

Bu tərifə diqqətlə nəzər saldıqda məlum olur ki, o hər şeyi əhatə edir. Sosial həyatda heç nə ondan kənarda mövcud deyildir. Fikrimizcə, azadlığa bu cür yanaşılması da özünü doğrultmur, çünki o qeyri-aşkar şəkildə olsa da, belə bir səhv təsəvvür yaradır ki, guya sosial elmdə "azadlıqdan" başqa anlayış yoxdur və lazım da deyildir.

Azadlığa tərif vermək çətin olsa da, onun məna yükünün müəyyənləşdirilməsinə cəhd göstərmək, olduqca vacibdir. Fikrimizcə, azadlığın sosial-fəlsəfi məzmununun açılması baxımından bizim təklif etdiyimiz aşağıdakı tərif məqbul hesab oluna bilər.

"Azadlıq mövcud cəmiyyətin yaratdığı şərait və imkanlar çərçivəsində insanın, biliklərə və sosial təcrübəyə əsaslanmaqla, malik olduğu potensial həyat qüvvələrini, öz tələbatlarını, maraqlarını və arzularını aktiv və sərbəst reallaşdırmaq qabiliyyətidir".

Bu tərif ona görə elmi maraq doğurur ki, onda azadlığın məzmununu müəyyən edən bütün əsas əlamətlər sadalanır. Bununla yanaşı, məntiqi vurğu iki başlıca tərəf üzərində mərkəzləşir. Birinci, insan yalnız o vaxt müəyyən istiqamətdə azad seçim edə və fəaliyyət göstərə bilər ki, bunun

üçün real şərait yetişsin və subyekt mövcud alternativlər haqqında hərtərəfli biliyə malik olsun. Digər mühüm məqam, insanın öz tələbatları, maraqları və məqsədi barədə dəqiq və aydın təsəvvürə malik olmasıdır. Yeri gəlmişkən, bəzən fəlsəfi ədəbiyyatda sonuncu tərəfin rolunu kifayət qədər qiymətləndirməmək hallarına rast gəlinir ki, bu doğru deyildir (8, s. 166).

Qeyd etmək lazımdır ki, azadlığa forma etibarilə necə tərif verilməsindən asılı olmayaraq, belə bir cəhət daim diqqət mərkəzində tutulmalıdır: azadlıq insanın daxili mahiyyətindən irəli gələn atributiv keyfiyyətdir, yəni o kiminsə tərəfindən verilən, müvvəqqəti və təsadüfi xassə deyildir. Onun təməlini fəal və yaradıcı varlıq olan insanın şüurlu seçimi təşkil edir. Bu seçim özbaşına deyil, mövcud zərurətin hüdudları və yaratdığı imkanlar çərçivəsində həyata keçirilir və onlardan kənara çıxa bilməz. Digər tərəfdən,obyektiv zərurət ilə insanın azadlığı arasında münasibət öz xarakterinə görə qəti və birmənalı deyildir. Başqa sözlə deyilsə, insan şüurlu mövcudat olduğu üçün, konkret şəraitdə obyektiv şəraitin diqtə etdiyi mümkün olan variantlar arasında azad seçim edərək, onlardan birinin üzərində dayanır və onu həyata keçirmək barədə azad qərar qəbul edir. Bundan sonra onun azadlığı, həmin qərarla bağlı məqsədin müəyyən edilməsində, onu reallaşdırmağın yolları və vasitələrinin axtarılıb tapılmasında, seçilməsində, onların həyata keçirilməsində ifadə olunur.

Deyilənlərdən aydın olur ki, azadlığın ən ümumi anlamı belə, onu ani baş verən bir akt kimi təsəvvür etmir, bir-birilə sıx qarşılıqlı əlaqədə olan bir sıra ardıcıl fazalardan keçən uzun proses halında götürür. Bu prosesin əsas mərhələləri aşağıdakılardır: təbiət və ictimai həyat haqqında biliklərə əsaslanmaqla, subyektin öz iradəsi ilə real həyatdakı alternativlərdən birini seçməsi, onu reallaşdırmaq istiqamətində məqsəd irəli sürməsi, bunun üçün səmərəli yollar və vasitələr müəyyən etməsi və onları yerinə yetirməsi.

## ƏDƏBİYYAT


1. Heydər Əliyev. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Bakı, Universiteti nəşriyyatı, 2001, 132 s.
2. Mehdiyev R.Ə. Milli məfkurə, dövlətçilik, müstəqillik yolu ilə: II c., Bakı, YEN, 2006, 671 s.
3. Гегель. Сочинения: В 14-ти т. Т.3, М.: Мысль, 1966, 484 с.
4. Спиноза Б. Избранные произведения: В 2-х т. Т.1, М.: Мысль, 1957, 527 с.
5. Engels F. Anti Düring. Bakı: Azərnəşr, 1988,522 s.
6. Fəlsəfə ensiklopedik lüğəti. Müəlliflər kollektivi. Bakı, Azərbaycan Ensiklopediyası, 1997, 520 s.
7. Столович Л.Н. Жизнь – творчество – человек. М.: Мысль, 1989, 319с.
8. Davidoviç V. Azadlıq. Bakı: Gənclik, 1971, 217 s.


## ABSTRACT


**Garib Allahverdiyev**


## ABOUT THE PHILOSOPHICAL DEFINITION OF FREEDOM


In the article the views about the philosophical definition is investigated. It is noted that there is no general definiton of freedom, most of the authors are restricted showing it as understood necessity that even if it has certain scientific interest, you can not be content with it. In the explanation of freedom , two reviews which are extremely restricted and extensive are reviewed. In these reviews it is emphasized that the objective and subjective factors causing freedom are not opened. Failure to open these factors creates such a wrong idea that supposedly in the social science there is no concept other that freedom and it is not necessarily.

In the article in terms of the opening of social- philosophical content of freedom the following definition is given:

“ Freedom is the ability to effectively and freely realize potential human power, its needs, interests and desires, based on knowledge and social experience within the framework of the conditions and opportunities created by the existing society”.

This definition creates scientific interest because it lists all the key elements that determine the content of freedom in it. At the same time, the logical focus focuses on the following idea: a person can only make free choice in that particular situation, so that the real situation can grow and that the subject has a comprehensive knowledge of the available alternatives.


**РЕЗЮМЕ**

**Гариб Аллахвердиев**

**О ФИЛОСОФСКОМ ОПРЕДЕЛЕНИИ СВОБОДЫ**

В статье исследуются взгляды на определение свободы в философской литературе. Отмечается, что у свободы нет общего понятия, большинство авторов ограничиваются показанием ее как осознанной необходимости, хотя это определение и вызывает определённый научный интерес, ограничиваться им нельзя. Рассматриваются два взгляда на объяснение понятия свободы – чрезмерно ограниченный и чрезмерно широкий. Выделяется нераскрытие в этих взглядах объективных и субъективных факторов, обуславливающих свободу. Нераскрытие этих факторов порождает ошибочное представление о том, что в социальной науке "не существует понятия кроме свободы и нет в этом необходимости".

Для раскрытия социально-философского содержания свободы , в статье дается нижеследующее ее определение:

"Свобода – это способность человека активно и свободно реализовывать свои потенциальные жизненные силы, свои потребности, интересы и желания, которыми он обладает в пределах условий и возможностей, созданных существующим обществом".

Это определение вызывает научный интерес, потому что в нем перечисляются все основные признаки, определяющие содержание свободы. Наравне с этим, логическое ударение централизуется на следующей мысли: человек может сделать свободный выбор в определенном направлении только тогда, когда созрели все реальные условия для этого и субъект обладает всесторонними знаниями о существующих альтернативах.



NDU-nun Elmi Şurasının 19 oktyabr 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 02).

**YUSİF HÜSEYNOV**
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 1.091**

# AZƏRBAYCANIN İLKİN MAARİFÇİ MÜTƏFƏKKİRLƏRİNİN MİLLİ MAARİFÇİ FƏLSƏFİ ŞÜURUN TƏŞƏKKÜLÜNDƏ ROLU

**Açar sözlər:** *mollanəsrəddinçilər, maarifçilik*, *Q.B.Zakir, İ.Qutqaşınlı , A.Bakıxanov, milli maarifçi-fəlsəfi şüur*

**Key words:** *Nasreddinists, enlightenment, G.B.Zakir, I.Gutgashynli, A.Bakikhanov, national enlightenment consciousness*

**Ключевые слова:** *молланасреддинисти, просветительство, Г.Б.Закир, И.Гутгашын-лы, А.Бакиханов, национального просветительского сознания*

XIX əsrin 30-40-cı illərində Şimali Azərbaycanın sosial həyatında yeni iqtisadi münasibətlərin bərqərar olması zəminində, milli ədəbi-mədəni mühitin Avropa-rus mədəni-fəlsəfi məkanına inteqrasiyası, millətin təşəkkülü, milli birliyin, milli kimliyin formalaşması prosesi başlamışdı. Yeni formalaşan milli maarifçi-demokratik şüur özündə Şərq və Qərbin dəyərlərinin sintezini əks etdirirdi. Şimali Azərbaycanda Şərq-islam mədəniyyətinin və Rusiya vasitəsilə yeni, modern, qərbyönümlü dəyərlərin vəhdətinin təcəssümü olan realist milli maarifçilik yaranırdı. "İctimai və bədii təfəkkürün məhz maarifçilik mərhələsində Azərbaycanda da antifeodal məfkurənin və realist metodun müstəqil milli tipi yarana bilir. Bu zaman XIX əsrin ortalarında ümummilli ədəbi dilin təşəkkülü başa çatır, demokratizm ideologiya kimi formalaşır, rus və Qərb mədəniyyəti ilə əlaqələr güclənir, klassik romantik poeziyanın, həmçinin Zakir, Vazeh, Bakıxanovun timsalında "yeni dövr" ədəbiyyatının təşəkkülü üçün bilavasitə bədii-estetik ənənələr də öz tarixi keçid və zəmin rolunu icra etməyə başlayır" (1,160). Bu mərhələdə maarifçilik ideyaları feodal-təhkimçilik üsul-idarəsinin maariflənmə yolu ilə islah edilərək hümanistləşdirilməsi, dini-fanatizm, mövhumat, cəhalətin, feodal əsarətinin kəskin tənqid edilməsi və aradan qaldırılması ilə ifadə olunurdu. Bütün bu maarifçi-demokratik şüurun formalaşması M.F.Axundov, H.Zərdabi və onların xələfləri olan mollanəsrəddinçilər üçün bir mənbə rolu oynayır.

Görkəmli Azərbaycan filosofu Heydər Hüseynov "Azərbaycanda XIX əsr ictimai və fəlsəfi fikir tarixindən" əsərində XIX əsr Azərbaycan ictimai-siyasi və fəlsəfi fikrinin köklərini ilk növbədə xalqımızın keçmiş mədəni irsində axtarırdı. O, eyni zamanda XIX əsr Azərbaycan mədəniyyətinin inkişafına rus ictimai və fəlsəfi fikrinin təsirini xüsusi qeyd etmişdir. Bu təsirin mütləqləşdirilməsi isə o dövrün siyasi rejiminin əsas tələblərindən biri idi (2, 6).

Bu dövrün milli maarifçi-demokratik təfəkkürü sosial tərəqqi uğrunda mübarizənin fəlsəfi-nəzəri ifadəsi olub, xalqın şüurunu dini xürafat və cəhalətdən xilas etmək funksiyasını yerinə yetirirdi. İlk zadəgan-bəy maarifçiləri çarizmin müstəmləkəçilik və feodalizmin ictimai-iqtisadi əsaslarına və məfkurəsinə qarşı mübarizə aparırdılar. Qabaqcıl, ziyalı təbəqəsinin irəli sürdüyü maarifçilik baxışlar sistemi islahatlar vasitəsi ilə Azərbaycan xalqının Avropa və Rusiyanın inkişaf yolu ilə irəliləməsini, cəmiyyətin milli zəmində, avropasayağı modernləşməsini nəzərdə tuturdu. Fəlsəfə üzrə elmlər doktorları, professorlar Ə.Tağıyev, A.Mustafayev və M.Balayev yazırlar: "Şəxsiyyət azadlığı, sosial bərabərlik, humanizm ideyaları ilə silahlanmış maarifçilər ən geniş xalq kütlələrinin maraqlarını ifadə etmişlər. Maarifçilik milli şüura, milli dil və mədəniyyətin inkişafına mühüm təsir göstərmişdir" (3,59). Müəlliflər bu dövrün milli maarifçi-demokratik təfəkkürünün ən qabaqcıl ideyalarla əlaqədar formalaşıb inkişaf etdiyini, milli maarifçi demokratik şüura yenilikçi-modernist cərəyanın təmsilçiləri kimi təsir etdiklərini də qeyd edirlər.

Akademik Ə.Daşdəmirov milli maarifçilikdə Şərq, Qərb, Rusiya demokratik ideya cərəyanlarının təsiri altında özünəməxsus ənənələrin yarandığını qeyd edərək yazırdı: "Bu

ənənələrdə xalq varlığının özünəməxsus fəlsəfi, ədalətli cəmiyyət quruculuğunun mənəvi axtarışlarının yolları və vasitələri güclü antifeodal, antiçarizm, antimüstəmləkə istiqamət ilə birləşmişdi. Onlar maarifçilik ideologiyası və mədəniyyətinin, milli özünüdərkin, milli dirçəliş və tərəqqinin qovuşduğu ənənələr idi.Yeni mərhələdə müasir Azərbaycan mədəniyyətinin çoxəsrlik tarixində ruhi-mənəvi, sosial-fəlsəfi, ideya-estetik əsasları yaradılırdı"(4,33-34). Müəllif maarifçilik ideyalarının milli tərəqqinin və milli maarifçi demokratik təfəkkürün inkişafına təkan verdiyini göstərir, onları etnobirləşdirici xüsusiyyətlərinə və doğma torpağa bağlılıq yaratdığına görə yüksək dəyərləndirir.

Təəsssüf ki, sovet dövrü tədqiqatçıları maarifçilik fəlsəfəsində ən çox "materializm", "ateizm" və "sinfi mənafe" motivləri, "dünyagörüşlərdə müəyyən məhdudluq və ziddiyyətlər, bəzən idealist və dini mahiyyət" axtarırdılar. Müstəqillik dövründə isə fəlsəfədə yeni yanaşma tərzi meydana gəldi. Hazırda Azərbaycan fəlsəfəsi qarşısında duran ən başlıca vəzifə respublikamızın suverenliyinin möhkəmlənməsinə kömək edən milli-mənəvi, mədəni irsi sosial-fəlsəfi aspektdən tədqiq və təhlil etməkdən, müstəqil dövlət quruculuğu prosesində tarixi-milli ənənələrimizdən istifadə edərək yeni mədəniyyətmizin formalaşması və inkişafı üçün sosial-fəlsəfi konsepsiyalar işləyib hazırlamaqdan ibarətdir.

XIX əsrin 30-40-cı illərində fəaliyyət göstərən maarifçiliyin birinci nəslinin nümayəndələri - Q.B.Zakir, İ.Qutqaşınlı, A.Bakıxanov əslində fəlsəfi əqidəcə materialist və ateist olmamışlar. Lakin Azərbaycanda onlar ilk maarifçiliyin-zadəgan maarifçiliyinin milli ideya zəminini yaratmışlar. Akademik F.Qasımzadə milli ictimai fikir tariximizdə maarifçiliyin birinci mərhələsinin 30-40-cı illəri əhatə etdiyini, İ.Qutqaşınlı, Q.B.Zakir, A.Bakıxanov və s. realizmə meyl göstərən yaradıcı qüvvələrin simasında meydana gəldiyini göstərir. Müəllif bu mərhələdə Azərbaycan maarifçiliyinin hələ çox zəif, ibtidai və rüşeym halında olduğunu, milli şüurla bağlı bəzi xüsusiyətləri ilə , ancaq cüzi bir nisbətdə rus maarifçilərinə yaxınlaşa bildiyini diqqətə çatdırmışdır. Sovet dövrünün əksər tədqiqatçıları kimi F. Qasımzadə də ilkin maarifçilərin tərənnüm etdikləri ümummilli dəyərlərdən danışarkən maarifçilərin "kəndli sinfinin nənafeyinə xidmət etmələrini" önə çəkir: "...onların əsərlərində feodal istismarı şəraitində yaşayan Azərbaycan kəndlilərinin ağır vəziyyətinin, kəndli mübarizəsinin təsvirinə rast gəlmirik…İlk maarifçilər vətənpərvərlik, xəlqilik, azadlıq ideyalarını tərənnüm etməklə, avam kütlələrin maarifləndirilməsi məsələsini ortaya atmaqla məhz kəndli sinfinin mənafeyinə xidmət edirdilər" (5,307).

Maarifçilik üzrə tanınmış tədqiqatçı, fəlsəfə üzrə elmlər doktoru X.N.Quliyeva maarifçiliyə yeni, müasir metodoloji aspektdən yanaşmışdır. O, Azərbaycanda maarifçiliyin özünəməxsus xüsusiyyətlərlə təzahür etdiyini göstərərərək yazmışdır: "Əvvəla, maarifçilik dövründə dünya ölkələrinin böyük əksəriyyətindən, habelə Rusiyanın özündəki təhkimçilik hüququ məsələsinə görə və inqilab ölkəsi olmaması faktlarına görə tamamilə fərqlənən Azərbaycan maarifçiliyi ilk növbədə mənəvi üsyanlar, sıçrayışlar xarakteri ilə seçilir. Problemə bu aspektdən yanaşıldıqda isə əlbəttə ki, maarifçi elmi, xüsusilə fəlsəfi, bu istiqamətdə isə fəlsəfi-etik, onunla vəhdət təşkil edən maarifçi estetika öz aktual mövzuları ilə diqqəti cəlb edir" (6,79).

Azərbaycan maarifçiləri öz ideyalarını həyata keçirmək üçün milli mətbuat, milli teatr, təhsil ocaqları, mədəniyyət sahələri kimi kütləvi təsir vasitələrindən istifadə edərək, bu vasitələrin xalqımızın milli maarifçi-demokratik şüuruna təsir edən sivilizasion-mədəni amil olduğunu qeyd etmişlər.

Dövrünün "xalq satiriki və tənqidi realisti" kimi şöhrət qazanan Qasım bəy Zakirin fəlsəfi dünyagörüşü tənqidi realizm və satira zəminində formalaşmışdır. Təsadüfi deyil ki, onu onu tənqidi realizm və satiranın banisi adlandırmışlar. Xalq yazıçısı, akademik Mirzə İbrahimov "Böyük demokrat" əsərində göstərir ki, "Bu satira Azərbaycanda hakim ictimai tendensiyaya qarşı müxalif mövqedə duran bir satiradır" (7,13).

Akademik F.Qasımzadə satira və tənqidi realizmin banisi olan Zakirin maarifçi yaradıcı qüvvələrlə ümumi və fərqli cəhətlərini bəhs edərək yazmışdır: "onları birləşdirən ümumi cəhətlər çox idi: demokratik ruh, ictimai haqsızlıqlara qarşı amansız olmaq, tənqidin özünə şüurlu münasibət, təhkimçi feodal əlaqələrinə nifrət və s." (8,100). Lakin Zakiri digər maarifçilərdən fərqləndirən cəhətlərdən biri"müasir cəmiyyəti, çürüməyə başlayan üsul-idarəni, həmin üsul-idarə

sahiblərinin əxlaq və rəftarlarını, ümumiyyətlə həyatda gördüyü kəsir və nöqsanları tənqid etmək, həm də sadəcə tənqid deyil, ifşa etmək” idi (8,100).

Mollanəsrəddinçilərin də sonralar kəsərli silah kimi istifadə etdikləri ictimai satira və gülüş Zakir yaradıcılığının leytmotivini təşkil edir. Bu gülüşün hədəfi isə cəmiyyətin bütün təbəqələri-bəylər, xanlar, mülkədarlar, çar məmurları, ruhanilər, cahil, nadan, avam insanlar idi. Zakir yeni yaranmaqda olan milli maarifçi-demokratik şüura ictimai ədalətsizliyi ifşa edən satirası ilə təsir edirdi. O, bir maarifçi kimi mənəvi tərbiyə, əxlaq və rəftar tərbiyəsi vasitəsilə cəmiyyətdə ictimai qayda yaratmağın mümkün olduğuna inanırdı.

Tanınmış Azərbaycan filosofu Z.Göyüşov Zakirin yaradıcılığında əxlaq məsələlərinə toxunaraq yazmışdır: “Özünün sosial satiralarında Zakir feodal cəmiyyətinin mənəvi tənəzzülünün səbəblərini çox sənətkarlıqla təsvir etmişdir. O, gözəl ölkəni cəhənnəmə çevirmiş imtiyazlı feodal təbəqələrini, çar məmurlarını rüsvay edirdi”(9,167).

Zakir də bütün digər zadəgan maarifçiləri kimi dini xurafatı və mövhumatı avamlıq və geriliyin səbəbi hesab etmişdir. Bu baxımdan dindən çox, onun bəzi nümayəndələrini, mollaları, seyidləri, qaziləri tənqid edirdi. O, həyatda ağıla, zəkaya və sağlam düşüncəyə xüsusi önəm vermiş, “dünyanın sirlərini zəka ilə dərk etmək olar, yalnız zəka insanı insan edər” demişdir (9,170).

Müstəmləkə rejiminin bəylik mənsəbini aşağı salması, onların torpaqlarının dövlətin ixtiyarına verilməsi Zakirdə çarizmə nifrət yaratmışdı. Lakin o, müstəmləkə rejimi əleyhinə çıxışlarında ehtiyatlı davranırdı.

Zakirin ən böyük xidmətlərindən biri Azərbaycan dilinin inkişaf etdirməsi, zənginləşdirməsi, sadə xalq dilində yazması idi.

Mollanəsrəddinçilərin fəlsəfi dünyagörüşünə təsir edən ilk maarifçilərimizdən biri də İsmayıl bəy Qutqaşınlıdır. İ.Qutqaşınlının 1935-ci ildə Varşavada Fransız dilində nəşr olunmuş maarifçilik ideyalarını ifadə edən “Rəşid bəy və Səadət xanım”əsərinin əsas qayəsi əsasən azad məhəbbəti, humanizmi, yeni insanları, yeni əxlaqı təvazökarlığı, cəsarətliliyi təbliğ etməkdir. İ.Qutqaşınlı xeyirxah insani münasibətlərə, əsil məhəbbətə yer qoymayan feodalizm cəmiyyətini tənqid edirdi. O, Rəşid bəyin simasında zadəgan ziyalılarının yenilikçi nümayəndəsini tərənnüm etmişdir. Əslində İ.Qutqaşınlı bununla milli maarifçi-demokratik şüurda oyanan intibahı göstərmişdir. Maarifçi özünün əxlaqi idealı - zəiflərə və kasıblara kömək etmək, bədbəxtlərə himayədarlıq etmək, cəsarətli, mərd, səxavətli olmaq, xalqın marağını öz doğma marağı bilməkdə görürdü. Z.Göyüşov İ.Qutqaşınlının etik görüşlərindən bəhs edərkən göstərir ki, İ.Qutqaşınlının hekayəsinin qəhrəmanları xoşbəxtliyə çatmaq üçün başqalarının rifahını düşünür, yeri gələndə fədakarlıqlar etməyə hazır olurlar.Onlar “yalnız igidlikləri, xeyirxahlıqları, sadəlikləri və təvəzökarlıqları ilə məşhur olmaqla yanaşı təhsilli və yüksək əqli inkişafları ilə də fərqlənirlər”[(9,161).

İ.Qutqaşınlı ədalətliliyi, ümumiyyətlə xeyirxah mənəvi keyfiyyətləri düşüncənin yüksək inkişafının nəticəsi kimi nəzərdən keçirirdi.

Məhz qərbyönümlü dəyərləri təbliğ etdiyinə görə İ.Qutqaşınlını Azərbaycan “qərbçiləri”nin nümayəndəsi hesab edir və onu:“...fransız-Azərbaycan mədəniyyətini bir-birinə yaxınlaşdıran, müasir ruhlu demokratik maarifçilik ideyalarını ifadə edən, orijinal,yeni tipli janrda yazan realist, təbii,səmimi sənətkar” adlandırırdılar (10,10).

İ.Qutqaşınlını dünya fəlsəfi fikir məkanına qovuşan, milli koloritli, Avropa maarifçiliyi ilə çulğalaşan , “Azərbaycan-Fransa, Azərbaycan-Avropa ədəbi əlaqələrinə körpü salan, Azərbaycan milli-mənəvi dəyərlərini Avropa liberal-demokratik, maarifçilik ideyalarına qovuşduran mütəfəkkir kimi səciyyələndirirlər. “İ.Qutqaşınlı ağlı insanın ən böyük sərvəti hesab edir, müsəlman ruhanilərinə öz mənfi münasibətini bildirir...Qutqaşınlı insan problemini yaşadığı dövrlə, konkret şəraitlə sıx bağlı təsvir etmişdir” (11,93).

XIX əsr Azərbaycan maarifçilik fəlsəfəsinin nümayəndələrindən biri, təbiət elmləri, tarix, məntiq, filologiya və s. sahələr üzrə əsərlərin müəllifi, şair və filosof Abbasqulu ağa Bakıxanov olmuşdur. Onun Azərbaycan maarifçiliyinin ilk dövrünə aid fəlsəfi görüşləri “Əxlaqın tərbiyələnməsi”, “Nəsihətlər kitabı”, “İşıqların yerləşdiyi yer”, “Camalın aynası”, məşhur “Gülüstani-İrəm”, “Qüdsinin bağı”, “Qüdsinin qanunları” əsərlərində əksini tapmışdır.

A.Bakıxanovun fəlsəfi dünyagörüşünün formalaşmasında onun ensiklopedik biliyə malik olması, şəxsi elmi axtarışları, təmsil etdiyi Azərbaycan və şərq mədəniyyəti və fəlsəfəsi ilə yanaşı, Rusiya və Avropa ictimai fikri, fəlsəfi ənənələri ilə tanışlığı mühüm rol oynamışdır. Onun fəlsəfəsinin əsas qayəsi maariflənmə yolu ilə kamil şəxsiyyət yetişdirmək, ədalətli cəmiyyət qurmaq olmuşdur.

Şərq və Qərb mədəniyyətlərini öz yaradıcılığında birləşdirən panteizmə və realizmə meyli ilə şöhrət qazanan ilk maarifçi mütəfəkkirlərdən olan Abbasqulu Ağa Bakıxanov da xalqın inkişafını onun savadlanmasında, elmə, təhsilə qovuşmasında görür, vətənini, xalqını sevir, vətəni və xalqı üçün çalışırdı.

A.Bakıxanovun irsində kamilləşmənin dünyada mədəni-fəlsəfi inkişafla bağlı zəka, elm kimi iki yolu göstərilir. Mahmud Şəbüstəri, Yusif Qarabaği və başqalarının irsində də göstərilən bu iki yol A.Bakıxanovun kamilləşmə konsepsiyası üçün bir təməl rolu oynamışdır. O, əsrinin elmi nailiyyətlərindən çıxış edərək mənəvi təkmilləşmədə elmə, elmlə əməlin (praktikanın) bağılılığına və mövcudatın rasional dərkinə xüsusi əhəmiyyət verirdi. A.Bakıxanovun fəlsəfi və etik görüşləri, əsasən "Əxlaqi kamilləşmə" və "Nəsihət kitabı" əsərlərində öz əksini tapmışdır. Bunlarda fəlsəfənin, fəlsəfi və etik kateqoriyaların tərifi, onların nisbiliyi, mövcudat və səbəbiyyət, inkişaf və qanunauyğunluğun problemlərindən bəhs olunur. Bu problemlərin rasional dərkinin məhz kamilləşən insan tərəfindən reallaşacağını nəzərdə tutan A.Bakıxanov, bu yolla vahid ailə saydığı bəşəriyyətin xoşbəxtliyə çatmasına inanırdı. İctimai görüşlərində kamil insan və təkmil cəmiyyət konsepsiyasından çıxış edən A.Bakıxanov sübut etməyə çalışırdı ki, dünya nizamının əsasını sosial bərabərsizlik təşkil edir.

H.Hüseynov A.Bakıxanovun fəlsəfə, etika, psixologiya və pedaqoqika məsələlərinin geniş yer tutduğu "Təhzib-ül-əxlaq" və "Nəsihətnamə" əsərlərinin təhlili əsasında onun fəlsəfivə etik görüşlərini səciyyələndirmişdir.

Fərdi və ümumbəşəri maraqların vəhdətindən ibarət Bakıxanov etikasında "sinfi əxlaq" anlayışına yer yoxdur, burada xalq etikasından çox "ziyalı etikası" əsas yer tutur. "A.Bakıxanovun "insan nəsli vahid bir ailəni təmsil edir" tezisi onun etik baxışlarına böyük təsir göstərdi. Bu baxışlarda etika məsələlərinə sinfi yanaşma yoxdur"(2,137).

Elmi, maarifi, mədəniyyəti bəşəriyyətin bəzəyi hesab edən A.Bakıxanovu sosial-fəlsəfi görüşlərində feodalizm quruluşu, fanatizm, cəhalət, din nümayəndələri amansız tənqid atəşinə tutulur, elm, maarif, mədəniyyət təbliğ edilirdi.

A.Bakıxanov XIX əsr Azərbaycanın ictimai-fəlsəfi fikir tarixində mühüm yer tutaraq, milli mədəniyyətin modernləşməsi, avropalaşmasında xidmətləri olmuş, özündən sonrakı sosial-fəlsəfi fikrin inkişafında və onun milli liberal, müasir ideyalarla zənginləşməsində humanist bir maarifçi kimi xüsusi rolu olmuşdur.

Akademik F.Qasımzadə A.Bakıxanovu XIX əsrin birinci yarısında yeni tarixi şəraitdə inkişafa başlayan müasir mədəniyyətimizin banilərindən biri sayaraq yazmışdır: "Elm, fəlsəfə və ədəbiyyatımızın xəlqilik və realizm prinsipləri üzrə inkişaf etməsində onun böyük rolu olmuşdur. A.Bakıxanov bir çox köhnə alimlərdən fərqli olaraq elmi dindən və sxolastikadan ayırdı. Ona yeni məzmun, yeni üsul və yeni ruh gətirdi..."(5,164).

A.Bakıxanov feodalizmdən kapitalizmə keçid dövrünün mütəfəkkiri idi. Bu dövrdə yeniliklə köhnəliyin mübarizəsi gedirdi. O, bir tərəfdən yeni elmi-fəlsəfi ideyalar təbliğ edir, digər tərəfdən rəsmi dini ideologiya çərçivəsindən kənara çıxa bilmirdi.

Tanınmış filosof Z.Göyüşov A.Bakıxanovun etik görüşlərində (bütövlükdə dünyagörüşündə-Y.H.) "müşahidə etdiyi ziddiyyətləri, qeyri-ardıcıllığı və eklektikliyi" onun yalnız Şərqdə geniş yayılmış əxlaq nəzəriyyələrindən Avropa etik nəzəriyyələrindən,qədim yunan filosoflarından Aristotel, Sokrat, Epikür, stoiklərdən "fəlsəfi ideyaları deyil, həm də dini kitablardan müxtəlif dini dəyərləri də əxz etməsilə" izah edir[280,198]. Lakin bu heç də Bakıxanovun yaradıcılığında ziddiyyətləri, eklektikliyi göstərmir əksinə, humanist, maarifçi əsərlərindən Qərb və Şərq mədəniyyətinin sintezini yarada bilib. Ona görə də"Təkzibül-əxlaq" kitabının girişində əsərin yazılma səbəbi haqqında yazmışdır:"Mənim tərəfimdən müxtəlif xalqların-islam, yunan, Avropa filosoflarının, görkəmli insanların əsərləri, dini kitabların tənqidi əsasında bu kitabı yazmaq həvəsi yarandı"(12,19).

Abbasqulu ağa Bakıxanov tarixə fəlsəfi aspektdən yanaşıb, onu idrakıvə etik-əxlaqi baxımdan qiymətləndirmişdir. O, "Gülüstani-İrəm" kitabında yazır: "Bu elm (tarix) insanı gözəl əxlaqlı və bilikli edir, ona dolanacaq və yaşayış işlərini öyrədir. Buna görə, onu mənəvi elmlərin qiymətlilərindən hesab edib demək olar: tarix hökmsüz və zülmsüz elə bir hökmrandır ki, bütün Adəm övladı onun əmrlərinə boyun əyməkdədir... Tarix elə bir danışmayan natiqdir ki, sələflərin vəsiyyətlərini bütün təfsilat və təriflərilə xələflərə bildirir, ehtiyac və rifah səbəblərini, tərəqqi və tənəzzül yollarını anladır. Gələcəkdə törəyə bilən əhvalatı keçmişin libasında insanların ibrət nəzərinə çatdırır. Xüsusən hər bir ölkənin tarixi orada yaşayan xalq üçün faydalıdır, çünki tarix ona öz millətinin təbiət və adətlərindəki xüsusiyyətləri bildirər, qonşu tayfaların rəftarından məlumat verər, müxtəlif xalqlarla saxlanan əlaqənin əsas xeyir və zərərini ona məlum edər"(13,9). Böyük mütəfəkkir tarixi yaddaşla milli-mənəvi dəyərlərin vəhdət təşkil etdiyini göstərirdi.

Maarifçi mütəfəkkir maddi aləmi vəhdətdə götürüb, istər yerdəki, istərsə də səmadakı cisimlər arasında qarşılıqlı əlaqə, münasibət olduğunu söyləmişdir. O, bir tərəfdən dini müddəalara, digər tərəfdən qədim alimlərin, habelə XVIII əsr Avropa təbiətşünaslarının təbii-elmi fikirlərinə arxalanaraq həmin nəticəyə gəlmişdir.

Bakıxanov ümumun mənafeyini fərdin mənafeyindən üstün tutmuşdur.

Z.Göyüşov Bakıxanovun mədəni-fəlsəfi irsini yüksək qiymətləndirərək yazır: "Bakıxanovun zəngin mədəni irsi Azərbaycan xalqının mənəvi mədəniyyət tarixində dəyərli mövqedə olub sonrakı Azərbaycan maarifçiləri (o cümlədən mollanəsrəddinçilər-Y.H.) tərəfindən istifadə olunmuşdur" (9,238 ).

Beləliklə, XIX əsrin 30-40-cı illərində Q.B.Zakir, İ.Qutqaşınlı və A.Bakıxanov mollanəsrəddinçilərin dünyagörüşünə realist-maarifçiliyin, zadəgan maarifçiliyinin əsasını qoydu, formalaşmaqda olan milli maarifçi-demokratik şüura ciddi təsir etdilər.

## ƏDƏBİYYAT


1. Qarayev Y. Azərbaycan ədəbiyyatı: XIX və XX yüzillər. Bakı, Elm, 2002
2. Hüseynov H. Azərbaycanda XIX əsr ictimai və fəlsəfi fikir tarixindən. Bakı, Şərq-Qərb, 2007
3. Tağıyev Ə., Mustafayev A., Balayev M. Azərbaycan milli ideyasının meydana gəlməsi və təkamülü. Bakı, ADPU nəşriyyatı, 1994
4. Дашдамиров А. Национальная идея и этничность (Азербайджан -ская идея в этиокультурном интерьере) Москва: УОП ИЭА РАН
5. Qasımzadə F. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi. Bakı, Maarif, 1974
6. Quliyeva X. Maarifçilik dövrü Azərbaycan ədəbi-ictimai fikrində milli-mənəvi əsasların fəlsəfi-etik dərki. (XIX əsrin ikinci yarısı, XX əsrin əvvəlləri) fəlsəfə üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün dissertasiya. Bakı, 2015
7. İbrahimov M. Böyük demokrat. "Molla Nəsrəddin"in ikinci nəşri. Azərbaycan SSR EA nəşriyyatı. 1957
8. Qasımzadə F. XIX əsr Azərbaycan ədəbiyyatında realist-demokratik cərəyanın inkişafı tarixi. Filologiya elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. Bakı, S.M.Kirov adına ADU, 1955
9. Геюшев З. Этическая мысль в Азербайджане.(исторические очер- ки). Баку: Гянджлик, 1968
10. Rəfili M. Qutqaşınlı və onun fransız novellası, ADU –nun əsərləri. Filologiya seriyası. 1940.
11. Кочарли Ф.Ф. Азербайджанско-французские литературные связи в XIX веке (Диссертация на соискание ученой степени кандитата филологических наук). Баку: 1985.
12. Bakıxanov A.Tərzib-ül-əxlaq. Bakı, Azərnəşr, 1981
13. Бакиханов А.А.Гюлистани-и Ирам. Баку, Элм, 1991.
14. Кулизаде З.А.Из истории Азербайджанской философии VII-XVI Баку, Азернешр, 1992.

## ABSTRACT

**Yusif Husseinov**

### THE ROLE OF THE FIRST THINKERS-ENLIGHTENERS OF AZERBAIJAN IN THE FORMATION OF NATIONAL- EDUCATIONAL PHILOSOPHICAL CONSCIOUSNESS

The paper notes formation of the scientific worldview of the Nasreddinists on the basis of the enlightening ideas of Western, Russian, Eastern and Azerbaijani scientists who lived and created before them. In addition, the influence of G.B.Zakir, I.Gutgashynli and A.Bakikhanov on the national-enlightening democratic consciousness in the 30s-40s of the XIX century is investigated.

It is noted that in the 30-40s of the XIX century Q.B. Zakir, I.Gutgashinli and A.Bakikhanov had a serious influence on the formation of the national enlightenment-democratic consciousness, laying the foundation of realist-enlightenment and noble enlightenment.



## РЕЗЮМЕ

**Юсиф Гусейнов**

### РОЛЬ ОСНОВНЫХ МЫСЛИТЕЛЕЙ-ПРОСВЕТИТЕЛЬЕЙ АЗЕРБАЙДЖАНА В ФОРМИРОВАНИИ ФИЛОСОФСКО-ПРОСВЕТИТЕЛЬСКОГО СОЗНАНИЯ НАЦИОНАЛЬНОЙ ОСВЕДОМЛЕННОСТИ

В статье рассматривается , что научное мировоззрение молланасреддинистов формировалось основываясь на просветительских идеи западных, русских, восточных и азербайджанских ученых. Кроме этого исследуется влияние Г. Б.Закира, И. Гутгашынлы и А. Бакиханова на национально-просветительское демократическое сознание в 30-40-х годах XIX века.

Обосновывается, что в 30-40-х годах XIX века В.Б. Закир, И.Гутгашинли и А.Бакиханов оказали серьезное влияние на формирование национального просветительско-демократического сознания, основы реалистического просвещения и благородного просвещения.



NDU-nun Elmi Şurasının 19 oktyabr 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 02).

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2017, № 6 (87)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2017, № 6 (87)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2017, № 6 (87)**

**MƏHƏMMƏD HACIYEV**
*Naxçıvan Dövlət Universiteti*
*mamedhaciyev@yahoo.com*
**BƏHRUZ GÜLMALIYEV**
*Naxçıvan Dövlət Universiteti*
*gulmaliyev.behruz@gmail.com*

**UOT: 1.91; 297**

# FƏLSƏFİ DÜNYA GÖRÜŞÜN FORMALAŞMASINDA DİNİ-İSLAMİ İNANCLARIN YERİ

**Açar sözlər:** *dünyagörüş, islami dəyərlər, fəlsəfə, cəmiyyət, mənəvi dəyərlər*
**Key words:** *outlook, islamic values, philosophy, society, moral values*
**Ключевые слова:** *мировоззрение, исламские ценности, философия, общество, моральные ценности*

Din elmləri arasında aparılan araşdırmalar nəticəsində bu qənaətə gəlinmişdir ki, din duyğusu fitridir. Din duyğusunu qorxu, ümid və ya hər hansı bir vəsilə ilə sonradan qazanılmış məfhum kimi görmək yanlışdır. İnsan yaradılışından bu günə qədər, hər zaman və hər yerdə uca, qüdrətli, əzəmətli bir varlığa sığınma və yardım istəmə ehtiyacı duymuşdur. Bu ehtiyac din duyğusunun fitri bir xüsusiyyətə malik olmasının dəlilidir.

Din insanla bərabər mövcud olmuş, insanla bərabər varlığını davam etdirmiş və insan var olduğu müddətcə din öz varlığını davam etdirəcəkdir. Tarixin hansı dövrünə baxsaq, görərik ki, dinsiz insana rast gəlinsə də dinsiz bir cəmiyyətə rast gəlinməmişdir. Harda bir insan cəmiyyəti varsa, orda mütləq bir din mövcud olmuşdur. İnsanlıq tarixində insanın əsas sayıla biləcək bir çox xüsusiyyətləri mövcud olsa da, din bunların ən öndə gələni olmuşdur. Bəşər yarandığı gündən din öz varlığını qorumuş və insan həyatının ayrılmaz hissəsi olmuşdur. İnsan həmişə təbiət üstü bir varlığa ehtiyyac duymuşdur. Çünki insan mələklə heyvan arası bir yaradılışa malikdir. Bu iki tip varlığın təbiət xətləri insanda sənətkaranə şəkildə birləşdirilmişdir.

İnsanın və ya cəmiyyətin dindən təcrid olaraq qopması mümkün deyil. O, həm tarixi dövrdə, həm də həyatımızın hər nöqtəsində özünü göstərən bir yaradılışa sahibdir. İnsanlara güc verən, cəmiyyəti nizamlayan, fəzilət və yaxşılığa yönəldən, yalnızlığı və sıxıntını yox edən, güvənmək duyğusunu aşılayan, insana dost yoldaş olan başlıca məfhumlardan biridir.

İnsan maddi tərəfi ilə bərabər, mənəvi tərəfi olan bir varlıqdır ki, onun maddi tərəfi ilə bioloji tələbatını, həyati fəaliyyətinin mənəvi tərəfi ilə isə ruhitələbatını ödəməyə ehtiyacı vardır. Onun ruhi ehtiyaclarını qarşılayan, mövcud mənəvi varlıqların ən öndə gələni fəlsəfi-dini düyagörüşüdür. Müəyyən bir mədəniyyətə çataraq, tarixdə yer alan bütün millətlərin mənəvi dünyaları hansısa dini inancla şərtlənmişdir.

Din fərdləri müqəddəs duyğu və vərdişlərdə birləşdirən, cəmiyyəti yüksəldən və inkişaf etdirən bir əqidə formasıdır. Din insanlara yol göstərən, qanun və nizamın olmadığı yerlərdə, cəmiyyəti doğru yola istiqamətləndirən bir həyat nizamıdır. Çünki o, anarxiyanın, özbaşınalığın, ədalətsizliyin, mənfi düşüncələrin və fikirlərin düşmənidir. Onun əsas məqsədlərindən biri cəmiyyətin mənafeyini müdafiə etmək, qorumaqdır. Tarixə nəzər salsaq iqtisadi və maddi baxımdan gücsüz cəmiyyətlərin öz mövcudluğunu qoruduğunun şahidi ola bilərik. Lakin dini duyğuları zəifləmiş, mənəvi baxımdan çökmüş cəmiyyətlər öz varlığını davama etdirmək baxımından diqqət çəkməməkdədir. Dinin zəifləməsi hüquqi və əxlaqi pozğunluqlara yol açar. Çünki, din olmasa əxlaqi davranışların davam etdirilməsi üçün hər hansı bir maraq, həvəs və səbəb qalmaz. Belə olan halda halal-haram anlayışı ortadan qalxar və cəmiyyətin nizamı pozular. İnsanları və insan qruplarını günah işləməkdən heç nə çəkindirə bilməz, anarxiya meydana gələr və cəmiyyət iflas

edər. Lakin hər kəsi və hər şeyi idarə edən, görən bir Yaradanın varlığına inanan insan, daima yaxşı olan əməlləri edib, mənfi əməllərdən qaçmağa səy göstərəcəkdir.

İnsanatəklik, çarəsizlik, qorxu, kədər, xəstəlik, müsibət və fəlakətlər qarşısında yeganə təsəlli olan inam qaynağı dindir. İnsanın ölüm qarşısındakı düşüncəsinin cavablarını məhz din verir. Hansı ki bu düşüncə paklığın, doğruluğun əsasını təşkil edir. Axirətə inanc sadəcə olaraq cəza və mükafat olaraq deyil, eyni zamanda insanın içindəki əbədi həyat duyğusuna cavab vermək baxımındanda önəm daşımaqdadır. İnsan ölümdən deyil, yox olmaqdan qorxar. Ölümdən sonrakı həyata inanc təkcə İslam dininə xas deyil *[9, səh 210]*. Digər bəzi dinlərdə olduğu kimi, İslamda da insan, ölümlə yox olmamaqda, başqa bir dünyada həyatına davam etməkdədir. Bu həyatın xaricindəki başqa bir həyatın möcud olması inancı, insanı həmin həyata alışdırmaqdadır. Günahlardan qurtulub ədbədi bir qurtuluşa çatmaq, hüzura, cənnət kimi böyük bir nemətə qovuşmaq, Allah rızasını əldə etmək, insanda ümid və arzuformalaşdırmaqda, dünyanın sıxıntı və çətinliklərinə qarşı sinə gərməyi təmin etməkdədir. *[3, səh 38, 39, 40, 41]*

Bəşəriyyət tarix boyu həmişə inteqrasiyaya, vahid siyasi, iqtisadi, yaxud sosiomədəni struktur kimi formalaşmağa can atmışdır. Din də həmişə insanların birləşməsi üçün bir vasitə olmuşdur və bunlara təkan vermişdir. Təbii olaraq bu da mədəniyyətlərin rəngarəngliyini, müxtəlifliyini yaratmışdır. Bəşər sivilizasiyasının müxtəlif mədəniyyətlərinin qorunması üçün dinlər və mədəniyyətlər arasında əlaqələrin yaranması böyük əhəmiyyət kəsb etmişdir. Hazırda dünyada müxtəlif əlamətlərə görə təsnif edilən beş mindən çox din var. Yayılma arealına görə dünya dinləri (Buddizm, Xristianlıq, İslam), bir xalqın və ya dövlətin daxilində yayılan milli dinlər (İudaizm, Hinduizm, Daosizm) və o qədər də geniş yayılmayan kiçik dinlərə bölünür.

Məlumdur ki, din dəyərlər sistemi kimi bir çox funksiyalara malikdir. O cümlədən cəmiyyətin idarə edilməsində dinin rolu danılmazdır. *[2, səh 3]*Din bu idarə edilmənin təşkili üçün müəyyən spesifik amillərdən istifadə edir. Bu amillərin bir qisminin (axirət, cənnət, cəhənnəm, ruh, nəfs və.s)dərki insan idrakının xaricində, bir qisminin dərki(əxlaq, ibadət, sevgi və.s) isə insan idrakının daxilindədir.

Dinin əsas təkan verici xüsusiyyəti əxlaq və inancdır. Bütün dinlərin müştərək xüsusiyyətləri cəmiyyətdə əxlaqi keyfiyyətləri formalaşdırmaq və ideal cəmiyyət qurmaqdır. Əlbəttə ki, ideal cəmiyyətin qurulması üçün, həmin cəmiyyəti təşkil edən fərdlərin dinlərin ümumi prinsiplərinə əməl etməsi şərtdir. Din bu prinsipləri irəli sürsədə bəzi hallarda buna riayət olunmur. Bu da öz növbəsində cəmiyyət həyatında müxtəlif neqativ hallara yol açır. Məhz dinlərdəki bəzi inanclar – cənnət, cəhənnəm, cəza, mükafat, insanları bu tip neqativ hallardan çəkindirməyə xidmət edir.

Dini inanclardan ən başda gələni axirət inancı və orada insanı gözləyən cəza və mükafatlardır. Dinlərdəki axirət inancı demək olar insanları mənfi davranışlardan çəkindirən ən birinci ünsürdür. Bu gün axirət inancı olmayan bir şəxs rahat bir şəkildə istədiyi günahı edə bilər və ya özünə qəsd edə bilər Lakin din və dindəki bəzi inanclar insanı bu tip fikirlərdən, vərdişlərdən çəkindirir. Cəmiyyətə nəzər salsaq inancdan kasad olan insanların özlərinə qəsd etdikərini, oğurluq, zina, qumar, yalan, qeybət, riya, kibir kimi əxlaqi dəyərlərə riayət etmədiklərinin şahidi ola bilərik.

Bunun əksinə olaraq isə inanclı insan öz əxaqi keyfiyyətləri, cəmiyyətə yararlılığı, danışıq, davranış və digər xüsusiyyətləri ilə cəmiyyətdə fərqlənər, dəyər verilər.

İnsanlar arasındakı münasibətlərdə meydana çıxan əxlaqi dəyərlər ən bəsit ifadə ilə “yaxşı” və ya “pis” kimi xarakterizə etdiyimiz davranışlarla bağlı dəyərlərdir. Bir insana yardım əli uzatmağı yaxşı, yalan danışmağı isə pis davranış sayırıq. Bu, hərəkətin əxlaq nöqteyi-nəzərindən qiymətləndirilməsidir. Əxlaqi dəyərlər davranışlarımıza yön verən qanun toplusudur. Bu toplu bizə nəyin yaxşı, nəyin isə pis olduğunu bildirir. Deməli, insanın doğru-düzgün həyat tərzi sürməsini əxlaqi dəyərlər müəyyən edir. Bu dəyərlər fərdə insan olma şüurunu aşılayır.

Əxlaq insanda keçici bir hal olmayıb, insanın mənəvi yaradılışında yerləşərək mələkə halını alan keyfiyyətlər toplusudur. Bu səbəbə görə, din alimləri insanların ayda-ildə bir dəfə etdiyi yaxşılığın əxlaqi keyfiyyətlər olmadığını qətiyyətlə bildirmişdirlər. İslam Peyğəmbərinin "əməllərin ən xeyirlisi az da olsa davamlı olanıdır" mənasındakı hədisi bu anlayışın yığcam bir ifadəsidir. *[Buhari, Libas, 43]*

İnsanların çoxu öz məntiqləri ilə dini əxlaqı yaşaya biləcəklərini düşünürlər. Öz məntiqləri ilə din əxlaqı meydana gətirənlərin əsas xüsusiyyətlərindən biri dinin hökmlərini və prinsiplərini

yalnız mənfəətlərinə uyğun olduğu zamanlarda yaşamalarıdır. Bu azğın inanca görə həmin hökmlər və prinsiplər ancaq mənfəətlərinə qarşı olmayanda tətbiq oluna bilər. Əgər cəmiyyətdə təqdir görüləcəksə, "Çox yaxşı insandır", – deyiləcəksə, bu ibadətlərin və gözəl əxlaq xüsusiyyətlərinin edilməsində bir problem görməzlər. Hətta, mümkün olduqca çox təriflənmək üçün müsbət davranışlar göstərərlər. Ancaq hər hansı bir şəkildə cəmiyyətdən mənfi reaksiya təhlükəsi gözlənildikdə, sanki, bu dini məsuliyyətlərdən heç bir xəbərləri yoxmuş kimi davranarlar.

Bu məntiqin kökündə, şübhəsiz ki, bəzi insanların Allahın şanını lazımi şəkildə təqdir edə bilməmələri, axirətin varlığına qəlbən iman gətirməmələri durur. Qısaca inancsızlıq.

Beləliklə aydın olur ki, bütün dinlərin,ələlxüsus ilahi qaynaqlı dinlərin insan cəmiyyətinin formalaşması üçün irəli sürdükləri ümumi məqsədlər eynidir. Lakin son ilahi qaynaqlı din olan İslam bütün dinlərdəki müsbət keyfiyyətləri birləşdirərək bəşəriyyətin sonuna kimi insanların istifadəsinə təqdim etmişdir. İslam dini əxlaqi dəyərlərin bütün incəliklərinə diqqət yetirərək ideal cəmiyyətin qurulmasının yollarını göstərmişdir. Demək olar ki, digər dinlərdəki nöqsanlar, qüsurlar, çatışmazlıqlar İslam dini ilə tamamlanmış və ideal hala salınmışdır.

İslam insanların yalnız feli baxımdan (namaz, oruc, və.s) ibadət etməsini nəzərdə tutmayıb, cəmiyyət nizamını tarazlayan bütün xüsusiyyətlərin hər vəchlə yerinə yetirilməsini nəzərdə tutmuşdur. İnsanların əksəriyyəti İslam əxlaqının yalnız bəzi ibadətlərdən ibarət olduğu barəsində yanlış inanca sahibdirlər. Halbuki, həqiqi din, Allahın (c.c) fərz buyurduğu oruc tutmaq, beş vaxt namaz qılmaq, zəkat vermək, kəlmeyi-şəhadəti söyləmək, həccə getmək kimi ibadətlərlə yanaşı, insan həyatının hər anını əhatə edən xarakterik xüsusiyyətə və insanlara Quranda təsvir edilən dünyagörüş və gözəl əxlaq xüsusiyyətləri qazandırmaq imkanına malikdir. Dininə bağlı, səmimi müsəlman Allahın (c.c) razılığını, rəhmətini və cənnətini qazanmaq üçün həyatının hər anında Quranda təsvir edilən üstün əxlaqı yaşamağa cəhd edir. Heç vaxt və heç bir mühitdə dürüstlüyündən, səmimiyyətindən, mülayim rəftarından, hörmət və sevgisindən, qısaca, gözəl əxlaqından qalmır. Məhz bu səbəblərə görə Quran əxlaqına sahib olan insanların meydana gətirdikləri birliklərdə hər insanın istədiyi üstün xüsusiyyətlər yaşanır.

İslamda əksər ibadətlərin təməli gözəl əxlaq üzərində inşa edilmişdir. Yer üzünə göndərilmiş bütün peyğəmbərlər insanları pis əməllərdən uzaq durmağa çağırmış və əxlaqi dəyərlərin yayılması üçün çalışmışdırlar. Unutmamalıyıq ki, insana dünya və axirət yurdunda zərər verən hər şey, pis əxlaqdan qaynaqlanmaqdadır.

Quranda tanrı-insan əlaqəsi peyğəmbərlik (nübuvvət) sistemi ilə təmin edilmişdir. Allah, insanlara bildirmək istədiyi əmr və qadağaları peyğəmbərləri vasitəsilə çatdırmışdır. *[1, səh 92]* Hz.Məhəmməd (s.a.s) bundan on beş əsr əvvəl son din olan İslam və onun ilahi hədiyyəsi olan Qurani-Kərimlə bəşəriyyətin üfüqünü nurlandırmışdır. *[4, səh 5]*

Ayrı-ayrı mənbələri araşdırarkən belə bir fikir formalaşır ki, sonuncu peyğəmbərimiz Hz.Məhəmmədin (s.a.s) özü də yüksək əxlaq sahibi idi. O, əsla boş söz söyləməz, hər kəlamı hikmət və nəsihət idi. Əsla dedi-qodu etməz, pis və boş sözlər işlətməzdi. Hər kəsin ağlına və idrak səviyyəsinə görə danışardı. Daim təbəssüm göstərədi. Onu qəfildən görən şəxsi qorxu bürüyər, lakin, Onunla dostluq və söhbət edən şəxs Ona canı-könüldən məftun olardı. Dərəcələrinə görə fəzilət əhlinə ehtiram göstərədi. Qohum-əqrabasına həddindən artıq lütfkar davranardı. Əhli-beytinə və əshabına qarşı gözəl rəftar etdiyi kimi, digər insanlara da mehriban davranardı. Xidmətçilərini həmişə özündər razı salardı. Özü nə yesə, ne geyinsə, onlara da onu yedizdirər və geyindirərdi. Səxavətli, əliaçıq, mərhəmətli, şəfqətli, lazım gəldikdə cəsur, yeri gələndə isə həlim idi. Əhdinə və vədinə əməl edən, sözünə sadiq idi. Əxlaqının gözəlliyinə, zəkasına və ağlına görə bütün insanlardan üstün və hər cür tərifə layiq idi. Surəti gözəl, tərcümeyi-halı mükəmməl, vücudu bənzərsiz və mükəmməl idi. Allah Rəsulu (s.a.s) daim fikirli olar, həmişə təfəkkür edərdi. Zərurət olmadığı halda danışmazdı. Sükunət halı uzun çəkərdi. Bir sözü söyləməyə başladıqda yarımçıq qoymaz, onu mütləq bitirərdi. Az sözlə çox məna ifadə edərdi. Sözləri açıq-aydın, bir-bir söyləyərdi, nə lazım olandan çox, nə də az danışardı. Yaradılışdan yumşaqxasiyyətli olmasına baxmayaraq, çox ötkəm və heybətli idi. Əsəbiləşdiyi zaman yerindən qalxmazdı, yalnız haqqa etiraz edildikdə, ədalət tapdalandıqda əsəbiləşərdi, haqq yerini tapana qədər hirsi soyumazdı. Yalnız haqqı bərpa etdikdən sonra rahatlaşıb sakitləşərdi. Əsla, özünə görə hirslənməzdi. Şəxsi məsələlərdə

özünü müdafiə etməzdi və heç kimlə mübahisəyə girişməzdi. O, heç kimin evinə icazə almadan daxil olmazdı. Evinə gəldiyi zaman isə evdə qalacağı müddəti üç yerə bölərdi: bir hissəsini Allaha (c.c) ibadətə, bir hissəsini ailəsinə, yerdə qalan vaxtı isə özünə həsr edərdi. Özünə ayırdığı zamanı avam və oxumuş insanlara həsr edər, onlardan heç kimi söhbətlərindən və tövsiyələrindən məhrum qoymazdı. Bütün insanların könlünü fəth edərdi. *[7, səh 186, 187]* Vabisə ibn Məbəd (r.a) belə rəvayət edir: "Rəsulullahın hüzurunda idim. Mənə: "Yaxşılığın nə olduğunu soruşmağa mı gəldin?" - deyə buyurdu. "Hə" - dedim. Sonra Rəsulullah bunları söylədi: "Qəlbinə danış. Yaxşlıq nəfsin uyğun gördüyü və edilməsini nəfsin təsdiqlədiyi şeydir. Günah isə içini narahat edən və başqaları sənə "et" deyə neçə-neçə fitva versə belə içində şübhə və tərəddüt oyadan şeydir". *[Ahmed bin Hanbel, IV/227-228; Darimi, Büyü 2]*

İslam Peyğəmbərinin (s.a.s) əxlaqını sadalayarkən belə bir qənaətə gəlirik ki, irqindən, dilindən, etnik tərkibindən, milli mənsubiyyətindən, vəzifəsindən asılı olmayaraq hər kəs üstün əxlaq dəyərlərini Ondan nümunə kimi götürə bilər. Hz.Məhəmmədin (s.a.s) yüksək əxlaqi göstəriciləri istər çoban, istərsə də dövlət başçısına nümunə ola biləcək ölçüdə idi.

İslamın yüksək əxlaqi prinsiplərini, yerinə yetirməyə mane olan insan nəfsidir. İslamdakı imtahan inancına uyğun olaraq insan nəfsi mənfi və müsbət xüsusiyyətlər arasında dəyişkən şəkildə yaradılmışdır. Bunu nəfslə şeytanın mübarizəsi kimi xarakterizə edə bilərik.

İslam dininin gətirdiyi bütün ölçülər nəfsin istəklərini müsbət istiqamətdə yönləndirir. Nəfs bəzən müəyyən mənfi hisslərin təsiri ilə özünü böyük görməyə və əldə olanla kifayətlənməməyə başlayar. Daima pisliyi istəyən nəfs bizi dünyaya meyl etməklə, şəhvətlə yaşamağımızı istəyər. Ölümü, axirəti xatırlamağımızı istəməz. Sahibini azğınlığa və üsyana sürükləyər. Allah (c.c) Quranda buyurur: "Nəfs (adama) pis işləri əmr edər". *[6, Yusuf 12/53]*Lakin, insan bu vəziyyətdə çökməməlidir. İslam insan ilə, onun nəfsinin istəkləri arasında bir tarazlıq meydana gətirir. Normal istəklə şeytani istəklər arasına sərhəd qoyur. *[8, səh 492-494]*.

Quran bir sıra qadağalar bildirmişdir. Bu qadağalara əməl etməyənlər axirətdə böyük bir çətinliklə qarşılaşarlar, çünki günah bataqlığı ilə boğulmuş olarlar. Hər günah ruha sancılan bir zəhər iynəsidir. Ölümdən əvvəl sağaltmaq gərəkdir. Nəfsin islahı insanı həm axirətdə, həm də dünyada xilas edər. İnsanın bütün qurtuluşu və məhvi nəfslədir. Ancaq, gözəl əməllər cəhənnəmdən qurtulmağa vəsilədir. Maddi və nəfsi nemətlərin çoxunda heyvanlarla ortaqlığımız vardır, yemək içmək, qorunmaq, yatmaq kimi. Bunları nəzərə alsaq bizi heyvanlardan fəqrləndirən çox az xüsusiyyətlərin olduğunu görərik. Bu xüsusiyyətlər insanlığımız və vicdanımızdır. Hansı ki o insanlığı və vicdanı yaxşı və pisə istiqamətləndirən nəfsdir.

Nəfsin inkişaf etməsində ən böyük əngəl nəfsin özüdür. *[5, səh 24]*Nəfs fitri olaraq mənfi şeylərə meyl etdiyi halda, müsbət şeylərə tənbəllik göstərər. Məsələn, bir insana hər gün saatlarca televizor seyr eləmək, oyun oynamaq çətin gəlməz. Lakin bir saat kitab oxumaq, gündə beş vaxt namaz qılmaq çətin, hətta, mümkünsüz kimi gələr. Mövzu ilə bağlı hz. Məhəmməd bir hədisində buyurur: "Cənnət nəfsin xoşuna getməyən şeylərlə, Cəhənnəm də nəfsin xoşuna gedən şeylərlə əhatə edildi!". *[Buhari, Rikak 28]*

Son dövrlər əxlaqi degenerasiya ən yüksək həddə çatıb. Səbəb odur ki, insanlar özlərini tam müstəqil və məsuliyyətsiz hesab edirlər. Artıq iş o yerə gəlib çatmışdır ki, insanlar qeyri-etik davranışları müasirlik, müstəqillik kimi təlqin edirlər. Bir neçə on il bundan əvvəl insanların ağızlarına belə almağa çəkindikləri mənfi şeylər əfsuslar olsun ki, bu gün yaşam tərzinə çevrilib. Edilən mənfi əxlaq cəmiyyətin hər təbəqəsinə, xüsusilə də saf gənclərə müasirlik və mədəniyyət kimi təlqin olunur. İçki içmək, evlilikdən kənar qeyri-qanuni münasibət, narkotik maddə istifadə etmək "müasirçilər" tərəfindən “dəbə” mindirilmişdir. Savadsız insanlar da bu şəxsləri özlərinə örnək götürüb onların danışıq və geyim tərzindən tutmuş həyat fəlsəfələrinə qədər hər şeylərini təqlid edirlər.

Nəticə olaraq deyə bilərik ki, dini dəyərlərin öyrənilməsini, yuxarıda söylənilənlər baxımından, zərurət kimi qəbul etmək elmi-dini dünyagörüş baxımından vacibdir. Özünü mənəvi kamala çatdıra bilməyən birinin əməli fəsaddan başqa bir şey olmayacaqdır. Kamil insan olmaq üçünsə elm və əxlaq əsas meyardı. Hər bir insan cəmiyyətdə şəxsiyyət kimi formalaşmaq və cəmiyyətin önəmli fərdlərindən biri olmaq üçün əxlaqli dəyərlərə riayət etməli və elmi əsaslara

yiyələnməlidir. Qeyd etməliyik ki, hz. Məhəmməd Mustafanın (s.a.s) da təbliğinin əsasını əxlaqi ölçülər və imkanlar təşkil edirdi. Bu gün kamil insan olmaq üçün islam əxlaqı və dünyagörüşü əsas şərtdir.

## ƏDƏBİYYAT


1. Bekir Topaloğlu, İlyas Çelebi, M.Sait Özervarlı, Mustafa Sinanoğlu, İslam Dininin Əsasları, Nurlar nəşriyyat-poliqrafiya mərkəzi, Bakı, 2010
2. Əli Həzi, Dünyəvi Dövlətdə Dinin Yeri, Şans Mətbəə LTD MMC, Bakı, 2016
3. Günay Tümer, Abdurrahman Küçük, Dinler Tarihi, Ocak yayınları, Ankara, 1997
4. Hasan Cirit, Hədis Tarixi, Nurlar nəşriyyat-poliqrafiya mərkəzi, Bakı, 2016
5. Hayati Hökelekli, Din Psikolojisi, Türkiye Diyanet Vakfı yayınları, Ankara, 1998
6. Qurani-Kərim (Azərbaycan dilinə tərcümə edən V.Məmmədəliyev, Z.Bünyadov), Azərnəşr, Bakı, 1991
7. Osman Nuri Topbaş, Həzrət Məhəmməd Mustafa, I cild, İpək yolu nəşriyyatı, Bakı, 2007
8. Hüseyin Kerim Ece, İslamın Temel Kavramları, Beyan yayınları, İstanbul, 2000
9. Mail Yaqub, Din Fəlsəfəsi, Nurlar nəşriyyat-poliqrafiya mərkəzi, Bakı, 2011.


## ABSTRACT


**Mahammad Hadjiyev**
**Bahruz Gulmaliyev**


### THE PLACE OF RELIGIOUS-ISLAMIC BELIEVES IN THE FORMING OF PHILOSOPHICAL VIEWS ON LIFE


The religious-scientific view being the part of philosophical view at work and its role in our public life have been researched and summarized accordingly. Hence, as also emphasized at work religion existed together with humanity, continued and is still continuing its existence equally with human beings.

In terms of philosophical and scientific religious view, learning religious values is important and it carries a significant importance. Each individual should gain scientific, moral and religious values in order to be formed as a personality in a society and useful in the life of the society.


## РЕЗЮМЕ


**Магомед Гаджиев**
**Бахруз Гюльмалиев**


### МЕСТО ИСЛАМО-РЕЛИГИОЗНЫХ ВЕРОВАНИЙ В ФОРМИРОВАНИИ ФИЛОСОФСКОГО МИРОВОЗЗРЕНИЯ


Были исследованы и даны соответствующие обобщения о религиозно-научном мировоззрении и его роли в общественной жизни, являющимся составной частью в работе философии мировоззрения. Таким образом, как было упомянуто и в работе, религия существовала и формировалась вместе с человечеством, продолжает и будет продолжать существование вместе с человечеством.

Изучение религиозных ценностей важно и имеет особое значение с точки зрения и философского и научного мировоззрений. Каждый человек, сформировавшийся как личность, должен освоить научные, этические и религиозные ценности, чтобы быть полезным в общественной жизни.



NDU-nun Elmi Şurasının 19 oktyabr 2017-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 02).
Məqaləni çapa təqdim etdi: Fəlsəfə üzrə elmlər doktoru, professor M.Rzayev

**BAĞIR BABAYEV**
*Naxçıvan Dövlət Universiteti*
*baqırbabayev59@mail.ru*

**UOT: 314**

# XX ƏSR AZƏRBAYCAN DEMOKRATİK FİKRİ MİLLƏTİMİZİN ŞANLI TARİXİ KEÇMİŞİ VƏ XOŞBƏXT GƏLƏCƏYİ HAQQINDA

**Açar sözlər**: *demokratik fikir, millət, şanlı keçmişimiz, xoşbəxt gələcək*
**Key words**: *democratic thought, nation, glorious , happy future*
**Ключевые слова:** *демократическая мысль, нация, славное прощлое, счастливое будущее*

XX əsr Azərbaycan demokratik fikri sanki yeni əsrin bələdçisi oldu. Odur ki, XX əsr tam mənada ictimai həyatın bütün sahələrinə nəzarəti öz ixtiyarına almaqla, malik olduğu, sahibləndiyi yenilikçiliyini ortaya qoymuş oldu və hamını da onunla hesablaşmağa məcbur etdi. Özünün belə gözəl gəlişi ilə son illərə qədər bütün həsrətini, istəyini qəlblərində saxlayan insanların gərginliyini onun üstündən qaldıracaq XX əsr bütün xalqlara, millətlərə onların heç vaxt unuda bilməyəcəyi bəşəri hissləri gətirib bağışladı. O, sanki bəşəriyyətə gerçək bir örnək, xalqın, millətin bəşəri, ülvi istəklərinə bir cavab oldu. Məhz bu yenilik əsri "çürümüş, köhnəlmiş, əməldən düşmüş qayda və nizamlara qarşı, qəti bir etirazdır. Görünür ki, bu XX əsr, keçmiş əsrlər tərəfindən bərpa edilmiş qayda və nizamlara təhəmmül eləmir" (2,II,s.332-333).

Beləliklə, yeni əsr yeni nəfəs, yeni ab- hava, yeni ideya gətirməklə, milləti yuxusundan qaldırmaqla onun yaxasından tutub bərk- bərk silkələdi, mənafeyini uca tutdu, onunla görüşündə qəlbindən keçənləri duydu, millətə onun bütün bəlalarının səbəblərini yavaş- yavaş anlatmağa başladı. XX əsr ictimai həyatın bütün sahələrində çəkilməz problemlərlə yüklənmiş xalqları, millətləri onun mahiyyətini, mənasını, yeniliyini anlatmağa çalışırdı ki, insanlar birdən- birə bunun mahiyyətini anlamaqda çətinlik çəkməsinlər. Qorxulu olan da elə bu idi, çünki qəflətdə, cəhalətdə qalmış bu kədərli insanlar özlərinin arzu və istəklərinin məhz bu əsrdə gerçəkləşəcəyinə əvvəlcədən inana bilməzdilər. Yeni əsr özü insanlara durmadan, dayanmadan boş qalmış, boşaldılmış xəyal dünyalarını yerindəcə doldura biləcək güclü gəlişi ilə mənəvi rahatlıq gətirə biləcəyini xatırladırdı.

XX əsr məhv edilən, məhvdən xilas yollarını tapa bilməyən, bu geniş dünyada sadəcə olaraq yaşamına imkan verilməyən xalqlara, millətlərə fərqli bir müstəvidən yanaşdı. Yeni əsr bu xalqlara tərəfdaş olmaqla, müstəmləkə rejimlərinin labüd toqquşmalarından onları xilas edəcəyinə elə bir inam yaratdı ki, bütün siyasəti də, ideologiyanı da mütləq mənada ona tabe etdi. XX əsr xalqların, millətlərin düşüncələrində, arzularında olanları ortaya çəkəcək, onlarla birlikdə gələcəyə, qələbəyə, xoşbəxt sonluğa doğru addımlayacaqdı. Bu əsr xalqı faciələrdən xilas edəcəkdi. Bununla da, bütün məhkum millətləri gözəl gələcəkləri ilə müjdələyəcək XX əsr gələcəklərini əziz tutan, unutmayan millətləri hər an və hər dəqiqə çalışdırırdı ki, onların özləri üçün parlaq bir gələcəyə təminat yaratsın.

XX əsr Azərbaycan demokratik fikrinin əsl qayəsi, idealı belə idi, onun daşıdığı və uğrunda qurban getməyə hazır olduğu məslək belə idi. Hər halda, bugünün insanı, millətin vətəndaşı kimliyindən asılı olmayaraq, demokratik fikrin insan ruhunu şad edəcək, sevindirəcək ülvi bəşəri hisslərini ürək dolusu alqışlamalıdır. XX əsr Azərbaycan demokratik fikri müstəmləkə rejiminin ağırlıqlarını çiyinlərində daşıyan, mənəviyyatı, ruhu əzilən, puç edilən millətinin aciz vəziyyətdə saxlanılmasına qarşı çıxırdı. O, milyonlarla insanların qəlbinə, ruhuna yol tapmağa çalışırdı ki, onları oyandırsın. Çünki dünyanın inkişafının, tarixin qanunauyğun gedişinin tələbi millətdən onu istəməkdə idi.

XX əsrin gəlişi Azərbaycan demokratik fikrinə yeni ideya gətirdi, onu yeni düşüncə tərzi ilə zənginləşdirdi. XX əsr millətlər üçün tamamən yeni mənalar, ideyalar irəli sürməklə gerçək həyatın

bütün acı reallıqlarını ortaya çıxardı. Bunlardan ən dəhşətlisi milləti gözləyə biləcək fəlakətlər idi. O, bunları cəmiyyətdə daha konkret şəkildə irəli sürdü və mövqeyini bildirdi. Yeni əsrin işıqlandırdığı cəmiyyət həyatının bütün gerçək acı mənzərələrini görən, tanıyan XX əsr Azərbaycan demokratik fikri artıq zamanın gərginliklərinə sinə gərərək, şikayətlənmədən, aşkar şəkildə, uzaqgörənlik nümayiş etdirirdi. O, millətinin həqiqi kimliyini bildiyinə görə, beləcə qəflətdə yatmağın haqlı olaraq ölümə bərabərliyinin, millətin solub, ölüb gedəcəyinin mütləqliyini isbat edir, onu xilas etməyin vacibliyini vurğulayırdı. Millətinin aşiqi olan, filosofcasına mükalimə yürüdən Azərbaycan demokratik fikri, eyni zamanda da, heç vaxt unudulmayacaq cəngavərlik nümayiş etdirərək bildirirdi ki;

Ayıl, ey ümməti-mərhumə, ayıl!
Ayıl, ey milləti-məzlumə, ayıl! (7,s.37).

XX əsr Azərbaycan demokratik fikri böyük əminliklə bildirirdi ki, hər bir millətin bir gələcəyi vardır. Bu gələcəyin də yaxşı və yamanlığı millətin özündəndir. XX əsr Azərbaycan demokratik fikri uca ilahi eşqlə-Allah sevgisi ilə xalqına, millətinə, Vətəninə son dərəcə böyük dəyər verir, onun acı taleyini düşünərək, işıqlı sabahları-gələcəyi uğrunda mübarizəyə ruhlandırırırdı. XX əsrin gəlişi ilə cəmiyyət həyatında baş verən mürəkkəb, ziddiyyətli sosial- siyasi hadisələrin ən səciyyəvi cəhəti, millətin yaddaşının oyandırılması, onun bugününün və keçmişinin üz-üzə qoyulması baş verdi. “Nə qədər ki, gözlər yuxudadırlar, heç bir şey görməzlər, amma açılandan sonra çox şey görərlər”(5,II,s.266).

Odur ki, demokratik fikir türk-müsəlman millətini geriyə-şanlı tarixi keçmişinə aparıb, oradan bugününə gətirməklə varislik əlaqəsi yaratdı ki, ey türk, ”niyə bircə zadı- yəni özünü bilmək istəmirsən, niyə öz varlığından, öz vücudundan, öz səy və nəslindən xəbərin yox? Niyə sənə “Kimsən?” dedikləri vaxt həqiqi cavabında aciz qalırsan? Niyə sadəcə deyə bilmirsən ki, mən türkəm?”(6,s.238). Burada başlıca problem o idi ki, onlar millətin gələcəyinə inam rəmzi olaraq, onun bugününü keçmişi ilə qarşılaşdırır, sonra bununla onun gələcəyinə gedən yolda mənəvi bir bağlılıq- körpü yaradırdılar. Haqlı olaraq qeyd olunurdu ki, “tutaq ki, bu gün yağış yağır, amma nə eybi var, bunu da axtaraq ki,sabah nə olacaq?”(5,II,s.333).

Zəngin maddi və mənəvi dəyərlərə sahib doğma, əziz türk millətinə sonsuz məhəbbət bəsləyən, yüksək ehtiram göstərən Azərbaycan demokratik fikri onun qan yaddaşını oyandırmaq üçün psixoloji- ruhsal dünyasına yaxından nüfuz etmək istəyirdi. Bu isə onun Vətəninə, millətinə sədaqətinin nümayişi kimi, onu xoşbəxt gələcəyə apara biləcək milli məfkurəyə sahib ola bilməyin zərurətini irəli sürürdü. Bu ideya millətə düşdüyü əsarətə qarşı özünəməxsus tərzdə bir barışmazlıq ruhunu gətirəcəkdi ki, bununla da Vətəni, milləti məhvə sürükləyən müstəmləkə rejiminə qarşı dərin, kəskin nifrət hisslərini tərbiyə ediləcəkdi. Çünki “müsəlmanlar, budur, neçə yüz ildir ki, xabi-qəflətdə yatıb, cəmi aləm veclərinə deyil”(2,II,s.339).

O, isə milləti, Vətəni bu faciələrdən xilas edib qoruyacaq və ülvi, nəcib ilahi eşqlə işıqlı sabahlara aparıb catdıra biləcəkdi. Bununla da xalq öz kədərli taleyi ilə vidalaşacaq, ən böyük ideal olan vətəndaşlıq qeyrəti, əqidəsi, fədakarlıq əzmi ilə acı işğaldan xilas olacaq. Son nəticədə isə duyub, dərk etdiyi işıqlı gələcək aləminə daxil olacaq. XX əsrdəki millətlər “gələcəkdən heç də qorxmurlar və çünki gələcəyin xoş keçəcəyini və məramımızca olacağını yəqin bilirlər”(2,II,s.155). “Lakin sadə zəmanəmiz mühüm deyildir. Məkanımız da pak mühüm bir məkandır. Bu nöqtəyi də anlamalıdır, həm də gözəlcə anlamalıdır”(4,s.140).

XX əsr Azərbaycan demokratik fikrindəki ideyalar istiqlalçılığa xidmət etmişdir. Azərbaycan demokratik fikri türkün şanlı qəhrəmanlıq tarixini yazan vətənpərvər, yurdsevər Vətən oğullarının adlarını iftixarla çəkmiş, millətinin gələcək şanlı tarixinə böyük inam, ümid bəsləmişdir. Çünki Azərbaycan demokratik fikri XIX əsr boyunca Rusiya əsarətində qalan, təcavüzkar müstəmləkə əsarətinin bütün ağrı- acıları ilə nəfəs alan xalqımızın, millətimizin zorla yox edilməsi, digər millətlər içərisində əridilib yox ola bilmək təhlükəsi ilə üz- üzə qaldığının şahidinə çevrilmişdi. Buna uyğun olaraq, bildirirdi ki, hələ ki, “dünyada hər bir iş öz qaydasında gedir…İndi hələ zorbazorluq eləyirlər” (5. II. s.332-333). “Onunla işim yoxdur; çünki qoymurdular ki, hər iş öz qaydası, axarı ilə getsin. “Hər bir ixtiyaratdan məhrum və məyus olan biz müsəlmanların halı

hamıdan yaman idi ki, bizi ruslaşdırmaq və nəsrani etmək işi dəxi var idi. Rusiyada neçə yüz min müsəlman zorən xristian olubdur"(2. II. s.209)

Ona görə də Azərbaycan demokratik fikri belə bir təhlükədə qalan millətinin tezliklə xilası yolunda bütün qüvvələrini səfərbər etməklə XX əsrə qədərki tarixdə müqayisə edilə bilməyəcək dərəcədə mübarizlik əzmini ortaya qoydu. O, millətinin, Vətəninin istiqbalı uğrunda nəhəng, qaniçən imperiyaya qarşı daha böyük ürəklə, cəsarət və amalla savaş elan etdi. "Ey milləti biçarə, daha sən nə vaxta kimi öz hali pərişaninə bəsirət nəzəri salıb, nifaq və ziddiyyətdən tökülən atəşi-cövr və zülmü görməyəcəksən?"(2. I. s.382).

XX əsr Azərbaycan demokratik fikri niyyətlərini açıb ortaya qoyaraq, millətini dardan qurtarmaq və gələcək gözəl günlərə götürmək istəyində olduğunu özünəməxsus bir iradə ilə ifadə edirdi. Sanki o, öz gələcək proqramını bəyan edirdi: "Şərt bu deyil ki, ancaq bugünkü günün əhvalatını xəbər vermək; şərt budur ki, gələcəkdən də bir söz söyləmək"(5,II,s.333). Həqiqətən burada "çox dərin mənalar vardır"(4, s.140). Yəni, burada bəşəriyyət tarixinin keçmişindən bugününə və gələcəyə gedəcək bir dövrü öz ifadəsini tapır. Göstərilirdi ki, "bu günlərdə xitam bulmaq üzrə olan qüruni- vəhşiyəyi qədimə ilə ancaq indi başlamaq üzrə bulunan, yaxud bundan sonra başlayacaq olan qüruni- mədəniyyeyi cədidədən ibarətdir"(4,s.140).

XX əsrin gəlişi elə bir selə bənzədilirdi ki, "bu selin muradı, dünya üzünün kəsafətini təmizləməkdir…o halda bizim yerlərdə də güllər və çiçəklər bitib, buraları çəmənzarə döndərər"(2, II, 154). Deməli, burada bir daha millətin gözəl gələcəyindən, xoş sabahlarda yaşaya bilmək haqqını qazana biləcəyindən söhbət gedir, ondan danışılır. Bu, tarixin sınanmış qanunu idi, çünki əsarət və məhkumluq əbədi olmadığından, millətlər gələcək həyatlarını öz əlləri ilə quraraq, öz iradələri ilə Vətənlərini idarə edə biləcəkdilər. Bir də gördün ki," Bəli, zəmanə dolandı və dəyirman tərsinə çevrildi"(5, III, s.14). Bu isə sabaha, gələcəyə daha böyük inamın təntənəsi demək idi: " bir vaxt olacaq ki,…bunların yaxasından yapışıb…hesab istəyən kimi hesab istəyəcəklər"(5,III,s.15).

XX əsr Azərbaycan demokratik fikrində sanki bir ruh və fikir gözəlliyi gəzirdi. Onların "pak və təmiz vicdanının səsi" bildirirdi ki, türk millətimiz "hür və mələk qədər gözəl xəlq- Qafqaz xəlqi gözəldir, cəmildir"(4,s.141). Odur ki, bu xalqı, bu milləti düşmənə qarşı amansız mübarizəyə ruhlandıran demokratik fikir onu aciz olmamağa səsləyir, ona qarşı bütün niyyətləri iyrənc olan müstəmləkə dövlətinə qarşı dayanmaq üçün qəlbini, fikrini, nəfəsini cəsur bir sevda ilə- azadlıq, hürriyyət eşqi ilə doldurmağa çağırırdı. Onlar millətin bütün çətinliklərinin, qara günlərinin artıq keçmişdə qaldığını, gələcəkdə onun xoşbəxt bir cəmiyyət ilə üzləşəcəyini inamla vurğulayırdılar. Bu, millətimizin keçmiş tarixinin şanlı hünər salnaməsinin səhifələrindən süzülüb gələn bir ideya idi, çünki onun "hüriyyət hissi heç bir vaxt onda sönməmişdir! Qafqaz xəlqini qulluğa, əsarətə məluf etmək olmaz!"(4, s.141).

Odur ki, "iztirab içində" qalan millətimizin azadlığı yolunda çəkdiyi cəfalara son qoyulacağına qəti əmin olan demokratik fikir bildirirdi ki, millətimizin azadlığına qovuşacağı lap yaxın gələcəkdə- "gözümüzün önündə" baş verəcəkdir. Bununla bağlı demokratik fikir birmənalı şəkildə bildirirdi ki, əsarətdən qurtuluş Qafqazdan- millətimizin cəsarətli savaşından başlayacaqdır: "yəqindi o zaman ki, Qafqaz ölkəsi aləmin istibdad və bidad altında inləyən qismini əsarətdən xilas etmək xüsusunda ən böyük bir rol oynayacaqdır!"(4, s.143).

Azərbaycan demokratik fikri millətimizi vəhşi, barbar adları ilə bütün dünyaya tanıtdırmağa çalışanların hamısına tutarlı bir cavab kimi bildirirdi ki, Vətənimizdə ucalara qaldıra biləcəyimiz azadlıq məşəlini heç kim məhv edə bilməyəcəkdir. "Bu məmləkətdə heç bir qüvvət hürriyyət şövqünü məhv edəməz! Heç bir cəbr və təzyiq, heç bir cəfa və əziyyət, heç bir zülm və sitəm hürriyyət odunu söndürəməz!"(4, s.142). Bu, millətimizin uca adına ləkələr söyləməyə çalışan ümumi düşmən qüvvələrinə qarşı kəskin bir etiraz demək idi. O millətin ki, o millət "Sakit okeandan Ağ dənizə, Karpatlardan Yernik boğazına qədər yayılmışdır. Dünyada bunun qədər dağınıq, səpələnmiş başqa bir millət tanıyırsanmı?"(1, s.114).

Vətəninin dar gündə, köməksiz saxlanıldığı, hətta millətinin istibdad və əsarətin ağır işgəncələrinə məruz qaldığı bir zamanda müstəmləkə rejiminin və düşmən qüvvələrinin çoxu bu itaətdən və əsarətdən məmnun qalmada idi. Belə bir zamanda onların əksinə olaraq Azərbaycan demokratik fikri gələcəyə böyük ümidlə millətinin sarsılmaz gücünü nümayiş etdirməyə başladı ki,

bu gücün qarşısında bütün düşmən qüvvələri yeniləcək, millətimiz, vətəndaşlarımız və Vətənimiz qalib olacaqdır. Azərbaycan demokratik fikri ölüm-dirim savaşında millətinə, xalqına sahib çıxmaqla onu gələcək şanlı qələbələrə səsləyirdi, onu darda, çətinlikdə qoymayacağını dilə gətirir, bununla da onun milli maraqlarının və mənafeyinin təmsilçisi olduğunu vurğulayırdı. O, bildirirdi ki, türk millətinin belə cəsurluğuna, bütün əsarət zəncirlərini qırıb atacağına dünya heyran qalacaqdır: "Bunların oyanıb hüsula gətirəcəkləri hürriyyət ədəbiyyatı bir sel kimi İran və Türkiyəyi istela edəcəkdir. Bu selin də məcrası bila şəkk və şübhə bu iki məmləkətə Qafqaz bərzəxi olacaqdır!..İştə, görünür ki, Qafqaz hürriyyəti-aləmin tarixində mühüm rollar oynayacaqdır. Bu rollarin da ən böyüyü Qafqaz və Azərbaycan türklərinə aiddir. Bunları anlamalıyız da, ona görə hazırlanmalıyız!" (4, s.144). Deməli, demokratik fikir türk millətimizin ən böyük, əvəzsiz dəyəri və sərvəti kimi, azadlığı-hürriyyəti çox uca tutmuş, millətin xoşbəxt gələcəyini onun hürriyyətində görmüşdür. Xüsusilə də, millətimizə, Vətənimizə, məkanımız Qafqaza böyük sevgi ilə ünvanlamış dəyərli sözlər demokratik fikrin millətin tarixində necə silinməz izlər qoymasına canlı bir sübutdur.

XX əsr demokratik fikri Azərbaycanda, Rusiyada və ondan kənarda baş verən hadisələrə diqqəti çəkərək, millətin sosial-siyasi gerçəklikdəki üzləşdiyi acı həqiqətləri ortaya çıxardı. Tarixin min illər boyu şanlı səhifələrində türklərin saysız-hesabsız zəfərləri ilə fəxr edən demokratik fikir uğursuzluğa düçar olub, müstəqilliyindən məhrum qalmış millətinin, Vətəni əlindən alınmış, azad olmayan vətəndaşının xüsusi amansızlıqlara, məhrumiyyətlərə düçar olmasını ürək ağrısı ilə qarşılayırdı. O, göstərirdi ki, bu əsrdə "kiçik millətlərin, xüsusilə məhkum millətlərin öz varlıqlarını, öz hüquqlarını saxlamaq iddiası ilə bu qədər qan tökülən bir vaxtda bizim özümüzü tanımamazlıq bəlası"(6,s.233) çox böyük faciələrə səbəb ola bilər. " Bunun başlıca səbəbi budur ki, biz bir-birimizə arxa olmağı, bir-birimizə sarılmağı, bir-birimizin halına qalmağı bacarmırıq"(1,s.114).

Vətəninin, millətininin vurğunu olan Azərbaycan demokratik fikri başlıca əməl, əqidə kimi özünə millətsevərliyi qəbul etmişdi. Demokratik fikir bu əqidədən, bu ideyadan ruhlanaraq, millətinin istiqlalına çalışır, onun uğrunda ayağa qalxırdı. Demokratik fikir "indinin siyasi fəlsəfəsi tərəqqiyi millətçilikdə görüyor. Zamanın şövkət və səxavət binası millətçilik bünövrəsi və təməli üstündə quruluyor, əsrin ruhu azad millətçiliklə bəsləniyor, büyüyor"(6,s.240),- kimi qəbul edərək, elan edirdi ki, "Bugün eyidən-eyiyə qanıram ki, dini əqidədən sonra insanda doğan dünyəvi əqidələrin birincisi millətpərvərlik əqidəsidir, ictimai fəlsəfənin baş, özünü tanımaq fəlsəfəsidir, millətini bilmək elmidir"(6, s.240).

Türk oğlunu, türk millətini fədakarlıqlara səsləyən demokratik fikir özünü onun istiqlalı yolunda qurban verərək, dünyanın üzünün qan rənginə boyandığı bir dövrdə onu ayılmağa, haqqını almağa səsləməkdə idi. "Bəsdir, bəsdir, ey türk, bir az ayıl. Ayıl da...Vücuduna Allahın günəşi, havası dəysin. Başını bir az yuxarı qaldır. Öz varlığını, öz vücudunun qiymətini bil. İndiyə qədər yadlar üçün, özgə varlıqlar və vücudlar üçün özünü həlak etmisən, barı bundan sonra olsun ayıl, bir özünə gəl, öz gününə çalış" (6,s.239), çünki "miras olan bu sağlam və qüdrətli xalq onun dərdlərinə yenidən əlac edə bilmiş, onu nəinki dağılmaqdan qorumuş, hətta dirçəldərək, sərhədlərini xeyli genişləndirmişdir" (1, s.328). "Qafqaz xalqını qulluğa, əsarətə məluf etmək olmaz! Qafqazın üç-dörd min sənəlik tarixini qarışdırsaq onu daima öz hürriyyəti və azadlığı üçün müharibə edən görürüz!" (4, s.141). Ona görə ki, türk milləti " aldıqları mirası nəinki qoruyub saxlamış, hətta onu xeyli artırmış və zənginləşdirmişdilər" (1, s.328).

Demokratik fikir türk millətini öz şanlı keçmişindən ibrət almağa səsləyirdi, çünki türkün o zamankı azad həyat tərzi bugünün müstəmləkə əsarətindən keçib, azad gələcəyə gedib çatacaqdı. "Ey türk, keçmişlərindən ibrət al, hələ vücudun sağlam ikən, yaşamağa istedadın var ikən, fürsət əldə ikən əsil vücudunu tanı, qədrini anla" (6, s.240), "onun bütün həyatı hələ irəlidədir. Egey sahillərindən və Aralıq dənizindən Çinə qədər böyük bir ərazidə məskən salmış türk" (1, s.329) milləti bilməliydi ki, zaman dəyişmiş, XX əsri bütün qabaqkı əsrlərdən kəskin şəkildə fərqləndirmişdir. Ona xəbərdarlıq edilirdi ki, "zamanımız özgə zamandır. Əgər bundan sonra özümüzü tanımayıb qalırsaq, qorxuram ki, gec ayıldığımız vaxt sağalıb yiğitcə yaşamaya vücudumuzda qüvvət və taqət qalmamış ola" (6, s.239). Bu ayılma baş verməli idi, çünki millətimiz, xalqımız özünəməxsus nadir, zəngin mənəvi- əxlaqi keyfiyyətləri əsrlərlə miras kimi

daşıyıb XX əsrə qədər gətirib çıxara bilmişdi. Yəni xalqımızın "hər yerdə gördüyümüz və hər kəs tərəfindən təsdiq edilən nadir mənəvi və fiziki keyfiyyətləri belə bir ehtimal üçün əsas verir" (1, s.329).

Belə zəngin mənəvi keyfiyyətlərdən biri isə məhz onun azadlıq uğrunda ölümə atılması idi. Çünki dünyada hələ " indiki imperiyalar olmamışdan əvvəl" sən özünə imperiyalar yaratmışdın. Azadlıq aşiqi idin və məhz ondan da zövq alırdın. Odur ki, türklər "ya ölərlər, ya hicrət edərlər, fəqət qul olmazlar, onlar əsir düşərlər, lakin əsirliklərində belə qul olmayıb ağalıq edərlər" (4, s.141). "Əsrin ruhu azad millətçiliklə bəsləniyor, böyüyor. Keçmiş əsrlərin, keçmiş siyasi əqidələrin cızdığı coğrafiya sərhədlərini indiki etnoqrafiya yavaş- yavaş pozuyor" (6, 240).

Tarix yazanlar sübut edirdilər ki, türklər hər zaman və hər yerdən sıxışdırılırdılar. Ona görə də türklər " tarix səhnəsinə gəldikləri vaxtdan , amansız şəkildə belə vəziyyət icərisində qalmışdılar. Onlar həmişə müharibəyə hazır vəziyyətdə olmalı, hər tərəfdən gözlənilən hücumları dəf etməli idilər. Onların özlərini də, mənsub olduqları islam dinini də hər zaman və hər tərəfdən sıxışdırırdılar"(1, s.331). Hər tərəfdən düşmənlərin təcavüzü şəraitində meydanda qalan türk heç bir halda azadlıq sevərliyini itirməmişdi. Onu yaşadan da onun hürr, azad olmağı idi. Türklər fəlakətlərə uğradıqları halda "hürriyyətini, hürriyyətə olan meyl və məhəbbətini heç bir zaman qayıb etməz"(4, s.141). Burada əsas məqsəd ortaya çıxırdı. Türklər "zaman keçdikcə özlərinə fəlakət gətirən iki şeyi unudurdular və unutmaya da bilməzdilər: bu bir tərəfdən Qərbin tədricən əqli və əxlaqi baxımdan tərəqqi etməsi, o biri tərəfdən isə islamın özünün daxilində pozucu qüvvələrin meydana çıxması və baş qaldırması idi"(1, s.141).

Ona görə də demokratik fikir türkləri milli birliyə-ittihada səsləyirdi. Çünki türklərin bu aləmdə bir qismi "o birilərə yabançı, o birilərin tale və müqəddəratına biganə, laqeyddir"(1,s.114-115). Qəribçilikdəki, qürbətdəki türkləri isə "kimsə himayə edəməz!"(4,s.144). "İndi gələlim əsil məqsədə. Ey şiə, ey babı, sünni türk qardaşlarım, diriliyimizin milli ittihadda olduğunu biləndən sonra"(6,s.240) bir-birinizə sahib çıxın**.**

XX əsr Azərbaycan demokratik fikri böyük bir əminliklə o dövrün gərginliklərini aşıb keçərək, geniş maraq dairəsinə uyğun şəkildə millilikIə bəşəriliyin harmoniyasına əməl edirdi. Bu, onların yaradıcılıq örnəyi idi. Odur ki, demokratik fikir xadimlərinə də bu millətin zəhmətlərinə, məşəqqətlərinə, çətinliklərinə tab gətirməyi, bütün zamanlarda Vətəninin halına acımaq, onun keşməkeşlərlə dolu acı taleyindən xoşbəxt günlərinə aparıb çıxarmaqda örnək, söz sahibi olmağı nəsib edilmişdi. Burada heç bir qaldırıla bilməyən yük yox idi, bu da "hakimiyyəti- mütləqin divani- əzəmətinə"(6,s.252) bir nümunə idi. Onlar da bütün sonrakı nəsillər tərəfindən necə reaksiya doğuracağından asılı olmayaraq, yalnız həqiqəti cavablandırıb, zamanın, dövrün tələblərinə uyğun hərəkət etməli oldular. Onları düşündürən yalnız millətin, Vətənin acı taleyi idi. Beləliklə də, onlar keçmişdən gələcəyə doğru etibarlı bir körpü yaratmağa çalışır, xalqın, millətin, Vətənin bu əziyyətlərini onun üzərindən qaldırmaq istəyirdilər ki, bütün gələcək nəsillərin qəlbən rahatlığı təmin olunsun, onlar heç cür çətinliklərlə üz- üzə qalmasınlar.

XX əsr Azərbaycan demokratik fikri xalqımızın, millətimizin çəkilməyəcək qədər çox olan dərdlərinin ağırlığından və millətinə, Vətəninə olan sonsuz sayda bitib-tükənməyən məhəbbətlə ürəklərində azacıq da olsa, mərhəmət hissi olanlara üzünü tutub deyirdi ki, heç olmazsa, Allahu-Təalanın qanun qoyduğu ilin on iki ayının müqəddəs bildiyi günlərdə, saatlarda eyni dinə, əqidəyə sahib olduğu din qardaşlarının dərdlərinə ortaq olub, onlara mərhəmətli olsunlar. Axı, bu onların da millətinin, "islam ümməti"nin qarşısında Allahın qoyduğu vəzifələrdən, borclardan birisi idi. Amma tarix göstərdi ki, əgər millət bircə onların insafına, ixtiyarına qalarsa, onda fəlakətdən heç vaxt xilasını gözləyə bilməz.

Demokratik fikrin nəzərində mərhəmət hissləri, duyğuları çoxdan ölmüş, sönmüş adamlar düşüncəsiz, qorxaq, ürəksiz, qəsdən özlərini görməzliyə, eşitməzliyə vuranlar sayılırdı. Millətin əhval- ruhiyyəsini ifadə edən demokratik fikir bildirirdi ki, "hər kəsin ürəyində" belə insanlara qarşı bir narazılıq, hətta bir hiddət vardı**.** "Camaat deyirdi ki, 6-7 milyon böyük bir kütlənin rəisləri millətlər fəlakətinə qarşı göz yumurlar"(6, s.209). Doğurdan da, böyük səy və qeyrət göstərməyən, uca, ülvi fikirlərlə yaşamayan, böyük əməllər yerinə yetirmək istəməyənlər millətin rahatlığına, salamatlığına çalışmayanlar idilər, milətin kölgələr kimi ayaqlar altında sürünməsinə, tapdalanıb əzilməsinə bərk-bərk göz yumanlar idilər. Bu isə onların daşıdıqları əqidənin, dinin və mənsub

olduqları millətinin uca adlarına layiq deyildi. Odur ki, pak və təmiz vicdanlarının səsinə qulaq verən millətin bütün üzvləri bir nəfər kimi belə fikirləşirdi ki, "bu qədər böyük bir camaatın rəisləri əgər istəsələr nələr etməzlər, nələr tapmazlar?"(6, s.209).

XX əsr Azərbaycan demokratik fikrinin düşüncə tərzində zəngin mənəvi duyğularla millətin taleyi və sabahkı istiqlalı diqqətdə saxlanılırdı. Onun yaradıcılıq leytmotivini təşkil edən insanların cəmiyyətə münasibətində birtərəfli mövqe tutmasının yarıtmazlığı idi. Lakin millətin az və ya çox dərəcədə taleyinə biganə qalanlar ictimai tərəqqiyə, millətin xoşbəxt sabahlarına əngəl olanlar hesab edilirdi. Hətta hər şeyi düşünüb, bircə milləti haqqında ağlına heç nəyi gətirməyənlər bundan onlara heç bir "mənfəət" gəlməyəcəyini bildiklərindən, qəlblərinin bu nöqtəsini çoxdan öldürmüşdülər. Azərbaycan demokratik fikri XX əsrin əvvəllərində "ürəyində bir az millət hissi, namusu olan müsəlman"(6,s.208) qardaşlarına üz tutaraq onlara sanki xəbərdarlıq edirdi ki, **"**bizdə beş-on yetimimizi insanca saxlamağa ləyaqət yox, öz balalarımıza mərhəmət yox-ya biz nə haqq və nə üzlə özgələrdən mərhəmət və ədalət gözləyirik?"(6, s.207).

Hanı adəmdə insanlıq, hanı adəmdə vicdanlar?
Nədir bir bunca vəhşətlər, nədir bir bunca xüsranlar(3, s.370).

XX əsr Azərbaycan demokratik fikri millətin çəkilməz dərdlərinə diqqəti yönəldərək, duyğusuz, zalım, mərhəmətsiz insanlara ümid olmamağa çağırırdı ki, "Bari xudaya, sən özün hifz elə"(5,III,s.124), çünki ürəklərində millətə eşq və məhəbbət, Vətən sevgisi olmayanlardan heç nə gözləmək olmazdı**.** "Cənabi- həqq bəlkə öz ulu intizar, ulu fikirlərin üsulunu bizim kimi qorxaq, xəsis, duyğusuz qansızların ümidinə qoymaya" (6, s.208).

XX əsr Azərbaycan demokratik fikri milləti ilə bir olmaq istəyini açıqcasına bəyan etməkdən qorxmurdu. Millətinə, Vətəninə təmənnasız sevgisi ilə xidmət göstərən, onun ehtiramını ucalara qaldıran Azərbaycan demokratik fikri mənafeyini qorumağa çalışdığı milləti haqqında ürək dolusu yanğıyla düşünürdü. O, müraciət etdiyi və müdafiə etdiyi, məmləkətin sahibi bildiyi, dinməyə və danışmağa ixtiyarı olmasa da, əslində, hər zaman və hər yerdə, hətta gələcəkdə də söz sahibi olan millətinə, camaatına arxalanaraq, ona müraciət edirdi, ümidvar olduğunu bildirirdi və ona müraciətlə tərəfdar durduğunu göstərirdi: "İnciməyin, siz inciməyin, ey millətin kökü, təməli yerində olan qara camaat! Ey ürəkdə millət namusu olanlar! Ümidimiz yenə sizədir" (6,s.208).

XX əsr Azərbaycan demokratik fikri ictimai və fəlsəfi fikir tariximizin göstərilən dövründə əlçatmaz mənəvi- əxlaqi, milli- bəşəri ideyalar irəli sürdü və öncül olduğunu təsdiqləmiş oldu. Onlar halına acıdığı, dərdlərinə çarə aradığı, qayğısını çəkdiyi, başı bəlalardan qurtulmayan sevgili millətinin və özünü övladı saydığı əziz Vətəninin müsibətli günlərində onları əzilməkdən, qəhr olmaqdan, məhv olub əldən getməkdən sadəcə qorumaq deyil, eyni zamanda xilas etmək istəyirdilər. Bu yolda canlarını fəda etməkdən çəkinmirdilər ki, onlar tezliklə bu dərdlərdən və müstəmləkə əsarətindən xilas olub azadlığına qovuşsunlar. Demokratik fikir milli mücadilə və Vətən tariximizdə həmin günü əsl, böyük bir bayram coşqusu ilə gözləmək intizarında qalmışdı. Məhz həmin gün xalqımızın, millətimizin,Vətənimizin əsl, böyük bayram günü olacaqdı.

Odur ki, XX əsr Azərbaycan demokratik fikri daşıdığı məsləyə, əqidəyə sədaqətli olaraq, özünün amalını, qayəsini sevimli milləti, Vətəni qarşısında deklorativ sənəd kimi sübuta yetirirdi. Əslində XX əsrin gəlişi ilə Azərbaycan demokratik fikri yeni əsri, dövrü, zamanı düzgün xarakterizə edib, milləti, Vətəni şad edəcək öncədən uzaqgörən sosial bir hadisə kimi, onu möhtac olmaqdan xilas edəcək qabaqcıl bir ideyanın irəli sürməsinə münbit şərait yaradacaqı ki, millət ayılsın, oyansın.

XX əsr Azərbaycan demokratik fikrinin millətin tarixində oynadığı əhəmiyyətli rol danılmazdır. Ona görə ki, o, gerçək aləmin real acı mənzərəsinin gələcəkdə yarada biləcək, millətə gətirə biləcək və onun qəlbində, zehnində, düşüncəsində sağalmaz yara aça biləcək şeylərə qarşı barışmaz, yorulmaz mübarizə meydanına atılmışdı. Hədəfi dəqiq bəlli olan Azərbaycan demokratik fikri həqiqətən də əsl doğrunu tapıb ortaya qoyurdu ki, millət onu yazıq hala salan və bu vəziyyətdən qopub aralana bilməyinə hər yolla maneçilik törədən düşmənlərini görüb tanısın. Yəni millətin oyanması, əsrin, zamanın səsinə səs verməsi mütləq şəkildə labüd idi, millət hökumətin istibdad zəncirində qaldıqca vətənin müstəmləkə əsarətindən xilası mümkün olmayacaqdı. Ona görə də vətənin xilası millətin ayılmasına, oyanmasına, ayağa qalxmasına bağlı idi.

XX əsr Azərbaycan demokratik fikri millətin gələcəyini düşünərkən, uzaq- yaxın tarixə müraciət edirdi. Millətin cəhalətdən, qəflətdən xilasının, tezliklə oyanışının millətin xoş istiqbalında, gələcəyində necə vacibli olacağını sübut edən XX əsr Azərbaycan demokratik fikri göstərirdi ki, tarixin müxtəlif dönəmlərində, sələflərimizin zamanında bizləri yox etmək, axırımıza çıxmaq istəyənlər olmuşdular və onlar bu gün də pusquda durub gözləməkdədirlər. Bunun üçün millətimzin içərisindən ittifaq və ittihadı yox edib, onun qəlbinə iyrənc, mənfur ixtilaf, təfriqəçiliyi yeritməyə çalışdılar.

Deməli, bütövlükdə milləti, ayrılıqda isə onun ayrı-ayrı fərdlərini milli-mənəvi dəyərlərdən, sərvətlərdən məhrum qoyan, onu daim geriliyə, keçmişə çəkən, qaytaran cəhalət, qəflət bu milləti xoşbəxt gələcəkdən məhrum qoymuşdu. O, milləti milli şüurdan məhrum qoyur, onu müasirliklə ayaqlaşmasına maneçilik törədirdi. Son nəticədə isə o, millətin tarix səhnəsindən silinməsi ilə nəticələnərdi**.**

XX əsrin əvvəllərində cəmiyyətin ümumi inkişaf qanunauyğunluqlarının optimal bir model kimi elmi təhlili göstərir ki, bütün istək və arzulardan, şəxsi mənafelərdən asılı olmayaraq, millətin xoş gələcəyinə qovuşması yolunda ən mühüm addım onun oyanışından, qəflətdən, cəhalətdən xilasından keçməli idi. XX əsr millətin oyanışının qarşısını ala biləcək hər şeyi rədd edirdi, onu cəmiyyətin yolundan götürüb, bir kənara atırdı. Sübut olunurdu ki, yenilikçi oyanış, dirçəliş cəhdi millətin də oyanışını labüd, qanunauyğun etdiyindən, məntiqi şəkildə onun qarşısını ala biləcək, kəsəcək heç nə ola bilməzdi. Ona görə də yeni əsr millətin milli şüurunu, milli özünüdərkini dolayısı ilə yox, birbaşa özündə əks etdirir, mənəvi ziya kimi millətin gələcək istiqbalını işıqlandırırdı. O, bütün bunları gələcəkdə sübuta yetirmiş olacaqdı.

Odur ki, Azərbaycan demokratik fikri yeni əsrin gəlişinə "şükürlər olsun",-deyirdi, onun çətinliklərlə də olsa, gətirəcəyi, verəcəyi millətlərin azadlığı, istiqlaliyyəti müjdəsi hamı kimi, onları da sevindirməyə bilməzdi. XX əsrin gəlişini bəşər tarixinin qanunauyğun inkişafının məntiqi davamı hesab edən Azərbaycan demokratik fikri qocaman tarixin səhifələrinə öz şükranlıqlarını belə yazırdı.

## ƏDƏBİYYAT


1. Ağaoğlu Əhməd bəy. Seçilmiş əsərləri. Ön sözün, izah və şərhlərin müəllifi Vilayət Quliyev. Bakı, Şərq- Qərb, 2007 392 səh.
2. Hacıbəyli Üzeyir. Seçilmiş əsərləri. Iki cilddə, II cild. Tərtib edəni və lüğətin müəllifi Abdulla Abbasov. Bakı, Şərq- Qərb", 2005, 456 səh
3. Hadi Məhəmməd. Seçilmiş əsərləri (İzah və qeydlərin müəllifi Əziz Mirəhmədov). Bakı, Şərq-Qərb, 2005. 464 səh.
4. Hüseynzadə Əli bəy. Seçilmiş əsərləri. Transliterasiya və tərtib edəni Ofelya Bayramlı. Bakı, Şərq- Qərb, 2007. 480səh.
5. Məmmədquluzadə Cəlil. Əsərləri. Dörd cilddə (tərtib edəni, ön söz və izahların müəllifi İsa Həbibbəyli). Bakı, "Öndər", 2004.
6. Nemanzadə Ömər Faiq. Seçilmiş əsərləri . Tərtib edəni, ön sözün və izahların müəllifi Şamil Qurbanov. Bakı, Şərq-Qərb, 2006, 352 səh.
7. Səhhət Abbas. Seçilmiş əsərləri. Tərtib edəni, ön söz və izahların müəllifi Kamal Talıbzadə). Bakı, Lider, 2005, 456 səh.


## ABSTRACT


**Bagır Babayev**


### AZERBAİJAN DEMOCRATİC THOUGHT ABOUT GLORİOUS PAST AND HAPPY FUTURE OF OUR NATİON IN THE TWENTİES CENTURY


The democrats in the twenties century denied that our people wanted to save our nation from the colonial bondage of the Russian - Empire and believe it deeply. Democratic thought that had a great impact on the lives of the conquered nations in the twenties century. The new century has

made a sense of the nation’s awareness and national slogan.The prominent figures of our country,democratic thought put the nation today into a glorious past. He recalled the historic glorious past to Turks– Muslums.Thereby creating a historical relationship with today. Thus demonstrating the confidenceof the nation’s happy future. They create spiritual blindfold love for the nation,endless love for the nations, devote their loyalty.The idea of the necessity of a national ideology capable of bringing the nation to ahappy future was required.This ideology will bring the spirit of uncompromising struggle against the nation.


**РЕЗЮМЕ**

**Багир Бабаев**

**АЗЕРБАЙДЖАНСКАЯ ДЕМОКРАТИЧЕСКАЯ МЫСЛЬ О СЛАВНОМ ПРОШЛОМ И СЧАСТЛИВОМ БУДУЩЕМ НАШЕЙ НАЦИИ В ДВАДЦАТОМ ВЕКЕ**

Демократы в двадцатом веке хотели спасти нашу нацию от колониального рабства Российской империи и глубоко ее поверили. Демократическая мысль, которая оказала большое влияние на жизнь завоеванных народов в двадцатом веке. В новом столетии появилось чувство национального самосознания и национального лозунга. Известные деятели нашей страны, демократическая мысль превратили сегодня народ в славное прошлое. Они вспомнили историческое славное прошлое туркам- муслиманам. Создавая исторические отношения с сегодняшним днем. Таким образом, демонстрируется уверенность в счастливом будущем нации. Они создают духовную ослепительную любовь к народу, бесконечную любовь к народам, посвящают свою лояльность. Идея о необходимости национальной идеологии, способной привести страну к счастливому будущему, была необходима. Эта идеология принесет дух бескомпромиссной борьбы нации с колониальным игом.



NDU-nun Elmi Şurasının 19 oktyabr 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 02).

Məqaləni çapa təqdim etdi: Fəlsəfə üzrə elmlər doktoru, professor M.Rzayev

**NOVRUZƏLİ RƏHİMOV**
*Naxçıvan Dövlət Universiteti*
*novruzrehimov62@mail.ru*

**UOT: 008.39**

# QLOBALLAŞMANIN MAHİYYƏTİ VƏ ONUN TƏHSİL PROSESİNƏ TƏSİRİ

**Açar sözlər:** *Qloballaşma, informasiya texnologiyaları, təhsil, təhsilin idarə olunması, sosial məsuliyyət*

**Keywords:** *Globalization, information technology, education, education management, science and education, social responsibility*

**Ключевые слова:** *Глобализация, информационные технологии, образования, управления образованием, наука и образование, социальные ответственности*

İndiki dövrdə qloballaşma prosesi milli dövlətlərə güclü təsir edərək qitələrarası və regionlararası münasibətlərdə qlobal qarşılıqlı asılılıq yaradır. Hər bir texnoloji dəyişiklik insanların fərdi həyat tərzində dərin dəyişikliklərə səbəb olur. Qloballaşma müasir dünyanın siyasət, iqtisadiyyat, mədəniyyət, elm, texnologiya və s. sahələrində yeni keyfiyyət dəyişiklikləri ilə müşahidə olunan mürəkkəb proseslərdə özünü göstərir. Hər bir milli-mədəniyyət, milli-mənəvi dəyər həm də qlobal mədəniyyətin, ümumbəşəri dəyərlərin bir hissəsi kimi çıxış edir.

Qloballaşma-sosial iqtisadi həyatın bütün sahələrini əhatə edən insanların, əmtəələrin, telekom¬munukasiyanın, informasiyanın ölkə və kontinentlərarası sərhədsiz hərəkətini əks etdirən inteqrasiya prosesləridir. Dünyada bütün insanların, ölkələrin indiyədək mövcud olmayan bir sistemi yaranmaqdadır, yəni müxtəlif ölkələrin və xalqların vahid şəbəkədə birləşməsi prosesi gedirQloballaşma prosesi demək olar ki, bütün dünya dövlətlərini mühüm dilemmalar, faktlar qarşısında qoymuşdur. Bunlar qloballaşmanın diqqət mərkəzində dayanan nə qədər vacib bir problem olduğunu göstərir.

Qloballaşmaya yanaşmalar çox müxtəlifdir. Onun əsas səbəbləri qloballaşma prosesinin ictimai həyatın bütün sahələrini əhatə etməsi ilə yanaşı, cəmiyyətdə hələ də fərdiyyətçilik və eqoizm hisslərinin güclü olmasıdır. Belə ki, güclü dövlətlər dünyada gedən qlobal proseslərdən daha çox faydalanmağa və əsasən öz maraqlarının həyata keçirilməsinə çalışırlar. Nə qədər ki, insanlar yalnız öz maraq və mənafelərindən çıxış edirlər, başqalarını düşünmürlər, deməli, hələ bu cəmiyyət yetkin və mükəmməl cəmiyyət sayıla bilməz. Dünyada baş verən proseslərin mənzərəsi buna aydın misal ola bilər.

Qloballaşma dünyada ictimai fəaliyyətin beynəlmiləlləşməsi, milli iqtisadiyyatların vahid sistemdə qovuşmasıdır. Bu da öz növbəsində kapitalın dünyada asanlıqla dövriyəsinə, dünyanın informasiya üçün açıq olmasına əsaslanır. Bəşəriyyətin inkişafı texniki tərəqqi, universal qanunlar və dəyərlərlə təzədən müəyyənləşdirilir, daha böyük iqtisadi, siyasi qurumların yaradılması istiqamətində hərəkət edir. Bu isə öz növbəsində inteqrasiya olunmuş qlobal məkana doğru irəliləyişi şərtləndirir (2.).

Dünyada gedən texniki inkişafla əlaqədar olaraq dövlətlər arasında əlaqələr getdikcə artır, müxtəlif xalqlar və ayrılıqda insanlar bir-birinin texniki nailiyyətlərindən, mədəniyyətlərindən bəhrələnirlər. Bu baxlmdan qloballaşma təbii-tarixi proses kimi qiymətləndirilə bilər.

Cəmiyyətdə maddi maraqlar önə keçdikdə mənəvi dəyərlər ikinci plana keçir və inkişaf etmiş ölkələr inkişaf etməkdə olan ölkələri istismar etməyə başlayırlar, onları özlərindən asılı vəziyyətə salırlar. Şəxsi maraqlar, milli maraqlar bəşəri hissləri üstələyir. Məhz ona görə də müasir dövrdə milli dəyərlərin, milli maraqların qorunması ideyası aktuallaşır. Bu da öz növbəsində qloballaşmaya müxtəlif yanaşmaların yaranmasına, qloballaşmanın tərəfdarlarının və antiqlobalistlərin formalaşmasına səbəb olur.

Müxtəlif tədqiqatçıların fikrincə qloballaşma sərhədsizliyə gətirib çıxarır. Sərhədsizlik anlayışı getdikcə genişlənən böyük bir prosesin yeni dünya düzəni şəklində daha da dərinləşməsidir. Qloballaşma siyasətinin təsirində öz həyat tərzini qorumaq istəyən insanlar başa düşməlidirlər ki, onlar zaman-zaman bu prosesdə hansı prinsiplərin əhatəsindədirlərsə, elə həmin dəyərlərin həm də mənəvi, ictimai baxımdan köləsinə çevrilirlər.

Sistemli xarakter daşıyan və obyektiv proses olan qloballaşmanı bəzi tədqiqatçılar ümumdünya iqtisadi, siyasi və mədəni inteqrasiya prosesi kimi qiymətləndirirlər.

Qloballaşma milli dövlətlərin səlahiyyətlərini, strukturunu, suverenliyini və legitimliyini zəiflədir. Siyasi, iqtisadi və sosial baxımdan digərlərindən təcrid olunmamış milli dövlətin təkcə səlahiyyət sahəsi məhdudlaşmamış, eyni zamanda forması da dəyişmişdir. XX əsrin ikinci yarısından sonra beynəlxalq təşkilatların sayında fövqəladə bir artım müşahidə olunmuş, bunun nəticəsində isə dövlətin beynəlxalq mahiyyəti formalaşmışdır. Qərbdəki əksər milli dövlətlərin belə təşkilatlarla sıx şəkildə təmas qurması ilə yerli və qlobal siyasət qurma mexanizmləri arasındakı fərqlər azalmışdır. Bunun nəticəsində demokratik vasitələrlə üzv dövlətlərin suverenliyini beynəlxalq hüquqa uyğun bir şəkildə uzlaşdıra bilən Avropa Birliyi kimi güc sistemləri meydana gəlmişdir.

Qloballaşma bəşəriyyətin tarixi inkişaf qanunauyğunluqları əsasında formalaşmış yeni mərhələdir. O, yeni informasiya kommunikasiya texnologiyaları əsasında ayrı-ayrı xalqların vahid iqtisadi, ictimai-siyasi və mədəni əlaqələr sisteminə cəlb olunması prosesidir

Qloballaşma dövlətlərin sabit inkişafının, bütövlüyünün və idarəetmə sistemlərinin stabilliyinin təmin olunmasına, iqtisadi münasibətlərdə ayrı-seçkiliyin aradan qaldırılmasına, xalqların rifah halının yüksəldilməsinə kömək etməlidir. ( 1. 6 ).

Müstəqilliklərini əldə etmək və milli özünəməxsusluqlarını qorumaq üçün yüz illərlə mübarizə aparan, itkilər verən xalqlar qloballaşma prosesinin təsiri ilə öz tarixi nailiyyətlərini itirmiş olurlar.

Başqa bir yanaşmada isə qloballaşma və regionallaşma prosesləri milli dövlətlərin miqyasına tabe olan meyllər və istiqamətlər olaraq göstərilir. Şübhəsiz ki, hər iki proses arasında qarşılıqlı əlaqə mövcuddur və bu əlaqələr hər iki prosesə, daha çox regionallaşma prosesinə təsir göstərir. Buna görə də qloballaşma əsrinin neoliberal regionallaşmasının sosial və milli dövlətdən imtina vasitəsi olması və dövlətin bu iki xüsusiyyətini itirməsi müstəmləkəçilik prosesinin inkişafını, maliyyə kapitalının şəksiz hegemonluğunu stimullaşdırır.

Müxtəlif dövlətlər arasında ətraf mühit, insan hüquqları və qlobal iqtisadi problemlər kimi məsələlər ətrafında əməkdaşlıq beynəlxalq rejimlərin və beynəlxalq tənzimləyici sistemlərin yaranmasına şərait yaratmışdır. Bu da onu göstərir ki, belə sahələrdə beynəlxalq əməkdaşlıq olmadan milli dövlət vətəndaşlarının tələb və ehtiyaclarını ödəyə bilmir.

Müasir dövrdə həm də, dövlət səlahiyyətlərinin mərkəzdən regionlara ötürülməsi, milli dövlət daxilində mərkəzi hakimiyyəti yerli orqanların xeyrinə azaltması, dövlətin özünün səlahiyyət, vəzifə və resurslarının bir qismindən imtina etməsi prosesi gedir. Mərkəzi hakimiyyətin əlində olan planlaşdırma, qərarvermə, qaydalar yaratma və onları yönəltmək kimi idarəçilik funksiyaları bölgə təşkilatlarına, bələdiyyələrə, könüllü təşkilatlara və özəl şirkətlərə verilir. Yeni yerli orqanlara səlahiyyətlər verilməsi siyasəti əslində səlahiyyətlərin buradan da bazar qüvvələrinə ötürülməsi məqsədi daşıyır.

Qloballaşma və regionallaşma üst-üstə düşən proses kimi milli dövlət anlayışını və onun beynəlxalq münasibətlərdə iştirak formasını dəyişə bilmək xüsusiyyətlərini özündə əks etdirir. Bunun müqabilində regionallaşma prosesi isə qloballaşmanın birtərəfli və mərkəzçi xarakterinə əks olaraq, yerli, tarixi, mədəni və maddi xüsusiyyətlərin qorunması və inkişaf etdirilməsi imkanlarına malikdir.

Regionlar öz mövqelərini iqtisadi sahədə milli dövlətdən müstəqil şəkildə müəyyənləşdirirlər. İnformasiya və kommunikasiya texnologiyalarının inkişafı da regionların beynəlxalq əlaqələrinin genişlənməsinə əlverişli şərait yaradır və onların daxili və xarici əlaqələr qurmaq qabiliyyətini artırır.

Qloballaşmanın mərkəzində insan maraqları olduğundan onun ayrı - ayrı dövrlərdəki inkişaf meylləri də həmin maraqların reallaşdırılmasından asılı olmuşdur (4.s.3).

Dünyada ölkələrin rəqabətədavamlılığı artıq ciddi bir faktora çevrilib. Qloballaşma istiqaməti götürən müasir dünyada hər bir ölkənin dayanıqlı və davamlı inkişafı üçün cəmiyyətin bütün sahələrində beynəlxalq rəqabət prinsiplərinə çevik surətdə yiyələnmək tələb olunur.

İnformasiya cəmiyyətinin və rəqabətədavamlı yüksək texnologiyalı milli iqtisadiyyatın yaradılması bir sıra ölkələrin dövlət siyasətinin əsas istiqamətinə çevrilib. Bu ölkələrdə informasiya və kommunikasiya texnologiyaları sahəsi inkişafın ən önəmli amili kimi çıxış edir. Bu sahə dövlətlərin siyasi, iqtisadi və sosial fəaliyyətinə aktiv təsir edərək iqtisadiyyatın və ictimai münasibətlərin qloballaşmasını şərtləndirir. İnformasiya cəmiyyətinin təhsil sisteminin necə qurulması, təhsilin modernləşdirilməsi üçün hansı texnologiyalardan istifadə edilməsi hazırda ən aktual məsələlərdən biridir.

Cəmiyyətin qtisadi inkişafının əsasını texnika və texnologiya, texnologiyanın əsasını elm təşkil edir, elm isə öz növbəsində təhsil vasitəsi ilə inkişaf etdirilir. Ona görə də iqtisadiyyatın inkişafı üçün mühüm şətlərdən biri təhsilin inkişafı hesab olunur. Təhsil cəmiyyətin və dövlətin inkişafında mühüm rol oynayan, strateji əhəmiyyəti ilə fərqlənən fəaliyyət sahəsidir. Təhsilə münasibət millətin gələcək taleyinə münasibətdir. İctimai həyatın bütün sahələrində bacarıqlı mütəxəssislər yetişdirmək təhsilin əsas funksiyasıdır

Təhsil elmi biliklərin mənimsənilməsi prosesidir. Nəzərə almaq lazımdır ki, elmi fəaliyyət yaradıcı bir işdir və yeni elmi biliklər əldə olunmasına istiqamətlənmişdir. Lakin, yaxşı təşkil olunmuş təhsil prosesi yaradıcı təfəkkürü də inkişaf etdirir. Elmin məqsədi insanın intellektual dünyasını zənginləşdirmək, onu daha bilikli etmək və bu biliyin qüvvəyə çevrilməsi üçün ona kömək etməkdir. Qeyd etmək lazımdır ki, elmi biliyin maddi qüvvəyə çevrilməsi istehsal prosesində keyfiyyət dəyişikliyi yaradır.

Müasir dünya ölkələri, o cümlədən bütün inkişaf etmiş ölkələr təhsili strateji üstün sahə elan edir və ölkələrinin gələcək inkişafının təhsil sisteminin səviyyəsindən asılı olduğunu etiraf edir. Azərbaycan Respublikası müstəqillik əldə edəndən sonra təhsil sistemində bir çox islahatlar aparmışdır.

Qeyd etmək lazımdır ki, təhsil, insanın həyat və əmək sahəsində sistemləşdirilmiş bilik, bacarıq və davranışları əldə etməsidir. Sivilizasiyanın əsas fenomenlərindən biri sayılan təhsil insanın sosial varlıq olaraq tarix səhnəsinə çıxdığı və ilk təcrübəsini ötürməyə ehtiyac hiss etməyə başladığı vaxtdan etibarən başlıca amilə çevrilmişdir.

Təhsil sahəsində qloballaşma ilk növbədə bir-biriləri ilə sıx əlaqələri olan millətlərin ölkələr arasında sərbəst hərəkət etmək və müstəqil şəkildə iş yeri tapmaq, xalqların, millətlərin qarşılıqlı anlaşmasını və fəaliyyət göstərməsini, təmin etmək imkanına malik olan fərdlər yetişdirilməsində özünü göstərir. Bu qəbil insanlardan həmçinin fərqli şəraitdə yaşamaları, fəaliyyət göstərmələri və mədəniyyətlərarası dialoqun fəal iştirakçıları olmaları da gözlənilir. Başqa sözlə desək, informasiya əsrində təhsilin başlıca qayəsi milli kimliyini itirməmək şərti ilə müxtəlif mədəniyyətlərin hakim olduğu coğrafiyalarda mövcud şəraitə uyğunlaşmağı və uğur qazanmağı bacaran dünya vətəndaşları yetişdirməkdir. Belə olan halda, qloballaşma şəraitində yalnız öz ölkəsində oxumaq məcburiyyətində qalmayan hər bir vətəndaş təhsil alacağı ölkəni və tədris ocağını sərbəst şəkildə seçmək hüququ əldə edir.

Qloballaşma və milli təhsil müstəvisində universitet mahiyyət və qarşısında duran vəzifələr baxımından yeni məzmun kəsb edir. Beynəlxalq təhsilin universitetlərdə təmərküzləşməsi prosesinə paralel olaraq yerlərdə də müasir tələblərə cavab verən ali təhsil müəssisələri şəbəkəsinin inkişaf etdirilməsi təmayülü hiss olunmağa başladı.

Hər bir dövlətin gələcək inkişafı onun təhsil sistemindən mütənasib şəkildə asılı olub daimi diqqət tələb edir. Belə ki, bu gün məktəblərimizdə təhsil alan şagird və tələbələr sabah müxtəlif sahələrin aparıcı mütəxəssislərinə və rəhbərlərinə çeviriləcəklər. Bu gün bu şagird və tələbələrə verilən bilik, bacarıq və davranışların real səviyyəsi, bir neçə onillikdən sonra ölkəmizin ümumi səviyyəsinin göstəricisi olacaqdır.

Avropada təhsilin "beynəlmiləlləşməsi" prosesi gedir. Bu əsasən Avropa ölkələrinin inteqrasiyası ilə əlaqədar olub, təbii xarakter daşıyır. Avropa Şurasının əsas məqsədi humanitar sahədə əməkdaşlığın inkişaf etdirilməsinə yardım etməkdir. Təhsil sahəsində beynəlxalq konvensiyaların hazırlanması, konfransların, seminarların, ekspertlərin yığıncaqlarının təşkili, təhsil

və mədəniyyətlə bağlı informatik materialların yayılması və s. Avropa Şurasına daxil olan ölkələrin təhsil sistemləri bir-birindən köklü surətdə fərqlənir. Müxtəlif Avropa ölkələrində təhsil sistemlərindəki mövcud idarəetmə, maliyyələşdirmə, proqram, dərslik, metodika və digər sahələrdə fərqlər tədricən aradan qaldırılmaqdadır. Bu ölkələrin inteqrasiyası təhsil sistemlərinin də inteqrasiyasını tələb edir. Təhsil sahəsində geri qalmış ölkələrə həm beynəlxalq, həm də şuranın digər inkişaf etmiş ölkələri müxtəlif növ yardımlar edirlər. Təhsilin səviyyəsinin bütünlükdə qalxması və eyniləşdirilməsi Avropa Şurası təşkilatı qarşısında ən əsas vəzifələrdən biri kimi elan olunur.

Sosial institutların gələcək inkişafının bir başa keyfiyyətli təhsillə bağlıdır. Azərbaycan Avropa və Asiya sərhədlərində yerləşir. Azərbaycanın Avropa Şurasına daxil olması ölkəmizdə gedən təhsil islahatlarının məhz avropa standartları çərçivəsində aparılmasını tələb edir. Azərbaycanın geostrateji vəziyyəti, maddi sərvətləri, intellektual insan ehtiyatlarının və s. olması bizim ölkəmizi Avropa üçün “maraqlı” edir. Son illər ölkəmizdə təhsil islahatlarını aparmaq üçün dünya maliyyə institutları tərəfindən ayrılmış kreditlər və qrantlar bunu bir daha sübut edir.

Təhsil dövlət siyasətinin əsas hissələrindən bir olub, daim diqqət mərkəzində olmalıdır. Azərbaycan Respublikası Konstitusiyasının Təhsil hüququ adlanan 42-ci maddəsində göstərilir: 1. Hər bir vətəndaşın təhsil almaq hüququ vardır. 2. Dövlət pulsuz icbari ümumi orta təhsil almaq hüququnu təmin edir. 3. Təhsil sisteminə dövlət tərəfindən nəzarət edilir. 4. Maddi vəziyyətdən asılı olmayaraq istedadlı şəxslərin təhsili davam etdirməsinə dövlət zəmanət verir. Qeyd etmək lazımdır ki, təhsil sahəsində dövlət siyasətinin prinsipləri Azərbaycan Respublikasının Təhsil Qanunu ilə nizama salınır.

Təhsil sisteminin vəzifəsi dövlətin qoyduğu sərmayəni gənclərin biliyinə çevirməkdən, maddi varlığı intellektual varlığa çevirməkdən ibarətdir. Azərbaycan müstəqillik əldə etdikdən sonra ölkədə təhsil sistemində bir sıra islahatlar aparıldı. Təhsilin keyfiyyətinin artırılması, beynəlmiləlləşdirilməsi, idarəetmə mexanizmlərinin yaradılması, kadrların hazırlanması və attestasiya mexanizmlərinin yaradılması, səmərəli təlim-tərbiyə proqram və metodların hazırlanmasını, pedaqoji kadrların hazırlıq səviyyəsinin yeni tələblər əsasında qurulması, mövcud kadrların ixtisasının vaxtaşırı artırılması sahəsində mühüm nailiyyətlər əldə edildi.

Təhsilin məzmunu hər hansı bir təhsil müəssisəsində həyata keçirilən təlim prosesinin sonunda təlim alanın əldə etməli olduğu biliklərə, bacarıqlara, vərdişlərə və formalaşdırılması nəzərdə tutulan şəxsi keyfiyyətlərə qoyulan tələblərlə müəyyən edilən bir anlayışdır. Bu tələblər cəmiyyət tərəfindən müəyyən edilir və cəmiyyətin inkişaf səviyyəsindən asılı olur. Cəmiyyətin inkişafı ilə əlaqədar olaraq təhsilin məqsədi və bu məqsədlərə çatmaq üçün təhsilin məzmununa qoyulan tələblər də dəyişir. Bu tələblər konkret olaraq müəyyən normativ sənədlər - standartlar şəklində ifadə olunur.

Müasir dövrdə təhsilin və təlimin məzmununa bəşəriyyət tərəfindən əldə edilmiş sosial təcrübənin bütün elementləri daxil edilməlidir.

Müasir dünya ölkələri, o cümlədən bütün inkişaf etmiş ölkələr təhsili strateji üstün sahə elan edir və ölkələrinin gələcək inkişafının təhsil sisteminin səviyyəsindən asılı olduğunu göstərirlər.

Təhsilin inkişafı üçün öyrədənlərin aşağıdakı əsas şəxsi keyfiyyətlərinin olması zəruridir:

- işgüzarlıq və yaradıcı təfəkkürün olması;
- fəaliyyətin modelini qura bilmək bacarığı;
- planlaşma aparmaq qabiliyyəti;
- problemləri dəqiq başa düşmək və yaradıcı həll etmək bacarığı;
- mühit tərəfindən neqativ təsirlərə davam gətirmək bacarığı;
- aralıq nəticələri müşahidə etmək və ortaya çıxarmaq qabiliyyəti;
- ziddiyyətlərin həllində lazım olsa alternativ variantlar tapa bilmək qabiliyyətinin olması və s.

İnkişaf etməkdə olan informasiya və kommunikasiya texnologiyaları qlobal təhsil sisteminə də böyük təsir göstərməkdədir. Qloballaşma proseslərinin sürətlənməsində informasiya kommunikasiya texnologiyalarının, xüsusən də internetin mühüm rolu vardır. Təhsil sistemində müasir İKT-nin tətbiqi bu gün qloballaşan dünyanın, innovativ inkişafın zəruri tələblərindən biridir.

Qeyd etmək lazımdır ki, müasir dövrdə təhsilin qloballaşması İKT-nin potensial imkanlarından maksimum faydalanmağa yönəlmişdir və təhsil sahəsində tədris prosesini internet

üzərindən həyata keçirərək virtual şəbəkə vasitəsilə insanların təhsil almasına şərait yaradır.

XXI əsrdə informasiya və kommunikasiya texnologiyaları cəmiyyətin inkişafına təsir göstərən əsas amillərdən birinə çevrilmişdir. İKT-nin təsir dairəsi dövlət strukturlarını və vətəndaş cəmiyyəti institutlarını, iqtisadi və sosial sahələri, elm və təhsili, mədəniyyəti və bütövlükdə insanların həyat tərzini əhatə etməkdədir. Bir çox inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr informasiya və kommunikasiya texnologiyalarının verdiyi üstünlüklərdən faydalanırlar.

İnformasiya cəmiyyətinin əsas xüsusiyyətlərinə aşağıdakıları aid etmək olar:

- qlobal informasiya mühitinin yaradılması;
- informasiya və kommunikasiya texnologiyalarından kütləvi istifadə edilməsi;
- informasiyanın əmtəəyə çevrilməsi, informasiya və bilik bazarının yaradılması və inkişafı;
- təhsil sisteminin təkmilləşməsi, beynəlxalq, milli və regional səviyyədə informasiya mübadiləsi sistemlərinin imkanlarının genişlənməsi hesabına peşə və ümumi mədəniyyət səviyyəsinin artması;
- demokratik inkişafın vacib şərti sayılan vətəndaşların və sosial institutların məlumat almaq, onu yaymaq və istifadə etmək kimi hüquqlarını təmin edən mühitin yaradılması.

İnformasiya və kommunikasiya texnologiyalarından geniş istifadə olunması ölkənin hərtərəfli inkişafına xidmət edir və bu texnologiyalar əhalinin sosial-iqtisadi vəziyyətində mövcud olan problemlərin həll olunması üçün tutarlı vasitələrdəndir.

İqtisadiyyatın inkişafı üçün mühüm şətlərdən biri təhsilin inkişafı hesab olunur. Təhsil cəmiyyətin və dövlətin inkişafında mühüm rol oynayan, strateji əhəmiyyəti ilə fərqlənən fəaliyyət sahəsidir. Təhsilə münasibət millətin gələcək taleyinə münasibətdir. İctimai həyatın bütün sahələrində bacarıqlı mütəxəssislər yetişdirməkdə təhsilin rolu əvəzsizdir.

Nəzərə almaq lazımdır ki, təhsil elmi biliklərin mənimsənilməsi prosesidir. Düzgün təşkil olunmuş təhsil prosesi yaradıcı təfəkkürü də inkişaf etdirir. Elmin məqsədi insanın intellektual dünyasını zənginləşdirmək, onu daha bilikli etmək və bu biliyin qüvvəyə çevrilməsi üçün ona kömək etməkdir. Qeyd etmək lazımdır ki, elmi biliyin maddi qüvvəyə çevrilməsi istehsal prosesində keyfiyyət dəyişikliyi yaradır.

Universitetlərin reytinqinə təsir edən əsas faktorlardan biri elm və təhsil mühitidir. Müntəzəm seminar, konfranslar, yeni elmi nəticələrin çapdan öncə müzakirəsi də çox əhəmiyyətlidir və elm-təhsil mühitinin tərkib hissəsidir. (3. 95)

Qlobal elm və təhsil məkanına inteqrasiya edən Azərbaycanda hər iki sahənin qarşısında duran başlıca vəzifə qabaqcıl texnologiyalar əsasında innovativ inkişafa nail olunması, yeni tədris mexanizmlərinin işlənilməsi, təlim-tədris prosesində yeni elmi-metodiki nailiyyətlərin tətbiq edilməsidir. Bu istiqamətdə görülən tədbirlər çərçivəsində mühüm məsələlərdən biri də gənc nəslin innovativ inkişafında böyük önəm kəsb edən və informasiya cəmiyyətinin yeni tədris modeli olan distant tədris sisteminin tətbiqidir.

Ölkəmizdə yeni təlim formalarının, o cümlədən distant tədrisin inkişafı və tətbiqi, interaktiv tədris imkanlarından geniş istifadə olunması istiqamətində kompleks işlər həyata keçirilir. Respublikanın bütün elm və təhsil müəssisələrində qabaqcıl texnologiyalar əsasında distant tədris mərkəzlərinin yaradılması istiqamətində mərhələli şəkildə tədbirlər görülür.

Beləliklə, qloballaşma prosesinin təsiri ilə Azərbaycan təhsil sistemi Avropa təhsil sisteminə inteqrasiya etməkdədir. Bununla yanaşı, keçmiş səhvlərin təkrarı yolverilməzdir. Yəni Azərbaycanda təhsil islahatları apararkən milli mənafelər nəzərə alınmalıdır. Təlim məsələlərində, xüsusən də ayrı-ayrı fənlərin tədrisinin plan və proqramlarında, yeni metodların yaradılmasında Avropa ölkələrinin əldə etdiyi müsbət təcrübə müəyyən araşdırmalardan sonra ölkə təhsil sisteminə tətbiq oluna bilər. Təhsilin tərbiyə məsələlərində milli özünüdərk və dövlətçilik prinsipləri önə çəkilməlidir. Yüksək vətəndaş mövqeli insanların yetişdirilməsi təhsil sisteminin əsas vəzifəsidir.

## ƏDƏBİYYAT

1. Əliyev H.Ə., "Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında". Bakı, 2001
2. Süleymanova E. Qloballaşan dünyada insan hüquqları. Qloballaşma və informasiya cəmiyyətinin problemləri. (elmi məqalələr toplusu). Bakı, 2011, 227 səh.

3. Əsgərov.Ş.Q. Kamilləşən düşüncə. Bakı, 2013, 232 səh.
4. Şükürov A. Qloballaşmış cəmiyyətlər: dünən, bu gün, sabah. Bakı, Azərbaycan Universiteti nəşriyyatı, 2006. 191s.



**ABSTRACT**

**Novruzalı Rahımov**

**THE ESSENCE OF GLOBALIZATION AND ITS IMPACT ON EDUCATION**

In the scientific article has been explained the essence of globalization process in the new context

The process of globalization is a new formed stage on the basis of the laws of historical development of mankind. In the process of globalization joining to common economic and financial, social and political and cultural relations system of the majority of mankind occuvs. Globaliztion accelevates the beginings of dialogue and interaction among civilizations.

Globalization is new brand changes in the areas of life, policy, economy, culture, science, technology and so on in the modern world.

It has studied the impact of globalization process, and defined the developmental directions of science and education in the globalization condition, as well.

This article analyzes the role of information and communication technologies to the development of science and education in the context of globalization.



**РЕЗЮМЕ**

**Новрузали Рагимов**

**СУЩНОСТЬ ГЛОБАЛИЗАЦИИ И ВЛИЯНИЯ ЕГО В ПРОЦЕСС ОБРАЗОВАНИЯ**

В научной статье сущность глобализационной процессы обьясняется в новом содержание. Процесс глобализации - это новый этап сформированный на основе законов исторического развития человечества. В процессе глобализации происходит присоединение к единой экономической, финансовой, социальной, политической и культурной системе отношений большинства человечества. Глобализация активизирует начало диалога и взаимодействия между цивилизациями.

Глобализация - это новые качественные изменения в сферах социальной жизни, политики, экономики, культуры, науки, техники и т. д. в современном мире.

В статье исследованы влияние глобализационной процессы на науку и образоване, также в глобализационных условиях определена направление развитии науки и образовании.

В статье анализируется роль информационных и коммуникационных технологий в развитие науки и образования в условиях глобализации.



NDU-nun Elmi Şurasının 19 oktyabr 2017-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 02).

**FLORA KƏRİMOVA**
*Naxçıvan Dövlət Universiteti*
*flora.kerimova.80.@mail.ru*

**UOT: 32.019.51**

# SEYİD ƏZİM ŞİRVANİNİN İCTİMAİ-SİYASİ BAXIŞLARINA "BEYTÜS-SƏFA" MƏCLİSİNİN TƏSİRİ

**Açar sözlər:** *ictimai, siyasi, fəlsəfi, maarifçilik, şeir, "Beytüs-səfa"*
**Key words:** *public, political, philosophy, enlightenment, poem, Beytus-shafa"*
**Ключевые слова:** *общественный, политический, философский, просвещение, стихи, "Бейтус- сафа"*

Azərbaycan şeirinin inkişafına təsir göstərmiş mütəfəkkir şair Seyid Əzim Şirvani Azərbaycada maarifçilik hərəkatının görkəmli nümayəndələrindən olmuşdur. Onun müxtəlif janrlarda yazdığı şeirlər yaşadığı dövrün Azərbaycan cəmiyyətinə xas olan cəhətlərini özündə əks etdirir. Klassik Azərbaycan poeziyası və XIX əsrin I yarısında ədəbi məktəb halında formalaşan tənqidi realizm ənənələrindən bəhrələnən Seyid Əzim Azərbaycan tarixi və Azərbaycan ədəbiyyatı tarixinə görkəmli şair və maarif xadimi, üsuli-cədid məktəblərindən birinin yaradıcısı, Azərbaycan dilində yazılmış sonuncu təzkirənin müəllifi kimi daxil olmuşdur (6, s.162-164).

Seyid Əzim Şirvani 27 iyun 1835-ci ildə Şamaxı şəhərində anadan olmuşdur. Şair 7 yaşında olarkən atası Seyid Məhəmməd vəfat etmiş, Dağıstanın Yaqsay kəndində hakimlik edən babası molla Hüseyn öz qızını və nəvəsini yanına aparmışdır. Molla Hüseynin özünün oğlu olmadığından nəvəsinə çox məhəbbət bəsləmişdir. Burada Seyid Əzim Şirvani türk və fars dillərində təhsil almış, ərəb dilini öyrənmişdir. Seyid Əzim Şirvani 11 yaşına qədər ana babası ilə birlikdə Dağıstanda yaşamış, 1846-cı ildə isə yenidən Şamaxı şəhərinə köçmüşdür. 1855-ci ildə iyirmi yaşında Seyid Əzim təhsilini davam etdirmək üçün Nəcəf şəhərinə, oradan Bağdada və sonra isə Şama getmişdir. Təhsilini başa vurduqdan sonra vətəninə dönən mütəfəkkir bir müddət sonra Mədinəyə gedərək Məhəmməd Peyğəmbərin qəbrini ziyarət etmiş, oradan Məkkəyə getmişdir. Həcc ziyarətindən sonra Seyid Əzim Misir və Qahirə şəhərlərində olmuş, orada elm adamları ilə görüşmüşdür (7, s.32, 33). S.Ə.Şirvani səyahətdən döndükdən sonra Şamaxının qabaqcıl ziyalıları, sənət hamiləri – Əhməd Sultan, Həmid Əfəndizadə, Mirzə Nəsrullah Didə, Mahmud Ağa, Ünsüzadə qardaşları (Səid, Cəlal, Kamal), Əli Əkbər Qafil, Bixud, Bahar Şirvani, Məmmədtağı Əlizadə və başqaları ilə bir araya gələrək, əqidə və amal dostları olmuşlar.

Seyid Əzim yaradıcılığa 1855-ci ildən başlamış, əsərlərini Azərbaycan və fars dillərində yazmışdır. Klassik Azərbaycan poeziyası və XIX əsrin birinci yarısında ədəbi məktəb halında formalaşan tənqidi realizm ənənələrindən bəhrələnən Seyid Əzim lirik və satirik Azərbaycan şeirini zənginləşdirmişdir. Onun yüksək bədii sənətkarlıqla yazılmış lirik şeirlərində məhəbbət, həyat eşqi tərənnüm olunur. İctimai-əxlaqi görüşlərini əks etdirən mənzum hekayə və öyüdləri, nağıl və təmsillərində dostluq, mərdlik, nəzakət, təvazökarlıq təbliğ edilir, tənbəllik, tüfeylilik, avaraçılıq və s. pis sifətlər tənqid olunur (11, s.235).

Firudin bəy Köçərlinin qeyd etdiyi kimi: "Azərbaycan şairlərindən heç biri Hacı Seyid Əzim yazdığı qədər əsərlər vücuda gətirməyibdir. Əsərlərindən ən məhşur olanları "Küllüyati-türki və farsi", "Divani-qəzəliyyat", "Divani qəsaid və nəvahi", "Hekayati-mənzumə", "Xilafəti-həzrət Əbubəkr", "Qəzəvati həzrət Əli", nəzmən və nəsrən "Qisəsül-ənbiya", "Təzmini Xacə Hafiz və Şeyx Sədi" və qeyriləri". Firudin bəy Köçərlinin yazdığı kimi bu əsərlərdən ikisi – "Qəzəliyyat" və "Hekayəti-mənzumə"şairin həyatda olduğu dövrdə çap edilmişdir (7, s.35-37). 53 illik qısa ömrü ərzində hacı Seyid Əzimin təkcə yazdığı qəzəlləri hesablasaq, görərik ki, o, 1000-dən yuxarı miniatür şedevrlər yaratmışdır. Klassik ədəbiyyatımızın bu son nəhəngi qəzəl, qəsidə, mədhiyyə,

mərsiyə, növhə, sinəzən, nət, minacat, rübai, qitə, müxəmməs, müsəddəs, tərci və tərkibbənd, həcv, təxmis, təmsil, mənzum hekayə, məktub, satira və s. üslublarda yazıb yaratmışdır (1, s.5).

Seyid Əzim Şirvani ərəb və fars dillərini mükəmməl bilmiş, Nizami, Rumi, Sədi, Hafiz, Cami kimi şairlərdən tərcümələr edərək, onların şeirlərinə nəzirələr yazmışdır. S.Ə.Şirvaninin Füzuliyə nəzirələri məharət və ilhamla yazılmış sənət əsərləridir. Seyid Əzim "Könül, ta var əlində cami mey, səbhəşümar olma", "Tutdu bir ayinə gör kim surətim, oldum təbib", "Eşq əhli yarsız ki, meyi-ərğüvan içər", "Səba, könül pərişan olduğun dildar bilməzmi?" kimi şeirləri Füzulinin müvafiq qəzəllərinə yazılmış nəzirələrdir. Seyid Əzimin Füzuli motivlərinə malik olan dünyəvi qəzəllərində dərin bir lirizm vardır. O, bu əsərlərdə Füzuli kimi sevgiyə, gözələ çatmaq üçün can atır, gözəllərdən, sevgidən, eşq və məhəbbətdən gələn cövrü-cəfanı, bəlanı özü üçün böyük bir səadət hesab edir:

Cismdən can almağa gər olsa fərmanın sənin,
Canə minnətdir olam, ey dust, qurbanın sənin.
Gər tökərsən, ey xəlilim, qanımı, qəm çəkmərəm,
Qəm budur kim, gər bata al qanədamanın sənin.

İstər Füzuli, istərsə də S.Əzim xalqını, ölkəsini dindən, fanatizmdən, vəhşilikdən azad və xoşbəxt görmək istəyirdi. Bu isə nə XVI, nə də XIX əsr şəraitində mümkün deyildi. Əsasən nikbin şair olan S.Əzimin bəzi əsərlərində üsyankarlıq ruhu ilə birlikdə Füzuli kimi küskünlüyü də nəzərə çarpır (9).

Seyid Əzimin yaşayıb yaratdığı dövr Azərbaycan ədəbiyyatının xüsusi inkişaf dövrü kimi qiymətləndirilə bilər. XIX əsrdə Azərbaycanda "Divani-hikmət" (1820-1882-ci illər. Gəncə, Tiflis. Mirzə Şəfi Vazeh), "Gülüstan" (XIX əsr 30-cu illər. Quba. Mirzə Möhsün Xəyali, A.A.Bakıxanov-Qüdsi və b.), "Əncümənüş-Şüara" (1838, Ordubad, Şıxəli Naib, Mirzə Ağarəhim Qüdsi, Hacağa Fəqir Ordubadi, Məhəmmədtağı Sidqi), "Fövcül-füsəha" (1850-1900, Lənkəran, Mirzə İsmayıl Qasi, Mirzə İsa Xəyali, Mirzə Həsən Səyyad, M.Ə.Mühəqqir, M.Mücrüm, M.Ş.Mahir), "Məclisi-üns" (1864-1897. Şuşa, M.R.Fəna, H.A.Ağahi, X.Natəvan), "Məclisi-fəramuşan" (Qarabağ, M.M.Nəvvab, Həsənəli xan Qarabaği, M.M.Katib, Abdulla bəy Asi, Fatma xanım Kəminə, Məşədi Əyyub Bakı), "Məcməüş-Şüara" (1880-1923, Bakı) ədəbi məclislər yaradılmışdı və dövrünün görkəmli şair və mütəfəkkirləri bu məclislərdə toplaşmışdılar (1, s.5).

XIX əsrin əvvəllərində Mahmud Ağanın musiqi-şeir məclisinin sorağı təkcə Azərbaycanda deyil, İran, Orta Asiya, Tiflis, Dərbəndə də gedib çıxmışdı. Sonralar Əhməd Sultan və oğlu Mahmud Ağanın muğam məclisinin daimi iştirakçılarından bir də S.Ə.Şirvani olmuşdu (10).

Bu dövrdə Şamaxıda yazıb-yaradan şairlər həm də Mirzə Nəsrullah Baharın yanına toplaşır, şeir-sənət ətrafında xüsusi söhbətlər edir, diskusiyalar aparırdılar. M.N.Bahar Şamaxıdan getdikdən sonra da belə məclislər davam etmişdi. 1850-ci illərdə Şamaxıda Seyid Əzim, Bixud, Qafil, Rağib, Salik, Zöv'i, Zühuri və başqaları tez-tez bir yerə toplaşıb müşavirələr keçirirdilər (8, s.154).

XIX əsrin 60-cı illərində başqa böyük şəhərlərdə şeir məclislərinin yaradıldığını eşidən Seyid Əzim ziyalı şair dostları ilə məclis təşkil etməyi qərarlaşdırır. 1867-ci ildə Seyid Əzim Şirvaninin təşəbbüsü ilə "Beytüs-Səfa" (Saflıq evi) ədəbi məclisi təşkil edilmiş oldu, məclis 1888-ci ildə S.Ə.Şirvaninin ölmündən bir neçə il sonra 1892-ci ildə öz fəaliyyətini dayandırmışdı (8, s.154). Molla Mahmud Zuinin yazdığına görə, məclis Mirzə Nəsrullah Bahar Şirvaninin (1834-1878) təklifi ilə "Beytüs-Səfa" ("Səfa evi, saflıq, təmizlik evi") adlandırılmışdır (10, s.14).

Əvvəllər məclisin üç-dörd nəfər iştirakçısı olmuşdur. Lakin Şamaxı şairlərinin Şuşaya "Fəramuşan" məclisinin üzvü Asiyə göndərdikləri məktublarda sonralar iştirakçıların sayının çoxaldığı məlum olur (8, s.156).

Bu məclisdə dövrünün nüfuzlu şairləri – Şirvanda Ələkbər Zeynalabdin oğlu Tahirzadə (Sabir) (1862-1911), Mirzə Nəsrullah Hacı Əbdülqasim oğlu Bahar Şirvani (1834-1883), Kərbalayi Qurban Məhəmməd oğlu (1832 – 1899), Nadim Mirzə Baxiş (1785-1880), Naseh Ağaəli bəy Əfəndizadə (1856-1918), Əliəkbər Qafil (1828-1891), Sədrəddin Şirvani (1777-1835), Didə Mövlanə Mirzə Nəsrullah bəy Qurbanbəy oğlu Qurbanbəyov (1797-1870), Hacı Məhəmmədəli Axund İskəndər oğlu Şirvani (1783-1859), Haci Zeynalabdin Axund İskəndər oğlu Şirvani (1780-

1838), Əsgər Şirvani (1827-1875), Ağababa Zühuri Məşhədi Əbdullah oğlu (1848-1911), Azay Səfəralı oğlu (1844-1918), Allahverdi Rəfi oğlu (1810-1896), Kərbəlayi Arif Allahi (1786-1866), Huşyar Xınıslı (1829-1914), Asi Molla İbrahim oğlu (1826-1888), Axundzadə Ağacavad (1875-1921), Kərbəlayi Molla Pənah oğlu Fəqir (1842-1914), Əza Məşhədi Ağa Hacı Rəsul oğlu (1870-1912), Əsir Zakir Əliabbas oğlu Şirvani (1882-1940) və başqaları toplaşırdılar (2, s.11, 12). Bu ədəbi məclisin diqqətəlayiq cəhətlərindən biri də bu idi ki, burada təkcə şairlər deyil, həm də Seyid Əzim dövrünün görkəmli musiqi nəzəriyyəçiləri toplaşmışdılar (4, s.124).

"Beytüs-səfa" məclisi yaradılarkən S.Ə.Şirvaninin məsləhət aldığı insanlar həmin ziyalılar olmuşdular. S.Ə.Şirvanin təşkil etdiyi məclis və məktəbin yaşamasına dostu, musiqi bilicisi, böyük xeyriyyəçi Mahmud Ağa xüsusi vəsait sərf etmişdi... (10, s.14).

"Beytüs-səfa" ədəbi məclisi XIX əsrdə Azərbaycanda yaranan ədəbi məclislər içərisində xüsusi mövqe tuturdu. Digər məclislərdə olduğu kimi burada da Şərqin dahi şairlərinin əsərləri mütaliə edilir, onların yaradıcılıq xüsusiyyətləri təhlil olunur, Azərbaycan və Şərq tarixi öyrənilirdi. S.Əzimin Azərbaycan tarixi və şairləri haqqında topladığı məlumat "Beytüs-səfa" məclisinin qızğın fəaliyyəti dövrünün məhsuludur. Şərq ədəbiyyatı tarixini, məntiq və fəlsəfəni, Azərbaycanın etnoqrafiyasını gözəl bilən Seyid Əzimin mətbuatla, rus ədəbiyyatı və mədəniyyəti ilə maraqlanması məclisin digər üzvlərinə də öz təsirini göstərirdi (8, s.11).

XIX əsrin ortalarında Azərbaycan dilində yazmaq meyili çox qüvvətlənmişdi. Məclis şairlərinin, demək olar ki, hamısı öz şeirlərini əsasən Azərbaycan dilində yazırdılar. Ədəbi məclislərin bir çox üzvləri yeni mövzu, yeni ideyaya meyil edir, öz əsərlərində məişət, maarif, azadlıq məsələlərinə toxunur, din xadimləri əleyhinə çıxışlar edirdilər. S. Əzim, M.M. Nəvvab, M.T. Sidqi, H. Qaradaği, Ə. Cənnəti, H.Y. Yüzbaşov və s. bu kimi şairlər aşiqanə qəzəlləri ilə bərabər, yeri gəldikcə mövcud qayda-qanunun əleyhinə çıxır, haqsızlığı, özbaşınalığı tənqid, maarifi, elmi, sənəti təbliğ edirdilər. XIX əsrin 70-ci illərindən sonra məclis üzvlərinin şeirlərində sosial ədalətsizliyin tənqidi daha da genişləndi (8, səh.17). Məlum olduğu kimi, orijinal əsrlərlə yanaşı Şərq ədəbiyyatına daha çox xas olan, özünəməxsusluğu ilə seçilən nəzirəçilik XIX əsrdə xeyli güclənmişdi. Bu dövrdə Saib Təbrizi, Cami, Hafiz, Sədi, Nəvai, Nabi, Füzuli kimi şairlərin əsərlərinə nəzirələr yazılırdı. Bəzən belə nəzirələr bir məclis dairəsindən çıxır, qiymət qoyulmaq üçün başqa məclisə göndərilirdi. Məlum olduğu kimi, Füzulinin "Olmaz" rədifli qəzəlinə nəzirə yazdıqdan sonra qiymət qoyulmaq üçün "Beytüs-Səfa" şairləri onu Şuşaya "Məclisi-fəramuşan"a göndərmişdilər. Bundan sonra Şuşadakı hər iki ədəbi məclisin üzvləri həmin qəzələ nəzirələr yazmışdılar. Həm də bir qəzələ bu qədər nəzirə cəmi bir ayın içərisində yazılmışdı. Beləliklə, nəzirəçilik hər bir şairin sənətkarlıq qüdrətini bildirmək üçün bir növ ədəbi yarış xarakteri almışdı. Nəzirələr təkcə klassiklərin şeirlərinə yox, məclis üzvlərinin qəzəllərinə də yazılırdı. Bu cəhətdən Natəvan və S.Əzimin qəzəllərinə daha çox nəzirələr yazılmışdı (8, s.11).

Məclislərdəki qayda-qanuna görə, kollektivin, məsələn, "Beytüs-səfa" şairlərinin eyni bir qəzələ nəzirə yazması ədəbi yarış xarakteri daşıyırdı və sənətkarlıq qabiliyyətinin təkmilləşməsinə, onun inkişafına müəyyən dərəcədə təkan verirdi. "Beytüs-Səfa"nın yığıncaqlarında şeirlə yanaşı, musiqi də eyni dərəcədə öyrənilirdi (8, s.170). "Beytüs-səfa" məclislərində tez-tez musiqi toplantıları keçirilirdi. "Beytüs-səfa" məclisinin himayədarı olan Mahmud ağa Şirvanda muğam sənətinin inkişafında xüsusi rola malik olmuşdur. O, tez-tez müsabiqələr keçirər, xanəndələrə mükafat, qiymətli hədiyyələr verərdi. Mirzə Məhəmməd Həsən, Mehdi, Məbud, Şükür, Davud Səfiyarov kimi xanəndələr, Topal Məhəmmədqulu və Məşədi Səlim kimi tarzənlər Mahmud ağanın məclisinin yetirmələri idilər (3, s.16).

Seyid Əzim müsiqini dərindən bilən, onu mahir musiqişünas qədər qiymətləndirməyi bacaran şairlərdən olmuşdur. O, musiqini əfsanələrdə söylənən "İsanın ölüyə həyat verən nəfəsi"nə bərabər tuturdu. Musiqiyə dair yazılmış səkkiz bəndlik müxəmməsdə şair insana zövq verən, əhvali - ruhiyyəyə şadlıq gətirən, dərd - qəmdən azad edən bir mənəvi qida, ruhani nemət adlandırmışdı (8, s.170).Musiqi məclislərində təkcə tar, kamança, dəf, ney, rübab, cəng, ud, tənbur, bərbət, qanun, tütək, balaban, saza deyil, digər musiqi alətlərinə də münasibət bildirilir, onların hər birinin yaranma tarixi, insanlara necə zövq verməsindən bəhs olunurdu. Bütün bunlar Seyid Əzim yaradıcılığında çox gözəl şəraitdə öz əksini tapmışdır (5).

Seyid Əzim "Beytüs-səfa" məclisi ilə digər məclislər arasında əlaqələrin olmasına xüsusi diqqət yetirirdi. O, Bakı şəhərində Məmmədağa Cürminin sədrliyi ilə yaradılmış "Məcməüş-şüara" məclisini mənzum məktubla yüksək qiymətləndirmişdi. "Bakı şairləri haqqında mədh" adlanan bu mənzumədə Yusif, Müniri, Sürəyya, Fərqa, Süha, Kəbül-Cəbbar, Mirzəağa Dilxun, Mirzə Müsəvviri və bir çox başqa bakılı şairlərin adı çəkilmişdir. Bu qeydlər XIX əsrdə Bakıda yaşamış şairləri tanımaq üçün mühüm məlumatlardır. Seyid Əzim Şirvaninin Azərbaycan ədəbiyyatı tarixində ən dəyərli fəaliyyətlərindən biri də onun bir çox şairlər haqqında biblioqrafik məlumatlar toplaması və onların yaradıcılığına münasibət bildirən əsərlər yaratması olmuşdur. Bu mənada əsası Sam Mirzə Səfəvi ("Töhfeyi-Sami") tərəfindən qoyulmuş milli təzkirəçiliyin inkişafında Seyid Əzim xüsusi mərhələdir. Seyid Əzim Şirvani 1885-ci ildə tərtib etdiyi "Təzkirə"sində görkəmli Azərbaycan şairlərinin əsərlərini toplamışdır. O burada 270-dən çox şairin qısa tərcümeyi-halını və əsərlərindən nümunələr vermişdir. Kitabda Xaqani Şirvani, Fələki Şirvani, Zülfüqar Şirvani, Bədr Şirvani, Füzuli, Molla Pənah Vaqif, Qasım bəy Zakir, Abbasqulu ağa Bakıxanov və başqalarının ədəbi irsi barəsində müfəssəl məlumat vardır (6, s.162-164).

Seyid Əzim Şirvani XIX əsr Azərbaycan ədəbiyyat tarixini zənginləşdirdiyi kimi, özündən sonrakı poeziyanın da inkişafına və keyfiyyətcə yenilənməsinə təsir göstərmişdir (12, s.335-341). Bu mənada Seyid Əzim Şirvaninin dünyagörüşünün tədqiqi xüsusi əhəmiyyətə malikdir.

## ƏDƏBİYYAT


1. Atabəyli N."Seyidəmərseyi-eşq içrə..."Bakı, naşir: "STEP" ltd kino şirkəti, 2014, s.5 (230 səh.)
2. Azərbaycanın ədəbiyyat paytaxtı Şamaxı: tövsiyə biblioqrafiyası /tərt. ed. N. Tahirova; red. və bur. məs. Ş. Qəmbərova; F. Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2016, s.11-12
3. Behbudov Q. "XIX əsrin II yarısında Azərbaycanda musiqi məclisləri". Konservatoriya. Elmi nəşr, №4(30), Bakı, 2015
4. Cəfərli Y. "Əli Fəhmi dünyası". Bakı, Adiloğlu, 2010. (196s.), S.124
5. Cəfərli Y. Füzulinin romantizm, M.F.Axundzadənin realist davamçısı S.Ə. Şirvani Əli Fəhmi yaradıcılığında. "Olaylar" qəzeti, 15 may 2014, s.12.
6.Əhmədov S. Azərbaycan tarixindən yüz şəxsiyyət. "Ayna Mətbu Evi" Bakı – 2006, S.162-164
7. Köçərli Firudin bəy. Azərbaycan ədəbiyyaatı. Iki cilddə. II cild, Bakı, AvrasiyaPress, 2005, S.32, 33 (464s.)
8. Qarayev N.S. XIX əsr Azərbayan ədəbi məclisləri. Bakı, Nurlan, 2012, s.11,(325 s.)
9. MəmmədovS.Ə.Şirvani – 180 (İkinci məqalə) Seyid Əzim lirikasında Füzuli motivləri. "İsmayıllı-Xəbərlər" qəzeti, 8 Sentyabr 2015
10. Seyfəddin Qəni. Seyid Əzim Şirvani haqqında bilmədiklərimiz. Xalq Cəbhəsi.-2016.-28 yanvar.-S.14, Xalq Cəbhəsi.- 2016.- 29 yanvar.-14
11. Şamaxı Diyarşşünaslıq Muzeyi (hazırlayan F.Xəlili). Bakı, Şirvani adına Şamaxı Diyarşünaslıq Muzeyi, 2009, S.235
12. Vahidova M. Seyid Əzim Şirvaninin lirikasinda cəmiyyətə tənqidi münasibət. Azərbaycan Milli Elmlər Akademiyası. "Ədəbiyyat məcmuəsi" Nizami adına Ədəbiyyat Institutunun Elmi Əsərləri. 2016, № 2, s.335-341

## ABSTRACT

**Flora Karimova**

## THE İNFLUENCE OF "BEYTUS-SHAFA" MAJLİS TO SEYİD AZİM SHİRVANİ'S PUBLİC POLİTİCAL OUTLOOK

Seyid Azim Shirvani's creativity, critical realism, education, nazira (imitative poem), taskira, literary majlis, "Beytus-shafa", poem competition

The article considers life biography of Seyid Azim Shirvani, a prominent thinker and poet of Azerbaijani. Seyid Azim Shirvani was one of the prominent representatives of the Azerbaijani education movement, the poems he wrote in different genres reflected the features of the Azerbaijani society of that time.

The article is dealt with the literary majlis "Beytus-shafa", which operated in XIX century in Shamakhi and had a substantial influence on the formation of Shamakhi poets and poetry. The literary majlis "Beytus-shafa" occupied a special position among literary majlises in Azerbaijan in the XIX century. As in other majlises, the works of the great East poets were being read, their creative features were analyzed, and the history of Azerbaijan and the East was studied. The information gathered by S. Azim about the history and poets of Azerbaijan is the product of the period of activity of the "Beytus-shafa" assembly. The literary assembly "Beytus-safa" had a special place in Seyid Azim Shirvani's life and creativity.



## РЕЗЮМЕ

**Флора Керимова**

## ВЛИЯНИЕ МЕДЖЛИСА ”БЕЙТУС-САФА” НА ОБЩЕСТВЕННО-ПОЛИТИЧЕСКИЕ ВЗГЛЯДЫ СЕИД АЗИМА ШИРВАНИ

В статье обсуждается жизненная библиография и общественно- политические взгляды выдающегося философского поэта Сеид Азима Ширвани, обладаюшего широким просветительским направлением. Поэтому Сеид Азим Ширвани был представителем просветительского движения в Азербайджане и написанные им в разных жанрах стихи отражали в себе все качества жизненного периода, присушие Азербайджанскому обществу.

В статье сообщается о литературном меджлисе “Вейтус-сафа”, который действовал в XIX веке в Шемахе и особенно влиял на поэтов Шемахи того периода и развитие их поэтического творчества.Литератур- ный меджлис “Бейтус-шафа” занимал особенное место среди меджлисов, образованных в XIX веке в Азербайджане. Как и в других меджлисах здесь также прослушивались произведения величайших поэтов Востока, анализировались их просветительские особенности , изучалась Азербайджанская и Восточная история. Собранные С.А.Ширвани сведения об истории и поэтах Азербайджана является продуктом периода напряженной активной деятельности меджлиса “Вейтус-шафа”. В просветительской деятельности Сеид Азима Ширвани , в формировании его общественно- политических взглядов особенное место занимал меджлис “Вейтус-шафа”.



NDU-nun Elmi Şurasının 19 oktyabr 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 02).
Məqaləni çapa təqdim etdi: Fəlsəfə üzrə elmlər doktoru, professor M.Rzayev

**HAFİZ HÜSEYNOV**
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 342**

# HÜQUQİ DÖVLƏTDƏ SİYASİ SOSİALLAŞMANIN MƏRHƏLƏLƏRİ VƏ VASİTƏLƏRİ

**Açar sözlər:** *dövlət, cəmiyyət, demokratiya, hüquq, siyasət, şəxsiyyət*
**Key words:** *state, society, democracy, law, policy, personality*
**Ключевые слова:** *государство, общество, демократия, право, политика, личность.*

Bu gün siyasət və təkmil siyasi biliklər cəmiyyətin həyat tərzinin ayrılmaz hissəsinə, siyasi hazırlıq səviyyəsinin yüksəldilməsi isə vacib tələbata çevrilmişdir.

Hüquqi sosiallaşma ümumi sosiallaşmanın zəruri və mühüm istiqamətini təşkil edir, onunla hissə və tam kimi nisbətdədir. Onun mahiyyəti insanın, vətəndaşın cəmiyyətin strukturunda öz ictimai rolunu, yerini daha dərin dərk etməsi deməkdir. Hüquqi sosiallaşmanın əsas xüsusiyyətləri onun konkret olması, dəqiq müəyyənliyi, münaqişə səbəblərinin mərkəzində olması, mövcud informasiyanı şəxsiyyətin sosial statusu və cəmiyyətdəki roluna uyğun olaraq qiymətləndirməsi hesab olunur.

Fərdin sosiallaşması prosesinin ayrılmaz tərkib hissəsini siyasi və hüquqi tərbiyə təşkil edir. onun məqsədi insanlarda müvafiq biliklər sistemi, inam, sosial fəal davranış motivlərini və vərdişlərini formalaşdırmaqdır.

Hüquqi tərbiyə dedikdə dövlətin, onun orqanlarının və qulluqçularının, ictimai təşkilatların və əmək kollektivlərinin əhalidə hüquq düşüncəsi və hüquq mədəniyyətinin formalaşdırılmasına və artırılmasına yönəlmiş məqsədyönlü, sistemli fəaliyyəti başa düşülür.

Bu işdə hüquqi tədris və hüquqi tərbiyə bir-biri ilə üzvi vəhdətdə çıxış edir. Tərbiyəvi xarakter daşıyan tədris prosesində vətədaşın şəxsiyyət düşüncəsi, hüquqi görüşləri, əxlaqi idealları, dəyər oriyentasiyası fasiləsiz surətdə zənginləşir. Onun gedişində insanlara hüquqi biliklərin daim genişləndirməsi və dərinləşməsinə zərurət aşılanır. Hüquqi tədris və tərbiyə şəxsiyyətin vahid inkişafı prosesinin ayrılmaz hissələridir. Hazırda Azərbaycanda hüquqi dövlət quruculuğu ideyasının getdikcə daha dolğun gerçəkləşdiyi bir şəraitdə bunların rolu və əhəmiyyəti durmadan artır.

Hüquqi tədris və tərbiyə müxtəlif formalarda həyata keçirilir. Bu prosesdə əldə edilmiş biliklər fərdin dəyər istiqamətlərinin sosial məqsədinin formalaşmasına köməklik edir. Onlar şəxsiyyətin şüurlu (düşünülmüş) fəaliyyətinin tənzim edilməsində də mühüm rol oynayır və onun hüquqi düşüncəsinin əsası kimi çıxış edir. Sonra, insanın müxtəlif siyasi hadisələrə münasibətinin formalaşmasında, onun cəmiyyətdə davranışının müəyyənləşdirilməsində də onların rolu böyükdür. Şəxsiyyətin ümummədəni inkişafı, sosial normaların gerçəkliyə çevirməsi, normativ tələblərin vərdişə, fəal davranışa keçməsi kimi proseslərin sürəti də hüquqi tərbiyənin səviyyəsindən və keyfiyyətindən çox asılıdır.

Sosioloq – hüquqşünasların apardığı tədqiqatlar göstərir ki, hüquqi tərbiyənin səmərəliliyi ictimai həyatın bütün sahələrində qanunlara riayət etmək ehtiyacının reallaşması səviyyəsi ilə ölçülür. Qanuna riayət etməyi ictimai zərurət kimi dərk etmək və öz davarnışında onun tələblərinə düşünülmüş şəkildə əməl etmək indi həmişəkindən vacibdir.

Hüquqi tərbiyədə bu və ya digər qrupun maraqlarının dərk edilməsi, onun nüfuz və şərəfinin qorunub saxlanılması çox mühüm rol oynayır. Burada əsas məsələ həmin maraqların cəmiyyətin ümumi maraqlarına nə dərəcədə uyğun gəlməsindən ibarətdir. Bu maraqların dərk edilməsi və prinsipial cəhətdən uzlaşdırılması hüquqi normalara uyğun olaraq baş verir. Həmin maraqlar üst-

üstə düşmədikdə isə şəxsiyyət, eləcə də qrup cəmiyyətin hüquqi tələblərinin əleyhinə çıxa bilir ki, bu da mütləq onların münasibətlərində toqquşmalara gətirib çıxarır.

Hüquqi özünütərbiyə istənilən mənfi xarici təsirə davam gətirmək üçün müəyyən siyasi, hüquqi və əxlaqi prinsiplərin, dəyərlərin, sosial və hüquqi davranış normalarının qavranılmasını, inkişafını və möhkəmlədirilməsini nəzərdə tutur.

Hüquqi dövlət şəxsiyyətin siyasi sosiallaşması fasiləsiz proses olub, insanın şüurlu həyatı boyu davam edir. Fərdin siyasi dəyərləri, baxışlar sistemini, davranış formalarını fasiləsiz surətdə mənimsəməsi başlıca olaraq iki şərtlə əlaqədardır. Bir tərəfdən, hər bir insan siyasətin subyekti kimi, siyasi dəyərlərin daşıyıcısı kimi daim təkmilləşməyə, siyasi biliklərini, təsəvvürlərini zənginləşdirməyə möhtacdır. Digər tərəfdən isə, şəxsiyyətin siyasi baxışları, dəyərlər sistemi, qəbul etdiyi siyasi mövqeyi bu və ya digər amillərin təsiri altında dəyişir. Buna görə də, siyasi sosiallaşmanın fasiləsizliyi insanın əvvələr mənimsədiyi dəyərlərin, təsəvvürlərin, vərdişlərin yeniləri ilə əvəz olunması, ya bütövlükdə, ya da qismən dəyişməsi kimi qavaranılır. Fərdin siyasi mövqeyinin dəyişməsi, əvvələr mənimsədiyi siyasi dəyərlərin yeniləşməsi siyasi sistemin təbiətində baş verən dəyişikliklərlə, insanın sosial statusunun, ictimai mövqeyinin və rolunun başqa səviyyəyə yüksəlməsi və ya enməsi ilə bağlıdır.

Şəxsiyyətin siyasi sosiallaşmasının fasiləsizliyi onun ayrı-ayrı mərhələlərinin daxili vəhdəti sayəsində təmin edilir. Fərdin siyasi həyata uyğunlaşması, siyasi proseslərin iştirakçısı funksiyasını yerinə yetirməsi onun həyatının müxtəlif siyasi bilikləri, dəyərləri, normaları, davranış qaydalarını mənimsəyərək siyasi mövqeyini müəyyənləşdirdiyi ayrı-ayrı mərhələlərindən ibarət vahid prosesdir. Adətən siyasi sosiallaşmanın ilkin və ikinci pilləsi fərqləndirilir.

Siyasi sosiallaşmanın ilkin mərhələsində şəxsiyyətin gələcək siyasi subyekt kimi formalaşmasının özülü qoyulur. Bu mərhələdə o ilkin siyasi anlayışları mənimsəyərək gələcəkdə siyasi hadisələri dərk etmək, qiymətləndirmək və ona münasibətini bildirmək qabiliyyətini formalaşdırmaq üçün zəmin hazırlayır. ABŞ tədqiqatçıları D.İston və İ.Denis şəxsiyyətin ilkin sosiallaşmasının dörd pilləsini göstərirlər: a) siyasi həyat haqqında ilkin məlumatların qavranılması. Həmin məlumatların mənbəyi valideyinlər, onların siyasi proseslər haqqında rəyi və hadisələrə münasibətidir. Siyasi sosiallaşmanın bu pilləsinin subyekti rolunda kiçik yaşlı uşaqlar çıxış edir; b) siyasətin "fərdiləşdirilməsi". Bu pillədə siyasətdə və hakimiyyətdə həlledici fiqurlar (prezident, liderlər) uşaq üçün siyasi sistemlə əlaqə yaradan vasitəyə çevrilir; c) həmin siyasi obrazların "ideallaşdırılması, yəni onlara münasibəti ifadə etmək əsasında bütünlükdə siyasətə şəxsi münasibətin formalaşması; d) mənimsənilmiş keyfiyyətlərin "təsisatlanması". Bu pillə gəncin siyasi həyat haqqında təsəvvürlərinin əhəmiyyətli dərəcədə mürəkkəbləşməsi və onun siyasətə daha müstəqil şəkildə qiymət vermək cəhdləri ilə səciyyələnir.

Siyasi sosiallaşmanın ikinci mərhələsi fərdin öz siyasi rolunu həyata keçirmək, ideoloji mövqelərini müəyyənləşdirmək və ifadə etmək qabiliyyətlərinin formalaşması ilə səciyyələnir. Əgər birinci mərhələdə siyasi normalar, dəyərlər və davranış formaları şəxsiyyətə birtərəfli təsir göstərirsə, ikinci mərhələdə bir növ əks sosiallaşma baş verir, yəni fərdin dərk edilmiş tələbatları, dəyərlər sistemi ilə siyasi normalar, prinsiplər arasında qarşılıqlı təsir halı üstünlük təşkil edir. Başqa sözlə, sosiallaşmanın daha yüksək pilləsində insan artıq siyasi mühitin obyekti olaraq qalmır, daha çox rəngarəng siyasi dəyərlər, normalar, davranış formaları arasında onun həyat mövqeyinə, təsəvvürlərinə, xarakterinə uyğun gələni seçməyə meyl göstərir.

Siyasi sosiallaşma, fərdin siyasi mövqeyinin formalaşması, siyasi həyata qoşulması prosesi bir sıra təsisat və vasitələrin təsiri altında baş verir. Onların tərkibi rəngarəng, şəxsiyyətin siyasi keyfiyyətlərinin formalaşmasına təsiri müxtəlifir. Eyni zamanda siyasi sosiallaşmanın hər bir mərhələsində onun bu və ya digər vasitəsi daha üstün əhəmiyyət kəsb edir.

Şəxsiyyətin siyasi sosiallaşmasının ilkin mərhələsinin əsas vasitələri sifətində ailə və məktəb çıxış edir. şəxsiyyətin formalaşması prosesinin əsası ailədə qoyulduğu kimi, fərdin siyasi həyata qoşulması prosesi də ailədən başlayır. Ailədə siyasi proseslərin iştirakçısı olan valideyinlərin və yaşlı ailə üzvləriinin iştirakçılıqdan yaşına görə uzaq olan ailə üzvləri ilə birgə uzun müddətli və fasiləsiz ünsiyyəti siyasi sosiallaşmanın bu institutunun xüsusiyyətlərini şərtləndirir. Ailənin təsiri sayəsində uşaqların siyasi anlayışları qavraması və siyasi proseslərə qiymət verilməsi onların siyasi

iştirakçılığın subyekti kimi rola girməsindən çox-çox əvvəl başlayır. Ailənin yaşlı üzvlərinin sosial-siyasi subyektliyi uşaqlara sirayət edir, onları gələcək siyasi həyata hazırlayır. Amerika prezidentinin tərcümüeyi-halını yazan müəlliflərin əksəriyyəti onların siyasi taleyinin qərarlaşmasında ailənin rolunu xüsusilə vurğulayırlar. Tədqiqatlar göstərir ki, ailə nəinki gəncin siyasi baxışlarını formalaşdırır, habelə onun siyasi proseslərin fəal və ya passiv iştirakçısı kimi yetişməsini şərtləndirir.

Ailənin uşaqların siyasi sosiallaşmasına təsirinin daha bir vacib kanalı da diqqəti cəlb edir. Ailədə valideyinlərə hörmət, valideyn nüfuzu uşaqlarda şəxsiyyətin nüfuzu haqqında ilkin təsəvvürləri formalaşdırır. Bundan əlavə, ailə mühiti, ailə üzvləri arasında qarşılıqlı münasibətlərin xarakteri, problemləri həll etməyə yanaşma metodları uşağın xarakterində avtoritarizmə meylin, yaxud daha mülayim davranış prinsiplərinin möhkəmlənməsini, üsyankar, yaxud kompomisçi şəxsiyyət ünsürlərinin kök atmasını şərtləndirir.

Bununla belə, ailənin siyasi sosiallaşma prosesinə təsirini birmənalı qiymətləndirmək düzgün olmazdı. Ailənin sosiallaşmaya təsiri ilə onun cəmiyyətdə sosial mövqeyi arasında asılılıq mövcuddur. Tədqiqatlar göstərir ki, valideyinlərin cəmiyyətin aşağı təbəqəsinə daxil olduğu ailələrdə bu təsisat yeniyetmənin siyasi sosiallaşması üçün etibarlı mənbə rolunu yerinə yetirmək imkanlarından məhrumdur. Belə ailələrdən çıxmış uşaqların sosiallaşmasında mühitin, yaşıdlarının daha çox rol oynamaq ehtimalı yüksək olur.

Siyasi sosiallaşmanın vasitələri sırasında siyasi sistemin yaratdığı təsisatların rolu xüsusi əhəmiyyət kəsb edir. Bu vasitələrin fəaliyyəti sayəsində fərdin siyasi sosiallaşması prosesi daha ardıcıl xarakter alır, eyni zamanda mövcud rejimin təbliğ etdiyi, qoruduğu siyasi dəyərlərə, davranış normalarına uyğunlaşdırmış olur. Siyasi sistemin siyasi sosiallaşmaya təsiri vasitələri aşağıdakılardır: a) təhsil müəssisələri; b) sosial normalar; c) hüquq normaları.

Məktəb şagirdlərə və tələbələrə həm daha geniş siyasi informasiya verir, həm də siyasi davranış formaları aşılayır. Siyasi proseslərin bilavasitə subyektləri kimi insanın yeni keyfiyyət halına qədəm qoyması orta məktəbin yuxarı siniflərinə və ali məktəb illərinə təsadüf edir. buna görə də, siyasi sosiallaşmanın bu vasitəsinin üzərinə xüsusi məsuliyyət düşür.

Siyasi sosiallaşmanın vasitəsi kimi sosial normaların əhəmiyyəti aşağıdakılarda özünü göstərir: 1) cəmiyyət üçün gərəkli davarnış formalarının müəyyənləşdirilməsi; 2) fərdi davranışın ictimai məqsədlərə uyğun olması və ya onlara zidd gəlməsi probleminin aydınlaşdırılması. Bu mənada sosial normalar şəxsiyyətin sosiallaşmasının vacib meyarlarından biri kimi qiymətləndirilə bilər.

Fərdin siyasi sosiallaşmasında hüquq normaları xüsusi rol oynayır. Ictimai münasibətləri, şəxsiyyət-hakimiyyət əlaqələrini tənzimləməklə hüquq normaları əslində sosiallaşma prosesinin obyektiv hüququ bazasını yaradır. Hüquq normaları insanın fəaliyyət azadlığını nəzərə almaqla eyni zamanda onun fərdi davranışının, şəxsi mənafelərini ödəmək istiqamətində fəaliyyətinin hüdudlarını müəyyənləşdirir. Vətəndaşın fəaliyyət azadlığı ilə ictimai məsuliyyətinin vəhdəti hüquq normalarının fərdin sosiallaşmasında istiqamətləndirici təsirinin əsasını təşkil edir.

Hüquq normalarının fərdin siyasi sosiallaşmasına təsiri müxtəlif formalarda ola bilər. Bunlar aşağıdakılardır: 1) şəxsiyyətin hüquqi statusunun müəyyən edilməsi; 2) şəxsiyyətin hüquq və azadlıqları ilə məsuliyyətinin nisbətinin müəyyən edilməsi; 3) qəbul edilmiş normalardan kənarlaşmalara görə ictimai sanksiyanın dərəcəsinin müəyyənləşdirilməsi.

Siyasi sosiallaşma prosesinə incəsənətin və kütləvi informasiya vasitələinin də təsiri böyükdür. Onların köməyi ilə həm zəruri informasiya təminatı yaradılır, həm də bu və ya digər davranış norması, konkret siyasi iştirakçılıq tipi obrazı yaradılır. Şəxsiyyətə böyük emosional və psixoloji təsir göstərmək imkanlarına malik olan bu vasitələr onun siyasi mövqeyinin formalaşmasında, siyasi həyata qovuşmasında xüsusi rol oynayır.

Beləliklə, sosiallaşma prosesi insanın məqsədyönlü fəaliyyətindən, sosial praktikanın və insanların ünsiyyətinin xarakterindən, onun tutumunun və məzmununun şüurlu şəkildə dəyişdirilməsi imkanlarıdan, habelə tərbiyəsinin təşkilindən asılıdır.

## ƏDƏBİYYAT


1. Heydər Əliyev "Müstəqilliyimiz əbədidir" I və II kitablar, Bakı, 1997
2. Heydər Əliyev Azərbaycanı dünyaya tanıdır. Bakı, 1994
3. A.Hüseynova Müstəqil Azərbaycan dövlətinin qurucusu, Bakı, 2004
4. "Sosiologiya" dərslik, Bakı, 2006
5. "Politologiya" dərslik, Bakı, 2006


## ABSTRACT


**Hafiz Huseynov**


### MEANS AND LEVELS OF POLITICAL SOCIALIZATION IN JURIDICAL STATE


The article deals with the theme that is actual nowades. Means and levels of political socialization in juridical state were explained scientifically. It was noted that political socialization in development and formation of personality. It encloses all the sides of formation process as a subject of political relations and political activity. Its final result is formation of high political culture expressing social-political activity of personality with activity synthesis.

It was noted in the article that remarkable democratically changes in our republic in democracy, establishment of pluralism in civil society formation of social-political organizations and movements in various directions not only makes political process complicated, but also increases interest to them. Political socialization in political medium of society had become one of important and urgent issues for increasing quality of political activity.


## РЕЗЮМЕ


**Гафиз Гусейнов**


### ЭТАПЫ И СРЕДСТВА ПОЛИТИЧЕСКОЙ СОЦИОЛИЗАЦИИ В ПРАВОВОМ ГОСУДАРСТВЕ


В статье рассматривается актуальная для современности тема. Научно откомментированы этапы и средства политической социолизации в правовом государстве. Отмечено, что в демократическом обществе социолизация в политической сфере значительно влияет на формирование и развитие личности. Она охватывает все стороны процесса развития человека как субъекта политических отношений и политической деятельности. Ее конечные результаты формируют высокую культуру, выражающую социально-политическую активность человека и его творческого синтеза.

В статье обосновывается мысль, что в условиях демократии в нашей республике произошли значительные демократические изменения, утвердился плюрализм в гражданском обществе, образовались разнонаправленные общественно-политические организации и движения, которые осложняли политические процессы и порождали им интересы. Все это, а именно политическая социолизация в политической сфере общества сделала важным вопрос повышения качества политической деятельности членов общества.



NDU-nun Elmi Şurasının 19 oktyabr 2017-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 02).
Məqaləni çapa təqdim etdi: Fəlsəfə üzrə elmlər doktoru, professor M.Rzayev

**SADİQ HÜSEYNOV**
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 008.39**

# MULTUKULTURALİZM AZƏRBAYCAN CƏMİYYƏTİNDƏ İCTİMAİ YAŞAM TƏRZİ KİMİ

**Açar sözlər:** *multikulturalizm, dəyərlər, millət, tarix*
**Keys words:** *multiculturalism, patriotism, history, nation*
**Ключевые слова:** *мултикултурализм, ценности, народ, история*

Qərbdə mədəniyyət texniki, yəni texnoloji istiqamətdə inkişaf edərək dünyaya yayılıb texnosivilizasiyalaşma kimi təşəkkül tapır, klassik mədəniyyətin "məhvi", "sonu", "qürubu", "süqutu" tək müəyyən konsepsiyaların yaranmasına şərait yaradır. M. Linq də "multikulturalizm"i ideologiya kimi xarakterizə edərək yazır ki, "Amerika millətlərin milləti, milli mədəniyyətlərin və federasiyaların ümumi hakimiyyətidir." Belə ki, vahid dövlətin geosiyasi məkanında mövcud olan multikulturalizm siyasəti kimi müasir "vətəndaş milləti" ("civic nation") konsepsiyasında onun formalaşmasının tarixi modelindən törəyir. Fərdlərin mədəni-müxtəlifliyinin vahid siyasi-mədəni icmaya məxsusluğunun ümumi ortaq məxrəci və ya "qızıl ortası" kimi onların əsil mədəniyyəti, həm də vətəndaşlığı vətəndaş millətinin müəyyənləşdirici meyar göstəricisidir. Bu tip modeldə "millət", "mədəni müxtəlifləşmə" ilk əsasda etnik mənşə, etnik mədəniyyət yox, vətəndaşlıq və bu vətəndaşlığın mədəni göstəriciləri deməkdir. Qərbdə ABŞ, Fransa, İsveçrə, Böyük Britaniya, Belçika həmin mədəni müxtəlifliyi əks etdirən vətəndaş milləti konsepsiyasını əks etdirən gerçəklikdir. Burada vurğulayaq ki, müasir gənc müstəqillik qazanan dövlətlərin əksəri həm "vətəndaş milləti" , həm "vətəndaşlıq", həm də "etnik mədəni müxtəlif millət" elementlərini özündə birləşdirən subyektdir. Bu elementlərin qarşılıqlı nisbəti həm dövlətdən dövlətə, həm də tarixi zaman kontekstində belə fərqləndiricidir.

Bu baxımdan İ. Məmmədzadə mənşə etibarilə Amerikan mədəniyyətinin elə bu günkü qlobal mədəniyyət olduğunu qeyd edərək yazır: "Amerikanizmin qlobal mədəniyyət kimi meydana gəlməsinin səbəblərindən biri kimi ABŞ-ın öz mədəniyyətlərini multikultural mədəniyyət kimi qəbul etdiklərini göstərir." Multikulturalizm siyasəti ideyasında hər bir müasir millət həm etnik, həm də siyasi-hüquqi vətəndaş icması rolunda çıxış edir. Bu konsepsiya, yəni vətəndaş (vətəndaş-ərazi) milləti konsepsiyasının müxtəlif cəhətləri E.Smit, Q.Kon, R.Brubaker, K.Briant, V.Kimlicka kimi Qərb nəzəriyyəçilərinin konsepsiyalarında izah edilmişdir. Bu yanaşmadan J.Linz və F.Stepan öz araşdırmalarında göstərir ki, "Vətəndaş millətinin formalaşması, ictimai inteqrasiyanın dərinləşməsi demokratikləşmə prosesi ilə çox bağlıdır." Siyasət elmində belə bir fikir çoxdan təsdiqini tapıb ki, eyni mənşəli-etnik homogen cəmiyyətlərdə demokrartik konsentrasiyası-təmərküzləşməsinin uğur qazanmaq ehtimalı daha çox olur. Əksinə, əhalinin tərkibi etnik, mədəni, dil, dini aspektdən nə qədər müxtəlif olursa, fundamental demokratik dəyərlər baxımından həmrəyliyin əldə edilməsi və dövlətin siyasi icmasının formalaşdırılması siyasəti bir o qədər də mürəkkəb olur. Nəzərə yetirək ki, belə mədəni-müxtəliflik demokratikləşmənin uğurlu inkişafı qarşısında keçilməz sədd və ya mane deyildir. Belə ki, nəinki Avropa və Amerika reallığında, bu həm də Azərbaycan geosiyasi ərazisində də mövcuddur. Azərbaycan məkanında müxtəlif etno-mədəni və dini icmaların əsrlər boyu yanaşı yaşaması,bir-birinə dözümlülüyü həm də siyasi sferada da aşkar tolerantlıq ənənələrinin sübutudur. Müasir bəşəriyyət baş verən mədəni universallaşma və unifikasiya proseslərinə əks olaraq mədəni müxtəliflik göstəricisi olan fenomenlərin əsasən də (dil, irq, din, adət-ənənə və s.) qorunması və qayğısını dünya mədəniyyətində balanslaşdırmanın özülü kimi qəbul edirlər. Bu baxımdan laqeydlik, biganəlik, getdikcə yerli-lokal, immiqrant mədəniyyətlərinə münasibətdə beynəlxalq miqyasda diqqət yönəlməsinə səbəb olub. Dövlətçilik

ənənələri olan ölkələrdə, məsələn Avropa ölkələrində, ABŞ-da və s. "milli" anlayışı bəzən məhz ikinci mənada işlənir və "ümumxalq", "ümumdövlət" anlayışlarını özündə əks etdirir.

Nəzərə yetirək ki, demokratiya tranziti "zamanı multimədənilik özü də mürəkkəb vəziyyətlər törədə bilər." Multikulturalizmlə bağlı siyasət və bu və ya digər nəzəri modelin seçilməsini nəzərdə tutmalıdır ki, yalnız bu zaman mədəni müxtəlifliklə əlaqəli vətəndaş cəmiyyətindən bəhs etmək olar. Belə ki, qloballaşma dövründə milli mədəniyyət, mədəni müxtəliflik,çox mədəniyyətlilik özü vətəndaş cəmiyyəti bu problemə həssas yanaşmalıdır. Çünki qloballaşmanı qəbul etməyən kulturlar üçün qloballaşma daha dağıdıcı, mədəni rəngarəngliyin şərti ola bilər. Multikulturalizm müxtəlif elmlər qovşağında və yaxud konkret bir elm kontekstində araşdırıla bilər. Şübhəsiz ki, fenomen ideologiya və siyasətdir. Burada ümummilli dəyərlər irqi və etnik kulturlara qarşı dövlət siyasətində müqavimətlə yox, əksinə mülayimlik və ya dözümlülük göstərməyi tələb edir. Multikulturalizm demək siyasət elminin də obyektidir. Bu politoloji yanaşmada Dövlət-hakimiyyət siyasətində vətəndaş cəmiyyətinin tərəfdaş kimi problemin çözülməsində yaxın iştirakını da məqbul edir. İctimai iştirakçılıqla siyasi proseslərin tənzimlənməsi də rəngarəng mədəniyyətlərin siyasiləşməməsi, yalnız mədəni konturlarla nizamlanmasına da kömək etməlidir. Demək bu fenomen sosiumun vacib elementi kimi qorunmalıdır ki, siyasiləşib müxtəlif fəsadlar törətməsin. Bu da bəllidir ki, mədəni birlik və mədəni qurumlar mədəniyyətin sosial həyatının bütün tərəflərini əhatə etməklə bahəm, bəzən siyasi proseslərə də təsir göstərir. Mədəniyyətin etnik, milli və bəşəri tərəflərinin formalaşmasında mədəni xüsusiyyət və amillərin eyniyyəti mühüm rol oynayır. Prezident İlham Əliyevin dediyi kimi: "Multikulturalizm başqa xalqın nümayəndəsinə hörmət, başqa dinə hörmətdir. Öz dininə hörmət başqa dinə hörmətdən başlayır. Multikulturalizm ayrı-seçkiliyə yol vermir, əksinə bütün xalqları birləşdirir. Eyni zamanda hər bir ölkənin öz qaydaları, öz ənənələri vardır. Hər bir insan- həm ölkənin vətəndaşı, həm ölkəyə gələn qonaq, əlbəttə ki, o qaydalara , o ənənələrə hörmətlə yanaşmalıdır." Bu baxımdan, görən belə olduqda cəmiyyət çox böyük, müxtəlif mədəniyyətli insanlar toplusunu əhatə etdikcə, onun inkişaf amili yüksəlir, yoxsa enir? Yaxud artır və ya azalır? Hər hansı mədəni qrupun öz müəyyən bacarıq və imkanları olur.

Mədəniyyətin differensiyasında dil, irq, din, sənət, siyasi-mədəni qurumlar və s. kimi oxşar nümunələrindən biri, sistem quran səbəb kimi, konkret etnik birliyi digərinə münasibətdə təşkilatlandıran güc olaraq meydana çıxır. Məsələn, N.Vısotskaya görə "multikulturalizm və ya mədəni müxtəliflik" çoxsaylı mədəni qrupların, fərqli milli mənsubiyyətlərin, dinlərin və s. göstərən cəmiyyətin təyinidir". Məhz bu nöqteyi nəzərdənsə paralellik aparsaq, digər tədqiqatçı S. Xəlilovun münasibəti də diqqət çəkir. Belə ki, S.Xəlilova görə "Biz Avropadan elmi-texniki inkişaf səviyyəsini, rasional düşüncə üslubunu, siyasi təfəkkür mədəniyyətini, fəlsəfi təfəkkürün hüquq müstəvisinə köçürülməsinimi götürmək istəyirik? Yoxsa onların özünün xilas olmağa çalışdığı və məmnuniyyətlə xaricə ixrac etdiyi "kütləvi mədəniyyətimi" nəzərdə tuturuq?" Hər bir insan istənilən hər hansı bir mühitdə müəyyən milli-mənəvi dəyərlər sistemi çərçivəsində formalaşır. Lakin başqa bir şəraitə düşəndə, həmin şərait-mühitlə bu insan arasında ziddiyyətlər meydana çıxır. Məhz belə insanın digər ona yabançı olan mədəni-mənəvi mühitə uyğunlaşması onun ənənəvi, milli-mənəvi kökündən uzaqlaşması ilə formalaşır.

Burada müəyyən faktorun rolu və əhəmiyyəti əsasən nisbi xarakterlidir. Müxtəliflik və fərqliliyin əsas göstəricisi etnik mədəniyyətin hansı bir xüsusiyyətinin digər mədəniyyətdə olmamasıdır. Tarixdə bu fərqli xüsusiyyət mədəniyyətlərin təbii mahiyyət əlaməti kimi deyil, onları ayıran konflikt, qarşıdurma, özgəlik, yad və s. kimi qəbul edilir.

Azərbaycan reallığına nəzər yetirəndə müsbət tendensiyalar diqqət çəkir. Qeyd edək ki, vətəndaş cəmiyyətinin formalaşması ötən XX əsrdə elmi-texniki inqilabla yanaşı, həm də ondan sonra ikinci, yəni sosial inqilab kimi zarakterizə olunur. Müstəqilliyin ikinci dəfə bərpasından sonra Azərbaycanda vətəndaş cəmiyyətinin təşəkkülü və formalaşması kimi ictimai hadisənin baş verməsi, dövlətçiliyin demokratik institutsional əsaslarını şərtləndirən strujtur dəyişiklikləri, cəmiyyəti təşkil edən müxtəlif sosial tip və stereotiplərin bir-birini əvəzləməsi gedişatı kimi çətin bir proses başladı. Belə dönəmlərdə siyasəti və siyasətçiləri, onların məqam və missiyalarını insanlara çatdırmaq üçün bu kimi ideyalarının trayektoriyasını davam etdirtmək, geniş kütlələrə

düzgün təhlil, maarifləndirmə və məlumatlandırmanı ötürmək missiyasını vətəndaş cəmiyyəti institutları həyata keçirməyə cəhd edir. Təbii ki, burada vətəndaş cəmiyyəti nümayəndələri xalq, geniş əhali üçün anlaşıqlı və düzgün məlumat "paketi" ilə xalq-dövlət arasında olan problemlərin çözülməsi üçün körpü, vasitəçi, bəlkə də qarşılıqlı əlaqələndirici kimi çıxış edir. Müstəqil Azərbaycan mədəniyyətinə nəzər yetirəndə, aydın olur ki, problemin siyasi-mədəni təhlili iki paralellikdə aparılmalıdır. Dünya mədəniyyəti və Azərbaycan. Nəzərə çatdıraq ki, Azərbaycanda çoxçalarlı mədəniyyətlər və onun da müxtəlif tipləri mövcuddur. Dünya müasir mədəniyyətləri kimi, Azərbaycan mədəniyyəti də vətəndaş cəmiyyətinin təşəkkülü prosesində multikultural xarakter kəsb edir. Milli mədəniyyətlə paralel multikulturalizm də buraya daxil olaraq, keçmişə, mədəni, mənəvi irsə, tarixə yeni kontekstdən nəzər salınmasını şərtləndirir. Kütləvi baxışda özünəməxsusluq hələ də ənənəviliklə, müasirlik isə qərbləşmə (amerikalaşma) ilə əlaqələndirilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda "XXI əsr: ümidlər və çağırışlar" devizi ilə keçirilən Beynəlxalq Humanitar Forumda söyləmişdir ki, "Nəinki Azərbaycanda, bir çox ölkələrdə və qonşu ölkələrdə multikulturalizmin böyük ənənələri vardır. Ona görə də, bu gün multikulturalizmi şübhə altında qoymaq, yaxud onun iflası haqqında danışmaq hesab edirəm ki, həm yersizdir, həm zərərlidir. Çünki multikulturalizmin alternativi yoxdur". Qloballaşma, modernləşmə və demokratik proseslər multikulturalizmin ümumi xarakter daşımasına səbəb olur. Təhlillərdən aydın olur ki, Avropada multikulturalizm ünsürləri nisbətən gec təşəkkül tapdı. ABŞ-da artıq multikulturalizmin inkişafında əhəmiyyəti qəbul edildi.

Belə ki, millətlərin və milli etniklərin bərabər hüquq əldə etdiyi multikulturalizmin inkişaf etdiyi Azərbaycanda bu mədəniyyətlər arasında qarşılıqlı Dialoq azadlığı vardır. Azərbaycanda müxtəlif milli-mənəvi və konfessional birliklər öz xüsusiyyətlərini hərtərəfli şəkildə inkişaf etdirmək imkanına malik olaraq həm də, başqa mədəniyyətdən də yararlanaraq, istifadə etmək imkanına malikdir. Ölkədə multikulturalizmin yaranması və inkişafında modernləşmə və Azərbaycançılıq ideologiyası da əsas amildir. Bu ideologiyanın əsasını millilik, dünyəvilik, sosial ədalət, demokratiya, milli tərəqqi insan hüquq və azadlığına riayət təşkil edir. Bu ideologiya Azərbaycanı özünə vətən qəbul etmiş, ölkədə yaşayan bütün millətlərin və etnik qrupların vəhdət şəklində, dostluq, hətta qohumluq, qonşuluq, əmin-amanlıq şəraitində yaşadığı mədəniyyətlərinin inkişaf etdiyi ümumi talelərini əks etdirən, multikulturalizm göstəricisi olan mənəvi fenomendir. Digər bir aspekt isə ondan ibarətdir ki, Azərbaycançılıq ideologiyası yalnız ölkə ərazisində yaşayan müxtəlif etnik və dini mənsubiyyətli insanların göstəricisi yox, o həm də geosiyasi sərhədə və məkanların ayırdığı, dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızı da bir ideya-fəlsəfi, mədəni məkanda tamlaşdıran, bütövləşdirən gücdür. Azərbaycançılıq - cəmiyyətin sosial-mədəni, siyasi və hüquqi nizamlanmasının, insanları mənən səfərbər edən və vəhdətinin əsas faktorudur. Azərbaycanın vətəndaş cəmiyyətinin yekcins olmamasına diqqət yetirildikdə etnik və dini dəyərlər ideoloji sxemdə tolerantlıqla qarşılanır. Eyni zamanda birləşdirici faktor kimi milli dövlət, ümumxalq ideyası olaraq azərbaycançılıq universallaşır. Təbii ki, burada məcburiyyət yoxdur. Amma elə məqsəd, elə prioritetlər var ki, onlar milli ideya olaraq müəyyənləşir. Belə məqamdasa vətəndaşların dini, etnik, və sosial mənsubiyyətindən (həmçinin siyasi əqidəsini də buraya aid etmək olar.) asılı olmadan, bu kimi ideyalar geniş dəstək qazanır. Bu ideologiya məhz azərbaycançılıqdır. Bu isə Azərbaycan vətənpərvərliyi, dövlət müstəqilliyi, milli təhlükəsizliyin qorunması, demokratik və iqtisadi islahatlarla ölkənin modernləşdirilməsidir. Burada "qızıl ortada" xətt kimi ən əsas isə Qarabağ probleminin həllidir.

Hər bir inkişaf edən sosiumda ideologiya olmadan cəmiyyət "ideya boşluğuna" yuvarlana, nəticədə, tənəzzülə uğraya bilər. İdeologiya isə elə ümumi, ruhi-mənəvi bir təməldir ki, onsuz mədəniyyət və sivilizasiyanın formalaşması qeyri real görünür. Azərbaycançılıq ideologiyasının qayəsi və dəyəri onun ətrafında ölkədə yaşayan bütün xalqlar, milli-etnik qrup və azlıqların birləşməsi, ümumilikdə özlərini "azərbaycanlı" adlanmasıdır. Azərbaycan ta qədimdən ən müxtəlif xalqlar və mədəniyyətlərin mövcud olduğu diyarı kimi tanınır. Azərbaycanda multikulturalizmin inkişaf dinamikası xalqın özünün tolerantlığı, demokratikliyi, açıqlığı ilə bağlı amildir. Belə ki xalqın tarixi kökləri bütün dünyaya yayılan ümumtürk etnosuna gedib çatır. Bununla bahəm, coğrafi

və geosiyasi müstəvidən həmişə bütün dünyaya ölkəmiz açıq olmuş, çoxlu müxtəlif mədəniyyətlər arasında isə sintez-qovşaq missiyasını ifa etmişdir.

Qeyd olunan bu aspektlər Azərbaycanı çoxmillətli, çoxdilli, multikultural, demokratik vətəndaş cəmiyyəti quruculuqlu ölkə kimi tanıtmışdır. Azərbaycanın multikultural stereotipləri qlobal tədbirlərdə də təsdiq olunur. Bu yanaşmadan 2011-ci il Bakı Forumunda iştirak edən Y.Jdanovun multikulturalizmin inkişafı barədə söylədikləri ümumi təsəvvürləri göstərir: "Planetdə başqa elə bir bölgə yoxdur ki, buradakı kimi onlarla xalq çox uzun müddətə və birlikdə yaşamış olsun. Bu füsunkar çoxçalarlılıq bütün bəşəriyyətin dəyərli xəzinəsi hesab oluna bilər. Yəqin buna görədir ki, bu ölkənin ictimai-elmi fikri millətlərarası münasibətlər, əməkdaşlıq və qarşılıqlı anlaşma probleminə dünyanın diqqətini bu qədər cəmləşdirməyə çalışır. Azərbaycanın tarixi təcrübəsi bu baxımdan dəyərli və intəhasızdır". Məhz bu kimi baxışlar ölkədə multikulturalizmin inkişafını göstərən reallıqdır. Bu reallıqda bir dəlil multikulturalizmə həsr edilmiş "Bakı Beynəlxalq Humanitar Forumu", orada iştirak edən müxtəlif ölkələrin ölkəmizin multikultural siyasətini təqdir etməsidir. İkincisi isə demokratik, tolerant, multikultural dövlət kimi Azərbaycanın BMT-nin Təhlükəsizlik Şurasına qeyri-daimi üzvü seçilməsi faktıdır.

Azərbaycanda yaşayan müxtəlif xalqların mənəvi yaddaşı tarixi inkişaf mərhələsində zərdüştlükdən üzübəri dünyanın bütün əsas dinlərinin ən ülvi, bəşəri dəyərləri ilə zənginləşərək, mədəniyyət və mənəviyyatın çoxsaylı cəhətlərini özündə miras saxlamışdır. Azərbaycanda multikulturalizm göstəricisi özünün rəngarəng tərkibi ilə fərqlənən və bu müxtəlifliyin etnik-milli mənbələrini qorumuş, burada yaşayan etnik-dini birliklərin qarşılıqlı münasibəti və mədəniyyəti, folklor, dialekt, adət, məişət tərzi, inam sistemi və s. müxtəlifliyin vəhdətini müəyyən edən obyektivlikdir. Azərbaycan tarixən də polietnik və müxtəlif dinli ölkə olmuşdur. Əhalisinin əksəriyyəti azərbaycanlı olan respublikada ta qədimdən İran, Qafqaz (gürcü, erməni, osetin və s.) etnosları, eləcə də yəhudi, rus, ukrayna, tatar, belorus və s. də yaşamışdır. Mövcud etnik, dini,dil qeyri-cinsliyi deyil, dövlətin məhz bugünkü anlamda desək "multikulturalizm" siyasətinin mədəni müxtəlifliyi də ideoloji modellərinin sivil yaşam tərzidir. Multikulturalizm siyasətində vətəndaş cəmiyyətinin formalaşdırılması əhalinin azərbaycanlı kimi özünü adekvat olaraq identikləşdirməsi, yəni eyniləşdirməsidir. Bu isə həm də ölkə vətəndaşının etnik mənşəyindən asılı olmadan, özünü "azərbaycanlı" adlandırmalı, belə saymalıdır. Bu əhalisinin əksəriyyəti azərbaycanlı olanların türksoylu olmasına qarşı deyil, əksinə ölkədəki etnik fərqlərin bir vahiddə ifadəsi, belə desək "multikulturalizm siyasəti" və vətəndaş cəmiyyəti millətinin formalaşmasıdır. Hər insanın etnik kökünün onun vətəndaşlığına aidiyyəti yoxdur. Azərbaycanda anadan olan, valideynlərindən biri Azərbaycan vətəndaşı olan hər bir kəs Qanuna əsasən azərbaycanlıdır. Multikulturalizm siyasətində vətəndaş millətinin formalaşması prosesində Dövlət dili də mühüm əhəmiyyət daşıyır. Belə ki bütün Azərbaycan vətəndaşlarının Dövlət dilini-azərbaycan dilini mənimsəməsi də əsas şərtlərdən biridir. Burada qeyd edək ki, azərbaycan dilinin mənimsənilməsi etnik azlıq və yaxud qrupların dilinin də qorunması ilə birgə tətbiq olunmalıdır.

Günümüzdə daha tez-tez müşayiət edilən mədəni münaqişələrin fonunda cəmiyyətdə sabit inkişaf mühitini təmin etmək üçün multikulturalizm dialoq və mədəni zənginlik nümunəsidir. Bu mənada, bir çoxları hesab edir ki, multikulturalizm ideyalarının reallaşması, guya, daha çox mədəni cəhətdən yüksək inkişaf etmiş cəmiyyətlərdə mümkün olur. Multikulturalizmin tənqidçiləri hesab edirlər ki, nəticədə, çoxəsirlik mədəni dəyərlərin əsasları sarsılacaqdır, çünki belə təmayüllər həmişə hər şeyin orta vəziyyətə düşməsinə səbəb olur. Onların fikrinə görə, əgər miqrantların aşağı mədəni səviyyəsi yüksəlirsə, multikulturalizm ölkəsinin yüksək mədəni səviyyəsi mütəmadi olaraq aşağı düşür. Ona görə də bəzi avropa ölkələrinin A. Merkel, D.Kemeron, N.Sarkozi kimi sağ təmayüllü liderləri 2010-cu ildə bəyan etdilər ki, multikulturalizm siyasəti bu ölkələrdə iflasa uğrayıbdır.Multikulturalizm, bir tərəfdən, cəmiyyətdə milli, mədəni və konfessional müxtəlifliyin bənzərsiz ifadəsi, digər bir tərəfdən isə dövlətin bu rəngarəngliyi qoruyub saxlamaq, onun hüquqi bazasını təmin etmək siyasəti, onun fəlsəfi və nəzəri əsaslanmasıdır.Multikulturalizm hər bir ölkənin, xalqın, mədəni birliyin təcrübəsini nəzərə alır, müxtəlif yanaşmalar təklif edir, sosial-iqtisadi inkişafı isə hər bir cəmiyyətin öz xüsusiyyətləri üzərində formalaşdırmağa cəhdlər edir. Bu siyasət imkanlar çoxluğu prinsipinə əsaslanır və heç bir xalqdan kimlik dəyişikliyi tələb etmir. Bu

mənada, multikulturalizm təkcə qloballaşmanın tələbi deyil, həm də postmüasir inkişafın aparıcı meyillərindən biridir. Bu gün əksər ölkələr üçün müxtəliflik həyatın bir normasına çevrilmişdir. Bu turizmin, ticarətin, elm və mədəniyyətin dialoqu, mütəxəssislərin mobilliyi və miqrasiyanın intensivləşməsi ilə əlaqədardır. Demək olar ki, bütün ölkələrdə mədəni və dini "azlıq" kimi ifadə etdilən qruplar mövcuddur. Bir çox ölkələr ona görə multikultural adlanır ki, hər bir kəs üçün buraya gəlmək, işləməsi, yaşaması üçün gərəkli mühit olan açıq cəmiyyətlər mövcuddur.

Qeyd etmək lazımdır ki, uzun illər dünya cəmiyyəti Qərb inkişaf nümunəsini təkcə mükəmməlliyin deyil, həm də gələcəyin yeganə inkişaf modeli olaraq qəbul edirdi. Digər mədəniyyətlərlə münasibətlərini konkret modelləşmə üzrə əsaslandıran Qərbin iqtisadi uğuru mədəni inkişafın əsas elementi, onu müdafiə edən təfəkkür isə dəyişikliklərin hərəkətverici qüvvəsi sayılırdı. Tanınmış alman tətqiqatçısı U.Bek qeyd edir ki, inkişafın universal modeli hesab edilən Qərb modeli bütün ölkələri özünə doğru istiqamətləndirdi.

Lakin son onilliklərdə dünyanın yeni inkişaf meyilləri, insan fəaliyyətinin çoxşaxəliliyi və dinamikliyi onu əhatə edən sosial-mədəni atmosferi köklü şəkildə dəyişdirdi. Qərbin homogenliyi, mədəni müxtəlifliyin heterogen tendensiyalarının təsiri altında yeni institutlaşma, çoxukladlı demokratiya, yeni iqtisadi və siyasi təşkilatlanma (çoxlu mərkəz) formalaşdırmışdır. Ənənə ilə mübarizə, sekulyar siyasət, fərdiyyəçiliyin ali prinsiplərə aid edilməsi insanlarda kimlik məsələlərini yenidən önə çıxarmış, sosial miqrasiya isə bu problemi mədəni münaqişənin obyektinə çevirmişdir. Bu mənada, dünyanın yeni nizamını formalaşdıran qloballaşma Qərbin müstəsnalıq iddialarının yeni reallıqlarla bir araya gəlmədiyini göstərdi. İnformasiyanın yaratdığı yeni mədəni meyillər isə inkişafın alternativlərini ortaya qoydu,eyni zamanda ənənə ilə müasirliyin birgə mövcudluğunu da göstərdi. Bu gün qloballaşma bəşəriyyətin inkişafı üçün yeni imkanlar yaradır. İnteqrasiya və informasiya kommunikasiya texnologiyaları insanlar arasında münasibətlərin ənənəvi səddlərini aradan götürür, elm və biliyin, texnologiyaların sərbəst mübadiləsinə, şəxsiyyətin özünütərbiyəsinə daha asan imkanlar yaradır, müxtəlif mədəniyyətlər arasında dialoqu genişləndirir. Miqrasiyanın genişlənməsi isə mədəniyyətlərarası təması daha da yaxınlaşdırır. Dünyanın mədəni mənzərəsi daha rəngarəng görünür.

Multikulturalizm anlayışı son zamanların termini kimi qloballaşma proseslərinin intensivləşməsi və "azadlıq", "demokratiya", "bərabərlik" kimi liberal dəyərlərin möhkəmlənməsi ilə ortaya çıxmışdır. Ona görə də sosioloqlar düşünürlər ki, bu cür cəmiyyətin formalaşmasında ayrı-ayrı fərdlərin müstəsna hüquqlarını təmin edən demokratik cəmiyyətin qurulması vacib məsələdir. Lakin liberal-demokratiyadan fərqli olaraq, multikulturalizm fərdlərin deyil, müəyyən sosial qrupların, birliklərin, ümumilikdə, cəmiyyətin maraqlarını güdür.

Bu anlayışı ortaya çıxaranlardan biri olan amerikalı sosioloq H.Kallen amerika cəmiyyətinin müxtəlif mədəni fərdlərdən ibarət olduğunu nəzərə alaraq, "mədəni plüralizm" adlı nəzəriyyəni işləyib hazırlamışdır. Onun fikrincə, insanları bir-birinə yaxınlaşdıran mədəniyyət deyil, sosial mənsubiyyətdir. Belə ki, H.Kallenin ardıcılları bildirirdilər ki, cəmiyyətin mövcud dominant dəyərlər paradiqmasına adaptasiya və assimilyasiya meyillərinə baxmayaraq, müasir sivilizasiya heç də fərqli mədəniyyətləri vahid mədəni orqanizmdə həll edə bilmir: hər bir mədəniyyət sintez edilmədən tarixi- mədəni özəlliklərini saxlamaqla mövcudluqlarını təmin edə bilir. Etnik və konfessional qrupların daxilindəki ənənələr o qədər möhkəmdir ki, onlar çox asanlıqla xalqların mədəni irsinin özünəməxsus elementlərinə çevrilə bilirlər. Multikulturalizm tərəfdarları iddia edirlər ki, çoxlu mədəniyyətin bərabər şəkildə inkişafı dövlətin sabit inkişafını təmin edə bilər. Bu gün mutikulturalizm dini, irqi, etnik xüsusiyyətləri müdafiə edən bir hərəkatdır.

Bir çoxları belə düşünür ki, onun əsası Amerika Birləşmiş Ştatlarında Afrika mənşəli amerikalıların öz hüquqları uğrunda mübarizəsi hərəkatı ilə bərabər formalaşmağa başlamışdır. Uzun illər ABŞ "miqrantlar ölkəsi" kimi milli siyasətini dini-etnik seqreqasiya ətrafında aparılan mübarizə əsasında yaratmağa çalışmışdır. Nəticədə, bu ölkədə nə dinin, nə də milli mənsubiyyətin formal şəkildə əhəmiyyət daşımadığı sosial-siyasi sistem formalaşa bilmişdir. ABŞ vətəndaşının siyasi statusu da ölkə ərazisində doğulması ilə müəyyənləşirdirir. Lakin bu hələ multikultural sosial-mədəni mühitin yaradılması demək deyildi.

Bu cür siyasət gözlənilən nəticələrin əldə olunmasına, yəni azlıqların siyasi həyata inteqrasiyasına gətirib çıxara bilmədi. Belə ki, xalqların, xüsusən də zəncilərin vahid "millətdə" assimilyasiyası quldarlığın və irqi ayrıseçkiliyin "acınacaqlı" tarixini onların yaddaşlarından silə bilməmişdi. Buna görə də amerika cəmiyyətində bir müddət multikulturalizm anlayışı hakimiyyətin qaradərili vətəndaşlarına qarşı "yumşaq diskriminasiyası" kimi qəbul edilirdi.

Azlıqlar bu cür yanaşmanı əmək bazarında və təhsildə müəyyən üstünlüklərin əldə olunması kimi qəbul etsələr də bu təcrübənin davam etdirilməsinə qarşı çıxırdılar. Nəticədə, məişət səviyyəsində başlanan seqmentləşmə cəmiyyətin irqi-etnik əlamətlərə görə seqreqasiyasını daha da dərinləşdirdi, sosial gərginliyi artırırdı. Ona görə də bu cür yanaşma bir çox hallarda multikulturalizmə qarşı neqativ münasibətlərin formalaşmasına da gətirib çıxarırdı.Bununla belə, dünya Amerikanın timsalında millətlərin, xalqların, dinlərin bir-biri ilə yanaşı yaşamanın fərqli tərzini görə bilmişdir. Daha çox gəlmələrdən ibarət olan bu cəmiyyət, müxtəlifliyi ifadə edən yeni identikliyin formalaşmasında aparıcı rolu olacaq gənc amerikalıların tərbiyəsində dinc yaşamanın özəyi kimi dünyəvi təhsil sisteminini əsas götürmüşdülər. Təhsil amerikalıları böyük multimədəni sosiumun tərkib hissəsinə çevirə bilmişdir.

Amerika Birləşmiş Ştatlarından fərqli olaraq Avropada vəziyyət başqa cür idi. XX əsr boyunca və əsrin sonlarında baş verən hadisələr, xüsusən də SSRİ-nin dağılması, iqtisadi və sosial problemlər, Yaxın Şərqdə baş verən dini münaqişələr kütləvi surətdə əhalinin yerdəyişməsinə səbəb oldu.Onların əksəriyyəti sosial rifahın yüksəldilməsi məqsədilə Avropaya gedirdi. Bu mənada, Qərbi Avropa ölkələrində multikulturalizmə dair müzakirələr başqa istiqamətdə inkişaf edirdi. Belə ki, Avropanın azlıqlara qarşı repressiv tarixi Amerikada zəncilərə və hindulara qarşı münasibətlərlə müqayisədə çox az idi. Mədəni müxtəliflik haqqında fikirlər burada uzun müddət səslənmirdi: miqrantların qarşısında dayanan başlıca vəzifə yerləşdikləri ölkənin sosial, siyasi və mədəni mühitinə inteqrasiya etməli idilər.

Bu zaman Avropaya axın edənlərin əksəriyyəti sosial baxımdan cəmiyyətin orta səviyyəsini təmsil edirdi. XX əsrin sonlarına doğru isə daha çox keçmiş müstəmləkələrdən axın edən miqrantların sosial tərkibində məskunlaşmanın xarakteri və məqsədləri dəyişir. Bu zaman həm elmi, həm də siyasi çevrələrdə belə düşünürdülər ki, qaçqın qismində gələnlər gec-tez geri qayıtmalı olacaqlar. Ona görə də onların assimilyasiyası vacib deyildir. Beləliklə də miqrantların inteqrasiyası siyasi orqanizmə daxil olmadan, başqa sözlə assimilyasiyadan kənar həyata keçməli idi.

Assimilyasiya modelinin iflası Fransa və Almaniya kimi ölkələrdə özünü daha qabarıq göstərirdi. Azlıqlar ölkə vətəndaşı olmaqla hüquqi baxımdan yerli əhali ilə bərabər hüquqlara malik idilər. Lakin təcrübədə formal şəkildə ifadə olunan hüquqlar əslində, tam həyata keçirilmirdi, siyasi və mədəni həyatdan uzaq olmaqla bərabər marginal şəkildə öz kimliklərini qorumağa çalışırdılar. Məsələn, Fransada yoxsulluq, az təminatlı iş yerləri, dözülməz yaşayış yerləri keçmiş müstəmləkələrindən axın etmiş miqrantların vəziyyətini daha da pisləşdirirdi. Almaniyada isə ümumiyyətlə axının qarşısını almağa çağıran şüarlar daha kəskin səslənməyə başlayırdı.

Təcrübə göstərir ki, müasir Avropada multikulturalizmin daha çox miqrasiya ilə bağlı formalaşması məsələyə düzgün yanaşılmamasından xəbər verir. Bu istiqamətdə aparılan işlərin səmərəsizliyi Fransa, Almaniya, Hollandiya, Belçika kimi ölkələrin identiklik problemlərini ölüm-dirim mübarizəsinə çevirməkdədir. Belə ki, Qərb nöqteyi nəzərində mövcud olan multikulturalizm yüzilliklərlə formalaşan Avropa dəyərlərinin və mədəniyyətinin itməsinə, marginal qrupların aktivləşməsinə gətirib çıxarmışdır.

Multikulturalizm siyasəti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən də uğurla inkişaf etdirilir. Ölkəmizdəki tolerantlıq mühitinin əsasında duran mühüm amillərdən danışarkən, ilk növbədə siyasi sabitliyi, sosial və iqtisadi inkişafı qeyd etmək vacibdir. Ölkə başçısı müxtəlif tədbirlərdə, irimiqyaslı beynəlxalq toplantılarda çıxışı zamanı mütləq multikulturalizm məsələsinə yer ayırır və bunun vacibliyini vurğulayır. Təsadüfi deyil ki, dövlət başçısının qərarı ilə 15 may 2014-cü ildə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradıldı. Heydər Əliyev Fondu da multikulturalizm və tolerantlıq ənənələrimizin beynəlxalq miqyasda təbliğinə böyük töhfələr bəxş edir. Parisdə keçirilən "Dini tolerantlıq: Azərbaycanda birgə yaşamaq mədəniyyəti" mövzusunda çıxış edən Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva rəhbərlik etdiyi Heydər Əliyev Fondunun digər dinlərə də xüsusi diqqət göstərdiyini bildirib. Mehriban xanım Əliyeva Luvr muzeyində İslam mədəniyyəti bölməsinin təşkilində,

Romada katakombaların bərpasında, yəhudi uşaqlar üçün təhsil imkanlarının yaradılmasında, Strasburq və Fransanın digər regionlarındakı kilsələrin təmirində Fondun yaxından iştirak etdiyini vurğulayıb.

Millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri, akademik Kamal Abdullanın fikrincə, mədəni müxtəlifliyin qorunmasında vacib şərtlərdən biri bu işdə dövlətlə yanaşı vətəndaş cəmiyyəti və onun fəaliyyətini dəstəkləyən qurumların da fəal məşğul olmasıdır. Multikultural prinsiplər Azərbaycan kimi kiçik, amma dərin kökə və tarixə malik ölkələr üçün digər təhlükəsizlik prinsipləri qədər vacib və zəruridir.

Bu gün Multikulturalizm fənn kimi bir sıra universitetlərdə - Litva, Gürcüstan, Rusiya, İtaliya, Bolqarıstan, Belarus, Çexiya universitetlərində, eləcə də ölkəmizin bir çox ali məktəblərində tədris olunur. Azərbaycan Multikulturalizmi fənninin böyük siyasi, ideoloji, mənəvi əhəmiyyəti vardır.

## ƏDƏBİYYAT


1. Bakı islam mədəniyyətinin paytaxtıdır - 2009: beynəlxalq konfransın tezisləri 9-10 noyabr /Milli Azərb. Tarixi Muzeyi; bədii tərtibat S.Hüseynov.- Bakı; Elm və Təhsil, 2009, 168 s.
2. Dinlərarası dialoq. Qarşılıqlı anlaşmadan birgə əməkdaşlığa doğru.- Bakı, 2010, 200 s.
3. Əliyev, İ. XXI əsrin Humanitar Çağırışları /İ.H.Əliyev, D.Medvedyev; ümumi red.: R.Mehdiyev, S.Narışkinin.- Bakı; Moskva; Террa, Итар-Тасс, 2011, 247 s.
4. Müasir dövrdə Azərbaycanda sosial-iqtisadi və mənəvi inkişafın harmoniyası: I virtual dəyirmi masa, 2014: IV Bakı Beynəlxalq Humanitar Forumu ərəfəsində /Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi; [red. K.Abdullayev [və b.]].- Bakı; [Mütərcim], 2015., 74, [2] s.
5. Xəlilov, S. Sivilizasiyalararası dialoq /Səlahəddin Xəlilov; 2-ci nəşr.- Bakı: Adiloğlu, 2009, 255 s.
6. Əhədova, S. Müasir dünyada mədəniyyətlərarası münasibətlər: [monoqrafiya] /S.A.Əhədova; elmi məsl. A.Mustafayeva; elmi red. İ.Hüseynova (ön söz).- Bakı: Elm, 2014, 347, [1] s.
7. Heydər Əliyev siyasəti: Tolerantlıq: çıxışlar, nitqlər, görüşlər, təbriklər /[Azərb. Resp. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi]; ön söz M.Qurbanlı; burax. məsul S.Salahlı (Aran).- Bakı: Elm və təhsil, 2015, 502, [2] s. 18
8. Hüseynov, Y. Azərbaycanda dini tolerantlıq mədəniyyəti: tarix və müasirlik /S.Y.Hüseynov; elmi red. A.Əlizadə.- Bakı; Təknur, 2012, 175, [1] s.
9. Niftiyev, A. Azərbaycanda birgəyaşayış və multikulturalizm /N.M.Niftiyev; ön söz E.Nəsirov; elmi red. İ.Abbasov; [Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi].- Bakı; [s.n.], 2015, 407s.


## ABSTRACT


**Sadiq Huseynov**


## MULTİCULTURALISM IS A SOCIAL WAY OF LIFE IN AZERBAIJANI SOCIETY


The world faces global problems set in each period, was to find ways of solving them. Globalization age, goals and objectives in order to save mankind requires a completely different approach, and it seems that it is not an easy task to achieve them. Migration crisis in the culmination of a period exceeds the limit etnik carry out the policy of multiculturalism and cultural diversity aimed at tənzimlənməsinə complicated issue. What is Multiculturalism? This is primarily determined by the influence of cultural interaction in a country where "quality" of the strategy aimed at achieving a democratic state. President Ilham Aliyev said that there is no alternative to multiculturalism. Multiculturalism is the most viable option for future development because multikultu-ralizmin alternative to the self-isolation. center (BBMM) was created. State Councilor and Chairman of the Board of Trustees of BBMM Kamal Abdullayev, the "great ideological, scientific, cultural, educational leap" called, the history, literature, culture, national ideology, the tolerance can get together and systematize the most important task is to demonstrate to the world, "he said. a policy that recognizes and promotes the development of cultural pluralism. It is a country's population, regardless of ethnic, racial and religious differences, all of them related to respect for human rights and fundamental freedoms. multicultural society, every citizen, their

culture, language, tradition, ethnic and develop religious values, the main language school open areas have equal rights to publish newspapers and magazines. Who reject assimilation policy of multiculturalism leads to integration.


**РЕЗЮМЕ**

**Садик Гусейнова**

**МУЛЬТИКУЛЬТУРАЛИЗМ - ЭТО СОЦИАЛЬНЫЙ ОБРАЗ ЖИЗНИ В АЗЕРБАЙДЖАНСКОМ ОБЩЕСТВЕ**

Набор глобальных проблем, с которыми сталкивается мир в каждом периоде, было найти пути их решения. Глобализация возраст, цели и задачи для того, чтобы спасти человечество, требует совершенно иного подхода, и кажется, что это не простая задача для них достижения.Миграция кризис превышает предел, кульминацией периода этнического проводить политику мультикультурализма и культурного разнообразия, направленных на урегулирование этого вопроса осложняется. Что такое мультикультурализм? В первую очередь это определяется влиянием культурного взаимодействия в стране, где “качество” стратегии, направленной на достижение демократического государства. Президент Ильхам Алиев сказал, что нет никакой альтернативы мультикультурализма. Мультикультурализм является наиболее жизнеспособным вариантом для будущего развития, потому что альтернативы самоизоляции. центр (ВВММ) был создан. Государственный советник и председатель попечительского совета ВВММ Кямал Абдуллаев, "великой идеологической, научной, культурной, образовательной скачка” называется, истории, литературы, культуры, национальной идеологии, толерантность могут собраться вместе и систематизировать наиболее важной задачей является чтобы продемонстрировать всему миру, "сказал он. политику, которая признает и поощряет развитие культурного плюрализма. это население страны, независимо от этнических, расовых и религиозных различий, все они связаны с соблюдением прав человека и основных свобод.



NDU-nun Elmi Şurasının 19 oktyabr 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 02).
Məqaləni çapa təqdim etdi: Fəlsəfə üzrə elmlər doktoru, professor M.Rzayev

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2017, № 6 (87)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2017, № 6 (87)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2017, № 6 (87)**

**SƏBİNƏ QARAŞOVA**
*Bakı Dövlət Universiteti*
*sabinagarashova@yahoo.co.uk*

**UOT: 327**

# ABŞ-IN MƏRKƏZİ ASİYA STRATEGİYASINDA QAZAXISTANIN YERİ

**Açar sözlər:** *Mərkəzi Asiya, ABŞ, Qazaxstan, Rusiya, Türkiyə, Çin, enerji, hərbi fəallıq*
**Keywords:** *Central Asia, USA, Kazakhstan, Russia, Turkey, China, energy, military activity*
**Ключевые слова:** *Центральная Азия, США, Казахстан, Россия, Турция, Китай, энергия, военная активность*

Mərkəzi Asiya regionundakı fəaliyyətinin əsas motivləri geoiqtisadi xarakterli olmasına baxmayaraq, ABŞ digər sahələrdə də özünün aparıcı mövqelərini təmin etmək məsələsini nəzərdən qaçırmırdı. Qeyd edək ki, ABŞ-la Qazaxıstan arasında enerji sahəsində müqavilələr bağlananadək (1993-1994) Mərkəzi Asiya regionun iqtisadi əhəmiyyəti çox da yüksək qiymətləndirilmirdi. Yalnız ABŞ şirkətlərinin regionda kommersiya maraqları meydana gəldikdən sonra rəsmi Vaşinqton regiona diqqətini artırmağa və buranın təhlükəsizliyi məsələsini müzakirə etməyə başladı. Ən əsası isə, özünün regionda yeganə geosiyasi oyunçu olmasını təmin etmək üçün əvvəlki illərə nisbətən fəallıq nümayiş etdirməyə başladı. Bu da, ondan xəbər verir ki, ABŞ Mərkəzi Asiya siyasətinin ikinci mərhələsində artıq buranı Rusiyanın təsir dairəsi nə müvafiq olaraq, Rusiyanın strateji maraqları zonası kimi nəzərdən keçirmirdi. Rəsmi Vaşinqton bəyanatları və atdığı addımları ilə göstərdi ki. ABŞ Mərkəzi Asiyada nə Rusiyanın, nə də Çinin geosiyasi və geoiqtisadi inhisarçılığını qəbul etmək fikrində deyil.

ABŞ-ın Mərkəzi Asiya ilə bağlı geosiyasətində sərt mövqe tutmağa başladığını sübut edən məqamlardan biri də ondan ibarət idi ki, o, artıq Türkiyənin regionda fəallığını həzm edə bilmirdi [4. s.52]. Ötən əsrin 90-cı illərinin əvvəllərində isə, yəni, ABŞ-ın regionla bağlı siyasətinin birinci mərhələsində Vaşinqton Türkiyənin regionda fəallığına müsbət yanaşırdı. Bunu onunla izah etmək olar ki, birinci mərhələdə ABŞ-ın regionla bağlı strategiyası hələ tam formalaşmamışdı və o əsasən buradakı vəziyyəti öyrənməyə, proseslərin mümkün inkişaf dinamikasını müəyyənləşdirməyə və regionun özü üçün əhəmiyyətlilik dərəcəsini hesablamağa çalışırdı. Belə olan halda isə ABŞ, NATO çərçivəsində yaxın müttəfiqi olan Türkiyənin Mərkəzi Asiyadakı fəallığını Rusiyanın, Çinin və İranın regiona təsirlərini neytrallaşdıran amil kimi qiymətləndirirdi. Sonrakı mərhələdə Türkiyənin regiondakı geosiyasi və geoiqtisadi cəhdlərini narahatlıqla qarşılayan ABŞ Mərkəzi Asiya respublikalarının siyasi, iqtisadi və hərbi sahələrinin inkişafına görə cavabdehliyin məhz özünə aid olduğunu bildirirdi. ABŞ-ın davranışları da bunu qəti şəkildə dəqiqliklə göstərirdi. Bu dövrdə ABŞ onun əsas geosiyasi və geoiqtisadi layihəsi kimi qəbul olunan Bakı-Tbilisi-Ceyhan boru kəmərinin reallaşdırılması istiqamətində ciddi addımlar atdı. Bu. ABŞ və onun müttəfiqləri tərəfindən SSRİ-nini süqutunda sonra Rusiyaya vurulan ilk sarsıdıcı geosiyasi zərbə idi. Artıq keçən əsrin 90-cı illərinin sonlarında ABŞ Mərkəzi Asiya regionunda təhlükəsizlik və hərbi-strateji xarakterli addımlarını intensivləşdirməyə başladı. ABŞ-ın qeyd etdiyimiz istiqamətlərdə fəallığının artmasını əsasən Əfqanıstandakı Taliban rejiminin region üçün real təhlükə yaratması şərtləndirmişdir. Artıq qeyd etdiyimiz kimi, ABŞ tam stabil bir regionda özünün təsir və nəzarət imkanlarını təmin etmək istəyirdi. Çünki, o, gələcəkdə resurslarını regionun stabilliyinin və təhlükəsizliyinin təmin olunmasına deyil, daha strateji məqsədlər üçün səhf etmək niyyətində idi. ABŞ-ın bu strateji niyyətləri həm iqtisadi, həm siyasi xarakterli idi. Artıq qeyd etdiyimiz kimi, Mərkəzi Asiya regionun dünya okeanına birbaşa çıxışı yoxdur. Bu baxımdan, bir çox analitiklər regionun ABŞ üçün strateji əhəmiyyətli olmasına şübhə ilə yanaşırdılar. Təbii ki, regionun zəngin neft, qaz və digər təbii resurslarının ABŞ-ın strateji maraqları xaricində olduğunu düşünmək

yanlışlıq olardı. ABŞ-ın regionun strateji əhəmiyyətini özünün qlobal strategiyası prizmasından çıxış edərək qiymətləndirirdi. Artıq qeyd etdiyimiz kimi, qlobal strategiyanın mahiyyəti qlobal lider statusuna sahib olmaq və bu yoldakı bütün maneələri neytrallaşdırmaqdan ibarətdir. Şübhəsiz ki, ABŞ, özünün qlobal liderliyi yolunda əsas maneə olaraq Rusiyanı görürdü. Bundan başqa, bir çox hallarda Rusiya ilə oxşar mövqelər sərgiləyən Çinin də ayrıca güc mərkəzinə çevrilmə cəhdləri ABŞ-da sakit qarşılana bilməzdi. Deməli, ABŞ-ın mütləq qlobal liderliyi yolunda iki başlıca maneə Rusiya və Çin var. Mərkəzi Asiya Rusiya ilə Çinin arasında yerləşməklə, ABŞ-a özünün bu əsas rəqiblərinə təsir etmək və geosiyasi və geoiqtisadi davranışlarını daha yaxından izləmək üçün unikal imkanlar təqdim edir. Bundan başqa, ABŞ hesab edirdi ki, regionda tam möhkəmlənməklə, Rusiya-Çin və Rusiya-İran əlaqələrinə də nəzarət edə bilər. Bütün bunların fonunda ABŞ-ın regionla bağlı siyasəti özünün həlledici-üçüncü mərhələsinə qədəm qoymuşdur.

Beləliklə, XXI əsrin başlaması ilə ABŞ-ın Mərkəzi Asiya regionundakı siyasətinin xarakteri dəyişərək, özünə yeni keyfiyyət və kəmiyyət elementləri əlavə etdi. ABŞ-ın regionla bağlı siyasətinin yeni mərhələsinin başlaması həm də 2001-ci il 11 sentyabr hadisəsinin baş verdiyi ərəfəyə təsadüf edir. Hesab edirik ki, ABŞ-ın regionla bağlı yeni strategiya tətbiq etməsini elə 2001 -ci ilin 11 sentyabr hadisələri şərtləndirmişdir. Amerikan politoloqu A. Kocn əsaslandırır ki, ABŞ-ın Mərkəzi Asiyaya nüfuz etməsi birbaşa 11 sentyabrda ABŞ-a edilmiş terror hücumunun nəticəsidir. ABŞ-ın regionda mövcudluğunu onun Əfqanıstanda terrorizmə qarşı həyata keçirdiyi hərbi əməliyyatlar tələb edir. Hətta. A. Koenin fikirləri ilə tanışlıq belə qənaət formalaşdırır ki. ABŞ-ın regionda maraqları elə terrorizmə qarşı mübarizə və təhlükəsizlik məsələləri ilə bağlıdır. Belə ki, Politoloq vurğulayır: "Terrorizmə qarşı mübarizə ABŞ-ın regiondakı digər maraqlarını məhdudlaşdırır” [112]. Həqiqətən də 2001-ci ildən başlayaraq, ABŞ-ın regionla bağlı strategiyasının sərt hərbi-strateji xarakter alması aşkar müşahidə olunmuşdur. Bu baxımdan, A. Koen fikirlərinin müəyyən əsasları vardır. Belə ki, bu dövrdə ABŞ-ın regionda ciddi şəkildə fəallaşmasını və region ölkələrinə, hətta, Rusiyaya münasibətdə, yeni yanaşma tərzi sərgiləməsini məhz onun Əfqanıstanda başladığı hərbi əməliyyatlar tələb etmişdir. Əfqanıstanın şimalında Taliban hərakatına qarşı səmərəli mübarizənin Mərkəzi Asiya Respublikalarının köməyi olmadan aparılmasının çətinliyi ABŞ-da aydın dərk edilirdi. Bu baxımdan, Mərkəzi Asiya ölkələri ilə diplomatik təmasların intensivləşdirilməsi və daha proqmatik xarakter alması istiqamətində real addımlar atılmağa başlanmışdır. Bu zaman ABŞ Rusiya amilini də nəzərdən qaçırmırdı. Belə ki, ABŞ Mərkəzi Asiyaya diqqətinin artması fonunda Rusiya da region ölkələrinə təzyiqlərini artırırdı. Bu baxımdan, ABŞ Rusiya ilə də ayrıca diplomatik işlər aparmaqla, Mərkəzi Asiya Respublikalarının özünün antiterror kampaniyasına yaxından qoşulmasına nail olmaq istəyirdi. Bu istiqamətdə ABŞ-ın diplomatiyası real səmərə vermişdir, beynəlxalq terrorizmə qarşı mübarizə məsələsində Rusiyanın da onunla eyni mövqedən çıxış etməsinə nail olmuşdur. Sonra isə, ABŞ regionda özünün hərbi mövcudluğunu təmin etməyə başlamışdır. Belə ki, 2001-ci ilin sentyabrının sonlarından başlayaraq, Mərkəzi Asiyada ABŞ Hərbi Hava Qüvvələrinin dayaqlarının yaradılmasına başlanılaraq, Qazaxıstanda, paytaxt Bişkekdən 23 km. aralıda yerləşən Manas aeroportunda və Özbəkistanın Xanabad hərbi aeroportunda ABŞ aviabazaları yerləşdirilmişdir. Həmçinin Tacikistanda da ABŞ qoşunlarının bəzi elementləri yerləşdirilmişdir. Bununla da, ABŞ regionda özünün mühüm hərbi-strateji maraqlarını reallaşdırmaqla, mövqelərinin əhəmiyyətli dərəcədə möhkəmlənməsinə nail ola bilmişdir. Təbii ki, bu ABŞ-ın regiona ilk hərbi-siyasi nüfuz cəhdi deyildi. Qeyd etmək lazımdır ki. SSRİ-nin süqutunun elə ilk illərindən ABŞ digər postsovet ölkələri kimi. Mərkəzi Asiya respublikaları ilə də NATO-nun SNT (Sülh Naminə Tərəfdaşlıq) proqramı çərçivəsində hərbi əməkdaşlıq üçün müəyyən baza yaratmışdır. Bu məqamda həmçinin vurğulamaq lazımdır ki. ABŞ regionda özünün uzun müddətdə hərbi mövcudluğunu təmin etmək üçün təkcə terrorizmə qarşı mübarizəni deyil, digər amilləri də qabardırdı. Belə ki, ABŞ Mərkəzi Asiyada özünün hərbi mövcudluğunun zəruriliyini aşağıdakı digər amillərlə əsaslandırırdı:

-enerji resurslarının və nəqli marşurutlarının təhlükəsizliyinin təmin edilməsi,

-regionda islam fundamentalizminin baş qaldırmasının qarşısının alınması,

-Rusiyanın və Çinin region dövlətlərinə təzyiqlərinin neytrallaşdırılması.

Hesab edirik ki, ABŞ-ın Mərkəzi Asiyada hərbi mövcudluğu onun üçün bir neçə məqamla bağlı olduqca əhəmiyyətli idi. Məlum olduğu kimi, ABŞ həmçinin Pakistanda özünün hərbi bazasına malikdir və o bu bazanın təhlükəsizliyi ilə bağlı müəyyən narahatlığa malik idi. Çünki, Pakistanda daxili-siyasi vəziyyət kifayət qədər qeyri-stabil idi. Bundan başqa Hindistanla Pakistan arasında Kəşmir regionu üstündə münaqişənin mövcudluğu ABŞ hərbi bazası üçün real təhlükə kimi qəbul olunurdu. Bunları nəzərə alaraq, qeyd edə bilərik ki, Mərkəzi Asiyada hərbi bazalara malik olmaq ABŞ üçün strateji əhəmiyyət kəsb edirdi. Yəni, bu bazalar ABŞ üçün rezerv rolunu oynaya bilərdilər. ABŞ-ın Mərkəzi Asiyada hərbi mövcudluğu həm də onun regionla bağlı strategiyasının həyata keçirməsini əhəmiyyətli dərəcədə asanlaşdıra bilərdi. Qeyd edək ki, bəzi tədqiqatçılar ABŞ regionda hərbi mövcudluğunun onun üçün əhəmiyyətini digər məqamlarla da əsaslandırırlar. Belə ki, ABŞ-ın Mərkəzi Asiyada hərbi mövcudluğunun əsasən Çinə qarşı yönəldildiyini hesab edirlər. 2000-2003-cü illərdə "Nezavisimaya qazeta"nın hərbi icmalçısı olmuş M. Xodarenok qeyd edirdi ki, ABŞ-ın Mərkəzi Asiyada hərbi mövcudluğunun başlıca uzunmüddətli məqsədi Çinə təsir altında saxlamaqdan ibarətdir [9. s.2]. Bu, onunla əsaslandırılır ki, Çin yaxın gələcəkdə ABŞ-ın əsas rəqibinə çevriləcəkdir. Digər bir tədqiqatçı
A. Malaşenko da oxşar fikirlər irəli sürürdü. Onun fikrincə, Çin hərbi-siyasi və mədəni baxımdan kifayət qədər mükəmməl ölkədir və iqtisadiyyatı da davamlı güclənməkdədir. Bu baxımdan, Qırğızstandakı (Manas) hərbi baza xüsusi əhəmiyyət kəsb edir. Bu baza Çinin strateji raketlərinin yerləşdirildiyi qərb ərazilərini ABŞ üçün asanlıqla əlçatan edir [5. s. 1 ]. Qeyd etdiklərimizdən başqa, hesab edirik ki, ABŞ-ın regiondakı hərbi bazaları ona İranı təcrid etmək imkanları verməsi baxımından da əhəmiyyət kəsb edə bilər.

Özünün regionda hərbi mövcudluğunu təmin etdikdən sonra, ABŞ-ın region dövlətlərinə qarşı demokartikləşmə və insan haqqları ilə bağlı iradlar irəli sürməsinin intensivləşməsi də diqqəti cəlb edirdi. Araşdırmalarımız aydın göstərir ki, Mərkəzi Asiya ölkələri Rusiya və Çinlə əlaqələrinin inkişaf etdirilməsi istiqamətində hər hansı bir addım atdıqları hallarda ABŞ demokratikləşmə və insan haqqları ilə ritorikasını nəzərə çarpacaq dərəcədə sərtləşdirirdi. ABŞ region dövlətlərinin Rusiya və Çinlə siyasi və iqtisadi təmaslarının sıxlaşmasını özünün regiondakı mövqeləri üçün ciddi təhlükə hesab edirdi. Təbii ki, ABŞ-ın bu cür yanaşmasının real əsasları mövcud idi. Belə ki, Rusiya və Çin özlərinin və Qazaxstan, Özbəkistan, Tacikistan və Qırğızstanın daxil olduqları Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) formatında yeni əməkdaşlıq layihəsini həyata keçirməyə başlamışlar. Təşkilatda İranın da müşahidəçi qismində təmsil olunması onun yaradılmasının və fəaliyyətinin əsasən ABŞ-ın regiondan sıxışdırılıb çıxarılmasına yönəldiyi haqqında qənaət formalaşdırır [13. s.101]. Həqiqətən də, ŞƏT çərçivəsində Rusiya və Çinin Mərkəzi Asiyada öhtəliklərin bölgüsü sistemini yaratdıqlarını müəyyənləşdirmək mümkündür. Onların davranışlarından və fəaliyyətlərinin prioritet istiqamətindən hansı dövlətin hansı sahə üzrə cavabdehliyi öz üzərinə götürdüyünün dəqiqləşdirmək olur. Belə ki, Rusiyanın region ölkələri ilə əsas hərbi-siyasi əməkdaşlığın inkişaf etdirilməsinə, Çinin isə iqtisadi əlaqələrin genişləndirilməsinə və möhkəmləndirilməsinə cavabdeh olduğu görünməkdədir. Bütün bunları böyük narahatlıqla izləyən ABŞ, region ölkələrində özünə loyal rejimlərin formalaşdırılmasını Mərkəzi Asiyada mövqelərinin dayanıqlığının vacib şərti kimi müəyyənləşdirmişdir. Buna müvafiq olaraq ABŞ Mərkəzi Asiya dövlətlərinə münasibətdə yeni taktika tətbiq etməyi məqbul saymışdır. Demək olar ki, bütün postsovet ölkələrinə münasibətdə tətbiq olunması nəzərdə tutulan bu taktikanın mahiyyəti Rusiya və Çinlə (əsasən Rusiya ilə) əməkdaşlığa meylli olan hakimiyyətlərin əvəzlənməsindən ibarət idi. ABŞ bununla həm də resurslarına qənaət etməyi düşünürdü. Belə ki, ABŞ region dövlətlərindəki mövcud hakimiyyətlərin yönünü tam olaraq Rusiyadan və Çindən çevirərək özünə doğru çevirmək üçün böyük siyasi və iqtisadi resurslar tələb olunursa, az resurs sərf edərək hakimiyyət dəyişikliyi etməyi və ABŞ-ın qlobal strategiyasını dəstəkləyəcək hakimiyyəti formalaşdırmağı daha məqsədəuyğun hesab edirdi. 2005-ci ilin martında Qırğızstanda dövlət çevrilişinin təşkil olunması, bunun ardınca, may ayında Özbəkistanda baş vermiş Ondiean hadisələri ABŞ-ın taktikasının reallaşdırılması cəhdləri kimi qəbul oluna bilər.

2005-ci ildən başlayaraq, ABŞ özünün Mərkəzi Asiyadakı strategiyasına yeni yanaşma tərzi sərgiləndiyi müşahidə olundu. Belə ki, ABŞ-ın siyasi və hərbi dairələrində yeni geosiyasi layihə

olan Böyük Mərkəzi Asiya (BMA) planının reallaşdırılması müzakirə olunmağa başladı. Hesab edirik ki, ABŞ-ın bu addımı atması ŞƏT formatında region ölkələrinin bir arava gəlməsini önləmək və daha böyük arealı özünün hərbi-siyasi patronajlığı altına almaq niyyətlərindən qaynaqlanırdı. Belə ki, artıq qeyd etdiyimiz kimi, BMA-nın mahiyyəti beş Mərkəzi Asiya dövlətlərini və Əfqanıstanı vahid hərbi-strateji və geosiyasi çətir altına gətirməkdən ibarət idi. ABŞ-a loyal münasibət bəsləyən digər Asiya ölkələrinin buraya cəlb olunması istisna deyildir. Başlıca məqsəd Mərkəzi Asiya respublikalarının Rusiyanın və Çinin təsir dairəsindən tam çıxarmaq, burada nəzarəti bütövlükdə ələ almaq və bundan sonra Rusiya ilə Çin arasına "dəmir pərdə" çəkərək, onları biri-birindən qismən də olsa, təcrid etməkdən ibarət idi. Böyük Mərkəzi Asiva ideyasının reallaşdırılmasını ABŞ həm də Əfqanistanda vəziyyətin stabilləşdirilməsi yolu kimi nəzərdən keçirildi. Yəni, ABŞ stabil Mərkəzi Asiya ölkələri ilə qeyri-stabil Əfqanıstanı vahid geosiyasi, geoiqtisadi və hərbi-siyasi çətir altında dəstəkləməklə onların sıx inteqrasiyasına və bununla da Əfqanıstandakı vəziyyətdə müsbət dəyişikliklərə nail olmaq istəyirdi [2, s.21]. Hesab edirik ki, bir sıra vacib amillər bu ideyanın reallaşması perspektivini şübhə altına alır. Belə ki, Mərkəzi Asiya ölkələri öz aralarında bir çox cəhətlərinə görə kifayət qədər identik olduqları halda, Əfqanıstan tarixi-mədəni baxımından fərqlənir. Bundan başqa, BMA formatında interqasiva Əfqanıstanda həddinən artıq dərin köklərə malik radikal islamizmin sürətlə Mərkəzi Asiyaya yayılmasının şərtləndirərdi və daha geniş ərazidə ABŞ bunun qarşısını səmərəli ala bilməzdi. Həqiqətən də, 1928-ci ildə yaradılmış "Müsəlman qardaşları" təşkilatı Sovet İttifaqına ciddi maraq göstərirdi və ötən əsrin 80-ci illərində onun SSRİ istiqamətindəki platsdarm rolunu Əfqanıstan oynayırdı [8. s. 102]. Bu baxımdan, Əfqanistan ərazilərindən radikal islamizmin Mərkəzi Asiyaya nüfuz etmə ehtimalları kifayət qədər böyük idi. Məhz bu amilləri nəzərə alsaq, Böyük Mərkəzi Asiya ideyasının həyata keçirilməsini real hesab etmirik. İdeyanın meydana gəlməsindən sonrakı dövrdə hadisələrin inkişafı və hazırkı real vəziyyət bizim qənaətimizin doğru olduğunu göstərir.

Bundan başqa, Mərkəzi Asiyada nəzarəti ələ almaqla, İranın şimal sərhədlərinə yaxınlaşmaq da ABŞ-ın strateji məqsədlərindən idi. Belə ki, ABŞ Cənubi Qafqazda da möhkəmlənərək İranı tam neytrallaşdırmaq imkanı əldə etmiş olar. Çünki, İranla sərhədə malik olan Əfqanıstan da demək olar ki, ABŞ-ın total nəzarəti altındadır. Suriya və Pakistandakı vəziyyət də İranın milli təhlükəsizliyi üçün ciddi təhdid yaradır. Göründüyü kimi, Mərkəzi Asiyaya nəzarət ABŞ-a Rusiya, Çin və İranın simasında üç ciddi rəqibinə real təsir imkanları verir ki, bu da onun qlobal liderlik strategiyasına tam uyğundur.

Qeyd etmək lazımdır ki, ABŞ, 1991-ci ildə Mərkəzi Asiya respublikalarının müstəqilliklərini tanıdıqdan sonra onların hər biri ilə ayrı-ayrılıqda əlaqələrin inkişaf etdirilməsinə start vermişdir. ABŞ Dövlət katibinin keçmiş müavini Stroub Telbott qeyd etmişdir ki, bu əlaqələrin qurulması zamanı hər bir Mərkəzi Asiya dövlətinin özünəməxsusluğu nəzərə alınır [15. s.2]. ABŞ hökuməti Mərkəzi Asiya respublikaları içərisində ilk olaraq 1991-ci il dekabr ayının 25-də Qazaxıstanın müstəqilliyini tanıdı. Bunun səbəbini Qazaxıstanın ərazisində SSRİ-dən qalma kütləvi qırğın silahlarının olması ilə izah etmək olar. Təbii ki, Qazaxıstanın digər stratreji üstünlükləri ABŞ-ın əsas diqqətini bura yönəltməsini şərtləndirmişdir. Artıq qeyd etdiyimiz kimi, bütövlükdə Mərkəzi Asiya regionu Çin və Rusiya arasında yerləşməklə, ABŞ-a onların birbaşa təmaslarını nəzarətdə saxlamaq imkan verir. Bu mənada, Qazaxıstan Rusiya ilə 6846 km, Çinlə isə 1433 km sərhədə malik olmaqla, daha strateji əhəmiyyət kəsb edir. Digər Mərkəzi Asiya respublikaları ilə müqaisədə Qazaxıstan daha zəngin karbohidrogen və başqa təbii ehtiyyatlara malikdir. Qazaxıstanın ərazisində ən böyük kosmik bazalardan sayılan Baykonur yerləşir və bu baza hazırda Rusiyaya icarəyə verilmişdir. ABŞ həmçinin bazadan Rusiyanın çıxarılmasında maraqlıdır. Göründüyü kimi, Qazaxıstanın malik olduğu geosiyasi və geoiqtisadi üstünlüklər ABŞ-ın qlobal liderlik strategiyası üçün olduqca əhəmiyyətli idi. SSRİ-nin süqutundan sonrakı ilk illərdə ABŞ-ı qeyd etdiyimiz kimi, Qazaxıstanın nüvəsizləşdirilməsi məsələsi daha çox məşğul edirdi. Regiona yaxın ərazilərdə radikal qruplaşmaların fəallığının artması Qazaxıstandakı nüvə silahının onların əllərinə keçmə ehtimallarını artırırdı. Bundan başqa, bildiyimiz kimi, ABŞ "nüvə klubunun" qapılarının əlavə üzvlər üçün bağlı qalmasının qatı tərəfdarıdır və SSRİ-nin süqutunun yeni nüvə dövlətlərinin meydana gəlməsini şərtəndirməsini qəti olaraq istəmirdi. Bu baxımdan ABŞ kütləvi

qırğın silahının Qazaxstan ərazisindən çıxarılmasını və Rusiyanın ərazilərində yerləşdirilməsini vacib sayırdı. Həmin silahların saxlanılmasının və təhlükəsizliyinin məsuliyyətinin Rusiyaya aid olduğunu bildirirdi [11. s.299]. Qazaxstanla ilk və sıx əlaqələrin qurulmasına maraq da əsasən bu motivdən qaynaqlanırdı. ABŞ qısa zaman kəsiyində Qazaxstan rəhbərliyi ilə sıx təmaslar qurmaqla, nüvə silahı ilə mövqeyini və tələblərini çatdırmaq istəyirdi. Əlaqələrin qurulmasının elə ilkin mərhələsində ABŞ nüvə məsələsi ilə bağlı prinsipial mövqeyini Qazaxstana bildirmişdir və qısa zamanda ondan real addımlar atmağı tələb etmişdir. Qazaxstan Prezidenti N. Nazarbayevin alternativi olmadığı üçün və həmin dövrdə yaranmış yeni dünya sisteminin lideri olan ABŞ-la konfrantasiyaya getməyin təhlükəli olduğunu dərk edərək, rəsmi Vaşinqtonun tələblərini yerinə yetirməyə razı olduğunu bildirmişdir. Bunun əvəzində isə ABŞ-dan ölkəsinin təhlükəsizliyinə təminat istəmişdir. Bu məqam N. Nazarbayevin 1992-ci ilin may ayının 16-da dərc edilmiş "Qazaxstanın suveren dövlət kimi formalaşması və inkişaf strategiyası" adlı broşüründə aydın ifadəsini tapmışdır. Broşürdə qeyd olunur: "Qazaxstan razılaşma prosesində nüvə silahından azad zona olacaqdır. Öz təhlükəsizlik maraqlarımızı nəzərə alaraq, bizim arzumuz, nüvə potensialımız olmadığı halda ərazi bütövlüyümüzə və toxunulmazlığımıza təminat almaqdan ibarətdir" [7, s.51]. Qeyd edək ki, Qazaxstanın nüvə məsələsi ilə bağlı Rusiyanın və ABŞ-ın mövqeləri üst-üstə düşürdü. Bu məqam da Qazaxstanın nüvə məsələsində "üzüyola" mövqe tutmasında təsirini göstərmişdir və 1992-ci ilin mayında Qazaxstan CHB-1 müaqaviləsinə əlavə olaraq Lissabon protokolunu imzalamışdır. 1993-ci ilin dekabrında ABŞ vitse-prezidenti Albert Qorun Alma- Ataya hadisələri zamanı Qazaxıstan "Nüvə silahının yayılmaması haqqında müqaviləsini" ratifikasiya etmişdir. Qazaxstan tərəfinin istəklərinə uyğun olaraq 1994-cü ilin dekabrında ABŞ, Rusiya və Böyük Britaniya arasında onun nüvə silahından imtina etməsi ilə əlaqədar təhlükəsizliyinə təminat verilməsi haqqında memorandum imzalanmışdır [1. s. 156 ]. Artıq 1995-ci ildə Qazaxstan tam nüvəsizləşdirilmişdir. Bununla da ABŞ regionda ilk hədəfini vurmuş oldu. Qeyd edək ki, nüvə probleminin aradan qalxmasından sonra, ABŞ-la Qazaxstan arasında bir çox sahələrdə, xüsusilə də hərbi sahədə əməkdaşlıqda ciddi dinamiklik nəzərə çarpmağa başladı. Prezident N. Nazarbayevin 1992-ci ildə ABŞ-a ilk səfəri zamanı iki dövlət arasında hərbi sahədə əməkdaşlıqla bağlı razılaşma əldə olunmuşdur. Ən əsası isə, bu zaman ABŞ hərbi mütəxəssislərinin Qazaxstan hərbi qüvvələrinin inkişaf etdirilməsində iştirakı məsələsi müzakirə olunmuşdur və müəyyən razılıq əldə edilmişdir. Bunun ardınca ABŞ regionda özünün hərbi mövcudluğunun təmin olunmasını şərtləndirəcək bir sıra layihələr həyata keçirməyə başlamışdır. Bunlardan biri də ABŞ Müdafiə Nazirliyi nəzdində Nann-Luqar və ya "Təhlükənin birgə azaldılması" (Cooperativc Threat Reduction Program) proqramının reallaşdırılması üçün xüsusi fondun yaradılmasından ibarətdir. Qazaxstan ABŞ-ın bu proqram üzrə vəsait ayırdığı ilk ölkələrdən biri olmuşdur [10, s. 18]. Ümumiyyətlə qeyd edək ki, Mərkəzi Asiya respublikaları içərində ABŞ-ın Qazaxstanla daha sıx əlaqələrinin qurulmasına maraq göstərdiyini müşahidə etmək mümkün idi. 1994-cü ildə ABŞ-la Qazaxstan arasında Demokratik tərəfdaşlıq haqqında hartiyanın imzalanması da bunu sübut edirdi. Hartiyada tərəflərin məqsədlərinin möhkəm və uzunmüddətli dostluq münasibətlərinin inkişaf etdirilməsindən, qarşılıqlı anlayışa və etimada nail olmaqdan ibarət olduğu qeyd edilirdi. [6]

ABŞ Qazaxstanın regionda ən böyük iqtisadi potensiala malik olmasını nəzərdən qaçırmır və münasibətlərin inkişafının sonrakı mərhələsində iqtisadiyyat və ayrıca olaraq, enerji sahəsində əməkdaşlığa xüsusi diqqət yetirmişdir. 1997-ci ilin noyabrında Qazaxıstan Prezidenti N. Nazarbayevin ABŞ-a səfəri zamanı da əsas müzakirələrin məhz enerji və iqtisadiyyat sahələrində əməkdaşlıq ətrafında aparılması sübut edirdi ki, ABŞ, özünün Mərkəzi Asiya regionunda iqtisadi mövqelərinin möhkəmləndirilməsində Qazaxıstanın roluna xüsusi önəm verir. Qazaxıstanın həm də Rusiya ilə sıx əməkdaşlıq etməsinə və Rusiyanın strateji layihələri olan KTMT( Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı) və Aİİ (Avrasiva İqtisadi İttifaqı) formatında fəallıq göstərməsinə baxmayaraq, ABŞ münasibətlərin inkişaf etdirilməsində və təmasların diversiallaşması əsasında maraqlıdır. Bu ondan xəbər verir ki, ABŞ Məkəzi Asiya regionu ilə strategiyasının başlıca məqsədlərinə çatmaqda israrlıdır. 2009-cu ildə ABŞ-ın Alma-Atada baş konsulluğunun açılmasını da ABŞ bütövlükdə Mərkəzi Asiya regionuna, konkret olaraq isə, Qazaxstana ciddi önəm verdiyinin göstəricisi kimi qəbul oluna bilər. Ümumiyyətlə, qısaca

təhlilimiz aydın göstərdi ki, öz müstəqilliyinə qovuşmasından sonra Qazaxstanla A13Ş arasında ikinci üçün strateji əhəmiyyət kəsb edən sahələrdə sıx əlaqələr qurularaq inkişaf etdirilmişdir. ABŞ özünün qlobal strategiyasının reallaşdırılmasında Qazaxstanın rolunu yüksək qiymətləndirir. Qazaxıstan isə, öz növbəsində bu istiqamətdə ciddi rol oynamaq imkanlarına malik olduğunu hələ 2001-ci ildə sübut etmişdir. ABŞ-da 2001-ci ilin 11 sentyabr hadisəsindən sonra ABŞ antitrror koalisiyasına hərtərəfli siyasi və logistik dəstək verməyə başlamışdır. 2010-cu ildə Vaşinqtonda baş tutmuş Nüvə Sammitinə Qazaxstan rəhbərinin dəvət alması ondan xəbər verir ki. ABŞ təhlükəsizlik və hərbi-siyasi sahələrdə Qazaxstanla əməkdaşlığın davam etdirilməsində maraqlıdır. Qazaxstanın qlobal antinüvə hərakatının liderlərindən birinə çevrilməsi ABŞ-ın maraqlarına tam cavab verirdi. 2013-cü ildə Qazaxstan ABŞ-ın yaxından dəstəyi ilə İranın nüvə proqramı üzrə danışıqların aparılması üçün P5+1 platformasını təsdiq etmişdir. Göründüyü kimi, ABŞ Qazaxstanı qismən də olsa, özünün qlobal geostrategiyahısının reallaşdırılmasının elementinə çevirə bilmişdir. Rusiya ilə bütün yaxınlaşmalarına baxmayaraq, ABŞ Qazaxstanın siyasi kursunun yönünü dəyişdirə biləcəyinə ümidli görünür və bu baxımdan onunla əməkdaşlığının hərbi-strateji xəttinin inkişaf etdirilməsi istiqamətində səylərini artırır. ABŞ-ın ciddi səyləri nəticəsində iki ölkə arasında hərbi-texniki sahədə əməkdaşlıq fasiləsiz inkişaf etmişdir. Hazırda ABŞ-Qazaxstan hərbi-texniki sahədə əməkdaşlığının 2013-2017-ci illəri əhatə edən 5-ci mərhələsi reallaşdırmaqdadır. Bu isə, o deməkdir ki, ABŞ Qazaxıstanla hərbi-strateji əlaqələrini ümumi əməkdaşlığın bir istiqaməti kimi deyil, ayrıca, xüsusi diqqət yetirdiyi bir trend kimi nəzarətdə saxlayır. Bunu, Qazaxıstan hərbçilərinin Əfqanıstanda həyata keçirilən əməliyyatlara cəlb edilməsi istiqamətində ABŞ və NATO-nun cəhdləri də sübut edir. Doğrudur, ABŞ bu istiqamətdə bütün Mərkəzi Asiya respublikalarının dəstəsinə nail olmağa çalışırdı. Qazaxıstanın isə əməliyyatlarda birbaşa iştirakı məsələsi 2008-ci ildə nəzərdən keçirilməsə başlanmışdır. NATO-da hesab edirdilər ki, Mərkəzi Asiya respublikaları içərisində ancaq Qazaxıstanın silahlı qüvvələri NATO strukturları ilə birgə işləmə imkanlarına malikdirlər. Rusiyada isə, bunu ABŞ-ın Qazaxıstanla daha sıx hərbi əməkdaşlıq cəhdi kimi qiymətləndirirdilər[4, s.51 ].

Artıq qeyd etdiyimiz kimi, Mərkəzi Asiyanın ən güclü iqtisadi potensialına malik olan ölkə kimi, Qazaxstan ABŞ tərəfindən regionda iqtisadi dayaqlarının möhkəmləndirilməsi üçün əsas istinad nöqtəsi kimi nəzərdən keçirilir. Əsasən ABŞ tərəfindən dəstəklənən yüksək templi siyasi dialoq sahəsində iki ölkə arasında iqtisadi, ticarət və investisiya əməkdaşlığı dinamik inkişaf etmişdir. 2012-ci ildə ABŞ-la Qazaxstan arasında ticarət dövriyyəsi 2.5 milyard dolları ötmüşdür. Ümumilikdə ABŞ Qazaxstan iqtisadiyyatına 25 milyard dollardan artıq sərmayə qoymuşdur. [14] ABŞ MDB ölkələri arasında ilk olaraq Qazaxstanla xüsusi viza rejimini tətbiq etməyə başlamışdır.

## ƏDƏBİYYAT


1. Казанцев А. А. Политика США в постсоветскойЦентральной Азии: характер и перспективы//Вестник МГИМО Университета. 2012.№ 4 (25). с.155-164
2. Казанцев А. А. Политика стран Запада в Центральной Азии: ключевые характеристики, дилеммы и противоречия /Научно-координационный совет го по международным исследованиям МГИМО(У) МИД России; Центр Евро-атлантической безопасности. М.. МГИМО-Университет. 2009, 186 с.
3. Лаумули М. Стратегия и политика США в Центральной Азии//Центральная Азия и Кавказ. № 4 (52). 2007, с. 52-59
4. Лаумулин М. Центральноазиатская политика США при президентстве Б. Обамы // Центральная Азия и Кавказ. № 24. том 13. 2010. с.44-57
5. Малашенко А. Зачем Америке Центральная Азия? // Время новостей. № 9. 2002. 21 января, с. 1,
6. Новые акценты внешней политики Казахстана [Электронный ресурс] // КАЗАКНБТАМ 2005. № 4. Режим доступа: йКр://)оигпа1з/45/129.Ы:т1, свободный,
7. Назарбаев Н. А. С тратегия становления и развития Казахстана как суверенного государства. Алма-Ата. РГЖИ «Деуир' 1992. 311с.

8. Рашид А. Талибан. Ислам, нефть и новая Большая игра в Центральной Азин. М.. 2003, 368 с.
9. Ходаренок М. Ненужный союз //Независимая газета. 2002, 21 января, с. 2
10. Шилдс Дж. Программа Нанна-Лугара: отношения между США и странами- получателями помощи Ядернпый контроль. 1996, № 6. с. 18-27
11. Чжен К. Ф. Геополитика Казахстана. Алматы. 1999, 416 с.
12. Cohen Ariel. Radical islam and U.S. Interests in CentralAsia/7http:/AvYY\v.heritage.org/rcsearclı lestimony/radical-islam-and-us-interests- in-central-asia#_ftn37(müraciət tarixi: 23.01.2015: 1 1:42)
13. Contessi N. China. Russia and the l.eadership of the SCO: A Tacit Deal Scenario /VChina and Purasia Forum Quorterly. 2010.Yol. 8.No. 4.P. 101-123,
14. H.Shaikhutdinov M. The Transatlantic vector ol' the Republie of Kazakhstan’s foreign policy strategy: its State of affairs. problems and prospects//http://eptoday.eom/the-transatlantic-vector-of-the-republic-of- kazakhstans-foreign-poliey-strateg\ -its-state-of-aflairs-problems-and- prospeets/(müraciəttarixi: 25.01.2015)
15. T'albott. S.The Great Game is over./Financial Times. OlSeptember. 1997, P.3

## ABSTRACT

**Sabina Garashova**

## THE PLACE OF KAZAKHSTAN IN THE CENTRAL ASIAN STRATEGY OF THE USA

The article proves that the USA has in Central Asia not only economic. but also important political and militarv interests. The USA are interested in close cooperation with the regional States. In the 90th \ ears of the last century of the USA announced the region a zone of the strategic interests. Central Asia occupies the Central place in geopolitical activily of the USA at the present stage. Militarv presenee of the USA in the region also has a strategic importance. İt is noted that interests of the USA and Russia in Central Asia are seriously face. Central Asia is considered froın the USA as the base for realization of the Euroasian policy of the USA. All these and other important points are comprehensively analyzed in the presented scientific article.

## РЕЗЮМЕ

**Сабина Гарашова**

## МЕСТО КАЗАХСТАНА В ЦЕНТРАЛЬНО-АЗИАТСКОЙ СТРАТЕГИИ США

В статье обосновывается, что США имеют в Центральной Азии не только экономические, но и важные поли тические и военные интересы. США заинтересованы в тесном сотрудничестве с региональными государствами. В 90-ые годы прошлого века США объявили регион зоной своих стратегических интересов. Центральная Азия занимает одно из центральных мест в геополитической деятельности США на современном этапе. Военное присутствие США в регионе также имеет стратегическое значение. Отмечается, что интересы США и России в Центральной Азии серьезно сталкиваются. Центральная Азия рассматривается со стороны США в качестве плацдарма для реализации евразийской политики США. Все эти и другие важные моменты всесторонне анализируются в представленной научной статье.

NDU-nun Elmi Şurasının 19 oktyabr 2017-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 02).
Məqaləni çapa təqdim etdi: Fəlsəfə üzrə elmlər doktoru, professor M.Rzayev

**ABBAS ƏHMƏDOV**
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 391/393**

# MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİN QORUNUB SAXLANMASINDA ZİYALI FƏALİYYƏTİNİN ROLU

**Açar sözlər:** *ziyalı, milli, dövlət, mənəvi, bilik, cəmiyyət*
**Key words:** *Intellectuals, nationality, spiritual, knowledge, society*
**Ключевые слова:** *Интеллектуалы, национальность,духовный,знание,общество*

Azadlığa gedən yol milli ruh və onun daşıyıcıları olan ziyalılardır. Bu baxımdan, Azərbaycanın mədəni-mənəvi məkanında ziyalıların məqsədyönlü fəaliyyətinin güclənməsi əslində bilavasitə yeni iqtisadi münasibətlərə keçidin yox, onun mənəvi müstəvidəki dağıdıcı təsirlərinə reaksiyanın, mədəni-mənəvi müqavimət hərəkatının nəticəsi idi.

Millət qarşısında duran ən mühüm vəzifələrdən biri də qlobal proseslərin keşməkeşlərindən salamat keçmək, spesifikliyini, özünəməxsusluğunu qoruyub saxlaya bilməkdir. Lakin bunun üçün əvvəlcə özünü dərk etmək, qlobal proseslərə qarşı çıxmaqdansa, öz milli koloritini itirmədən, bu proseslərin ahənginə daxil olmaq tələb olunur. Ziyalılar bir tərəfdən fərdin mənəvi yüksəlişinə, digər tərəfdən də ictimai mühitin təkmilləşdirilməsinə xidmət etməklə cəmiyyətin mənəvi həyatının əsas iştirakçılarıdır. Nə cəmiyyəti təkmilləşdirmədən geniş kütlələrin mənəvi inkişafına nail olmaq, nə də fərdi mənəvi kamilliyə nail olmadan cəmiyyətin mənəvi yüksəlişini təmin etmək mümkündür.

Sosial qaydaların tiplərinin təhlili göstərir ki, insan bütün şeylərin, maddi və mənəvi xarakterli proseslərin ölçüsü kimi çıxış etməklə bütövlükdə mədəniyyətin universal komponenti səviyyəsinə yüksəlir. Mədəniyyətin bütün mənəvi sferalarının - siyasi, əxlaqi, estetik, elmi, dini və digər sahələrinin təşəkkülü, inkişafı, mövcudluğu şəxsiyyətin fəaliyyəti prosesindən kənarda təsəvvürə sığmazdır. Şəxsiyyəti mənəvi-sivil fəaliyyət prosesinin subyekti kimi başa düşmək üçün mədəniyyətin özünü insanların fəaliyyətinin təşkili və inkişafı üsulu kimi nəzərdən keçirmək zəruridır. Çünki o, maddi və mənəvi əməyin məhsullarında, sosial normalarda və mənəvi sərvətlərdə, insanın təbiətə münasibətində və adamlar arasındakı münasibətlərdə mənalanır (1,s.180).

Ziyalıların xarakteri xeyli dərəcədə mövcud cəmiyyətin sosial-mədəni tipindən, dövlətin rolundan və dünyəvi mədəniyyətin müstəqillik dərəcəsindən asılı olaraq fərqlənir. Bununla yanaşı, onların fəaliyyətində elə ümumilik mövcuddur ki, bu və ya digər dərəcədə inkişaf etmiş hər bir cəmiyyətdə nəzərə çarpır. Mənəvi istehsalın təmin olunması baxımından başlıca funksiyalar eləcə də yeni ideyaların, obrazların, normaların, biliklərin yaradıcı surətdə təzahürü məhz ziyalılar tərəfindən həyata keçirilir. Ziyalıların rolu o dərəcədə böyükdür ki, ən avtoritar rejim belə, hiss edir ki, "öz ağlı" ilə keçinə bilməz və məcburdur ki, ziyalıları cəmiyyət həyatının müxtəlif sferaları üzrə mütəxəssis kimi öz tərkibinə daxil etsin (1,s.174).

Elmi biliklərin,təhsilin,mədəniyyətin rolunun artması, həmçinin ictimai inkişafda subyektiv amilin əhəmiyyətinin güclənməsi ilə əlaqədar cəmiyyətin həyatında və sosial strukturunda ziyalıların yeri və rolu aydın nəzərə çarpır. Bilik, texnika və mədəniyyətin müxtəlif sahələrinə mənsub olan mütəxəssislərin fəaliyyətindən kənarda uğurlu perspektivli cəmiyyət quruculuğu mümkün deyildir. İctimai həyatın bütün tərəflərinin elmi təşkili, elm və texnikanın nailiyyətlərindən geniş istifadə olunması,idarə etmənin təkmilləşdirilməsi, xüsusilə mədəniyyət sisteminin keyfiyyətcə yeni məzmun kəsb etməsi zərurəti yaradıcı şəxsiyyətlər təbəqəsinə tələbatı daim artırır. Bu ictimai prosesdə bir tərəfdən, cəmiyyətin sosial strukturunda ziyalı şəxsiyyətinin xüsusi çəkisi çoxalır, digər tərəfdən də mənəvi həyatın təkmilləşməsində və zənginləşməsində onun rolu güclənir.

Ziyalılar həmçinin istehsalın təşkilində və təkmilləşdirilməsində, fərdlərin, sosial qrupların və etnik birliklərin şüurunun və mənlik şüurunun formalaşdırılmasında xüsusi rol oynayır, mənəvi

istehsalda spesifik yer tutur, özlərinə məxsus mənəvi marağa malikdirlər. İctimai təbəqə olmaq etibarilə ziyalıların həyat tərzi spesifik formalar da kəsb edir.Hər bir sosial fenomen kimi ziyalılar da mürəkkəb daxili struktura malikdirlər. Onların strukturu çox komponentli və müxtəlif tərəfli olması ilə səciyyələnir. Ziyalıların sosial strukturu mövcud ictimai gerçəkliyə xas olan iqtisadi, siyasi və milli-mənəvi dəyərlərin təsiri altında dəyişib inkişaf edir.

Ziyalılıq anlayışı ilə bağlı çox yayılmış bir qarışıqlıq "maarifçilik" termini ilə əlaqədardır. Məlumdur ki, "maarifçi" fəlsəfə teosentrist (dini-mərkəzçi) və teoloji (dini) səciyyə daşıyan Orta əsrlər fəlsəfəsinə və dünyagörüşünə əks reaksiya kimi XVII əsrdə meydana gəlmişdir. Dini Orta əsrləri "qaranlıq", "zülmət", özünü isə aydınlanma, işıqlanma kimi səciyyələndirən də elə bu məktəbin filosofları olmuşlar. İstər fransızca (Eclairement), istər ingiliscə (Enlightment), istərsə almanca (Aufklarung), istərsə də rusca (Prosveşenie) bu məktəbin adı hərfən aydınlanma, işıqlanma, nurlanma, ziyalanma deməkdir. Müasir Türkiyə türkcəsində indi ona "tənəvvür"ün tərcüməsi kimi "aydınlanma" fəlsəfəsi deyilir.

Bu fəlsəfənin iki əsas qolunu – fransız və alman qollarını bir-birindən ayırd etmək lazımdır. Bu məktəbin fransız qolu dedikdə, 29 il ərzində böyük tirajlarla 28 cildlik ensiklopediya nəşr etdirən məşhur ensiklopedistlər – Didro, D'alamber, Helvetsi, Holbax və b. nəzərdə tutulur. Onların fəaliyyət kursu, yuxarıda qeyd edildiyi kimi, dinə, irrasionallığa, feodal dünyagörüşünə qarşı çevrilmişdi. Bu anti-dini fəaliyyət dini-mövhumi izahlara qarşı elmi-məntiqi izahlar çıxarmaq və bunu xalq arasında yaymaq, kütlələri maarifləndirməkdən ibarət idi. Maarifçilik aydınlatma işidir, maariflənmə aydınlanmadır. Kütləvi ensiklopediyalar nəşr etmək maarifçilik idi, çünki son nəticədə elmi-rasional biliklə işıqlanmaya xidmət edirdi.

Lakin, bütöv Qərb aydınlanma fəlsəfəsini "maarifçi fəlsəfə" kimi adlandırmaq olmaz. Maariflənmə aydınlanmadır, lakin aydınlanma yalnız maariflənmə deyil. Maariflənmə aydınlanmanın sadəcə bir hissəsidir.

Azərbaycanda XIX əsrin ikinci yarısı XX əsrin əvvəllərində kapitalist münasibətlərinin inkişafı feodal-mülkədar qaydalarına və məfkurəsinə qarşı mübarizəni, texniki tərəqqini inkişaf etdirmək üçün təbii-elmi bilikləri təbliğ etməyi, təhsili genişləndirməyi tələb edirdi. Burada maarifçiliyin əsas cəhətlərini göstərmək zəruridir. Bunlar aşağıdakılardan ibarətdir: birincisi,maarifçilər ayrıca bir sinfin deyil, bütün əzabkeş bəşəriyyətin nümayəndələri kimi nəinki xalqın, hətta bütün millətin adından çıxış edirdilər; ikincisi,maarifçilər təhkimçiliyin ictimai-iqtisadi, hüquqi sahələrdə yaratdığı nə varsa, hamısına qarşı çıxış edirdilər. Onlar feodal-mütləqiyyət qaydalarının ləğvinin, sənayenin, kənd təsərrüfatının, ticarətin inkişafının bütün xalqın rifahının yüksəlişinə səbəb olacağına əmin idilər; üçüncüsü, maarifçilik ictimai quruluşu dəyişdirməyin, cəmiyyət həyatını yaxşılaşdırmağın yeganə vasitəsini təhsili genişləndirməkdə, elmi bilikləri kütlələr arasında yaymaqda görürdü. Nəhayət,dördüncüsü,maarifçiliyin ictimai-siyasi proqramı ictimai şüuru cəhalətin buxovlarından azad etməkdən ibarət idi (2,s.361).

Ziyalılar üçün milli-mənəvi dəyərləri qorumağın, inkişaf etdirməyin və yeni nəsillərə çatdırmağın ən yaxşı forması milli dövlətçilikdir. Milli dövlət ancaq ərazinin, maddi sərvətlərin deyil, həm də milli mədəniyyətin,adət-ənənələrin, milli-mənəvi dəyərlərin qorunmasına xidmət edir.

Xalq başqa imperiyaların işğalı altında qaldıqda, başqa əqidələrin rəsmi təsir dairəsinə düşdükdə milli-mənəvi dəyərləri unudulmağa qoymamaq, bir əmanət kimi yeni nəsillərə ötürmək vəzifəsini ziyalılar estafeti öz əllərinə almalı olurlar. XIX əsrin sonlarında Azərbaycan cəmiyyətində formalaşan mədəniyyət getdikcə aydın ümummilli səciyyə alır və bu da öz növbəsində milli şüurun inkişafına, milli birliyin möhkəmlənməsinə xidmət edirdi. Bu zaman milli dil, tarixi keçmişə maraq, milli ləyaqət hissi, milli özünüdərketmə, vətən və vətənpərvərlik, xalqın taleyi, gələcəyi mədəni-tarixi tərəqqinin ən aktual məsələləri kimi qarşıda dururdu. Azərbaycanda maarifçilik ideyalarının yayılması ilə əlaqədar olaraq Azərbaycan mədəniyyətində demokratik fikirlər güclənir, ictimai-fəlsəfi fikirdə yeni sosial ideyalar qərarlaşırdı. Maarifçilik mənəvi mədəniyyətin bütün sahələrinin - ədəbiyyat, incəsənət, əxlaq və s. inkişafına yeni istiqamət verməklə mədəniyyətin strukturunda getdikcə radikal dəyişikliklər əmələ gətirdi. Mədəniyyət sistemində realist ədəbiyyat, demokratik ictimai fikir, elm və elmi biliklər ön plana keçməyə başladı. Xalqımızın qabaqcıl ziyalı nümayəndələri Avropa, rus və Azərbaycan həyatına müqayisəli nəzər salır,

vətənin sosial tərəqqi baxımından dövrün tarixı inkişaf səviyyəsindən geri qaldığını aydın görür və artıq belə yaşamaq olmaz qənaətinə gəlirdilər. Onlar milli həyatı, Azərbaycan cəmiyyətini iqtisadi, siyasi, mədəni gerilikdən xilas edib geniş sosial tərəqqi və maarif yoluna çıxartmaq barədə düşünür, yollar arayıb axtarırdılar.

XVI əsrdə Səfəvilər dövlətinin yaranması ilə ən böyük milli-mənəvi dəyərlərimizdən biri olan Azərbaycan dili dövlət dili səviyyəsinə qalxaraq rəsmi və dövlətlərarası yazışmalarda işlədilməyə başladı. Səfəvilər dövründə Azərbaycan dili sarayda və orduda tam hakim mövqe tutaraq dövlət dili kimi rəsmiləşdi. Anadilli ədəbiyyatımızın böyük ustadları Şah İsmail Xətai, Məhəmməd Fizuli, Aşıq Qurbani, 18-ci əsrdə Molla Pənah Vaqif ana dilimizin inkişafında böyük rol oynadılar. 19-cu əsrdə o dövrün görkəmli maarifçiləri Mirzə Kazım bəy, Mirzə Şəfi Vazeh, Seyid Əzim Şirvani, Mirzə Əbülhəsən bəy Vəzirov, Soltanməcid Qənizadə, Məmmədtağı Sidqi, Nəriman Nərimanov, Üzeyir Hacıbəyov, Abdulla Şaiq və başqalarının ana dilində dərsliklərin, lüğətlərin yazılmasında əvəzsiz xidmətləri ana dilini öyrənmənin, onu qoruyub saxlamağın ən əsas yolunu məktəblərdə tədrisin ana dilində aparılmasında görmələrindən irəli gəlirdi.

Ziyalıların ana dilinə hədsiz məhəbbət və azərbaycanlı həssaslığı ilə yanaşması, onun saflığının qorunub saxlanması hər şeydən əvvəl tarixi yaddaşımızın itməməsi, dövlətçilik ənənələrinin dərindən öyrənilməsi, milli mənəviyyatımızın, adət-ənənərimizin yaşadılması ilə bağlı olduğundan milli mənlik şüurunun oyanmasında, azərbaycanlıların təfəkküründə dünya sivilizasiyası dəyərlərinə marağın artmasına gətirib çıxarmışdır.

Azərbaycanın ilk universitet təhsilli müəllimi, müsəlman Şərqin ilk təbiətşünas alimi, milli mətbuatımızın banisi, ictimai-siyasi xadim H.Zərdabi "milli ziyalıların atası" kimi dövrünün ən işıqlı siması olmuşdur. O, təkcə ilk milli qəzetin, ilk milli teatrın, ilk milli məktəbin və digər "ilklərin" müəllifi deyil. Həsən bəy son nəfəsinə qədər tükənməz bir sevgi və fədakarlıqla öz xalqına təmənnasız xidmət etmişdir. Həsən bəy Zərdabi yazırdı ki, "Əkinçi bir aynadır ki,bizə zillət eyiblərini nümayən edir. Əkinçi döyüşə-döyüşə məşəl saçırdı" (3,s.210).

Y.V.Çəmənzəmənli 1918-1919-cu illərdə yazdığı "Xarici siyasətimiz", "Milli və mədəni işlərimiz", "Biz kimik və istədiyimiz nədir" əsərlərində azərbaycançılıq ideologiyasının formalaşması üçün mühüm obyektiv sosial-siyasi amillər olan milli-mənəvi dəyərləri, vətən, millət və milli dövlət anlayışlarını vəhdətdə götürürdü. Odur ki, tarixən Azərbaycan xalqının mentalitetində bu anlayışlar sintez şəklində həkk olunaraq milli bütövlük anlayışının təkamülündə mühüm rol oynamışdır.

## ƏDƏBİYYAT

1. Əfəndiyev M,Səadət Məcid qızı, Şəxsiyyət-mədəniyyət sistemi, ( Sosial fəlsəfi təhlil), Bakı, Elm, 2008, 384s.
2. İmanov H. Fəlsəfənin əsasları, Bakı, Turan evi, 2007. 440 s.
3. Rüstəmov İ. Həsən bəy Zərdabi, Bakı, Turan nəşrlər evi, 2012, 236 s.

## ABSTRACT

**Abbas Ahmadov**

## THE ROLE OF INTELLECTUAL ACTIVITY IN THE PROTECTION OF NATIONAL AND MORAL VALUES

In the great sense of word the way to freedom is the intellectuals of the national spirit and its carriers. In this regard , in the national and spiritual place of Azerbaijan the strengthening of purposeful activity of intellectuals actually was the result of the reaction to devastating effects of its Spiritual plane, cultural and spiritual resistance movement.

One of the important duty standing in front of nation is to cross safely from the impassabilities of global process,protect its specificity and its identity. But at first rather than self-understanding for this, opposing he global process, to access the harmony of these process are required without losing

its national character. New century tests all nations. Someone simply joins the general flow, falls to the path of those who go ahead. People,crowd is in the compulsion of joining effect. Because they live the events. Though keeping the national feature in new ampoule requires protection invariants in the essences plane. This hard historical duty is the responsibility of the nation's thinkers.

Intellectuals are the main participants of the spiritual life of the community with serving from one side an individual's spiritual growth, from other side developing social environment. It is possible neither achieving the broad masses of spiritual development without improving society nor ensuring the spiritual growth of the community without achieving individual-moral perfection. Impetus must be personal and spiritual potential of the chosen ones, not everyone. the next duty is consist of turning the spiritual growth of some individuals to the practice of wider layers, appropriating and applying the ways of this process.


## РЕЗЮМЕ

**Аббас Ахмедов**

## РОЛЬ ИНТЕЛЛЕКТУАЛЬНОЙ ДЕЯТЕЛЬНОСТИ В ЗАЩИТЕ НАЦИОНАЛЬНЫХ И МОРАЛЬНЫХ ЦЕННОСТЕЙ

В великом смысле слова путь к свободе - это интеллектуалы национального духа и его носителей. В связи с этим в национальном и духовном пространстве Азербайджана усиление целенаправленной деятельности интеллектуалов фактически было результатом реакции на разрушительные последствия ее духовного плана, культурного и духовного сопротивления движения.

Одной из важных обязанностей, стоящих перед народом, является безопасное пересечение неотделимости глобального процесса, защита его специфики и его идентичности. Но сначала, а не самопонимание для этого, противостоя ему глобальный процесс, чтобы получить доступ к гармонии этих процессов, не теряя своего национального характера. Новое столетие испытывает все нации. Кто-то просто присоединяется к общему потоку, попадает на путь тех, кто идет вперед. Люди, толпа находится в принуждении присоединяющегося эффекта. Потому что они живут событиями. Хотя сохранение национальной особенности в новой ампуле требует защитных инвариантов в плоскости сущностей. Этот тяжелый исторический долг лежит на плечах мыслителей нации.

Интеллектуалы являются основными участниками духовной жизни сообщества, обслуживая с одной стороны духовный рост человека, с другой стороны - развитие социальной среды. Невозможно ни достичь широких масс духовного развития без улучшения общества, ни обеспечить духовный рост сообщества без достижения индивидуально-нравственного совершенства. Импульс должен быть личным и духовным потенциалом избранных, не всех. Следующая обязанность состоит в том, чтобы превратить духовный рост некоторых людей в практику более широких слоев, присвоив и применив способы этого процесса.


---


NDU-nun Elmi Şurasının 19 oktyabr 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 02).
Məqaləni çapa təqdim etdi: Fəlsəfə üzrə elmlər doktoru, professor M.Rzayev

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2017, № 6 (87)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2017, № 6 (87)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2017, № 6 (87)**

**KAMRAN VƏLİZADƏ**
*Naxçıvan Dövlət Universiteti*
*kvelizadeh@yahoo.com*

**UOT: 159.9; 329**

# MÜASİR DÖVR VƏ ŞƏXSİYYƏTİN SİYASİ FƏALLIĞI

**Açar sözlər:** *şəxsiyyət , millət , siyasət , fəallıq, mənafe , mühasibat*
**Key words:** *personality, nation, politics, activity, interest, accounting*
**Ключевые слова:** *личность, нация, политика, деятельность, интерес, учет*

Müasir Dövr və şəxsiyyətin siyasi fəallığı

Məqalədə siyasi mühitdə şəxsiyyətin ictimai fəallığının yüksəlməsinin çoxsahəli xüsusiyyətləri təhlil edilmişdir. Müəllif müasir şəraitdə şəxsiyyətin milli şüur və mütəşəkillik səviyyəsinin yüksəlməsinin əsas meyarlarını təhlil etmiş, bu nəticəyə gəlmişdir ki, müasir şəxsiyyətin siyasi həyatda iştirakı geniş və çoxtərəfli məzmuna malikdir. Bu baxımdan şəxsiyyətin siyasi fəallığının artması müasir dövrün zəruri şərti və mühim tərkib hissəsi olmaqla hüquqi dövlət yaradılmasının mühim amilidir

Azərbaycan müstəqillik əldə etdikdən sonra dövlət hakimiyyətinin xarekterinin əsaslı surətdə yeniləşməsi cəmiyyətin siyasi təşkilində şəxsiyyətin yerini və rolunu, onun siyasətə münasibətini tamamilə dəyişdirdi. Bu dövrdən etibarən demokratiya institutlarının məzmunu və onların şəxsiyyət ilə qarşılıqlı təsirinin mexanizmi prinsipcə yeni mahiyyət kəsb etməyə başladı. Şəxsiyyət siyasi həyatın və siyasi fəaliyyətin subyektinə çevrilməyə başlayır. Bu prosesin əsas istiqamətlərini və yollarını açmazdan əvvəl qeyd olunmalıdır ki , siyasi fəaliyyət anlayışı çox mürəkkəb məzmuna malik olan spesifik fəaliyyət sahəsidir. Ümumiyyətlə götürdükdə "siyasi" anlayışı insanın təfəkkürününvə hərəkətlərinin əxlaqi, estetik və iqtisadi mühitindən fərqlənən nisbi müstəqil sahəsini ifadə edir. Onun öz meyarları və göstəriciləri vardır (2, s.39).

Siyasət və siyasi münasibətlər son dərəcə mürəkkəb sahə olmaqla müəyyən fəaliyyətə əsaslanır və bu fəaliyyət gedişində qərarlaşan münasibətləri əhatə edir. Sözün ümumi mənasında siyasəti siyasi hakimiyyətin və bu hakimiyyətlə bağlı olan münasibətlərin reallaşdırılması kimi səciyyələndirmək olar.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev deyirdi: "Biz müstəqil Azərbaycan kimi əzəmətli bir abidənin təməlini qoyuruq, onu qururuq, yaradırıq. Onu indiki nəsillər üçün yaradırıq. Bizim üzərimizə şərəfli vəzifə düşübdür və bunu layiqincə yerinə yetirməliyik. Güman edirəm ki, hər bir vətəndaş bu vəzifənin yerinə yetirilməsində öz yerini tapacaqdır" (1,31).

Məlumdur ki , müstəqil dövlətçiliyini quran bütün postsovet respublikaları üçün cəmiyyətin siyasi təşkili, siyasi proseslərə şəxsiyyətin fəal cəlb olunması ilə əlaqəli bütün məsələlər böyük əhəmiyyət kəsb edir. Azərbaycan Respublikası üçün isə bu problemin zəruriliyi daha mühimdir. Bu, ölkəmizin yerli şəraiti, tarixi ənənələri, dövlətçilik təcrübəsinin azlığı və burada yeni cəmiyyət quruculuğu proseslərinin ilk əvvəldən millətlər arası münaqişə ilə, Ermənistanın ərazi iddiaları və onun törətdiyi ağır nəticələr ilə izah edilir .

Qeyd etmək lazımdır ki, siyasi həyata məxsus olan çoxölçülülük keyfiyyəti özünü həm də şəxsiyyətin fəaliyyətində təzahür etdirir, yəni burada sırf siyasi xarekterli ölçülər ilə yanaşı , həm də müəyyən sosial–iqtisadi,struktur, funksional, sosial mədəni, tarixi və başqa göstəricilər də çox mühüm yer tutur.

Qeyd edək ki , elmi-nəzəri ədəbiyyatda siyasətin subyektlərinin birmənalı təsnifatı demək olar ki, yoxdur. Mütəxəssislərin bir qismi (E.Anutriyev, D.Zerkin və başqaları) göstərirlər ki, siyasətin ilkin subyektini böyük sosial qruplar, milli-etniki birliklər və bütünlükdə xalq təşkil edir, ikinci pillə siyasi partiyalar, ictimai–siyasi təşkilatlar və digər siyasi təsisatlar vasitəsilə təmsil olunur. Üçüncü pillə isə fərdi liderlər,ayrı–ayrı şəxsiyyətlərdir (3, s.82)

Digər qrup alimlər isə cəmiyyətin siyasi subyektlərinin ardıcıllığını müəyyən edərkən ilkin subyekt kimi ayrı-ayrı şəxsiyyətlərdən çıxış etməyi təklif edirlər (İ. Borisov, M.Əfəndiyev və başqaları) (4, s.99; 5, s.187).

Bizim fikrimizcə ikinci nöqteyi–nəzərin öz məntiqi vardır. Belə ki, həm ümumilikdə cəmiyyət miqyasında, həm də müxtəlif sosial birliklər səviyyəsində götürülən siyasi subyektlər nə isə bir mücərrəd varlıq olmayıb, onlarda təmsil olunan ayrı-ayrı konkret şəxsiyyətlərdir. Buna görə də siyasi subyektlərin təsnifatında şəxsiyyətdən çıxış edərək ümumiyə doğru getmək məqsədə uyğundur. Həm də nəzərdə tutmaq lazımdır ki, əsas məsələ sıra ardıcıllığının ifadə olunmasında deyil, ümumi mahiyyətin aşkarlanmasındadır. Sonuncu mövqedən yanaşdıqda göstərilməlidir ki, cəmiyyət (xalq ) sosial birliklər, siyasi təsisatlar və şəxsiyyət siyasətin subyektləri olmaq etibarilə bir birilə ayrılmaz əlaqədə və sıx qarşılıqlı təsirdə fəaliyyət göstərirlər.( 6,126).

Şəxsiyyətin cəmiyyətin siyasi həyatında iştirakı son dərəcə geniş məzmuna malikdir. Bu prosesdə təkcə, mövcud siyasi reallıq deyil, həm də şəxsiyyətin özü subyekt kimi ciddi yeniləşməyə məruz qalır. Əvvəla, siyasi həyatda fəal iştirak etməklə o, özünün malik olduğu potensial imkanları üzə çıxarır, yaradıcı varlıq kimi siyasi həyatda özünü təsdiq edir. Digər tərəfdən şəxsiyyət siyasi fəaliyyət prosesində siyasi strukturlar ilə hərtərəfli əlaqələrini möhkəmləndirə və lazım gəldikdə onların fəaliyyəti üzərində nəzarət həyata keçirə bilir. Nəhayət, öz siyasi fəaliyyəti ilə şəxsiyyət, dövlət və ictimai işlərin idarə olunmasına yaranan demokratik tələbatı ödəyir, ünsiyyət mədəniyyətini yüksəldir, idarəçilik vərdişlərini daha da zənginləşdirir.

Ümumiyyətlə siyasi subyekt kimi səciyyələndirilən üç başlıca keyfiyyət vardır: siyasi şüur , siyasi təşkilatçılıq və siyasi fəallıq. Şəxsiyyətin siyasi şüuru onun öz siaysi mənafelərini dərk etmə səviyyəsini, siyasi münasibətlər sistemində yeri və rolunu necə başa düşdüyünü, onun mənlik şüuru və siyasi mənlik şüurunu, nəhayət siyasi fəaliyyətinin nəticələrini anlamasını -siyasi məsuliyyətini əhatə edir. Siyasi təşkilatcılıq şəxsiyyəti siyasi fəaliyyətdə özünü necə təşkil və səfərbər edə bilməsini, siyasi mənafelərini siyasi fəaliyyətdə hasnı səviyyədə reallaşdıra bilməsini səciyyələndirir. Nəhayət, siyasi fəallıq şəxsiyyətin siaysi fəaliyyətinin intensivlik dərəcəsini, onun aktivliyini və məqsədyönlülüyünü ifadə edir.

Bütövlükdə şəxsiyyətin subyektivlik keyfiyyətini əks etdirən bu göstəricilər bir-birilə sıx əlaqədə və qarşılıqlı təsirdə çıxış edir .

Elmi ədəbiyyatda şəxsiyyətin siyasi subyektivliyinin aşağıdakı əsas meyarlara malik olduğu göstərilir:

- Şəxsiyyətin müəyyən şüurluluğa və mütəşəkkillik səviyyəsinə malik olmaqla, həyata kecirdiyi siyasi fəaliyyət qabiliyyəti, siyasi qərarların qəbul edilməsində və yerin əyetirilməsində iştirakının imkanları;
- Onun müxtəlif sosial birliklərə və qruplara ideoloji, təşkilatı və tərbiyəvi təsirinin səviyyəsi;
- Siyasi fəaliyyəti müstəqil və sərbəst həyata keçirmək, onu tənzim etmək məharəti;
- Şəxsiyyətin öz siyasi fəaliyyətinin törədə biləcəyi mühüm ictimai nəticələri irəlicədən görə bilməsi və lazım gəldikdə bu fəaliyyətdən imtina etmək bacarığı.

Müasir şəxsiyyətin siyasi fəaliyyətinin başlıca obyektlərini cəmiyyətin siyasi və hüquqi münasibətləri və təsisatları təşkil edir.O öz siyasi mənafelərini reallaşdırmaq üçün ya onları möhkəmləndirməyə çalışır, ya da onları yenilşdirmək uğrunda mübarizə aparır (7,169).

Fəlsəfi ədəbiyyatda şəxsiyyətin fəaliyyətini şərtləndirən amillərin tələbat, mənafe və məqsəd olduğu fikri geniş yayılmışdır (6, s.184). Bu eynilə də onunsiyasi fəaliyyət növünə aiddir.Yeganə fərq burasındadır ki, siyasi fəaliyyətdə bu amillər konkretləşmiş şəkildə, yəni siyasi tələbatlar, siyasi mənafelər və siyasi məqsədlər formasında çıxış edir. Lakin nəzərdə tutmaq lazımdır ki, şəxsiyyətin mənafeyi onun şüurunda heç də həmişə adekvat əks olunmur. Müxtəlif səbəblər (cəmiyyətin ümumi yetkinlik səviyyəsinin aşağı olması, konkret şəxsiyyətin kifayət qədər inkişaf etməməsi, ona göstərilən ideoloji təzyiqin güclü olması və s.) üzündən mənafe şəxsiyyətin şüurunda təhrif olunmuş formada və ya illüziyalı şəkildə də inikas edə bilir .Sonuncu vəziyyət şəxsiyyətin nəzəri şüurundan daha çox onun adi, empirik səviyyəsində müşahidə olunur. Açıq cəmiyyətə keçid dövründə şəxsiyyətin yuxarıda qeyd olunan göstəricilərində ciddi irəliləyişlər baş verir. Keçmiş rejim nəinki təkcə siyasi həyatda kor–koranə itaət təlqin edirdi, həm də özünün spesifik psixologiyasını və

təfəkkür üslubunu yaradırdı ki, burada hakimiyyətə pərəstiş , insan hüquqlarına hörmətsizlik, sadə yollarla, düşünmədən qərar qəbul etmək əsas yer tuturdu.

Müasir dövrdə şəxsiyətin siyasi fəaliyyətinin strukturu da xeyli dərəcədə mürəkkəbdir. Burada ilk öncə yaxın (taktiki) və perspektiv (strateji )siyasi məqsədləri düzgün müəyyənləşdirmək məharəti qeyd olunmalıdır.

Siyasi fəaliyyətin ikinci mühüm struktur ünsürü şəxsiyyət tərəfindən öz siyasi məqsədini həyata keçirmək üçün səmərəli metodların, vasitələrin və formaların seçilməsidir.

Siyasi cəhətdən yetkin şəxsiyyət öz fəaliyyətində geniş dünyagörüşü, müdrikliyi və siyasi təcrübəni düzgün əlaqələndirməklə, nəinki təkcə siyasi vəziyyəti düzgün təhlil etməyi bacarır, o həm də siyasi prosesləri irəlicədən xeyli dərəcədə dəqiqliklə proqnazlaşdırmaq qabiliyyətinə malik olur. Bu keyfiyyət onun siyasi fəallığını daha yaradıcı və geniş miqyaslı edir .

Şəxsiyyətin siyasi fəallığının artması açıq cəmiyyətə keçid dövrünün zəruri şərti və ayrılmaz tərkib hissəsidir. Hazırda ictimai həyatın bütün sahələrində özünü göstərən əsaslı və dərin dəyişikliklər,demokratikləşmənin ardıcıl həyata keçirilməsi, şəxsiyyətin siyasi fəallığının artması ilə bilavasitə bağlıdır. Bu təsadufi olmayıb, açıq cəmiyyət quruculuğunda iqtisadi, sosial və mənəvi sahələrdə olduğu kimi siyasi həyatda da insan amilini fəallaşdırmağın müstəsna dərəcədə böyük əhəmiyyəti ilə izah olunur.İndi siyasi fəallğın artırılması cəmiyyətimizin qarşısında duran geniş miqyaslı və mürəkkəb vəzifələr kompleksinin həllinin əsas amillərindən birinə çevrildiyi üçün, onun real vəziyyətinin təhlili, gələcək inkişafının yolları və vasitələrinin axtarıb tapılması , təkcə nəzəri baxımdan deyil, eləcə də praktiki mənada son dərəcə zəruridir.

Müasir cəmiyyətin siyasi sistemində həyata keçirilən əsaslı islahatlar, şəxsiyyətin siyasi fəaliyyətini, siyasi münasibətlər sferasına daxil olmasının xarekterini və üsullarını əsaslı surətdə yeniləşdirir ki, bu da öz növbəsində onun siyasi fəallığı qarşısında əvvəllərdə görünməmiş yeni üfüqlər açır. Digər tərəfdən, siyasi fəallığın artması insanın şəxsiyyət kimi yetişməsində mühüm rol oynayır. Deyilənlərdən aydın olur ki, siyasi fəallıq müasir şəxsiyyətin strukturunda müstəsna dərəcədə ciddi rola malik komponentdir. Bu fəallığın ümumi mahiyyətini və konkret təzahür formalarını, onu sosial keyfiyyət kimi səciyyələndirən cəhətləri və xususiyətləri dərindən təhlil etməklə onu məqsədyönlü şəkildə formalaşdırmaq və inkişaf etdirmək zəruridir.

Şəxsiyyətin siyasi fəallığının mahiyyəti və konkret təzahür formalarını araşdırmaqdan əvvəl öncə bu anlayışın məzmununu açmaq tələb olunur. Bununla əlaqədar qeyd edək ki,fəlsəfi–sosioloji ədəbiyyatda şəxsiyyətin siyasi fəallığının mahiyyəti, xüsusiyyətləri və funksiyaları haqqında vahid rəy demək olar ki, yoxdur.

Siyasi fəallıq anlayışının məzmunu çox geniş olub , şəxsiyyətin siyasətdə iştirakının müxtəlif formalarının məcmusunu ifadə edir. Siyasi fəallıq , əmək fəallığı və mənəvi fəallıqla yanaşı sosial fəallığın çox mühüm növü olmaqla, onun siyasi münasibətlər sisteminə cəlb olunması dərəcəsini, ölçüsünü və səviyyəsini əks etdirir, şəxsiyyətin ictimai vəzifələrin həllində iştirakının göstəricisidir. (8, c.220)

Müasir şəraitdə şəxsiyyət aktiv siyasi fəaliyyətin subyekti kimi cəmiyyətin həyat fəaliyyətinin bütün sahələrinin inkişafının müəyyənedici amillərindən birinə çevrilmişdir. Hazırda siyasi fəallıq şəxsiyyətin təkcə siyasi və ictimai institutların formalaşmasında və fəaliyyətində bilavasitə və yaxından iştirakı ilə məhdudlaşmır, həm də şəxsiyyətin işgüzarlığını və öz iş yerində səlahətliliyinin, özünü tərbiyə və özünü təkmilləşdirməsinin qüdrətli vasitəsi kimi çıxış edir.

Deyilənlər sübut edir ki,şəxsiyyətin siyasi fəallığına onun həyat fəaliyyətinin spesifik forması kimi yanaşmaqla, onu inteqrativ və polufunksional daşıyan bütöv proses kimi araşdırmağa ehtiyac vardır.

Şəxsiyyətin siyasi fəallığının məzmununda yaranan yeni keyfiyyət hər şeydən əvvəl bunda təzahür edir ki, ardıcıl və hərtərəfli demokratikləşmə şəraitində bir tərəfdən şəxsiyyətin siyasi hakimiyyətin reallaşdırılmasında iştirakının dərəcəsi qeyri–adi dərəcədə artır, onun ənənəvi təzahür formaları zənginləşir, digər tərəfdən, şəxsiyyətin həyat fəaliyyətinin başqa sahələri ilə onun qarşılıqlı əlaqələri daha da möhkəmlənir, siyasi fəallığın həmin sahələrə nüfuz etməsi prosesi sürətlənir.

Şəxsiyyətin siyasi fəallığı mövcud ictimai münasibətlərin xarekteri, məzmunu və inkişaf istiqamətləri, real əmək bölgüsü formaları əsasında formalaşsa da , bu prosesdə şəxsiyyətin öz fəaliyyətində yerinə yetirdiyi konkret ictimai funksiyalar da çox mühüm rol oynayır. Onun

mahiyyəti cəmiyyətdə real siyasət və siyasi münasibətlərdən törəyir və şəxsiyyətin dövlətə , onun müxtəlif strukturlarına, habelə ictimai siyasi təşkilatlara və birliklərə münasibətində təzahür edir.

Müasir cəmiyyətdə şəxsiyyətin siyasi fəallığı ilə digər fəallıq növləri arasında qarşılıqlı əlaqə və qarşılıqlı asılılıq durmadan artır ki, bu da insanların açıq cəmiyyət quruculuğuna yönəlmiş sosial–siyasi yaradıcılığını əks etdirir .

Şəxsiyyətin siyasi fəallığını araşdırarkən onun daxili tərkibinin mürəkkəb və təhlilə çətin məruz qalan xarekterini də qeyd etmək lazımdır. Hər şeydən əvvəl siyasi fəallığın meyarlarını və göstəricilərini müəyyənləşdirmək tələb olunur. Ən böyük çətinlik isə həmin göstəricilərin şəxsiyyətin əsl daxili yaradıcılıq mahiyyətini əks etdirdiyini, yoxsa zahiri, səthi empirik məna daşıdığını bir-birindən ayırmaqdır. Bu zaman, şəxsiyyətin siyasi fəallığının konkret məzmununa nüfuz etmək tələb olunur, yəni onun həmin şəxsin öz mənafelərini yerinə yetirməklə yanaşı, həm də cəmiyyətin ümumi maraqları ilə ziddiyət təşkil etmədiyi təhlil edilməlidir.

Deyilənlər sübut edir ki, müasir dövrdə şəxsiyyətin siyasi fəallığını şərtləndirən amillər kompleksindən əsas determinantları seçib ayırmaq və onların əsasında təhlil aparmaq zəruridir. Sözügedən amillər obyektiv və subyektiv cəhətləri əhatə etməklə , geniş məzmuna malikdir. Onlar əsasən şəxsiyyətin iqtisadi, sosial, demoqrafik səciyyələrini əhatə edir.İqtisadi amillər qrupunda əməyin xarekteri və məzmunu əsas yer tutur, onu ifadə edən ixtisas dərəcəsi, mədəni–texniki səviyyə, təhsil və başqa göstəricilər qarşılıqlı təsirdə çıxış edərək şəxsiyyətin fəallığında çox mühüm rol oynayır. Sözügedən amillər qrupunun şəxsiyyətin siyasi fəallığına təsiri həm də onların işçinin asudə vaxtının həcmi vasitəsilə özünü göstərir. Yəni şəxsiyyətin çalışdığı konkret əmək növü onun məzmunu nə qədər çox asudə vaxt yaradırsa, həmin işçinin bir şəxsiyyət kimi siyasi fəallıq göstərməsi üçün daha çox imkanlar açılır.

Nəhayət, şəxsiyyətin fəaliyyətində sosial–psixoloji xarekterli amillər (tələbat, maraq, məqsəd, motiv, dəyər oriyentasiyaları və s.)böyük rol oynayır. Onlar həm siyasi fəallığın stimullaşdırılmasında, həm də onun şəxsiyyət baxımından dəyərliliyinin müəyyən edilməsində müstəsna dərəcədə mühüm yer tutur

Şəxsiyyətin siyasi fəallığı, onun fəaliyyətinin daha mütəşəkkil və səmərəli təşkil edilməsi üçün vasitələr və yollar axtarmağa yönəlir. Onun düzgün təşkil və tənzimedilməsi cəmiyyətdə baş verən əsaslı yeniləşmə proseslərinin çox mühüm subyektiv dayağı rolunu oynayır.

Müasir Azərbaycan cəmiyyətində şəxsiyyətin formalaşdığı və inkişaf etdiyi ümumi siyasi şəraiti aşağıdakı kimi səciyyələndirmək olar: onun həyat fəaliyyətinin bütün sahələrinin əsaslı surətdə dəyişilməsi və keyfiyyətcə yeni sosial zəmin üzərinə qoyulması; onun təbiətində, sosial statusunda, rolunda, funksiyalarında keçid dövrünün xarekterinin şərtləndirdiyi cəhətlərin təzahür etməsi (stabiliyiin əldə olunmasının çətinlikləri, bəzi hallarda sosial patalogiya əlamətləri ilə müşayiət olunan qeyri–sabitlik ünsürlərinin özünü göstərməsi, baş verən dəyişikliklərin qeyri adkevat mənalandırılması nəticəsində yaranan qeyri-müəyyənlik və hətta ümidsizlik əhval ruhiyyəsinin özünü göstərməsi); ictimai həyatın bütün sahələrində ümumi nəzarətdən vaxtaşırı çıxma hallarının təzahürü, özünü və özünü tənzimetmə arasındakı nisbətin ikinci tərəfin xeyrinə dəyişilməsi, dövrün ziddiyyətlərinin və çətinliklərinin şəxsiyyətdə öz müvafiq ifadəsini tapması; Sosiumun ilkin özəyi olan şəxsiyyətin sosial özünü hiss etməsində nasazlıqlar; keçid dövründə özünü göstərən digər çətinliklər–istehsalın zəif surətlə inkişafı və çox vaxt isə öz yerində sayması, əhalinin sosial təbəqələşməsinin güclənməsi və yoxsulluq, milli etnik münaqişələr nəticəsində minlərlə insanın çəkdiyi əzab-əziyyətlər va s. bütün bunların nəticəsində bəzən şəxsiyyətdə frusturasiya halları özünü göstərir. Bununla əlaqədar qeyd edək ki, yaradılmaqda olan bazar iqtisadiyyatı və hüquqi dövlət quruculuğu yolunda atılan addımlar şəxsiyyətə göstərdiyi təsir baxımından çox əhəmiyyətlidir.

Qeyd olunan münasibətdə Azərbaycanda bir çox uğurlar əldə olunmasına baxmayaraq, bu sahədə görüləsi iş çoxdur. İctimai inkişafın gedişi və həyata keçirilməkdə olan vəzifələrin genişmiqyaslılığı və mürəkkəbliliyi şəxsiyətlərin sosial-siyasi həyata cəlb olunmasını yaxşılaşdırmağı, bu işin formalarını, metodlarını, vasitələrini daha da təkmilləşdirməyi, ona xidmət edən yeni-yeni yollar axtarıb tapmağı və həyata keçirməyi tələb edir .

Demokratik prinsiplərə əsaslanan cəmiyyətdə şəxsiyyətin siyasi fəallığını tam gücü ilə hərəkətə gətirmək üçün indi fəaliyyət göstərən çoxsaylı ictimai təşkilatların və birliklərin yaradıcı işini daha da dolğunlaşdırmaq tələb olunur. Sözügedən məqsədə nail olmaq üçün ictimai təşkilatlar ilə dövlət orqanları arasında qarşılıqlı təsirin effektiv mexanizmini işləyib hazırlamaq və həyata keçirmək çox zəruridir. Onun reallaşması ictimai–siyasi təşkilatların siyasi həyatda və eləcə də ictimai həyatın digər sferalarında fəaliyyətini və təsir gücünü artırır, digər tərəfdən isə onlarda təmsil olunan şəxsiyyətlərin siyasi fəallığını daha yüksək və səmərəli edir .

Cəmiyyətin ictimai həyatında şəxsiyyətin fəallığının artması geniş araşdırmalar aparmaq, yeni tələblərə cavab verən qnaesoloji zəminlərin, metodoloji yanaşmaların işlənib hazırlanmasını tələb edir.(10,12) Bu zaman Azərbaycanın yeniləşən dünyada bir müstəqil ölkə kimi milli maraq və prioritetlərinin gözlənilməsi , cəmiyyətin demokratik prinsip və normalar əsasında təşkilatlanması və idarə olunması,insan hüquq və azadlıqlarının təmin edilməsi, şəxsiyyətin sosiallaşması məsələlərinə, milli dövlət və dövlətçilik problemlərinə xüsusi diqqət yetirilməlidir.Şəxsiyyətin siyasi fəallığının artması cəmiyyətdə eyni zamanda milli ideologiya, azərbaycançılıq, siyasi institutların demokratikləşməsi və effektivliyi, sosial idarəetmənin optimallaşdırılması və başqa bu kimi problemlərin də təhlilinə əlverişli şərait yaradır .

## ƏDƏBİYYAT

1. Heydər Əliyev. Müstəqillik yolu, Bakı, 1997 s.136
2. Шмитт К. Понятие политического // Вопросы социологии 1992
3. Зеркин Д.П. Основы политологии, Ростов–на–Дону: 1977
4. Борисов Л.П. Политология, М.: 1966
5. Əfəndiyev M. Siyasi elmin problemləri, Bakı, Siyasət, 1998
6. Rzayev.M.H Müasir şəxsiyyət, Bakı, MBM, 2014
7. Арефьева Г.А. Социальная активность, М: Мысль, 1974
8. Müasir qlobal siyasi proseslər və milli dövlət ideyası. Bakı, Səda 2006
9. Fəlsəfə. Dərslik, (F.Ramazanovun redak. ilə ) Bakı, Azərnəşr, 1997
10. Müasir fəlsəfə, idrakın ən yeni istiqamətləri.Bakı, Elm və Təhsil 2014

## ABSTRACT

**Kamran Valizada**

**MODERN AGE AND POLITICAL ACTIVISM OF PERSONALITY**

The article explores multilevel peculiarities of rise in public activism of personality in political area.

The author analyzes key criteria of intensification of national conscience and the level of organization of personality at the modern stage and concludes that participation of modern personality in political life has a big and diverse importance. From this perspective, rise in political activism of personality as a prerequisite and the integral part of the modern age acts as the key factor in establishment of the rule-of-law state.

## РЕЗЮМЕ

**К.Р.Велизаде**

**СОВРЕМЕННАЯ ЭПОХА И ПОЛИТИЧЕСКАЯ АКТИВНОСТЬ ЛИЧНОСТИ**

В статье анализируются многоаспектные особенности повышения общественной активности личности в политической сфере. Автор анализирует основные критерии повышения национального сознания и уровня организации личности в современных условиях и приходит к выводу, что участие современной личности в политической жизни имеет большое и многостороннее содержание.

С этой точки зрения, повышение политической активности личности, будучи непременным условием и важной составной частью современности, является важным фактором создания правового государства.

NDU-nun Elmi Şurasının 19 oktyabr 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 02).
Məqaləni çapa təqdim etdi: Fəlsəfə üzrə elmlər doktoru, professor M.Rzayev

**XAQANİ MƏMMƏDOV**
*Bakı Dövlət Universiteti*
*(x_mamedov@yahoo.com>)*

**UOT:342; 342.7**

# TÜRKİYƏDƏ ƏSAS MİLLİ AZLIQ QRUPLARI VƏ ONLARIN HÜQUQİ VƏZİYYƏTİ

**Açar sözlər:** *milli azlıqlar, etnik və dini qruplar, çərçivə konvensiyası, milli azlıqlara mənsub şəxslərin hüquqlarının təmin edilməsi, beynəlxalq müqavilələr, regional dillər*

**Keywords:** *national minorities, ethnic and religious groups, the framework Convention of rights of persons pertaining to national minorities, international treaties, regional languages*

**Ключевые слова:** *национальные меньшинства, этнические и религиозные группы, рамочная конвенция, обеспечение прав лиц относящихся национальным меньшинствам, международные договоры, региональные языки*

Dünyada 200-ə yaxın dövlət mövcuddur, yer kürəsindəki xalqların sayı isə 3000-dən artıqdır, bu, o deməkdir ki, praktik olaraq bütün dövlətlər bu və ya digər dərəcədə çoxmillətlidir. Təsadüfi deyil ki, son 350 il ərzində bəşəriyyət milli və etnik azlıqların hüquqlarının müdafiəsi problemini həll etməyə çalışır [7, 9-10]. Söhbət ondan gedir ki, kiçik etnik və dini qrupların hər hansı hüquqlarını təmin etməli olan ilk beynəlxalq müqavilələr XVI əsrin ortalarına aiddir. Üç əsr yarım ərzində çoxlu saziş və müqavilə imzalanmış (Avropa Şurasının 1 fevral 1995-ci ildə imzalanmış Milli azlıqların müdafiəsi haqqında Çərçivə Konvensiyası; BMT Baş Məclisinin 18 dekabr 1992-ci il tarixli 47/135 saylı qətnaməsi ilə qəbul edilmiş Milli, yaxud etnik, dini, yaxud dil azlıqlarına mənsub şəxslərin hüquqlarına dair Bəyannamə; MDB-nin Milli azlıqlara mənsub şəxslərin hüquqlarının təmin edilməsi haqqında 21 oktyabr 1994-cü il tarixli Konvensiyası; 5 noyabr 1992-ci ildə imzalanan Avropa Regional dillər, yaxud azlıqların dilləri Xartiyası və s.)[1], çoxlu təşkilatlar yaradılmış, konvensiyalar və digər qanunvericilik aktları imzalanmış, elmi-hüquqi disputlarda cildlər yaradılmış, mübahisələrdə həqiqətlər meydana çıxmışdır [3, 127-144].

Kürdlər. Kürd icması Türkiyədə ən böyük etnik azlıq olub, 15 milyon nəfərdən ibarətdir. Onlar əsasən, cənub-şərqi və şərqi Türkiyədə yaşayırlar, xeyli kürd qərb hissədəki şəhərlərə köçmüşdür [8, 7-10; 24, 130-138].

- Qaraçılar rəsmi məlumatlara görə 500 min nəfərdən çoxdur, Türkiyənin bütün ərazisində yaşayırlar[16, 355-368].
- Bosniyalı əhalinin sayı 1 mln. nəfərdən çoxdur [2, 31-32].
- Ərəblər Türkiyənin bütün hissələrində yaşayırlar, lakin əsasən, Antakya, Mardin, Siirt əyalətlərində cəmləşmişlər. Onlar özlərini ərəb kimi deyil, dini baxımdan - ələvi kimi müəyyən edirlər [20, 465-480; ; 328, 44-49].
- Çərkəzlərin sayı 3 mln. nəfərdir, onlar bütün Türkiyə ərazisində yaşayırlar [16,340].
- Lazlar Artvin, Rizə və digər böyük şəhərlərdə yaşayırlar, onların sayı 500 min- 1 mln. Arasındadır [16, 341-342].
- Etnik bolqarlar, əsasən, Frakiyada yaşayırlar [13, 27].

Dini azlıqlar.Türkiyədə 60000 pravoslav erməni, 20000 yəhudi [9, 7-10] və 2000-3000 pravoslav yunan yaşayır [9, 44-45]. Bunlar "qeyri-müsəlman azlıqlar" kimi tanınmış yeganə qruplardır.

- Habelə 15.000-20.000 pravoslav suriyalı və 5.000-7.000 yezid yaşayır [4, 131-144].
- Bundan başqa, müsəlman dini azlıqları, əsasən, 12-15 mln. nəfərdən ibarət böyük ələvi icması vardır[5,109-114].

Azlıqların təhsil hüququ. Təhsil sahəsində əsas hüquqlar bundan ibarətdir ki, azlıq üzvlərinin övladları öz dilini və mədəniyyətini öyrənir, dövlət ölkədə mədəni müxtəlifliyin və anlaşmanın təmin edilməsi vəzifəsi daşıyır.

Avropa İnsan Hüquqları Konvensiyasına (1-ci Protokol, 2-cü maddə) görə: "Heç bir insan təhsil hüququndan məhrum edilə bilməz. Dövlət təhsil və təlim sahəsində üzərinə götürdüyü funksiyaları həyata keçirərkən valideynlərin belə təhsili və təlimi özünün dini və fəlsəfi etiqadına uyğun təmin olunması hüququna hörmət etməlidir" [25].

Milli azlıqlara mənsub şəxslər belə istək ifadə etdikdə və onların sayı buna əsas yaratdıqda tələbələr dövlət dilində oxumaq imkanına malik olmalıdır. Milli azlıqlar habelə ali təhsil səviyyəsində öz təhsil müəssisələrini yaratmaq imkanına malik olmalıdır.

Türkiyədə dil sahəsində qanunvericilik və təcrübə. Türkiyə Konstitisiyasının 42-ci maddəsinə görə, "Türk dilindən başqa, heç bir dil hər hansı təhsil, yaxud təlim müəssisəsində Türkiyə vətəndaşı tərəfindən ana dil kimi tədris olunmamalıdır... xarici dildə təhsil qanunla müəyyən olunur". 3-cü maddədə göstərilir ki, Türkiyənin dövlət dili türk dilidir. Bu maddələrdən azlıqların dilində təhsilin qarşısını almaq üçün istifadə olunur (Lozanna müqaviləsi ilə tanınmış azlıqlar istisna olmaqla) [32]. Kürdlər və lazlar dəfələrlə müraciət etmələrinə baxmayaraq, ana dilində təhsildən məhrum edilmişlər, onların sayca çoxluq təşkil etdiyi rayonlarda ana dili məktəblərdə yalnız fakultativ fəndir. Türkiyənin heç bir universitetində bu azlıqların dilində dil, yaxud ədəbiyyat bölməsi yoxdur [25, 211-225].

Lozanna müqaviləsinin 40-cı maddəsinə görə, qeyri-müsəlman azlıqlar təhsil və təlim üçün öz hesabına məktəblər və digər müəssisələr yaratmaq, onları idarə etmək və nəzarətdə saxlamaq, onlarda ana dilindən istifadə etmək hüququna malikdir [26].

Parlamentdə komissiyalar vasitəsilə təmsilçilik. Azlıqların nümayəndələrinin təmsil olunduğu, yaxud məsləhətləşmələrdə iştirak etdiyi parlament komissiyası yoxdur. Azlıqlarla bağlı alt komissiyaya Daxili və Xarici işlər nazirliklərinin, Milli Təhlükəsizlik Şurasının, Milli Kəşfiyyat Təşkilatının və Baş Qərargahın nümayəndələri daxildir, o, 1962-ci ildə baş nazir tərəfindən "məxfi qaydada" yaradılmışdır. Bu komissiyanın fəaliyyəti və rolu haqqında heç bir məlumat verilməmişdir. Daxili və Xarici işlər, Milli Təhsil və Fondlar(Vəqflər) nazirliklərinin nümayəndələrinin daxil olduğu "Azlıqların problemlərinin qiymətləndirilməsi Şurası" isə azlıqların məsələlərini AB standartlarına uyğunlaşdırmaq məqsədi daşısa da, Türkiyə dövləti tərəfindən tanınmış az sayda azlıqla kifayətlənmişdir və daimi azlıqların nümayəndələrini əhatə etmir[26].

Azlıqların yerli özünüidarə orqanlarında təmsilçiliyi. Əyalət, yaxud bölgə hakimiyyət orqanlarında azlıqları təmsil edən komissiya yoxdur, insan hüquqları üzrə şuralar qurulsa da, azlıqların nümayəndələri təmsil olunmur.

Azlıqların dilində və azlıqlar haqqında media. Dil əlamətinə görə ayrı-seçkiliyə yol verilmədən ifadə azadlığı bütün əsas beynəlxalq sənədlər, o cümlədən Avropa İnsan Hüquqlarının Müdafiəsi Konvensiyası (10-cu və 14-cü maddələr) və Milli azlıqların müdafiəsi barədə Konvensiyanın (19-cu maddə) çərçivəsində fundamental hüquqdur. İfadə azadlığı hüququ azlıqlar üçün xüsusilə vacibdir, bu hüquqlar ATƏT Kopenhagen sənədində də açıqlanır. Bu, azlıqların ana dilində məlumat yaymaq, məlumata çıxış əldə etmək, məlumat mübadiləsi aparmaq hüququna təminat verir [10]. Milli azlıqların müdafiəsi barədə Konvensiyanın 9-cu maddəsi milli azlıqların öz kütləvi informasiya vasitələrini yaratmaq və onlardan istifadə etmək hüququna təminat verir. Bundan başqa, dövlətlər azlıqların dilində yayım üçün ayrılmış vaxtın milli azlığın say tərkibinə, tələb və maraqlarına uyğunluğunu təmin etməlidir [25, 14-16]. Konstitusiyasının 4 (a) və (b) maddələri respublikanın bütövlüyünə və müstəqilliyinə qarşı yönəlmiş, cəmiyyəti zorakılığa, terrora, yaxud etnik ayrı-seçkiliyə təhrik edən, dil, din, təriqət, irq və dini mənsubiyyət əlaməti üzrə ədavəti qızışdıran yayınları qadağan edir. 33 (c) maddəsi bu müddəaların pozulmasına görə cəzaları nəzərdə tutur. Bir qayda olaraq, xəbərdarlıq və proqramın dayandırılması nəzərdə tutulur, yayım bir aylığa dayandırıla bilər, qanun pozuntuları təkrar olunduqda lisenziya ləğv oluna bilər [25, 15].

Dildən istifadə ilə bağlı digər məsələlər. Avropa İnsan Hüquqlarının Müdafiəsi Konvensiyasının 8-ci maddəsində hər kəsin yalnız ayrı-seçkiliyə yol verməyən əsaslarla məhdudlaşdırıla biləcək şəxsi həyat hüququ nəzərdə tutulur. Aİ hüququnun əsas prinsipinə görə, milli mənsubiyyət əlaməti üzrə heç bir ayrı-seçkiliyə yol verilmir. Avropa Məhkəməsinin qərarına əsasən, bu, şəxsi adlardan istifadəyə də aiddir [25]. Avropa Məhkəməsi qeyd etmişdir ki, şəxsləri adlarının yazılışının və nəticə etibarilə deyilişinin dəyişdirilməsinə məcbur edilməsi AB haqqında Müqaviləyə ziddir.

Azlığın dilində şəxsi adlardan istifadə. Uzun illər kürd adlarından istifadə qadağan olunmuşdur. Şəxslərin əsl adlarından istifadə etmələri rəsmən qadağan olunurdu. Böyük Millət Məclisinin qəbul etdiyi altıncı uyğunlaşdırma zərfinə əsasən, 15 iyul 2004-cü ildə Qeydiyyat (siyahıyaalma) haqqında Qanuna edilmiş düzəlişlər hazırda uşaqlara "əxlaq qaydalarına zidd olmayan" və "ictimaiyyəti təhqir etməyən" adlar verməyə imkan yaradır. Bu düzəlişdən sonra kürd adları qeydə alınmışdır. Qadağan qeyri-ardıcıl tətbiq olunur, əvvəllər qeydə alınmamış bəzi adlar qeydə alınır, məsələn, təlimata rəğmən, "W" hərfinin olduğu kürd adları son vaxtlar qeydə alınmışdır [14, 13].

Azlıqların dilində coğrafi adlardan istifadə. İnzibati Məcəllənin 2-ci maddəsinə görə, coğrafi adlara məhdudiyyətlər qoyulur. Həmin maddədə göstərilir: "Türk dilində olmayan və dolaşıqlıq yaradan kənd adları ən qısa müddətdə əyalət daimi komitəsinin rəyi alınmaqla Daxili İşlər Nazirliyi tərəfindən dəyişdirilməlidir". Bu maddədən türk dilindən fərqli dillərdə olan yer adlarının dəyişdirilməsi üçün istifadə olunmuşdur. Bəzi azlıq nümayəndələri göstərirlər ki, onlar indiyə qədər əvvəlki adlardan istifadə edirlər və yer adlarını, ən azı şəhərlərin girişində türk adları ilə yanaşı, özlərinin ana dilində görmək istəyirlər [12, 16-19].

Azlıqların dilindən dövlət xidmətlərində istifadə. Türkiyə Konstitusiyasının 3-cü maddəsinə görə, Türkiyənin dövlət dili türk dilidir. Bu maddə dövlət hakimiyyəti orqanlarında hər hansı başqa dildən istifadəni qadağan etməsə də, Türkiyənin hakimiyyət orqanları onu dövlət orqanlarında türk dilindən başqa heç bir dildən istifadə olunmasının mümkün olmaması kimi təfsir etmişlər [15, 112-14].

Azlıqların dilindən ədalət mühakiməsi sistemində istifadə. Lozanna müqaviləsinin 39-cu maddəsi Türkiyədən məhkəmələrdə ana dilindən şifahi istifadə üçün türk dilində danışmayan vətəndaşlara yer ayrılmasını tələb edir. Müvafiq surətdə Türkiyə Cinayət-Prosessual Məcəlləsinin 252-ci maddəsi nəzərdə tutur ki, təqsirləndirilən şəxs türk dilini bilmədikdə tərcüməçi ona ittiham barədə məlumat verməli, müdafiənin fikirlərini isə prokurora çatdırmalıdır [15, 15].

Dini müəssisələr yaratmaq hüququ. Lozanna müqaviləsinin 40-cı maddəsi qeyri-müsəlman azlıqların dini müəssisələr yaratmaq və idarə etmək hüququna təminat verir. Buna baxmayaraq, əvvəllər dini müəssisələrin yaradılması və hüquqi cəhətdən tanınması çətinliklərlə üzləşirdi. 15 iyul 2004-cü ildə qəbul olunmuş altıncı uyğunlaşdırma zərfinə əsasən, Tikinti haqqında Qanuna edilən dəyişikliklər ibadətgahlar yaratmağa imkan vermişdir [21, 77-82].

Türkiyə Konstitusiyaya əsasən dünyəvi dövlət olsa da, Dini İşlər Başkanlığı vasitəsilə sünni müsəlmanları dəstəkləyir. Ələvilər iddia edirlər ki, Türkiyə dünyəvi dövlət kimi bütün dinlərə və məzhəblərə eyni dərəcədə yanaşmalı və bir məzhəbə üstünlük verməməlidir. Buna görə də Dini İşlər Başkanlığının ləğvi tələb olunur.

Dini təhsil. Lozanna müqaviləsinin 40-cı maddəsi qeyri-müsəlman azlıqlara "təhsil və təlim üçün öz hesabına məktəblər və digər müəssisələr yaratmaq, onları idarə etmək və onlarda öz dinini azad surətdə həyata keçirmək" hüququ verir [21, 86].

Mülkiyyət hüququ. Avropa İnsan Hüquqlarının Müdafiəsi Konvensiyasına 1-ci Protokolun 1-ci maddəsi hər kəsin öz mülkiyyətindən müstəqil surətdə və ya başqaları ilə birgə maneəsiz istifadə hüququna təminat verir. Heç kəs, cəmiyyətin maraqları naminə, qanunla və beynəlxalq hüququn təməl prinsipləri ilə nəzərdə tutulmuş şərtlər istisna olmaqla, öz mülkiyyətindən məhrum edilə bilməz. 8-ci maddə ailə həyatı hüququnu təsbit edir. Bütün hüquqlar kimi, o, yalnız ayrı-seçkiliyə yol verməyən əsaslarla məhdudlaşdırıla bilər (14-cü maddə) [23, 5-6].

Qeyri-müsəlman fondların mülkiyyət hüququnun məhdudlaşdırılması. Lozanna müqaviləsinin 39-cı və 40-cı maddələrinə görə, Türkiyədə qeyri-müsəlmanlar qanun qarşısında bərabərdir və Türkiyənin digər vətəndaşları ilə eyni hüquqlardan istifadə edirlər. Buna baxmayaraq, 1974-cü ildən etibarən qeyri-müsəlman fondlarının mülkiyyətinin qeydə alınmasına maneçilik törədilmişdir. İslahatlar zərfindən sonra qeyr-müsəlman fondlarının mülkiyyət hüququ təsbitini tapsa da, 24 yanvar 2003-cü il tarixli reqlamentin tənzimləməsi mülkiyyət hüququnun tam müdafiəsi üçün yetərli deyildir[11, 22-23]. Belə ki, qanun qeyri-müsəlman fondlarının mülkiyyət hüquqlarının qeydiyyatı üçün Baş Fondlar (Vəqflər) İdarəsinin icazəsini tələb edir, halbuki bu, digər fondlar üçün məcburi deyildir. Bu məhdudiyyət Lozanna müqaviləsinin 39-cı maddəsinin pozulmasıdır.

Hərəkət azadlığı. Milli azlıqların müdafiəsi barədə Konvensiyanın 12-ci maddəsinə görə: "Hansısa bir dövlətin ərazisində olan hər bir kəs bu ərazinin hüdudları daxilində sərbəst hərəkət etmək və yaşayış yerini sərbəst seçmək hüququna malikdir" [11, 6]. Avropa İnsan Hüquqlarının Müdafiəsi Konvensiyasına 4-cü Əlavə Protokol analoji hüquqları təsbit edir və Aİ hüdudlarında hərəkət azadlığı əsas prinsip kimi çıxış edir [11, 6-7].

Miqrantların yerləşdirilməsi və hərəkəti ilə bağlı məhdudiyyətlər. Qanunvericiliyə görə, "Türk mədəniyyəti ilə bağlı olmayan şəxslər, anarxistlər, qaraçılar, casuslar və deportasiya olunmuş şəxslər miqrant kimi tanınmır". Əcnəbilərin hərəkəti və daimi yaşayış yeri haqqında Qanunun 21-ci maddəsinə görə, "Daxili İşlər Nazirliyi Türkiyə mədəniyyətinə yad olan vətəndaşlığı olmayan şəxsləri, Türkiyə vətəndaşı olan qaraçıları və əcnəbiləri ölkədən çıxarmaq hüququna malikdir". Daxili İşlər Nazirliyinin 23 oktyabr 2003-cü il tarixli Təlimatı Türkiyə vətəndaşlığı almaq üçün ərizələrdə ərizəçinin dilənçilər və qaraçılarla əlaqəsinin olub-olmadığını göstərməyi tələb edir [19, 14]. Bu müddəaların həyata keçirilməsi haqqında heç bir məlumat olmasa da, onlar qaraçılara münasibətdə ayrı-seçkilik xarakteri daşıyır.

Avropa standartlarına çatmaq üzrə Türkiyənin irəliləyişinin qiymətləndirilməsi. İslahatlar nəzərə alındıqla, Türkiyə Kopenhagen meyarlarının icrası istiqamətində bəzi mühüm addımlar atmışdır. AKP hökuməti iqtidara gəldikdən sonra AB üzvlüyü prosesini prioritet elan etmişdir. Xüsusilə qeyri-müsəlman azlıqlara və kürd icmasına münasibətdə bir çox qadağanlar götürülmüşdür [19, 18]. Qeyri-müsəlman azlıqların mülkiyyət hüquqları ilə bağlı islahatlar, azlıqların dilində yayım və özəl dil kurslarına icazə verilməsi xüsusi qeyd olunmalıdır.

## ƏDƏBİYYAT


1. Milli azlıqların müdafiəsi haqqında çərçivə konvensiyası. (Strasburq, 1 fev-ral 1995-ci il). http://diaspora.gov.az/index.php?options=content&id=270
2. Dişişleri: Azinlik sayisi 89 bin, Milliyet, 12.12.2008, p.31-32
3. Erman T. and Erdemir A. Aleviler ve Topluma Eklemlenme Sorunsalı. Türkiyede Çoğunluk ve Azınlık Politikaları: AB Sürecinde Yurttaşlık Tartışmaları, İstanbul, TESEV, 2008, p.127-144
4. Oran, B. Türkiye'de Azınlıklar, Kavramlar, Teori, Lozan, Iç Mevzuat, Ictihat, Uygulama, Iletisim, Istanbul, 2004, p.131-144
5. Güneş Ayata A. "The Turkish Alevis", Innovation the European Journal of Social Sciences, 1992, Vol. 5, No.3, p. 109-114
6. Turkish Alevis Today. http://www.sahkulu.org/ xalevis1.htm)
7. Allan Rosas, 'The Protection of Minorities in Europe: A General Over-view, L., Oxford, 2006, p. 9-10
8. Bruinessen, M.V. Kurds, Turks and the Alevi revival in Turkey, Middle East Report, 1996, p.7-10.
9. Braude B.; Lewis B. Christians and Jews in the Ottoman Empire, The Functioning of a Plural Society, Holmes and Meier, New York, 1982, p.7-10
10. Constitution of the Republic of Turkey. Interim report, 1982, p.15
11. Department of State Turkey Country Report on Human Rights Practices for 1998 (the Bureau of Democracy, Human Rights, and Labor, 1998, p.22-23
12. Dorian Jones. "Tensions Rise Between Turkey's Government, Alevi Minority", Voice of America, October 22, 2013,p.16-19
13. Gunnar M. Karlsen, ed., Freedom of religion in Turkey: The secular state model, the closing down of the Welfare Party, and the situation of Christian groups. The Norwegian Helsinki Committee 1998, Interim report, p.27
14. Interim report of the Special Rapporteur of the Commission on Human Rights on the elimination of all forms of intolerance and of discrimination based on religion or belief', A/55/280/Add.1, 11 August 2000, p.13
15. Kaya N., and Baldwin C. Minorities in Turkey: Submission to the European Union and the Government of Turkey. MRG Report. London, July, 2004, p.112-114
16. Kurban D. Untravelling a Trade-Off: Reconciling Minority rights and Full citizenship in Turkey. European Yearbook of Minority Issues, 2004, Vol.4, p.355-368
17. Martin van Bruinessen. Kurds, Turks and the Alevis. N.-Y., 2009, p.44-49

18. Nigar Karimova and Edward Deverell. Minorities in Turkey. Published by Utrikespolitiska institutet The Swedish Institute of International Affairs Box Stockholm, 2001, p.211-225
19. Regular report from the commission on Turkey's progress towards accession', 8 November 2000, p.14
20. Şahin Ş. The Rise of Alevism as a Public Religion, Current Sociology, 2005. Vol. 53 No.3, p.465-480
21. Tapper R. Islam in modern Turkey. Religion, Politics and Literature in a Secular State. Tauris, London, 1993, p.77-82
22. The Constitution, the Political Parties Law, the Law Concerning the Founding and Broadcasts of Television and Radio, the Foreign Language Education and Teaching Law, and the Law Concerning Fundamental Provisions on Elections and Voter Registries Provincial Administration Law are such laws ( Viola¬tions of Free Expression in Turkey. New York, Human Rights Watch, 1999. Chapter IX). 10. 2000
23. The Framework Convention was opened for signature in February 1995 and entered into force three years later. p.5-6
24. The Kurdish Question in Turkey', Journal of Democracy, vol. 11, no. 3, July 2000, p. 130-138.
25. The proposal for an additional protocol to the Convention for the Protection of Human Rights and Fundamental Freedoms, concerning persons belonging to national minorities, Recommendation 1201 (1993) on an additional protocol on the rights of national minorities to the European Convention on Human Rights. Council of Europe Parliamentary Assembly, Section 1 Article 1. 6. 2000
26. World Directory of Minorities, op. cit.vi revival in Turkey at http://www.arches.uga.edu/~godlas/alevivanb.htm

**ABSTRACT**

**Khaganı Mammadov**

**THE MAIN MINORITY GROUPS IN TURKEY AND THEIR LEGAL STATUS**

This article refers to national and ethnic minorities of Turkey based on international standards. Indicated that the majority of international conflicts in the world are ethnic in nature. The international community tries to solve them civilized methods, and therefore to prevent possible conflicts dobie-cates to protect the rights of national minorities. The article is developed by the main national and ethnic groups. It is proved that the difference between ethnic, religious and language groups artificial and it all depends on the self-determination of the group.

**РЕЗЮМЕ**

**Хагани Мамедов**

**ОСНОВНЫЕ ГРУППЫ НАЦИОНАЛЬНЫХ МЕНЬШИНСТВ В ТУРЦИИ И ИХ ПРАВОВОЕ ПОЛОЖЕНИЕ**

В этой статье говорится о национальных и этнических меньшинств Турции на основе международных стандартов. Указывается, что большин-ство международных конфликтов в мире носят именно этнических характер. Международное сообщество старается решить их цивильными методами, и поэтому для предотвращения возможных конфликтов добивается защитить права национальных меньшинств. В статье разрабатывается основные национальные и этнические группы. В ней доказывается, что разницы между этническими, религиозными и языковыми группами искуственные и все зависит от самоопределения самой группы.

NDU-nun Elmi Şurasının 19 oktyabr 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 02).
Məqaləni çapa təqdim etdi: Fəlsəfə üzrə elmlər doktoru, professor M.Rzayev

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2017, № 6 (87)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2017, № 6 (87)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2017, № 6 (87)**

**XALƏDDİN SOFİYEV**
*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti*
*sofiyev.xaleddin@mail.ru*

**UOT: 008**

# POST-STRUKTURALİZMİN KULTUROLOJİ PARADİQMALARINDAN

**Açar sözlər:** *Post-strukturalizm, dekonstruksiya, intertekst, nomadik (köçəri)*
**Key words**: *post-structuralism, author`s deconstruction, intertext, nomadic*
**Ключевые слова:** *пост-структурализм, авторская деконструкция, интертекст, номадический*

Post-strukturalistlərin dekonstruksiyaya məruz etdiyi fenomenlərdən biri subyek və ya müəllifdir. XX yüzilliyin əvvəllərində Orteqa-i-Qasset dövrün sənətində baş verən insanisizləşdirilmədən, dehumanizasiyadan yazmışdı. Bu yazının effekti bir paradoksda idi. Humanizm İntibahdan sonra əsl sənətin mənəvi əsası və məqsədi elan edilmişdi. Bu vəziyyətdə Orteqa avanqard, modernist sənətdə dehumanizasiya proseslərini görərək ilk dəfə bunu mənfi hal kimi dəyərləndirmədən açmışdı [7.638c.]. Əsrin ikinci yarısında isə Rolan Bart, Fuko müəllifin ölümü məsələsini qoydular. Nitsşenin “tanrını öldürmüşük” diskursundan sonra müəllifin öldürülməsi bir o qədər orijinal görünmürdü. Ancaq post-strukturalistlər bu öldürmə aktı ilə hərəkət effektinə nail olmaq istəyirdilər. Post-strukturalistlərə görə, müəllif institutu burjua mədəniyyətinin icadıdır. Antik dünya onu bilmirdi, bu səbəbdən kimsə yazısında özünə “Dionisi Ariopaqit” adını götürürdü, kimlərsə qondarma Platon dialoqları yazırdı.

Post-strukturalistlər avtoritetlərdən sitat gətirmək adətinə müqavimət göstərirdi və “müəllif teksti” adlanan mədəniyyət faktının kultuna qarşı çıxırdılar. Ona görə də, məsələn, Derrida tez-tez öz adından danışmadan fəlsəfi fikirlər söyləyirdi. O kommentarilərində başqalarını “kefi istədiyi” şəkildə danışdırırdı. Bu səbəbdən də belə bir fikir yaranırdı: əgər Hussurl, Haydeger Derridanın dili ilə danışırsa, tekstin onlara mənsub olduğunu vurğulamağa nə ehtiyac?! [2.c.419]. Əlbəttə, post-strukturalist yazılarda Marksın, Hegelin, Freydin, Haydager kimi məşhurların adlarına tez-tez rast gəlmək olar. Sözsüz buna səbəblərdən biri onların diskurslarıdır ki, post-strukturalistlərə cürbəcür şərhlər verməyə imkan yaradır. Ancaq bu şərhlərin klassik kommentarilərdən bir prinsipial fərqi var. Akvinalı Foma, əl-Fərabi şərhlərlə Aristotelin fikirlərinin əsl məzmununu açmağa çalışırdılar. Bu zaman kommentatorların şərhlərinin pafosunda kommentari olunan filosofların şəxsiyyətinə heyranlıq və sevgi mütləq tələb olunan göstərici idi. Heyranlıq heyran olunanı bütə, mərkəzə çevirir. Əgər kiməsə həsr olunmuş essedə, məqalədə heyranlıq varsa, bütün tekst boyu bu heyranlığı, sevgini əsaslandıran sübutlar vermək lazım gəlir. Beləcə, bu kimsə mərkəzə çevrilərək bütün teksti diktə edir. Bax, bu səbəblərə görə post-strukturalistlər Freyddən, Husserldən, Haydegerdən danışmalı olurdularsa, heyranlığın dilində danışmırdılar. Derrida, məsələn, Freydin “Ləzzət prinsipindən o tayda” əsəri haqqında yazırdı ki, bu tekstin gedişi iblisanədir. Tekst özünü elə göstərir ki, guya addımlayır. Lakin o, elə hey yerindən tərpənmədən addımlayır, hər dəfə addım atdığını göstərir, ancaq, əslində, yerində sayır. Derrida, beləcə, Freydin əsərini dekosntruksiya etməyin sayəsidə orada fikir, intellektual axtarışın olmadığını, amma bu axtarışın iblisanə görüntüsünün olduğunu söyləyirdi. Başqa yerdə isə həmin mətnlə bağlı müəllif çərənçiliyindən danışırdı [2.c.435]. Nəzərə almalıyıq ki, Derrida Freydin tərcüməçisi kimi onun yaradıcılığı ilə sıx bağlı adam idi.

Post-strukturalistlərin müəllifə qarşı başqa arqumenti belə idi: əgər tekst yalnız onun oxunuşu məqamında danışırsa və oxunuşun ondan ala bildiyini danışırsa, deməli, müəllif boş abstraksiyadır [3.c.317]. Müəllif haqqında bu yanaşmanın epistemoloji imkanlar daşıdığını

Azərbaycan mədəniyyətşünaslığında iki yazı nümayiş etdirmişdi. Onlardan birində professor Niyazi Mehdi müəllifin dekonstruksiyası fikrinə mədəniyyətdə dərinlik paradiqmasının inkarından gəlib çıxmışdı. O göstərmişdi ki, mədəniyyətdə dərinlik paradiqması güclü olduğu üçün hər tekst sandıq prinsipində qavranılır. İncəsənətdə bu ona gətirib çıxarır ki, sənət əsəri sonsuz mənaların daşıyıcısı (sandığı) sayılır və uyğun olaraq sənətkar bu sonsuz mənaları həmin sandığa yığmış müəllif kimi qavranılır (təsadüfi deyil ki, "avtor" sözünün latınca ilkin mənası "toplayan"dır). Halbuki sənət əsərində metrə ilə ölçülən dərinlik yoxdur. Tekstin işarələri resipientin şüurunda mənalar törədir, yəni bu mənalar mətnin dərinliyindən ora gəlmir. Bildirən ("siqnifikat", rusca "означающее") tekstdəki sözün eşidilən, görünən maddi forması kimi yaradanın və qavrayanın şüurundan qıraqdadır. Həmin bildirilənlərin mənaları isə öncə müəllifin şüurunda olur. Sonra həmin mənaları bildirənlər tekstdə yaradılır və bunlar qavrayanın şüurunda mənalar törədir. Beləcə, dərin mənalar tekstdə yox, adamların qafasında olur. Özü də qafadan asılı olaraq mənaların, məzmunun dərinliyi dəyişir. Bu anlamda Quranın dərinliyi insanların qafasında olub və olur. Cahiliyyə dövründən təzəcə qopmuş müsəlmanların qafasında Quranın dərinliyi yüzillər sonrakı təfsirçilərin qafasından xeyli dayaz olub. Bu mənada heç bir kitabın dərinliyi və dayazlığı kitabda deyil də kitabı yazan və oxuyanın başındadır.

Niyazi Mehdi müəlliflə bağlı başqa sual da qoyur: mümkündürmü ki, əsərdən yüzərlə şərhlər, araşdırmalar vasitəsi ilə toplanılan mənalar, məzmunlar hamısı müəllif tərəfindən ora qoyulub? Adətən, bu sualın cavabında müəllifin dərinliyi ilə əsərin dərinliyini sübut etmək istəyirlər. Beləcə, həm "Müəllif", həm "Dərinlik" konseptləri gerçək halı göstərən anlayışlar kimi açılır. Ancaq Niyazi Mehdi post-strukturalistlərin təsiri ilə müəllif və tekstin dərinliyi ideyalarını dekonstruksiya edəndə belə bir absurd fikri dağıdır ki, guya Şekspir haqqında yazılmış araşdırmaların tapdığı bütün mənaları Şekspirin "başı" ora qoymuşdu. Şekspir bu qədər mənaları nəzərdə tutduğu üçün dahi deyil, çünki belə dahilik mümkün deyil. O, yeni musiqi alətinin ixtiraçısı kimi dahidir. Hər böyük sənətçi öz "musiqi alətini" ixtira edir, hər dövrün adamları isə bu alətdə onlara gərəkən musiqini çalırlar. Yəni müəllif əsərə musiqi alətinin, məsələn, dilləri prinsipində müəyyən mənalar düzür. Sonrakı şərhçilər isə həmin dillərdə öz musiqilərini, yəni yeni məzmunu düzüb qoşurlar [5.s.14-15].

Dərinlik haqqında xüsüsi hazırladığı yazıda Niyazi Mehdi bu faktın reallığını fəlsəfə əsasında təkzib edəndən sonra Azərbaycan ədəbiyyatında müəllifliyin gizlədilməsi ("öldürülməsi") hallarına örnəklər tapır və bunun şərhini verir. Məsələn, "Danabaş kəndinin əhvalatları"nda əhvalatı söyləyən qəzetçi Xəlil onu lağlağı Sadığın dilindən yazır. Beləcə, müəlliflik dolambaca düşür və oxucunu Mirzə Cəlilin şəxsindən azdırır [6.s.55-67].

Post-strukturalizmdə tekstlərlə bağlı "dərinlik" parametrlərindən imtina olunmasına imkan verən başqa konsept "intertekst"dir. Çağdaş araşdırmaların söykəndiyi başlanğıc odur ki, tekst təcrid olmuş şəkildə öyrənilə bilməz. Bu fikir, əslində, strukturalizmə qarşı idi, çünki o, tekstin daxili quruluşunu öyrənmək üçün onun dişarı əlaqələrinə baxmamağa çağırırdı. Post-strukturalizm isə söyləyirdi ki, hər hansı tekst başqa tekstlərin repertuarı, yəni bildirdikləri ilə sonsuz üsullarla əlaqələrə girir. Kitab təcrid olunmuş nəsnə deyil. O, münasibətlər kilimində öz şəklini, simasını tapır. Hər tekst əslində interteksdir və exo-kamera kimi başqa tekslərə hay verir. Tanınmış feminist və post-strukturalist alim, əslində, "intertekstuallıq" terminini elmə gətirmiş Yuliya Kristeva isə bu fikri belə təqdim etmişdi: istənilən tekst başqa tekstlərin mozaikası kimi qurulur və ya başqa tekstləri özünə hopdurub transformasiya edir.

Rolan Bart intertekstliyi konkret şəkildə açmaq üçün söyləmişdi ki, istənilən tekst əvvəllər deyilmiş sitatların yeni düzümüdür. Hind tədqiqatçısı Kunu Rama yazır ki, çağımızda avtomatik olaraq intertekstual olan tekstlər elə də maraq doğurmur. Araşdırma üçün maraqlıdır refleksiya edən, özünüdüşünən, özünə kinayə edən, özünüparodiya edən intertekstuallıq [4.p.1-2].

Kundu Ramanın kitabında elə fikirlər də var ki, post-strukturalist deyimlərin (diskursların) təbiətini yaxşı açır. O söyləyir ki, post-kolonial yazarların tekstləri kolonial, imperialist diskurslarla dialoqa girir, feminist tekstlər patriarxal diskurslarla dialoqda bulunurlar. Bunun mənası odur ki, müstəmləkə sonrası ədəbiyyyatlarda imperialist iddialı deyimlərlə, feministlərdə isə patriarxal düşüncələrlə polemika var və bu, onların intertekstuallıqlarının bir aspekti idi. Daha sonra müəllif

mütəxəsislərin fikrini gətirir: postkolonial toplumlarda sənət, ədəbiyyat, fəlsəfə heç cürə Avropa modelinin sadə davamı olmadı. Ədəbi dekolonilizasiya Avropa kodunun tam demontajı oldu [4.s.2-3,9,21].

Post-struktralizmin mütəhərriklik, çevik dəyişkənlik, cürbəcürlük üstündə qurulmuş söyləmləri subyekt konseptinin dekonstruksiyasından xüsusi enerji alır. Onların fikrincə subyektin nə fiziki, nə sosial gerçəklikdə kökü var. Ona görə də onu haraya yapışdırıb təyin etmək istəsən, orada tapılmır, bulunmur. Bu subyekt davamlı olaraq mövqedən mövqeyə köç edir, ona görə də post-strukturalist subyekt köçəridir. Onu da deməliyik ki, Post-strukturalislər heç də söyləmirlər ki, subyket yoxdur. Söyləyirlər ki, subyekt törətdiyi mənalardır və həmişə yerini dəyişir. Marks insanı konkret sosial münasibətlərin məcmuyi adlandıraraq onun şəxsiyyətini sosial əlaqələrin düyünü kimi verirdi [8.c.32]. Bu yanaşma strukturalizmdə fonemlərin binar qarşıdurumlardan yaranan əlamətlərin düyünü adlandırılmasına çox oxşayırdı. Sadəcə, Marksda sistem duyğusu olsa da, sosial münaisbətləri o, maddi "bağlar" kimi görürdü.

Post-sturkturalistlərə qədər bu və ya başqa stabillikdə görünən subyekt konseptində ən ciddi dəbərtməni öncə psixoanaliz, sonra Sartr ekzistensializmi salmışdı. Fransız filosofu demişdi ki, insanı öz mahiyyətini reallaşdıran varlıq kimi götürmək düz deyil. Mahiyyəti, beləcə, varlıqdan, olmaqdan ayırmağı Sartr ona oxşatmışdı ki, usta başındakı masa təsəvvürü əsasında masa düzəldir. İnsan belə deyil. Sartr söyləmişdi ki, insan yaşadığında seçdiyi davranışlardan, eyləmlərdən öz portretini, mahiyyətini yaradır. İnsan həmişə seçim qarşısında, yəni seçimi ilə şəxsiyətini qurmaq problemi qarşısındadır [1.c.216].

Post-strukturalistlər isə insan, subyekt məsələsində daha çox relyativizmə, nisbiliyə yol verərək göstərdilər ki, subyekti portret çərçivəsinə salmaq mümkün deyil. Bu ideyanın əsasında post-strukturalistlərin nomadiklik anlayışı dururdu. "Nomadik" köçəriliyə xas olan deməkdir. Avropa mədəniyyəti və elmi uzun müddət köçərilərə sivilizasiya dağıdan, oturaqlara isə sivilizasiya quran kimi baxırdılar. Türklərə mənfi sifətlərin verilməsi də köçəri xalq olmalarından çıxarılırdı. Post-strukturalistlər birdən-birə düşüncədə və mədəniyyətdə oturaq, stabil fakta üstün dəyər verilməsinə qarşı çıxaraq nomadikliyi reablitə etdilər.

Subyektin nomadik konsepsiyası post-strukturalistlərdə inqilabi xarakter daşıyırdı. Onların əqidəsinə görə, istənilən "oturaq" (oturuşmuş?) subyektivlik şovinistk xarakter alır. Post-strkturalistlərə görə, Avropa dünyasının mərkəzi kimi oturaq subyektivliyin götürülməsinin nəticələrindəndir ki, Avropa köçərilərə, avaralara nifrət edir. Bütünlükdə post-strukturalizm istənilən oturaqlığa, həm sosial, həm şüur müstəvisində şübhə ilə yanaşır. Onu da deyək ki, nomadik anlayışlar Lakanın sürüşkən bildiricilərinə çox oxşayır. Lakana görə, insan sürüşkən bildiricilər aləminə düşəndə onun sözləri, cümlələri heç vaxt özlərinə stabil bildirilən, denotat tapmır və bu axırda paranoidal sayıqlamalara gətirib çıxarır[3.c.323].

Beləliklə, bu nəticəyə gəlmək olur ki, post-strukturalizm dərin tekst anlayışını dekonstruksiya edəndən sonra mətnin içindən mənalar çıxarmağı mətnin başqa mətnlərlə "baxışmasından" mənalar çıxarmaqla əvəz edir. Ona görə də intertekstuallığı önə çəkir. Mənalar tekstin içində yox, tekstin başqa tekslərlə münasibətləri müstəvisindədir.

## ƏDƏBİYYAT


1. Андреев Л. Жан-Поль Сартр, свободное сознание и XX век, Geleos Publishing House, 2004, 416 с.,с.216.
2. Деррида Жак, О почтовой открытке. От Сократа до Фрейда и не только, Минск: Современный литератор, 1999, 831 с., с.419, 435.
3. Дьяков А.В. Философия пост-структурализма во Франции, Нью Йорк, Северный крест, 2008, 364 с., с.317.
4.Kundu Rama. Intertext, A Study of dialogue between texts, New Delhi: Sarup&Sons, 2008, 448 p., p.1-2.
5.Niyazi Mehdi, Sənətin arxeologiyası, Sənətin arxitektonikası, B.: Qanun, 2007, 342 s., s.14-15

6. Niyazi Mehdi. Dərinlik strukturlarının qovulması, mədəniyyət və sənətdə dayazlıq biçimi// Tənqid.net. №4, Bakı, 2007, s. 55-67.
7. Ортега-и-Гассет Х.. Дегуманизация искусства, Перевод С. Л. Воробьева, 1991, 638 с., OCR:С.Петров
8. Плеханов Г. Основне вопросы марксизма, Риппол Классик, 2013, 190 с., с.32.

**ABSTRACT**

**Khaladdin Sophiyev**

**ABOUT CULTUROLOGICAL PARADIGMS OF POST-STRUCTURALISM**

Basis of our contemporary researches is that a text can`t be explored in izolated form. Indeed this idea was against structuralism because in order to learn internal structure of a text it called not to look at its external relations. But post-structuralism said that any text creates relations with repertoire of other ones by numerous relations.

After deconstructing a deep meaning of the text, post-structuralism replaces revealing of meanings in the text by revealing meanings in shareing of the text with other ones. That`s why it puts to the forefront intertextuality. Meanings are not in the text itself, but in the relation of the text with other ones.

**РЕЗЮМЕ**

**Халаддин Софиев**

**О КУЛЬТУРОЛОГИЧЕСКИХ ПАРАДИГМАХ ПОСТ-СТРУКТУРАЛИЗМА**

Основой современных исследований является то, что текст не может быть изучен в изоляционной форме. На самом деле эта идея противоречила структурализму, так как для изучения внутреннего строения текста она призывала не взирать не его внешние связи. А пост-структурализм говорил о том, что любой текст посредством бесконечных методов вступает в связь с репертуаром других текстов.

После деконструирования глубокого значения текста, пост-структурализм заменяет выявление значений из текста на выявление значений из “обмена” текста с другими текстами. Поэтому он выдвигает не передний план интертекстуальность. Значения находятся не внутри текста, а в связях текста с другими текстами.

NDU-nun Elmi Şurasının 19 oktyabr 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 02).
Məqaləni çapa təqdim etdi: Fəlsəfə üzrə elmlər doktoru, professor M.Rzayev

**SAMİRƏ MƏMMƏDOVA**
*Sumqayıt Dövlət Universiteti*

**UOT: 327.2; 94(479.24)**

# AZƏRBAYCAN - İSRAİL MÜNASİBƏTLƏRİ VƏ ABŞ (1991-2008-Cİ İLLƏR)

**Açar sözlər:** *Azərbaycan, İsrail, ABŞ, siyasi, münasibətlər*
**Key words**: *Azerbaijan, Israel, USA, political, relations*
**Ключевые слова:** *Азербайджан, Израиль, США, политический, отношения*

Azərbaycan Respublikasının dövlət müstəqilliyi bərpa edildikdən sonra İsrail Dövləti ilə müxtəlif sahələrdə qarşılıqlı münasibətlərin qurulması üçün ilk addımlar atıldı. Belə münasibətlərin istiqamətlərindən biri siyasi əlaqələr olmuşdur. İsrail Dövləti Azərbaycan Respublikasının dövlət müstəqilliyini 25 dekabr 1991-ci il tarixində tanıdı. Azərbaycanın dövlət müstəqilliyi bərpa edildikdən sonra iki ölkə arasında birbaşa əlaqələr quruldu.

1992-ci il aprelin 5-7-də İsrail nümayəndə heyətinin Azərbaycana səfəri zamanı iki ölkə arasında diplomatik münasibətlərin qurulması əlaqələrin inkişafında əsaslı rol oynadı [5].

Azərbaycan Respublikası və İsrail Dövləti arasında qarşılıqlı münasibətlərdə yeni dövr Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə ikinci dəfə hakimiyyətə gəlməsindən sonra başlamışdır. Heydər Əliyev hakimiyyətə gəldikdən bir neçə ay sonra, 1993-cü ilin avqust ayında Azərbaycan Respublikasında İsrail Dövlətinin səfirliyi fəaliyyətə başladı [1].

1995-ci il martın 9-da İsrailin səhiyyə naziri Efrahim Sneh Azərbaycana səfər etdi. O, Azərbaycan Respublikasına gəlmiş ilk İsrail naziri oldu. E.Snehi Prezident Heydər Əliyev və digər rəsmi şəxslər qəbul etdilər. Görüşlərdə əməkdaşlığın genişləndirilməsi istiqamətində geniş müzakirələr aparıldı [1].

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının İsraildə səfirlik açmasına mane olan həssas amillərdən biri Yaxın və Orta Şərq regionundakı şəraitlə əlaqədar idi. ABŞ və dünyadakı yəhudi lobbisi ilə əlaqələrin inkişafı nöqteyi-nəzərindən İsrail Dövlətində səfirliyin açılması nə qədər maraqlı olsa da, müsəlman Şərqi, xüsusən ərəb dünyası ilə münasibətlərə xələl gətirə biləcəyi üçün Azərbaycan tərəfi bir qədər ehtiyatlı davranırdı. Ona görə də bu ölkə ilə diplomatik əlaqələr 1992-ci ildən qurulsa da, münasibətlər 1998-ci ilə qədər çox zəif olmuşdur [6, 413].

Məhz bütün ölkələrlə münasibətlər yaradılmasında müxtəlif amillər, şərait və xüsusiyyətləri nəzərə alan Heydər Əliyev xarici siyasətinin həyata keçirilməsinin nəticəsi olaraq Azərbaycan hazırda dünyanın əksər ölkələri ilə diplomatik beynəlxalq əməkdaşlıq edir. Azərbaycan Amerikanın, Avropanın, Asiya və Afrikanın bir sıra ölkələrinin maraq obyektinə çevrilmişdir [7, səh.344-345].

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1995-ci il oktyabrın 22-də Nyu Yorkda İsrailin Baş Naziri İshak Rabin ilə görüşü ikitərəfli münasibətləri inkişaf etdirmək baxımından faydalı oldu. Baş nazir İsrailin yeni müstəqil dövlətlərlə, o cümlədən Azərbaycan Respublikası ilə sıx əlaqələr qurmağa maraq göstərdiyini xüsusi vurğuladı. Vurğulandı ki, Azərbaycan və İsrail arasında qarşılıqlı münasibətlərin inkişaf etdirməsi üçün geniş imkanlar vardır [2].

Sonrakı illərdə də ikitərəfli münasibətlərin inkişaf etdirilməsinə dair məsələlər müxtəlif səviyyəli görüşlərdə müzakirə edildi. Bu baxımdan Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Parisə səfəri zamanı 1996-cı il yanvarın 11-də İsrail Dövlətinin Baş Naziri Şimon Peres ilə görüşü faydalı oldu. Heydər Əliyev İsrailin keçmiş Baş Naziri mərhum İshak Rabinin terror aktı nəticəsində qətlə yetirilməsindən kədərləndiyini bildirdi və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verdi. Dedi ki, mühüm işləri olduğuna görə dəfn mərasimində özü iştirak edə bilməsə də, Azərbaycan Respublikasının Baş Nazirini həmin vaxt İsrailə göndərmişdir. Şimon Peres bildirdi ki, o, ABŞ Prezidenti Bill Klinton və dövlət katibi Uilyam Kristofer ilə keçirdiyi görüşlər, apardığı

danışıqlar zamanı konqresin Azərbaycana qarşı tətbiq etdiyi "Azadlığı müdafiə haqqında akt"a edilən 907-ci düzəlişin aradan qaldırılması zərurətini və yardım göstərilməsinin vacibliyini, Ermənistan – Azərbaycan münaqişəsinin dinc yolla həllində dünya birliyinin rolunun əhəmiyyətini onlara çatdırmışdır [3].

ABŞ Prezidenti Bill Klintonun dəvəti ilə 1997-ci ilin iyul-avqust aylarında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev bu ölkədə rəsmi səfərdə olarkən Amerika Birləşmiş Ştatlarında yaşayan Yəhudi İcmalarının Prezidentləri Konfransı Təşkilatının nümayəndələri ilə görüş xüsusi yer tutdu. Nyu Yorkda "Qrand Hyatt" otelində ABŞ-dakı Yəhudi İcmalarının Prezidentlərinin Konfransı Təskilatı adından Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin şərəfinə rəsmi qəbul təşkil olundu. Qəbulda Nyu York Şəhər Şurası adından yəhudi icmalarının ən aparıcı liderlərindən biri Piter Vilon yəhudilərin və Azərbaycan xalqının dostluğundan söhbət açdı, Azərbaycanın haqq işini dəstəklədiklərini bildirdi [8, X kit., 68]. Heydər Əliyev isə iki xalq arasında münasibətlərdən danışarkən dedi : "Azərbaycan xalqı böyük və zəngin tarixə və çox qədim mədəniyyətə, ənənələrə malik bir xalqdır, ölkədir. Ölkəmizdə azərbaycanlılarla yanaşı, bir çox digər millətlərin nümayəndələri də yaşayırlar. Azərbaycan həmişə çoxmillətli bir ölkə olubdur, bu gün də çoxmillətli bir ölkədir. Biz bunu ölkəmizin üstünlüyü hesab edirik. Biz Azərbaycanı heç vaxt təkmillətli bir dövlətə çevirmək fikrində olmamışıq. Ona görə də Azərbaycanda yaşayan insanlar milliyyətindən asılı olmayaraq həmişə bərabərhüquqlu olmuşlar. Azərbaycanda bu gün də bütün başqa millətlərə məxsus olan, yaşayan insanlar da respublikamızın vətəndaşlarıdır və ölkəmizdə eyni hüquqlara malikdirlər. Azərbaycanda yəhudilər də çox qədim dövrdən indiyədək yaşamışlar və yaşayırlar. Onlar Azərbaycanın vətəndaşlarıdır və Azərbaycan onlar üçün doğma vətəndir" [8, X kit., 68].

Yəhudilərin Azərbaycanın ictimai-siyasi, iqtisadi həyatında iştirakına diqqəti cəlb edən Heydər Əliyev vurğulayırdı : "Bu gün sizə bildirmək istəyirəm ki, xalqımızın, Azərbaycanın milli mədəniyyətinin, iqtisadiyyatının, səhiyyəsinin inkişafında yəhudi millətinə mənsub Azərbaycan vətəndaşlarının xidməti çox olmuşdur. XIX əsrin ikinci yarısında, XX əsrin əvvəlindən indiyədək Azərbaycanın elmində, mədəniyyətində, iqtisadiyyatında, ali təhsilində xidmət göstərən insanların fəaliyyətini biz xüsusi qeyd edirik. Onlar Azərbaycan xalqının həyatına çox böyük faydalar vermişlər. Onlar bizim üçün həmişə əzizdirlər. Yəhudi millətindən olan böyük alimlər, mədəniyyət, musiqi xadimləri, həkimlər, səhiyyə sahəsində çalışan böyük insanlar Azərbaycanda çox olmuşlar, onlar həmişə xalqımızın hörmət və ehtiramını qazanmışlar" [8, X kit., 69].

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev son illər yəhudi millətindən olan Azərbaycan vətəndaşlarının bir qisminin başqa ölkələrə, o cümlədən İsrailə, Amerika Birləşmiş Ştatlarına və digər yerlərə getməsi məsələsinə də toxunaraq dedi : "…biz bilirik ki, onlar Azərbaycanı heç vaxt unutmamışlar, vaxtaşırı respublikamıza gəlirlər, xalqımızın ənənələrini o ölkələrdə yayırlar, təbliğ edirlər. Hiss edirik ki, onlar çox zaman Azərbaycan üçün darıxırlar. Mən bilirəm ki, İsraildə respublikamızdan getmiş Azərbaycan vətəndaşları – yəhudilər böyük bir Azərbaycan icması təşkil ediblər. Hətta orada Bakı adını daşıyan küçələr, restoranlar və Bakının, Azərbaycanın adını daşıyan çox gözəl müəssisələr vardır. Bildirmək istəyirəm ki, Azərbaycanın çox böyük, maraqlı sərvətləri vardır. Onlardan biri də dadlı yeməkləridir. Azərbaycandan getmiş yəhudilər bu yeməkləri başqa ölkələrdə, xüsusən İsraildə çox geniş təbliğ edirlər…" [8, X kit., 69].

Çıxışında İsrail ilə əlaqələrin perspektivinə toxunan Heydər Əliyev vurğulayırdı : "Azərbaycan ilə İsrail arasında əlaqələr dostluq əlaqələridir. Biz bu əlaqələri gündən-günə inkişaf etdiririk. Mən bu son illərdə, qısa müddətdə İsrailin keçmiş Baş Naziri mərhum İshak Rabinlə, keçmiş Baş Naziri Şimon Pereslə görüşlər keçirmişəm, danışıqlar aparmışam. Keçən ilin dekabr ayında mən Lissabonda olarkən İsrailin indiki Baş Naziri cənab Netanyahu ilə görüşmüşəm. Biz onunla məktublaşırıq. Mən ona məktub göndərmişdim. Mən buraya gəlməmişdən bir neçə gün əvvəl o mənə məktub göndəribdir. Bu ölkənin həm Prezidenti, həm də Baş Naziri məni İsrailə dəvət ediblər. Mən bu dəvəti məmnuniyyətlə qəbul etmişəm və yaxın vaxtlarda həyata keçirəcəyəm. Hesab edirəm ki, İsrailin Azərbaycandakı səfirliyi çox yaxşı fəaliyyət göstərir. Onların Azərbaycanda işləmələri üçün hər cür şərait yaradılıbdır. Mən İsrailin respublikamızdakı səfiri ilə dəfələrlə görüşmüşəm, lazım olan vaxtlarda onu qəbul edirəm.....Amerika Birləşmiş Ştatlarında

Yəhudi Təşkilatları Prezidentləri Konfransı Təşkilatını mən çox əhəmiyyətli bir təşkilat kimi yüksək qiymətləndirirəm. Bilirəm ki, bu konfrans, icmalar Amerikada böyük nüfuza malikdir. Onlar çox gərəkli işlər görürlər, böyük imkanlara malikdirlər. Hesab edirəm ki, Azərbaycan ilə Amerikadakı Yəhudi İcmaları Prezidentləri Konfransı Təşkilatı arasında əlaqələr yaranır. Mən bu əlaqələrin bundan sonra da davam etməsinin tərəfdarıyam. Güman edirəm ki, biz yaxşı əməkdaşlıq edə bilərik" [8, X kit., 72].

Azərbaycan Respublikasının Prezidenti Ermənistan ilə atəşkəs və erməni lobbi məsələsindən danışarkən vurğulamışdır: "Atəşin dayandırılması haqqında üç il bundan əvvəl saziş imzalanıbdır. Üç ildir ki, sülh, yəni atəşkəs var. Biz daimi sülh əldə etmək üçün danışıqlar aparırıq. Mən ümid edirəm ki, biz məsələnin sülh yolu ilə həllinə nail olacağıq…. Bizim belə dostlarımız artdıqca Amerika Birləşmiş Ştatlarında Azərbaycana qarşı ədalətsizlik edən erməni diasporunun da qarşısını ala bilərik. Bizim Amerikada lobbimiz yoxdur. Amma ermənilərin çox güclü lobbisi vardır... Amma bizim burada lobbimiz olacaqdır. Bizim lobbimiz dostlarımız olacaq, o cümlədən Amerika Birləşmiş Ştatlarındakı yəhudi icmaları, sizlər bizim lobbimiz olacaqsınız. Mən buna çox ümid bəsləyirəm. Güman edirəm ki, siz mənim bu fikirlərimlə razı olarsınız…" [8, X kit., 74].

Görüşdə ikitərəfli münasibətlərə toxunan Heydər Əliyev demişdir: "Azərbaycan sülhsevər ölkədir, xalqımız sülhsevər xalqdır. Azərbaycan çoxmillətli ölkədir və bütün millətlərin nümayəndələri burada bərabər hüquqlarla yaşayır və fəaliyyət göstərirlər. Azərbaycan bir çox əsrlər yəhudilər üçün də doğma vətən olubdur, yaşayış yeri olubdur. Yəhudilər azərbaycanlılarla birlikdə Azərbaycanda əsrlər boyu dostluq, mehribanlıq şəraitində yaşayıblar. Bu gün də yəhudilər Azərbaycanın tam bərabər hüquqlara malik vətəndaşlarıdır və Azərbaycan onlar uçün doğma vətəndir. Bunların hamısı bizim əməkdaşlığımız üçün yaxşı imkan yaradır. Mən hesab edirəm ki, bugünkü görüş İsrail – Azərbaycan əməkdaşlığı üçün yeni bir mərhələ açır. ...Amerika Birləşmiş Ştatlarına mənim bu yaxınlardakı rəsmi səfərim Azərbaycanla ABŞ arasındakı əlaqələrdə tarixi bir hadisə olmuşdur. Amerika Birləşmiş Ştatlarının Prezidenti və Azərbaycan Prezidenti ölkələrimiz arasında əməkdaşlığı, tərəfdaşlıq əlaqələrini inkişaf etdirmək üçün mühüm bir sənəd imzalamışlar. Biz bunu çox yüksək qiymətləndiririk. ABŞ kimi böyük bir ölkə, inkişaf etmiş ölkə ilə tərəfdaşlıq əlaqələri qurmağı və inkişaf etdirməyi özümüz üçün çox mühüm bir hadisə hesab edirik. Bizim Amerika ilə əməkdaşlığımızda İsrail – Azərbaycan əməkdaşlığının da çox mühüm əhəmiyyəti var" [8, XII kit., 111].

İsrail Dövlətinin Baş Naziri ölkəsinin Azərbaycan Respublikası ilə qarşılıqlı faydalı münasibətlərin inkişafına böyük əhəmiyyət verdiyini, siyasi, iqtisadi, ticarət, elm, təhsil, mədəniyyət, humanitar və digər sahələrdə əməkdaşlığın böyük potensialının olduğunu qeyd etdi. Onun fikrincə, tərəflər əlaqələri genişləndirmək üçün səylərini artıra bilərdilər.

Vaşinqton İnstitutunun tədqiqatlarına əsasən İsrail həmçinin Azərbaycana təhlükəsizlik və tədqiqat-təşviqat məsələlərində təcrübənin və hərbi-texnikanın çatdırılmasında mühüm rol oynayırdı. Bu ölkə Xəzər dənizi regionunda və İran sərhədində elektron qulaqasma qurğularının quraşdırılması məsələsində də faydalı ola bilərdi. Lakin Azərbaycan tərəfi İsrail ilə münasibətlərindən qonşusu olan İran İslam Respublikasına qarşı istifadə etmədi.

Artıq qeyd edildiyi kimi, İsrail Dövlətinin Baş Naziri Benjamin Netanyahunun 1997-ci ildə Bakıya səfərindən sonra iki ölkə arasında münasibətlər yeni mərhələyə qədəm qoydu. Məhz bu mərhələdə iki ölkə arasındakı münasibətlərin yaxşılaşması Azərbaycan silahlı qüvvələrinin modernləşməsinə təkan verdi. İsrail hərbi dairələri Azərbaycanı hərbi hava təyyarələri, artilleriya, antitank müdafiəsi ilə təmin etdi [9]. İsrail və Azərbaycan 100 milyon dollarlıq dəyərində hərbi müqavilə imzaladılar. Müqaviləyə uyğun olaraq bir çox İsrail firmaları bu işə cəlb olundular. İsrail hərbi sənayesi Azərbaycanı uzaqmənzilli raketlər və hərbi avadanlıqlarla təchiz etdi [10].

İsrail Dövləti Azərbaycanı ABŞ konqresi tərəfindən qəbul olunmuş 907-ci düzəlişin ləğvi məsələsində də dəstəkləmişdir [11].

Azərbaycan tərəfinin bu soyqırıma münasibəti 1999-cu il aprelin 22-də Heydər Əliyevin ABŞ-a rəsmi səfəri ərəfəsində Holokost muzeyindəki çıxışı zamanı bir daha bəyan edildi. Azərbaycan Respublikasının Prezidenti dedi: "Yəhudi xalqı tarix boyu çox böyük sınaqlarla üzləşmiş, ağır sınaqlardan keçərək öz qədim, zəngin mədəniyyətini, öz mənliyini qoruyub saxlaya bilmişdir.

Yəhudi xalqı tamamilə məhv etməyə çalışılsa da, buna nail olunmamışdır. Tarix sübut etmişdir ki, bu xalqı məhv etmək mümkün deyildir. Holokost muzeyi də yəhudilərin başına gələn bəlaları, müsibəti, faciəni əyani şəkildə sübut edən muzeydir və böyük əhəmiyyət kəsb edir. Yeganə nəticə ondan ibarətdir ki, bəşəriyyət bundan sonra heç yerdə heç bir xalqa qarşı soyqırıma yol verməməlidir. Dünya birliyi müharibə alovlarını söndürməli, münaqişələri ləğv etməli, dünyada sülhün, əmin-amanlığın yaranması üçün daha çox səylər göstərməlidir. Bunlar muzeyə baxarkən çıxarılan nəticədir" [8, XIX kit., 60-61].

Münasibətlərin inkişafında növbəti addım 1999-cu il iyul ayının 14-də Heydər Əliyevin ABŞ-ın Yəhudi Təşkilatlarının nümayəndə heyəti ilə görüşündə atıldı. Görüşdə iki xalq arasında dostluq əlaqələri və birgə fəaliyyət məsələləri müzakirə edildi. Mövcud əlaqələrdən danışan Azərbaycan Respublikasının Prezidenti dedi : "Amerika Birləşmiş Ştatlarında yaşayan yəhudilərin təşkilatları ilə biz artıq yaxşı dostluq əlaqələri yaratmışıq. Şübhəsiz ki, bu dostluq əlaqələri hər iki tərəfin arzusu və istəyi ilə olubdur". Heydər Əliyev daha sonra 1997-ci ildə ABŞ-a rəsmi səfəri barədə məlumat verərək demişdir : "Mən Amerika Birləşmiş Ştatlarında 1997-ci ildə rəsmi səfərdə olarkən Yəhudi Təşkilatları Konfranslarının prezidentləri ilə Nyu Yorkda çox əhəmiyyətli bir görüş keçirdim. Mən bu ilin aprel ayında Vaşinqtonda olarkən Holokost muzeyini ziyarət etdim, orada da görüşlər keçirdim. Yəhudi təşkilatlarının nümayəndələri də vaxtaşırı olaraq Azərbaycana gəlirlər. Mən bunu birinci növbədə Azərbaycan – ABŞ əlaqələrini, Azərbaycan – İsrail əlaqələrini daha da genişləndirmək və bununla bərabər, yəhudi təşkilatları ilə daha sıx əməkdaşlıq etmək üçün çox əhəmiyyətli hesab edirəm" [8, XXI, 24].

Amerika Yəhudi Komitəsinin hökumət və beynəlxalq məsələlər üzrə müdir müavini Barri Geykobs nümayəndə heyətinin Azərbaycana səfərinin məqsədini aşağıdakı kimi açıqladı : "Əlbəttə ki, bizim Azərbaycana səfərimiz bir növ rəmzi xarakter daşıyır. Bu səfər Amerika Birləşmiş Ştatlarındakı yəhudi komitəsi ilə Azərbaycan arasında dostluğun nə qədər möhkəm olduğunu göstərir. Bu, eyni zamanda Azərbaycan ilə İsrail arasında sağlam, isti münasibətlər olduğunu göstərir. Səfərimizin digər məqsədi isə Azərbaycanda yaşayan həmmillətlərimizi – yəhudiləri görməkdir. Biz eşitmişik ki, Azərbaycanda yaşayan yəhudi icmasına çox geniş azadlıqlar verilibdir. Onlar respublikanın digər vətəndaşları ilə bərabər vəziyyətdə yaşayırlar. Biz indi bunun hamısını öz gözlərimizlə gördük" [8, XXI kit., 25].

Heydər Əliyev Ermənistan – Azərbaycan və Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində dost yəhudi xalqına arxalandığını bildirərək vurğuladı : "Biz çox çətin bir vəziyyətdəyik və böyük problemlərlə rastlaşaraq münaqişənin sülh yolu ilə həll olunmasına çalışırıq. Mən Amerikada da, Azərbaycanda da keçirdiyim görüşlərdə yəhudi təşkilatlarının nümayəndələrinə üz tutaraq demişəm ki, Amerikada sizin imkanlarınız çoxdur, ədalətin bərpa olunması üçün Azərbaycana yardım edin. Bu sözləri sizə də deyirəm…. Amerika Birləşmiş Ştatlarında yəhudi təşkilatlarının təsiri böyükdür. Biz çox arzu edərdik ki, siz öz təsirinizdən bu istiqamətdə də istifadə edəsiniz" [8, XXI kit., 26].

Bu məsələlərdə yəhudi təşkilatlarının mövqeyi aydın idi. Bununla bağlı olaraq Barri Geykobs dedi : "...bütün yəhudi təşkilatları, xüsusilə nümayəndələri bugünkü görüşdə iştirak edən yəhudi təşkilatları – Amerika Yəhudi Komitəsi və sovet yəhudiləri ilə iş üzrə Milli Konfrans Təşkilatı Vaşinqtonda çox möhkəm çalışırıq ki, Azərbaycanı dəstəkləyək" [8, XXI kit., 27].

Qeyd etmək lazımdır ki, komitə üzvləri Cənubi Qafqazın hər üç ölkəsinə səfər etmiş və müşahidələri yerində aparmışdılar. Onların fikrincə, Azərbaycanda yəhudilərə bəslənən münasibət rəğbət yaradırdı. Yəhudi nur və sevinc bayramı olan Hanuka mərasimində iştirak etmək üçün İsrail Dövləti Müdafiə Nazirinin müavini, Azərbaycan – İsrail – ABŞ üçtərəfli Parlamentlərarası Komissiyanın İsrail tərəfindən sədri E.Snehin başçılığı altında nümayəndə heyəti 1999-cu il 3-5 dekabr tarixlərində Azərbaycanda səfərdə oldu. Nümayəndə heyətinə İsrail Dövləti XİN MDB ölkələri idarəsinin rəisi Ş.Meyrom, müdafiə Nazirliyi MDB ölkələri idarəsinin rəisi Y.Laor və E.Snehin şəxsi katibliyinin rəisi xanım B.Erman daxil idilər. Səfər zamanı nümayəndə heyəti Azərbaycan Respublikasının Prezidenti, Baş Nazir, xarici işlər naziri, müdafiə nazirini birinci müavini, baş qərargahın rəisi, Milli Məclisin beynəlxalq münasibətlər üzrə Daimi Komissiyasının sədri və ARDNŞ-ın birinci vitse-prezidenti ilə görüşdü. Görüşlərdə aşağıdakı məsələlər müzakirə edildi: Cənubi Qafqazda olduğu kimi, Yaxın Şərq regionunda da münaqişələrin sülh yolu ilə həll

olunması; Dağlıq Qarabağ münaqişəsinin tarixi və bugünkü vəziyyəti; Cənubi Qafqaz regionu ölkələrində son zamanlardakı vəziyyət; Azərbaycan Respublikası Prezidentinin və xarici işlər nazirinin İsrailə səfərlərinin həyata keçirilməsi və İsraildə Azərbaycan Respublikasının səfirliyinin açılması; Azərbaycanın ABŞ-ın beynəlxalq yəhudi təşkilatlarının nümayəndələri ilə əlaqələri və Azadlığa müdafiə aktına 907-ci düzəlişin ləğv olunması; İsrail dövlətinin də faydalana biləcəyi Bakı – Ceyhan əsas ixrac neft boru kəmərinin tikintisi; Binə hava limanında İsrailin Maqal şirkəti tərəfindən qurulacaq təhlükəsizlik kəməri [12; 31].

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 1999-cu il dekabrın 4-də Prezident sarayında İsrail dövlətinin müdafiə nazirinin müavini, ABŞ – İsrail – Azərbaycan parlamentlərarası birgə qrupunun İsrail tərəfdən həmsədri E.Snehin başçılıq etdiyi nüumayəndə heyətini qəbul etdi.

2000-ci ilin sentyabrında ABŞ-a rəsmi səfər edən Heydər Əliyev həmin ölkədə onun üçün ayrılmış iqamətgahda Amerikanın nüfuzlu yəhudi təşkilatlarının – Yəhudi Komitəsinin, Prezidentlər Komitəsinin, Sovet Yəhudiləri Milli Komitəsinin rəhbərləri ilə də görüş keçirdi. Heydər Əliyev qeyd olunan təşkilatlarla Azərbaycanın saxladığı dostluq münasibətinə toxunaraq demişdir : "Bizim sizinlə dostluğumuz xüsusi xarakter daşıyır. Çünki biz sizin təşkilatların və hər bir şəxsin simasında Azərbaycanın dünyada, o cümlədən Amerika Birləşmiş Ştatlarında yaxın dostunu görürük. İstəyirəm ki, bizim bu dostluğumuz həmişə etibarlı olsun və davam etsin. Bizim buna ehtiyacımız var. Amma güman edirəm ki, siz də, dünyanın yəhudi təşkilatları, xüsusən Amerika Birləşmiş Ştatlarındakı yəhudi icması, əlbəttə ki, Azərbaycan ilə həmişə maraqlanmısınız və bundan sonra da maraqlanacaqsınız" [8, XXX kit., 23].

Görüşdə Amerika Yəhudi Komitəsi İcraiyyə Komitəsinin və Qubernatorlar Kollegiyasının rəhbəri Rozenblatt Piter yəhudilərin Azərbaycan ilə ABŞ arasındakı münasibətlərin əhəmiyyətli və vacib olduğunu, Azərbaycanda Birləşmiş Ştatların maraqlarının olduğunu, ABŞ – Azərbaycan – İsrail münasibətlərinin inkişaf etdirilməsi bu üç ölkənin bölüşdüyü ümumi məqsədlərə çatmaq üçün çox böyük əhəmiyyət daşıdığını vurğuladı [8, XXX kit., 27].

ABŞ-da 2001-ci il 11 sentyabr terror aktları Azərbaycan – İsrail siyasi münasibətlərinə də təsir etdi. Qarşılıqlı məsləhətləşmələrin intensivləşdirilməsi zərurəti yarandı. Az sonra İsrail Dövləti Azərbaycana yeni səfirini təyin etdi.

İlham Əliyev 2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra da İsrail ilə münasibətlərin inkişafı diqqət mərkəzində saxlanıldı. Azərbaycan Prezidenti İlham Əliyev 2004-cü il martın 18-də Slovakiyanın paytaxtında, onun üçün ayrılmış iqamətgahda ABŞ-ın Yəhudi Komitəsinin beynəlxalq yəhudi işləri üzrə direktoru Endryu Beyker və Beynəlxalq Benayit Brith Təşkilatının vitse-prezidenti Daniyel Mayanş ilə görüşdü. Prezident İlham Əliyev Azərbaycan Respublikasının Avropa strukturuna inteqrasiyasından danışdı. Bildirdi ki, bu siyasət gələcəkdə də davam edəcəkdir.

Endryu Beyker hələ 1996-cı ildə İlham Əliyevin Amerikada olarkən Bostonda və digər şəhərlərdə keçirdiyi görüşləri xatırlatdı. Vurğuladı ki, bu gün Azərbaycan Respublikasının Prezidentinin xarici siyasəti çox təqdirəlayiqdir. O, Azərbaycanda bütün dinlərə mənsub insanlara, o cümlədən yəhudilərə münasibətdə olan tolerantlıqdan məmnunluğunu ifadə edərək dedi ki, bu, demokratik ölkə kimi Azərbaycanın imicini beynəlxalq aləmdə daha da artırır.

Amerika – Azərbaycan əlaqələrinin yüksək səviyyəsindən məmnun qaldıqlarını razılıqla vurğulayan Prezident İlham Əliyev və Endryu Beyker bildirdilər ki, Azərbaycanın Avropa strukturlarına inteqrasiyası və ABŞ ilə əlaqələrin daha da yaxşılaşması üçün səy göstərəcəklər. Azərbaycan Respublikası Prezidentinin bu konfransda iştirakının ölkənin Avropa strukturlarına inteqrasiyasının bariz nümunəsi olduğu qeyd edildi [4, 2004, I h., 131-132].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2005-ci il martın 28-də Amerika Yəhudi Birgə Paylaşdırma Komitəsinin sədri xanım Ellen Hellerin başçılıq etdiyi nümayəndə heyətini qəbul etdi [12]. Dövlət başçısı bu komitənin nümayəndə heyətinin Azərbaycana səfərini həmin komitənin ölkəmiz ilə daha yaxından tanışlığına xidmət edəcəyinə ümidvar olduğunu bildirdi.

Azərbaycanın inkişafından danışan İlham Əliyev siyasi, iqtisadi, sosial sahələrdə islahatların müvəffəqiyyətlə həyata keçirildiyini vurğuladı. Ölkəmizin beynəlxalq təşkilatlarla əlaqələrə böyük önəm verdiyini söyləyən dövlət başçısı Azərbaycan ictimaiyyətinin Amerika Yəhudi Birgə

Paylaşdırma Komitəsini yaxşı tanıdığını və bu təşkilatın böyük tarixə və zəngin ənənələrə malik olduğunu bildirdi.

Azərbaycanın inkişafından danışan İlham Əliyev siyasi, iqtisadi, sosial sahələrdə islahatların müvəffəqiyyətlə həyata keçirildiyini vurğuladı. Ölkəmizin beynəlxalq təşkilatlarla əlaqələrə böyük önəm verdiyini söyləyən dövlət başçısı Azərbaycan ictimaiyyətinin Amerika Yəhudi Birgə Paylaşdırma Komitəsini yaxşı tanıdığını və bu təşkilatın böyük tarixə və zəngin ənənələrə malik olduğunu bildirdi.

Bu zaman dünyadakı nüfuzlu yəhudi təşkilatları Azərbaycana xüsusi maraq göstərirdilər. Prezident İlham Əliyevin dəvəti ilə 2008-ci il 13-16 avqust tarixlərində Amerika Yəhudi Komitəsinin (AYK) icraçı direktoru David Harrisin Azərbaycana səfəri həmin marağın təzhürü oldu. Avqustun 15-də D.Harrisi Prezident İlham Əliyev qəbul etdi. Görüşdə iki ölkə arasında münasibətlərin genişləndirilməsində yəhudi icmasının rolu müzakirə edildi. Bildirildi ki, Azərbaycanda yaşayan yəhudi icmasının azad fəaliyyəti üçün bütün imkanlar vardır [4, 2008, I h., 402]. Milli Məclisin Sədri O.Əsədov və xarici işlər nazirinin müavini V.Sadıqov ilə keçirilən görüşdə ABŞ-dakı yəhudilərin Azərbaycanın ədalətli mövqeyini dəstəklədiyi ifadə edildi. Həmçinin Azərbaycanda yaşayan yəhudi icmasının azad fəaliyyət göstərməsi üçün hər cür şəraitin yaradıldığı xüsusi olaraq vurğulandı [4, 2008, I h., 402].

Beləliklə, İsrail - Azərbaycan münasibətləri və ABŞ araşdırması göstərir ki, müstəqillik illərində bu münasibətlər spesifik səciyyə daşımışdır. İkitərəfli münasibətlər məktublaşmalar, müxtəlif səviyyəli səfərlər, siyasi məsləhətləşmələr, başlıca olaraq ikitərəfli və qismən çoxtərəfli formatda inkişaf etdirilmişdir. Qarşılıqlı münasibətlərin müqavilə-hüquq bazası yaradılmışdır.

Azərbaycan – İsrail siyasi münasibətlərinin genişlənməsində dövlət başçıları, müvafiq nazirliklər, parlamentlərarası qruplar, Azərbaycanda və digər ölkələrdə yaşayan yəhudi icmaları, İsraildə yaşayan yəhudi əsilli Azərbaycan diasporası mühüm rol oynamışlar. Keçirilən ikitərəfli görüşlərdə Azərbaycan və İsrail arasında əməkdaşlığın siyasi, iqtisadi, mədəni sahələrdə davam etdirilməsinə və daha da genişləndirilməsinə, regional və beynəlxalq məsələlərə dair fikir mübadiləsi aparılmış, bir çox saziş və müqavilələr imzalanmışdır. Faktiki materialların təhlili göstərir ki, ABŞ-da yaşayan yəhudi icması da Azərbaycan – İsrail əlaqələrinin daha da genişləndirilməsində özünəməxsus rol oynamışdır.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasında İsrail Dövləti Səfirliyinin materialları, 1992-2008
2. Azərbaycan Prezidenti Heydər Əliyev İsrailin Baş naziri İshak Rabin ilə görüşmüşdür, Azərbaycan qəz., Bakı, 1995, 2 noyabr.
3. Azərbaycan Prezidenti Heydər Əliyevin İsrailin xarici işlər naziri Şimon Peres ilə görüşü. Azərbaycan qəz., Bakı, 1996, 11 yanvar.
4. Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001. I hissə. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Bakı: Qoliaf MMC, 2010, 1124 s.; II hissə. Bakı, GARİSMA MMC, 2009, 1040 s.;
5. Chossudovsky M. The War on Lebanon and the Battle for Oil', Global Research, 26 July 2006: http://www.globalresearch.ca\index.php?context =vasaid=2824.
6. Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti, Bakı, Azərbaycan, 2005, 751 s.
7. Hüseynova İ.M. Müstəqil Azərbaycan Dövlətinin qurucusu, Bakı, Təhsil, 2002, 472 s.
8. Əliyev Heydər, Müstəqilliyimiz əbədidir, X kitab, Bakı, Azərnəşr, 2002, 472 s.; XI kitab, Bakı, Azərnəşr, 2003, 452 s.; XII kitab. Bakı: Azərnəşr, 2004, 432 s.; XIX kitab, Bakı, Azərnəşr, 2006, 528 s.; XX kitab, Bakı, Azərnəşr, 2007, 536 s.
9. Ismailzade F. New Tensions Complicate Relations Between Baku and Tehran, Eurasia Daily Monitor, Vol. 3, No. 62, 30 March 2006: http://www. Jamestown. Org\single\?no_ cache=1stx_ttnews%5Btt_news%5D=315.

10. Ismailzade F. "Israel Show Interest in Azerbaijan Energy and Trade Projects", Eurasia Daily Monitor, 09 June 2006: http://www.jamestown.org\single\? no_cache=1stx_ttnews {tt_news}=31770.
11. "Israel and Azerbaijan: Baku`s Balancing Act", CRIA, 02 February 2009 http://cria-online.org\CU_-file__-article__-sid-21.html.
12. İsrail haqqında ümumi məlumat – www.mfa.gov.az/files/file/**Israil**.

## ABSTRACT

**S.İ.Mammadova**

## AZERBAIJAN – ISRAEL RELATIONS AND THE USA (1991-2008YY)

The main purpose of the research is to explore the relations between "Azerbaijan – Israel and the USA". The research was carried out on the basis of official documents, newspapers and literatures in the different languages. Sources and literatures corresponding problems were involved in science for the first time; Application of importance: could be used in lectures and seminars at higher education institutions

## РЕЗЮМЕ

**С.И.Мамедова**

## АЗЕРБАЙДЖАНО - ИЗРАИЛЬСКИЕ ОТНОШЕНИЯ И США (1991-2008ГГ)

Основная цель исследования изучить отношения между "Азербайджано - Израильские и США». Исследование проводилось на основе официальных документов, газет и литературы на разных языках. Результаты исследования: "Азербайджано - Израильские отношения и США» являются основой, и имеет широкие перспективы. Источники и литературы соответствующей проблемы были вовлечены в науке впервые. Применение важности: может использоваться на лекциях и семинарах в высших учебных заведениях

NDU-nun Elmi Şurasının 19 oktyabr 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 02).
Məqaləni çapa təqdim etdi: Fəlsəfə üzrə elmlər doktoru, professor M.Rzayev

**НАРГИЗ ЮСУБОВА**
*Бакинский Славянский Университет*
*yusubovan@gmail.com*

**UOT: 327; 341**

# КОСОВСКИЙ ПРЕЦЕДЕНТ: ВЫЗОВЫ И УГРОЗЫ ГЛОБАЛЬНОЙ И РЕГИОНАЛЬНОЙ БЕЗОПАСНОСТИ

**Açar sözlər:** *Kosova prezidenti, bölünmə məqsədli münaqişə, Azərbaycan Respublikası, Kosovo, Serbiya, BMT, öz müqəddəratını təyin etmək*

**Key words**: *Kosovo precedent, secession conflict, Azerbaijan Republic, Kosovo, Serbia, UN, self-determination*

**Ключевые слова:** *Косовский прецедент, сецессионный конфликт, Азербайджанская Республика, Косово, Сербия, ООН, самоопределение*

Одним из эпицентров сецессионного конфликта является в наши дни Европа. Наиболее яркий тому пример – Испания. Так, в 27 октябре 2017 года в каталонском парламенте состоялось провозглашение Каталонии независимой республикой в одностороннем порядке. Согласно формулировке, фигурирующей в тексте декларации, Каталония провозглашена «независимым, суверенным, демократическим социальным государством». Большинство парламентариев проголосовали за декларацию независимости Каталонии и образование Республики. 70 голосов было отдано «за», 10 – «против», 2 – воздержались [10].

Президент Владимир Путин в Валдайской речи 2017 г. заявил, что каталонский кризис – результат того, что поддержка Европой развала нескольких стран и отделения Косова привела к росту сепаратистских тенденций [5]. А министр иностранных дел Сербии Ивица Дачич в интервью Deutsche Welle заявил, что заявление Каталонии об односторонней независимости без согласия с Мадридом является повторением косовской проблемы [3].

На текущий момент независимость Косова от Сербии признали 111 государств из 193 (57,5 %) членов Организации Объединенных Наций (ООН). В то же время прочие государства - члены ООН (более 1/3), в том числе два постоянных члена Совета безопасности ООН (Китайская Народная Республика и Россия) отказались признать независимость Косова или заявили о нейтралитете. Чтобы занять место в ООН, страна должна иметь поддержку 2/3 государств - членов ООН (то есть 129 из 193) и одобрение Совета безопасности ООН, в частности, отсутствие вето какого-либо постоянного члена Совета безопасности [8].

Азербайджанская Республика признавала и признает территориальную целостность Сербии и остаётся на этой позиции. Конфликт Косово является таким же уникальным, как и все остальные конфликты, и нет единого метода его разрешения [1].

Азербайджанская Республика и другие государства, имеющие на своей территории национально-этнические проблемы, выступают против самопровозглашения «независимости» Косова, и вполне обоснованно считают, что такая акция вступила в серьезное противоречие с несколькими основополагающими международными документами, нарушив, среди прочего: Устав ООН, в частности принцип суверенного равенства государств, закрепленный в статье 2; Декларацию о принципах международного права, принятую в ООН еще в 1970 году; хельсинкский Заключительный акт Совещания по безопасности и сотрудничеству в Европе 1975 года; базовые документы ОБСЕ: Парижскую хартию для новой Европы 1990 года и Хартию европейской безопасности 1999 года; пять резолюций Совета Безопасности ООН, которые были одобрены в 1998-2008 годах, в том числе наиболее часто упоминающуюся резолюцию 1244, принятую в июне 1999 года, и

резолюцию 1785, согласованную в ноябре 2007 года; наконец, «Руководящие принципы» косовского урегулирования, утвержденные в ноябре 2005 года Контактной группой по Косово, в которую входят Россия, Великобритания, Германия, Италия, США и Франция (все эти страны, кроме России, поспешили признать «независимость» края, совсем позабыв о существовании этого документа, согласованного с ними) [6].

Таким образом, как отмечал представитель нашей республики А.Мусаев на заседании Совета Безопасности ООН от 29 августа 2013, позиция Азербайджана в отношении суверенитета и территориальной целостности Республики Сербия и непризнания одностороннего провозглашения независимости Косово остается неизменной. Резолюция 1244 (1999) по-прежнему является обязательным международным инструментом всеобъемлющего урегулирования на основе политического процесса и переговоров. В этой связи особого внимания заслуживает вопрос безопасности. Поддержка, оказываемая международным сообществом обеим сторонам, по-прежнему имеет огромное значение, в частности в том, что касается достижения примирения и укрепления доверия [11, с.22-23].

Поэтому нет ничего удивительного в том, что в апреле 2017 года на конференции руководителей таможенных служб европейского региона Всемирной таможенной организации (ВТО) Азербайджан выступил против членства Косово во Всемирной таможенной организации. Председатель ГТК А. Алиев еще раз довел до внимания, что Азербайджан тоже столкнулся с проблемой территориальной неприкосновенности, и считает недопустимым обсуждение политических вопросов в ВТО. Было отмечено, что Азербайджан не признает независимость Косово и одностороннее провозглашение независимости противоречит международному праву. Вопрос, связанный с Косово, был обсужден в 2012 году, и было принято решение об отклонении членства Косово во Всемирной таможенной организации. В связи с этим азербайджанская сторона не считает целесообразным вновь выносить вопрос о членстве на обсуждение [2].

Как было сказано выше, независимость Косово может дать стимул, повод и право, а также основания для сепаратистских сил внутри государств добиваться того же и взаимоисключающих притязаний.

При этом возникает вопрос: есть ли между этими конфликтами что-либо общее?

Карабахский конфликт, равно как и косовский, представляет собой проявление не только сепаратизма, но и ирредентизма. Националистические лидеры в этих автономных областях не просто желали отделиться, но и присоединиться к соседним республикам (Нагорный Карабах - к Армении, а Косово - к Албании). В обоих случаях волей азербайджанцев в НКАО и сербов в Косово пренебрегли, и они стали объектами этнических чисток в собственной стране. В конечном счете Белград, как и Баку, потерпев военное поражение, полностью утратил контроль над мятежными автономиями. И наконец, в отношении Нагорного Карабаха, как и Косово, принято несколько резолюций Совета Безопасности ООН [9].

Однако между названными конфликтами имеются весьма существенные различия. Статус НКАО в бывшем Советском Союзе был несопоставимо ниже, чем у союзных республик, область находилась в непосредственном подчинении и управлении Баку. В отличие от Нагорного Карабаха и других областных автономий СССР, Косово лишь формально входило в состав Сербии, а в действительности после конституционной реформы в начале 70-80-х годов стало де-факто, а по многим параметрам и де-юре субъектом Югославской Федерации наравне с Сербией и другими союзными республиками. Поэтому когда распад СФРЮ стал очевидным, албанцы недоумевали, почему право на независимость признано за республиками, имеющими такую же или даже меньшую, чем в Косово, численность населения (Словения, Македония, Черногория), а им в этом отказано [9].

Вмешательство соседней Албании в процесс отделения Косово от Сербии хоть и имело место, но масштабы этого воздействия были несопоставимы с тем, как это делала Армения. Дело в том, что карабахский кризис рассматривается как межгосударственный конфликт и в официальных документах называется «Армяно-Азербайджанский Нагорно карабахский конфликт». ООН, ЕС, ОИС и другие международные и региональные

организации подтвердили нарушение территориальной целостности Азербайджана, и оккупацию азербайджанских земель со стороны Арменией. Армения в начале 1990-х годов оккупировала 20 процентов территории Азербайджана, в результате более миллиона азербайджанцев стали беженцами и вынужденными переселенцами, в отношении наших соотечественников был совершен геноцид и проведена политика этнической чистки. В 1993 году Совет Безопасности ООН принял 4 резолюции, которые осуждают применение силы в отношении нашей страны и оккупацию территории Азербайджана, а также подтверждают территориальную целостность, суверенитет и неприкосновенность признанных на международном уровне границ нашего государства. Подобные документы также были приняты ОБСЕ, Советом Европы, Евросоюзом, Движением неприсоединения и другими престижными организациями. ОИС приняла многочисленные резолюции, поддерживающие территориальную целостность и справедливую позицию Азербайджана, призывающие признать Ходжалинский геноцид и принять практические шаги против агрессивной политики Армении. Эти вопросы были неоднократно обсуждены на сессиях Совета министров иностранных дел Организации исламского сотрудничества, кроме того, в сентябре 2016 года в рамках ОИС была создана Контактная группа и проведено первое заседание относительно агрессии Республики Армения против Азербайджанской Республики [4].

В сецессии Косово главную роль сыграли США и ЕС, тогда как силовой вывод Нагорного Карабаха из-под контроля Баку был осуществлен непосредственно Арменией при косвенной (но весьма ощутимой) поддержке России. Если после ввода в Косово сил НАТО сербское население лишь частично покинуло область, то в случае Нагорного Карабаха азербайджанцы были полностью изгнаны не только с территории области, но еще и из семи оккупированных районов вне пределов автономии. Всего около 700 тысяч человек [9].

Таким образом, хотя определенные общие элементы в обоих конфликтах, безусловно, имеются, налицо принципиальные различия, не позволяющие отождествлять ситуацию и модель урегулирования в Нагорном Карабахе и Косово.

Косовский прецедент вызвал и продолжает вызывать неоднозначные оценки международного сообщества. Это решение практически сразу было поддержано большинством стран Запада, несмотря на протесты Сербии. Одностороннее провозглашение Косово и его легитимация ведущими международными акторами станет опасным прецедентом и примером для других непризнанных образований.

Урегулирование конфликтов лишается надежной международно-правовой основы, решения ООН и ОБСЕ утрачивают авторитетность, переговорный процесс приобретает дополнительную жесткость, участники конфликтов получают импульс к гонке вооружений и эскалации напряженности, а Россия и ее соседи провоцируются на обострение взаимоотношений [7, с.229].

В заключении мы можем прийти к такому выводу, что сбалансированное решение по определению статуса Косова может быть основано только на принципе предоставления краю «существенной автономии» в составе Сербии по формуле «больше, чем автономия, но меньше, чем независимость» на основе решения, приемлемого как для косовских албанцев, так и для косовских сербов, а также для Сербии в целом.

Итак, принцип равноправия и самоопределения народов не означает обязательной сецессии. Самоопределение может выражаться также в форме самоуправления, автономии или различных форм культурного обособления. В современном мире существует множество стран, в которых этнические меньшинства проживают компактно и составляют большинство на определенной территории государства. Но эти народы реализуют свое право на самоопределение в рамках автономии и априори не имеют права на сецессию.

## ЛИТЕРАТУРЫ


1. Azərbaycan Kosovonun müstəqilliyini tanımır / https://www.amerikaninsesi. org/a/a-56-aze-kosovoazerb-88646177/710090.html
2. Азербайджан выступил против членства Косово во Всемирной таможенной организации/http://news.day.az/politics/889130.html

3. Serbia Foreign Minister Ivica Dacic: 'I hope the EU will survive until we're ready to join'/http://www.mfa.gov.rs/en/about-the-ministry/
4. Ильхам Алиев: Оккупантская политика Армении является нападением и на историко-культурное наследие ислама / http://vzglyad.az/news/84369html
5. Казаринова Д.Каталония: уйти нельзя остаться/http://www. globalaffairs. ru /global-processes/Kataloniya-uiti-nelzya-ostatsya-19095
6. Козин В. Пять уроков «независимости» Косова/ https: //interaffairs.ru/jauthor/ material/1528
7. Косово: международные аспекты кризиса / Под ред. Д. Тренина и Е. Степановой; Моск. Центр. Карнеги. М.: Гендальф, 1999, 292 с.
8. Международно-правовой статус Косова/ https://ru.wikipedia.org/wiki
9. Мусабеков Р. Югославские прецеденты для Южного Кавказа / Вероятность и возможные риски для Нагорного Карабаха www.regionplus. Az / ru/articles/view/ 5347
10. Парламент провозгласил независимость Каталонии/ http://www. espanarusa. com/ru/ news/article/621746.
11. Предварительный отчет заседания Совета Безопасности ООН. 7026-е заседание, 29 августа 2013 года / http://repository.un.org/bitstream/ handle/ 11176/ 24274/S_PV.7026-RU.pdf?sequence= 5&is Allowed=y

**XÜLASƏ**

**Nərgiz Yusubova**

**KOSOVO PRESEDENTI: QLOBAL VƏ REGİONAL TƏHLÜKƏSİZLİYƏ ÇAĞIRIŞLAR VƏ TƏHLÜKƏLƏR**

Məqalədə Kosovanın müstəqilliyinin regional və beynəlxalq geo-siyasi nəticələri, onun digər etno-siyasi münaqişələr üçün presedent olub-olmaması məsələləri siyasi aspektdən analiz edilmişdir. Məqalədə həmçinin Dağlıq Qarabağ və Kosovo münaqişələri təhlil olunur, onların oxşar və fərqli tərəfləri araşdırılır. Azərbaycan Respublikasınıın Kosovo münaqişəsinə münasibəti təhlil olunur və qeyd edilir ki, bu münasibət dəyişilməz qalacaq. Azərbaycan və ərazi bütövlüyü pozulmuş digər ölkələrin münasibəti birmənalı olaraq qalmaqdadır -beynəlxalq hüquq normalarının separatist qüvvələr tərəfindən pozulması, hər hansı bir dövlətin ərazisində yeni dövlət qurmaq cəhdlərinin qarşısı alınmalıdır və bu məsələdə BMT-nin 1244 (1999) Qətnaməsi bütün zamanlarda beynəlxalq münaqişələrin həllində əsas və sarsılmaz vasitə kimi qalmalıdır.

**ABSTRACT**

**Nargis Yusubova**

**KOSOVO PRECEDENT:CHALLENGES AND THREATS TO GLOBAL AND REGIONAL SECURITY**

The article analyzes regional and international geopolitical outcomes of Kosovo’s independence and whether it is a precedent for other ethno-political conflicts from a political perspectives. The article also discusses the Nagorno-Karabakh and Kosovo conflicts, identifies similar and negative sides. The attitude of the Republic of Azerbaijan to the Kosovo conflict is analyzed and it is noted that this attitude will remain unchanged. The attitude of Azerbaijan and other countries whose territorial integrity has been violated remains unambiguous-violation of international law by separatist forces, the attempts to build a new state within the borders of a single state should be avoided and the UN resolution 1244 (1999) should remain an essential and irresistible tool for resolving international conflicts at all times.

NDU-nun Elmi Şurasının 19 oktyabr 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 02).
Məqaləni çapa təqdim etdi: Fəlsəfə üzrə elmlər doktoru, professor M.Rzayev

**PİRİ AXUNDOV**
*Azərbaycan Texnologiya Universiteti*
*piriaxundov@mail.ru*

**UOT: 297; 94(479.24)**

# AZƏRBAYCANDA XIX - XX ƏSRLƏRDƏ DİNİ İSLAHATÇILIQ MEYLLƏRİ

**Açar sözlər:** *İslam, islahatçılıq, xristianlıq, din, sosioloji*
**Key words:** *Islamic reformist, christian, sociology of religion*
**Ключевые слова:** *Ислам, христианство, религия, социальная*

XX əsrin əvvəllərində Azərbaycanda ictimai-dini mühit özünün mürəkkəb dövrünü yaşayırdı. Bu mühitin formalaşmasına bir çox proses öz təsirini göstərmişdir. XIX əsrdə Çar Rusiyasında baş verən iqtisadi-siyasi proseslər, o cümlədən mütləqiyyətin Azərbaycanda özünə güclü sosial dayaq formalaşdırmaq üçün həyata keçirdiyi xristianlaşdırma siyasəti bu mühitin formalaşmasında həlledici rol oynamışdır.

XIX əsrin əvvəlində Şimali Azərbaycan Rusiya tərəfindən işğal edildikdən sonra çarizm burada öz müstəmləkəçilik siyasətini daha da dərinləşdirmək üçün bəzi tədbirlər həyata keçirməyə başladı. Bu tədbirlərdən biri yerli əhalinin–azərbaycanlıların dini əqidəsinə təsir göstərmək, onları həm hüquqi-siyasi, həm də mənəvi-psixoloji cəhətdən rus çarizminin müstəmləkəçilik qaydalarına tabe etdirməkdən ibarət idi. Məhz rus çarizminin Azərbaycandakı müstəmləkəçilik siyasətində qarşıya qoyduğu məqsəd Rusiya hakim dairələrinin Qafqaz canişinliyinə göndərdikləri məxfi təlimatda deyildiyi kimi, "oradakı əhalini rusca danışmaq, rusca fikirləşmək və rusca duymağa məcbur etmək"dən ibarət idi.

Azərbaycanın Rusiya ilə İran arasında bölüşdürülməsindən sonra çar hökumətinə Şimali Azərbaycandakı əhalinin mövcud etnik tərkibini öz mənafeyinə uyğun dəyişdirmək imkanı yarandı. Bu da bölgədəki yerli xalqların, xüsusilə Azərbaycan türklərinin atababa yurdu hesabına özlərinə vətən əldə etmək xülyası ilə yaşayan erməni millətçiləri üçün tarixi fürsət oldu. Gələcəkdə bölgənin başına sonsuz bəla və müsibətlər gətirəcək bu xəbis niyyətin həyata keçirilməsində Eçmiədzindəki erməni ruhaniləri ilə yanaşı, çar ordusunda xidmət edən erməni mənşəli zabitlər də böyük rol oynadılar. İrandakı ermənilərin Şimali Azərbaycana köçürülmə işinə rəhbərlik isə bilavasitə erməni mənşəli polkovnik Lazarevə həvalə olundu. Türkmənçay müqaviləsi üzrə 26 fevral-11 iyun 1828-ci il tarixləri arasında gerçəkləşdirilən ilk köçürmə kampaniyası 1830-cu ilə qədər davam etdi və 40 mindən çox ermənini əhatə etdi. Köçürülən ermənilər əsasən İrəvan, Qarabağ və Naxçıvan ərazilərinə yerləşdirildi. Bu məqsədlə 200 min desyatindən çox münbit xəzinə torpağı ayrıldı və onlar üçün müsəlmanlardan 2 milyon manatlıqdan çox xüsusi sahibkar torpağı satın alındı. Türkiyə ərazisindən köçən 84 min erməni və qeyri-rəsmi köçənlərlə birlikdə məskunlaşan ermənilərin sayı 200 mini ötüb keçdi (4,299). Bu köçürmələr nəticəsində əhalisinin 73,4 faizi türklər olan İrəvan xanlığının yerində "Erməni vilayəti" yaradıldı, Naxçıvanda və İrəvanda yaşayan yerli müsəlman bəylərinin irsi torpaqlarını əllərindən alınaraq orada İrandan köçürülmüş ermənilər yerləşdirildi (2,634). Çoxlu sayda ermənini Azərbaycanın müxtəlif bölgələrinə, o cümlədən Qarabağa, yerləşdirən imperiya yerli xalqın mənafeyini tapdalayaraq özünün mənfur niyyətlərini gerçəkləşdirməyə nail oldu [1]. Məhz bu siyasətin nəticəsində 1823-27-ci illərdə Qarabağ əyalətində məskunlaşmış əhalinin cəmi 8 faizini təşkil edən ermənilərin sayı 1828-30-cu illərdə 35 faizə, Naxçıvan əyalətində müvafiq olaraq 13 faizdən 49 faizə, nəhayət "Erməni vilayəti"ndə isə 24 faizdən 54 faizə çatdırıldı (2,674). Təbii ki, bunun müqabilində də eyni illərdə Azərbaycan türklərinin sayı Qarabağda 91 faizdən 65 faizə, Naxçıvan əyalətində 86 faizdən 51 faizə və "Erməni vilayəti"ndə 73,8 faizdən 46,2 faizə düşmüş oldu. Rus müəllifi Şavrovun da etiraf etdiyi kimi, XX

yüzilliyin başlanğıcında Zaqafqaziyada yaşayan 1,3 milyon ermәninin bir milyondan çoxu diyarın köklü sakinlәri olmayıb çar Rusiyası tәrәfindәn mәskunlaşdırıldı [2].

Köçürmә siyasәti aparan Rusiya, ölkә әhalisinin tәrkibinә yeni etnoslar da gәtirdi: almanları vә rusları.

XIX әsrin birinci rübündә Azәrbaycanın şimal torpaqlarını işğal edәn Rusiya imperiyasının apardığı müstәmlәkә siyasәtinin әsas istiqamәtlәrindәn biri işğal olunmuş әraziyә xristian etnosları köçürmәk vә xristian elementinin çәki yükünü ölkә әhalisinin etno-konfessional nomenklaturasında artırmaq idi. Yadelli xristian etnoslardan ilk olaraq almanlar Azәrbaycanın şimal torpaqlarına köçürülmüş vә onların koloniyaları salınmışdı. Alman kolonistlәr, ölkәnin sosial-iqtisadi sahәsinә qәrb elementlәrini daxil edә bilmiş, kәnd tәsәrrüfatında üzümçülük, şәrabçılıq, tütünçülük kimi sahәlәr, süni mineral suların hazırlanması onların adı ilә bağlı olmuşdur.

Azәrbaycan torpaqlarını özünün müstәmlәkә sisteminә qatan Rusiya siyasi hakimiyyәtini bölgәdә bәrqәrar etmәk mәqsәdi ilә işğal etdiyi әrazidә mövcud islam sistemini pozmaq vә әsas vasitә kimi götürdüyü xristian elementini artırmaq üçün müstәmlәkә siyasәtinin tәrkib hissәsi olan xristianlaşdırma siyasәtini mәqsәdyönlü olaraq aparmışdır. Belә ki, müsәlman ölkәsindә Rusiya hakimiyyәtini möhkәmlәtmәk mәqsәdini әsas tutan mütlәqiyyәt yaddilli, yaddinli, yadtәbiәtli әhalinin assimilyasiyaya uğramasında mütlәq vasitә dini, xristianlığın yayılmasını götürmüşdü. Belә ki, Rusiya imperiyasının hakim dairәlәrinin fikrincә ölkәnin köklü әhalisi yadelli işğalla barışmayacaq vә bu barışmazlığın dayaq nöqtәsi dә İslam dini idi. Çünki, minillik bir tarixi dövr boyunca İslam dininә etiqad edәn xalq, xristian dövlәtin hakimiyyәtini asanlıqla qәbul etmәyәcәkdi.

Rusiya imperiyasının Şimali Azәrbaycanı tәrkib hissәsinә çevirmәk mәqsәdi ilә xristianlaşdırma siyasәtini aparan mütlәqiyyәt bölgәdә xristian missioner cәmiyyәtlәrinin fәaliyyәti üçün şәrait yaradır. Vә işğalın ilk illәrindә fәaliyyәt göstәrәn missioner cәmiyyәtlәri tәkcә pravoslav deyil, habelә qeyri-pravoslav yönümlü idilәr. Sonuncuların fәaliyyәt mәkanına “Bazel Missionerlәri” cәlb olunmuşdular. Lakin tezliklә Rusiya hakim dairәlәrinin ayrı-ayrı nümayәndәlәri belә qәnaәtә gәlirlәr ki, qeyri-pravoslav missioner cәmiyyәtlәri, o cümlәdәn Bazel yevangel cәmiyyәti Rusiya imperiyasının dövlәtçilik siyasәtinin tәlәblәrinә cavab verә bilmәdiyi üçün onların fәaliyyәtinә xitam verilmәlidir. Belәliklә, XlX әsrin 30-cu illәrindә Rusiya hakim dairәlilәrindә qeyri-pravoslav missioner cәmiyyәtlәrә, o cümlәdәn Bazel missioner cәmiyyәtinә münasibәt qeyri-loyal duruma gәlmiş vә nәticәdә 1835-ci ilin payızında Bazel missioner cәmiyyәtinin fәaliyyәtinә qadağa qoyulmuşdu. Verilәn qәrarla razılaşmayan Bazel missionerlәri, baron Q.V.Rozenә yazdıqları hesabatlarında bölgәdә xristianlaşdırma siyasәtinә toxunaraq, bildirmişdilәr ki, onların cәmiyyәtinin әsas mәqsәdi müsәlmanları xristianlaşdırmaqdır. Vә bunun üçün dә әsas vasitә olaraq Bibliyanın bölgәdә tәbliği vә yayılması mәqsәdәuyğun hesab edilmişdir. Çünki onların fikrincә dinin vә dini baxışların dәyişilmәsi üçün “nәinki onilliklәr, hәtta әsrlәr lazımdır”. Bu fikri әsas tutan Bazel missionerlәri Rusiya rәsmi dairәlәrinin xristianlaşdırma siyasәtindә kәmiyyәt meyarına istinad etmәlәrini qәbul etmir vә bildirirlәr ki, qısa bir zaman çәrçivәsindә göstәrdiklәri fәaliyyәt onlara belә bir gerçәkliyi aydınlaşdırmışdır ki, Azәrbaycan torpaqlarının köklü әhalisi, azәrbaycanlıları, xristianlaşdırmaq o qәdәr dә asan deyil. Çünki әsrlәrlә Azәrbaycan xalqının mentalitetini, özünüdәrkini müәyyәnlәşdirәn İslamı vә “islam mәdәniyyәtini şüurlardan silmәk mümkün deyil”. Lakin mütlәqiyyәt müstәmlәkә iddialarından әl çәkmәk istәmәyәrәk, Bazel missionerlәrinin bu müraciәtini qәbul etmәyәrәk 1837-ci ilin yayında onların fәaliyyәtini dayandırmışdı.

Belәliklә, XlX әsrin ikinci otuzilliyindә başlayaraq Rusiya imperiyasının Cәnubi Qafqazda, o cümlәdәn Şimali Azәrbaycanda apardığı xristianlaşdırma siyasәtindә yeni istiqamәt özünü göstәrir. Belә ki, bölgәnin işğalının ilk illәrindә Rusiya zәbt etdiyi torpaqlarda mütlәqiyyәt, xristian amilini sadәcә olaraq artırmaq mәqsәdini әsas götürdüyü uçun xristian dininin ayrı-ayrı konfessiyalarını xristianlaşdırma siyasәtinә qoşurdusa da, Türkmәnçay müqavilәsi bağlandıqdan sonra Rusiya imperiyası bölgәdә siyasi hakimiyyәtini bәrqәrar etmәk mәqsәdi ilә qeyri-pravoslav konfessiyaların, o cümlәdәn Bazel missionerlәrinin fәaliyyәtini mәqsәdәuyğun hesab etmәyәrәk onları xristianlaşdırma siyasәtindәn uzaqlaşdırır vә bu siyasәtin ana xәtti ortodoksal kilsә ilә bağlanılır.

Ölkədə məqsədyönlü şəkildə xristianlığı yaymaq konturları ilə çıxış edən Rusiya, Qafqazda pravoslavlığı yayan "Osetin Komissiyası"nın fəaliyyəti ilə kifayətlənməyib, 1829-cu ildə "Qafqazda Pravoslavlığı Yayan Cəmiyyəti" təsis edir və bu qurum 1860-cı ildə fəaliyyətə başlayır. Xristianlığı ölkədə yayarkən, mütləqiyyət nəzər-diqqəti şimal-qərb torpaqlarına yönəldir və Alban kilsə tarixi-abidələrinin mövcud olduğu ərazilərdə xristianlaşdırma siyasətinin uğurlu nəticələrlə sonuclanması qənaətinə gəlir. "Qafqazda Pravoslavlığı Yayan Cəmiyyəti"n fəaliyyəti nəticəsində Zaqatala dairəsində kilsələr tikilməyə başlayır və XIX əsrin ilk illərində ildə 20 minə qədər alban-ingiloy zor-xoş xaç suyuna salınır. Əhali mütləqiyyətin apardığı xristianlaşdırma siyasəti ilə barışmır və 1863-cü ildə Zaqatalada üsyan başlayır və bu üsyanın əsas səbəblərindən biri məhz xristianlaşdırma siyasəti olur. Bölgədə sosial-siyasi durumu sabitləşdirmək məqsədi ilə Qafqaz Canişinliyi "xristianlığı qəbul etmişlərə yenidən İslam dininə qayıtmağa icazə verir". Nəticədə, bir-neçə il ərzində Zaqatala dairəsində yeddi məhəllə kilsəsi, o cümlədən Balakən kilsəsi bağlanılır. Beləliklə, Rusiya imperiyasının Azərbaycan torpaqlarında apardığı xristianlaşdırma siyasəti mütləqiyyətin gözlədiyi nəticəni vermir və bunun əsas səbəbi Azərbaycan xalqının İslam dininə olan bağlılığı olur. Bununla belə mütləqiyyət sonrakı illərdə də xristianlaşdırma siyasətini davam etdirir və bu konturda "Qafqazda Pravoslavlığı Yayan Cəmiyyət" öz xidmətini göstərir, ölkə quberniyalarında pravoslav kilsələri salınır. Xristian kilsələrinin sürətlə salınması, xüsusən Bakı şəhərində özünü daha qabarıq şəkildə göstərir. Burada xristian abidələrinin salınması rus xristian əhalinin etiqadı üçün şəraitin yaranması məqsədini də güdürdü. Belə ki, neft kapitalının sıçrayışlı inkişafı şəhərdə demoqrafik "partlayış"a səbəb olur. 1913-cü ilin məlumatına görə, 214.672 nəfərlik Bakı əhalisi içərisində birinci yeri 76.228 nəfərlə ruslar tuturdu. Bu ilin göstəricilərinə görə şəhərdə 17 pravoslav xristian kilsəsi fəaliyyət göstərirdi.

Xristianlaşdırma siyasəti ilə paralel olaraq, mütləqiyyət Şimali Azərbaycana Rusiya imperiyasının mərkəzi quberniyalarından rus əhalisini də köçürürdü ki, məqsəd ölkənin köklü əhalisini, azərbaycanlıları, assimilyasiyaya uğratmaq, bu müsəlman torpaqlarını imperiya çərçivəsində "əritmək" idi. Ruslaşdırma siyasətini XIX əsrin birinci otuzilliyindən başlayaraq aparan mütləqiyyət, Rusiya dövlətçiliyi üçün təhlükə amili kimi qəbul edilən rus təriqətçilərini Şimali Azərbaycana köçürmüş, lakin XIX əsrin üçüncü otuzilliyindən etibarən pravoslavlığın yayılmasında rus təriqətçilərinin deyil, rus pravoslav əhalisinin önəmli rol oynadığını əsas götürüb, pravoslav rusların bölgəyə köçürülməsinə üstünlük verilmişdir. Nəticədə, 1912-ci il üçün Bakı quberniyasında 60, Yelizavetpol quberniyasında isə 29 rus pravoslav məskənləri salınmışdır. Mütləqiyyətin devrilməsi ərəfəsində Şimali Azərbaycanda rusların sayı 249.835 nəfərə çatırdı.

Beləliklə, XIX əsrin birinci otuzilliyində Azərbaycan torpaqlarını işğal edən Rusiya imperiyası, ölkədə siyasi hakimiyyətini bərqərar etmək üçün köçürmə siyasəti apararaq, əhalinin etno-konfessional tərkibində ermənilərin sayını mexaniki hərəkətlə artırsa da, əhalinin tərkibinə yeni xristian elementləri – almanları və rusları gətirsə də, Azərbaycan xalqının çəki yükü 54,9%, əhalinin etno-konfessional tərkibində dominant olaraq qalmış, Azərbaycan xalqı özünün tarixi torpaqlarında yaşamaqda davam etmiş, özünün mentalitetini, maddi-mənəvi mədəniyyətini, etnik özünüdərkini, konfessional tolerantlığını qoruyub saxlayaraq, Şərq-Qərb mədəniyyətlərinin sintezi prosesində özünəməxsus rol oynamış, multukulturalizm ənənələrini inkişaf etdirmişdir.

Ruslaşdırma və xristianlaşırma siyasətini aparan Rusiya imperiyasının məqsədi Azərbaycan xalqını assimilyasiyaya uğratmaq idi. İnqilabaqədərki Rusiya apologetləri ruslaşdırmanı Rusiyanın tərkib hissəsi olduğunu göstərərək, bildirirdilər ki, "bu siyasətin əsas məqsədi qeyri-rusların ruslar kimi düşünməsi və fikirləşməsidir". Müstəmləkə siyasətinin bütün ağırlığının girdabı içində qalan Azərbaycan öz tarixi özünüdərkini əsas tutur və XlX əsrin sonlarında kapitalizmin inkişaf mərhələsinə qədəm qoyan ölkə milli özünüdərk oyanışını yaşayır. Milli özünüdərk intibahının ilhamverici qüvvəsi Azərbaycan maarifpərvərləri və milli burjuaziyanın nümayəndələri olur. Bu xeyriyyəçilərin əsas məqsədi Rusiya imperiyasının müstəmləkə siyasətinin mahiyyətini göstərmək və xalqı oyatmaq idi. Bu məqsədlə xeyriyyəçilər mədəniyyətin, ədəbiyyatın, elmin, mətbuatın, maarifin inkişafına ciddi fikir verirdilər. Və cəmiyyətin bu aspektlərini inkişaf etdirən Azərbaycan xeyriyyəçiləri ölkəni multikultural istiqamətə yönəldirdilər.

Görkəmli maarifçi-demokrat, pedaqoq və ilk Azərbaycan xeyriyyəçilərindən olan Həsən bəy Zərdabi xalqın milli şüurunun oyanmasında dünyəvi məktəblərin açılmasının zəruriliyini göstərir və bu ideyanın təbliği üçün vasitə olaraq, milli mətbuatın əsasını qoyur. Onun 1875-ci ildə təsis etdiyi "Əkinçi" qəzeti demokratik və maarifpərvər ideyaların təbliğat alətinə çevrilir. Bu qəzetin mənəvi varisləri "Ziya", "Ziyayi Qafqaziyyə" və "Kəşkül" qəzetləri olur.

Azərbaycan milli burjuaziyanın görkəmli nümayəndəsi, 1873-cü ildə Bakı nefti ilə milyonlara sahib olan Hacı Zeynalabdin Tağıyev öz xeyriyyəçiliyi ilə də seçilmişdir. Onun adı qızlar məktəbi ilə də bağlıdır. Xalqının gələcək inkişafını maarifdə, tərəqqidə görən uzaqgörən xeyriyyəçi qızların təhsilinə xüsusi diqqət yetirmişdir. O, Bakıda ilk qızlar məktəbini açır. Bu məktəbin xərcini ödəmək üçün banka 150.000 manat pul qoyur. Bina 1898-ci ildən tikilməyə başlayır və 1900-cü ildə hazır olur. Bu məktəb 184.000 manat başa çatır. Bu binanın memarı polyak Qoslavski idi. Məktəb Nikolayevski( indiki İstiqlal, hazırda AMEA-nın Əlyazmalar fondunun binası) küçəsində yerləşirdi.

Qaraguruhçu ruhanilərin ciddi müqaviməti ilə üzləşən Tağıyev Quran ayələri əsasında göstərir ki, İslam dini müsəlmaların də biliklərə yiyələnmələrinin vacibliyini göstərir. Hacının səyləri öz nəticəsini verir. Qızlar məktəbində ilk dərslər 1901-ci ilin sentyabrın 7-də başlanır. 58 şagirddən 35-i kasıb ailədən olduğu üçün böyük xeyriyyəçi onları öz hesabına oxutdurmuşdu.

Azərbaycan xeyriyyəçiləri qəzalarda da fəaliyyət göstərir, Rusiya imperiyasının Azərbaycan torpaqlarında apardığı xristianlaşdırma siyasətinə qarşı mübarizəni, İslam dəyərlərinin xalqın mənəviyyatında dominant rol oynaması üçün, yeni məscidlər salmaqda görürdülər. Bunların sırasında 1870-ci ildə Şamaxı şəhərində memar Kazım-bəy Hacıbabayevin layihəsi əsasında salınmış Təzəməscidi göstərmək olar ki, bu məscidin salınmasına xeyriyyəçi tacir Hacı Məmməd Rza vəsait ayırmış, 100 min rubl pul qoymuşdu. B illərdə əyalət xeyriyyəçiləri başqa qəzalarda da məscidlər tikdirirdilər.(4) 1854-cü ildə Quba qəzasında Səkinə xanım məscid tikdirir. 1877-1878-ci illərdə İsrafil bəy Yadigarzadə Gəncədə məşhur orta əsr "İmam-zadə" kompleksini bərpa etdirir. 1899-cu ildə İsrafil ağa Qazax qəzasında məscid saldırır. 1886-cı ildə, Gəncədə, Cənubi Azərbaycan şahzadəsi Bəhmən Mirzənin qızı Səbiyyə xanım məscid tikdirir. Lakin xristianlaşdırma siyasətini aparan mütləqiyyət, yerlərdə İslam maddi-tarixi abidələrinin salınmasından narahat olaraq, A.S.Puşkinin 100 illiyi bəhanəsi ilə məscidin kitabxanaya çevrilməsi qərarını verir. Gencəlilər bu qərara etiraz etsələr də Səbiyyə xanım xalqın maariflənməsində kitabxananın əhəmiyyətli rol oynadığını əsas tutaraq bu qərarla razılaşır.

Bakı XX əsrin əvvəllərində bir çox millətin nümayəndəsinin mövcud olduğu çox mədəniyyətli şəhərə çevrilmişdi. Rusiyanın müstəmləkə siyasəti ağırlığını daşısa da, kapitalizmin inkişaf mərhələsinə qədəm qoymuş Şimali Azərbaycan Qərb mədəniyyətinin dəyərləri ilə tanış olur, Şərq sivilizasiyanın daşıyıcısı olan ölkə, öz mənəviyyatını zənginləşdirirdi.

Bu illərdə Bakıda teatr binaları, kino salonları, əyləncə evləri də artırdı. Azərbaycanda ilk milli teatr binasının tikilməsi Hacı Zeynalabdin Tağıyevin adı ilə bağlıdır. Teatr binası 1883-cü ildə Hacının pulu ilə memar Koqnovitskinin layihəsi əsasında tikilmişdir. Milli teatr ölkədə özünəməxsus ictimai-dini mühitin inkişafında rol oynayır. Belə ki, kapitalist Bakısı Qərb mədəniyyətinin komponentlərindən olan teatrı qəbul etsə də, öz milli mentalitetindən imtina etməmişdi. Belə ki, tamaşaya baxa bilmələri üçün qadınlar xüsusi salınmış localarda yerləşdirilir, xalqın milli davranış qaydaları qorunurdu. Beləliklə, cəmiyyət Qərb mədəniyyətini qəbul edərək, Şərqli davranışından imtina etmirdi. Bu teatrda 1908-ci ildə "Leyli və Məcnun" operası oynanılmışdı. Azərbaycan mədəni həyatında xüsusi yer tutan bu hadisə ölkəni çox mədəniyyətli dünyaya aparırdı. İlk dəfə olaraq, Şərqdə, Azərbaycanda, Qərb mədəniyyətinin komponenti, opera qəbul edilir və böyük Üzeyir Hacıbəyov tərəfindən Şərq motivləri əsasında yazılır.

1909-cu ildə Bakının incisi olan Bulvarın salınması, istedadlı mühəndis, vətənpərvər Məhəmməd Həsən Hacınskinin rəhbərliyi ilə başlanılır və Bakı bulvarının layihəsində alman memarlarından A.Eyxler öz aktivliyi ilə seçilir.(5)

Yuxarıda göstərilənlər belə bir reallığı açıqlayır ki, əgər qəzalarda tarixi tolerantlıq ənənələrini və xalqın tarixi yaddaşını qoruyan Azərbaycan xeyriyyəçiləri (əks təqdirdə tariximizin tərkib hissəsi olan Alban kilsələri zamanımıza qədər qalmaz və ermənilik də Azərbaycan tarixini

ermənniləşdirmək məqsədi ilə Alban kilsələrini qriqoryanlaşdırmaq fikrindən uzaq olardı) İslam ənənələrini inkişaf etdirməyə daha çox meylli idilərsə, kapitalist Bakısının Azərbaycan xeyriyyəçiləri, İslam dəyərlərini qorumuş və paralel olaraq, Qərb mədəniyyətini köhnə Bakıya aşılayaraq, Qərb-Şərq mədəniyyətinin sintezini apararaq, bəşər tarixinə təkraredilməz yeni çox səviyyəli mədəniyyət gətirmişdir və 1907-ci ildə H.Z.Tağıyevin tikdirdiyi "Jon Mironosets" kilsəsi buna bariz nümunədir. Ümumən Azərbaycan xeyriyyəçilərinin fəaliyyəti Azərbaycan sosial-mədəni həyatında özünəməxsus bir toleyrantlıq ansamblı yaratmış, mədəni və dini müxtəlifliyin inkişafına xidmətlər göstərmişlər.

Azərbaycan torpaqlarında müstəmləkə siyasətini aparan Rusiya imperiyası köçürmə, ruslaşdırma siyasəti ilə paralel olaraq, İslam dininin cəmiyyətdə tutduğu rolunu da mümkün qədər məhdudlaşdırmağa çalışırdı. Cəmiyyətin əxlaqına və məişətinə ciddi təsir göstərə bilən, müstəqil sosial-siyasi qüvvə olan müsəlman ruhanilərinə, imperiya, ehtiyatla yanaşmağa çalışırdı. Belə ki, ölkədə İslamın nüfuz dairəsini mümkün qədər məhdudlaşdırmaq, müsəlman ruhanilərinə məqsədyönlü şəkildə təzyiqlər göstərmək, müsəlman ruhanilərinin dini-siyasi fəallığını neytrallaşdırmaq istəyən mütləqiyyət, ruhanilərlə əməkdaşlıq əlaqəsinə girərək, onların nüfuzundan imperiya mənafeyi naminə faydalanmaq istəyirdi. Müsəlman ruhaniliyin nüfuzu ilə barışmaq məcburiyyətində qalan mütləqiyyət 1823-cü ildə Zaqafqaziya Müsəlmanlar Ruhani İdarəsini təşkil edir. Bu qurum qısa bir zaman çərçivəsində köklü müsəlman əhalisinin maraqlarını təmin edən istiqamətdə fəaliyyət göstərir. Bu qurumun əhaliyə təsir gücünü hiss edən Rusiya "parçala, hökm sür!" kredosunu əsas tutaraq, İslamda məzhəb məsələsini qabartmaq xəttini götürür və 1832-ci ildə Tiflisdə Qafqazın Muftisi vəzifəsini təsis edir.

Romanovlar Rusiyası İslam dininə qadağa qoymasa da, müsəlmanların ümumi təbəəlik və dini – mədəni hüquqlarına təzyiq və məhdudiyyət qoyduğundan, xristian missionerlərin təbliğatına şərait yaratdığından xalq belə bir vəziyyətlə barışa bilmir və Birinci Rusiya inqilabı illərində Rusiyanın müsəlman xalqları kimi, Azərbaycanın mütərəqqi qüvvələri imperiyanın müsəlman əhalisinin rus xalqı ilə eyni olaraq, hüquq bərabərliyinin tanınması tələbi ilə çıxış edir. Müsəlmanlar üçün mədəni–təhsilin inkişafının labüdlüyünü göstərirlər. Bu tələbləri təkminləşmiş şəkildə, Azərbaycan milli hərəkatının görkəmli nümayəndəsi Ə. M. Topçübaşovun sədrliyi ilə 1905-ci il avqustun 15-də Nijni-Novqorodda keçirilən Rusiya müsəlmanlarının I qurultayı irəli sürmüşdü. Həmin dövrdə Azərbaycan və Rusiya müsəlmanlarının tərəqqipərvər nümayəndələri multikultural ideyanın, "avropalaşma, türkləşmə, islamlaşma", ətrafında birləşməyə çalışırdılar.(6)

1918-ci il mayın 28-də Azərbaycanın "İstiqlaliyyəti haqqında Aktı"nı qəbul edən Azərbaycan Xalq Cumhuriyyəti, dövlətin ərazisində yaşayan bütün insanlara hüquq bərabərliyi verdi. Yarandığı zamandan etibarən ölkənin ərazi bütövlüyü uğrunda mübarizə aparan AXC, Azərbaycan xalqının tolerantlıq ənənələrindən imtina etməyərək, dövlətin qanunverici orqanı, parlamenti formalaşdırarkən, ölkənin sosial-siyasi həyatında xidməti olan azsaylı xalqlara, eyni zamanda Rusiya imperiyası dövründə əhalinin etno-konfessional tərkibində müəyyən çəki yükü əldə edə bilmiş rus və ermənilərə də yer ayrılmışdı. (7) Belə ki, etnik proporsiyaya görə parlamentdə nəzərdə tutulan 120 deputat yerindən 80-i müsəlmanlara, 21-i ermənilərə, 10-u- Bakı Rus Milli Şurasına 1-i – Alman Milli Təşkilatına, 1-i –Yəhudi Milli Şurasına, 1-i Gürcü Milli Şurasına, 1-i Polyak Milli Komitəsinə verilmişdi. Azsaylı xalqların nümayəndələri, parlamentə seçilərkən, onun işində də aktiv fəaliyyət göstərmişlər. Belə ki, alman icmasını təmsil edən L.Kun parlamentin aqrar komissiyasının tərkibinə daxil edilmiş, qanunların hazırlanmasında iştirak etmişdi. Qeyri-müsəlman etnosların tarixinə və mədəniyyətinə hörmətlə yanaşan AXC, multi-kultural mühitin formalaşmasının demokratiyanın inkişafına müsbət təsir edəcəyini nəzərə alaraq, ölkədə alman koloniyaların salınmasının 100 illik yubileyinin təntənəli şəkildə keçirilməsi üçün şərait yaratmış və bu yubiley 1919-cu ilin iyunun 9-da təntənəli şəkildə Yelenendorf koloniyasında keçirilmişdi. L.Kun bu bayram tədbirində çıxış edərək bildirmişdi ki, Azərbaycan torpaqlarında məskunlaşan kolonistlər Azərbaycan xalqının onlara bəslədiyi hörmət və ehtiramı unutmur və Azərbaycanı özlərinin ikinci vətəni kimi qəbul edirlər.

## ƏDƏBİYYAT


1. S. Hüseynov. Azərbaycanda dini tolerantlıq mədəniyyəti: tarix və müasirlik. Bakı: Təknur, 2012, s. 28
2. M. Babaşov. XIX əsrdə çar Rusiyasının Azərbaycanda yeritdiyi milli və dini ayrı-seçkilik siyasətinin mahiyyəti. Journal of Qafqaz University. No: 10, 2002, s. 42.
3. A. Сургуладзе. Прогрессивные последствия присоединения Грузии к России, Тбилиси, издательство «Мецниерева», 1982, s.59-60.

4 Əhməd bəy Ağayev. "İrşad" qəzeti, 1906-cı il, No: 53.

5 Ə. Ağaoğlu. İran və inqilabı. Bakı, Azərnəşr, 2009, s.6.

6 İ. İsaxanlı. Fərhad Ağazadə və Latın əlifbasına keçid. s. 14-15

7. Axundov. Kəmalüddövlə məktubları. Bakı, Azərnəşr, 1969, s.30.



## ABSTRACT

**P. Akhundov**

**XIX-XX CENTURY RELIGION REFORM EFFECT IN AZERBAIJAN**

At the beginning of the twentieth century, the social-religious environment in Azerbaijan was experiencing a complex period. Many processes have affected the formation of this environment, and the article has introduced a wide range of



## РЕЗЮМЕ

**П. Ахундов**

**РЕЛИГИОЗНЫЕ РЕФОРМАТОРСКИЕ ТЕНДЕНЦИИ В АЗЕРБАЙДЖАНЕ В XIX - XX ВЕКАХ**

В начале XX века в Азербайджане общественно-религиозная среда пережила свой сложный период. На формирование этой среды повлияло множество процессов. В статье широкое место отведено формированию этих вопросов.



NDU-nun Elmi Şurasının 19 oktyabr 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 02).
Məqaləni çapa təqdim etdi: Fəlsəfə üzrə elmlər doktoru, professor M.Rzayev

**ELFANƏ QASIMOVA**
*Azərbaycan Dövlət İqtisad Universiteti*

**UOT: 008**

# DİZAYN AZƏRBAYCAN CƏMİYYƏTİNİN SOSİO-MƏDƏNİ DƏYƏRİ KİMİ

**Açar sözlər**: *dizayn, cəmiyyət, sosiomədəni dəyər, həyat tərzi, estetik tələblər*
**Key words**: *design, society, socio-cultural values, lifestyle, aesthetic requirements*
**Ключевые слова**: *дизайн, общество социокультурная ценность, образ жизни, эстетические требования*

Reallıq belədir ki, öz peşəsinin mahiyyətinə görə dizayner gözəlliyi yaratmalı və özünü estetik-bədii mədəniyyəti ilə reallaşdırmalıdır. İnsan üçün həyatda maraqlı nə varsa, insanı düşündürən hər bir gözəlliy – bunlar dizaynerin diqqət mərkəzində durmalıdır. Cəmiyyətin hər bir üzvü hansı ixtisas sahibi olmasına baxmyaraq ilk növbədə ictimai insandır və o, zəruri olaraq onu əhatə edən gerçəkliyə, faktlara və hadisələrə münasibətini bildirməlidir. Deməli, biz cəmiyyətdə insanı əhatə edən dəyərlərə münasibətimizi nümayiş etdiririk.

Müasir dünyada dizayn mədəniyyətində mühüm yerlərdən birini dəyərlər tutur. Öncə qeyd edək ki, deyək İbtidai icma quruluşunda elm olmadığından onun dəyərləri də olmamışdır. Orta əsrlərdə dini dünyagörüşün hakim mövqe tutduğu bir şəraitdə ilahi ideyası və müqəddəs kitabların insanlara aşıladığı ehkamlar insanların düşüncəsinə hakim kəsilmişdi. Elmi əsərlər və risalələr cəmiyyət üçün təhlükəli hesab olunur, onların müəllifləri isə inkvizisiyanın təqiblərinə məruz qalırdılar. Bu o deməkdir ki, dəyərlər aləmini həmişə konkret olaraq nəzərdən keçirmək lazımdır, çünki dəyər obyektlərinin özünəməxsus tarixi hüdudları mövcuddur və bu hüdudları müəyyənləşdirmək müəyyən çətinliklərlə bağlıdır. Elə bu səbəbdən də bu günün özündə dəyərlərin təsnifatı ciddi elmi problem kimi qalmaqdadır. Hər halda real fakt budur ki, bu problemin həlli üçün vahid yanaşma yoxdur. Hazırda bunu demək mümkündür ki, dəyərlərin ən ümumi təsnifatının əsasları bu sahərlərdir: ictimai həyat, dəyərlərin daşıyıcıları, dəyərlərin iyerarxiyası. İctimai həyatda üç qrup dəyərlər əsas götürülür: maddi, sosial-siyasi və mənəvi dəyərlər. (1)

Maddi dəyərlər – təbiət obyektlərinin və predmet dəyərlərinin, yəni əmək alətləri və əşyalar, başqa sözlə, bilavasitə insanın tələbatlarını ödəyən predmetlərin dəyər əhəmiyyəti nəzərdə tutulur. Təbii dəyərlər təbiət sərvətlərində öz yeri olan təbii nemətdir. Predmet dəyərlərinə insanın yaratdığı dəyərlər aiddir - əmək məhsullarının istehlak dəyəri, keçmişin mədəni irsi, müasirlərin predmet sərvətləri və dini etiqad predmetləri.

Sosial-siyasi dəyərlər – sosial və siyasi hadisələrin, təzahürlərin, siyasi aktların və hərəkətlərin dəyər əhəmiyyətidir. Belə halda dəyər əhəmiyyətinin meyarları kimi ictimai nemət, siyasi iradə, qardaşlıq, sülh və s. çıxış edir.

Mənəvi (subyektiv) dəyərlər – ictimai şüurun normativ, tövsiyə - qiymətləndirmə təzahürləri, bunlar müvafiq formalar vasitəsilə ifadə olunurlar, insanın sosial və təbii reallıqda yönümünün normativ forması kimi xidmət edir. Məlumdur ki, bu ideyalar, baxışlar həqiqi, əsl və yalan ola bilərlər, lakin bununla dəyər olaraq qalırlar. Dəyərlər sahəsində bütün ideyalar insanların bu və digər münasibətlərini tənzimləmə funksiyanı yerinə yetirərək şəxsiyyətin fəaliyyətinin vasitələri və obyektləri kimi çıxış edirlər.

Belə dəyərlər sahəsində inteqral xarakterə malik mədəniyyət xüsusi yer tutur. Birincisi, ona görə ki, insanların öz tələbatlarının ödənilməsi üçün yaratdıqları maddi, sosial-siyasi və mənəvi dəyərləri birləşdirir. İkincisi, mədəniyyət yalnız yaradılmış dəyərlərin məcmusu deyil, həm də dəyərlərin yaradılması və mənimsənilməsi vasitəsidir, yəni insanın maddi və mənəvi fəaliyyəti çərçivəsində yaradıcı potensialının reallaşdırılması vasitəsidir. (2)

Başqa sözlə, mədəniyyət yalnız predmetlərin və dəyərlərin cəmi deyil, insanın istedadının və başqalarının bacarıqlarının aşkarlanması prosesidir, onun müvafiq dəyər yönümlərinin formalaşdırılmasıdır. Mədəniyyətin özü bir dəyər kimi insanın, onun humanizminin, alicənablığının və yaradıcılıq qabiliyyətinin inkişafına, iradəsinin artmasına, onun təbiət, ictimai münasibətlər və özü üzərində hakimliyinin artmasına kömək edən dəyərdir.

Dizayn yaradıclığı baxımından mühüm cəhət budur ki, cəmiyyət həyatında dəyişiliklərin baş verməsilə dəyərlərin bir növdən başqa bir əhəmiyyət kəsb edən növə çevrilməsi nəzərə alınmalıdır, bu obyektiv faktordur. Cəmiyyət inkişaf etdikcə yeni dəyərlər meydana çıxır və ya əksinə digər dəyərlər əhəmiyyətini itirir, yaxud da həyatdan gedir.

Hər bir nəsil toplanmış təcrübədən istifadə edir, keçmişin nəaliyyətlərini mənimsəyir və yeni dəyərlərin yaradılmasına doğru daha irəli gedir.

Dizayn yaradıcılığında da cəmiyyətin mədəni həyatında olduğu kimi üç növ dəyərlər olur: "dəyərlər – ideallar"; "dəyərlər-ideallar"la qarşılıqlı təsir nəticəsində aşkar edilmiş "şeylər"in xüsusiyyətləri – dəyərlər; dəyər xüsusiyyətlərinə malik "dəyərlər-şeylər". Dəyərlərin daşıyıcıları baxımından, bir qayda olaraq, bunları fərqləndirirlər: fərdi, qrup, yaxud kollektiv, ümumxalq və bəşəri dəyərlər, Şəxsi, yaxud fərdi dəyərlər – bu konkret insan üçün predmetin, hadisənin, ideyaların dəyər əhəmiyyəti. Şəxsi dəyərlər fərdin həyatında mühüm rol oynayır, buna baxmayaraq şəxsiyyətin dəyər yönümünü bunlar müəyyən etmir, ona görə ki, insanın mahiyyəti onun ictimai münasibətlərin məcmusundan ibarətdir. İnkişaf prosesində insanların tələbatları dəyişdikcə onların dəyərlərə münasibəti də dəyişir.

Şəxsi dəyərlərin dizaynerin tərəfindən dərk edilməsi insanın "Bu məhsul mənim üçündürmü?" sualına cavab tapmağa kömək edir. İstehlakçı tərəfindən hansı məhsula üstünlük verilməsi barədə qərarın qəbul edilməsi prosesində tələbatların dərk edilməsi üçün dəyərlər xüsusi əhəmiyyət kəsb edir. Bundan əlavə, dəyərlər həmçinin qiymətləndirmə meyarlarının müəyyən edilməsinə təsir göstərir. Başqa sözlə, dizayn predmetinin onun üçün nə qədər gərəkli olması barədə meyarlarına təsir göstərir. Dəyərlər kommunikasiya proqramlarının səmərəliliyinə də təsir göstərir, çünki istehlakçı özünə belə bir sual verə bilər: "Reklamda göstərilən vəziyyətdə olmaq istərdinmi?". Dəyərlər insanın öz həyatında nail olduğu davamlı motivlər, məqsədlərdir. Müəyyən mənada dizayn yaradıcılığı bu məqsədlərə nail olmaq vasitələrini təqdim edir.

Bu gün Azərbaycan cəmiyyəti müstəqillik illərində özünün yeni formasiyasını yaşayır. Belə bir tarixi şəraitdə cəmiyyətimizdə istər milli, istərsə də bəşəri dəyərlərin şəffaf təzahürü üçün geniş imkanlar açılır. Azərbaycan cəmiyyətində insaların həyat tərzinin öyrənilməsinin aktuallığı, hər şeydən əvvəl, sosiumda baş verən məqsədyönlü sosiomədəni dəyişiliklərlə bağlıdır. Ümumiyyətlə hər bir cəmiyyətdə tədricən təşəkkül prosesi, sonra isə onun faydalı məzmun kəsb etməsi üçün spesifik formaların inkişafı baş verir. Bunun sayəsində insanalrın iqtisadi, siyasi, mədəni həyatı üçün vacib olan şərait yaranır. Cəmiyyət üzvlərinin şəraitinin dəyişilməsi onun təşkilinin vasitələrinin dəyişməsinə, yeni həyat tərzinin dəyişməsinə gətirib çıxarır. Başqa sözlə, burada hər bir cəmiyyət üçün spesifik olan həyat tərzinin əlamətləri və xüsusiyyətlərinin formalaşmasından söhbət gedir.

Hazırda məlum olur ki, Azərbaycanda müstəqillik illərində ictimai proseslərin sürətlənməsi, iqtisadiyyatın struktur komponentlərinin dəyişməsi insanların həyat fəaliyyətinin keyfiyyət, məzmun xarakteristikalarının dinamikasını şərtləndirmişdir, şəxsiyyətin inkişaf prosesi kütləvi şəkildə genişlənmişdir. Sosiomədəni mühitdə baş verən bu dəyişiliklər, obyektiv olaraq insanların yemək, yaşayış yerlərinə, geyimə münasibətdə artan tələbatalrını ödəyən yeni texniki vasitələrin də dəyişməsinə gətirib çıxarmışdır. Öz növbəsində məişət predmetlərinə artan tələbatlar qiymətləndirmə meyarlarında da dəyişiliklər yaratmışdır. Əhalinin rifahının artmaqda olan göstəricilərinin diferensiasiyası, insanların övqatının, onların məşğuliyyətlərinin məzmununun diferensasiyası cəmiyyətdə həyat keyfiyyətində bərbaərsizliyi dərinləşdirmişdir.

Sosiomədəni həyatın dinamikasına artan maraq təbii olaraq "həyat tərzi" anlayışına müraciət edilməsini şərtləndirmişdir. Marağın artmasının bir səbəbi də budur ki, son iyirmi il ərzində müxtəlif ictimai və humanitar elmlər (sosiologiya, sosial psixologiya, psixologiya, linqvistika, tarix, etnoqrafiya, sənətşünaslıq və s.) çərçivəsində insanların həyat fəaliyyətilə, onları əhatə edən sosial, mədəni mühitlə bağlı xeyli emprik faktlar və nəzəri ümumiləşmələr toplanmışdır. Məsələn, insanın ətraf mühitlə fəal əlaqəsini ifadə edən "şəxsiyyət", "fəaliyyət", "tələbatlar", "maraqlar", "dəyər yönümləri", "ünsiyyət" və s.

anlayış və kateqoriyaların nəzəri-praktik baxımdan işlənilməsinə maraq xeyli artmış və bu proseslərlə bağlı dəyərli əsərlər və məzmunlu tədqiqatlar bu gün işıq üzü görməkdədir.

Bununla yanaşı ictimai həyatın öyrənilməsi prosesində bəzi xüsusi anlayışlar, məsələn "sosial struktur", "sosial institutlar", "sosiomədəni və predmet-məkan mühiti", "sivilizasiya", "mədəniyyət obyektlərinin mənası və əhəmiyyəti" kimi anlayışlar tədqiqatlarda geniş yer almış, məna və məzmunca dəqiqləşdirilmişdir. Müəyyən mənada demək mümkündür ki, bir növ problemlərin araşdırılması prosesində nəzəri-metodoloji canlanma baş vermişdir.

Bu dəyişiliklərin fonunda "həyat tərzi" kateqoriyasının tərifi işlənib hazırlanarkən diferensiasiyalı sosiomədəni reallıqla insanların həyat yolunun şəxsiyyət spesifikası xüsusilə vurğulanmalıdır. Qeyd edək ki, insanların öz müxtəlif rəngarəng həyat təzahürlərinin təşkilinə təbiət, sosial, mədəni şəraiti fundamental formayaratma təsiri göstərir. Bunlar şəxsiyyətin sosiomədəni həyatda özünüreallaşdırma formalarını seçməyin konkret-tarixi imkanlarını təmin edir və ya məhdudlaşdırır.

Buna görə də insanalrın həyat tərzini təhlil edərkən onların həyat fəaliyyətinin şəraitini öyrənmək bu gün tədqiqatalrın zəruri aspektidir. Lakin bu şərait anlayışın özünə daxil edilmir, əksinə bir növ insanların öz həyat fəaliyyətini, həyat tərzini təşkili forma və proseslərinin "sosiomədəni determinantları kimi nəzərdən keçirirlər. "Həyat tərzi" anlayışı insanların öz gündəlik həyatının təşkili vasitələri üzərində diqqəti cəmləşdirmir.

Bu anlayış həmçinin müxtəlif sosiomədəni qrupların öz həyat tərzi, başqalarının yaşayış tərzinin qiymətləndirilməsinin sosiomədəni əhəmiyyətinin aşkarlanması ilə bağlıdır. Bununla ümumiyyətlə ictimai və mədəni həyatın cari vəziyyətini öyrənmək mümkündür.

Bunu da qeyd edək ki, həyat tərzi kateqoriyası "həyat ukladı", "həyat səviyyəsi", "həyat keyfiyyəti", "həyat üslubu", "həyat standartı" anlayışlarına nəzərn inteqrativ xarakter daşıyır. Bu anlayışların köməkliyi ilə tədqiqatçılar sosiodinamikanın müxtəlif səviyyələrdə təhlili zamanı "həyat tərzi" kateqoriyasının məzmununu açır və konkretləşdirir, bu anlayışları "həyat tərzi" anlayışının struktur elementləri kimi araşdırırlar.

Demək mümkündür ki, "həyat tərzi" kateqoriyası mədəniyyətin müxtəlif sahələrinin dinamikasının ümumi qanunauyğunluqları ilə və insanların birgəyaşayışı və fəaliyyəti gedişində yaratdıqları konkret hadisələr arasında aralıq vəziyyətdə olan hadisələr sahəsini təsvir edir. Bu, "həyat tərzi" anlayışına "sosial struktur", "sosiomədəni institutlar", "etnos" və s. anlayışlara münasibətdə spesifik və əvəzolunmaz kateqoriya statusunu verir.

İnsanların həyat tərzinin strukturu onların iştirak etdikləri mühitlərin və fəaliyyət növlərinin zamana görə uyğunlaşması nisbi sabit xarakter daşıdığını bildirir. Həmin "mühitlər" və fəaliyyət növləri həyat tərzinin struktur elementləri kimi şəxsiyyət üçün ona həyat şəraitində öz fərdi təcrübəsinin sosial və mədəni əhəmiyyətli bütövlük kimi yaşamasına imkan verən təşkiledici əsas təşkilati zəmin kimi yaşamaq imkanı verir.

Bu struktur ona adekvat şəkildə bir sosial əhəmiyyətli vəziyyətdən başqa vəziyyətə adekvat keçməyə, bu situasiyada başqaları tərəfindən tanınmağa, başqaları içərisində öz yerini tapmağa imkan yaradır.

Yuxarıdakı düşüncələr fonunda qeyd etmək istərdik ki, insanın özü tərəfindən həyata gətirdiyi sosiomədəni dəyişiliklər bu və ya digər dərəcədə dizaynın məhsullarıdır. Bu yalnız bizi əhatə edən predmet aləminə deyil, həmçinin həyatın müxtəlif sosial sahələrinin inkişafına da aiddir. Demək düzgün olmazdı ki, dizaynerlər, bütün dizayn yalnız insanların məişət tələblərinin ödənilməsinə yönəlmişdir. Bu gün dizaynın predmeti daha geniş müstəvidə başa düşülür.

Hazırda yeni dizayn – sosial kontekstin dizaynı yaranmışdır. Dizayn mühit dizaynı və insan təcrübəsinin dizaynı, sosial kontekstli dizayn olmuşdur. Dizaynın predmeti hadisənin layihələndirilməsinə, həyat üslublarının konstruksiya edilməsinə qədər genişlənmişdir.(3, s. 99) Müasir dünyada dizayner yalnız islahatçı və sosiomədəni dəyişiliklərin daşıyıcısı deyil, həmçinin həmin transformasiya prosesinin özünəməxsus nəzarətçisidir.

Müasir Azərbaycan cəmiyyətində dizaynın sosial-mədəni dəyişiliklərin bilavasitə iştirakçısı kimi olmaqla yanaşı, onun özünün bir sosiomədəni dəyər kimi rolu danılmazdır. Praktikadan məlumdur ki, məhz dizayner ideyanın meydana gəlməsi ərəfəsində öz niyyətinə savadlı nəzarət etmək qabiliyyətinə malikdir. Belə bir nəticəyə gəlmək olar ki, dizayn müasir dünyada hər şeydən əvvəl, öz sənətinin

əhəmiyyətini və məsuliyyətini dərk edən peşəkarların fəaliyyətidir, cəmiyyətin sosiomədəni həyatına yeni ideyalar gətirən həyat mövqeyidir. Bu gün demək mümkündür ki, dizayn özü həyat tərzidir (4), özünütəkmilləşdirmə, dolğun yaradıcılıq sahəsidir.

Dəyişiliklər həyatımızın ayrılmaz hissəsidir. Texniki tərəqqi sosial və fərdi tərəqqinin tərkib hissəsinə çevrilmişdir. Bu hal isə yeni problemlərin meydana çıxmasının səbəbi olur. İnsan dizaynerdən özünə fərdi yanaşmanı tələb edir, insanlar, aydındır ki, müxtəlifdirlər, şəxsiyyətin fərdi hissiyatı müxtəlif amillərlə müəyyən edilir: yaş dərəcəsi, cinsi, təhsillə, məşğuliyyətilə və digər şəxsiyyət keyfiyyətlərilə.

Bu gün dizaynerlə istehlakçının əməkdaşlığının effektivliyindən geniş bəhs edilir və bu məqsədlə "partisipasion" layihələndirmə ideyasından istifadə olunması təklif edilir. Hələ 1996-cı illərin sonundan geniş müzakirə olunan "partisipian dizayn" anlayışı çoxlarının nəzərini cəlb etmişdir, birgə iştirak metodu isə layihəçilər qruplarının – memarların və sənaye dizaynerlərinin işinin təşkilində tətbiq edilmişdir.

Layihə praktikası sahəsində qərarların qəbul edilməsində ictimaiyyətin birgəiştirakı metodu əhalinin müxtəlif təbəqələrinin rəyinin başa düşülməsinə ciddi yanaşmağı tələb edirdi. (3, s. 132) Ədəbiyyatda layihəçi ilə istehlakçının birgə iştirakının bir sıra formaları təklif olunur. Bunların içərisində Alternativ iştirak forması daha məqbul sayıla bilər. Bu metoda görə, dizaynerlə istehlakçının birbaşa ünsiyyəti nəzərdə tutulur.

Belə halda dizayner özünün layihə təkliflərinin qeyri-peşəkarlara aydın başa düşülən şəkildə çatdırmağa çalışır, özünün professional ideyalarını təkliflərini vizuallaşma (plan, çertyoj və s.) formasında bildirir. Onu da qeyd edək ki, alternativ birgəiştirak forması yalnız layihəçi ilə istehlakmının bir-birlərini şəxsən tanıdıqları təqdirdə mümkündür. Son nəticədə isə, dizaynın da iştirak etdiyi sosiomədəni dəyişikliklərin məqsədi insanı gözəllik aləmilə, harmonik həyat keyfiyyətləri və peşəkar dizaynla yaxınlaşdırmaqdır.

Bu kontekstdə cəmiyyətin sosiomədəni həyatında "insan-şey" əlaqələrini tənzimləmək müasir dizayn yaradıcılığının başlıca funksiyasıdır. Bizcə, müasir Azərbaycan cəmiyyətinin sosiomədəni dəyərlərinin daha keyfiyyətli dərk edilməsində dizayner və onun müasir estetik tələblərə söykənən professional yaradıcılığı mühüm rol oynamalıdır. "Dizayner üslub və həyat tərzi" kimi deviz sosiomədəni həyatımızın ayrılmaz hissəsi olmalıdır.

Biz elə bir dinamik inkişaf dövründə yaşayırıq ki, hər bir vətəndaş kimi dizayner də Azərbaycan cəmiyyətinin sosio-mədəni dəyərlərini dərindən öyrənməli, onun elementlərindən yaradıcılıqla istifadə etməlidir. Dizayner bir yaradıcı şəxsiyyət kimi dərk etməlidir ki, biz ideologiya əsrində yaşayırıq, ona görə də dövlətin və millətin həmrəyliyinin təmin olunduğu cəmiyyətdə sosiomədəni həyatın daim təkmilləşdirilməsi zərurəti qalacaqdır, dizaynerin başlıca funksiyası estetik prinsipləri rəhbər tutaraq cəmiyyətin mədəni həyatını, cəmiyyətin hər bir üzvünün estetik dünyagörüşünü, onun sosiomədəni baxışlarını inkişaf etdirmək üçün yaradıcılığının bütün resurslarından bacarıqla istifadə etməli, cəmiyyətimizin sosiomədəni məkanını gözəllik qanunlarına uyğun zənginləşdirməlidir.

## ƏDƏBİYYAT


1. Чижиков В.В. Дизайн в системе культурных ценностей. Автореферат на соискание ученой степени доктора философских наук. М., 2006
2. Человеческий потенциал как совокупность духовного, образовательного, интеллектуального, творческого и трудового потенциала. studio-pedia.ru
3. Мосоров А.М., Мосорова Н.Н. Теория дизайна. Екатеринбург: Печатный дом Солярис, 2004, 412с.
4. Р.Арсеньв. Дизайн как образ жизни. http: // www.youtube.com

**ABSTRACT**

**Elfana Gasımova**

**DESIGN AS A SOCIO-CULTURAL VALUE OF THE AZERBAIJANI SOCIETY**

Along with the direct involvment of design in the socio-cultural changes of the modern Azerbaijani society, its role as a socio-cultural value is undeniable. We know from the experience that namely the designer is able to control his intentions educatedly before the formation of a design idea. Such conclusion can be made that in the modern world, the design is, above all, the activity of the professionals who are able to perceive the importance and responsibility of their professional activities, a life position bringing out new ideas to the socio-cultural life of the society. Today it is possible to say that the design itself is a way of life, the area of self-improvement and rich creativity. In more qualitative perception of the socio-cultural values of the Azerbaijan society, the designer and his professional creativity that is based on the modern aesthetic requirements should play an important role. The cultural motto such as "Designer style and way of life" should be an integral part of our socio-cultural life.

**РЕЗЮМЕ**

**Эльфана Касумова**

**ДИЗАЙН КАК СОЦИОКУЛЬТУРНАЯ ЦЕННОСТЬ АЗЕРБАЙДЖАНСКОГО ОБЩЕСТВА**

На ряду с непосредственным участием дизайна в социокультурных переменах современного азербайджанского общества, неоспорима и роль самого дизайна в качестве социокультурной ценности. Практика показывает, что накануне формирования идеи именно дизайнер обладает умением грамотно направить свой замысел. Таким образом можно сделать вывод, что дизайн в современном мире прежде всего сфера деятельности профессионалов, осознающих важность и ответственность своей работы, а также является жизненной позицией с новыми идеями для социокультурной жизни общества. Сегодня мы можем сказать, что дизайн является образом жизни, самосовершенствующей и полноценной сферой деятельности. Для более качественного восприятия социокультурных ценностей азербайджанского общества не маловажную роль должен играть сам дизайнер и его профессиональная деятельность, опирающаяся на современные эстетические требования. Девиз "Дизайнер, стиль и образ жизни" должен стать неотъемлемой частью нашей социокультурной жизни.

NDU-nun Elmi Şurasının 19 oktyabr 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 02).
Məqaləni çapa təqdim etdi: Fəlsəfə üzrə elmlər doktoru, professor M.Rzayev

**MURAT AHMET OĞLU ÖZEN**
Bakı Slavyan Universiteti
*oraymurat@hotmail.com*

**UOT: 327; 94(479.24)**

# CƏNUBİ QAFQAZDA MÜNAQİŞƏLƏR VƏ REGİONAL TƏHLÜKƏSİZLİK PROBLEMİ

**Açar sözlər:** *Cənubi Qafqaz, təhlükəsizlik problemi, Türkiyə siyasəti*
**Key words:** *South Caucasus, problem of security, Turkey's policy*
**Ключевые слова:** *Южный Кавказ, проблема безопасности, политика Турции*

Cənubi Qafqazda münaqişələrin əsas mərkəzlərinin yaranma səbəblərinə keçməzdən əvvəl, fikrimizcə, ümumiyyətlə mövcud geosiyasi vəziyyət barədə bir neçə söz demək məqsədəuyğundur. Sovet İttifaqının dağılması Avrasiyada xüsusi geosiyasi boşluğa gətirib çıxardı. Belə ki, bu, Cənubi Qafqazın inkişafı üçün nəinki potensial olaraq müsbət imkanlar açan, eyni zamanda, həm regional, həm də qlobal səviyyələrdə müəyyən bir təhlükə daşıyan yeni regional sistem yaratdı. Bu önəmdə ilk növbədə Rusiya olmaqla keçmiş sovet respublikalarının əsasən enerji məsələlər ilə bağlı narahatlıq keçirmişdi. Qərb qismən gözləmə mövqeyini tutmuşdu. Türkiyənin strategiyası isə bu siyasi üçbucaqda bəlkə də ən iddialı idi.

Amma hər halda bu, nəticəsi bəlli olmayan məsələ idi: bir tərəfdən, yeni minilliyin əvvəlindən başlayaraq Moskva Cənubi Qafqazda keçmiş nüfuzunu tam saxlamağa, eləcə də burada təhlükəsizlik problemlərinə uğurla nəzarət etməyə qadir olmadığını nümayiş etdirdiyi halda, Türkiyə bu bölgədə lider olmaq üçün yaxşı şans əldə etdi və yeri gəlmişkən, bu, yalnız Sovet İttifaqının əsas imperiya mövqeyinin təbii və qanuna uyğun olaraq zəifləməsi ilə bağlı deyil; sadəcə Türkiyənin, XX-XXI əsrlərin qovşağında Rusiya və Qərbdən fərqli olaraq, yaxın tarixi-mədəni, etnik, siyasi və hətta dil əlaqələri baxımından Cənubi Qafqaza istinad etməsi mümkün olmuşdu. Əlbəttə, Türkiyənin Cənubi Qafqaz ilə, o cümlədən, Mərkəzi Asiya ilə bu əlaqələri uzun illər mövcud olmuşdu.

Digər tərəfdən, keçmiş SSRİ-nin dezinteqrasiyası asanlıqla Rusiyaya müxtəlif dinlərin və millətlərin ən sıx halda yaşadığı Cənubi Qafqaz regionunda bir sıra ayırıcı xətlərin aparılmasına imkan vermişdi. Amma bu, bir zamanlar Azərbaycanda müxtəlif dinlərin nümayəndələrinin birlikdə təhlükəsiz və heç bir problem olmadan yaşamağa şərait yaratmış demarkasiya sərhədləri deyildi. Tezliklə Cənubi Qafqazın ərazisində olan belə ayırıcı xətlər əsasən dini zəmində ziddiyyətlərin gərginləşməsinə səbəb oldu. Prinsip etibarı ilə onlar 1990-cı illərin sonunda yaranmağa başladılar. Daha sonra Rusiya Federasiyası tərəfindən etniklərarası münaqişələrin mənşəyi və təhrikinin yeni dövrü üçün şəraiti yarandı.

Beləliklə, üç Qafqaz respublikası üçün müstəqillik eyni zamanda öz təhlükəsizliyi yolunda bəzi maneələrə rast gəlmək deməkdir. Cənubi Qafqazın bəzi sərhəd bölgələrinə Türkiyənin coğrafi yaxınlığını nəzərə alaraq, Rusiya ilə sərhəddə bufer zonanın formalaşması haqqında danışa bilərik. Eyni zamanda, şimal-şərq sərhədində qeyri-sabit yeni ocaqların alovlanması riski baş qaldıra bilər. Eyni zamanda, son beş il ərzində bəzi Qərb ölkələri (2010-2014) radikal islamçılığın yayılmasından ehtiyat edirdi onlar hesab edirdi ki, radikal islamçılıq İranın və ekstremist hərəkatın dəstəyi ilə Sovet İttifaqının dağılmasından sonra yaranmış boşluğu doldura bilər.

Nəhayət, Sovet İmperiyasının dağılması Şimali Atlantika Alyansının rolu, yeri və əhəmiyyətinə kardinal surətdə yenidən baxılmasına gətirib çıxardı. Bu, xüsusilə, Türkiyənin yüksək beynəlxalq statusunun itirilməsi üçün təhlükə idi. Ona görə də Türkiyə hökuməti son illərdə, obyektiv gö-

ründüyü kimi, ağılla hərəkət edir: Şimali Atlantika Alyansı və NATO-nun gücü qarşısında "xal itirmək" istəmədən, o, indiki vəziyyətdə müstəqil respublikalar ilə inkişaf və gələcək əməkdaşlığa yönəlmiş çevik strategiyasını davam etdirir. Bununla belə Türkiyə "bir güllə ilə iki quş vurmuş" olur: paralel olaraq Qərbin gözündə cəlbediciliyini saxlamaqla yanaşı Avro-Atlantik müəssisələrində vasitəçi mövqe (ən azı müvəqqəti) tutur. Bu da öz növbəsində Türkiyə üçün ABŞ və Avropa İttifaqı ilə dialoqda əhəmiyyətli arqumentin əldə edilməsi deməkdir.

Qeyd etmək lazımdır ki, Cənubi Qafqazdakı münaqişələr, əlbəttə, baş verə bilər. Həyat həqiqətlərindən uzağa getmək olmaz. Onlardan bəzilərinin uzun tarixi var. Amma onlardan, bizim fikrimizcə, ən ciddisi, ən ağrılısı, indiyədək bizi narahat edən, Azərbaycan sərhədlərinin təhlükəsizliyini təhlükə altında qoyan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir.

XIX əsrin sonları – XX əsrin əvvəllərində Krım və Volqa-Ural regionu ilə yanaşı, Azərbaycan türk milli hərəkatının əsas beşiyi olmuşdur. Məhz buna görə də iki ölkə arasında qardaşlıq ruhu Mərkəzi Asiya dövlətləri ilə müqayisədə daha möhkəm və sarsılmazdır. Dil yaxınlığı da Azərbaycan və Türkiyə arasında münasibətlərin möhkəmlənməsinə öz töhfəsini vermişdir.

Aydındır ki, belə yaxın və çox səviyyəli əlaqələr Türkiyəyə Cənubi Qafqazda regional təhlükəsizlik probleminin həllinə tolerant yanaşmağı diktə edir. Bu baxımdan, uzunmüddətli məqsədlər və Azərbaycana qarşı Türkiyə xarici siyasətinin prioritetləri aşağıdakılardır:

1. Azərbaycanın müstəqilliyinə dəstək;
2. Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın suverenliyini dəstəkləmək;
3. Cənubi Qafqaza Rusiyanın müdaxiləsinin qarşısını almaq və ya onun iştirakını məhdudlaşdırmaq cəhdi;
4. Türkiyənin ərazisi vasitəsilə Azərbaycanın neft hasilatı və ixracında iştirak (1, s. 60).

Azərbaycan 1991-ci il avqust 30-da müstəqilliyini elan etsə də, Türkiyə bunu tanımağa tələsmədi. Türkiyə hakimiyyəti Sovet İttifaqının dağılmasından sonra şok vəziyyətindən çıxmamış, ənənəvi ehtiyatlı xarici siyasətə seçmişdi. Buna baxmayaraq, artıq 1991-ci ilin noyabrın 9-da, Türkiyə Azərbaycan Respublikasını tanımaq üçün hazır olduğunu bildirdi. 14 yanvar 1992-ci il iki ölkə arasında diplomatik münasibətlər quruldu.

Azərbaycan müstəqillik əldə etdikdən sonra qısa müddətdə, Türkiyə və Azərbaycan hökuməti texniki və mədəni sahədə qarşılıqlı sıx münasibətlər qurmuşdu. Bu əlaqələr 1992-ci ildə prezident seçkilərində AXCP-dən olan namizəd Əbülfəz Elçibəyin qələbəsindən sonra daha güclü inkişaf etməyə başladı. Özünü "Atatürk əsgəri" adlandıran Elçibəy, dəfələrlə Türkiyə ilə federasiyada birləşmək, həmçinin Şimali və Cənubi Azərbaycanı yenidən birləşdirmək istəyini vurğulayırdı.

Eyni zamanda, müsbət Azərbaycan və "türk" millətçi imicinin olmasına baxmayaraq, Azərbaycan və Türkiyə ictimaiyyətinin gözündə Elçibəy sadəlövh və təcrübəsiz siyasətçi kimi görünürdü. Onun siyasi fəaliyyəti nəinki Rusiya və İranda narazılıq yaradırdı, həm də Türkiyəni narahat edirdi. Çünki bu, Ankaranın Moskva ilə Tehran arasında ciddi qarşıdurmasına səbəb ola bilərdi. Buna görə də, Türkiyə Elçibəyin hakimiyyəti dövründə Cənubi Qafqazda regional təhlükəsizlik məsələləri ilə bağlı neytrallıq mövqeyini tuturdu.

1993-cü ilin iyununda hərbi çevrilişdən sonra Elçibəy prezident vəzifəsindən kənarlaşdırıldı, onun yerinə hakimiyyətə Heydər Əliyev gəldi. Ədalət naminə qeyd etmək lazımdır ki, bununla bağlı Türkiyənin ilk reaksiyasının ehtiyatı daha çox idi. Belə tezliklə rəhbərliyin dəyişməsindən narazı qalan bəzi Qərb siyasətçiləri Türkiyənin guya Azərbaycanda köhnə dost rejimini saxlamaq üçün ən yaxşı səylərindən istifadə edə bilməməyi barədə danışmışdılar (lakin Azərbaycanın mövqeyi ilə bu, tamamilə haqlı idi və tarix bunu sübut etdi). Məsələn, bu barədə S.Kornell və bir sıra digər Qərbpərəst analitiklər yazmışdılar. Digər tədqiqatçılar hesab edirdilər ki, Elçibəyin hakimiyyətdən getməsi ilə "türk modeli" başa çatdı.

Lakin, hər iki halda bu həqiqətə uyğun deyildi. İlk əvvəl Heydər Əliyev həqiqətən də Rusiyayönlü mövqedə dayanmışdı, MDB-yə, Xəzər neftinin istismarı üzrə Azərbaycan Beynəlxalq Şirkətinin layihəsinə Rusiyanın (Lukoil) daxil olmasına dair danışıqların yeni mərhələsinə qoşulmaq üçün razılıq vermişdi. Həmin razılığa əsasən 1994-cü ilin martında Bakı səhmlərinin 10%-i Rusiyaya verildi. Lakin bütün bunlar müdrik addımlar idi və Azərbaycanın o zamankı siyasi vəziyyəti buna haqq qazandırırdı. Rusiya ilə sıx əlaqələrin qurulmasına çalışarkən H.Əliyev bunun Ermənistan-Azərbaycan

münaqişəsində balanslaşdırılmış mövqe tutacağına ümid edirdi. 1990-cı illərin ortalarında Türkiyə vəziyyətə müdaxilə və ya manipulyasiya edə bilmədən əsasən müşahidəçi rolunu oynamışdı. Bu qismən Rusiyaya qarşı ənənəvi ehtiyatlı siyasət inersiyası ilə, qismən də o dövrlər görünməmiş qlobal vəziyyətin qarışıqlığı ilə izah olunurdu.

Amma Kozma Prutkovun dediyi kimi, istənilən bir işdə "dərinliyə nəzər salmaq" lazımdır. İki dövlətin yaxınlaşması üçün atılan bütün addımlara baxmayaraq, H.Əliyev eyni zamanda cəsarətlə Azərbaycan ərazisində Rusiya qoşunlarının yerləşdirilməsinə qarşı çıxdı. Buna görə də gözlənilməz çətinliklər də yaranırdı. Məsələn, adıçəkilən layihəni Rusiya Xarici İşlər Nazirliyi tanımadı, onu qeyri-qanuni elan etdi, ona görə ki, Rusiya rəsmi olaraq Xəzər dənizinin statusunu bir göl kimi tanıyır və Xəzəryanı dövlətlərə onun ehtiyatlarının birgə istismarını təklif edirdi.

Amma Heydər Əliyevin hakimiyyəti dövründə Azərbaycanın siyasəti daha çox real və obyektiv idi. O, Qafqazda dominant təsir əldə etmək istəyən hər hansı bir böyük beynəlxalq oyunçu ilə həddindən artıq yaxınlaşmaqdan imtina edirdi. Türkiyə ilə qarşılıqlı əlaqələr yaratmaq üçün Azərbaycan nazirləri Ankaraya səfərlərini bərpa etdilər. 28-29 dekabr 1993-cü ildə Azərbaycanın Xarici İşlər Naziri Həsən Həsənovun səfəri zamanı Türkiyə Naxçıvana müdaxilə etmək üçün beynəlxalq hüquqi status hüququ aldı. 1994-cü ildə H.Əliyev Türkiyəyə səfər etdi və S.Dəmirəl ilə birlikdə Azərbaycan və Türkiyənin "bir millət, iki dövlət" olduğu bəyanatı ilə çıxış etdi. H.Əliyevi səfər zamanı Türkiyə ilə yaxınlığın əhəmiyyətini vurğulayan 80 nəfərdən ibarət böyük nümayəndə heyəti müşayiət edirdi. Prezident Dəmirəl Türkiyənin beynəlxalq arenada Azərbaycanın "ədalətli tələblərini" dəstəkləməyə davam edəcəyini bir daha vurğuladı. O, həmçinin "ermənilərin hücumlarını" pislədi və "azərbaycanlı qardaşlarımıza 70 ildən sonra demokratik vətəndaş dövlətinin bərpası uğrunda mübarizədə kömək edəcəyini" vəd etdi. Əliyev keçmiş haqqında düşünməməyə üstünlük verərək, Dağlıq Qarabağda qeyri-zorakı vasitələrlə müharibənin dayandırılması arzusu ilə çıxış etdi: "Azərbaycanın öz əsgərləri kifayət qədərdir və bu gələcəkdə də belə olacaq ... Mən bir daha türk qardaş və dostlarımızı əmin edirəm ki, Azərbaycan, heç vaxt heç bir halda öz müstəqilliyindən imtina etməyəcək". NATO və MDB arasında dinc əməkdaşlığa dair saziş imzalandıqdan sonra, 5 may 1994-cü ildə iki lider hərbi-siyasi strategiyasının gələcəyini müzakirə etmək üçün yenidən bir araya gəldilər (1, s. 185).

Lakin, biz Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycanın Türkiyənin müdaxiləsindən çəkinməyə çalışdığını vurğulamalıyıq. Azərbaycanın Türkiyədəki səfiri M.Əliyevin sözlərinə görə, Azərbaycanın ən başlıca məqsədi Qərblə Türkiyənin əlaqələri vasitəsilə münaqişəni Azərbaycan tərəfindən dünya ictimaiyyətinə çatdırmaq idi və beləliklə də Şimal sərhədlərinin təhlükəsizliyi təmin edilirdi (2, s. 188). (M.Əliyev Azərbaycan ərazisində əsasən Şuşa və Ağdam zonalarını nəzərdə tuturdu)

Türkiyə öz növbəsində əvvəllər olduğu kimi, XX əsrin sonunda da, onun tərəflər arasında qərəzsiz vasitəçi roluna imkan verən neytral bir mövqe tuturdu. Türk diplomatları, xüsusilə o zamankı Xarici İşlər Naziri Hikmət Çətin vasitəçi diplomatiya çərçivəsində Qafqaz və Avropa paytaxtlarına bir neçə dəfə səfər etmişdilər və bununla da ATƏT-in gündəliyinə bu məsələnin daxil edilməsi baxımından çox faydalı olduğu sübut edilmişdir. ATƏT-in Praqa görüşündə Türkiyə bu təşkilatı Qarabağın Azərbaycanın ayrılmaz və bölünməz hissəsi olduğunu tanımağa təhrik etmişdi. Çətinin 1992-ci ilin iyun ayında Qafqazda münaqişə və onun sülh yolu ilə həlli üçün axtarışlarda vasitəçilik edən ATƏT-in Minsk qrupunun yaradılmasında böyük rolu olmuşdu.

Bundan başqa, Azərbaycanın xahişi ilə Çətin münaqişəyə Qərb hökumətlərinin diqqətini cəlb etmək üçün öz əlaqələrindən istifadə etmişdi. Regional təhlükəsizlik məsələləri ABŞ dövlət katibi Ceyms Beyker ilə telefon danışıqları zamanı müzakirə edilmişdi. Baş nazir Dəmirəl ehtiyatlı siyasət yürütmələrini Türkiyənin müdaxilə üçün hüquqi bazasının olmaması ilə əsaslandırdı.

Türkiyə rəsmiləri Dağlıq Qarabağ problemi ilə bağlı müxtəlif təşəbbüslər irəli sürmüşdürlər. 1992-ci ildə prezident Özal və Xarici İşlər Naziri Hikmət Çətin ilk dəfə ABŞ Dövlət Departamentindən Pol Qobl tərəfindən hazırlanmış "ikili formul"u irəli sürdülər. Sözügedən formula görə, Azərbaycan ermənilərin əsasən məskunlaşdığı Qarabağın dağlıq hissəsindən əl çəkir və həmin hissə Ermənistanla birləşir. Bunun əksinə olaraq, Ermənistan Naxçıvanla əlaqəsini təmin etmək üçün cənubda Zəngəzur dəhlizini Azərbaycana verir.

Ancaq Türkiyənin vasitəçilik cəhdi uzun sürmədi. 1992-ci ilin fevralında Qarabağ şəhəri Xocalıda dinc azərbaycanlı sakinlərə qarşı ermənilər tərəfindən qanlı zorakılıq tətbiq olundu. "Xocalı soyqırımı"ndan sonra Türkiyədə ermənilərin riyakar siyasətini pisləyən, minlərlə insanın iştirakı ilə keçirilən nümayişlər başladı və Azərbaycanın xeyrinə Türkiyənin müdaxilə etməsi tələbi ilə şüarlar səsləndi. Tamamilə haqlı olaraq prezident Özal açıq şəkildə Ermənistanı hədələdi. Belə ki, Türkiyənin Baş naziri Tansu Çillər Ermənistanın Naxçıvana hücum edəcəyi təqdirdə, o, TBMM-dən müharibə sanksiyaları tələb edəcəyi ilə təhdid etdi. Lakin, daha təmkinli olmağı tövsiyə edən siyasətçilər də var idi. Onların da öz həqiqətləri var idi. Bu heç bir siyasi xətlərlə kəsişməyən məsələlər idi. O zamanlar Dəmirəl Türkiyənin müharibədə Azərbaycanın tərəfində çıxış etməsini, Rusiya və Qərb dövlətləri tərəfindən xristianlar və müsəlmanlar arasında mübarizə kimi şərh edəcəkləri haqda xəbərdarlıq etmişdi. Bu isə ABŞ-Türkiyə münasibətlərinə ciddi mənfi təsir göstərəcəkdi. Türkiyə XİN-in bu cür bəyanatları onu vasitəçilik rolunu oynamaq imkanından məhrum edirdi.

1994-cü il iyun ayında Baş qərargahın rəisi general Doğan Güreş Azərbaycan ordusuna kömək məqsədilə türk əsgərlərini göndərməyə hazır olduğunu bildirdikdə Türkiyənin mövqeyi bir az sərt səslənmişdi. Rusiyanın Müdafiə Naziri Qraçov bu mövqeyə tez reaksiya verərək, Rusiyanın Türkiyə ordusunun müdaxilə etməsinə imkan verməyəcəyini ifadə etmişdi. O demişdi: "Rusiyanın həm Azərbaycanda, həm də Cənubi Qafqaz ərazisində öz siyasi maraqları var" (3, s. 4). Şapoşnikov isə məharətlə Türkiyənin təhrikçi olmağa risk etdiyini manipulyasiya edərək, üçüncü dünya müharibəsinin baş verme ehtimalını xatırlatmışdı.

Biz hesab edirik ki, Qərbin də qatıldığı və Rusiya tərəfindən söylənilən belə bəyanatlar siyasi böhtandır, sadəcə bir şişirtmədir. Birincisi, Türkiyənin Baş Qərargah rəisi general Doğan Güreşin sözləri hərfi mənada başa düşülməməlidir: o, sadəcə olaraq şovinist erməni hakimiyyətini qorxutmaq istəmişdi. İkincisi, hazırda gördüyümüz kimi hər hansı bir hərbi müdaxiləyə yol verilmədi. Üçüncüsü, daxili siyasi təzyiq müəyyən dərəcədə uzun müddət Dağlıq Qarabağ münaqişəsində Türkiyənin neytral qalmasına imkan vermirdi. Ermənilərin Qarabağa və digər Azərbaycan torpaqlarına hərbi müdaxiləsi, azərbaycanlıların öz doğma torpaqlarından qaçqın düşməsindən bərk narahat olan ictimai rəy Azərbaycanın tərəfini tutdu. Bundan əlavə, Türkiyənin Böyük Millət Məclisinin siyasi partiyaları Dağlıq Qarabağ məsələsində zəif dövlət siyasətini tənqid edirdilər. Millətçi Fəhlə Partiyasının lideri Alparslan Türkeş "Türkiyənin Azərbaycan torpaqlarının işğal edilməsinə laqeyd baxa bilmədiyini" vurğulayaraq, hərbi müdaxilə ideyasını müdafiə etmişdi (4). Ana Vətən Partiyasının sədri və müxalifət lideri Məsud Yılmazın mövqeyi hökumətə qarşı açıq çağırış olmuşdu. O, Ermənistan sərhəddində qoşunların yerləşdirilməsində israrlı idi və Türkiyənin Dağlıq Qarabağın əvvəlki statusunun qorunmasına təminat kimi öz rolunu qoruyub saxlamağı ictimaiyyətə xatırladırdı. Bir sıra hallarda Yılmaz, Ermənistanın hərəkətlərinə müqavimət əzmini nümayiş etdirmək üçün Ermənistan və Naxçıvan arasındakı sərhəd yaxınlığında türk qoşunlarını yerləşdirməyə ehtiyac olduğunu vurğulamışdı.

Türkiyə Ermənistana hər hansı bir silah satışına embarqo da tətbiq etmişdi. 1992-ci ilin mart ayında Türkiyə türk hava yolları vasitəsilə Ermənistana uçan bütün təyyarələrin yoxlayacağını açıqlamışdı. Bundan başqa, Türkiyə Ermənistana qarşı iqtisadi blokadaya qoşulmaqda Azərbaycana kömək etdi, bu isə Ermənistana yardımların çatdırılması üçün hava məkanından istifadəni qadağan edirdi. Mart ayının ortalarında Dəmirəlin mövqeyi dəyişməyə başladı. "Washington Post" qəzetinə müsahibəsində, o, həlledici fəaliyyət tələb edən insanların ağır təzyiqi altında olduğunu ifadə etmişdi və buna görə də Türkiyənin hərbi müdaxiləsini istisna etmirdi (5).

Dəmirəl Özalın yerinə prezident postuna nail olduqdan sonra Ermənistana qarşı və Dağlıq Qarabağ məsələsində Türkiyənin münasibəti bir qədər yumşaldı. Ankara beynəlxalq forumlarda Azərbaycanın mövqeyini təşviq etmək üçün diplomatik səylərini indi milliyətçi və anti-erməni ritorikadan çəkindirirdi.

Öz ərazisindən Ermənistana nəzərdə tutulan humanitar yardımı nəql etmək üçün Türkiyənin razılığı, beynəlxalq təşkilatlarda, xüsusilə BMT-də Azərbaycana diplomatik dəstəyin təmin edilməsinə mane olmurdu. Ankara İranın sülhməramlı qismində çıxış etməsinə və Rusiyanın Cənubi Qafqazda hərbi və ya digər vasitələrlə öz mövqeyini möhkəmləndirməsinin qarşısını almağa cəhd edirdi. Ermənistan silahlı qüvvələri Kəlbəcəri işğal edəndə, Dəmirəl ölkəsinin Azərbaycanın çətin vəziyyətində onu tək

qoymayacağını bildirmişdi, həm də əlavə etmişdi ki, Türkiyə bu problemin həllində "başını itirməməyə" cəhd edəcək (6).

Daha sonra, Ankara, ilk növbədə BMT və ATƏT-də bir sıra təşəbbüslər irəli sürmüşdü. BMT-nin TŞ-nin beş daimi üzvlərinə o, Ermənistanın BMT-nin qətnamələrinə əməl etmədiyini və onun işğalçılıq siyasətinin tamamilə qəbuledilməz olduğunu bildirmişdi. 1993-ci ilin may ayında Amerika Birləşmiş Ştatlarları və Rusiya Federasiyası ilə birlikdə Türkiyə Dağlıq Qarabağın sülh planını hazırladı və az sonra 1993-cü ilin iyulunda o, türk mətbuatının adlandırdığı "diplomatik hücum"a başladı. Bu baxımından onların öz mövqelərinin yayılması məqsədiylə Türkiyənin türkdilli xəbər şəbəkəsindən geniş istifadə etməsi ibrətamiz idi. Bununla yanaşı, Ermənistanın hərəkətlərinin pislənilməsi üçün Ankara 1993-cü ilin iyul ayında İstanbulda keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) zirvə toplantısından istifadə etdi.

Təəssüf ki, Dağlıq Qarabağda hərbi əməliyyatların hələ də tam aradan qaldırılmadığını etiraf etməliyik. Füzuli, Cəbrayıl və Ağdam rayonları Ermənistanın hücumlarına məruz qaldıqdan sonra, Türkiyə BMT Təhlükəsizlik Şurası qarşısında məsələ qaldırdı. BMT-də bir çox müşavirələrdən sonra işğal olunmuş ərazilərdən Ermənistan qoşunlarının dərhal, tam və qeyd-şərtsiz azad edilməsi tələbi ilə bir neçə qətnamə qəbul edildi. BMT, nəhayət, Ermənistanın işğalçı qüvvələrə dəstək verməməsini tələb etdi və Azərbaycanın ərazi bütövlüyünü bir daha təsdiqlədi. Türkiyə də itaət etmədiyi halda təcavüzkara qarşı müvafiq sanksiyalar tətbiq edilməsini təkid edirdi. Çox güman ki, Rusiya bu təklifə qarşı Təhlükəsizlik Şurasında öz vetosunu tətbiq edə bilərdi. O, Dağlıq Qarabağ münaqişəsi üzrə danışıqlar prosesində Türkiyəni tərəfdaş kimi tanımırdı. Rusiyanın Ankaradakı səfiri Albert Çernışov 2013-ci ildə Türkiyə mətbuatına müsahibəsində ifadə etmişdi: "Bəzi insanlar fikirləşirlər ki, Türkiyə boşluğu doldurmalıdır, ancaq heç bir boşluq yoxdur. Rusiyanın bu regionda dərin tarixi, iqtisadi və siyasi maraqları var". Əlbəttə ki, belə bəyanatlarla Rusiya Cənubi Qafqazda regional təhlükəsizlik məsələlərində və hərbi qarşıdurma probleminin həllində "ağ bayraq" qaldıraraq sadəcə "qorunmağa" çalışırdı.

Sonda, münaqişənin sülh yolu ilə həlli üçün səyləri 1994-cü ildə Azərbaycan və Ermənistan arasında imzalanan müvəqqəti atəşkəs sazişinə gətirib çıxardı. Ermənistan tərəfindən Azərbaycan ərazilərinin 20%-i işğal olundu. Türkiyə sayəsində, Ermənistan istisna olmaqla, ATƏT-in bütün üzvləri Azərbaycanın ərazi bütövlüyü prinsipini tanıdılar. BMT də bu mövqeylə razılaşırdı. Münaqişənin sülh yolu ilə həllinə gəldikdə isə Türkiyə münaqişə tərəfləri arasında ikitərəfli danışıqları müdafiə etməkdə davam edir. O, hələ də Azərbaycanın işğal olunmuş ərazilərindən Ermənistan qoşunlarının çıxarılmasını diplomatik münasibətlərin qurulması üçün əsas şərt kimi qoyur.

## ƏDƏBİYYAT


1. Nuriyev E. Geopolitical Breakthrough and Emerging Challenges // The Case of South Caucasus, II Perceptions, Vol. 34, No. l, January 1998, 197 p.
2. Freddy De Pauw, Turkey Policies in Transcaucasia in Bruno Coppieters, (ed.), Contested Border in the Caucasus, Brussels, VUB Press, 1996, 275 p.
3. Moscow News, 15 July, 1994.
4. FBIS-WEU, 27 February 1992, quoting Anatolia News Agency, 25 February 1992.
5. The religious conservatives newspapers, Zaman, Turkiye, 5 Mart 1992.
6. FBIS-WEU, 27 February 1992, quoting Turkiye Radyolan, 12 March 1992.


## ABSTRACT

## CONFLICTS AND REGIONAL SECURITY ISSUES IN SOUTH CAUCASUS


The article gives a brief historical excursion into the history of relations between several countries: Russia, Turkey and the Western countries, mainly the United States, which had a definite strategic interests in the South Caucasus. First of all, it found that the facts of the Azerbaijani and Turkish history since the beginning of the XX century shows a significant clash of geopolitical and

strategic interests with Turkey, Russia and most major Western powers. This was primarily for the reason that the South Caucasus, especially Baku, in the international aspect was the focus of the struggle for all kinds of natural and man-power resources.

On the territory of the entire South Caucasus, there have been significant developments in the field of rivalry over the export routes for Caspian oil. Until recently, Russia and Turkey disagreed on the ways of delivering oil to Western markets. By mid-2011-2012, the Russian government withdrew its objections to the Baku-Tbilisi-Ceyhan project. Instead of sabotaging this project, Russia has taken steps to complete the construction of the high-throughput pipeline Tengiz-Novorossiysk. In addition, Moscow urged Russian firms to participate in the construction and operation of the Baku-Tbilisi-Ceyhan mainline.


**РЕЗЮМЕ**

**КОНФЛИКТЫ И ПРОБЛЕМА РЕГИОНАЛЬНОЙ БЕЗОПАСНОСТИ НА ЮЖНОМ КАВКАЗЕ**

В статье дан краткий исторический экскурс в историю взаимоотношений нескольких государств: России, Турции и западных стран, главным образом США, которые имели определённые стратегические интересы на территории Южного Кавказа. Прежде всего выяснено, что факты азербайджанской и турецкой истории с начала XX века свидетельствуют о существенном столкновении геополитических и стратегических интересов среди Турции, России и наиболее крупных западных держав. Это происходило в первую очередь по той причине, что Южный Кавказ, особенно Баку, в международном аспекте были средоточием борьбы за всевозможные природные и искусственные энергетические ресурсы.

На территории всего Южного Кавказа произошли знаменательные подвижки и в области соперничества по поводу маршрутов экспорта каспийской нефти. До недавнего времени Россия и Турция расходились по вопросу о путях доставки нефти на западные рынки. К середине 2011-2012 годов российское правительство сняло свои возражения против проекта Баку-Тбилиси-Джейхан. Вместо того, чтобы саботировать этот проект, Россия предприняла шаги к завершению строительства высокопропускного трубопровода Тенгиз-Новороссийск. Кроме того, Москва призвала российские фирмы принять участие в прокладке и эксплуатации магистрали Баку-Тбилиси-Джейхан.



NDU-nun Elmi Şurasının 19 oktyabr 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 02).
Məqaləni çapa təqdim etdi: Fəlsəfə üzrə elmlər doktoru, professor M.Rzayev

**Драйф Аллаһ Джамиля Салех Сайф**
*Бакинский Государственный Университет*
*Jamilya Saleh-1969@hotmail.com*

**UOT: 94; 341**

# КОНФЛИКТ В ЙЕМЕНЕ И МЕЖДУНАРОДНОЕ ПРАВО

**Açar sözlər:** *siyasi dəyişikliklər, müsəlman azlığı, regional qüvvələr, beynəlxalq hüquq, saziş, terrorizmə qarşı mübarizə, ərəb koalisiyası*

**Keywords:** *political change, the Muslim minority, regional powers, international law, the agreement, the fight against terrorism, the Arab coalition*

**Ключевые слова**:*сепаратистское движение, политические изменения, мусульманское меньшинство, международное право, соглашение, борьба с терроризмом, арабская коалиция*

Во время холодной войны(1976-1985 гг.) Йемен был разделен на две страны. Тогда Али Абдалла Салех стал правителем Северного Йемена в конце 1970-х годов, так как произошло объединение Йемена в 1990 году и он являлся самой бедной страной во всем арабском мире[14]. Во времена революции в Йемене возникли большие протестующие толпы, которые охватили все йеменские города. Но, как движения в Египте, Тунисе и Ливии эти процессы вынудили местное правительство к проведению некоторых политических изменений в стране, Также выросли, и жесткие меры со стороны диктатора страны, Али Абдаллы Салеха, которые стали все более жестокими.

18 марта 2015 года в Йемене от рук снайперов погибли по меньшей мере 52 демонстранта, которые стреляли с боевыми патронами. Европейский союз и Генеральный секретарь ООН Пан Ги Мун осудили нападение, Али Абдаллы Салех стал еще более непопулярным у себя дома[13]. После восстания в Йемене, авторитарный президент Али Абдаллы Салеха вынужден был передать власть его заместителю г-ну Абду Рабу Мансур Хади, в ноябре 2011 года. Президент Абд Раббо Мансур Хади изо всех сил старался, чтобы решить целый ряд проблем, в том числе связаные с нападением со стороны Аль-Каиды, сепаратистским движением на юге страны, а также с коррупцией, безработицой и отсутствием продовольственной безопасности.

Движение Хути, что из группы Заида Шайа-мусульманского меньшинства в Йемене долго(в течение предыдущего десятилетия) боролись против Али Абдаллы Салеха, воспользовались слабостью нового президента, взяли контроль над их северной глубинкой провинции Саада и соседних районов[1].

Разочаровавшись с переходом власти к новому президенту, многие обычные йеменцев - включая сунниты - поддержали Хути и в сентябре 2015 года и они вошли в столицу г.Сана, при этом создав уличные лагеря и контрольно-пропускные пункты[1].

По последним данным ООН, с начала вооруженного конфликта в Йемене, около 5000 человек там были убиты и 25 000 ранены. Большинство из них – гражданские лица. В воздушных ударах и столкновениях между профессиональными и антиправительственными силами погибли 85 людей, и поэтому ИГИЛ и Аль - Каида воспользовались растущей нестабильности, чтобы перехватить контроль на территорию всего Йемена.

Хути и силы безопасности, лояльные к Али Абдаллы Салеху затем попытались взять контроль над всей страной, заставляя г-н Хади бежать за границу в марте 2015 года.

Встревоженные появлением группы по их мнению, при поддержке в военном отношении региональными силами под режимом Ирана, руководители Саудовской Аравии и других восьми основном суннитских арабских государств (Члены коалиции входят: Бахрейн,

Египет, Иордания, Кувейт, Марокко, Катар, Судан и Объединенные Арабские Эмираты) и начали воздушную кампанию, направленную на восстановление правительства г-на Хади.

После более чем года боевых действий, ни одна из сторон, не была близка к решающей военной победы. Проправительственные силы - состоящие из солдат, лояльных президенту Абд-Раббу Мансур Хади и преимущественно из суннитских южных соплеменников и сепаратистов установив плацдарм, высадились в Адене в августе и помогли изгнать Хути и их союзников из большей части Йемена юге страны в течение двух месяцев. Абд-Раббу Мансур Хади и его правительство вернулись из ссылки, в то же время установили временный оффис в Адене.Но в 2015 году, проправительственные силы не смогли вытеснить повстанцев из их северных позиций, в том числе из Сане и окружающей его провинций. В Хути также были в состоянии поддерживать блокаду южного города Таиз и продолжать стрельбу ракетами и минометами через границу с Саудовской Аравией почти ежедневно.

Джихад боевиков из Аль-Каиды на Аравийском полуострове (АКАП) и исламского государства (ИГИЛ) тем временем воспользовались хаосом, захватывая территорию на юге и активизировали свои нападения, особенно в контролируемой правительством Адена. Какова гуманитарная ситуация сейчас? Основные статистические данные о гуманитарной ситуации: Более 13 миллионов человек из населения 26млн. человек нуждаются в продовольственной помощи. Около 80 процентов населения нуждается в помощи. Более 6000 человек были убиты и 30 000 получили ранения с начала военной кампании, возглавляемой саудовским руководством - половина из них гражданские лица. Почти 600 учреждений здравоохранения были закрыли из-за повреждения, или нехватка расходных материалов и медицинского персонала. Более 1,8 миллиона детей не идут в школы, начиная с середины марта 2015 года. По состоянию на январь 2016 года, некоторые 1170 школы были непригодными для использования из-за повреждения, или потому что они укрывают перемещенных лиц, или были заняты вооруженными группами[7].

К началу октября 2015 года, по крайней мере 4,125 гражданских лиц были убиты и 7,207 получили ранения. С чуть менее половины населения в возрасте до 18 лет, дети составляли треть всех жертв среди гражданского насе¬ления в течение первого года конфликта[47]. Уничтожение гражданской инфраструктуры и ограничения продуктов питания и топлива импорта также привели к 21 млн человек лишению на право жизни, на товары и продукты питания и основных услуг. В отчете ООН говорится, что 3,1 миллиона йеменцев являются внутренними перемещенными лицами, в то время как 14 миллионов человек страдают от нехватки продовольствия и 370000 детей в возрасте до пяти лет находятся под угрозой голодной смерти[16].

Более 1 900 3500 медицинских учреждений страны также в настоящее время либо не функционируют или частично функционируют, в результате чего половина населения не получает адекватную медицинскую помощь[20]. Правительство Ирана обеспечило политическую, финансовую и военную поддержку Хути, на основании сообщений средств массовой информации.

**Международно-правовая классификация вооруженного конфликта в Йемене.**Известно, что международные вооруженные конфликты между силами коалиции вместе со своими йеменских союзниками и силами против Хути и их союзников регулируется международным гуманитарным правом, изложенные в договорах и нормах обычного международного права. Является ли США стороной вооруженного конфликта в Йемене зависит от характера его участия в боевых действиях. Международное право не устанавливает каких-либо конкретных критериев для определения того, когда одно государство оказывает содействия другому государству в осуществлении немеждународного вооруженного конфликта если она является стороной этого конфликта.

Факты участия США в операциях в Йемене официально не доказаны. Хотя имеется информация о том, что с 2009 года США провели множество воздушных нападений на Йемен против предполагаемых членов Аль-Каиды на Аравийском полуострове. Тем не менее, участие США в вооруженном конфликте против Хути не привело к изменению

существующего правового режима, применимого к любому будущему использования США силы против предполагаемых членов АКАП [8]. Общая статья 3 предусматривает ряд основных средств защиты для гражданских лиц и людей, которые больше не принимают участия в военных действиях, таких, как пленных, и тех, кто сдался или не в состоянии бороться из-за раны или болезни. Она запрещает насилие по отношению к ним, особенно убийство, жестокое обращение и пытки, а также посягательство против их личного достоинства и унизительного или унижающему человеческое достоинство обращению.

Существует достоверные доказательства того, что в ноябре 2009 года со стороны Саудовской Аравии в ходе боевых действий между Хути и йеменских и саудовских военных в северную Саада в Йемене попали несколько различных бомб[8]. США предоставили Саудовскую Аравию кассетные бомбы и Саудовская Аравия обладая штурмовиками США и НАТО – ского происхождения, осуществила атаки американскими производства кассетных бомбами. Йемен является участником Договора о запрещении мин 1997 года. Являются участниками Договора о запрещении мин 1997 года и членами коалиции Иордания, Кувейт, Катар и Судан. Как таковые, все они взяли на себя обязательство никогда не использовать противопехотные мины. Ни одна из сторон конфликта в Йемене не должны использовать противопехотные мины, в том числе в режиме активации жертвой самодельных взрывных устройств, так как они по своей сути оружие неизбирательного действия. Факультативный протокол к Конвенции о правах ребенка, касающийся участия детей в вооруженных конфликтах, в котором Йемен является участником, предусматривает, что негосударственные вооруженные группы, ни при каких обстоятельствах, вербовать или использовать в военных действиях лиц, в возрасте восемнадцати лет. Кроме того, протокол устанавливает 18 лет в качестве минимального возраста для любого участия в вооруженных конфликтах национальными вооруженными силами[8]. В соответствии с законами войны, вербовка или использование детей в возрасте до 15 лет сторонами в конфликте является военным преступлением, для которого командиры могут быть привлечены к уголовной ответственности.

Запрет против пыток и других видов жестокого обращения является одним из наиболее фундаментальных запретов в международно признанных прав человека и гуманитарного права. Никакие исключительные обстоятельства не могут служить оправданием пыток, договорные обязательства в области прав человека других стран Йемена и, уже говорилось выше, подчеркивают, что пытки запрещены при любых обстоятельствах, даже в признанных чрезвычайного положения, и требует расследования и судебного преследования лиц, ответственных за пытки. Когда они совершаются в рамках широкомасштабного и систематического нападения на гражданское население, пытки является преступлением против человечности по международному обычному праву и Римского статута, договора, который был учрежден Международный уголовный суд (МУС)[8]. Любой человек, лишенный свободы, должен быть обеспечен на достаточное питание, воду, одежду, жилье и медицинской помощи. Задержанные женщины должны содержаться в помещениях отдельно от мужчин. Дети, лишенные свободы, если со своими семьями, не должны иметь помещения отдельно от взрослых.

После нескольких лет конфликта Йемен находится на грани абсолютного краха. Учреждения по всей стране разваливается, в то время как множество вооруженных группировок воспользовались вакуумом власти, чтобы претендовать на лидерство над ключевыми территориями, что приведет к еще большей фрагментации страны.

Конфликт, и сопровождающий Саудовской под руководством вмешательство, привело к самым серьезным гуманитарным кризисом на Ближнем Востоке, с 86 процентов населения нуждаются в гуманитарной помощи. В Йемене живет потерянное поколение, как и сотни тысяч йеменских детей растут без образования или достаточно пищи, чтобы поесть.

ЕС и его государства-члены имеют моральный и стратегический интерес к прекращению конфликта. Йемен может стать новым центром для глобально ориентированных террористических групп, и может породить новую волну беженцев в

Европу[9]. ЕС должен сделать большую работу в Йемене, чтобы проложить путь к постконфликтной стабилизации и обратиться к группам, которые до настоящего времени были маргинализированы в продолжающемся мирном процессе. ЕС может дополнить усилия ООН в Йемене. Без каких-либо принципиальных и решительных действий, чтобы положить конец или даже смягчать конфликты страны, Йемен рискует быстро стать плодородной почвой для экстремистских групп и может стимулировать новую волну беженцев в Европу[6]. Прошло почти два года с тех пор Саудовская Аравия осуществила операцию решающий буре против повстанцев в Йемене. Военное наступление было беспрецедентным для Саудовской Аравии, и был разработан для восстановления законного правительства в Йемен с целю отодвинуть группу Хути. Саудовская операция преследовала цель не просто отодвинуть путчистов чтобы обеспечить безопасность саудовскую границы, а также для борьбы с "иранской угрозы", представленный в лице Хути. Саудовская операция вытолкнуло Хути из многочисленных областей Йемена и не позволило им принимать груз через южный порт Аден. Это заставило их отступить от большинства районов ранее независимого Южного Йемена и многих районов в основном племенных провинциях Аль-Джауфе и Мариб на северо-западе. Несмотря на неустанное Саудовскую наступление, Хути и их союзники по-прежнему сохраняют свою власть над крупнейшем городом Сана, северных горные районах стран, а также большую часть побережья страны со стороны Красного моря]. В Хути также удалось сохранить контроль над большей частью центральной части города Таиз, который был очагом анти-Хути настроений еще до того, как битва за Таиз началась в апреле 2015 года[52]. Тем не менее, будучи задушена непрерывными ударами авиации и сложной, Хути, районах, контролируемых им начался голод. Сегодня в Йемене, бойцы полицейской группы являются одним из немногих оплачиваемых рабочих мест.

ЕС необходимо будет выделить долгосрочные ресурсы для достижения этой цели, потому что большая работа в направлении создания устойчивого мира будет иметь место на земле после того, как сделка будет подписан. В связи с этим, Европа может сыграть решающую роль в усилиях по стабилизации, дополняя процесс верхнего уровня, проводимой командой посланника ООН.

Путь к миру в Йемене требует компромисса, восстановления доверия, повторное разборки многих болезненных моментов в истории. Это также потребует нового руководства для Йемена. Мир не будет достигнуто за счет через ряд продолжающихся процессов - как формальных и неформальных - на национальном, региональном и местном уровне. "Один размер подходит всем" пытается разрешить конфликты Йемена, в частности мирные процессы, Непосредственная состоит в подготовке соглашения, которое предусматривает пространство для процесса, где ключевые международные игроки должны остановить поддержку в продолжении конфликта. В связи с этим, плохо воспринимается нейтральность Европы, которая могла бы сыграть ключевую роль в оказании помощи в качестве посредника на низовом уровне, в конечном счете, дополняя продолжающиеся мирные усилия ООН[46, 10-11]. Во многих случаях это было бы полезно более тесной координации с Саудовской Аравией и ОАЭ. Помимо работы по укреплению политического процесса на долгосрочной перспективе, европейские усилия должны также сосредоточить внимание на краткосрочных решениях, которые могут помочь Йемену, чтобы встать на ноги. Один из приоритетов было бы повторное открытие аэропорта Саны к гражданским авиаперелетам и разгрузить движение в порту Худейда. Эти усилия должны включать в себя, в случае необходимости, оказывать более сильное давление на коалицию. Это позволило бы существенно улучшить гуманитарную ситуацию. Восстановление разрушенного другой производственной, транспортной и сельскохозяйственной инфраструктуры также будет иметь решающее значение[46, 13-14]. Йемен пока зависит от иностранной помощи и никогда не будет стабильным и устойчивым. Углубление координации усилий с государствами Персидского залива. в частности, ОАЭ и Саудовской Аравии - будет иметь жизненно важное значение. Любой мирный процесс зависит от саудовцев и ОАЭ, в частности, в силу своей исторической и продолжает отношения с ключевыми игроками на местах. Саудовской Аравии и

эмиратских помощь и поддержка также будет иметь решающее значение в постконфликтном Йемене. Европа также должна продолжать использовать существующие каналы с Ираном в случае необходимости, продолжая при этом поддерживать усилия по снижению напряженности в регионе через двух разов дипломатических усилий с Ираном и государствами залива[20]. **Вывод.** Трагедия Йемена выходит за рамки простой войны. Страна и ее институты разваливаются. В то же время, далеко идущий гуманитарный кризис в настоящее время, возможно, даже обгоняет соперников. К сожалению, Йемен, вероятно, втянут на разных уровнях в конфликт на долгие годы. Последовательная европейская политика по Йемену может по крайней мере, играть важную роль в улучшении гуманитарной ситуации в стране, в то время заложить основы конструктивного и устойчивого мира.

Правительство г-на Хади заявляет, что политический процесс может протекать только в соответствии с резолюцией 2216 СБ ООН, которая призывает мятежников уйти со всех областей, которые они контролируют и сложат оружие[15].

Переговоры с целью положить конец войне в Йемене находится в подвешенном состоянии. Подчеркивая отсутствия уверенности в мирном процессе Хути и бывший президент Али Абдалла Салех, союзник Хути, объявили о создании высшего политического совета, чтобы управлять страной. Эта договоренность исключило правительство президента Абд-Раббу Мансур Хади Хади, который был вынужден покинуть страну, когда Хути силы захватили столицу Сану. Но Хади, правительство которого при поддержке ООН, а затем вернулся в южной город Аден после того, как Саудовская Аравия и ее союзники в военном отношении вмешались в этот процесс[12]. Повстанцы Хути настаивали на всеобъемлющем соглашении, которое бы мог отвечать требованиям обеспечения политической безопасности. В ходе предыдущих переговоров, йеменское правительство г-на Хади критиковали за то, оно цепляется за то, что, казалось бы за необоснованно негибкие позиции. Неуступчивость Хути заблокировал прогресс на переговорах. После провала переговоров, один из участников переговоров со стороны Хути, Насер Богазгоз, обвинил ООН в нежелании поиска мира. Позже предложенный план мирного урегулирования ООН столкнулся с неодобрением со стороны законного йеменского. Затем госсекретарь США Джон Керри объявил о прекращении огня в Йемене, которая должна была начаться 17 ноября 2015 года. Керри сказал, что это соглашение о прекращении огня будет сопровождаться усилиями по формированию правительства национального единства. Это заявление вызвало гнев законного правительства Йемена. Министр иностранных дел Йемена, Абдульмалик аль-Миклафи описал заявление Керри как "соглашение между Керри и Хути". Ранее президент Абд Рабу Мансур Хади назвал это предложение в качестве награды боевикам Хути и союзных войск[45]. Соответственно, саудовское союзные правительство Йемена похоже, не желает обращать на одну деталь из резолюций Совета Безопасности ООН, Это касается инициативы в Персидском заливе и Национального диалога по проведению Конференции по результатам переговоров. На самом деле правительство в изгнании имеет много оправданий для этого: "Мы хотим всеобъемлющего и прочного мира, который был бы основан на прекращении переворота и возобновлении политического процесса путем обсуждения законопроекта и проведения выборов", заявил президент Абд Рабу Мансур Хади на встрече с правительственными чиновниками из Эр – Рияда. ООН прилагает усилия, чтобы убедить противоборствующие стороны практичности инструмента для мира, который мог бы спасти Йемен и разрешить кризис.

Почему этот мирный план был признан спорным? Согласно новому плану Хади может позже отказаться от своей власти возложить свои функции на нового вице - президента, который назначит нового премьер - министра, ответственного за начала формирования правительства национального единства. Согласно этому плану, сдвига будет происходить только тогда когда после завершения вывода из Саны тяжелые и средние (в том числе баллистические ракеты. Передача оружия был камнем преткновения в ходе мирных переговоров. По сути, это мирное предложение не было в пользу группы Хути. Этот план

предусмотрел прекращение захват городов, а также их разоружения. Если он был бы правильно реализован, это открыл бы путь для достижения мира. Уступки или возможность захвата? Хути и бывший президент проде-монстрировали свою готовность остановить войну и возобновить полити-ческий процесс. Это свидетельствует о положительном развитии после 20-ти месяцев войны. Когда план был объявлен Хути и Салех придерживались разных позиций. Но, как прошли дни, обе стороны единодушно выразили свое одобрение плана. Несмотря на это, передача оружия был камнем преткновения в ходе мирных переговоров. Последняя реакция Хути плану ООН может быть расценено как уступка, при условии, что они готовы держать свое слово. Он может также доказать группу Хути и их союзники намерены лук мало для того, чтобы уничтожить роль Абд-Раббу Мансур Хади Хади через этот мирное предложение. Попытки политиков сохранить лицо политики Йемена, казалось бы равнодушным перспектива разрушив всю нацию[20]. 20-месячный конфликт уже унесла тысячи жизней. Три миллиона людей остались без крова, и несколько миллионов не способны противостоять жестокости голода.

Несмотря на эти душераздирающие цифры, ни одна из сторон не проявляет ни малейшего подлинного раскаяния. Теперь, одна партия борется за "легитимности", как другие сопротивляется “агрессии”. К сожалению, люди не имеют никого, чтобы заботиться о своих интересах, и ни одна из сторон от всей души не стремится рассеять свои горести. Настало время, что уступки ради людей сделаны. Конкуренты Йемена должны отказаться от преследования личных или партийных интересов, так что кровопролитие прекратиться и жизнь продолжается. Победа одной из сторон было бы потребует слишком много времени, но если соперники не пойдут на уступки.

Американский спецназ утром 29 января 2017 года атаковал штаб-квартиру “Аль-Каеды” в Йемене. Санкцию на операцию дал президент США Дональд Трамп. В результате атаки был убит один из лидеров йеменского крыла “Аль-Каеды” и еще 13 боевиков. Помимо этого погиб один из американских спецназовцев и в ходе перестрелки в общей сложности были убиты 30 человек, включая 10 женщин и троих детей. Американское командование заявило, что в ходе рейда удалось собрать важную информацию, которая “поможет предотвратить планирование будущих террористических атак”. В США подчеркнули, что изначальной целью операции был сбор информации о боевиках, а не их непосредственное уничтожение[2]. Три сотрудника американского спецназа, погибли в ходе наземной операции в Йемене, - это первые официально подтвержденные боевые потери армии США после ина-гурации президента Дональда Трампа. Позже данную операцию проком-мен-тировал и президент США Дональд Трамп: “В ходе удачного рейда против штаба Аль-Каиды на Аравийском полуострове храбрые американские силы смогли уничтожить приблизительно 14 членов Аль-Каиды и захватить важную разведывательную информацию, которая поможет США предотвратить теракты против американских граждан и людей во всем мире”, - говорится в заявлении Трампа. Известно, что позиции “Аль-Каеды” в Йемене в последние годы значительно усилились на фоне продолжающейся с 2014 года гражданской войны. При президенте Бараке Обаме США регулярно наносили по территории Йемена удары с помощью беспилотников[20]. Даже не дождавшись нового плана по борьбе с терроризмом - он будет готов через три недели, - администрация Трампа начала политическую атаку на Иран. Советник по национальной безопасности Майкл Флинн 2 февраля вынес "официальное предупреждение" Ирану. Флинн обвинил Иран в атаке йеменских повстанцев-хуситов на саудовский военный корабль; в испытаниях баллистической ракеты средней дальности (которые не противоречат международным обязательствам Ирана) и в "дестабилизирующем поведении по всему Ближнему Востоку[11]. Флинн заявил: "Администрация Трампа осуждает действия Ирана, которые подрывают безопасность, благополучие и стабильность в регионе Ближнего Востока и за его пределами, и подвергают риску жизнь американских граждан"[11].

Непосредственным поводом к жесткому заявлению властей Йемена стали результаты рейда спецназа ВМС США на штаб-квартиру группировки ““Аль-Каида” на Аравийском

полуострове” (АКАП), осуществленного в Йемене 29 января 2017 года. В ходе его проведения погибли 14 боевиков, один американский военнослужащий и не менее десяти мирных жителей, включая женщин и детей. По официальной версии Пентагона, операция носила “сугубо разведывательный характер”: целью был захват компьютеров и мобильных телефонов боевиков, а также данных о деятельности АКАП. Однако в реальности перед спецназовцами ставилась еще одна задача – поимка или уничтожение командира АКАП Касима аль-Рими, которого США считают одним из самых опасных террористов в мире. Ни захватить, ни ликвидировать его не удалось. А в минувшее воскресенье аль-Рими выложил в сеть ролик, в котором заявил, что “безумец из Белого дома получил пощечину в самом начале своего пути”[11]. Напомним, в настоящий момент Йемен представляет собой фактически разделенное государство. Его северные районы, включая столицу Сану, контролируются отрядами проиранского шиитского движения “Ансар Аллах”. Именно против них и ведет боевые действия созданная Саудовской Аравией арабская коалиция, поддерживающая признанного мировым сообществом президента Абд-Раббу Мансура Хади[3]. Правительство президента Хади пришло к власти фактически на саудовских штыках в результате военной операции, организованной Эр-Риядом и его союзниками. Учитывая это обстоятельство, трудно представить, что громкий демарш в адрес новой администрации США был предпринят без санкции или хотя бы молчаливого одобрения саудовского “старшего брата”. А следовательно, команда Дональда Трампа рискует получить в лице Эр-Рияда не только традиционного партнера и союзника, каким в Вашингтоне привыкли считать королевство, но и жесткого оппонента. Впрочем, Е.В. Супонина приводит другую возможную причину: по ее мнению, власти Йемена вынуждены были отреагировать на действия спец¬наза США “под давлением народа”[19]. “При подготовке американского рейда был допущен очевидный просчет по линии спецслужб и военных. В результате лидера террористов уничтожить не удалось, но при этом погибли мирные жители. Это всколыхнуло Йемен, где на действия военнослужащих США давно смотрят как минимум с подозрением, а как максимум с ненавистью. О таком отношении населения к американскому военному и политическому присутствию в стране говорили и предыдущий президент Йемена Али Абдалла Салех, и нынешний - Абд-Раббу Мансур Хади”[17].

## ЛИТЕРАТУРЫ


1. Али Алиев. Новая эпоха в истории Йемена (часть первая: “Основные причины успеха повстанцев”). http://muslimpolitic.ru/2014/10/
2. Атаку спецназа на штаб “Аль-Каиды” в Йемене санкционировал Трамп https://inforesist.org/
3. Афанасьев Александр. Новости Сирии и Ближнего Востока. http://werewolf-0001.livejournal.com/3574563.html
4. Бжезинский З. Великая шахматная доска (Господство Америки и его геостратегические императивы. М, 2004. 288 с.
5. Ближний Восток и современность. Сборник статей. Выпуск восемнадцатый. (выпуск восемнадцатый).М, 2003, 489 с.
6. В Европе боятся, что новая волна мигрантов сметет всё. http://rian.¬com.-ua/abroad/20170228/1021829413.html
7. В результате военных действий в Йемене погибли около 1400 детей. ЮНИСЕФ призывает всех участников конфликта защитить детей и прекратить атаки на школ. http://112.ua/mir/html
8. Война и мир: ближневосточное британское наследие США.http://www.wa-randpeace.ru/ru/analysis/view/119947/
9. Грозит ли Европе новая волна беженцев? - DW Новости (20.03.2017).Турция и ЕС переживают кризис в двусторонних отношениях. Брюссель критикует Анкару, та грозит срывом соглашения по беженцам. Люди, которые бегут от войны и бедности в Европу, оказались козырем в руках Анкары. http://www.dw.com/ru

10. Джонатан Маркус. Дональд Трамп и Ближний Восток: выпутаться невозможно? http://www.bbc.com/russian/features-38466708
11. Дональд Трамп выходит на тропу войны? https://news.rambler.ru/artic-les/360-53949
12. Йемен. Переворот хоуситов и противостояние им странами залива. https:-//halifat.net/index.php?topic=2988.0
13. Кузнецов Д.В. Арабо-израильский конфликт: История и современность. 2006, Издательство: Изд-во БГПУ, 289с.
14. Марат Муртазин. Йемен – новый шаг к расколу страны. http://www.in-fox.ru/authority/foreign/2016/11/30/_phtml
15. МИД: СБ ООН ответственен за мир в Йемене после принятия резолюции. http://www.tvc.ru/news/show/id/66195 https://vz.ru/news/2015/5/2/743270.html
16. Позиция УВКБ ООН относительно возвращений в Йемен.http://www.ref-world.org/cgi-bin/texis/vtx-/rwmain/opendocpdf.pdf?reldoc=y&docid=553df-4634
17. Проведение операций в Йемене для США осложнилось. http://bmpd.live-journal.com/2425934.html;
18. Степанов Георгий, Юсин Максим. Дональда Трампа постигло йеменское разочарование https://news.rambler.ru/world/36-045065/?utm_content=news-&utm_medium=read_more&utm_source=copylink
19. Супонина Е.В. Саудовские ВВС взяли под контроль воздушное прост-ранство Йемена https://riss.ru/profile/suponina_elena/
20. Фарес Исам. Ближний Восток: путь к миру и согласию. /Пер. с араб. Епифановой И.Н., Митрофановой А.В.; Предисл. Пересыпкина О.М. Известия 2015.230 с.

## XÜLASƏ

**Drayf Allah Cəmilə Saleh Sayf**

## YƏMƏN MÜNAQİŞƏSİ VƏ BEYNƏLXALQ HÜQUQ

Məqalə 1994-cü ildə başlanmış, 2004-cü ilin fevralından vüsət almış Yəmən münaqişəsinin təhlilinə həsr olunmuşdur. Məqalədə göstərilir ki, saxta “imam” Əbdül Məlik əl-Xusi tərəfdarları olan təşkilatın üzvləri hökumətə qarşı qiyam qaldırmışlar. 2004-cü ildə imam Hüseyn əl-Xusi hökumət əleyhinə qiyam qaldıraraq, Yəmən hakimiyyət orqanlarını şiə əhaliyə qarşı ayrı-seçkilikdə ittiham etmişdir.

Məqalədə qeyd olunur ki, sentyabrda sülh sazişinin başlanmasına baxmayaraq hələ Yəməndə qarşıdurma davam etməkdədir.

## ABSTRACT

**Drayf Allah Jamil Saleh Saif**

## THE CONFLICT IN YEMEN AND INTERNATIONAL LAW

The article is devoted to analysis of the conflict in Yemen, the origins of which began in 1994, but in reality since February 2004. In does not say that when the members of the organization are supporters of the self-proclaimed "Imam" Abdul Malek al-Houthi, who raised anti-government rebellion In 2004, Imam Hussein al-Houthi raised anti-government rebellion, accusing the Yemeni authorities of discrimination of the Shia population. The article says that in December 2014, despite signed in September a peace agreement. Despite this, while the opposition in Yemen continues.

NDU-nun Elmi Şurasının 19 oktyabr 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 02).
Məqaləni çapa təqdim etdi: Fəlsəfə üzrə elmlər doktoru, professor M.Rzayev

**HAKAN GÜNGÖRMEZ**
*İğdır Universiteti*

**UOT: 94**

# SOSYAL HƏYATDA DUZ VƏ İNSAN

**Açar söz:** *duz, nazar, duz qovurma, duz gömdürme, duz firlatmaq*
**Keywords:** *salt, evil eye, salt roasting, salt bured, salt fraud*
**Ключевые слова:** *плоский, злой глаз, простое зло, плоское зло, плоское зло*

Duz, insanlıq tarixi baxımından əhəmiyyəti olan qiymətli bir mineraldır. İnsan ortaya çıxdıqdan qısa bir müddət sonra duzu istifadə etməyi öyrənmiş və duz insan həyatında əhəmiyyətli bir yer tutmağa başlamışdır. Bu mineral, dünyanın müxtəlif yerlərində ictimai, mədəni, dini, hətta siyasi şəxsiyyət qazanmış, cəmiyyətləri təsir etmişdir. Əvvəllər yalnız qidaların ləzzətini artırmaq və onları saxlamaq üçün istifadə zaman içində sənayedə və səhiyyə sahəsində də yerini almışdır. Duzun təməl çıxış (kəşfi) məqsədi insanoğlunun təməl praktik dəyərindən qaynaqlanmaqdadır. Bununla birlikdə duz tarixi seyri içində siyasi bir arqument obyekti halına də gəlmişdir. İnsan-ev müqəddəs əlaqəsində dini şərh forması olan nəzər faktı üçün fərqli bir məna təşkil etmişdir. İnsanın ədəbi dünyasındakı yerini də fərqli növdə argümanlardan göstərmişdir.

Dünya tarixi baxımından əhəmiyyətli bir mədən olan duz, insan tərəfindən iqtisadi fəaliyyətlərdə olduğu ilk dövrlərdən etibarən istifadə edilməyə başlamışdır. Çox vaxt bir təzyiq ünsürü olmuş, uğruna savaşılmış, bəzən dini mənalar da yüklenilerek dəyəri daha da artırılmışdır. Hansı səbəblə olsun, Plinius'u da dediyi kimi insanlığın duza olan ehtiyacı inkar edilə bilməz tək gerçəkdir. Bir çox qida maddəsinin saxlanmasında duz qoruyucu olaraq istifadə edilməkdədir. Duz kimyəvi xüsusiyyətinə əsasən, qidaların pozulmasına yol açan bakteriyaların fəaliyyətlərini dayandırma xüsusiyyətinə malikdir. Bu xüsusiyyəti səbəbiylə balıq və ətlərin saxlanmasında, müxtəlif şəkillərdə işlenmelerine qədər dəyişən yerlərdə duzdan istifadə edilməlidir. Gərək çıxarılan kənd təsərrüfatı məhsullarının qorunması, istərsə də sənayedəki istifadələr duza daha çox ehtiyac duyulmasına yol açarkən, duz üzərindən alınan vergilər çoxu zaman bu maddənin əhəmiyyətini daha da artırmışdır. (1)

## DUZ TARİXİNİN ANA XƏTLƏRİ

Duz qədim dövrdən bilinən və istifadə edilən bir maddədir. İlk dəfə necə və hansı şərtlər altında istifadə edildiyilə bağlı məlumatlar olmamasına qarşılıq; heyvanların müəyyən tərkibdəki daşları yalamaları və ya duzlu qaynaq suları içmələri insanların diqqətini çəkdiyi kimi, bir duz qaynağı içində ölmüş heyvan cəsədinin çürümədiyinin fərq edilməsi ilə duzun istifadə edilməyə başlanıldığı qəbul edilməkdədir. Tarix əvvəlinə aid duzlardan bəziləri, Çində Şansi əyalətinin cənub sərhədində Yuncheng Gölü sahilində yerləşir. Çinli tarixçilər E.ə 6000-ci illərdə yaz günəşinin isdisi ilə gölün suyunun buxarlandığını və insanların duz yığdıqlarını ifadə ediblər. E.ə 5000 Polşada Krakov yaxınlarındakı bir duzlu su qaynağında duz əldə edildiyinə dair də tapıntılar olmasına qarşılıq, ilk duzun dəniz suyundan əldə edilməsi ağla daha yaxın gəlməkdədir.(2) Yenə eyni dövrdə Avstriya sərhədində yerləşən Halsattdaki qaya duzu mədənindən qaya duzu çıxarıldığı aydın olmaqdadır. Ancaq bu mədən, çox daha sonrakı bir dövrdə gerçək mənada istifadə ediləcəqdir. e.ə 800-cü illərdə Çində duzun dərman maddəsi olaraq müalicə məqsədiylə istifadə edildiyinə dair qeydlər mövcuddur. Ancaq bu dövrdə duzun necə və nə qədər çıxarıldığı müəyyən deyildir. E.ə 800-cü illərdə Çində Xia Xanlığı dövründə dəniz suyundan duz çıxarılması və ticarətindən bəhs edilir. Burada istifadə olunan texnika, köhnə olaraq bildirilməklə bərabər, eyni sistem təxminən 1000 il sonra Romalılar tərəfindən Avropanın cənub sahillərində tətbiq olunmuşdu. Çin 'də duz çox zaman siyasi iqtidarın da simvolu və iqtisadi baxımdan bir güc mənbəyi idi. Pakistanda İndus çayının aşağı hissəsi ilə Hindistanın qərbindəki Guracat Əyaləti, arasında duz

istehsalının edildiyi duzlu bataqlıqlar var. İndus çayı vadisindəki Harappa və Mohanco Dayo, e.ə 2100-cü illərdə Mesopotamiya və Misirdə arxeoloji qazıntılar nəticəsində planlı şəhər tipli yaşayış yerinə aid qalıqlar tapılmışdır. Burada yaşayan insanlar bataklıktakı suyu buxarlaşdıraraq duz əldə edirdilər. (3) Anadolu da duz istifadəsinə aid sənədlər Hetlərə aiddir. Hetlər çörəyi duz, kimyon, çörəkotu, keşniş və bal ilə dadlandırırdı. Qaya duzunun çıxardılmasından başqa, bunun ticarətini də etdiklərinə dair bəzi dəlillər var. Boğazköydə olan daş yazısında, duz ticarətinin edildiyi haqqında məlumatlar yer almaqdadır. (4) Orta Şərqdə Ölüdəniz yaxınlığındakı Sado Dağı Tunc Dövründə işlədildiyi bilinən ən köhnə qaya duzu yataqlarından biridir. Daha sonrakı dövrlərdə dünyasının müxtəlif yerlərində duz istehsalı edilmişdir. Nümunə olaraq Finikyalılar e.ə 800-cü illərdə Tunis Sahilində ilk məskunlaşdıqlarında Safakis adlı liman şəhəri qurmuşlar. İndiki vaxtda hələ əhəmiyyətli bir duz və balıq mərkəzi vəziyyətindəki Sefakistə istifadə edilən üsul, Çinlilərin də ilk istehsal üsulundan olan və təbii olaraq buxarlanan duzlu sulardan arta qalan toplanması üsuludur. (5)

Çində duz istehsalına bağlı ən qədim yazılı mənbə, e.ə 800-cü ilə aid idi. Sənəddə, Xia Xanlığı dövründən min il əvvəlki dəniz duzu istehsalı və ticarətindən söz edilirdi. Çin rəhbərlikləri duzu, dövlətin bir gəlir mənbəyi olaraq görmüşlər. Çində e.ə. XII. əsrdə duz vergisindən söz edən mətnlər tapıldı. (6) Duzun qədim bir tarixi vardır. Əlbəttə bunun əsas səbəbi insanoğlunun həyatında əhəmiyyətli bir yeri olduğu üçündür. Duz təməl ehtiyaclarının bir hissəsi olmaqla birlikdə bəşərin məna dünyasında fərqli yerlər təşkil edir

Orta əsr və intibah dövründə süfrəyə duz qoymaq varlıların adəti idi. Bu dövrdə Fransız krallıklarında, kral süfrələri ləl-cəvahirat ilə örtülü və içləri duz dolu qablarla bəzədilirdi.

Xüsusilə İtalyan əşyalarının dəbdə olduğu 16. əsrdə "böyük duz" adı verilən qəşəng duz qabı xaricində, dəyişən yeməklərlə birlikdə süfrəyə qoyulan kiçik duz qablarıda olardı. Böyük duz, yemək boyunca dəvət edənin ya da şərəf qonağının yanında olurdu. Barmaqla duza toxunmaq kobud bir hərəkət, hətta bəzən talehsizlik olaraq görülürdü. Orta əsr və İntibah dövründə boşqaba duz qoyulması üçün kiçik bir oyuq olardı. (7) 17 əsrdə Fransada duz vergisi əhəmiyyətli çətinliklər gətirib çıxarmışdı. Duz vergisi toplayıcılarından nifrət edilirdi. Duz vergisi kollektorlar, xüsusilə qadınlardan şübhələnər və onlara qarşı pis davranırdı. Qadınlar bəzən, bədənlərinin müxtəlif yerlərinə saxladığı duz torbalarıyla yaxalanırdı. Qadınlar axtarılmıyacaqlarını düşündükləri üçün sinələrində, korsetlərində duz saxlayırdılar. XVIII. əsrin sonlarında duz vergisinə qarşı işlənən cinayətlərdən ötəri hər il üç mindən çox Fransız kişi, qadın və hətta uşaq ölüm cəzasına məhkum olunurdu. Duz sivilizasiya tarixi baxımından əhəmiyyəti olan və tarix əvvəlindən bəri bilinən qiymətli bir (mineral) maddədir.

İnsan oğlu yarandıqdan qısa bir müddət sonra duzu istifadə etməyi öyrənmiş və duzun əhəmiyyəti gündən günə artmışdır. 1700-cü illərin əvvəl duz varlıların və zadəganlığın göstəricisi ikən, 1700-cü illərdən sonra qidalara ləzzət vermək məqsədi ilə istifadə edilən duz yarandığından günümüzə qədər, cəmiyyətlərin mədəni və dini inanclarında əhəmiyyətli bir yerə malik olmuşdur. (8)

## DUZUN ƏDƏBİYYATLA ƏLAQƏSİ

Duz bütün icmalarda müqəddəs sayılan bir maddə olaraq diqqəti çəkir. Bu xüsusiyyətindən ötəri duzun folklorlarda əhəmiyyətli bir yeri vardır. Xalq hekayələri, xalq şeiri ,nağıl, tapmaca və s. bir çox xalq ədəbiyyatı növlərində duz bir ənənə olaraq işlənmişdir. Duz sözündən yaradılan ya da “duz” sözünün keçdiyi bir çox atalar sözləri və deyimlər vardır. Xalq aşiqləri də duz sözünün və duz sözündən meydana gəlmiş bir çox deyimləri şeirlərində istifadə etmişlər. Duz, bütün cəmiyyətlərdə müqəddəs sayılan bir maddə olaraq diqqəti çəkir. Bu xüsusiyyətindən ötəri duzun xalq inancında əhəmiyyətli bir yeri vardır. (9)

## DUZUN XALQ İNANCINDAKI YERİ

Ənənəvi xalq inancları, dini inanclardan fərqli olaraq, insanoğlunun yaratdığı mədəniyyətin bir parçası olub, insanların gündəlik həyatını, davranış qaydalarına təsiri və başqalarından öyrənmə yolu ilə qazandıqları fikirlərdir. İnancın götürülməsinə, insanın sınaq yolundan dönməsi, etibarlılığından və öz həyatında keçmiş bir hadisənin tanınması lazım deyil. Hər bir insan, içində yaşadığı mədəniyyətdən müstəqil davranış qaydaları xalq inancında, insanoğlunun yaratdığı mədəniyyətin bir parçası olub, insanların gündəlik həyatını, davranışlarına təsiri və başqalarından öyrəndiqləri ilə qazandıqları fikirlərdir. Xalq inancı, təbiət hadisələrinin səbəbini bilməmək

üzündən edilən xüsusi bir şərhdir. Bir şərh, bir düşüncə olan inanc, insandan insana, ətrafdan ətrafa, cəmiyyətdən cəmiyyətə, millətdən millətə dəyişir.

İnanclar ümumiyyətlə ənənəvi qruplarda daha geniş olub, həyatın hər sahəsinə daxil olmuş və bütün hərəkətlərə, davranışlara istiqamət verici bir xüsusiyyət qazanmışdır. Müasir həyat tərzini mənimsəmiş qruplar gündəlik həyatlarını qaydaya, ənənəvi qruplara nisbətən daha fərqli şəkillərdə görmüşlər. Din və duzun möhkəm bir bərabərliyini görmək mümkündür. Xalq inancında duzun rolu qidalanma ilə əlaqədardır. Bir simvol olaraq rifah, yaxşı bir həyat, varlılıq, ya da yeni həyatın mənasına da gələn bununla birlikdə, dini inanc şəklinin əks olunması olaraq nəzər ilə birlikdə çox xatırlanmaqdadır. Türkcədə Baxış mənasını verən Ərəb mənşəli nəzər sözü, baxışlarında zərərli güc olan bəzi insanların bu xüsusiyyətləriylə bir adama, bir heyvana və ya bir obyektə baxmaqla canlı üzərində xəstəlik, əlillik, hətta ölüm, obyekt üzərində pozulma, qırılma kimi mənfi bir təsirin meydana gəlməsi şəklində açıqlanır. (10) Bütün cəmiyyətlərdə məşhur olaraq görülən nəzər inancının mənşəyi, Neolit dövrünə qədər uzanmaqdadır. Giritdə, Misirdə, Maltada, Şimali Fransada və Britaniyada Bürünc dövrünə aid, balta şəklində edilmiş nəzərliklər (amulet) tapılmışdır. Araşdırmalar nəticəsində, köhnə dövrlərdən etibarən Qərbdə və Şərqdə sehrin və nəzərin pis təsirlərinə inanma və bunlara qarşı tədbirlər alma məlumatının köklü olduğu görülmüşdür. (11) Eyni şəkildə uğursuz gözlərdən gələn pisliyi ortadan qaldırmaq üçün Misirlilər, Fenikeliler, Yunanlılar və Romalılar tərəfindən əl şəklindəki tilsimlərdən istifadə edildiyi təsbit edilmişdir. (12) Nəzərə gelmək ən əlverişli kəslər, uşaqlarla, gözəllikləri və qabiliyyətləriylə hər kəsin heyranlığını oyandırmış kəslərdir, çünki uşaq zəifdir, tez təsirlənir, gözəl, istedadlı, xoşbəxt kəslər, insanların qısqanclıq duyğularını artırır. Bu pis duyğular göz yolu ilə hədəfə təsir edər. Nəzər dəyməsi vəziyyətində bəzi cadularin niyə edildiyi sualı bu mövzunu bilən şəxslərə verildiyində; bunları atalarından, böyüklərindən öyrəndikləri, nəzərə yaxşı gəldiyi üçün istifadə edildiyini deyirdilər

Bu səbəblə nəzər dəydikdən sonra pis vəziyyətləri ya da xəstəlikləri azaltmaq məqsədiylə; mədəni bir inanc şəkillərinin əks olunması olaraq,  duz qovurma duz -basdırma duz və üzərlik otunu birlikdə yandırma kimi prosəslər edilməkdədir. Din ilə duz arasındakı fərqli əlaqə nümunələrinə baxacaq olsaq:

DUZ QOVURMA

Əvvəl tavaya bir ovuc duz qoyurlar, duz ümumiyyətlə iri dənəli duzdur, ancaq süfrə duzu da istifadə edilə bilər. Tava, içindəki duzla birlikdə ocağa qoyular. Ocağa qoyulan duz partlamağa başlayır. Bu arada nəzər dəyən adamın başına bir tənzif örtülür. Daha sonra nəzər dəyən adamın başının üzərinə içi su dolu bir qab tutulur. Partladılan duz bu suyun içinə tökülür. Bu əməliyyatlardan sonra nəzər dəyən adama bu sudan bir qurtum içirdiləcəkdir, ya da bir az yaladılır. Əl və ayaq dırnaqlarına və alnına bu sudan sürtülür. Daha sonra, həyətin bir kənarında, ayaq toxunmayan bir yerə duzlu su tökülür.

DUZ ÖVƏTƏLƏMƏ

Lazımlı vəsait yalnız duzdur. Nəzər dəydiyinə inanılan adam duz ovalama işini edəcək adamın qarşısına oturur. Duz ovacaq adam ovucuna bir miqdar duz alır. Ovuca alınan duz, nəzər dəyən adamın başının üzərində dairəvi hərəkətlərlə dolandırılacaqdır. Bu əməliyyat edilərkən 3 dəfə ixlas, 1 dəfə də Fatihə surəsi, duz övətələmə işini edən adam tərəfindən oxunur. Bu əməliyyatlar bitdikdən sonra üzərinə oxunulan duz, üzərinə ayaq dəyməyəcək bir yerə atılır.

DUZ BASDIRMA

Bu işi yalnız bir qadın etməlidir. Narahatlığı olan adam, duz basdırmaq üçün bu qadını evini çağırır. Duz basdıracaq olan qadın, xəstəni qarşısına alır və diri duz dənələrini əlinə alıb Fatihə surəsini oxuyur. Oxunan duz köz halındakı ocağa basdırılır. Basdırılan duz partlamağa başlayır. Duzun partlamasıyla adama dəyən nəzər dağılmış olur. Duz basdıran adam kişisə əmmaməsini, qadınsa hicabını üzərindəki nəzər dağılsın deyə ocağa silkəliyər. Duz partladıqdan sonra ocaqdan bir az kül alınaraq suya qoyular və nəzər dəyən adam bu sudan üç qurtum içər və dəstəmaz alır. Geriyə qalan su evin dörd küncünə səpilir. İnsan qruplarının təbiət hadisələrinin səbəbini bilməmə səbəbiylə etdikləri şərhlər və tətbiqlər, heyran edici şəkildə bol və müxtəlifdir. Bu bəyanat də həyatın hər sahəsinə daxil olmuş və bütün hərəkətlərə, davranışlara istiqamət verici xüsusiyyət qazanmış inanc sistemi içində yer alan, nəzər inancı sonrasında edilən tətbiqlərin müxtəlifliyi də, yuxarıda deyilən cümləni təsdiqləyir. (13)

DUZ FIRLATMAQ

Nəzər dəyənlərin yaxşılaşdırılmasında tətbiq olunan bir başqa üsul duz fırlatmaqdır. Özünə nəzər dəyən adamın anası, bir yaxını və ya qohumu, ovucunun içinə biraz duz alır, bu duza dua oxuyur, sonra duzu xəstənin başının ətrafında üç dəfə fırladıb Ocakdakı alova atılır. Alova atılmazdan əvvəl isə başda xəstə olmaq üzrə orada olanlara bu duzdan bir dəfə yaladılır. Ocaqda yanan duzdan çıtırtı səsləri gəlir. Burada da üzərlik otunun ocaqda "part part" səs çıxarmasında olduğu kimi, duzun da çıtırtı səsləriylə yanması, nəzər edənin gözlərinin yandığına işarədir. Bəzi bölgələrdə duzun oxunması, dini və cadu əməliyyatların bir arada tətbiq göstərməsi baxımından əhəmiyyətlidir. (14) Duz qədim mədəniyətlərcə istifadə edilməyə başlanmış olub, dünyanın bir çox yerində, bir çox sahəsində əhəmiyyətli bir ünsür halını almışdır. Qidaların ləzzətini artırmaqdan, xalq ədəbiyyatı növlərinə motif olmağa, xalq inancında nəzər pozmadan istifadə edilən bir obyekden dövlətlərarası güc göstəricisi qədər olmağa istifadə sahəsi gün keçdikcə artmışdır.

Bu məqalədə, tarixin hər dövründə əhəmiyyətli bir ticarət vəsaiti olan, tapılmayan coğrafiyalara böyük zəhmətlər çəkilərək çatdırılan duz günümüzün şərtlərinə görə qiymətləndirildiyində iqtisadi dəyəri ilə tərs mütənasib olaraq bir şəkil almışdır.

İnsanlıq tarixi boyunca duzun əhəmiyyəti, Mədəni təsiri, ictimai həyatdakı əhəmiyyətinə yer verilmişdir.

## ƏDƏBİYYAT


1. Sedat Avcı, İstanbul Universiteti, Ədəbiyyat Fak,. Coğrafiya Jurnalı, s.11, s.42, İstanbul.2003
2. Kurlansky, M, Duz insanlığın duzlu tarixi, Çev.A.Çakıroğlu Zidd, İstanbul.2003, s.179
3. N.Hajarı,www.time.com/magazine/1997/int970901/asia.archaology.htm,02.03.2003
4. BRANDAU VESCHIKERT 2003,288
5. Sedat Avcı, İstanbul Üniversiteti ,Ədəbiyyat Fak, Coğrafya jurnalı, s.11,s.21-45, İstanbul.2003
6. http://www.estuz.com.tr/estuz_ek/tuzveyasam.html
7. http://arsiv.ntvmsnbc.com/news/203918.asp
8. www.beslenme.gov.tr 11-17 Mart Dünya Duza Diqqət Həftəsi
9. Yüksel KIRIMLI, http://www.dicle.edu.tr/~halks/m108.htm
10. Boratav(Pertev Naili), 1997, 100 Sualda Türk Folkloru, 4. b, İstanbul, Gerçek Yayınevi
11. Koşay (HZ), 1956, Diyarşünaslıq muzeyindəki nazarlık, Tilsim və Hamailler, Türk Etnoqrafiya Jurnalı, s.1.
12. Westermack (Edward), 1961, Nəzər dəyməsi İnancı, Ankara, Yeni
13. http://www.estuz.com.tr/estuz_ek/nazarakarsituz.html
14. ÇIBLAK, Nilgün (2004), Xalq mədəniyyətində nəzər, nəzərlik İnancı və Bunlara Bağlı Proqramlar, Türklük Elmi Araşdırmaları (TÜBAR), s.15, ss.103-125).



## ABSTRACT

**Hakan Gungormez**

**SOCIAL LIFE SALT AND PEOPLE**

Salt which important in terms of history of mankind is a valuable mineral. Shortly after the man appear, he learned how to use the salt and it have began to hold an important place in human life. This mineral have gained in various part of the World social, cultural, religious and even political idendity. İn the past while only using to increas the flovur of foods, in the course of time it have also located in the fields of industry and healt. The main output aim of the salt orginated from basic need of the mankind. Besides in the course of the salt historical object has also become a political argument. İn human-house sacred- interrelition have different meant for evil eye. It has also showed with different types of arguments literary World place of the human.



NDU-nun Elmi Şurasının 19 oktyabr 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 02).
Məqaləni çapa təqdim etdi: Fəlsəfə üzrə elmlər doktoru, professor M.Rzayev

# İQTİSADİYYAT

**AĞARZA RÜSTƏMOV**
*Naxçıvan Dövlət Universiteti*
**AXİLLES TALIBOV**
*Azərbaycan Tibb Universiteti*

**UOT: 342**

## AZƏRBAYCAN RESPUBLİKASINDA SOSİAL SİYASƏTİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

**Açar sözlər:** *sosial siyasət, yoxsulluğun azaldılması, pensiya islahatları, həyat səviyyəsi, sosial müdafiə, reablitasiya*
**Key words:** *sociological politics, reduction of poverty, retirement reforms, life-level, sociological self-defense, rehabilitation*
**Клюцевые слова**: *социальная политика, снижение бедности, пенсионные реформы, уровень жизни, социальная защита, реоблитация*

Müasir dövrdə dövlətin sosial siyasətinin tənzimlənməsi istiqamətində fəaliyyətin genişləndirilməsi zərurəti aktuallaşmışdır. Dövlətin sosial funksiyasının xüsusi mahiyyət qazanması isə sosial dövlətin inkişafına şərait yaradır. Bu proses bilavasitə sosial olan iqtisadiyyat üzərində üstünlük əldə etməsi, insanın layiqli həyat şəraitinin təmin edilməsinin dövlətin əsas məqsədinə çevrilməsi ilə bağlıdır.

Dövlətin sosial və iqtisadi sferanın tənzimlənməsi istiqamətində məqsədyönlü fəaliyyəti sosial siyasət prinsiplərini şərtləndirir. Bu mənada sosial siyasət dövlətin digər iqtisadi subyektlərin həyat və əmək şəraitinin dolğun təminatına yönəldilmiş fəaliyyətidir.

Dövlətin sosial sahədə apardığı islahatlar sosial siyasət zəminində qurulur və formalaşır. Beləliklə, sosial siyasət dövlətin, yerli hakimiyyət orqanlarının, müəssisə və təşkilatların əhalini işsizlikdən, istehlak qiymətlərinin artımından müdafiə edən kompleks sosial iqtisadi tədbirlər sistemidir [5, s.114-118].

Müasir qloballaşma prosesi sosial siyasətin yeni mahiyyət kəsb etməsinə və standart proqramlar əsasında həyata keçirilməsinə, o cümlədən müxtəlif ölkələrdə sosial siyasətlə bağlı oxşar islahatların aparılmasına səbəb olmuşdur. Beynəlxalq, milli və submilli sosial siyasətlər ölkələrin yoxsulluq əleyhinə qlobal fikir birliyinə gələrək inkişaf edən sosial birliyin dəyişməsinə təsir etməkdədir .

Sosial siyasi fəaliyyətin əsas məsələləri yalnız insanların həyat şəraitinin deyil, həm də sosial keyfiyyətlərin - əməksevərlik, nizam-intizam, sosial məsuliyyət, ictimai fəallıq, mənəvi dəyərlər, həmçinin bu keyfiyyətlər əsasında insanların həyat tərzinin təkmilləşdirilməsi kimi müəyyənləşdirilib. Bu mənada hökumətin əsas məqsədi əhalinin həyat şəraitinin yaxşılaşdırılması və sosial qeyri-bərabərliyin azaldılması, sosial nemətlərin hər kəs tərəfindən əldə edilməsi, keyfiyyətli təhsil, səhiyyə və sosial xidmətlərin təmin edilməsi kimi müəyyənləşdirilir [6, s.74-82].

Hər bir dövlətin həyata keçirdiyi sosial siyasət həmin dövlətin idarəetmə sistemindən, siyasi rejimdən birbaşa asılıdır. Bu mənada hər bir dövlətin sosial siyasəti digərindən fərqlənir.Məsələn, totalitar dövlətdə sosial siyasət sosial sahədə totalitar fəaliyyətinə qədər məhdudlaşdırılır.Demokratik cəmiyyətdə isə sosial siyasət demokratik dövlətin daşıdığı funksiyanı və vətəndaş cəmiyyətinin subyektlərini təmsil edir.Dövlətin müxtəlif sahələrdə həyata keçirdiyi geniş islahatlar sosial siyasətin qarşısında duran kompleks vəzifələrin həllini,bəzi hallarda isə bir sıra mənfi halların və ziddiyətlərin aradan qaldırılmasını tələb edir.Göründüyü kimi, sosial siyasət anlayışı cəmiyyətin ümumi inkisaf xüsusiyyətlərini özündə ehtiva edir.Belə ki, hər bir dövlət öz inkişafına və

məqsədlərinə uyğun olaraq sosial siyasəti formalaşdırır və bu siyasətin həyata keçirilməsi üçün zəruri şəraitin yaradılmasını təmin etməyə çalışır.

Sosial siyasətin həyata keçirilməsi onun məqsəd və vəzifələrinin düzgün müəyyənləşdirməkdən asılıdır. Sosial siyasətin məqsədi qarşıya qoyduğu məqsədlərə yardım etməkdir. Sosial siyasətin başlıca məqsədi yoxsulluğun aradan qaldırıldığı, sosial təzadların olmadığı və ya kəskin münaqişələrsiz həll edildiyi yüksək həyat səviyyəsinə malik cəmiyyət formalaşdırmaqdan ibarətdir.

Sosial siyasətin məqsədi təkcə bu günü deyil, gələcəyi də mütləq nəzərə almalıdır. Bu siyasət elə bir şərait yaratmalıdır ki, insanlar layiqli əmək fəaliyyəti ilə məşğul olsunlar, yüksək sosial fəallıq göstərərək cəmiyyətin maddi rifahının yaxşılaşdırılması sahəsində təməli möhkəmləndirsinlər və onun sosial təminat səviyyəsini yüksəltsinlər.

Sosial siyasətin qarşısında duran məqsəd insanlarda fəal həyat mövqeyi formalaşdırmaqdan, cəmiyyətin ümumi rifahını, humanistləşdirmə səviyyəsini yüksəltməkdən, maddi imkanlardan səmərəli istifadə etməyi öyrətməkdən, cəmiyyətin əmək qabiliyyətli hər bir üzvünün həyat səviyyəsinin onun öz səylərindən asılı olduğunu dərk etdirməkdən, insanların tələbatının və maraqlarının ödənilməsi üçün şərait yaratmaqdan, ayrı-ayrı vətəndaşlara, əhalinin zəif müdafiə təbəqələrinə sosial yardım göstərməkdən, onların sosial müdafiəsini və reabilitasiyasını təşkil etməkdən ibarətdir.

Sosial siyasətin məqsədinin təhlili onun bəzi tiplərini müəyyənləşdirməyə imkan verir.Tədqiqatçıların fikrincə, sosial siyasətin əsasən dörd tipi mövcuddur:

- Birincisi,sosial cəhətdən sabit cəmiyyətlərdə sosial siyasət;
- İkincisi,sistemli böhran vəziyyətində olan cəmiyyətlərdə sosial siyasət;
- Üçüncüsü, deformasiya vəziyyətində olan cəmiyyətlərdə sosial siyasət;
- Dördüncüsü, əsaslı islahatlar yolu ilə sistemli böhrandan çıxan cəmiyyətlərdə sosial siyasət, başqa sözlə, keçid dövrünün sosial siyasəti.

Sosial siyasət dövlətin, onun təsisatlarının, yerli özünüidarə orqanlarının, bütün mülkiyyət formalarından olan yerli və xarici müəssisələrin, ictimai fondların, ictimai və dini birliklərin, vətəndaş cəmiyyətlərinin fəaliyyəti nəticəsində həyata keçirilir.

1995-ci ildə Kopenhagendə keçirilən konfransda hazırlanmış sənəddə sosial siyasətin əsas məqsədləri dairəsinə aşağıdakılar daxil edilmişdir:

a) ölkənin fiziki, intellektual, mənəvi-etik potensialının maksimal saxlanması;

b) leqal bazarın tələblərinə cavab verən dayanıqlı əməyi motivləşdirmə təbəqəsinin formalaşdırılması;

c) vətəndaşların, əhalinin müxtəlif ictimai təbəqə və qruplarının öz tələbləri və maraqlarını gerçəkləşdirə biləcək, fəallıqlarını nümayiş etdirməyinə imkan verəcək, şəxsiyyətin qabiliyyətlərinin yardım göstərəcək institusional qurumların və əsaların yaradılması. Bunsuz vətəndaş cəmiyyəti, səxsi azadlıq, real demokratiya üçün zəmin yaranmır.

Sosial siyasətin həyata keçirilməsi şəxsiyyətin mədəni səviyyəsinin yüksəlməsinə, insanlararası mədəni münasibətlərin inkisafına, eləcə də bu münasibətlərin lokal səviyyədə reallaşmasına kömək edir. Beləliklə, insanın optimal inkişafı və onun yaradıcı xüsusiyyətlərinin açılmasına geniş imkanlar yaranır. Belə fəaliyyət toplusu cəmiyyətin strukturunda dəyişikliklər və yeniliklər aparılmasına yol açır. Struktur dəyişikliklər sənayeləşdirməni, məşğulluğun getdikcə artmasını, urbanizasiyanı, geri qalmış regionların inkişafını, kənd təsərrüfatının modernləşdirilməsini və s. nəzərdə tutur.

Azərbaycanın müasir soial siyasəti güclü dövlət ideyasına sadiq qalaraq, ilk növbədə sosial problemlərin həlli sahəsində dövlətin rolunun artırılmasına xüsusi əhəmiyyət verirdi.

Təhlillər göstərir ki, ilk müstəqilliyin Heydər Əliyev mərhələsində Azərbaycanda sosial siyasətin baslıca istiqamətləri-sosial prioritetləri əsasən aşağıdakılardan ibarət olmuş və eyni zamanda ölkəmizdə onların səmərəli həlli yolları tapılmışdır.

**Pensiya islahatları.** Bütün sivil cəmiyyətlərdə pensiya təminatı sosial müdafiə sisteminin mühüm sahəsi kimi qəbul olunmuşdur.Bu isə pensiya təminatının mükəmməl və sivil qanunvericilik əsasında həyata keçirilməsini tələb edir. Hər bir ölkənin pensiya siyasəti pensiya sisteminin iki əsas funksiyasının gerçəkləşdirilməsinə yönəldilmişdir.Birinci funksiya sosial funksiyadır-bu, əmək

qabiliyyətini itirmiş səxslərin normal həyat şəraitini təmin etməyi nəzərdə tutur. İkinci, iqtisadi funksiya olub pensiya ilə əmək fəaliyyəti arasında asılılığı təmin etməkdir.

1993-cü ildən başlayaraq Azərbaycan Respublikasında siyasi sabitlik bərqərar edilməklə əldə olunan dayanıqlı iqtisadi inkişaf əhalinin sosial müdafiəsinin gücləndirilməsinin əsas amilinə çevrildi. Məhz bu dövrdə ölkənin pensiya təminatı sisteminin qabaqcıl beynəlxalq təcrübəyə uyğun yenidən qurulması sosial siyasətin strateji istiqamətlərindən biri kimi müəyyənləşdirildi.

Ötən illər ərzində həyata keçirilən islahatlarla Azərbaycanda müasir və sosial baxımdan yüksək səmərəyə malik pensiya təminatı sisteminin yaradılmasına nail olunmuşdur. Bunun nəticəsində pensiya yaşında olan əhali təbəqəsinin sosial rifah durumu əhəmiyyətli şəkildə yaxşılaşmış və bu təbəqədə yoxsulluq, demək olar ki, tam olaraq aradan qaldırılmışdır. Əhalinin sosial müdafiəsi sahəsində məqsədyönlü tədbirlər 2006-2016-cı illərdə əmək pensiyalarının orta aylıq məbləğinin 5,9 dəfə yüksəldilməsinə və beləliklə də bu göstərici üzrə ölkəmizin postsovet coğrafi məkanında öncül mövqelərdə qərarlaşmasına imkan vermişdir.

Hazırda ölkəmizdə mövcud olan pensiya təminatı sistemində bir sıra sosial sığorta ilə əlaqəli olmayan öhdəliklər sistemin maliyyə yükünü xeyli artırmaqla pensiya sisteminin xərclərinin, eləcə də dövlət büdcəsindən ayırmaların (transfertin) artımını şərtləndirmişdir. Nəticədə, Dövlət Sosial Müdafiə Fondunun təsdiq edilmiş büdcəsində xərclərin məbləği 2016-cı ildə 2928,5 milyon manat təşkil etmişdir ki, bu da 2006-cı ildəki 589,5 milyon manatla müqayisədə 5 dəfə artmışdır. Həmin müddətdə dövlət büdcəsindən ayırmaların (transfertin) məbləği 6,8 dəfə artmaqla, 167 milyon manatdan 1142 milyon manata, cəmi xərclərdə xüsusi çəkisi isə 28,3 faizdən 39 faizə yüksəlmişdir. Göstərilənlərlə bağlı, pensiya təminatı sisteminin uzunmüddətli inkişaf dövrü üçün maliyyə dayanıqlılığının daha da möhkəmləndirilməsi məqsədi ilə müvafiq tədbirlər işlənilməli, sosial sığorta prinsiplərinə əsaslanmayan dövlət öhdəlikləri üzrə xərclərin maliyyə yükünün sistemə təsiri tənzimlənməli, sosial sığorta haqları ilə sosial sığorta ödənişləri arasında əlaqə gücləndirilməlidir.

**Yoxsulluğun azaldılması.** Yoxsulluq sosial və institusional məsələlərlə yanaşı, iqtisadi məsələləri də əhatə edən çoxşaxəli bir problemdir. Yoxsulluğun azaldılması yalnız iqtisadi siyasət sahəsində həyata keçirilən tədbirlər nəticəsində əldə edilməsə də, iqtisadi artım və makroiqtisadi sabitlik kimi məsələlər yoxsulluğun azaldılmasına zəmin yaradaraq, çoxşaxəli və davamlı inkişaf tempinin təmin edilməsində mühüm amildir.

İqtisadi artımın davamlılığını təmin edən ən baslıca cəhətlərdən biri iqtisadi inkişafın sahəvi və coğrafi diversifikasiyasıdır. Bu baxımdan, qeyri-neft sektorunun inkişafı, həmçinin, regionların tarazlı inkişaf etdirilməsi xüsusi önəm daşıyır. Məhz dayanıqlı iqtisadi artım makroiqtisadi sabitliyin əsasını təşkil etməlidir.

Makro səviyyədə iqtisadi sabitliyin qorunub saxlanılması ölkənin bütün dövlət xərclərinin davamlı və inflyasiya yaratmayan şəkildə idarə edilməsini tələb edir.

Tədqiqatlar göstərir ki, inflyasiyanın surətli artımı ilk novbədə əhalinin yoxsul təbəqələrinə daha ağır zərbə vuraraq, yoxsulluq həddindən bir az yuxarı səviyyədə olan ailələrin yoxsulluğa duçar olmalarına gətirib çıxarır. Bu baxımdan makroiqtisadi sabitlik, davamlı olaraq iqtisadi artımın təmin edilməsi, ölkənin gəlir və xərclərinin səmərəli idarə edilməsi mühüm əhəmiyyətə malikdir.

Yoxsulluğun azaldılması hazırda beynəlxalq ictimaiyyət qarşısında duran ümumbəşəri bir problemdir. Ölkəmizdə bu problemin həlli aktual olsa da,bu sahədə ciddi nailiyyətlərin əldə olunması üçün irimiqyaslı maliyyə resursları tələb olunurdu. Heydər Əliyevin neft strategiyasının həyata keçirilməsi, “Əsrin müqaviləsi” çərçivəsində ölkəmizə maliyyə vəsaitlərinin daxil olması yoxsulluqla ciddi mübarizəyə başlanmasına zəmin yaratdı.

Sosial siyasət əhalinin pul gəlirlərinə, həmçinin nemət və xidmətlərin lazımi sayda istehsalına, əhalinin tələbatlarının həcmi və strukturuna təsir göstərir. Aparıcı istiqamətlər əmək haqqının, gəlirlərin, məşğulluğun tənzimlənməsi, işçilərin əmək keyfiyyətlərinin yüksəldilməsi, sağlamlıq, mədəni və təhsil səviyyələrinin dəstəklənməsi, sosial infrastrukturun inkişafı, sosial təminatla bağlıdır. Sosial siyasətin reallaşdığı institusional mühitin səmərəliliyini müəyyən edən kəmiyyət göstəriciləri bilavasitə iqtisadiyyat, siyasət, mədəniyyət, səhiyyə mühitilə bağlıdır. Məlum olduğu kimi, iqtisadi vəziyyət məşğulluq və işsizlik məsələlərinə böyük təsir göstərir. Sosial iqtisadi

siyasət iş yerlərinin yaradılması yolu ilə həyata keçirildiyi halda işçi qüvvənin təklifinə uyğun olar və bu zaman əmək bazarı daha yaxşı funksiyalaşar, işsizlik azalar [7].

Əhalinin sosial vəziyyəti, dövlətə və onun institutlarına inam bilavasitə yerlərdə dövlət orqanlarının səmərəli funksiyalaşması ilə bağlıdır. Regionların sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması məqsədilə sərmayə qoyuluşu fəaliyyətinin genişləndirilməsi zəruridir. Sərmayələrin cəlb edilməsi üçün ölkədə və regionda əlverişli şəraitin yaradılması tələb olunur.

## ƏDƏBİYYAT


1. Mehbalıyev S.S., İskəndərov R.K.Əmək bazarı və əhalinin sosial müdafiəsi, Bakı-2002
2. Azərbaycan Respublikası Yoxsulluğun azaldılması və iqtisadi inkisaf üzrə Dövlət Proqramı. 2008-2015.
3. Rəcəbli.H Azərbaycan Respublikasının sosial müdafiə sistemi, Bakı-2012
4. İmanov Q., Əkpərov R. Sosial sistemlərin keyfiyyətinin qiymətləndirilməsinin qeyri-səlis modelləri. Sosial sistemlərin modelləşdirilməsi. LAP LAMBERT Academic Publishing, Saarbrücken, Deutschland, 2013.
5. Hacızadə E.M. Sosiallaşan iqtisadiyyat. Bakı, Elm, 2006, -509s.
6. Тимофеева Г.В. Государственная социальная политика в РФ на современном этапе: опыт рыночных трансформаций перспективы развития. Вестн. Волгогр. гос. ун-та. Сер.7, Филос. 2012, № 1 (16), с.74-82.
7. Институты реализации социальной политики и услуг на макро и микроуровне. © Электронный научный журнал Инженерный вестник Дона, 2007–2013. http://www.ivdon.ru/magazine/archive/n4p2y2012/1464


## ABSTRACT


**A.Rustemov**
**A.Talıbov**


### DEVELOPMENT OF SOCIOLOGICAL RELATIONS IN AZERBAIJAN REPUBLIC


The main aim of the state's economic policy should be to provide the optimal defense of the sociological defense of the citizens of the country.Here, the dynamics of the social sociological situation in Azerbaijan have been researched as a result of the economic reforms and the role of these reforms has been assessed in the provision of their life level.

In this article, emphasizing the positive tendons of sociological politics, ways of solving the problems that have emerged have been shown.


## РЕЗЮМЕ


**А.Рустамов**
**А.Талыбов**


### СОВЕРШЕНСТВОВАНИЕ СОЦИАЛЬНЫХ ОТНОЩЕНИЙ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУВЛИКИ


Основная цель экономической политику государства является социальная защита в оптимальной форме граждан государства. Здесь исследовано динамика социального положения населения в результате экономической реформы проведенного в Азербайджане и в обоспечение уровня жизни их были оценены эти реформы.

В статье с указанием политических тенденций социальной политики были также указаны решения возникщих проблем.



NDU-nun Elmi Şurasının 19 oktyabr 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 02).

**DİLSUZ QASIMOV**
*Naxçıvan Dövlət Universiteti*
*dilsuzqasimov1949@gmail.com*

**UOT: 631**

# KƏND TƏSƏRRÜFATININ MADDİ-TEXNİKİ TƏMİNAT SİSTEMİ, ONUN TƏŞKİLİ VƏ İDARƏ EDİLMƏSİ

**Açar sözlər:** *aqrar sahə, islahatların aparılması, sahibkarlq fəaliyyəti, maddi-texniki təminat, aqrolizinq, məhsul istehsalı*

**Key words:** *agrarian sector; reforms; entrepreneurship; material and technical support; agroleasing; production*

**Ключевые слова:** *аграрная отрасль, проведение реформ, предпринимательская деятельность, материально-техническое обеспечение, агролизинг, производство продукции*

Kənd təsərrüfatında maddi-texniki təminat sistemi keçmiş Sovet dövlətinin təsərrüfat-təşkilat fəaliyyətinin tərkib hissəsi olmaqla, bir neçə inkişaf mərhələsi keçmişdir. Kənd təsərrüfatında elmi-texniki tərəqqinin surətli inkişafı bu sistemin funksiyalarının genişlənməsinə səbəb olmuşdur.Lakin uzun müddət mərkəzləşdirilmiş idarəetmə və planlı iqtisadiyyat şəraitində formalaşdırılmış iqtisadi mexanizm və onun təkmilləşdirilməsi cəhdləri istehsalın səmərəliliyini istehsalçı və istehlakçı arasındakı tarazlı inkişafı təmin etmədiyi üçün tələblə təklif arasındakı nisbət daha da kəskinləşmişdir.(3)

1991-ci ildən öz müstəqilliyini qazanmış Azərbaycan respublikası planlı-inzibati sistemdən demokratik prinsiplər əsasında qurulan və azad bazar münasibətlərinə söykənən yeni təchizat sisteminə keçmiş,1995-ci ildən başlayaraq milli iqtisadiyyatda ciddi irəliləyişlər əldə edilmiş, makroiqtisadi göstəricilərin artımına nail olunmuş, iqtisadi potensialın bərpasında və müasir səviyyədə formalaşmasında həlledici rol oynayan sahibkarlıq fəaliyyətinin təməli qoyulmuş, kənd təsərrüfatının maddi-texniki təminatı sisteminin inkişafına şərait yaranmışdır. (1)

Bir sıra inkişaf etmiş dünya ölkələrində - ABŞ-da Almaniyada, Belçikada, Hollandiyada, İtaliyada və s. fermerlərə istehsal-texniki xidmət işini ixtisaslaşdırılmış "Texniki xidmət kooperativləri" yerinə yetirir. Respublikamızda kənd təsərrüfatının konkret şəraitini, maddi-texniki resurslarla təchizat vəziyyətini və aparılan islahatların nəticəsində yaradılmış müxtəlif növ təsərrüfat qurumlarının istehsal-texniki xidmətlərə təlabatının ödənilmə vəziyyətini nəzərə almaqla, kənd təsərrüfatının mexaniki vasitələrlə təchizatı yerli şəraiti nəzərə ala bilən maşınlar sistemi yaratmaq istiqamətində həyata keçirilməlidir. Maşınlar sistemi dedikdə, istehsal prosesinin texnoloji mərhələlər üzrə tətbiq olunan və bir-birinin işini ardıcıl surətdə tamamlayan müxtəlif maşınların məcmusu başa düşülür. Bitkiçilikdə belə sistemə: torpağı becərən, gübrə verən, toxumsəpən və əkən, əkinə qulluq edən, məhsul yığan,daşıyan və məhsulun satılmasını təmin edən və s. maşınlar daxildir. Maşınlar sistemi əl əməyinin ardıcıl sürərətdə maşınla əvəz olunmasını təmin edir. O,energetika ilə iş maşınları və mexanizmlərinin səmərəli əlaqələndirilməsidir.(2)

Mövcud texnikalar aqrotexniki tədbirləri vaxtında və keyfiyyətlə həyata keçirməyə imkan verir. Yeni maşınlar sistemində traktorların gücünün, iş surətinin və enerji tutumunun yüksəldilməsi, avtomobillərin və traktor yedək arabalarının yükgötürmə qabiliyyətinin yüksəldilməsi, kənd təsərrüfatı bitkilərinin intensiv və sənaye texnologiyası əsasında becərilməsi məqsədilə maşınların, dənli bitkilər yığımında böyük en götürümlü kombaynların, texniki bitkilər üçün isə çoxcərgəli yığım maşınlarının yaradılması və s. nəzərdə tutulur.

Kənd təsərrüfatının maddi-texniki təminat sistemində planlaşdırma işini həyata keçirərkən bir sıra müxtəlif normalardan və iş normativlərindən geniş istifadə edilir. Traktorlara, kombaynlara, avtomobillərə və başqa kənd təsərrüfatı maşınlarına olan təlabatı planlaşdırarkən mütərəqqi istehsal

normativlərinin tətbiq edilməsi və kənd təsərrüfatı işlərinin optimal müddətdə yerinə yetirilməsinin nəzərə alınması mühüm iqtisadi əhəmiyyət kəsb edir. Normalar regionlar, eləcə də zonalar, yarımzonalar, rayonlar və hətta təbii-iqlim şəraitinə görə kəskin surətdə fərqlənən təsərrüfatlar üzrə işlənilməlidir. Yalnız belə norma və normativlərin tətbiqi əsasında kənd təsərrüfatının maddi-texniki təminatını düzgün planlaşdırmaq olar. Eyni zamanda kənd təsərrüfatı istehsalının məsrəf normaları və normativlər sistemini işləyib hazırlayarkən, bitkiçilik və heyvandarlıqda texnoloji proseslərin və əməliyyatların ardıcıllığını və xüsusiyyətlərini nəzərə almaq lazımdır.(2)

Belə ki, torpağın becərilməsi və onun məhsuldarlığının yüksəldilməsi (şumlama, kultivasiya çəkmək, cərgələrarası becərmə, malalama, dımrıqlama, torpağın səthini hamarlama və s.), habelə yeni sahələrin kənd təsərrüfatı dövriyyəsinə daxil edilməsi ilə əlaqədar olan bütün işləri ( sahələri yabanı alaq otlarından, kol-kosdan və daşlardan təmizləmək, sahələri planirovka edilməsi və hamarlanması, dağ yamaclarında terrasların salınması və s.) daxil etmək;

-torpağın məhsuldarlığının  yüksəldilməsi üçün kimyalaşdırma üzrə bir sira işlər (mineral, üzvi və üzvi-mineral gübrələrin səpilməsi, bitkilərə yemləmə gübrələrinin verilməsi və s.) meliorasiya və suvarma ( planiroka və nizamlama, bataqlıq sahələrin qurudulması, suvarma və süni yağışyağdırma, qoruyucu zolaqların salınması və s.), eləcə də bioloji becərmə zamanı ( faydalı canlı orqanizmlərin səpilməsi və s.) üzrə işlər yerinə yetirmək;

-bitkiçilikdə yığımdan sonra toxumun səpinə hazırlanması və saxlanması, səpinqabağı torpağın və toxumun kimyəvi maddələrlə işlənməsi, toxumun səpilməsi, şitillərin basdırılması, bitkilərə və səpinə qulluq edilməsi, yığım, yığımdan sonra becərmə və məhsulun saxlanılması, kənd təsərrüfatı xammalının emalı, otun və küləşin yığılması və preslənməsi, yemlərin siloslaşdırılması,mədəni otlaqların yaxşılaşdırılması və s.daxildir;

-heyvandarlıqda əsas texnoloji proseslərdən naxırın yaxşılaşdırılması və çoxaldılması, yumurtaların yığılması, növlərinə ayrılması, yemlərin hazırlanması və yemləmə, su təhçizatı, çəmənliklərdə və örüşlərdə mal-qaranın otarılması, heyvanların sağılması, südün emalı və saxlanılması, qoyunların və digər heyvanların qırxılması, peyinin yığılması və saxlanılması, eləcədə digər heyvandarlıq məhsullarınımn istehsalı, emalı, saxlanılması və s. daxildir;

-canlı orqanizmin və torpağın mühafizəsi ilə əlaqədar olaraq insanların və heyvanların parazitlərdən (bit, birə, taxtabiti, gənə və s.), həşaratlardan və vəhşi heyvanlardan, xəstəliklərdən və epidemiyalardan (yoluxucu xəstəliklərdən), şüalanma və zəhərlənmədən, eləcə də bitkilərin və torpağın alaq otlarından, kənd təsərrüfatı bitkilərinin xəstəlik və ziyanvericilərdən, soyuqdan və donaqlıqdan (şaxtadan), quraqlıqdan, yanğından və ildırım boşalmalarından, şiddətli yağışlardan (leysan) və doludan, tufandan və daşqından və s. qorunması ilə əlaqədar olan bütün işlər aid edilir;

- kənd təsərrüfatının istehsal və qeyri istehsal sahələrinə xidmət göstərilməsi ilə əlaqədar olan bütün işlər (maşın-traktor parkının cari, orta  və əsaslı təmiri, maşın-mexanizmlərə texniki qulluq, tikililərin və binaların yenidən bərpası, tikinti materialları və su-kanalizasiya qurğularının, rabitə xətlərinin qurulması, və s.) daxildir;

- enerjinin bir növdən digərinə, yəni elektrik enerjisinin- mexaniki, istilik və şüa( işıqlandırma) enerjisinə, günəş enerjisinin- bioloji enerjiyə, istilik və elektrik enerjisinə, atom enerjisinin- bioloji enerjiyə, yanacağın kimyəvi enerjisinin- elektrik, istilik və mexaniki enerjisinə çevrilməsi ilə əlaqədar olan proseslər aid edilir.(2)

Bu baxımdan "1995-1998-ci illərdə Azərbaycan Respublikasında dövlət mülkiyyətinin özəlləşdirilməsinin Dövlət Proqramına" uyğun olaraq, kənd təsərrüfatının texniki-təminat sistemində aparılmış islahatlar kənd təsərrüfatında istehsalçıların zəruri ehtiyacını nəzərə alaraq, onların kənd təsərrüfatı texnikası və mexanizator kadrları ilə təchizatını yaxşılaşdırmaq, keyfiyyətli məhsul yetişdirməklə yanaşı, onun itkisiz yığılmasını təmin etmək nəzərdə tutulmuşdur.(5).

Aqrar sahədə əldə edilən uğurlarda sahibkarların müasir kənd təsərrüfatı texnikaları ilə təchizatının böyük rolu olub. Hazırda muxtar respublikada sahibkarlara aqroservis xidməti "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin kənd təsərrüfatı maşın, traktor və aqreqatları ilə yanaşı, həm də əhalidə olan şəxsi texnikalar vasitəsilə həyata keçirilir. Bu dövr ərzində "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə 1742 ədəd müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası gətirilib, onlardan 1483-ü nağd hesablaşma və lizinq yolu ilə sahibkarlara

satılıb. Alınmış texnika və aqreqatların 57-si 2016-cı ildə gətirilməklə fermerlərə lizinq yolu ilə icarəyə verilmiş və eyni zamanda güzəştli şərtlərlə satılmışdır .(4)

Fikrimizcə alternativ olaraq yeni texniki təçhizat və texniki xidmət müəssisələri yaradılarkən, müxtəlif mülkiyyət və təsərrüfatçılığa əsaslanan aşağıdakı formaların yaranmasını məqbul hesab etmək olar:

-texniki xidmət kooperativləri;
-payçı-şərikli texniki xidmət müəssisələrı;
-texniki xidmət və texniki təchizat kompaniyaları;
-məhdud məsuliyyətli, yoldaşlıq texniki təchizat və texniki xidmət müəssisələri;
-səhmdar cəmiyyətlər və onun birlikləri və s.

## ƏDƏBİYYAT


1. A.A.Rüstəmov,D.Q.Qasımov-Aqrar sferanın iqtisadiyyatı və idarə edilməsi. Bakı: Avropa-2013.406 s.
2. C.C.Məmmədov-Aqrar bölmədə maddi-texniki təminat və xidmət işinin təşkili. Bakı; Əbilov,Zeynalov və oğulları 2004.530 s.
3. Azərbaycan iqtisadiyyatı, Dərslik, İ.H. Alıyev, S.A. İbadovun rəhbərliyi ilə, Bakı: Ağrıdağ, 1999.
4. Naxçıvan MR Dövlət Statistika Komitəsinin məlumatı. Naxçıvan 2016.
5. Azərbaycan Respublikasında dövlət mülkiyyətinin özəlləşdirilməsinə dair qanunvericilik. Sənədlər toplusu, I cild, Bakı; 1997.


## ABSTRACT


**Dilsuz Gassımov**


## THE MATERIAL AND TECHNICAL SYSTEM OF AGRICULTURE, ITS' ORGANIZATION AND MANAGEMENT


In this article were researched the material and technical system of agriculture field, its function and duty, the features of technical services, the legislative base of planning of material and technical support and the leasing procedures of services and equipments in the agrarian sector.


## РЕЗЮМЕ


**Дилсуз Гасымов**


## СИСТЕМА МАТЕРИАЛЬНО-ТЕХНИЧЕСКОГО ОБЕСПЕЧЕНИЯ СЕЛЬСКОГО ХОЗЯЙСТВА, ЕЁ ОРГАНИЗАЦИЯ И УПРАВЛЕНИЕ


В статье исследована система материально-технического обеспечения аграрного сектора, ее функции и задачи, характеристика технического обслуживания, нормативная база планирования материально-технического обеспечения, передача в аграрном секторе лизингу работ и техники по материально-техническому обслуживанию.



NDU-nun Elmi Şurasının 19 oktyabr 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 02).

**MEHRİBAN İMANOVA**
*Naxçıvan Dövlət Universiteti*
*Marketinq05@mail.ru*

**UOT: 338**

# NAXÇIVAN MUXTAR RESPUBLİKASI SƏNAYESİNİN ƏSAS İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

**Açar sözlər:** *dövlət siyasəti, balanslaşdırılmış siyasət, özəl sektor, sənayeləşmə, sənaye parkı*

**Key worlds:** *public policy, balanced development, private sector, industrialization, industrial parks*

**Ключевые слова***: государственная политика, сбалансированного развития, частный сектор, индустриализация, промышленные парки*

Ulu öndər Heydər Əliyevin strateji xəttinin uğurla davam etdirilməsi nəticəsində həyata keçirilən çevik və balanslaşdırılmış siyasətin məntiqi nəticəsi olaraq bu gün muxtar respublikamızda bütün sahələrdə canlanma müşahidə olunur. Dünyada baş verən iqtisadi böhran və qlobal maliyyə bazarlarındakı qeyri-sabitliyin mövcud olmasına baxmayaraq, muxtar respublikada 2016-ci il makroiqtisadi sabitliyin təmin olunduğu bir il oldu. Bunun əsasında ölkə prezidentinin rəhbərliyi altında həyata keçirilən sosial-iqtisadi siyasət dayanır. Bu günə qədər qəbul olunmuş Dövlət Proqramları çərçivəsində həyata keçirilən tədbirlərin uğurla reallaşdırılması nəticəsində infrastrukturun köklü şəkildə yenilənməsi və bütün sahələrə investisiya qoyuluşunun artırılması əldə olunan nailiyyətləri şərtləndirən əsas amildir. Bu müddət ərzində muxtar respublikada saysız istehsal və sosial yönümlü obyektlər tikilib istifadəyə verilmişdir.

Ümumi inkişaf dinamikası və əhalinin maddi rifahı daha çox Ümumi Daxili Məhsul, onun adambaşına düşən səviyyəsi və əhali gəlirləri ilə ölçülür. Ümumi Daxili Məhsul iqtisadi fəaliyyətin təkmilləşdirilmiş ölçüsü olub insanların yaxşı yaşaması üçün lazım olan əsas şərtlərdən biridir. Əhalinin orta gəlir və xərclərini ifadə edən adambaşına düşən Ümumi Daxili Məhsul hər bir vətəndaşın iqtisadi rifah ölçüsü olub, insanların alıcılıq qabiliyyətini müəyyən edir. 2016-ci ildə əsas makroiqtisadi göstərici olan Ümumi Daxili Məhsulun həcmi 2 milyard 500 milyon manatdan çox olmuşdur. Görülən kompleks tədbirlər nəticəsində Ümumi Daxili Məhsulun həcminin ötən ildə 1995-ci ilə nisbətən 57 dəfə artırması adambaşına düşən ümumi daxili məhsulun müvafiq dövrlə müqayisədə 44 dəfə artması ilə nəticələnmişdir. Onun hər bir nəfərə düşən həcmi isə 5 min 771 manat təşkil etmişdir ki, bu da 2015-ci ilin müvafiq göstəricisinə nisbətən 3,4 faiz çoxdur (4).

Sahibkarlığın inkişafına böyük diqqətin göstərilməsi, iş adamlarının beynəlxalq bazarlara çıxması üçün əlverişli imkanların yaradılması aparılan siyasətin məqsədyönlüyündən xəbər verir. 2016-cı ildə bank və kredit təşkilatları tərəfindən sahibkarlığın inkişafı məqsədilə 17 milyon manatdan çox kredit verilmişdir ki, bu da 1995-ci illə müqayisədə 68 dəfə çox deməkdir. Təkcə 2016-cı ildə muxtar respublikada 33 hüquqi və 2173 fiziki şəxsi qeydiyyata alınmışdır. 2016-cı ildə 47 yeni istehsal və xidmət sahəsi fəaliyyətə başlamış, nəticədə istehsal olunan məhsul növlərinin sayı 366-ya çatdırılmışdır. Halbuki, 1996-cı ildə muxtar respublikada cəmi 10 adda məhsul istehsal olunurdu (5).

1990-cı ildə keçmiş ittifaqın dağılması ilə əlaqədar olaraq respublikalar arasında mövcud olan əlaqələrin kəsilməsi, Ermənistanın respublikamıza qarşı elan olunmamış müharibəsi və bazar iqtisadiyyatına keçidlə əlaqədar olaraq qarşıya çıxan problemlər ölkə iqtisadiyyatında olduğu kimi Naxçıvan iqtisadi rayonuna da öz mənfi təsirini göstərmişdir. Muxtar respublikanın blokada şəraitində olması isə sosial-iqtisadi inkişafa daha böyük zərbə vururdu. İqtisadi rayonda sənaye məhsulunun həcminin azalması ilə yanaşı, onun sahə strukturunda da geriləmə baş vermiş, bu azalma yeyinti sənayesində özünü daha çox göstərmişdir. Sonrakı illərdə sənaye istehsalının

böhrandan çıxarılması üçün mühüm tədbirlər görülmüş, qəbul olunmuş Dövlət Proqramlarının reallaşdırıması sənayenin inkişafına güclü təkan vermiş, 2014-cü ildə 2000-ci ilə nisbətən mədənçıxarma sənayesində 10,3 dəfə, emal sənayesində 73,2 dəfə, elekrik enerjisi, qaz və suyun istehsalı və bölüşdürülməsi sahəsində 17 dəfə artım əldə olunmuşdur (5). Hazırda muxtar respublikada sənayenin sahə strukrurunda əsas yerə sahib olan yeyinti sənayesi içki və tütün də daxil olmaqla bir sıra qida məhsullarının istehsalını, yüngül sənaye isə toxuculuq, tikiş, dəri, dəri məmulatlar və ayaqqabı istehsalını əhatə edir. Sənayedə yerli kənd təsərrüfatı məhsullarının emalı və faydalı qazıntı hasilatı xüsusi yer tutur.

Tarixə nəzər salarkən görürük ki, Naxçıvan Muxtar Respublikası aqrar iqtisadiyyatdan sənaye istehsalına qədər uzun bir inkişaf yolu keçmiş və 2008-ci idən etibarən ilk dəfə olaraq sənaye məhsulunun istehsalı kənd təsərrüfatı məhsulunun istehsalını ötüb keçmişdir. Bunun səbəblərindən biri sənayenin baza şərti olan xammal baxımından muxtar respublikanın böyük üstünlüklərə malik olmasıdır. Muxtar respublikanın müasir iqtisadi potensialı və sahib olduğu həm əkinçilik, həm heyvandarlıq, həm də mədən xammalları Naxçıvanın öz imkanları hesabına, təkcə iqtisadi deyil, həm də sosial aspektlərlə bağlı olan sənayeləşmənin daha da surətlənməsinə imkan verir. Təbii sərvətlərin son məhsula çevrilməsi iqtisadi rayonun iqtisadi inkişafında əsas məsələlərdən biridir. Çünki ucuz qiymətə istehsal etdiyimiz hər hansı kənd təsərrüfatı məhsulunu xaricə ucuz qiymətə satıb əvəzinə baha qiymətə emal olunmuş hazır məhsulu almaq iqtisadiyyata həmin fərq qədər ziyan verirsə, həmin məhsulu özümüz istehsal edib son məhsula çevirməklə öz əhalisini ucuz məhsulla təmin edib ümumi daxili məhsulu artırmaq iqtisadiyyata bir o qədər xeyir verir. Emal müəssisələrinin sayı artıqca istehsal artır, daxili bazar formalaşır, rəqabət yüksəlir, əhalinin məşğuluq səviyyəsi yaxşılaşır və alıcılıq qabiliyyəti yüksəlir, daha çox istehsal olunan məhsul almaqla istehsalçını stimullaşdırır və nəticədə sosial-iqtisadi inkişaf yüksəlir. Beləcə, dövlətin iqtisadi imkanlarının artması isə daha yeni-yeni layihələrin həyata keçirilməsinə şərait yaradır (1; 57).

Onu da qeyd etmək lazımdır ki, sənayenin qurulub inkişaf etdirilməsi üçün xammalın hamısının ölkədə olması vacib deyil. Çünki sənaye məhsullarının gətirdiyi qazanc xammallara ödənilən xərclərə görə çox yüksəkdir. Bu gün Avstraliya, Kanada və Rusiya kimi çox az ölkələr xammalın çoxunu öz ölkələri hesabına təmin edir. Yaponiya, Almaniya, İngiltərə, Hollandiya, Belçika kimi bir çox sənayeləşmiş ölkələr xammal ehtiyaclarının böyük hissəsini ixrac hesabına ödəyir (2;86).

Xammalın hazır məhsula çevrilməsi enerji mənbələrinin mövcudluğundan asılıdır, yəni sənaye üçün lazım olan əsas amil elektrik enerjisidir. Enerji istehsalının çox olması sənayeni inkişaf etmiş olmasının əsas göstəricisidir. Ötən əsrin 90-cı illərində enektrik enerjisi qıtlığından çox böyük çətinliklər yaşayan muxtar respublika bu gün özünü nəinki elektrik enerjisi ilə tam təmin edir, hətta tələbatdan artıq elektrik enerjisini ixrac istiqamətində yönəltməklə valyuta əldə edir. Son illərdə Naxçıvanda istifadəyə verilən elektrik stansiyaları Naxçıvanın enerji təhlükəsizliyinin tam təmin edilməsi üçün geniş imkanlar yaratmışdır. Hazırda muxtar respublikada alternativ və bərpa olunan enerji mənbələrinin yaradılması istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsi nəticəsində yeni Günəş elektrik stansiyasının quraşdırılması enerji təhlükəsizliyinin daha da möhkəmləndirilməsinə şərait yaradacaqdır.

Xammal mənbələri ilə sənaye müəssisələrinin bir-birinə yaxın olması məhsuldarlıq baxımından əhəmiyyətlidir. İstehsal olunan malların daxili və xarici bazara nizamlı şəkildə çıxarılmasında nəqliyyat sisteminin böyük rolu var. Ümumiyyətlə, sənayenin inkişafında əhəmiyyətli nəqliyyat sistemi dənizyolu və dəmiryoludur. Ona görə də bütün sənayeləşmiş ölkələrdə fabriklər daha çox dəmiryolları ilə daxili bölgə bazarlarına bağlanmış olan liman fənərləri ətrafında toplanmışdır. Bakı-Tbilisi-Qars dəmir yolunun Naxçıvana qədər uzadılması nəqliyyat blokadasının aradan qaldırılması və istehsal olunan məhsuların dünya bazarına çıxarılması üçün əlverişli bir layihə hesab edilir.

Ümumi Daxili Məhsulun tərkibində malik olduğu paya görə 28 faizlik xüsusi çəkiyə qədər yüksələn sənaye sahəsində aparılan uğurlu islahatlar nəticəsində bu sahədə surətli inkişafa nail olunmuşdur. Sənayenin strukturunun təkmilləşdirilməsi, emal müəssisələrinin inkişafı istiqamətində

görülən tədbirlər sənaye məhsulunun artmasına gətirib çıxartmışdır. Kənd təsərrüfatı, onun xammalına əsaslanan emal müəssisələrinin yaradılması, tikinti materialları istehsalının inkişafında baş verən müsbət dəyişikliklər muxtar respublikanın iqtisadi potensialının möhkəmlənməsinə təsir göstərmişdir Təbii sərvətlərin və əmək resurslarının səfərbər edilməsi, sənaye müəssisələrinin bərpa olunması və yenidən qurulması, müəssisələrin dünya standartlarına uyğun texnologiyalarla təmin olunması, güzəştli kreditlərin verilməsi, yerli və xarici bazarlara çıxış imkanlarının sadələşdirilməsi artımla müşahidə olunmuş, sənaye Ümumi Daxili Məhsulun sahə strukturunda ilk yerə sahib olmuş və təkcə 2016-ci ildə 942 milyon manatlıq sənaye məhsulu istehsal olunmuşdur ki, bu da 1995-ci ilə nisbətən 103 dəfə çoxdur (4).

Regionun tikinti materiallarının böyük miqdarda ehtiyatına malik olması, burada tikinti məhsullarına olan tələbatın tamamilə yerli istehsal hesabına təmin olunmasına imkan yaradır. Tikinti sektorunun ümumi daxili məhsulun tərkibində ikinci böyük yerə sahib olmasının əsasında tikinti məhsulları sənayesinin inkişafının mühüm rolu var. Ötən il ərzində əsas kapitala yönəldilən investisiyaların həcmi 997 milyon manata qədər yüksəlmişdir ki, bu da 1995-ci ilə nisbətən 327 dəfə çoxdur. Vəsaitin böyük hissəsinin tikinti-quraşdırma işlərinə sərf olunması tikinti məhsulunun həcminin dinamik şəkildə artması və kənd yerlərində infrastrukturun yenilənməsi ilə nəticələnmişdir (4).

Müstəqillik illərində muxtar respublikada tikinti sənayesinin surətli inkişafından, bu il 50 yaşını qeyd edən, Naxçıvan Dövlət Universitetinə də böyük pay düşmüşdür. Ötən dövr ərzində universitetdə geniş tikinti-quruculuq işlərinin aparılması sayəsində, hazırda 108 hektarlıq ərazisində 16 tədris korpusu, Elektron kitabxana, Konservatoriya, Sosial Xidmət Mərkəzi, Universitet Xəstəxanası, Olimpiya İdman Mərkəzi, 2 stadion, Baytarlıq Təbabəti klinikası və müasir tipli Tələbə evi mövcuddur. Azərbaycan ali təhsil sistemində ilk dəfə olaraq tələbələr üçün 3 mərtəbəli sosial xidmət mərkəzi, müasir tipli universitet qonaq evi tikilərək istifadəyə verilmişdir (6).

Sənaye məhsulunun həcminə görə iqtisadi rayonlar arasında öncül yerlərdən birini tutan Naxçıvanın surətlə inkişaf edən sənaye sektoru artıq milli iqtisadiyyatımızın yüksək gəlir gətirən perspektivli sahəsinə çevrilmişdir. Muxtar respublikanın gələcək inkişafı üçün sənaye sahəsində dövlət siyasətinin əsas məqsədləri sənaye istehsalının dayanıqlı və yüksək artım tempinin təmin edilməsi, strukturunun təkmilləşdirilməsi, modernləşdirilməsi və səmərəliliyinin artırılmasıdır. Sənaye parkının yaradılması göstərilən hərtərəfli xidmət, stimullaşdırma tədbirlərin həyata keçirilməsi ilə rəqabət qabiliyyətli, daxili və xarici bazarın tələbatına uyğun məhsul istehsalına, istehsalın perspektiv fəaliyyətinə, istehsal vasitələrindən effektiv istifadəyə və beləliklə, sənayenin kompleks inkişafını tənzimləməyə imkan verəcək. Bu iqtisadi siyasətin reallaşması formalaşan təsərrüfat strukturlarının artması, kiçik sahibkarlığın genişlənməsi və dinamik inkişafı, fiziki şəxslərin sahibkarlıqla məşğul olması, qeyri-dövlət sektorunun rolunun getdikcə artması ilə müşayiət olunacaq. Mövcud dünya standartlarına uyğun olaraq mütərəqqi texnologiyalar əsasında qurulmuş belə müasir müəssisələr yalnız iqtisadi cəhətdən deyil, həm də yeni iş yerlərinin açılması ilə sosial baxımdan da mühüm əhəmiyyət kəsb edir.

Deməli, muxtar respublikanın sosial-iqtisadi inkişafının təməlində dövlətin sosial yönümlü iqtisadi siyasəti, o cümlədən hər bir vətəndaşın maddi rifahının artırılması, iqtisadiyyatın dövlət tənzimləmə mexanizmlərinin liberallaşdırılması, azad rəqabət, sahibkarlıq və investisiya mühitinin daha da yaxşılaşdırılması, muxtar respublikanın iqtisadi təhlükəsizliyinin təminatı üçün aparılmış kompleks işlər dayanaraq, sənayenin də perspektiv inkişafı üçün geniş yollar açır.

## ƏDƏBİYYAT

1. Allahverdiyev H.B., Qafarov K. S., Əhmədov Ə.M. İqtisadiyyatın dövlət tənzimlənməsi, Bakı; BDU, 2002, 448 s.
2. Əjdərov T. Bazar iqtisadiyyatı şəraitində Azərbaycan sənayesinin inkişaf istiqamətləri, Bakı; BDU, 2000, 258 s.
3. Nuriyev Ə.X. Regional siyasət və idarəetmə, Bakı; Elm, 2004, 348 s.

4. http://www.şerqqapısı.az/index.php/iqtisadiyyat/12032-dövlət-programlar-çərçivəsində-həyata-keçirilən-tədbirlər-əldə-olunan-nailiyyətləri-şərtləndirən-əsas amillərdən-biridir
5. http://statistika.nmr.az/ Naxçıvan MR DSK
6. http://ndu.edu.az/az/content/19/ Naxçıvan Dövlət Universiteti

## ABSTRACT

**Mehriban Imanova**

## THE MAIN DEVELOPMENT FEATURES OF THE INDUSTRY OF NAKHCHIVAN AUTONOMOUS REPUBLIC

In the scientific article the effectiveness of the state policy in the field of regional development tasks broad interpretation,as a result of the implementation of state programs have been adopted as successes achieved in the autonomous republic's economy has been analyzed, industry`s future development directionsis shown.

In the article described the objectives of regional policy, analyzed the importance of industrialization in the balanced regional development. The scientific article, as well as state and regional distribution of economic subjects were explained by statistical indicators of industrial production,

Noted that, the financial support, organizational activities within consumers, organizing internal business operations and the efficient use of personnel are important factors in the improving strategic development of industrial enterprises

## РЕЗЮМЕ

**Мехрибан Иманова**

## ОСНОВНЕ ХАРАКТЕРИСТИКИ РАЗВИТИЕ ПРОМЫШЛЕННОСТИ НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ

Государственная политика в области региональных задач в области развития в статье и комментариев по широкому кругу эффективности была принята в результате реализации государственных программ были проанализированы в результатах, достигнутых в экономике автономной республики, будущие направления развития отрасли представлены. В научный статье, а также было объяснено статистическими показателями состояние и региональное распределение экономических субъектов промышленного производства.

Статья описывает цели региональной политики, сбалансированного регионального развития, проанализированы важность индустриализации. В научный статье, а также было объяснено статистическими показателями состояние и региональное распределение экономических субъектов промышленного производства.

Отмечено, что финансовое обеспечение, организационная работа проводимая с клиентами, организация внутреннего бизнес-процесса и эффективное использование персонала считаются факторами, играющими важную роль в стратегическом развитии промышленных предприятий.

NDU-nun Elmi Şurasının 19 oktyabr 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 02).
Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

**GÜLARƏ RƏHİMOVA**
*Naxçıvan Dövlət Universiteti*
*gularaisayevaali@mail.ru*

**UOT: 338**

# İNVESTİSİYA LAYİHƏLƏRİNİN EKONOMETRİK ANALİZİ

**Açar sözlər.** *Ekonometrik modellər, korrelyasiya, reqressiya, zaman sıraları, panel analizi*
**Key words** : *Econometric models, correlation, regression, time series, panel analysis*
**Ключевые слова:** *Эконометрические модели, коррелясия, регрессия, временные ряды, панельный анали*

Ödəniş axınları çoxsaylı xarakteristikalara malikdir. Bu xarakteristikaların ən əsası: 1) yerli publikasiyalarda *təmiz cari dəyər adlanan kəmiyyət, və ya təmiz diskontlaşdırılmış gəlir* adlanan və *NPV (Net Present Value)* kimi işarə olunan xarakteristika; 2) daxili mənfəət və ya gəlir norması olan - *Internal Rate of Return (IRR )*-dir .

Təmiz diskontlaşdırılmış gəliri (NPV) müəyyən edən zaman məlumdur ki, ödəmələri və gəlirləri eyni zaman anına gətirmək üçün daimi *diskont - faktordan* istifadə olunur.

Real olaraq diskont – faktor zamandan asılı olan funksiya kimi əvvəlcədən məlum deyil və makroiqtisadi göstəricilərin (məs., mərkəzi bankın yenidən maliyyələşdirməyə qoyduğu pul, indeksi) və eyni zamanda mikroiqtisadi göstəricilərin dinamikasından (investorun maliyyə vəziyyətindən, konkret bankın kredit və depozit ödəmələrindən və s.) asılıdır. Bundan əlavə, ödəmələrin və gəlirlərin ölçüsü, həm də onların həyata keçirildiyi anlar yalnız müəyyən dəqiqliklə, qismən məlum olur.

Deməli, investisiya layihəsinin *NPV* kimi xarakteristikası (qeyri - müəyyən, dağınıq kəmiyyətlərdən asılı funksiya kimi) da qeyri – müəyyəndir. Bu qeyri – müəyyənliyi, *NPV* – yə bir asılı olmayan dəyişənin – *diskont faktoru* kimi baxmaqla qismən azaltmaq mümkün-dür [1].

Əgər sadaladığımız bütün qeyri – müəyyənlikləri intervallarla (yəni, başlanğıcı və sonunu verməklə) təsvir etmək mümkündürsə, onda *NPV* də intervalla xarakterizə olunar və intervalın sərhədlərini interval verilənlərin statistikasında tətbiq olunan yanaşma metodları vasitəsi ilə hesablamaq olar.

Nəticədə, bir sıra hallarda iki investisiya layihəsinin NPV–yə görə müqayisəsi zamanı bir mənalı seçim etmək mümkün olmur. Məsələ ondadır ki, ədədlərin müqayisəsini həmişə aparmaq mümkündür, intervalların müqayisəsi isə yalnız onların kəsişdiyi hallarda mümkün olur. Əgər intervallar kəsişirsə, iki baxılan investisiya layihələrinin təmiz cari dəyərə (NPV) görə ekvivalent olması haqda danışmaq məqsədəuyğun olardı.

*Mənfəətin daxili norması* **(IRR)** - daimi (sabit) diskont – faktorun $q$ qiymətidir, bu halda **NPV** $q$ –dən asılı funksiya kimi sıfra çevrilir. Təəssüf ki, ödəniş və gəlirlərin "uğursuz" paylanması zamanı $NPV\ (q)\ =0$ tənliyinin bir deyil, çoxsaylı həlli ola bilər. Ekonometrik ədəbiyyatlarda IRR –in ödəniş axınlarının müqayisəsi üçün məqsədəuyğun olmamasının digər səbəbləri də göstərilir. Bundan başqa, IRR halı üçün də NPV –də olduğu kimi qeyri – müəyyənlik mənbələri (diskont – faktorun, ödəniş və gəlirlərin kəmiyyəti və zaman anlarının dağınıqlığı) mövcuddur. Bu dağınıqlıq IRR –ə interval kimi baxmaq zəru-rətinə gətirib çıxarır və iki investisiya layihəsinə uyğun gələn intervallar kəsişdikdə, bu layihələrin müqayisəsi onların eyni qiymətli olmasını təsdiqləyir.

Beləliklə, NPV və IRR investisiya layihələrinin baxılan xarakteristikaları və ixtiyari digər xarakteristikalar, dəf olunmayan qeyri – müəyyənliyə malikdirlər. Bu obyektiv səbəbləri nəzərə almamaq iqtisadi hesablamaların dəqiqliyini suni sürətdə artırmaq, özünü aldatmaq və ya sifarişçini çaşdırmaq deməkdir.

***Məsələnin qoyuluşu.*** İnvestisiya layihələndirmə praktikasında çox zaman məhdud maliyyə resurslarını optimal yerləşdirmək (və ya paylamaq) məqsədi ilə bir neçə investisiya layihələrini analiz etmək lazım gəlir. Bununla əlaqədar olaraq bir sıra problemlər meydana çıxır. Bu problemlərin birincisi layihələrin qiymətləndirilməsində *effektivlik kriteriyasının seçilməsi problemidir.* Baxmayaraq ki, NPV kriteriyası prioritet kriteriya hesab olunur, lakin bu kriteriya vasitəsilə də verilmiş problemin tam həll olunduğunu zənn etmək olmaz.

Belə ki, bu və ya digər kriteriyalar müəyyən çatışmazlıqla müşahidə olunur, xüsusi halda, bu kriteriya təhlükəsizlik rezervi haqqında informasiya vermir. [ 2].

Bu informasiyanı IRR kriteriyası verir. Lakin, bu kriteriya Fişer nöqtəsindən kənar-da layihələr arasında seçim etməyə imkan vermir və bundan əlavə bu kriteriya pul axın-larının qeyri-ordinar analizi zamanı əlverişli deyil.

Bundan başqa, qeyd etmək lazımdır ki, yuxarıda adı çəkilən (NPV, IRR) krite-riyalar arasında aşkar münasibətlərin olmasına baxmayaraq, alternativ layihələrin analizi zamanı bu kriteriyalar ziddiyyət təşkil edirlər.

Başqa sözlə, bir kriteriyaya görə qəbul edilmiş layihə, digər layihə üçün məqbul deyil. Bunun əsas səbəbi odur ki, NPV – mütləq göstərici, PI (*Profitability Index –İnvestisiyanın rentabellik indeksi olub daxil olan pul axınlarının təmiz cari dəyərinin çıxan pul axınlarının təmiz cari dəyərinə olan nisbətilə (ilkin investisiya da daxil olmaqla) müəyyən olunur. Əgər PI>1 –sə onda layihə qəbul olunur, əgər PI<1-sə, onda layihə rədd edilir, əgər PI=1-sə onda layihə nə mənfəətli, nə də ziyanlıdır),* IRR və digərləri nisbi göstəricidirlər. Bunun nəticəsində aşağıdakı hallarda ziddiyyət meydana çıxır:

1. *Pul axınları intensivliyinin müxtəlif olduğu hallarda.*

   NPV = 0 tənliyinin bir neçə həlli olduğu hallarda qeyri adi (qeyri-ordinar ) pul axınları üçün IRR kriteriyasını hesablayarkən ziddiyyətlər meydana çıxa bilər.

2. *Müxtəlif miqyaslı layihələrdə meydana çıxan ziddiyyətlər*:

Bu situasiyada investor dilemma qarşısında qalır. Maksimum NPV variantını, başqa sözlə, müəssisənin iqtisadi potensialının maksimum artımı variantını seçməli və ya IRR kriteriyasını rəhbər tutaraq, nisbətən kiçik miqyaslı, lakin yüksək rentabelli layihəni seçməli.

Rəqabət aparan layihələrin alternativ olduğu hallarda layihəni NPV kriteriyasına görə seçmək məsləhət görülür, belə ki, verilmiş kriteriya müəssisənin iqtisadi potensialının mümkün olan artımını xarakterizə edir. İqtisadi potensialın artımı məsələsi menecmentin ən vacib prioritet məqsədlərindən biridir.

Lakin IRR əmsalının hesablanması da zəruridir, belə ki, bu əmsal “ təhlükəsizlik rezervini “göstərir və ya başqa sözlə desək, “manevr “ kəmiyyətini, yəni, IRR ilə CC (Coft of Capital ) arasındakı fərqi müəyyən edir.

Bu fərq layihənin çox da optimal olmayan variantda “möhkəmlik ehtiyatını“ (dayanıqlığını) əyani sürətdə nümayiş etdirir. Aydındır ki, burada ideal variant mövcud layihələr üzrə bütün kriteriyaların *(IRR, NPV, PP, PI, $HPR_n$, ROI)* hesablandığı halda mümkündür.
Bu halda “mütləq qalib“, yəni, bütün göstəricilərə görə ən yaxşı qiymətləri olan layihə seçilir.

Qeyd edək ki, PP metodu dünya praktikasında ən sadə və geniş yayılmış metod olub daxil olan pul gəlirlərinin zamana görə nizamlılığını tələb etmir. İnvestisiyanın özünü doğrultma müddətinin (PP) hesablanması alqoritmi investisiyadan proqnozlaşdırılan gəlirlərin paylan-masının müntəzəmliyindən asılıdır. Əgər gəlir illər üzrə müntəzəm paylanıbsa, onda özünü doğrultma müddəti birdəfəlik (eyni vaxtda olan) xərclərin, onlarla şərtləndirilmiş, illik gəlir kəmiyyətinə olan nisbətilə hesablanır. Kəsr ədədinin alındığı halda o, artırılaraq tama qədər yuvarlaqlaşdırılır. Əgər gəlir qeyri- müntəzəm paylanmışdırsa, onda özünü doğrultma müddəti illərin sayına uyğun olaraq müstəqim hesablanır; beləki, bu illər ərzində investisiya kumulyativ gəlirlərlə ödənəcək. PP göstəricisi üçün ümumi düstur $PP=n$ .

İnvestisiyanın özünü doğrultma müddəti göstəricisi hesablamalarda çox sadə ifadəyə malikdir. Bununla belə o bir çox çatışmazlığa da malikdir və bu çatışmazlıq analiz prosesində mütləq nəzərə alınmalıdır. Məsələn, 1. O, sonuncu dövrlərin gəlirlərinin təsirini nəzərə almır; 2. Bu metod diskontlaşdırılmamış qiymətlərə əsaslanır. Metod həmçinin, investisiyanın yüksək risk

dərəcəsilə əlaqəli olduğu situasiyalarda yaxşı tətbiq oluna bilir. Beləki, özünü doğrultma müddəti nə qədər qısadırsa, layihə bir o qədər riskli hesab edilir. Belə situasiya sürətli texnoloji dəyişikliyə məruz qalan sahələr və ya fəaliyyət növləri üçün xarakterikdir.

*ROI (Return on Investment)* həmçinin *ROR (Rate of Return)* kimi də ifadə olunan bu əmsal maliyyə əmsalı olub – biznesə qoyulan investisiyanın həcmini nəzərə alaraq bu biznesin gəlirlilik səviyyəsini və ya ziyanlılıq dərəcəsini əks etdirir. ROI adətən faizlə, az hallarda isə kəsrlə göstərilir. Bu göstərici həmçinin, investisiya qoyulmuş kapitalın mənfəətliliyi, investisiyanın gəliri, investisiyanın mənfəəti, investisiya kapitalının gətirdiyi gəlir, investisi-yanın qayıtması da adlanır.

ROI göstəricisi mənfəət və ya itkilərin cəminin investisiyanın cəminə olan nisbətilə müəyyən olunur. Mənfəətin mənası gəlir faizi, maliyyə və idarə uçotunda gəlir/ziyan və ya təmiz gəlir/ziyan kimi də başa düşülə bilər. İnvestisiya məbləğinin qiyməti aktivlər (müəssisə balansının, bütün material vəsaiti və borc tələblərini göstərən hissəsi), kapital, biznesin və investisiyanın digər pulla ifadə olunan əsas borclarının cəmi də ola bilər.

Lakin praktikada ideal varianta nail olmaq çox nadir hallarda baş verir və çox za-man rentabellik səviyyəsini, layihənin özünü doğrultma müddətini, və ya digər göstərici-ləri "qurban verməkˮ məcburiyyətində qalırıq [4].

Bu çatışmazlığı aradan qaldırmaq üçün layihələrin ranqlaşdırılmasını qrafik şəkildə təsvir etmək (bu proseduranın əyaniliyini artırır) tövsiyə olunur.3 Məsələn, Dekart koordinat sistemində, müstəvi üzərində oxlardan biri ilə layihənin NPV qiymətlərini, digər ox üzərində isə PP kriteriyasının qiymətləri göstərilir, bu zaman layihənin özünü doğrultma müddəti adəti üzrə soldan sağa deyil, sağdan sola baş verməlidir. Bu halda, kriteriya absis və ordinant oxlarının əmələ gətirdiyi düzbucaqlının sahəsi və eyni zamanda qurulmuş nöqtədən düzbucaqlıya endirilmiş perpendikulyar olacaq.

IRR kritariyasını əlavə etməklə modeli daha da mürəkkəbləşdirmək olar. Bu za-man üçölçülü fəza alınır: bu halda layihənin seçimi üçün kriteriya - qurulmuş həndəsi fiqurun həcmi olacaq.

Əgər zərurət varsa, modeli çoxölçülü fəzada da (4,5 və s.) təsvir etmək olar. Aydındır ki, bu halda 2 və ya 1 neçə layihənin eyni yekun göstəriciləri (sahə və ya həcmə görə) ola bilər.

Bu zaman yadda saxlamaq lazımdır ki, NPV prioritet kriteriya hesab olunur və eyni zamanda şirkətin vəziyyətini, onun strategiyasını, bazardakı situasiyanı nəzərə almaqla analizdən əlavə, qeyri – formal metodikalardan da istifadə etmək mümkündür.

Layihələri bir neçə göstəriciyə görə müqayisə etmək üçün Pareto qaydasından istifadə etmək olar: Hər *bir nöqtəyə görə üstünlüyü olmayan nöqtə Paretoya nəzərən optimal nöqtə adlanır. Belə nöqtələrin çoxluğu isə Paretoya görə optimal çoxluq hesab olunur. Asanlıqla görmək olar ki, əgər baxılan əməliyyatlardan ən yaxşısını seçmək lazımdırsa, onda onu Paretoya nəzərən optimal çoxluqdan seçmək lazımdır* [5] .

Lakin Pareto qaydasının əsas çatışmayan cəhəti ondan ibarətdir ki, burada layihə-ləri ranqlaşdırmaq imkanı yoxdur.

Belə ki, bu və ya digər layihənin nə dərəcədə pis və yaxşı olduğunu nümayiş etdirmədən cüt – cüt müqayisə olunaraq layihələrə sadəcə olaraq " + " işarəsi (əgər verilən göstəriciyə görə bir layihə digərinə yaxındırsa) və ya əksinə " - " işarəsi mənimsədilir.

Əgər müqayisə olunan layihələr tranzitivlik xüsusiyyətinə malik deyillərsə, bu metod çıxılmaz vəziyyətə gətirib çıxarır.

Məsələn, birinci layihə ikincidən yaxşıdır, ikinci layihə üçüncüdən yaxşıdır, amma üçüncü layihənin birincidən yaxşı olduğu situasiyada Pareto metodu işləmir.

Bu çatışmazlığı aradan qaldırmaq üçün daha ciddi seçim qaydası - Bord qaydasından istifadə etmək məqsədə uyğundur. Bu qaydanın mahiyyəti ondan ibarətdir ki, hər bir kriteriyaya görə bütün layihələr xallarla (məsələn, 1–dən 10–a qədər) ranqlaşdırılır. Maksimum yekun bal (xal) toplayan layihə qalib sayılır [6] .

Qeyd etmək lazımdır ki, Bord qaydasına görə ranqlaşdırmanı bir neçə turda aparmaq olar. Bu zaman növbəti qalib turdan çıxarılır, ranqların paylanması isə dəyişir.

Burada kriteriyalara çəki əmsalları mənimsətmək də tamamilə məqsədə uyğun hesab edilir .

Təbiidir ki, kriterya kimi təkcə effektivlik göstəricilərindən deyil, eyni zamanda risk və s. göstəricilərdən də istifadə olunur [7].

Məlum qaydaya əsasən, *səmərəlilik* (*Səmərəlilik hər hansı gəlirin, mənfəətin və ya gəlirliyin ümumiləşmiş göstəricisidir. Səmərəlilik o zaman tətbiq edilir ki, onun konkretliyini dəqiqləşdirməyə ehtiyac olmur. Adətən, səmərəlilik təsadüfi kəmiyyət hesab olunur*) *və risklilik arasında düz reqressiv asılılıq var – böyük səmərəli əməliyyatların (gəliri çox olan) bir qayda olaraq böyük də riski olur.*

İnvestisiya effektivliyinin ən sadə qiymətləndirilməsi üsulu - investisiya aktivlərinin mənimsənilməsi dövründə alınan bütün gəlirlərin həyata keçirilmiş investisiyanın miqdarına olan nisbətilə müəyyən olunur. Bu göstərici aktivlərin mənimsənilməsi dövründə gəlirlilik adlanır. O, həyata keçirilmiş investisiyanın həcminin baxılan dövrün sonunda nə qədər artmasını göstərir:

$$HPR_n = ROI_H = \frac{\sum_{t=1}^{n} \pi_t}{P_0} \qquad (1)$$

burada, $P_0$ - ilkin investisiya, $_t$- aktivlərin mənimsənilməsi dövrünün hər bir ilində alınmış gəlirlərdir (mənfəətdir).

*$HPR_n$=((Dövrün sonunda investisiyanın dəyəri) + (investisiya aktivlərinin mənimsənil-məsi dövründə alınan ixtiyari gəlir, məsələn, dividentlər) - (həyata keçirilmiş investisiyanın ölçüsü)) / (həyata keçirilmiş investisiyanın ölçüsü))* :

$$ROI_H = HPR_N = \frac{Income + (P_{n+1} - P_n)}{P_n} \qquad (2)$$

Müxtəlif dövrlərdə həyata keçirilmiş investisiyaların müqayisəsini sadələşdirmək üçün aktivlərin mənimsənilməsi dövründəki mənfəətlilik (gəlirlilik) göstəricisini illik hesabatlarda yenidən hesablayırlar.

İllik hesabatlarda mənimsəmə dövründəki mənfəətliliyi almaq üçün onu mənimsəmə dövrünün müddətinə bölmək lazımdır. Bu halda düsturun məxrəcində mənimsəmə dövrünün qiyməti yazılır. Beləliklə, investisiya ödəmələri

$$ROI_H = \frac{\sum_{t=1}^{n} \pi_t}{P_0 n} \qquad (3)$$

düsturu ilə hesablanır [8].

Mənimsəmə dövründə gəlirlilik göstəricisinin hesablanmasını sadələşdirmək üçün, bu dövrdə, ödəniş axınlarını fərqləndirməmək şərtilə, $_t$ gəliri ilə alınmış pul axınları və $P_0$ investisiyasını qaytarmaqla, (3) düsturuna ödəmə axınları göstəricisini əlavə etməklə onu aşağıdakı kimi çevirmək olar:

$$ROI = \frac{\sum_{t=1}^{n} CP_t - P_0}{P_0 n} \qquad (4)$$

Bu düsturda fərz edilir ki, $CP_t$ ödəniş axınları içərisində $P_0$ investisiyası qaytarılacaqdır. (*C* istiqraz vərəqələrində kupon ödəmələridir).

İnvestisiyanın illik özünü doğrultma müddəti göstəricisi

$$r_{arith} = (V_f - V_i)/V_i \qquad (5)$$

düsturu ilə hesablanır, harada ki, $V_i$ –ilkin investisiyanın həcmi, $V_f$ - *h*esabat dövrünün sonunda investisiyanın həcmidir. Dövrün sonunda alınan investisiyanın həcminə ($V_f$ ) ilkin investisiyadan alınan bütün gəlirlər daxildir. Əgər investisiyanın özünü doğrultması qiymətli kağızlar üçün nəzərdə tutulmuşsa, xüsusi halda istiqraz vərəqələri üçün, onda kupon ödəmələri də $V_f$-ə daxil olur.

İnvestisiyanın effektivlik əmsalı ARR ilə ifadə olunur. Bu metod iki xarakterik əlamətə malikdir. O, gəlir göstəricilərinin diskontlaşmasını tələb etmir, gəlir təmiz dəyər kəmiyyəti - PN ilə (büdcədən ayrılmış pulları çıxmaqla balans gəliri) xarakterizə olunur.

Hesablama alqoritmi çox sadədir və bu göstəricinin praktikada geniş tətbiqini əvvəlcədən müəyyən edir. İnvestisiyanın effektivlik əmsalı (ARR) orta illik PN gəlirinin investisiyanın orta qiymətinə (bu kəmiyyət faizlə ifadə olunur) nisbətilə müəyyən edilir.

n dövr üçün investisiyanın özünü doğrultmasının orta hesabi qiyməti (6) düsturu ilə hesablanır:

$$\overline{r_{artih}} = \frac{1}{n(\sum_{i=1}^{n} r_{arith,i})} = \frac{1}{n(r_{arith,1} + \ldots + r_{arith,n})} \qquad (6)$$

Bir neçə dövr üçün investisiyanın özünü doğrultmasının hesabi qiymətinin çatışmazlığı onun pul ödəmələrinin həyata keçirilmə müddətindən asılı olmamasıdır. İnvestisiyanın özünü doğrultmasının hesabi qiyməti zaman faktorunu nəzərə almaqla pulun dəyərinin dəyişməsini, aralıq ödəniş axınlarından (ödəmələrindən) alınmış gəlirlərdən (məsələn, dividentlərdən) yenidən investisiya qoymaq imkanlarını əks etdirmir.

Bir neçə dövr üçün investisiyanın özünü doğrultmasının orta hesabi qiymətinin hesablanmasındakı çatışmazlıq bir neçə dövr üçün investisiyanın özünü doğrultmasının orta həndəsi qiymətilə aradan qaldırılır.

n dövr üçün investisiyanın özünü doğrultmasının orta həndəsi qiyməti

$$\overline{r_{geometrik}} = -1 + \sqrt[n]{(1 + r_{arith,i})} \qquad (7)$$

düsturu ilə hesablanır.

İnvestisiyaların effektivliyinin hesablanması metodlarını bir-birindən fərqləndirirlər. Bu metodların əsasında investisiyanın özünü doğrultma dövrü durur; beləki, bu dövr ərzində investisiya obyektlərindən gələn gəlir istehsal xərclərinin yerini dəyişməyə imkan verir [8].

İxtiyari investisiya layihəsinin başlıca məsələsi realizə olunan məhsulların (xidmətlərin) həcmini proqnozlaşdırmaqdır. Belə ki, maliyyə planı (bu planın göstəricilərinə əsasən layihə-nin effektliyi müəyyən edilir) realizasiya həcminin proqnozuna əsaslanaraq hesablanır.

İstehsalın optimal həcminin müəyyən üsullarından birini oyun nəzəriyyəsi təklif edir. Bu metod "təbiətlə oyun" modeli vasitəsilə həyata keçirilir və məhsul istehsalının optimal strategiyasını müəyyən etməyə imkanı verir.

İstehsalın optimal həcmi dedikdə gəlir /risk nisbətinin optimal olduğu halda realizə olunan istehsal həcmi başa düşülür.

Bu məsələnin həlli ödəmə matrisinin qurulması ilə həyata keçirilir. ( Cədvəl 1 ).

*Konyukturanın qeyri – müəyyənliyi şəraitində strategiyaların analizi. Cədvəl 1.*

| Məhsul istesalının strategiyası | *"Təbiətin" vəziyyəti* | | | | maksi-min sətri *maxmin=ming$_{nm}$* | Vold kriteriyası *W=max (max min$_n$)* | Mini - max sətri minmax$_n$= =maxg$_{nm}$ |
|---|---|---|---|---|---|---|---|
| | $P_1$ | $P_2$ | $P_3$ | $P_м$ | | | |
| *$S_1$ strategiyası* | $g_{11}$ | $g_{12}$ | $g_{13}$ | $g_{1m}$ | … | | … |
| *$S_2$ strategiyası* | $g_{21}$ | $g_{22}$ | $g_{23}$ | $g_{2m}$ | … | | … |
| *$S_3$ strategiyası* | $g_{31}$ | $g_{32}$ | $g_{33}$ | $g_{3m}$ | … | | … |
| *$S_n$ strategiyası* | $g_{n1}$ | $g_{n2}$ | $g_{n3}$ | $g_{nm}$ | … | | …. |
| *Sütunun minimaksı min-max$_m$= maxg$_{nm}$* | … | … | … | … | | | |

Verilmiş matrisdə " təbiətin" $P_m$ vəziyyətində realizə olunan hər bir $S_n$ strategiyasına müəyyən ölçüdə (həcmdə) $g_{nm}$ gəliri uyğun gəlir. " Təbiətin vəziyyəti " qismində bazar konyukturasının ixtiyari xarici faktorunu götürmək olar.

Məsələn, məhsul və xidmətlərə olan tələbin ehtimal xarakterli meyillərini, vergi ödənişlərinin dəyişməsini, inflyasiyanın proqnozlaşdırılan tempini, rəqiblərinin strategiyalarını və digər resipiyentdən asılı olmayan faktorları.

" Təbiətin" vəziyyəti eyni zamanda inkişaf ssenariləri və ya imitasiya şəklində verilə bilər. "Təbiətin" bu və ya digər vəziyyətinin alınmış nəticəyə təsir dərəcəsini qiymətləndirmək üçün $S_n$ strategiyası realizə olunan zaman " təbiətin" $P_m$ vəziyyətinə uyğun olan $R_{nm}$ - risk göstəricisindən istifadə olunur.

Bu göstərici " təbiətin" verilmiş $P_m$ vəziyyətində maksimum mümkün olan uduşla, $S_n$ strategiyasının realizasiyası zamanı alınan uduş arasındakı fərqlə müəyyən olunur:

$$R_{nm} = minmax_m - g_n \quad , \qquad (8)$$

burada $R_{nm} = 0$.

Bu düstur əsasında risk matrisi qurulur [6] ( Cədvəl 2 ).

*Təbiətin vəziyyəti və strategiyaların müxtəlif birləşmələrində riskin analizi.* ( Cədvəl 2 )

| Strategiyalar | Təbiətin vəziyyəti | | | | $maxR_n$ | Sevic kriteryası $minmaxR_m$ |
|---|---|---|---|---|---|---|
| | $P_1$ | $P_2$ | $P_3$ | $P_m$ | | |
| Strategiya $S_1$ | $R_{11}$ | $R_{12}$ | $R_{13}$ | $R_{1m}$ | ... | |
| Strategiya $S_2$ | $R_{21}$ | $R_{22}$ | $R_{23}$ | $R_{2m}$ | ... | |
| Strategiya $S_3$ | $R_{31}$ | $R_{32}$ | $R_{33}$ | $R_{3m}$ | ... | |
| Strategiya $S_n$ | $R_{n1}$ | $R_{n2}$ | $R_{n3}$ | $R_{nm}$ | ... | |

İki müxtəlif "qütblü" qərarın seçimi zamanı (Vold kriteriyasına görə pessimist qiymətləndirmə və maksimaksın optimal qiymətləndirilməsi zamanı) aralıq mövqe tutmaq daha rasionaldır.

Bu aralıq mövqeyin sərhəddi Qurviçin kriteriyasında (şəraitə uyğun ölçülmüş pessi-mist və optimist yanaşma) optimizm dərəcəsi adlanan pessimizm – optimizm göstəricisi vasitəsilə tənzimlənir.

Buna uyğun olaraq kompromis həll – minimal və maksimal uduşun xətti kombinasiyası olacaq:

$$Y_n = xming_{nm} + (1 - x)maxg_{nm} \qquad (9)$$

harada ki, $0 \leq x \leq 1$.

Burada X kəmiyyətini qərar qəbul edən şəxs (QQEŞ ) müəyyən edir, x=1 qiymə-tində Vold kriteriyası Qurviç kriteriyasına uyğun gəlir, x = 0 qiymətinə isə Sevic krite-riyası (minimal risk qaydası) uyğun olur [7].

Yekun mərhələdə $Y_i$ – kəmiyyətinin max qiymətinə uyğun olan strategiya seçilir.

## ƏDƏBİYYAT


1. Жигло А.Н. Расчет ставок дисконта и оценка риска.// Бухгалтерский учёт, 2005. №2 – С. 24-26.
2. Половинкин П. Зозулюк А. Инвестиционные риски и управление ими. // Российский экономический журнал. 2005,-№9, с. 14-17.
3. Синицин О. Инвестиционный анализ. Теория выбора. Правила выбора оптимального варианта инвестиций.// Инвестиции в России, 2004.-№1 – С.26-28.
4. Чернов В.А. Анализ коммерческого риска. М.: Финансы и статистика, 2013.-128 с.

3. Дуброва Т.А. Статистические методы прогнозирования. - М.: ЮНИТИ-ДАНА. 2013. - 206 с.
4. Магнус Я.Р., Катышев П.К., Пересецкий А.А. Эконометрика. Начальный курс. — М., Дело, 2011, 504 с.ş

5. Эконометрика. Учебник / Под ред. Елисеевой И.И. — 2-е изд. — М., Финансы и статистика, 2016, 576 с.
6. http://wikipedia.org/wiki.

**ABSTRACT**

**G.A.Rahımova**

**ECONOMETRIC ANALYSIS OF INVESTMENT PROJECTS**

In practice of investment designing frequently it is necessary to analyze at once some investment projects with the purpose of optimum accommodation of the limited financial resources. In this connection there is a number of problems.

First, it is a problem of a choice of criterion of efficiency at an estimation of projects. In spite of the fact that the priority criterion considers NPV the given problem it is impossible to count settled as well as other criteria is not deprived lacks, in particular it does not give the information about so-called " a reserve of safety ". As the project accepted by one criterion, can be unacceptable according to another.

According to the article have received development methodical approaches to acceptance of investment decisions in conditions of uncertainty. The mechanism of the account of risk in the investment designing, including econometric investment designing is generated.

**РЕЗЮМЕ**

**Г. А. Рагимова**

**ЭКОНОМЕТРИЧЕСКИЙ АНАЛИЗ ИНВЕСТИЦИОННЫХ ПРОЕКТОВ**

В практике инвестиционного проектирования зачастую приходится анализировать сразу несколько инвестиционных проектов с целью оптимального размещения ограниченных финансовых ресурсов. В связи с этим возникает ряд проблем.

Во-первых, это проблема выбора критерия эффективности при оценке проектов. Несмотря на то, что приоритетным критерием считается NPV данную проблему нельзя считать исчерпанной, поскольку он как и другие критерии не лишен недостатков, в частности он не дает информации о так называемом "резерве безопасности". Так как проект, принятый по одному критерию, может быть неприемлем согласно другому.

В статье получили развитие методические подходы к принятию инвестиционных решений в условиях неопределённости. Сформирован механизм учёта риска в инвестиционном проектировании, включающий эконометрику инвестиционного проектирования.

NDU-nun Elmi Şurasının 19 oktyabr 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 02).
Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

**CEYHUN MAHMUDOV**
*Naxçıvan Dövlət Universiteti*
*ceyhun.ilhamoglu@gmail.com*

**UOT: 338**

# KİÇİK VƏ ORTA SAHİBKARLIQ FƏALİYYƏTİNİN DÖVLƏT TƏNZİMLƏNMƏSİNİN BEYNƏLXALQ TƏCRÜBƏSİ

**Açar sözlər:** *kiçik və orta sahibkarlıq fəaliyyəti, milli iqtisadiyyat, dövlət tənzimlənməsi, proteksionist siyasət, sosial-iqtisadi inkişaf*

**Keywords:** *small and medium entrepreneurship activities, national economy, state regulation, protectionist policy, social and economic development*

**Ключевые слова:** *малого и среднего предпринимательства, национальная экономика, государственное регулирование, протекционистская политика, социально-экономическое развитие*

Sahibkarlıq - əsrlər boyu insan həyatının mühüm atributu kimi çıxış edən, yeni təsərrüfat formalarının təkmilləşdirilməsinin zəruri komponenti olan, tarixi və sosial dəyərə malik çoxşaxəli təzahür forması və ya şəklidir. Məhz dövlətin bilavasitə təsiri ilə sahibkarlıq fəaliyyətinin təkamülü müasir inkişaf etmiş dövlətlər üçün xarakterik olan bazar tipli iqtisadiyyatın formalaşmasına səbəb olmuşdur. Hal-hazırda inkişaf etmiş dövlətlərin böyük əksəriyyətində sahibkarlıq fəaliyyətinin bu və ya digər formada tənzimlənməsi iqtisadiyyatın mühüm elementi olub, bu dövlətlərin sahibkarlıq fəaliyyətinə təsir formaları ölkələrin tarixi ənənələrindən, milli xüsusiyyətlərindən, iqtisadiyyatların inkişaf səviyyəsindən asılı olaraq müxtəlifdir.

Kiçik və orta sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsi məsələsini araşdırarkən, ilk əvvəl dövlətin kiçik və orta sahibkarlığa dəstəyinin səbəbini müəyyənləşdirmək lazımdır. Fikrimizcə, bu dəstək və ya himayənin səbəbini müəyyənləşdirmək üçün kiçik və orta müəssisələrlə iri müəssisələrin qarşılıqlı müqayisəsini nəzərdən keçirmək məqsədəuyğundur.

Qeyd edək ki, hər hansı bir inkişaf etmiş dövlətin əsasını iri müəssisələr təşkil edirsə, onların iri həcmli kapitala malik olması elmi-texniki potensiala və istehsal güclərinə əhəmiyyətli dərəcədə təsir göstərirsə, kiçik sahibkarlıq isə inkişaf etmiş bazar sisteminin mühüm tərkib hissəsi hesab olunur. Kiçik sahibkarlıq müəssisələrin təşkilinin daha çevik, dinamik və kütləvi formasını əks etdirir. Məhz bu sektorda istənilən ölkənin inkişafının qan damarı hesab olunan milli resursların əsas kütləsinin dövriyyəsi həyata keçirilir. Kiçik sahibkarlığın hüdudları dövlət və digər hökumət orqanları tərəfindən müəyyənləşdirilmiş qanunvericilikdən asılıdır.

İnkişaf etmiş ölkələrdə kiçik və orta müəssisələr milli iqtisadiyyatın ən mühüm sektorunu təşkil edir. Əgər iri müəssisələr ölkənin elmi-texniki və istehsal potensialının səviyyəsini müəyyən edirsə, kiçik və orta müəssisələr işgüzar həyatın kütləvi forması olub ölkənin sosial-iqtisadi inkişafının stabilliyini təmin edir. Kiçik və orta müəssisələrin bir sıra ölkələr üçün əhəmiyyətini aşağıdakı cədvəl məlumatlarından görmək olar [2] (cədvəl 1.).

*Cədvəl 1.*

2005-2010-cu illər ərzində kiçik və orta müəssisələrin bir sıra ölkələrin iqtisadiyyatında xüsusi çəkisi

| Ölkələr | KOM ümumi məşğul əhali sayında xüsusi çəkisi (%) | KOM ölkələrin ÜDM-də xüsusi çəkisi |
|---|---|---|
| Böyük Britaniya | 52 | 53-56 |
| Almaniya | 69 | 55-57 |
| ABŞ | 53 | 50-52 |
| Yaponiya | 78 | 52-55 |
| Macarıstan | 65 | 50-52 |
| Polşa | 60 | 50-52 |

Kiçik və orta sahibkarlıq sektoru yüksək dinamikliyi, innovasiya fəaliyyətinin çevikliyi, yeni məhsulları və iş yerlərini yarada bilmə qabiliyyətliliyi ilə fərqlənir. Məsələn, ABŞ-da XXI əsrin ilk onilliyi ərzində innovasiya fəaliyyətinin təqribən 55%-i və yeni iş yerlərinin təxminən 75%-i kiçik və orta sahibkarlıq sektorunda yaradılmışdır. Bununla yanaşı kiçik və orta sahibkarlıq sektorunda kapital qoyuluşunun effektivliyi iri biznes sferasına nisbətən 9 dəfə yüksəkdir [3]. İnkişaf etmiş ölkələrdə kiçik və orta müəssisələrin sürətli və dayanıqlı inkişafı və ya böyüməsi ölkə hökumətlərinin iqtisadiyyatın bu sektorunun inkişafında maraqlı olması ilə izah edilir. Bu sektorun inkişafının digər bir səbəbi dövlət orqanları tərəfindən əhalinin sahibkarlıq fəaliyyəti ilə məşğul olmağa sövq edilməsidir. Məqalədə sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsi təcrübəsinə nəzər yetirəcəyimiz ölkələrdə kiçik və orta sahibkarlığa dövlət dəstəyi sistemində çoxlu oxşar cəhətləri görmüş olacağıq. Bu da iqtisadiyyatdakı qloballaşma proseslərinin güclü təsiri və maliyyə dəstəyi, texniki və informasiya köməyi üzrə ixtisaslaşan beynəlxalq təşkilatların fəaliyyəti ilə şərtləndirilir. Buna görə də nəzərdən keçirilən ölkələrin təcrübəsini öyrənmək, fikrimizcə, məqsədəuyğundur.

Beynəlxalq təcrübədə kiçik və orta sahibkarlıq vahid bir təzahür forması kimi nəzərdən keçirilir. Kiçik sahibkarlığın yüksək inkişaf səviyyəsi bazar iqtisadiyyatının uğurlu fəaliyyətinin başlıca şərtidir. Dünyanın inkişaf etmiş bir çox ölkələrində kiçik biznes iqtisadi artımın tempini, ümumi daxili məhsulun strukturunu və keyfiyyətini müəyyən edir. Kiçik və orta sahibkarlığın uğurlu fəaliyyəti iqtisadiyyatın sağlamlaşdırılması üçün aşağıdakı əlverişli şəraiti yaradır:

- rəqabət inkişaf edir;
- əlavə iş yerləri yaradılır;
- ixrac potensialı yüksəlir;
- yerli xammal resursları daha yaxşı istifadə edilir.

Kiçik sahibkarlığın əmək sərfi sferasınıgenişləndirmək, işlə təminatda yeni imkanlar yaratmaq, əhalinin işgüzar fəallığını artırmaq və yaradıcı güclərini istehsal dövriyyəsinə cəlb etmək qabiliyyətinə malik olması böyük əhəmiyyət kəsb edir. Məhz bu baxımdan inkişaf etmiş ölkələrdə kiçik və orta sahibkarlıq fəaliyyətinin inkişafı üçün əlverişli şərait yaradılır ki, bunlardan əsasları aşağıdakılardır:

- xüsusi mülkiyyətin mühafizəsinə yüksək təminatın verilməsi;
- sahibkarlara azad fəaliyyət və geniş təsərrüfat müstəqilliyinin verilməsi;
- düzgün, vicdanlı rəqabətin müdafiə olunması və inhisarçılıq fəaliyyəti ilə mübarizə;
- güzəştli kreditləşdirmə və maliyyələşdirmə;
- investisiyaların verilməsinə əhəmiyyətli köməkliyin göstərilməsi.

Atılan bu addımlar nəticəsində kiçik istehsalçılar iri biznes subyektlərinə görə şəxsi kapitalları hesabına yüksək mənfəət əldə edirlər [4].

Qeyd edək ki, Azərbaycanın dünya təsərrüfat sisteminə daxil olması möhkəm iqtisadi və siyasi güc kimi kiçik sahibkarlığın inkişafına səbəb olur. Kəskin rəqabət və dünya iqtisadiyyatına inteqrasiya şəraitində Azərbaycanda kiçik müəssisələrin dayanıqlılığı, onların iştirakı ilə yeni təsərrüfat əlaqələrinin qurulması, istehsal və innovasiya fəaliyyətinin aktivləşdirilməsi məsələsi xüsusi əhəmiyyət kəsb edir. Lakin Azərbaycan iqtisadiyyatında bu sektorun inkişafı bir sıra obyektiv və subyektiv səbəblərdən zəif inkişaf etmişdir ki, bunun da əsas səbəblərindən biri kiçik və orta sahibkarlığa dövlət və müvafiq orqanlar tərəfindən kifayət qədər dəstəyin göstərilməməsidir. Buna görə də, fikrimizcə, inkişaf etmiş ölkələrin kiçik və orta sahibkarlıq fəaliyyətinin tənzimlənməsi və dəstəklənməsi, himayə edilməsi üzrə təcrübələrinin öyrənilməsinə böyük ehtiyac vardır. Məqalədə əsas qayəmiz kiçik və orta sahibkarlığa yüksək nəticələr əldə etməyə imkan verən bu təcrübələri öyrənməklə yanaşı, Azərbaycanda bu istiqamətdə mövcud vəziyyətin yaxşılaşdırılması yollarını göstərməkdir. Məhz bu baxımdan problemin araşdırılmasını bütövlükdə Avropa İttifaqı, o cümlədən ayrıca olaraq Böyük Britaniya, Almaniya, ABŞ, Yaponiya, Polşa və Macarıstan təcrübələri timsalında nəzərdən keçirəcəyik.

İnkişaf etmiş ölkələrin təcrübəsinə nəzər yetirdikdə görürük ki, kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi və himayə edilməsi üzrə dövlət siyasətini kifayət qədər resurs imkanlarına və səlahiyyətlərə malik ixtisaslaşdırılmış dövlət orqanları vasitəsilə daha səmərəli şəkildə həyata keçirmək olar. Böyük Britaniyada bu tip dövlət orqanı 2000-ci ildə "Sənaye və ticarət Nazirliyi (DTİ)"nin tərkibində "Kiçik

biznesə xidmət üzrə milli agentlik (SBS)" adı altında, ABŞ-da SBA adı altında, Almaniyada "İqtisadiyyat və texnologiyalar Federal Nazirliyi (BMWA)"nin tərkibində "Kiçik və orta biznes, sənətkarlıq, xidmət və azad peşə ümumi direktoratlığı" adı altında, Yaponiyada "İqtisadiyyat, ticarət və sənaye Nazirliyi (METİ)" tərkibində "Kiçik və orta sahibkarlıq agentliyi (SMEA)" adı altında, Macarıstanda "İqtisadiyyat Nazirliyi" tərkibində "Sahibkarlığın inkişafı üzrə milli sovet" adı altında, Polşada "İqtisadiyyat Nazirliyi" tərkibində "Sənətkarlıq, kiçik və orta sahibkarlıq departamenti" adı altında formalaşdırılmışdır. Bu zaman icra səlahiyyətlərinin bir hissəsi digər təşkilati strukturlara (banklara, fondlara, departamentlərə, nəzarət-audit xidmətlərinə və s.) həvalə edilir. Yuxarıda adları qeyd edilən bütün təşkilatların funksiyaları əsasən oxşar olub, əsaslı fərq isə iyerarxik tabeçilikdə, digər təşkilatlarla qarşılıqlı fəaliyyətdə, təşkilati strukturda, fəaliyyət miqyasında, həmçinin əməkdaş və ictimai təşkilatlarla əlaqələr və ya münasibətlər sistemində özünü biruzə verir.

İnkişaf etmiş ölkələrdə kiçik və orta sahibkarlığın himayə edilməsindən məsul olan dövlət təşkilatlarının fəaliyyətinin öyrənilməsi göstərir ki, bu problemin ən mühüm həlli yolu ABŞ-da 1953-cü ildə "ABŞ prezidenti yanında Kiçik Biznes Administrasiyası (SmallBusinessAdministration - SBA)" kimi təşkilati strukturun yaradılması olmuşdur. SBA-nın fəaliyyətinin effektivliyini ABŞ-ın dayanıqlı inkişafı faktı, kiçik və orta sahibkarlığın gücü, SBA təcrübəsinin Avropa İttifaqında, Böyük Britaniya və Yaponiyada tətbiq edilməsi təsdiqləyir.

ABŞ-da formalaşdırılmış "Kiçik biznes haqqında" qanunda deyilir ki, xüsusi sahibkarlığa və azad rəqabətə əsaslanan ölkə iqtisadiyyatının əhali rifahını və ölkə təhlükəsizliyini təmin etməsi daimi dəstəyə ehtiyacı olan kiçik və orta sahibkarlıq sektorunun inkişafına nail olmadan mümkün deyildir. Yüksək dövlət statusunun təmin edilməsi məqsədilə SBA heç bir digər dövlət orqanına bağlanmadan birbaşa ölkə prezidentinə tabe edilmişdir. SBA-nın fəaliyyətinə rəhbərlik edən şəxsin namizədliyi prezident tərəfindən irəli sürülür və Senat tərəfindən təsdiqlənir. Haliyədə SBA dünyada kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi və himayə edilməsi üzrə ixtisaslaşan ən böyük hökumət orqanıdır. SBA-nın mühüm təsirə malik olmasını, məsələn, 2002-ci ilin dövlət büdcəsindən ayrılmış 18 mlrd. ABŞ dolları, müxtəlif mənbələrdən kiçik və orta sahibkarlığa dəstək məqsədilə cəlb olunan 400 mlrd. ABŞ dolları və 46 mlrd. ABŞ dolları həcmində alınmış dövlət sifarişi faktı təsdiqləyir. SBA-nın ABŞ-ın bütün regionlarında və ölkənin iri şəhərlərində 108 nümayəndəliyi olub 4200-dən yuxarı əməkdaşı vardır. Kiçik və orta sahibkarlığın tənzimlənməsi və dəstəklənməsi SBA-nın struktur bölmələri və ya müvəkkil kompaniyaları tərəfindən həyata keçirilir.

SBA-nın tərkibinə kiçik və orta sahibkarlığın tənzimlənməsi və himayə edilməsi üzrə işləri operativ həyata keçirən, həmçinin uzunmüddətli proqramların reallaşdırılmasınıəlaqələndirən 4 departament daxildir. Bundan başqa SBA-nın tərkibinə iki müstəqil idarə - Vəkillik və Ümumi Təftiş idarəsi, bir inzibati departament (informasiya mərkəzi, əmək resursları və plan şöbəsi) və 9 ixtisaslaşdırılmış şöbə və xidmət aiddir. SBA ABŞ-da tamamilə və ya qismən federal büdcə vəsaitləri hesabına maliyyələşdirilənşaxələndirilmiş təmsilçilik, şöbə, məsləhət məntəqələri, biznes mərkəzləri və müvəkkil kompaniyalar şəbəkəsi yaratmışdır. Kiçik və orta sahibkarlıq fəaliyyətinin tənzimlənməsi çərçivəsində həyata keçirilən dəstəyin böyük kapital qoyuluşu tələb etməyən, bir çox ölkələrdə geniş yayılmış və bizim ölkəmizdə də tətbiq oluna biləcək aşağıdakı bəzi növləri üzərində qısaca dayanaq [5]:

- "Təqaüdçü rəhbərlərin məsləhət bürosu (ServiceCops of RetiredExecutives -SCORE)"nun işi kiçik və orta sahibkarlığa texniki kömək və məsləhət verilməsi üçün hazırda təqaüdə çıxmış yüksək ixtisaslı mütəxəssislərin təcrübəsindən istifadə edilməsi ilə bağlıdır. ABŞ-ın 389 məsləhət məntəqəsi 11.400 təqaüdçü ilə əməkdaşlıq edərək hər il 400.000-dən yuxarı müştəriyə məsləhət verir. Analoji strukturlar Avropa İttifaqı ölkələrində də fəaliyyət göstərir. Bizim ölkəmizdə bu təcrübəni kiçik və orta sahibkarlığa dəstək olan yerli strukturlarla əməkdaşlıqda maraqlı olan yüksək ixtisaslı təqaüdçülər haqqında lokal məlumat bazasını yaratmaqla tətbiq etmək olar [6].
- Bir çox ölkələrdə (Almaniya, ABŞ, Yaponiya və s.) kiçik və orta müəssisələr kifayət qədər ağırlıqlı texniki kömək və iri həcmli kreditlər almaq üçün fəaliyyətlərinin təşkilati, texniki, maliyyə, kadr və başqa aspektləri üzrə obyektiv məlumatlar təqdim etməlidirlər. Bu cür məlumatlar adətən müvəkkil ixtisaslaşdırılmış təşkilatlar və ya diaqnostik mərkəzlər tərəfindən hazırlanır. Bu əhəmiyyətli dərəcədə müəssisələrə qoyulmuş və ya yatırılmış vəsaitlərin itirilməsi riskini aşağı salır. Bizim

ölkəmizdə resursların məhdudluğunu, maliyyə köməkliyi üçün kütləvi müraciətləri və ayrılmış kreditlərin qaytarılmadığı hallarının tez-tez baş verməsini nəzərə alaraq maliyyə və texniki köməyə, restrukturizasiyaya ehtiyacı olan kiçik və orta müəssisələrin məcburi diaqnostikasını həyata keçirən institutların yaradılması zəruridir. Bu vəsaitlərin qənaət olunmasına və onların məqsədəuyğun istifadə edilməsinə, həmçinin sahibkarların məsuliyyət və cavabdehliyinin yüksəldilməsinə imkan verəcəkdir.

- Kiçik və orta sahibkarlıq fəaliyyətinin tənzimlənməsinin və dolayı maliyyə dəstəyinin güclü vasitəsi dövlət və ya regional proqramlar çərçivəsində kiçik və orta sahibkarlığın maliyyə resursları ilə təmin edilməsi məqsədilə ayrılan kreditlərə dövlət təminatının verilməsidir. Bu cür proqramlar ABŞ-da, Yaponiyada, Almaniyada və digər ölkələrdə mövcuddur. Məsələn, ABŞ-da 2002-ci ildə kiçik və orta sahibkarlığın kreditləşdirilməsinə təminatın verilməsi üçün 17,5 mlrd dollar ayrılmışdır. ABŞ-da bu tipli 20-dən yuxarı ixtisaslaşdırılmışkreditləşdirmə proqramları mövcuddur. Qeyd edək ki, bu cür sistemin respublikamızda inkişafı xüsusi (şəxsi) kapitalın cəlb edilməsi hesabına kiçik və orta sahibkarlığa dəstəyin maliyyə resursları bazasını əhəmiyyətli dərəcədə genişləndirməyə imkan verəcəkdir.

- ABŞ, Yaponiya və İngiltərədə geniş yayılmış kiçik və orta sahibkarlıq fəaliyyətinin investisiya kreditləşməsi (investisiya yönümlü kredit verilməsi) təcrübəsi olduqca maraqlıdır. Bu təcrübənin əsasını şəxsi kapitallarını istifadə etməklə və SBA təminatı altında alınmış kapitalı cəlb etməklə xüsusi investisiya kompaniyaları (SmallBusinessİnvestmentCompanies – SBİC) şəbəkəsinin yaradılması təşkil edir. SBİC şəbəkəsi kiçik və orta sahibkarlıq fəaliyyətinə müxtəlif yönümlü investisiya qoyuluşu həyata keçirir. Bu kompaniyalar səhm kapitalı, istiqraz vərəqəsi, uzunmüddətli borc verir, həmçinin maliyyə resurslarının idarə edilməsi üzrə xidmətlər göstərirlər. Onların fəaliyyəti üçün sövqedici stimul kiçik müəssisələrin uğurlu inkişafı və gələcək çiçəklənməsi halında SBİC-in mənfəətin bölüşdürülməsi prosesinin iştirakçısı olması ehtimalıdır.

- Kəskin rəqabətli qloballaşan iqtisadiyyata daxilolma Azərbaycandan mövcud resursları iqtisadi fəaliyyətin daha səmərəli istiqamətlərində təmərküzləşdirilməsini tələb edir. Qeyd edək ki, innovasiya fəaliyyəti ölkəmizdə mövcud olan və kifayət qədər istifadə edilməyən yaradıcı və elmi-texniki potensialdan daha tam istifadə olunmasına imkan verir. Kiçik və orta sahibkarlıq sektorunda innovasiya fəaliyyətinin intensiv inkişafının və himayə edilməsinin vacibliyi elmi araşdırma institutları, universitetlər və sınaq laboratoriyaları arasında qarşılıqlı əməkdaşlığın təmin edilməsi və bu işlərin maliyyələşdirilməsi vəzifəsini qarşıya qoyur. Dünya praktikasında elmi tədqiqat və araşdırma işlərinin yerinə yetirilməsi məqsədilə müxtəlif idarələrin maliyyə resurslarının birləşdirilməsi təcrübəsinə rast gəlinir. Məsələn, ABŞ-da innovasiya fəaliyyətinin himayə edilməsi məqsədilə "Kiçik və orta sahibkarlıqda innovasiya araşdırmaları (SmallBusinessİnnovationResearch – SBİR)" və "Kiçik və orta sahibkarlıq texnologiyalarının yayılması (SmallBusinessTechnology Transfer – STTR)" proqramları yaradılmışdır. Bu proqramlar aparıcı federal idarələrin (məsələn, NASA) tematikası üzrə kiçik və orta sahibkarlıq sektorundakı müəssisələr tərəfindən həyata keçirilən elmi tədqiqat və araşdırma işlərinin müsabiqə əsasında büdcə maliyyələşdirilməsini təmin edir. Texnologiyaların inkişaf etdirilməsi və təkmilləşdirilməsi STTR proqramı vasitəsilə həyata keçirilir ki, bu proqram kiçik müəssisələrin qeyri-kommersiya araşdırma institutları ilə qarşılıqlı əlaqə qurmasını stimullaşdırır. Fikrimizcə, bu təcrübəni nəzərə alaraq respublikamızda istər dövlət, istərsə də özəl sektor sahəsində fəaliyyət göstərən kiçik və orta müəssisələrin elmi tədqiqat və araşdırma işləri üçün nəzərdə tutulmuş maliyyə vəsaitlərinin birləşdirilməsi mümkünlüyünü gözdən keçirmək olar. Digər bir tərəfdən ölkəmizdə kiçik və orta müəssisələrin elmi tədqiqat və araşdırma işlərinə marağını artırmaq məqsədilə xüsusi fondların təsis edilməsi, fond və onun iştirakçıları tərəfindən elmi araşdırmanın tematikasının müəyyənləşdirilməsi, fikrimizcə, olduqca vacibdir.

- Kiçik və orta sahibkarlıq sektorunun innovasiya fəaliyyəti ilə məşğul olan müəssisələrinin ciddi problemlərindən biri intellektual mülkiyyətin hüquqlarının müdafiəsidir. Bununla əlaqədar olaraq Yapon hökuməti intellektual mülkiyyətin müdafiəsini, yayılmasını və intellektual mülkiyyətin hüquqlarının milli qeydiyyat sisteminin təkmilləşdirilməsini təmin edən bir sıra təşkilati və qanunverici tədbirlər həyata keçirmişdir. Fikrimizcə, ölkəmiz reallığında kiçik müəssisələrin innovasiyaişləmələrininpatentləşdirilməsi və başqa ölkələrdə yeni məhsullarının sertifikatlaşdırılması məsrəfləri-

nin maliyyələşdirilməsininməqsəduyğunluğu haqqında rəy vermək hüququna malik ekspert şurası yaratmaq məqsədəuyğundur. Bu məsrəflərin maliyyələşdirilməsi üçün dövlət təminatı və güzəştli kreditləşdirmə mexanizmindən istifadə etmək olar. Bu innovasiya fəaliyyəti ilə məşğul olan bir çox müəssisələrə dünyəvi yeniliyə və rəqabət qabiliyyətliliyə malik işləmələrinpatentləşdirilməsi və sertifikatlaşdırılması üçün vəsait əldə etməyə imkan verəcək, eyni zamanda, bu müəssisələrin dünya bazarına çıxma imkanlarını asanlaşdıracaqdır.

- Kiçik və orta sahibkarlığın gələcək inkişafına yönəldilə biləcək maddi və maliyyə resurslarının məhdud olmasından çıxaraq Yaponiya və Böyük Britaniyanın təcrübəsinə müraciət etmək, fikrimizcə, məqsədəuyğundur. Yaponiya və Böyük Britaniyanın təcrübəsi kiçik və orta sahibkarlığın inkişafının prioritet istiqamətlərinin müəyyənləşdirilməsinə əsaslanır. Məsələn, Böyük Britaniyada 2000-ci ildə maliyyə resurslarının istifadə edilməsininoptimallaşdırılması məqsədilə kiçik və orta sahibkarlığın tənzimlənməsininikisəviyyəli prioritetlər sistemi qəbul edilmişdir. Bu sistemin analoji olaraq respublikamızda tətbiq edilməsinin məqsədəuyğunluğunu nəzərdən keçirək. Prioritetliyin birinci səviyyəsi ümumdövlət tətbiq miqyasına uyğun olmalıdır və sosial-iqtisadi islahatlar üçün zəruri resursların sürətli toplanmasına imkan yaratmalıdır. Prioritetliyin birinci səviyyəsi ölkənin sosial-iqtisadi inkişafı üçün strateji əhəmiyyətə malik konkret müəssisələr qrupunun inkişaf və himayə edilməsinin yüksək nəticəliliyini təmin edir. Prioritetliyin ikinci səviyyəsi sosial-iqtisadi inkişafın yerli və regional məqsədlərinə uyğun gəlməlidir və daha effektiv, sürətlə inkişaf edən müəssisələrin, həmçinin yüksək sosial əhəmiyyət kəsb edən müəssisələrin himayə edilməsi yolu ilə regionların sosial-iqtisadi inkişafına nail olmaq üçün kifayət qədər resurs toplamaqdır. Qeyd edək ki, müəssisələrin bir neçə məqsədli prioritetlərə cavab verməsi halında, onlar bir neçə mənbədən maliyyə dəstəyinin verilməsinə və əlavə güzəştlərin əldə edilməsinə ümid edə bilərlər.

Kiçik və orta sahibkarlıq fəaliyyətinin himayə edilməsi üzrə həyata keçirilən dövlət siyasətinin inkişaf etmiş ölkələrdə istifadə edilən 5 əsas istiqamətini ayırmaq olar:

1. vergi stimullaşdırılması;
2. dövlət tədatükü;
3. gömrük-tarif tənzimlənməsi;
4. dövlət subsidiyalaşdırılması;
5. standartlaşdırma.

Eyni alətlər dövlətlər tərəfindən sahədəki mövcud vəziyyətdən asılı olaraq müxtəlif məqsədlərə nail olmaq üçün istifadə oluna bilər. Qeyd edək ki, istifadə olunan bu alətlər müxətlif təsirlər doğura bilər. Məsələn, aşağı idxal paylı seqmentlərdə daxili istehsal həcminin artırılması və kompaniyaların dünya bazarlarına çıxmasına köməklik göstərilməsi, müəssisələrin rəqabət qabiliyyətlilik səviyyəsinin saxlanılması məqsədilə modernləşdirilməsi üçün vergi güzəştləri və ya subsidiyalaşdırma kimi tənzimləmə alətlərindən istifadə edilə bilər. İdxal bu zaman stabil olmaqla aşağı səviyyədə qalacaqdır və onun stabilliyi logistik (maddi-texniki) mülahizələrlə, ayrı-ayrı istehlakçıların istehlak prioritetləri ilə, texnoloji asılılığın hakim olması ilə izah olunur. İdxaldan asılı olan sektorlarda vergi güzəştləri və ya subsidiyalaşdırma kimi tənzimləmə alətlərindən istifadə müəssisələrin rəqabət qabiliyyətliliyini yüksəldir və idxalı əvəzetməni stimullaşdıran mexanizm olur [7,8].

İnkişaf etmiş xarici ölkələr kiçik və orta sahibkarlıq fəaliyyətinin inkişafının stimullaşdırılması üçün vergi güzəştləri mexanizmini fəal surətdə tətbiq edirlər. Məsələn, İsveçdə ötən ilin səviyyəsi ilə müqayisədə cari ildə (2016-cı ildə) firmalar araşdırma işlərinə sərf etdikləri məsrəflərin 10% həcmində vergi məbləğindən azad edilmişlər. Fransa və Almaniyada araşdırma işlərinə və işləmələrə sərf edilən cari məsrəflər hesabdan silinə bilər. Vergi araşdırma krediti Böyük Britaniya, Belçika, Danimarka, Avstraliya, Avstriya, Macarıstan, İspaniya, Portuqaliya, Kanada, Fransa, Norveç, ABŞ, Yaponiya, Meksika və Cənubi Koreya kimi ölkələrdə tətbiq edilir. İspaniya, Böyük Britaniya, Almaniya və İsveç kimi ölkələr kiçik və orta sahibkarlığın innovasiyayönümlü fəaliyyətini stimullaşdırmaq üçün dolayı vergilərdən istifadə edirlər. Qeyd edək ki, hazırda bu ölkələrdə innovasiya təyinatlı əmtəələr üzrə ƏDV normasının diferensiallaşdırılmasının tətbiq edilmə mümkünlüyü nəzərdən keçirilir.

Bir çox tədqiqatçılar və kompaniyalar səhm satışından əldə edilən mənfəətdən alınan vergi normasının azaldılmasını vergi stimullaşdırılmasının ən perspektiv növü adlandırırlar. Bu təcrübə-

nin ABŞ-da tətbiqi vençurkapitalının və vençur sahibkarlığınınstimullaşdırılmasında mühüm əhəmiyyətə malik olduğunu sübut etdi. [9].

Çin Xalq Respublikası hökuməti kənd təsərrüfatı məhsullarının emalı sənayesinin və qeyri-kənd təsərrüfatı istehsalının inkişaf etdirilməsi, vergi islahatlarının aparılması, taxıl istehsalının himayə edilməsi yolu ilə kənd təsərrüfatına ünvansız subsidiyalaşdırma göstərir. ABŞ-da yarpaq tütünə qoyulan vergi istisna olmaqla kənd təsərrüfatının spesifik məhsullarına qoyulan bütün növ vergilərin ləğv olunması planlaşdırılır ki, bu addım kəndlilərin hər il 478 mln. dollar həcmində vergi yükünün azalmasına imkan verir [10].

Qeyd edək ki, yüksək texnologiyaların mənimsənilməsi və inkişafı zonalarında vergi güzəşti rejimi təcrübəsindən istifadə olunur ki, bu da kiçik və orta sahibkarlığın innovasiyayönümlü fəaliyyətini stimullaşdırır. Məsələn, Çinin şimal-şərqində yerləşən Harbində müəssisələr qeydiyyat tarixindən başlayaraq üç il ərzində tamamilə əlavə dəyər vergisindən azad edilir, sonrakı üç il ərzində ƏDV-ni 50% güzəştlə təqribən 8,5% həcmində vergi ödəyir. Texnologiya işləyiciləri üçün avadanlıq və cihazların idxalı rüsumların ödənilməsindən tamamilə azad edilmişdir.

Bir sıra hallarda dövlət satınalmaları kiçik və orta sahibkarlığın inkişaf etdirilməsinin təsirli aləti ola bilər. Bir çox ölkələrdə dövlət satınalmaları bazarının ÜDM-nin əhəmiyyətli hissəsini təşkil etdiyi faktını nəzərə alaraq qeyd edə bilərik ki, yerli kompaniyaların dövlət sifarişlərinə yol tapması ehtimalı milli istehsalçıları istehsalı genişləndirməyə, müasir texnologiyaları tətbiq etməyə, işçilərin sayını artırmağa imkan verən uzunmüddətli müqavilələrlə təmin edir. Buna görə də dünya ölkələrinin böyük əksəriyyətində dövlət ehtiyaclarının ödənilməsi üçün satınalmalar bazarı proteksionist siyasət səhnəsinə çevrilir. Bu cür ölkələrin əsas arqumenti və ya sübutu vergi ödəyicilərinin pullarının milli sahibkarlığın himayə edilməsinə yönəldilməsi qənaəti və ya inancıdır. Cədvəl 2-də müxtəlif ölkələrdə yüngül sənaye sahəsi məhsullarının dövlət tərəfindən satın alınmasına yanaşmalar göstərilmişdir.

Ümumdünya Ticarət Təşkilatı milli hökumətlərin yerli istehsalçıları dövlət satınalmaları sferasında ixracçılara məhdudiyyətlərin gətirilməsi yolu ilə müdafiə etmək siyasətini məhdudlaşdırmır.

Dövlət müdaxiləsinin gömrük-tarif metodları ölkə iqtisadiyyatındakı struktur dəyişikliklərinstimullaşdırılması və daxili bazarın qorunması üçün idxal və ixrac əməliyyatlarının tənzimlənməsinəistiqamətlənmişdir. Gömrük-tarif tənzimlənməsi dövlət orqanları tərəfindən qanunvericiliklə nəzərdə tutulmuş qaydada həyata keçirilən təşkilati, iqtisadi və hüquqi tədbirlər məcmusunu əks etdirir. Başqa sözlə desək, gömrük-tarif tənzimlənməsi xarici iqtisadi fəaliyyətin tənzimlənməsini əhatə edir.

Gömrük-tarif tənzimlənməsinin əsas prinsiplərindən biri dövlət tərəfindən birtərəfli qaydada gömrük rüsumlarının müəyyənləşdirilməsi prinsipidir. Bu prinsip gömrük-tarif münasibətləri subyektlərinə rüsumların ödənilməsi müddəti və həcmi məsələləri üzrə hər hansı bir razılaşma əldə edilməsini və ya müqavilə bağlanmasını qadağan edir.

Avropa İttifaqı ölkələrində hər il Avropa İttifaqı Komissiyası tərəfindən formalaşdırılan və çap olunan Vahid Gömrük tarifləri fəaliyyət göstərir. Rəsmi nəşrdə qanunvericiliklə müəyyən edilmiş fərdi (muxtar) və konvension (şərti) rüsum dərəcələri öz əksini tapır. Vahid Gömrük tariflərində əmtəələrin böyük əksəriyyəti üçün gömrük tarif dərəcələri 4-25% arasındadır.

Konvension (şərti) rüsum dərəcəsi və ya konvension gömrük tarifi ÜTT-nin üzvü olan, ən əlverişli şərait yaratma rejimindən faydalanan ölkələrin əmtəələrinə tətbiq edilir. Praktik olaraq əlverişli şərait yaratma rejimi tarifləri istənilən mənşədən əmtəələrə tətbiq olunur. Bu tariflər qida məhsulları və kənd təsərrüfatı məhsulları üçün fərdi (muxtar) tariflərdən 10-13% aşağıdır. Digər əmtəələr üçün əlverişli şərait yaratma rejimi tarifləri fərdi tariflərdən 25%-dən 70%-dək aşağıdır.

Avropa İttifaqı tarif imtiyazlarının verilməsinin altı sxeminə malikdir. Onlardan ən ümumisi inkişaf etməkdə olan ölkələrə təqdim edilən Ümumi İmtiyazlar Sistemidir. İnkişaf etməkdə olan ölkələrdə istehsal edilmiş bütün sənaye malları və yarımfabrikatlardan gömrük rüsumları alınmır. Bu imtiyazlar Ümumi İmtiyazlar Sistemi sxemindən çıxarılmış əmtəələrə şamil edilmir.

Cədvəl 2.

Müxtəlif ölkələrin hərbi formaların satın alınması məsələsi üzrə siyasəti

| Ölkələr | İdari proteksionizm | İzah (şərh) |
|---|---|---|
| NATO bloku ölkələri | mövcuddur | NATO-nun hərbi forma satın alınması üzrə siyasəti aşağıdakı hallarda "alına bilməz və ya istehsalına icazə verilə bilməz" hərbi forma alınması üzrə əlavə məhdudiyyətləri özündə əks etdirir:<br>NATO-nun rəsmi embarqosu altına girən;<br>Beynəlxalq konvensiyalara məhəl qoymayan;<br>Hərbi formaya ehtiyacın olmasının əsaslandırılması halında NATO bloku ölkələri konkret istehsalçıya formanın hazırlanmasını sifariş verə bilər. |
| ABŞ | mövcuddur | • Amerikan qanunvericiliyində hərbi ehtiyaclar üçün tamamən ölkədə istehsal olunmuş məhsulların alınması tələbi irəli sürülmüşdür.<br>• Bayram və səhra hərbi formaları 100% ölkə daxilində istehsal olunmuş amerika istehsalı parçadan hazırlanır. |
| Çin | mövcuddur | Hərbi forma yerli istehsal müəssisələrində hazırlanır.<br>Sifarişlər dövlətin əsas hesab etdiyi fabriklər üzrə bölüşdürülür. |
| Böyük Britaniya | mövcud deyildir | • Hərbi uniformanın yalnız 6%-i ölkədə tikilir.<br>• 45,5 mln. funt dəyərində hərbi forma (53%) Avropa İttifaqı ölkələrində tikilir.<br>• 27 mln. funt dəyərində hərbi forma (33,5%) Çin və Cənub-Şərqi Asiyada tikilir.<br>• 5 mln. funt dəyərində hərbi forma (6%) Hindistanda tikilir.<br>• 1,5 mln. funt dəyərində hərbi forma (2%) Şimali Afrikada ölkələrində tikilir. |

Ümumi İmtiyazlar Sistemi çərçivəsində inkişaf etməkdə olan ölkələrdən qida təyinatlı kənd təsərrüfatı məhsullarının idxal edilməsinə rüsumlar 20%-dən 60%-dək aşağı salınmışdır. Bu əmtəələrin zəif inkişaf etmiş ölkələrdən idxalı rüsum ödənilmədən həyata keçirilir. Ümumi İmtiyazlar Sistemi sxemindən ət, ev quşları, balıq, süd məhsulları, tərəvəz, şəkər, şərab, yarma, yağlı toxumlar, heyvan yemi və s. tamamilə və ya qismən çıxarılmışdır.

Ümumi İmtiyazlar Sistemi sxemi bütün inkişaf etməkdə olan ölkələrə - Afrika, Sakit okean və Karib hövzəsi ölkələrinə tətbiq edilir. Bununla yanaşı sərbəst ticarət haqqında bir sıra razılaşmalar (Norveç, İslandiya, İsveçrə, İsrail ilə), assosiasiya sazişi (Türkiyə, Malta, Macarıstan, Polşa) fəaliyyət göstərir.

Bazar iqtisadiyyatlı ölkələrdə həyata keçirilən dövlət investisiya siyasətinin təhlili göstərir ki, investisiya siyasəti investisiya fəaliyyəti üçün ümumi şəraitin yaradılması ilə məhdudlaşmır, eyni zamanda, iqtisadiyyatın üzünmüddətlimaliyyələşdirilməsi sisteminin yaradılmasında dövlətin fəal rolunu nəzərdə tutur.

Qeyd edək ki, xarici ölkələrdə iqtisadiyyatın dövlət maliyyələşdirilməsi müxtəlif metod və mexanizmlərin köməyi ilə həyata keçirilir. Məsələn, İtaliya və Finlandiya üçün sənayenin dövlət subsidiyalaşdırılması xarakterikdir. Bu ölkələrdə dövlət dəstəyi birbaşa maliyyələşdirmə şəklində ixraca kömək etməyə istiqamətlənmişdir. Bu məqsədlərin həyata keçirilməsi üçün İtaliyada "Saçe" dövlət sığorta şirkəti yaradılmış və daha sonra 1998-ci ildə əmlak və təşkilati müstəqilliyə malik xarici ticarət əməliyyatlarının sığortalanması üzrə Dövlət institutuna çevrilmişdir.

Fransa və Almaniyada dövlətin iqtisadi siyasəti regional iqtisadi fərqliliyin tarazlaşdırılmasınayönəldilmişdir. Bu ölkələrdə, həmçinin pul vəsaitlərinin bölüşdürülməsininsahəvi və daha səmərəli hesab edilən regional metodundan istifadə edilir. Fransada dövlət və region münasibətləri müqavilə əsasında, regionların iqtisadi inkişafına dövlət dəstəyi məqsədilə milli planlaşdırma sistemi çərçivəsində qurulur. Fransa və Almaniya təcrübəsi əsasında – müxtəlif

regionlar arasındakı fərqlərin tarazlaşdırılması üçün dövlət maliyyələşdirilməsi prinsipindən artıq Avropa İttifaqı səviyyəsində də istifadə edilir.

Çin və Yaponiya iqtisadiyyatındakı ən mühüm struktur layihələrin maliyyələşdirilməsi üçün həm büdcə vəsaitlərindən, həm də dövlət təminatı altında olan müxtəlif növ vətəndaş əmanətlərindən fəal istifadə edilir.

Standartlaşdırmaya bu fəaliyyətin əsas subyektləri – dövlət orqanları və əmtəə və xidmət istehsalçıları tərəfindən müasir yanaşma onunla müəyyən olunur ki, standartlaşdırma dünya miqyasında ticarət əlaqələri sahəsindəki siyasətin başlıca halqasıdır və cəmiyyətin həyat fəaliyyətinin sosial-iqtisadi sferasınınişləməsini təmin edən sabitləşdirici amildir. Bu yanaşmanın mahiyyəti dövlətin və istehsalçı məsuliyyətinin bölüşdürülməsindənibarətdir [11].

Cəmiyyətin və bazarın artan ehtiyaclarının ödənilməsi məqsədilə, həmçinin standartlaşdırma prosesində iştirak edən bütün maraqlı tərəflərin mənafelərini nəzərə almaqla standartlaşdırma üzrə aparıcı milli orqanlar milli standartlaşdırma sistemi strategiyaları işləyib hazırlayırlar. Bu zaman beynəlxalq standartlaşdırma sisteminin strateji inkişaf planları, beynəlxalq ticarətdəki texniki maneələr üzrə müqavilə müddəaları nəzərə alınır. Fəaliyyət göstərən strategiyalaraaşağıdakıları aid etmək olar:

1. Standartlaşdırmanın Alman strategiyası (2004-cü il);
2. ABŞ-ın milli standartlaşdırma strategiyası (2000-ci il);
3. 2002-2005-ci illəri əhatə edən standartlaşdırmanın fransız sisteminin strategiyaları;
4. İngiltərənin milli standartlaşdırma strategiyası (2003-cü il).

Fikrimizcə, sənayecə inkişaf etmiş ölkələrdə kiçik və orta sahibkarlığın inkişafının həlledici amili dövlət dəstəyi və ya himayəsinin həyata keçirilməsidir. Biznesin çoxyönlü stimullaşdırılması, hər şeydən əvvəl, onun inkişafı üçün əlverişli iqtisadi və hüquqi mühitin yaradılmasını nəzərdə tutur. İnkişaf etmiş bazar iqtisadiyyatlı xarici ölkələrin təcrübəsi göstərir ki, inkişaf etmiş sahibkarlıq fəaliyyəti ölkənin sosial-iqtisadi inkişafında mühüm funksiyalar yerinə yetirir. Qeyd edək ki, məqaləmizdə araşdırılmış xarici təcrübə uğurlu şəkildə Azərbaycan iqtisadiyyatına uyğunlaşdırıla və tətbiq oluna bilər.

Deyilənlərdən belə bir qənaətə gəlmək olar ki, kiçik və orta sahibkarlığa dövlət tərəfindən lazımi qayğı göstərilməsi elə bir işgüzarlıq mühitini formalaşdırır ki, bunsuz şəxsi marağa və istehsalçıların təşəbbüsünə əsaslanan bazar iqtisadiyyatı mümkün deyildir.

Belə ki, respublikada müasir sahibkarlıq sistemini dövlətin köməyi ilə formalaşdırmaq lazımdır. Nəinki iqtisadi təşəbbüsün dövlət tərəfindən məhdudlaşdırılması hallarını aradan qaldırmaq, həm də sahibkarlığa təsirli dövlət köməyi mühitini yaratmaq lazımdır. Kiçik və orta sahibkarlığı inkişaf etdirməyin strategiyası respublikanın tarixi və milli xüsusiyyətlərinə, sosial-iqtisadi və coğrafi-siyasi şəraitinə, dünyanın müasir iqtisadi və intelektual inkişaf meyllərinə əsaslanmalıdır. Çevik sahibkarlıq quruluşunun formalaşdırılması özündə kiçik, orta və iri sahibkarlığı əlaqələndirərək iqtisadiyyatın, respublika əhalisinin tələbatına və dünya təsərrüfatının rəqabət şəraitinə uyğunlaşdırılmasına güclü təsir göstərə bilər. Sahibkarlığa maraq oyatmaq üçün istifadə edilən tədbirlər sistemi əhalinin iqtisadi və əmək fəallığının artırılması, məhsuldar əməyin həvəsləndirilməsi amili rolunu oynamalıdır. Sağlam sahibkarlıq mühitinin inkişaf tapması və insanlarda müvafiq təfəkkür və davranış tərzinin ayrılmaz cəhətləri kimi müasir sahibkarlıq ruhunun tərbiyə edilməsi Azərbaycanda səmərəli bazar iqtisadiyyatının sürətlə formalaşdırılmasının, cəmiyyətdə sosial-siyasi vəziyyətin stabilləşdirilməsinin ən mühüm şərtidir.

## ƏDƏBİYYAT

1. Дегтярев А.Н., Лузина И.А. Государственная поддержка предпринимательского сектора: мировой и российский опыт. Москва, 2000.
2. URL: http://www.sba.gov/aboutsba
3. U.S.SBA. TheMillenium: SmallBusiness and Enterpreneurshipinthe 21-st Century. Washington, 1995.
4. Шульце П.Российские преобразования в европейском контексте// Власть. Москва, 2001, №9.

5. Киселев В. Взаимодействие крупного капитала и государственной власти (зарубежный опыт) // Проблемы теории и практики управления. 2010, № 1.
6. URL: http://www.nisse.ru
7. Личко К.П. Прогнозирование и планирование аграрно-промышленного комплекса. Учебник. Москва, Гардарики, 2012.
8. Руденко Л.Г., Жидков А.С. Государственно-частное партнерство как возможный инструмент стимулирования импортозамещения //Экономикаи предпринимательство. 2015, №6, стр.179-183.
9. Бадалов А.Л. Частно-государственное партнерство в реализации инвестиционных проектов // ЭКО. 2008, №6, стр. 129-141.
10. Гайнутдинов Э.М. Основы предпринимательства. Минск, Высшая школа, 2003, 45 стр.
11. Пелих А.С. Экономика предприятия и отрасли промышленности. Москва, 2011.

## ABSTRACT

**Ceyhun Mahmudov**

**THE INTERNATIONAL EXPERIENCE OF LEGAL REGULATION OF SMALL AND MEDIUM SIZE ENTREPRENEURSHIP**

In this article was reviewed the international experience of legal regulation of small and medium size entrepreneurship represent the prompt, dynamic and massive form of enterprise organizing, was researched the experiences of EU, UK, USA and Japan within the regulation of small and medium size entrepreneurship activities and within this framework was displayed the necessity of applying of these positive experiences and stressed the importance of forming national entrepreneurship bodies within the support of state.

In scientific article also were based the implementation of protection or legal regulation of small and medium size entrepreneurship according to country's historic and national background, socio-economic condition and modern economic and intellectual drivers of the world and also was displayed the mechanisms of legal regulation processes

## РЕЗЮМЕ

**Джейхун Махмудов**

**МЕЖДУНАРОДНЫЙ ОПЫТ ГОСУДАРСТВЕННОГО РЕГУЛИРОВАНИЯ МАЛОГО И СРЕДНЕГО ПРЕДПРИНИМАТЕЛЬСТВА**

В статье рассматривается международный опыт государственного регулирования малого и среднего предпринимательства, отражающий гибкую, динамичную и массовую форму организации предприятий.

В статье изучается опыт Европейского Союза, Соединенного Королевства, США и Японии в регулировании малого и среднего предпринимательства, а также показываются пути использования имеющегося опыта в Азербайджане и подчеркивается важность формирования современной системы предпринимательства с помощью государства.

В научной статье также изложено государственное регулирование или поддержание малого и среднего предпринимательства в соответствии с историческими и национальными характеристиками страны, социально-экономической ситуацией, тенденциями глобального экономического и интеллектуального развития, показываются механизмы государственного регулирования.

NDU-nun Elmi Şurasının 19 oktyabr 2017-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 02).
Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

**TEYMUR ABBASOV**
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 336**

# NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA AQRAR SAHƏNİN RƏQABƏT DAVAMLI İNKİŞAFININ ƏSAS MƏSƏLƏLƏRİ

**Açar sözlər:** *təsərrüfatçılıq subyektləri, aqrar islahatlar, təbii resurslar, ekoloji təhlükəsizlik, ərzaq təhlükəsizliyi, investisiya, idarəetmə mexanizmi, torpağın münbitliyi, fermer təsərrüfatları*

**Ключевые слова:** *хозяйственные субъекты, аграрные реформы, природные ресурсы, экологическая безопасность, продовольственная безопасность, инвестиции, механизм управления, плодородие земли, фермерские хозяйства*

Yaxın müddətdə aqrar islahatların əsas məqsədi kənd təsərrüfatı istehsalının həcminin artırılmasına səbəb olmaq və əhalinin kənd təsərrüfatı məhsuluna olan tələbatının ödənilməsidir. Aqrar sektorun daha səmərəli təşkili yolu ilə iqtisadfi artımda onun rolu artmalı, tələbatın ödənilməsində yerli istehsalın rolu xeyli dərəcədə yüksəlməlidir.

Bazar münasibətləri şəraitində aqrar sahədə konsepsiyanın məqsədi aşağıdakılardan ibarətdir:

- aqrar bölməni iqtisadi böhran vəziyyətindən çıxarmaq, kənd təsərrüfatı və ərzaq məhsulları istehsalını artırmaqla əhalinin tələbatının ödənilməsi dərəcəsində respublika aqrar sektorunun payını daima artırmaq, aqrar sektorun ayrı-ayrı sahələrini və inteqral effektliyini artırmaq;
- kəndin sosial inkişafını və kənd əhalisinin həhat səviyyəsini yüksəltmək.

Aqrar bölmədə böhranın qarşısını alan cari vəzifələrə aşağıdakıları aid etmək olar:

- torpaq üzərində səmərəli təsərrüfatçılıq subyektlərini formalaşdırmaq məqsədi ilə torpaq və aqrar islahatların sürətlənməsinə təminat yaraymaq;
- torpaqların münbitliyini artırmaq, toxumçuluğu və cins heyvandarlığı inkişaf etdirmək, mütərəqqi texnologiyanın tətbiqi imkanlarını artırmaq, elmi-texniki potensialdan və resurslardan səmərəli istifadə etmək;
- rəqabətqabiliyyətli və ixracyönlü yeni strukturlara nail olmaq üçün investisiyanın artımı və strukturunun təkmilləşdirilməsi yolu ilə aqrar istehsalın sahə strukturunu təkmilləşdirmək;
- aqrar sektorun təsərrüfat formalarının və sahibkarlığın iqtisadi mənafeyini stimullaşdıran və iqtisadi artımın sürətlənməsinə səbəb olan dövlət tənzimləmə mexanizmini işləmək;
- kənd yerlərinin sosial inkişafı, kənd əhalisinin sosial müdafiəsi tədbirlərini həyata keçirən iqtisadi, təşkilati, maliyyə və kredit mexanizmlərini işləmək;
- özəlləşdirmə prosesini kənd yerlərində sürətləndirməklə, toqpaqdan istifadə yollarını və torpağın təkrar istehsalı mexanizmlərinin əlverişli əlaqələndirmə yollarını tətbiq etmək [3].

Azərbaycanın öz daxili tələbatının ödənilməsinə xidmət edən kənd təsərrüfatı və emal sənaye sahələri zəif inkişaf etmişdir. Bu səbəbdən də əhalinin istehlak mallarına olan tələbatının ödənilməsində ciddi çətinliklər yaranmış, respublika xarici ölkələrdən asılı vəziyyətə düşmüşdür. Yaxın dövrədək Azərbaycanın ərzaq məhsullarına olan tələbatı, onun istehsal potensialından çox olub. Belə ki, 1995-ci ildə Azərbaycan əhalisinin tələbatını ödəmək üçün təqribən 1,5 milyard ABŞ dolları həcmində ərzaq məhsulları idxal etmək tələb olunmuşdur. Sonrakı illərdə ərzaq idxalı, yerli istehsalın artması hesabına xeyli azalmışdır. Həm də idxalın içərisində əsas yeri istehlak baxımından bir növ ikinci dərəcəli məhsullar ttutrdu. Bir çox ən vacib ərzaq məhsulları respublikada öz imkanlarından çox aşağı səviyyədə istehsal olunurdu. Bu gün isə Azərbaycanda istehlak olunan ət və ət məhsullarının çox hissəsi, kərə yağının müəyyən payı onun özündə istehsal

olunur. Respublika əhalisinə lazım olan taxıl, un, yumurta, süd, spirtli və spirtsiz içkilərin çox hissəsinin xarici dövlətlərdən gətirilməsi artıq dayandırılıb. Bu kimi idxal məhsulları çoxlu xərc və əlavə təşkilati çətinliklər doğururdu [1].

Azərbaycanın müstəqillik əldə etməsi və bazar iqtisadiyyatına keçidlə əlaqədar olaraq iqtisadiyyatın quruluşu, ixtisaslaşması istiqamətləri və ərazi təşkili formalarında əsaslı dəyişikliklər baş verir. Bunun əsas amili kənd təsərrüfatının quruluşunun yeni istiqamətdə təkmilləşməsinin mühüm vasitəsi aqrar islahatın özəlləşdirmə proqramının tələblərinə müvafiq olaraq həyata keçirilməsi və müxtəlif mülkiyyətçiliyə söykənən təsərrüfatçılıq formalarının qarşılıqlı inkişafıdır.

Aqrar islahatın başlıca istiqamətlərindən biri də torpaqdan istifadə münasibətlərinin təkmilləşdirilməsidir. Artıq formalaşmaqda olan aqrar qanunvericiliyi iqtisadi və təbii iqlim potensialından dolğun istifadəyə təminat verən torpağa sahiblik və torpaqdan istifadə sisteminin meydana gəlməsi üçün hüquqi baza yaradır. Torpaq üzərində dövlət inhisarının ləğv edilməsinə və bununla da kənddə səmərəli təsərrüfatçılığın təşəkkül tapmasına yol açmışdır. Tezliklə aqrar münasibətlərin əsaslı şəkildə yenidən qurulması üçün torpaqların özəlləşdirməsinin miqyasının genişləndirilməsi ilə yanaşı sivill torpaq bazarının yaradılması üçün əməli addımlar atılmalıdır. İlk növbədə real bazar münasibətləri şəraitində torpağa sahiblik və torpaqdan istifadənin səmərəli tənzimlənilməsi üçün hüquqi əsas ola biləcək torpaq məcəlləsi, dəyişkən şəraitə uyğun yenidən işlənilərək, torpaq bazarının formalaşmasına imkan yaratmalıdır.

Aqrar islahatının mərkəzi məsələlərindən biri istehsalçının azad yaradıcı fəaliyyətini təmin edən təsərrüfat formalarının təşəkkülüdür. Bu proses aşağıdakı istiqamətlər üzrə fermer təsərrüfatlarının yaradılması, özəl kollektiv təsərrüfatlarının formalaşdırılması yolu ilə həyata keçirilir. İslahatın göstərilən istiqamətdə dərinləşdirilməsi kollektiv müəssisələrin daxili strukturlarının aqrar sferada səmərəli təsərrüfatçılığın həyata keçirilməsi tələblərinə müvafiq qurulması, eyni zamanda özəl kollektiv təsərrüfatların daha səmərəli formalarının təşkili bütövlükdə aqrar bölmənin inkişafına təminat yaradır [2].

Aqrar islahatların uğurları, əhəmiyyətli dərəcədə onun gedişində yaranan, maddi-texniki bazaya malik olan və könüllü formalaşan təsərrüfatların real bazar subyektlərinə çevrilməsinin təmin edilməsi şərtlərindən asılıdır. Aqrar sənaye sahəsində qiymətlərin liberallaşması həmin istiqamətdə həyata keçirilən əsaslı tədbirlərdən biri kimi qeyd edilməlidir. Bununla belə qiymət məsələsinə yenidən baxmaq zərurəti duyulmaqdadır. Belə ki, əsas istiqamətlər üzrə islahatın keçirilməsində ardıcıllığa, tədriciliyə əməl olunmaması nəticəsində liberallaşdırılmış qiymətlər aqrar islahatçıları səmərəli təsərrüfatçılığa istiqamətləndirə bilməmişdir. Bunun bir səbəbi də kənd təsərrüfatının bazar strukturunun hə də ləng formalaşmasıdır.

Problemlərin vacibliyi aqrar sənaye sferasında təmin edən bazarların yaranmasını sürətləndirməyi vacib vəzifə olaraq ön sıraya çəkir. Torpaq münasibətlərinin və istehsalın təşkili formalarının yeniləşdirilməsi eyni zamanda sosialyönlü bazar infrastrukturunun formalaşdırılmasını, aqrar sferada azad sahibkarlıq sisteminin təşəkkülü və inkişafı tələblərinə cavab verə bilən maliyyə, kredit və qiymət siyasətinin həyata keçirilməsini tələb edir. Bununla yanaşı kənd təsərrüfatı məhsullarının çoxkanallı satış sisteminin, sağlam rəqabət mühitinin, stimul doğuran dövlət sifarişi sisteminin işə salınması da kənd təsərrüfatı istehsalının və onun üçün lazım olan istehsal vasitələri göndərən və istehsal-texniki xidmətlər göstərən sahələrin inhisarçılığın aradan qaldırılması zərurətini doğurur.

Aqrar islahatların sonrakı inkişafı 2 mərhələdə nəzərdə tutula bilər: birinci mərhələdə cari tədbirlər, ikinci mərhələdə perspektiv tədbirlər reallaşır. Cari tədbirlər:

- kənd təsərrüfatı məhsullarının satışı təşkilində qarantiya prinsipi, emal sənayesi və istehsal arasında əlaqələrin təkmilləşdirilməsi, istifadə olunan avadanlıqlara lizinq xidməti, kənd təsərrüfatına güzəştli kredit, vergi və maliyyə qoyuluşunun sığorta sisteminin təşkili, ayrı-ayrı səmərəli məqsədli proqram üsulu ilə idarə olunması;
- differensial kreditləşmə və vergi siyasətinin tətbiqi;
- kənd təsərrüfatında təkrar istehsal üçün ekvivalent bölgü və stimullar sistemi yaratmaq, təkrar istehsalı təmin edən gəlirlər səviyyəsi əldə etmək. Yeri gəldikdə bazar qiymətləri ilə təminatlı qiymət arasında əlaqənin tənzimlənilməsi, kənd təsərrüfatında məqsədli proqramların yerinə

yetirilməsi üçün xüsusi fondların yaradılması və beş ildən az olmayaraq uzun müddətli kreditlərin verilməsidir [4].

Uzun müddətli tədbirlər olaraq rəqabətqabiliyyətli əmtəə istehsalçılarının formalaşdırılması və struktur siyasət tədbirləridir.

Bazar seqmentlərinin əsaslandırılması, bazar tələblərinə uyğun istehsal proqramı və marketinq planlarının həyata keçirilməsi, kooperasiyanın sahə və istehsal formalarını inkişaf etdirmək. İnvestisiya amortizasiya siyasətini kənd təsərrüfatı istehsalının xüsusiyyətlərini nəzərə almaqla reallaşdırmaq.

Konsepsiyada qoyulan məqsəd və vəzifələr, problemlərin qoyuluşu və həlli yolları mümkün proqnoz göstəricilərinin ssenariyasını əsaslandırır.

Aqrar islahatların aparılmasının həyata keçirilməsi üçün zəruri iqtisadi, təşkilati, normativ-hüquqi şəraitin yaradılması işi davam etdirilməli, kənd təsərrüfatı istehsalının dövlət tənzimləmə sistemini yaratmaq və aqrar sənaye kompleksi sistemində məhsul istehsalçılarının maliyyə vəziyyətini yaxşılaşdırmaq yolu ilə sahə iqtisadi böhrandan çıxarılmalıdır.

Sahibkarlıq fəaliyyətini genişləndirmək, yeni mülkiyyətçilər yaratmaq, çoxnövlü təsərrüfatçılığın inkişafını təmin etmək, aqrar-sənaye istehsalının dövlət tənzimləmə mexanizmini formalaşdırmaq, yeni iqtisadi-istehsal əlaqələrini inkişaf etdirmək, aqrar bölməyə dövlət investisiya qoyuluşunu artırmaq, sahənin maliyyə vəziyyətini stabilləşdirmək, xarici investisiyanı cəlb etmək, yeni torpaq münasibətlərini başa çatdırmaq, kənd təsərrüfatının sahə quruluşunu təkmilləşdirmək, çevik idarəetmə mexanizmini yaratmaq, bank, maliyyə, vergi və kredit sistemini yenidən qurmaq, yeni aqroservis xidmət müəssisələri yaratmaq, yeni texnika və texnologiyanın tətbiqini genişləndirmək əsasında istehsalın artımına nail olunur [5].

Bu dövrdə bazar və sosial infrastrukturun yaradılması və kənddə demoqrafik situasiyanın sağlamlaşdırılması üzrə kompleks tədbirlərin həyata keçirilməsinə üstünlük verilməlidir.

Bazar iqtisadiyyatı şəraitində kənd təsərrüfatının sahə quruluşunda taxılçılıq əsas yer tutacaqdır. Birinci və ikinci mərhələlərdə taxılın əkin sahəsinin genişləndirilməsi və həmçinin yeni, daha məhsuldar taxıl növlərindən istifadə edilməsi hesabına onun istehsalının artımına nail olunacaqdır. Taxılçılıqda toxumçuluq işinin yaxşılaşdırılması, yeni bərk buğda sortlarının yetişdirilməsi üçün kompleks tədbirlərin həyata keçirilməsi tələb olunur.

Pambıqçılıq kənd təsərrüfatının başlıca sahəsi olub, bundan sonra onun intensiv əsaslarla inkişaf etdirilməsi məqsədəuyğun hesab edilir. Pambığın əkin sahəsinin stabilləşdirilərək məhsuldarlığın artırılması hesabına xam pambıq istehsalının 200-300 min tona çatdırılması təklif edilir. Pambıqçılıqda göstərilən istehsal həcminə nail olunması, bir tərəfdən ölkə daxilində pambıq emalı müəssisələrinin istehsal gücündən səmərəli istifadə edilməsinə, digər tərəfdən ölkənin bazar ölkələri arasında dünya bazarında mövqeyinin möhkəmlənməsinə səbəb ola bilər. Ən başlıcası, pambıqçılığın inkişafı respublikada əmək ehtiyatlarından səmərəli istifadə olunmasının əsas şərtidir.

Respublikanın kənd təsərrüfatında şəkər çuğundurunun əkin sahəsinin genişləndirilməsi məqsədəuyğun hesab edilir, şəkər istehsal edən emal müəssisələri tikintisinin başa çatdırılması nəzərdə tutulur. Şəkər çuğunduru istehsalı sahəsi yeni sahə olduğu üçün onun perspektiv imkişafı həm ekstensiv və həmçinin intensiv yollarla həyata keçiriləcəkdir. Bu yeni istehsal sahəsinin inkişafı eyni zamanda işçilərin işlə təmin olunmasında və respublika əhalisinin şəkərə tələbatının təminində mühüm rol oynayacaqdır.

Respublikanın kənd təsərrüfatında şəkər çuğundurunun əkin sahəsinin genişləndirilməsi məqsədəuyğun hesab edilir, şəkər istehsal edən emal müəssisələri tikintisinin başa çatdırılması nəzərdə tutulur. Şəkər çuğunduru istehsalı sahəsi yeni sahə olduğu üçün onun perspektiv inkişafı həm ekstensiv və həmçinin intensiv yollarla həyata keçiriləcəkdir. Bu yeni istehsal sahəsinin inkişafı eyni zamanda işçilərin işlə təmin olunmasında və respublika əhalisinin şəkərə tələbatının təminində mühüm rol oynayacaqdır.

Kartofçuluğun perspektiv sahə kimi inkişafı obyektiv bir zərurətdir. Kartof istehsalı üçün ölkədə hərtərəfli əlverişli şəraititn olmasını, kartof istehsalında əhalinin vərdişini və bu məhsula çox böyük təlıəbatın olmasını nəzərə alıb həm əkin sahəsini genişləndirmək, həmçinin kartof toxumçuluğunu yaxşılaşdırmaq hesabına istehsalın artımına nail olunmalıdır.

Meyvəçilik və üzümçülük, həmçinin çayçılığın bazar münasibətlərinə keçid şəraitində də kənd təsərrüfatının əsas sahələri kimi inkişaf etdirilməsi təklif edilir. Meyvə və üzüm məhsullarını emal edən güclü sənaye müəssisələrinin olması, bu müəssisələrin maddi-texniki bazasının formalaşdırılması nəzərə alınır. Perspektivdə də həmin sahələrin inkişafı zəruri hesab edilir.

Yeni məhsuldar heyvan cinslərinin yetişdirilməsi, cins heyvandarlıq təsərrüfatlarının yaradılması və inkişaf etdirilməsi lazım gəlir. Heyvandarlığın əsasən özəl təsərrüfat qurumlarında inkişafı nəzərdə tutulur. Bununla əlaqədar olaraq süd emalı müəssisələrinin özəlləşdirilməsi, məhsul istehsal edən müəssisələrlə həmin məhsulu emal edən müəssisələr arasında yeni istehsal-iqtisadi əlaqələrin formalaşdırılması həyata keçirilməlidir.

Konsepsiyada nəzərdə tutulmuş kənd təsərrüfatı məhsulları istehsalı həcminə nail olunması başqa tədbirlərlə bərabər aqrar bölmənin maddi-texniki bazasının yeniləşdirilməsini,lik növbədə mövcud olan texnikadan səmərəli istifadə edib, yəni texnikanın gətirilməsini tələb edir [6].

Bazar münasibətlərinə keçidlə əlaqədar yanacaq çətinlikləri aradan qaldırmaq üçün başqa tədbirlərlə bərabər kənd təsərrüfatının dövlət tənzimləmə mexanizmi formalaşdırılmalı, bu məqsədlə idarəetmə orqanlarının təşkilat strukturları sadələşdirilməli, güzəştli kredit və vergi sistemi tətbiq edilməli, güzəştli qiymətlərlə kənd təsərrüfatı məhsullarının tədarükü təşkil olunmalı, tədarük edilən məhsulların dəyərinin vaxtında ödənilməsi üçün kompleks stimullaşdırma tədbirləri həyata keçirilməlidir.

Kənd təsərrüfatının inkişafı ekoloji siyasətlə də bağlıdır. Meşə, su təsərrüfatçılığı bu siyasətin tərkib hissəsidir.

Ekoloji siyasətin əsas vəzifəsi istehsalın resurs tutumunu azaltmaqla, tələbatın mühafizəsi qanunçuluğuna tabe olmaqla ətraf mühitə atılan tərzini formalaşdıran təsərrüfat fəaliyyətini təşkil etməkdir. Bu vəzifələrin reallaşması üçün ətraf mühitin mühafizəsi, ərzaq təhlükəsizliyi tədbirləri dövlət tərəfindən tənzimlənən normativlər və iqtisadi sosial mexanizmlər vasitəsi ilə tənzim olunmalıdır [8].

Ekoloji siyasətin metodoloji əsasını istehsal, istehlak və təsərrüfatçılığın iqtisadi effekti təşkil edir. Yaxın gələcəkdə makroekoloji tarazlıq konsepsiyası ilə hər bir regionun, sahənin və fəaliyyət növünün ekoloji sistemdə məhəlli proqram layihəsi dövlət orqanları tərəfindən tənzimlənməlidir. Bazar iqtisadiyyatı inkişaf etdikcə ayrı-ayrı fərdi istehsalçıların işinin ekoloji intizama cəlb edilməsi üçün hüquqi normativlər, iqtisadi sanksiyalar və texnoloji standartlar işlənməlidir. İqtisadiyyatın dayanıqlı və tarazlı inkişafı konsepsiyası ekoloji amillərin təsirinin qiymətləndirilməsi, onun maksimal və minimal dəyişmə intervallarını tənzimlənməsi tədbirləri sistemi hazırlamağı tələb edir:

- ekoloji tarazlığı təmin edən hüquqi, iqtisadi və təşkilati mexanizmlər hazırlamaq və dünya standartlarına uyğun normalarda tətbiq etmək;
- təbiətə qənaət edən texnoloji sistemlər və elmi-texniki tərəqqinin istiqamətlərini hazırlamaq;
- son məhsul istehsal edən sahələrin xüsusi çəkisini artırmaq;
- tullantısız istehsal təşkilinə nail olmaq;
- təbii resursların xarici investorlara istifadəyə verildikdə respublikanın qlobal mənafeyini və sahibkarlığın saxlanması şərtlərini əsaslandırmaq;
- təbiətin mühafizəsi üçün normativ sənədlər və normativ aktlar, respublika daxili təbii-iqlim, coğrafi, iqtisadi şəraiti nəzərə almaqla, sosial effekt baxımından qiymətləndirilməsi [7].

Ekoloji təhlükəsizlik vəərzaq təhlükəsizliyi problemləri və ömür səviyyəsinin yüksəldilməsi qlobal siyasətin əsas məqsədidir. Dövlətin ekoloji rolu, ayrı-ayrı istehsalçıların məsuliyyətini və istehsal obyektlərinin normativ texnoloji tələbata uyğun təzələnməsi yolları bu siyasətin real mexanizmidir.

Ekoloji və təbii resursların təkrar istehsalı, gəlirlərin bir hissəsinin yenidən ətraf mühit və tarazlığın qorunması məqsədi ilə istifadəsinə yönəltməyi tələb edir.

## ƏDƏBİYYAT


1. Abbasov İ.D. Azərbaycanın kənd təsərrüfatı. Bakı, Elm və təhsil, 2010, 592 s.
2. Abbasov T.A. Kənd təsərrüfatının resurs potensialı və ondan səmərəli istifadənin regional problemləri. Bakı, Elm, s.45.
3. Abdullayev A. İqtisadiyyat və iqtisadi siyasət. Bakı, "Asiya" nəşriyyatı, 2003.
4. Balayev R.Ə. Aqrar bölmənin və ərzaq bazarının tənzimlənməsi məsələləri. Müasir mərhələdə Azərbaycanda yeni iqtisadi sistemə keçidin qanunauyğunluqları və problemləri (Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutu). Kollektiv monoqrafiya. Bakı, Elm, 1998. 498 s.
5. Cəbiyev R.M. Azərbaycanda bazar infrastrukturunun formalaşması və inkişafı. Bakı, 2002, 231 s.
6. Əlirzayev Ə.Q. İqtisadiyyat: düşüncələr, baxışlar. Bakı, 2002, 465 s.
7. Əlirzayev Ə.Q., Əliyev K.Q. Sahibkarlığın inkişafının təminatı. "İqtisadiyyat və audit" jurnalı № 2, Bakı, 60 s., 2002.
8. Əliyev K.Q. Bazar iqtisadiyyatı şəraitində sahibkarlığın inkişaf problemləri. "İqtisadiyyat və audit" jurnalı № 10, Bakı, 53 s., 2003.



## РЕЗЮМЕ

**Теймур Аббасов**

### ОСНОВНЫЕ ВОПРОСЫ КОНКУРЕНТНО УСТОЙЧИВОГО РАЗВИТИЯ АГРАРНОЙ ОТРАСЛИ В НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКЕ

В статье рассмотрены вопросы продолжения работ по созданию необходимых экономических, организационных, нормативно-правовых условий для проведения в жизнь аграрных реформ, а также вопросы создания системы государственного урегулирования сельскохозяйственного производства и пути улучшения финансового положения производителей продукции в системе агропромышленного комплекса.

Раскрываются цели концепции в аграрном секторе в условиях рыночных отношений и основные вопросы конкурентно устойчивого развития аграрной отрасли.



NDU-nun Elmi Şurasının 19 oktyabr 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 02).

**MEHDİ BAĞIROV**
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 336**

# MÜASİR İNKİŞAF MƏRHƏLƏSİNDƏ AQRAR SEKTORDA MARKETİNQ İNFORMASIYASINDAN İSTİFADƏNİN XÜSUSİYYƏTLƏRİ

**Açar sözlər:** *kənd təsərrüfatı, marketinq fəaliyyəti, informasiya təminatı, marketinq növləri, aqrar istehsal*

**Key words:** *agriculture, marketing activities, information provision, marketing of agricultural produce*

**Ключевые слова:** *сельское хозяйство, маркетинговая деятельность, информационное обеспечение, виды маркетинга, аграрное производство*

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra sosial-iqtisadi inkişaf istiqamətində sürətlə irəliləməkdədir. Artıq bir neçə təkamül mərhəsini geridə qoymuş müstəqil ölkəmiz fiskal siyasət hesabına sahə, region və digər bölgülər əsasında hərtərəfli, kompleks irəliləməni məqsəd olaraq qəbul etmiş və bu yöndə öz fəaliyyətini davam etdirməkdədir. Bəhs olunan istiqamətlər üzrə statistik informasiyadan istifadə xüsusilə də son 20 il üzrə respublikamızın bütün sahələrində ardıcıl planlaşdırma işləri əsasında düşünülmüş addımların atılmasına, prioritetlərin zəruri təşkilatlanmaların müəyyən etilməsinə və həyata keçirilməsinə, bunun nəticəsində isə iqtisadiyyatın, demək olar ki, bütün sahələrində yüksəlişə nail olunmasına dəlalət edir. İfadə edilən fikir və düşüncələr aqrar sahədən də yan keçməmiş, onun inkişafına öz təsirini göstərmişdir.

Ölkə üzrə kənd təsərrüfatı sahəsindəki işlərin qanunauyğun şəkildə tənəzzül nöqtəsindən oynadılması və məqsədyönlü şəkildə inkişaf etdirilməsi onun inzibati məkanlarının öncüsü hesab olunan Naxçıvanın təkamülündən start verildi. Bir tərəfdən Ulu Öndər Heydər Əliyevin iqtisadiyyat sahəsindəki səriştəsi, istehsal sferasındakı beynəlxalq alət və vasitələrin fəaliyyəti üzrə biliklərinin olması, digər tərəfdən isə zəngin (lakin həmin dövrdə istifadəsində çoxlu sayda problemlər yaşanan) yerli potensialdan düzgün istifadə məcmu halında tədricən müsbət nəticələrini verməyə başladı. İlk mərhələdə torpaqların dövlətsizləşdirilməsi və özəlləşdirlməsi, texnikanın və heyvanların kənd əhalisi arasında bölüşdürülməsi, sonralar isə vergidən azad olunma, gübrələrin və yanacağın imtiyazlı satışı, aqrolizinq xidmətlərinin göstərilməsinə start verilməsi, hər hektar hesabı ilə yardım şəklində kənd sahibkarlarına ödənilən vəsaitlər, aşağı faizli kreditlərin verilməsi aqrar sferanın təkanverici, həmçinin stimaullaşırıcı elementlərinə çevrildi.

Zaman keçdikcə aqrar sahə üzrə beynəlxalq (o cümlədən, elmi-nəzəri) təcrübənin öyrənilməsi bu istiqamətə müxtəlif iqtisadi alət və vasitələrin cəlbini zəruriləşdirdi ki, onlardan da biri kimi marketinq çıxış edir. İlk baxışda ancaq "aqroməhsulların satışını həyata keçirən mexanizmlər məcmusu" təsəvvürünü yaradan marketinq əslində kifayət qədər əhatəli sistemə malikdir, məhsula olan tələbatın formalaşmasından onun faktiki ödənilməsinədək olan mərhələlər çoxluğunu özündə birləşdirir. Bəhs edildiyi kimi, göstərilən ardıcıllıqda ilk kateqoriyanı aqrar sahədə istehsal olunmuş məhsula olan tələbat təşkil edir. Onun formalaşmasında istehlakı ödəməli olan məhsulun xeyli keyfiyyətləri birmənalı qəbul edilməməli və incəliklə araşdırılmalıdır. Reallığa gəldikdə istər ölkənin, istərsə də muxtar respublikanın aqrar sektoru aid informasiyanın istifadəsi yönündə, demək olar ki, nəzərə çarpacaq addımlar atmamışdır. Halbuki məlumatlandırma mexanizmlərindən düzgün istifadə çoxsaylı məsələyə aydınlıq gətirmək iqtidarındadır ki, bunlardan da əsasları aşağıdakılardır:

- ✓ ölkə və regionlar üzrə istehlakı qarşılaya biləcək aqrar məhsul həcmlərinin fizioloji normalar əsasında müəyyən edilməsi və uyğun faktiki göstəricilərin həcmləri ilə müqayisəsi;
- ✓ məhsul bölgüsünün həyata keçirilməsi qayda və qanunauyğunluqlarının müəyyən edilməsi;

- ✓ həmin məhsullar üzrə ixrac və idxalın nəzərdə tutulan və real ölçülərin hesablanması;
- ✓ satılması nəzərdə tutulan və yerli istehsalı təmsil edən məhsul həcmlərinin (növlər üzrə) aydınlaşdırılması;
- ✓ aqroməhsulların digər mövsümlərdə satılması məqsədilə saxlama məkanlarına göndərilməsi;
- ✓ məhsulverimi, əmək məhsuldarlığı və əmək tutumu, istehsalın texnika ilə təminatı, gəlirlilik kimi göstəricilərinin səviyyələrinin öyrənilməsi və s.

Sadalananların nəzərə alınması informasiya üzrə işlərin həyata keçirilməsinin əsas şərtlərindən biri hesab olunur. Məhs onların hesaba alınması bu mərhələdə subyektlərdəki aidiyyatı boşluqların aradan qaldırılmasına, məlumatların əldə edilməsi baxımından cavablandırılmayan sualların qalmamsına gətirib çıxaracaq. Həmçinin yaddan çıxarmamalıdır ki, özündə tətbiq etdiyi marketinq imkanları və mexanizmləri ilə yanaşı aqrar istehsal subyekti digər hasilat vahidlərinin istifadə etdiyi marketinq "addımlarında" iştirakçı (alıcı) sifətilə çıxış edə bilər. Bu isə həmin iqtisadi alətin əhəmiyyətindən, nə qədər geniş yayılmasından xəbər verir.

Marketinq informasiyası özü-özlüyündə bir sıra xüsusiyyətlərlə müşayət olunmaqda və çoxsaylı komponentləri özündə cəmləməkdədir. Bu fəaliyyət öz daxilində məhsulun istehsalaqədərki dövrünün əhatəsindən başlamaqla onun son istehsalkçı ünvünlarına çatdırılmasınadək olan mərhələləri əhatə etməkdədir. Belə ki, onun ilkin mərhələsi hər hansı kənd təsərrüfatı məhsuluna cəmiyyətin tələbatının səviyyəsinin öyrənilməsini əhatə edir. Həmin mərhələdə əhalinin ayrı-ayrı qrupları əsasında cəmi istehlak həcmlərinin müəyyən edilməsindən, məhsul növləri üzrə faktiki istehsal həcmlərinin dəqiqləşdirilməsindən, müqayisəli təhlillərin aparılmasından və istehsal proqnozlarının müəyyən edilməsindən ibarətdir.

Növbəti informasiya "nüvəsində" təşkili nəzərdə tutulan və həyata keçirilməkdə olan istehsalın fərdi komponentlərinin müəyyən edilməsi, onların cinsi və dəyər ifadələrinə aydınlıq gətirilməsi, maya dəyəri və sonrakı satış qiymətlərinin optimal ölçülərinin müəyyən edilməsi baş verir. Bu proses özü-özlüyündə çoxsaylı istehsal-iqtisadi, sosial-psixoloji və digər amillərin təsiri nəticəsində formalaşmaqda və icra olunmaqdadır.

Onun həyata keçirilməsində hasilatın mərhələləri, məhsulların kəmiyyət və keyfiyyət xüsusiyyətləri, bu mərhələlərdə ortaya çıxa biləcək spesifik situasiyalar nəzərə alınmalı və real imkanlarla qarşılaşdırılmalıdır. Belə ki, marketinq informasiyasının əldə olunması məsələnin bir tərəfinin işıqlandırılmasını özündə ifadə edirsə, kənt təsərrüfatı subyektlərinin imkanlarının bu məsələlərlə bağlı hansı səviyyədə uyğun təşkil etməsi artıq ikinci məqamdan xəbər verir.

Bazar mühiti, bazarın hər hansı məhsulu hansı səviyyədə "qarşılaması" və "həzm etməsi" marketinq informasiyasının spesifik cəhətlərindən hesab olununr və marketinq məlumatının toplanmasının növbəti mərhələsindən xəbər verir. Bu zaman mövcüm, yerli şərait, reallaşdırmanın təşkilati, texniki və digər imkanların əyani sürətdə araşdırmaya məruz qalmalı və sistemli tədqiq olunmalıdır.

Sadalanan mərhələlərin hər biri özü-özlüyündə "lokal" xarakter daşımır, qarşılıqlı əlaqə və asılılıqları özündə ehtiva edir. Belə ki, ilkin məlumatsızlıq şəraitində hasilatın hansı yöndə həyata keçirilməsi, əldə olunmuş əmtəələrin reallaşdırılması heç də bütün hallarda fəaliyyət uğurundan xəbər verə bilməz. Eyni fikir aralıq və son faza üzrə olan məlumatsızlıq halında da keçərlidir.

Marketinq fəaliyyətinin təşkilində müraciət olunan 2 (məhsulun alıcıdan satıcıya hərəkətinin xüsusiyyətlərini müəyyənləşşdirəcək) mərkəz mövcuddur:

1. mövcud tələbat əsasında təşkil olunan istehsal;
2. baş tutmuş istehsal əsasında sonradan formalaşan tələbat.

Digər tərəfdən, marketinqin özünün sahəvi xüsusiyyətləri də informasiyalaşma proseslərində nəzərə alınmalıdır. Belə ki, aqrar sahənin istər birbaşa istehlakçıya göndərilən məhsulları, istərsə də xammal şəklində emal müəssisələrinə göndərilən hissəsi adı şəraitdə saxlama baxımından qısamüddətliliyi ilə seçildiyi halda, yükləmə, daşıma və boşaltma baxımından da daha yüksək, "zərif" diqqət tələb etməklə seçilir. Deyilənlər nəzərə alınmaqla marketinq tədqiqatlarında daha optimal, səmərəli variantların seçilməsi və işlənməsi tələb olunur.

Aqrar sahədə marketinqin məlumatlarından istifadə eyni zamanda hasil edilmiş əsas və əlavə məhsulların dəqiq ayrılması, onların sahə daxilində istifadəsi və ya sahədənkənar istehlakını

nəzərdə tutması ilə də seçilir. Belə ki, kənd təsərrüfatının tərkib hissələrini təşkil edən bitkiçilik və heyvandarlıq digər xüsusiyyətlərlə yanaşı biri digərinin məhsul və komponentlərindən qarşılıqlı istifadə imkanlarına malikdirlər. Məsələn, taxıl istehsalında əsas məhsulla yanaşı saman da hasil edilir ki, bu da heyvandarlıqda yem kimi istifadə oluna bilər.Yaxud, heyvandarlıq istehsalının mühüm komponentlərindən olan peyin bitkiçilikdə gübrə kimi öz tətbiqini tapır. Deyilənlər əsasında qeyd etmək yerinə düşər ki, marketinq informasiyası təkcə sahədənkənar obyektləri deyil, həm də sahədaxili dövriyyəni özündə əks etdirməklə mükəlləfidir.

Yuxarıdakı təsnifatdan da göründüyü kimi, birinci bənd ənənəvi təməllər üzərində mövcud olduğu halda, ikinci – nisbətən yeni olan aqroməhsulların istehsalçılara qəbul etdirilməsi qayda və prinsipləri üzərində qurulmuşdur. Adətən onlar hər hansı ölkədə (regionda) istehlak olunacaq əmtəələrin siyahısına daxil edilməyə çalışılır. İstənilən hasilat obyekti və prosesində bunlardan hər hansı birinə üstünlük verilməsi özü ilə spesifik şəraiti yaratmaqla bərabər özünəməxsus alət və vasitələrin (tanıtım-reklam fəaliyyəti, inandırma, stimullaşdırıcı satış, "keyfiyyət-qiymət" tarazlığı əsasında reallaşdırma, qiymətin müəyyənləşdirilməsində təsir amillərinin aydın ifadə edilməsi, təklif olunma (qablaşdırma, alıcıya çatdırma və s.) forması, qiymətlərin alış həcminə uyğun fərqlənməsi və s.) istifadəsini də nəzərdə tutur.

Marketinq öz fəaliyyətini istehsal-satış prosesi boyu təşkil edir. Belə ki, istehsalına hələ başlanmamış aqroməhsullar üzrə tələbatı ödəyəcək xarakterik xüsusiyyətlərin nəzərə alınması qanunauyğun şəkildə ona olan ehtiyacın artırılması ilə müşayət olunur. Bu fakt nəticədə yük dövriyyəsinin, sonradan isə zəncirvari əlaqə qaydasında satış həcminin, gəlirlərin və rentabelliyin səviyyəsində özünü biruzə verəcəkdir. Hazır məhsulların bölgüsünün həyata keçirilməsi qaydaları və qanunauyğunluqları özünün spesifikliyi ilə fərqlənir. Bu addımın düzgün atılması hazır məhsul üzrə israfçılığı xeyli azaldacaq; maliyyə göstəricilərinin səviyyələrinə təsir edəcək; əhalinin təbii və mexaniki artım templərini daim nəzərə alacaq; bazarda həmin məhsula olan tələbatın səviyyəsində kəskin kənarlaşmaların qarşısına alacaq, onun qiymət tərəddüdünün geniş miqyasda dəfə hesabı ilə baş tutmasına, süni qiymət artımlarına imkan verməyəcək; insanları ilboyu yeni (konservasiya olunmamış, qurudulmamış) kənd təsərrüfatı məhsulları ilə təmin etməyə imkan verəcək və s.

Mövzunun tərkib hissələrindən biri kimi satış kanallarının və məkanlarının im-kanlarının artırılması çıxış edir. Məhs bu amil məhsul əsasındakı "istehsalçı-istehlakçı" əlaqələrində təması artırır, növ-çeşid və ümumi həcm üzrə aqroəmtəələrin öz alıcısını tapmasına şərait yaradır. Bir tərəfdən risk səviyyəsi yüksək olan, digər tərəfdən dünyanın əksər ölkələrindəki kimi yardımlarla fəaliyyətini davam etdirən kənd təsərrüfatı sahəsi insanların birbaşa və ya dolayı istəklərini ödəməklə öz vəzifəsini yerinə yetirməkdədir. Bununla belə bir sıra hallarda ortaya aşağıdakı situasiyalar çıxır: 1.həcm və keyfiyyət etibarı ilə kifayət edəcək həcmdə hasil edilən ərzaq məhsulları istehsalçının anbarlarında (saxlama məkanlarında) qalaraq xarab olur; 2.şəhər əhalisi elə həmin məhsullara olan tələbatını ödəmək üçün ya kənddən az həcmdə gətirilərək baha qiymətə təklif olunan, yaxud da müxtəlif ölkələrdən gətirilən (keyfiyyət göstəriciləri şübhəli olan) əmtəə kütləsindən istifadə olunur və s. Araşdırılan istiqamətdə atılan müsbət addımlardan biri kimi də Ölkə Prezidenti İlham Əliyev tərəfindən 15 yanvar 2014-cü il tarixlə imzalanan, "fermer mağazaları" və "yaşıl marketlər"in yaradılmasını nəzərdə tutan Sərəncam qiymətləndirilə bilər. Onun imzalanması Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutsa da, "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"nın icrası sahəsində əlavə tədbirlərin görülməsinin sistemləşdirilməsi, kənd təsərrüfatı məhsulları ixracının artırılması, aqrar sahədə istehsalçıların və istehlakçıların maraqlarının qorunması və ərzaq bazarının səmərəli fəaliyyətinin təmin edilməsi məqsədlərini güdür ki, burada da marketinqin rolu əvəzolunmazdır.

Aqrar sahə məhsullarının sənaye təyinatlı emalını da (ASK şəklində) tələbatın tərkibində fərdi qaydada araşdırmaq zəruridir. Belə ki, məsələn, bağlarda istehsal olunmuş meyvə məhsullarının heç də bütün həcmi məqbul zaman kəsiyində istehlak olunmur, onun bir hissəsinin uyğun sənaye sahəsi əsasında emal edilərək istehlak çeşidini artırması marketinq fəaliyyətinin rəngarəngliyini yüksəldir ki, bu da müvafiq mübadilə məkanının strukturunun dəyişilməsinə, orada iştirakçı sifətilə təmsil

olunan məhsulların xüsusi çəki etibarı ilə dəyişməsinə gətirib çıxarır. Buna həmçinin ilk növbədə hasilatın yerli xammala əsaslanması da əlavə olunmalıdır.

Məqalədə bəhs olunanlar kənd təsərrüfatı sektorunda marketinq məlumatlarındırılmasının nə dərəcədə mühüm əhəmiyyət kəsb etməsini bir daha təsdiqləyir. Bu fəaliyyətin təşkilində hən nəzəri-metodoloji əsasların, həm də real vəziyyəti əks etdirən təcrübənin vəhdət halında nəzərdən keçirilməsi, bu istiqamətdə dəyərli təklif və tövsiyyələrin bildirilməsi müvafiq sahə üzrə istər kəmiyyət, istərsə də keyfiyyət baxımından daha yüksək nəticələrin əldə olunmasına şərait yaradacaq, bu sahənin imkanlarının artırılmasına xidmət edəcək, onun şaxələndirilməsi və tələbatın daha əhatəli ödənilməsi sahəsində öz sözünü demiş olacaqdır.

## ƏDƏBİYYAT


1. Bağırov M.S. Kənd təsərrüfatında istehsal vəsatış münasibətlərinin formalaşmasının müasir vəziyyəti və xüsusiyyətləri. (monoqrafiya). Naxçıvan: Qeyrət, 2014,107s.
2. Bağırov M.S. Aqrar sahənin inkişafı və marketinq prinsiplərindən istifadə. (monoqrafiya). Naxçıvan: Qeyrət, 2014, 102s.
3. Bağırov M.S. Aqrar sahədə resurs potensialı, onun istehsal və satış sisteminin formalaşmasında rolu. (monoqrafiya). Naxçıvan: Qeyrət, 2014, 130s.
4. Bağırov M.S. Statistika kursu. Naxçıvan: Əcəmi, 2014, 608
5. Rüstəmov A.A., Qasımov D.Q. Aqrar sferanın iqtisadiyyatı və idarə edilməsi. Bakı: Avrora, 2013, 406s.
6. Nuriyev Ə.X. Regional idarəetmənin əsasları. Bakı: Elm, 2007, 428s.
7. Abbasov T.A. Naxçıvan MR-də aqrar bazar: konseptual əsaslar və inkişaf istiqamətləri. Bakı: AzTU-nun mətbəəsi, 2015, 301s.
8. İbrahimova N.H. Regionda aqrar sahənin istehsal-iqtisadi əlaqələrinin təkmil-ləşdirilməsi istiqamətləri. Naxçıvan: İdeya, 2011, 124s.
9. Bağırov E.A. Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı. Bakı: Avropa, 2015, 332s.
10. Hüseynov X.A.Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatının inkişafı (1924-2014-cü illər). Naxçıvan: Əcəmi, 2016, 352s.
11. Əhmədov N.H. Regional ərzaq bazarı və onun formalaşması istiqamətləri. Bakı: ADPU-nun mətbəəsi, 2005, 160 s.
12. Alıyev İ.H. Azərbaycan Respublikasında aqrar sahədə iqtisadi idarəetmə mexanizminin təkmilləşdirilməsi. Bakı: Elm, 2003, 315 s.


## ABSTRACT


**Mehdi Bagırov**


## THE SPECIFICATION OF THE MARKETING INFORMATION IN AGRARIAN SECTOR IN THE MODERN DEVELOPMENT STAGES


The article is taken from the main arasdıma subjects acting in the field of agriculture as a subject. In modern times, the socio-economic development of the Autonomous Republic is of a systematic nature. The work done in this direction in the affected area of agriculture.

The increase in production in the agrarian sector from day to day, its material-technical base of the well-sılasdırılması, continuous reform and transforming the nature of work in this area frmalasır on many factors. Among the activities mentioned component-specific aspects of the implementation of the necessary məlumatlndırma different.

The present stage of development, along with other factors, the availability of information provision also includes the organization of marketing activity. This is the general area of destination, as well as selected individual products in the relevant field of work and services can be organized.

The article marketing activities of agriculture as one of the principal methods of data acquisition-thirds have been considered. Indeed, the implementation of the study, the use of different situations, it is recommended selecting the components of the marketing system. National and regional scale is considered to be done.

## РЕЗЮМЕ

**Мехти Багиров**

## СПЕЦИФИКА ИСПОЛЬЗОВАНИЯ МАРКЕТИНГОВОЙ ИНФОРМАЦИИ В СЕЛЬСКОМ ХОЗЯЙСТВЕ НА СОВРЕМЕННОЙ СТАДИИ РАЗВИТИЯ

В статье основным объектом исследования выбраны субъекты, действу-ющие в аграрном секторе. Социально-экономическое развитие автономной республики на современном этапе носит сстемный характер. Проводимые в этом направлении работы не обошли стороной и сельскохозяйственную от-расль.

Повседневный рост производства в сельском хозяйстве, улучшение его материально-технической базы, проводимые реформы и работы трансформаци-онного характера формируются на основе сществующих многочисленных фак-торов. Среди повествуемых компонентов проведение необходимых работ по информативности отличается своими специфичными чертами.

На современной стадии развития сушествование информационного обеспе-чения наряду с другими факторами воспроизводит в себе и организацию марке-тинговой деятельности. Эта деятельность может быть организована как по общему профилю отраслей, так и внутри отрасли по индивидуальным товарам, работам и услугам.

В статье маркетинговая деятельность рассматривается как один из спосо-бов по получению информации в сельском хозяйстве. В проведении исследова-ния рекомендуется выборочное использование составных компонентов марке-тинговой системы по различным ситуациям. Проводимые работы включают в себя общереспубликанские и региональные масштабы.

NDU-nun Elmi Şurasının 19 oktyabr 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 02).
Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

**KƏMALƏ TƏHMƏZBƏYOVA**
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 336**

# İNFRASTRUKTUR AQRAR SAHƏLƏRİN TƏKANVERİCİ QÜVVƏSİDİR

**Açar sözlər**: *bazar münasibətləri , region, infrastruktur, xidmət, son məhsul, əmək sərfi.*
**Key words**: *market relations: region, infrastructure , service, final product , labor expence.*
**Ключевые слова**: *рыночное отношения, регион, инфраструктура, услуга, конечная продукция, затрады труда.*

İnsan yarandığı bir dövrdən tələb onunla qoşa mövcud olmuşdur. Lakin ilkin mərhələdə tələbin mahiyyəti açıqlanmamış insan idrakının inkişafında yeri və rolu dərk edilməmişdir. Qısaca desək, insan öz maddi və mənəvi tələbatını ödəmək üçün primitiv istehsala girmiş sərf etdiyi əmək onun nitqini və düşünmək qabiliyyətini inkişaf etdirmişdir. Zənnimcə ilkin tələbin iki istiqamətini fərqləndirsək yerinə düşər. Yəni insan tələbatı onun yaşadığı zaman və şəraitə uyğun şəkildə formalaşır desək yanılmarıq. Qədim insanların birinci tələbi fizioloji , yəni yeməyə, geyməyə və s. olan tələbi. İnsanların fizioloji tələblərini, meşə və heyvan mənşəli qidalarla ödəmiş və onları təbiətdən hazır şəkildə yəni yalnız toplamağa, yığmağa əmək sərf etməklə almışdırlar.

İkinci vəhşi heyvanlardan və təbiət hadisələrindən qorunmağa olan tələbi. Əvvəlcə buna qaçmaq qayalara dırmaşmaq, daşla vurmaq , mağaralarda gizlənməklə nail olmuşdular. İnsanların artımı onların qidaya , geyim və qorunmaya olan tələbatlarını da artırmışdır. Beləliklə, insanlar öz tələbatlarını ödəmək məqsədi ilə istehsala başlamış və tədricən öz düşüncə və davranışlarına uyğun olaraq primitiv infrastruktur yaratmışdırlar. Maddi tələbatın ödənilməsinə olan ehtiyac onları bir çox işlərə vadar etmiş -cığırlar salmış, qayalara dırmanmaq ( ov ovlamaq ) üçün bəlli istiqamətlər seçmiş, daş əmək alətləri yaratmış, vəhşi heyvanları əhilləşdirib, onların südündən ətindən dərisindən istifadə etmiş, onlar üçün tövlələr yaratmışdırlar. İkinci təbii hadisələrdən və vəhşi heyvanlardan, küləkdən, soyuqdan, yağışdan və başqa qəbilələrdən qorunmaq məqsədilə qamışdan, palma yarpaqlarından komalar, sümük, daş alətlər düzəltmiş, onları saxlamaq üçün bəlli yerlər seçmişdirlər.

Üçüncü dincəldikləri və ya ovdan qabaq müəyyən ayinlər, rəqslər, şənliklər icra etmişdirlər ki, bu zaman onlar müxtəlif geyimlərdən, qablardan, alətlərdən istifadə edərək öz mənəvi təlabatlarını da ödəmişdilər. Beləliklə, insan şüurunun inkişafı onun mənəvi təlabatını formalaşdırmışdır. Yemək, geymək, qorunmaq, ayin, rəqs, şənliklər üçün istifadə olunan komalar sümük, daş alətlər, qablar, silahlar.ov və gəzinti üçün cığırlar, yollar o zamankı infrastruktur rolunu oynamışdır. Deməli, hər hansı bir sahənin inkişafında və məkandan asılı olmayaraq infrastruktur böyük rol oynamışdır. Zaman keçdikcə insan inkişaf etmiş, çoxalmış onun tələbi də genişlənərək, şaxələnərək, müxtəlif növlü təlabatlar yaratmışdır. Lakin XXI əsrdə də fizioloji tələb ön planda saxlanılır. Çünki insan öz fiziki gücünü bərpa etmədən digər tələblərin ödənilməsi üçün çalışa bilməz. Bu gün dünyamızda baş verən qlobal dəyişikliklər surətli insan artımı ilə müşayət olunur. Bu məqsədlə statistikaya nəzər salsaq görərik ki, bizim eranın əvvəllərində insanların sayı 150-200 milyon. bizim eranın 1000-ci ilində təqribən 300 milyon, 1850-ci ildə bir milyard,1930-cu ildə iki milyard, 1960-cı ildə 3 milyard,1976-cı ildə isə 4 milyarda çatmış hazırda 7 milyarda çatmaqdadır. (3-244s) .

Dünya əhalisi və təbii sərvətlər ölkələr üzrə qeyri-bərabər yerləşmişdir. Buna baxmayaraq hər bir ölkə ən azından öz əhalisinin fizioloji təlabatının ödənilməsində fəal iştirak etməlidir. İkinci dünya müharibəsindən sonra əhalinin surətli artımı qeydə alınır. Bu artan tələbi formalaşdırır. Təlabatın ödənilməsi dünya ölkələri üzrə qeyri-bərabər xarakter almışdır. Yəni dünyada aclıq çəkən əhali müəyyən regionlar üzrə çoxluq təşkil etməkdədir. Məsələn, aclıq çəkən əhalinin ərzaq

məhsullarına olan tələbatını ödəmək məqsədilə 1944-1945-ci illərdə yaranmış BMT-nin tərkibində FAO təşkilatı yaradıldı. Bu təşkilat üzv ölkələr üçün ərzaq təhlükəsizliyi proqramı işləyib hazırladı. Əslində FAO təşkilatının məqsədi dünya miqyasında aclıq çəkən əhalinin ərzaq məhsullarına olan tələbatını ödəmək və eyni zamanda bəzi zəif inkişaf etmiş ölkələrdə aclıq və yoxsulluqla mübarizədə bu ölkələrə yardım göstərməkdən ibarətdir(2-168). Müxtəlif qlobal təşkilatlar, hökumətlər tərəfindən görülən tədbirlər nəticəsində, II Dünya müharibəsindən sonra , dünyada ərzaq istehsalı artan əhali istehlakını 2 dəfə ötüb keçmişdir. Lakin bu ərzağın 60-70%-i inkişaf etmiş ölkələrin payına düşür. İnkişaf etməkdə olan və zəif inkişaf etmiş ölkələrdə dünya əhalisinin böyük hissəsi toplandığı halda ərzaq istehsalı məhsulları bu ölkələrdə 40-30% təşkil edir. Beynəlxalq miqyasda ərzaq probleminə diqqət yetirilməsinin nəticəsidir ki, BMT -nin təşəbbüsü ilə 1996-cı ildə " Ümumdünya ərzaq təhlükəsizliyi haqqında Roma deklarasiyası " qəbul edilmişdir. 2000-ci ilin sentyabrında Nyu-Yorq şəhərində BMT tərəfindən 91 ölkənin dövlət başçılarının iştirakı ilə minilliyin Samiti keçirilmişdir. Bu sammitdə möhtərəm Heydər Əliyev də iştirak etmişdir(2-20s). Azərbaycan "1996-cı ildən FAO təşkilatının üzvüdür və 2000-ci ildə Ulu Öndər tərəfindən ölkə əhalisinin ərzaq məhsullarına olan tələbatını yerli istehsal hesabına ödəmək məqsədi ilə ərzaq təhlükəsizliyi haqqında proqram qəbul etmişdir. Naxçıvan Muxtar Respublikasının qəbul etdiyi "2005-2010-cu illərdə Naxçıvan Muxtar Respublikasında kartofçuluğun inkişafına dair Dövlət Proqramı", Naxçıvan Muxtar Respublikasının 2009-2013-cü illərdə sosial iqtisadi inkişafın dövlət Proqramı", "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" və "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramında Muxtar Respublika əhalisinin ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə əlaqədar bir çox məsələlər öz əksini tapmışdır.

2012-ci il aprel ayının 19-da Bakıda keçirilən BMT-nin ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Avropa üzrə 28-ci regional konfransı keçirilmişdir. Konsfrasda iştirak edən Prezident İlham Əliyev demişdir ki, " Biz qarşıya hədəf qoymuşuq ki, özümüzü əsas ərzaq məhsulları ilə tam şəkildə təmin etməliyik. Bu istiqamətdə çox ciddi addımlar atılmışdır. Hazırda biz özümüzü əsas qida məhsulları ilə böyük dərəcədə təxminən 80-90% səviyyəsində təmin edirik”.

Sonra FAO təşkilatının rəhbəri qeyd etmişdir ki, ildə 3 milyard ton ərzaq məhsulu xarab olmaya məruz qalır. Bu əsasən inkişaf etmiş ölkələrin payına düşür.

Əslində bu qlobal infrastrukturun (daşınmanın çatdırılmanın zəifliyi) zəif qiymətlərin baha olması ucbatından baş verir. Əslində ərzaq məhsullarının yeni alınmış sortları xarab olmaya, çürüməyə qarşı çox davamlıdır. Qeyd edək ki, bu problem yalnız qlobal təşkilatların və üzv ölkələrin birgə səyləri nəticəsində aradan qaldırıla bilər. Zənnimcə aşağıdakı bəzi məsələlər qlobal ərzaq təhlükəsizliyinin aradan qaldırılmasında müəyyən rol oynaya bilər.

1. FAO təşkilatının dəstəyi ilə üzv ölkələrdə müəyyən kənd təsərrüfatı məhsullarının, sortların yetişdirilməsinə və ixtisaslaşdırılmasına dəstək
2. İnkişaf etməkdə olan və zəif inkişaf etmiş ölkələrdə kənd təsərrüfatı infrastrukturunun yaradılmasına innovativ kənd təsərrüfatı məhsullarının yetişdirilməsinə maddi və mənəvi dəstək.
3. İxtisaslaşdırılmış məhsulların mübadiləsi məqsədilə üzv ölkələrin səyləri ilə birgə regionlar arası yolların (hava, su, dəmir, şose və s.) bərpası və yenilərin yaradılması, daşınma xərclərinin münasibliyinin təşkili məqsədilə ƏDV və bəzi rüsumların aradan qaldırılması.
4. Qlobal iqtisadi təhlükəsizliyin və o cümlədən ərzaq təhlükəsizliyinin aradan qaldırılması məqsədi ilə səylərin birləşdirilməsi
5. Terorizmlə mübarizə, islama fobiyanın aradan qaldırılması, dünyada siyasi sabitliyə nail olunması.
6. Qlobal təhlükə törədən xəstəliklərin uşaq ölümlərinin və ekoloji təhlükənin aradan qaldırılması məqsədi ilə beynəlxalq səviyyədə təkliflərin dinlənilməsi və tədbirlərin görülməsi.
7. Ölkələrdə və qlobal aləmdə multikulturalizmin təşkili və sərhəd pozuntularına qarşı birgə mübarizə.

8. İqtisadi, siyasi və sosial vəhdətin qlobal səviyyədə təşkili.

Bu gün Azərbaycan dünya ölkələrinin təcrübə mənbəyinə çevrilmiş iqtisadi sosial o cümlədən multikulturalizm ( müxtəlif millətlərin ölkəmizdə heç bir ayrı seçkilik görmədən dinc yanaşı yaşaması) siyasəti yeridir və ölkəmiz terorizmlə mübarizədə öncül sıralarda yer alır. Böyük iqtisadi siyasi lider olan cənab İlham Əliyevin səyləri nəticəsində ölkə əhalisinin əmin amanlığı təmin olunmuş və bu siyasət davamlı olaraq inkişaf etdirilir. Lakin sərhədləri aşan Azərbaycanın 20% torpaqlarını işğal edən erməni terorizmlə mübarizədə və torpaqlarımızın sülh yolu qaytarılmasında qlobal təşkilatların o cümlədən BMT,AŞ,ATƏT -in dəstəyinə böyük ehtiyac var. Siyasi və iqtisadi sabitliyə nail olunması ölkədə ərzaq təhlükəsizliyinin və ölkə infrastrukturunun , o cümlədən kənd təsərrüfatı infrastrukturunun yaradılmasına böyük tövhələr vermiş və verməkdədir.

Əhalinin ərzaq məhsullarına olan tələbinin tam ödənilməsi məqsədi ilə müəyyən şərtlərə əməl olunmalıdır.

1). Əhalinin təlabatının yerli kənd təsərrüfatı malları ilə ödəmək üçün regionlar üzrə təbii iqlim şəraiti nəzərə alınmaqla ixtisaslaşmanın aparılması
2). Kənd təsərrüfatı infrastrukturunun bərpası və yeniləşdirilməsi, innovatik tədbirlərin görülməsi və yeni texnologiyaların ölkəyə gətirilməsinin təşkili
3). Məhsuldarlığın artırılması məqsədilə resurs mənbələrindən həm də ali, orta və peşə ixtisaslı kadrlardan səmərəli istifadənin təşkili
4). Kəndin sənayeləşməsi və ərzaq bazarlarının təşkili hesabına kənd əhalisi ilə şəhər əhalisi arasındakı fərqlərin aradan qaldırılması
5). Əhalinin ərzaq məhsullarına olan tələbinin tam ödənilməsi məqsədilə məhsuldar qüvvələrin yerləşdirilməsi, yeni ehtiyat mənbələrinin tapılması, su təhcizatının, infrastrukturunun yaxşılaşdırılması.
6). Kənd təsərrüfatı sahələrinin idarə olunması və tənzimlənməsi məqsədi ilə hüquqi bazanın yaradılması
7). Kənd təsərrüfatı sahələrinə daxili və xarici investisiya axınlarının təşkil olunmasına dövlət dəstəyi
8). Sahibkarlara dövlət ( maddi-mənəvi ) dəstəyinin səmərəli təşkili.

1991-ci ildən başlayaraq ölkədə kənd təsərrüfatı məhsullarının istehsal surətlə aşağı düşmüş , bəzi sahələrdə isə 50%-i ötüb keçmişdir. 1993-cu ildən torpaq islahatları aparılmışdır. Aqrar islahatlar , aqrar infrastrukturla tamamlanmışdır. Bu gün Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı ilə onun emalı arasında güclərin tarazlaşdırılması yeni səmərəli infrastrukturun yaradılmasını tələb edir. ( 1s-271). Məhz bu gün bir çox problemlərin uğurlu həllinin nəticəsidir ki, son 10 ildə (2004-2015) kənd təsərrüfatının ümumi məhsulu Azərbaycan üzrə 29, 1%,tərəvəz 17,8 %, bostan məhsulları 20,5 %, meyvə və giləmeyvə 49,1 %,üzüm istehsalı 2,4 % artmışdır.( 4-57 s).Qeyd etmək yerinə düşər ki, bu gün Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatının düzgün innovatik infrastrukturunun yaradılmasına səylərin artırılmasının nəticəsidir ki, hər hektardan yığılan taxılın məhsuldarlıq səviyyəsinə görə Naxçıvan Muxtar Respublikası, Azərbaycanın orta göstəricilərini, 4 kq qabaqlayaraq 3-cü yeri tutmuşdur. Bu gün iqtisadiyyatın prioritet sahələrindən olan kənd təsərrüfatı , turizm və informasiya və kommunikasiya sisteminin təşkili və genişləndirilməsi ölkəmizin yeni uğurlara qədəm qoymasına səbəb olmuşdur. Qlobal "Doninq" təşkilatının məlumatlarına görə Azərbaycan dünya dövlətləri arasında rəqabətliliyinə görə 37 -ci yerdən 35-ci yerə layiq görülmüşdür. Bu onu göstərir ki. Azərbaycan 12 iqtisadi, siyasi və sosial və s. göstəricilər üzrə surətlə irəliləməkdədir. Məhz bu irəliləyişlərin əsl səbəblərindən biri ölkə üzrə kənd təsərrüfatı, sənaye, bazar, sosial və s. infrastruktur layihələri uğurla həyata keçirilməsidir.

Hazırda kənd təsərrüfatı üzrə infrastruktur layihələrin istiqamətləri aşağıdakılardan ibarətdir.

1. Kənd təsərrüfatı məhsullarının səmərəli satışı məqsədi ilə daxili və xarici yol infrastrukturunun bərpası və genişləndirilməsi
2. Kənd təsərrüfatı məhsulları tədarükünün məqsədi ilə innovatik texnologiyaların respublikaya gətirilməsi və itkisiz daşınmasının təşkili .

3. Məhsulların kəmiyyət və keyfiyyətcə qorunmasının təşkili üçün anbar infrastrukturunun regionlarda, istehsal rayonlarında yaradılması.
4. Əkin sahələrinin genişləndirilməsi məqsədləri üçün , şoran torpaqların yuyulması məqsədi ilə bu sahədə də sahibkarların yaradılmasına və yeni texnologiyalarla təmin olunmasına dəstək
5. Aqrolizinq ASC -rin yeni texnologiyalar gətirməsinə kömək və Aqroparkların yaradılmasına dəstək və s.

Hazırda Naxçıvan Muxtar Respublikası 2014-2018-ci ilin dövlət proqramını uğurla icra etməkdədir. Hazırda Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatın prioritet istiqamətlərinin şaxələndirilməsi digər sahələrlə yanaşı kənd təsərrüfatının da yeni innovasiyalar əsasında inkişafını, müasir infrastrukturunun yaradılmasını , texnologiyalarla təminatını , bir sözlə , kənd təsərrüfatının sənayeləşdirilməsini strateji məqsəd kimi qarşıya qoymuşdur. Naxçıvan Muxtar Respublikasının bu sahədə atdığı uğurlu addımlar Prezident İlham Əliyev tərəfindən hazırlanan" "Azərbaycan-2020 Gələcəyə baxış" inkişaf konsepsiyasına uğurlu lövhədir.

## ƏDƏBİYYAT


1. Abbasov T.A. Aqrar bazar və sahibkarlığın regional inkişaf istiqamətləri , Bakı- 2006
2. Əhmədov N.H.Naxçıvan iqtisadiyyatı inkişaf yollarında, Bakı, Elm-2005
3. Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatı, Naxçıvan-2015.s 272
4. Hacızadə E.Sosiallaşan iqtisadiyyat, Bakı-2006.s.509
5. Abbasov. T.A.Ərzaq təhlükəsizliyi və kənd təsərrüfatının prioritet istiqamətlərindəndir, Bakı-2011
6. Bağırov M.S. Kənd təsərrüfatında istehsal və satış münasibətlərinin formalaşdırılmasının vəzifələri və xüsusiyyətləri, NDU, Qeyrət -2014



## ABSTRACT

**Kamala Tahmazbeyova**

The importance and role of the infrastructure is explained in the modern stage of the social-economy proqress in the agrarian sector and supply for its intensive rising. It is noted that increasing production , improving its efficiency influence manufacture and social -infrastructure. That , s why the scientific formation and its efficient activity must be considered.In agrarian sector infrastructure is divided into manufacture and service parts. The infrastructure in manufacturing process is called manufacture , in social sector is called social. They have to be materialized correctly for getting social-economy success in agrarian sector.



## РЕЗЮМЕ

**Камала Тахмазбехова**

В статье раскрываются роль и значение инфраструктуры в обуспечение интенсивного роста аграрной отрасли страны на современном этапе ее социально-экомического развития. Отмечается , что производственная и социальная инфраструктура оказывает решающее влияние на увелечение производства в огарной отрасли и повышение его эффективности.

В связи с этим необходимо удельят особое внимание научно обоснованному формираванию и обоспечению эффективного функчионирования инфраструктуры. Инфраструктура в аграрной отрасли подраздельяется на производственную и обслуживааюшую. Инфраструктура, используемая в процессе производства, называется производсвенной, а инфраструктура , привликаемая в социальную сферу-социальной. Для достижения высоких социально-экономицеских резульеаеов в аграрной отрасли необходимо обеспецивать правильное использование инфраструктуры.



NDU-nun Elmi Şurasının 19 oktyabr 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 02).
Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

**RƏŞADƏT YAQUBLU**
*Naxçıvan Dövlət Universitetinin*

**UOT:330**

# DAVAMLI İNKİŞAF VƏ YOXSULLUQ PROBLEMİ: SOSIAL-FƏLSƏFİ YANAŞMA

**Açar sözlər:** *davamlı inkişaf, sosial problemlər, yoxsulluq, tələbat*
**Key words:** *sustainable development, social problems, poverty, need*
**Ключевые слова:** *устойчивое развитие, социальные проблемы, бедность, потревность*

Azərbaycanda davamlı inkişaf konsepsiyasına keçidin əsas məqsədlərindən biri yoxsulluq probleminin azaldılması olmuşdur. Təbii olaraq ortaya belə bir sual çıxır: davamlı inkişaf və yoxsulluq problemi arasında hansı əlaqə mövcuddur? Əvvəla qeyd edilməlidir ki, bütövlükdə davamlı inkişaf konsepsiyasının üç tərkib hissəsindən biri sosial problemlərdir. Ümumiyyətlə sosial problemlər hər hansı bir cəmiyyətdə bu və ya digər dərəcədə mövcud olan yoxsulluq problemini də özündə ehtiva edir. Məsələyə kompleks yanaşdıqda davamlı inkişaf konsepsiyasına keçid prosesində yoxsulluq probleminin də həll edilməsi zərurəti burada aşkar görsənir.

İkincisi, konsepsiyada qeyd olunmuşdur ki, davamlı inkişaf bütün insanların bərabər səviyyədə ən zəruri tələbatlarının ödənilməsini tələb edir. Eyni zamanda, əgər qısa şəkildə şərh etsək davamlı inkişafın başlıca məqsədi gələcək nəsillərin payına toxunmadan, indiki nəslin tələbatının ödənilməsidir. Bu mənada davamlı inkişaf bir-biri ilə sıx bağlı olan iki mühüm anlayışı özündə ehtiva edir:

1) Tələbat anlayışı, o cümlədən əhalinin yoxsul təbəqəsinin mövcudluğu üçün zəruri olan əsas tələbat anlayışı;

2) Daha çox texnoloji vəziyyət və cəmiyyət həyatı ilə, eyni zamanda ətraf mühitin indiki və gələcək nəsillərin tələbatını ödəyə bilmək qabiliyyəti ilə şərtlənən məhdudlaşdırma anlayışı.

Yuxarıda göstərilən bu anlayışlardan göründüyü kimi, davamlı inkişafın əsas vəsifəsi insanın tələbat və istəklərinin ödənilməsi ilə ifadə olunur ki, bu da yoxsulluqla birbaşa əlaqəlidir. Ona görə də davamlı inkişaf və yoxsulluq problemləri bir-biri ilə qarşılıqlı şəkildə əlaqəlidir. Bu baxımdan da müvafiq siyasi, iqtisadi və sosial məsələlərin kompleks şəkildə tədqiq olunması daha məqsədə uyğundur (1.s.63).

Mövcud problemin təhlili ilk növbədə yoxsulluq anlayışının məzmun etibarilə müəyyənləşdirilməsini tələb edir. Müasir ədəbiyyatlarda yoxsulluq anlayışı həyat səviyyəsi anlayışının sinonimi kimi də işlədilir. Həyat səviyyəsi sosial-iqtisadi koteqoriya olub cəmiyyətin və sosial inkişafın meyarı olmaqla, müasir şəraitdə iqtisadi islahatların həyata keçirilməsində mühüm konseptual istiqamət kimi çıxış edir. Həyat səviyyəsi ölkə iqtisadiyyatının dinamikası və onun keyfiyyətinin son nəticəsi kimi başa düşülür. Həyat səviyyəsinin səciyyəsi həyat keyfiyyəti, maddi rifah, yoxsulluq göstəriciləri ilə müəyyənləşir, bu göstəricilərin hər birinin həyat səviyyəsinin formalaşmasında xüsusi və qarşılıqlı əlaqədə təsiri mövcuddur. Həyat səviyyəsinin əsas göstəriciləri aşağıdakılardır:

1) ÜDM-in həcmi, artımı, onun adambaşına düşən miqdarı;
2) ÜDM-in tərkibində, istehlak fondunun ümumi həcmi və onun adambaşına düşən səviyyəsi;
3) Əhalinin gəlirləri, xərcləri, minimum əməkhaqqı, orta əməkhaqqı, bəzi məhsulların istehlakının natural və dəyər göstəriciləri (çörək, ət, su və s.);
4) Səhiyyə, təhsil sahəsində istehlak hər nəfərə düşən iqtisadi və sosial göstəricilər. Ekoloji mühit, təbii artım, orta ömür, təhsil və s.
5) Təhlükəsizlik göstəriciləri (2.s.83-84).

Yoxsulluq anlayışının həyat səviyyəsi anlayışı ilə eyniləşdirilməsinə baxmayaraq, onun ayrıca tədqiqinə ehtiyac aradan çıxmışdır. Çünki, yuxarıdakı iqtibasdan da görünür ki, həyat səviyyəsi məzmun etibarilə yoxsulluqdan daha genişdir. Eyni zamanda yoxsulluq anlayışının tarixin müxtəlif dövrlərində fərqli dəyərləndirilməsi onun mahiyyəti üzərində sosial-fəlsəfi diskursu zəruri edir.

Qeyd etmək lazımdır ki, yoxsulluq sosial fenomen olaraq sənaye cəmiyyətində təzahür etmişdir. Lakin, bu heç də o demək deyil ki, o vaxta qədər insanlar rifah içərisində yaşamış, heç bir maddi çətinlik görməmişlər. Tarixin müxtəlif mərhələlərində bəşəriyyət aclıq və yoxsulluqla nəticələnən edən çoxsaylı fəlakətlərlə qarşılaşmışdır. Məsələ ondadır ki, yoxsulluq insanların şüurunda nəinki problem kimi əksini tapmamış, hətta bəzən müsbət hal kimi dəyərləndirilmişdir. Hələ Qədim Yunanıstanda kiniklər məktəbinin Antisfen, Sinoplu Diogen kimi nümayəndələri yoxsulluğu vəsf etmiş, var-dövləti insan xoşbəxtliyinə əngəl saymışlar.

Ümumiyyətlə, sənayeyəqədərki, yaxud marksizm terminologiyası ilə desək kapitalizməqədərki cəmiyyətlərdə yoxsulluq normal, hətta ideal mövcudluq forması hesab edilmişdir. Bu da öz əksini "yoxsul" rahib təkşilatlarının yaranmasına və yoxsul həyat tərzinin kanonlaşdırılmasında tapmışdır. Başqa sözlə desək "ehtiyac" həyat şəraitini mənəvi baxımdan nəcibləndirən amil kimi qəbul edilmişdir (3.s.474).

Bəzi fəlsəfi və sosioloji təlimlərdə yoxsulluğun qəbul edilməsi, iqtisadi inkişafa az əhəmiyyət verən, lakin zahidliyi təqdir edərək maddi deyil, mənəvi zənginləşməyə əsaslanan dəyərlər sistemində öz əksini tapmışdır. Macar sosioloqu K.Polaninin fikrincə, belə münasibət fərdin şəxsi zənginləşməsi üçün yox, cəmiyyətdə öz imtiyazlı movqeyini qurmaq məqsədilə fəaliyyət göstərdiyi mübadilə və bölgünün qeyri-bazar sisteminin fərqləndirici xüsusiyyəti olmuşdur. Maddi predmetlər fərd üçün bu məqsədə xidmət etdiyi qədər əhəmiyyət daşımışdır. Yaşamaq uğrunda mübarizənin kollektiv həll olunması, ayrıca insanın iqtisadi maraqları isə nadir hallarda ön plana çıxarılmışdır (4.s.58).

Yalnız XVIII əsrdən sonra yoxsulluq probleminə münasibət dəyişmişdir. XIX əsrdə formalaşmağa başlamış sosilogiya elmi yoxsulluğu insan, yaxud cəmiyyətin mahiyyətində olan mövcud bir fakt kimi dəyərləndirmişlər.

Beynəlxalq praktikada yoxsulluğun müəyyənləşdirilməsinin üç konsepsiyası mövcuddur: mütləq, nisbi və subyektiv.

Mütləq yoxsulluq konsepsiyası yoxsulluq həddi anlayışı ilə sıx bağlıdır. Yoxsulluq həddi-nəzərdə tutulan gəlirlərin elə səviyyəsidir ki, fərdin ondan az gəlir əldə etməsi onun yoxsulluğu sayılır. Mütləq yoxsulluq gəlirləri, yaxud istehlak səbəti yoxsulluq həddindən aşağı olan insanların sayı ilə ölçülür. Dünya Bankı mütləq yoxsulluq həddini (2007-ci il üçün) belə müəyyənləşdirmişdir: fərdin gündəlik gəlirləri 1,25 ABŞ dollarından azdırsa, onda fərd mütləq yoxsul hesab edilir. 2015-ci ildə isə müvafiq rəqəm 1,9 ABŞ dolları qəbul edilmişdir.

Nisbi yoxsulluq mütləq yoxsulluğa qarşı qoyulur. Nisbi yoxsulluq ölçüsü nisbi yoxsulluq həddinin müəyyənləşdirilməsi ilə bağlıdır və əhalinin ümumi gəlirlərinin adam başına düşən miqdarının mütləq yoxsulluq həddi ilə müqayisə nəticəsində təyin edilir.

Subyektiv yoxsulluq konsepsiyası isə belə bir müddəaya əsaslanır ki, bu zaman fərd özü müəyyənləşdirir: o nə qədər yoxsuldur.

Azərbaycan iqtisadçısı prof. Ə.Q.Əlirzayevin fikrincə yoxsulluq nisbi göstəricidir və proqram xarakterli tədbirlərin nəticəsində həll olunur. Müasir şəraitdə yoxsulluq həddi və bu həddə yaşayanların ümumi sayı, onların azalması tempi proqram xarakterli dövlət siyasətinin əsasını təşkil edir. Yoxsulluğun həddi adambaşına düşən gəlirlərlə qiymətləndirilir. Məsələn, Dünya Bankının hesablamalarına görə hər hansı bir ölkədə yoxsulluğun aşağı səviyyəsinin əsas göstəricisi həmin ölkədə mövcud olan yoxsul ailələr sayılır. Yoxsulluğun aradan qaldırılması dövlətin prioritetləri və proqramları üçün əsas konsepstual inkişaf istiqamətidir.

Azərbaycan Respublikasında yoxsulluqla mübarizə dövlətin sosial siyasətinin aparıcı istiqamətlərindən biri olmuşdur. Belə ki, müstəqilliyini əldə etdikdən sonra digər ittifaq respublikalarında olduğu kimi Azərbaycan Respublikasında da müəyyən çətinliklər, iqtisadi problemləryaranmışdır. Lakin, bu çətinliklərə baxmayaraq, ölkənin malik olduğu təbii

sərvətlərindən və iqtisadi potensialından səmərəli istifadə nəticəsində surətli iqtisadi inkişafa nail olunmuşdur. Lakin bununla belə yoxsulluq kimi fundamental və kompleks səciyyə daşıyan mühüm sosial problem, heç də həmin ərəfədə tam şəkildə aradan qaldırılmamışdır. Bunun əsas səbəblərindən biri də yoxsulluğun lokal deyil, qlobal səciyyə daşıması ilə bağlıdır.

Belə ki, XXI əsrin ilk illərində beynəlxalq qurumların verdiyi məlumata görə dünya dövlətlərinin təqribən 70%-i yoxsulluq problemindən əziyyət çəkmişdir. Həmin dövrün statistikasına görə dünyada 1,2 mlrd. insan yoxsulluqdan əziyyət çəkmiş, təqribən 2 mlrd. insanın gündəlik qazancı 1 ABŞ dollarından aşağı olmuşdur. Bunun əsas səbəblərindən biri dünya üzrə gəlirlərin qeyri-bərabər bölgüsü olmuşdur. Təsadüfi deyil ki, bu ərəfədə qlobalistika çərçivəsində bir sıra nəzəriyyələr yaranmışdır. Belə nəzəriyyələrdən biri də “Qızıl milyard” nəzəriyyəsidir. Bu nəzəriyyənin mahiyyəti budur ki, dünya əhalisinin yalnız 20%-i maddi nemətlərdən geniş istifadə və istehlak edir, qalan 80%-i isə müxtəlif fərqlərlə tələbatlarını tam şəkildə ödəyə bilmirlər.

Bu və buna bənzər bir çox səbəblərdən, o cümlədən Sovetlər İttifaqının dağılması ilə sosializm təsərrüfat sisteminin böhranı nəticəsində 1991-1994-cü illərdə əhalinin həyat səviyyəsi 3,7-4 dəfə aşağı düşmüşdür. Respublikamızda əhalinin maddi və mənəvi tələbatının ödənilməsi səviyyəsinin müqayisəli təhlili göstərir ki, həm müxtəlif əhali kateqoriyaları, həm də ayrı-ayrı regionlar üzrə sosial-iqtisadi durum arasında kəskin disproporsiyalar mövcuddur. Bu isə ümumdaxili məhsulun bölgü sisteminin yetkin olmaması ilə şərtlənən qeyri-harmonik (tarazlaşdırılmamış) inkişafın bariz nəticəsi idi. Təbii ki, zəngin yeraltı və yerüstü sərvətlərə malik olan Azərbaycanda belə vəziyyət uzun sürə bilməzdi və bütün bunlar təxirəsalınmadan genişmiqyaslı sosial-iqtisadi islahatlara başlanmasını zərurətə çevirmişdir. Məhz bu səbəbdəndir ki, 1994-cü ildən başlayaraq, ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanda əsas məqsədi ölkədə yoxsulluğun azaldılması və davamlı inkişafın təmin edilməsi olan çoxşaxəli sosial iqtisadi islahatlar həyata keçirilməyə başladı.

Tədqiqatçıların araşdırmalarına görə, həmin dövrdə “... xüsusən 1996-cı ildən başlayaraq ölkəmizdə uğurlu həyata keçirilən hüquqi və iqtisadi islahatlar nəticəsində insan inkişafı ilə əlaqədar nəzərə çarpan nailiyyətlər əldə edilmişdir. Bu nailiyyətlərdən biri iqtisadi sahədə baş verən dirçəlişin göstəricisi olan istehsal edilmiş Ümumi Daxili Məhsulun (ÜDM-nin) artım dinamikası ilə əlaqədardır. Məsələn, əvvəlki illərə nisbətən ÜDM 1996-cı ildə 1,3%, 1997-ci ildə 5,8%, 1998-ci ildə 10%, 1999-cu ildə 7,4%, 2000-ci ildə 11,4% olmuşdur. Bu statistik göstəricilər iqtisadi artımın son illərdə davamlı xarakter daşıdığını göstərir ki, bu da insan inkişafının əsas aspektlərindən biridir”(5.s.17).

Qeyd edək ki, iqtisadi tədbirlərdən başqa həmin vaxtlarda Ulu Öndər Heydər Əliyevin şəxsi təşəbbüsü ilə ölkəmizdə yoxsulluğun azaldılması ilə bağlı bir çox siyasi-hüquqi tədbirlərdə həyata keçirilmişdir. Bu tədbirlərdən ən vacibi “Yoxsulluğun Azaldılması və İqtisadi İnkişaf üzrə Dövlət Proqramı”nın hazırlanması ilə bağlı olan Heydər Əliyevin 2 mart 2001-ci il tarixli 636 saylı sərəncamını göstərmək lazımdır.

Bundan başqa Yoxsulluğun azaldılması ilə bağlı digər siyasi qərar isə Ümumilli liderin təşəbbüsü ilə Respublika Nazirlər Kabineti tərəfindən “Azərbaycanda Davamlı İnsan İnkişafı strategiyası” nın hazırlanması haqqında 30.10.2001-ci il tarixli, 198 saylı sərəncamın verilməsi olmuşdur. Göstərilən bu qərarlar sonrakı illərdə ölkəmizdə yoxsulluğun azaldılması sahəsində siyasi-hüquqi cəhətdən mühüm rol oynamış və davamlı inkişafın sosial aspektlərinin inkişaf etdirilməsində strateji cəhətdən başlanğıc rolu oynamışdır.

Ölkəmizdə davamlı inkişaf və yoxsulluğun azaldılması ilə bağlı Heydər Əliyevin başladığı işi onun layiqli davamçısı prezident İlham Əliyev uğurla davam etdirmiş və indi də davam etdirməkdədir.

İlk növbədə Azərbaycanda “Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə dövlət proqramında (2003-2005)” qarşıya qoyulmuş hədəflər və proqramın gerçəkləşdirilməsi nəticəsində əldə olunmuş uğurlara diqqət yetirək.

Qeyd edək ki, yuxarıda göstərilən Dövlət Proqramda o dövrdə Azərbaycanda mövcud olan yoxsulluq səviyyəsi və onun səbəbləri təhlil edilmiş, yoxsulluğun azaldılması məqsədilə iqtisadiyyatda, sosial sahədə islahatların, institusional dəyişikliklərin əsas istiqamətləri

müəyyənləşdirilmiş, yoxsulluğa daha həssas olan əhali qruplarının, ilk növbədə qaçqın və məcburi köçkünlərin üzləşdikləri problemlərin həllinin zəruriliyi ön plana çəkilmişdir. Yoxsulluğun azaldılması ilə bağlı strategiya iqtisadi siyasətlə bağlı iki mühüm vəzifənin yerinə yetirilməsini nəzərdə tutmuşdur. Birinci vəzifə, makro-iqtisadi sabitliyi qoruyub saxlamaq üçün fiskal və pul-kredit siyasətindən çevik və ehtiyatla istifadə olunmasıdır. İkinci vəzifə, hökümət tərəfindən tarazlı iqtisadi artıma şərait yaradılması olmuşdur. Tarazlı iqtisadi artımın təmin olunması qeyri-neft sektorunun inkişafının təşviq edilməsində və xüsusilə, ölkənin Abşeron yarımadasından kənar regionlarında iş yerlərinin yaradılmasında mühüm əhəmiyyət kəsb edir. Bunun üçün əsas görüləcək işlər aşağıdakı müəyyənləşdirilmişdir:

-makro-iqtisadi sabitlik;
-tarazlı iqtisadi artım;
-insan resurslarının inkişafına investiya qoyuluşu;
-kənd təsərrüfatı və regional inkişaf;
-enerji sektorunda islahatlar;
-turizm; (6. s.30).

Proqramda yoxsulluğun azaldılması üzrə institutsional çərçivə aşağıdakı kimi müəyyənləşdirilib. İnstitusional islahatların əsas strateji məqsədləri aşağıdakı kimi ümumiləşdirilə bilər:

1)dəyişikliklərdə olan iqtisadi mühitdə, o cümlədən tənzimləmə və kommersiya funksiyaları arasında aydın və dəqiq bölgünün aparılması;
2)dövlət idarəetmə sistemində peşəkarlığın və şəffaflığın artırılması;
3)qərarların qəbul edilməsinin əks-mərkəzləşdirilməsi və yerli səviyyədə özünümaliyyələş dirmənin inkişaf etdirilməsi;
4)hüquq-məhkəmə sistemində islahatların aparılması;
5)bütün səviyyələrdə korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi.

Bütövlükdə qəbul edilmiş Proqramda onun əsas məqsədləri elmi cəhətdən əsaslandırılaraq izah edilmiş, eləcə də bu məqsədlərə çatmaq üçün 2003-2005-ci illər ərzində həyata keçiriləcək strateji tədbirlər müəyyən olunmuşdur. Eyni zamanda proqramda Azərbaycan Respublikasındakı mövcud yoxsulluq səviyyəsi geniş təhlil edilmişdir. Bu məqsədlə ölkədəki demoqrafik vəziyyət, şəhər, kənd və regionlar arasındakı mövcud statistik məlumatlar və müşahidələr əsasında tədqiq ediləcək yoxsulluğu yaradan əsas səbəblər açıqlanmışdır. Respublikada yoxsulluq həddini dəqiq müəyyənləşdirmək üçün ayrı-ayrı sahələrlə yanaşı, ölkənin ümumi makroiqtisadi vəziyyəti, əldə edilən nailiyyətlər və qarşıda duran məqsədlər aydın şəkildə izah olunmuşdur. Yoxsulluğun azaldılması istiqamətində qarşıda duran vəzifələrin icra mexanizmini, iştirakçı təşkilatları, o cümlədən həm iqtisadi, həm sosial, həm də idarəetmə sahəsində nəzərdə tutulan islahatları, ayrı-ayrı əhali qrupları üzrə həyata keçiriləcək tədbirləri tam əhatə edən Proqram təkmil bir sənəd idi. Ona görə də çox keçmədi ki, Azərbaycanda yoxsulluğun azaldılması istiqamətində Proqram əsasında həyata keçirilən tədbirlər öz bəhrəsini verdi və ölkədə yoxsulluğun səviyyəsi 2003-cü ildəki 49% i səviyyəsindən, 2007-ci ildəki 16% səviyyəsinə qədər dəyişdi (7.s.71).

Yuxarıda öz əksini tapmış statistik məlumatlardan aydın olur ki, yoxsulluğun azaldılması istiqamətində aparılan işlər və dövlət proqramının həyata keçirilməsi kifayət qədər bəhrə vermiş, müsbət nəticələr əldə edilmişdir. Lakin, nüfuzlu beynəlxalq təşkilatların irəli sürdüyü tələblər və qəbul etdikləri normativ sənədlər ilə tanışlıq onu deməyə əsas verir ki, yoxsulluğun azaldılması təkcə əhalinin gəlirlərinin artması və onların ərzaq təminatının yaxşılaşdırılmasından ibarət deyil. Deməli, yoxsulluq probleminə beynəlxalq sənədlərdə əksini tapmış normativlərdən yanaşdıqda yoxsulluq geniş məna kəsb edir və çoxcəhətli sosial problemlərin həll edilməsindən asılıdır. Bu baxımdan sonrakı illərdə yəni 2003-cü ildən sonra davamlı inkişaf və yoxsulluğun azaldılması ilə bağlı Azərbaycanda xüsusi proqram işlənilib hazırlanmışdır. Belə ki, "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı" adlanan sənədi aşağıda ətraflı təhlil edəcəyik.

2008-ci il 15 sentyabr tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və

davamlı inkişaf Dövlət Proqramı" təsdiq edilmişdir(8). Qəbul edilmiş Proqramda aşağıdakı doqquz əsas strateji məqsəd müəyyən edilmişdir:

- -makroiqtisadi sabitliyi saxlamaqla və qeyri-neft sektorunu tarazlı inkişaf etdirməklə davamlı iqtisadi artımın təmin edilməsi;
- -əhalinin gəlir əldə etmək imkanlarının genişləndirilməsi, yoxsul əhalinin sayının əhəmiyyətli dərəcədə azalmasına nail olmaq;
- -səmərəli sosial müdafiə sisteminin inkişaf etdirilməsi, yaşlı əhalinin, aztəminatlı ailələrin və sosial cəhətdən xüsusilə həssas qurupların sosial riskinin azaldılması;
- -qaçqınların və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması tədbirlərinin sistemli şəkildə davam etdirilməsi;
- -təhsil və səhiyyə sahəsində əsas xidmətlərin keyfiyyətinin yüksəldilməsi və onları əldə etmək üçün bərabər imkanların yaradılması;
- -sosial infrastrukturun inkişaf etdirilməsi, kommunal xidmətlər sisteminin təkmilləşdirilməsi;
- -ekoloji vəziyyətin yaxşılaşdırılması, ətraf mühitin davamlı idarə olunmasının təmin edilməsi;
- -gender bərabərliyinin dəstəklənməsi;
- -institusional islahatların davam etdirilməsi və dövlət idarəetmənin təkmilləşdirilməsi.

Müəyyənləşdirilmiş məqsədlərdən aydın görünür ki, burada cəmiyyət həyatının bütün sferaları diqqət mərkəzinə gətirilmiş, cəmiyyətin davamlı və kompleks inkişafını təmin edəcək tədbirlər planı nəzərdə tutulmuşdur.

Qarşıya qoyulmuş strateji məqsədlərə nail olmaq üçün otuz dörd hədəf müəyyənləşdirilmişdir. Bu hədəflərdən ən mühümləri bunlardır: adambaşına ÜDM-in həcmini iki dəfə artırmaq; yoxsulluğun səviyyəsinin iki dəfə azaldılmasına nail olmaq; işsizlik səviyyəsini 3-4% həddinədək azaltmaq; minumum əməkhaqqını və əmək pensiyalarının baza hissəsinin mütəmadi olaraq artırılmasını təmin etmək; ana ölümü və uşaqlar arasında ölüm hallarının səviyyəsinə görə Avropa ölkələri üzrə orta göstəriciyə çatmaq; bütün əhalini keyfiyyətli içməli su ilə təmin etmək; ölkənin şəhər və qəsəbələrini su təmizləyici qurğular və kanalizasiya xidmətləri ilə tam təmin etmək və s.

Aparılmış uğurlu iqtisadi-siyasət nəticəsində müəyyən irəliləyiş və inkişafa nail olunmuşdur. Xüsusilə sosial sferaya yönəlik tədbirlər bəhrəsini vermiş, müvafiq sferanın davamlı inkişafı istiqamətində ciddi addımlar atılmışdır. Deyilənləri proqramın gerçəkləşdirildiyi bir il ərsində əldə edilmiş uğurlar da təsdiqləyir. Bunun statistik göstəricilərdə necə əksini tapmasına nəzər yetirək: ümumi daxili məhsulun həcmi 9,3% artmış, adambaşına düşən ümumi daxili məhsulun həcmi 3917,3 manat təşkil etmiş, əhalinin gəlirləri 8%, ölkə iqtisadiyyatında çalışan işçilərin orta aylıq əmək haqqı 8,6% artımı, sosial müdafiə və sosial təminat üçün ayrılan büdcə vəsaitlərinin həcmi 24,6% çoxalmışdır. 2010-cu il yanvar ayından növbəti dəfə yaşayış minumumu və uşaq doğulduqda ödənilən müavinətin həcmi artırılmışdır. Bu dövrə qədər ünvanlı sosial yardım proqramı 663 min nəfəri əhatə etmişdir. Proqramın icra edildiyi bir il ərzində ölkədə 74 min yeni iş yeri açılmışdır ki, bunun da 70%-i regionların payına düşür. Bu isə ölkədə icra edilən vahid strateji xətt qarşıda duran sosial problemlərin üzrə gerçəkləşdirilməsinin göstəricisi hesab oluna bilər. İş yerlərinin açılması, məşğulluğun və onun davamlı olaraq yoxsulluğun azaldılmasına müsbət təsir göstərmişdir. Belə ki, bir il ərzində yoxsulluq səviyyəsi 11%-dək azalmışdır (8).

Bütün bu statistik göstəricilər məqalədə tədqiq olunan davamlı inkişafa keçilməsinin yoxsulluğun azaldılmasına müsbət təsir etdiyini göstərən faktlardır. Məhz bu məqamlar mövcud məqalənin nəzəri və praktiki əhəmiyyətinin qarşılıqlı əlaqəsini göstərən şərtlərdir.

## ƏDƏBİYYAT

1. Rzayev İ. Azərbaycan respublikasında regionların davamlı social-iqtisadi inkişafı: mövcud vəziyyət və gələcək perspektivlər, Bakı, Elm, 2010, 468 s.
2. Əlirzayev Ə.Q.Sosial sferanın iqtisadiyyatı və idarə edilməsi (dərs vəsiati), Bakı6 İqtisad Universiteti, 2010,326 s.
3. Poverty// The Encyclopaedia Americana. Danbury, Conn/Americana Corp, 1979, s.474.
4. Поланьи К. Великие трансформацие: Политические и экономические истоки нащего времени, СПб.: Алатея, 2002, с.58.
5. Hüseynov Sakit. Davamlı insan inkişafı strateji istiqamətləri, Bakı, Adiloğlu, 2003.(264)s.17.
6. The World Bank, 2007, Understanding Poverty.
7. Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı, 2003-2005, Bakı, R.N.Novruz-94, 2003, 306 s.
8. www.minenerqu.gov.az

## ABSTRACT

**Rashadat Yagublu**

The article analyzes the role and significance of the concept of sustainable development in the elimination of poverty problems. First of all, the link between the concept of sustainable development and the problem of poverty is revealed. At the same time, the concept of poverty was described from the socio-philosophical point of view at different stages of history, the types of absolute, relative and subjective poverty were uncovered, information was given on the attitude towards poverty in the countries of the world. The article also analyzed the measures taken to address the problem of poverty in Azerbaijan, including state programs and their final results, and underlined the social significance of these documents.

## РЕЗЮМЕ

**Рашадат Ягублу**

В статье анализируется роль и значение концепции устойчивого развития в устранении проблем бедности. Прежде всего, расскрывается связь между концепцией устойчивого развития и проблемой бедности. В то же время была описана понятие бедности с социально-философской точки зрения на разных этапах истории, раскрыты типы абсолютной, относительной и субъективной бедности, была представлена информация об отношении к бедности в мировых странах. Также в статье были проанализированы меры, принятые для решения проблемы бедности в Азербайджане, включая государственные программы и их конечные результаты, и подчеркнута социальная значимость этих документов.

NDU-nun Elmi Şurasının 19 oktyabr 2017-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 02).
Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2017, № 6 (87)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2017, № 6 (87)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2017, № 6 (87)**

**MÜSLÜM CABBARZADƏ**
*Naxçıvan Dövlət Universiteti*
*muslum_cabbarzade@yahoo.com*

**UOT 332.1**

# QLOBALLAŞMA VƏ İQTISADİ İNTEQRASİYA ŞƏRAİTİNDƏ REGİONAL İQTİSADİ TƏHLÜKƏSİZLİK MƏSƏLƏLƏRİ

***Açar sözlər:*** *Naxçıvan iqtisadiyyatı, region iqtisadiyyatı, iqtisadi təhlükəsizlik, ərzaq təhlükəsizliyi, xarici iqtisadi əlaqələr*

**Keywords:** *Nakhchivan economy, regional economy, economic security, food security, foreign economic relations*

**Ключевые слова:** *Экономика Нахчывана, экономика региона, экономическая безопасность, продовольственная безопасность, внешнеэкономические связи*

İqtisadi təhlükəsizlik sisteminin təşkilati aspektlərini, onun formalaşması və inkişafı xüsusiyyətlərini, habelə maliyyə-kredit, enerji, ərzaq təminatı, informasiya və xarici iqtisadi fəaliyyət sferalarında mövcud olan iqtisadi maraqların təmin edilməsi yolu ilə muxtar respublikanın iqtisadi təhlükəsizlik sisteminin daha da möhkəmləndirilməsi aktual əhəmiyyət kəsb edir.

Müstəqilliyimizin ilk illərində Azərbaycanın iqtisadi təhlükəsizlik siyasətinin mahiyyəti, istiqamətləri, mexanizmləri haqqında əsaslandırılmış yanaşma və təsəvvürlər olduqca səthi olmuşdur. Xalqın tələbi ilə hakimiyyətə gələn ümummilli liderimiz Heydər Əliyev ölkənin təhlükəsizlik problemlərinin həllini prioritet məsələ kimi önə çəkmiş, bu istiqamətdə mühüm addımlar atmışdır. Yalnız 1993-cü ildən başlayaraq ölkə səviyyəsində xüsusi istiqamət kimi, vahid prinsiplərə söykənən milli inkişaf və təhlükəsizlik siyasəti həyata keçirilməyə başlanmışdır. Azərbaycanın milli inkişaf və təhlükəsizliyinin nəzəri və praktiki məsələləri geniş ictimai-siyasi və elmi müzakirəyə çıxarılmış, onun konseptual əsasları müəyyən edilmişdir (6, s. 10). İlk növbədə ölkə daxilində iqtisadi sabitliyin yaradılması və inkişaf üçün islahatların həyata keçirilməsinə başlanmış, xarici ölkələrlə və beynəlxalq təşkilatlarla milli maraqlarımıza uyğun olan əməkdaşlıq əlaqələri yaradılmışdır.

Enerji təhlükəsizliyinin təmin edilməsi istiqamətində məqsədyönlü və strateji fəaliyyətin əsası 1994-cü ildə "Əsrin müqaviləsi" ilə qoyulmuş, 2003-2010-cu illərdə "Energetika haqqında" Azərbaycan Respublikası Qanunu, "Alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması" üzrə Dövlət Proqramı qəbul edilmiş, neft və qaz ixrac boru kəmərləri şəbəkəsinin yaradılması və şaxələndirilməsi üzrə uğurlu siyasət həyata keçirilmişdir.

Ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün 1995-ci ildən başlayaraq aqrar islahatların hüquqi əsasları yaradılmış və islahatlara start verilmişdir. Ölkə Prezidentinin 2 mart 2001-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ərzaq Təhlükəsizliyi Proqramı", 25 avqust 2008-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" ölkəmizin ərzaq təhlükəsizliyinin yüksəldilməsində mühüm rol oynamışdır.

Bunlardan başqa, nəqliyyat təhlükəsizliyinin təmin edilməsi ilə bağlı proqramlar qəbul edilmiş, beynəlxalq nəqliyyat dəhlizlərində iştirakçılıqda ölkəmizin milli maraqları yüksək səviyyədə təmin edilmişdir. İnformasiya təhlükəsizliyi ilə bağlı bir sıra qanunlar qəbul edilməklə informasiya cəmiyyətinə keçidin qanunvericilik bazası təkmilləşdirilmiş, "Azərbaycanın inkişafı naminə informasiya və kommunikasiya texnologiyalarının inkişafı üzrə Milli Strategiya (2003-2012-ci illər)" və bu sahənin inkişafı ilə bağlı bir neçə dövlət proqramı təsdiq edilmişdir.

İqtisadi təhlükəsizliyin təmin edilməsinin hüquqi əsasları 2004-cü ilin 29 iyununda qəbul

edilmiş "Milli təhlükəsizlik haqqında" Azərbaycan Respublikası Qanununda öz əksini tapmışdır. Qanunda göstərildiyi kimi, Azərbaycan Respublikasının iqtisadi sahədə əsas milli maraqları iqtisadi potensialın artırılmasından, bazar iqtisadiyyatının inkişafı və onun hüquqi əsaslarının təkmilləşdirilməsindən, iqtisadi sabitliyin təmin olunmasından, iqtisadiyyatın inkişafı üçün daxili və xarici investisiyalardan ötrü əlverişli şəraitin yaradılmasından, təbii və maddi sərvətlərin qorunması və səmərəli istifadə edilməsindən, regional və dünya bazarlarının formalaşmasında və fəaliyyət göstərməsində azad və bərabərhüquqlu inkişafın təmin edilməsindən ibarətdir (1).

İqtisadiyyatımızın inkişafının müasir mərhələsində ölkənin iqtisadi təhlükəsizliyinin gücləndirilməsi tədbirləri yeni qlobal çağırışlar kontekstində davam etdirilir. Azərbaycan Respublikası Prezidentinin 23 may 2007-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası" dövlətin müstəqilliyini, ərazi bütövlüyünü və demokratik inkişaf yolunu, strateji seçimi kimi Avratlantik məkana inteqrasiyasını, bununla yanaşı tarazlaşdırılmış xarici siyasətinin çoxşaxəliliyini vurğulayan, Azərbaycan Respublikasında şəxsiyyət, cəmiyyət və dövləti xarici və daxili təhdidlərdən qorumağa yönəlmiş siyasət və tədbirlərin məqsəd, prinsip və yanaşmalarının məcmusudur (2).

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" inkişaf konsepsiyasında da qloballaşmanın müsbət amilləri ilə yanaşı mənfi yüklü iqtisadi proseslərin də yayılmasına diqqət çəkilmiş, bu proseslərin ümumdünya təsərrüfat inteqrasiyasına cəlb olunmuş ölkəmiz üçün yaratdığı təhdidlərdən qorunmaq, iqtisadi təhlükəsizliyin daha da gücləndirilməsi, yüksək rəqabət qabiliyyətli iqtisadiyyatın formalaşdırılması, ərzaq, enerji, nəqliyyat, informasiya təhlükəsizliyinin, demoqrafik və ekoloji təhlükəsizliyin yüksəldilməsi üçün gələcək fəaliyyətin konseptual istiqamətləri müəyyən edilmişdir (3).

Naxçıvan Muxtar Respublikasının inkişafın yeni keyfiyyət mərhələsinə yüksəlməsində regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş dövlət proqramlarının uğurlu icrası böyuk əhəmiyyət kəsb edir. Regionların hərtərəfli tərəqqisi sahəsində 2004-cü ildən başlanmış məqsədyönlü siyasətin davamı olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 09 iyun tarixli Sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasının Regional İnkişaf Proqramı (2005-2008-ci illər)", 2009-cu il 28 may tarixli Fərmanı ilə "Naxçıvan Muxtar Respublikasının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" və 01 sentyabr 2014-cü il tarixli Fərmanı ilə "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" təsdiq edilmişdir. Hər üç dövlət proqramının uğurlu icrası nəticəsində muxtar respublikada real sektorun inkişafının sürətləndirilməsinə, iqtisadiyyatın diversifikasiyasına, tarazlı və davamlı inkişafa, kommunal xidmət və sosial infrastruktur təminatının yaxşılaşdırılmasına, yeni müəssisələrin və iş yerlərinin yaradılması nəticəsində əhalinin məşğulluq səviyyəsinin artırılmasına və həyat səviyyəsinin yüksəldilməsinə nail olunmuşdur.

Əldə edilmiş inkişaf səviyyəsinin qorunub saxlanması və iqtisadi təhlükəsizliyin təmin edilməsi üçün mühüm əhəmiyyət kəsb edən makroiqtisadi artım dinamikasının gələcəkdə təmin edilməsi üçün muxtar respublika iqtisadiyyatında aşağıdakı istiqamətlərdə tədbirlərin gücləndirilməsi müşahidə olunur:

- Ümumi Daxili Məhsul üzrə büdcəyə daxil olan gəlirlərin həcminin artırılması;
- büdcə gəlirlərinin sahə strukturunun genişləndirilməsi və yığım səviyyəsinin yüksəldilməsi;
- sosial siyasətin davam etdirilməsi və sosial öhdəliklərin yerinə yetirilməsi üçün xərclərin investisiya və sosialyönümlülüyünə üstünlük verilməsi;
- daxili bazarın qorunması, ərzaq məhsullarına olan tələbatın yerli istehsal hesabına tam ödənilməsi və ərzaq təhlükəsizliyinin təmin edilməsi məqsədilə yerli istehsalçıların stimullaşdırılması istiqamətində həyata keçirilən tədbirlərin davam etdirilməsi;
- sosial infrastruktur sahələrin inkişafına yönəldilmiş məqsədyönlü tədbirlərin davamlılığının təmin edilməsi, bu sahələr üzrə müəyyənləşdirilmiş prioritetlərin diqqət mərkəzində saxlanılması;
- qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsi üçün daxili imkanların səfərbər edilməsi və büdcə vəsaitindən istifadənin səmərəliliyinin təmin edilməsi.

Muxtar Respublikada özəl sektorun inkişaf göstəricilərinin dinamikası da həyata keçirilən

iqtisadi islahatların uğurlu nəticələrinin əyani təsdiqidir. Belə ki, son illər ərzində muxtar respublikanın Ümumi Daxili Məhsulunda özəl bölmənin xüsusi çəkisi artmış və 87 faiz təşkil etmişdir.

Son illərdə sahibkarlığın inkişafına dövlətin maliyyə dəstəyi daha da yaxşılaşmış, güzəştli kreditlərin həcmi əhəmiyyətli dərəcədə artmışdır. Maliyyə təhlükəsizliyi baxımından iqtisadiyyatda maliyyə vasitəçisi rolunun dəstəklənməsi məqsədilə bank sisteminin likvidliyinin adekvat səviyyədə saxlanması siyasəti davam etdirilmiş və iqtisadiyyatın diversifikasiyasının təmin edilməsində, sahibkarlıq təşəbbüsünün dəstəklənməsi yolu ilə əhali gəlirlərinin artırılmasında bank sisteminin rolu əhəmiyyətli dərəcədə yüksəldilmişdir.

Ərzaq təhlükəsizliyinin təmin olunması üçün bitkiçilik və heyvandarlıq sahələri inkişaf etdirilmiş, ərzaq məhsulları ilə özünü təminetmə səviyyəsi daha da yaxşılaşdırılmışdır. Yerli istehsal sahələrinin yenidən qurulması və aqrar islahatların uğurla aparılması bir sıra qida məhsullarının yerli istehsalının artmasına və idxalın azalmasına səbəb olmuşdur.

Ərzaq təhlükəsizliyinin təmin edilməsi bütün ölkələrin iqtisadiyyatı qarşısında duran ən mühüm və həlli vacib olan iqtisadi problemlərdən biridir. Muxtar Respublikada əsas ərzaq malları üzrə tələbatın ödənilməsi mənbələrinin və özünü təminetmə səviyyəsinin təhlili göstərir ki, respublika əhalisinin əksər kənd təsərrüfatı məhsulları, o cümlədən mal əti və qoyun əti, quş əti, yumurta, süd və süd məhsulları, habelə meyvə və tərəvəzlə təmin olunma dərəcəsi qənaətbəxş səviyyədədir.

Dünya bazarında cərəyan edən mürəkkəb situasiyada Naxçıvan Muxtar Respublikasında ərzaq təhlükəsizliyini təmin edən aşağıdakı strateji tədbirlərin davamlı olaraq həyata keçirilməsi olduqca mühüm əhəmiyyət kəsb etmişdir:

- daxili bazarın tələbatının yerli istehsal hesabına ödənilməsi səviyyəsini yüksəltmək üçün ərzaq məhsulları istehsalı həcminin artırılması, tələbatdan artıq istehsal edilən kənd təsərrüfatı məhsullarının ixracının stimullaşdırılması;
- ərzaq və digər kənd təsərrüfatı malları bazarlarının qorunması, yerli istehsal və idxal olunan ərzaq məhsullarının keyfiyyətinə ciddi nəzarətin davam etdirilməsi;
- aqrar sənaye sektoruna yerli və xarici investisiyaların cəlb edilməsi;
- suvarma sistemlərinin yenidən qurulması və torpaqların meliorativ vəziyyətinin sağlamlaşdırılması, mövcud su resurslarından istifadə imkanlarının genişləndirilməsi və suvarma-drenaj şəbəkələrinin inkişaf etdirilməsi;
- baytarlıq, texniki nəzarət, sanitar və fitosanitar tədbirlərin gücləndirilməsi;
- fermer təsərrüfatlarına dövlətin maliyyə dəstəyinin gücləndirilməsi, mikrokredit təşkilatları və kredit ittifaqlarının fəaliyyətinin stimullaşdırılması;
- kənd təsərrüfatı sahəsində sığorta sisteminin inkişaf etdirilməsi;
- ərzaq ehtiyatları yaradılmaqla fövqəladə hallar şəraitində əhalinin ərzaq məhsulları ilə normal təminatı mexanizminin təkmilləşdirilməsi;
- ənənəvi istehsal sahəsi olan üzümçülüyün bərpası üçün mövcud üzüm bağlarında aqrotexniki tədbirlərin həyata keçirilməsi və yeni üzümlüklərin salınmasının davam etdirilməsi;
- muxtar respublikanın təbii sərvəti olan qiymətli balıq növlərinin istehsalına dövlət dəstəyinin gücləndirilməsi, onların artırılması və istifadəsi ilə bağlı layihə və tədbirlərin həyata keçirilməsi;
- soyuducu anbarların tikintisinin davam etdirilməsi, daha uzun müddətli və daha çox meyvə-tərəvəz çeşidinin saxlanmasına imkan verən soyuducu anbarların yaradılması və onların kadr potensialının daha da təkmilləşdirilməsi, laborator analiz məsələlərinin daim diqqət mərkəzində saxlanılması;
- aqrar sahədə ixtisaslı kadr potensialının gücləndirilməsi;
- gübrə istehsalı, zərərvericilərə qarşı dərmanlar və kənd təsərrüfatının inkişafına müsbət təsir edən məhsulların istehsalının dəstəklənməsi;
- müasir texnika və texnologiyanın kənd təsərrüfatında tətbiqinə nail olunmasının dəstəklənməsi.

Enerji təhlükəsizliyinin təmin edilməsi blokada şəraitində yaşayan Naxçıvan Muxtar Respublikası üçün olduqca vacib və həyati məsələdir. Bu istiqamətdə son illərdə böyük uğurlar

qazanılmışdır. Əhalinin elektrik enerjisinə olan tələbatını daha rentabelli olan su elektrik stansiyaları hesabına təmin etmək üçün son dövrlərdə Ordubad rayonunda Gilançay üzərində 22 meqavat gücündə Biləv Su Elektrik Stansiyasının və Şərur rayonunda 20,5 meqavat gücündə Arpaçay Su Elektrik Stansiyasının, 1,4 meqavat gücündə "Arpaçay-2" Su Elektrik Stansiyasının, 22 meqavat gücündə Günəş Elektrik Stansiyasının tikintisi başa çatdırılmış və 36 meqavat gücündə Ordubad Su Elektrik Stansiyasının tikintisi davam etdirilmişdir.

Təbii qaz təminatı üzrə görülmüş işlər nəticəsində muxtar respublikada 82 mindən çox əhali abonenti mavi yanacaqla təmin olunmuşdur. Enerji təhlükəsizliyi ilə bağlı görülən tədbirlərin nəticəsidir ki, bu gün muxtar respublika tamamilə qazlaşdırılmış, yaradılmış elektrik stansiyaları daxili tələbatı tam ödəməklə yanaşı, elektrik enerjisinin ixracına da imkan yaratmışdır. Qarşıdakı illərdə də yanacaq-enerji kompleksi sahəsində görüləcək işlər iqtisadiyyatın və energetika sənayesinin inkişafına, o cümlədən onun səmərəliliyin daha da yüksəldilməsinə xidmət edəcəkdir. Enerji təhlükəsizliyinin möhkəmləndirilməsi məqsədilə 2014-2017-ci illərdə aşağıdakı tədbirlər həyata keçirilmişdir:

- Muxtar Respublikada yeni su elektrik stansiyalarının tikintisi, yeni yarımstansiya və ötürücü sistemlərin qurulması;
- fəaliyyət göstərən stansiyalarda yenidənqurma işlərinin aparılması;
- enerji sistemində itkilərin minimuma endirilməsi;
- qaz təchizatının daha da yaxşılaşdırılması;
- müasir istilik sistemlərinin qurulması, mövcud istilik sistemlərinin bərpası, modernləşdirilməsi və yenidənqurulması;
- Muxtar Respublikada alternativ enerjidən istifadə və günəş elektrik stansiyasının qurulması.

Muxtar respublikada informasiya təhlükəsizliyinin təmin edilməsi üçün müasir informasiya texnologiyalarının tətbiqi diqqət mərkəzində saxlanılır. İnformasiya cəmiyyətinin formalaşmasında xüsusi əhəmiyyətə malik olan "Elektron hökumət"in qurulması istiqamətində ardıcıl tədbirlər görülmüş, "Elektron hökumət" portalı yaradılmışdır.

Muxtar respublikada göstərilən rabitə xidmətinin müasir tələblər səviyyəsinə çatdırılması və yeni informasiya və kommunikasiya texnologiyalarının tətbiqinin genişləndirilməsi üçün perspektivdə aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur:

- informasiya və kommunukasiya sistemlərinin müasir standartlar səviyyəsində formalaşması və onların daha da inkişaf etdirilməsinin dəstəklənməsi;
- əhalinin İKT-nin xidmətlərindən səmərəli istifadəsi üçün onlar arasında maarifləndirmə işinin təşkili;
- yüksək dağlıq bölgələrdə televiziya və radio yayımlarının keyfiyyətinin yüksəldilməsi;
- informasiya təhlükəsizliyinin təmin edilməsi;
- mühəndis və texniki işçilərin hazırlıq səviyyəsinin yüksəldilməsi üzrə tədbirlərin həyata keçirilməsi;
- yeni texnologiyaların tətbiq edilməsi ilə simsiz internet xidmətlərinin inkişaf etdirilməsi;
- Naxçıvan Muxtar Respublikası ərazisində efir məkanının təhlükəsizliyinin təmin edilməsi üçün əlavə tədbirlərin həyata keçirilməsi.

Muxtar respublika müəssisələrinin xarici bazarlarda möhkəmlənməsinin və yeni bazarlar əldə etməsinin ən mühüm prinsiplərindən biri region iqtisadiyyatının xarici iqtisadi əlaqələr sisteminə səmərəli və uğurlu inteqrasiya edilməsindən ibarətdir. İstər daxili və istərsə də xarici bazarlarda regionun maraq və mənafelərin tarazlaşdırılması zəruri məhsullara görə daxili bazarın ehtiyaclarının əsasən xüsusi mənbələr hesabına ödənilməsini, xarici valyutaya olan tələbatın isə ixrac yönümlü fəaliyyət hesabına təmin edilməsini nəzərdə tutur.

Regionun xarici ölkə bazarlarına yüksək rəqabət qabiliyyətinə malik məhsullar ixrac etməsi onun tədiyyə balansında müsbət saldonun yaranmasına, büdcəyə daxilolmaların həcminin artmasına, iqtisadiyyatın kapital və investisiya resurslarına olan tələbatının daxili mənbələr hesabına ödənilməsinə imkan yaradır. Muxtar Respublikanın strateji maraqlarının qorunması onun xarici iqtisadi əlaqələr sisteminə inteqrasiya edilməsi dərəcəsindən asılıdır. Məhz bu baxımdan daxili və xarici bazarlarda aparılan səmərəli ticarət siyasəti, yerli əmtəə istehsalçılarının iqtisadi maraqlarının

ardıcıl surətdə qorunması və onların iqtisadi cəhətdən stimullaşdırılması muxtar respublikanın iqtisadi təhlükəsizlik sisteminin əsasını təşkil edir.

Son illər muxtar respublikada rəqabətqabiliyyətli iqtisadiyyatın qurulması, daxili və xarici ticarət fəaliyyətinin liberallaşdırılması və region iqtisadiyyatın dünya təsərrüfatçılıq sisteminə inteqrasiyası sahəsində mühüm tədbirlər həyata keçirilir. Bu tədbirlər mövcud xarici iqtisadi fəaliyyətin və region iqtisadiyyatının beynəlxalq münasibətlər sisteminə inteqrasiyasının iqtisadi səmərəliliyinə xidmət edir.

Xarici iqtisadi fəaliyyətdə regionun iqtisadi təhlükəsizliyi aşağıdakılarla xarakterizə olunur:

- iqtisadiyyatda xarici rəqabətin əlverişsiz təsirlərinin neytrallaşdırılması;
- idxalın və ixracın funksional strukturunun muxtar respublikanın strateji maraqlarına cavab verməsi;
- Muxtar Respublika iqtisadiyyatının xarici investisiya və xarici bazar konyukturundan asılılığının qarşısının alınması.

Göstərilən amillər iqtisadi artım tempindən, xarici ticarət dövriyyəsindən, xarici investisiyaların, o cümlədən portfel və birbaşa investisiyaların həcmindən, inflyasiya səviyyəsindən, ÜDM-in strukturunda sənaye istehsalının, o cümlədən ixrac yönümlü məhsulların xüsusi çəkisindən asılı olaraq formalaşır.

Yaşadığımız yeni əsrin əvvəlində ölkəmizdə, o cümlədən muxtar respublikamızda iqtisadi təhlükəsizliyin təmin edilməsi baxımından aşağıdakı məsələlərin həlli ön plana keçmişdir:

- xarici bazara məhsul ixracının funksional strukturu;
- daxili bazarda yerli məhsulların daha çox hakim mövqe tutması;
- yerli istehsalçıların tədricən dövlət tərəfindən proteksionist təmayülə malik məqsədli proqramlar vasitəsilə müdafiə edilməsi;
- iqtisadiyyatda struktur siyasətinin surətləndirilməsi və səmərəliliyinin yüksəldilməsi.

Muxtar Respublikanın maraqları ən ümumi şəkildə onda ifadə olunur ki, birincisi, xarici iqtisadi əlaqələr iqtisadiyyata sabitləşdirici təsir göstərsin, onun struktur dəyişikliklərinin əsas amili kimi çıxış etsin və ikincisi, yerli firmaların xarici bazarlarda mövqeyinin möhkəmlənməsinə və genişlənməsinə, onun beynəlxalq təsərrüfat əlaqələrində rolunun artmasına kömək etsin.

Muxtar Respublikanın xarici iqtisadi əlaqələrinin inkişafı üçün aşağıda göstərilən bir çox istiqamətlərdə həyata keçirilməkdə olan tədbirlər iqtisadi təhlükəsizliyin möhkəmləndirilməsinə xidmət edir:

- Muxtar Respublikanın ixrac potensialının gücləndirilməsi, ixracın stimullaşdırılması istiqamətində həyata keçirilən əməli tədbirlərim davam etdirilməsi;
- istehsal olunan malların xarici bazara çixarılmasının təmin edilməsi məqsədilə onların beynəlxalq standartlara uyğun istehsalının təşkil olunması;
- Muxtar Respublikada daxili bazarın qorunmasını təmin edən və iqtisadi inkişafa əlverişli şərait yaradan idxal siyasətinin həyata keçirilməsi;
- xarici ticarətin inkişafı üçün infrastruktur təminatının daha da yaxşılaşdırılması və təkmilləşdirilməsi istiqamətində müvafiq tədbirlərin görülməsi;
- istehsal olunan malların xaricdə tanınması üçün beynəlxalq sərgi və yarmarkalarda iştirakın stimullaşdırılması;
- xarici ticarət sahəsində inkişafa kömək edə biləcək uyğun beynəlxalq təcrübədən maksimum dərəcədə istifadə edilməsi.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik haqqında qanunu, Azərbaycan Respublikasının Qanunvericilik toplusu, N 8, 31 avqust, 2004.
2. Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası (Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 23 may tarixli Sərəncamı ilə təsdiq edilmişdir). http://migration.gov.az/images/pdf/026fa4b410a33801f3dd49643726cf2a.pdf
3. Azərbaycan 2020: Gələcəyə baxış İnkişaf Konsepsiyası, http://www.president.az/files/future_az.pdf

4. 2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramının təsdiq edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2008-ci il 17 sentyabr tarixli Sərəncamı.
5. Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı, Naxçıvan, Əcəmi, 2014, 64 s.
6. Həsənov Ə. Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasəti, Bakı, Letterpress, 2011, s. 10, 440 s.
7. Həbibbəyli İ.Ə, Hacıyev İ.M., İsmayılov B.M. İntibahın 15 ili, Naxçıvan, Əcəmi, 2010, 280 səh.
8. Nadirov A.A., Nuriyev Ə.X., Muradov Ş.M. Naxçıvanın iqtisadiyyatı XX əsrdə, Bakı, Elm, 2000, 101 səh.

## ABSTRACT

**Muslum Jabbarzade**

**REGIONAL ECONOMIC SECURITY ISSUES IN THE CONTEXT OF GLOBALIZATION AND ECONOMIC INTEGRATION**

In the paper are analyzed the socio-economic development of the Nakhchivan Autonomous Republic and the issues of ensuring economic security. Investigations were conducted on the impact of economic reforms to ensure economic security. Were identified and assessed factors affecting to improve the economic security of the region.

## РЕЗЮМЕ

**Муслум Джаббарзаде**

**РЕГИОНАЛЬНЫЕ ПРОБЛЕМЫ ЭКОНОМИЧЕСКОЙ БЕЗОПАСНОСТИ В КОНТЕКСТЕ ГЛОБАЛИЗАЦИИ И ЭКОНОМИЧЕСКОЙ ИНТЕГРАЦИИ**

В статье проанализированы *социально-экономическое* развитие Нахчыванской Автономной Республики и вопросы обеспечения экономической безопасности. Проведены исследования по влиянии проводимых экономических реформ к обеспечению экономической безопасности. Выявлены и оценены факторы, влияющие на к повышению экономической безопасности региона.

NDU-nun Elmi Şurasının 19 oktyabr 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 02).
Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

**İLHAM HÜSEYNOV**

*Naxçıvan Dövlət Universiteti*

**UOT: 342**

# İNVESTİSİYA FƏALİYYƏTİ NÖVLƏRİ VƏ ONLARIN İCRASINI ŞƏRTLƏNDİRƏN AMİLLƏR

**Açar sözlər:** *investisiya, investisiya fəaliyyəti, investisiya növləri, investisiya amilləri, investisiya fəaliyyətinin təmzimlənməsi*

**Key words**: *investment, investment activity, types of investment, investment factors, regulation of investment activity*

**Ключевые слова:** *инвестиция, инвестиционная деятельность, виды инвестиций, факторы инвестиций, регулирование инвестиционной деятельности*

İstənilən sahə və ya fəaliyyət işləri ilə əlaqədar investisiya qoyuluşlarının onları icra edən şəxslər (investorlar) tərəfindən həyata keçirilməsi məcmu halında investisiya fəaliyyəti kimi qiymətləndirilir.

İnvestisiyaların tətbiqi zamanı icraçı tərəflərin təsnifləşdirilməsi öz aktuallığını qorumaqdadır. Bu zaman bir çox əlamətdən istifadə mümkündür ki, onlardan öndə gələni investisiyaların xarakteri və mülkiyyət formasına görə investor qruplarının fərqləndirilməsidir. Deyilən hal üçün aşağıdakı iki qrupun mövcudluğu, onların fəaliyyətinin spesifik cəhətləri xüsusi əhəmiyyət kəsb etməkdədir:

✓ *Fərdi investorlar* – bu qrup öz vəsaiti əsasında investisiya proseslərində iştirak edir, istehsal rəhbəri (sahibi) və ya səhmdar (payçı, maliyyə vəsaitlərinin təminatçısı və s.) formasında təmsil olunmaqla maraqlarını qoruyur, əldə olunan gəlirin bölüşdürülməsində iştirak edirlər. Onlar malik olduqları sərbəst pul vəsaitləri üzərində sərbəst sərəncam vermək hüququna malikdirlər. Bu zaman investisiya prosesləri ilə bağlı bütün hüquq və öhdəliklərin məhs onlara aid olması təmin edilməlidir;

✓ *İnstitutsional investorlar* – fərdi investorlardan fərqli olaraq onlar əksər hallarda başqalarının (cəlb olunmuş) maliyyə vəsaitləri üzərində sərəncam vermək hüququna malikdirlər. İnstitutsional investorlar sifətilə banklar, sığorta şirkətləri, xüsusi təyinatlı fondlar, bank olmayan maliyyə təşkilatları, fiziki şəxslərin birlikləri və digər maliyyə qurumları və subyektlər çıxış edə bilərlər. Onların fəaliyyətinin əsas məkan ifadələri kimi maddi investisiya məkanları, qiymətli kağızlar bazarı və digər analoji məkanlar göstərilə bilər.

İnvestisiya qoyuluşları müddət etibarı ilə fərqləndirilməlidir. Bu təsnifatda əsasən qısamüddətli (1 ilədək) və uzunmüddətli (1 ildən yuxarı) investisiyalar özünün daxili sistemləri və xüsusi şərtləri ilə seçilməkdədir. Öz gəlirlərini qısa müddətdə rellığa çevirmək məqsədini daşıyan qısamüddətli investisiyalardan fərqli olaraq, uzunmüddətli investisiyalar bəzi məqamlardan imtina edir. Onların sırasında cari dövrlərdə mənfəətdən, yüksək faizli gəlirlərdən (bir çox hallarda) imtinalar xüsusi yer tutur. Bu halda gəlirin əldə olunması ilk bir neçə il mümkün olmur və ancaq xərclər ödənildikdən sonra ona keçid baş verir.

İnkişaf etməkdə olan ölkələrdə investisiya fəaliyyətinin formalaşması özünün spesifik cəhətləri ilə təzahür etməkdədir. Qeyri-dövlət investorlarının böyük paya malik olması ilə seçilən bu istiqamət bir tərəfdən istehsal-təsərrüfat sferasına qoyuluşlar etməklə yanaşı, digər tərəfdən qiymətli kağızlar bazarının iştirakçısı rolunda çıxış etməkdədir. Həmin yöndən yanaşıldıqda investisiyaların birbaşa və portfel investisiyaları qrupları üzrə bölüşdürülməsi müşahidə olunur. Birbaşa investisiyalar sahibkar kapitalının investisiyalaşan obyektin idarəetmə baxımından tam nəzarətə götürülən hissəsini təşkil edir. Sahibkar kapitalının qalan hissəsi yalnız mənfəət əldə etmək məqsədi daşıyırsa portfel investisiya adlanır.

Portfel investisiya investisiyalaşan obyektin idarə edilməsi baxımından iştirak hüququnu təmin etmiş olur. Bu baxımdan portfel investisiya qiymətli kağızlar, xüsusən istiqraz və səhmləri əhatə etməklə müddəti, gəliri və riskləri balanslaşdıran investisiya qoyuluşu kimi xarakterizə olunur.

Dövlətin həyata keçirdiyi investisiya siyasəti kapital qoyuluşlarının prioritet istiqamətlərini təşkil edir. O, iqtisadiyyatın səmərəliliyinin yüksəldilməsində mühüm rola malikdir, ümumilikdə ölkənin, onun ayrı-ayrı regionlarının, sahələrinin və yeni mülkiyyət formalarının yaranması investisiya siyasətinin xarakteri ilə müəyyən olunur.

İnvestisiya məsələlərinin tənzimlənməsi ilə əlaqədar birbaşa müddəalar Azərbaycan Respublikasının "İnvestisiya fəaliyyəti haqqında" Qanununda təsbit olunmuşdur. Həmin Qanuna əsasən investisiya fəaliyyəti investorlar tərəfindən edilən investisiya qoyuluşları zamanı yaranan hərəkətlərin məcmusu kimi qiymətləndirilir. Onun növlər etibarı ilə nümunəvi qruplaşdırılması isə aşağıdakı tərkib hissələr formasında ifadə edilə bilər:

1. Ölkə vətəndaşları, müxtəlif hüquqi subyektlər tərəfindən həyata keçirilən özəl investisiya fəaliyyəti;

2. Ölkənin hakimiyyət orqanları, həmçinin hüquqi subyektlər tərəfindən büdcə və büdcədənkənar fondların, xüsusi borc vəsaitlərinin hesabına edilən investisiya fəaliyyəti;

3. Ölkəmizin və xarici ölkə vətəndaşlarının , hüquqi subyektlərinin və dövlətlərin birgə həyata keçirdiyi investisiya fəaliyyəti;

4. Xarici ölkələrin hüquqi şəxsləri və vətəndaşları, dövlətlər, beynəlxalq maliyyə subyektləri tərəfindən birtərəfli qaydada həyata keçirilən investisiya fəaliyyəti və s.

İnvestisiya fəaliyyətinin tətbiq obyekti baxımından müxtəlif formaları mövcuddur (istehsalın texnika, dövriyyə vəsaitləri ilə təmin olunması, infrastrukturun yaxşılaşdırılması və s.). Onlardan biri də innovativ fəaliyyətin təşkilini əhatə edir. Müvafiq yanaşma çoxsaylı işlərin həyata keçirilməsini əhatə edir ki, onların sırasında mühüm olanlarına aiddir:

- ✓ İqtisadiyyatın quruluşunun yenilənməsi və transformasiyası;
- ✓ Məhsuldar qüvvələrin keyfiyyət xarakteristikalarının təkmilləşdirilməsi;
- ✓ Elm və texnika sahəsində uzunmüddətli proqramların həyata keçirilməsi;
- ✓ Texniki və texnoloji yeniliklərin işlənib hazırlanması və təcrübədə tətbiqi və s.

Deyilənlərin tədqiqi investisiya fəaliyyəti obyekti ilə fikirlərin ifadəsinə yol açır. Həmin obyekt kimi əsas və dövriyyə fondları, məqsədli təyinata malik pul əmanətləri, elmi-texniki fəaliyyətin məhsulları, qiymətli kağızlar, mülkiyyət hüquqları, intellektual sərvətlər və digər obyektlər çıxış edə bilər. Sadalanan siyahıda ölkə qanunvericiliyi ilə qadağan edilməyən bütün obyektlər öz əksini tapa bilər.

Obyektlərin nəzərdən keçirilməsi eyni zamanda investisiya fəaliyyətinin subyektlərini də kənarda qoymamalıdır. Həmin subyektlərin siyahısına dolayı yolla yuxarıda verilən və 4 bənndən ibarət olan təsnifatda işıqlandırılmışdır. Bu qrupda istər fərdi qaydada ölkənin hakimiyyət orqanları, hüquqi və fiziki şəxsləri, xarici maliyyə qurumları, hüquqi və fiziki şəxsləri, həmçinin onların yerli subyektlərlə birgə fəaliyyəti öz əksini tapmaqdadır, onlar fərdi və kollektiv halında investor və ya iştirakçı sifətilə bu proseslərdə təmsil oluna bilər. İnvestorlar müvafiq fəaliyyətdə əmanətçi, kreditor və alıcı sifətilə çıxış edə, habelə investisiya fəaliyyətinin istənilən iştirakçısının funksiyalarını yerinə yetirə bilərlər.

Ölkə ərazisində investisiya fəaliyyətinin icrası zamanı yaranan münasibətlər müvafiq qanunla və Azərbaycan Respublikasının digər qanunları, habelə onlar əsasında qəbul edilmiş qanunvericilik aktları, eyni zamanda beynəlxalq müqavilələri ilə tənzimlənir.

Azərbaycan Respublikası investorlarının xarici dövlətin ərazisində investisiya fəaliyyəti isə həmin dövlətin qanunvericiliyi ilə tənzimlənir. Bu zaman investisiya fəaliyyəti subyektlərinin çoxsaylı hüquqları yaranır ki, onlardan mühüm olanlar aşağıdakılardır:

1. Ölkəmizin ərazisində mülkiyyət formasından və təsərrüfat fəaliyyətinin növündən asılı olmayaraq investisiya fəaliyyətinin bütün subyektləri müvafiq fəaliyyətin icrası zamanı bərabər hüquqludurlar;

2. Respublikamızın qanunvericiliyi ilə investisiya qoyuluşları qadağan edilən və ya məhdudlaşdırılan obyektlər istisna olmaqla, hər hansı obyektə investisiya qoyuluşu investorun müstəsna səlahiyyətləri çərçivəsindədir və hüquqi təminata malikdir;

3. İnvestor müstəqil formada qoyuluşun məqsədi, istiqaməti, növü və həcmini müəyyənləşdirə bilər, onun icrası üçün müqavilə, müsabiqə və ya hərrac yolu ilə fiziki və hüquqi şəxsləri investisiya fəaliyyətində iştirakı təmin oluna bilər;

4. Hüquqi-normativ bazaya uyğun olaraq investor ölkə ərazisində investisiyanın obyektlərinə və nəticələrinə sahiblik, istifadə və sərəncam vermək, reinvestisiya və ticarət əməliyyatları həyata keçirmək hüquqlarını özündə saxlayır;

5. Respublika qanunvericiliyi ilə nəzərdə tutulan mülkiyyət hüququ yaratmayan obyektlərə investisiya qoyulması sonradan onlara sahiblikdə, əməli idarəetmədə və ya belə obyektlərin istismarından əldə edilən gəlirdə investorun iştirak hüququnu qadağan edilmir;

6. İnvestorun qərarı ilə investisiyaya və onun nəticələrinə sahiblik, istifadə və sərəncam hüquqları qanunla müəyyənləşdirilmiş qaydada digər fiziki və hüquqi şəxslərə verilə bilər. Hüquqların bu cür verilməsi zamanı yaranan qarşılıqlı münasibətlər onların müstəqil surətdə bağladıqları müqavilə əsasında nizama salırlar və s.

Yaddan çıxarılmamalıdır ki, normativ bazada investorların hüquqları ilə yanaşı vəzifələri də dəqiqləşdirilmişdir. Subyektlər ölkə qanunvericiliyi ilə müəyyən olunmuş hal və qaydalarda aşağıdakıları icra etməyə mükəlləfdirlər:

- ✓ maliyyə vəsaiti və maddi sərvətlər əsasında həyata keçirdikləri investisiyanın həcmi və maliyyələşdirilməsi mənbəyi barədə yerli banklara, maliyyə orqanlarına müvafiq orqanların arayışını təqdim edilməsi;
- ✓ əsaslı tikinti və icazə tələb edən sair işlər üçün uyğun dövlət orqanları və xüsusi xidmətlərdən icazənin (razılığın) alınması;
- ✓ texnoloji, sanitariya-gigiyena, radiasiya, ekologiya və arxitektura tələblərinə əməl edilməsi baxımından investisiya layihələri üçün ekspertiza rəyinin alınması;
- ✓ ölkə qanunvericiliyində nəzərdə tutulan qaydalar üzrə müəyyənləşdirilən norma və standartlara, habelə beynəlxalq norma və standartlara əməl edilməsi;
- ✓ dövlət orqanlarının və vəzifəli şəxslərin öz səlahiyyətləri daxilində, ölkənin qanunvericilik aktlarına uyğun verdikləri tələblərin yerinə yetirilməsi;
- ✓ müəyyənləşdirilmiş qaydada mühasibat və statistika hesabatlarının təqdim olunması;
- ✓ haqsız rəqabətə yol verilməməsi və antiinhisar tənzimlənməsinin tələblərinə əməl olunması və s.

Xüsusi (məsələn, attestasiyası tələb olunan) növ işlərin yerinə yetirilməsi üçün, investisiya fəaliyyətinin iştirakçıları lisenziya ilə təmin olunmalıdırlar. Müqavilənin bağlanması, tərəflərin seçilməsi, öhdəliklərin, təsərrüfat münasibətlərinin respublikanın qanunvericiliyinə zidd olmayan hər hansı şərtlərinin müəyyənləşdirilməsi investisiya fəaliyyəti subyektlərinin müstəsna səlahiyyətinə daxildir. Dövlət orqanlarının və vəzifəli şəxslərin mövcud qanunvericilik aktları ilə müəyyənləşdirilmiş həddən artıq investisiya fəaliyyəti subyektlərinin müqavilə münasibətlərinə qarışmasına yol verilmir.

İnvestisiya qoyuluşlarının edilməsi zamanı investorlarla yanaşı dövlətin stimullaşdırıcı fəaliyyəti də nəzərdən yayınmamalıdır. O müvafiq fəaliyyətin genişləndirilməsini təmin etməklə yanaşı boş qalan maliyyə vəsaitlərinin aktiv dövriyyəyə cəlb olunmasında mühüm rol oynayır, onlar üçün daha münbit şərait yaradır..

Digər tərəfdən, investisiya fəaliyyətinin təşkilində bir çox şərtlər mövcuddur ki, onların nəzərə alınması müvafiq proseslərin aktivliyinə, məhsuldarlığına, səmərəliliyinə təsir etmiş olur. Ümumilikdə, investisiya fəaliyyətini həyata keçirməк üçün ilk növbədə aşağıdakı mühüm şərtlərin mövcudluğu təmin edilməlidir:

- ✓ investisiya fəaliyyəti ilə məşğul olmağın marağı və ona olan tələbat;
- ✓ konkret investisiya layihələri və onları həyata keçirəcək kadrların mövcudluğu;
- ✓ maliyyə qurumları və onlarda olan sərbəst maliyyə vəsaitləri;
- ✓ hüquqi baza, sabit investisiya mühiti və s.

Hər bir dövlətdə investisiya fəaliyyəti ilə məşğulolma ilk növbədə ona olan maraq və tələbatla əlaqələndirilməlidir. Məhz bu iki şərtin üst-üstə düşməsi nəticəsində digər şərtlərin vəziyyətinin qiymətləndirilməsi, onlarda olan çatışmazlıqların aradan qaldırılması sahəsində sonrakı

işlərin icrası mümkün olur. Bu əsasda konkret investisiya yönümlü layihələrin hazırlanmasına start verilir. Layihələrin hazırlanmasında iqtisadi və sosial ehtiyacların nəzərə alınması labüddür.

İnvestisiya fəaliyyətinin tamməналı icrası onun sistemli hüquqi bazası olmaqla mümkündür. Bu baxımdan investisiya fəaliyyəti üzrə qanunvericilik bazasının sistemliliyinin təmin edilməsi, onun daim təkmilləşdirilməsi sahəsində işlərin görülməsi müvafiq fəaliyyətin daha məqsədyönlü təşkilinə şərait yaratmaqdadır. Hər bir fəaliyyəti hüquqi təminatı onun sistemli və kompleks şəkildə həyata keçirilməsinin təməl nöqtələrindən hesab olunur. Nəzərdən yayınmamalıdır ki, investisiya fəaliyyəti zamanı investisiya subyeкtlərinin öz maliyyə vəsaitlərinin banklarda deyil, birbaşa olaraq təsərrüfat sahələrinə cəlb edilməsi üçün hüquqi təminat olmalıdır. Hüquqi təminat dediкdə dövlətin müvafiq qanun, qərar və normativ aкtlar vasitəsilə xarici investisiyaların milliləşdirilməsini, onların təminatına zəmanətin verilməsini, investisiya fəaliyyəti ilə məşğul olmaq üçün zəruri şəraitin yaradılmasını başa düşmək lazımdır. Digər tərəfdən, dövlət tərəfindən verilən təminatlar yerli və xarici investorlara eyni səviyyədə aid olmalıdır. Belə ki, bununla ölкədən "kapital axını" önlənə bilər.

Azərbaycan Respublikasında investisiya fəaliyyəti ilə məşğul olan uyğun qurumların təşkili mühüm amillərdən hesab olunur. Belə qurumlar dövlət, özəl və qarışıq formalarda olur. Onların fəaliyyət dairəsinə investisiyalara ehtiyacları olan ölkə və regiondaxili prioritet sahələrin müəyyənləşdirilməsi, xarici investisiyaların təşviqi, əlaqələndirilməsi, səmərəli istifadəsi, istiqamətləndirilməsi, mövcud tələbatlar səviyyəsində müvafiq layihələrin hazırlanması və onların həyata keçirilməsi, hüquqi sahədə zəruri tədbirlərin həyata keçirilməsi və s. aiddir.

Beynəlxalq müstəvidə mövcud olan əmək bölgüsünün qaydalarına riayət etmədən, onun üstünlüklərindən mümkün qədər yüksək səviyyədə istifadə edilmədən, xarici iqtisadi əlaqələrin bütün formalarını intensiv şəkildə genişləndirmədən ölkə iqtisadiyyatının inkişafında hiss olunacaq irəliləyişlərə nail olmaq mümkünsüzdür. Müvafiq istiqamətdə investisiyanın xüsusi obyektləri kimi xarici kapital, texnika, texnologiya və digər istehsal amillərinin respublikaya cəlb edilməsi çıxış edir.

Xarici investisiyalı müəssisə ölkəmizin qanunvericiliyində və xarici dövlətlərin müvafiq qanunvericilik normalarında müəyyənləşdirilən şərtlər daxilində respublikamızın daxilində və onun hüdudlarından kənarda törəmə müəssisələr, filiallar və nümayəndəliklər yarada bilər.

Xarici hüquqi və fiziki şəxslər ölkə ərazisində olan müəssisələrin səhm və digər qiymətli kağızlarını satın ala bilər, dövlət və bələdiyyə müəssisələrinin özəlləşdirilməsində iştirak edə bilər, habelə xarici bankların təsisçisi ola bilər. Xarici investisiyalı müəssisə istehsal etdiyi məhsula qiymət qoymaq, onun satışı şərtlərini müəyyən etməк, ölkənin daxili bazarından məhsul göndərənləri seçməк imkanına malikdir.

Məqalədə investisiya fəaliyyətinin ümumi mahiyyətinə nəzər salınmaqla, onun mümkün mühüm amillər əsasında təsnifləşdirilməsi aparılmışdır. Qeyd olunan istiqamətdə elmi təməllərlə əsaslandırılmış sistemli işlərin həyata keçirilməsi təcrübi tətbiq zamanı investisiyaların məqsədyönlülüyünün, onun səmərəliliyinin və əsaslandırılmış olmasının zəmini kimi çıxış edəcəkdir. Yaranan vəziyyət ümumilikdə ölkə iqtisadiyyatının, o cümlədən onun ayrı-ayrı sahələrinin fəaliyyətinin müasir dövrün tələblərinə uyğunlaşdırılmasına şərait yaradacaq və ölkədə məhsul bolluğu, ərzaq təhlükəsizliyi, istehsal sahələrinin yeni texnika və texnologiya ilə təminatı sahələrində görülən işlərin zənginləşməsinə səbəb olacaqdır.

## ƏDƏBİYYAT


. 1. Abdullayev A.P. İqtisadiyyat və iqtisadi siyasət, Bakı, Asiya, 2003, 216 s.

2. Allahverdiyev H.A. Milli iqtisadiyyatın dövlət tənzimlənməsi, Bakı, ADİU, 2007, 792 s

3. Ağayev S.T. Sahibkarlıq fəaliyyətində maliyyə menecmentinin təşkili, Bakı, Elm, 2003, 200 s.

4. Cəbiyev R.M. Azərbaycanda bazar infrastrukturunun formalaşması və inkişafı, Bakı, . Elm, 2000, 235 s.

5. Əhmədov N.H. Naxçıvan iqtisadiyyatının prioritetləri: iqtisadi artım, dinamik inkişaf, . Bakı, Sabah, 2008, 431 s.

6. Əlirzayev Ə.Q. Azərbaycan dövlətçiliyinin qanunvericilik bazasının təkmil-ləşdirilməsi

.	üzrə təcrübə və perspektiv düşüncələr, Bakı: Adiloğlu, 2006, 512s.
7. Hacıyev İ.M., Cəfərov K.S. Naxçıvan Muxtar Respublikası müstəqillik illərində. Naxçıvan, Əcəmi, 2016, 167s.
8. İbrahimova N.H. Müasirləşən iqtisadiyyat və təsərrüfat fəaliyyətinin iqtisadi təhlili, Naxçıvan: Əcəmi, 2015, 184s.
9. İnvestisiya fəaliyyəti haqqında Azərbaycan Respublikası Qanunu. İqtisadiyyat və həyat jurnalı. 2002, № 10-12, s.22-31.
10. İnvestisiyalar. Azərbaycan Respublikası İqtisadiyyat və Sənaye Nazirliyi. http: //www.economy.gov.az/ index.php?lang=az.

## ABSTRACT

**Ilham Huseynov**

**TYPES AND FACTORS OF INVESTMENT ACTIVITIES**

Information about the investment activities, the conditions to be considered during its operation are systematically indicated.The main objective is to ensure that the investment activity is correctly assessed, that the investor classifies their work in a comprehensive manner, a combination of basic investment items for a multinational survey, and an appropriate arrangement for future use.

Summarizing information about investment activities is based on the assumption that various purposes are carried out at the same time, complying with the possibility of exploiting a mild and fragile method, ensuring mutual relations between investment objects and issues, developing the investment activity lawfully and developing in time, applying internationally oriented investment processes, on the basis of a comprehensive approach.

The investment factors consist of groups known to have different roots. They are influenced by the conditions in which the investment activities are organized and the unit is cumulatively impacted by the work mentioned.

Information on investment processes is broadly referred to the rights and duties of the party represented by the investor or participant, and the possibilities established in the country in this regard.

## РЕЗЮМЕ

**Ильхам Гусейнов**

**ВИДЫ ИНВЕСТИЦИОННОЙ ДЕЯТЕЛЬНОСТИ И ФАКТОРЫ, ОБУСЛАВЛИВАЮЩИЕ ЕЕ ИСПОЛНЕНИЕ**

В статье в системном порядке повествовано об инвестиционной деятельности, об условиях, обуславливающих ее организование. Его основная цель – дача точной оценки инвестиционным процессам, организация общей классификации работам, проделываемым инвесторами, соеденение основных инвестиционных элементов в едином пространстве для проведения многофакторного исследования и его последующее использование.

Обобщение информации об инвестиционнойт деятельности возможна на основе таких задач, как проделываение работ различной ориентации, соблюдение при этом возможности использования одностадийных и многостадийных методов, обеспечение взаимоотношений между инвестиционными объектами и субъектами, формирование юридической базы инвестиционных процессов и их повременное усовершенствование, претворение в жизнь инвестиционных процессов международной ориентации и уточнение их направлений оценивания.

Инвестиционные факторы по своим основаниям образуют различные группы. Они вместе со своими признаками в единой совокупности оказывают своеобразное влияние на повествуемые работы.

В информациях по инвестиционным процессам широко повествовано о правах и обязанностях стороны, пердставляющейся в виде инвестора или же учасника, о возможностях, созданных в стране в этом направлении.

NDU-nun Elmi Şurasının 19 oktyabr 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 02).
Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

**ARAZ ƏSGƏROV**
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 338.45**

# SƏNAYE PARKLARI – RESPUBLİKAMIZDA İNNOVATİV FƏALİYYƏTİN TƏŞƏKKÜLÜNÜN ƏSAS ŞƏRTLƏRİNDƏN BİRİ KİMİ

**Açar sözlər:** *sənaye parkları, Azərbaycan Respublikası, innovasiya, innovativ fəaliyyət, innovasiya modeli*
**Key words**: *industrial parks, innovation, innovative activity, innovation model of the Republic of Azerbaijan*
**Ключевые слова**: *промышленные парки, Азербайджанская Республика, инновация, инновационная деятельность, инновационная модель*

Sənaye parkları ölkənin sənaye potensialının yüksəldilməsi məqsədilə yaradılan, özünün çevik idarəetmə və digər mexanizmləri ilə seçilən, yeni məhsulların mənimsənilməsi sahəsində surətli transformasiya tədbirləri həyata keçirə bilən quruluşlar kimi çıxış etməkdədir. Bununla belə həmin “vahidlər” həmçinin innovativ fəaliyyətin tətbiqini özündə əks etdirməkdədir. Böyük İqtisadi Ensiklopediyada verilən tərifə əsasən “İnnovasiya – texnika və texnologiyanın yeni növlərini təmin edəcək proses olaraq vəsaitlərin iqtisadiyyatda yerləşdirilməsi mənasını daşıyır. Geniş mənada innovasiya elmi-texniki, intellektual potensialı səfərbər edərək səmərəlliliyi və digər iqtisadi fərqlənmələrə nail olunmanı ifadə edən tədbirlər sistemi başa düşülür. Texnologiya istehsalı sferasında və idarə etmədə yeniliyi əks etdirən isim kimi innovasiya yeniləşmə mənasında şərh olunur”. Nəzəri müstəvidə bu terminlə ilk dəfə Amerikan iqtisadçısı Yozef Şumpeterin “İqtisadi inkişafın nəzəriyyəsi” (1912) adlı əsərində rastlaşılır. Əgər ixtira, kəşf əsaslı mexanizmlərin tətbiqi nəticəsində yeni həqiqətləri təsdiq edirsə, innovasiya daha çox təcrübi əhəmiyyətlə seçilməkdədir. Baş verən iqtisadi təkmilləşmələr innovasiyanın məzmun dairəsini genişləndirmiş, ona yeni məqamları əlavə etmişdir. İlkin vaxtlarda o, ancaq texnoloji yenilənmələrlə məhdudlaşırdısa, haliyədə bu terminə idarəetmə təyinatlı yenilənmələr də əlavə olunmuşdur. İnnovasiya prosesi özü ilə müvafiq sistemi əhatə edən və özünün icra kompleksliliyi ilə fərqlənən proses kimi qiymətləndirilməkdədir. Məsələnin mahiyyətinə aydınlıq gətirmək məqsədilə müvafiq prosesə özünün mənfi və müsbət təsirləri ilə seçilən amillər haqqında məlumatların əldə olunması zəruridir. Bunun üçün cədvəl 1-i nəzərdən keçirək. Həmin cədvəldən göründüyü kimi, innovasiya proseslərinə təsir edən amillər əsas etibarı ilə 4 qrupda birləşdirilmişdir. Onların hər biri üzrə subyektlərdə yaranan şəraitdən asılı olaraq sövqedici və mane olan amillər mövcuddur ki, bunlar da reallıqlar nəzərə alınmaqla müvafiq təzahürləri ilə ifadə oluna bilər.

Cədvəl 1. İnnovasiya prosesinə təsir edən amillər

| Amillər qrupu | İnnovasiya fəaliyyətinə şərait yaradan amillər | İnnovasiya fəaliyyətinə mane olan amillər |
|---|---|---|
| İqtisadi, texnoloji | Maliyyə və maddi-texniki vasitə ehtiyatlarının, mütərəqqi texnologiyaların, zəruri təsərrüfat və elmi-texniki infrastrukturun mövcudluğu | İnnovasiya layihələrinin maliyyələşdirilməsi üçün vəsaitlərin, ehtiyat güclərin çatışmazlığı, maddi və elmi-texniki bazanın zəifliyi, cari istehsal maraqlarının üstünlük təşkil etməsi |

| | | |
|---|---|---|
| Siyasi, hüquqi | İnnovasiya tədbirlərini dəstəkləyən qanunvericilik tədbirlərinin mövcudluğu (məsələn, güzəştlər, xüsusi investisiya proqramları), innovasiyaya dövlət dəstəyi | Vergi, antiinhisar, amortizasiya patent-lisenziya və qanunvericiliyin digər yönlərində olan məhdudiyyətlər |
| Sosial-psixoloji, mədəni | İnnovasiya prosesinin iştirakçılarının mənəvi dəstəklənməsi, ictimai məşhurluq, özünün reallaşdırma imkanlarının yaradılması, əmək kollektivində normal psixoloji mühit | Əməkdaşların statusunun dəyişilməsi, yeni iş yerlərinin axtarılmasının vacibliyi, işin yenidən qurulması, köhnəlmiş fəaliyyət üsullarının yenidən təşkili, mövcud stereotiplərin dəyişdirilməsi, qeyri-müəyyənlik qorxusu, uğursuzluğa görə qorxma hissi |
| Təşkilati - idarəetmə | Təşkilati strukturun çevikliyi, demokratik idarəetmə üsulu, üfuqi informasiya axınının üstünlüyü, özünü idarəetmə prinsiplərinə düzgün riayət olunma, əks mərkəzləşdirmə, muxtariyyət, məqsədli işçi qruplarının yaradılması | Subyektin köhnə idaəetmə üsulundan yaralanması, mərkəzləşmə səviyyəsinin yüksəkliyi, avtoritar idarəetmə üsulunun mövcudluğu, şaquli informasiya axınının üstünlüyü, təşkilati qapalılıq, sahələrarası və təşkilatlararası əlaqələrin məhdudluğu, sərt planlaşdırma siyasətinin həyata keçirilməsi, mövcud bazarlara istiqamətlənməilə məhdudlaşma, innovasiya prosesi iştirakçılarının maraqlarının əlaqələndirilməsində çətinliklərin mövcudluğu. |

Aparılan araşdırmalar nəticəsində aydın olmuşdur ki, sənaye sahəsində innovasiya prosesləri-nin xarakterizə edilməsində mühüm şərtlər sırasında maliyyə imkanlarının mövcudluğu öncüllərdən hesab olunur. Müvafiq göstəricinin səviyyələrinin ölkə üzrə öyrənilməsi 2005-2015-ci illər üzrə ən yüksək kəmiyyətin 2005-ci ilə təsadüf edir – 53273 min manat. Onun 53272,2 min manatı məhsul innovasiyalarının, 0,8 min manatı isə proses innovasiyalarının payına düşmüşdür. 2010-2015-ci illəri əhatə edən zaman kəsiyində innovasiyalara çəkilən xərclərdə hər üç göstəricidə "dalğalanmalar" baş vermişdir ki, bu da ilk növbədə subyektlərin maliyyə imkanları ilə əlaqələndirilməlidir. 2010-cu ildə bu göstəricilər 8139, 7952 və 187,3 min manat təşkil etdiyi halda, sonrakı dövrlərdə silsiləvi qaydada (öncəki ilə nisbətən) aşağıdakı dəyişiklər baş vermişdir: a) 2011-ci il üzrə kəmiyyətlərin səviyyəsində - +3,9 dəfə, +3,9 dəfə, +3,7dəfə; b) 2012-ci il üzrə (-70,5) %, ( -80,7)%, +4,9 dəfə; c) 2013-cü il üzrə +48,8%, +99,1%, (-41,0)%; ç) 2014-cü il üzrə +55,2%, +13,5%, +4,1 dəfə; d) 2015-ci il üzrə +63,4%, +1,3%, +2,7 dəfə. Sənaye daxilində innovasiya xərclərinin əsas kütləsi emal sənayesinin payına düşmüşdür. Belə ki, müvafiq göstəricinin payı illər üzrə aşağıdakı kimi olmuşdur: 2010-cu ildə - 99,9%; 2011-ci ildə - 92,8%; 2012-ci ildə - 86,7%; 2013-cü ildə - 85,8%; 2014-cü ildə - 80,7% və 2015-ci ildə - 92,4%. Bu göstərici məhsul və proses innovasiyaları arasında illər üzrə aşağıdakı kimi bölüşdürülmüşdür: a) 2010-cu il üzrə 99,9% və 0,1%; b) 2011-ci il üzrə 97,7% və 2,3%; c) 2012-ci il üzrə 97,7% və 2,3%; ç) 2013-cü il üzrə 64,3% və 35,7%; d) 2014-cü il üzrə 94,6% və 5,4%; ə) 2015-ci il üzrə 34,3% və 65,7%.

Nəzərdən keçirilən zaman kəsiyində emal sənayesinin tərkibində əsas innovativ ağırlıq qida məhsullarının istehsalı, içki istehsalı, kimya sənayesi və maşın və avadanlıqların istehsalının payına düşmüşdür. İnnovasiyaların məhsul üzrə tətbiqi sənayedə iki kateqoriyanın yaranmasına səbəb olur: əhəmiyyətli dəyişikliklərə məruz qalmış və yeni tətbiq olunmuş məhsul; təkmilləşdirilmiş məhsul. İnnovativ xərclərin əsasən emal sənayesinə yönəlməsilə bağlı dediyimiz fikirlər və təcrübi hesablamalar öz əksini emal sənayesinin innovativ məhsulunda tapmaqdadır. Cədvəl 2-də 2011-2015-ci illər üzrə emal sənayesində tətbiq olunan innovasiyalar nəticəsində alınan məhsul və onun ümumi sənayenin tərkibindəki xüsusi çəkisi haqqında məlumatlar göstərilmişdir.

Cədvəl 2.Emal sənayesinin innovativ məhsulunun həcmi, min manat

| | Əhəmiyyətli dəyişikliklərə məruz qalmış və ya yeni tətbiq olmuş məhsul | | | | | Təkmilləşdirilmiş məhsul | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2011 | 2012 | 2013 | 2014 | 2015 |
| Sənaye - cəmi | 13163 | 23052 | 11634 | 12319 | 9297 | 4403 | 0450 | 8831 | 1118 | 589.7 |
| Emal sənayesi | 11090 | 22656 | 11308 | 12319 | 9297 | 3973 | 8096 | 883 | 1118 | 589.7 |
| Emal sənayesinin ümumi sənayedə xüsusi çəkisi, % | 84,3 | 98,3 | 97,2 | 100 | 100 | 27,6 | 77,5 | 99,9 | 100 | 100 |

2014-2015-ci illərdə sənaye sahəsinə tətbiq olunan innovasiyaların nəticəsində alınmış yeni və təkmilləşdirilmiş məhsulların 100%-i emal sənayesinin payına düşür. İnnovasiya prosesləri ilə bağlı qeyd olunan müsbət məqamlar onların "rəvan" olması haqda fikir yaratmamalıdır. Qeyd olunan məsələdə subyektlər bir çox iqtisadi, istehsal və digər amillərdən qaynaqlanan maneələrlə rastlaşmaq mümkündür. Sənaye müəssisələrində innovasiyalara mane olan amillər haqda məlumatın əldə olunması məqsədilə cədvəl 3-ə nəzər salaq.

Cədvəl 3.Sənaye müəssisələrində innovasiyalara mane olan amillər

| | İnnovasiyalara mane olan amilləri aşağıdakı kimi dəyərləndirən müəssisələrin sayı | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | əsas və ya həlledici | | | | əhəmiyyətli | | | | az əhəmiyyətli | | | |
| | 2012 | 2013 | 2014 | 2015 | 2012 | 2013 | 2014 | 2015 | 2012 | 2013 | 2014 | 2015 |
| 1.İqtisadi amillər | | | | | | | | | | | | |
| öz pul vəsaitinin kifayət qədər olmaması | 22 | 25 | 35 | 16 | 7 | 8 | 0 | 9 | 3 | 4 | 3 | 2 |
| dövlət tərəfindən maliyyədövlət tərəfindən maliyyə yardımının kifayət qədər olmaması | 9 | 13 | 12 | 5 | 8 | 2 | 6 | 2 | 0 | 0 | 1 | 2 |
| eni məhsullara ödəniş qabiliyyətli tələbin aşağılığı | 3 | 4 | 4 | 2 | 4 | 5 | 8 | 1 | 6 | 8 | 4 | 9 |
| yeniliklərin dəyərinin yüksək olması | 13 | 8 | 10 | 9 | 9 | 3 | 5 | 3 | 4 | 5 | 1 | 6 |
| yüksək iqtisadi risk | 9 | 7 | 8 | 7 | 1 | 0 | 0 | 4 | 1 | 3 | 7 | 9 |
| təzə məhsullara çəkilən xərclərin əvəzinin ödənilməsi müddətlərinin uzun olması | 7 | 5 | 4 | 4 | 6 | 6 | 4 | 7 | 1 | 6 | 0 | 6 |
| 2.İstehsal amilləri | | | | | | | | | | | | |
| müəssisənin innovasiya potensialının aşağı olması | 5 | 8 | 15 | 7 | 3 | 5 | 5 | 0 | 1 | 3 | 0 | 9 |
| ixtisaslı işçilərin çatışmaması | 2 | 3 | 2 | 3 | 6 | 3 | 9 | 2 | 1 | 9 | 8 | 1 |
| yeni texnologiyalar haqqında informasiyanın çatışmaması | 3 | 5 | 10 | 7 | 7 | 2 | 4 | 9 | 5 | 7 | 4 | 5 |
| müəssisələr tərəfindən yeniliklərin qəbul edilməməsi | 5 | 3 | 3 | 3 | 3 | 2 | 0 | 4 | 8 | 0 | 7 | 8 |
| satış bazarları haqda informasiyanın çatışmaması | 3 | 2 | 4 | 3 | 4 | 5 | 4 | 7 | 7 | 9 | 2 | 1 |
| 3.Digər səbəblər | | | | | | | | | | | | |

| | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Öncəki innovasiyalar nəticəsində təzə məhsullara ehtiyacın olmaması | 2 | 2 | 2 | 3 | 6 | 6 | | | 4 | 0 | 6 | 0 |
| innovativ fəaliyyəti tənzimləyən və həvəsləndirən qanunvericilik və normativ-hüquqi sənədlərin yoxluğu | 1 | 2 | 3 | 4 | 0 | 1 | 2 | 1 | 7 | 7 | 7 | 5 |
| innovasiya prosesi müddətinin qeyri-müəyyənliyi | 2 | 2 | 2 | 3 | 2 | 2 | | 3 | 5 | 8 | 6 | 4 |
| innovasiya infrastrukturunun (vasitəçilik, informasiya, hüquqi, bank və s.xidmətlər) inkişaf etməməsi | 2 | 4 | 2 | 2 | 7 | 3 | 0 | 8 | 7 | 8 | 0 | 4 |
| texnologiyalar bazarının inkişaf etməməsi | 6 | 3 | 4 | 5 | 9 | 9 | 7 | 6 | 5 | 1 | 5 | 5 |

Cədvəlin təhlili əsas ağırlığın “əhəmiyyətli” amillərin payına düşdüyünü göstərir. Həmin amil qruplarının 2012-2015-ci illər üzrə araşdırılması və məcmu şəklində ifadə edilməsində aşağıdakı amillər nəzərə çarpır: iqtisadi amillər sırasında – öz pul vəsaitlərinin kifayət qədər olmaması (134 hal); İstehsal amilləri sırasında – müəssisənin inovasiya potensialının aşağı olması (123 hal); digər amillər sırasında – innovasiya fəaliyyətini tənzimləyən və həvəsləndirən qanunvericilik və hüquqi-normativ sənədlərin yoxluğu (94 hal); texnologialar bazarının ölkə daxilində inkişaf etməməsi (111 hal). Yuxarıdakı maddələr üzrə innovasiyaların tətbiqinə mane olan amillərin tədricən aradan qaldırılması onların tətbiqi proseslərini surətləndirəcəkdir.

İnnovasiya proseslərinin sistemli şəkildə nəzərdən keçirilməsi eyni zamanda innovasiya fəaliyyətinin müxtəlif layihələr formasında ortaya çıxması haqqında məsələlərə də aydınlıq gətirməlidir. Müvafiq layihələrin hazırlanması işləri və onların mərhələlər üzrə düzgün icrası həmin layihələrin müvəffəqiyyətlə yekunlaşdırılmasına şərait yaradır. Təcrübədə qəbul olunmuş tərkibə əsasən innovasiya layihələri aşağıdakı işlərin icrasını özündə əks etdirməlidir: layihənin məqsədinin müəyyən edilməsi və konseptual əsaslarının işlənməsi; layihə üzrə planlaşdırma işlərinin həyata keçirilməsi; layihə-smeta sənədlərinin tərtib olunması. İnnovasiya layihələrinin konseptual əsaslarının müəyyən edilməsi və sistemləşdirilməsində bir sıra mərhələlərə istinad olunmalıdır (sxem 1)

İnnovasiya prosesləri üçün konseptual əsasların hazırlanması mərhələləri əməliyyatlar baxımından özünün müxtəlifliyi ilə seçilməkdədir. Müvafiq ardıcıllıq ideyanın yaranmasından optimal variantın seçilməsinədək davam etməklə öz yerini sonrakı təcrübi tətbiqata verməkdədir ki, burada da real istehsal və digər şərtlər nəzərə alınmaqla innovasiya işlərinə əlavə və dəyişikliklərin edilməsi mümkündür. İnnovasiya layihəsi innovasiya prosesinin modelləşdirilməsi əsasında həyata keçirilir.

Sxem 1. İnnovasiya prosesinin konseptual əsaslarının hazırlanması mərhələləri




İqtisadi tədqiqatlar göstərir ki, təcrübi araşdırmalarda ümumiləşdirilmiş modeldən, yaxud onun əsasında hazırlanan fərdi modellərdən istifadə oluna bilər. Bütün hallarda aparılan işlər “yeni idayalar → tədqiqatlar → istehsal → bazara ötürülmə” marşrutu gözlənilməlidir. Makrosəviyyədə hazırlanan və cəmiyyətin ümumi ehtiyaclarını ehtiva edən innovasiya prosesinin ümumiləşdirilmiş modelini sxem 2 vasitəsilə nəzərdən keçirək.

Sxem 2. İnnovasiya prosesinin ümumiləşdirlmiş modeli




Sxem 2-də ifadə edildiyi kimi, yeni idayaların yaranması səbəbləri kimi bir tərəfdən iqtisadi inkişafın irəliləməsi, digər tərəfdən isə əhalinin artan say ifadələridir ki, bu da bazarlarda da özünü müxtəlif çatışmazlıqlar formasında ifadə etməkdədir. Yaranan vəziyyət artıma və yenilənməyə istiqamətlənən elmi-texniki və digər tədqiqatların aparılmasına yol açır. Nəticə etibarı ilə mütərəqqi ideyaların tətbiqi özünü istehsal və reallaşdırma proseslərində tapmalıdır. Lakin aparılmış işlər heç də onlar üzrə fəaliyyətin başa çatması ilə bağlı fikir yaratmamalıdır. Belə ki, innovasiya nəticələrinin bazarda təşəkkülü onların nə dərəcədə əsaslandırılmış olması haqqında sonrakı düşüncələri ortaya qoymağa, onların yenidən qiymətləndirilməsinə imkan verməlidir. İnnovasiya proseslərinin ümumi şəkildə mərhələrinə gəldikdə isə düşünürük ki, onun aşağıdakı 4 mərhələ üzrə təşkili məqsədəmüvafiqdir: 1.nəzəri cəhətdən əsaslandırılmış elmi-tədqiat işləri; 2.tətbiqi elmi-tədqiqat işləri; 3.təcrübə-konstruktor işləri; 4.layihələşdirmə, tikinti və mənimsəmə. Özündə müsbətə doğru dəyişilmə, yenilənmə, təkmilləşdirmə, tələblərə uyğun transformasiya kimi addımları birləşdirən innovativ fəaliyyət müasir dövrdə ölkə iqtisadiyyatının, o cümlədən onun sənayesinin daha sürətli inkişafına yönələn tədbirlər sistemini məcmu şəklində ifadə etməkdədir. (sxem 3)

Sxem 3. Sənaye müəssisələrində innovativ fəaliyyətin tətbiqi istiqamətləri



Sənaye müəssisələrinin fəaliyyətinin innovativ metod və mexanizmlər əsasında qurulması kifayət qədər geniş, tərkib etibarı ilə özünün müxtəlifliyi ilə seçilən arealı əhatə etməkdədir. Onların təcrübədə tətbiqi və yaranmış situasiyalar əsasında daha təkmil hala salınmasında sənaye parklarının rolu əvəzolunmazdır. Heç də təsadüfi deyil ki, "Sənaye parkları haqqında Nümunəvi Əsasnamənin" I "Ümumi müddəalar" adlı maddəsinin 1.3.1 bəndində "sənaye parkı - .... müasir texnologiyaların tətbiqi yolu ilə rəqabət qabiliyyətli məhsul istehsalı və xidmətlərin göstərilməsi məqsədləri üçün istifadə edilən, sahibkarların səmərəli fəaliyyətinə və inkişafına kömək edən ərazi" kimi qiymətləndirilir. Əsasnamənin 2.0.1-ci bəndində "innovativ və yüksək texnologiyalar əsasında rəqabə qabiliyyətli sənaye istehsalının inkişafı, xidmətlərin göstərilməsi üçün münbit şəraitin yaradılması və bu sahədə sahibkarlığın dəstəklənməsi" ifadəsi ilə rastlaşılır.

Məsələnin belə qoyuluşu sxem 1-in maddələrinin məhz sənaye parkları əsasında izahına şərait yaradır. Müvafiq təsnifatda ilk bölmə sənaye parklarında təmsil olunan subyektlərin idarə olunmasında restrukturizasiya tədbirlərinin tətbiqini zəruri şərt kimi ifadə edir. Müvafiq tədbirlər özündə nümunəvi qaydada aşağıdakı istiqamətləri əhatə etməlidir: 1.Subyektin ümumi optimal quruluşunun, həmçinin idarəetmə, istehsal, infrastruktur və digər komponentlərinin səmərəli kəmiyyət ifadələrinin müəyyən edilməsi, onların tabeçilik, ardıcıllıq, qarşılıqlı əlaqələndirmə prinsipləri əsasında əlverişli təşkilinin təmin olunması; 2.İdarəetmə strukturunun qabardılmaması hesabına işçi personalının məqbul ifadələrinin müəyyən edilməsi, onların peşəkar qabiliyyətlərinin artırılması yönündə mütəmadi tədbirlərin həyata keçirilməsi; 3.İstehsal prosesinin ixtisaslaşma profilinə uyğun təşkili, müasir texniki vasitələrə və texnologiyalara malikolma əsasında istehlakçı ehtiyacları nəzərə alınmaqla fərdi sifarişlərin də yerinə yetirilməsinin təmin olunması; 4.İstehsal ehtiyatları üzrə planlaşdırma işlərinin düzgün həyata keçirilməsi, bu əsasda ekstremal hallarda fasiləsiz istehsal fəaliyyətinin təmin olunması; 5.Sənaye parkları subyektləri üçün nəzərdə tutulan imtiyazlı şərtlərdən, stimullaşdırıcı addım və mexanizmlərdən istifadə olunması əsasında fəaliyyətin maliyyə və digər göstəricilərini yaxşılaşdırılması; 6.Sənəd dövriyyəsinin qanunvericiliyin tələbləri əsasında təşkili ilə yanaşı müasir elektron informasiya vasitələrindən geniş istifadəyə nail olunması; 7.Elektron məlumatlandırma sisteminin nəaliyyətlərindən geniş istifadə əsasında özündə istehsal olunan məhsulların satış bazarlarındakı bərqərar olmuş qiymətləri və digər şərtləri haqqında operativ məlumatların əldə olunması; 8.Məhsul istehlakçıları ilə intensiv əlaqələrin qurulması, reallaşdırma məkanlarında təbliğat xarakterli işlərin (reklam və s.) aparılması yolu ilə yeni alıcıların cəlb edilməsi, perspektiv dövrlər üçün müqavilələrin bağlanılması, bu zaman "elektron ticarət", "məhsulların istehlakçının qapısında təslim edilməsi", "satışdan sonra ödəmə", "kreditə satış" variantları üzrə imkanların qiymətləndirilməsi və onlardan səmərəli istifadə edilməsi və s.

Sənaye parkları və orada təmsil olunan subyektlərin yerinə yetirdiyi idarəetmə təyinatlı işlər məcmusu özünün müxtəlif növlülüyü ilə fərqlənməkdədir. Reallığa gəldikdə qeyd etmək yerinə düşər ki, sənaye müəssisələrinin idarə edilməsi özü-özlüyündə artıq formalaşmış, nümunəvi şəkilə salınmış bəlli mexanizmlər əsasında həyata keçirilməkdədir. Bununla belə operativlik, optimallıq, çeviklik, ixtisaslaşma profili, məhsuldar fəaliyyətin təşkili və digər əlaqəli prinsiplərdən istifadə subyektlərin quruluşunda bir sıra dəyişikliklər etməyə, onu daha işlək hala salmağa imkan verir. Həmin işlərin icrası istər sənaye parkının subyekti ilə iqtisadi və sair əlaqələrdə olan digər subyektlər, istər subyektdaxili "manqalar", istərsə də subyektlə parkın idarəedici təşkilatı və operatoru arasında yaranan qarşılıqlı əlaqələrin formalaşması üsuluna, səviyyəsinə, intensivliyinə və digər cəhətlər təsirsiz ötüşmür, onları mütərəqqilik baxımından irəli aparmış olur.

Təsnifatda ikinci bənd olaraq yeni texnika və texnologiyaların tətbiqi ilə əlaqədar olan innovasiyalar yer almışdır. Özünün səbəbləri sırasında müasir tələblərə cavab verən məhsulları istehsal etmək qabiliyyətinin zəifləməsi, müasir dövrün tələbləri ilə uyğunlaşma, artan tələbatın istehsal tərəfindən qarşılanması kimi maddələri ifadə edən maddə öz növbəsində yaranan vəziyyətdən mühüm çıxış yollarından biri kimi də qiymətləndirilməlidir. Texniki və texnoloji yenilənmələr aparılma istiqamətləri üzrə də təsnifləşdirilməlidir.

Təsnifatda hüquqi bazanın təkmilləşdirilməsi kimi ifadə olunan üçüncü bənd özünün spesifikliyi ilə fərqlənməkdədir. İlk növbədə qeyd etmək zəruridir ki, istənilən fəaliyyətin həyata keçirilməsi onun hüquqi tənzimlənməsini həyata keçirəcək olan birbaşa normativ sənədlərin olmaması

halında mümkün deyildir. Bu baxımdan nümunə kimi “Sənaye parkları haqqında Nümunəvi Əsasnamə”, hər bir sənaye parkının mövcudluğunu təsdiqləyən Respublika Prezidentinin Sərəncamları göstərilə bilər. Lakin tammənalı fəaliyyətin təmin edilməsi sənaye parkının rezidentlərinin və onları təmsil edən subyektlərin hüquqi müstəvidə məşğuliyyətinə aydınlıq gətirməli, onların çoxsaylı tərəflərini nizamlamalıdır. Bu baxımdan “Sahibkarlıq fəaliyyəti haqqında”, “Mülkiyyət haqqında”, “İcarə haqqında”, “Ətraf mühitin mühafizəsi haqqında” və Azərbaycan Respublikasının sair Qanunlarının, digər hüquqi-normativ aktların mövcudluğu, onlarda təsbit olunan normaların tətbiqi sənaye parkları üzrə işlərin təşkili və həyata keçirilməsində mühüm rol oynaycaqdır. Buraya həmçinin region və sahə aidiyyatı ilə seçilən Dövlət Proqramlarının, “Strateji Yol Xəritəsinin”, “Azərbaycan–2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasının, Əmək Məcəlləsinin və digər normativ aktların müddəalarında təsbit olunan maddələrin tələbləri də əlavə olunmalıdır. Sadalanan və makrotəyinata malik normativ sənədlərlə yanaşı, idarəetmə, bank, vergi və maliyyə fəaliyyətinin tənzimlənməsinə yönələn hüquqi aktlar da kənarda qalmamalı, onların tələblərinə sənaye parklarının subyektləri tərəfindən riayət edilməlidir. Qanunlar və digər hüquqi-normativ aktlar “dəyişilməzlik” qaydasında fəaliyyət göstərmir. Onlar ölkə iqtisadiyyatında baş verən dəyişikliklərdən, beynəlxalq təcrübədə mümkün olan mütərəqqi hüquqi irəliləmələrdən asılı olaraq daim yenilənmə və təkmilləşdirmələrə məruz qalmalıdır. Təsadüfi deyil ki, 1991-ci ildən müstəqilliyini əldə etmiş ölkədə sənaye sahəsinin fəaliyyəti ardıcıl həyata keçirilsə də, daha mütərəqqi mexanizmlərə malik olacaq sənaye parklarının yaradılması zərurəti 2011-ci ildə SKSP-nin təşkili ilə mümkün olmuş, belə quruluşların fəaliyyətinin tənzimlənməsi məqsədilə işlənilən və təsdiq olunan Əsasnamə isə 2013-cü ildə icraata verilmişdir.

Sənaye müəssisələrinin infrastruktur imkanlarını genişləndirəcək innovasiyalar sırasında istər sənaye parkının, istərsə də orada təmsil olunan subyektlərin imkanlarından irəli gələn yenilikçi addımların atılması göstərilə bilər. Onun tərkibində enerji, qaz, su-kanalizasiya xidmətlərinin mövcudluğu, anbar təsərrüfatı, köməkçi istehsal sahələri, müxtəlif nəqliyyat növlərindən istifadə imkanları öz əksini tapmaqdadır. İnnovativ tədbirlərin bəhs olunan istiqamətdə həyata keçirilməsi ilk növbədə onlarla təminatın təşkili nəzərdə tutduğu halda, digər tərəfdən səmərəli istifadə məsələlərini ortaya qoyur. Bu sırada: elektrik enerjisi, su və qaz ehtiyatlarından səmərəli istifadəyə yönələn addımların atılması, bu zaman elektron tənzimləyici qurğuların istehsalda istifadəsinin təmin olunması; istehsal texnologiyasının dəyişdirilməsindən irəli gələrək avadanlaıqların istismarında, texniki proseslərin qurulmasında elektrik energisinə və qaza üstünlük verilməsi; texnoloji proseslərin xüsusiyyətlərinin nəzərə alınması, ətraflı öyrənilməsi əsasında onlarda əlavə texniki vasitələrin və texnologiyaların iştirakının təmin edilməsi; yükdaşımaların vasitə, üsul və formalarının birinin digəri ilə əvəzlənməsi; ayrı-ayrı xidmətlər üzrə ixtisaslaşan işçilərin parkdan kənar ərazilərdə operativ hərəkət mobillliyinin təmini məqsədilə qarışıq təyinalı avtonəqliyyat vasitələrindən istifadə olunması və s.

Yuxarıda qruplar şəklində ifadə edilmiş hər bir infrastruktur ünsürü istehsalın təşkili və həyata keçirilməsinə birbaşa və dolayı təsiri ilə seçilməkdədir. Yaranmış situasiyalardan asılı olaraq innovativ tədbir obyekti kimi onların hansına müraciət olunması ilə bağlı qərar ilk növbədə park subyektinin özü tərəfindən qəbul olunmalıdır. İnnovativ tədbirlər sırasında sənaye parkları subyektlərinin maliyyə-hesablaşma fəaliyyətinin təkmilləşdirilməsi ilə müşayət olunan yeniliklərin tətbiqi spesifik xüsusiyyətlərlə seçilməkdədir. Sənaye parkında maliyyə-hesablaşma fəaliyyətinin təşkili üzrə innovativ tədbirlər istər onun subyektlərini, istərsə də parkın operatorunu əhatə etməlidir. Belə ki, parkda fəaliyyət göstərən hər bir “iştirakçı” dövri olaraq özünün maliyyə-təsərrüfat fəaliyyətinə aydınlıq gətirməli, onun parametrlərini dəqiqləşdirməlidir. Park subyektinin maliyyə vəziyyətinin qiymətləndirilməsinin asanlaşmasının əsasını onda olan kargüzarlıq və uçot işlərinin avtomatlaşdırılması səviyyəsi müəyyən edir. Belə ki: subyekt üzrə bütün sənədləşmə işlərinin elektron-hesablama sistemi və vahid proqram əsasında həyata keçirilməsi, maliyyə və idarəetmə uçotunun dəqiq sərhədlərinin müəyyən edilməsi, kənar subyektlərlə hesablaşmaların vəziyyətinin əks olunmasında aydınlığın və dürüstlüyün qorunması; nağd və nağdsız hesablaşmaların həcm və tərkib elementlərinin dəqiqləşdirilməsi; məcburi maliyyə ödənişlərinin həyata keçirilməsi üzrə optimal ölçülərin müəyyən olunması; kalkulyasiya maddələri üzrə işlərin maliyyə qanunvericiliyinin tələblərinə uyğun təşkili və sair istiqamətlərdə innovativ addımların atılması mümkündür.

"Sənaye parkları haqqında Nümunə Əsasnamə"yə müvafiq olaraq sənaye parkının subyektləri səlahiyyətli orqanın müəyyən etdiyi qaydalara uyğun olaraq (bənd 7.1.6) parkın operatoruna özlərinin fəaliyyəti haqqında hesabat-statistik məlumatlar təqdim etməli, subyektdaxili monitorinqlər aparılmasına şərait yaratmalıdırlar.Öz növbəsində idarəedici təşkilatın səlahiyyətli nümayəndəsi olan parkın operatoru da özündə müvafiq maliyyə-hesablaşma xarakterli işləri təşkil etməli, onların aparılmasının təkmilləşdirilməsi sahəsində fəaliyyəti həyata keçirməlidir. Hər bir rezident və onun subyekti haqqında maliyyə-hesablaşma təyinatlı informasiya operatorun məlumat bazasında fərdi "modullar" şəklində zaman ifadələri nəzərə alınmaqla toplanılmalı və kodlaşdırılmalıdır.

Sənaye parkları tərəfindən tətbiq olunan innovativ fəaliyyətin tərəflərindən biri kimi onun subyektlərinin yeni məhsulların mənimsənilməsi sahəsində tətbiq edə biləcəyi yenilikçi, mütərəqqi fəaliyyət, onun istehsal mərhələlərində istifadə olunan texnoloji təkmilləşdirmələr hesab oluna bilər. Bəhs olunan fəaliyyətin baş verməsi sırasında mühüm amilləri aşağıdakı kimi sadalamaq mümkündür: yeni texniki vasitələrin və texnologiyaların tətbiqi nəticəsində istehsal imkanlarının genişlənməsi; zamanla istehlak tələblərinin dəyişilməsi; c) aparılmış tədqiqatlar nəticəsində istehsal olunan məhsulların tərkib və digər xassələrinə təkmilləşdirmələrin aparılması; ç) coğrafi-iqlim, regional, milli xüsusiyyətlərdən irəli gələn yeni məhsul növlərinin istehsalına keçid; d) regionların sosial-iqtisadi inkişafından irəli gələn, yeni istehsal sahələrinin istismara verilməsindən qaynaqlanan istehsal istiqamətindəki dəyişmələr; ə) elmi araşdırmaların nəticəsində yeni xammal və material növlərinin, istehsal əlavələrinin kəşvi və s. səbəblərdən qaynaqlanan sonrakı fəaliyyətin təşkili digər şərtlərlə yanaşı eyni zamanda innovasiya xarakterli işlərin həyata keçirilməsi imkanlarını gətirmiş olur.

Sonda qeyd etmək yerinə düşər ki, çevik idarəetmə və digər mexanizmləri ilə seçilən, cəmiyyətin tələblərinə operativ reaksiya vermək imkanına malik olan sənaye parklarında innovativ tədbirlərin həyata keçirilməsi üçün kifayət qədər obyekt və istiqamətlər mövcuddur.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı, 26 dekabr 2014-cü il. http://www. e-qanun.az /
2. Баликоев К.А. Индустриальные парки России: отраслевой обзор. М: НП "Ассоциация ИП", 2014. 234с.
3. Ветракова Ю.В., Симоненко Е.С. Управление инновациями: теория и практика. Учебное пособие. М: Эксмо, 2008. 223 с.
4. Кабашкин В.А. Государственно-частное партнерство, международный опыт и российские перспективы, М: ООО "МИЦ", 2010. 250 с.
5. Пушкин А.В., Богданов И.Г. Особые экономические зоны в России. М.: Альпина Паблишер, 2009, 232с.
6. Родионова И.А. Мировая экономика: индустриальный сектор, 2-ое издание. М, РУДН, 2010. 528с.
7. Сандлер Д.Г., Кузнецов П.Д. Индустриальные парки в России, концептуальная проработка проектов. Екатеринбург, Полигр.УФУ, 2015, 198с.
8. www. stat.gov.az
9. www. statistika.nmr.az



## ABSTRACT

**Araz Asgarov**

### INDUSTRIAL PARKS - AS ONE OF THE MAIN CONDITIONS FOR THE ESTABLISHMENT OF INNOVATIVE ACTIVITY IN THE REPUBLIC

The main research topic in the article has been industrial parks.Its main content is the disclosure of the aims and objectives of innovative activities in the respective parks, the classification of factor groups affecting these processes, and the creation and inhibition of innovation processes.

During the research, specialist enterprises in the industry sector were reviewed in Azerbaijan and absolute and relative expressions were used on the volume of products received on general and internal components.In addition, the factors impeding the steps of innovation in industrial enterprises have been examined in terms of economic, production and other parameters in terms of statistical figures.As one of the remarkable points in the story, it sees the stages of the preparation of the conceptual basis of the innovation process.During the research they were mentioned in working in a single system, and the generalized model of the innovation processes was mentioned extensively.The application of innovative activities in industrial enterprises reflects the actual situation in the organization of this activity.The issue has also been widely discussed in the legislative base used during the establishment of industrial parks and the organization of its activities.Here, the establishment of research on the basis of legal and normative documents which directly illuminates the effectiveness of the regional and welfare State programs, the laws of the Republic of Azerbaijan, and the industrial parks, in essence, means the provision of a systematic approach to the studied issue.

**РЕЗЮМЕ**

**Араз Аскеров**

**ПРОМЫШЛЕННЫЕ ПАРКИ – ОДНО ИЗ НАПРАВЛЕНИЙ ВОПЛОЩЕНИЯ ИННОВАЦИОННОЙ ДЕЯТЕЛЬНОСТИ В РЕСПУБЛИКЕ**

В статье основным объектом исследования выбраны промышленные парки. Ее основная сущность раскрытие целей и задач проведения инновативной деятельности в соответствующих парках, группирование факторов, влияющих на эти процессы, выявление на них сопутствующих и мешающих (торможающих) факторов. Во время исследования рассмотрены предприятия, профилирующиеся по промышленности, использованы в натуральном и относительном выражения объемов полученной продукции по общему и отдельным составным направлениям. Также дана конкретная статистическая характеристика мешающим факторам по экономическим, производственныи и другим параметрам.

Одним из притягивающих внимание ньюансов по теме являются стади подготовки концептуальных основ инновационных процессов. Во время исследования они рассмотрены в системной форме, повествовано об обобщенном моделе инновационных процесов. Направления примененния инновационной деятельности в промышленных предприятиях информируют о рельном положении организации дел по организации деятельности.

В теме широко повествовано о юридической базе по созданию и организации деятельности промышленных парков. Здесь проведение исследования на основе как региональных и отраслевых Государственных Программ, Законов Азербайджанской Республики, так и право-во-нормативных документов, касающихся непосредственно промышленных парков выражает системное отношение к изучаемой теме.

NDU-nun Elmi Şurasının 19 oktyabr 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 02).
Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

**ZAUR ƏLİYEV**
*Naxçıvan Dövlət Universitetinin*
know.howtax@gmail.com

**UOT:338**

# İQTİSADİ İNKİŞAF VƏ MƏŞĞULLUQ ARASINDAKI ƏLAQƏ: NAXÇIVAN MUXTAR RESPUBLİKASI TİMSALINDA

**Açar sözlər:** *İqtisadi inkişaf, məşğulluq siyasəti, investisiya qoyuluşları, texnoparklar, sənaye zonaları, dövlət tənzimlənməsinin rolu, strateji resurs, iqtisadiyyatın diversifikasiyası*

**Keywords:** *Economical development, employment policy, investments, technology parks, industrial zones, role of state regulation, strategic resource, diversification of the economy*

**Ключевые слова:** *Экономическое развитие, политика занятости, инвестиции, технологические парки, промышленные зоны, роль государственного регулирования, стратегический ресурс, диверсификация экономики*

Bu gün ölkələrin qarşılaşdığı ən böyük problemlərdən biri məşğulluq sahələrinin artımını təmin edə bilməməkdir. Əməyə tələbin olmamasının bir neçə səbəbi vardır. İqtisadi baxımdan əməyə olan tələbi artırmağın üsullarından biri iqtisadi inkişafın təmin olunmasıdır. İqtisadi inkişafı təmin edən amillər xüsusi əhəmiyyətə malikdir. Lakin dünya iqtisadiyyatı təhlil edildiyində yüksək iqtisadi inkişafı göstərən statistik rəqəmlərlə müqayisədə məşğulluğun artmaması arasındakı ziddiyyətli əlaqə iqtisadi inkişaf və məşğulluq barədə tədqiqatların aparılmasına səbəb olmuşdur. Bu iki makroiqtisadi dəyişən iqtisadi inkişaf və məşğulluq əlaqəsi Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatı və iqtisadi siyasəti üçün də son dərəcə əhəmiyyətlidir.

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan iqtisadi inkişaf strategiyasının uğurla davam etdirilməsi nəticəsində Naxçıvan Muxtar Respublikasında dinamik inkişafın möhkəm təməli yaradılmışdır [1, s.13].

Muxtar respublikanın Azərbaycan Respublikasının əsas ərazisindən təcrid edilmiş coğrafi məkanda yerləşməsi və bununla əlaqədar burada yerli tələbatı müvafiq istehsal sahələri yaratmaq hesabına təmin etmək zərurəti ilə izah olunur. İqtisadi cəhətdən inkişafda olan Naxçıvan Muxtar Respublikası çoxsahəli sənaye və aqrar-sənaye respublikasıdır. Naxçıvan Muxtar Respublikasında artan əhali tələbatına uyğun olaraq iqtisadiyyatın şaxələndirilməsi, sosial sahənin inkişafı üzrə aparılan tədbirlər ən mühüm prinsiplərdəndir [2, s.16].

Naxçıvan iqtisadiyyatında baş verən dəyişiklikləri, əldə olunan nailiyyətləri ilk dəfə özünün "Naxçıvan iqtisadiyyatının prioritetləri: iqtisadi artım, dinamik inkişaf" adlı kitabında qələmə alan və əsərini Ulu öndər Heydər Əliyevin anadan olmasının 85 illiyinə həsr edən, prezidentimiz tərəfindən tərəqqi medalı ilə təltif olunmuş dəyərli iqtisadçı, professor Əhmədov Nazim Hidayət oğlu geniş araşdırmalarının və təhlillərinin sonunda haqlı olaraq qeyd edir ki, Naxçıvan iqtisadiyyatında artım baş verir və dinamik inkişaf edir. O, əsərində statistik göstəricilərə əsaslanaraq Naxçıvan Muxtar Respublikası iqtisadiyyatının bəzi sahələri üzrə göstəricilərinin bütövlükdə ölkənin və iqtisadi rayonların iqtisadi göstəricilərinin xeyli qabaqladığını elmi cəhətdən əsaslandırmışdır.

Dəyərli iqtisadçı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun Naxçıvanda yeritdiyi uğurlu iqtisadi siyasəti məhz Heydər və İlham Əliyevlərin yeritdikləri iqtisadi siyasətin davamı kimi qiymətləndirmişdir.

Tədqiqatın məqsədi Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatında 2012 – 2016-ci il dövr intervalında iqtisadi inkişaf və məşğulluq arasındakı əlaqəni statistik rəqəm göstəricilərindən, induksiya, deduksiya, analiz-sintez, tarixi, məntiqi metodlardan istifadə etməklə qiymətləndirməkdir.

Azərbaycan Respublikasının konstitusiyasının 35-ci maddəsinin 8-ci bəndində deyilir.

Dövlət işsizliyin aradan qaldırılması üçün bütün imkanlardan istifadə edir. Hər bir dövlətin qarşısında duran ən əsas məsələlərdən biri iqtisadiyyatın inkişafını təmin etmək, ölkə vətəndaşlarının bu və ya digər tələbatını ödəməkdir. İqtisadiyyatın inkişafında müəssisələrin yeri danılmazdır. Müəssisələrin inkişafı ölkə iqtisadiyyatının inkişafına, işsizlik probleminin həllinə, insanların rifahının artmasına gətirib çıxarır. Müəssisə və onun rəhbərlərinin əsas məqsədlərindən biri istehlakçıların arzularını təmin edəcək məhsullar istehsal etmək və xidmətlər göstərməkdir [4, s.9 ].

Öz kiçik sahibkarlığını yaradanların sayı artıqca ölkəmiz də daha etibarlı bir yer olacaqdır. Ən yaxşı vətəndaşlar, ölkənin inkişafında ən çox marağı olanlardır. Biz öz daxili bazarımızı qoruyuruq, daxili istehsalçılara daha da əlverişli şərait yaradırıq və yaradacağıq.

Dövlət başçısının bu cür prinsipial mövqeyi ona görə böyük məna daşıyır ki, real sektorun eləcə də iqtisadiyyatın inkişafında özünü göstərən meyillər daha da gücləndirilsin, məşğulluq strukturunun təkmilləşdirilməsi və genişləndirilməsi, ərzaq təhlükəsizliyinin təmin edilməsi istiqamətində görülən işlərin nəticələri daha yüksək olsun.

Azərbaycan Respublikasının konstitusiyasının 35-ci maddəsinin 1-ci bəndində deyilir.

Əmək fərdi və ictimai rifahın əsasıdır.

Məhsul istehsal etmək, xidmət göstərmək üçün şübhəsiz əməyə ehtiyac vardır. Məşğulluğun ilkin göstəricisi ölkə daxilində məhsul və xidmətə olan tələbdir. İdxalat və ixracat səviyyələri məşğulluğu müəyyən edən digər faktorlardır. Bu amilləri birlikdə göstərmək istədikdə aşağıdakı düsturu almış olarıq.

ÜDM (ümumi daxili məhsul)=ölkə daxili tələb+(idxalat-ixracat)

Beləliklə ümumi daxili məhsulun məşğulluğun ilkin göstəricisi olduğunu deyə bilərik. Lakin istehsal zamanı istifadə edilən metodlar, işçi əmək haqqı məsrəfləri, istehsal gücü məşğulluğun digər müəyyənləşdirici amilləridir. İqtisadi artıma aşağıdakı formada tərif verə bilərik.

Ölkədəki müəyyən bir dövrdə istehsal edilən bütün məhsulların və göstərilən xidmətlərin pul ifadəsi olan ümumi daxili məhsulda əmələ gələn artıma iqtisadi artım deyilir. Yəni ölkədəki mövcud məşğulluq səviyyəsinin, iqtisadi resursların dəyişməz qalması şərtilə istifadə edilən qaynaqlara yenilərinin əlavə edilməsi yoluyla iqtisadi artıma nail olunur.

Qeyd etmək lazımdır ki, iqtisadi inkişaf termini ilə iqtisadi artım termini bir birlərinə bənzəsələr də onlar tamamilə fərqli anlayışlardır. 1903-1987-ci illərdə yaşamış 1947-ci ildə “le revenu national son calcul et sa signification–milli gəlir, hesablanması və mahiyyəti” əsərinin müəllifi fransız iqtisadçı Franchois Perru iqtisadi artım və iqtisadi inkişaf terminlərinə çox yaxşı izah etmişdir. Onun fikirincə iqtisadi artım real milli gəlirin müəyyən bir dövr daxilində ardıcıl dəyişməsidir. Bu adambaşına düşən ümum daxili məhsulla ölçülə bilər. İqtisadi inkişaf isə daha çox iqtisadiyyatın müxtəlif sahələrində və bütünlükdə struktural əsasında olan dəyişikliklərdir. İqtisadi inkişaf artım ilə birlikdə bu struktural dəyişiklikləri də özündə cəmləşdirir və buna görə də daha geniş anlayışdır.

İqtisadi inkişafa təsir edən amillərdən biri sayılan səmərəli fəaliyyəti qeyd etməmək olmaz.

İlkin olaraq istehlak xərcləri, investisiya qoyuluşları, məhsul istehsalındakı artım, idxalat və ixracat arasındakı fərq ümumi daxili məhsulu əhatə edən amillərdir.

Məşğulluq anlayışını tam məşğulluq və natamam məşğulluq olaraq iki hissəyə ayırmaq mümkündür.

Tam məşğulluq cari əmək haqqı səviyyəsində işləmək istəyən hər kəsin iş tapa bildiyi məşğulluq formasıdır. Əgər işsizləri məşğulluqla təmin edəcək qədər iş yerləri mövcuddursa, bir miqdar insanın işsiz qalması iqtisadiyyatda tam məşğulluğunun təmin olunmaması mənasını vermir. [5, s. 48]

Natamam məşğulluğun özünü də iki hissəyə ayırmaq mümkündür.

Ölçülə bilən natamam məşğulluq – iqtisadi səbəblərdən mövcud işində qırx saatdan daha az müddət işləyən ya da ikinci bir işdə daha çox müddət işləməyə imkanı olan şəxslərdir.

Digər səbəblərdən natamam məşğulluq – ölçüləbilən natamam məşğulluğa aid edilən müddəalar istisna olmaqla qalan digər səbəblərə görə yəni əldə etdiyi gəlirin azlığı, friksion işsizlər

(öz peşəsinə, ixtisasına görə iş tapa bilməyən, mövcud işini dəyişdirmək niyyətində olan və yaxud ikinci bir iş axtardığını bildirən şəxslərdir).

İqtisadiyyat ədəbiyyatlarında bir çox inkişaf nəzəriyyəsi vardır. Nəzəriyyədəki ilk inkişaf modeli klassik inkişaf modelidir.

Klassik inkişaf modeli çoxlu sayda iqtisadi mütəfəkkürün fikirlərinin süzgəcdən keçmiş akumlyasiyasından meydana gəlmişdir. Lakin klassik nəzəriyyəyə ən böyük yenilik David Rikardo tərəfindən gətirilmişdir.Adam Smith də iqtisadi inkişaf ilə bağlı dəyərli düşüncələrini "xalqların sərvətlərinin əsasları" əsərində qeyd etmişdir.

Klassiklərin fikirlərinə görə iqtisadi inkişafı sərmayə yığımı ilə təmin etmək olar. Sərmayə yığımının qaynağını qənəatçillikdə görürdülər. Qənaətlər investisiyaya çevrilir və beləliklə iqtisadi inkişaf təmin olunur.

David Rikardoya görə kapitalistlərin əsas məqsədi mənfəət əldə etməkdir və onlar istehsalın səmərəliliyini, fasiləsizliyini daim təmin etmək uğrunda səylər göstərirlər.

İstehsalı artırmaq üçün daha çox işçi qüvvəsi məşğulluqla təmin edilməlidir ki, bu zaman da əmək haqqı artacaq və bunun qarşılığında da əhalinin artımına səbəb olacaqdır.

Belə olan təqdirdə məhsullarına tələb artacaqdır və bunun nəticəsində iqtisadi artım yaranacaqdır.

İkinci inkişaf modeli də Harrod-Domar modelidir. Harrod və Domar Keynesçi iqtisadçılardır. Harrod Keynes kimi natamam məşğulluqdan tam məşğulluğa gedən yolun tətqiqatı ilə məşğul olmuşdur. Lakin, Con Menyard Keynes qısa dövrdə makro-statistik metodla, Harrod isə makrodinamik metodla tədqiqat aparmışdır [6, s.29].

Harrod - Domar inkişaf modelini məcmu tələb, istehsal və məşğulluq arasındakı əlaqədən əmələ gəldiyini demişdir. O inkişaf sürətini son qənaətlilik səviyyəsi və sərmayə qoyuluşu əmsalı ilə izah etmişdir.

İqtisadi inkişaf sərmayə qoyuluşu əmsalı dəyər ilə tərs mütənasib olduğu halda son qənaətlilik səviyyəsi ilə düz mütənasibdir. Yəni iqtisadiyyatda son qənaətlilik səviyyəsi artdıqca və sərmayə qoyuluşu azaldıqca iqtisadi inkişaf sürəti artacaqdır [7, s.332 ].

Üçüncü inkişaf modeli Neo-Klassik inkişaf modelidir. 1956-cı ildə Solow tərəfindən nəzəriyyəyə gətirilmişdir. Bir inkişaf modeli tanınmış dünya iqtisadçıları tərəfindən qəbul edilmişdir. Modelin əsas predmeti qənaət, investisiya və iqtisadi inkişafın xarici dəyişən olan əhali artımı və texnoloji inkişafla bağlı əlaqəsinin öyrənilməsidir. Solow tədqiqatında nəticə olaraq Keynesin fikirlərini də diqqətə almışdır. Solow modelində bazar iqtisadiyyatında qərarlılıq vardır. Uzunmüddətli dövrdə iqtisadiyyat dayanıqlı və müvazinətli inkişaf tsklində olur. Müvazinətli inkişaf dövründə sərmayə yığımı, əhali artımı və texnoloji inkişafdakı innovasiyaların bir-biri ilə əlaqələri nəzərə alınır. Əlaqələri geniş şəkildə qeyd etsək əhali artımı inkişaf səviyyəsinə təsir edər lakin, inkişaf səviyyəsi əhali artımına təsir etməz. Digər əlaqədə isə texnoloji inkişaf iqtisadi inkişaf səviyyəsinə təsir etdiyi halda iqtisadi inkişaf səviyyəsi texnoloji inkişafa təsir göstərmir. Qeyd edilənlərdən belə nəticə çıxarmaq olar ki, iqtisadi inkişaf səviyyəsi ilə əhali artımı və texnoloji inkişaf arasında tək tərəfli səbəb-nəticə əlaqəsi vardır.

Son inkişaf modeli daxili inkişaf nəzəriyyəsidir. Burada iqtisadi inkişaf sistemi daxili amillərlə əlaqələndirilmişdir. Neo-klassik inkişaf prinsipində xüsusilə inkişaf səviyyəsinə təsir edən amillərin müəyyənləşdirilməsində kifayət qədər əsaslı metodlar mövcud deyil. İlk dəfə Romer tədqiqatında daxili inkişaf modellərini ətraflı şəkildə izah etmişdir [8, s.89 ].

İqtisadi inkişafa səbəb olan əsas faktorlar barədə müxtəlif yanaşmalar mövcuddur.

Bu yanaşmalara AK modelini, Arrow-Romer modelini, Lucas modelini, Ar-Ge modelini misal olaraq göstərmək olar.

İqtisadi inkişaf, məşğulluq və əhalinin rifah halının yüksəldilməsində dövlət tənzimlənməsinin rolu və əhəmiyyəti olduqca çoxdur.

Dünya praktikasinda dövlət məşğulluq siyasətinin aktiv və passiv formaları fərqləndirilir. Aktiv siyasət zamanı, dövlət işsizliyin həcmini hüquqi, təşkilati və iqtisadi tədbirlər vasitəsilə aşağı salır. Bu siyasət yeni iş yerlərinin yaradılması, iş axtaran vətəndaşların yenidən hazırlanması, işədüzəlmədə onlara kömək, kiçik və orta biznesin, özünə məşğulluğun inkişafı və.s nəzərdə tutulur. Məşğulluğun passiv siyasəti isə işsizliyin mənfi nəticələrinin aradan qaldırılmasına yönəlmiş

tədbirlərin həyata keçirilməsini nəzərdə tutur. Bu zaman, dövlət tərəfindən işsizliyə maddi köməklərin göstərilməsi, vəsaitlərin verilməsi, zəruri məhsulların paylanması, xüsusi yeməkxana-larda qidalanmanın təşkili və.s tədbirlər həyata keçirilir [9, s.45].

Bu məqalədə rəqəm göstəriciləri Naxçıvan Muxtar Respublikasının Dövlət Statistika Komitəsinin rəsmi internet səhifəsindən əldə edilmişdir. Burada Naxçıvan Muxtar Respublikasının 2012-2016-ci illərdəki sosial iqtisadi göstəriciləri cədvəl 1-də verilmişdir.

Cədvəl 1. Naxçıvan Muxtar Respublikasının 2012-2016-ci illərdəki sosial iqtisadi göstəriciləri.

| | **2012** | **2013** | **2014** | **2015** | **2016** |
|---|---|---|---|---|---|
| Ümumi Daxili Məhsul | 2103424,3 | 2338927,7 | 2391004,2 | 2467422,4 | 2582361,4 |
| Sənaye məhsulunun ümumi həcmi | 799492,4 | 862870,5 | 891486,4 | 916817,9 | 942944,7 |
| Əsas kapitala yönəldilən investisiyalar | 982264,7 | 1037748,4 | 924628,6 | 951196,5 | 997609 |
| Kənd təsərrüfatının ümumi məhsulu | 318836 | 337127,2 | 355156,7 | 402991,8 | 429448,4 |
| Nəqliyyat sektorunda yük daşınması (min ton) | 13952,4 | 15280,2 | 15564,1 | 15898,3 | 16082,7 |
| İnformasiya və rabitə xidmətlərinin həcmi | 42474,2 | 45051,9 | 46085,5 | 46908,4 | 48727,2 |
| Pərakəndə əmtəə dövriyyəsi | 975352,6 | 1108699,1 | 1144494,4 | 1276986,7 | 1506343,6 |
| Əhaliyə göstərilmiş pullu xidmətlər | 149734,9 | 180737,6 | 187086,4 | 195829,5 | 213651,4 |
| Əhalinin gəlirləri | 1623420,9 | 1737057,9 | 1775741,6 | 1804178,6 | 1825591,9 |
| Hər bir nəfərə düşən gəlirlər (manat) | 3839 | 4027,5 | 4058,8 | 4080,9 | 4085,9 |
| Orta aylıq əməkhaqqı (manat) | 365,1 | 376,6 | 391,3 | 399,5 | 413,2 |

Cədvəl 1-də göründüyü kimi 2016-cı ildə 2012-ci illə müqayisədə sənaye məhsulunun ümumi həcmi 1.23 dəfə, əsas kapitala yönəldilən investisiyalar 1.02 dəfə, kənd təsərrüfatının ümumi məhsulu 1.35 dəfə, nəqliyyat sektorunda yük daşınması (min ton) 1.15 dəfə, informasiya və rabitə xidmətlərinin həcmi 1.15 dəfə, pərakəndə əmtəə dövriyyəsi 1.54 dəfə, əhaliyə göstərilmiş pullu xidmətlər 1.43 dəfə, əhalinin gəlirləri 1.12 dəfə, hər bir nəfərə düşən gəlirlər (manat) 1.1 dəfə, orta aylıq əməkhaqqı (manat) 1.13 dəfə, əhalinin rifahının qiymətləndirilməsində istifadə edilən ümumdaxili məhsul 1.23 dəfə artmışdır Bununla yanaşı artım iqtisadi fəaliyyət növləri üzrə muzdla işləyən işçilərin sayında da baş vermişdir ki, bu da düzgün düşünülmüş iqtisadi siyasət istiqamətinin nəticəsidir. Son illər ərzində dünyada iqtisadi cəhətdən Naxçıvan Muxtar Respublikası qədər inkişaf edən ikinci ölkə yoxdur. Bütün statistik məlumatlar bunu təsdiqləyir. Yoxsulluq şəraitində yaşayanların sayı kəskin şəkildə azalmış, işsizliklə bağlı məsələlər öz həllini tapmışdır. Demək olar ki, 2014-2016-cı illər üzrə Dövlət Proqramı bütün məsələləri özündə ehtiva etmişdir, bir dənə də olsun məsələ diqqətdən kənarda qalmamışdır. İcra edilmiş dövlət proqramları, aparılan iqtisadi islahatlar Naxçıvan Muxtar Respublikasının inkişafını təmin etmişdir. İstənilən istiqamət üzrə böyük naliyyətlər, nəticələr göz qabağındadır. Bu gün Naxçıvan dünyanın ən gözəl şəhərlərindən birinə çevrilmişdir. Naxçıvan şəhərinə gələn hər bir qonaq bunu qeyd edir və öz təəccübünü gizlədə

bilmir. Naxçıvan Muxtar Respublikasının gözəlliyi təkcə onun təbii şəraitilə, binaları ilə deyil, həm də tarixi ab-havası ilə bağlıdır. Bakı şəhərində İslam Əməkdaşlıq təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin VI konfransında Naxçıvan şəhəri 2018-ci il üçün İslam mədəniyyəti paytaxtı elan olunmuşdur [11].

Unutmaq olmaz ki, bu gün Naxçıvan Muxtar Respubliksında milli təhlükəsizliyin əsas tərkib hissəsi olan enerji təhlükəsizliyi həll edilmişdir. Enerji təhlükəsizliyinin əsas elementlərindən biri Araz SES və günəş elektrik stansiyalarıdır. Enerji təhlükəsizliyi və enerjinin şaxələndirilməsi Naxçıvan Muxtar Respublikası kimi istehsalçı və ixracatçı ölkə üçün olduqca vacibdir. İqtisadi inkişaf limitsiz bir vasitə olub insanlara xidmət etmək, inkişafı təşviq etmək və yoxsulluğu azaltmaq üçün nəzərdə tutulmuşdur. Beləliklə, dövlətimiz Naxçıvan Muxtar Respublikasında iqtisadi, sosial və ekoloji aspektlərin təşviqatını hədəfləyən keyfiyyətli inkişafa dəstək verir. Son illərdə Naxçıvan Muxtar Respublikasında innovasiyalı iqtisadiyyatın qurulması istiqamətində çox mühüm addımlar atılmış, təkmil qanunvericilik bazası yaradılmış, texnoparklar, sənaye zonalarının formalaşması prosesi sürətlənmişdir. Naxçıvan Muxtar Respublikasının dinamik inkişafını təmin edən amillərdən biri də sahibkarlıq sahələrinin mövcuddluğudur. Demək olar ki, sahibkarlıq formaları muxtar respublikanın strateji resursu hesab edilir. Bir çox ölkələrin "bazar hər şeyi həll edir" şüarını qərbdə olan hakim ideologiyanın ön plana çəkməsi, həmin dövlətlərin strateji vəzifələrdən uzaqlaşdırılmasına, iqtisadiyyatında zəifləməyə və həmin cəmiyyətdə sosial gərginliklərin artamsına səbəb olmuşdur. Həmin ölkələrdən fərqli olaraq Naxçıvan Muxtar Respublikası iqtisadi inkişafa təsir edən xarici və daxili amilləri ölkənin spesfik xüsusiyyətlərini, milli maraqlarını, malik olduğu strateji resursları nəzərə alaraq qiymətləndirdi və nəticədə özünün müstəqil inkişaf modelini seçdi. Naxçıvan Muxtar Respublikasında iqtisadi imkanlar əhalinin artımını daim üstələmiş eləcədə iqtisadi inkişafda və xüsusilə növbəti illərdə kənd təsərrüfatı və ağır sənaye ilə bağlı inkişafın məqsədləri, inkişafı aktiv əhalinin artması meyilləri nəzərə alınmışdır. Bununla əlaqədar olaraq Naxçıvan Muxtar Respublikasında vətəndaşlara münasib iş yerlərinin axtarılmasında, işəgötürənlərə lazımı kadrların seçilməsində köməklik göstərmək, işsiz və iş axtaran vətəndaşların peşə hazırlığı, yenidən hazırlığı və ixtisaslarının artırılması, əmək yarmarkalarının təşkili, işsiz statusunun verilməsi, işsizlik müavinətinin təyin edilməsi, ödənilməsi və.s bu kimi vəzifələrin icrası məqsədilə Dövlət məşğulluq xidməti idarəsi yaradılmışdır. Qeyd etmək lazımdır ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 11 yanvar 2016-cı il tarixli 14-05/S nömrəli sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"-nın artıq icrasına başlanmışdır. 2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramının əsas məqsədi muxtar respublikada məşğulluq səviyyəsinin daha da artırılması və yeni iş yerlərinin açılması üçün sahibkarlığın inkişaf etdirilməsinə dövlət maliyyə dəstəyinin davam etdirilməsi, qeyri-məşğul əhalinin peşə hazırlığının yüksəldilməsi, müstəqil məşğulluğun inkişafını təmin edən tədbirlərin həyata keçirilməsi, əmək yarmarkalarının keçirilməsi sahəsində səmərəliliyin artırılması, idarə, müəssisə və təşkilatların işçilərə olan tələbatının müntəzəm öyrənilməsi və boş iş yerlərinə işaxtaran vətəndaşların göndərilməsinin təmin edilməsi, məşğulluq xidməti orqanlarının maddi-texniki bazasının möhkəmləndirilməsi kimi tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

"Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın əsas məqsədi real sektorun inkişafı, iqtisadiyyatın diversifikasiyası, surətli inkişaf istiqamətində tədbirlərin davam etdirilməsi, xüsusilə kəndlərin inkişafı ilə bağlı infrastrukturun və sosial xidmətlərin daha da yaxşılaşdırılmasından ibarətdir.

Dünyada gərginliyin, işsizliyin və yoxsulluğun artdığı bir dövrdə Naxçıvan Muxtar Respublikasında tamamilə fərqli proseslər–sürətli inkişaf, tərəqqi, əhalinin rifahının, ictimai və siyasi sabitliyin, milli birliyin və.s yüksəlməsi müşahidə edilmişdir.

Naxçıvan Muxtar Respublikasının iqtisadi və sosial inkişafında əldə edilən bütün bu uğurlar, qarşıya qoyulan inkişaf hədəfləri Azərbaycan Respublikasının Konstitusiyasının mahiyyətindən irəli gəlir: sosialyönümlü bazar iqtisadiyyatının qurulması Azərbaycan dövlətinin ali məqsədlərindən biridir ki, bu ali məqsədə nail olmağın ən güclü amili Azərbaycan Dövlətinin müstəqilliyinin dönməz xarakter alması və iqtisadi müstəqilliyin təmin edilməsidir.

## ƏDƏBİYYAT

1. Əhmədov N.H. Naxçıvan iqtisadiyyatının prioritetləri, iqtisadi artım, dinamik inkişaf, Bakı, Sabah, 2008, 452 səh.
2. Əhmədov N.H. Heydər Əliyevin uğurlu inkişaf modeli Naxçıvanda dinamik inkişafı təmin edir. Naxçıvan, NDU, Elmi əsərlər №2 (67), Qeyrət, 2015.
3. Azərbaycan Respublikasının Konstitusiyası
4. Abutalıbov R.R. İdarəetmənin əsasları. Dərs vəsaiti, YK Production şirkətinin mətbəəsi, 225 s.
5. Aren Sadun. İstihdam Para ve İktisadi Politika, Ankara, İmge kitabevi, 2008, 203 s.
6. Ülgener F.S. Milli gelir istihdam ve iktisadi büyüme, İstambul, Der Yayınevi, 1980, 219 s.
7. Özsağır Arif M. Dünden Bügüne Büyümenin Dinamiği 2008, 347 s.
8. Atamtürk Burak. İktisadi Büyüme Teorileri ve İstihdam Politikaları, Marmara Universitesi, İBF Yayınevi, 203 s.
9. Muradov Rövşən, Müasir mərhələdə əhalinin məşğulluq quruluşunun formalaşması və təkmilləşdirilməsi problemləri. Bakı, Elm, 2006, 216 s.
10. Naxçıvan Muxtar Respublikasının Dövlət Statistika Komitəsinin rəsmi internet səhifəsi. http://statistika.nmr.az/macroeconomy/index.php?estat=archive&topic=30
11. Səməd Canbaxşıyev, Naxçıvan şəhəri 2018-ci il üçün İslam mədəniyyəti paytaxtı elan olunmuşdur. Şərq qapısı, Naxçıvan, 11 iyul 2017
12. "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı".
13. 2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı.



## ABSTRACT

**Zaur Aliyev**

**RELATIONSHIP BETWEEN ECONOMIC GROWTH AND EMPLOYMENT**

The main objective of the state is to improve the welfare of people by developing the economy. Politicians apply many policies to increase employment. One of the most important of these policies is to increase economic growth by providing economic growth and boosting employment.

This research analyzes economic growth and employment. Statistical GDP is used to indicate economic growth and employment levels. The first kind of employment is explained, then the growth models are discussed. Different approaches have been analyzed on the main factors causing economic growth. The role and importance of state regulation in economic development, employment and improving the welfare of the population were emphasized. In the world practice, active and passive forms of state employment policy have been widely interpreted. It was noted the importance of continuing state financial support for entrepreneurship development.

The external and internal factors affecting the economic development in the Nakhchivan Autonomous Republic were assessed taking into account the country's specifics, national interests, and strategic resources.

The relevance of the research topic is conditioned precisely in the context of the above problems.

## РЕЗЮМЕ

**Заур Алиев**

**ОТНОШЕНИЯ МЕЖДУ ЭКОНОМИЧЕСКИМ РОСТОМ И ЗАНЯТОСТЬЮ**

Главная цель государства - улучшить благосостояние людей путем развития экономики. Политики применяют много стратегий для увеличения занятости. Одной из наиболее важных из этих стратегий является увеличение экономического роста путем обеспечения экономического роста и повышения занятости.

В этих исследованиях анализируется экономический рост и занятость. Статистический ВВП используется для обозначения экономического роста и уровня занятости. Объясняется первый вид занятости, затем обсуждаются модели роста. Были проанализированы различные

подходы к основным факторам, вызывающим экономический рост. Подчеркивалась роль и значение государственного регулирования в экономическом развитии, занятости и повышении благосостояния населения. В мировой практике широкое распространение получили активные и пассивные формы государственной политики занятости. Было отмечено важное значение продолжения государственной финансовой поддержки развития предпринимательства.

Внешние и внутренние факторы, влияющие на экономическое развитие Нахчыванской Автономной Республики, оценивались с учетом специфики, национальных интересов и стратегических ресурсов страны.

Актуальность темы исследования обусловлена именно в контексте вышеуказанных проблем.

NDU-nun Elmi Şurasının 19 oktyabr 2017-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 02).
Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

**NAZİM ABIYEV**
*Naxçıvan Dövlət Universiteti*

**UOT:9/47.924**

# AQRAR SAHƏDƏ SUBYEKTLƏRİN FƏALİYYƏTİNİN MAHİYYƏTİ VƏ SPESİFİK CƏHƏTLƏRİ

**Açar sözlər:** *aqrar sahə, aqrar subyekt, fəaliyyətin təşkili, region, fəaliyyət tsikli*
**Key words**: *agriculture sector, agriculture subject, activity organization, region, activity cycle*
**Ключевые слова:** *аграрная отрасль, аграрный субъект, организация деятельности, регион, цикл деятельности*

XX əsrin sonunda ölkəmiz tərəfindən müstəqilliyin əldə edilməsi, suveren təməllərin formalaşdırılması onun ümumi, o cümlədən iqtisadi təkamülündə öz sözünü demiş, onun müasir dövrdə strateji inkişaf hədələrini müəyyən etmişdir. Mövcud təbii ehtiyatlardan, əmək və maliyyə resurslarından kompleks və məqsədyönlü şəkildə istifadə olunması respublikamızın kiçik zaman kəsiyində inkişaf etməkdə olan dövlətlər sırasında möhkəmlənməsinə və perspektiv dövrlərdə inkişaf etmiş ölkələr sırasına keçidinin mümkünlüyünə şərait yaratmışdır. XXI əsrin əvvəllərində dünyanı bürüyən iqtisadi böhran heç bir inkişaf etmiş və inkişaf etməkdə olan ölkəni kənarda qoymadığı kimi, Azərbaycandan da yan keçməmişdir. Lakin aparılan monitorinqlər onu da göstərir ki, aparılan məqsədyönlü və ardıcıl siyasət nəticəsində respublikamız bu çətinliklərdən ən az zərərlərlə çıxan dünya "vahidlərindən" biri olmuşdur. Özünün iqtisadi siyasətini ilk növbədə daxili tələbatın özünün istehsal potensialı hesabına mümkün qədər yüksək səviyyədə ödənilməsi, xaricdən idxal asılılığının minimallaşdırılması, maliyyə şəffaflığının təmin edilməsi və maliyyə resurlarından qənaətlə, məqsəduyğun, ilk növbədə prioritet sahələrin tələblərinin ödənilməsi yönündə istifadə olunması, əmək resurslarından səmərəli istifadə kimi prinsiplər əsasında quran ölkəmiz mövcud "tənəzzül" meyllərini azaltmaqla yanaşı kifayət qədər maliyyə (o cümlədən qızıl) ehtiyatlarını formalaşdırmış oldu.

Son dövrlərdə qəbul olunmuş ümumi və xüsusi təyinata malik Dövlət Proqramları, maddi istehsal sahələrinin ayrı-ayrı fəaliyyət istiqamətlərinin inkişafına yönələn Azərbaycan Respublikasının Qanunları, digər müxtəlif təyinatlı və səviyyəli hüquqi-normativ aktlar respublikamızda iqtisadi təkamülü şərtləndirməklə, onun tənzimləyici bazasını hazırlamaqla yanaşı, aparısı sahə və sferaların "simasının" dəyişilməsinə, onların daha mütərəqqi şəkildə təzahürünə şərait yaratmışdır. Azad sahibkarlıq üçün münbit şəraitin bərqərar olması nəticəsində ölkənin aparıcı sahələrinin potensialı dəfələrlə artmışdır ki, bu da istər fərdlərin, istər sosial sferanın, istərsə də istehsal sahələrinin tələbatının ödənilməsində yeni mərhələlərə, fazalara keçidin zəminini formalaşdırmışdır. Əyani misallara müraciət etsək görərik ki, məsələn Naxçıvan MR-də Sovet dövründə 50-yə yaxın müxtəlif ölçülü sənaye müəssisəsi fəaliyyət göstərdiyi halda, 2017-ci ilin nəticələrinə görə onların sayı 500-ü keçmişdir. Yaxud, haliyədə regionda 371 adda məhsul istehsal olunur ki, onlardan 344 üzrə istehsal həcmləri onun əhalisinin tələbatını ödəmək iqtidarındadır.

1993-2003-cü illərdə müstəqil ölkəyə kifayət qədər peşəkar təcrübəsi və bacarığı ilə seçilən görkəmli xadimin, Ulu Öndər Heydər Əliyevin rəhbərlik etməsi respublikanın iqtisadi inkişaf kursu üzrə çevik, sistemli mütərəqqi strateji xəttinin müəyyən edilməsi və onun üzərində dövri olaraq dəqiqləşdirmələrin aparılmasına səbəb olmuşdur. Məhz həmin şəxsiyyətin dövründə ölkədə irimiqyaslı islahatların təməli qoyulur. Aqrar sahənin inkişafının başlanılması da Heydər Əliyevin adı ilə bağlıdır. Onun müstəqil Azərbaycan Respublikasında hakimiyyətə gəlişi dövründə biri-digərini əvəzləyən "Kəndli (fermer təsərrüfatları haqqında)", "Torpaq islahatı haqqında", "Mülkiyyət haqqında" və digər əhəmiyyətli Azərbaycan Respublikası Qanunları, regionların sosial-iqtisadi inkişafına şərtləndirən 2 Dövlət Proqramı (haliyədə üçüncüsü icra edilməkdə olan) və digər

normativ aktlar qəbul olunur. Məhz onun mütərəqqi fikir və düşüncələri əsasında ölkədə yenilənmə proseslərinin təməli qoyulur. Hələ 1994-cü ildə Bakı şəhərində keçirilən “Aqrar islahatlar: problemlər və onların həlli yolları” adlı beynəlxalq elmi tədbirdə müdrik ağsaqqal söyləmişdir ki, “Son illər Azərbaycanda iqtisadi istehsalın ilbəil aşağı düşməsi və iqtisadiyyatın getdikcə dağılması sübut edir ki, biz köhnəlmiş prinsiplər, köhnə sistem əsasında daha nəaliyyət qazana bilmərik. Bu prinsiplərdən möhkəm yapışıb qalsaq, böyük çətinliklərlə rastlaşacağıq və şübhəsiz ki, ümumilikdə iqtisadiyyatda, o cümlədən aqrar sahədə istehsal yenə aşağı düşəcəkdir. Ona görə də islahatların aparılması zəruri bir vəzifədir. Nə qədər çətin olsa da, biz bu islahatları həyata keçirməli və həmişə nəzərə almalıyıq ki, Azərbaycan Respublikasının təbiəti, torpağı, iqlimi ölkəmizdə bol kənd təsərrüfatı məhsulları istehsal etməyə, aqrar sektoru yüksək səviyyəyə qaldırmağa imkan verir.”

Tədricən kənd mühitində istehsal imkanları və münasibətlərinin, adət və ənənələrinin bərpası prioritet fəaliyyət istiqamətlərindən birinə çevrilir. Aqrar islahatların birinci mərhələsində dövlət mülkiyyətində olan torpaqların özələşdirilməsi, kənddə yaşayan əhalinin mülkiyyətinə verilməsi üzrə əməliyyatlar aparılır, dövlətin aqrar subyektlərində olan heyvanların və kənd təsərrüfatı texnikasının fərdi təsərrüfatlar arasında bölgüsü həyata keçirilir. Torpaq, texnika və kənd təsərrüfatı heyvanları sahibinə - mülkiyyətçiyə çevrilən kənd insanı islahatların ilk dövrlərində bəzi çaşqınlıq hissləri keçirsə də (uzunmüddətli etibarın olmaması, maliyyə resurslarının çatışmazlığı, istehsalın təşkili forma və qaydalarının seçilməsi və s. üzrə) zamanla hökumət tərəfindən aparılan maarifləndirici, təşkilati, hüquqi və s. sahələrdəki işlər aqrar istehsalın təşkili və həyata keçirilməsində sistemlilik, komplekslilik, səmərəlilik, qənaətcillik, aparıcı təcrübənin tətbiqi kimi prinsipləri üzrə işlərin icrasına geniş “üfüqlər” açmışdır.

Kənd insanını torpağa bağlayan amillərin forma və səviyyələrinin zamanla təkmilləşdirilməsi, təbii-iqlim şəraiti, torpaq resurslarının keyfiyyəti və sair istiqamətləri üzrə aparılan müşahidələr, hasilat imkanların sistemli, tamımənalı qiymətləndirilməsi nəinki fərdi təsərrüfatların, həmçinin bütöv rayonların ayrı-ayrı kənd təsərrüfatı məhsulları istehsalının ixtisaslaşmasına gətirib çıxarmışdır.

Ölkənin regionları sırasında özünəməxsus cəhətləri ilə seçilən Naxçıvan MR özünün tarixən öncül yerdə məskunlaşmış aqrar istehsal ənənələri ilə məşhurdur. Yerli şəraitin imkanlarından mümkün qədər yüksək səviyyədə istifadə edilməsi kənd təsərrüfatının tərkib hissələri olan bitkiçiliyin və heyvandarlığın əsaslı surətdə bərqərar olmasına şərait yaratmışdır. Regionda aqrar məhsulların istehsalı və reallaşdırılması səviyyələrində dinamik artımlar müşahidə olunmaqdadır. Buna təsir edən çoxsaylı amillər mövcuddur. Region əhalisinin sayının artması, onun tələbatının milli, dini və digər tələblər baxımından dəyişilməsi, yerli istehsalın, xüsusilə də emal sənayesi subyektlərinin say-tərkib ifadəsinin artması, bu əsasda isə kənd təsərrüfatı xammalına olan ehtiyaclarının müsbət yöndə dəyişilməsi kimi faktorların təsir dərəcəsinin artması aqrar sahədə işlərin kəmiyyət-keyfiyyət ifadələrinin yüksəlməsinə təsir etməkdədir.

Aqrar sfera üzrə fəaliyyət özündə çoxsaylı vəzifə və öhdəlikləri cəmləməkdədir. Bu sırada ilk növbədə ümumilikdə ölkədə, o cümlədən onun regionlarında ərzaq bolluğunun yaradılması istiqamətində işlərin icrası yolu ilə əhalinin qida təyinatlı məhsullarla təmin olunması səviyyəsinin yüksəldilməsi, onun növ-çeşid tərkibinin genişləndirilməsi kimi vəzifələri qeyd etmək yerinə düşərdi. Bununla yanaşı ərzaq yönümlü emal sənayesinin aqrar xammalla təmin olunması da öz əhəmiyyətini qorumaqdadır. Müvafiq sənaye sahəsi öz fəaliyyətini əsasən iki istiqaməti əhatə etməklə qurmalıdır: 1.qida məhsulları təminatında tələbatın daha geniş məhsul növləri və çeşidləri ilə iştirak etmək; 2.tələbatın fasiləsiz olaraq (mövsümlər nəzərə alınmadan) ödənilməsi sahəsində işlərin görülməsi. Bəndlərin hər biri özünəməxsus xassələrlə fərqlənməklə yanaşı ilk növbədə region üzrə ərzaq bolluğunun yaradılmasında, həmçinin onun ixrac potensialının artırılmasında mühüm rol oynayır. Heç də təsadüfi deyil ki, 15 dekabr 2016-cı il tarixində Türkiyə Cümhuriyyətinin səlahiyyətli hökumət nümayəndələrinin Naxçıvana səfəri zamanı bu ölkəyə 150 milyon ABŞ dolları həcmində aqrar məhsulların və onların emalından əldə olunan əmtəələrin ixracı ilə bağlı razılaşma əldə olunmuşdur. Bununla yanaşı regionda istehsal olunan məhsulların 2016-2017-ci illərdə AFR-də, Polşa və digər dövlətlərdə sərgilərdə təmsil olunması və aqrar məhsulların ixracı ilə bağlı müqavilələrin imzalanması muxtar respublikanın ixrac potensialının səviyyəsinə müsbət təsir etməklə yanaşı, onun kənd təsərrüfatı sektorunda da canlanmaya səbəb olmuş, məhsulların

kəmiyyət-keyfiyyət xarakteristikalarının təkmilləşdirilməsində böyük rol oynamışdır. Həmin proses bu gün də davam etməkdədir.

Görülən işlər kənd təsərrüfatında fəaliyyət göstərən subyektlərin forma və növlərinə də təsirsiz ötüşməmişdir. Belə ki, islahatların başlanğıc mərhələlərində ibtidai istehsal münasibətlərini özündə ehtiva edən hüquqi və fiziki şəxslər formasında mövcud olan həmin quruluşlar sonradan üfuqi və şaquli şəkildə təkmilləşdirmə və transformasiya əməliyyatlarına məruz qalaraq özlərinin yeni "istehsal-təşkilati simalarını" ortaya qoydular. İstehsalların istisaslaşma səviyyəsinin dəqiqləşdirilməsi, zamanla yeni istehsalat təcrübələrin yiyələnmə və onların paylaşılması, həm bitkiçilik, həm də heyvandarlığı birləşdirən kompleks fəaliyyətə müraciət olunma, 3-5 hektar sahədə fəaliyyətdən ən azı 50 hektar sahədə fəaliyyətin təşkilinə keçid, texnika və texnologiya təminatında dövlətin yaratdığı imkanlardan istifadənin genişlənməsi, bir sıra kənd təsərrüfatı məhsullarının istehsalı üzrə mövsümilik prinsipinin təsirinin zəiflədilməsi daha mütərəqqi təşkilatı formalara keçidi şərtləndirdi.

Haliyədə respublikamızın regionlarında yaradılması geniş vüsət alan, böyük və çoxtərəfli istehsal imkanlarına malik aqroparklar buna əyani nümunə olaraq göstərilə bilər. Bu quruluşların forma və fəaliyyətlərinin günü-gündən yenilənməsi istər sahibkarların, istərsə də müvafiq hökumət orqanlarının qarşısında qoulan zəruri vəzifələrdən hesab olunur. Heç də təsadüfi deyil ki, ölkə prezidentinin Göygöl və Samuz rayonlarına səfəri zamanı 19 avqust 2017-ci il tarixində aqroparkların daha mütərəqqi formalarından biri olan Samux "Aqroenerji Yaşayış Kompleksi"nin açılışında iştirak etmiş, burada tətbiq olunan mütərəqqi texnologiyalarla tanış olmuşdur. Onun yaradılmasında rəhbərliyi həyata keçirən respublikanın Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi tərəfindən tətbiq olunan yeniliklər sırasında "quruluşun" enerji təminatının formalaşdırılmasında elektrik enerjisi növü ilə yanaşı geoenerji, bioenerji, külək və günəş enerjisi növlərinin imkanlarından istifadə olunmasıdır. Müəyyən mənada "avtonom enerji sistemi" əsasında fəaliyyət göstərən subyekt özündə aqrar istehsal sahələri ilə birlikdə həmin məhsulların sənaye emalını həyata keçirən "vahidləri" də məskunlaşdırmaqdadır. İşçi heyyətinin bir hissəsinin məhs həmin Kompleksdə yaşayış sahələri ilə təmin olunması onların həmin subyektə olan bağlılığının güclənməsinə şərait yaratmalıdır.

Müvafiq subyekt fəaliyyətin növlərinin eyni məkanda birləşdirilməsi baxımından Sovetlər dövründə mövcud olmuş aqrar-sənaye komplekslərinin daha mütərəqqi forması kimi çıxış etməkdədir. Yeni texniki vasitələr və texnologiyalarla təchiz olunan subyekt iribuynuzlu malqara fermasına, əkin sahələrinə malikdir. Həmin istiqamətlərdən alınan məhsullar emal bölmələrini keçdikdən sonra özünün spesifik cəhətləri nəzərə alınmaqla ümumi və ya xüsusi təyinatlı (soyuducu) anbarlara yerləşdirilir, yaxud birbaşa reallaşdırmaya göndərilir. Ümumi istehsalın daha qısa zaman vahidləri çərçivəsində yekunlaşdırılması məhsulun zay olmasının qarşısını almaqla yanaşı daha yüksək keyfiyyətə malik formada istehsalçılara çatdırılmasına şərait yaradır.

Aqrar sahə istehsalın ardıcıl təşkili və həyata keçirilməsi, sadə və geniş təkrar hasilatın mümkünlüyü baxımından özünün xüsusiyyətlərinə malik sahələrdən hesab olunur. Haliyədə açıq havada istehsalın təşkili ilə yanaşı örtülü məkanlarda (istixanalarda və s.) da fəaliyyətin icrası geniş vüsət almaqdadır. Statistik məlumatlara əsaslanaraq demək mümkündür ki, qeyri-istehsal mövsümlərində bəzi ərzaq məhsulları üzrə əhalinin tələbatının ödənilməsində həmin fəaliyyətin payı 8-20% arasında tərəddüd edir. Ümumiyyətlə, fəaliyyətinin təşkili ardıcıllığı və genişləndirilməsi baxımından kənd təsərrüfatı sahəsi təkrar fəaliyyət tsikllərinin tammənalı həyata keçirilməsi özünün aktuallığını qorumaqdadır. "Təchizat → istehsal → reallaşdırma" vəhdəti üzərində məqsədyönlü şəkildə təşkil olunan icraat eyni zamanda maliyyə resurslarından səmərəli istifadəni şərtləndirməli, onların birbaşa təsərrüfat proseslərindən yayındırılmasının optimal ölçülərini müəyənləşdirməlidir. Nəzəri və təcrübi təməllərə əsaslanaraq, ardıcıl qurulması və sonrakı genişləndirilməsi prizmasından yanaşaraq kənd təsərrüfatı fəaliyyətinin sxem 1-də ifadə edilən mərhələlərdən keçməsi qanunauyğun hal kimi qiymətləndirilməlidir.

*Sxem 1.Kənd təsərrüfatı subyektlərinin təkrar fəaliyyət tsikllərinin təşkili*




Müvafiq sxem özündə kənd təsərrüfatı sahəsi üzrə mərhələlər şəklində təkrar fəaliyyətin təşkilinin əsas məqamlarına aydınlıq gətirməkdədir. Hər bir mərhələdə işlərin səmərəli təşkili onların növbəti mərhələyə təkrar keçidinin uğurla baş verməsinə zəmin yaradır. Digər tərəfdən, maliyyə resurslarının bölüşdürülməsi üzrə düşünülmüş, əsaslandırılmış (riskləri də nəzərə almaqla) strategiyanın və perspektiv fəaliyyət planlarının hazırlanması, onun diversifikasiya imkanlarının obyektiv qiymətləndirilməsi subyektlərin gələcək dövrlərdə inkişafında mühüm rol oynayacaqdır. Lakin yaddan çıxarılmamalıdır ki, aqrar sahibkarlıq fəaliyyətinin sistemliliyinin təmin olunması üçün bəhs olunan istiqamətlər üzrə əhatəli təsnifatların tərtib olunması mühümdür. Bəhs olunan sahəyə nəzər salaraq qeyd etmək yerinə düşər ki, sahibkarlıq fəaliyyəti özündə iqtisadi, təşkilati-idarəetmə, personalla işləmək bacarığı və digər istiqamətlər üzrə icrası zəruri olan işlərin məcmusu kimi çıxış edir. Nəzəriyyəyə müraciət etdikdə onun geniş arealı əhatə edən bir çox növünü görmək mümkündür.

Tarixi yanaşmada dünya miqyasında sahibkarlıq fəaliyyəti haqqında ilk əhatəli məmumatlar XVI ərsin ortalarına (Rusiya, İngiltərə, Hollandiya və s.) təsadüf etsə də, onun əsas təşəkkül etdiyi sahə ticarət olmuşdur. Sonralar ayrı-ayrı ölkələrin ictimai-iqtisadi formasiyalarında baş verən dəyişikliklər sahibkarlıq “hissinin” digər sahələrə siraət etməsinə şərait yaratmışdır. Səhmdar bankların yaranması, ağır sənayenin inkişafı, dəmir yollarının tikintisi, işçi bazarlarının formalaşması kimi amillər müxtəlif mərhələlərdə sahibkarlıq fəaliyyətinin inkişafında əvəzolunmaz “izlərini” buraxmışlar. Aqrar sahədə mütəşəkkil sahibkarlığın formalaşması haqda ilk məlumatlar XVIII əsrin ortalarına təsadüf edir. Həmin dövrdə yaşamış fransız iqtisadçısı J.Sey özünün “Siyasi iqtisadın traktatları” əsərində qeyd edir: “Sahibkarlıq fəaliyyəti istehsalın üç amilinin – torpağın, kapitalın və əməyin birləşməsi ilə xarakterizə olunur. Sahibkar – bu və ya digər məhsulu istehsal etmək və reallaşdırmaq üçün öz kapitalı və təşəbbüskarlıq qabiliyyəti ilə riskə gedən şəxsdir. ....Həmin təzahürlər ticarətdə olduğu kimi, sənayedə və kənd təsərrüfatında da özünü geniş, əhatəli şəkildə ifadə etməkdədir”

Haliyədə əsas növ və iqtiqamətləri üzrə tənzimləmə müddəalarını “Sahibkarlıq fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanununda tapan müvafiq işlər sistemli icraat və kompleks şəkildə yanaşma halında arzuolunan nəticələrin əldə olunmasına şərait yaradır. Digər sahələrlə müqayisədə təbii-iqlim, ərazi quruluşu, suvarma sistemlərinin, həcm və keyfiyyət parametrləri üzrə tələblərə uyğun gələn örüş sahələrinin mövcudluğu və digər şərtlərdən asılılığın yüksək olması aqrar sahibkarlıqda təşkilatlanma, planlaşdırma və proqnozlaşdırma işlərinin mürəkkəbliyində də özünü biruzə verməkdədir. Məsələn, kənd yerlərinin əhalinin təbii artımının yüksək olması nəticəsində onlara yaşayış və digər məqsədlərlə torpaq

sahələrinin ayrılması, regionun ili-ildən kəskim dəyişən iqlim şəraiti və s. əlaqəli amillər resurslardan istifadənin səviyyələrinə müəyyən məhdudlaşdırmalar gətirmiş olur ki, bu da müvafiq işlərdə təsirsiz ötüşmür.

Bəllidir ki, mövcud zaman kəsiyində ölkəmizdə olduğu kimi, muxtar respublikada da aqrar sahibkarlığın inkişafına xüsusi diqqətin ayrılması ən ümdə vəzifələrdən hesab olunur. O, təcrübi tətbiqlə yanaşı elmi və nəzəri-metodoloji baxımdan da böyük əhəmiyyətə malikdir. İstehsalın və sonrakı satış proseslərinin elmi müstəviyə daşınması yolu ilə:

- ✓ bəhs olunan istiqamətlərdə daha mütərəqqi texnologiyaların hazırlanması,
- ✓ yüksək məhsuldarlığa malik bitkiçilik və heyvandarlıq növlərinin seleksiya və digər yollarla müəyyən edilməsi və istehsalata tətbiqi üzrə ekspimental-sınaq işlərin həyata keçirilməsi,
- ✓ torpaqların növ-keyfiyyət ifadələri (Ordubad və Şahbuz rayonlarında dağlıq ərazilərin, Şərur və Babək rayonlarında düzənliklərin ümumi torpaq həcmində üstünlük təşkil etməsi və s.), iqlim imkanları nəzərə alınmaqla iqtisadi və inzibati rayonların məhsul istehsalı üzrə ixtisaslaşdırılmasının təmin edilməsi və bu yolla daha yüksək istehsal nəticələrinin əldə olunması,
- ✓ satış proseslərinin təşkilində müxtəlif üsullardan və elektron-informasiya vasitələrinin imkanlarından geniş istifadə edilməsi və özünün əhəmiyyətliliyi ilə seçilən digər əlaqəli işlərin həyata keçirilməsi zəruridir.

Əsas araşdırmanın Naxçıvan MR-in aqrar sektorunun məlumatları üzərində qurulması tərəfimizdən "region" problemlərinin daha dərindən araşdırılmasına yol açır. Deyilənləri nəzərə alaraq regionda respublikda aqrar sahədə mövcud vəziyyət və onun yaxşılaşdırılması yönündə atılan addımların sistemliyi, ardıcıllığı və kompleks şəklə malik olması araşdırmaların əsas qayəsini təşkil etməlidir. Öncəki dövrlərdən də iqtisadi, coğrafi, ərazi yerləşməsi və digər yönlərdə aparılan tədqiqatlardan Naxçıvan regionun, o cümlədən onun aqrar sferanın kifayət qədər seçilən inzibati vahidlərdən olduğu bilinməkdədir. Deyilənlər əsasında nəzəri təməllər əhatə edən əsas fəaliyyət istiqamətlərinin müəyyən edilməsi, onların istehsal və sonrakı satış prosesləri əsasında əhatə dairələrinin dəqiqləşdirilməsi kimi işlər regionda əlverişli icra rejimin formalaşmasına şərait yaratmalıdır. Digər tərəfdən, regionun istehsal potensialının xüsusiyyətlərinin xarakterizə edilməsi, onun peşəkar kadrlarla təmin olunması məsələsi də gözlər önünə gətirilərək (nəzərə alınmalıdır ki, muxtar respublika əhalisinin 70%-dən çoxu kəndlərdə məskunlaşıb) ümumi fəaliyyət üzrə müxtəlif variantların işlənilməsi də zəruridir. Bu məqsədlə tərəfimizdən region üzrə nümunəvi qaydada tərtib olunan və özündə əsas icra yönlərini birləşdirən sxem 2 əsas kimi qəbul oluna bilər.

Sxem 2-də ifadə edilən təsnifatdan da göründüyü kimi, region miqyasında aqrar istehsal subyektlərində kompleks fəaliyyətin həyata keçirilməsi üçün kifayət qədər fərqliliyi və geniş əhatəliliyi ilə seçilən komponentlər vahid halda ifadə edilmişdir. Bununla hər bir maddənin arxasında dövlətimiz tərəfindən ölkənin aqrar siyasətində həyata keçirilən hüquqi-tənzimləyici, təşkilati, stimullaşdırıcı, inzibati tədbirlər də nəzərə alınmaqdadır. Heç də təsadüfi deyil ki, tanınmış iqtisadçı-alim, professor S.Salahov "Aqrar sahənin dövlət tənzimlənməsinin problemləri" əsərində qeyd edir ki, "Ümumiyyətlə, iqtisadi sistemin tipindən və xarakterindən asılı olmayaraq bütün ölkələrdə, o camlədən Azərbaycanda dövlətin aqrar siyasəti özünəməxsus məqsəd və vəzifələri və eləcə də prioritet istiqamətləri ilə xarakterizə edilir. Bütün hallarda dövlətin aqrar siyasətini ümumiləşdirən ən mühüm cəhətlərdən biri, əslində bütövlükdə aqrar sahənin davamlı inkişafını təmin etmək və onu iqtisadi böhranın zərərli təsirlərinə məruz qalmasını neytrallaşdırmaqdan ibarətdir. Bütövlükdə götürdükdə, müasir şəraitdə, xüsusilə dünya miqyasında maliyyə böhranlarının zərərli təsirlərinin neytrallaşdırılması aspekti ilə yanaşdıqda, ölkəmizdə də dövlətin aqrar siyasətinin başlıca məqsədini ərzaq bazarının sabitləşdirilməsi və eləcə də sənaye sektorunun kənd təsərrüfatı xammalı ilə etibarlı şəkildə və sərfəli qiymətlərlə təmin edilməsini həyata keçirməkdən ibarətdir.

Sxem 2. Regionun aqrar sferasının subyektlərində kompleks fəaliyyətin təmin olunması üzrə mühüm komponentlər

Regionun aqrar sferasının subyektlərində kompleks fəaliyyətin təmin olunması üzrə mühüm komponentlər

Regionun əsas aqrar istehsal sahələri üzrə ixtisaslaşma istiqamətlərinin müəyyən edilməsi, onlar üzrə zəruri nisbətlərin hesablanması

Regionda bərqərar olmuş aqrar sahələr üzrə perspektiv strateji kursun müəyyən edilməsi və mərhələli şəkildə onun icrasına nail olunması

Regionun ümumi və aqrar məqsədlər üçün istifadə edilə bilən torpaq resursları, onların kənd təsərrüfatı sahələri üzrə bölgüsünün həcmləri və keyfiyyət tərkibi haqqında dəqiq məlumatın əldə edilməsi

Aqrar fəaliyyətin təşkilində ölkənin və regionun bazalarının qorunmasına yönələn, xarici ölkələrdə müvəffəqiyyətlə sınaqdan çıxarılmış nəzəri və təcrübi üsulların regiona transformativ şəkildə tətbiqi

Aqrar sfera üzrə regionun daxili şərtləri ilə səciyyələnən fəaliyyət sistemlərinin yaradılması, onların yenilənməsi istiqamətində işlərin davamlı icrası

Maliyyə resursları üzrə həcmlərin dəqiqləşdi-rilməsi, xüsusi və borc vəsaitləri hesabına gö-rüləcək işlərin istiqamətləri və həcmləri üzrə hesablamaların aparılması

Subyektlərin əsas məhsulları üzrə müəyyən olunmuş norma və normativlər əsasında zəruri istehsalat ehtiyatları həcmlərinin müəyyən edilməsi

Əsas istehsal komponentləri ilə (texnika, gübrə, toxum, tinglər, cins heyvanlar və s.) təmin olunma səviyyəsinin yüksəldilməsi əsasında daha məhsuldar fəaliyyətin təşkili

Maliyyə resuslarının istifadəsinin optimallığı və səmərəliliyinin təmin olunması məqsədilə zəruri nəzəri təməllər üzrə işlərin aparılması

İşlərin kompleks şəkildə icrası məqsədilə fitosanitariya, baytarlıq, seleksiya s. analoji fəaliyyətinin həyata keçirilməsi

Aqrar istehsalın və sonrakı proseslərin tələblərə uyğun səviyyədə təşkili məqsədilə zəruri işçi heyyətinin toplanılması, onların ixtisas səviyyəsinin artırılması yönündə işlərin icrası

Aqrar fəaliyyətin məqsədyönlü həyata keçirilməsi məqsədilə suvarma və digər kommunikasiya sistemlərinin yaradılması, onların mütəmadi yenilənməsi

Hasil edilmiş aqrar məhsulların reallaşdırılması məqsədilə yerli və beyənlxalq təcrübədə mövcud olan üsul və vasitələrdən istifadə olunmasına nail olunması

İstehsal olunmuş məhsulların satış və şəxsi istifadə üzrə optimal bolgülərinin müəyyən edilməsi, onların zay olmadan, reallaşdırılmasının maksimal səviyyəyə çatdırılması

Regional müstəvidə aqrar sahə subyektlərində təchizatının, məhsul istehsalı və satışının həyata keçirilməsi məqsədilə digər istiqamətlərdə işlərin görülməsi

Hüquqi-tənzimləyici bazanın formalaşdırılması ilə yanaşı stimullaşdırıcı və təşkilati addımların mütəmadi şəkildə diqqət mərkəzində olması da aqrar sahənin inkişafında spesifik təsirə malikdir. Hələ 1994-cü ildə kənd təsərrüfstı istehsalçılarının 9 vergi növünün 8-dən (torpaq vergisi istisna olmaqla) müxtəlif mərhələlərlə azad olunması, əkin sahələrinin hər hektarı üçün elektron formada ödənişlərin həyata keçirilməsi, cins heyvanların, yanacaq və sürtkü materiallarının, texnikanın, gübrələrin, suvarma sistemlərinin əldə olunmasına görə sadələşdirmələrin aparılması və imtiyazlı şərtlərin nəzərdə tutulması (bəzi istiqamətlərdə ödəniş məbləğlərinin bir hissəsinin dövlət tərəfindən üstlənməsi) əyani nümunələr şəklində göstərilə bilər ki, bu da aqrar sahənin inkişafına yönələn işlərdəndir.

Fikirlərimizi ümumiləşdirərək qeyd edə bilərik ki, müasir dövrdə ölkənin, o cümlədən regionun kənd təsərrüfatı sferası özünün inkişaf dövrünü yaşamaqdadır. Ərzaq təhlükəsizliyinin təmin edilməsi, məhsul bolluğunun yaradılması, ili-ildən idxaldan asılılğın azaldılması, ixrac yönündə işlərin intensivliyinin artırılması kimi məsələlər sahəsində daha yüksək nəticələr əldə olunmaqdadır. Bəhs olunan istiqamətlərdə mühüm manqa heab olunan və tədqiqatımızın əsas obyektini təşkil edən reallaşdırma prosesləri mexanizmləri üzrə imkanların genişləndirilməsi, beynəlxalq təcrübədə özünə tətbiq tapmış və isbat etmiş mütərəqqi satış üsullarının ölkəmizdə, o cümlədən muxtar respublikada aqrar sektora tətbiqi bu sahənin yüksəlişinə öz töhvəsini vermiş olacaqdır.

## ƏDƏBİYYAT


1. Abbasov T.A. Naxçıvan MR-də aqrar bazar: konseptual əsaslar və inkişaf istiqamətləri, Bakı, AzTU-nun mətbəəsi, 2016, 301s.
2. Allahverdiyev H.A.Aqrar islahatların nəticələri və dayanıqlı inkişaf problemləri / Respublika elmi-praktik konfransının materialları, Bakı:, Az.ETKTİ və Tİ-nun mətbəəsi, 2006, 319 s.
3. Bağırov M.S. Kənd təsərrüfatında istehsal və satış münasibətlərinin formalaşmasının müasir vəziyyəti və xüsusiyyətləri**,** Naxçıvan, Qeyrət. 2014, 107 s.
4. Bağırov M.S., Mahmudov C.İ. Naxçıvan Muxtar Respublikasında aqrar sahənin inkişafı: problemlər və həlli yolları. Naxçıvan, Əcəmi, 2017, 257s.
5. Bağırov M.S. Naxçıvan Muxtar Respublikanın aqrar sektoru, hasilat-reallaşdırma sistemi və marketinq prinsipləri, Naxçıvan, Əcəmi, 2016, 344s.
6. Hacıyev İ.M. Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatı, sosial-iqtisadi və mədəni inkişafı (1991-2015-ci illər), Naxçıvan, Əcəmi, 2016, 324s.
7. İbrahimova N,H. Müasirləşən iqtisadiyyat və təsərrüfat fəaliyyətinin iqtisadi təhlili, Naxçıvan, Əcəmi, 2015, 184s.
8. Nuriyev Ə.X. Regional idarəetmənin əsasları. Bakı: Elm, 2007, 428 s.
9. Rüstəmov A.A., Qasımov D.Q. Aqrar sahənin inkişafının regional problemləri, Bakı, Avropa, 2013. 150 s.


## ABSTRACT


**N.Abiyev**


## THE ESSENCE AND AUTHENTİCİTY OF THE EFFECTİVENESS OF THE SUBJECTS İN AGRİCULTURE


The article explains the nature of the work done in the field of agriculture and emphasized the progressive steps taken in this direction.The independence of the Republic of Azerbaijan, the problems faced by the economy and the abolition of them in time, the application of innovations in the agricultural sector should be considered as one of the most successful pages of our new economic history.

Implementation of organizing works in the field of agriculture, which is present in the field of agriculture, has brought the Nakhchivan Autonomous Republic, which is an integral part of our country and including our country, many times in the mentioned direction and has greatly improved the variety, quantity and quality of its products.

The situation was created primarily for the establishment of farms and agricultural cooperatives.Over time, the application of organizational and other innovations to agricultural farms led to the creation of more progressive, self-sufficient structures and improved technology in this area.Based on these studies, the demand for many agricultural products of the region is paid at the expense of domestic production.

## РЕЗЮМЕ

**Н. Абыев**

## СУЩНОСТЬ И СПЕЦИФИЧЕСКИЕ ЧЕРТЫ ДЕЯТЕЛЬНОСТИ СУБЪЕКТОВ В АГРАРНОЙ ОТРАСЛИ

В статье раскрывается сущность проделанных в сельском хозяйстве работ и обращено внимание на новшественные шаги в этом направлении. Завоевание независимости Азербайджанской Республикой, существующие экономические проблемы того времени и повременное их устранение, примененние носшеств в аграрной отрасли считаются победоносными страницами новейшей экономической истории.

Проведение комплексных работ по направлениям деятельности в сельском хозяйстве привело нашу страну, в том числе ее неотъемлимую часть – Нахчыванскую Автономную Республику к многократным увеличениям в повествуемом напарвлении, в ощутимом размере повысило его повидово-ассортиментные, количественно-качественные показатели.

Начатые с завоеванием независимости с Нахчыванского региона реформы, приватизация убыточных государственных предприятий аграрной ориентации, создание в селах армии частных собственников, распределение агротехники и животных среди населения сел, уступки в сфере налогов, организация стимулирующей уступочной продажи удобрений, техники и водоорасительных систем стало положительной основой для повышающихся из года в год результатов по сельскому хозяйству.

Сложивщая ситуация в первую очередь создало возможность для создания имеющих простейщую форму фермерских хозяйств, сельскохозяйственных кооперативов и т.д. Со временем применение к аграрным хозяйствам организационных и других новшеств привело к созданию более усовершенствованых, отличающихся своей комплексностью организаций, дало возможность их оснащения современными технологиями. Именно результатом этих работ является полное обеспечение населения по многим видам сельскохозяйственной продукции за счет местного производства.



NDU-nun Elmi Şurasının 19 oktyabr 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 02).

Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

**HƏVVA ADIGÖZƏLOVA**
*Naxçıvan Dövlət Universiteti*
eva.alieva.2012@mail.ru

**UOT: 330**

# İNNOVASİYA CƏMİYYƏTİNDƏ İNTELLEKTUAL KAPİTALIN ROLU

**Açar sözlər:** *innovativ cəmiyyət, intellektual mülkiyyət, intellektual kapital, istehsal vasitələri, insan kapitalı.*

**Key words:** *innovative society, intellectual property, intellectual capital, the means of production, human capital.*

**Ключевые слова:** *инновационное общество, интеллектуальная собственность, интеллектуальный капитал, средства производства, человеческий капитал.*

Dünya iqtisadiyyatı artıq postsənaye (informasiya) fazasına daxil olmuşdur və bu proses dərinləşdikcə inkişaf etmiş ölkələrdə sənaye inkişafı dövrü artıq biliklərin, yüksək texnologiyaların, yeni tədqiqatların, yeni kəşvlərin və onların sürətli tətbiqinin əsas rol oynadığı innovasiyanın inkişafı dövrü ilə əvəz olunmağa başlamışdır.

Milli iqtisadi sistemlərin üstünlük amilləri artıq təbii resurslar və ya ucuz işçi qüvvəsi kimi ənənəvi amillər deyil, biliklər və onların əsasında ideyalar yaratmaq və həyata keçirməkdir. İnkişaf etmiş ölkələrdə milli innovasiya sistemləri yaradılır ki, onların məqsədi innovasiyalara əsaslanan iqtisadiyyat yaratmaqdır. Belə iqtisadi sistemlərə innovasiya cəmiyyəti deyilir. İnnovasiya cəmiyyətinin fərqləndirici xüsusiyyəti insan resursları və onların prioritet inkişaf rolunun müəyyən olunmasıdır.

Ağıl insan əməyinə yeni keyfiyyətli məna verir: məhsul istehsalın digər ənənəvi amillərinin iştirakı olmadan yaranır. İnformasiya cəmiyyətində insanın intellektual potensialı əsas istehsal vasitəsinə çevrilir və bu istehsal vasitəsi tamamilə işçiyə məxsusdur. Buna görə də yüksək keyfiyyətli əmək resurslarının dəyəri kəskin artır. Beləliklə, insan potensialı və intelektual kapital anlayışı yaranır ki, bu da şəxsin təhsil səviyyəsinin və fərdi əqli qabiliyyətinin məcmusu kimi ifadə olunur.

İntelektual kapital anlayışına dəqiq tərif vermək üçün onun "intellektual mülkiyyət" və "insan kapitalı" anlayışları ilə fərqlərini müəyyən etmək lazımdı. Bəzi tədqiqatçılar insan kapitalı anlayışını fərdin 3 qrup keyfiyyətlərinin: sağlamlığı, peşəkarlığı və sahibkarlıq ruhunun cəmi kimi qəbul edirlər. İnsan kapitalının digər kapital formalarından fərqi ondadır ki, o, öz sahibindən ayrı ola bilməz. Buradan bir neçə nəticə çıxır. Əvvəla insan kapitalının sahibi onun istehsalda istifadəsi zamanı şəxsən iştirak etməlidir. İkincisi, insan kapitalından gəlir əldə olunması üçün işçi öz əmək və qüvvəsini sərf etməlidir. Üçüncüsü, insan kapitalı, nə satıla, nə də vərəsəlik qaydasında verilə bilməz. Dördüncüsü, insan kapitalının xidmət müddəti insanın əmək həyatının davamlılıq ölçüsü ilə müəyyən edilir. Müasir cəmiyyətdə insan alveri mümkün olmadığına görə insan kapitalı üçün də pulla qiymət qoyulmur. Yalnız məhdud müddətə insan kapitalının işə cəlb olunması müşahidə olunduğu "icarə" sazişləri üzərində qurulmuş bazarlar fəaliyyət göstərir. Bununla yanaşı əmək haqqı başqasının insan kapitalından istifadə üçün "icarə" ödənişi kimi çıxış edir.

Q.Bekkerə görə insan kapitalı təhsilə qoyulan investisiyaların miqdarına yəni biliklərin alınması və mənimsənilməsinə çəkilən pul məsrəflərinə bərabərdir. İnsan kapitalının formalaşmasına çəkilən məsrəflər özlərini investisiyalar kimi biruzə verirlər, çünki onlar resursların indiki zamandan gələcəyə yerdəyişməsini nəzərdə tuturlar. İnvestor bu gün gəlirinin bir hissəsini gələcəkdə daha yüksək gəlir əldə etmək xatirinə qurban verir. Gözlənilən məhsuldarlığı müəyyən xərclər hesabına yüksəltmək olar, belə ki, əks halda hazırlığa tələbat sonsuz olardı. Onun xərcləri təlim alan işçinin özünün sərf etdiyi vaxt və qüvvədən onun itirilmiş qazancından, başqaları tərəfindən həyata keçiri-

lən müəllimlik fəaliyyətindən, həmçinin istifadə olunan avadanlıqlardan və materiallardan ibarətdir. Bekker insan kapitalının üç əsas növünü ayırır. Ümumi biliklər, əsas biliklər və digər növ biliklər. Ümumi insan kapitalı firmaların çoxunda işçiyə əlavə gəliri təmin edir. İnsan ümumi bilikləri ailə tərbiyyəsi prosesində, ümumi təhsil və ali təhsil məktəblərində alır. Öz işçisinin ümumi biliklərinə firmanın investisiya qoyması risklidir, çünki onların geniş tətbiqi işçinin könüllü sürətdə işdən getməsi və firmanın qoyduğu vəsaitləri itirmə ehtimalını son dərəcədə artırır. Ona görə də bu halda işçinin özü (yaxud onun ailəsi) investor kimi çıxış edir, eləcə də gələcək gəlirlər də onun özünə çatır. Xüsusi insan kapitalı işçi üçün əlavə gəliri yalnız həmin firmada təmin edir. Elə hazırlığı tam xüsusi hesab etmək olar ki, həmin hazırlıq işçilərin istehsal xarakteristikalarında heç bir formada əks olunmur, lakin digər firmalar üçün dəyərli ola bilər. Adətən işçi xüsusi bilikləri həmin firmada bilavasitə əmək fəaliyyəti prosesində alır. Bununla belə iş yerindəki hazırlığın əsas hissəsini nə tamamilə ümumi, nə də tamamilə xüsusi hesab etmək olmaz; lakin əgər o öz firmalarında məhsuldarlığı daha çox artırırsa, belə hazırlıq xüsusi hazırlıq kimi müəyyən edilir. Qalan hissə digər firmalarda da məhsuldarlığın artması ilə əlaqədar olduğuna görə ümumi hazırlıq kimi müəyyən edilir. Xüsusi insan kapitalına qoyulan investisiyalar firma ilə işçi arasında bölüşdürülür. İşçinin məsrəfləri aşağı salınmış əmək haqqı formasında çıxış edir ki, o buna muzdla işə qəbul olunduqdan sonrakı hansısa başlanqıc dövrdə alır. Əgər firma sonradan başqa iş yerinə keçən işçinin xüsusi hazırlığını ödəmişdirsə ona çəkilən kapital məsrəflərinin bir hissəsi itiriləcəkdir, çünki artıq onlar gələcəkdə firmaya heç bir xeyir gətirə bilməyəcəkdir. Eyni dərəcədə işçinin xüsusi hazırlığa ödədiyi də, o işdən azad edildikdən sonra, gələcəkdə həmin hazırlıqdan xeyir götürə bilməyəcək və kapital itkisindən əziyyət çəkəcəkdir. Firmanın işçinin xüsusi hazırlığına ayırdığı investisiyaların xüsusi çəkisi nə qədər çox olarsa, o işçi işdən azad edildikdən sonra firmanın itkiləri də bir o qədər çox olacaqdır. Əksinə, işçinin öz xərclərinin payı xüsusi çəkidə payı çox olduqda, işdən azad edilən zaman onun itkiləri də çox olacaqdır və o firmaya daha güclü şəkildə “bağlı” olacaqdır.

İnsan kapitalından fərqli olaraq intelektual mülkiyyət əmtəənin bütün xüsusiyyətlərini özündə əks etdirir. İntelektual mülkiyyət alqı-satqı obyekti ola bilər, yəni o öz sahibindən ayrı mövcud ola bilər. Məlumdur ki, intelektual mülkiyyət əsasən intelektual kapitaldan istifadə edərək yaranan məhsuldur. İnsan kapitalının digər komponentləri intelektual mülkiyyətin yaranmasında iştirak etməyə də bilər.

İntelektual kapitalın ən yaxşı xüsusiyyəti odur ki, onun yığımı nəticəsində hər bir cəmiyyət üzvü intelektual cəhətdən zənginləşir, onun intelekti artır. İntelektual kapitalın maddi kapitaldan fərqi ondadır ki, maddi kapitalın yığımı bazarın inhisarlaşmasına gətirib çıxarır, yəni rəqabəti aradan qaldırır. Rəqabət isə, bildiyimiz kimi, innovasiya proseslərinin əsas stimuludur. Beləliklə, maddi kapitalın yığımı müəyyən dərəcədə innovasiya cəmiyyətində iqtisadi sistemin inkişafını ləngidir. İntelektual kapitalın yığımı isə inhisara deyil, əksinə, iqtisadi bəhsləşmənin artmasına və iqtisadi inkişafa aparır. Akademik N.Moiseyevə görə intelekt yalnız informasiya mühitində inkişaf edə bilər və hər bir fəaliyyət növü öz inkişaf mühitini formalaşdırır. Respublikanın iqtisadi sisteminin innovasiya cəmiyyətinə transformasiyası perspektivini nəzərdən keçirsək belə qənaətə gələrik ki, intelektual kapitalın toplanması və artması insan resurslarının inkişafının əsas məqsədlərindəndir.

## ƏDƏBİYYAT


1. Азгальдов Г.Г., Костин А.В. Интеллектуальная собственность, инновации и квалиметрия // Экономические стратегии, 2008. – №2 (60).
2. Донцова Л.В. Инновационная деятельность: состояние, необходимость государственной поддержки, налоговое стимулирование // Менеджмент в России и за рубежом, 2008. – №3.
3. Н. Н. Моисеев. Методы информатики в управлении народным хозяйством : Учеб. пособие; 1988.
4. A.Abdullayev. İqtisadiyyat və iqtisadi siyasət, Bakı-2003
5. A.Tağıyev. Bazar iqtisadiyyatının əsasları, Bakı-2000
6. Q.S.Bekker. İnsan kapitalı. 1964.

**Ева Адыгезалова**

## РОЛЬ ИНТЕЛЛЕКТУАЛЬНОГО КАПИТАЛА В ИННОВАЦИОННОМ ОБЩЕСТВЕ

В статье говорится об информационном обществе, как о социальной структуре и факторах, порождающих это общество. Кроме того, обсуждается интеллектуальный капитал во всех его формах и проявлениях. Также в статье для уточнения понятия интеллектуальный капитал рассматриваются понятия интеллектуальная собственность и человеческий капитал. Определяются разница и общие признаки этих понятий.

**Hevva Adygezalova**

## THE ROLE OF INTELECTUAL CAPITAL IN AN INNOVATIVE SOCIETY

The article refers to the information society as a social structure and factors that engender this society. In addition, intellectual capital is discussed in all its forms and manifestations. Also in the article to clarify the notion of intellectual capital, the concepts of intellectual property and human capital are examined. The difference and general features of these concepts are determined.

NDU-nun Elmi Şurasının 19 oktyabr 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 02).
Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

**ELCHIN ZAMANOV**
*Nakhchivan State University*
*zamanlielcin@yahoo.com*
**EMIL ZAMANLI**
*La Sapienza University, Rome İtaly*
*zamanliemil@yahoo.com*

**UOT: 631**

# TURKEY'S RURAL DEVELOPMENT POLICY, PROGRAMS AND PROJECTS

**Açar sözlər:** *Aqrar inkişaf, Türkiyə, İnkişaf layihələri və proqramları, KIIDP, Aqrar siyaset, AB*

**Key words:** *Rural development, Turkey, Development Projects and Programs, RDISP, Agricultural policies, EU*

**Ключевые слова:** *развитие сельских районов, Турция, проекты и программы развития, RDISP, сельскохозяйственная политика, ЕС*

Introduction

Rural development, which has been widely spoken of throughout the world for the last 25 years and is becoming more and more popular every day, is a process integrated with economic and social goals to provide a better and safer environment for the people living in rural areas and to transform the rural community. From here it is possible to see rural development as a process of identifying problems by making analyzes and bringing about appropriate solutions for these problems. This process is usually carried out within the framework of programs or projects aimed at eliminating identified problems. In this context, in the last twenty-five years, there has been increasing interest in such rural development programs and projects, and the fact that the development of rural areas is as important as the development of urban and industrial areas is accepted at the social level.

Rural development issue occupying the public opinion and the agenda of Turkey an increasing steadily. Because rural areas are socially responsible for migration due to the population they cover and the agricultural-based employment opportunities they create, due to the difference in development between them and the urban areas. Also, especially in the process of integration into the European Union, rural areas and the identification of problems in this area and finding concrete solutions to the requirements of these issues has contributed the rural development is one of the most important agenda item in Turkey. Therefore, studies on rural development in Turkey gained momentum and has been enriched by developing existing policy towards this issue. In this regard, within the framework of Turkey's obligations related to the acquis in the EU accession process, rural development policies and measures to harmonize with the EU Common Agricultural Policy has started to be given a special importance. As stated above, in rural development policies, which are usually implemented within the framework of programs and projects, complementarity emerges in order to increase the effectiveness of these policy instruments and to ensure that resources are used more efficiently. This concept is essentially a recently emerged in Turkey's rural development policy and the work of ministries or academic work has yet to take place at the desired level. However, complementarity between rural development programs / projects has a key role in ensuring efficiency and resource competence, in particular in the use of EU-funded rural development funds.

Rural Development in Turkey

Rural areas have a very important place in the socio-economic life of Turkey as much as the day-to-day history, considering the population they are living in and the volume of employment they produce and the volume of employment they create, particularly in agriculture. Although this

phenomenon of rural areas in Turkey has shown a tendency to decrease over time, rural areas and their related issues still remain on the agenda of Turkey. Because, compared with other developed Western countries, Turkey's rural areas have a larger share of population than the larger agricultural production volume and potential (14, p.58). Nevertheless, when compared with the countries in question, rural areas are characterized by difficulty in farming, low productivity, unemployment, poverty and the need for state intervention, and these areas seem to be in need of significant improvement in the current situation of Turkey's development (1, p.30)

Nevertheless, the definition of "rural area" as an important problem area for Turkey is emerging. The definition of a single "rural area" that reflects the basic qualities of the rural area and can be defined from qualitative-quantitative angles has not yet been established, and there are some problems arising from this lack. Because, in the official documents such as the NRDS-I (National rural development strategy) and the IPARD Program (Instrument for Pre-accession Assistance in Rural Development), which will be examined below, the population threshold is adopted and the population living in the province, district, borders and villages with a population below 20 thousand is evaluated as rural population. Taking into account the OECD (The Organization for Economic Co-operation and Development) criteria for rural area classification, which sets more realistic parameters than the TSI's rural area criteria, Turkey is at the top of the EU and OECD countries along with Ireland, Sweden, Norway and Denmark in the context of ruralism.

Table 1: Population Developmental Cycle According to Years in Turkey

| Census years | Rural population | | Urban population | | TOTAL NUMBER (MILLION) |
|---|---|---|---|---|---|
| | Number (Million) | (%) | Number (Million) | (%) | |
| **1927** | 10,3 | 75,8 | 3,3 | 24,2 | 13,6 |
| **1940** | 13,4 | 75,6 | 4,3 | 24,4 | 17,8 |
| **1950** | 15,7 | 75,0 | 5,2 | 25,0 | 20,9 |
| **1960** | 18,8 | 68,1 | 8,8 | 31,9 | 27,7 |
| **1970** | 21,9 | 61,6 | 13,6 | 38,4 | 35,6 |
| **1980** | 25,0 | 56,1 | 19,6 | 43,9 | 44,7 |
| **1985** | 23,7 | 47,0 | 26,8 | 53,0 | 50,0 |
| **1990** | 23,1 | 41,0 | 33,3 | 59,0 | 56,4 |
| **2000** | 23,8 | 35,1 | 44,0 | 64,9 | 67,8 |
| **2010** | 17,5 | 23,7 | 56,2 | 76,3 | 73,7 |
| **2011** | 17,3 | 23,2 | 57,3 | 76,8 | 74,7 |
| **2012** | 17,1 | 22,7 | 58,4 | 77,3 | 75,6 |
| **2013** | 6,6 | 8,7 | 70,0 | 91,3 | 76,6 |
| **2014** | 6,4 | 8,2 | 71,28 | 91,8 | 77,69 |

Source: http://www.tuik.gov.tr/UstMenu.do?metod=temelist

In Turkey, the agricultural sector and the rural area are intertwined, and the vast majority of rural inhabitants are working in the agricultural sector. According to the above-mentioned international OECD classification, the fact that the rural population is high causes the proportion of those working in the agricultural sector to be high. Indeed, according to TSI reports, 20.3% of those employed in Turkey in 2015 work in the agricultural sector. In Turkey, non-agricultural employment opportunities in rural areas are also very limited, and the agriculture sector is the only business area for the majority of rural inhabitants. Labor participation rates in Turkey (LFPR) are higher in rural settlements than in cities, compared to the fact that the number of women in the workforce is high. On the contrary, the acceleration of the retirement of women from the workforce in rural areas causes the LFPR to experience sharper declines in rural areas. This situation indicates that the subsistence production structure, which mostly relies on female labor, is gradually being resolved. Approximately 62% of rural workers in Turkey work in the agricultural sector. (3, p.7.)

Today, as in the rest of the world, there are also problems with rural areas in Turkey. These are the following:

1) The low capacity of the non-agricultural sectors to receive the workforce to be separated from agriculture, 2) The low level of education and vocational skills of the workforce, 3) Inefficient

institutional structure and inadequate number of active farmers' organizations, 4) Partial and scattered residential areas in some regions, 5) Inadequate protection and development of physical, social and cultural infrastructure, 6) Substantial dependence on subsistence agriculture, 7) High level of hidden unemployment and low income, 8) Migration of young people from rural areas to urban areas and population aging, 9) Inadequacy of public services for rural areas, 10) Inadequate non-agricultural economic activities to ensure good living conditions.

To address all of these problems, a serious approach change is needed in rural development policies, and economic and social actors need to be re-planned holistically in line with sustainable principles in order to ensure the well-being of people. In addition, it is important to ensure the sustainability of resources, and to broaden participatory practices through a bottom-up approach in decision-making and implementation processes. (5, p.35).

3. Historical Development of Rural Development Policies in Turkey

In Turkey, rural development studies are generally divided into two main phases: before the planned period and after the planned period. Before the planned period, it covers the period of foundation of the Republic. In general, it is possible to consider these years as a debris removal and reorganization period in terms of rural development. The agricultural structure, which has been almost inoperable in the last years of the Ottoman Empire, has been regarded as an economic sector and not an area where central needs have been met as it was in the priorities of the administrators of this period, and efforts have been made to be an important element of general economic development. In the planned period, studies have been carried out in order to ensure that the people living in the rural areas primarily organize within the framework of volunteerism and cooperation principles and to implement the rural development policies which will encourage them to work jointly with the central administration. In this context, a period of "planned development" has been initiated in order to increase efficiency and rationality in the economic and social activities to be carried out by the public since 1960s. As a result of this understanding, it has been decided that the activities and programs to be realized by the governments will be carried out in accordance with the Five-Year Development Plans (FYDP). In the following periods, rural development, multi-directional rural area planning and rural development projects were tried to be provided. (15, p.76)

4. Basic Policy Documents on Rural Development

In Turkey, rural development policies are implemented within the framework of policy documents that governments put forward. Different governments that came to power have generally different priorities and approaches to rural development, as has been understood from the above, different tools have been developed from the establishment of the Republic to the day. This situation makes the implementation of sustainable agriculture and rural development policy difficult in Turkey.

The recent agriculture and rural development policies implemented in Turkey and planned to be implemented are set out in the following documents: Preliminary National Development Plan (2004-2006), Rural Development Plan (2010-2013), National Rural Development Strategy (2014-2020), Tenth Development Plan (2014-2018), National Strategy for Regional Development (2014-2023)

Preliminary National Development Plan (PNDP) was prepared to establish a strategic framework for the programming of pre-accession financial assistance to be provided during the 2004-2006 period in the context of economic and social cohesion within the EU-Turkey financial cooperation framework in the EU accession process. In the Plan, a Strategy for Regional Development at the National Level was put forward. Four pillar developments in the PNDP, which is established in relation to Turkey's medium-term objectives and priorities, constitute the basis for certain priorities within each axis. (Devlet Planlama Teşkilatı, Ön Ulusal Kalkınma Planı (2004-2006), DPT Yayını, 2003.)

The National Rural Development Strategy, which was prepared by the State Planning Organization with the participation of stakeholders related to the topic, especially Ministry of Agriculture and Rural Affairs and approved by the High Planning Council in 2006, covers the period of 2007-2013 and is the first official policy document for rural development in Turkey. (1, p. 45). The National Rural Development Strategy (NRDS-II) covering the period 2014-2020 includes the coordination of the Ministry of Food, Agriculture and Livestock (MFAL) under the relevant

provisions of the 2014 Year Program, which is the basis of the annual implementation programs of the Tenth Development Plan (2014-2018), Technical assistance of the Ministry of Development and other relevant public and non-public stakeholders, and approved by the High Planning Council in 2014. (Gıda, Tarım ve Hayvancılık Bakanlığı, Ulusal Kırsal Kalkınma Stratejisi II (UKKS-2014-2020), Ankara, 2014.) In general, the NRDS-II serves the purposes of establishing a holistic policy framework for rural development activities in the light of the world's trends, the needs of the EU harmonization process and national experiences.

The Rural Development Plan (RDP), which is prepared in accordance with the NRDS-I and which defines settlements with a population of 20 thousand or less as the application areas, has taken various measures and activities envisaged to be supported in line with the above-mentioned main objective. In this framework, the policy framework consisting of 4 strategic objectives and 10 priority areas set out in the NRDS-I and the measures and activities set out in this direction form the basis of the RDP. It is envisaged that the RDP will be used as a reference document to contribute to the implementation of various sectoral policies and activities in rural areas more effectively. In this framework, activities in the RDP are designed to increase the effectiveness of sectoral policies in the rural areas and to ensure that the differentiated needs of the rural community are taken into account and are binding in terms of rural development practices (project and program etc.) that will be passed on and passed after the ratification of the RDP. In this respect, the RDP itself is the framework for the implementation of rural development in the country. (Tarım ve Köyişleri Bakanlığı, Kırsal Kalkınma Planı (2010-2013), Ankara, 2011.)

The scope of Tenth Development Plan includes the diversification of the rural economy's production and employment structure with various non-agricultural economic activities, the promotion of rural development support to improve the competitive power in agriculture and the development and strengthening of a target unity and harmony between EU resources and national resources on this area, harmonization and complementarity in terms of potential beneficiaries and geographical coverage development of the relationship is aimed. Finally, it is envisaged that some policy implementations related to rural development, such as the preparation of the district based local development program and the revision of the definition of the rural area, which will be formed by a combination of the needs of the rural settlements in different sectors. (Kalkınma Bakanlığı, Tenth Development Plan (2014-2018), Ankara, 2013.)

It is aimed at the stage of preparation of the National Strategy for Regional Development (NSRD) covering the years 2014-2023, adopting a method in which participatory social processes and methods are applied, at every stage in the decision-making process of related parties in order to increase the effectiveness of the strategies and the quality of the proposals. In this respect, NSRD was prepared under the coordination of the Ministry of Development with the contributions, opinions and recommendations of relevant ministries, development agencies, local administrations, universities, professional chambers, non-governmental organizations and other related public institutions and organizations and approved by the Regional Developmental Supreme Council in January 2015. The main objective of Turkey's rural development policies and practices adopted for this purpose in terms of policy NRDS-II and Tenth Development Plan largely parallels with the NSRD, it must be aggregated resources allocated to rural development. It is planned to develop a county development program that takes account of the administrative structure and regional developmental differences of the country, as well as a national rural development network in line with EU requirements, in order to facilitate the sharing of experience and cooperation between public and non-public actors in the field of rural development. (Kalkınma Bakanlığı, National Strategy for Regional Development (2014-2023), Kalkınma Bakanlığı Yayını, Ankara, 2014.)

5. Rural Development Investment Support Program (RDİSP)

The Rural Development Investment Support Program (RDİSP) is a nationally-funded rural development program implemented by the Ministry of Food, Agriculture and Livestock to improve economic and social conditions in the rural area within the framework of the Rural Development Plan. Within the scope of the program, projects based on the development of small and medium-

scale industrial activity based on agriculture; Projects for renewal of rural infrastructure and purchase of machine-equipment for production are supported.

Priority of RDİSP is Village Based Participatory Investment Program (VBPIP). The VBPIP, one of the most important steps in the reform process undertaken since the 2000s in Turkey, the Agricultural Reform Implementation Project (ARIP) has emerged as a result. (16, p.53). World Trade Organization rules and within the framework of full EU membership process, to contribute financially to the implementation of policy changes that will improve the competitiveness of agriculture in Turkey that aims to finance the ARIP activities, provided by the World Bank and the Cabinet was approved by the Council of the loan entered into force in 2001 Parallel to the agreement and loan modification in 2005, KBPYP was launched on 16 pilots. (Regulation to Support Investment Based on the Village Based Participatory Investment Scheme, Official Newspaper, No: 26497.). Based on the Decision of the Council of Ministers on Agriculture Strategy 2006 - 2010 and 2006/10016 on Rural Development Investments, the "Rural Development Investments Support Program (RDİSP)" was launched on 65 provinces except for 16 pilot provinces, based entirely on agricultural support resources.

Considering the protection of natural resources and the environment with RDİSP: 1) Raising the level of social standard and income in the rural area, 2) Supporting small and medium-sized enterprises for the provision of agricultural production and agriculture-based industry integration, 3) Development of agricultural marketing infrastructure, 4) Strengthening food safety, 5) The creation of alternative sources of income in rural areas, Increasing the activities of the ongoing rural development work, 6) The aim of establishing a certain capacity in rural society. (17). Real estate and legal entities' economic investments are supported in order to ensure the economic and social development in the rural area of 81 provinces within the context of the programs supported by the RDISP. Within this scope, 50% of the project amount for economic investments is covered by the program as grant support. Communiqués are issued annually on the basis of the Decision of the Council of Ministers dated January 18, 2011 and numbered 2011/1409, and the principles for the implementation of the program are laid down through these communiqués. As of July 2015, 10 call announcements have been made so far and the applications and the evaluations after the application have been completed within the scope of the present 10th call announcement.

Result

Since the foundation of the Republic, rural areas and rural development have been the subject of governments' various policy documents, but not a comprehensive and general framework. With the impact of the revitalization of Turkey's EU accession process from the beginning of the 2000s and the growing importance of rural development in the world, more detailed and effective policy documents on these issues has begun to be created. The EU accession negotiations, which started in 2005, required Turkey's rural development policies to be closer to the EU Rural Development Policy. For this reason, studies on rural development in Turkey have begun to accelerate and it has become necessary to develop policies towards this by creating a holistic national rural development strategy that will contribute both to the harmonization with the EU norms on the issue and to determine Turkey's needs and priorities.

REFERENCES

1. KOLUKIRIK, Cem, Avrupa Birliği Kırsal Kalkınma Politikaları, Fonları ve Türkiye'nin Yararlanma Olanakları, Namık Kemal Üniversitesi Fen Bilimleri Enstitüsü, Tekirdağ, 2010
2. http://www.tuik.gov.tr/UstMenu.do?metod=temelist
3. OLHAN, Emine, "Birleşmiş Milletler Ortak Programı Herkes için İnsana Yakışır İş: Ulusal Gençlik İstihdam Programı ve Antalya Pilot Bölge Uygulaması Türkiye'de Kırsal İstihdamın Yapısı", FAO Türkiye Temsilciliği, 2011
4. http://tuikapp.tuik.gov.tr/isgucuapp/isgucu.zul
5. ÖRNEK, Aylin, Kırsal Kalkınma El Kitabı, Heinrich Böll Stiftung Derneği, İstanbul, 2007
6. ÇELİK, Zühre, Planlı Dönemde Türkiye'deki Kırsal Kalkınma Politika ve Uygulamaları Üzerine Bir Değerlendirme, Planlama Dergisi, Şubat 2005
7. (Devlet Planlama Teşkilatı, Ön Ulusal Kalkınma Planı (2004-2006), DPT Yayını, 2003

8. Gıda, Tarım ve Hayvancılık Bakanlığı, Ulusal Kırsal Kalkınma Stratejisi II (UKKS-2014-2020), Ankara, 2014
9. Kalkınma Bakanlığı, Tenth Development Plan (2014-2018), Ankara, 2013
10. Kalkınma Bakanlığı, National Strategy for Regional Development (2014-2023), Kalkınma Bakanlığı Yayını, Ankara, 2014
11. Ministry of Agriculture and Rural Affairs, Rural Development Plan (2010-2013), Ankara, 2011
12. Regulation to Support Investment Based on the Village Based Participatory Investment Scheme, Official Newspaper, No: 26497
13. Ministry of Food, Agriculture and Livestock General Directorate of Agricultural Reform, Rural Development Investment Support Program Information Note, 2014
14. DİAKOSAVVAS, Dimitris, "Evaluation of Agricultural Policy Reforms in Turkey", OECD Report, 2011
15. GÜLÇUBUK, Bülent, Türkiye'de Tarım, Fahri Yavuz editörlüğünde Tarım ve Köyişleri Bakanlığının isteği üzerine hazırlanan kitap, 2005
16. TAN, Sibel, "Tarım Reformu Uygulama Projesi" Kapsamında Kırsal Kalkınma Projeleri: Çanakkale İli Köy Bazlı Katılımcı Yatırım Programı Örneği, Girişimcilik ve Kalkınma Dergisi, 4 (2) s.51-62
17. http://www.tarim.gov.tr/TRGM/Duyuru/262/Kkydp-Ekonomik-Yatirimlar-10-Etap-Teblig-No-2015_16,

**XÜLASƏ**

Elçin Zamanov, Emil Zamanli

**TÜRKİYƏNİN KƏND İNKİŞAF SİYASƏTİ, PROGRAMLARI VƏ LAYİHƏLƏRİ**

Türkiyənin iqtisadi, ictimai və mədəni həyatında çox böyük yer tutan kənd təsərrüfatı və əkinçiliyin inkişafı, respublikasının quruluşundan bəri dövlət siyasətində mühüm yer tutmuşdur. Xüsusilə də, respublikanın ilk illərində, əhalinin böyük bir hissəsinin kəndlərdə yaşadığı və iqtisadiyyatın əsas olaraq əkinçiliyə köklәndiyi bir mühitdə, əkinçilik və kənd təsərrüfatının milli inkişafdakı rolu, müasirləşmə siyasətində əkinçiliyə və çöl əhalisinə xüsusi əhəmiyyət verilməsini zəruri etmişdir. Respublikanın modernləşmə və müasirləşmə addımlarına uyğun olaraq bu sahədə, müxtəlif xidmətlərin yaradılması, iqtisadi və ictimai infrastrukturunun inkişaf etdirilməsi ilə ucqar və şəhər arasındakı fərqliliklərin azaldılmasına istiqamətli işlər həyata keçirilmişdir.

**РЕЗЮМЕ**

Эльчин Заманов, Эмил Заманли

**ПОЛИТИКА, ПРОГРАММЫ И ПРОЕКТЫ В ОБЛАСТИ РАЗВИТИЯ СЕЛЬСКИХ РАЙОНОВ ТУРЦИИ**

Вопросы сельского хозяйства и сельского развития, которые занимают важное место в экономической, социальной и культурной жизни Турции, были включены в правительственную политику и официальные документы с момента создания Турецкой Республики. Роль сельского хозяйства и развития сельских районов в национальном развитии, особенно в условиях, когда подавляющее большинство населения проживала в деревнях и экономике, в основном была основана на сельском хозяйстве в первые годы существования Республики, обязана придавать особое значение сельскому хозяйству и сельского населения в усилиях по развитию и модернизации. В этом контексте в соответствии с модернизационными и модернизационными движениями Республики были предприняты усилия по улучшению экономической и социальной инфраструктуры этих районов и снижению различий между сельскими и городскими районами путем привлечения различных услуг в сельские районы для развитие сельских районов в Турции.

NDU-nun Elmi Şurasının 19 oktyabr 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 02).
Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

**NURİYYƏ İBRAHİMOVA**
*Naxçıvan Dövlət Universiteti*
*nuriyyeibrahimova@mail.ru*

**UOT: 338.43**

# NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA AQRAR SAHƏNİN UĞURLU İNKİŞAFI

**Açar sözlər:** *aqrar sahə, insan amili, uğurlu layihələr, zəruri, lizinq, ərzaq məhsulları, inkişaf, nəaliyyət*

**Key words:** *agrar side, lucky projekts, lizing, food products, development, achievment*

**Ключевые слова:** *аграрная отрасль, человеческий фактор, успешные проекты, необходимый, лизинг, продовольственные продукты, развитие, достижени*

Ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi aqrar islahatlar bu gün ölkəmizdə və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında uğurla davam etdirilir. Həyata keçirilən məqsədyönlü və sistemli islahatlar bitkiçiliyin və heyvandarlığın, eləcə də emal sənayesinin inkişafına yol açır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamları ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında kartofçuluğun inkişafı üzrə Dövlət proqramı (2003-2010-cu illər), 2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair "Dövlət Proqramı", "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı "Dövlət Proqramı" və 2016-2020-illərdə Naxçıvam Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramının, muxtar respublikada aqrar sahənin inkişafında mühüm rolu var.

Muxtar Respublikanın iqlim şəraiti və əhalinin əsas hissəsinin kənd təsnifatı ilə məşğul olması burada əkinçiliyin inkiçafını şərtləndirir. Fermerlərə yanacağın, motor yağlarının, gübrələrin alınmasına çəkilən xərclərin 50% dövlət tərəfindən ödənilməsi, taxıl əkinlərinə görə subsidiyaların verilməsi, texniki təminatın yaxşılaşdırılması üçün istehsalçılara lizinq yolu ilə güzəştli şərtlər əsasında texnika və gübrələrin satılması əkinçiliyin inkişafında yeni istiqamətlər açıb, əkin sahələrinin və məhsuldarlığın ilbəil artmasına səbəb olub.

Muxtar respublikada artan əhali tələbatına uyğun olaraq iqtisadiyyatın şaxələndirilməsi, sosial sahənin inkişafı üzrə aparılan tədbirlər 2017-ci ilin birinci rübündə də davam etdirilmiş, yüksək nəticələr əldə olunmuşdur.

Cari ilin yanvar-mart ayları ərzində ümumi inkişafın əsas göstəricisi olan ümumi daxili məhsul istehsalının həcmi 505 milyon 378 min manatdan artıq olmuşdur ki, bu da bir il öncəki müvafiq göstəricidən ilin müvafiq dövrünə nisbətən 4,5% artaraq 1124,3 manat olmuşdur. Ümumi daxili məhsulun tərkibində ilk yeri 31,7 faizlik payla sənaye sahəsi tutmuş və maddi istehsalın payı 54,8 % təşkil etmişdir.

2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 2017-ci ilin yanvar-mart aylarında sənaye məhsulunun həcmi 1,3 %, kənd təsərrüfatının ümumi məhsulu 3,3%, nəqliyyat sektorunda yük daşınması 1,5 %, informasiya və rabitə xidmətlərinin həcmi 3,1%, pərakəndə əmtəə dövriyyəsi 1,7 %, əhaliyə göstərilən pullu xidmətlər 2%, ixracın həcmi 1,1 %, əhalinin gəlirləri 1,2 % artmışdır.

**Makroiqtisadi göstəricilər**

| Müqayisə predmeti | 2017-ci ilin yanvar-mart ayları (min manat) | 2017-2016-cı ilin yanvar-mart aylarına nisbətən faizlə |
|---|---|---|
| Ümumi daxili məhsul | 505378,6 | 100,9 |
| Hər bir nəfərə düşən ümumi daxili məhsul (manat) | 1124,3 | 104,5 |
| Sənaye məhsulunun ümumi həcmi | 234860,6 | 101,3 |
| Əsas kapitala yönəldilən investisiyalar | 192060,9 | 96,0 |
| Kənd təsərrüfatının ümumi məhsulu | 26400,4 | 103,3 |
| Nəqliyyat sektorunda yük daşınması (min ton) | 3298,0 | 101,5 |
| İnformasiya və rabitə xidmətlərinin həcmi | 12485,7 | 103,1 |
| Pərakəndə əmtəə dövriyyəsi | 288918,9 | 101,7 |
| Əhaliyə göstərilən pullu xidmətlər | 42503,6 | 102,0 |
| Xarici ticarət dövriyyəsi (min ABŞ dolları) | 56334,0 | 87,7 |
| O cümlədən ixracın ümumi həcmi | 53260,0 | 101,1 |
| İdxalın ümumi həcmi | 3074,0 | 26,7 |
| əhalinin gəlirləri | 358805,8 | 101,2 |
| Hər bir nəfərə düşən gəlirlər (manat) | 798,2 | 100,2 |
| Bir işçiyə hesablanmış orta aylıq əmək haqqı, manat | 413,6 | 103,4 |

Muxtar respublikada əhalinin ərzaq məhsullarına olan tələbatın yerli məhsullar hesabına ödənilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilmiş daxili bazarda məhsul bolluğu yaradılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 8 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020- ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə "Dövlət Proqramı"nın icrasıda muxtar respublika əhalisinin meyvə və tərəvəz məhsullarına olan tələbatının yerli istehsal hesabına təmin edilməsinə və tələbatdan artıq mövsümi məhsulların ixracına geniş imkanlar yaratmışdır.

2017-ci ilin ilk rübbü ərzində muxtar respublikada 12 milyon 50 min 400 ABŞ dolları dəyərində kənd təsərrüfatı, o cümlədən meyvə və tərəvəz məhsulları ixrac olunmuşdur.

Bazar iqtisadiyyatında azad sahibkarlığın fəaliyyət göstərməsi, onun stimullaşdırılması, təşəbbüskarlığın dəstəklənməsi əsas şərtlərdəndir. 2017-ci ilin ilk yarısı, bu mənada uğurlu layihələrin həyata keçirilməsi ilə də yadda qalıb. Bu dövrdə muxtar respublikada özəl sektora 1 milyon 814 min manat həcmində kreditlər verilib, dövlət dəstəyi ilə iqtisadi fəaliyyətin müxtəlif sahələrində 23 layihə üzrə istehsal və xidmət obyektləri yaradılıb. Naxçıvanda həyata keçirilən iqtisadi layihələrlə bərabər, eyni zamanda geniş sosial infrastruktur şəbəkəsi də yaradılıb, insanların həyat keyfiyyətinin yüksəldilməsi üçün konkret addımlar atılıb. Bu gün Muxtar respublikada 371 növdə məhsul istehsal olunması, 344 növdə məhsula olan tələbatın tamamilə yerli imkanlar hesabına ödənilməsi məhz iqtisadiyyatın şaxələndirilməsi.sahibkarlığa göstərilən dövlət qayğısı və yeni iqtisadi layihələrin dəstəklənməsi sayəsində mümkün olub. Bu layihələr müasir iqtisadi həyatımızın hər sahəsində-sənaye, kənd təsərrüfatı və emal sənayesi turizm, nəqliyyat və rabitə, ekoloji təmiz məhsulların istehsalı, ticarət və məişət xidməti kimi bir çox yerlərdə uğurla reallaşdırılmaqdadır. Bunların həyata keçirilməsi isə, şübhəsiz Naxçıvanın sənayeləşməsi və ixrac potensialının artırılması yolunda çox mühüm addımlardır.

Güclü iqtisadiyyat müasir cəmiyyət quruculuğunun əsas şərtlərindəndir. Bu mənada, Azərbaycanın ümumi inkişaf mənzərəsində özünəməxsus yer tutan Naxçıvan Muxtar Respublikası iqtisadi və sosial həyatın bütün sahələrində qazandığı uğurlar ilə diqqətləri cəlb edir. Bütün bunların əsası ümumilli liderimiz tərəfindən müəyyən olunmuş inkişaf strategiyasının davamlı şəkildə həyata

keçirilməsi nəticəsində əldə edilib. Artıq ilk yarısı başa çatmış olan 2017-ci ilin ötən dövrünə nəzər saldıqda görürük ki, iqtisadi inkişaf göstəricilərinin sosial və humanitar sahəyə uğurla transformasiya etdirilməsi nəticəsində muxtar respublikamız əvvəlki illərdə olduğu kimi, yenə də regional inkişafda öz lider mövqeyini qoruyub saxlamaqdadır.

Muxtar respublikamızın müasir inkişafının özünəməxsus xüsusiyyətləri vardır. Bu gün Naxçıvanın şöhrətini hər yerə yayan təbii sərvətlərin bu torpağın əsil sahiblərinə rifah gətirməsi, onların milli sərvətimizə çevrilməsi məhz gərgin əməyin nəticəsində mümkün olub. Bu gün artıq sübüt olunub ki, bu torpağın hər qarışının sərvətləri məhz uzaqgörən siyasətin bəhrəsi nəticəsində yurdumuzun çiçəklənməsinə xidmət edir.

2017-ci il muxtar respublikamız üçün uğurla başladı. Cari ilin ilk yarım ilində ümumi inkişafın əsas göstərici olan ümumi daxili məhsul istehsalının həcmi 1 milyard 208 milyon manatdan artıq olub ki, bu da bir il öncəki müvafiq göstərisində 1,3% çoxdur. Geriyə dönüb baxdıqda görürük ki, iqtisadi artımın müsbət dinamikada qorunub saxlanılması üçün görülən tədbirlər öz bəhrəsini verməkdədir. Muxtar respublikada daxili imkanlar hesabına yeni istehsal müəssisələrinin yaradılması region iqtisadiyyatı inkişafının uzunmüddətli bir dövr üçün dayanıqlığına zəmanət verir.

Blokadanın yaratdığı çətinlikləri artıq çoxdan dəf etmiş Naxçıvanda ərzaq təhlükəsizliyinə tam nail olunub. Cari ilin ilk altı ayında bu sahədə görülmüş işlər arasında bir il öncəyə nisbətən 3,1% çox, yəni 122 milyon 439 min 800 manat həcmində kənd təsərrüfatı məhsulu istehsal olunduğunu görməkdəyik.

Torpaqda məşğul olan kəndliyə hər cür dəstəyin verilməsi, əl əməyinin yüngülləşdirilməsi bu sahədə mütərəqqi yeniliklərin tətbiqi diqqətə saxlanılıb. Etibarlı ərzaq təminatı yaradılması Naxçıvanda daxili bazarın tam təmin olunması ilə yanaşı ərzaq məhsullarının ixracına da şərait yaradıb. Muxtar respublikada əhalinin etibarlı ərzaq təminatı ilə bağlı qarşıya qoyulmuş vəzifələrin icrası istiqamətində 2017-ci ilin məhsulu üçün taxıl və kartof əkinlərinin genişləndirilməsi, üzümçülüyün, tütünçülüyün daha da inkişaf etdirilməsi məqsədilə konkret tədbirlərin görülməsi öz nəticələrini verməkdədir. Hazırda muxtar respublikamızda taxıl biçini kampaniyası uğurla davam etdirilir. Heyvandarlıq sahəsində-ət və süd istehsalında əldə olunmuş naliyyətlər ötən ilin müvafiq dövrü ilə müqayisədə uyğun olaraq 2,3 və 1,3% çoxdur.

| **Müqayisə predmeti** | **2017-ci ilin yanvar-iyun ayları** | **2016-2017-ci ilin yanvar-iyun aylarına nisbətən faizlə** |
|---|---|---|
| Ümumi daxili məhsul | 1208548,6 | 101,3 |
| Hər bir nəfərə düşən ümumi daxili məhsul, manat | 2686,3 | 104.6 |
| Sənaye məhsulun ümumi həcmi | 523693,4 | 101,2 |
| Əsas kapitala yönəldilən investisiyalar | 536605,4 | 101,3 |
| Kənd təsərrüfatının ümumi məhsulu | 122439,8 | 103,1 |
| Nəqliyyat sektorunda yük daşıması,min ton | 7359,6 | 101,9 |
| İnformasiya və rabitə xidmətlərinin həcmi | 25144,0 | 102,0 |
| O cümlədən mobil rabitə üzrə | 20729,0 | 101,8 |
| Pərakəndə əmtəə dövriyyəsi | 674238,9 | 101,3 |
| Əhaliyə göstərilən pullu  xidmətlər | 93545,2 | 101,7 |
| Xarici ticarət dövriyyəsi.min ABŞ dolları | 203822,2 | 98,4 |
| O cümlədən ixracın ümumi həcmi | 190657,8 | 101,3 |
| İdxalın ümumi həcmi | 13164,4 | 69,8 |
| Əhalinin gəlirləri | 819988,1 | 101,1 |
| Hər bir nəfərə düşən gəlirlər, manat | 1822,6 | 100,1 |
| Bir işçiyə hesablanmış orta aylıq əmək haqqı, manat | 414,1 | 102,5 |

Muxtar respublikada arıçılığın daha da inkişaf etdirilməsi diqqət mərkəzindədir. Bu məqsədlə Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2016-cı il 18 noyabr tarixli sərəncamı ilə "2017-2022-ci illərəd Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı"nın icrası istiqamətində mühüm addımlar atılır.

Muxtar respublikada məhsuldar və keyfiyyətli toxum növləri istehsalın stimullaşdırılması məqsədilə Naxçıvan şəhərində toxumluq təsərrüfatı üçün yeni kompleks inşa olunmuşdur. Azərbaycan Respublikası Hökuməti ilə Çin xalq Respublikası Hökuməti arasında imzalanmış texniki-iqtisadi əməkdaşlıq sazişi çərçivəsində ayrılan qrant hesabına Naxçıvan Muxtar Respublikası "Bərəkət Toxumçuluq" Məhdud Məsuliyyətli Cəmiyyətinə yeni kənd təsərrüfatı texnikaları və toxumçuluq laborotoriyası avadanlıqları – 5 kombayn, 5 traktor, hər birinin tutumu 10 ton olan 4 yük maşını, 5 toxumsəpən, 5 filtr təmizləyici avtobus, hidravlik ekskavator, yanacaq tankeri, 80 tonluq elektron tərəzi eləcə də digər maşın və avadanlıqlar təqdim olunmuşdur. Hazırda Muxtar Respublikada 5 toxumluq təsərrüfatı fəaliyyət göstərir.

Ötən dövr ərzində muxtar respublikada taxılçılıq üstün istiqamət kimi saxlanılmış və 2017-ci ilin məhsulu üçün 31632 hektar sahədə taxıl əkilmişdir ki, bunun da 30320 hektarı payızlıq, 1312 hektarı isə yazlıq taxıldır. Taxıl zəmilərinin 22268 hektarında buğda,9364 hektarında isə arpa əkilmişdir. Bu il öncəyə nisbətən taxıl əkini sahəsi 53 hektar artmışdır. Hazırda taxıl zəmilərindən məhsul tədarükü davam etdirilir.

## ƏDƏBİYYAT


1. Alıyev.İ.H, İbadov. S.A, Azərbaycan iqtisadiyyatı Bakı, Ağrıdağ, 1998, səh 395
2. Nuriyev.Ə.X, "Regional idarəetmənin əsasları" Bakı, Elm, 2007, səh 428
3. Şərq qapısı 25 iyul 2017-ci il səh 2
4. Şərq qapısı 21 iyul 2017-ci il səh 1, 2
5. Kooperasiya 2016 №1 səh 73
6. Azərbaycan 02 noyabr 2016 səh 3
7. Bağırov.M.S, "Aqrar sahədə resurs potensialı onun istehsal və satış sisteminin formalaşdırılmasında rolu" Naxçıvan Qeyrət 2013. Səh 130
8. www.statistika.nm.az


## ABSTRACT


**Nuriyya Ibrahimova**


## THE LUCKY DEVELOPMENT OF AGRARCULTURE IN NAKHCHVAN AUTONOMOUS REPUBLIC


In this article the modern development of NAR, economic potensial and humans resurces at the same time the using of the economy and the forming of the control mexanizm are commented.

In market economy the free owhersactivity makes an important role. Sothat the beginmig of the 2017 knows as the realizing lucky project. Economic development depends on hot only the human activity but also sewe to the forming of the human capital. The available social policy in Nakchivan gains the lucky inall the fields. The gained luckies over the social and economic side in NAR are saved in first 6 months of the year and realized some measures over the agriculture and the forming of the economy. Measure for the needing of the food products of the people instead of domestic products are realized in this article.

## РЕЗЮМЕ

**Нурия Ибрагимова**

## УСПЕШНОЕ РАЗВИТИЕ АГРАРНОЙ ОТРАСЛИ НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ

В статье обширно излогаются своеобразные особенности современного развития, широкий производственно-экономический потенциал и людские ресурсы Нахчыванской Автономной Республики, и в то же время формирование гибкого механизма управления для эффективного использования всех имеющихся экономических ресурсов, диверсификации экономики и развития необходимых отраслей.

В рыночной экономике одним из основных условий является деятельность свободного предпринимательства. Так, в этом смысле, первая половина 2017-го года запомнилась проведением в жизнь успешных проектов. Экономическое развитие зависит от человеческого фактора, а его результаты служат формированию человеческого капитала. Проводимая в автономной республике эффективная социальная политика, оказываемая человеческому фактору высокая забота, дают свои положительные результаты в каждой области. Сохранены достигнутые успехи в экономической и социальной отрасли Автономной Республики, а в первые шесть месяцев текущего года, проведены в жизнь важное мероприятия по формированию многоогрworld экономики и развитию аграрной отрасли. Осуществлены важное мероприятия в направлении удовлетварения спроса населения в продовольствии зашёт местных продуктов, создано изобилие продуктов на внутренным рынке.

В статье наряду с выражением теоретических взглядов особое внимание уделено развитию событий в практической плоскости, а это доказывает системность проводимых исследований по изучению проблемы.

В иследованиях было применено изучение сформированных реальных условий и возможностей по аграрной отрасли Нахчыванской Автономной Республики.



NDU-nun Elmi Şurasının 19 oktyabr 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 02).

Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

**BƏHRİYYƏ ABBASOVA**
*Naxçıvan Dövlət Universiteti*
*bahriya.abasova@mail.ru*

**UOT: 334.72**

# İNNOVASİYALI SAHİBKARLIQ FƏALİYYƏTİNİN İNKİŞAF PERSPEKTİVLƏRİ

**Açar sözlər:** *sahibkarlıq, innovasiya, risk, sabitlik, konsepsiya, inkişaf*
**Key words:** *owner, innovation, risk stability, conception, development*
**Ключевые слова:** *предпринимательство, инновация, риск, стабильность, концепция, развитие.*

Müasir dövrdə bazar iqtisadiyyatı ölkələrində sahibkarlığın ən geniş yayılmış formalarından biri innovasiya sahibkarlığı. Təşkilatın modernləşdirilməsi, müasir və mütərəqqi texnologiyanın tətbiqi nəticəsində bazarda rəqabətə davam gətirə bilər. Məhsulların istehsalı innovasiyalı sahibkarlıq fəaliyyətindən çox asılıdır. Belə ki, inkişaf etmiş ölkələrdə elmi-texniki tərəqqinin inkişafı innovasiyalı sahibkarlıqla bağlıdır.

İngilis iqtisadçısı Adam Smit sahibkarı mənfəət əldə etmək üçün iqtisadi risklə bağlı olan hər hansı bir ideyanı həyata keçirən kapital sahibi kimi təqdim etmişdir. [9]

Deməli, sahibkar-qazanc əldə etmə məqsədilə başqalarının ehtiyacını ödəyə biləcək mallar (iş və xidmətlər) istehsal etməyə çalışan və bu məqsədlə də istehsal amillərini bir araya gətirməyi bacaran bir şəxsdir. Sahibkar öz şəxsi məqsədinə çatmaq üçün bir təşkilat quran və bu işdə son məqsədinə çatmaq üçün riskə getməyə hazır olan şəxsdir. Sahibkarların başlıca funksiyası: a) riski öz üzərinə almaq

b) mal və xidmət istehsal etmək məqsədilə istehsal amillərini bir araya gətirəcək insanların ehtiyaclarını ödəməkdir. Bu ikili funksiya idarəetmə funksiyasıdır. Deməli, sahibkar həm də idarəedicidir.

Sahibkarlığın inkişafı Azərbaycan dövlətinin iqtisadi siyasətinin başlıca istiqamətlərindən biri olmaqla yanaşı, həmçinin ölkənin iqtisadi və sosial problemlərinin həllində cəmiyyətdə sabitliyin möhkəmləndirilməsində mühüm amil hesab olunur. Hazırda innovasiyalı sahibkarlıq fəaliyyətinin stimullaşdırılmasının digər istiqamətlərindən biri də sahibkarlığa kömək Milli Fondunun fəaliyyətidir. Bu öz əksini fondun əsasnaməsinin təsdiqlənməsində tapmışdır. Bu fondun vəzifəsi ölkədə sahibkarlığın inkişafına maliyyə dəstəyi göstərmək, onlara müvəkkil banklar vasitəsilə güzəştli kreditlərin verilməsini təmin etmək, bir sözlə, iş adamlarının səmərəli biznes layihələrinin reallaşmasına yardımcı olmaqdır. Bu istiqamətdə Azərbaycan İnvestisiya Şirkəti, Sahibkarlığa Kömək Milli Fondu, "Aqrolizinq" ASC və digər vasitələrlə real sektora maliyyə dəstəyi göstərilmişdir.

Prezident İlham Əliyevin bəyan etdiyi kimi, bu gün qarşıda duran ən başlıca məqsəd Azərbaycanı inkişaf etmiş dövlətlər səviyyəsinə çatdırmaqdır. Bu baxımdan, ölkənin inkişafının hazırki mərhələsində əsas hədəflər çoxşaxəli, innovasiya yönümlü iqtisadiyyatın formalaşdırılması, əhalinin rifahının davamlı olaraq yaxşılaşdırılması, habelə elmin, mədəniyyətin inkişafında, ictimai həyatın bütün istiqamətlərində yeni nəaliyyətlərin əldə olunmasıdır.

Dövlət başçısının 29 dekabr 2012-ci il tarixli fərmanı ilə təsdiq edilmiş " Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsində mühüm rol oynayır. Xatırladaq ki, bu konsepsiya sosial-iqtisadi inkişafın keyfiyyətcə yeni mərhələsində Azərbaycanın gələcək inkişaf perspektivlərinin dərin elmi əsaslarla müəyyənləşdirilən konseptual əhəmiyyətli sənəddir. [1]

Hazırda ölkədə sahibkarlığın daha da inkişaf etdirilməsi istiqamətində atılan addımlar sistemli və ardıcıl xarakter daşıyır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən son zamanlar imzalanan sənədlər, qəbul edilən qərarlar sahibkarlığın inkişafına verilən böyük dəstəyin göstəricisidir. Ölkə prezidentinin "Azərbaycan Respublikasında Sahibkarlar Günü"nün

təsis edilməsi haqqında 21 aprel 2016-cı il tarixli sərəncamına əsasən aprelın 25-də Azərbaycanda ilk dəfə "Sahibkarlar günü" qeyd edilməsi ölkənin sosial-iqtisadi inkişafında, məşğulluğun təmin olunmasında sahibkarlığın fəaliyyətinə verilən yüksək qiymətin və sahibkarlığın inkişafına göstərilən böyük diqqət və qayğının bariz ifadəsidir. [2]

İnnovasiya prosesi yeni məhsulların mənimsənilməsi, buraxılan məhsulların modernləşdirilməsi, yeni istehsal vasitələrinin istehsal prosesinə cəlb edilməsi, istehsalın təşkili və idarə olunmasının daha mükəmməl formaları ilə əlaqədardır.

İnnovasiya iqtisadiyyatı şəraitində sahibkar daim risk etməyə hazır olmalı, başqalarının edə bilmədiklərini əvvəlcədən görə bilməli, istehlakçıların etibarını qazanmalı, özünəinamlı olmalı və daim yeniliklər axtarmalıdır. Onlar daim axtarışda olan işgüzar insanlar olmaqla yeni məhsulların, texnologiyanın, biznesin yeni formalarını yaradan, yeni ideyaları və layihələri həyata keçirənlərdir.

Sahibkarlıq fəaliyyəti həmişə yeniliklə və yeniliyin tətbiqi ilə bağlı olan dinamik prosesdir. Ən az məsrəflə, əməyin və istehsalın təşkilinin ən səmərəli üsullarını tətbiq etməklə təlabata uyğun məhsullar istehsal etdiyi və istehlakçıya yüksək keyfiyyətli xidmət göstərdiyi üçün sahibkarlıq fəaliyyəti səmərəli təsərrüfat formasıdır. İqtisadiyyatın dinamik inkişafının təmin edilməsində, iqtisadi tərəqqinin daha surətli xarakter almasında innovasiaya sahibkarlığının fəaliyyəti əvəzedilməz əhəmiyyətə malikdir. İnkişaf etmiş ölkələrdə elmi-texniki tərəqqinin inkişafı məhz innovasiya sahibkarlığı ilə bağlıdır. [1]

Azərbaycanda innovasiya fəallığının yüksəldilməsi yolu ilə rəqabətqabiliyyətli məhsul istühsalının stumullaşdırılması, innovasiya fəaliyyətinin həyata keçirilməsi üçün zəruri mexanizmlərin formalaşdırılması, innovasiya potensialının səmərəli istifadə və inkişafının təmin edilməsi məqsədi ilə dövlət dəstəyi tədbirlərinin reallaşdırılması üçün müvafiq qanun vericilik bazasının yaradılmasına zərurət vardır.

İnnovasiya prosesi müxtəlif resursların istehsal fəaliyyətinə cəlb edilməsi ilə bağlıdır. Əsas resurslar yeni məhsul istehsalının geniş miqyasda mənimsənilməsi ilə əlaqədar olan tədqiqatlar və araşdırmalar aparılmasına, layihə-texnoloji və başqa işlərin yerinə yetirilməsi üçün investisiyalar və vaxt sərf olunur. Bütövlükdə innovasiya fəaliyyəti sisteminə elm, texnologiya, innovasiya və təhsil kimi tərkib hissələri daxildir. Bu komponentlərdən hər hansı birinin olmaması innovasiya fəaliyyəti sisteminin bütövlüyünün pozulmasına gətirib çıxarır.

Bazar iqtisadiyyatlı inkişaf etmiş ölkələrdə elmi-texniki tərəqqinin inkişafi innovasiya sahibkarlığı ilə bağlıdır. Ümumiyyətlə sahibkarlığın iki formasını fərqləndirmək olar: onlardan biri yeniliklərin tapılması və reallaşdırılmasıdır ki, buna da innovasiya sahibkarlığı deyilir. Digəri isə xalis bazar sahibkarlığıdır. Bunada marketinq deyilir. Elmi-texniki nailiyyətlərin istehsala tətbiqi innovasiyanı şərtləndirir. İnnovasiya prosesi hər şeydən əvvəl aşağıdakıların yerinə yetirilməsindən ibarətdir:

-Yeni məhsulların mənimsənilməsi, buraxılan məhsulun modernləşdirilməsi;

-Yeni istehsal vasitələrinin istehsal prosesinə cəlb edilməsi;

-Yeni texnologiya və məhsulun istehsalı üsullarından istifadə edilməsi.

-İstehsalın təşkili və idarə olunmasının daha mütərəqqi formaları.

-İnnovasiyanın nəticələri aşağıdakılardan ibarətdir:

-Məhsulun çeşidi təzələnir, rəqabət qabiliyyəti yüksəlir, əhalinin təlabatının ödənilməsinə kömək edir.

-İstehsalın səmərəliliyi yüksəlir, məhdud resurslardan qənaətlə istifadə olunur, istehsal xərcləri azalmaqla mənfəət artır.

-Yeniliklər sosial nəticələrlə səciyyələnir.

Lakin qeyd etdiyimiz kimi, innovasiya sahibkarlığını təşkil etmək o qədər də asan deyil, bunun üçün çoxlu miqdarda maliyyə vəsaiti tələb olunur. Bu çətinliyi aradan qaldırmaq yollarından biri də lizinq müqaviləsinin bağlanmasıdır. Bu müqaviləyə uyğun olaraq, lizinq şirkəti sifariş olunan maşın, avadanlıq və s. Malı istehlakçıdan alır və sifarişçiyə icarəyə verir. Müqaviləyə əsasən icarə haqqı amortizasiya ayırmaları və lizinq şirkətinin mənfəətindən ibarət olur.

Xarici iqtisadçılar isə innovasiya sahibkarlığı ilə iri müəssisələrin məşğul olmasını məqsədəuyğun sayırlar. Buna səbəb bilavasitə, yuxarıda qeyd etdiyimiz kimi innovasiyanın mənimsənilməsinin yüksək xərc tələb etməsidir. Bu xərc isə əsasən qiymətli ixtiraçılar və yeni sınaq

nümunələrinin hazırlanması işinin çoxsaylı əmək kollektivinin səyini və çox güclü maddi texniki baza tələb etməsindən irəli gəlir. Odur ki, yalnız yüksək maliyyə vəsaitinə malik olan iri firmalar innovasiya layihələrini başa çatdıra bilər, iri firmaların digər üstünlüyü orada çoxməqsədli tədqiqatların hazırlanmasıdır. Həm də bu firmalar sınaq, layihə və elmi tədqiqat işlərinin aparılması zamanı müxtəlif yanaşmalardan istifadə edilməsi də onların digər üstünlüyünü müəyyən edir.

İnnovasiya sahibkarlığının müvəffəqiyyətinin əsas şərtlərindən biri innovasiya fəaliyyətinin qiymətləndirilməsidir. Bu asan deyil, lakin zəruridir, çünki innovasiya prosesinin stimullaşdırılması həyata keçirilməlidir. Ölkədə innovasiyanın rolunu daha da dərindən dərk etmək üçün tanınmış alim P.Drikerin dediyi bir kəlamı yada salmaq kifayətdir: "Gələcəkdə dünyada varlı yaxud kasıb ölkələr anlayışı olmayacaqdır. İnnovasiyaya üstünlük verən ölkələr və ona diqqət yetirməyən "inamsız" ölkələr olacaqdır".

Müasir iqtisadi şəraitdə Naxçıvan Muxtar Respublikasında sənaye, kənd təsərrüfatı, tikinti, sosial-mədəni və digər sahələrdə yeni nəsil texnologiyaların tətbiqi ilə keyfiyyətli məhsul və xidmətlərin istehsalına nail olunmuş, innovasiya, modernləşmə, müasirləşmə nəticəsində davamlı və dayanıqlı inkişaf təmin edilmişdir.

Muxtar Respublikada yeni sahibkarlığın inkişafı istiqamətində həyata keçirilən tədbirlərlə əlaqədar olaraq, hər il onlarca layihələr reallaşdırılaraq müasir texnologiyalarla təmin olunmuş innovasiya yönümlü müəssisələr yaradılmışdır. Nəticədə xarici ticarət dövriyyəsinin strukturunda ciddi dəyişiklik baş vermiş, idxalda üstünlük təşkil edən ərzaq məhsulları öz istiqamətini avadanlıq və texnologiyalara doğru dəyişmişdir ki, bu da istehsalın avtomatlaşdırılması ilə dünya standartlarına uyğun ixracyönümlü məhsulların istehsalının artmasına öz müsbət təsirini göstərmişdir.

Muxtar Respublikada iqtisadiyyatın aparıcı qüvvəsi olan sahibkarlığın inkişafı istiqamətində ardıcıl tədbirlər davam etdirilir.

2017-ci ilin ilk rübü ərzində muxtar respublikada sahibkarlara 913 min 800 manat, həcmində kreditlər verilmişdir. Bu dövr ərzində 11 hüquqi və 602 fiziki şəxs qeydiyyata alınmışdır.

Yeni istehsal sahələrinin inkişafının nəticəsidir ki, bu gün muxtar respublikada 367 növdə məhsul istehsal olunur. Bu məhsulların 121 növü ərzaq, 246 növü qeyri-ərzaq məhsullarıdır, 107-si ərzaq, 237-si qeyri-ərzaq olmaqla, 344 növdə məhsula olan tələbatın tamamilə yerli imkanlar hesabına ödənilməsi təmin edilmişdir. [3]

Cari ilin yanvar-mart ayları ərzində ümumi inkişafın əsas göstəricisi olan ümumi daxili məhsul istehsalının həcmi 505 milyon 378 min manatdan artıq olmuşdur ki, bu da bir il öncəki müvafiq göstəricidən çoxdur. Hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi əvvəlki ilin müvafiq dövründəkinə nisbətən 4,5% artaraq 1124,3 manat olmuşdur. Ümumi daxili məhsulun tərkibində ilk yeri 31,7 faizlik payla sənaye sahəsi tutmuş və maddə istehsalın payı 54,8%təşkil etmişdir.[3]

2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 2017-ci ilin yanvar-mart aylarında sənaye məhsulunun həcmi 1,3%, kənd təsərrüfatının ümumi məhsulu 3,3%, nəqliyyat sektorunda yük daşınması 1,5%, informasiya və rabitə xidmətlərinin həcmi 3,1%, pərakəndə əmtəə dövriyyəsi 1,7%, əhaliyə göstərilən pullu xidmətlər 2%, ixracın həcmi 1,1%, əhalinin gəlirləri 1,2% artmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin hər yeni müəssisəsinin açılışında iştirak etməsi, müəssisənin iş prosesi ilə tanış olması muxtar respublikada sahibkarlıq fəaliyyətinə verilən dəstək, göstərilən diqqət və qayğının əyani təzahürü, sahibkarlıq fəaliyyətinin artırılmasına isə bir işarədir. Bu ənənəni davam etdirən muxtar respublika rəhbəri fikrini belə ifadə edir: " İndi bizim qarşımızda bir vəzifə var. Oda sahibkarlıq strukturlarında fəaliyyəti genişləndirməklə ölkəmizin, eləcə də muxtar respublikamızın iqtisadi qüdrətinin artırmaqdan, bununla yanaşı, əhalinin rifah halını daha da yaxşılaşdırmaqdan ibarətdir." [3]

Deməli, daha yaxşı və firavan həyat üçün sahibkarlığın inkişaf etdirilməsinin əhəmiyyətin dərindən anlayaraq hər sahibkar üzərinə düşən vəzifəni layiqincə yerinə yetirməlidir.

Ümumiyyətlə, iqtisadi və sosial inkişafın əsas lokomotivi olan sahibkarlıq fəaliyyətinin inkişafı və stimullaşdırılması ölkənin gələcək sabit inkişafında, həmçinin dünya iqtisadiyyatına inteqrasiyasınıda əsaslı mövqe tutmasına tam təminatcı olacaqdır. [1]

## ƏDƏBİYYAT

1. Statistika xəbərləri, Elmi-praktik jurnal №4, Bakı, 2016
2. Azərbaycan Respublikasında Sahibkarlıq gününün təsis edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinin sərəncamı 21 aprel 2016-cı il
3. Şərq qapısı qəzeti Naxçıvan, 19 aprel 2017-ci il. Səh 2
4. Azərbaycan 2020; gələcəyə baxış İnkişaf Konsepsiyası. Bakı, 2012
5. Ş.Ə.Axundov və M.Ə.Axundov Bazar iqtisadiyyatının əsasları Bakı, 2001. Səh 672.
6. Atakişiyev M, Süleymanov Q. "İnnovasiya menecmenti" Bakı, 2004.
7. F.H. Qasımov., T.N. Əliyev., Z.M. Nəcəfov., Milli innovasiya sisteminin təşkili və idarə edilməsi, Dərs vəsaiti Bakı, Elm və təhsil, 2013. Səh 678
8. F.H. Qasımov, A.N. Hüseynov., İnnovasiya sistemi və onun informasiya təmimatı. Dərs vəsaiti. Samara: As Qard MSC, 2013 səh 382.



## ABSTRACT

**Bahriyya Abbasova**

**THE DEVELOPMENT PERSPECTIVE OF INNOVATION ENTREPRENEURIAL ACTIVITY**

The innovation proses is connected with the gaining of the new production, the modernization of the export, the attract to the export proses of the new production material and the formation of the organization and controlling of the products.On the condition of the innovation the owner ready to do risk, and ready to do innovation. Not only they ready to search but as realized the new products, technology, business and new ideas and new objects.

The activity of owher is always dynamic process connection with the innovation. The activity of innovation owher money air important role on the providing of the economic dynamic development. In developing country the development of the scientific-technical connect, with the innovation owher.



## РЕЗЮМЕ

**Бахрия Аббасова**

**ПЕРСПЕКТИВЫ РАЗВИТИЯ ИННОВАЦИОННОЙ ПРЕДПРИНИМАТЕЛЬСКОЙ ДЕЯТЕЛЬНОСТИ**

Инновационный процесс тесно связан с освоением новой продукции, с модернизацией выпускаемой продукции, с привлечением в процесс производства новых средств производства, с более совершенными формами организации и управления производством. В условиях инновационной экономики предприниматель должен быть постоянно готовым к риску, заранее видеть то, что не могут сделать другие, завоевать доверие потребителей, быть уверенным в себе и постоянно искать новшества. Они, являясь деловыми людьми, находящимися в постоянном поиске, создают новую продукцию, технологию, новые формы бизнеса, проводят в жизнь новые идеи и проекты.

Предпринимательская деятельность является динамическим процессом, всегда связанным с новшеством и внедрением нововведений. Предпринимательская деятельность является эффективной хозяйственной формой, так как с минимальными затратами и внедрением самых эффективных методов организации труда и производства, производится продукция соответствующая требованиям, а потребителям оказываются услуги высокого качества. Инновационная предпринимательская деятельность имеет незаменимое значение в обеспечении динамического развития экономики, достижении более быстрого характера экономического прогресса. В развитых странах развитие научно-технического прогресса связано именно с инновационным предпринимательством.



NDU-nun Elmi Şurasının 19 oktyabr 2017-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 02).

Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

**HƏSƏN ABBASOV**
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 338.43**

# AQRAR TƏNZİMLƏMƏ FƏALİYYƏTİNİN TƏSƏRRÜFAT SUBYEKTLƏRİNİN TƏLƏBLƏRİ İLƏ UYĞUNLAŞDIRILMASI VƏ QİYMƏTLƏNDİRİLMƏSİ İMKANLARI

**Açar sözlər:** aqrar *sahə, aqrar tənzimləmə fəaliyyəti, təsərrüfat subyektləri, uyğunluq, qiymətləndirmə*

**Key words:** *agrarian sector, agrarian regulation activities, economic subjects, compliance, evaluation*

**Ключевые слова:** *аграрная отрасль, аграрная регулировочная деятельность, хозяйственные субъекты, соответствие, оценивание*

Ümumilikdə ölkə, o cümlədən muxtar respublika miqyasında aqrar sferanın hazırki vəziyyətinin qənaətbəxş şəkildə qiymətləndirilməsi digər işlərlə yanaşı bu sferada aparılan məqsədyönlü tənzimləmə fəaliyyəti ilə də əlaqələndirilməlidir. Onun əsas istiqamətləri kimi müvafiq qanunvericilik normalarının hazırlanaraq icraata verilməsi, daxildə və beynəlxalq təcrübədə sınaqdan çıxarılmış metod və mexanizmlərin yerli şərtlər nəzərə alınmaqla tətbiqi və digər uyğun tədbirlər hesab oluna bilər. Məsələnin araşdırılması və qiymətləndirilməsində bir çox amilin təsir dərəcəsinin öyrənilməsi öz əhəmiyyətini qorumaqdadır. Vahid sistemin tərkib komponentlərini təşkil edən həmin amillər öz növbəsində qarşılıqlı əlaqə və asılılıqları ilə seçilən ümumilikdə iqtisadi mexanizmlərə, o cümlədən aqrar sahədə baş verən hadisə və proseslərə özünün fərqli təsir həcmləri ilə seçilməkdədir, bu da bir daha çoxyönlü yanaşmanın, həmçinin tənzimləmə fəaliyyətinin aparılmasının zəruriliyindən xəbər verir.

Reallığa əsaslanaraq qeyd etmək yerinə düşər ki, müəyyən edilmiş məqsədlər əsasında tənzimləmənin çoxsaylı təsirləri ilk növbədə aqrar məhsulların, aqrar xammalın və ondan emal sənayesi tərəfindən istehsal olunan ərzaq məhsullarının azad bazar, sağlam rəqabət müddəaları əsasında reallaşdırılması və bu baza üzərində istehlakçıların tələbatının daha optimal təmin edilməsi proseslərində özünü biruzə verməlidir. Bu zaman dövlətin iştirakı işgüzar mühitə müdaxilə etməməkdən, onun alət və mexanizmlərinə köməklik etməkdən, müvafiq stimullaşdırıcı fəaliyyəti təmin etməkdən, bu istiqamətlərdə işlək çoxaspektli institutsional təşkilatlanmanı təmin etməkdən ibarətdir. Digər tərəfdən, tənzimləmə bazası və mexanizmlərindən (gömrük, vergi, subsidiyalaşma, investisiya qoyuluşları, güzəştli kreditlərin verilməsi və s.) istifadə etməklə subyektlərin maliyyə imkanlarının yaxşılaşdırılması dövlətin apardığı aqrar siyasətin hansı səviyyədə olmasının qiymətləndirilməsinin əsas meyarlarından hesab olunmaqdadır.

Sadalanan istiqamətlərdə olan fikirləri ümumiləşdirərək diqqətin ilk öncə tənzimləmə fəaliyyətini tələb edən aşağıdakı amillər üzərində qurulması düzgün hesab olunur:

- ✓ Tənzimləmə fəaliyyəti üzrə özünün sistemliliyi və kompleksliliyi ilə seçilən müvafiq konsepsiyaların və mərhələliyi, icra dövrlərini özündə əks etdirən proqramların hazırlanması;
- ✓ Ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi baxımında ümumilikdə sahə, o cümlədən onun ayrı-ayrı istiqamətləri üzrə müvafiq işlərin görülməsi;
- ✓ Mövsümi istehsal və tələbat əsasındakı vəziyyətin dəqiqləşdirilməsi və bu əsasda xarici analoqların daxili bazara gətirilmə kvotalarının müəyyənləşdirilməsi;
- ✓ Torpaq və digər resurslardan, su ehtiyatlarından səmərəli istifadənin təmin olunması və ətraf mühit elementlərindən maksimal istifadə edilməsi, onların sıradan çıxarılmasının qarşısının alınması üzrə tənzimləyici tədbirlərin həyata keçirilməsi;
- ✓ Aqrar istehsal və reallaşdırma fəaliyyətində olan mənfi təsirə malik amillərin təsirinin minimallaşdırılması sahəsində işlərin görülməsi;

- ✓ Kənd təsərrüfatı məhsullarının qiymətləri ilə bu sahənin ehtiyacını qarşılayacaq digər maddi-istehsal və xidmət sahələrinin təklif etdiyi mallar arasındakı qeyri-bərabərliyin tarazlanması üzrə fəaliyyətin təşkili;
- ✓ Subsidiyalaşma və investisiya təynatlı işlər üzrə dəqiq mexanizmlərin hazırlanması;
- ✓ Aqrar sahənin tələbatını ödəyəcək zəruri kadr potensialının formalaşdırılması, onların mütəmadi şəkildə peşəkarlıq səviyyələrinin artırılması üzrə işlərin icrası və s.

İfadə etdiyimiz bəndlərin fərdi qaydada nəzərdən keçirilməsi aqrar sahədə tənzimləmə fəaliyyəti baxımından görülən işlərin vəziyyətini dəqiqləşdirməli, ona konkret qiymət verməyə imkan yaratmalıdır.

Hər bir sivil, bazar iqtisadiyyatına keçmiş ölkədə tənzimləmə fəaliyyəti iqtisadiyyatın inkişafının əsas iştirakçı komponentlərindən hesab olunur. Real vəziyyətin qiymətləndirilməsi və perspektiv dövrlər üzrə iqtisadi vəziyyətin inkişaf meyllərinin proqnozlaşdırılmasına əsaslanan vahid tənzimləmə konsepsiyaları və əsasən fərdiliyi ilə seçilən proqramları istər ölkə, istərsə də regional müstəvidə sahələrin təkamülü və transformasiyasına əsaslanmaqla yanaşı, son nəticədə istehlakın ödənilmə səviyyəsinin müsbət dinamika üzrə hərəkətini təmin etmək məqsədini güdür.

İstər Azərbaycan Respublikasında, istərsə də Naxçıvan Muxtar Respublikasında tənzimləmə sahəsində bəlli zaman kəsiklərini əhatə edən Dövlət Proqramlarının və digər hüquqi-normativ aktların (taxılçılıq, kartofçuluq, meyvəçilik, əsas fondlarla təmin olunma, yanacağın güzəştlə verilməsi, vergilərdən azad olunma, məqsədyönlü gömrük fəaliyyətinin təmin edilməsi və s.) qəbul edilməsi və icrasına baxmayaraq, vahid tənzimləmə konsepsiyası qəbul edilməmişdir. Düşünürük ki, belə vəziyyət mütəşəkkil tənzimləmə fəaliyyətinin həyata keçirilməsinə tammənalı şərait yaratmır, bəzi hallarda isə dolayı maneə effekləri də müşahidə oluna bilər.

Ölkənin ərzaq təhlükəsizliyinin qorunması dövlətimiz qarşısında qoyulan mühüm vəzifələrdən hesab olunur. Bu proseslər muxtar respublikada da öz əhəmiyyətini və aktuallığını daim qorumaqdadır. Məsələnin zəruriliyi onun ilk növbədə “əhalinin saytərkib ifadəsi – istehlakın fizioloji normaları və həqiqi göstəriciləri” tandemində nəzərdən keçirilməsini diktə edir. Haliyədə sayı 10 milyona yaxınlaşan əhalinin sayı yaş və cins qrupları, milli, regional və digər xüsusiyyətlər nəzərə alınmaqla müxtəlif istehlak təsnifləşdirilməsinə məruz qalır. Digər tərəfdən, əhalinin fizioloji normalarını xarakterizə edən, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 06 iyul 2014-cü tarixli 182 nömrəli qərarı ilə qüvvəyə minmiş “Minimum istehlak səbəti üzrə əsas növ ərzaq məhsullarının istehlak normaları” əsasında proqnozlaşdırılan həcmlər dəqiqləşdirilməlidir. Alınan nəticələr aqrar istehsalın faktiki nəticələri ilə müqayisə edilməli, bu əsasda idxaldan asılılıq həcmləri hesablanmalıdır. Haliyədə bir muxtar respublikada neçə məhsul növü istisna olmaqla (bir sıra meyvə və tərəvəz növləri, ərzaqlıq bostan məh-sulları, süd və s.) digər məhsullarda üzrə orta hesabla illik 4,0 - 46,2%-lik tərəddüdə malik idxaldan asılılıq səviyyələri hələ də mövcudluğunu qorumaqdadır. Burada həmçinin muxtar respublikda müəyyən səbəblərdən (təbii-iqlim, torpaq quruluşu və keyfiyyəti və s.) tamamilə istehsal olunmayan, lakin əhali və emal sənayesinin istehlakında bəlli xüsusi çəkiyə məhsullar (şirələrin istehsalı üçün sitrus meyvələri və s.) da əlavə olunmalıdır. Müvafiq işlər eyni zamanda “kəsirlə” müşayət olunan məhsullar üzrə ölkə və regional imkanların qiymətləndirilməsi, sonrakı mümkün tənzimləmə adımlarının atılması üçün əsası təşkil edəcəkdir.

Bəllidir ki, Naxçıvan Muxtar Respublikasında may ayının ortalarından başlayaraq aqrar istehsalın kütləviliyi surətli artım meyli ilə irəliləməkdədir. İyun-sentyabr aylarında əsas ərzaq məhsulları üzrə tələbatın ödənilməsi dərəcəsində ayrı-ayrı məhsullar üzrə (idxal göstəriciləri nəzərə alınmaqla) orta hesabla 80%-dən 12 dəfəyədək olan amplitudada artım müşahidə olunmaqdadır. Bu xüsusilə özünün meyvə və giləmeyvəlilərdə, ərzaqlıq bostan məhsullarında, ət və süd məhsullarında özünü biruzə verməkdədir. Bununla belə ilin digər zaman kəsiklərində daxili istehsalın məhdudlaşması (ancaq istixana təsərrüfatlarında aparılması) və rayonlarda saxlama imkanlarının həm həcm, həm də qiymət baxımından bir çox halda səmərəli olmaması bu məhsul növləri üzrə ehtiyatların azalması, onlar üzrə pərakəndə satış qiymətlərinin artması ilə nəticələnir.

Qeyd olunanlara rəsmi statistik məlumatlarında öz əksini tapmış və 2015-ci ilin nəticələrini xarakterizə edən idxal göstəriciləri haqqında bəzi informasiyaları da əlavə etmək yerinə düşərdi. Məsələn, baxılan dövrdə cəmi dənlilərdə 41,8%-lik, buğda üzrə 49,4%-lik, arpa üzrə 50,1%-lik, qarğıdalı üzrə 38,6%-lik, vələmir üzrə 39,0%-lik, sair növ dənlilər üzrə 97,2%-lik, paxlalılar üzrə 26,5%-lik, kartof üzrə

11,9%-lik, üzüm üzrə 16,9%-lik həcmlər məhz idxalın payına düşmüşdür. Sadalanan bu bitkiçilik məhsullarının muxtar respublikada istehsalının daha mütəşəkkil təşkili idxaldan asılılıq səviyyəsini ən azı orta hesabla 8-19,2% səviyyəsinə endirə bilər ki, bu da mütəşəkkil qaydada həyata keçirilən çoxtərəfli təşkilati və tənzimləmə fəaliyyətinin nəticəsində mümkündür. Göstərilməlidir ki, muxtar respublikada qəbul olunan "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında kartofçuluğun inkişafı üzrə Dövlət Proqramı" və "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın qəbulu nəticəsində kartof istehsalında 3 dəfəlik, meyvə istehsalında 2,1 dəfəlik irəliləmə müşahidə olunmuşdur. Lakin, düşünürük ki, bu son hədd deyil, bəhs olunan istiqamətlərdə kifayət qədər ehtiyat mənbələri və görüləcək işlər (o cümlədən tənzimləyici xarakterə malik) mövcuddur.

Torpaq və digər resursların istifadəsində səmərəliliyin qorunması, onların sıradan çıxmasının minimallaşdırılması üzrə tədbirlərin görülməsi digər istiqamətlərlə yanaşı tənzimləmə sahəsində də mühüm vəzifələrin qoyulmasını zəruriləşdirir. Naxçıvan Muxtar Respublikası üzrə suvarılan əkin sahələrinin həcmində 2010-cu ildə 39199 hektardan 2015-ci ildə 61414 hektara çatdırılmışdır. Lakin aparılan müşahidələr göstərir ki, regionda əkinçilik məqsədləri üçün istifadə edilə biləcək, amma aktiv iqtisadi dövriyyəyə cəlb olunmamış torpaqların həcmi şoranlaşmış və şorakətlənmiş torpaq həcmləri ilə birlikdə 13 min hektar səviyyəsində qiymətləndirilir. Qeyd etmək yerinə düşər ki, 2015-ci ildə və 2016-cı ilin I yarısında 0,8 min hektarda müvafiq təmizləyici işlər aparılsa da, bu rəqəm aktiv iqtisadi dövriyyəyə qaytarılması mümkün olan torpaqların cüzi hissəsidir. Vəziyyətin belə qaydada olmasının çoxsaylı səbəbləri mövcuddur ki, burada da ilk növbədə dövlət tərəfindən torpaqların təmizlənməsinə yönələn meliorasiya tədbirlərinin həyata keçirilməməsi, sahibkarlarda əlavə maliyyə və texniki vəsaitlərin olmaması, həmçinin bəzi hallarda bürokratik əngəllər göstərilə bilər.

Su ehtiyatları və onlardan istifadə sahəsində görülən işlər də özünəməxsusluğu ilə fərqlənir. Belə ki, 2015-ci ildə H.Əliyev adına Vayxır su anbarı, Uzunoba və Arpaçay su tutarları vasitəsilə muxtar respublikanın su resurslarına olan tələbatının 89,2%-i ödənmişdir. Bu ilk növbədə həmin ilin yağıntı normasının faktiki tələbata müvafiq zəif olması ilə əlaqəlidir. Bununla belə su infrastrukturnun yaradılması və bərpası sahəsində bir çox işlər görülmüşdür ki, burada da əsas məqsəd adı çəkilən resursların israfının qarşısının alınmasıdır. 2015-ci ildə 67 km həcmində su bölüşdürücü xəttlər istismara verilmişdir.

2016-cı ilin 1 dekabr tarixinə Babək rayonunun Kültəpə və Kərimbərli kəndlərini əhatə edən yeni suvarma səbəkəsinin (9 km), Nəcəfəlidizə kəndində suvarma məqsədinə xidmət edəcək açıq drenaj kanalının (1,8km), Kültəpə kəndində su kanalının (2,8 km), Badaşqan kəndində nasos stansiyasının tikintisi başa çatmış, Nehrəm kəndində kollektorun, Güznüt kəndində drenaj xəttinin yenidən qurulması həyata keçirilmiş, Kəngərli rayonunun Böyükdüz və Xok kəndləri ərazisində qapalı suvarma sisteminin (8,6 km) tikintisi başa çatdırılmişdir. Babək rayonun Sirab kəndində qapalı suvarma xəttinin (3,3km), Culfa rayonunun Ərəzin kəndində drenaj kanalının, Şərur rayonunda kollektor-drenaj şəbəkəsinin (ümumi uzunluğu 21,5 km), həmin rayonun Ələkli və Məmmədsabir kəndlərinə suvarma xəttinin (2,7km), Naxçıvan şəhərinin Qaraçuq, Babək rayonnun Çeşməbasar kəndlərində kollektorların, Araz çayından sugətirici kanalların təmizlənməsi davam etdirilmişdir. Təməli Ordubad rayonunda Cənab Prezident İlham Əliyev tərəfindən 2016-cı ilin dekabrında atılan "Kaskad" tipli hidroelektrik stasiyasının su resurslarının bir hissəsinin bu rayonun suvarma suyuna olan ehtiyacının ödənilməsinə yönəldilməsi də nəzərdə tutulmuşdur.

Enerji ehtiyatlarına gəldikdə qeyd etmək lazımdır ki, muxtar respublikanın aqrar sahəsi bu resurs növünün inkanlarından tam istifadə etməkdədir. 2016-ci ilin 1 dekabr vəziyyətinə muxtar respublikda istehsal edilən 405330,7 min kVt-saat elektrik enerjisinin 1,9%-i (7701,3 min kVt-saat) birbaşa və ya dolayı olaraq aqrar məqsədlər üçün istifadə edilmişdir. Haliyədə muxtar respublika elektrik enerjisini idxal edən məkandan ixrac edən məkana çevrilmişdir.

Aqrar istehsalın nəticələrinin optimal reallaşdırılması bu sahə üzrə təşkilatlanma və tənzimləmə baxımından görülən işlərin mühüm hissəsini təşkil edir. İlk növbədə qeyd olunmalıdır ki, bu istiqamətdə artıq 5 ilə yaxındır ki, muxtar respublikada kənd təsərrüfatı məhsullarının satış yarmarkaların təşkil olunması, birbaşa istehsalçı – istehlakçı əlaqələrinin yaradılması təmin edilmişdir. Bununla yanaşı, istər muxtar respublikanın mərkəzi Naxçıvan şəhərində, istərsə də rayonlarda sərgi-satış yarmarkalarının keçirilməsi ənənə halını almışdır. Düşünürük ki, bu sahədə əsas problem yaradacaq məsələlər sırasında ilk yeri məhsulların daşınması məsələləri tutur. Belə ki, Naxçıvandakı aqrar istehsalçılar əsasən kiçik

həcmlərdə məhsul həcmlərinə malik olmaqla yanaşı, onları mərkəzi bazarlara çatdırmaqda nisbi böyük malik yükünü üstlənmiş olurlar. Bu isə məhsulların maya dəyərində səviyyənin artımı ilə nəticələnir. Bəhs olunan xərc maddəsi ən minimal halda satışdan əldə olunacaq gəlirin 8-12%-i, bəzi halarda isə 25-30%-nə bərabər olur. Bu işlərin sistemləşdirilməsi və müvafiq tənzimləyici addımların atılması kənddəki sahibkarların gəlirlərinin artmasına, onların fəaliyyətinin stimullaşdırılmasına şərait yaradacaqdır. Digər tərəfdən, dövlət və ya digər mülkiyyət formasına satınalma sisteminin formalaşmaması, elektron ticarətin təşkili (elektron sifariş, elektron ödəmə və s.) sahəsində mövcud olan çatışmazlıqlar da bəhs olunan istiqamətdə mövcud olan maneələrdən qəbul edilməlidir. Bu sahədə fəaliyyət göstərən iri subyektlərin ixracata meyl etməsi sahəsində ortaya çıxan və vaxt itkisinə səbəb olan əsas maneələr sırasında məhsulların sertifikatların (mənşə və d.) verilməsi çıxış edir.

Aqrar sahənin inkişafı, onun istehsalının genişləndirilməsi digər şərtlərlə yanaşı onun maddi-texniki təchizatında formalaşan vəziyyətlə də əlaqəlidir. Belə ki, istənilən sahənin tammənalı fəaliyyətinin təmin edilməsi üçün əsas və dövriyyə fondlarının mövcudluğu, xidmətlərdən qarşılıqlı istifadə zəruridir. Aqrar sahədə xərclərin strukturuna diqqət yetirməklə aydın olur ki, material xərcləri xüsusi çəki etibarı ilə 44,8%-ə, kənd təsərrüfatı subyektlərinin kənar təşkilatların xidmətlərindən istifadəsinin çəkisi isə 57,2%-ə bərabərdir. Böyük həcmə malik xüsusi çəki həmçinin əsa fondların tərkibində özünü biruzə verir. Belə ki, təkcə iki maddənin tərkibində ("binalar, tikililər və ötürücü qurğular" və "maşın və avadanlıqlar") cəmi kənd təsərrüfatı təyinatlı əsas fondların 91,9%-i cəmlənmişdir ki, bunlar da əsasən kənar subyektlərdən əldə olunan obyekt və xidmətlərdən ibarətdir.

Məsələnin belə qoyuluşu kənd təsərrüfatı məhsullarının qiymətləri ilə bu sahənin ehtiyaclarını ödəyəcək digər maddi-istehsal və xidmət sahələrinin təklif etdiyi mal, iş və xidmətlərə görə qiymətlər arasındakı qeyri-bərabərliyin tarazlanması üzrə tənzimləyici fəaliyyətin aparılması ilə fikirləri doğurur. Düzdür, dövlətin bu sahədə atılan addımlarının sırasında "Aqrolizinq" MMC vasitəsilə reallaşdırdığı texnika və vasitələrin dəyərinə müəyyən köməkliklərin göstərilməsi, yanacaq və motor yağlarının imtiyazlı şərtlərlə aqrar subyektlərə verilməsi, suvarma sistemlərində ödənişin 40%-nin dövlət tərəfindən üstlənməsi, cins mal-qaranın təsərrüfatlara verilməsi zamanı müəyyən hissənin dövlət tərəfindən ödənilməsi, hər hektar əkinlərə görə sahibkarlara bəlli məbləğlərin birbaşa hesablarına köçürülməsi kənddəki istehsalçıların maliyyə yükünün yüngülləşdrilməsinə yönələn adımlardan hesab olunmalıdır. Bununla belə, məsələn buğda, meyvə və ya tərəvəz istehsalçısının əldə etdiyi gəlirlər hesabına illərlə heç bir genişləndirici işləri aparmadan traktor, kombayn və ya digər kənd təsərrüfatı texnikasına və ya texniki vasitəsinə görə ödəmələr etməsi də mövcud olan reallıqlardandır. Yaxud elə həmin texnikalarda olan qüsurların aradan qaldırılmasına görə göstərilən xidmət zamanı yaranan ödəniş məbləğləri həmin sahibkarlın hasil etdiyi məhsulların reallaşdırılmasından əldə olunan vəsaitdə əksər halarda kifayət qədər böyük xüsusi çəkiyə malik olur. Sadalananlar aqrar sahənin qarşılıqlı hesablaşma apardığı tərəflər arasındakı qiymət disparitetindən xəbər verir. Deyilənlər müvafiq istiqamətdə sistemli və çoxtərəfli tənzimləmə fəaliyyətinin həyata keçirilməsinə ehtiyacın olduğunu göstərir.

Aqrar sahədə tənzimləməndə subsidiya və investisiya proseslərinin həyata keçirilməsi mühüm istiqamətlərdən hesab olunur. Bu fəaliyyətlərin əsas məqsədi kənd təsərrüfatında fəaliyyət göstərən işgüzar "kütlənin" ahəngdar işləməsini təmin etməkdən ibarətdir.

Subsidiyalar kənd istehsalçılarına qaytarılmamaq şərtilə ödənilən məbləğləri özündə əks etdirir. Onlar ilk növbədə bitkiçilik istehsalında məşğul olanlar üçün əkilən hər hektar hesabı ilə ödənilən məbləğləri özündə əks etdirir. Bununla müxtəlif xarakterli işlərin icrasına kömək məqsədilə (texnikanın, texniki qurğuların, yanacağın, cins heyvanların, gübrələrin, toxumların və s. dəyərinin müəyyən hissəsinin dövlət tərəfindən ödənilməsi) aparılan subsidiya fəaliyyətinə də təcrübədə geniş rast gəlinir. Bununla belə subsidiylaşma proseslərinin istər respublika, istərsə də muxtar respublika miqyasında obyektlərinin dəqiq müəyyən edilməsi, onların xüsusiyətləri əsasında subsidiyaların icra mexanizmlərinin işlənilməsi və tətbiq imkanlarının qiymətləndirilməsi sahəvi tənzimləmə qarşısında duran mühüm məsələlərdən hesab olunur.

Subsidiyalaşma prosesləri ilə yanaşı muxtar respublikada məqsədyönlü investisiya siyasətinin və fəaliyyətinin təşkili və həyata keçirilməsi sahəvi tənzimləmə baxımından mühüm məsələlərdən hesab olunur. 2016-cı ildə Naxçıvanda əsas kapitala yönəldilən investisiyalar 921,6 milyon manat təşkil etmişdir. Bu fəaliyyətin bir istiqaməti də aqrar sahəni əhatə etməkdədir. Bu əsasda vəsaitlərin bir hissəsi 6 heyvandarlıq təsərrüfatının, 4 soyuducu anbarın yaradılmasına, "Aqrolizinq" xətti ilə gətirilərək kəndli sa-

hibkarlara verilən 66 texnika vahidinə, torpaqların aktiv əkin dövriyyəsinə qaytarılmasına (217 ha) və ya keyfiyət göstəricilərinin yaxşılaşdırılmasına (706 ha) yönəldilmişdir.

İnvestisiyaların bir hissəsi də cins heyvanların (155 baş), barama qurdları və tinglərin alınaraq gətirilib və kənd istehsalçıları arasında paylanmasına yönəldilmişdir. Bu vəsaitlərin bir hissəsi də dövriyyə vəsaitlərinin alınaraq istehsal sahələrinin ehtiyaclarına istifadə olunması şəklində reallaşdırılmışdır. Muxtar Respublika üzrə investisiyalaşma strategiyası və proqramının hazırlanması bu sahədə işlərin daha məqsədyönlü, mərhələli və plana uyğun təşkilinə şərait yaradacaqdır.

Aqrar sahə üzrə fəaliyyətin tənzimlənməsinin təkcə lokal qaydada, ancaq özünün daxilində yaxud "kənd təsərrüfatı – maddi istehsalın digər sahələrinin qarşılıqlı əlaqələri" tandemində deyil, həmçinin sosial sfera ilə əlaqəli şəkildə həyata keçirilməsi məqsədəuyğundur. Bu baxımından kifayət qədər zərurəti ilə seçilən məsələlərdən biri aqrar sahənin peşəkar kadrlara olan tələbatının təhsil müəssisələri vasitəsilə ödənilməsi özünün aktuallığını qorumaqdadır. Bəhs olunanlar istər aqrar sfera üzrə ölkə miqyasında ixtisaslaşan Azərbaycan Aqrar Universitetinin, istər uyğun təmayüldə kadr hazırlayan digər ali təhsil ocaqlarının, istərsə də muxtar respublikada yerləşən Naxçıvan Aqrar Kollecinin öhdəsinə müəyyən vəzifələr qoyur. Günümüzün elmi və təcrübi tələblərinə cavab verən, müasir beynəlxalq aqrar mühitdə baş verən proseslərdən məlumatlı olan və onların praktiki tətbiqini mümkün edə bilən kadrların (aqronomların, zootexniklərin və s.) hazırlanaraq yerlərə göndərilməsi, onların bilik və bacarıqlarından maksimal istifadə olunması sahəsində işlərin görülməsi də sahəvi tənzimləmə prosesinin vacib ünsürlərindən hesab olunmalıdır.

Birbaşa tənzimləmə istiqamətləri ilə yanaşı bu sahədə mövcud olan dolayı amillərin nəzərə alınması və qiymətləndirilməsi də mühüm əhəmiyyət kəsb edən məsələlərdəndir. Buna misallardan biri kimi sahə daxilində fəaliyyət göstərən istiqamətlərin birbaşa və dolayı maliyyə ehtiyaclarının ödənilməsi sahəsində işlərin görülməsidir. Məsələn, təkcə 2016-cı ildə heyvandarlığın inkişafı məqsədilə muxtar respublikada ayrılmış birbaşa imtiyazlı kredit həcmi 8,27 milyon manatdan çoxdur ki, bu da ümumiyyətlə Naxçıvan regionu üzrə hüquqi və fiziki şəxslərə verilən kreditlərin 19,1%-ni təşkil edir.

Tənzimləmənin mühüm istiqamətlərindən biri kimi zəruri məsləhət xidmətlərinin təşkili çıxış edir. Bəhs olunan məsələdə muxtar respublikanın inzibati regionları daxilində müvafiq qurumların yaradılması, onların səyyari qaydada fəaliyyətinin təşkili mühüm əhəmiyyət kəsb edir. Həmin fəaliyyətin mütəşəkkil qaydada təşkili xidmətləri göstərəcək mütəxəssislərin saytərkib ifadəsindən xeyli dərəcədə asılıdır. Əfsuslar olsun ki, bu sahədə həyata keçirilən işlər heç də bütün hallarda lazımi səviyyədə deyildir, zəif şəkildə təşkil olunmuşdur.

Sadalanan və bir çox digər amillər (məsələn, aqrar məhsulların reallaşdırılması, elektron ticarətin təşkili və s. üzrə) muxtar respublikda aqrar sahə üzrə tənzimləmə işlərinin hansı vəziyyətdə olması haqqında təsəvvür yaradır. Haqq naminə qeyd etmək lazımdır ki, istər 2010-2015-ci illərdə, istərsə də 2016-cı ildə əksər istiqamətlər üzrə muxtar respublikanın imkanları daxilində kifayət qədər işlər görülsə də, lakin icrasını gözləyən, o cümlədən tənzimləmə müstəvisində olan işlərin icrası da az deyildir. Belə işlərə sistemli və kompleks yanaşma istər istehsal, istər infrastruktur, istərsə də sosial mühitlərdə həyata keçirilən fəaliyyət növləri aid edilməlidir. Fikrimizcə, perspektiv dövrdə proseslərin xüsusiyyətlərindən asılı olaraq tənzimləməyə məruz qalacaq hər bir obyekt özünün tərkib elementlərinin xüsusiyyətlərindən asılı olaraq daha ətraflı öyrənilməli, bu zaman baş verə biləcək təsir - əkstəsir halları qiymətləndirilməli, tənzimləmədə istifadə olunacaq metodlar əsaslandırma prosesinə məruz qalmaqla seçilməlidir.


## ABSTRACT

**Hasan Abbasov**

**DESCRIPTION OF AQRAR REGULATION ACTIVITIES COMPLIANCE WITH SUBJECTS REQUIREMENTS AND POSSIBLE OPPORTUNITIES**

In the article, as the main research objects, farmers operating in the agrarian sphere were selected. The regulatory activity implemented in the country, the regulatory mechanisms involved in agriculture, contributed to the advancement of various aspects of its activities.

First of all, the systematic review of the regulatory activity was addressed to its constitutional inquiry. On the other hand, progress has been made in regulating the international standards.

The article broadcasts the current role of natural resources and their utilization, economic instruments and tools in the development of agrarian sphere. In this area, components such as land and water resources, burial, tax, subsidy, investment, concessionary loans are of particular importance. Here is an individual approach to each component of the system.

In the study of the topic, the regulatory activity that will be carried out in the sales operations along with the production has not gone beyond. From this point of view, opinions were expressed regarding the transportation and realization of products to their realization venues.

The relevant statistical data was used to justify the theoretical considerations of the article, and comparisons were made based on the indicators.

## РЕЗЮМЕ

**Гасан Аббасов**

## СООТВЕТСТВИЕ И ВОЗМОЖНОСТИ ОЦЕНИВАНИЯ АГРАРНОЙ РЕГУЛИВОЧНОЙ ДЕЯТЕЛЬНОСТИ С ТРЕБОВАНИЯМИ ХОЗЯЙСТВЕННЫХ СУБЪЕКТОВ

В статье основными объектами исследования выбраны хозяйственные субъекты, действующие в аграрной отрасли. Проводимая в стране регулировочная деятельность, применяемые регулировочные механизмы охватили и сельское хозяйство, создали возможность для продвижения вперед его различных сторон.

В работе в первую очередь был обеспечен системный подход по регуливочной деятельности, было применено его исследование на основе классификаций. С другой стороны, основываясь на международные стандарты было повествовано о проделываемых усовершенствованных работах.

В статье широко освещаются существующие природные ресурсы и возможности их использования, роль экономических инструментариев и средств в развитии аграрной отрасли. В этой сфере земельные и водные ресурсы, таможенные и налоговые средства, субсидирование, инвестиционные вложения, дача привелигированных кредитов имеют особое значение. По каждому из показанных в работе компонентов применен индивидуальный подход.

В изучении темы наряду с рассмотрением регулировочных работ по производственным операциям проанализированы и регулировочные шаги реализационного характера. С этой точки зрения, также были высказаны побуждения по поводу транспортировки товаров св пункты реализации.

Для обоснования теоретических мыслей были использованы соответствующие статистические данные, с учетом годовых показателей проведены соответствующие сравнения.

NDU-nun Elmi Şurasının 19 oktyabr 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 02).
Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2017, № 6 (87)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2017, № 6 (87)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2017, № 6 (87)**

**ELTUN İBRAHİMOV**
*AMEA Naxçıvan bölməsi*
*eltunibrahimov@yahoo.com*

**UOT: 339**

# MUXTAR RESPUBLİKADA KREDİTLƏŞMƏNİN TƏŞKİLİ VƏ KREDİTİN FORMALARI

**Açar sözlər:** *kreditləşmə, resurs, kənd təsərrüfatı, faiz dərəcəsi, uzunmüddətli, borcalan*
**Keywords:** *lending, resource, agriculture, interest rate, long term, borrower*
**Ключевые слова:** *кредитование, ресурс, сельское хозяйство, процентная ставка, долгосрочный, кредитор.*

İqtisadiyyatın təhlil olunmasında əsas göstəricilərdən biri də bankların kredit siyasəti və onun xüsusiyyətləridir. Kreditləşmə bank fəaliyyətinin əsas tərkib hissəsi olmaqla, iqtisadi inkişafa nail olmaq üçün nəzərdə tutulmuş mühüm bir prosesdir. Hazırki şəraitdə muxtar respublikada mövcud imkanların hərtərəfli qorunması və kredit resurslarının səmərəli istifadəsini təşkil etmək üçün kredit imkanları, kreditin növləri və kreditləşmə prosesini nəzərdən keçirmək lazımdır.

Hal–hazırda iqtisad elmində müxtəlif növ kredit formalarına rast gəlmək olar. Əsasən kreditin forması bir sıra xarakterlərdən asılı olur ki, bunlar da- borcalanın tələbatına, borc verilmiş dəyərin xarakterinə, kreditor və borcalanın xüsusiyyətlərinə görə qruplaşdırılır. Bütün bu xüsusiyyətləri cəmləşdirib krediti pul, əmtəə, əmtəə-pul, bank krediti, dövlət krediti, kommersiya krediti, beynəlxalq kredit, məhsuldar və istehlak krediti formasında fərqləndirmək olar [1.s 203].

Qeyd etmək olar ki, muxtar respublikada bankların kredit xidmətləri əhalinin və digər təsərrüfat subyektlərinin həyatında, onları maliyyə vəsaitləri ilə təmin edilməsində və sosial rifah halının yüksəldilməsində əsas yeri tutur.

Kredit təşkilatları ilə birlikdə muxtar respublikada 15-dən çox bank və bank filialı fəaliyyət göstərir.

Muxtar Respublikada bankların əsas xidmətlərdən biri iqtisadiyyatının ayrı-ayrı sahələrinin kreditləşdirilməsidir. Bank şöbələrini xaric bütün banklar, onların filialları və kredit təşkilatları əhalinin maliyyə vəsaitləri ilə təmin edilməsində böyük rol oynayır. Kredit qoyuluşu bankların fəaliyyətinin əsas tərkib hissəsidir. Qeyd olunmalıdır ki, kredit qoyuluşu vasitəsilə bank öz imkanlarını genişləndirir, əsas məqsədi mənfəət əldə etməkdir, borcalan isə öz maddi tələbatlarını ödəmək istəyir. Bununla da borcalan-kreditor qarşılıqlı münasibətləri təmin olunur və kreditləşmə prosesi həyata keçir.

Muxtar Respublikada kreditin formalarını və kreditləşmənin xüsusiyyətlərini nəzərdən keçirdikdə bir sıra məsələlərə diqqət yetirmək yerinə düşər. Təbii coğrafi müxtəliflik və əmək imkanlarını nəzərə alsaq görərik ki, kreditlərin verilməsi sahə və sektorlar üzrə fərqlidir. Demək olar ki, muxtar respublikada sənaye və kənd təsərrüfatı sahəsindən tutmuş tikinti, topdan və pərakəndə ticarət, avtomobil, nəqliyyat və rabitə, daşınmaz əmlak, və başqa sahələr üzrə kreditləşmə prosesi həyata keçirilir .

Həmçinin qeyd olunmalıdır ki, muxtar respublikada elə sahələr varkı, həmin sahələr üzrə bugünədək kredit verilməsi ya qeydə alınmamışdır, ya da çox az göstəricilərə malikdir. Yəni bu o deməkdir ki, bəzi kredit növləri ümumiyyətlə muxtar respublikada yox dərəcəsindədir. Bu kredit növlərinə misal olaraq, beynəlxalq kredit, təhsil krediti və veksel kreditini qeyd etmək olar. Lakin onuda vurğulamaq lazımdır ki, bu kredit növləri ümumiyyətlə ölkəmizdə zəif inkişaf edibdir. Yəni çox az sayda bank tapmaq olarki, belə kredit növləri təklif etsin. Son illər ərzində isə bir sıra sahələr üzrə kreditləşmədə xeyli zəiflik nəzərə çarpır. Bunlara balıqyetişdirmə, səhiyyə və sosial xidmətlər, şəkər çuğunduru, göbələk istehsalı, ovçuluq və meşə təsərrüfatı sahələrini misal göstərmək olar.

Qeyd etmək lazımdır ki, kredit qoyuluşlarında əsas məqsəd özəl sektorun inkişafına nail olmaq, kiçik və orta sahibkarlığı inkişaf etdirmək, qəbul olunmuş mühüm dövlət proqramlarının işini stimullaşdırmaq, yeni iş yerləri yaratmaqdan və s. ibarətdir. Muxtar Respublikadakı bank və kredit təşkilatları tərəfindən iqtisadiyyata kredit qoyuluşuna nəzər salsaq görərik ki, 01 yanvar 2017-ci il tarixə cəmi kredit qoyuluşu 109.195.000 manat olmuşdur. 2016-ci ildə isə bu rəqəm 43 milyon 355 min manat olmuşdur. Ayrı-ayrı sahələr üzrə bunu nəzərdən keçirdikdə görərik ki, bu vəsaitlərin 9 milyon 911 min manatı kənd təsərrüfatına, 10 milyon 322 min manatı sənaye, 260 min manatı tikinti, 20 min manatı balıqçılıq təsərrüfatı üzrə yönəldilmişdir. 3 milyon 854 min manat kommersiya, 4 milyon 435 min manat nəqliyyat, 2 milyon 78 min manat ipoteka kreditləri verilib. 12 milyon 475 min manat vəsait isə kommunal və istehlak kimi sahələrə ayrılmışdır [4].

Yuxarıda fəaliyyətdə olan kredit növləri haqqında məlumat verildi. Muxtar Respublikada ən geniş yayılmış kredit növlərindən biri kimi kənd təsərrüfatı kreditini göstərmək olar. Xüsusilə vurğulanmalıdır ki, kənd təsərrüfatı sahələrinə verilən kreditlər digər kreditlərlə nisbətdə xeyli üstünlük təşkil edir. Bu da əsasən son illər ərzində kənd təsərrüfatı üzrə qəbul olunmuş dövlət proqramları ilə sıx bağlıdır.

Əsas inkişaf etmiş kənd təsərrüfatı sahələrinə heyvandarlıq, meyvəçilik, arıçılıq, taxılçılıq, kartofçuluq və tərəvəz məhsulları istehsalını misal göstərmək olar. Bu sahələr üzrə kredit göstəricilərinə nəzər saldıqda, hər il kredit vəsaitlərinin xərcləndiyinin şahidi olarıq. Elə sahələr var ki, bu sahələr üzrə kreditlərin verilməsi bəzən mümkün olur, bəzən isə yox. Bu torpaq, hava və iqlim şəraitindən asılı olaraq dəyişir. Belə sahələrə sarımsaq, bostan-tərəvəz, qarğıdalı əkini və bəzi çoxillik bitkilərin əkilib becərilməsi aiddir.

Kənd təsərrüfatına yönəldilən kreditlər bir sıra banklar, kredit təşkilatları və Sahibkarlığa Kömək Milli Fondunun vəsaitləri hesabına ödənilir. 2016-cı ilin yekunlarına nəzər salsaq görərik ki, bu il ərzində “Sahibkarlığa Kömək Fondu tərəfindən özəl bölmənin inkişafına 15 milyon manatdan artıq kredit verilmişdir və ümumi olaraq sahibkarlara verilmiş kreditlərin 79 faizi sənaye və kənd təsərrüfatı olmaqla real sektorun, 21 faizi isə xidmət sektorunun payına düşmüş, 6 heyvandarlıq, bir quşçuluq, bir balıqçılıq, 6 soyuducu anbar və 3 istixana təsərrüfatı fəaliyyətə başlamışdır. Fondu tərəfindən arıçılıqla məşğul olan 102 sahibkarlıq subyektinə 727 min manat həcmində kreditlər verilmiş, balın emalı və qablaşdırılması ilə məşğul olan 5 istehsal müəssisəsi yaradılmışdır [3].

Hər şeydən önəmli onu qeyd etmək lazımdır ki, muxtar respublikada təklif olunan kreditlər üzrə faiz dərəcələri hazırkı dövr üçün 12,6% təşkil edir ki, bu da ölkə üzrə ən aşağı faiz dərəcəsidir. Muxtar respublikada illər üzrə kredit qoyuluşunu aşağıdakı cədvəldə ümumiləşdirə bilərik.

İqtisadiyyata kredit qoyuluşu
*(min manatla)*

| **İllər üzrə** | **Qısamüddətli** | **Uzunmüddətli** | **Cəmi** |
|---|---|---|---|
| 2005 | 559,8 | 2384,3 | 2944,1 |
| 2006 | 507,2 | 7306,2 | 7813,4 |
| 2007 | 6208,9 | 7593,9 | 13802,8 |
| 2008 | 7805,6 | 11078,9 | 18884,5 |
| 2009 | 18900,9 | 24044,9 | 42945,8 |
| 2010 | 17962,1 | 17947,3 | 35909,4 |
| 2011 | 28192,2 | 19036,5 | 47228,7 |
| 2012 | 33141,3 | 25538,9 | 58680,2 |
| 2013 | 18647,5 | 31118,1 | 49765,6 |
| 2014 | 21362,1 | 33095 | 54457,1 |
| 2015 | 26627,3 | 43594,2 | 70221,5 |
| 2016 | 10512,3 | 32842,6 | 43354,9 |

Əvvəlki illərə nəzər salsaq, təkcə 2015-ci il və 1995-ci ili bir-biri ilə müqayisə etdikdə, cəmi kredit qoyuluşu üzrə anoloji nisbətin 280 dəfə olduğunun şahidi olarıq. Belə ki, əgər 1995-ci ildə

cəmi kredit qoyuluşu 250.8 min manat olmuşdursa, 2015-ci ildə bu rəqəm 70221.5 min manata çatmışdır.

Son vaxtlar əhali ilə banklar arasında qurulan münasibətlər kiçik biznesin böyüdülməsi və bir sıra ehtiyacların ödənilməsi baxımından mühüm aktuallıq kəsb edir. Bu münasibətlər həm individual kreditləşmə, həm də qrup və biznes kreditlərinin verilməsi üçün geniş imkanlar yaratmışdır. Kreditlərin verilməsi müəyyən şərtlər, müddət və təyinat baxımından tam şəffaqlıq və dəqiqlik şəraitində həyata keçirilir. Banklar çalışır ki, öz işlərini sağlam bank fəaliyyəti prinsiplərini əks etdirən strateji plan üzrə həyata keçirisinlər. Müştərilər kredit götürmək banklara gəlməli, lazım olan prosedurlar və sənədləşmə işləri həyata keçirilməli, kreditin bütün prinsipləri gözlənilməli, götürülmüş kreditlər vaxtlı-vaxtında monitorinq olunmalıdır.

Beləliklə, kredit resursları hesabına bir sıra mühüm proseslər və layihələr həyata keçirilir. Bu baxımdan muxtar respublikada kredit islahatlarının əsasını kreditin forma və növlərini daha da təkmilləşdirmək, və kreditləşmə proseslərini daha da səmərəli etmək təşkil edir. Hesab edirəm ki, kredit növlərinindən istifadə etmək və fəaliyyəti zəif olan kredit formalarını canlandırmaq muxtar respublikada biznes və sahibkarlıq iqtisadiyyatını daha da inkişaf etdirəcək, investisiya mühitini yaxşılaşdıracaq, sosial rifah halının yaxşılaşmasına köməklik edəcəkdir.

## ƏDƏBİYYAT


1. Bağırov M.M. Banklar və bank əməliyyatları, Bakı, Nurlan, 2003, 511 s.
2. Bank statistik bülleten 01/2014. Mərkəzi Bank Naxçıvan MR idarəsi, Naxçıvan, 2014, 35s
3. Naxçıvanda sahibkarlarla görüş keçirilmişdir Şərq qapısı qəzeti, 11 fevral 2017-ci il.
4. Naxçıvan Muxtar Respublikasının ümumi inkişafında bank sektoru mühüm rol oynayır., Şərq qapısı qəzeti, 02 fevral 2017-ci il.
5. Şəkərəliyev A.Ş. Dövlətin iqtisadi siyasəti, Reallıqlar və perspektivlər, Bakı, İqtisad Universiteti 2009, 414 s.
6. http://www.statistika.nmr.az


## ABSTRACT


**Eltun Ibrahimov**


**LENDİNG PROCESS AND TYPES OF LOANS İN NAKHCHİVAN AUTONOMOUS REPUBLİC**


When analyzing economy, one of the most important key indicator is the loan policy of the banks and its features. Being a vital part of banking activity, lending is considered as a critical case to achieve economic growth. At present, to preserve existing facilities and organize effective use of financial resources, lending processes, opportunities must be appreciated in all details.


## РЕЗЮМЕ


**Елтун Ибрагимов**


**ФОРМЫ КРЕДИТА И ОРГАНИЗАЦИЯ КРЕДИТОВАНИЯ В АВТОНОМНОЙ РЕСПУБЛИКЕ**


Кредитная политика банков и ее особенности являются основным показателем при исследовании экономики. Кредитование как основная часть банковской деятельности, является важным процессом экономического развития. В настоящих условиях важна всесторонняя защита существующих возможностей, а также внимание к процессу кредитования и видам кредитов для организации эффективного использования кредитных ресурсов в автономной республике.



NDU-nun Elmi Şurasının 19 oktyabr 2017-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 02).
Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

**CAVADXAN QASIMOV**
*AMEA Naxçıvan Bölməsi*
*cavadxan.yusifoglu@mail.ru*

**UOT:338**

# HEYDƏR ƏLİYEV VƏ NAXÇIVAN MUXTAR RESPUBLİKASININ DAVAMLI İNKİŞAFI

**Açar sözlər:** *İqtisadi siyasət, iqtisadi idarəetmə, istehsal münasibətlər*
**Key words:** *Economic policies, economical management, production relations*
**Ключевые слова:** *Экономическая политика, экономическое управление, производственные отношения.*

Artıq bir həqiqətdir ki, Naxçıvan Muxtar Respublikası ümummilli liderimiz böyük Heydər Əliyevin müasir iqtisadi şəraitdə bizlərə ərmağanıdır. Hələ ötən əsrin 90-cı illərinin əvvəllərində Ali Məclisin Sədri işləyərkən Naxçıvan Muxtar Respublikası dövrün iqtisadi, siyasi və hərbi böhranlarından xilas edilərək keçid etdiyimiz bazar münasibətlərinin prinsip, qanunauyğunluq və tələblərinə uyğun gələn, onlara hazır olan, dolğun cavab verən, bununla da müasir iqtisadi potensialın formalaşması və inkişafına münbit zəmin yaradan, eləcə də strateji mahiyyət daşıyan regiona çevrildi. Təbii ki, bununla da muxtar respublika yüz illərlə inkişaf tarixi olan bazar iqtisadiyyatının, ona xas münasibətlərin özünə kök saldığı bir məkan kimi formalaşdı.

Həmin siyasi xəttə sadiq qalaraq 1995-ci ildən Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi, sosial-iqtisadi, mədəni-hüquqi və digər həyatında yeni mərhələ başlandı. Böyük Heydər Əliyevin başlatdığı islahatlar iqtisadiyyatın sahə strukturunun ardıcıl və əlaqəli inkişaf mənzərəsinə çevrildi. Bu dövrdə qarşıda duran əsas məqsədlər içərisində:

1. keçid dövrünün ola biləcək sıxıntılarının təsirinə qarşı maksimum müqavimət gücünün artan miqyasda təmin edilməsi;
2. həyata keçirilən bütün tədbirlərin bazar münasibətlərinin tələb və qanunları əsasında düzgün istiqamətləndirilməsi;
3. fəaliyyətin mikro səviyyədə qurulmasının məqsədyönlülüyü, onun mezoiqtisadi potensialın gücləndirilməsinə stimulladırıcı təsiri və bununla da makroiqtisadi nailiyyətlər üçün faydalı zəmin yaradılması;
4. iqtisadiyyatın sosialyönümlülüyünə şərait yaradacaq amillərin sistemliliyi və əlaqələndiriciliyindən səmərəli istifadə edilməsi;
5. əmək ehtiyatlarından iqtisadiyyatın sahə strukturu üzrə onun əhəmiyyətli dərəcədə təşkilatlanması məqsədləri əsasında istifadəsinin daim diqqətdə saxlanılması və s. məsələlərin uzaq gələcək üçün nəzərdə tutulması mümkün oldu.

Naxçıvan Muxtar Respublikasında keçid dövründə yuxarıda sadalanan təminatlar ən üstün səviyyədə bərqərar edilməklə, perspektiv inkişaf üçün yenə də ardıcıl tədbirlər həyata keçirildi ki, bunlar da aşağıdakılardan ibarət olmaqla, ötən iyirmi iki ilə yaxın bir dövrün ən mühüm nailiyyətlərini təşkil etməkdədir:

1. iqtisadiyyatın ən mühüm və başlıca istehsal vasitəsi olan torpaq üzərində xüsusi mülkiyyətin inkişafından;
2. iqtisadi (istehsal) münasibətlərinin təkmilləşdirilməsindən;
3. milli-iqtisadi hədəf və prioritetlərin üstün tutulması əsasında strateji tədbirlərin həyata keçirilməsindən;
4. dövrün çağırışları ilə səsləşən və müasir inkişaf səviyyəsinə uyğun gələn tədbirlərin həyata keçirilməsindən;

5. innovativ məqsədlər çərçivəsində islahatların davamlılığının, eyni zamanda əhatəsinin genişlənməsinin təminatı və iqtisadi-hüquqi mexanizlmərin çevikliyinin dəstəklənməsindən;
6. kəmiyyət göstəricilərinin keyfiyyət reallıqları ilə əsaslandırılmasından;
7. yeni istehsal sahələrinin təşfiqi və müəssisələrinin yaradılmasından, iş yerlərinin açılmasından, qanunvericilik əsasında hər cür iqtisadi fəaliyyətin dəstəklənməsindən, özünüməşğulluğun stimullaşdırılmasından, nəticədə isə, ümumi məşğulluq səviyyəsinin yüksəldilməsindən ibarət oldu.

Naxçıvan Muxtar Respublikası bu məqsədlərin gerçəkləşməsi fonunda sakinlərinin məcmu mənafelərini tam ifadə edən, bununla da çevik şəkildə sosiallaşan iqtisadiyyata malik Muxtar Dövlətə çevrildi. Sosiallaşan iqtisadiyyat məhz ictimai-siyasi sabitliyin, sosial-iqtisadi, mədəni-hüquqi inkişaf və təhlükəsizliyin mühüm göstəricisi, eləcə də nəticəsi olmaqla, bu anlayışlarda ifadə olunan bütün sahələrin əhatəliliyini, sistemliliyini, dayanıqlığını, eyni zaman da əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsini, maddi rifahının, firəvanlığının daha da yaxşılaşdırılmasını əks etdirir. Qeyd etmək lazımdır ki, bütün bunlara nail olmaq üçün muxtar respublika keçən dövr ərzində öz iqtisadi resurs və potensialını səfərbər etmişdir. İqtisadi mənafelər bazar münasibətləri əsas tutulmaqla qorunmuş, müəyyənləşdirilən siyasət özündə ayrıca olaraq hər bir fərdin, bütövlükdə isə bütün Naxçıvan sakinlərinin maraqlarını ifadə etməyi bacardı. Yəni sosiallaşmışdı. Nəticədə dövlətin vahid sosial siyasətinin əsasları müəyyən olundu. Sosial siyasətin də elə əsas mahiyyəti dövlətin daxili məcmu siyasətinin tərkib hissəsi olmaqla, onun sosial proqramlarında ifadə olunması, gerçəkləşdirilməsi, əhalinin bütün sosial qruplarının mənafeyi naminə və maraqları vasitəsilə cəmiyyətdə olan münasibətlərin tənzimlənməsində özünü göstərir (2, s. 66). Bu baxımdan, muxtar respublikada insan amili, onun bir potensial kimi inkişafı hər zaman diqqət mərkəzindədir. Məhz bu mənada Naxçıvan Muxtar Respublikası yeritdiyi dövlət siyasəti ilə ölkənin milli, sosial-iqtisadi maraqları çərçivəsində öz sakinini:

1. davamlı firəvanlığın və xoşməramın təmin edilməsində təşəbbüskarlıq etməklə, ictimai həmrəylik və qarşılıqlı yardım prinsiplərinə sadiq tərəfdaş;
2. sosial-iqtisadi inkişaf siyasətinin yaxından iştirakçı;
3. vətəndaş kimi təkanverici amil, potensial olaraq məhsuldar qüvvə, məşğulluğun təmin edilməsində isə çevik əmək ehtiyatı;
4. makroiqtisadi göstəricilərin yüksələn xətt üzrə davamlılığı fonunda milli iqtisadi inkişafın surətləndirici amili;
5. bununla da iqtisadiyyatın çoxşaxəliliyinin, beynəlmiləlliyinin, dünyəviliyinin təminatçısı kimi qoruyur, müdafiə edir.

Ümummilli lider böyük Heydər Əliyevin əsaslarını qoyduğu müstəqil Azərbaycan Respublikası özünün bütün sahələrdəki inkişafı ilə tarazlı və güclü dayaqlar formalaşdırmışdır. Bu gün tərəddüd etmədən qeyd edə bilərik ki, ölkənin bütün bölgələrində ən müasir standartlar təmin olunmuş və sosial-iqtisadi bərabərlik yaradılmışdır. Məhz Naxçıvan Muxtar Respublikası da bu siyasətdən bəhrələnərək, hətta davamlı və surətli inkişaf göstəriciləri ilə bu siyasətə öz töhfələrini verərək qeyd olunan nailiyyətlərin məcmuusu kimi uğurlu regional siyasətin işlək mexanizmlərini formalaşdırmışdır. İstər istehsal, istərsə də sosial (və yaxud da bazar) infrastruktur potensialından ərazinin demoqrafik, iqtisadi və coğrafi amilləri əsas götürülməklə faydalı istifadə edilməkdədir. Ən ucqar dağ kəndlərində belə özünə kök salmış kommunal təminatlar əhalinin məskunlaşma prosesində stimullaşdırıcı təsirə malik olmuşdur. İqtisadiyyatın davam edən islahatlarla müşayiət olunan inkişafı təsərrüfat fəaliyyətinin və istehsal (iqtisadi) münasibətlərinin yüksək təkanverici qüvvəsinə çevrilmişdir. Xüsusilə 2004-cü ildən başladılan “Regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramları” hazırda da üçüncü inkişaf mərhələsində olmaqla, Naxçıvan Muxtar Respublikasında milli iqtisadi maraqlara xidmət edən təkmil bir iqtisadiyyat yaratmışdır. Qeyd edək ki, təkcə 2004-2008-ci illəri əhatə edən eyni adlı Dövlət Proqramında muxtar respublikanın sosial-iqtisadi inkişafı üçün 57, 2009-2013-cü illər üzrə isə 46 mərhələdə tədbir həyata keçirilmişdir. Bu göstərici hazırda da 2014-2018-ci illər üzrə Dövlət Proqramında 57 mərhələdə tədbirlə uğurla icra olunmaqdadır.

Bu tədbirlər özündə sənaye və kənd təsərrüfatı sahəsinin inkişafı, ekologiya və təbii sərvətlərdən istifadə, yol təsərrüfatı və nəqliyyat, elektrik enerjisi təchizatı, qaz təchizatı, rabitə

xidmətlərinin yaxşılaşdırılması, su təchizatının və kanalizasiya xidmətlərinin yaxşılaşdırılması, meliorasiya və irriqasiya, əhalinin təhlükəsizliyi, mənzil təsərrüfatı və abadlıq-quruculuq, sosial müdafiə, səhiyyə müəssisələrinin tikintisi və yenidənqurulması, mədəniyyət müəssisələrinin tikintisi və yenidənqurulması, gənclər və idman müəssisələrinin tikintisi və yenidənqurulması, təhsil müəssisələrinin tikintisi və yenidənqurulması, turizm sahəsinin inkişafını birləşdirməklə, çoxsahəli istiqamətlər üzrə həyata keçirilmiş və keçirilməkdədir.

Naxçıvan Muxtar Respublikasında iqtisadi sahədə sağlam şəraitin, məhsuldar nəticələrin, cari və perspektiv inkişaf üçün əlverişli mühitin davamlılığını təmin etmək məqsədilə Ali Məclis Sədrinin 2014-cü il 1 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmiş Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının da müstəsna əhəmiyyəti vardır. Burada da qarşıdakı dövrlər üzrə həyata keçiriləcək tədbirlər makroiqtisadi sabitliyi, məşğulluq səviyyəsinin yüksəldilməsini, bank və kredit təşkilatlarını, investisiya fəaliyyətini, sahibkarlığın inkişafını, sənayeləşmə siyasətini, kənd təsərrüfatında ardıcıl islahatları, xarici ticarət fəaliyyətini, informasiya və kommunikasiya texnologiyalarını, turizmin inkişafını, elektrik və qaz təsərrüfatını, mənzil-kommunal təsərrüfatının inkişafını, nəqliyyat xidmətlərini, ekoloji tarazlığı, əhalinin sosial müdafiəsini, təhsil sahəsini, səhiyyə xidmətlərini, gəncləri, həmçinin bədən tərbiyəsi və idmanı, mədəni irsin qorunmasını əhatə etməkdədir. Təbii ki, bu tədbirlərin hər biri, muxtar respublikanın hərtərəfli inkişafının müasir dövrün tələblərinə dolğun şəkildə uyğunlaşdırılmasına istiqamətləndirməklə yanaşı, həm də uzaq gələcək üçün makroiqtisadi hədəf və prioritetlərə doğru olan yolda mükəmməl istinad mənbəyini təşkil edəcəkdir.

Aydın məsələdir ki, görülən işlər, əldə olunan nəticələr, müəyyən edilən düzgün xətt silsilə şəklində və mərhələli olmaqla, yeni fəaliyyətin, təşkilati-struktur mexanizmlərin, hüquqi-iqtisadi tənzimlənmənin, innovativ istehsal potensialının zəncirvari həlqə formasında əhatə dairəsini genişləndirməkdədir. Bu mənada da iqtisadyyatın sahə strukturunun bir-biri ilə vəhdət halında inkişaf etdirilməsi əsas makroiqtisadi göstərici olan ÜDM-nin strukturunda da artım dinamikasının təmin olunmasına səbəb olmuşdur. İnsanların gündəlik həyat şəraitinin yaxşılaşmasında öz əksini tapan bu proseslər iqtisadiyyatın şaxələndirilməsinə və sosialyönümlülük çəkisinin daha da artmasına səbəb olmuş, səmərəlilik meyarları əsasında cəmiyyət üzvlərinin durmadan artmaqda olan təlabatlarını ödəyən bir tamlıq təşkil etmiş, bununla da dayanıqlı milli iqtisadiyyata çevrilmişdir. Milli iqtisadiyyat elə adından da göründüyü kimi, millətin iqtisadiyyatı olmaqla, onun mənafelərini ifadə etməklə, cəmiyyətin sosial-iqtisadi münasibətlər sisteminin səmərəliliyini şərtləndirməkdədir. Daha doğrusu, bu anlayışın bir sıra iqtisadi ədəbiyyatlarda müəyyən xalqa, millətə məxsus olub, onun mənafelərini ifadə edən, hüdudları dövlət sərhədləri ilə məhdudlaşan, özünün maddi-texniki əsası, münasibətlər sistemi, təsərrüfat mexanizmi və idarəetmə strukturları olan sosial-iqtisadi orqanizm kimi ifadə olunduğunu görürük (1, s. 338).

Buna görə də iqtisadiyyatın təminat potensialının artırılması, ölkə əhalisinin bütün təbəqələrinin bu potensialda əhatə edilə bilməsi və sosial-iqtisadi təhlükəsizliyin qarantisinə çevrilməsi və s. məqsədi ilə ötən ilin 16 mart tarixində ölkə başçısı tərəfindən imzalanan 1897 nömrəli Sərəncamla "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri" təsdiq edilmiş və hazırkı mərhələ üçün sosial-iqtisadi və hüquqi əsaslar yaradılmışdır. 6 dekabr 2016-cı il tarixdə imzalanan Fərmanla isə "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin" təsdiq edilməsi iqtisadiyyatının 12 mühüm itiqamət üzrə daha da təşkilatlanması hədəflənmişdir. Bunlar ölkənin 2016-2020-ci illər üçün iqtisadi inkişaf strategiyası və tədbirlər planı, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxışı və 2025-ci ildən sonrakı dövrə hədəf baxışın da müəyyən edilməsindən ibarətdir.

Bütün bunlarla ölkəmiz hərtərəfli inkişafını müasir dünyanın günü-gündən zəruriləşən və artan çağırışları əsasında qurmaqdadır. İqtisadiyyatda innovativ proseslərin müşayiəti ilə sənayeləşmə dövrünün başladılması, bunun sosial-iqtisadi davamı və məntiqi nəticəsi olaraq, dövlət başçısının 2013-cü il 24 aprel tarixli 865 nömrəli Fərmanı ilə Sənaye parkları haqqında nümunəvi əsasnamənin təsdiq edilməsi, xüsusən, 28 dekabr 2011-ci il tarixli 1947 nömrəli Sərəncamı ilə Bakı şəhərində Balaxanı və 21 dekabr 2011-ci il tarixli 548 nömrəli Fərmanla Sumqayıt Kimya, 2015-ci ildə Mingəçevir Sənaye Parklarının yaradılmasını (3) göstərə bilərik. Bunlardan əlavə, 13 iyun 2016-cı il tarixdə ölkə başçısı

tərəfindən imzalanan Sərəncamla Masallı Sənaye Məhəlləsinin yaradılması qeyd olunan tədbirlərin əhəmiyyətini artıran davamıdır. Qeyd edək ki, hər bir tənzimlənmə vasitələrində olduğu kimi Sənaye parklarının yaradılması və fəaliyyətinin tənzimlənməsində də Naxçıvan Muxtar Respublikasında məqsədyönlü tədbirlər həyata keçirilmişdir.

Ölkəmizdə iqtisadi hadisə və proseslərin tənzimlənməsi və düzgün yönləndirilməsi məqsədilə qəbul edilən qərarlar, imzalanan fərman və sərəncamlar, gerçəkləşdirilən layihələr, təsdiq olunan tədbirlər planları, konsepsiyalar, əsasnamələr, Dövlət Proqramları, strategiyalar və yol xəritələri Naxçıvan Muxtar Respublkasının da müasir iqtisadi inkişaf mənzərəsinə çevrilmişdir. Fikrimizi əsaslandırmaq üçün qeyd edə bilərik ki, Ali Məclisin Sədrinin 6 iyun 2013-cü il tarixli Fərmanı ilə təsdiq edilmiş "Sənaye Parkları haqqında Əsasnamə"nin elə məhz bu istiqamətdəki proseslərin səmərəli istiqamətləndirilməsi məsələlərini nəzərdə tutur. 16 bənddən ibarət olan həmin əsasnamə muxtar respublika iqtisadiyyatının ardıcıl inkişafında, onun milli iqtisadi inkişafda təkanverici təsirinə bir daha əhəmiyyətlilik gətirmiş oldu.

## ƏDƏBİYYAT


1. İbadov S. A. İqtisadi nəzəriyyə, Dərslik, Bakı, Şərq-Qərb, 2009, s. 414.
2. Əliyev A. Ə., Quliyev A. S. Sosial sferanın iqtisadi və metodoloji əsasları, Bakı, Adiloğlu, 2005, 304 s.
3. www.e-qanun.az


## ABSTRACT


**Javadkhan Gasimov**


### HAYDAR ALIYEV AND SUSTAINABLE DEVELOPMENT OF THE NAKHCHIVAN AUTONOMOUS REPUBLIC


The article dealt about the country's successful economic policy, the efficient organization of management. Provided regulatory role of the state in this area. In the article all regions, including the production potential based on socio-economic development of Nakhchivan Autonomous Republic. the socio-economic development of other regions, in the formation and development of the regional policy of the Azerbaijan Republic. It has been substantiated that adoption of different state Programs is a decisive factor in the sustained development of the mentioned field. Was opened Economic reforms in the economy of, of Nakhchivan Autonomous Republic. Revealed that the economies of the correct application of modern scientific techniques to increase quality indicators based development environment has created the appropriate fields.


## РЕЗЮМЕ


**Джавадхан Гасымов**


### ГЕЙДАР АЛИЕВ И УСТОЙЧИВОГО РАЗВИТИЯ НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ


В статье подробно описана успешная экономическая политика нашей страны, заходит речь об эффективном экономическом управлении. Показана роль государства как реулятора в этой области. Обосновывается роль производственного потенциала в социально - экономическом развитии всех регионов, в том числе и Нахчыванской Автономной Республики. О формировании региональной политики Азербайджанской Республики и социально-экономическом развитии Нахчыванской Автономной республики, также как и других регионов. Дается обоснование того, что принятие Государственных программ является решающим фактором для устойчивого роста в данной области. О претворенных в жизнь в экономике Нахчыванской Автономной Республики экономических реформах. Указывается, что правильное внедрение в экономику современных научно-технических достижений создало условия для возрастсения качественных.



NDU-nun Elmi Şurasının 19 oktyabr 2017-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 02).
Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

**HÜSEYN BAĞIRSOYLU**
*Naxçıvan Universiteti*
*h.bagirsoylu@nu.edu.az*

**UOT 332.146**

# NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA SƏRBƏST TİCARƏT ZONALARININ YARADILMASININ ZƏRURİLİYİ

**Açar sözlər:** *xüsusi iqtisadi zonalar , qanunvericilik bazası, makroiqtisadi göstəricilər, sərbəst ticarət zonaları*

**Key words:** *special economic zones, legislative base, macroeconomic indicators, free trade zones*

**Ключевые слова:** *специальные экономические зоны, законодательная база, макроэкономические показатели, зоны свободной торговли*

Təşkilatlanma prosesi zamanı gözlənilməli məsələlər sırasında sərbəst ticarət zonasının fəaliyyət ixtisaslaşdırılmasının müstəqil seçim dərəcəsi də nəzərə alınmalıdır. Beynəlxalq praktikada sərbəst ticarət zonalarının bu əlamət əsasında açıq (eksklav) və qapalı (anklav) varintda fəaliyyəti təmin olunmaqdadır. Burada istifadə olunan hər iki ifadə sərbəst ticarət zonalarının fəaliyyətin tənzimlənməsində hansı mənbələrin hüquqi normalara əsaslanmasından, bəlli məhdudiyyətlərin tətbiqindən irəli gəlir. Belə ki, əgər həmin zonalarda hazır məhsul obyektlərinin satışı növ, sahə aidiyyat, təyinat və digər kənar mənşəli təşkilati-tənzimləmə şərtləri qoyulmadan, ancaq liberal beynəlxalq qaydalar əsasında təşkil olunursa, bu zona açıq, əgər bəlli sahələrdə məhdudiyyətlər movcuddursa – qapalı zona qrupuna aiddiyyatı bildirir. Düşünürük ki, muxtar respublikada yaradılacaq olan zonanın anklav varianta uyğun-luğu təmin olunmalıdır.

Sərbəst zonaların ilkin yaranması, məzmunu və inkişafı proseslərinin çoxsaylı təhlillərinin aparılması zamanı aydın olur ki, onların ilk təşkilati forması kimi məhs ticarət zonaları çıxış etmişdir. Bu, ilk növbədə onların daha sürətli formada, daha kiçik həcmli kommersiya və inzibati məsrəflərlə, minimal bürokratik əngəllərlə əmtəələri pula “çevirmək” imkanlarından irəli gəlir.

Aparılmış elmi tədqiqatlar və təcrübi müşahidələr göstərmişdir ki, xüsusi təyinatlı zonaların yaradılması ölkə üzrə bır sıra amillərin təsiri nəticəsində formalaşır və həmin zonaların ixtisaslaşma əlamətləri üzrə növlərinin bölüşdürülməsi birmənalı hesab oluna bilməz. Belə ki, ölkə qanun-vericiliyi və hüquqi normativ sənədlərə uyğun olaraq Azərbaycanın regional strukturunda (heç də hamısında de-yil) aşağıdakı təyinata malik xüsusi təyinatlı zonaların yaradılması məsləhət bilinir: a).istehsal təyinatlı zonalar, b). ticarət təyinatlı zonalar, c). sərhədyanı zonalar, ç). turizm və sanator-müalicəvi zonalar, d). elmi-texniki və elmi-istehsalat təyinatlı zonalar. Bu zonaların hər birinin imkanlarının qiymətləndirilməsi ölkənin ayrı-ayrı regionlarının real şəraitinin uyğunluğu əsasında həyata keçirilir (cədvəl 1).

*Cədvəl 1. Sərbəst iqtisadi zonaların mümkün ixtisaslaşma əlaməti üzrə respublika regionlarının növlər üzrə qruplaşdırılması*

| Xüsusi iqtisadi zonaların əsas ixtisaslaşma istiqamətləri | | Azərbaycan Respublikasında XİZ-lərin ixtisaslaşmasına uyğun gələn iqtisadi rayon və şəhərlər |
|---|---|---|
| 1. | İstehsal təyinatlı XİZ-lər | Abşeron, Naxçıvan MR, Gəncə-Qazax |
| 2. | Ticarət təyinatlı XİZ-lər | Abşeron, Naxçıvan MR, Gəncə-Qazax, Şəki-Zaqatala |
| 3. | Sərhədyanı XİZ-lər | Naxçıvan MR, Gəncə-Qazax, Lənkəran-Astara, Quba-Xaçmaz |

| | | |
|---|---|---|
| 4. | Turizm və sanator-müalicəvi XİZ-lər | Abşeron, Naxçıvan MR, Gəncə-Qazax, Şəki-Zaqatala |
| 5. | Elmi-texniki və elmi-istehsalat təyinatlı XİZ-lər | Bakı (Abşeron), Sumqayıt, Gəncə |

Mənbə: Sxem ədəbiyyat məlumatları əsasında müəllif tərəfindən tərtib olunmuşdur [ 1; 112]

Cədvəl məlumatlarından aydın olur ki, Naxçıvan Muxtar Respublikasının malik olduğu coğrafi yerləşmə, idarəetmə, təşkilatlanma və digər parametrlər ilk dörd xüsusi, o cümlədən təyinatına malik iqtisadi zona tələblərinə uyğun gəlir. Belə təhlilin təşkilin muxtar respublikanın aşağıdakı istiqamətlər üzrə imkanların kompleks qaydada qiymətləndirilməsi sahəsində mümkün olmuşdur:

- ✓ stabil daxili iqtisadi sistemin seçimi və onun aparıcı sahələrinin müəyyən edilməsi;
- ✓ Naxçıvanın iqtisadi potensialının atran templərə malik olması, bu məkanda istehsal olunan məhsulların həcm, keyfiyyət, çeşid əlamətləri baxımından yüksəlişinin təmin edilməsi;
- ✓ əmtəələrin bölgüsü və mübadiləsi üzrə ən mütərəqqi, qabaqcıl beynəlxalq təcrübə nəaliyyətlərinin regional miqyaslarda iqtisadiyyata tətbiqi imkan-larının mövcudluğu;
- ✓ valyuta ehtiyatları və imkanlarının artırılması üzrə proseslərin ardıcıl həyata keçirilməsi;
- ✓ daha ölçülmüş və gəlirli ticarət mühitinin yaradılması;
- ✓ mikro və makro səviyyələrdə logistika-infrastruktur imkanlarının yaxşılaş-dırılması;
- ✓ region iqtisadiyyatının beynəlxalq arenaya inteqrasiyası;
- ✓ qarşılıqlı investisiyalaşma imkanlarının əldə olunması və s. [1; 144]

Tədqiqatın növbəti mərhələsi kimi, sərbəst ticarət zonasının Naxçıvan Muxtar Respublikasında təşkili üzrə qoyulan tələblərlə əlaqəlidir. Araşdırmaqda olduğumuz dissertasiya mövzusunun hazırki maddəsi sərbəst ticarət zona formalarının muxtar respublikada təşkili imkanları ilə bağlı müvafiq müşahidə və qiymətləndirmə işlərinin aparılmasını tələb edir. Bu məsələdə birinci növbədə iki əsas məqama diqqət yetirmək zəruridir:

1. Muxtar Respublikanın real, vahid məcmu şəklində baxılan elementlərin və onlardan muxtar respublikanın ərazisində yaradılması mümkün hesab edilən sərbəst ticarət zonanın qurulmasına təsiri;
2. Sərbəst ticarət zonasının muxtar respublika üçün xarakterik təzahür formasının müəyyən edilməsi.

Birinci bənd üzrə qeyd olunan elementlər öz növbəsində bilavasitə təsirə malik və dolayı təsirlə seçilən qruplar üzrə təsnifləşdirilməlidir. Bilavasitə təsir imkanlarına malik elementlərin nümunəvi məzmununu xarakterizə etmək üçün aşağıdakı sxemə müraciət edək. (sxem 2)

*Sxem 2. Naxçıvan Muxtar Respublikasında sərbəst ticarət zonasının yaradılması üzrə birinci dərəcəli təsir elementləri*




Mənbə: Sxem ədəbiyyat məlumatları əsasında müəllif tərəfindən tərtib olunmuşdur [2; 303]

Sxem 3.1-də verilən təsnifatdan da göründüyü kimi, regional müstəvidə sərbəst ticarət zonasının təşəkkül tapmasında birinci yeri coğrafi yerləşməni şərtləndi-rən elementlər təşkil edir. Bildiyimiz kimi, Naxçıvan Muxtar Respublikası səkkiz inzibati vahidin (1 muxtar respublika tabeli şəhərin və 7 inzibati rayonun) məcmusu şəklində təzahürə malikdir. Cəmi ərazi miqyasında zonanın yerləşəcəyi məkanın seçilməsi, bu seçimin həyata keçirilməsində bütün əlaqələi şərtlərin nəzərə alınması zəruridir. Bəhs olunan amil ilk növbədə zona üçün nəzərdə tutulan ərazinin yer quruluşu, onun tikinti-quraşdırma işlərinin aparılması baxımından yararlılığı, xarici ölkələrlə birbaşa həmsərhəd ərazilərin və gömrük keçid imkanlarının mövcudluğu; enerji, su-kanalizasiya təminatının asanlığı, müxtəlif təyinatlı yol şəbəkəsinin (də-mir yolu, avtomobil, hava) mövcudluğu, işçi qüvvəsilə təmin olunma imkanları, ayrı-ayrı xidmətlərlə təmin olunma dərəcəsi kimi elementləri özündə birləşdirmə-lidir.

Tərəfimizdən aparılmış səyyari müşahidələr göstərir ki, Naxçıvan Muxtar Respublikasının ərazisində yaradılacaq sərbəst ticarət zonasının Sədərk rayonunun ərazisində, yaxud Sədərək və Şərur rayonlarının həmsərhəd düzənlik ərazısında yerləşdirilməsi daha məqsədəuyğundur. Bildirilən fikir və düşüncələr məcmusunun əsaslandırılması ilk növbədə müxtəlif növ yol-kommunikasiya infrastrukturunun mövcudluğu, ərazinin yer quruluşunun tələblərə cavab verməsi, İran və Türkiyə ilə sərhəddə qurulmuş gömrük keçid məntəqələrinin fəaliyyətinin aktiliyi, içməli su hövzələrinin yaxınlığı, enerji resurslarından istifadənin mümkünlüyü, mərkəzə yaxınlıq, məhsuldar işçi heyyətinə malikolma, digər iqtisadi, təşkilati-idarəetmə, tikinti-quruculuq təyinatlı işlərin icrasındakı əlverişli şəraitin qiymətləndirilməsi sayəsində mümkün olmuşdur.

Hüquqi tənzimləmə elementlərinin mövcudluğu zonanın fəaliyyətinin istiqamətlər üzrə qanuni çərçivələrə salınmasını tələb edir. Hüquqi tənzimləmə məsələlərinə növbəti maddədə fərdi qaydada baxcağımız üçün bu istiqamətin hazırki maddədə dərindən araşdırılmasına ehtiyac duymuruq.

Özündə təşkilati elementləri ehtiva edən elementlər, fikrimizcə 2 aspektdə nəzərdən keçirilməlidir:

1. Zonanın yerləşdiyi ölkə və region icra strukturları tərəfindən həyata keçirilən ümumi təyinatlı, o cümlədən zonaya aidiyyatı ilə seçilən təşkilati-idarəetmə işləri;
2. Zona administrasiyası tərəfindən aparılan təşkilati-idarəetmə işləri.

Birinci bənd üzrə qeyd etmək zəruridir ki, muxtar respublikada aparılan təşkilatlanma-idarəetmə təyinatlı fəaliyyət bir tərəfdən regionun ümumi iqtisadi, o cümlədən istehsal, mübadilə potensiallarının artması ilə müşayət olunmuşdur. Bunu işin ayrı-ayrı maddələrində göstərdiyimiz faktlar və apardığımız təhlilər də sübut edir. Digər tərəfdən, yerli icra orqanlarının həm bilavasitə zonanın bərqərar olması və inkişafı ilə əlaqəli gördüyü işlər, həm də artan regional imkanların bir hissəsinin məhz zona vasitəsilə reallaşdırılmasında səylərin göstərilməsi, müvafiq proqramların, iş-icra xəritələrinin tərtibi bu məcmuda özünəməxsus yer tutur. Məsələyə fərqli baxış "bucağı" altında yanaşma mərkəzi və yerli icra strukturları qarşısında bir sıra digər məsələləri də qoyur ki, onlardan da xüsusi olaraq aşağıdakıları qeyd etmək yerinə düşərdi:

a) ərazi ifadəsində dəqiq sərhədlənmə işlərinin sistemli aparılması və surətli şəkildə başa çatdırılması;

b) iqtisadi fəaliyyətin təşkili və həyata keçirilməsi üçün sadələşdirilmiş qay-daların tətbiqinin mümkünlüyü (bu qaydaların tətbiqi ticarət həcminin artırılmasında, onun kəmiyyət-keyfiyyət göstəricilərinin yüksəldilməsində həvəsləndirici amil rolunu oynayır);

c) gömrük rüsum və digər ödəmələrinin minimal (bir çox hallarda isə "sıfır") səviyyəsinin, həmçinin vergilərin azaldılmış və sadələşdirilmiş dərəcələ-rinin tətbiqi və s. [5; 203]

Məsələnin ikinci hissəsi təşkilati-idarəetmə məsələlərinin "zona administrasiyası – zona iştirakçısı (sahibkarı)" qarşılıqlı əlaqələri ilə müşayət olunan sistemində baxılmasını tələb edir. Belə yanaşma hüquqi subyekt kimi qəbul edilən sərbəst ticarət zonasının idarəetmə və təşkilatlanma məsələlərində beynəlxlq və yerli tələblərə, onların əsasında hazılanmış zona Nizamnaməsi və daxili fəaliyyət Qaydalarına sadiqliyi tələb edir. Bu sahədə yarana biləcək mübahisəli məqamların operativ aradan qaldılması məqsədilə zonada administrasiya üzvləri və sahibkarların seçilmiş nümayəndələrindən ibarət Şuranın yaradılması da mümkündür.

## ƏDƏBİYYAT

1. Həsənov T.G, İqtisadi-coğrafi rayonlaşdırma (dərslik), Bakı, Bakı Biznes Universiteti nəşriyyatı, 2012, 245s.
2. Hüquqi şəxslərin dövlət qeydiyyatı haqqında Azərbaycan Respublikası Qanunu, Biznesmenin bülleteni, xüsusi buraxılış, Bakı, Azərnəşr, 2006, 18 s.
3. Hüseynov R.T. Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının bazar modelinin konseptual əsasları, Bakı, Elm, 1998. 447s.
4. Hüseynov T.H. Azərbaycanın milli iqtisadi inkişaf modeli: nəzəriyyə və praktika., Bakı, Elm, 2015, 466s.
5. İbrahimov İ.H. Regionlarda sahibkarlığın inkişaf meylləri və xüsusiyyətləri, Bakı,Səda, 2007, 296 s.
6. Xüsusi İqtisadi Zonalar haqqında Azərbaycan Respublikası Qanunu., 14 aprel 2009-cu il.

## ABSTRACT

**Hüseyn Bağirsoylu**

**THE EFFECTIVENESS OF FREE TRADE ZONESCREATION IN NAKHCHIVAN NAKHCHIVAN AUTONOMOUS REPUBLICE**

Among the issues to be expected during the institutionalization process should be the independent choice of the specialization of the free trade zone. In international practice, free trade zones are provided with open (exclave) and closed (excavated) varices on the basis of this sign. The two expressions used here refer to the source of the legal regulation of free trade zones, the use of certain restrictions. Thus, if the sale of ready-made products in those zones is organized on the basis of liberal international rules, without any type of site, area, destination, or any other type of organizational arrangement, the zone is open to the closed zone group if restricted areas are identified. We think that the zone to be created in the autonomous republic should be matched with the enclosed variance

## РЕЗЮМЕ

**Хусейн Байерсойлу**

**НЕМЕДЛЕННО СОЗДАТЬ БЕСПЛАТНЫЕ ТОРГОВЫЕ ЗОНЫ В НАХЧЫВАНСКАЯ АВТОНОМНАЯ РЕСПУБЛИКА**

Среди вопросов, которые следует ожидать в процессе институционализации, должен быть независимый выбор специализации зоны свободной торговли. В международной практике на основе этого знака зоны свободной торговли предоставляются открытым (эксклавным) и закрытым (раскопанными) вариками. Используемые здесь два выражения относятся к источнику правового регулирования зон свободной торговли, использованию определенных ограничений. Таким образом, если продажа готовой продукции в этих зонах организована на основе либеральных международных правил, без какого-либо типа сайта, района, места назначения или любого другого типа организационной структуры, зона открыта для группы закрытых зон, если определены зоны с ограниченным доступом. Мы считаем, что зона, которая будет создана в автономной республике, должна соответствовать замкнутой дисперсии.

NDU-nun Elmi Şurasının 19 oktyabr 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 02).
Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

**HƏSƏN MƏMMƏDOV**
*Naxçıvan Dövlət Universiteti*
hasan.memmedov@gemikaya.com

**UOT 332.146**

# DAVAMLI İQTİSADİ İNKİŞAFA TƏSİR OBYEKTİ KİMİ İNFRASTRUKTURLARIN NƏZƏRİ ASPEKTLƏRİNƏ YANAŞMA

**Açar sözlər:** *infrastryktur, istehsal infrastrukturu, sosial infrastruktur, bazar infrastrukturu, institusional infrastruktur, beynəlxalq infrastruktur, ekoloji infrastruktur, davamlı iqtisadi inkişaf*

**Key words:** *infrastructure, production infrastructure, social infrastructure, market infrastructure, institutional infrastructure, international infrastructure, environmental infrastructure, sustainable economic development*

**Ключевые слова:** *инфраструктура, производственная инфраструктура, социальная инфраструктура, рыночная инфраструктура, институциональная инфраструктура, международная инфраструктура, экологическая инфраструктура, стабильное экономической развитие*

"İnfrastruktur" termini ilk dəfə ingilis iqtisadçısı A.Marşall (1842-1924) tərəfindən, XX əsrin əvvəllərində (1910) idarəetmə ilə bağlı etdiyi məruzələrin birində obyektləri adlandırmaq üçün istifadə edilmişdir.Sonralar,1941-ci ildə silahlı qüvvələrin həyat fəaliyyətini təmin edən obyekt və tikililəri adlandırmaq üçün ABŞ-da "infrastruktur" ifadəsi işlənilmişdir. Hərbi infrastruktur dedikdə, hərbi qüvvələrin fəaliyyətini təmin edən sahələrin (hərbi anbarlar, aerodomlar, radiolokasiya postları, poliqonlar və s.) kompleksi nəzərdə tutulurdu. Buradan aydın görünür ki, hərbi infrastruktur-müharibə şəraitində hərbi əməliyyatların aparılmasını təmin edən, sülh şəraitində isə dövlətin müdafiə qabiliyyətinin lazımi səviyyədə saxlanılmasına xidmət edən bir qurumdur. Həmin fikir sonralar bütün başqa sahələrə də geniş yayılmışdır. Sonradan "infrastruktur" iqtisadi termin kimi geniş formada leksiona daxil olmuşdur.

"İnfrastruktur" anlayışı (termini) latın mənşəlidir. O, infra- "aşağı, alt" və struktura - "yerləşmə" sözlərinin birləşməsini ifadə edir. Bu anlayışda başqa sahələrə xidmət göstərən qurumlar (özəklər) məcmusu ifadə olunur. Deməli, onun məzmununda başqa müvafiq bir sahəyə "xidmət göstərmək" ifadəsi müəyyənedici əhəmiyyət kəsb edir. Məsələn, 40-cı illərdə Qərbdə infrastruktur anlayışı maddi istehsalın fəaliyyətinə xidmət edən sahələrin məcmusu kimi başa düşülürdü(1).

İqtisadi ədəbiyyatlarda infrastrukturların mahiyyəti və məzmunu haqda müxtəlif fikirlər mövcuddur. Bir qrup mütəxəssislər infrastrukturlara istehsal prosesinin fəaliyyətini yaxşılaşdırmaq üçün ona xidmət edən sahələr dəsti və ya əhalinin həyat şəraitini yaxşılaşdırmaq üçün xidmətedici sahələr dəsti, bir qrup mütəxəssislər isə milli iqtisadiyyatın funksional fəaliyyətinin normal təmin edilməsinə yönəlmiş vahid, kompleks sahələr dəsti kimi qiymətləndirirlər(2).

İnfrastrukturların mahiyyəti və sərhədlərinin müəyyənləşdirilməsi haqda dünya iqtisadçılarının fikirləri də birmənalı deyildir. Keçmiş sovetlər birliyi dövründə nəşr olunan Azərbaycan Sovet Ensiklopediyasında infrastruktura aşağıdakı kimi yanaşılmışdır: "O, istehsala xidmət edən kompleks təsərrüfat sahəsidir". Lakin müasir dövrdə bu yanaşma elmi və nəzəri baxımdan nöqsanlıdır və infrastrukturlar haqqında mükəmməl təsəvvür yaratmır. Qeyd etdiyimiz kimi infrastrukturlar daha geniş dairəli, elmi və nəzəri cəhətdən, əmək bölgüsü ilə səciyyələnən və digər aparıcı sahələri də əhatə edib, onlara xidmət göstərən xüsusi sahələrdir. İnfrastrukturlar haqqında danışarkən təkcə maddi istehsala xidmət edən sahələr deyil, həmçinin sosial, bazar, ekoloji və beynəlxalq sahələrə xidmət göstərən sahələrin məcmusu başa düşülməlidir.

"Böyük Türk İqtisadi Ensklopediyası"nda bu iqtisadi kateqoriyanın mənası daha dəqiq ifadə edilərək "alt yapı" kimi işlədilməkdədir. İlk dəfə hərbi-sənaye kompleksinin bina, anbar və qurğularını adlandırmaq üçün infrastruktur terminindən istifadə edilsə də, sonradan dünya xalqlarının dilində iqtisadiyyatın bütün sahələrində əsas sahəyə xidmət edən iqtisadi kateqoriya kimi işlədilməyə başlanılmışdır(3) .

Tədqiqatlar göstərir ki, müxtəlif vaxtlarda ayrı-ayrı tədqiqatçılar tərəfindən infrastrukturlara müxtəlif aspektdən yanaşılmış, onların mahiyyəti və məzmunu haqda çoxsaylı fikirlər formalaşmışdır. Belə ki, xarici ölkə iqtisadçılarından, məsələn, S.S.Nosova görə infrastrukturlar "cəmiyyətin əlavə xərcləri" hesab edilir, sosial-iqtisadi həyatda birbaşa iştirak etmədiyindən dəyər yaratmır və ona görə də istehsalçıya gəlir gətirmir(4).

A.Pezentiyə görə infrastrukturlar müəssisənin kompleks xarici mühitini (nəqliyyat şəbəkəsi və növlərini, tikintini və s.) təşkil edir. Bu mühit amillərini, yəni infrastrukturları cəlb etməklə müəssisənin xərcləri azalır, pulun dövriyyə sürəti artır, nəticədə qarşıya qoyulmuş məqsədə çatmağa-"məşğulluğun təmin olunmasına, tələbin həcminin yüksəlməsinə və gəlirin artmasına" şərait yaranır (5).

Müasir qərb iqtisadçılarından K.R.Makkonell və L.Bryu isə təyinatından asılı olmayaraq infrastrukturların dövlət tərəfindən təşkili və tənzimlənməsi fikirlərini irəli sürmüşlər. Onlar göstərmişlər ki, iri kompleks layihələr tələb edən infrastruktur sahə və özəkləri ağır əmək tutumlu sahələr olduğundan yalnız dövlət və ya ixtisaslaşmış firmalar tərəfindən yaradılmalıdır (6).

İnfrastrukturları iqtisadçıların bir çoxu istehsaldan kənar sahələrin dəsti kimi qiymətləndirsələr də, digər iqtisadçılar bu fikri qəbul etmirlər. Məsələn, İ.F.Çernyavskiyə görə, "infrastrukturlar sənaye və kənd təsərrüfatı istehsalına xidmət edən sahələrin məcmusu olmaqla aşağıdakıları əhatə edir: avtomobil yollarının tikintisi, kanallar, sututarlar, limanlar, körpülər, anbarlar, enerji təsərrüfatı, dəmiryol nəqliyyatı, rabitə, su təchizatı, kanalizasiya, səhiyyə və təhsil, ibtidai və ali təhsil" (7). Lakin bu qaydada çoxsahəli təsnifləşdirmə apardıqda obyekt düzgün seçilmir və nəticədə iqtisadi kateqoriyanın əsl mahiyyəti kənarda qalır.

İqtisadçıların bir çoxu isə onu sahələr üzrə təsnifləşdirməkdən uzaqlaşaraq infrastrukturlara əsas obyektə xidmət edən köməkçi sahələr kimi baxırlar. Belə yanaşmada isə konkretlik olmadığından subyekt və obyekt seçilmir, əsas obyekt kənarda qalır.

Bəzi iqtisadçılar isə infrastrukturlara istehsalın və əhalinin ehtiyac və tələbatını ödəyən sahə və xidmətlər: yollar, anbarlar, nəqliyyat, kommunal, məişət xidməti və sosial sahələrin məcmusu kimi yanaşırlar. Bu qaydada yanaşma iqtisadi kateqoriya kimi infrastrukturların müxtəlif aspektlərini əks etdirdiyindən bir çoxları tərəfindən qəbul edilir.

V.V.Vlasova görə infrastrukturlar 4 sahəyə bölünür:

1. İstehsal infrastrukturu. Bu, müəssisədə proseslərin fasiləsizliyini təmin edən kompleks xarici mühit amilləri dəstindən ibarətdir. Buraya aşağıdakılar aiddir: yük nəqliyyatı, topdansatış ticarət, elektrik, qaz və su təchizatı, anbar təsərrüfatı, rabitə və məlumat xidməti. Eyni zamanda aşağıdakı işgüzar xidmət sahələri: reklam, marketinq xidməti, icarə və lizinq xidməti, məsləhət xidməti (investisiya siyasəti və idarəetmə ilə bağlı və s. məsləhətlər), injinirinq (mühəndis- məsləhət və layihə xidmətləri sahəsi) və s. daxildir.

2. Sosial infrastruktur. Bu işçi qüvvələrinin təkrar istehsalı ilə bağlı olan kompleks sahələrdir. Buraya səhiyyə, maarif, mədəniyyət, incəsənət, pərakəndə ticarət, sərnişin nəqliyyatı, mənzil- kommunal təsərrüfatı, xidmətlərin təşkili sahələri, ictimai iaşə sahələri, ev təsərrüfatı üzrə xidmətlər və s. aiddir.

3. İnstitusionoloji infrastruktur. Bu, iqtisadiyyatın makroiqtisadi tənzimlənməsini həyata keçirən, milli iqtisadiyyatın inkişaf etməsinə təkan verən kompleks iqtisadi sahələri əhatə edir. Buraya dövlətin iqtisadi tənzimləmə aparatı, maliyyə-kredit, vergi, gömrük və s. sahələr aiddir.

4. Ekoloji infrastruktur. Bu ictimai istehsalın inkişafına xidmət edən və insanların iqtisadi fəaliyyəti zamanı ətraf mühitə dəyə biləcək zərərlərin qarşısını almaq üçün fəaliyyət göstərən mühəndis-texniki qurğulardan ibarət kompleks sahələrin məcmusudur. İnfrastrukturun bu növünə ətraf mühitin qorunmasına nəzarət edən hökumət və qeyri-hökumət

orqanları, dəniz və çayların, meşə və dağların qorunması üzrə hökumət orqanlarının mühəndis qurğuları və s. aiddir (8).

Araşdırma zamanı məlum oldu ki, V.V.Vlasov bazar iqtisadiyyatı şəraitində yerinə yetirdiyi möhtəşəm funksiyalarla bazarın ümumi inkişafına xidmət edən bazar infrastrukturlarını təsnifatda ayrıca nəzərə almamış, bəlkə də özlüyündə institusional infrastruktur kimi qiymətləndirmişdir.

İnfrastrukturların başlıca xüsusiyyətlərini nəzərdən keçirərkən M.P.Komorov onu müxtəlif əlamətlər üzrə aşağıdakı kimi təsnifləşdirməyə cəhd etmişdir: 1) İnsanların fəaliyyət sferası üzrə; 2) Fəaliyyətin sahələri (funksiyaları) üzrə; 3) Tətbiqi miqyasına görə; 4) Ətrafda formalaşma xüsusiyyətlərinə görə (9).

Fikrimizcə, belə təsnifatdan fərqli olaraq, infrastrukturlar daha geniş mənada insanların həyat fəaliyyətləri boyunca onları əhatə edən bütün sahə və sferalarda fəaliyyət göstərirlər. İstehsal infrastrukturu isə öz növbəsində istehlak şeyləri istehsal edən sahələrin və istehsalı yaradan şeyləri istehsal edən sahələrin infrastrukturlarına bölünməlidir. O, sənaye və kənd təsərrüfatı məhsullarının istehsalı prosesində əmtəə ehtiyatlarının hərəkətini təmin edən maddi-texniki sistemlərin məcmusu kimi başa düşülməlidir. Əmtəə ehtiyatlarının təsnifləşdirilməsinə müvafiq olaraq istehsal infrastrukturunun funksiyaları aşağıdakı kimi qruplaşdırılmalıdır: istehsal prosesinin maddi vəsaitlərlə, təbii ehtiyatlar, enerji, hazır məhsullar; istehsalın işçi qüvvəsi və ya əmək ehtiyatları ilə, istehsalın maliyyə vəsaitləri və informasiya ilə təmin olunması. Beləliklə, xidmət etdiyi sahələrdən asılı olaraq, yerinə yetirdiyi funksiyalara görə istehsal infrastrukturu xarici, daxili və qarışıq formada çıxış edirlər. Bu funksiyalar özlüyündə istehsal prosesini həyata keçirmək üçün böyük əhəmiyyətə malikdir.

Azərbaycanda da infrastrukturlarla bağlı elmi-tədqiqat işləri aparılmış, maraqlı və dəyərli sosial-iqtisadi, nəzəri və praktiki nəticələr əldə edilmişdir. Lakin professor T.Vəliyevin əsərləri nəzərə alınmazsa, tədqiqatçıların əksəriyyəti infrastrukturların nəzəri və konseptual problemlərini ayrıca, tam halda tədqiqat obyektinə çevirməmişlər. O, infrastruktur anlayışına yanaşarkən onun maddi istehsal sahələrinə və ümumiyyətlə, ictimai təkrar istehsala və eyni zamanda əlahiddələşmiş sosial istiqamətlərə də xidmət göstərən sahələr olmasını göstərmiş, infrastrukturların differensiyalaşmış fəaliyyətini ölkənin makro və mezo sosial-iqtisadi bütövlük səviyyəsində açıqlanılmasını, başqa sözlə, bu dairələrdə baxılmasını tövsiyə etmişdir(1).

İqtisadçı alim T.Vəliyev "İnfrastrukturlar: mahiyyəti, təsnifatı və əhəmiyyəti" əsərində sosial-iqtisadi infrastrukturların bazar iqtisadiyyatına uyğun olaraq nəzəri məsələlərini işləyib hazırlayarkən, infrastrukturları istehsal, sosial, kommunal-məişət və bazar infrastrukturları kimi təsnifləşdirmişdir. Bu infrastrukturlar özləri də birbaşa ikinci və bəzən üçüncü yarımqruplara, komponentlərə ayrıldığından, bu qruplaşmanı infrastrukturlar sahəsində iri, böyük təsnifat adlandırmışdır. İstehsal infrastrukturunu isə ilk növbədə maddi istehsal sahələrinə və müvafiq yarımqruplara bölmüşdür. Bilavasitə maddi istehsal sahələrini isə müasir bölgü ilə aşağıdakı kimi təsnifləşdirmişdir: sənaye, kənd təsərrüfatı, tikinti, meşə təsərrüfatı, ovçuluq-balıqçılıq, istehsalata xidmət edən rabitə, yük nəqliyyatı, energetika təsərrüfatı, maddi-texniki təchizat, ticarət və ictimai iaşə (1).

T.Vəliyev həmin əsərdə topdansatış ticarəti, orada istehsalın davamı ilə əlaqəli işlərin, məsələn, malların qablaşdırılması, markalanması, çəkilib-bükülməsi və s. kimi işlərin yerinə yetirilməsini nəzərə alaraq istehsal infrastrukturuna, pərakəndə ticarəti isə əhaliyə bilavasitə xidmət etdiyini nəzərə alaraq sosial inrastruktur təsnifatına aid etmişdir (1, s.75). Lakin obyektin yerinə yetirdiyi funksiyalar nəzərə alınmadan infrastrukturlara bu cür yanaşma, onun əsil mahiyyətinin açıqlanmasına kölgə salır. Belə ki, bazar iqtisadiyyatı şəraitində bazarın quruluşuna uyğun yerinə yetirdiyi funksiyalara baxılarkən, əmtəə və xidmətlər bazarının, onun mühüm sahəsi olan topdan və pərakəndə satış obyektlərinin hansı məqsədə xidmət etdiyi aydın görünür. Bu baxımdan yanaşıldıqda yerinə yetirdiyi funksiyalara görə növündən asılı olmayaraq, ticarət müəssisələri bazar infrastrukturunun tərkib hissəsinə münəccir edilməlidir.

İqtisad elmləri doktoru, professor Q.P.Juravlyovun ümumi redaktorluğu ilə 2010-cu ildə nəşr olunan "İqtisadi nəzəriyyə, Mikroiqtisadiyyat-1,2" dərsliyində müəlliflər kollektivi infrastrukturları təsnifləşdirərkən, istehsal, sosial və bazar infrastrukturlarını fərqləndirmişlər. Müasir dövrdə

fəaliyyətdə olan digər infrastrukturlar haqda fikir irəli sürməmişlər, eyni zamanda topdansatış ticarəti istehsala xidmət edən sahə kimi istehsal infrastrukturunun tərkib hissəsi kimi göstərmişlər(2).

Yuxarıdakı fikirlərin üstün və çatışmayan cəhətləri olmasına baxmayaraq iqtisadçıların bir çoxu bazar, sosial, istehsal, beynəlxalq, ekoloji və institusional sferaların fərqləndirici cəhətlərinə əhəmiyyət vermədiklərindən bazar, beynəlxalq, ekoloji və institutusional infrastrukturların iqtisadi funksiyalarını nəzərə almayaraq, təsnifata əlavə etməmişlər.

Apardığımız araşdırma və tədqiqatlardan aydın olur ki, istər Azərbaycan, istərsə də xarici ölkə iqtisadçıları tərəfindən bu günə qədər infrastrukturların nəzəri aspektləri istiqamətində vahid fikir formalaşmamışdır. Məhz, buna görə də, müasir bazar iqtisadiyyatı sistemində, mülkiyyət münasibətlərinin dəyişdiyi, istehsal münasibətlərinin inkişaf etdiyi müasir şəraitdə yerinə yetirdiyi funksiyalar nəzərə alınmaqla, bir iqtisadi kateqoriya kimi, infrastrukturlar yeni yanaşma metodları ilə tədqiq olunmalı, onun mahiyyət və məzmunu dəqiqləşdirilməlidir. İnfrastrukturların tədqiqində, əsasən, iki mühüm cəhətə diqqət yetirilməlidir. Bunlardan birincisi, onun iqtisadi münasibətlər sisteminin təkrar istehsal prosesinin fazalarına təsiri, ikincisi isə istehsal infrastrukturunun özünün inkişafı və təkmilləşdirilməsində dövlətin tənzimləyici rolunun yüksəldilməsi nəzərə alınmalıdır.

Müasir iqtisadi inkişaf baxımından yanaşdıqda, infrastruktur anlayışı dərin məzmuna malikdir. Ümumi mənada infrastruktur dedikdə, həm bütövlükdə iqtisadiyyatın, həm də onun ayrı-ayrı bölmələrinin normal fəaliyyəti üçün əlverişli şərait yaradan, insanların maddi və mədəni rifahının yüksəlməsinə xidmət edən sahələrin məcmusu başa düşülür.

İnfrastrukturun əsas cəhətlərindən biri ictimai təkrar istehsalın bütün fazalar: istehsal, bölgü, mübadilə və istehlak arasında qarşılıqlı əlaqələrin formalaşmasına yönəlməklə, ictimai tələbatların ödənməsinə xidmət etməsidir. Məhz, bunun nəticəsidir ki, infrastrukturlar iqtisadi nəzəriyyənin tədqiqat obyekti hesab edilir.

İnfrastrukturlar müxtəlif növlərə malik olsalar da mahiyyət etibarı ilə milli iqtisadiyyatın bütövlüyünə, onun sahə strukturlarının inkişafına xidmət edirlər. İnfrastruktur sahələri əmək və kapital tutumlu sahələr olduğundan, onların təşkili və inkişafı dövlət qayğısı ilə əhatə olunmalıdır. Ona görə də bu sahələrin inkişafı üçün ölkəmizdə mütəmadi olaraq iqtisadiyyatın dövlət tənzimlənməsi prosesləri həyata keçirilir.

Fikrimizcə, bazar iqtisadiyyatında infrastruktur bir-biri ilə qarşılıqlı əlaqədə olan iqtisadiyyatın müxtəlif bazar subyektlərinin:-istehsal, sosial, bazar, beynəlxalq, institusional və ekoloji sistemlərin normal fəaliyyətini təmin edən sahələrin məcmusunu əhatə etməlidir.

## ƏDƏBİYYAT


1. Vəliyev T.S.İnfrastrukturlar: mahiyyəti, təsnifatı və əhəmiyyəti, Bakı, Elm, 2000, 169s.
2. İqtisadi nəzəriyyə, Mikroiqtisadiyyat-1,2. Dərslik // RF əməkdar elm xadimi, iqtisad elmləri doktoru, professor Q.P.Juravlyovanın ümumi redaktəsi ilə.-4-cü nəşr, yenidən işlənilmiş və əlavələr edilmişdir. M.: Daşkov və Ko nəşriyyat-ticarət korporasiyası, 2010, 924 s.
3. Məmmədov H.Ə. Bazar münasibətləri şəraitində istehsal infrastrukturunun inkişafı: İqt.fəl.dok. dissertasiya, Bakı, 2007, 162 s.
4. Носова С.С. Инфраструктура в системе общественного производства, М.: Наука, 1982, 81 с.
5. Пезенти А. Очерки политической экономики капитализма, Т.2.М.: Прогресс, 1976, 885 с.
6. Макконелл К. Брю. Экономикс. 2001, 444 с.
7. Чернявский И.Ф. Инфраструктура селькохозяйственного производства: (вопросы, теории и практики). М.: Экономика, 1979.
8. Власов В. В. Япония: Производственная инфраструктура.М.:1991
9. Комаров М.П. Инфраструктура регионов мира: Учебник-СПБ: Издательство Михайлова В.А, 2000, 347 с.

## ABSTRACT

**Hasan Mammadov**

## APPROACH TO THE THEORETİCAL ASPECT OF İNFRASTRUCTURE AS AN OBJECT OF SUSTAİNABLE ECONOMİC DEVELOPMENT

In the article the concept of infrastructure, its occurrence, essence and content elements have been investigated, in the economic literatures it has been shown that there are different theories about the nature and content of the infrastructure, it has been noted that the opinions of world economists on the essence and boundaries of the infrastructures are different.

It is clear from the research that until now there is no single idea in the direction of theoretical aspects of infrastructures affecting sustainable economic development by both Azerbaijani and foreign economists.

In the article, as an economic category, the infrastructures affecting sustainable economic development have been researched with new approach methods, its essence and content have been clarified.

At the end of the research, it is shown giving a new classification of the infrastructure that in the market economy infrastructures should be viewed as a set of areas providing the normal functioning of different market subjects of economy: production, social, market, international, institutional and ecological systems that interact with each other.



## РЕЗЮМЕ

**Гасан Мамедов**

## ПОДХОД К ТЕОРЕТИЧЕСКИМ ИНФРАСТРУКТУРАМ КАК ОБЬЕКТ, ВЛИЯЮЩИЙ НА СТАБИЛЬНОЕ ЭКОНОМИЧЕСКОЕ РАЗВИТИЕ

В статье исследовано понятие инфрастуктура, ее создание, сущность и элементы содержания, указаны наличие в экономической литературе различных теорий о сущности и содержании инфраструктур, различных мнений мировых экономистов в установлении сущности и границ инфраструктуры.

Из проведенных исследований становится очевидным, что на сегодняшний день экономистами Азербайджана и мировых стран еще не сформулировано единое мнение в направлении теоретических аспектов инфрастуктур, влияющих на экономическое развитие.

В статье новыми инновационными методами исследованы инфраструктуры, влияющие на обеспечение развития стабильной экономики, как экономическая категория, уточнены их сущность и содержание.

В заключении исследования дается новая квалификация инфрастуктур и показывается, что в рыночной экономике следует рассмотреть взаимосвязанных друг с другом различных рыночных инфрастуктурых субъектов: как перечень отраслей, обеспечивающих нормальную деятельность производственной, социальной, рыночной, международной, институциональной и экологической системы.



NDU-nun Elmi Şurasının 19 oktyabr 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 02).
Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

**COŞQUN MƏMMƏDOV**
*Xəzər Universiteti*
joshgun.mammadov@hotmail.com

**UOT: 330,15**

# AZƏRBAYCANDA ALTERNATİV VƏ BƏRPA OLUNAN ENERJİ MƏNBƏLƏRİ VƏ ONLARDAN İSTİFADƏ

**Açar sözlər:** *alternativ və bərpa olunan enerji mənbələri, günəş enerjisi, külək enerjisi, hidroenerji, bioenerji.*

**Ключевые слова:** *альтернативные и возобновляемые источники энергии, уголь, солнечная энергия, энергия ветра, гидроэнергия, биоэнергия.*

**Key words:** *alternative and renewable energy sources, solar energy, wind energy, hydro energy, bioenergy.*

Ənənəvi enerji mənbələrinin tədricən tükənməsi, həmçinin onlardan istifadə zamanı ətraf mühitə dəyən ekoloji zərərlərin yüksək olması qeyri-ənənəvi enerji mənbələri olan alternativ və bərpa olunan enerji mənbələrindən istifadəni zəruri edir.

Neft və təbii qaz kimi zəngin karbohidrogen ehtiyatlara malik Azərbaycan Respublikasının yerləşdiyi təbii coğrafi mövqe ona ənənəvi enerji mənbələri ilə yanaşı alternativ və bərpa olunan enerji mənbələrindən də hərtərəfli istifadədə böyük imkanlar yaradır. Belə ki, ölkəmiz özünün əlverişli coğrafi şəraitinə görə kifayət qədər alternativ və bərpa olunan enerji potensialına malikdir. Bura günəş enerjisi, külək enerjisi, hidroenerji, biokütlələrdən əldə edilən bioenerji və s. daxildir.

Bərpa olunan enerji mənbələri və onlardan istifadə

Ölkəmizdə alternativ enerji mənbəyi kimi günəş enerjisi daha perspektivli enerji mənbəyi hesab olunur. Belə ki, əldə olunan hesablamalar nəticəsində Azərbaycan Respublikası ərazisi üzrə günəş enerjisinin paylanması atmosfer şəraitindən asılı olaraq öyrənilmişdir. Həmin nəticələr əsasında iki ərazi - Naxçıvan Muxtar Respublikası və Kür-Abşeron əraziləri seçilmişdir. Müəyyən edilmişdir ki, fotoelektrik qurğusunun illik xüsusi elektroenerji hasilatı Naxçıvan Muxtar Respublikası ərazisində 246 kVt.s, Kür-Abşeron ərazisi üzrə isə 230 kVt.s, günəşli saatların miqdarı Naxçıvan Muxtar Respublikası ərazisində bir ildə 3200 saat, Kür-Abşeron ərazisi üzrə isə 2500 saatdır. Ərazinin hər kvadrat metrinə düşən illik enerji miqdarı Naxçıvan Muxtar Respublikası üzrə 2200-2600 kVt.s və Kür-Abşeron ərazisi üzrə isə 1900-2200 kVt.s təşkil edir [9, s.17]. Bu göstərici üzrə Azərbaycan bir çox ölkələrdən irəlidədir.

Külək enerjisi isə digər alternativ və bərpa olunan enerji mənbələri ilə müqayisədə maya dəyərinə, tükənməzliyinə və ekoloji təmizlik göstəricilərinə görə ən sərfəli enerji mənbəyi hesab edilir. Belə ki, hesablamalara görə Azərbaycan Respublikası özünün coğrafi vəziyyətinə, təbii şəraitinə və iqtisadi infrastrukturuna görə 800 MVt-a yaxın illik külək enerji ehtiyatına malikdir. Bu ehtiyat ildə təxmini hesablamalara görə 2,4 milyard kVt.s elektrik enerjisi deməkdir. Bu isə, öz növbəsində, ildə 1 milyon tona yaxın şərti yanacağa qənaət, ən əsası isə ildə küllü miqdarda tullantıların, o cümlədən ozondağıdıcı karbon dioksidin ($CO_2$) atmosferə atılmasının qarşısının alınması deməkdir [12, s.222]. Ölkəmizdə ən əlverişli külək şəraiti Abşeron yarımadasında, Xəzər dənizi sahili zolağında və akvatoriyanın şimal-qərb hissəsində olan adalardadır. Respublikanın qərbində – Gəncə-Daşkəsən zonasında və Naxçıvan Muxtar Respublikasının Şərur-Culfa ərazisində küləyin orta illik sürəti saniyədə 3-5 metr təşkil edir ki, bu göstəricilər məhz həmin ərazilərdə külək elektrik qurğularının istifadə səmərəliliyinin yüksək olduğunu göstərir.

Eyni zamanda ölkəmizdə digər alternativ enerji mənbəyi olan, bioresursların, məişət tullantılarının yandırılması ilə də enerji əldə edilir. Belə ki, Abşeron yarımadasının Balaxanı ərazisində ildə 500 min ton məişət tullantısının yandırılması ilə 231,5 mln. kVt.s elektrik enerjisi

istehsal edə bilən Bakı Bərk Məişət Tullantılarının Yandırılması Zavodu inşa edilmişdir [11, s.14]. Dördüncü nəsil texnologiyaların tətbiqi ilə Avropa Birliyinin ətraf mühitinin mühafizəsi sahəsində ən sərt normativlərinə cavab verəcək şəkildə inşa olunmuş zavod istehsalat gücünə görə Şərqi Avropa və MDB məkanında ən iri bu tipli zavoddur. Həmçinin bu enerji növündən istifadə zamanı atmosferə vurulan zərərlər və bu zərərlərin aradan qaldırılması yolları da öyrənilir. Ölkəmiz bu sahədə inkişaf etmiş Avropa ölkələri ilə sıx əməkdaşlıq edir və onların qabaqcıl təcrübələrindən yararlanır [16].

Alternativ və bərpa olunan enerji mənbələrinin bir növü də hidroenerjidir. Hidroenerji çayların enerji potensialından istifadə olunması ilə əldə edilir. Bu da ekoloji cəhətdən daha təmiz və davamlı elektrik enerjisi istehsalı deməkdir. Azərbaycan Respublikası zəngin su ehtiyatlarına malikdir. Belə ki, aparılmış elmi-tədqiqat işlərinin nəticəsində ölkə ərazisində çayların hidroenerji potensialının 40 mlrd. kVt.s, texniki cəhətdən əlverişli potensialın isə 16 mlrd. kVt.s olduğu müəyyən edilmişdir ki, bunun da 5 mlrd kVt.s-ı kiçik hidroenergetikanın payına düşür [11, s.148].

Azərbaycan Milli Elmlər Akademiyası tərəfindən ölkənin müxtəlif regionlarında kiçik su elektrik stansiyalarının inşası məqsədilə çayların su sərfinin və ərazinin relyefinin, geoloji-coğrafi xüsusiyyətlərinin öyrənilməsi üzrə elmi-tədqiqatlar aparılmış, nəticədə respublikamızın dağ və dağətəyi çayları, eləcə də digər kiçik suaxarların üzərində 280-dən çox Kiçik Su Elektrik Stansiyalarının tikilməsinin mümkünlüyü təyin olunmuş, onların ilkin tədqiqat hesabatları aparılaraq yerləri seçilmiş, güc və illik enerji istehsalı müəyyənləşdirilmişdir [5].

Beləliklə ölkəmizin təbii coğrafi iqlim şəraiti bizə imkan verir ki, enerji ehtiyatlarına olan tələbatın ildən-ilə artdığı müasir dövrdə mövcud alternativ və bərpa olunan enerji mənbələrindən səmərəli istifadə etməklə elektrik və istilik enerjisinin istehsalının artımına nail olaq və beləliklə milli enerji müstəqilliyimizi və təhlükəsizliyimizi təmin edək.

2015-ci ildə ölkəmizdə 24 688,4 milyon kVt.s elektrik enerjisi istehsal edilmişdir ki, bunun da 1828,5 milyon kVt.s-ı (əvvəlki illə müqayisədə 350,1 milyon kVt.s və ya 19,1 % çox) alternativ və bərpa olunan enerji mənbələrinin payına düşür. Bu isə istehsal edilmiş ümumi elektrik enerjisinin 7,4 %-ni təşkil edir. Bu da orta hesabla 464,7 milyon $m^3$ (əvvəlki illə müqayisədə 35.5 milyon $m^3$ və ya 7,6 % çox) təbii qaza qənaət olunmasını və müvafiq olaraq 827,2 min ton karbon dioksidin ($CO_2$) atmosferə atılmasının qarşısının alınmasını şərtləndirmişdir [16, 2, 3].

Cədvəl №1

*Alternativ və bərpa olunan enerji mənbələrinin hesabına istehsal olunmuş elektrik enerjisinin həcmi (milyon kVt.s)*

| Elektrik enerjisinin istehsalı | 2011 | 2012 | 2013 | 2014 | 2015 | Nisbət 2014/2015 % |
|---|---|---|---|---|---|---|
| Elektrik enerjisi - cəmi | 20 293,8 | 22 988,1 | 23 354,4 | 24 727,7 | 24 688,4 | -0,2 |
| o cümlədən: | | | | | | |
| SES-in elektrik enerjisi | 2 675,8 | 1 821,0 | 1 489,1 | 1 299,7 | 1 637,5 | 26,0 |
| Külək enerjisi | - | - | 0,8 | 2,3 | 4,6 | 100,0 |
| Günəş fotoelektrik enerjisi | - | - | 0,8 | 2,9 | 4,6 | 58,6 |
| Tullantıların yandırılmasından alınan elektrik enerjisi | - | - | 134,1 | 173,5 | 181,8 | 4,8 |

*Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi [16].*

Qeyri-dövlət sektoru tərəfindən alternativ və bərpa olunan enerji mənbəri hesabına 39,1 milyon kVt.s elektrik enerjisi istehsal olunmuşdur. İstehsalın 21 mln kVt.s-ı (53,7 %) külək elektrik stansiyalarının, 18,1 mln kVt.s-ı (46,3 %) isə kiçik su elektrik stansiyalarının ("Muğan" KSES, "Şəki-1" KSES) payına düşür [4 s.86-87].

Lakin respublikamızda enerji istehsalı zamanı alternativ və bərpa olunan enerji mənbərinin digər növləri ilə müqayisədə Su Elektrik Stansiyaları (SES) xüsusi çəkiyə malikdir. Belə ki, 2015-ci ildə bu göstərici 1637,5 milyon kVt.s (əvvəlki illə müqayisədə 337,8 milyon kVt.s və ya 26 % çox) olmuşdur ki, bu da istehsal edilmiş ümumi elektrik enerjisinin 6,6%-ni, alternativ və bərpa olunan enerji mənbələri üzrə ümumi payın isə 89,6 %-ni təşkil etmişdir.

Qrafik №1

*2015-ci ildə alternativ və bərpa olunan enerji mənbələrinin hesabına istehsal olunmuş elektrik enerjinin mənbələr üzrə xüsusi çəkisi (%)*




*Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi [16],*

Qrafik №2

*Bərpa olunan enerji mənbələrindən alınan elektrik enerjisinin ümumi elektrik enerjisi istehsalında xüsusi çəkisi (%)*




*Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi [16],*

Bərpa olunan enerjinin inkişafı və görülən tədbirlər

Respublikamızda alternativ və bərpa olunan enerji mənbələrindən səmərəli və geniş istifadə olunması və mövcud ənənəvi enerji mənbələrindən asılılığın aradan qaldırılması məqsədilə bir sıra tədbirlər görülmüşdür. Məqsəd Azərbaycanda alternativ və bərpa olunan enerjinin inkişafı üçün istiqamət və təcrübə formalaşdırmaq, eləcə də bu sahənin inkişafına təkan verməkdir. Bura Azərbaycan Respublikasında Alternativ və Bərpa edilə bilən Enerji Mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramının qəbul olunmasını [1], Azərbaycanda Sənaye və Energetika Nazirliyinin nəzdində Alternativ və Bərpa olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin yaradılmasını [7] misal göstərmək olar.

Eyni zamanda "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda da Alternativ və bərpa olunan enerji mənbələrinin yaradılması məqsədilə müvafiq tədbirlərin həyata keçirilməsi sahəsində işlərin davam etdirilməsi, dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi icraçısı olduğu Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinə tapşırılmışdır [6].

Bununla yanaşı hökumətimiz "İqlim Dəyişmələri haqqında" Çərçivə Konvensiyasını [12] və Kioto protokolunu [13] ratifikasiya etmiş, təmiz inkişaf mexanizminə dair müvafiq sənədlərə qoşulmuşdur. Eyni zamanda, ölkəmiz Beynəlxalq Bərpa Olunan Enerji Agentliyinə (IRENA) üzv qəbul edilmiş, beynəlxalq qurumlarla işgüzar əlaqələr qurmuşdur. Həmçinin bir mənbədən enerji asılılığının azaldılması, enerji təhlükəsizliyi və enerji səmərililiyi məsələlərinin həlli, həmçinin

vahid enerji siyasətinin hazırlanması və ətraf mühitə vurulan ziyanın aşağı salınması məqsədilə “20-20-20" direktivinə də tərəfdar çıxmışdır. Xatırladaq ki, həmin direktivin tələblərinə əsasən, 2020-ci ilə qədər Avropa İttifaqı ölkələrində alternativ və bərpa olunan enerji mənbələrindən istifadə etməklə enerji istehlakının payının 20 faizə çatdırılması, enerji səmərəliliyinin 20 faiz artırılması və istixana qazlarının emissiyasının 1990-cı il səviyyəsindən 20 faiz azaldılması öhdəlikləri müəyyən olunmuşdur [14, 15].

Ölkəmiz həmçinin alternativ və bərpa olunan enerji mənbələrinin inkişafı üçün dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsindən də geniş yararlanır. Bu məqsədlə Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında bu sektorun inkişafı üçün sıx əməkdaşlıq həyata keçirilir. Belə ki, Avropa İttifaqının maliyyələşdirdiyi Enerji İslahatlarına Büdcə Yardımı proqramı çərçivəsində 14 milyon avro ayrılıb ki, bu yardım çərçivəsində müəyyənləşdirilmiş birinci tranş 2010-cu, ikinci tranş isə 2011-ci ildə köçürülüb [8, s.185].

Həmçinin Almaniyanın KfW *(Kredit qarantiyaları fondu)* Bankının maliyyə dəstəyi ilə külək-günəş elektrik stansiyalarının tikintisi üçün Abşeron rayonunda 500 ha və Xızı rayonunda 300 ha ərazilər seçilmiş, müvafiq sənədləşmə işləri aparılmış, ölçü müşahidə-nəzarət stansiyaları alınmışdır. BMT-nin İnkişaf Proqramının dəstəyi ilə isə Şəki şəhərində fəaliyyət göstərən kiçik su elektrik stansiyasında (KSES) 580 kVt gücə malik enerji blokunun quraşdırılması başa çatdırılmış və stansiya şəbəkəyə qoşulmuşdur [2].

Belçika Krallığının “Soltech” şirkəti ilə Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyi arasında bağlanmış müqaviləyə əsasən 2015-ci ildə Babək rayonunda ümumi layihə gücü 20 MVt olan Günəş Elektrik Stansiyası tikilib istifadəyə verilmişdir. Layihə çərçivəsində stansiyada 78 684 ədəd müasir günəş panelləri və 11 yarımstansiya quraşdırılmışdır. Stansiya il ərzində 30 milyon kVt.s-dan artıq elektrik enerjisi istehsal etmək potensialına malikdir [4 s.86].

2011-ci ilin sentyabr ayında Qobustan Eksperimental Poliqonu və Tədris Mərkəzinin istifadəyə verilməsi isə Azərbaycanda günəş, külək və bioqaz enerjisi istehsalı sahəsində reallaşdırılan ilk iri layihə olmuşdur. Poliqonun yaradılmasında məqsəd Azərbaycanda alternativ və bərpa olunan enerjinin inkişafı üçün istiqamət və təcrübə formalaşdırmaq, eləcə də bu sahənin inkişafına təkan verməkdir. Dünyada ilk hibrid stansiya sayılan bu obyektin ümumi ərazisi 38 ha təşkil edir. Burada 2,7 MVt gücündə külək enerjisi stansiyası (hər birinin gücü 0,9 MVt təşkil edən üç külək turbini), 1,8 MVt gücündə günəş enerjisi stansiyası və 0,6 MVt gücündə bioqaz enerjisi stansiyası fəaliyyət göstərir [14, 15].

Mərkəzdə tənzimləyici qurğu, su anbarı, sınaq meydanı, emalatxana fəaliyyət göstərir. Poliqonda və mərkəzdə texnoloji proses dispetçer məntəqəsindən idarə olunur. Stansiya istehsal olunan enerji hesabına ilkin mərhələdə Qobustan şəhərinin, sonrakı mərhələdə isə Qobustan rayonunun enerjiyə olan tələbatının ödənilməsi nəzərdə tutulur. Bunun üçün gələcəkdə Qobustan Poliqonu da daxil olmaqla rayonda tikiləcək stansiyaların gücünün 80 MVt-a çatdırılması planlaşdırılır. 2013-cü ilin may ayından ümumi şəbəkəyə qoşulan Qobustan Hibrid Stansiyası tərəfindən istehsal olunaraq şəbəkəyə ötürülmüş enerjinin həcmi 1 milyon kVt.saat təşkil etmişdir. Qobustan Eksperimental Poliqonunda bu sahədə tarif siyasətinin formalaşdırılması, alternativ və bərpa olunan enerji mənbələri hesabına istehsal olunan enerjinin birbaşa istehlakçılara çatdırılmasının tətbiqi, enerji mübadiləsi sahəsində idarəetmə prinsiplərinin müəyyənləşdirilməsi, yeni texnologiyalardan alternativ və bərpa olunan enerji mənbələri üzrə optimal istifadəsinin öyrənilməsi və bu kimi digər tədbirlərin həyata keçirilməsi planlaşdırılır. Poliqonda həmçinin ölkə ərazisində 21 Ölçü Müşahidə Stansiyalarının (ÖMS) quraşdırılması istiqamətində kompleks tədbirlər həyata keçirilir. 15 ÖMS artıq quraşdırılmışdır. Kürdəmir, Ucar. Samux, Ağstafa, İmişli və Masallı rayonlarındakı ÖMS-lər 2012-ci ildə quraşdırılmışdır. Bu ÖMS-lərdən əldə edilən məlumatlar gələcəkdə külək və günəş enerjisindən səmərəli istifadə etməyə imkan yaradır [5].

Həmçinin Pirallahı-Çilov adaları arasında (ofşor) “Wind Island-1” Dəniz Külək Parkının salınması ilə əlaqədar Dövlət Agentliyinin mütəxəssisləri tərəfindən hazırlanmış ilkin texniki-iqtisadi əsaslandırmalar (TİƏ) aidiyyəti dövlət qurumları ilə müzakirə olunmuş və onların rəyləri toplanaraq müvafiq dəqiqləşdirmələr aparılmışdır. Layihə üzrə seçilmiş ərazinin marşrutu təyin olunmuş, stansiyanın enerji sistemə qoşulma variantları işlənmişdir. Hazırda potensialın və

layihələndirmənin dəqiq qiymətləndirilməsi üçün Çilov adasında ölçü müşahidə-nəzarət stansiyalarının (ÖMNS) qurulması istiqamətində işlər aparılır. Qaradağ rayonunun Sahil qəsəbəsində isə 1,2 və 2,8 MVt-lıq, Səngəçal qəsəbəsində isə 9 MVt-lıq günəş elektrik stansiyalarının tikinti-quraşdırma işləri davam etdirilir [3].

Ölkəmizdə bu sahənin inkişafı və enerji istehsalında maya dəyərinin daha aşağı olması məqsədilə yerli, müasir texnoloji avadanlıqların istehsalı prosesinə də xüsusi diqqət yetirilir. Belə ki, bu məqsədlə 2012-ci ildə Sumqayıt şəhərində inşa olunmuş "Azgüntex" MMC-nin Günəş Panelləri Zavodu istifadəyə verilmişdir. Müəssisədə müasir günəş panelləri istehsal edilməkdədir [16]. Belə ki, 2015-ci ildə zavodda 11 min ədəd günəş paneli istehsal olunmuşdur. Avropa ölkələrinin aparıcı şirkətlərinin ən müasir texnologiyaları əsasında yaradılmış zavod 30 MVt gücündə günəş panelləri istehsal etmək potensialına malikdir. Bununla yanaşı, gücü 10 kVt-a qədər olan kiçik tipli hibrid sistemlərin işlənməsi və onların respublikanın ayrı-ayrı bölgələrində nümayiş və satış məntəqələrinin yaradılması istiqamətində də işlərə başlanılmışdır [4 s.87].

Nəticə

Beləliklə, ölkəmizin yerləşdiyi əlverişli coğrafi mövqe və iqlim şəraiti dünyanın inkişaf etmiş ölkələrində olduğu kimi, respublikamızda da ekoloji cəhətdən təmiz və bərpa olunan alternativ enerji mənbələrindən geniş istifadə edilməsinə imkanlar yaradır. Mövcud ənənəvi enerji mənbələrinin məhdudluğunu və eyni zamanda ətraf mühitə qarşı zərərli təsirlərini nəzərə alsaq, alternativ və bərpa olunan enerji mənbələrindən istifadə edilməsi respublikamızda istilik elektrik stansiyalarında yandırılan böyük miqdarda yanacağa qənaət edilməsinə və beləliklə ətraf mühitə atılan zərərli tullantıların miqdarının əhəmiyyətli dərəcədə azalmasına imkan verəcəkdir. Eyni zamanda mövcud ənənəvi enerji mənbələrindən qənaətli və səmərəli istifadə ilə də enerji sərfiyatının aşağı salınmasına nail olmaq mümkündür.

Həmçinin alternativ və bərpa olunan enerji sahəsində qabaqcıl təcrübəyə və yüksək nailiyyətlərə malik olan ölkələrlə əməkdaşlığı daha da genişləndirmək və onların təcrübələrindən maksimal dərəcədə yararlanmaq gərəkdir. Məhz bu sahədə beynəlxalq əməkdaşlıq əlaqələrinin inkişafı və eyni zamanda bu sahəyə müasir, yüksək texnologiyaların və genişmiqyaslı, uğurlu innovativ layihələrin tətbiqi bizə bu kimi təbii ehtiyatlardan tam və səmərəli şəkildə istifadə etməyə imkankanlar yaracaqdır. Beləliklə biz enerjiyə olan tələbatımızı daha təmiz və təbiətə daha az mənfi təsiri olan təhlükəsiz yollarla ödəyə bilərik.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı (24 oktyabr 2004)

2. Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji və ondan səmərəli istifadə olunması sahəsində görülmüş işlər barədə Dövlət Agentliyinin hesabatı - 2014
http://www.area.gov.az/public/uploads/Hesabat/Hesabat-2014.pdf

3. Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji və ondan səmərəli istifadə olunması sahəsində görülmüş işlər barədə Dövlət Agentliyinin hesabatı - 2015
http://www.area.gov.az/public/uploads/Hesabat/Hesabat-2015.pdf

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci ildə fəaliyyəti haqqında hesabatı, Bakı 2016

5. Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 21 oktyabr tarixli 462 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı"nın 01.01.2014-cü il tarixə icrası barədə məlumat.

6. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı (2014-2018-ci illər). Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezidentin kitabxanası. Bakı 2014

7. Azərbaycan Respublikası Sənaye və Energetika Nazirliyinin Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı / № 123 / Bakı şəhəri, 16 iyul 2009-cu il.
http://www.e-qanun.az/framework/18085

8. Bayramzadə.Y. Azərbaycanda yanacaq-enerji kompleksinin müasir vəziyyəti və inkişaf meyilləri. Azərbaycan Vergi Jurnalı № 01 Bakı 2014

9. Energetikanın Problemləri jurnalı, AMEA, 2004, № 1, Məqalə Azərbaycan külək enerjisindən istifadənin inkişaf perspektivləri, Bakı, 2004
10. Əmirov.M. Azərbaycan Respublikasında alternativ enerji mənbələrindən istifadənin vergi tənzimlənməsi məsələləri. Azərbaycanın Vergi Jurnalı səh 145-158 / 6(120) Bakı 2014
11. Proqramlar, qanunvericilik və infrasturukturun inkişafı (2008-2012-ci illər). Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi. Bakı 2013
12. United Nations Framework Convention on Climate Change. Brazil-Rio de Janeiro - 1992. Birləşmiş Millətlər Təşkilatının (BMT) "İqlim dəyişmələri haqqında" Çərçivə Konvensiyası. http://unfccc.int/essential_background/convention/items/6036.php https://unfccc.int/resource/docs/convkp/conveng.pdf
13. Kyoto Protocol to the United Nations Framework Convention on Climate Change. Japan-Kioto - 1997. Birləşmiş Millətlər Təşkilatının (BMT) "İqlim dəyişmələri haqqında" Çərçivə Konvensiyasına dair "Kioto Protokolu". http://unfccc.int/kyoto_protocol/items/2830.php http://unfccc.int/resource/docs/convkp/kpeng.pdf
14. Xalq qəzeti.- 2013.- 24 oktyabr.- S. 4. http://www.xalqqazeti.com/az/news/social/39001
15. www.area.gov.az - Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin rəsmi internet saytı
16. www.azguntex.az - Azgüntex Günəş Modulları zavodunun rəsmi internet saytı
17. www.stat.gov.az - Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin rəsmi internet saytı (http://www.stat.gov.az/source/balance_fuel/)

**РЕЗЮМЕ**

**Джошгун Мамедов**

**Альтернативные и возобновляемые источники энергии и их использование в Азербайджане**

В данной статье были изучены нынешний потенциал и перспективы в области альтернативных и возобновляемых источников энергии. Для устранения зависимости от традиционных источников энергии и в то же время, для обеспечения непрерывности спроса на энергию, принимая во внимание благоприятные природно-климатические условия Республики Азербайджан, предлагается развитие производства альтернативных и возобновляемых источников энергии, которые являются экологически более чистыми и безопасными.

**ABSTRACT**

**Joshgun Mammadov**

**Alternative and renewable energy sources and their use in Azerbaijan**

In the article existing potential and future prospects on the field of alternative and renewable energy are widely studied. Taking the favorable natural climatic conditions of Azerbaijan Republic into consideration, the development of ecologically clean and safe alternative and renewable energy production has been proposed in order to eliminate dependence on available traditional energy sources and to ensure continuity of energy demand.

NDU-nun Elmi Şurasının 19 oktyabr 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 02).
Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

# MÜNDƏRİCAT

## TARİX

1. **Zəhmət Şahverdiyev**, **Zamin Əliyev**. "Şərqi Ermənistan" mifi və ermənilərin uydurma ərazi iddiaları........ 3
2. **Şamxal Məmmədov**. XX əsrin ortalarında sovetlər birliyinin Cənubi Qafqaz siyasətində erməni amili........ 7
3. **Elman Cəfərli.** İspaniya krallığı: "Muxtariyyətlər dövləti"........ 14
4. **Şükür Məmmədov.** Feodalizmin son mərhələsində Səfəvilər imperiyasında müxalifətçi siyasi-hüquqi təlimlər........ 23
5. **İsmayıl Hacıyev.** Naxçıvan mərkəzləşdirilmiş Azərbaycan Səfəvi dövləti dövründə (1501-1736-cı illər)........ 28
6. **Fəxrəddin Cəfərov.** Milli arxivin inkişafında Heydər Əliyevin rolu........ 34
7. **Zenfira Seyidova.** C.Məmmədquluzadə adına Naxçıvan MR Ədəbiyyat muzeyi və görkəmli şair və yazıçılarımızın mənzil və xatirə muzeyləri........ 39
8. **Zeynəb Quliyeva.** Naxçıvanın son eneolit abidələri........ 43
9. **Sevinc Babayeva.** Naxçıvan mədəniyyəti orta əsr səyyahlarının qeydlərində........ 50
10. **Yaşar Rəhimov, Asəf Orucov.** XIX-XX əsr Naxçıvanın əkinçilik təsərrüfatı haqqında bəzi qeydlər........ 54
11. **Emin Məmmədov.** Şərur arxeoloji abidələrinin tədqiqi eneolit dövrü mədəniyyətinin öyrənilməsinə mühüm töhvədir. ........ 59
12. **Zülfiyə İsmayilova.** Naxçıvan Dövlət Universitetinin inkişaf tarixi - 1967-2017........64
13. **İlhami Əliyev.** XVIII əsrdə Rusiyanın Cənubi Qafqaz siyasətində Naxçıvanın yeri........ 69
14. **Aytən Mehdiyeva.** Azərbaycan və Anadolunu birləşdirən qalalar (Evliya Çələbinin məlumatları əsasında)........ 75
15. **Erdal Sezgi.** Rus hakimiyyətinə qədər İrəvan (1828)........82

## SOSİAL ELMLƏR VƏ HÜQUQ

16. **Seymur Talıbov.** Azərbaycan Respublikasının regional energetika əməkdaşlığında Naxçıvan Muxtar Respublikasının yeri........89
17. **Qərib Allahverdiyev.** Azadlığın fəlsəfi tərifi haqqında........ 95
18. **Yusif Hüseynov.** Azərbaycanın ilkin maarifçi mütəfəkkirlərinin milli maarifçi fəlsəfi şüurun təşəkkülündə rolu........ 100
19. **Məhəmməd Hacıyev, Bəhruz Gülmalıyev.** Fəlsəfi dünyagörüşün formalaşmasında dini-islami inancların yeri........106
20. **Bağır Babayev.** XX əsr Azərbaycan demokratik fikri millətimizin şanlı tarixi keçmişi və xoşbəxt gələcəyi haqqında........111
21. **Novruzəli Rəhimov.** Qloballaşmanın mahiyyəti və onun təhsil prosesinə təsiri........ 119
22. **Flora Kərimova.** Seyid Əzim Şirvaninin ictimai-siyasi baxışlarına "Beytüs-səfa" məclisinin təsiri........ 125
23. **Hafiz Hüseynov.** Hüquqi dövlətdə siyasi sosiallaşmanın mərhələləri və vasitələri........130
24. **Sadiq Hüseynov.** Multikulturalizm Azərbaycan cəmiyyətində ictimai yaşam tərzi kimi........ 134
25. **Səbinə Qaraşova.** ABŞ-ın xarici siyasət strategiyasının konseptual əsasları........142
26. **Abbas Əhmədov.** Milli-mənəvi dəyərlərin qorunub saxlanmasında ziyalı fəaliyyətinin rolu........149
27. **Kamran Vəlizadə.** Müasir dövr və şəxsiyyətin siyasi fəallığı........ 153
28. **Xaqani Məmmədov.** Türkiyədə əsas milli azlıq qrupları və onların hüquqi vəziyyəti........ 158
29. **Xaləddin Sofiyev.** Post-strukturalizmin kulturoloji paradiqmalarından........ 163
30. **Samirə Məmmədova** . Azərbaycan - İsrail münasibətləri və Abş (1991-2008-ci illər)........167

31. **Наргиз Юсубова**. Косовский прецедент: вызовы и угрозы глобальной и региональной безопасности....174
32. **Piri Axundov.** Azərbaycanda XIX - XX əsrlərdə dini islahatçılıq meylləri.... 178
33. **Elfanə Qasımova.** Dizayn Azərbaycan cəmiyyətinin sosio-mədəni dəyəri kimi....182
34. **Murat Özen.** Cənubi Qafqazda münaqişələr və regional təhlükəsizlik problemi....189
35. **Драйф Аллаh Джамиля Салех Сайф.** Конфликт в Йемене и международное право....195
36. **Hakan Güngörmez.** Sosial həyatda duz və insan.... 203

# İQTİSADİYYAT

37. **Ağarza Rüstəmov, Axilles Talıbov.** Azərbaycan Respublikasında sosial siyasətin təkmilləşdirilməsi istiqamətləri.... 207
38. **Dilsuz Qasımov.** Kənd təsərrüfatının maddi-texniki təminat sistemi, onun təşkili və idarə edilməsi.... 211
39. **Mehriban İmanova.** Naxçıvan Muxtar Respublikası sənayesinin əsas inkişaf xüsusiyyətləri.... 214
40. **Gülarə Rəhimova.** İnvestisiya layihələrinin ekonometrik analizi.... 218
41. **Ceyhun Mahmudov.** Kiçik və orta sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsinin beynəlxalq təcrübəsi....225
42. **Teymur Abbasov**. Naxçıvan Muxtar Respublikasında aqrar sahənin rəqabət davamlı inkişafının əsas məsələləri.... 234
43. **Mehdi Bagırov**. Müasir inkişaf mərhələsində aqrar sektorda marketinq informasiyasindan istifadənin xüsusiyyətləri....239
44. **Kəmalə Təhməzbəyova.** İnfrastruktur aqrar sahələrin təkanverici qüvvəsidir.... 244
45. **Rəşadət Yaqublu.** Davamlı inkişaf və yoxsulluq problemi: sosial-fəlsəfi yanaşma....248
46. **Müslüm Cabbarzadə.** Qloballaşma və iqtisadi inteqrasiya şəraitində regional iqtisadi təhlükəsizlik məsələləri.... 254
47. **İlham Hüseynov.** İnvestisiya fəaliyyəti növləri və onların icrasını şərtləndirən amillər….... 260
48. **Araz Əsgərov.** Sənaye parkları–respublikamızda innovativ fəaliyyətin təşəkkülünün əsas şərtlərindən biri kimi.... 265
49. **Zaur Əliyev.** İqtisadi inkişaf və məşğulluq arasındakı əlaqə: Naxçıvan Muxtar Respublikası timsalında…….... 274
50. **Nazim Abıyev.** Aqrar sahədə subyektlərin fəaliyyətinin mahiyyəti və spesifik cəhətləri....281
51. **Həvva Adıgözəlova.** İnnovasiya cəmiyyətində intellektual kapitalın rolu…….... 289
52. **Elchin Zamanov, Emil Zamanlı.** Turkey's rural development policy, programs and projects… 292
53. **Nuriyyə İbrahimova.** Naxçıvan Muxtar Respublikasında aqrar sahənin uğurlu inkişafi....298
54. **Bəhriyyə Abbasova.** İnnovasiyalı sahibkarlıq fəaliyyətinin inkişaf perspektivləri.... 303
55. **Həsən Abbasov.** Aqrar tənzimləmə fəaliyyətinin təsərrüfat subyektlərinin tələbləri ilə uyğunlaşdırılması və qiymətləndirilməsi imkanları.... 307
56. **Eltun İbrahimov.** Muxtar respublikada kreditləşmənin təşkili və kreditin formaları.... 313
57. **Cavadxan Qasımov.** Heydər Əliyev və Naxçıvan Muxtar Respublikasının davamlı inkişafı.... 316
58. **Hüseyn Bağırsoylu.** Sərbəst ticarət zonalarının yaradılmasında regional imkanların mövcudluğu və onların qiymətləndirilməsi yolları.... 320
59. **Həsən Məmmədov**. Davamlı iqtisadi inkişafa təsir obyekti kimi infrastrukturların nəzəri aspektlərinə yanaşma.... 324
60. **Coşqun Məmmədov.** Azərbaycanda alternativ və bərpa olunan enerji mənbələri və onlardan istifadə .... 329